Ramiz Mehdiyev

DEMOKRATİYA YOLUNDA:
irs haqqında düşünərkən

"Şərq-Qərb"
Bakı
2008

ISBN 978-9952-34-169-0

321.8-dc22
1. Demokratiya. 2. Demokratiya – Tarix.

R.Mehdiyev. DEMOKRATİYA YOLUNDA:
irs haqqında düşünərkən
Bakı, "Şərq-Qərb", 2008, 792 səh.

© Ramiz Mehdiyev, 2008
© "Şərq-Qərb", 2008

Redaktorlar: Aslan Aslanov
Vaqif Musayev
Tərcüməçilər: Elman Cəfərli
Oqtayedr Məmmədov
Yaşar Quluzadə
Korrektorlar: Bətul Eyvazlı
Gülzaman Qurbanova

Çapa imzalanmışdır: 05.04.2008.
Formatı 60x90 1/16..
Fiziki çap vərəqi 49,5.
Ofset çapı.
Tiraj 500.
Sifariş 24.

"Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Demokratiya yolunda: irs haqqında düşünərkən

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Demokratiya yolunda: irs haqqında düşünərkən" kitabında demokratiyanın mahiyyətini və bəşəriyyətin xalq hakimiyyəti qurmağa daim can atmasını təhlil edir, qlobal transformasiyalarla əlaqədar Azərbaycanın inkişafının ictimai-siyasi perspektivlərinin futuroloji icmalını verir.

Demokratikləşmənin kökləri, "demokratik dalğalar", "məxməri" tranzitlər, postsovet dövlətlərinin inkişaf perspektivləri, habelə müxtəlif kliyentalist ssenariləri həyata keçirməklə təkamül yolu ilə inkişafın trayektoriyasını dəyişdirməyə göstərilən cəhdlər müəllifin əsas diqqət yetirdiyi mövzulardır.

R.Mehdiyevin kitabında müasir dünya nizamı araşdırılır, monomərkəzçiliyin mənfi nəticələri üzə çıxarılır, habelə Yeni Dünya Nizamında (Le Nouvel Ordre Mondial) Azərbaycanın yeri və rolu təhlil edilir.

Kitab geniş oxucu dairəsi və tədqiqatçılar üçün maraq doğurur.

Müəllifdən

Bərabər hüquqlar hamıya, xüsusi imtiyazlar heç kimə.

Tomas Cefferson
ABŞ-ın üçüncü prezidenti (1801-1809)

Bu kitabı yazmaq ideyası məndə çoxdan yaranmışdı. Lakin uzun müddət bir qərara gələ bilmirdim. Əvvəla, dövlət qulluğunda işin həddən çox olması bu cür son dərəcə məsuliyyətli və eyni zamanda, yaradıcı iş üçün az vaxt qoyur. İkincisi, cəmi bir neçə illik tarixi olan demokratik Azərbaycan quruculuğu praktikası ciddi ümumiləşdirmələrə başlamağa imkan vermirdi. Lakin 2003-cü ilin prezident seçkilərindən sonra Azərbaycanın həyatının bütün sahələrində əhəmiyyətli irəliləyişlər oldu, mütərəqqi meyillər daha da inkişaf etdi, demokratikləşmə prosesi isə daha intensiv xarakter aldı. Aydın oldu ki, ölkə demokratik transformasiya və sivilizasiyalı birliyə inteqrasiya yoluna möhkəm və həmişəlik qədəm qoymuşdur, Yeni Dünya Nizamı sistemində özünü inamlı hiss etmişdir, qloballaşan dünyanın çağırışlarına cavab verməkdən ötrü özünə yeni imkanlar açmışdır.

Əlbəttə, belə bir şəraitdə ölkənin bütün vətəndaşları kimi, məni də demokratiya, ictimai və siyasi quruluşun daha mü-

kəmmöl səviyyəsi, texnoloji və iqtisadi inkişaf uğrunda, informasiya cəmiyyəti yaradılması uğrunda dünyada gedən yarışda Azərbaycanın hansı yeri tutacağı maraqlandırır. Biz bənzərsiz özünəməxsusluğu ilə fərqlənən dövrdə yaşayırıq. Beynəlxalq iqtisadi və siyasi münasibətlərin yeni sistemi olan qloballaşma, dünya informasiya strukturunun ümdə elementi internet, dünya birliyinə öz oyun qaydalarını qəbul etdirən transmilli maliyyə korporasiyaları və sair – zəmanəmizin rəmzləri bax, bunlardır. Bütün bunlar bizdən hazırda gözəl nəticələr verən islahatların həyata keçirilməsi üçün gələcəkdə də var qüvvə ilə səylər göstərməyi tələb edir. Azərbaycanda baş verən dəyişikliklərin dərin mənası məhz respublikanı dünyanın sivilizasiyalı inkişaf yoluna çıxaran islahatların strategiyasındadır. Həmin dəyişikliklər konstruktiv müzakirə və mübahisələr aparılmasını tələb edir ki, bunun da nəticəsində ölkənin daxili və xarici inkişafı problemlərini qlobal ümumbəşəri problemlərlə vəhdət şəklində dərk edə bilərdik. Mənim bu kitabım respublikada cərəyan edən ictimai-siyasi prosesin əsas cəhətlərini təsvir etmək üçün göstərilən cəhddir. Kitabda araşdırılan məsələlərin seçimi də, nəzərdən keçirilən mövzunun xarakterindən asılı olaraq şərhin formasının dəyişməsi də bu niyyətlə bağlıdır.

Demokratikləşmə ilə yanaşı, mən bu məsələlər arasında enerjili, iradəli lider başda olmaqla güclü Azərbaycan dövlətinin qurulması məsələsini də görürəm. Belə dövlətin qurulması ümumən dünya birliyi qarşısında duran ən mühüm məsələlərdən biridir, çünki dövlətlərin zəifliyi və tənəzzülü çox sosial-iqtisadi və siyasi problemlər doğura bilər. Məsələn, məşhur Amerika filosofu, sosioloq və futuroloqu Frensis Fukuyama bu barədə yazır: “Diqqətimizi dövlətin funksiyalarını məhdudlaşdırmağa və azaltmağa deyil, məhz güclü dövlət qurmağa

yönəltməliyik fikri kimlərəsə yanlış görünə bilər. "Böyük hökumətlər"in tənqid edilməsi və güclü fəaliyyəti dövlət sektorundan özəl bazarlara və ya vətəndaş cəmiyyətinə keçirmək cəhdi ötən otuz ildə digər meyillərlə yanaşı, dünya siyasətində üstünlük təşkil etmişdir. Lakin zəif, sərişləsiz və ya mövcud olmayan hökumətlər xüsusən inkişaf etməkdə olan dünyada ciddi problemlərin mənbəyidir"[1].

Keçən əsrin 70-ci illərindən ölkənin dövlət idarəçiliyi sistemində çalışan bir şəxs kimi, mən bu illər ərzində Azərbaycanın nə cür taleyüklü dəyişikliklərdən keçdiyini və müstəqillik şəraitində hansı zirvələri fəth etdiyini kifayət qədər dəqiq və aydın görürəm. Lakin bu kitabı yazmaqla mən heç də son həqiqəti deməyə iddia etmirəm, düşünürəm ki, bu təşəbbüs ölkənin elmi fikrini həmin mövzuya dair ciddi araşdırmalar aparmağa sövq edəcəkdir. Təəssüf ki, elmi elitamızın xeyli hissəsi keçən əsrin 80-ci illərinin axırları – 90-cı illərinin əvvəllərində düşdüyü süstlükdən hələ çıxmamışdır.

Demokratik inkişaf müasir dünya siyasi kontekstində ən çox müzakirə edilən problemlərdən biridir. Tez-tez eşidirik ki, bu və ya digər dövlət "hamılıqla qəbul edilmiş demokratik standartlar"a uyğun gəlmir, yaxud müəyyən məkanda bərqərar olmuş "demokratiyanın səviyyəsi"ndən kənara çıxır. Bununla yanaşı, formalaşmaqda olan yeni dünya nizamında bəzi dövlətlər həmin bu "hamılıqla qəbul edilmiş standartlar"ın bir növ "müəllifləri" rolunda çıxış edirlər. Hər halda, mənim fikrimcə, demokratiyanın nə olduğunu və onu bəşəriyyəti əsrlər boyu cəlb edən ictimai-siyasi quruluşun mötəbər təcrübəsinə məhz nəyin çevirdiyini xalqlar özləri müəyyənləşdirməlidir.

[1] Ф.Фукуяма. Сильное государство. Москва, 2006, с.6.

Bu kitabın yazılması barədə düşünülərkən, keçmiş sosialist düşərgəsi ölkələrində baş verən proseslər sərt tranzitlərə hazırlığı xeyli dərəcədə əks etdirirdi. Həmin ölkələrin bəzisi, məsələn, Yuqoslaviya, Gürcüstan, Ukrayna, Qırğızıstan mahiyyətcə öz demokratik inkişafının trayektoriyasını təkmilləşdirmək cəhdi olan "məxməri" transformasiyalar dalğasını yaşamalı oldu. Digər ölkələr sabit mərhələli keçidin təmin edilməsi üçün demokratik hüquq və azadlıqlar məkanını genişləndirən gizli transformasiya apardı. Başqaları isə avtarkiyanı üstün tutdu.

Bir çox əsrlər ərzində bəşəriyyət ədalətli idarəetmə modeli hazırlamağa çalışmışdır. Platon, Aristotel, Hobbs, Makiavelli, Monteskyö, Russo, de Tokvil və çox böyük sayda digər məşhur mütəfəkkirlər, filosof və alimlər vahid məkan və cəmiyyətin bütün üzvlərinin hüquq və azadlıqlarının təmin olunması çərçivəsində insanların münaqişəsiz, qarşılıqlı surətdə faydalı şəraitdə yanaşı yaşaması probleminə dəfələrlə müraciət etmişlər. XVIII əsrdə demokratiya uğrunda mübarizə aparanlar iddia edirdilər ki, monarxlar və onların nazirləri mənəvi baxımdan pozulmuşlar, ağılsız və qəbahətlidirlər. Bununla belə, insanın öz həyat tərzini və fəaliyyət formalarını müəyyən etməsində bərabərliyə nail olmaq cəhdləri sosial gerçəkliyi demokratik qavramağın əsasına çevrilmişdir. Hələ Benedikt Spinoza vurğulayırdı ki, cəmiyyətin siyasi təşkilinin ən yaxşı forması demokratiyadır, ümumi rifahı, zəkanın və insana təbiət tərəfindən bəxş olunmuş azadlığın hökmranlığını ən yüksək dərəcədə yalnız o təmin edə bilər. Bununla bərabər, materialist filosof deyirdi ki, idarəetmə forması hər necə olsa da, cəmiyyətdə ali hakimiyyət vətəndaşların yığıncağına məxsus olmalıdır, çünki yığıncağın iradəsini ehtiraslar deyil, ağıl-zəka müəyyən edir. Yalnız dövlət

işlərinin kollektiv müzakirəsi ümumi rifahın təmin edilməsinə yönəldilmiş qərarların qəbul olunmasına kömək edir.

Bəşəriyyət demokratiya epoxasına çox böyük ümidlərlə qədəm qoymuşdur. Lakin təəccüblü deyil ki, xülyalar tezliklə dağılmalı idi. Aydın oldu ki, demokratiyalar monarxiya və ya aristokratiyadan, hər halda, heç də az səhvlər buraxmırlar. Demokratiyanın hökumət rəhbərləri kimi irəli çəkdiyi şəxslərlə imperator və kralların öz mütləq hakimiyyətinin icrası naminə bu mövqeyə yüksəltdikləri şəxslər arasında aparıla biləcək müqayisə heç də həmişə demosun – xalqın nümayəndələrinin xeyrinə olmamışdır.

Bəşəriyyət inkişaf etdikcə və insanın həyat fəaliyyətini dəstəkləmək üçün yeni mənbələr, yeni məkanlar və enerji ehtiyatları axtarılması zərurəti artdıqca, demokratiyanın rolunu müəyyənləşdirməkdə geosiyasi və coğrafi-iqtisadi mənafelər üstünlük təşkil etməyə başlamışdır. Bərabər hüquqlu yanaşı yaşama ideyaları "yeni hegemonluğun" qurulması və "demokratik dövlətlər zolağı" deyilən məkanın genişləndirilməsi kimi şərh edilməyə başladı. Nəticədə demokratiya XXI əsrin əsas ideoloji silahına – nəinki mövcud rejimləri dəyişdirməyə, tranzitlər və transformasiyalar doğurmağa, həm də Yer kürəsinin istənilən nöqtəsinə hərbi müdaxiləni "legitimləşdirməyə" qadir olan silaha çevrilmişdir. Dünyanı, bir növ, iki düşərgəyə - kommunist və kapitalist düşərgələrinə bölən "soyuq müharibə" dövrünün müddəaları dünya məkanının "azad, qismən azad və qeyri-azad" kimi yeni bölgüsü prinsiplərinə transformasiya olmuşdur. Bununla əlaqədar fransız filosofu Jan Jak Russonun (1712-1778) belə bir fikrini xatırlamaq yerinə düşərdi: "Azadlıq idarəetmənin hansısa formasından ibarət deyildir: o, hər bir azad insanın ürəyindədir".

Demokratiya mücərrəd anlayışdır, yəni ona nəzərdə tutulan son məqsədə çatmaq üçün hansısa bir konkret çıxış nöqtəsi kimi baxmağa imkan vermir. Ona görə də demokratiya xalq hakimiyyəti ideyalarının yad, yaxud yeni olduğu məkanlarda birdən-birə həyata keçirilə bilməz. Hər bir digər nəzəriyyə kimi, o da əvvəlki stereotiplərin bütünlüklə yox edilməsini, habelə başqa davranış normaları və standartlarının formalaşması üçün vaxt olmasını tələb edir. Üstəlik, demokratik rejim qurulması prosesinin ambivalentliyi demokratik transformasiyanın mahiyyətinə yanaşmanın özündədir. Əgər 1974-cü ildə Portuqaliyada başlanmış "üçüncü demokratik dalğa" qlobal demokratik irəliləyişin nəticəsi idisə, yeni minilliyin əvvəlində "azadlıq və demokratiya zonasının genişlənməsi"ni çoxları *Pax Americana* şərtlərinin diktə etdiyi yeni dünya nizamı yaratmaq niyyəti kimi qavrayırlar. Eyni zamanda, əgər Sovet İttifaqının süqutu təbii iqtisadi və siyasi durğunluğun – zamanın tələblərinə adekvat cavab verməyə qadir olmamağın doğurduğu durğunluğun yekunu idisə, XXI əsrin əvvəlində "zərif" transformasiyaların baş verdiyi bəzi dövlətlərdə gedən proseslər çox vaxt klientalist qruplar vasitəsilə "yeni baxışlar"ın postsovet məkanlarına indoktrinasiyasının nəticəsi olmuşdur.

Təbii ki, demokratiya yalnız demokratik inkişaf təcrübəsinin olduğu yerdə uğurla həyata keçirilir, lakin bu mühakimə tranzit cəmiyyətlərdə demokratiyanın müvəffəqiyyətinin mümkünlüyünü əsla şübhə altına almır. Lakin demokratik keçid daha ehtiyatlı, ölçülüb-biçilmiş və ətraflı düşünülmüş yanaşma tələb edir. İdeya və baxışlar kommunitarizmin ənənəvi strukturuna, yəni ictimai baxışlar sisteminə uyğun olmasa, onların ixracı səmərəli ola bilməz. İdxal edilən modellər transformasiyalı cəmiyyətlərdə şəraitə uyğunlaşmağa

heç də həmişə hazır olmur, çünki gələcək transformasiyanın müvəffəqiyyətini xeyli dərəcədə bəri başdan cəmiyyətin siyasi, iqtisadi və sosiomədəni hazırlığı müəyyənləşdirir. Ona görə də, hansı məkanda qurulduğundan asılı olmayaraq, demokratiya təkamül yolu ilə və suveren olmalıdır ki, bu da vətəndaş cəmiyyətinin kompleks şəkildə və sabit inkişafını, səmərəli siyasi strukturun təsis olunmasını, rəqabət qabiliyyətli iqtisadiyyat formalaşdırılmasını və regional proseslərə təsirin fəal mexanizmlərinin tətbiqini təmin etməyə imkan verir. XXI əsrdə Azərbaycanın inkişafının milli strategiyasının əsas istiqaməti məhz bundan ibarətdir.

"Demokratik dövlətlər zolağı"nın genişləndirilməsi problemi "sivilizasiyaların münaqişəsi" baxımından da aktualdır, çünki iki dünya, – Qərb və qeyri-qərb dünyası bəşəriyyətin inkişafının trayektoriyası haqqında öz təsəvvürlərini təklif edir: bəzilərinin fikrincə, dünyanın sabitliyinin təməli dəyərlərin müəyyən iyerarxiyasına əsaslanan homogen qaydadır; digərləri isə öz modellərinə müvafiq surətdə mövcud olmağı üstün tutur və bu zaman Qərbin daxili işlərə müdaxiləsini rədd edirlər. Demokratik xristian dünyasının daha az demokratik, guya ki, avtoritar, qeyri-qərb dünyasına qarşı qoyulması problemi dərinləşdirir. Şübhəsiz ki, bütün bu demaqoq təriflər demokratiya anlayışını xalq hakimiyyəti nəzəriyyəsi müstəvisindən yeni dünya nizamı qurmağa dair geosiyasi nəzəriyyə müstəvisinə keçirmişdir.

Görünür ki, transformasiyalı cəmiyyətlərdə demokratiya ona mərhələlərlə davranışın yad stereotipləri və normalarının aşılanmasını tələb edir. Həm də hər bir belə mərhələ ictimai şüurun yeni psixoloji və sosial determinantlar məcrasına keçməsini şərtləndirir. Başqa sözlə desək, vaxtilə ingilis yazıçısı Hilbert Kiyt Çestertonun (1874-1936) yazdığı kimi,

"demokratiyaya gəlib çıxmaq üçün inqilab gərək deyildir. İnqilabın baş verə bilməsi üçün demokratiya gərəkdir".

Bu kitab üzərində iş milli müstəqilliyimizin 15-ci ildönümündə başa çatmışdır. Təbii ki, 15 il hər bir dövlətin tarixində olduqca az müddətdir, amma sabit və səmərəli dövlətçilik qurulmasından, mükəmməl siyasi strukturun və demokratik sistemin formalaşmasından, milli iqtisadiyyatın intensiv inkişafından, ölkə əhalisinin rifahının artmasından ötrü Azərbaycan üçün tamamilə kifayət etmişdir. Azərbaycanın inkişaf etmiş dövlətlərin səviyyəsinə çatması üçün hələ xeyli yol keçmək və çox işlər görmək lazımdır, lakin buna baxmayaraq, indinin özündə cəsarətlə deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin seçdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strategiya Azərbaycan xalqının tələblərinə və maraqlarına cavab verir.

Biz bu kitabda Azərbaycan oxucusundan ötrü, habelə demokratiyanın tarixi və "məxməri" transformasiyaların təcrübəsi ilə tanış olmaq istəyənlər üçün maraq doğuracaq məsələlərin geniş dairəsini ümumi şəkildə təsvir etməyə çalışmışıq. Bununla yanaşı, biz 2005-ci ilin noyabrında, parlament seçkiləri ərəfəsində Azərbaycanda "narıncı" inqilab ssenarisinin həyata keçirilməsi imkanlarını və onun iflasa uğramasını da təhlil etməyə çalışmışıq, çünki dövlət idarəçiliyi strukturunda bilavasitə işləyən insanın mövqeyi təkcə müasirləri üçün deyil, gələcək nəsillər üçün də maraq doğura bilər. Biz mümkün qədər obyektiv olmağa çalışmışıq, çünki tarix ədalətlidir və yalançı iddiaları qəbul etmir. Professor V.İ.Ukolova A.C.Toynbinin "Sivilizasiya tarixin məhkəməsi qarşısında" kitabına ön sözdə yazır: "İlk baxışdan tarixin məhkəməsi... hökm verilməsi ilə nəticələnən, yaxud, hər halda, qətiliyi vahimə doğuran son qiymət verilməsinə gətirib çıxaran sərt, hətta amansız

anlayışdır. Lakin xatırlamaq faydalı olar ki, "tarix", "həqiqət" və "iddiaçı" sözləri ümumi kökdən gəlir və ilkin mərhələdə tarix təkcə hekayət deyil, həm də axtarışdır və deməli, yekun vurulmasını və bu yekunların ictimaiyyətə təqdim edilməsini nəzərdə tutur". Mənim təşəbbüsümün nə dərəcədə baş tutduğu barədə, qoy bu kitabın oxucuları qərar versinlər.

Fikrimi tamamlayaraq, Karl Popperin bu sözlərini misal gətirmək istəyirəm: "Demokratik təsisatlar öz-özünə yaxşılaşa bilməz, onların yaxşılaşması bizdən asılıdır. Demokratik təsisatların yaxşılaşması problemi təsisatlar qarşısında deyil, həmişə şəxsiyyətlər qarşısında duran problemdir". Deməli, Azərbaycanın demokratik gələcəyi müstəqilliyin, sabitliyin qorunub saxlanılması və klientalist qrupların siyasi hegemonluq qurmağa buraxılmaması üçün böyük səylər göstərməli olan müasirlərimizin və gələcək nəsillərin öncül vəzifəsidir.

Bu kitab üzərində işləyərkən mənə kömək göstərənləri xatırlatmaq ədalətli olardı. İlk növbədə, təvazökar və əməksevər gənc insan olan köməkçim Elnur Aslanova təşəkkür etmək istəyirəm. Onun internet səhifələrində apardığı axtarışlar və lazımi ədəbiyyat seçilməsinə köməyi olmasaydı, mən əlyazmanın çapa hazırlanması vaxtını xeyli uzatmalı olardım.

Nəhayət, bütün bu müddət ərzində az diqqət yetirdiyim ailəmin üzvlərinə qeyri-adi dərəcədə dəyanətli və çox səbirli olduqlarına görə minnətdaram. Uzun gecələr yazı masası arxasında işləyərkən vicdan əzabı çəkirdim ki, ailə tədbirlərində və istirahət zamanı onlara qoşula bilmirəm. Onların alicənablığı olmasaydı, bu kitab, çətin ki, ərsəyə gələrdi.

Akademik Ramiz Mehdiyev

I FƏSİL

ƏZABLI YOLLARLA ULDUZLARA DOĞRU

Gələcək bu gün yaranır və müasir qərarlar işləyib hazırlamaq üçün onun istiqamətlərini bilmək zəruridir. Gələcəyə doğru yol dünyanın hissi və rasional qavranılmasının hüdudlarında – qurub-yaratmaq və ya uçurub-dağıtmaq ehtirasının alovlana biləcəyi hüdudlarda başlanır. Fikrin hərəkəti məchulluğun gizləndiyi bu qızmar üfüqlərə doğru yönəlmişdir. Bu hərəkət bilik xəzinəsini doldura biləcəkmi – bu barədə həmin yola qədəm qoymağa cəsarət edənlər qərar verməlidirlər. Axı, xəyalların fırtınalı okeanını həqiqət səltənəti kimi qəbul etmək çox asandır. Nə kimi texnologiyalar həyata keçirilsə də, sosial tərəqqinin baş kommunikasiyası real coğrafi məkandan deyil, insanın daxili dünyasından keçir. Özünü dəyişmədən, Dünyanı dəyişdirmək olmaz.

Vladimir Derqaçov

Nəzərə almaq vacibdir ki, ümumən XXI əsr nəinki dünya xəritəsində nüfuz dairələrinin yeni geosiyasi bölgüsü ilə əlamətdar olmuş, həm də aparıcı dövlətlərin dünyada baş verən transformasiyalara və demokratik proseslərə münasibətini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Əgər ABŞ-da

neokonservativ hakimiyyətin əvvəlki illəri (oğul Corc Buşun prezidentliyinin birinci müddəti) "Şərqə yeni geostrateji yürüşlər" əlaməti altında keçmişdisə, oğul Corc Buşun prezidentliyinin ikinci müddəti Şərqi Avropada, Orta Asiyada və dünyanın digər regionlarında demokratiyanın daha fəal surətdə irəlilədilməsi dövrü olmuşdur. H.Kissincerin sözləri ilə desək, Amerika Birləşmiş Ştatları – "azadlıq və demokratiyanın mayakı" birdən-birə bütün postsovet məkanını sarsıdan və mövcud rejimlərin "təminatlı təhlükəsizliyi" barədə təsəvvürləri dəyişdirən yeni demokratik dəyişikliklərin başında dayanmışdır.

Yeni "demokratik dalğa" Serbiyada, Gürcüstanda, Ukraynada və müəyyən dərəcədə Moldova və Qırğızıstanda inqilabi dəyişikliklərin əsasını təşkil etmişdir. O, sabitləşməmiş sistemləri daha da laxlatdı və dünya nizamının yeni, dünyanın bütün subyektlərində demokratik idarəçilik qurulmasına yönəldilmiş konturlarını cızdı. Bundan başqa, "demokratik dalğa" nüfuzlu politoloq və iqtisadçıların, jurnalist və analitiklərin apardıqları diskussiyaların əsas mövzusuna çevrildi.

"Demokratiyaların bir-biri ilə savaşmadığı" barədə tezis ta Əfqanıstan və İraqadək, bir sıra postsovet dövlətlərinədək təhlükəsizlik zolağı yaradılması və "demokratiya zonası"nın genişləndirilməsi üçün real ilkin zəmin olmuşdur. Yeni transformasiyalar üfüqündə ABŞ-ın qeyri-demokratik ölkələr sırasına aid etdiyi dövlətlər görünür.

Bununla bərabər, demokratiya zonası genişləndikcə və yeni qərbləşmə daha çox məkanları əhatə etdikcə, qloballaşdırma layihələrinə üstünlük verilməsi yeni paradiqmalar ortaya qoyur. Onlar isə, öz növbəsində dünyanın ən yeni tarixində irəliləmə vektorlarını hərbi-siyasi və iqtisadi təsirdən so-

siomədəni dispozisiyaya doğru dəyişdirir. Tamamilə aydındır ki, yeni dünya nizamında Şərq yarımkürəsi ölkələrində yeni prioritetlərin təşəkkülündə müəyyənedici rolu təkcə hərbi güc, daxili konsensus və xarici siyasi amillər oynamır. Müasir siyasət getdikcə daha çox kütləvi şüura təsirin sosiomədəni cəhətlərinə – postindustrializm və informasiya texnologiyaları dünyasında siyasi qərarlar qəbul edilməsinin əsas elementinə istiqamət götürür. Yeni epoxa təkcə iqtisadiyyata və cəmiyyətin sosial inkişafına deyil, həm də xeyli dərəcədə siyasi qavrayışa əhəmiyyətli surətdə təsir göstərmişdir. Əgər Maks Veber industrial cəmiyyətdəki rasional bürokratiyanı bu cəmiyyətin həyatının məğzi hesab edirdisə, biz bilirik ki, indi informasiya cəmiyyətində nə hökumətlər, nə də korporasiyalar üzərlərində hakimiyyətə malik olduqları insanları təşkilatlandırmaq üçün təkcə formal, bürokratik qaydalara bel bağlamır.

30 il bundan əvvəl Portuqaliyada Salazar diktaturasının devrilməsi ilə başlanan gənc zabitlər inqilabı "üçüncü demokratik dalğa"nın başlandığını xəbər verdi və bu dalğa vaxtaşırı uğurla yeni-yeni dövlətləri və qitələri əhatə etdi. Bu dalğa yer kürəsinin hansısa bir guşəsində pırıldayan "kəpənək effekti" kimi Mərkəzi və Şərqi Avropaya, Cənubi Amerikaya və Cənub-Şərqi Asiyaya təsir göstərdi, təxminən iyirmi ildən sonra isə ən avtokratik sistem olan Sovet İttifaqının ərazisinə də gəlib çatdı.

Serbiya hadisələrindən və Slobodan Miloşeviç hakimiyyətdən kənarlaşdırıldıqdan sonra, 2004-cü ildə Gürcüstanda baş verən, uzunömürlü siyasətçi Eduard Şevardnadzeni istefaya göndərən "qızılgül" inqilabı MDB məkanında "yenidənqurma" meyillərinin yayılmasının əsasını qoydu. Bir il keçməmiş dəyişikliklər dalğası Rusiya ilə sərhəddə çox mühüm

geosiyasi məkan olan Ukraynaya çatdı. Sonuncu dəfə idi ki, keçmiş ittifaq dövlətlərindən birində MDB-nin bütün tarixi ərzində seçkilərin təşəkkül tapmış ənənə üzrə keçəcəyini gözləyirdilər. Lakin Kiyevin Müstəqillik meydanında hadisələrin sonrakı inkişafı belə yanaşmanın yanlış olduğunu göstərdi. Məlum oldu ki, hakimiyyətin Baş nazir V.Yanukoviçin əlinə sabit şəkildə, üstəlik, varislik yolu ilə keçəcəyini güman edən Leonid Kuçma hadisələrin özü üçün tamamilə gözlənilməz şəkil alacağına hazır deyildi. Nəticədə Müstəqillik meydanında bir aydan çox sürən mitinqlər Leonid Kuçmanın siyasi erasının yekunlarını keçmişdə qoydu.

Sonrakı dövrdə dünyanın kütləvi informasiya vasitələri MDB ölkələrində gedən ictimai-siyasi proseslərə xeyli məqalə və təhlili materiallar həsr edərək, inqilabi dalğanın kükrəyəcəyi növbəti dövlətin hansı olacağı barədə proqnozlar verdilər. Gürcüstan və Ukraynada baş vermiş dəyişikliklərdən ruhlanaraq, demək olar, bütün keçmiş sovet respublikalarında müxalif qüvvələr öz ölkəsində inqilabi proseslərin yeni dövrəsinin inkişafı üçün zəmin hazırlamağa başladılar. Təhlilçilər və politoloqlar növbəti "məxməri" inqilab həyata keçirilməsi üçün cəmiyyətin münasib əlamətləri və seqmentlərini axtarmağa girişmişdilər. Bəzi nəşrlər hətta konkret dövlətlərin adını çəkirdi. Məsələn, təhlili materiallarda belə fikirlər də söylənilirdi: "Ekspertlər hesab edirlər ki, növbəti "gül" inqilabının baş verəcəyi ölkənin Azərbaycan olması tamamilə mümkündür". Ukraynada "narıncı" inqilabdan sonra ölkədəki "Pora" hərəkatının rəhbərliyi Corc Buş ilə görüşdə Azərbaycanı guya "demokratikləşdirməyə ehtiyacı olan" dövlətlərdən biri adlandırmışdı. Azərbaycanın radikal müxalifət partiyalarının liderləri də ukraynalı "narıncılarla" bir ağızdan deyirdilər ki, "Azərbaycan müxalifəti

Ukrayna və Gürcüstan ssenarilərinin təkrarlanmasının mümkünlüyünü istisna etmir". Lakin Maks Veberin vaxtilə yazdığı kimi, "inqilabın gedişini öncədən söyləmək hətta ən məlumatlı müşahidəçilər üçün də mənasız işdir".

Belə inqilab çoxları üçün gözlənilmədən Qırğızıstanda baş verdi.

Orta Asiyanın həm Rusiyanın, həm də Amerikanın hərbi bazalarının yerləşdiyi bu ölkəsində "zanbaq" inqilabı xeyli dərəcədə qəbilə-tayfa döyüşünü xatırladırdı. Oradakı hadisələr ancaq uzaqdan-uzağa inqilaba oxşayırdı ki, onun gedişində siyasi elita xalqın taleyi, dövlət idarəçiliyi üçün məsuliyyətin bütün yükünü dərk edir və insanların həyatının dəyişməsi üçün adekvat tədbirlər görürdü. Hər necə olsa da, daha bir postsovet respublikasında uzun illər sovet və postsovet dövrlərinin elitasından ibarət olan rəhbərlik siyasətçilərin "yeni dalğası", – arasında devrilmiş rejimlərdə əsas rol oynamış şəxslər də var idi, – tərəfindən dəyişdirildi.

"Üçüncü demokratik dalğa"nın Orta Asiyaya keçməsi Qazaxıstan, Türkmənistan və Özbəkistanda dəyişikliklərin zəruriliyi probleminin müzakirəsi üçün zəmin yaratdı. Lakin Özbəkistandakı hadisələr Orta Asiya regionunda gələcək transformasiyalara ciddi əngəl oldu ki, bu da Türkmənistanda Saparmurad Niyazov rejimini təhlükədən qorudu və Qazaxıstanda 2006-cı il prezident seçkiləri ərəfəsində ictimai-siyasi proseslərin təkamül yolu ilə gedişinə təminat yaratdı.

Hadisələrin təhlili göstərdi ki, demokratik dəyişikliklərə hazırlıq seçkilərə hazırlıq prosesində əvvəlcədən müəyyən edilən proqram üzrə başlanmış və səsvermənin yekunlarının iqtidar tərəfindən saxtalaşdırılmasına qarşı yönəldilən şüarlar altında "rəngli" inqilabla sona yetmişdir. Yuxarıda xatırladı-

lan hər bir halda seçkilərin hazırlanması və keçirilməsi, sonra isə səslərin hesablanması inqilabi eyforiyanın artmasında katalizator rolunu oynadı və "məğlub olmuş" müxalifətin qələbəsi ilə başa çatdı. Gürcüstanda parlamentə hücum, Kiyevin Müstəqillik meydanında qurulmuş narıncı çadırlar, Qırğızıstanda Feliks Kulovun həbsdən buraxılması sürətli, lakin ABŞ senatoru Sem Braunbəkin dediyi kimi, gözlənilən aksiyalar oldu.

İqtisadi gerilik, siyasi bəsirətsizlik və demokratik transformasiyalar üçün real zəminlərin olmaması dövləti durmadan tənəzzülə, əhalini isə yoxsullaşmağa doğru aparırdı. Mərkəzi Asiya üzrə mütəxəssis, Beynəlxalq Sülh Uğrunda Karnegi Fondunun baş elmi işçisi Marta Brill Olkot Qırğızıstanda inqilab haqqında Helsinki dinləmələrində demişdir ki, "yoxsulluq, korrupsiya, Əsgər Akayevin öz hakimiyyətini davam etdirmək üçün sabotaja əl atacağından ehtiyatlanması müxalifəti və xalqı, Gürcüstanda "qızılgüllər inqilabı"nın və Ukraynada "narıncı inqilab"ın gedişində baş verdiyi kimi, küçələrə çıxmağa vadar etdi"...

Əgər "zanbaq inqilabı" uğurlu olarsa, bu, xalqın gücündən xəbər verəcək və çoxlarının demokratiya quruculuğu baxımından hesabdan sildiyi bütün regionda müsbət dəyişiklikləra gətirib çıxaracaqdır. Bu, regionun digər ölkələrinin liderlərinə vətəndaş hüquqlarına, siyasi hüquqlara əməl edilməsinə ciddi yanaşmaq baxımından siqnal olacaq, əks halda, onlar hakimiyyəti itirməyin mümkünlüyü ilə hesablaşmaq məcburiyyətində qalacaqlar. Yox, əgər "zanbaq inqilabı" məğlubiyyətə uğrasa, onda bu, Mərkəzi Asiya xalqlarının imtahandan çıxa bilmədiyinin deyil, yalnız bunun sübutu olacaq ki, Qırğızıstanın hakim elitası siyasi dəyişikliklər prosesini müvəffəqiyyətlə pozmuşdur. Qırğızıstan inqilabının hətta əbəs

olduğu halda da, Mərkəzi Asiya ölkələrinin digər liderləri özlərini təhlükəsiz hiss etməyəcəklər”[1]. Qırğızıstandakı inqilab postsovet respublikalarında iqtisadi modernləşdirmənin və siyasi islahatların zəruriliyi barədə fikrin bütün aktuallığını əyani şəkildə nümayiş etdirdi.

İnqilab son vaxtlaradək Rusiyanın təsiri altında olmuş və ya onunla antaqonist münasibətlər saxlamış sabiq sovet respublikalarında yeni siyasi və iqtisadi quruluşun formalaşmasına əhəmiyyətli təsir göstərdi. Prezident Corc Buş Tbilisidəki çıxışında Gürcüstanda “qızılgül inqilabı”nı səciyyələndirərək demişdir: “Gürcüstanın ən böyük töhfəsi sizin digər xalqlara nümunə göstərən “qızılgül inqilabı”nızdır. İndi Qafqazdan Mərkəzi Asiyayadək xalqlar azadlıq tələb edirlər və buna nail olacaqlar”.

Ancaq hətta belə qəti bəyanat da Rusiyanın regionda rolunu sarsıda bilmədi, çünki əgər “qızılgül inqilabı” ilə bağlı nikbinlik hələ qalsa da, Britaniyanın “The Guardian” qəzetinin Corctaun Universitetinin Gürcüstan-Amerika münasibətləri üzrə eksperti professor Çarlz Kinqdən gətirdiyi sitatda deyildiyi kimi, “bu nikbinliyin qarşısını daha güclü realizm alırdı”.

Mən qul olmaq istəməzdim və quldar olmaq istəməzdim. Bu, mənim demokratiya anlamımı ifadə edir.

Avraam Linkoln

Lakin yuxarıda qeyd edilən ölkələrdə baş vermiş demokratik transformasiyaların kökündə heç də təkcə rəhbərliyin siyasi təfəkkürünün köhnəliyi və iqtisadi artımın sürətinin aşağı olması dayanmırdı. “Rəngli” inqilabların səbəbi xeyli dərəcədə problemlər kompleksi ilə bağlıdır və biz bu kitabın sonrakı hissələrində onlardan bəhs edəcəyik.

[1] http://www.voanews.com

Amma inqilabi zəminlərin mahiyyətindən, Qərbi və Şərqi Avropa ölkələrində demokratikləşmə təcrübəsindən danışmazdan öncə, bəşəriyyətin sabit demokratik məkan qurmağa yönəlmiş səylərinin əsasında nələrin dayanmasının qısa təhlilini vermək istərdik.

"Demokratiya" anlayışı nədir? Söz yox ki, biz bu çox mürəkkəb anlayışın hər hansı "son", ideal tərifini verməyə iddia etmədən, müasir dünya quruluşunun bu ayrılmaz aspekti barədə öz fikrimizi açıqlamağa çalışacağıq.

Antik mütəfəkkirlər, xüsusən də Platon və Aristotel kimi dühalar bu suala cavab verərkən, ilk növbədə, demokratiyanı idarəetmə forması kimi nəzərdə tuturdular. Onlar idarəetmə formalarını bir nəfərin, az sayda adamların və ya bütün xalqın idarə edib-etməməsindən asılı olaraq fərqləndirir və idarəçiliyin üç əsas vəziyyətini göstərirdilər: monarxiya, aristokratiya və demokratiya. Lakin Platon da, Aristotel də idarəetmənin hər bir formasını ictimai həyatın onlara məlum olan forması ilə, ictimai inkişafın bəzi daha dərin şərtləri ilə bağlayırdılar. Onların hər ikisinin siyasi formaların inkişafı və dəyişməsi məsələsinə dair müəyyən empirik materialı vardı və hər ikisi də görürdü ki, əgər dövlətdə onu saxlayan hər hansı daxili qüvvə mövcuddursa, heç bir fəlakətə baxmadan, onun formaları dəyişir. Bu formalardan hər biri onların qanun yolu ilə getməsindən və ya ondan kənara çıxmasından, ümumi rifahı, yaxud hökmdarların öz mənafelərini nəzərə alıb-almamasından asılı olaraq, pis və ya yaxşı ola bilər. Amma bütün bu formalar mütəhərrik və dəyişkəndir. Onların heç biri "son" və mükəmməl forma deyildir. Həmin müddəa demokratiyaya da aid idi. Platonun təsəvvüründə demokratiyanın dəyişkənliyi məntiqsizliyə gətirib çıxarır: bir tərəfdən, bu, idarəetmə formalarının ən

yaxşısıdır, hamı azadlıq alır, hər kəsin öz həyatını istədiyi kimi qurmaq imkanı var, lakin digər tərəfdən, guya, "həyatda qətiyyətli adamların və qayda-qanunun olmaması" nəticəsində belə dövlətdə hər şey dağılıb gedir. Demokratiyanın dəyişkənliyini və mütəhərrikliyini Aristotel də qeyd edir. O, sadə, təbiətə yaxın şəraitdə yaşayan xalqlarda demokratik quruluşu ən qüsurlu sayır. Demokratiyanın digər növləri ona qeyri-konstruktiv dəyişmələrə meyilli kimi görünür, özü də o, xalqın hökmranlığı görüntüsü yaratmaqla dövləti bir yığın demaqoqun idarə etdiyi ictimai quruluşu ən pis quruluş adlandırır. Burada möhkəm qanunlar yoxdur, yalnız daim dəyişən göstərişlər var və bu göstərişlərdə məhkəmə sistemi ədalət mühakiməsi üzərində təhqirə çevrilir.

Hamılıqla qəbul olunduğu kimi, demokratiya (qədim yunanca *demos* xalq və *kratos* hakimiyyət), xalq hakimiyyəti hər bir ictimai təşkilatın quruluşunun əsas formalarından biridir və öz üzvlərinin onun idarə olunmasında və səs çoxluğu ilə qərarlar qəbul edilməsində bərabərhüquqlu iştirakına əsaslanır. İctimai quruluşun idealı bunlardır: azadlıq, bərabərlik, insan ləyaqətinə hörmət, həmrəylik və s.; xalq hakimiyyəti uğrunda sosial və siyasi hərəkat. Demokratiya yarandığı vaxtdan dövlətlə, deməli, məcburetmə ilə bağlıdır və ən yaxşı halda, çoxluğun azlıq üzərində hakimiyyətidir, çox vaxt isə, yaxşı təşkilatlanmış, az-çox dərəcədə xalqın nəzarəti altında olan imtiyazlı azlığın idarəetmə formasıdır.

Demokratik rejim insanın siyasi azadlığının yüksək dərəcəsi, onun dövlət idarəçiliyinə təsir göstərməyə imkan verən hüquqlarının real surətdə həyata keçirilməsi ilə səciyyələnir. Bir qayda olaraq, siyasi elita kifayət qədər məhduddur, lakin o, geniş siyasi bazaya arxalanır.

Əsrlər boyu Qərb mütəfəkkirləri demokratiyanı onun müxtəlif formalarında təsəvvür etmişlər. Demokritin, Platonun, Aristotelin əsərləri bu və ya digər dərəcədə həmin formaların şərhi ilə bağlıdır.

Demokrit (eramızdan əvvəl 460-360-cı illər) yunan quldarlıq demokratiyasının tərəfdarı idi: "Xalq hakimiyyəti dövründə yoxsulluq hökmdarların dövründəki firavanlıqdan nə qədər üstündürsə, kölələrə azadlıq da bir o qədər üstündür". Demokratiyanın əleyhdarı və quldar aristokratiyanın tərəfdarı olan Sokrat isə (eramızdan əvvəl 468-399-cu illər) hesab edirdi ki, fəzilət və bilik alicənab insanların imtiyazıdır, "əkinçilər və digər işçilər isə özlərinin kimliyini bilməkdən çox-çox uzaqdırlar... Ona görə də əgər özünü dərk etmək zəka qanunudursa, onda bu adamlardan heç biri ağıllı ola bilməz" və deməli, onlar dövlətin idarə olunmasında iştirak etməyə buraxılmamalıdır. Platon (eramızdan əvvəl 427-347-ci illər) öz əsərlərində onun ideyalarını inkişaf etdirərək göstərirdi ki, demokratiya kütlənin, nanəcib demosun hakimiyyətidir. Platona görə, istibdadla yanaşı, demokratiya da dövlət idarəçiliyinin ən qeyri-məqbul formasıdır. Aristotel (eramızdan əvvəl 384-322-ci illər) əks mövqe tuturdu. O, əsərlərində diqqəti insanın güclü fəaliyyət göstərməsinin zəruriliyinə yönəldirdi. Azad insana isə praktik, yəni siyasi fəaliyyətlə dolğunlaşdırılmış həyatı və ya nəzəri, yəni idraki fəaliyyətlə dolğunlaşdırılmış həyatı layiqli hesab edirdi. Beləliklə, Aristotelə görə, azad vətəndaşlar dövlət işlərində iştirak etməyə borcludurlar. Aristotel bu müddəanı əsaslandıraraq, "Siyasət" əsərində yazırdı: "Onları hakimiyyətdə iştirakdan kənarlaşdırmaq təhlükəlidir: dövlətdə çox adam siyasi hüquqlardan məhrum olduqda... belə dövlət hökmən düşmən ovqatlı adamlarla dolu olur". Aristotel demokratiyanın üstün-

lüyünü vurğulayarkən bunu onunla əsaslandırır ki, oliqarxiyalarla müqayisədə demokratiyalar daha böyük təhlükəsizliyə malikdir və onların mövcudluğu daha uzunmüddətlidir. Sonralar bu mövzuya Plutarx da toxunmuşdur. O, "Qonaqlıq və yeddi müdrik" əsərində tarixi-fəlsəfi və sosial problemlər qaldırır. Onların arasında dövlət idarəçiliyinin forması məsələsi də var. Plutarx hansı dövlətin daha yaxşı olması barədə suala müdriklərin dili ilə belə cavab verir:

Solon: "O dövlətdə xalq hakimiyyəti hər şeydən yaxşı və möhkəmdir ki, orada incidəni məhkəməyə və cəzaya təkcə incidilən deyil, incidilməyən də cəlb edir".

Fales: "O dövlət ki, orada nə yoxsul, nə də həddən artıq varlı vətəndaşlar var".

Biant: "Ən möhkəm xalq hakimiyyəti o yerdə olur ki, orada qanundan sanki müstəbiddən qorxan kimi qorxurlar".

Pittak: "O dövlət ki, səfeh adamların idarə etməsinə yol vermək olmaz, yaxşılar isə idarə etməyə bilməz".

Hilon: "Ən yaxşı dövlət o dövlətdir ki, orada qanunları daha çox, natiqləri daha az dinləyirlər".

Anaxarsis: "O dövlət ki, orada yaxşı qiymət xeyirxahlığa, ən pis qiymət əxlaqsızlığa verilir, qalan hər şey isə yarıbayarı bölünür".

Kleobul: "Ən ağıllı o xalqdır ki, o ölkədə vətəndaşlar daha çox qanundan yox, məzəmmətdən qorxurlar"[1].

Aristotelin elmi fəaliyyətinin ən xarakterik xüsusiyyətlərindən biri onun çoxcəhətli olmasıdır. O, öz əsərləri ilə elmin

[1] Б.Рассел. История западной мысли.

onun dövründə mövcud olmuş, əslində, bütün sahələrini zənginləşdirmişdir. Dövlət və cəmiyyət məsələsi də filosofun diqqətindən kənarda qalmamışdır. Onun dövlət və cəmiyyətin öyrənilməsinə həsr edilmiş əsərləri arasında başlıca yeri, şübhəsiz, "Siyasət" tutur.

İdeal polisin nəzəri quruluşunu vermək Aristotelin "Siyasət"də qarşısına qoyduğu son vəzifədir. Aristotelin ideal polisini eramızdan əvvəl IV əsrdəki yunan polisləri, onların mövcudluğunun xarici və daxili şərtləri ilə birləşdirən tellərin axtarılması özünü tamamilə doğrultmuş olardı. Əlbəttə, Aristotelin risaləsinin məzmunu ilə onun yaşadığı dövr arasında əlaqə bununla bitmir. "Siyasət"də əsaslandırılmış fikrə görə, polis xoşbəxt həyata, yəni fəzilətə uyğun həyata nail olmağa kömək edən birliyin ali formasıdır; burada polis anlayışı özünün ən sadə elementlərinə parçalanır. Antik cəmiyyətin dayaqlarından birinin – şəxsi mülkiyyətin tərəfdarı olan Aristotel bu fikri onunla əsaslandırırdı ki, mülkiyyətə tələbat insana təbiətən xasdır.

Aristotel dövlət quruculuğunun müxtəlif nəzəriyyələrinin nəzərdən keçirilməsinə Platonun layihəsinin təhlilindən başlayır. O, həmin layihənin praktikada həyata keçirilməsinin çətinliyini xüsusi vurğulayır və Platonun nəzəri mövqeyini – real surətdə mövcud olan çoxluqla hesablaşmadan, dövlətdə tam birlik tətbiq etmək niyyətini tənqidə tutur. Platonun "Qanunlar"ında Aristotel əsassız iddialar, bəzi hallarda isə, ətraflı düşünülməmiş müddəalar tapır ki, bunlar da həyata keçirilərkən müəyyən çətinliklər törədə və arzuedilməz nəticələr verə bilər.

Dövlət quruluşları növlərinin tədqiqinin əvvəlində Aristotel, ümumiyyətlə, dövlət haqqında məsələni araşdırır. O,

hərdən yunan polislərinin təcrübəsinə müraciət edərək, ilk növbədə, "vətəndaş" anlayışını təhlil edir. Aristotel öz rəyini belə ifadə edir: "Vətəndaşın bir neçə növü var ... Vətəndaş, əsasən, vətəndaş hüquqlarının məcmusuna malik olan kəsdir". Aristotelin mühakimələrində böyük rol oynayan etik baxış onu əsl vətəndaş fəzilətinin yaxşı insan fəzilətinə münasibəti məsələsi ilə dərhal məşğul olmağa sövq edir. Aristotel belə nəticəyə gəlir: bu fəzilətlər bir dövlətdə eyni, digərində isə müxtəlifdir. Beləliklə, burada filosofun ümumi müddəası özünü büruzə verir: mücərrəd xarakterli mülahizələri əsas tutaraq, nəzəri məsələləri birmənalı şəkildə deyil, gerçəkliyin, o cümlədən siyasi reallığın mürəkkəbliyini və müxtəlifliyini nəzərə almaqla həll etmək.

Yəqin etmək çətin deyil ki, Aristotelin işlətdiyi hər bir siyasi terminin arxasında tamamilə konkret məzmun var. Filosof öz sxemini reallığın bütün müxtəlifliyini əhatə edə bilən çevik sxemə çevirməyə çalışır. O, öz dövründəki dövlətləri misal gətirərək və tarixə nəzər salaraq, əvvəla, dövlət quruluşunun ayrı-ayrı növlərinin daxilindəki hər cür müxtəlifliyin mümkünlüyünü təsdiqləyir, ikincisi, qeyd edir ki, bəzi dövlətlərin siyasi quruluşu müxtəlif dövlət quruluşlarının əlamətlərini özündə birləşdirir və padşah hakimiyyəti ilə müstəbid hakimiyyəti arasında oliqarxiyaya meyilli aristokratiya, demokratiyaya yaxın politiya və s. kimi aralıq formalar mövcuddur.

"Siyasət"in son iki kitabında vətəndaşların xoşbəxt həyat sürdükləri ən yaxşı dövlət quruluşunun layihəsi şərh edilir. Aristotel "Siyasət"də yazır: "Dövlət ancaq yaşamaq naminə yox, əsasən, xoşbəxt yaşamaq üçün yaradılır"[1].

[1] Аристотель. Политика. Сочинения в 4-х т. М., 1984, т. 4, стр. 455-457, 459-462.

Bu cür layihələr hazırlanması Aristotelin dövründə yenilik deyildi: bu baxımdan filosofun sələfləri olmuşdur və onların nəzəriyyələri "Siyasət"in ikinci kitabında araşdırılır. Aristotelin sözlərindən, habelə Platonun bizə yaxşı məlum əsərlərindən göründüyü kimi, bu layihələrin müəllifləri öz təkliflərinin əməli surətdə həyata keçirilməsi barədə düşünmürdülər. Odur ki, belə layihələr Aristoteli qane etmirdi. O, ideal quruluş barədə öz təlimini şərh edərkən bunu əsas tuturdu ki, bu təlimdə həyata keçirilə bilməyən heç nə yoxdur.

"Siyasət"də təsvir olunan ideal dövlət quruluşu əvvəlki şərhdə aristokratiya adlandırılan quruluşa ümumən yaxındır. Aristotelə görə, belə polisdə tamhüquqlu vətəndaşlar fəzilətin inkişafına təkan verən və deməli, dövlətə xoşbəxt həyatı təmin edən tərzdə yaşayırlar.

Demokratiya ona ciddi yanaşanların qarşısında, demək olar, həlledilməz problemlər qoyur, demokratiyaya nifrət edənlərdən ötrü isə, demək olar, hədsiz imkanlar açır.

Vatslav Havel

Qədim Afinada xalq yığıncağı – eklessiya əmlak vəziyyətindən və ad-sanından asılı olmayaraq, Afinanın 20 yaşdan yuxarı tamhüquqlu vətəndaşlarından ibarət olurdu. Qadınların və mateklərin, yəni gəlmə sakinlərin afinalıların yığıncağında iştirak etmək hüququ yox idi. Beləliklə, yalnız Afina vətəndaşları siyasi sahədə tamhüquqlu vətəndaşlar sayılırdı ki, onlar da bu qədim yunan polisi sakinlərinin ümumi sayının 1 faizini təşkil edirdi.

Təbii ki, demokratik prinsiplərin antik anlamı müasir normalara uyğun gəlmir, çünki antik filosofların nəzəriyyəsində söhbət xeyli dərəcədə dövlətin idarə olunmasında qulların və əhalinin kasıb təbəqələrinin iştirakı hüququndan gedir. Antik

filosofların dövlət-hüquq konsepsiyalarının əsasında qanunçuluğun tanınması və quldarlığın zəruriliyi dayanır. Aristotel azad insanların dövlətindən bəhs edir, qulları vətəndaş saymır. Onun fikrincə, insanların qeyri-bərabərliyi anadangəlmədir. Öz hərəkətlərinə özü cavab verə, özünün ağası ola, özündə mötədillik, nəfsini məhdudlaşdırma, ədalətlilik və digər fəzilətlər tərbiyə edə bilməyən insan anadangəlmə quldur və ancaq başqasının iradəsini yerinə yetirə bilər. Aristotelin dövlət konsepsiyası qısaca belədir.

Filosof yazır: "Ali hakimiyyətin çoxluğun əlində olması əlaməti oliqarxiyanın nə olduğu müəyyən edildikdə də, demokratiyanın nə demək olduğu müəyyən edildikdə də təsadüfi əlamətdir, çünki hər yerdə varlılar azlıq, kasıblar isə çoxluq təşkil edir; deməli, bu əlamət... fərqlərin əsası ola bilməz. Demokratiya ilə oliqarxiyanın fərqi yoxsulluq və varlılıqdan ibarətdir; məhz ona görə də hakimiyyətin vardövlətə – fərqi yoxdur, azlığın, yoxsa çoxluğun – əsaslandığı yerdə biz oliqarxiya ilə üzləşirik, kasıbların idarə etdikləri yerdə isə demokratiyanı görürük"[1].

Aristotel "Siyasət" traktatının birinci hissəsində idarəetmədə bərabərlik haqqında belə yazır: "Padşah təbiətən təbəələrindən fərqlənməli, amma onlarla bir soydan olmalıdır". Daha sonra o, ikinci fəsildə öz fikrini belə davam etdirir: "Bütün vətəndaşların ya dövlətin həyatına aid hər şeydə iştirak etməsi, ya heç nədə iştirak etməməsi, yaxud da ayrı-ayrı işlərdə iştirak etməsi, digər işlərdə isə iştirak etməməsi qaçılmazdır. Vətəndaşların heç nədə iştirak etməməsi, aydındır ki, mümkün deyildir, çünki dövlət bir növ

[1] Аристотель. Политика. Сочинения в 4-х т. М., 1984, т. 4, стр. 455-457, 459-462.

ünsiyyətdir, deməli, ilk növbədə, birlikdə müəyyən yer tutmaq zərurətidir; axı, bir dövlətin tutduğu yer özlüyündə müəyyən birlikdir, vətəndaşlar isə bir dövlətin icma üzvləridir (koinonoi)".

Aristotel dövlət idarəçiliyinin bir neçə növünü müəyyən edir. O, üç növü düzgün olanlar sırasına aid edir: padşah hakimiyyəti, aristokratiya və politiya. Digər üç növ yuxarıda göstərilənlərdən kənara çıxmalardır: padşah hakimiyyətindən – tiraniya, aristokratiyadan – oliqarxiya, politiyadan – demokratiya. O, eyni zamanda hesab edir ki, dövlət idarəçiliyinin qopub ayrılmış formaları arasında ən mötədili demokratiya formasıdır, çünki bu, "dövlət quruluşunun elə bir növüdür ki, burada ali hakimiyyət xalq kütləsinin əlində cəmləşmişdir".

Nəticədə o, dövlət idarəçiliyinin iki əsas növünü irəli sürür – oliqarxiya və demokratiya. Demokratiya dedikdə o, elə bir quruluşu başa düşür ki, burada "azad doğulanlar və kasıblar çoxluq təşkil edərək, ali hakimiyyəti öz əllərində saxlayırlar, oliqarxiya isə elə quruluşdur ki, burada hakimiyyət varlı, əsil-nəcabətli və azlığı təşkil edən adamların əlində olur"[1].

Aristotel bərabərliyi demokratiyanın əsas qanunu kimi müəyyən edir, burada "nə kasıbların, nə də varlıların heç nədə üstünlükləri yoxdur; ali hakimiyyət nə bunların və ya digərlərinin əlində cəmləşməyibdir, lakin bunlar da, digərləri də bərabərdirlər. Əgər bəzi azadlıqların və bərabərliyin demokratiyanın ən mühüm əlamətləri olduğunu düşünürlərsə, onda bu, başlıca olaraq, özünün təcəssümünü dövlət idarəçiliyində hökmən hamının iştirak etməsində tapardı. Xalq çoxluğu təmsil etdiyinə, çoxluğun qərarlarının isə

[1] Аристотель. Политика, глава 4.

həlledici əhəmiyyəti olduğuna görə, bu cür dövlət quruluşu demokratik quruluşdur"[1].

Aristoteldən, demək olar, iyirmi əsr sonra məşhur fransız dövlət xadimi, "Amerikada demokratiya" kitabının müəllifi Aleksis de Tokvil (1805-1859) əsərinin dördüncü hissəsində bərabərlik haqqında yazmışdır: "İnsanları bir-birindən asılı etməyən bərabərlik onlarda şəxsi həyatda ancaq özlərinin arzularını və iradəsini rəhbər tutmaq vərdişi və meyli əmələ gətirir. İstər özlərinə bərabər insanlarla münasibətlərdə, istərsə də şəxsi həyatda daim istifadə etdikləri tam müstəqillik onlarda istənilən hakimiyyətdən narazılıq doğurur və tezliklə siyasi azadlıq anlayışı və bu azadlığa sadiqlik formalaşdırır. Deməli, belə zəmanədə yaşayan insanlar azad təsisatların ideyalarının qavranılmasına ən təbii surətdə meyillidirlər"[2].

Lakin irəli getməyərək, Qərb mütəfəkkirlərinin orta əsrlərdən İntibaha və daha sonra Maarifçiliyə keçid epoxasına aid baxışlarına qısaca nəzər salaq. Bərabərlik prinsipi xristianlığın aşılandığı, sosial bəla qarşısında itaətə mühüm yer verilən orta əsr fəlsəfəsinə yalnız Amerika və Fransa inqilablarının təsiri altında transformasiya olmuşdur. O dövrün ən məşhur filosofu Foma Akvinalı (1225, yaxud 1226-1274-cü illər) öz baxışlarını sosial bərabərliyin inkar edilməsi və silk fərqlərinin dəyişməzliyi əsasında qururdu. Mütilik, ümumən, xristianların əsas fəziləti kimi qavranılırdı. Qərb dünyasının ideoloji postulatları Əl-Qəzalinin və digər mütəfəkkirlərin, onun çağdaşlarının əsərləri sayəsində dirçəliş dövrünü yaşayan İslamın təxminən elə həmin tarixi

[1] Аристотель. Политика, глава 4.

[2] Алексис де Токвиль. Демократия в Америке. М., Прогресс, 1992, глава 4.

zaman kəsiyində öz ardıcıllarına təklif etdiyindən əhəmiyyətli dərəcədə fərqlənirdi.

Məlum olduğu kimi, yarandığı ilk gündən İslam irqi əlamətə, dərisinin rənginə və yaşına, milliyyətinə və fiziki xüsusiyyətlərinə görə insanlar arasında ayrı-seçkilik qoyulmasının əleyhinə çıxmışdır. Quranda deyilir: "Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Ondan başqa onların heç bir hamisi də olmaz" (13:11). Cəmiyyətin ictimai-siyasi tərkib hissəsi kimi təşəkkül tapdıqdan sonra İslam elə fundamental prinsipləri dəstəkləmişdir ki, indi onlar təkcə dini ehkamlar kimi deyil, həm də fəlsəfi təlim kimi qarşıda durur. Lakin İslamın hələ VII əsrdə təklif etdiyi prinsiplər və ideyalar bizim zəmanəmizdə Qərb təfəkkürü və liberal cəmiyyət ilə təcəssüm olunur, halbuki onlar ilk dəfə ərəb dünyasında elə bir dövrdə irəli sürülmüşdü ki, o vaxtlar Avropa qüdrətli Bizansı itirirdi, germanlar isə Roma imperiyasını dirçəltməyə çalışırdılar. Məhz onda İslam demokratik yanaşı yaşamanın aşağıdakı fundamental prinsiplərini bəyan etmişdir:

- Güc həqiqətdədir. İslam həqiqətin gücün tərəfində olduğu barədə geniş yayılmış ideyanı inkar edir.
- Ədalət və qanun çox mühüm şeylərdir.
- Dini etiqad azadlığı və yaşamaq hüququ, fərdi mülkiyyət, habelə sağlamlıq (həm cismani, həm də əqli) pozula bilməz.
- Sirrin qorunmasına və şəxsi həyatın toxunulmazlığına təminat.
- Təqsirsizlik prezumpsiyası. Sübuta yetirilmədən heç kim cinayətdə təqsirləndirilə və ya başqa birisinin törətdiyi cinayətə görə cəzalandırıla bilməz.

- İcra hakimiyyəti sisteminin məşvərətliliyi.

İslam təbliğ edir ki, cəmiyyət seçim azadlığı verilmiş və həm özü üçün, həm də ətrafdakılar üçün məsuliyyət daşıyan şüurlu fərdlərdən ibarətdir. Üstəlik, İslam dünyada ideya baxımından da irəliyə doğru addım atır. XIX əsrin bəzi Qərb fəlsəfi cərəyanlarının, – məsələn, dialektik materializm və tarixilik, – fundamentalist və digər yanaşmalarının əksinə olaraq, İslam şəxsiyyəti, deməli, bəşəriyyəti ictimai və tarixi inkişafın "mühərriki" kimi qiymətləndirir.

Orta əsrlərin (XI-XII əsrlər) ərəb-müsəlman filosoflarının sosiumun ədalətli və düşünülmüş quruluşuna baxışları aktuallığını itirməmişdir, hərçənd ki, onlar bu cür quruluşu demokratiya adlandırmırdılar. Nəticə etibarilə məsələ terminlərdə deyil, konsepsiyaların məzmunundadır. Məsələn, belə sosiumun qurulması baxımından onların təfəkkürünün fəaliyyətini istiqamətləndirən ən mühüm intensiyalardan biri xoşbəxtliyə nail olmaq yollarının axtarışından ibarətdir[1]. İstər keçmişin, istərsə də zəmanəmizin bir çox Qərb filosoflarından, siyasətçi və alimlərindən fərqli olaraq, görkəmli İslam mütəfəkkirləri ideal sosial quruluşa nail olmaq yollarını məhz mənəvi-əxlaqi baxımdan nəzərdən keçirirdilər. Buraya əl-Fərabinin Fəzilətli Şəhəri də, "İxvan əs-səfa"nın ("Saflıq qardaşları") Fəzilətli Şəhəri də, İbn-Sinanın Ədalətli Şəhəri də, İbn-Baccənin Kamil Şəhəri də, İbn-Rüşdün Fəzilətli Şəhəri də daxildir.

Sadalanmış bütün konsepsiyaları burada ətraflı araşdırmaq vəzifəsini qarşıya qoymasam da, – hərçənd, təkrar edirəm ki, bu təcrübə bizim üçün, sosial inkişafın və ictimai

[1] А.Игнатенко. В поисках счастья. Общественно-политические воззрения арабо-исламских философов средневековья. М., 1989.

tərəqqinin maddi cəhətlərinə həddindən çox istiqamətlənmiş olan insanlar üçün qeyri-adi dərəcədə ibrətamizdir, – hər halda, ən mühüm məqamlar üzərində dayanacağam. Əl-Fərabiyə görə, adamlar ən yüksək səadətə və harmoniyaya, insanın varlığının məqsədlərinə ancaq Fəzilətli Şəhərdə nail ola bilərlər. Elə bir şəhərdə ki, burada "insanların birliyinin məqsədi əsl xoşbəxtliyin əldə edildiyi işlərdə qarşılıqlı yardım göstərməkdir". Fəzilətli Şəhərin əksinə olaraq, Əbu-Nəsrin "fəzilətsiz şəhərlər" təsnifatı da məlumdur. Onların üç növü mövcuddur: "cəhalət şəhəri" ("əl-mədinə əl-cahiliyyə"), "əxlaqsızlıq şəhəri" ("əl-mədinə əl-fasiqə") və "yolundan azanların şəhəri" ("əl-mədinə əl-dallə"). Filosofun digər şəhərlərə verdiyi bu mənfi təsnifat vasitəsilə Fəzilətli Şəhərin özü haqqında da təsəvvürlərini başa düşmək olar.

Demokratiya yoxsul əksəriyyətin şəxsi firavanlıq naminə idarə olunması deməkdir.

Aristotel

Fəzilətli Şəhər, "zərurət şəhəri"ndəki kimi, yaşayış və müdafiə üçün lazım olan hər şeyin əldə olunmasında əməkdaşlıq edən insanların birliyi deyildir.

Fəzilətli Şəhər, "mübadilə şəhəri" əhlinin etdiyi kimi, özlərinin varlanması və zənginləşməsinə can atan insanların birliyi deyildir[1].

Fəzilətli Şəhər, "rəzalət şəhəri"ndəki kimi, yalnız yeyib-içməklə, əylənməklə, cinsi əlaqə ilə cismani həzz alan insanların əməkdaşlığı deyildir.

[1] Аль-Фараби абу-Наср. Афоризмы государственного деятеля// Социально-этические трактаты. Алма-Ата, 1973; Философские трактаты. Алма-Ата, 1970.

Fəzilətli Şəhər, "şöhrətpərəst şəhər"dəki kimi, insanların hörmət-ehtirama nail olmaqda bir-birinə kömək etdikləri cəmiyyət deyildir.

Fəzilətli Şəhər "cəhalət şəhəri"nə bənzəyən, anarxiyanın baş alıb getdiyi, rəhbərliyin və məqsədyönlü əməkdaşlığın olmadığı "kollektiv şəhər"də baş verdiyi kimi, tam azadlığa can ataraq, hər kəsin öz istədiyini etdiyi cəmiyyət deyildir.

Fəzilətli Şəhər "əxlaqsızlıq şəhəri" deyil ki, burada insanlar varlığın başlanğıcını bilirlər, əsl səadətin nə olduğu və ona necə qovuşmaq barədə təsəvvürləri var, buna baxmayaraq, özlərinin bu biliyinə və inamına uyğun hərəkət etmirlər, əksinə, özlərini lap "cəhalət şəhərlərinin" sakinləri kimi aparırlar.

Gördüyümüz kimi, Əbu-Nəsrin insan birlikləri təsnifatının açarı özünü çox aydın şəkildə göstərən etik xarakter daşıyır və iki meyara aydınlıq gətirməkdən ibarətdir. O, həmin meyarlar əsasında "şəhərləri" belə fərqləndirir: əvvəla, əsl xoşbəxtlik haqqında biliyə münasibət, ikincisi, bu biliyə müvafiq olaraq, fəaliyyətə münasibət[1].

Əl-Fərabi öz ideal Şəhərini insan orqanizmi ilə analogiya əsasında qurur, sonra kosmosun harmonik quruluşu ilə analogiya aparır və kosmos bu analogiyalar sayəsində başa düşülə bilir. Vahid prinsiplər – bütün mövcudat onların əsasında təşəkkül tapır – Fəzilətli Şəhərin hökmdarının meydana gəlməsi vasitəsilə bu Şəhərin yaranmasında reallaşır, insanın başlanğıcı olaraq ürəyin ətrafında insan vücudu formalaşdığı kimi, Şəhər də hökmdarın ətrafında sanki, getdikcə böyüyür. Müdriklik (hikmət) belə hökmdarın vacib xüsusiyyəti, onun

[1] А.Игнатенко. В поисках счастья. Общественно-политические воззрения арабо-исламских философов средневековья. М., Мысль, 1989.

idarəetməsinin şərti olmalıdır. Əl-Fərabi yazır: "Əgər nə vaxtsa rəhbərlikdə müdriklik olmasa, o, hətta qalan bütün şərtləri təmin etsə də, Fəzilətli Şəhər hökmdarsız qalacaq... Şəhərin özü isə məhv olmaq təhlükəsi ilə üzləşəcəkdir. Əgər başçıya təhkim edilə biləcək müdrik tapılmasa, Şəhər bir müddətdən sonra hökmən məhv olacaqdır".

Sirli və hələlik az tədqiq edilmiş Saflıq qardaşları (İxvan əs-səfa) dini-siyasi hərəkatının "Saflıq qardaşlarının traktatları" ensiklopedik əsərində əksini tapmış cəmiyyətə baxışları qərəzli şərhlər verilmədən, – təəssüf ki, bunlar yaşadığımız indiki dövr üçün çox səciyyəvidir, – İslam sosial-siyasi fikrinin ənənəsi ilə daha dərindən tanış olmaq istəyənlərin hamısı üçün böyük maraq doğurur. "Traktatlar" hələ hicri təqvimi ilə 370-ci ildə, yəni müasir təqvimlə 981-ci ildə məlum idi. Bəzi tədqiqatçılar hesab edirlər ki, onların bir hissəsinin müəllifi filosof Məsləmə ibn-Əhməd ibn-Qasım ibn-Abdulla əbu-əl-Qasım əl-Məcritidir (1007-ci ildə vəfat etmişdir). Hər halda, "Traktatlar" (hamısını, yaxud ayrı-ayrı hissələrini) Əndəl isə məhz əl-Məcriti gətirmiş və onların təbliği ilə məşğul olmuşdur. Tarix "Saflıq qardaşları"nın nə şəkillərini, nə də ətraflı bioqrafik məlumatlarını bizim üçün saxlamamışdır. Yalnız zaman – X əsr, yer – Bəsrə şəhəri və bir neçə ad məlumdur. Müasir tarixçi Tahi əl-Valinin məlumatına görə, original, "Saflıq qardaşlarının traktatı" adlı misilsiz qiyməti olan əlyazma İraqın Mosul şəhərinin vəqf kitabxanasında saxlanılır (ümidvarıq ki, müharibəyə baxmayaraq, indiyədək qalır).

Saflıq qardaşlarının yaratmağa çalışdıqları Fəzilətli Şəhərin ideyasını A.İqnatenkonun adını çəkdiyim kitabındakı sözlərlə ifadə etmək olar: "Müdriklər birləşərək, həyat dənizini üzüb keçirlər". Livan alimi Ömər Fərrux onları

“Abbasilər xilafətində baş verən sosial-siyasi və dini-siyasi münaqişələrin səbəbinin dini və etnik plüralizm olduğunu düşünən və bu fərqləri müxtəlif dinlərdən və dini cərəyanlardan götürülmüş şeylər əsasında qurulan, ümumi bir istiqamətdə əritməyə çalışmış moralist filosflar”ın bir qrupu hesab edir. Gördüyümüz kimi, bu vəzifə qloballaşmanın dini, irqi və mədəni çalarlar alan meyillərinin təzyiqinə məruz qalan müasir sosiumlar üçün çox aktualdır. Saflıq qardaşlarının siyasi idealı cahilliyin və müxtəlif dini etiqadlara mənsubluğun doğurduğu qarşılıqlı düşmənçiliyin olmadığı bir cəmiyyət idi. Ona görə də Qardaşlar qarşılarına müxtəlif ideya cərəyanları əsasında varlığın sinkretik konsepsiyasını yaratmaq kimi aydın məqsəd qoymuşdular. Burada mühüm cəhət odur ki, bu konsepsiyanın əsaslarından biri antik fəlsəfi irs, Platonun dövlət haqqında risalələri, Aristotelin və Pifaqorun təlimləri idi. Əlbəttə ki, onun digər əsası Quran və Məhəmməd Peyğəmbərin hədisləridir; “Traktatlar”da zərdüştiliyin, xristianlığın, induizmin və iudaizmin də təsiri duyulur.

Hər şeydən göründüyü kimi, Saflıq qardaşları Fəzilətli Şəhərin obrazının şərhində tərəddüd keçirirdilər. Bir tərəfdən, Qardaşlar onu “qeyri-adi məmləkət” kimi, insanların sırf mənəvi, ruhi birliyi kimi, digər tərəfdən isə, Yer üzündə insanların konkret birliyi kimi görürdülər. Birinci halda, Şəhər “rəzil həyat” şəraitində Dünya Ruhunun birliyinin özlüyündə, bir növ, bərpası kimi təsəvvür edilirdi və eyni zamanda, insan ruhunun ülvi, “uca” dünyaya qayıdışının şərti idi. İkinci halda, Saflıq qardaşları Fəzilətli Şəhərin əsl vətəndaşlarının real həyatda əxlaqsız hərəkətlərə yol verməməsi üçün onları necə tərbiyə etmək barədə öz baxışlarını ətraflı şərh etmişlər. Onlar insanların hər cəhətdən bərabər ola

bilmədiyini mümkün hesab edərək, insan şəxsiyyətinin meyarı olaraq heç də var-dövləti, bilikləri, gücü, əsil-nəcabəti deyil, məhz yüksək əxlaqı, mərhəmət, səxavət, şəfqət kimi fəzilətləri irəli sürürdülər. Cəmiyyət üzvlərinin qarşılıqlı məhəbbəti, bilik və fəaliyyətdə birliyi – Yer üzündə Fəzilətli Şəhərdə ədalətli həyat quruculuğunun təməli bax, bunlardır.

Öz traktatları ilə Qardaşlar düşünən insanlarda belə bir inamı möhkəmləndirirdilər ki, cəmiyyəti onun bütün üzvlərini maarifləndirməklə dəyişmək olar. Bu humanist ideya İslam İntibahının korifeyi Əbüvəlid ibn Rüşdün yaradıcılığında mükəmməl şəkildə işlənilmişdir. O, özünün ictimai qanunlar konsepsiyasını, "elitaları" və "kütlələri" haqq-ədalət haqqında və "ədalətli xəlifələr" deyilən xəlifələrin dövrü – "ilk müsəlmanların kamil fəzilətə çatdıqları" dövr üçün səciyyəvi olan "ədavətsiz" zəmanənin gəlməsi haqqında arzu ilə əlaqələndirirdi[1].

İstərdik ki, oxucu İslam sosial-siyasi fikrinin tarixinə qısa ekskursumu haqsız olaraq Qərb nəzəriyyələrinin kölgəsində qalan bu çox zəngin irsin mənimsənilməsinə çağırış kimi qəbul etsin. Müasir rus tədqiqatçısının düzgün qeyd etdiyi kimi: "Orta əsr ərəb-İslam fəlsəfəsi özünün bütün zəngin məzmunu ilə dünya tarixi-fəlsəfi prosesində mühüm mərhələdir. Ərəb-İslam mədəniyyətinin çiçəklənmə dövründə (IX-X əsrlər) bütün təsirlərə açıqlıq ona xas xüsusiyyət idi. Dövrün bu pafosunu əl-Kindi gözəl ifadə etmişdir. O yazırdı: "Gərək biz haradan – hətta uzaqda olan və bizə oxşamayan tayfalardan gəlməsindən asılı olmayaraq, Həqiqəti qəbul etməkdən utanmayaq". Heç də təkcə filosoflara ünvanlanmayan bu çağırışa, əslində, bütün mütəfəkkirlər

[1] А.В.Сагадеев. Ибн-Рушд. М., 1973.

cavab vermişlər. Bir neçə əsr sonra İbn Rüşd bu çağırışı güclənməkdə olan mədəni tənəzzül şəraitində təkrar edir. "Biz hər dəfə keçmiş xalqların varlıq barədə demiş olduqları və kitablarda yazdıqları sübut şərtlərinin tələblərinə uyğun gələn müəyyən bir fikir və baxışlarla rastlaşdıqda onları öyrənməli, həqiqətə uyğun gələnləri qəbul edərək sevinməli və təşəkkürümüzü bildirməli, uyğun gəlməyənləri isə müəllifləri üzrlü hesab edərək, açıb göstərməli və insanları onlardan çəkindirməliyik".

Doğrudan da, bu, indi tolerantlıq adlandırılan və israrla Qərb mənşəli hesab edilən belə yanaşmaya ruhlandırıcı nümunə deyilmi? İslami yanaşmalara zidd olaraq, onlara iblis donu geydirir, dözümsüzlük, fanatizm kimi adlar verir və digər mənfi keyfiyyətlər yapışdırırlar. Halbuki ərəb-İslam mədəniyyəti "Mindarvazalı" adlandırılmış əfsanəvi şəhərə bənzəyirdi. Təsadüfi deyil ki, erkən Avropa utopiyasında – F.Bekonun "Yeni Atlantida"sında xoşbəxt insanlar adası ərəb tərzində Bensəlim, onların kralı isə Altabin adlandırılır.

Xristian dünyasında son orta əsrlər demokratik təfəkkürü öz ifadəsini kilsəyə və Papaya müxaliflikdə tapırdı. Mütəfəkkirlərin əksəriyyəti təkcə siyasi sifarişlərin yerinə yetirilməsi üçün deyil, həm də öz baxışlarının ifadəsi üçün dəstəyi imperatorlarda axtarırdılar. Foma Akvinalıdan sonra daha çox tanınmış sxolast olan Uilyam Okkamın imperatorla görüşdə söylədiyi bu sözlər səciyyəvidir: "Sən məni qılıncla müdafiə et, mən isə səni qələmlə qoruyacağam". Beləliklə, kilsəyə müxaliflik və müvafiq olaraq, kralların və hökmdarların mənafelərinin qorunması qələmlə təmin edilirdi.

Təbib və ilahiyyatçı Marsili Paduanski (1270-1342) imperatora, əsasən, fəxri bəzək rolu ayırmağa çalışan Papa haki-

miyyətinə qarşı siyasi müxalifətin təməlini qoymuşdur. O, papaların mütləq hakimiyyətə olan iddialarına qarşı xəyali ümumdünya monarxiya nəzəriyyəsini deyil, demokratik azadlığı qoyur, kilsə xadimlərinin hər cür məcburi hakimiyyətini inkar edirdi. O, hər cür iyerarxik kilsə qaydasını rədd etmiş yeretiklər arasında XIII əsrdə meydana gələn təlimi katolisizmin ən dərin qatlarına keçirmişdir. Paduanskinin 1324-cü ildə nəşr edilən "Dünyanın müdafiəçisi" (Defensor Pacis) əsəri belə siyasi baxışların manifesti oldu. O deyirdi ki, qanunverici hakimiyyət çoxluğa məxsus olmalıdır və çoxluğun hökmdarları cəzalandırmağa ixtiyarı var. Marsili Paduanskinin təklif etdiyi sistemdə, dünyəvilər də daxil olmaqla, yerli kilsə məclisləri çağırmaq nəzərdə tutulurdu və onlar ümumdünya kilsə məclislərinə nümayəndələr seçməli idi. Kilsədən uzaqlaşdırmaq və Müqəddəs kitabın icbari olan şərhini vermək hüququ ancaq ümumdünya kilsə yığıncağına məxsus olmalı idi. Belə sxem doktrinal məsələlərin həllində dindarlara səs hüququna malik olmaq imkanı verərdi. Paduanski təkid edirdi ki, kilsə dünyəvi hakimiyyət iddiasında olmamalıdır; mülki hakimiyyətin razılığı olmadan kimisə kilsədən uzaqlaşdırmaq olmaz; Papa heç bir əlahiddə hakimiyyətə malik ola bilməz. Paduanskinin təlimində əsas qanunverici və hər cür hakimiyyətin mənbəyi kimi xalqın aydın şəkildə vurğulanması nəzərə çarpır.

> *Hər kəs nəyə inanmaq istəyində azaddır. Mən yalnız hamını nə isə bir şeyə inandırmağa məcbur etməyin əleyhinəyəm.*
>
> ***Ayzek Əzimov***

Bertran Rasselin[1] qeyd etdiyi kimi, yeni dövr kilsənin nüfuzdan düşməsini şərtləndirdi və elmin nüfuzunun artmasını

[1] Б.Рассел. История западной философии.

sürətləndirdi. (Kopernikin nəzəriyyəsi, 1543-cü il). Bu isə labüd surətdə insanların beynində dünyəviliyin kilsə təsəvvürlərini üstələməsinə gətirib çıxarırdı. Tədricən dövlət əhali və bütün hakimiyyəti öz əlində cəmləşdirmiş idarəetmə orqanları üzərində nəzarətin əsas elementinə çevrilirdi və o vaxtdan etibarən hakimiyyətin mənbəyi daha kilsə deyil, dövlətlər və krallar idi. XIV Lüdovik özünün məşhur "Dövlət – bizik" kəlamını bundan iki yüz il sonra, Fransanın sosial məkanını əhatə edən bütün sahələrdə dövlət idarəetməsinin üstünlüyünə əsaslanaraq söyləmişdir. Elə o vaxt tədricən demokratiyanın və sərt müstəbidliyin rüşeymləri meydana gəlməyə başlamışdır. Kralların və varlı tacirlərin çoxsaylı ittifaqları da həmin tarixi fazaya aiddir ki, bu da sərt dövlət təzyiqi və nəzarəti şəraitində azad ticarətin qorunmasına əsaslanan "liberalizm" ideologiyasının yaranmasına təkan vermişdir.

Kilsənin buxovlarından azad olan cəmiyyət xeyli dərəcədə fərdiləşməyə başladı. Lakin Aristotelin demokratiya nəzəriyyəsinin nüfuzdan düşməsinə baxmayaraq, XVII yüzilliyədək fəlsəfə sahəsində bu mövzuda az-çox əhəmiyyətli risalə yaradılmadı. Müəyyən dərəcədə hətta siyasi və fəlsəfi anarxizm müşahidə edilirdi ki, bu da, təbii olaraq, makiavellizm kimi təzahürü meydana gətirdi.

İntibah katolik dünyasının ictimai şüuru demokratikləşdirmək səylərinin təcəssümü və hökmdarın iradəsinin yaradıcısı kimi fərdin təsdiqinin başlanğıcı oldu. N.Kopernikin (1473-1543) sonralar C.F.Bruno (1548-1600), Q.Qaliley (1564-1642) və İ.Kepler (1571-1630) tərəfindən dəstəklənmiş heliosentrik nəzəriyyəsi fərdin dünyagörüşünü ontoloji baxımdan dəyişdirdi və yeni dövrün sosial qaydasına əhəmiyyətli təsir göstərdi.

§ YENİ DÖVRÜN DEMOKRATİYASININ FƏLSƏFƏSİ

İntibah dövrü Platon və Aristotelin siyasi irsinin yenidən dərk edilməsi üçün perspektivlər açdı. Bununla yanaşı, İntibah dövrünün ideyaları və onun mühitinin özü memarlığı, rəssamlığı, mədəniyyəti, ədəbiyyatı, elmi, təbabəti və kilsənin yaradıcı inkişafa imkan verməyiyi bir çox digər sahələri də xeyli zənginləşdirdi. Fərdin varlığa və ətrafdakı gerçəkliyə olan baxışı dərinləşdi. İntibah dövrü Leonardo da Vinçi və Makiavelli kimi böyük şəxsiyyətlər yetirdi. "Mona Liza" və "Hökmdar" bir sıra nəsillərin təxəyyülünə və zəkasına yüzillərlə öncədən hakim kəsildi. "İntibah elə bir mənəvi abhava yaratdı ki, burada ellinizmin nailiyyətləri ilə rəqabət aparmaq yenidən mümkün oldu və fərdi düha İsgəndərin dövründən bəri məlum olmayan azadlıq əldə edə bildi"[1].

İntibah dövründə yaradıcı şəxsiyyətin, alimlərin və mütəfəkkirlərin nüfuzu ən yüksək səviyyəyə çatdı. Hökmdarın yanında hakimiyyəti şöhrətləndirən yazıçının və ya papaları, qiyamçı knyazları masqaraya qoyan şairin olması dövrün təbii və mühüm atributuna çevrilir. İntibah heç bir görkəmli filosof-nəzəriyyəçini yetirmədi, görkəmli mütəfəkkir Nikkolo Makiavellinin irsini gələcək nəsillərə saxladı. Onun "Düşüncələr", "Knyaz" və "Hökmdar" əsərləri müasir dövrdə makiavellizm adlandırılan siyasi davranış tərzinin formal əsaslarını qoydu. Əksəriyyətin fikrincə, Makiavelli öz əsərlərində ənənəvi mənəviyyat normalarına məhəl qoymayan siyasət metodlarını məharətlə əsaslandırmışdır. Lakin makiavellizmi dövlət mənafeləri naminə qar-

[1] Б.Рассель. История западной философии, книга 3, часть 1, глава 2.

şıya qoyulan məqsədə çatmağa əsaslanan ancaq bir siyasət kimi nəzərdən keçirmək lazımdır. Bununla əlaqədar məşhur:

"Xaçlar yanır, xaçlar yanır,
Bunlar Çarmıxa çəkilmiş İsanın irsidir.
Yezuitlər deyirlər ki,
Məqsəd, ona çatmaq vasitəsini doğruldur"

şeiri siyasi realizmə əsaslanan makiavellizm fəlsəfəsini ironik tərzdə ifadə edir. B.Rassel yazır: "Əsrimizə Makiavellini daha yaxşı qiymətləndirmək imkanı yenidən verilmişdir, çünki zəmanəmizin ən mühüm uğurlarından bəziləri rəzilliyinə görə İntibah dövrü İtaliyasında tətbiq edilmiş metodlardan geri qalmayan metodlarla qazanılmışdır. Dövlət sənətinin dərin bilicisi olan Makiavelli Hitlerin Reyxstaqı yandırması, 1934-cü ildə partiya sıralarında təmizləmə aparması və Münxen sazişindən sonrakı xəyanətkarlığı kimi əməllərini alqışlayardı"[1].

Təbii ki, Makiavellinin əsərlərinin Avropanın demokratik inkişafına birbaşa dəxli yoxdur. Lakin onun hökmdarlara öyüd-nəsihət kimi qoyub getdiyi irs incə siyasi davranış tərzinin nümunəsinin nümayişidir. Halbuki, Makiavellinin "Düşüncələr"ində müəyyən liberal baxışlar aydın nəzərə çarpır, nəzarət və tarazlıq nəzəriyyəsi formalaşdırılmışdır.

Daha sonrakı dövrün filosoflarından fərqli olaraq, Makiavelli problemin şərhində heç vaxt ilahiyyat haqqında ümumi təsəvvürlərə əsaslanmamışdır. O hesab edirdi ki, hakimiyyət ona can atanlara və azad yarışda ona layiq olanlara nəsib olur. Makiavellinin xalq hökumətinə verdiyi üstünlük "hüquqlar" ideyasına əsaslanmırdı, belə müşahidələrdən irəli gəlirdi ki, xalq hökumətləri istibdadlara nisbətən daha az

[1] Б.Рассель. История западной философии, книга 3, часть 1, глава 2.

qəddar, prinsipsiz və səbatsızdır. Makiavellinin fikrincə, uğurlu, yəni yaxşı tarazlaşdırılmış konstitusiya böyük siyasi rifahdır. Hüquqları hökmdar, əyanlar və xalq arasında onların real çəkisinə və nüfuzuna mütənasib surətdə bölən konstitusiya belə rifaha çevrilir, çünki bu cür konstitusiya olduqda çevrilişlər və inqilablar etmək çətindir və ona görə də daha sabit qaydanın mövcud olması mümkündür. Lakin dövlətin sabit fəaliyyətinin son dərəcə mühüm cəhəti olan davamlı qaydanın qorunub saxlanmasının vacibliyi olmasaydı, onda xalqa daha çox hakimiyyət verilməsi ağıllı iş olardı.

Makiavelliyə görə, siyasi hakimiyyətin müvəffəqiyyəti gücdə, habelə bu gücü lazımi məqsədlər üçün tətbiq etmək bacarığı və imkanlarındadır. Həqiqi hakimiyyət gücə malik olmalıdır, bu, onu istənilən fövqəladə hallarda sarsılmaz edir, xarici və daxili düşmənlərin qəsdlərindən qoruyur. Lakin Makiavelliyə görə, güc heç də təkcə müdafiə və hücum vasitələri deyildir. Makiavelli hakimiyyətin gücünü onun xeyirxahlığın təcəssümü ola bilməsində görür, bu isə yalnız ictimai rəyi formalaşdıran təbliğat üzərində nəzarət olduqda mümkündür. Başqa sözlə, əgər haqlı saydığınız tərəf qalib gəlirsə, bu, ona görə baş verir ki, gücdə üstünlük onun tərəfindədir.

Makiavellinin yaşadığı tarixi dövrün reallıqları onun siyasi baxışlarına xeyli dərəcədə təsir göstərmişdir. Bu, ipə-sapa yatmayan əclafların uğurlar qazandıqları; fayda verməsi naminə hər şeyi və hamını bağışlamağa sövq edən riyakarlığın baş alıb getdiyi; şəhər əhalisinə xas cahillik və prinsipsiz eqoizm dövrləri idi – Makiavellinin müasirlərinin həyatı bax, belə pərdə arxasında cərəyan edirdi. Lakin filosofun özünün də dediyi kimi, hətta belə zəmanələrdə də cahil xalq qarşısında xeyirxah libasında çıxış etmək arzuolunandır. Belə-

liklə, makiavellizm hakimiyyətin hərəkətverici qüvvəsini və mexanizmini üzə çıxararaq, baş verən hadisələri müstəqil şəkildə qavramağa təhrik edirdi.

Müasir dünyada, istər daxili, istərsə də xarici proseslərdə fəziləti müəyyənləşdirmək və ya onun meyarlarından istifadə etmək bəzən çətindir. Hazırda beynəlxalq münasibətlərin qavranılmasını bir çox cəhətdən *Pax Americana* dövründə qloballaşma layihəsinin təsiri altında inkişaf edən yeni demokratik prosesin "iç üzü" formalaşdırır. Həmin layihə isə aşağıdakılarda ifadəsini tapan özünəməxsus siyasi dualizm doğurur: (1) öz dəyərlərinin təsdiqində və öz evində demokratiyanın təkmilləşdirilməsində; (2) demokratiyanın bütün dünyada yayılması uğrunda mübarizə aparmaq öhdəliyində. Beləliklə, demokratiyanın, yaxud da, nüfuzlu Amerika politoloqu S.Hantinqtonun təbirincə, "üçüncü demokratik dalğa"nın genişlənməsi getdikcə yeni məkanları gizli şəkildə bürüyür, keçmiş sovet respublikalarını da öz təsiri altına alır. Ənənəvi olaraq, qloballaşma dedikdə, inkişaf etməkdə olan dövlətlərdə transmilli korporasiyaların iqtisadi üstünlüyünü başa düşürdülər. Lakin yeni dünya nizamının başlanması ilə aydın oldu ki, demokratik təsisatlar və sosiomədəni fonla dəstəklənməyən iqtisadi üstünlüklər tranzit və inkişaf etməkdə olan cəmiyyətlərdə Qərb dəyərlərinin hökmranlığını, bu cəmiyyətlərdə qərbləşmiş davranış nümunələrinin təşəkkülünü təmin etməyə qadir deyildir. "Rəngli" inqilablar postsovet məkanında qlobal transformasiyalara təkan verən mexanizm kimi seçilmişdir. Kommunist rejimlərinin yetişdirdiyi "uzunömürlü" liderlərin "vaxtsız vəfatı" üçün səbəbi də həmin inqilablar yaratmışdır.

Bəşəriyyət özünün, əslində, bütün tarixi ərzində bu cür yanaşmaya məruz qalmışdır, öz növbəsində, bəşər övladı

xarici və daxili təhlükələrin səviyyəsinə daim nəzarət etməyə çalışmışdır. İngilis dövlət xadimi və filosofu Tomas Hobbs (1588-1679) hələ XVII əsrdə "Leviafan, yaxud Materiya, kilsə dövlətinin və mülki dövlətin forma və hakimiyyəti" (1651-ci il) əsərində yazırdı: "Qarşılıqlı etimadsızlıq şəraitində insanın öz həyatını təmin etməsi üçün qabaqlayıcı tədbirlər görməkdən, yəni onun üçün təhlükəli olan kifayət qədər sanballı digər bir qüvvənin yoxluğunu yəqin etməyincə, gücü çatanların hamısını zorakılıqla və ya hiyləgərliklə itaətdə saxlamaqdan başqa ayrı, daha ağıllı bir üsul yoxdur"[1].

Monarxiya quruluşunda ədalət mühakiməsini kral həyata keçirir. Respublika quruluşunda isə onu xalq həyata keçirməlidir.

Viktor Hüqo

T.Hobbsa görə, insanın təbiətində müharibənin başlanmasına təhrik edən üç əsas səbəb mövcuddur: birincisi – rəqabət, ikincisi – etimadsızlıq, üçüncüsü – şan-şöhrət hərisliyidir. Lakin dövlətin gücü onun təhlükəsizliyi ilə təmin edilir, yəni sərhədləri necə müdafiə olunursa, iqtisadi baxımdan onun daxili və xarici düşmənlərə qarşı tab gətirmək qabiliyyəti nə qədər böyükdürsə, dövlət bir o qədər güclüdür.

Hobbsun əsərləri belə deməyə əsas verir ki, o, güclü hakimiyyətin müdafiəçisidir, lakin, eyni zamanda, dövlətin davamlılığının əsasını ümumi hakimiyyətdə görən demokratik idarəetmə tərəfdarıdır. Rəqabət, paxıllıq və nifrət, ucalmaq niyyəti, eqoizm – bunlar insanlar arasında münaqişələri qaçılmaz edir. Bununla belə, Hobbs göstərir ki, Aristotelin ictimai quruculuqları kimi, heç bir daimi, təbiət tərəfindən şərtləndirilmiş həmrəylik yoxdur. Ona görə də yalnız insanları

[1] Т.Гоббс. Левиафан, или Материя, форма и власть государства церковного и гражданского, 1651 г., часть 1, глава 13.

vahimədə saxlayan və onların fəaliyyətini ümumi rifaha istiqamətləndirən ümumi hakimiyyət sayəsində adamlar arasında müəyyən bir uzunmüddətli saziş yaranır və dəstəklənir.

Ümumi hakimiyyət bir nəfərin, yaxud nümayəndəlik funksiyalarını icra edəcək insanların yığıncağının təyin olunması ilə yaradılır. Hobbs yazır: "Bu, hər bir insanın digər hər bir insanla bağladığı saziş vasitəsilə bir şəxsin simasında təcəssüm olunmuş elə real birlikdir ki, hər bir adam digərinə desin: mən bu adamı və ya şəxslərin bu yığıncağını vəkil edirəm və ona özünü idarə etməyin başqa bir hüququnu bir şərtlə verirəm ki, sən də eyni qaydada öz hüququnu ona verirsən və onun bütün hərəkətlərinə icazə verirsən"[1].

Müasir dünyada demokratik idarəetmənin nümunəsi kimi qavranılan dövləti Hobbs "qanunlara əsaslanan dövlət" adlandırır. Öz hüquqlarını suverenə verən belə dövlətdə xalq haqq-ədalətə qəsd etməməli, suverenə qarşı çıxmamalı və onun hərəkətlərini pisləməməlidir. Əgər suvereni çoxluq seçirsə, onda azlıq tabe olmağa borcludur. Suveren isə immunitetə və təbəələrinin adından hərəkət etmək hüququna malik olan hansısa bir ali qüvvədir.

Hobbsun demokratik dövlətində suverenin hüquqları olduqca genişdir və bəzən onların prioriteti qəsdən artırılır. O, hətta suverenin səhv hərəkətlərinin mümkünlüyünü şübhə altına alaraq göstərir ki, "sıxışdırılmaqdan şikayət edənlər nəzərə almırlar ki, insanın vəziyyəti həmişə bu və ya digər rahatsızlıqla bağlıdır, bu və ya digər idarəçilik formasında xalqın bəzən məruz qala biləcəyi ən böyük sıxıntılar vətəndaş müharibələrinin doğurduğu müsibətlərlə və dəhşətli

[1] Т.Гоббс. Левиафан, или Материя, форма и власть государства церковного и гражданского, 1651 г., часть 2, глава 17.

bədbəxtliklərlə müqayisədə, yaxud hakimiyyətsizliyin azğın-pozğun vəziyyəti ilə, insanların qanunlara tabe olmadıqları və onları soyğunçuluqdan və intiqamlardan qoruyan heç bir məcburi hakimiyyəti tanımadıqları vəziyyətlə müqayisədə az hissolunandır"[1].

Bu kontekstdə tamamilə aydındır ki, Hobbs "Leviafan" əsərini XVII əsrin ortalarında İngiltərəni bürüyən vətəndaş müharibəsinin təsiri altında yazmışdır. Bu, onun dövlətdə suverenin və təbəənin yeri barədə baxışlarında aydın sezilir. Məlum olduğu kimi, həmin müharibə İngiltərə, Şotlandiya və İrlandiyanı qəti şəkildə birləşdirərək, Birləşmiş Krallığın formalaşmasını başa çatdırdı. Aradan çox keçməmiş İngiltərəni Stüartlar sülaləsinin bərpa olunması gözləyirdi. Hobbs güclü dövlətçiliyin əsasını həmrəylikdə, təhlükəsizlikdə görür və hesab edir ki, bunların naminə təbəələr labüd olan qurbanlara getməlidirlər.

Hobbs dövlətin idarə olunmasında iştirak etmək istəyənlərin hamısının yığıncağını demokratiyaya, istibdadı və oliqarxiyanı isə monarxiyanın digər növlərinə aid edir.

N.Makiavellidən fərqli olaraq, Tomas Hobbs öz mühakimələrində ilahiyyat konseptlərinə tez-tez müraciət edir. Məsələn, yazır ki, Moiseyin tarixinə görə, Müqəddəs kitab həm monarxın mütləq hakimiyyətini, həm də ona məxsus olan qanunverici hakimiyyəti təsdiqləyir[2]. Hobbsa görə, azadlıq Allah tərəfindən verilmişdir və o, "Allahın istədiyindən nə çox, nə də az etməmək"[3] kimi qaçılmaz zərurətlə müşayiət olunur. Hətta insanların fəaliyyətinə görə məsuliyyətin olma-

[1] Т.Гоббс. Левиафан, или Материя, форма и власть государства церковного и гражданского, 1651 г., часть 2, глава 18.

[2] Yenə orada, fəsil 21.

[3] Yenə orada.

ması, – çünki insanlar fəaliyyətin həyata keçirilməsində azaddırlar, – fərdləri "Tanrının hökmü" ilə səbəbiyyət əlaqəsindən kənarda törədilən əməllərdən azad etmir. Beləliklə, iradənin azad şəkildə ifadə olunması haqqında Hobbsun təsəvvürlərinin əsasını insanın Tanrı tərəfindən müəyyənləşdirilmiş davranışına əsaslanan konseptual fatalist yanaşma təşkil edir. Bu cür baxışların formalaşmasına katolisizm mühüm təsir göstərmişdir.

Hobbsa görə, azadlıq fərdə öz iradəsinə müvafiq surətdə hərəkət etməyə təminat verən geniş fəlsəfi anlayışdır. Bununla yanaşı, yuxarıda deyildiyi kimi, şəxsiyyətin istəyi, meyli və iradəsi azad deyildir, çünki özlüyündə insan yalnız onları istədiyi kimi təzahür etdirməkdə maneələrlə qarşılaşmadıqda azaddır. Deməli, ümumiyyətlə, iradə azadlığı barədə danışmaq əzəldən səhvdir.

Dövlət çərçivəsində isə insan qorxu və azadlığı uzlaşdırır, çünki onun qanundan qorxaraq etdiyi bütün hərəkətlər elə hərəkətlərdir ki, onları törədən şəxsin bu hərəkətlərdən çəkinmək azadlığı var. Hobbsda azadlıq və zərurət bir-biri ilə qarşılıqlı surətdə bu cür bağlıdır, ona görə ki, əgər "könüllü hərəkətlər insanların iradəsindən doğursa, onlar azadlıqdan irəli gəlir, lakin insan iradəsinin istənilən aktı, hər cür istək və meyil hər hansı bir səbəbdən, bu səbəb isə fasiləsiz silsilədə digər səbəbdən irəli gəldiyinə görə, həmin akt, istək və meyil zərurətdən doğur"[1].

Hobbs dövlətin süqutunu ədalətli qanunlar yaratmağa qadir olmayan insanların "düşüncəsiz yanaşma"sının doğurduğu daxili xəstəliklərin nəticəsi hesab edir. Ədalətli qanun-

[1] Т.Гоббс. Левиафан, или Материя, форма и власть государства церковного и гражданского, 1651 г., часть 2, глава 29.

ların olmaması ona gətirib çıxarır ki, amanabənd bina tikilir və o, "öz inşaatçılarından bir az çox qalaraq, onların nəsillərinin başlarına labüdən uçacaqdır"[1]. Hobbs deyir ki, dövlətin süqutu mütləq hakimiyyətin çatışmazlığı ilə şərtlənir və bu, heç də hökmən idarəetmənin monarxiya formasının nəticəsi deyildir. Məlum olduğu kimi, Qədim Romada cəmiyyətin devizi "Senat və Roma xalqı" idi, amma nə xalqın, nə də senatın tam hakimiyyəti vardı ki, bu da çoxsaylı qiyamlara, müharibələrə, sonra isə demokratiyanın da məhvinə gətirib çıxarmışdı. Odur ki, mütləq monarx və ya çoxluğun yığıncağının mənafelərini ifadə edən hansısa bir sima olan suveren öz əlindəki bütün hakimiyyətdən istifadə etməlidir.

"Dövləti nəyin zəiflətdiyi və ya dövləti nəyin parçalanmaya doğru apardığı barədə" Hobbsun tezisləri arasında mənim diqqətimi müasir qərbləşməyə oxşar çox maraqlı bir məqam cəlb etdi. Məsələn, Şərqi Avropa və MDB ölkələrində dəyişikliklər Qərbi Avropa ölkələrindəki dövlət quruculuğu təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Bu da təbiidir. Manufakturalar və buxar mühərriki hələ meydana gəlməzdən əvvəl Hobbs yazırdı ki, "qonşu xalqlardakı idarəetmənin müxtəlif formalarının nümunələri çox vaxt adamları müəyyən olunmuş idarəetmə formasını dəyişdirməyə sövq edir"[2]. Hobbs öz ölkəsinin tarixinə müraciət edərək, Niderlandda idarəetmə formasını dəyişdirmiş burjua inqilabını misal çəkir. Məlum olduğu kimi, Şimali Niderlandda burjua inqilabının qələbəsi heç də yerli qaydanın təzahürü olaraq qalmamışdır. O, XVII əsrin birinci yarısında bütün Avropanın iqtisadi və siyasi sahələrində qüvvələr nisbətini qəti şə-

[1] Т.Гоббс. Левиафан, или Материя, форма и власть государства церковного и гражданского, 1651 г., часть 2, глава 29.

[2] Yenə orada.

kildə dəyişdirmişdir. Beləliklə, Hobbs sosial məkanların özgələrin, ola bilsin, həmişə uğurlu olmayan təcrübəsini tətbiq etməyə meyil göstərdiyini vurğulayır.

İngilis filosofu, liberalizmin banisi Con Lokk (1632-1704) təbii hüquq, ictimai müqavilə, xalq suverenliyi, şəxsiyyətin məhrum edilə bilməyən azadlıqları, hakimiyyətlərin tarazlılığı, müstəbidə qarşı üsyanın qanuniliyi ideyalarına tam şərik çıxırdı. C.Lokk bu ideyaları inkişaf etdirdi, şəklini dəyişdirdi, yeniləri ilə təkmilləşdirdi və bütöv siyasi-hüquqi təlimə – erkən burjua liberalizmi doktrinasına daxil etdi. O, öz siyasi-hüquqi təliminin şərhini "İdarəetmə haqqında iki traktat" əsərində vermişdir.

Lokk yazır ki, insana xas olan azadlıq vəziyyəti heç də özbaşınalıq vəziyyəti deyil və insan qeyri-məhdud azadlığa malik olsa da, bu azadlığın çərçivəsi, ən azı, özünümühafizə qanunu ilə müəyyənləşdirilmiş hədlərdən kənara çıxmır. Hobbs kimi, Lokk da ilahiyyat konseptlərinə müraciət edir. O yazır: "Təbii vəziyyət təbiət qanununa malikdir. Təbii vəziyyət bu qanunla idarə olunur və o, hər bir kəs üçün icbaridir; bu qanunu təşkil edən zəka onunla hesablaşmaq istəyən bütün insanları öyrədir, bütün insanlar bərabər və müstəqil olduğuna görə, onların heç biri başqasının həyatına, sağlamlığına, azadlığına və ya mülkiyyətinə zərər vurmamalıdır; çünki bütün insanlar tək bir Tanrı və hədsiz dərəcədə müdrik Yaradan tərəfindən xəlq olunmuşdur; onların hamısı bir olan Rəbbin bəndəsidir, dünyaya Onun əmri və işi ilə göndərilmişdir; bütün insanlar onları xəlq edənin ixtiyarındadır və onların varlığı özlərinin deyil, Onun istədiyi qədər davam etməlidir"[1].

[1] Дж. Локк. Два трактата о правлении, книга 2, глава 2.

İnkişaf və tərəqqi insana doğulduğu gündən təbiət tərəfindən verilmiş öz təbii hüquqlarını başa düşmək üçün əlverişli zəmin yaradır. Lakin insan avtarkiya vəziyyətində, onu əhatə edən hər şeydən təcrid olunmuş halda yaşaya bilməz. Sosial gerçəklik fərdi ittifaqlara və cəmiyyətlərə cəlb edir və burada o, fasiləsiz fəaliyyət göstərən dünya sisteminin bir hissəsinə çevrilir. Təbiətin özünün yaratdığı bu konstruksiyada insan ümumi prosesin yalnız bir hissəciyidir və hətta onun tərkib hissəsi olsa da, qərarların qəbul edilməsində və öz hərəkətlərində azaddır.

Lokk yazır ki, insan özünün ilk cəmiyyətini nikah ittifaqı vasitəsilə yaratmışdır. Sonralar o, ailə cəmiyyətinin bir hissəsinə çevrilmiş və valideynlərin münasibətlərinin tabeliyi altına düşmüşdür. İnsanın yeri və rolu tədricən dəyişmişdir: o, hansısa cəmiyyətlərdə özünün azad xəlq edilmiş üstünlüyünü saxlamış, digərlərində isə münasibətlərin yeni tipinə – qulluqçu – ağa tipinə daxil olaraq, qeyri-azad fərdə çevrilmişdir. Azad olmaq hüququ ilə doğulan insan tarix boyu öz varlığının müxtəlif sosial formalarında təzahür edir.

Lokka görə, siyasi cəmiyyət elə bir məkanda mümkündür ki, burada həmin cəmiyyətin nümayəndələri öz təbii hakimiyyətindən imtina edir və beləliklə, onu qeyd-şərtsiz olaraq cəmiyyətin ixtiyarına verirlər. Deməli, birgə yaşayışın daimi və qərəzsiz qaydalarını müəyyənləşdirən münsif məhz cəmiyyət olur. Vahid qaydalar əsasında birləşənlər, ümumi qanuna və ortaya çıxan mübahisələri həll etmək və cinayətkarları cəzalandırmaq məqsədi ilə müraciət etmək mümkün olan məhkəmə müəssisəsinə malik şəxslər vətəndaş cəmiyyətini əmələ gətirirlər. C.Lokk yazır: “Hər hansı sayda insanlar bir cəmiyyətdə birləşərkən, onlardan hər biri təbiətin qanunu ilə ona xas öz icra hakimiyyətindən imtina edərək,

onu cəmiyyətə verdikdə, siyasi cəmiyyət və ya vətəndaş cəmiyyəti meydana gəlir"[1].

Lokk hesab edir ki, təbiətən azad olan insan öz razılığı olmadan siyasi hakimiyyətə tabe edilə bilməz. Fərd özünü vətəndaş cəmiyyəti ilə yalnız o halda bağlayır ki, o, özü kimi təhlükəsiz və firavan həyatın qorunub saxlanılması məqsədi ilə birləşmiş insanların birliyində yaşamaq istəyir. Belə birliklər yaratmaqla insanlar vahid siyasi orqanizmi təşkil edirlər ki, burada da əksəriyyətin yerdə qalanların hamısının əvəzinə hərəkət etməyə, qərar qəbul etməyə ixtiyarı var.

Güc olmayanda ədalət köməksizdir;

ədalət olmayanda isə güc zülmkardır.

Blez Paskal

Tamamilə aydındır ki, çoxluğun tam vahid kimi çıxış etməyə qadir olmadığı cəmiyyətlər tezliklə süquta məhkumdur. Müvafiq surətdə, bərabər insanların ittifaqı ilə yaradılan qurumlar olaraq, dövlətlər o çoxluğun mənafelərini ifadə edir ki, bu siyasi orqanizm onun könüllü ittifaqı ilə formalaşmışdır. Deməli, insanın ixtiyarındakı mülkiyyətdən təbii vəziyyətdə istifadə etmək təhlükəsiz olmadığına görə, o, təhlükəsizliyi və həyatının saxlanması, azadlığı və mülkiyyəti naminə öz azadlığından əl çəkməyə və cəmiyyətin bir hissəsinə çevrilməyə hazırdır. Lokkun bu mülahizələri fərdin azadlığı barədə Hobbsun mövqeyini müəyyən dərəcədə təkrarlayır.

Lokk dövlət idarəçiliyi formasını qanunverici hakimiyyətdən asılı olan, yəni ali hakimiyyəti öz əlində cəmləşdirənlər tərəfindən müəyyən olunmuş forma hesab edir. Dövlət forması – demokratik, oliqarxik və monarxiya, habelə seçkili monarxiya forması məhz bundan asılı idi.

[1] Дж.Локк. Два трактата о правлении, книга 2, глава 7.

Ali hakimiyyət olaraq, qanunverici hakimiyyət xalqın həyatı və sərvətinə münasibətdə despotik ola bilməz. O, ictimai rifahla məhdudlaşdırılıb və ancaq cəmiyyətin firavanlığının təmin edilməsinə yönəldilmişdir. Lokk yazır ki, "mütləq despotik hakimiyyət və ya müəyyən edilmiş daimi qanunlarsız idarəetmə cəmiyyətin və hökumətin məqsədlərinə heç cür uyğun ola bilməz, çünki insanlar yalnız öz həyatını, azadlığını və əmlakını qoruyub saxlamaq üçün, hüquq və mülkiyyət haqqında müəyyən olunmuş qanunların köməyi ilə öz əmin-amanlığını və dincliyini təmin etmək üçün cəmiyyət və hökumət naminə təbii vəziyyət azadlığından imtina etmiş və özlərini müvafiq tellərlə bağlamışlar"[1].

Lokk insanların yaratdıqları, tanıdıqları və müxtəlif kolliziyaların həlli üçün xeyirxahlıq və cəza tədbirləri kimi tətbiq edilməyə özlərinin ümumi razılığı ilə icazə verilmiş ümumi qanunu dövlətin məzmununu təşkil edən ilk əlamət sayırdı. Sözün əsl mənasında, Qanun, ümumən, vətəndaş cəmiyyətindən və ya insanların təsis etdikləri qanunverici orqandan irəli gələn hansısa bir təlimat deyildir. Yalnız o aktın qanuni titulu var ki, o, şüurlu varlığa onun öz mənafelərinə uyğun olan və ümumi rifaha xidmət edən davranış qaydasını göstərir. Əgər təlimatda belə norma yoxdursa, o, qanun sayılmır.

Bundan başqa, ali hakimiyyət insanı onun mülkiyyətinin bir hissəsindən və ya hamısından məhrum edə bilməz. Xüsusi mülkiyyət şəxsiyyətin həyat fəaliyyətinin imtiyazlı sahəsidir: hökumət onun qorunmasına və təhlükəsizliyinə təminat verməlidir. Eyni zamanda, dövlətdə hansı hakimiyyət olursa-olsun, onun öz təbəələrinin razılığı olmadan əmlakından istifadə etməyə ixtiyarı yoxdur, çünki bu, dövlətin bütün niyyə-

[1] Дж.Локк. Два трактата о правлении, книга 2, глава 11.

tinin həyata keçirilməsinə, yəni, onun vətəndaşlarının mülkiyyətinin təhlükəsizliyinin təmin edilməsinə maneə törədir. Əgər kiminsə ağlına gələn vaxtda başqasının mülkiyyətindən istifadə etməyə ixtiyarı varsa, onda hansı mülkiyyət hüququndan söhbət gedə bilər. Sonralar liberalizmin əsas prinsiplərindən birinə çevrilən xüsusi mülkiyyət hüququ müasir dünyada demokratik cəmiyyətin bazisidir.

Lokk hakimiyyətin qanunverici və icra qollarının bölgüsünün tərəfdarıdır. Belə ki, onun fikrincə, "hakimiyyətdən yapışıb qalmağa meyilli olduğuna görə, tamah həddindən çox ola bilər, bu halda, qanunlar yaratmaq səlahiyyəti olan şəxslər həmin qanunların icrası hüququnu da öz əllərində cəmləşdirmək istəyərlər ki, qanundan həm o, yaradılarkən, həm də onun icrası zamanı öz şəxsi faydası üçün istifadə etsinlər"[1]. Lokk qanunverici hakimiyyəti ali hakimiyyət hesab edir, çünki "başqaları üçün qanunlar yarada bilən onlardan üstün olmalıdır"[2].

Lokkun dövlət və hüquq haqqında təlimi özünün bütün güclü və zəif tərəfləri ilə birlikdə erkən burjua inqilabları ideologiyasının klassik ifadəsi idi. Bu təlim XVII əsrin siyasi-hüquqi biliyinin və qabaqcıl elmi fikrinin bir çox nailiyyətlərini əxz etmişdi. Lokk bu nailiyyətləri sadəcə, toplamaqla kifayətlənməmiş, həm də İngiltərədə inqilabın verdiyi tarixi təcrübəni nəzərə almaqla dərinləşdirmiş və yenidən işləmişdir. Beləliklə, onlar sonrakı, XVIII yüzilliyin – Maarifçilik əsrinin və yeni dövrün iki ən böyük inqilabının – Fransa və Amerika inqilablarının siyasi-hüquqi həyatının yüksək praktik və nəzəri sorğularına cavab vermək üçün yararlı olmuşdur.

[1] Дж.Локк. Два трактата о правлении, книга 2, глава 11.
[2] Yenə orada, fəsil 13.

§ Ş.MONTESKYÖ QANUNLARININ RUHU VƏ J.J.RUSSONUN İCTİMAİ MÜQAVİLƏSİ

Yeni dövrün Qərb demokratiyasının əsasını Maarifçilik epoxasının iki ən böyük nümayəndəsinin – Şarl Monteskyönün və Jan Jak Russonun baxışları təşkil edir. Fransız filosofu, tarixçi, hüquqşünas, XVIII əsr maarifçilərinin yaşlı nəslinin nümayəndəsi Şarl Lui Monteskyö (1689-1755) Fransa burjuaziyasının mötədil müxalif dairələrinə qoşulmuşdu, feodal qaydalarına, mütləqiyyətə və feodal-klerikal ideologiyasına qarşı çıxırdı. O, "mantiya zadəganları"na, yüksək məhkəmə məmurlarına mənsub olan qədim əsilzadə ailəsində doğulmuşdu. T.Hobbsun irəli sürdüyü və indiyədək aktual olan hakimiyyət bölgüsü nəzəriyyəsini məhz Monteskyö inkişaf etdirmişdir.

Yeni dövr siyasi fəlsəfəsinin digər nümayəndəsi Jan Jak Russo (1712-1778) sosial ədalət uğrunda alovlu mübariz, Böyük Fransa inqilabı ideologiyasının istər-istəməz əsası olmuş fəlsəfi-siyasi traktatların müəllifidir.

Azadfikirli və feodal-mütləqiyyət rejiminin tənqidçisi kimi tanınan, "İran məktubları" romanının (1721-ci il) Hollandiyada anonim nəşrindən sonra onun müəllifi olduğunu etiraf edən Monteskyö, həm də geniş ədəbi şöhrət qazanmışdır. Monteskyö "İran məktubları"nda uydurma fars səyyahlarının dili ilə Fransadakı mövcud qaydaları, siyasi özbaşınalığı, XIV Lüdovikin sarayındakı əxlaqsızlığı, tamahkarlığı, azadlığın qəddarcasına boğulmasını və kilsənin yadfikirlilərə divan tutmasını çox ustalıqla masqaraya qoyurdu. Müəllif öz etiraz səsini təkcə krala qarşı deyil, o vaxtlar katolik irticasının mərkəzi olan Vatikana qarşı da ucaldırdı.

"Qanunların ruhu haqqında" traktat (1748-ci il) Monteskyönün yekun fəlsəfi əsəri olmuşdur. Burada o, öz fəlsəfi, sosial, hüquqi, iqtisadi və tarixi baxışlarını ümumiləşdirərək sistem halına salmışdır. Müasirlərinin etirafına görə, Ş.Monteskyönün kitabı bütün mütərəqqi ruhlu fransızların "başını gicəlləndirmiş" və Sorbonna (Paris Universiteti) irticaçıları və Vatikan ruhaniləri tərəfindən pislənmişdir.

Monteskyö əsərində yazır ki, digər xilqətlər kimi, insan da daim qanunlarla idarə olunur, amma eyni zamanda, "ağıl-kamal verilmiş məxluq kimi o, Allahın qoyduğu qanunları durmadan pozur və özünün müəyyən etdiyi qanunları dəyişdirir"[1]. Monteskyönün fikrincə, insan Allahın qoyduğu, filosofların təyin etdikləri və qanunvericilərin yaratdıqları qanunların daim təsiri altındadır.

Hobbsun "hamının hamıya qarşı müharibəsi"nin ziddinə olaraq, Monteskyö insan həyatının dörd təbii qanununu irəli sürür. O, ilk növbədə, insanın əmin-amanlıq şəraitində yaşamağa çalışmasını, ikincisi, özünə qida əldə etməyə çalışmasını, üçüncüsü, insanların bir-biri ilə ünsiyyətdə olmağa səy göstərməsini, yəni "bir adamın digərinə ünvanlanmış xahişini" fərqləndirir. Nəhayət, Monteskyö insanın cəmiyyətdə yaşamaq istəyini dördüncü təbii qanun adlandırır. Məhz cəmiyyətdə yaşamaq dövlət idarəçiliyi formalarını yaradır. Bu kontekstdə filosof idarəetmənin üç formasını – respublika, monarxiya və istibdad formalarını vurğulayaraq izah edir ki, "respublika idarəetmə üsulunda ali hakimiyyət ya bütün xalqın, yaxud da onun bir qisminin əlində olur; monarxiya üsulunda idarəetmə bir nəfərin əlində olur, lakin o, müəyyən edilmiş dəyişməz qanunlar vasitəsilə idarə edir; istibdad

[1] Ш.Монтескье. О духе законов, книга 2, глава 1.

üsul-idarəsində isə heç bir qanun və qayda olmadan, hər şey bir şəxsin iradəsi və istəyi ilə gedir”[1].

Monteskyönün yazdığı kimi, demokratik idarəetmənin əsas prinsipi ondadır ki, “xalq öz müvəkkillərini, yəni dövlətin vəzifəli şəxslərini özü seçir”[2]. Monteskyö xalqı öz hakimiyyətinin bir hissəsini verməli olduğu şəxslərdən birini seçməyə qadir olan ən yaxşı seçici hesab edir.

Hamıya məlumdur ki, demokratiyanın əsası açıq və şəffaf səsvermədədir. Hələ Siseron deyirdi ki, Roma Respublikasındakı gizli səsvermələr onun süqutunun başlıca səbəblərindən biri olmuşdur. Monteskyö səsvermə barədə yazır: “Seçki bülletenlərinin verilməsi formasının özünü müəyyənləşdirən qanun... demokratiyanın əsas qanunları sırasına aiddir”[3]. Lokk kimi, Monteskyö də hesab edir ki, “qanunları qəbul etmək səlahiyyətinin ancaq xalqa məxsus olduğunu nəzərdə tutan qanun da demokratiyanın əsas qanunlarına aiddir”[4].

Monteskyö hesab edirdi ki, idarəetmənin monarxiya formasında demokratik rəhbərlik zəruridir, lakin eyni zamanda, onun qanunları qoruyan təsisatlara ehtiyacı var. “Zadəganlara xas avamlıq, onların mülki hakimiyyətə diqqətsizliyi və nifrəti elə bir idarənin olmasını zəruri edir ki, o, daim qanunları onların məhv ola biləcəyi unutqanlıq zülmətindən çıxarardı”[5]. İstibdad üsul-idarəsi olan dövlətlərdə belə idarələr yoxdur, çünki orada qanunun hökmranlığı prioritet deyildir.

Ona görə də belə dövlətlərdə qanunçuluğun qorunmasında əsas rol çox vaxt dinə, bəzən isə adətlərə keçir.

---

[1] Ш.Монтескье. О духе законов, книга 2, глава 1.
[2] Yenə orada.
[3] Yenə orada, fəsil 3.
[4] Yenə orada, fəsil 2.
[5] Yenə orada, fəsil 4.

Bəzi məsələlərdə Lokku təkrarlayan Monteskyö xalq dövlətinin, yəni demokratiyanın əsasını qanunların imperativliyində görür, belə ki, onlara əməl edilməməsi dövləti labüdən məhvə doğru aparır. Filosofun qeyd etdiyi kimi, demokratik idarəetmə fəzilətə əsaslanır, məhz onun yoxluğu vaxtilə ingilislərə "ölkədə demokratiyanı bərqərar etməyə" mane olmuşdur. Yunanıstanda isə siyasi xadimlər fəzilətdən savayı, demokratiyanın heç bir başqa dayağını tanımırdılar, buna görə də orada dövlət idarəçiliyi daha uğurlu idi.

Azadlıqda azadlığın özündən savayı nə isə axtaran kəs köləlik üçün yaranmışdır.

Aleksis de Tokvil

İstibdad dövlətlərə gəldikdə isə, onlarda idarəetmənin ən mühüm prinsipi qorxuya əsaslanır. Fəzilət belə dövlətə yaddır, ona lüzum yoxdur, monarxiya idarə üsuluna xas olan şərəf isə təhlükəlidir. Ona görə də Monteskyö bildirir ki, "insanlardakı hər cür cəsurluğu qorxu ilə boğmaqla və onlardakı mənliyin kiçicik belə qığılcımını söndürməklə"[1] istibdadlarda qiyamların və inqilabların qarşısını almaq mümkündür.

Demokratik cəmiyyətdə fəzilət tərbiyə etmək daha çətindir. Lakin onun olması ictimai başlanğıcı nəcibləşdirir və təkmilləşdirir. Monteskyö fəziləti "qanunlara və Vətənə məhəbbət, ictimai rifahın şəxsi rifahdan daim üstün tutulmasını tələb edən məhəbbət"[2] kimi müəyyən edir. O vurğulayır ki, kritlilər Vətəni ananın öz övladlarına məhəbbətinin mənasını verən sözlə adlandırırdılar[3]. Bununla belə, respublikaya məhəbbət hissi hər bir vətəndaşa müyəssər olur. Fəzilətin əsasını ictimai rifahın təmin olunması istəyi təşkil edir, yəni, "şəxsi

[1] Ш.Монтескье. О духе законов, книга 2, глава 9.
[2] Yenə orada, 4-cü kitab fəsil 5.
[3] Yenə orada, 8-ci kitab fəsil 11.

ehtiraslarımızı nə qədər az ödəsək, ümumi ehtiraslara bir o qədər çox vermiş olarıq”[1].

Ümumi rifah ictimai konsensusu və sabit inkişafı dəstəkləməyə qadir olan fərdin üstün tutduğu cəhətlərin əsasını təşkil edir. Belə təfəkkür qabiliyyətinin formalaşmasında ən böyük xidmət tərbiyənin varisliyinə məxsusdur. Nəsildən nəslə keçən demokratik təfəkkür tərzi uşaqlarda vətənpərvərlik tərbiyə edir ki, bu da gələcəkdə fərdi dövlət idarəçiliyinin daha təkmil modelinin qurulmasına istiqamətləndirmək üçün zəmin yaradır. Bununla yanaşı, mənəvi-əxlaqi komponentlərin qorunub saxlanılmasının, milli arxetipin, o cümlədən, milli “Mən”in müəyyən edilməsində əxlaqi meyarların rolunun dövlətin inkişafı və sabitliyi üçün xüsusi əhəmiyyəti vardır. Çünki Monteskyönün yazdığı kimi, “xalq özünün meydana gəldiyi dövrdə cılızlaşmır; o, yalnız yetkin insanların əxlaqı artıq pozulduqda məhv olur”[2].

Monteskyö vətənpərvərliyi demokratik idarəetmənin özülünü təşkil edən bərabərlikdə görür. Firavan demokratiyalar ictimai həyatda sadəliyi bərqərar edərək, qapıları dəbdəbə və gedonizm üçün açır. Qədim Afina və Romanın dövlət idarəçiliyi təcrübəsi yox olub getməmişdir, belə ki, müasir dünyada, postindustrial cəmiyyətlərdə dəyərlərin və relyativizmin iyerarxiyası müəyyən edilərkən onların hibridləşdirilməsi hallarına tez-tez rast gəlinir. Lakin məlum olduğu kimi, tarix həmişə keçilmiş yolun təkrarından ibarətdir, hər bir ictimai-siyasi və sosial-iqtisadi formasiyada ötən dövrlərin tarixi xüsusiyyətləri özünü yeni, bəzən də analoji dönüşdə göstərir.

[1] Ш.Монтескье. О духе законов, книга 5, глава 2.
[2] Yenə orada, 4-cü kitab, fəsil 5.

Monarxiyalarda və istibdad rejimlərində insanlar bərabərlik barədə düşünmürlər, çünki hər bir kəs, hətta ən yoxsul sosial təbəqənin nümayəndəsi də yalnız digərlərinin üzərində hökmranlıq üçün yüksəlməyə çalışır, demokratik rejimlərdə isə sosial amil kimi və qanunla müəyyən edilən bərabərlik və mötədillik ideyaları başlanğıcdan aşılanır.

Monteskyöyə görə, demokratiyanın əsasında "sərt və sadə" adətlər dayanmalıdır. İctimai tərəqqiyə və təkmilləşməyə yalnız belə adətlərin olması təkan verir. Başqa sözlə, ucalan inkişaf müstəvisi ilə ictimai tərəqqi, siyasi və iqtisadi sistemlərin yüksələn xətlə dəyişməsi sabit və yüksək əxlaqi meyarlar olduqda mümkündür. Hətta "hər hansı inqilab olduqda və dövlətə yeni forma verildikdə də, bütün bunlar ancaq sonsuz səylər və zəhmət vasitəsilə, nadir hallarda isə adətlərin pozulduğu təqdirdə baş tuta bilərdi"[1].

Monteskyö vətəndaşların öz hökmdarına itaət etməyə borclu olduğu istibdad dövləti və monarx xalq üzərində hökmranlıq etsə də, hər halda, idarəetmənin daha mədəni tipi olan monarxiyanı ayrıca fərqləndirir. Bu idarəetmə formalarında ali hakimiyyətin ümumi şəkildə eyni olmasına baxmayaraq, onlar itaətin xarakteri baxımından fərqlənir. Monteskyö yazır ki, istibdad dövləti ilə müqayisədə monarxiya dövlətlərində insanlar daha savadlı, onların nazirləri isə işlərdə daha bacarıqlı və təcrübəlidirlər.

Monteskyö öz əsərində atalar və övladlar əbədi problemina toxunaraq hesab edir ki, demokratik cəmiyyətdə gənclərin daha yaşlı nəslin qarşısında hesabat verməsi zəruridir ki, bu da adətlərin saxlanılmasına kömək edir. Ataların və övladların belə "əməkdaşlığı" hər iki tərəfi çəkindirir: "birinciləri

[1] Ш.Монтескье. О духе законов, книга 4, глава 7.

– ahıllara hörmətə görə, sonuncuları isə – özlərinə hörmətə görə”[1]. Filosofun bu sözlərini inqilabi meyillər ehtimalını azaltmaq, sürətli transformasiyalara və düşünülməmiş hərəkətlərə psixoloji cəhətdən meyil göstərən gənclərin iddialarını “söndürmək” üsuluna işarə kimi də şərh etmək olar.

Belə ki, praktikanın göstərdiyi kimi, istənilən inqilab və ya iddialı ideya onun orbitinə “yeni ideya”nı daha mütəhərrik etməyə, məqsədlərə nail olmağı və bunlara doğru aparan yolların axtarışını isə daha səmərəli etməyə qadir gənc insan qrupları cəlb edildiyi halda uğurlu olur.

Bərabərliyin olmaması demokratiya prinsipinin pozulmasını şərtləndirir və bununla yanaşı, elə bir vəziyyət yaranır ki, bu zaman hər bir fərd idarə etmək üçün seçilmiş adama tay olmağa çalışır. Yəni, cəmiyyət daha hakimiyyətdə olanın obrazında siyasi, iqtisadi və sosial proqramların əsas inteqratorlarını görmür. Belə hal baş verdikdə, demokratiyanın yerini anarxiya tutur, xalq hər şeyi özü etmək istəyir: “Senatın əvəzinə məşvərət keçirmək, məmurların əvəzinə idarə etmək və hakimlərin əvəzinə mühakimə etmək”[2].

Odur ki, demokratiya həm dövlətdə təkbaşına rəhbərliyin meydana gəlməsinə doğru aparan qeyri-bərabərlik ruhundan, həm də müstəbidliyin meydana gəlməsini şərtləndirən bərabərlik ruhunun ifrat hallarından ehtiyat etməlidir. Monteskyö deyir ki, bərabərlik insanlara xas xüsusiyyət deyil, hərçənd ki, onlar doğulduqları gündən bərabərdirlər. Müəyyən vaxt keçdikdən sonra və ictimai transformasiyaların təsiri nəticəsində insanlar bərabərlik çərçivəsindən kənara çıxırlar və onları əvvəlki vəziyyətə yalnız qanun qaytara bilər.

[1] Ш.Монтескье. О духе законов, книга 5, глава 7.
[2] Yenə orada, 8-ci kitab, fəsil 2.

Əgər demokratik dövlətlər və monarxiya dövlətləri onların varlığı prinsiplərini pozan hallar nəticəsində məhv olursa, istibdad dövlətləri "özünün daxili qüsuru nəticəsində"[1] məhv olur.

Monteskyö yazır ki, demokratiyalarda xalq istədiyi hər şeyi etməkdə azaddır. Lakin cəmiyyətdə həqiqi azadlıq "istəməli olduğunu etmək və istəməli olmadığını etməyə məcbur olunmamaq"[2] imkanının olması deməkdir. Buna baxmayaraq, azadlıq və müstəqillik arasında fərq var, çünki azadlıq qanunun yol verdiyi hər şeyi etmək hüququ verir, yox, əgər vətəndaş qanunsuz, qadağan olunmuş bir iş görürsə, bununla da o, öz azadlığını məhdudlaşdırır, çünki digər vətəndaşlar da belə hərəkət edə bilərlər. Bununla əlaqədar Russonun belə bir fikrini xatırlamaq yerinə düşər ki, bir nəfərin hüquqları və azadlığı digərinin hüquqlarının və azadlığının başlandığı yerdə qurtarır.

Monteskyö deyir ki, hər bir dövlətin müəyyən məqsədi olur. Sonra o, siyasi azadlığa nail olmağı öz səylərinin bilavasitə məqsədi kimi qarşıya qoyan xalq barədə mühakimə yürüdür. Budur, xalq öz məqsədinə çatmışdır, bu azadlığı təmin etmək üçün zəruri şərtləri isə onun konstitusiyasında aynadakı kimi görmək olar. Burada biz "Qanunların ruhu"nun ən dəyərli hissəsinə, hakimiyyətlərin bölgüsü barədə məşhur nəzəriyyəyə – bir qədər dəyişdirilmiş halda bu gün də dövlət hüququ haqqında elmin əsas müddəalarından birini təşkil edən nəzəriyyəyə yaxınlaşırıq. Bütün Avropa ölkələri qanunvericilərinin bu nəzəriyyəyə yiyələnməsi qanunçuluğun və azadlığın bərqərar olmasına xeyli kömək etmişdir. Monteskyö yazır: "Hər bir dövlətdə hakimiyyətin üç növü

[1] Ш.Монтескье. О духе законов, книга 5, глава 10.
[2] Yenə orada, 11-ci kitab, fəsil 3.

var: qanunverici, icra və məhkəmə hakimiyyətləri. Siyasi azadlıq yalnız o halda təmin edilə bilər ki, dövlətdə heç bir hakimiyyət öz səlahiyyətlərindən sui-istifadəyə qadir olmasın, bu sonuncu məqsəd üçünsə səlahiyyətlərin lazımi surətdə bölgüsü vasitəsilə bir hakimiyyət digəri ilə məhdudlaşmalıdır. Əgər məhkəmə hakimiyyəti icra və qanunverici hakimiyyətlərdən ayrılmayıbsa, hələ azadlıq mövcud ola bilməz. Əgər məhkəmə hakimiyyəti qanunverici hakimiyyətlə birləşmiş olarsa, həyat və azadlıq üzərində hakimiyyət iradi olardı, çünki hakim həm də qanunverici olardı. Əgər o, icra hakimiyyəti ilə birləşmiş olarsa, hakim sıxışdıra bilərdi".

Məlum olduğu kimi, qanunilik və ədalətlilik anlayışları ayrı-ayrı hallarda uyğun gəlməyə bilər. Fiziki varlıq olan insan öz fəaliyyətində təbiət qanunlarına tabedir. Monteskyö yazırdı: "İnsanın hərəkətlərini iqlim, din, qanunlar, hökumət sərəncamları, ötən hadisələrin nümunələri, adətlər, vərdişlər idarə edir". Bütün bu sadalanan amillər üzvi surətdə bağlıdır və daimi qarşılıqlı əlaqədədir. Deməli, insan qanunları və hüquq da ətraf mühitin şəraiti ilə müəyyən nisbətdə olmalıdır. Monteskyönün əsərinin məqsədini də bütün bu mürəkkəb qarşılıqlı əlaqələrin tədqiqi təşkil edir. Məsələn, o, yurisprudensiya tarixinin hüdudlarından çox-çox kənara çıxaraq, ictimai hadisələrin hərtərəfli şəkildə öyrənilməsini qarşısına vəzifə qoyur və bununla da müasir sosiologiyanın, bir növ, müjdəçisi kimi çıxış edir. O, mücərrəd sxemlər və poetik xülyalar yaratmır, əksinə, gerçəkliyi olduğu kimi öyrənməyə çalışır, lakin eyni zamanda, güman edir ki, bu gerçəkliyin başa düşülməsi və keçmişin təcrübəsi bəşəriyyətə çox şey öyrədə və onu ciddi səhvlərdən çəkindirə bilər. Ona görə də filosof insanları, xüsusən daim nəzərdə tutduğu fransızları "öyrətmək üçün" qarşısına praktik məqsədlər qoyur.

Onun sonrakı fəlsəfi baxışlarında rasionalizmin xeyli əlamətlərinin olmasına baxmayaraq, bu baxışlarda yeni, təzə fikir axını hiss edilir. Artıq Monteskyö insanın azadlığı, bərabərliyi və təbii hüquqları haqqında mücərrəd anlayışlar əsasında dövlət quruluşunun və idarəetmənin bütöv sistemini qurmur, həqiqətən mövcud olan idarələrin bu və ya digər formalarının insanın məqsədlərinə nə dərəcədə cavab verdiyini araşdırmağa çalışır. Əgər dünyada hər şey qarşılıqlı asılılıqdadırsa, onda hər yerdə və bütün zəmanələrdə ən yaxşı ola biləcək belə idarələr mövcud ola bilməz. O, həmin ideyanı irəli sürərək, olduqca mühüm konseptual nəticə çıxarır: hər bir ölkə üçün ən yaxşı idarələr millətin xarakterinə, vərdişlərinə, bir sözlə, yerin və zamanın bütün şərtlərinə daha çox uyğun gələnlər olacaqdır.

Monteskyönün müasirləri sübut etməyə çalışırdılar ki, o, özünün hakimiyyətin bölgüsü nəzəriyyəsini İngiltərədən tanıdığı və şübhəsiz, əsərlərinə bələd olduğu Sviftdən götürmüşdür[1]. Ancaq əgər Monteskyönün baxışlarında Sviftin baxışları ilə doğrudan da çox oxşarlıqlar varsa, bu, onu öz nəzəriyyəsinin həqiqi yaradıcısı hüququndan əsla məhrum etmir. Axı, Lamark özünün məşhur təsnifatını hələ Darvindən əvvəl yaratmışdı, lakin bu, Darvinin xidmətlərini heç də azaltmır. Bəlkə də elə bir fikir tapmaq çətindir ki, onu hamının sərvəti etmiş dahi tədqiqatçıdan əvvəl kimsə bu və ya digər formada söyləməmiş olsun. Bütün məsələ məhz formanın novatorluğunda və hətta məlum bir fikrin müəllif tərəfindən necə inandırıcı şəkildə ifadə olunmasındadır, fikrin inkişaf etdirilməsində və onu yaymaq bacarığındadır. Təsadüfi deyil ki, ədəbiyyat sahəsində mülkiyyət müəllif

[1] Discours of the contests and Dissension between nobles and the Commans in Atthens and Rome.

fikirlərinin ifadə formasına olan hüquq kimi müəyyən edilir. Hər halda, Avropa hakimiyyət bölgüsü nəzəriyyəsi ilə məhz Monteskyönün kitablarından tanış olmuşdur və bizim günlərədək uğurla bəhrələndiyi azadlığa və qanunçuluğa görə xeyli dərəcədə ona borcludur.

Azadlıq idarəetmənin heç bir formasından ibarət deyildir: o, hər bir azad insanın ürəyindədir.

Jan Jak Russo

XVIII əsrin 60-cı illərinin əvvəllərində Jan Jak Russonun, demək olar ki, eyni vaxtda üç çox mühüm əsəri – "Yuliya, yaxud Yeni Eloiza" romanı, "İctimai müqavilə" nəzəri əsəri və "Emil, yaxud Tərbiyə haqqında" pedaqoji traktatı çapdan çıxmışdır. Bunların arasında "İctimai müqavilə, yaxud Siyasi hüququn prinsipləri" yekunlaşdırıcı və eyni zamanda, gəldiyi nəticələrə görə müəllifin ən cəsarətli əsəridir. Onun əsasını belə bir fikir təşkil edir: zorakılıq hüququn mənbəyi ola bilməz.

Russonun əsas tezisi ondan ibarətdir ki, insan azad doğulmuşdur və hətta kölə olduqda da ancaq "təbiətinə rəğmən" belə olur, çünki "kölələri güc yaratmışdır, kölələrin qorxaqlığı onları həmişəlik kölə etmişdir"[1].

Russo Allah vergisi olan hakimiyyəti qəbul edir, lakin eyni zamanda deyir ki, insan gücə boyun əyməməlidir, hər şey ancaq qanunla baş verməlidir. Bax, buna görə də insanı azadlıqdan məhrum etməyə və cəmiyyətdə azadlığı məhdudlaşdırmağa doğru aparan ictimai müqaviləni (bu ifadə siyasi leksikona iudaizmdən "Allahın Avraamla müqaviləsi" formasında daxil olub) qeyri-təbii tərzdə qurmağa heç kimin haqqı yoxdur.

[1] Ж.Ж. Руссо. Общественный договор или Принципы политического права, книга 1, глава 2.

Russo ictimai müqaviləni bəşər övladının özünümühafizəsinin əsası kimi təqdim edir, nəticədə assosiasiyanın elə bir forması yaranır ki, o, "şəxsiyyəti və assosiasiyanın üzvlərindən hər birinin əmlakını bütün ümumi qüvvə ilə müdafiə edir, qoruyur və bunun sayəsində hər bir kəs hamı ilə birləşir, lakin yalnız özünə tabe olur və əvvəllər olduğu kimi, yenə də eyni dərəcədə azad olaraq qalır"[1]. Yəni, azadlıq insanın Allah tərəfindən bəxş edilmiş təbii vəziyyətidir, lakin Hobbsun "hamının hamıya qarşı müharibəsi" şəraitində fərd üçün cəmiyyətdə öz yerini müəyyənləşdirmədən mövcud olmaq son dərəcə çətindir.

Artıq deyildiyi kimi, ictimai müqavilə assosiasiya forması, başqa sözlə, elə bir cəmiyyət yaradır ki, burada hər kəs ictimai inkişafın xeyrinə öz hüquqlarının bir hissəsindən məhrum olaraq, özünün fərdi azadlığını və müstəqilliyini qoruyub saxlayır. Bununla yanaşı, cəmiyyətdə bərabərlik təmin olunur, belə ki, hər bir kəs başqalarına nə qədər verilmişsə, bir o qədər alır. Russo ictimai müqaviləni aşağıdakı tezislə əsaslandırır: "Bizim hər birimiz öz şəxsiyyətini və özünün bütün qüvvələrini ümumi sərvətə və ümumi iradənin ali rəhbərliyinin ixtiyarına veririk və nəticədə hər bir üzv birlikdə bizim hamımız üçün tamın ayrılmaz hissəsinə çevrilir"[2]. Russonun traktatının bu seqmenti Monteskyönün ümumi rifah naminə fəaliyyət haqqında müddəalarını xatırladır. Həmin məsələdə hər iki filosof eyni mövqelərdən çıxış etmişdir.

Bütövün bir hissəsinə çevrilən fərdin üzərinə ikili öhdəliklər qoyulur. Bir tərəfdən, o, fərdi şəxslərə münasibətdə suverenin (xüsusi vurğulamaq lazımdır ki, "suveren" dedikdə

[1] Ж.Ж. Руссо. Общественный договор или Принципы политического права, книга 1, глава 6.

[2] Yenə orada.

Russo siyasi orqanizmi, yəni, dövləti nəzərdə tutur) üzvüdür, digər tərəfdən isə, suverenə münasibətdə dövlətin üzvüdür. Bununla yanaşı, fərdin təhlükəsizliyi dövlətin ümumi təhlükəsizliyini tələb edən ümumi işə çevrilir, çünki "bütövə toxunmadan üzvlərindən birinə ziyan vurmaq mümkün deyildir və xüsusən də, bütövün üzvləri hiss etmədən, ona ziyan vurmaq olmaz"[1].

Siyasi maşın idarə edir, lakin ümumi iradəyə tabelikdən imtina edilən kimi, o, dərhal bütün orqanizm, yəni, cəmiyyətin siyasi hissəsi tərəfindən tabe olunacaqdır. Buna uyğun olaraq, fərd ümuminin xeyri və bütövlükdə azadlığın qorunub saxlanılması naminə öz şəxsi azadlığını qismən itirir.

Cəmiyyətə birləşmənin nəticəsi olaraq, insanın təbii vəziyyətdən vətəndaş vəziyyətinə keçməsi fərdin mənəvi-əxlaqi keyfiyyətini yüksəldir. İnsanın təbii vəziyyətdə rəhbər tutduğu meyillər və niyyətlər cəmiyyətin rəhbər tutduğu prinsiplərə tabeliyə transformasiya olur və zəkanın səsinə çevrilir. Russo fərdin təkmilləşməsi üçün əsası, onun yüksəlməsi və hisslərinin nəcibləşməsi üçün imkanları belə vətəndaş vəziyyətində görür. Məhz bu vəziyyət sayəsində *homo sapiens* keçmişdən "onu həmişəlik dartıb çıxaran o xoşbəxt ana daim minnətdar olmalıdır"[2].

Beləliklə, vətəndaş azadlığı və mülkiyyət hüququ fiziki gücü ümumi iradənin məhdudlaşdırdığı azadlıqla əvəzləyir, zor gücünə yiyələnmək hüququ isə qanunun gücü ilə əvəz olunur.

Russonun azadlıq barədə baxışlarının məziyyəti azadlığı hansısa bir "obyekt" kimi aşkar etməyə çalışan və tapmadıqda isə, onun mövcudluğunu inkar edən mücərrəd-yaradıcı yanaş-

[1] Ж.Ж. Руссо. Общественный договор или Принципы политического права, книга 1, глава 7.

[2] Yenə orada, fəsil 8.

manın əksinə olaraq, filosofun özünün konkret-praktik yanaşmasında təzahür edilir. Russoda azadlıq daxili reflektiv vəziyyət deməkdir: "İnsan özü özünün ağası olmalı, öz iradəsini özü öz üzərində tətbiq etməli, ehtiraslara hakim kəsilməlidir"[1].

İnsan tamın iradəsi ilə nə qədər təminat verilmişsə, bir o qədər azad olduğu sistemin bir hissəsinə çevrilir. Cəmiyyət formalaşan kimi insan özünü ona tabe edir və bundan sonra o, vətəndaş azadlığı ilə bərabər, mənəvi azadlıq da alır, çünki Russonun dediyi kimi, ancaq öz istəklərinin təsiri altında bu və ya digər tərzdə hərəkət edərək, kölə vəziyyətində olur. Lakin insan öz üzərində qoyulmuş qanuna tabe olaraq, azad və şüurlu varlığı təmsil edir.

Ehtirasların dəf edilməsi mənəvi azadlıq deməkdir. Mənəvi azadlıq fərdə kənardan süni surətdə aşılanmır, əksinə, daxildə hasil olur və inkişaf edir. Russo tarixi baxımdan mənəvi azadlığın formalaşması prosesini ilkin, təbii vəziyyətdən sivilizasiyalı, vətəndaş vəziyyətinə keçidlə bağlayır. Vətəndaş olaraq insan özünün təbii azadlığı ilə vidalaşır, əvəzində isə, mənəvi azadlığa qovuşur. Russo iradə azadlığı naminə, vicdan naminə fatalizmi, iradi aktların qabaqcadan müəyyən olunduğunu rədd etməklə, mexaniki materializmin və ilahiyyatın əleyhinə çıxır.

İctimai müqavilə siyasi orqanizmə həyat, qanun isə hərəkət və iradə verir. Russo yazır ki, ədalət Allahdan gəlir, Allah ədalətin yeganə mənbəyidir, lakin bəşər övladı təbii ədalətlilik çərçivəsinə riayət etməyə qadir deyildir. Bu rolu qanunlar və hökumətlər yerinə yetirir. İnsanın "heç nə vəd etmədiyi adamlara heç nə ilə borclu olmadığı"[2] təbii vəziyyə-

[1] Ж.Ж. Руссо. Эмиль, или О воспитании, стр.40.

[2] Ж.Ж.Руссо. Общественный договор или Принципы политического права, книга 2, глава 6.

tinin əksinə olaraq, vətəndaş vəziyyətində cəmiyyət üzvlərinin bütün fəaliyyəti ancaq Qanunla tənzimlənir.

İdarəçilik formasından asılı olmayaraq, qanunlar vasitəsilə idarə edilən istənilən dövləti Russo respublika adlandırır. Monteskyö kimi, o da bildirir ki, siyasi qanunlar yaradılması üçün xalqa cəmiyyətin istəklərini daha yaxşı bilən rəhbərlər gərəkdir. "Fərdi şəxslər rifahı görür, onu rədd edirlər; xalq rifah istəyir, amma onun nədə olduğunu bilmir... Bələdçilərə hamının eyni dərəcədə ehtiyacı var"[1].

Russo bütün qanunların müraciət etməli olduğu iki neməti fərqləndirir – azadlıq və bərabərlik. Onun təsəvvüründə bərabərlik o deməkdir ki, hakimiyyətə heç bir zorakılıq etmək ixtiyarı verilmir, cəmiyyətin üzvləri isə həddindən artıq varlılara və həddindən artıq yoxsullara bölünməmişlər. Ona görə də Russo varlıların və əsilzadələrin əmlak və nüfuzunun həddini məhdudlaşdırmağı, lakin eyni zamanda, aztəminatlı adamlar üçün xəsisliyi və acgözlüyü cilovlamağı məqbul hesab edir[2]. Çünki onlardan birinin arasından istibdadın köməkçiləri, digərinin arasından isə müstəbid çıxır.

Russoya görə, qanunverici hakimiyyət siyasi orqanizmin iradəsidir, iradəni hərəkətə gətirən qüvvə isə icra hakimiyyətidir. Qüvvə və iradə bir-birini tamamlayır, odur ki, onların məqsədə doğru irəliləməsini ayrı-ayrılıqda təsəvvür etmək mümkün deyildir.

Russo idarəetmə formalarını demokratiyaya, aristokratiyaya, monarxiyaya, yaxud kral idarəçiliyinə bölür. Amma bu o demək deyil ki, idarəetmənin formalarından hər biri, eləcə də

[1] Ж.Ж.Руссо. Общественный договор или Принципы политического права, книга 2, глава 6.

[2] Yenə orada, fəsil 11.

monarxiya yalnız öz çərçivəsinə qapanıb qalır. Lakin o, ümumi qayda kimi, belə bir tezis irəli sürür ki, demokratik idarəetmə kiçik, aristokratik idarəetmə orta, monarxiya idarəetməsi isə böyük dövlətlər üçün yararlıdır.

Russonun fikrincə, "xalq həmişə yaxşı idarə edə bilsəydi, onun idarə edilməyə ehtiyacı olmazdı". Əgər həmin tezisin sözbəsöz izahına əsaslansaq, onda bu, belə səslənər: "Əsl demokratiya heç vaxt olmayıb və belə şey heç vaxt olmayacaqdır"[1]. Monteskyö kimi, o da demokratiyanı fəzilətdə görür, çünki demokratiya ictimai vəziyyətdə və əmlak vəziyyətində adətlərin sadəliyinin və bərabərliyin üstün olduğu demokratik idarəetmənin mövcudluğu üçün zəmin yaradır.

Russo demokratiyanın kiçik dövlətlər üçün daha yararlı olduğunu vurğulayaraq, belə dövlətin əsas xüsusiyyətini dəbdəbənin yoxluğunda görür. Axı, dəbdəbə "ya var-dövlətlə yaradılır, yaxud da var-dövləti zəruri edir; dəbdəbə eyni zamanda həm varlının, həm də yoxsulun əxlaqını pozur, birini sərvətlərə malik olmaqla, digərini onların həsrətində olmaqla; dəbdəbə Dövlətin bütün vətəndaşlarını onun əlindən alır ki, onların bəzilərini digərlərinin kölələrinə, hamını isə bədgümanlığın kölələrinə çevirsin"[2].

Yüz ildən bir qədər sonra Lenin oxşar fikirləri tamam başqa təfsirdə söyləmiş və ən ifrat zorakılıq və sinfi düşmənləri amansızcasına qırmaq yolu ilə bərabərliyə nail olmağa çağırmışdı: "Varlılara və onların əlaltılarına, burjua ziyalılarına qarşı, dələduzlara, müftəxorlara və xuliqanlara qarşı ölüm-dirim müharibəsi aparılmalıdır... Varlılarla dələduzlar bir medalın iki üzüdür, kapitalizmin bəsləyib yetişdirdiyi

[1] Ж.Ж.Руссо. Общественный договор или Принципы политического права, книга 3, глава 4.

[2] Yenə orada.

tüfeylilərin iki başlıca zümrəsidir. Bu cəhətdən hər bir zəiflik, hər bir tərəddüd, hər bir sentimentallıq sosializm qarşısında ən böyük bir cinayət olardı"[1].

Russo qeyd edir ki, demokratik idarəetmə vətəndaş iğtişaşlarına və daxili iğtişaşlara daha çox meyillidir, çünki formanın dəyişməsinə daim can atan və özünü qoruyub saxlamaq üçün daha çox sayıqlıq və cəsarət tələb edən digər belə idarəçilik yoxdur.

Azadlıq və sağlamlığın bir ümumi cəhəti var: onları yalnız çatışmayanda lazımınca qiymətləndirirsən.

Anri Fransua Bek

Avropanın yeni tarixini təhlil edərkən böyük mütəfəkkirlə razılaşmamaq çətindir. Son yüz il ərzində Avropada sabit rejimlər qurmaq cəhdi hər bir tarixi dönəmdə iri işğalçılıq yürüşləri və ya dünya müharibələri ilə ara verilən çoxsaylı xalq iğtişaşlarına və vətəndaş qarşıdurmalarına tez-tez gətirib çıxarmışdır. Biz hələ demokratik dalğaların "qabarmalarına" və "çəkilmələrinə" toxunacağıq, lakin bundan sonra haqqında söhbət açacağımız demokratik baxışların başlanğıc nöqtəsi J.J.Russoya və Ş.Monteskyöyə gedib çıxır. Onlar sonrakı mütəfəkkirlərin fəaliyyəti üçün geniş meydan açmış və "bərabər doğulanlar" arasında bərabərliyin yerini fəlsəfi baxımdan göstərmişlər.

Azad insan tərəfindən demokratiyanın qavranılması Russonun əsərində Polşa kralının, Lotaringiya hersoqunun Polşa Seymində söylədikləri sözlərlə gözəl ifadə olunmuşdur: "Azadlığın iğtişaşlarını köləliyin sakitliyindən üstün tuturam" (Malo peri culosami libertarem quam quietum servitium). Demokratiya idarəetmənin ən yaxşı, amma çətin

[1] V.İ.Lenin. Yarışı necə təşkil etməli? Əsər.tam külliyyatı, c.35.

təşkil edilən formasıdır. Russo yazırdı: "Əgər allahlardan ibarət xalq mövcud olsaydı, o, özünü demokratik qaydada idarə edərdi. Lakin belə mükəmməl idarəetmə insanlar üçün münasib deyildir"[1].

Russo aristokratiyadan danışarkən, onu üç tipə ayırır – təbii, seçkili və irsi. O qeyd edir ki, təbii aristokratiya öz inkişafının ən başlanğıc mərhələsində olan xalqlar üçün yararlıdır, irsi aristokratiya idarəetmənin bütün formalarından ən pisidir, seçkili aristokratiya isə hamısından yaxşıdır, çünki sözün həqiqi mənasında aristokratiyadır. Aristokratiyanın bu növünün üstünlüyü məhz onun üzvlərinin seçkili olmasındadır ki, bu da "müdrikliklə idarəetmə"nin rəhnidir. Russo ən yaxşı və ən təbii quruluş kimi, ən müdriklərin əksəriyyəti idarə etdiyi və onların bunu seçilmişlər hüququ ilə etdiyi və idarəetmə vəzifələrini daha səmərəli şəkildə yerinə yetirdiyi quruluşun vacibliyini vurğulayır. Bu tip aristokratiyada bərabərlikdən danışmaq çətindir, çünki özlüyündə belə aristokratiya burada varlılar tərəfindən sadə və yoxsullar tərəfindən öz vəziyyəti ilə kifayətlənmək bacarığı formasında mövcuddur[2].

Russonun monarxiyada "hər şey eyni bir məqsədə doğru gedir; lakin belə məqsəd əsla cəmiyyətin firavanlığı demək deyil; və idarəetmə qüvvəsinin özü durmadan Dövlətin zərərinə çevrilir"[3] fikirləri demokratik prinsip və ideyaların populyarlığına, onların bütün dünyada zəfər yürüşünə ciddi təsir göstərmişdir. Lakin bizim günlərdə özlüyündə monarxiyalar xeyli dərəcədə ümumxalq tərəfindən seçilmiş qanunverici orqanın idarə etdiyi demokratik dövlətlərdən ibarətdir.

[1] Ж.Ж.Руссо. Общественный договор или Принципы политического права, книга 3, глава 4.

[2] Yenə orada, fəsil 5.

[3] Yenə orada, fəsil 6.

2005-ci ilin axırları – 2006-cı ilin əvvəllərində dünyanı bürümüş və "sivilizasiyaların toqquşması"nın gözlənildiyi barədə diskussiyaları gücləndirmiş məlum "karikatura qalmaqalları" ilə əlaqədar Russonun din haqqında baxışları maraq doğurur.

O, kilsəyə öz münasibətini "İctimai müqavilə"nin dördüncü kitabının səkkizinci fəslində qısaca şərh edir. Filosof dinin "xalq üçün tiryək" olması fikrindən uzaq idi. Bununla belə, həmin fəsildə rəsmi feodal-klerikal ideologiyaya qarşı kəskin fikirlər vardır.

Əvvəla, Russo mövcud siyasi təşkilatlarla əlaqələrə görə xristianlığı kəskin surətdə pisləyirdi. Filosof xristianlığı dünyəvi həyatı, vətəndaş həyatını çox az qiymətləndirdiyinə və sağlam düşüncəyə rəğmən, demək olar, ancaq "səmavi niyyətlərlə" məşğul olduğuna görə də tənqid edirdi.

İkincisi, Russo daha sonra deyirdi ki, xristian dövlətlərində kimə – dünyəvi hökmdara, yoxsa keşişə itaət edilməli olduğunu heç vaxt dəqiq bilmək mümkün deyildir. Ümumiyyətlə, xristian dini, başlıca olaraq, itaətkarlığı və mütiliyi öyrədir. Xristian özünün vətəndaşlıq borcunu çox böyük etinasızlıqla yerinə yetirir; Vətənində işlərin pis, yaxud yaxşı getməsi onun vecinə deyildir. Hətta insanları kimin və necə idarə etdiyi də onun üçün vacib deyildir. Russo özünün dini baxışlarını "Savoyyalı vikarinin dininə etiqad" əsərində kifayət qədər dolğun şərh etmişdir.

Russoya görə, əxlaq dinə əsaslanır – yalnız əxlaqlı adam fəzilətli ola bilər. O, hələ ilk əsərlərindən birində – "Elmin və sənətin dirçəlişi mənəviyyatın paklaşmasına kömək etmişdirmi" adlı əsərində əxlaqı elmə qarşı qoyur. Russo bəşəriyyətin inkişafının iki müxtəlif yolunu təsvir edir: onlardan

biri elmlə bağlıdır, sənaye elmin nailiyyətləri sayəsində inkişaf edir və tərəqqi əldə olunur – bütün bunlar qeyri-həqiqi, insaniyyətsiz, pozğun sivilizasiyanı xarakterizə edir. Burada insanlar təbiətdən ayrı düşmüş, nəhəng kütlədə toplaşmışlar, burada basırıqlıq, natəmizlik, yoxsulluq, miskinlik hökm sürür. Digər yol təbiətin qoynunda, sakit və rahat şəraitdə dinc həyat yoludur. Elə həyat ki, burada qazanc dalınca qaçmırlar, təmiz hava, bulaq suyu, gül-çiçək ətri, özünün və yaxınlarının rifahı naminə sevincli əmək kimi "əbədi dəyərlər" insan üçün daimi sərvət olaraq qalır.

Xeyirxahlıq, mərhəmət, digər insanlara qayğı yalnız bu yolda möhkəmlənir – mənəvi paklıq saxlanılır. Russo "mülki din"in yeni formasını – ümumi razılıq dinini rəsmi feodal-klerikal ehkamlarına və ateist dünyabaxışına qarşı qoyurdu.

Russo yazır: "Mülki dinin ehkamları sadə, azsaylı olmalı, dəqiq, izah və şərhlərsiz ifadə edilməlidir – qadir, ağıllı, fəzilətli, tədbirli və qayğıkeş Tanrı mövcuddur; axirət həyatı, möminlərin xoşbəxtliyi, bədxahların cəzalandırılması, ictimai müqavilənin və qanunların müqəddəsliyi – müsbət ehkamlar bax, bunlardır"[1]. Allaha həqiqi ibadət ona ürəkdə ibadət etmək deməkdir, yaxşı keşiş xeyirxahlığa xidmət edəndir. Fanat olmamalı, digərlərindən cəfəng adətləri sözsüz yerinə yetirməyi tələb etməməli, əksinə, real surətdə xeyirxahlıq etməli – mömin bəndənin fəaliyyətinin mənası bax, bundan ibarət olmalıdır. Russo "mülki din"in ehkamlarına bunları əlavə edirdi: bir xalqın qalan bütün dinləri inkar edən dini yoxdur, vətəndaşın vəzifəsinə zidd olmayan bütün dinlərə dözmək lazımdır. Lakin Russonun dini baxışları tam müəyyən deyildi: o, gah protestantlıqdan katolikliyə keçir, gah da rədd

[1] Ж.Ж.Руссо.Трактаты, стр.254-255.

edilmiş məzhəbə qayıdırdı ki, bu da onun ideyalarına etimadın artmasına imkan vermirdi.

Monteskyö kimi, Russo da hesab edirdi ki, azadlıq bütün xalqlara müyəssər deyildir. Üstəlik, o, Yer kürəsinin bu və ya digər məkanında idarəetmə formasının təşəkkülündə coğrafi determinizm qanununun müəyyənləşdirici rolu mövqelərindən çıxış edirdi. Monteskyönün ardınca, Russo da göstərirdi ki, idarəetmə baxımından xalqın prioritetlərinin təşəkkülündə iqlimin çox böyük əhəmiyyəti var, bu isə istehlak dəyərləri ilə bağlıdır. Əkinçilik üçün əlverişli olan isti iqlim şəraitində əmək məsrəfi sıfıra bərabərdir, çünki əkin-biçin üçün az səylər və üsullar tətbiq edilir ki, bu da müstəbidliyə meyilli təfəkkür tərzinin formalaşmasına təsir göstərir. Russo vurğulayır ki, "iqlim xüsusiyyətləri ilə əlaqədar müstəbidlik isti, barbarlıq soyuq ölkələr üçün, ən yaxşı idarəetmə isə onların arasında yer tutan vilayətlər üçün yararlıdır"[1].

Russonun fikrincə, iqlim fərdlərin sosial fəaliyyətə münasibətini formalaşdırır. Onların yeməyə, dəbdəbəyə, paltara, davranış tərzinə münasibəti məskunlaşdıqları iqlim zolağının xüsusiyyətləri ilə bağlıdır. İsti ölkələrdə insanlar az yeyirlər, halbuki, elə həmin ölkələrdə iqlim tez-tez dəyişmədiyinə görə, bu mötədillik geyimdə hiss edilmir. Avropalılar çoxyeyən olsalar da, geyimdə daha mötədildirlər, çünki burada iqlim dəyişkəndir.

Russo yazır ki, idarəetmə üsulları öz təbiəti etibarilə fərqlənir. Cəmiyyətdə yığılan vergilərin sürətlə dövr etdiyi idarəetmə daha səmərəlidir. Belə olan halda, xalqın maliyyə vəziyyəti əlverişli olur. Lakin xalqa daim ağır vergilər

[1] Ж.Ж.Руссо.Общественный договор или Принципы политического права, книга 3, глава 8.

qoyulursa və bu zaman o, az qazanc götürürsə, onda "Dövlət heç zaman varlı olmur, xalq isə həmişə kasıbdır"[1]. İdarəetmə forması vergilərin həddini müəyyən edir. Russo yazır: "Demokratiyalarda xalqa daha az vergi qoyulur; aristokratiyalarda ondan daha çox vergi qoyulur; monarxiyalarda o, daha böyük məşəqqətlər çəkir"[2]. Deməli, demokratiyalarda hər şey ümumi faydaya xidmət edir, monarxiya və aristokratiyalarda isə şəxsi və ictimai mənafelər qarşı-qarşıya qoyulur, cəmiyyət üzvlərini zəiflətməyə cəhd göstərilir. Beləliklə, coğrafi xüsusiyyətlərin səbəb olduğu təbii əsaslar idarəetmə formasını və cəmiyyətin məqsədlərini şərtləndirir.

Doğrudur, məşhur Rusiya tarixçisi, etnoqraf və etnoloqu Lev Qumilyov passionarlıq nəzəriyyəsində cəmiyyətin inkişaf dinamikasının səbəblərini cəmiyyətdə yaşayan fərdlərin keyfiyyətlərində görürdü. O, hesab edirdi ki, yeni etnosun formalaşması, yəni onun təşəkkülü həmişə bəzi fərdlərdə mühitin dəyişdirilməsinə yönəldilmiş məqsədyönlü fəaliyyətə daim daxili bir istəyin olması ilə bağlıdır. Özü də belə fərdlər qarşıya qoyulmuş məqsədə çatmağı özlərinin həyatından üstün tutur, yəni daxilindəki özünüqoruma instinktini boğurlar. Nadir hallarda rast gəlinən belə hallar növün davranış normasından kənaraçıxma deməkdir.

Bu hal Qumilyova qədər heç yerdə və heç kim tərəfindən nə təsvir edilmiş, nə də araşdırılmışdır. Belə əlamətlərə malik olan şəxslər özləri üçün əlverişli şəraitdə elə hərəkətlər edirlər ki, bunlar cəmlənərək, ənənənin ətalətini pozur və yeni etnosların yaranmasına səbəb olur. Bu genetik əlamətin

[1] Ж.Ж.Руссо.Общественный договор или Принципы политического права, книга 3, глава 8.

[2] Yenə orada.

doğurduğu xüsusiyyət çoxdan bəlli idi. Lakin onun təsviri üçün "sosial passionarlıq" terminini ("passio" – ehtiras deməkdir) məhz L.N.Qumilyov təklif etmişdir.

L.N.Qumilyova görə, passionarlıq ətraf mühiti dəyişdirməyə çalışmaq, yaxud fizika dilində desək, mühitin aqreqat halının ətalətini pozmaq qabiliyyəti və buna çalışmaq deməkdir. Passionarlıq impulsu elə güclü olur ki, bu əlamətin daşıyıcıları – passionarilər özlərini öz hərəkətlərinin nəticələrini bəri başdan nəzərə almağa vadar edə bilmirlər. Bu çox mühüm haldır və göstərir ki, passionarlıq şüurun deyil, təhtəlşüurun atributudur, əsəb fəaliyyətinin quruluşunun xüsusiyyətində özünü göstərən əlamətdir. Passionarlıq dərəcələri müxtəlifdir, lakin onun görünən və tarix tərəfindən qeydə alınan təzahürlərinin olması üçün passionarilər çox olmalıdır, yəni, bu, təkcə fərdi əlamət deyil, həm də populyasiya əlamətidir.

Əgər kəndli kral ola bilərsə, elə düşünmə ki, artıq krallıqda demokratiyadır.

Vudro Vilson

Passionarlıqdan irəli gələn əməllər ümumbəşəri özünüqoruma instinktinin – şəxsi və növ – olması nəticəsində edilən adi əməllərdən asanlıqla seçilir. Özünü bəzən bütün ömür boyu güdülən bu və ya digər məqsədə həsr etmək passionarilər üçün səciyyəvi haldır. Bu deyilənlərdən mühüm bir nəticə hasil olur: etnik kollektivin yerinə yetirdiyi iş onun passionar gərginliyinin səviyyəsinə bilavasitə mütənasibdir.

Elə görünə bilər ki, L.N.Qumilyov passionarlığa tarixdə həlledici amil əhəmiyyəti verir. Lakin belə deyildir. O, passionarlıq haqqında təlimdən etnogenezin birtərəfli öyrənilməsi nəticəsində yaranmış boşluğu doldurmaq üçün istifadə etmişdir.

Etnik proseslərə səbəbiyyət təsirlərinin qrupları arasındakı nisbəti göstərməyə çalışaq. Məlumdur ki, ictimai inkişafın birinci və başlıca amili məhsuldar qüvvələrin səviyyəsidir, onların artımı istehsal münasibətlərinin dəyişməsinə doğru aparır. İkinci amil coğrafi mühitdir və onu inkar etmək olmaz.

Əlaqəli şəkildə bu amillər hadisələrin fərdi simasını deyil, sosial-tarixi proseslərin ümumi istiqamətini müəyyən edir. Tarixi prosesdə məhz həmin hallar olduqca mühüm rol oynayır. Beləliklə, ictimai prosesdən doğan suala düzgün cavab almaq üçün aşağı səviyyə amilini – hadisələrin məntiqini tətbiq etmək lazımdır, o, özlüyündə qanunauyğun, lakin yüksək səviyyəli proseslər üçün təsadüfi olan səbəb-nəticə əlaqələrinin qısa zəncirlərini nəzərə alır. Bu qısa qanunauyğunluqlar isə ikinci dərəcəli təsadüflərdən asılıdır və s. Qlobal proseslər nəzərdən keçirilərkən bu variasiyalara məhəl qoymamaq olar, amma etnogenez üçün onların nəzərə alınması zəruridir. Biosferin təşəkkülünə aid olan passionar partlayışların rolu bax, burada üzə çıxır. Başqa sözlə, passionarlıq etnogenezi müəyyənləşdirən yeganə amil olmasa da, bu amilin mövcudluğu məcburidir. Passionar-lıqsız etnogenez yoxdur. Ona görə də etnogenez problemləri öyrənilərkən passionarlığın inkarı yanlış nəticələrə gətirib çıxaracaqdır. Təəccüblü olsa da, cəmiyyətdə idarəetmə formasını və bu və ya digər xalqın tarixi və mədəni arxetiplərinə əsaslanan dövlət hakimiyyəti obrazını məhz passionarlıq müəyyən edir.

Beləliklə, cəmiyyətin zaman çərçivəsində hərəkəti haq-qında elm kimi tarix cəmiyyətdə və təbiətdəki hadisələrin bəzi qanunauyğunluqlarını izləməyə imkan verir. Məsələn, müasir "qlobal ekoloji böhran sonsuz tərəqqinin mümkünsüzlüyünü

nümayiş etdirir, Yerin biosferinin dinamikasında bəşər tarixinin dərin köklərinin olduğunu üzə çıxarır" və tarixin cəmiyyətlə təbiətin birgə inkişafı kimi başa düşülməsini bizə yeni tərzdə göstərir[1]. Deməli, tarix nəinki özlüyündə, həm də siyasi-iqtisadi sistemlərin, tarixi dəyişikliklərin sürətinin, o cümlədən demokratik tranzitlərin mərhələlərinin öyrənilməsi zamanı elmi fənn kimi faydalı ola bilər. Demokratik tranzitlər elmi ədəbiyyata "demokratik dalğalar" kimi daxil edilmişdir.

§ "DEMOKRATİYA DALĞALARI"

Dünya təcrübəsi göstərmişdir ki, Avropa mütəfəkkirlərinin sosial tərəqqinin əsas istiqaməti kimi bərabərlik və azadlıq barədə baxışlarının yayılması mövcud siyasi və iqtisadi qaydanın dəyişməsi əlaməti altında inkişaf etməyə başlamış Avropa ölkələrinin ictimai-siyasi həyatında transformasiyaya təsir etmişdir. Demokratik ideyalar, daha dəqiq desək, hər bir fərdin hüquqlarının bərabərliyinə əsaslanan açıq və sivilizasiyalı cəmiyyət qurmaq istəyi hər cür dəyişikliklərin bazisi kimi qəbul edilməyə başlanmışdır. Avropanın XVII əsrin axırlarında qarşılaşdığı sosial transformasiyalar və ictimai-siyasi deformasiyalar, əslində, demokratik ideyaların bir-birini əvəzləyən, bəzən genişmiqyaslı işğalçılıq yürüşləri və iki dünya müharibəsi ilə kəsilən qabarma və çəkilmələrini xatırladırdı.

Niderland və İngiltərədə inqilablar, ABŞ-ın müstəqilliyinin elan edilməsi və Fransada burjua inqilabı qlobal demokratik qabarmanın başlanğıcı olmuşdur ki, bu da sonralar Avropada Napoleonun istilaçı yürüşləri ilə dayandırılmışdır. Lakin böyük müharibələr millətlərin demokratik və sabit məkan qurmaq meylini ancaq gücləndirirdi. Hər belə yarımçıq dalğadan və bər-

[1] Всемирная энциклопедия. Философия. М; 2001, стр. 446.

qərar olan dünya qaydasına növbəti postmünaqişə uyğunlaşmasından sonra demokratik meyillər Avropa əhalisinin əksər hissəsinin zehninə yenidən hakim kəsilmiş, ictimai-siyasi prosesin prioritet təmayülünə çevrilmişdir.

Demokratiyanın dövlət və cəmiyyətin inkişafının əsas istiqaməti kimi irəli sürüldüyü indiki vaxtda monarxiya prinsipləri və kral ailələrinin qohumluğu əsasında formalaşmış Avropa dövlətlərinin (təkcə onların deyil) qarşılaşdıqları tarixi transformasiyaların bütün mürəkkəbliyini real surətdə dərk etmək və qiymətləndirmək bəzən çətindir.

Onlar cəmiyyətdə bərabərhüquqlu münasibətlər yaranması naminə quldarlıqdan, təhkimçilik hüququndan və təkbaşına idarəetmədən imtina etməli, habelə yeni baxışların təntənəsini etiraf etməli olmuşlar. Lakin unutmaq olmaz ki, mütəfəkkirlərin qələmindən çıxan demokratiya ideyaları bütün bəşəriyyətin zəkasında real təcəssüm edənə qədər uzun və əzablı yol keçərək ictimai şüurda rəğbət qazanmışdır.

Təbii ki, müasir dünyada demokratiya anlamından çox vaxt xarici siyasət dialoqunda ancaq atribut kimi istifadə edilir. Lakin əsas etibarilə, demokratiya suveren dövlətin tamdəyərli inkişafının həmişə mühüm, hətta deyərdik, təməl amili olmuşdur. "Demokratiya" anlayışının tərifi olduqca çoxdur. O, siyasi elmin görkəmli tədqiqatçılarının əsərlərində bu və ya digər formada açıqlanmışdır. Demokratiyanın bəzi, daha məşhur tərifləri xatırlatmaq istərdik.

Ralf Darendorff: "Azad cəmiyyət öz təsisat və qruplarındakı fərqləri həqiqətən fikir ayrılıqlarını təmin edən səviyyəyədək dəstəkləyir; münaqişə azadlığın həyati əhəmiyyətli nəfəsidir".

Adam Pşevorski: "Demokratiya siyasi hakimiyyətin elə təşkilidir ki, ... o, müxtəlif qrupların öz səciyyəvi maraqlarını gerçəkləşdirmək qabiliyyətini müəyyən edir".

Arendt Leypxart: "Demokratiya nəinki xalq vasitəsilə idarəetmə kimi, həm də, Prezident Avraam Linkolnun məşhur müddəasına uyğun olaraq, xalqın bəyəndiyinə müvafiq surətdə idarəetmə kimi müəyyən edilə bilər... Demokratik rejimlər məsuliyyətin mütləq deyil, yüksək dərəcəsi ilə xarakterizə olunur: onların hərəkətləri uzun zaman kəsiyi ərzində vətəndaşların nisbi çoxluğunun istəklərinə xeyli dərəcədə uyğun gəlir".

Roy Makridis: "Dövlət və cəmiyyət arasında qarşılıqlı asılılığın artmasına, habelə dövlətin fəaliyyətinin (xüsusən iqtisadiyyatda) getdikcə genişlənməsinə baxmayaraq, liberal demokratiyadan tutmuş sosialist demokratiyasınadək bütün növlərində demokratiya dövlətlə cəmiyyətin fəaliyyət sahələrinin bölgüsünə xüsusi diqqət yetirir".

Xuan Lints: "Demokratiya... birləşmək azadlığı, söz azadlığı hüququnun və şəxsiyyətin digər başlıca siyasi hüquqlarının olduğu siyasi alternativləri formalaşdırmaq və müdafiə etmək üçün qanuni hüquqdur; cəmiyyət liderlərinin cəmiyyətin idarə olunmasına iradları vaxtaşırı qiymətləndirilməklə, onların azad və qeyri-zorakı surətdə yarışıdır; bütün səmərəli siyasi təsisatların demokratik prosesə qoşulmasıdır; siyasi mövqelərindən asılı olmayaraq, siyasi birliyin bütün üzvləri üçün siyasi fəallıq şəraitinin təmin edilməsidir... Demokratiya hakim partiyaların hökmən dəyişdirilməsini tələb etmir, lakin belə dəyişmə imkanı olmalıdır, çünki belə dəyişikliklər faktının özü rejimin demokratik xarakter daşıdığının əsas sübutudur".

Xuan Lints "Dövlətçilik, millətçilik və demokratikləşdirmə" əsərində yazır: "Demokratiya müasir dövləti idarə etmək formasıdır... Dövlət olmadan heç bir müasir demokratiya mümkün deyildir"[1]. Çünki "qanunvericilik vasitəsilə dəyişən inzibati qaydaya və hüquq qaydasına yalnız dövlət malikdir, bu

[1] "Polis" jurnalı, 1997-ci il, № 5, səh.10.

qaydaya uyğun olaraq, inzibati heyətin qanunla tənzimlənən mütəşəkkil korporativ fəaliyyəti həyata keçirilir. Bu qayda sistemi təkcə dövlətin üzvləri, əksəriyyətinin doğulduğu gündən üzvlüyə malik olan vətəndaşlar üzərində deyil, həm də hakimiyyətin tabeliyindəki ərazidə baş verən bütün hərəkətlər üzərində çox böyük dərəcədə məcburi hakimiyyət iddiasındadır. Beləliklə, bu, ərazi əsası olan məcburi assosiasiyadır. Üstəlik, hazırda zorakılığın tətbiqi o vaxt legitim sayılır ki, ona yalnız dövlət tərəfindən yol verilmiş, yaxud dövlət onu tələb etmiş olsun... Müasir dövlətin zorakılığın tətbiqi inhisarına malik olmaq iddiası onun üçün məcburi yurisdiksiya və təşkilin fasiləsizliyi xüsusiyyətləri kimi eyni dərəcədə vacibdir"[1].

Filipp K.Şmitter və Terri Linn Karlın qeyd etdikləri kimi, "müasir siyasi demokratiya elə bir idarəetmə sistemidir ki, burada hakimiyyətlər ictimai sahədə öz hərəkətlərinə görə vətəndaşlar qarşısında cavab verirlər, vətəndaşlar isə maraqlarını öz seçkili nümayəndələrinin rəqabəti və qarşılıqlı əlaqəsi vasitəsilə həyata keçirirlər".

Xalq hakimiyyəti kimi, demokratiya anlayışı artıq özünün meydana gəldiyi dövrdə qədim Yunanıstanda və erkən Roma respublikasında şəhər-dövlətin – polisin sadə və anlaşıqlı birbaşa demokratiyasından, əslində, istənilən hakimiyyətin nümayəndələrinin müraciət etdikləri çox mürəkkəb kateqoriyaya kifayət qədər tez təkamül etmişdir.

Sirr deyil ki, yeni dünya nizamında bəzi dövlətlər siyasi, iqtisadi və sosiomədəni maraqlarının gerçəkləşdirilməsi üçün demokratiyanın məna yükündən istifadə edirlər. Belə "şahmat oyunları"nın pərdəsi altında çox vaxt neoliberal transformasiyalar və onlarla əlaqədar olan geostrateji mənafelər gizlənir.

[1] M.Weber. The Fundamental Consepts of Sociology. Parsons T. (ed) The Theory Social and Economic Organization. N.Y., 1964, p.156.

Son onilliklər ərzində biz ideyaların və gücün bisentrik siyasi rəqabətinin kifayət qədər tez-tez şahidləri, bəzən də iştirakçıları olmuşuq. Yeni minillikdə demokratiyadan konkret məqsədləri həyata keçirmək üçün istifadə edilir, həmin məqsədlərin də mahiyyəti *Pax Americana*-nın, yəni yeni ideyaların hegemon olduğu dünyanın təsir dairəsini genişləndirmək və yeganə fövqəl dövlətin dünya siyasətində hərbi-siyasi qüdrətini gücləndirməkdən ibarətdir. Bununla bərabər, neoliberalizm xarici siyasi niyyətlərin gerçəkləşdirilməsi üçün yarlık kimi tətbiq edilir, beynəlxalq münasibətlər isə demokratik rejimlərin müəyyənləşdirilməsində və dəstəklənməsində hər cür kazusların nümayiş etdirilməsi ilə müşayiət olunur. Məsələn, İran və Liviyada demokratiya vaxtilə ABŞ-ın dəstəklədiyi taliblərdəkindən heç də az deyildi. Bundan başqa, etnomilli münaqişə zamanı əsas hüquq və azadlıqların pozulması, eyni zamanda, cəmiyyətin demokratikləşdirilməsi ilə bağlı daxili problemlərin üzə çıxarılması (siyasi və psixoloji təzyiq amili kimi) demokratik ideyaların yanlış yozulmasına səbəb olur. Demokratiya prinsipləri çox vaxt monosentrik nümunələr xarakteri alır ki, onlar da bəzi dövlətlərə üstünlüklər verir, digərlərinin üzərinə isə məhdudiyyətlər qoyur.

Demokratiya bizi layiq olduğumuzdan daha yaxşı idarə etməyəcəklərinə təminat verən bir quruluşdur.

Bernard Şou

Ortaya belə bir sual çıxır: doğrudanmı, Qərb ideyaları bütün bəşəriyyət üçün universaldır və müasir dünya quruculuğu üçün bu qədər zəruridir? Bəşəriyyət onları vahid dünya nizamının əsası kimi qəbul etməlidirmi? Qərb dünyasının universalizm iddiasında olan standartlarında siyasi, iqtisadi və mədəni uyğunsuzluğun olması mümkündürmü?

Ötən minilliyin tarixinin göstərdiyi kimi, demokratiya heç də təkcə bərabərlik, azadlıq və xalq hakimiyyəti ideyası olma-

mışdır. Mücərrəd anlayış olan idarəetmə sistemi və ya istənilən sosiumun həyatının təşkili kimi hakimiyyətin, əslində, meydana gəldiyi andan reallığı və tarixi formaları şübhə altına alınan demokratiya öz imkanlarını getdikcə daha çox açır və hüdudlarının olmadığını nümayiş etdirir. Hazırda elə bir ictimai-siyasi quruluş tapmaq çətindir ki, onda hətta avtoritar və ya totalitar idarəçilik olsa da, o, özünü demokratik (idarə olunan, yaxud nümayəndəli) quruluşla eyniləşdirməyə çalışmasın. İctimai-siyasi passivliyin kök atdığı, sosial tənəzzülə məruz qalan ənənəvi anlamlı dövlətlərdə də çox vaxt demokratiyanı milli inkişafın əsas vektoru və ictimai şüurun mühüm elementi kimi nümayiş etdirmək istəyirlər.

Mahiyyətcə avtarkiya olan Sovet İttifaqının varlığı dövründə hakimiyyətin qanunverici orqanlarına "seçkilər" müntəzəm keçirilirdi, – bu, dünya ictimaiyyətində o vaxtkı partiya rəhbərliyinin demokratik xətt yürütdüyü barədə təsəvvür yaratmalı idi, – idarəetmə forması isə "sosialist demokratiyası" adlandırılırdı, halbuki o, satellit ölkələrdə "xalq demokratiyası" adını daşıyırdı. Lakin aydın idi ki, bu cəmiyyətlərdə demokratiyadan və hansısa müsbət dəyişikliklərdən danışmağa dəyməzdi. Əvəzində, kommunist ideologiyası Qərb siyasi strukturunu demokratiya şüarları ilə pərdələnən "burjuaziya diktaturası" hesab edirdi.

Demokratiyanın vahid standartı olmadığı kimi, onun mücərrəd forması da yoxdur. Əgər demokratik ideyalar xalqın tarixinin, milli mənlik şüurunun, mentalitet və ənənələrinin xüsusiyyətləri və reallıqları ilə uyğun gəlirsə, daha uğurla assimilyasiya olur. Çünki yad mühitdə "yetişdirilmiş" ideologiya "yad orqanizm"ə həmişə və dərhal uyğunlaşa bilmir. F.Şmitter və T.L.Karlın yazdıqları kimi "konkret ölkədə demokratiyanın konkret forması sosial-iqtisadi şəraitdən, dövlətin ənənəvi strukturundan və qəbul olunmuş siyasi praktikadan asılıdır". Ona görə də yeni məkanlarda demokratiya naməlum, amma

vaxt keçdikcə nail oluna bilən məqsəddir və ona cəhd göstərilməsi elə bir qayda yaradılmasını şərtləndirir ki, burada fərd formal surətdə nəinki ümuminin bir hissəsinə çevrilir, həm də ümumi rifah naminə real olaraq ümuminin bir hissəsidir.

Bununla yanaşı, demokratiya cəmiyyətin az sivilizasiyalı sosial qaydadan daha sivilizasiyalıya ictimai-siyasi transformasiyasının təkcə təsdiqi demək deyildir. İctimai şüurda müsbət dəyişikliklərlə yanaşı, demokratik baxışlar bir siyasi və iqtisadi sistemdən digərinə keçidə təkan verir. Demokratiya industrializmin inkişafını təşviq etmişdir, çünki liberalizm azad sahibkarlıq üçün ilkin zəmin yaratmış, xüsusi mülkiyyətin təhlükəsizliyinə və toxunulmazlığına təminat vermiş, fərdi onun həyatına kənar müdaxilədən qoruyaraq, *privacy* (şəxsi – privat həyatın toxunulmazlığı hüququnu) təmin etmişdir. Sənayeləşdirmənin inkişafı qanunauyğun olaraq, növbəti – postindustrial eranın meydana gəlməsinə gətirib çıxarmışdır ki, bu erada da fərdin azadlığı şəksiz fakt sayılır, ictimai rifahın yeni istiqamətləri isə təhtəlşüur sosiomədəni arxetipdə təsbit edilmişdir.

Postindustrial cəmiyyətin insanı özünün təhlükəsizliyi, şəxsi həyatının və mülkiyyətinin toxunulmazlığı sarıdan narahatlığı olmayan, azadlığı və bərabərliyi vətəndaşlara verilmiş dövlət borcunun bir hissəsi kimi deyil, insana ancaq Allah və ya Təbiət tərəfindən verilmiş müstəsna hüquq kimi dərk edən azad vətəndaşdır. Bir çox yüzilliklər ərzində bəşəriyyət buna doğru irəliləmişdir ki, hər bir fərd demokratiyanın və ona verilmiş hüquq və azadlıqların mahiyyətini bütün varlığı ilə hiss etsin.

Sənayeləşdirmə insana azadlığın yalnız bir hissəsini vermişdir. Bəli, o, insanı azad etmişdir, lakin bir epoxadan digərinə keçidin problemlərinin, habelə industrial eranın xüsusiyyətlərinin doğurduğu çətinliklərlə qarşılaşan insanın təfəkkürü şəxsiyyətin ancaq qismən azad olmasına imkan vermişdir. Əgər sənayeləşdirmə epoxasında insanın azadlığı siyasi və iqtisadi

cəhətlərlə müəyyən olunurdusa, postindustrializm bu anlayışlara öz düzəlişlərini etmişdir. İndi biotexnologiyalar, biotəbabət, gen mühəndisliyi və klonlaşdırma sahəsində yeni nailiyyətlər insanların hüquqlarını, azadlığını və bərabərliyini prinsipcə başqa müstəviyə keçirir.

Elə məsələlər meydana çıxır ki, əlli ildən çox bundan əvvəl bəşəriyyət onları qaldırmağı heç ağlına da gətirmirdi, çünki belə problemlərin aydın sərhədlərini görmürdü. Məsələn, insanın koital (F.Fukuyama – hamılıqla qəbul edilmiş) vasitələrlə artmasının məhdudlaşdırılmış və ya məhdudlaşdırılmamış azadlığı haqqında məsələnin müzakirəsi müasir dünyada zərurətə çevrilmişdir. Liberal cəmiyyət üçün baza prinsipləri olan "etik fərdiyyətçilik" prinsipləri gen mühəndisliyi haqqında ümumdünya diskussiyasının əsasını təşkil etmişdir. Postindustrial dünyada insana bəxş edilmiş azadlıqlar cəmiyyətin elmi-texniki inkişafı artdıqca meydana gələn hüquqlarla ziddiyyətə girir. Lakin postindustrializm reallığında bir-biri ilə rəqabət aparan heç də təkcə hüquqlar deyildir. Nobel mükafatı laureatı, DNT strukturunu kəşf edən Ceyms Uotson yazır ki, tələbata və maraqlara əsaslanan utilitar yanaşma mövcuddur.

Lakin postindustrial eranın hüquq və azadlıqları nə qədər cəlbedici olsa da, sosial gerçəkliyin qavranılmasının başlıca dayağı maraqlar və tələbat deyil, yalnız bərabərlik və ədalətdir. Amerika demokratiyasının atası Tomas Cefferson vaxtilə yazmışdır: "Biz aşağıdakı həqiqətləri özlüyündə məlum olan həqiqətlər hesab edirik: bütün insanlar bərabər yaranmışlar, Tanrı onlara müəyyən ayrılmaz hüquqlar vermişdir, bunların arasında yaşamaq, azadlıq və xoşbəxtliyə qovuşmağa çalışmaq hüququ da var".

Məşhur Amerika politoloqu Frensis Fukuyamanın "Bizim postbəşəri gələcəyimiz" əsərində həmin fikri əsaslandıran gözəl misal var: "Mühüm vəzifə tutan ictimai liderə sərxoşluğu ucbatından yeni qaraciyər gərəkdir, yoxsul və ictimai xəstə-

xanada ölümcül xəstə olan mən isə borularla və aparatlarla yaşayıram, amma qaraciyərim sağlamdır. İnsan tələbatının maksimum ödənilməsinə nail olmağı qarşısına məqsəd qoyan istənilən sadə utilitar yanaşma deyər ki, məni aparatlardan məcburi qaydada ayırmaq və mühüm lider və ondan asılı olan adamlar naminə qaraciyərimi çıxarmaq lazımdır. Heç bir liberal cəmiyyətin bunu rəva görməyəcəyi isə belə bir nöqteyi-nəzəri əks etdirir ki, bu cür hərəkətlərlə ödənilən tələbat nə qədər zəruri olsa da, heç bir günahı olmayan insanın həyatdan məcburi məhrum edilməyə məruz qalmamaq hüququ var"[1].

Postindustrializm insan azadlığı anlamına öz düzəlişlərini etmişdir. Mahiyyət etibarilə, mənəvi və etik baxımlardan postindustrializm insan həyatında mənəvi cəhətlərin rolunu əhəmiyyətli dərəcədə qabardaraq insanı ucaltmışdır. Bununla yanaşı, o, industrial azadlıqla postindustrial azadlığı arasında > yaxud < ("çox" və ya "az") işarəsi qoymuşdur. Bu və ya digər epoxanın üstünlüyü məhz azadlığın mahiyyətindən irəli gəlir. İrəlidə biz postmodern insanının məhz hansı azadlığa qovuşmağa çalışmalı olduğunu və onu qlobal dəyişikliklər və yeni kəşflər baxımından hansı problemlər gözlədiyini müəyyənləşdirmək üçün həmin məsələ üzərində daha ətraflı dayanacağıq.

Lakin bütün bu dəyişikliklər və transformasiyalar heç də təkcə qlobal iqtisadi qarşılıqlı asılılıq və yeni eraya sıçrayış sayəsində mümkün olmamışdır. İctimai-siyasi sistemin dəyişməsinin doğurduğu demokratik dəyişikliklər *homo sapiens* üçün yeni imkan və bacarıqlar açmışdır. Demokratiyanın dəyişilən dalğaları bəşəriyyətin hərtərəfli inkişafı üçün zəmin yaratmışdır, çünki istibdad idarə üsulunda xüsusən fərdin və ümumən cəmiyyətin keyfiyyətli və səmərəli inkişafından danışmaq mümkün deyildir. Deməli, demokratik idarəetmə sayəsində bəşəriyyət müasir dünyada malik olduğu elmi-texniki zirvələrə çatmışdır.

[1] Ф.Фукуяма. Наша постчеловеческое будущее. М., 2004, стр. 156.

Lakin əgər hətta demokratik baxışlar bəşəriyyətin hərtərəfli inkişafı üçün şərait yaratmış olsa da, beynəlxalq münasibətlərdə vasitə kimi demokratiyadan tez-tez istifadə edilməsi açıq cəmiyyətin və vətəndaş cəmiyyətinin qurulmasına dair irəli sürülən reseptlərin mahiyyəti barədə birmənalı olmayan münasibət doğurur. Belə yanaşma bir çox yeni müstəqil dövlətlər üçün xeyli dərəcədə sovet keçmişini və Oruellin Böyük qardaş əlaməti altında meydana gəlmiş vahid siyasi və iqtisadi hegemonluq ideyasını xatırladır.

Demokratikləşmə proseslərinin tarixi təcrübəsinin öyrənilməsi avtokratiyadan demokratik rejimə keçidin müxtəlif yollarını fərqləndirmək üçün nəzəri maraq doğurur. Məsələn, Amerika politoloqu S.Lakof demokratik quruluşun təşəkkülünün aşağıdakı tarixi modellərini göstərmişdir:

1. İnqilab yolu ilə. XVIII əsr İngiltərə burjua inqilabı, Böyük Fransa inqilabı və Şimali Amerikanın Birləşmiş Ştatlarında müstəqillik uğrunda müharibə bu modelin klassik nümunəsidir. XX əsrin reallıqlarına uyğun olaraq, Rusiyada 1917-ci il Fevral inqilabını (bəzən onu çevriliş adlandırırlar) və Portuqaliyada 1974-cü il Aprel inqilabını bu modelə aid etmək olar. Mərkəzi və Şərqi Avropa ölkələrində 1989-cu ildə baş vermiş inqilabi hadisələr də buraya daxildir.

2. Təkamül yolu ilə. Bu model XVII əsr ərzində – XX əsrin birinci yarısında mütləq monarxiyadan və ya oliqarxiya idarə üsulundan demokratik quruluşun müasir variantının təşəkkülünədək uzun siyasi təkamül keçən bir sıra Avropa ölkələri üçün xarakterikdir. Təkamül yolu Latın Amerikası və Asiyanın bir sıra dövlətləri üçün də xarakterikdir.

3. Kənar təsir nəticəsində və ya kənardan bir növ qəbul etdirilmiş model. Burada İkinci Dünya müharibəsindən sonra Almaniyada, İtaliya və Yaponiyada demokratik siyasi sistemin

təşəkkülündən söhbət gedir. Bu ölkələrdə faşist və militarist rejimlərin darmadağın edilməsi, onların ərazilərində işğalçı müttəfiq qoşunlarının yerləşdirilməsi orada demokratik siyasi rejimin təşəkkülü və sonralar möhkəmlənməsi üçün şərt olmuşdur.

4. Yuxarıdan həyata keçirilən demokratik transformasiya. Bu variant demokratiyanın inkişafının təkamül yolu ilə sıx çulğaşır. Həmin model hakim siyasi elitanın cəmiyyətdə böhran təhlükəsini dərk edərək və bu böhranı sovuşdurmağa çalışaraq, demokratik müxalifətlə danışıqlara gedən və siyasi sistemdə nəticə etibarilə demokratik rejimin təşəkkülünə doğru aparan islahatın həyata keçirilməsinə (bu və ya digər dərəcədə ardıcıllıqla) başlayan ölkələr üçün xarakterikdir. Bu model, məsələn, 1970-ci illərin axırları – 80-ci illərin əvvəllərində Frankodan sonrakı İspaniya, habelə Braziliya üçün səciyyəvidir.

> *Demokratiyada səfehlərin səs vermək, diktaturada isə idarə etmək hüququ vardır.*
>
> ***Bertran Rassel***

5. Qarışıq model. O, əvvəlki variantların hamısını və ya çoxunu əhatə edir, çünki ölkələrin əksəriyyətində (xüsusən də müasir, Üçüncü dalğa ölkələrində) demokratikləşmənin yuxarıda göstərilən modelləri olduğu kimi təzahür etməmişdir. Məsələn, əgər Portuqaliyada demokratikləşmə üçün ilkin təkan 1974-cü il inqilabı olmuşdusa, ayrı-ayrı dövrlərdə kəskin siyasi mübarizə şəraitində cərəyan etmiş sonrakı proses demokratikləşmənin dəstəklənməsi uğrunda kütləvi hərəkatlarla, daha sonralar isə hakim elitanın rəhbərliyi altında rejimin nisbətən dinc təkamülü ilə müşayiət olunmuşdur. Oxşar qarışıq model keçmiş SSRİ respublikaları üçün də, Şərqi Avropanın bir çox postsosialist ölkələri üçün də xarakterikdir.

S.Hantinqton demokratiyaya keçidin bir qədər başqa, amma ümumən, oxşar təfsirinə tərəfdardır və o da aşağıda sadalanan dörd tipi fərqləndirir:

1. Vahid səbəb. Bir neçə dövlət üçün demokratiyanın bərqərar edilməsinə gətirib çıxaran vahid səbəb olmalıdır. Bu isə böyük müharibə, yaxud bir çox cəmiyyətləri əhatə etmiş digər mühüm hadisə ola bilər.

2. Paralel inkişaf. Bir neçə ölkədə oxşar proseslər baş verir ki, onlar da, hansı ölkədə cərəyan etməsindən asılı olmayaraq, eyni dəyişikliklərə səbəb olur. Məsələn, tədqiqatçılar bildirirlər ki, ölkə iqtisadi inkişafın müəyyən hüdudlarından yan keçərək, adambaşına düşən ümumi milli məhsulun konkret səviyyəsinə və ya savadlılığın müəyyən səviyyəsinə nail olaraq, demokratiyaya keçidə hazırlaşır. Bu halda hər bir ölkədə demokratikləşmə həmin ölkə üçün səciyyəvi xüsusiyyətlərlə şərtlənir, amma bütün ölkələrdə oxşar nəticələr doğurur.

3. Qar topası hadisələrin bir ölkədən digərinə sürətlə keçidi nəticəsində əmələ gəlir. İnformasiya texnologiyaları dövründə bir ölkədə baş vermiş proseslər digərlərində müqayisə edilə bilən hadisələrə təkan verə bilər, öz növbəsində, onlar isə daha hansısa ölkələrə təsir göstərə bilər və s.

4. Ən sevilən çarə müxtəlif ölkələrdə baş verən və buna baxmayaraq, zamanın ruhuna uyğun gələn "dəbdə olan dərman"dan, bütün dərdlərin ən təsirli dərmanından ibarət olan vahid reaksiyalarda təzahür edir. Məsələn, ölkələrdən birində inflyasiya, digərində qanunların rolunun aşağı düşməsi, üçüncüsündə hərbi məğlubiyyət və sair ölkələrin ayrıca götürülmüş bir qrupunda demokratik dəyişikliklərə səbəb ola bilər. Yəni, başlanğıc dəyişikliklərdəki fərqlərə baxmayaraq, tamamlayıcı dəyişikliklər əsas etibarilə oxşardır.

1990-cı illərin əvvəllərində siyasi elmə yeni anlayış – demokratikləşmə dalğaları anlayışı daxil oldu. Bu anlayış ölkələrarası məkanı – demokratik prosesin vaxtını əks etdirir. Demokratik dalğalar nəzəriyyəsinin hazırlanmasında və onun müasir dal-

ğasının təhlilində məşhur Amerika politoloqu, Harvard Universitetinin Strateji Tədqiqatlar İnstitutunun direktoru Səmyuel Hantinqtonun böyük xidməti var.

O, 1991-ci ildə çapdan çıxan "Üçüncü dalğa. XX əsrin sonlarında demokratikləşmə" monoqrafiyasında müasir dünyada baş verən dəyişikliklərin geniş və bütöv mənzərəsini canlandırmış, totalitarizm və avtoritarizmdən demokratiyaya keçidin müqəddəm şərtlərini, gedişini və perspektivlərini təhlil etmişdir.

Hantinqton yazır ki, "demokratikləşmə dalğası qeyri-demokratik rejimlərdən demokratik rejimlərə müəyyən zaman dövründə baş verən keçidlər qrupudur ki, onların da miqdarı həmin dövrdə əks istiqamətdə gedən keçidlərin miqdarından xeyli çoxdur"[1].

Amerika politoloqu F.Şmitter qlobal miqyasda demokratikləşməni dörd dövrə ayırır. Zənnimcə, bu dünyada baş verən demokratik tranzitlərin mənzərəsini tam şəkildə əks etdirir:

birinci dalğa – şərti olaraq, 1848-ci il inqilabından başlanan dövrdür, lakin bu inqilabdan sonra, 1852-ci ilədək bir çox ölkələr (xüsusən, Fransa, Almaniya, Avstriya-Macarıstan) idarəetmənin avtokratiya formalarına qayıtdılar;

ikinci dalğa – Birinci Dünya müharibəsindən sonrakı dövrdür. Həmin dövrdə Almaniyanın məğlubiyyəti, habelə Rusiya və Avstriya-Macarıstan imperiyalarının süqutu nəticəsində Şərqi və Mərkəzi Avropada yeni dövlətlər meydana gəlir, onların çoxunda ilk vaxt idarəetmənin demokratik formaları bərqərar edilir;

üçüncü dalğa – İkinci Dünya müharibəsindən sonrakı dövrdür;

[1] С.Хантингтон. Третья волна. Демократизация в конце XX века. М., 2003, стр.26.

dördüncü dalğa – Portuqaliyada 1974-cü il hərbi çevrilişindən başlanır[1].

Hantinqtona görə, müasir dünyada demokratikləşmənin üç dalğası və geriçəkilmənin iki dalğası baş vermişdir. Yəni, demokratikləşmənin hər bir dalğası sonra geriçəkilmə ilə – demokratik idarəetmədən uzaqlaşma ilə müşayiət edilmişdir ki, bu da nəticədə totalitar, yaxud avtoritar rejim qurulmasına gətirib çıxarmışdır.

S.Hantinqton yazır ki, demokratikləşmənin birinci, ən uzunsürən dalğası 1828-ci ildə Amerika Birləşmiş Ştatlarında başlanmışdır. O vaxt köhnə ştatlarda əmlak senzi ləğv edilmiş və bütün yaşlı kişilərə seçki hüququ verilən yeni ştatlar birləşdirilmişdi.

Yaşlı kişilərə seçki hüququ verilməsi 1828-ci il seçkilərində həqiqətən səs vermiş ağdərili kişilərin sayını 50 faizə çatdırmağa kömək etmişdi. S.Hantinqton həmin məsələdə Conatan Sanşaynın təsnifatından istifadə etmişdir. Sanşayn demokratik minimumun iki sanballı meyarını irəli sürmüşdür: 1) yaşlı kişi əhalinin 50 faizi səs hüququna malikdir; 2) icra hakimiyyətinin məsul başçısı ya seçkili parlamentdə əksəriyyətin dəstəyini özündə saxlamalı, yaxud da vaxtaşırı ümumxalq seçkilərində seçilməlidir.

Birinci demokratik dalğanın məhz ABŞ-da, yalnız ağdərili kişi əhali səs verdiyi ölkədə başlandığı barədə Hantinqtonun irəli sürdüyü ideya həmin məsələyə bir qədər ehtiyatla yanaşmağı tələb edir, çünki demokratiya bir cəmiyyətin bütün üzvlərinin onun ictimai-siyasi həyatında lazımınca iştirak etməsini nəzərdə tutur. ABŞ-da isə bu məsələ uzun müddət həll edilməmiş qalmışdır.

[1] Schmitter, 1995 // Шмиттер Ф. Размышления о гражданском обществе и консолидации демократии // Полис. 1966, № 5.

Demokratikləşmənin birinci dalğası Qərbi və Şərqi Avropanın, Latın Amerikasının bir çox dövlətlərini bürümüş və əslində, ötən əsrin, 20-30-cu illərinədək davam etmişdir. Həmin dövr ərzində bu dalğa geniş məkanları əhatə edərək İsveçrə, Fransa, Böyük Britaniya, İtaliya, Argentina, Çili, İspaniya, Portuqaliya, Yunanıstan, Litva, Latviya, Estoniya, Polşa, Braziliya, Uruqvay və hətta Yaponiyada rejimləri dəyişmişdir.

Demokratikləşmənin ən uzunsürən dalğasının geri çəkilməsinin başlanğıcı Benito Mussolininin 1922-ci ildə İtaliyada hakimiyyətə gəlişi ilə qoyulmuş, nəticədə zəif və korrupsiyalı İtaliya demokratiyası süquta uğramışdır. 1926-cı ildə Portuqaliyada hakimiyyət Antonio de Salazarın əlinə keçdi. 1930-cu ildə o, faşist "Milli İttifaq" partiyasını yaratdı. Bu partiya "unitar korporativ respublika" tərəfdarı idi, 1933-cü il konstitusiyasının (habelə ona əlavənin – "müstəmləkə aktı"nın) hazırlanmasında iştirak etmiş və korporativ faşist dövləti yaradılmasını başa çatdırmışdır. Üç ildən sonra, 1933-cü ildə Almaniyada Adolf Hitlerin hakimiyyətə gəlməsi nəticəsində Almaniya və Avstriya demokratiyalarının tarixi başa çatdı ki, bu da Avropada və ümumən dünyada ən böyük siyasi kataklizmlərin əsasını qoydu.

Bütün bu proseslərdə SSRİ-yə eyni əhəmiyyətli rol verilirdi, hərçənd, Hantinqton bəzi dövlətlərdə demokratiyaların süqutunun bütün səbəblərini tam göstərmir. Lakin məsələn, İspaniyanın timsalında bu ölkədə demokratiyanın süqutunda Moskvanın rolu barədə mühakimə yürütmək olar.

Məlum olduğu kimi, 1938-ci ildə sovet hökuməti respublikaçılara hərbi yardımı kəskin surətdə azaltmışdı. İspaniyaya gələn sovet könüllülərinin tərkibi də dəyişmişdi. Əgər 1936-cı ildə – 1937-ci ilin birinci yarısında buraya zəngin hərbi təcrübəsi olan və akademiyaları bitirən yüksək ixtisaslı mütəxəssislər gəlirdisə, Qızıl Ordunun ali komanda heyətinə divan tutulduqdan sonra İspaniyaya orta və kiçik rütbəli komandirlər göndə-

rilməyə başlandı, korpus və diviziyalara isə baş leytenant və kapitanlar müşavir təyin edilirdilər[1].

1938-ci ilin dekabrında Franko qoşunları Kataloniyaya geniş hücuma keçdilər, bunun nəticəsində respublikaçıların hərbi hissələri başıpozuq halda Fransa sərhədinə doğru geri çəkilməyə başladılar. 1939-cu ilin fevralında İngiltərə və Fransa respublikaçılar hökuməti ilə diplomatik münasibətləri kəsdiklərini və Franko rejimini tanıdıqlarını bəyan etdilər. 1939-cu il martın 23-də isə Madrid süqut etdi.

SSRİ-də uzun illər İspaniyada vətəndaş müharibəsi tarixinin Stalin dövründə qəbul edilmiş versiyası mövcud olmuşdur. Stalinçilərin cinayətləri haqqında bütün sübutlar cidd-cəhdlə gizlədilirdi. Məsələn, Amerika yazıçısı, Nobel mükafatı laureatı (1954-cü il) Ernest Heminqueyin "Zənglər kimin üçün çalınır" romanının nəşrinə qadağanın 1968-ci ilədək qüvvədə qalması, sonra isə bu əsərin çoxsaylı ixtisarlarla qısaldılmış şəkildə buraxılması məhz bununla izah edilir.

İspaniyanı Sovet İttifaqında kommunist, Qərbdə isə demokratik ölkə kimi görmək istəyirdilər, halbuki ispaniyalıların özləri Frankoya üstünlük verdilər. L.Trotski dəfələrlə vurğulamışdır ki, İspaniya inqilabının qələbəsi sosialist inqilabının digər ölkələrə də yayılmasına yol açardı, lakin onun məğlubiyyəti mütləq dünya müharibəsinin başlanğıcı olardı. Əgər İspaniya inqilabı qələbə çalsaydı, o, Fransada və Avropanın digər ölkələrində inqilabi hərəkata güclü təkan verərdi. İnqilabi hərəkat dünya müharibəsinin qarşısını alar, onu gərəksiz və mümkünsüz edərdi. Ancaq Stalin və Xalq Cəbhəsi liderlərinin koalisiyası İspaniyanın sosialist proletariatını o, hələ Franko tərəfindən qəti olaraq darmadağın edilməzdən əvvəl boğmuşdu.

[1] М.Т.Мещеряков. СССР и гражданская война в Испании, "Отечественная история", 1993, № 3, стр.90.

"İspaniya inqilabının məğlubiyyəti Avropada inqilabi perspektivi uzaqlaşdırır və imperialist müharibəsi perspektivini yaxınlaşdırır. Bunu yalnız korlar görməyə bilərlər!"[1].

İspaniya inqilabının məğlubiyyətindən sonra Trotski dünya müharibəsini qaçılmaz hesab edirdi, çünki bu məğlubiyyət dünya fəhlə hərəkatının – faşistlərin planlarını poza biləcək yeganə qüvvənin daha çox ruhdan düşməsini şərtləndirdi. O yazırdı: "İspaniyanın faciəli təcrübəsi dəhşətli xəbərdarlıq, bəlkə də, daha böyük hadisələr ərəfəsində son xəbərdarlıqdır"[2].

Sonra demokratiyadan geriçəkilmə özlərində tam mənada demokratik təsisatlar qurmağa macal tapmayan digər dövlətləri bürüdü. Bolqarıstan, Yuqoslaviya, Litva, Latviya, Estoniya, Polşa, Yunanıstan, Uruqvay, İspaniya və başqa ölkələr bu və ya digər tarixi səbəblərə görə demokratik idarəetmə formasından uzaqlaşdılar. 1940-cı ildə Köhnə Dünyada – Avropada demokratik idarəetmə formasını saxlamış olan cəmi dörd dövlət vardı – Böyük Britaniya, İrlandiya, İsveçrə və İsveç.

Beləliklə, birinci dalğa təkcə kommunist, faşist və militarist ideologiyaların təsiri altında deyil, həm də bolşevik Rusiyasının (Litva, Latviya və Estoniyanın işğalı) və XX əsrin əvvəllərində dünya siyasətinin əsas aktorları olan İngiltərə və Fransanın simasında Qərb dünyasının öz aralarında apardıqları böyük geosiyasi oyunlar nəticəsində geri çəkildi.

İkinci Dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq vəziyyət və demokratik dövlətlərin (SSRİ istisna olmaqla) dünya siyasətində hökmranlığı demokratikləşmənin ikinci dalğasının başlanması üçün əlverişli şərait yaratdı. Müttəfiqlərin işğalı, habelə müharibənin dağıtdığı Avropanın bərpasına yönəldilmiş Marşall planı, Trumen doktrinası demokratiyanın güclənməsinə

[1] Бюллетень оппозиции, 1939, № 75-76, стр., 5.
[2] Yenə orada, 1937, № 62-63, səh.14.

və universal dəyərlərin təsirinin genişlənməsinə təkan verirdi. ABŞ-la müttəfiqlik münasibətləri olan dövlətlər nəinki yüksək sürətlə dirçəlməyə, həm də qonşularından – Varşava Müqaviləsi Təşkilatının üzvlərindən fərqli olaraq, real demokratik təsisatlar qurmağa, habelə vətəndaş cəmiyyətləri yaratmağa başlamışdılar. "Sovet doktrinası" əsasında yatırılan Macarıstan (1956-cı il) və Çexoslovakiya (1968-ci il) hadisələri göstərdi ki, SSRİ öz müttəfiqlərini idarəetmənin totalitar normalarından uzaqlaşmağa qoymayacaqdır. Demokratiya 1988-ci ildə Berlin divarı uçurulana qədər Şərqi Avropa üçün bağlı səhifə olaraq qaldı.

Demokratiya xəstəliklərinin ən yaxşı dərmanının daha çox demokratiya olduğunu söyləmək, əslində, belə deməkdir ki, cinayətkarlığın ən yaxşı dərmanı daha çox cinayətlərin olmasıdır.

Henri Luis Menken

Qərbi Avropa dövlətlərinin iştirakı ilə NATO, Avropa İttifaqı və Avropa Şurasının yaradılması vahid universal dəyərlərin himayəsi altında məkanın genişlənməsində də az rol oynamadı. 1940-cı illərin axırları – 50-ci illərin əvvəllərində meydana gələn regional təşkilatlar, əsasən, "kommunist basqını"na qarşı bufer zonası yaradılmasını, demokratik dövlətlərin hərbi-siyasi və iqtisadi sahələrdə, habelə insan hüquqları və azadlıqlarının qorunması sahəsində sıx əməkdaşlığı üçün onların sabit və təhlükəsiz məkanını formalaşdırmağı nəzərdə tuturdu.

"Demokratiyalar bir-birilə vuruşmurlar" tezisi real vəziyyəti əks etdirir, vaxtilə Russonun söylədiyi fikirlə polemikaya girirdi. Russo hesab edirdi ki, daxili və xarici münaqişələrə məhz demokratiyalar daha meyillidir. Türkiyə və Yunanıstanda demokratik rejimlərin bərqərar olması onların münasibətlərində gərginliyin azalmasına kömək etmişdir ki, bu da hər iki ölkəyə NATO-ya daxil olmağa imkan vermişdir.

Müharibədən sonrakı dövrdə Latın Amerikası da demokratikləşmənin ikinci dalğasının təsiri altına düşmüşdür. Kolum-

biya, Venesuela, Argentina, Peru, Braziliya, Kosta-Rika və Uruqvay kimi bir sıra dövlətlər demokratiya və ya məhdudlaşdırılmış demokratiya prinsiplərinə qayıtdı. Cənub-Şərqi Asiya dövlətləri də demokratiyaya doğru keçid etdi, Hindistan, Şri-Lanka, Malayziya və Pakistan kimi ölkələr özlərində demokratik rejimlərə bənzər rejimlər formalaşdırdı.

1960-cı ildə Afrikanın ən iri dövləti – Nigeriya demokratik inkişaf yoluna qədəm qoydu.

İsrailin demokratik dövlət kimi təşəkkülü də həmin dövrə aiddir.

Lakin demokratikləşmənin birinci dalğası kimi, ikinci dalğası da geriçəkilməyə məhkum idi. Buna isə heç də demokratik rejimlərin zəifliyi səbəb olmamışdır. Dünyanın bir çox dövlətlərində demokratiyanın süqutunda əsas rolu geostrateji və coğrafi-iqtisadi reallıqlar oynamışdır ki, bunların da mahiyyəti maliyyə imkanları və yeni iqtisadi üstünlüklər uğrunda mübarizədən ibarət idi.

Məlum olduğu kimi, iqtisadi və siyasi nüfuzun qlobal amili olan neft erası XX əsrin 50-ci illərində başlanmışdır. O illəri iri neftçıxarma şirkətlərinin – Amerika və Avropanın biznes aləminə mənsub olan və həmin dövrdə çox böyük hakimiyyətə yiyələnmiş və ağlasığmaz məbləğdə izafi mənfəət qazanmış ilk cığıraçan qansoranlar epoxası adlandırmaq olar. 1960-cı illər ucuz neft və "qara qızıl"ı ucuz qiymətə və getdikcə artan qeyri-məhdud miqdarda alan istehlakçılar epoxası kimi yadda qalmışdır. Həmin onillikdə Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEK) meydana gəldi və möhkəmləndi, hasilatçılarla istehlakçılar, hasilatçılarla şirkətlər arasında gərgin qarşıdurma yarandı. Elə həmin vaxt bədnam "yeddi bacı" (Qərbin yeddi ən iri neft şirkəti) Amerika ictimaiyyətinin nəzərində, sözün əsl mənasında, rüsvay oldu.

1970-ci illər OPEK-in istehlakçı ölkələrlə və onların iri şirkətləri ilə birbaşa qarşıdurmasında qalib gələn neft hasil edən ölkələrin təntənəsi onilliyinə çevrildi. Nəticədə yaranan böhran neftin qiymətlərini qaldırdı və bu qiymətlər 1973-1974-cü illər üçün dörd dəfə artdı.

1950-ci illərin əvvəllərində ser Hans Siqler və Raul Prebiş (Argentina iqtisadçısı) belə bir tezis irəli sürdülər ki, inkişaf etməkdə olan ölkələrin real mübadilə şərtlərinin göstəricisi – term of trade (ticarət şərtləri) bir sıra səbəblər üzündən daim pisləşir, ona görə də bu ölkələr idxalın müəyyən həcmini saxlamaq üçün öz məhsulunu daha çox ixrac etməyə məcburdur. Belə çıxır ki, onlar getdikcə daha çox məhsul istehsal edir, lakin bu, rifahı yüksəltməyən, "yoxsulluq doğuran" artımdır. Bu, dünyada baş verən sosial-iqtisadi proseslər üzərində çox mühüm müşahidə, siyasətçilər və dövlət başçılarına gələcək üçün nəticələr çıxarmağa imkan verən müşahidə idi. Lakin alimlərin üzə çıxardıqları və sosial fəlakətlərə səbəb ola biləcək qanunauyğunluq aradan qaldırılmadı.

Bütün bunlar bəzi ölkələrdə siyasi qruplaşmaların dövlətin təbii sərvətlərindən məqsəddənkənar istifadə hesabına şəxsi varlanmaq üçün birinciliyə nail olmaq niyyətinə əhəmiyyətli dərəcədə təsir göstərirdi. Bununla yanaşı, kapitalın müstəqil artımının əvvəlki mexanizminin imkanlarının tükənməsi ilə əlaqədar istehsalı optimallaşdırmaq yollarının axtarışında, habelə iqtisadi həyatın tənzimlənməsinə dair keynsçi reseptlərin böhranında öz ifadəsini tapan 1970-80-ci illərin dünya iqtisadi böhranı belə bir məsələ üzərində düşünməyə vadar etmişdi: böhranların tez-tez baş verməsində, kütləvi işsizlikdə və inflyasiya proseslərinin sürətlənməsində özünü büruzə verən dünya iqtisadiyyatının pozulması, ümumiyyətlə, iqtisadi sistemə daxilən xas olan uzunmüddətli dövri dəyişmələrin təzahürü deyilmi? Bütün bunlar Böyük Britaniya və Fransanın keçmiş müs-

təmləkələrində, habelə demokratik rejimlərin hələ formalaşmadığı dövlətlərdə siyasi proseslərə təsir göstərməyə bilməzdi.

1960-cı illərdə hətta Böyük Britaniyada dövlətin iqtisadi siyasətinin məqsədlərindən heç birinin həyata keçirilmədiyi vəziyyət yaranmışdı; son dərəcə qeyri-adi vəziyyət və olduqca pis iqtisadi mövqe əmələ gəlmişdi. İqtisadiyyat süst inkişaf edirdi, canlanma isə müşahidə olunmur və gözlənilmirdi. İqtisadiyyatı irəlilədə biləcək innovasiyalar meydana gəlmirdi. Eyni zamanda, inflyasiya tüğyan edirdi. Odur ki, ölkə yeni iqtisadi fenomenlə – staqflyasiya ilə tanış olmuşdu ki, bu da iqtisadi durğunluğun (staqnasiyanın) qiymətlərin yüksək sürətlə artımı ilə birləşməsi deməkdir. İnflyasiyanın inkişafı hakimiyyət orqanlarının və həmkarlar ittifaqlarının nominal əmək haqqı barədə apardıqları və tətillər nəticəsində tez-tez dayandırılan sərt danışıqlarla müşayiət olunurdu.

1975-ci ilədək 38 ölkədə dövlət çevrilişləri baş verdi, 1958-ci ildən fəaliyyət göstərən 32 demokratik rejimin üçdəbiri 1970-ci ilin ortalarınadək avtoritar rejimlərə çevrildi[1].

1960-cı ildə qonşu Türkiyədə hərbi çevriliş oldu. 1950-ci illərdə, Demokratik Partiyanın hakimiyyəti dövründə Türkiyədə hərbçilərin sosial vəziyyəti çox pisləşmişdi və bu, 1960-cı il dövlət çevrilişinin səbəblərindən biri idi. Çevrilişdən sonra orduda əmək haqqı artırıldı və bir sıra güzəştlər tətbiq edildi. Milli Birlik Komitəsi Adnan Menderes hökumətini devirdi və o, sonra edam olundu.

1967-ci ildə Yunanıstanda "qara polkovniklər"in təzyiqi nəticəsində demokratiya süquta uğradı. 60-cı illərin ortalarında orada ciddi hakimiyyət böhranı müşahidə olunurdu ki, buna da aramsız hökumət dəyişmələri, hər cür sosialist və kommunist

[1] С.Хантингтон. Третья волна. Демократизация в конце XX века. М., 2003, стр.31.

çıxışlarının yatırılmasına yönəldilmiş terror siyasəti, ölkədə aparılan iqtisadi siyasətdən cəmiyyətin narazılığının artması və bunun nəticəsi kimi əməkçilər tərəfindən daim mitinq və tətillər keçirilməsi təkan verirdi. 1966-cı ilin yanvarında Yunanıstanda eyni vaxtda 80 mindən çox fəhlə və qulluqçu tətil edirdi ki, bu da ölkənin istehsal potensialının dörddəbirinə bərabər idi; 1966-cı ilin iyununda 20 min bank qulluqçusu tətil etdi: 6 mindən çox poçt işçisi 48 saatlıq tətil elan etdi; həmin ilin avqustunda Afinanın 150 min dövlət qulluqçusu tətilə başladı, oktyabrda isə bütün Yunanıstanda artıq 180 min tikinti fəhləsi tətil edirdi.

1967-ci il aprelin 21-də Afinanın küçələri ilə hərəkət edən tankların səsi şəhər sakinlərini yuxudan oyatdı, radio isə polkovnik Papadopulosun yunan xalqına müraciətini verirdi. O, müraciətdə bildirirdi ki, ölkədə inqilab baş vermişdir. Lakin bu, dövlət çevrilişi idi. Papadopulos başda olmaqla hərbi hökumət hakimiyyətə gəldi və ölkəni 1974-cü ilədək idarə etdi. Hərbçilərin özləri çevrilişi "ölkəni qarmaqarışıqlıq və dağıntı vəziyyətindən çıxarmalı olan 21 aprel inqilabı" adlandırırdılar.

> *Bizi azad edən o deyil ki, öz üzərimizdə heç bir hakimiyyəti tanımırıq, bizi azad edən odur ki, bizdən yuxarıda olana hörmət bəsləməyi bacarırıq. Çünki belə hörmət bizim özümüzü ucaldır.*
>
> ***Höte***

Yunanıstan tarixinin bu mərhələsi xarici tarixşünaslıqda hərbi diktatura yaradılması kimi şərh edilirdi, çünki 1967-ci ilin dekabrında rəsmən istefaya çıxan hərbçilərin hakimiyyətinin yeddi ili ərzində heç bir demokratik təsisat fəaliyyət göstərməmişdir. Parlament seçkiləri ərəfəsində hakimiyyətə gələn yeni hökumət seçkiləri keçirmədi, bütün siyasi partiyalar qadağan edilmişdi, kütləvi həbslər aparılmışdı, müxalifətçilər həbs düşərgələrinə salınmışdı. 1967-ci ilin dekabrında uğursuzluqla nəticələnən çevriliş cəhdindən sonra kral Konstantin İtaliyaya sür-

gün olundu, bütün mətbuat sərt senzura altında idi, hər hansı yadfikirlilik təzahürü dərhal yatırılırdı.

Ötən əsrin 60-cı illərində demokratiyadan qlobal şəkildə uzaqlaşma Latın Amerikasının Çili, Uruqvay, Venesuela, Kolumbiya kimi dövlətlərindən də yan keçmədi. Asiyanın ölkələrindən Hindistan (qismən), Pakistan, Filippin, İndoneziya və Koreyada demokratiyalar məğlub oldu.

1966-cı ildə Nigeriyada Afrika demokratiyası süquta uğradı.

Demokratik proseslərin donorları olan iri dövlətləri tədricən bürümüş siyasi və iqtisadi böhranlar nəticəsində demokratikləşmənin ikinci dalğası öz tarixi irəliləyişini başa çatdırdı. Avropa ölkələri daxili iqtisadi problemlərə cəlb olunmuşdu və Keynsçilik sisteminin səmərəsizliyi ilə əlaqədar bunlar gündən-günə artırdı.

ABŞ Vyetnam müharibəsinə cəlb olunmuşdu, ona xeyli miqdarda maliyyə vəsaiti, resurslar və qüvvələr sərf edilmişdi. Bu müharibə iki dünyanın – kommunist və kapitalist dünyalarının real qarşıdurması kimi qiymətləndirilirdi. SSRİ o vaxt Nasir rejiminin təsir dairəsinin genişləndirilməsi vasitəsilə Yaxın Şərqdə öz mövqelərini gücləndirməyə çalışırdı ki, bunda da məqsəd, ABŞ-a əks olaraq, ta İsrailədək "kommunist" zolağını gücləndirmək və beləliklə, ərəb dünyasına öz təsirini saxlamaq idi. O dövrdə Fransa və Almaniya beynəlxalq siyasətdə müstəqil rol oynamır və ümumdünya işlərində öz şərtlərini qəbul etdirə bilmirdi, buna görə də demokratiyanın genişləndirilməsinə dair qlobal layihələrdə onların iştirakı çox cüzi idi. ABŞ izolyasionizm siyasətindən imtina etdikdən sonra Böyük Britaniya satellit rolu ilə razılaşdı.

Demokratikləşmənin ikinci dalğası bir müddətdən sonra təzədən və yeni qüvvə ilə başlanmaq üçün sona yetdi.

§ ÜÇÜNCÜ DALĞA

S.Hantinqton Portuqaliya inqilabını Üçüncü dalğanın başlanğıc nöqtəsi adlandırır. Amerika politoloqu F.Şmitter də bu fikirdədir. Portuqaliyada yarım əsr mövcud olmuş hərbi rejimin yıxılması üçün cəmi bircə gün vaxt lazım gəldi.

1974-cü il aprelin 25-də, cümə axşamı günü saat 12.25 dəqiqədə radio ilə səslənən mahnı üsyançılara işarə oldu. Kapitan Salquera de Maya Lissabondan 50 mil məsafədə yerləşən Santarim hərbi bazasından səkkiz zirehli maşını və piyadalarla dolu on yük maşınını çıxararaq, paytaxta tərəf hərəkət etdi. Silahlı Qüvvələr Hərəkatının (SQH) – Radikal əhval-ruhiyyəli orta pillə zabitlər təşkilatının təsiri altında olan bəzi digər bölmələr də çıxış etdilər. 5-ci piyada alayı paytaxt radiostansiyasını tutdu, radiostansiya saat 17.30 dəqiqədə SQH-nin ilk rəsmi məlumatını verdi. Bu, polisə və orduya kazarmalarda qalmaq barədə müraciət idi.

Baş nazir Martsello Kaetano hələ respublika milli qvardiyası hissələrinin, rejimin pretorianlarının yerləşdikləri Karmo kazarmalarında gizlənməyə cəhd göstərirdi. Üsyançı bölmələr Karmoya gedən yolda briqadir Raysın komandanlıq etdiyi 7-ci əlahiddə diviziyanın tankları ilə qarşılaşdılar. Azacıq çaşqınlıqdan sonra Raysın adamları üsyançıların tərəfinə keçdilər. Minlərlə fəhlə və gənc küçələrə axışdı. Baş Qərargah tutulmuş, hava limanları bağlanmış, əsas nazirlər həbs edilmişdilər. Qoşunlar Lissabona gedən yolu kəsmiş və əhəmiyyətinə görə ikinci şəhər olan Portunu qoruyurdular. Üsyançılara yalnız hamının nifrət etdiyi məxfi polis müqavimət göstərirdi, hiddətlənmiş kütlə onun iqamətgahını mühasirəyə almışdı. Üsyana qalxan xalqa mənasız müqavimət cəhdi zamanı məxfi polisin agentləri bir neçə adamı güllələmişdilər.

Saat 20:00-da SQH rejimin devrildiyini elan edir. General rütbəsindən aşağı rütbədə kiməsə təslim olmaqdan imtina edən Kaetano hakimiyyəti general Antonio de Spinolaya təhvil verir və Ameriko Tomba ilə birlikdə Madeyraya qaçır. Bir ay sonra Braziliyanın hərbi diktaturası onlara siyasi sığınacaq verəcəkdi.

Lissabonun küçələri camaatla dolu idi. Heç kim gənc zabitlərin nə edəcəklərini, – əslinə qalsa, onların uzunmüddətli fəaliyyət planı da yox idi, – bilməsə də, hamı hiss edirdi ki, totalitarizm boyunduruğu atılmışdır. Demək olar, qansız-qadasız baş tutan çevriliş Avropada ən uzunsürən diktaturanı ləğv etdi və bu, əsl bayram idi. SQH-nin zirehli maşınları sevincdən vəcdə gələn izdihamın içində itib-batmışdı. Minlərlə məktəbli şəhərin mərkəzi küçələrindən keçib gedir və bir ağızdan deyirdi: "Rədd olsun faşizm!". Hər yerdə – insanların əllərində, tüfənglərin lülələrində baş tutan inqilabın rəmzinə çevrilən al qərənfillər görünürdü. Bu, "xoşbəxt inqilab", "güllər inqilabı" idi.

Kaetano rejimi ictimai dəstəyi artıq çoxdan itirmişdi. Portuqaliyada diktatura 1930-cu illərin əvvəllərində Antonio Salazar tərəfindən qurulmuşdu. Bundan əvvəl iyirmi il ərzindəki sosial və siyasi sarsıntılar, habelə bütün dünyada tüğyan edən iqtisadi tənəzzül Salazarın sabitlik yaratmaq barədə vədlərini cəmiyyətin bəzi təbəqələri üçün, ilk növbədə, torpaq sahibləri, kolonistlər və orta sinfin bir hissəsi üçün cəlbedici edirdi.

Kaetano hakimiyyəti irsən 1968-ci ildə gəlmişdi. O vaxt ölkədə "korporativ respublika" deyilən respublika qurulmuşdu, bir neçə varlı ailə proteksionist qanunların müdafiəsindən yararlanaraq, maliyyə və sənaye birliklərinə nəzarət edirdi.

Dövlət faşist partiyası özünün gənclər bölməsi istisna olmaqla, icazə verilmiş yeganə siyasi təşkilat idi. Yarımhərbi təşkilatlar solçu fəalları və həmkarlar ittifaqlarını qorxu içində saxlayırdı. Müstəqil həmkarlar ittifaqları və tətillər qadağan olunmuşdu. Gizli polis geniş agentlər və ştatdankənar xəbərçilər şəbəkəsi təşkil etmişdi. İşgəncələr adi hal sayılırdı. İnqilab gizli polisin zirzəmi və arxivlərinin qapılarını açdıqda silahlar, sadistcəsinə işgəncə vermək alətləri, qeyri-insani vəhşiliklərə dair təlimatlar, bu vəhşiliklərin əks olunduğu fotoşəkillər və xəbərçilərin şəxsi işləri tapılmışdı.

"Üçüncü demokratik dalğa" beləcə başladı və o, "zəfər yürüşü" ilə və transformasiya edərək, XXI əsrin əvvəlində özünün "müdaxilə" məkanını Orta Asiya ölkələrinə qədər genişləndirdi.

1970-ci illərin ortalarından, demokratikləşməyə yeni nəfəs gəldiyi vaxtlardan etibarən, növbəti tranzit cərəyanlarında fəal rol oynamağa başlayan heç də təkcə siyasi dairələr deyildi. Demokratikləşmə prosesinin uğurla getməsində ruhanilərin, xüsusən, Roma Papası II İoann Pavelin və koreyalı kardinal Kimin rolu az olmamışdır. Lakin II İoann Pavelin güclü fəaliyyətindən əvvəl katolik kilsəsi bir sıra transformasiyalara məruz qaldı. İkinci Vatikan kilsə məclisindən sonra (1962-1965-ci illər) katolisizm dünya məkanında insan hüquqları və azadlıqlarının müdafiəsinə münasibətini dəyişdirərək, "ictimai həyat üçün daha ədalətli şərait yaradılmasını, ümumi sülhün möhkəm bərqərar olmasını"[1] təbliğ etməyə başladı.

1950-ci illərin ikinci yarısında xristian-demokrat partiyalarının coşğunluğu səngidi, onların çoxu isə böhrana düşdü.

[1] Документы Второго Ватиканского собора. Декрет об экуменизме. Пункт 23, 4 декабря 1963 г.

Fransa Xristian-Demokrat Partiyası parçalandı, İtaliya Xristian-Demokrat Partiyası isə sosialistlərlə birləşməyə məcbur oldu. Ümumiyyətlə, xristian demokratiyasında müşahidə olunan ideologiyasızlaşma onun getdikcə kilsədən ayrılması demək idi. Bu partiyalar vətəndaş mənafelərini açıq şəkildə təmsil edən təşkilatlara çevrildilər. Dinin rolu isə, müvafiq surətdə arxa plana keçrilirdi. Elə o vaxt Papa XXIII İoann (1958-1963) kilsənin dünya ilə əlaqələrini artıq xristian partiyalarının vasitəsilə deyil, mənəvi-dini fəaliyyətin köməyi ilə təzələməyi qərara aldı. Bunun nəticəsində o, həmin partiyalara münasibətdə bitərəf mövqe tuturdu.

Papa XXIII İoannın 1961-ci il mayın 15-də irəli sürdüyü "Mater et magistra" ("Ana və mürəbbiyə") sosial ensiklikası – müraciəti katolik kilsəsinin artıq yeni ruhunu əks etdirirdi. Əslində, əvvəlki ensiklika kimi, bu da eyni problemləri – kilsənin sinifləri və sinfi mübarizəni tanımasından irəli gələn vəzifələrini həll etməyə çalışırdı. Əvvəllər dünyanın demokratiyaya və sosializmə doğru getdiyi şəraitdə bu problemlərin həllinə dair təkliflər kilsə üçün məqbul deyildi. Əgər Papa XXIII İoannın sələfləri sosial məsələlərdən danışarkən fəhlə hərəkatının pislənməsini birinci yerə çıxarır və sosial proqramı isə yalnız ikinci növbədə irəli sürürdülərsə, XXIII İoannın dövründə əsas diqqət daha humanist ictimai və iqtisadi sistem hazırlanmasına yönəldilmişdi. Lakin sosial ziddiyyətlərin həllinə dair yeni nəzəriyyə ancaq metodlar, necə deyərlər, intonasiya baxımından yeni idi. Belə bir tezis əsas olaraq qalırdı ki, kilsə və dövlət müdrikliklə qarşılıqlı fəaliyyət göstərərək, əməklə kapital arasındakı ziddiyyətləri addımbaddım aradan qaldırmalıdır. Elə həmin vaxt Papa XXIII İoann paternalizmlə əlaqəni kəsdi, çünki sinfi müba-

rizənin mövcudluğunu və fəhlələrin öz hüquqları, müdafiəsi uğrunda mübarizəsinin qanunauyğunluğunu, o cümlədən öz təşkilatlarına malik olmaq hüququnu ardıcıl surətdə tanıyırdı. O, fəhlələrin sosial ədalət uğrunda mübarizəsinə kilsə tərəfindən dəstəklənən obyekt kimi baxırdı.

Acornamento (müasir neotomizmin ekzistensializm, fəlsəfi antropologiya, germenevtika, fenomenologiya, habelə dilçilik fəlsəfəsi, neopozitivizm və qismən kantçılığın və koqnitiv psixologiyanın ən yeni fəlsəfi ideyalarının katolik teologiyası tərəfindən assimilyasiyasına yönəlmiş inkişaf təmayülü. Termin, neotomizmin müasir mədəniyyətin müddəalarına adaptasiyasının geniş proqramını qəbul edən İkinci Vatikan kilsə məclisi tərəfindən tətbiq edilmişdir) sosial məsələlərdə xüsusi mülkiyyətin tanınması problemi barədə kilsənin ənənəvi mövqeyinə toxunmurdu. Kilsə xüsusi mülkiyyətin tanınması prinsiplərinə tərəfdar olaraq qalmaqda idi. Mülkiyyətə teoloji baxışlara uyğun olaraq, yer üzündə olan nemətlər, əşyalar insana xidmət etmək üçündür, yəni onlara malik olmaq lazımdır. Kilsənin fikrincə, (mülkiyyət məsələsində) insanlar arasında ifrat əmlak ziddiyyətləri ola bilməz; burada tarazlıq yaratmaq lazımdır. Xüsusi mülkiyyət hüququ təbiət qanunlarına uyğun olaraq insanın siqlətindən irəli gəlir və yalnız istifadə və istehlak üçün olan nemətlərə deyil, həm də istehsal vasitələrinə şamil edilir. Xüsusi mülkiyyətdə olan nemətlərdən istifadə yeganə nemətdir və burada sərhədləri ictimai fayda təyin edir.

Papa XXIII İoannın dünyada baş verən dəyişiklikləri qəbul etməsi onun sonuncu "Pacem in Terris" ("Dünyada sülh") adlı ensiklikasında – müraciətində (9 aprel 1963-cü il) özünün daha aydın ifadəsini tapmışdır. Ensiklika həm də o cəhətdən yeni idi ki, ekumenizm ruhunda o, artıq təkcə din

xadimlərinə deyil, ümumiyyətlə katoliklərə, hətta bütün dindarlara ünvanlanmışdı. Ekumenizm müxtəlif xristian təriqətləri arasında yaxınlaşma və əməkdaşlıq kimi yeni məna qazandı. Papa nəzərə aldı ki, dünyanın bir hissəsi kapitalizm quruluşundan imtina etmişdir və bununla bağlı kilsənin vəziyyəti xeyli dərəcədə dəyişmişdir. Sosialist ölkələrini de-fakto tanımaqdan başqa, o, daxili çəkişmələrin həll edilməsi təklifini beynəlxalq müstəviyə çıxardı: kapitalizm və sosializmlə münasibətdə yeganə düzgün yol – Allahın dövləti (Civctas Dei) yolunu tutmaqdır ki, bunun vasitəsilə birgə yaşayış və sülhü qoruyub saxlamaq mümkündür. Papa XXIII İoann bu ensiklikada bəyan etdi ki, ateizm ideoloji baxımdan xristianlar üçün qəbuledilməz olsa da, sülh uğrunda mübarizə aparan hər hərəkatla, o cümlədən kommunizmlə də əməkdaşlıq nəinki mümkündür, hətta vacibdir. Bununla da XXIII İoann sosializm ideyasının yarandığı vaxtdan sələflərinin kilsə ətrafında çəkdikləri sərhədi adlamış oldu. "Pacem in Terris" ensiklikası Vatikan üçün sosialist ölkələri ilə təmas və əlaqə, marksistərlə dialoq axtarışlarını mümkün etdi[1].

1978-ci ildə Roma katolik kilsəsinin başçısı özünə II İoann Pavel adını götürmüş polyak Karol Voytıla seçildi. O, Papa pontifikatının tarixində yalnız katolik kilsəsinin başçısı olan ilk slavyan kimi deyil, həm də demokratik proseslərin, vətəndaşların hüquq və azadlıqlarının ən qızğın müdafiəçisi kimi qaldı. Onun papalıq dövrünün əvvəli "üçüncü demokratik dalğa"nın başlanması ilə üst-üstə düşdü və təbii ki, o vaxt Şərqi Avropa və Latın Amerikası ölkələrini, xeyli dərəcədə xristian dövlətlərini bürümüş olan proseslər İkinci

[1] Е.Гергей. История папства. Папство наших дней. http://svany.narod.ru/popes/gergey/ch11.htm

Vatikan məclisindən sonra siyasətə münasibətini dəyişmiş kilsəni narahat etməyə bilməzdi.

Karol Voytıla papa seçiləndən sonra elə ilk çıxışında kardinallara müraciət edərək bəyan etdi: "Biz ürəkdən gələn itaətkarlıqla sülhə, tərəqqiyə və millətlər arasında ədalətə xidmət etməyə çalışmalıyıq… Biz bəşər cəmiyyətinin bünövrəsini təşkil etməli olan mənəvi əsasları möhkəmləndirməliyik. Biz hiss edirik ki, bu vəzifə təxirəsalınmazdır, çünki dünyanın bir çox yerlərində mübarizə və toqquşmalar üçün zəmin yaradan dağıntı və ziddiyyətlər davam edir və bunlar daha qorxulu və dəhşətli bəla və bədbəxtliklərə doğru aparır".

Hökm edənlər ilə itaət edənlər arasında məsafə nə qədər çoxdursa, birinci üçün qanın, ikinci üçün isə tərin əhəmiyyəti bir o qədər azdır.

Deni Didro

II İoann Pavel papalığının bütün dövrü ərzində dəfələrlə əməyin humanistləşməsi, fəhlələrin hüquqlarının müdafiəsini dəstəkləmiş, "gerçəkləşmiş sosializm"də təşəkkül tapan partiyalı dövlətin diktatura strukturunu, bu sistemdə fəhlə sinfinin və məhsuldar əməyin asılı rolunu tənqid etmişdir. Eyni zamanda, papa dünyanın iqtisadi durumunun qarşıya çıxardığı problemlər haqqında da fikir söyləməyə başlamışdı, çünki sabit maddi təminat olmadan insanın mənəvi inkişafının nə dərəcədə məhdud olduğunu görürdü.

Papalıq daha geniş yayılmış siyasi teologiyaya – "qurtuluş teologiası"na qarşı da çıxış etdi, çünki Latın Amerikası gerçəkliyi özlərini xalqla eyniləşdirən katolik ruhanilərinin ədalətsiz rejimləri devirmək üçün ictimai və siyasi mübarizəyə qoşulmalarına səbəb olmuşdu. "Tərəqqi teologiyası", "qurtuluş teologiyası", "inqilab teologiyası" və s. məhz orada yaranmışdı.

Papa deyirdi ki, kilsə ictimai ədalətsizliyi pisləməlidir, lakin onunla siyasi metodlarla deyil, insanı mənəvi cəhətdən kamilləşdirməklə mübarizə aparmalıdır, çünki "pisliyin" kökü yalnız nəticə olan ictimai quruluşun özündə yox, insanın dindən uzaqlaşmağındadır. Ədalətsiz ictimai sistemdə günah, şəxsi günah, məhz bu yolla ictimai miqyas alır. Din Məsələləri Konqreqasiyasının keçmiş prefekti kardinal Yozef Ratsinger (indiki papa XIV Benedikt) bildirirdi ki, dar mənada "qurtuluş teologiyası" onun xristianlığa yad olan marksist mövqeyi qəbul etməsi ilə səciyyələnir.

"Qurtuluş teologiyası" insanlar qarşısında xristianlıqdan bilavasitə istifadə etməklə dünyanı konkret şəkildə dəyişmək vəzifəsini qoyurdu. Beləliklə, xristianlıq dövrümüzün bütün mütərəqqi qüvvələri ilə birləşə bilərdi.

Xristianlığın əsaslarından istifadə edən "Üçüncü demokratik dalğa"nın dünya məkanında özünü sosial-siyasi transformasiyaların əks-sədası və ötən əsrin 70-ci illərinin sonunda xüsusi vüsət almış maliyyə inteqrasiyası proseslərinə cavab oldu. Lakin demokratikləşmə təkcə siyasi amil deyildi, həm də mənəvi boşluğun doğurduğu siyasi böhran və iqtisadi tənəzzül müasir dünyanın mənəvi-əxlaqi komponentinə çevrilmişdir.

Portuqaliyanın demokratikləşməsinin ardınca, Papalıq insan hüquqları və azadlıqlarının qorunması sahəsində yeni addımlar atmağa başlayanda Yunanıstanda hərbi rejim süqut etdi. 1967-ci ildə hakimiyyəti zəbt etmiş "qara polkovniklər" 1973-cü ildə kütləvi tələbə nümayişləri ilə üzləşdilər. Bu nümayişlər qəddarcasına yatırıldı, iştirakçıların bir çoxu təqiblərə məruz qaldı. Hərbi xunta 1974-cü ildə devrildi və 1975-ci ildə hakimiyyət vətəndaş idarəçiliyinin əlinə keçdi.

1975-ci ildə Fransisko Franko vəfat etdi. İkinci Dünya müharibəsi dövründə İspaniyanın Hitleri və Mussolinini dəstəkləməməsinə baxmayaraq, Qərb dünyası Frankonu əlaqələr qurmaq mümkün olan tərəfdaş kimi heç də tezliklə qəbul etmədi. Böyük Britaniyanın Baş naziri Uinston Çörçill deyirdi: "General Frankonun siyasəti bütün müharibə illərində öz xeyrini güdən və soyuqqanlı siyasət olaraq qalırdı. O, yalnız İspaniya və İspaniyanın maraqları haqqında düşünürdü. Göstərdikləri köməyə görə Hitlerə və Mussoliniyə minnətdarlıq etmək ona yad idi. O, yalnız zəifləmiş xalqının yeni müharibədə iştirakdan yaxa qurtara bilməsi haqqında düşünürdü". Hətta Yunanıstanın Saloniki şəhərində hərbi düşərgəyə göndərilən 5000 yəhudini rəsmi olaraq İspaniya vətəndaşı elan edib (yunan yəhudiləri İspaniyadan olan sefardlar idi) xilas etməsi də müharibədən sonra ona qarşı münasibəti dəyişə bilmədi. Hər cür siyasi və iqtisadi dəstəkdən məhrum olmuş Franko ölkəni böyük çətinliklə ayağa qaldırırdı. Təbii ki, Frankonun dövründə "falanqa"dan başqa bütün siyasi təşkilatlar qadağan olunmuşdu, kommunistlər və anarxistlər isə həbsxanaya salınmışdılar.

Buna baxmayaraq, diktatorun ölümü ərəfəsində İspaniya Avropanın inkişaf etmiş dövlətlərindən biri idi. Ölkədə əldə edilmiş bütün sosial nailiyyətlərin əsası, sabit iş yerləri, pulsuz təhsil, pulsuz səhiyyə xidməti, dövlət büdcəsinin əsas gəlir maddəsi olan turizmin inkişafı hələ Frankonun hakimiyyəti dövründə qoyulmuşdu. Ölümündən sonra hakimiyyətin indiki krala – ispaniyalıların böyük məhəbbət bəslədiyi I Xuan Karlosa verilməsini də o, vəsiyyət etmişdi.

1977-ci ildə Ekvadorda, 1980-ci ildə Peruda, 1982-ci ildə Boliviyada, 1984-cü ildə Uruqvayda demokratiya bərqərar oldu.

Asiya da dünya məkanının müxtəlif guşələrinə sürətlə yayılan ümumi demokratikləşmə prosesindən kənarda qalmırdı. 1977-ci ildə qısamüddətli fövqəladə vəziyyət dövründən sonra Hindistan demokratik idarə üsuluna qayıtmağa başladı. Məlum olduğu kimi, İndira Qandi başda olmaqla konqresçilər hökuməti 1975-1977-ci illərdə ölkə parlamentinin və ştatların legislaturalarının fəaliyyətinə tam nəzarəti öz üzərinə götürdü. 1975-1977-ci illərdəki fövqəladə rejimin son dərəcə qeyri-populyarlığı, hakimiyyətdən çox sui-istifadə olunması, (nəinki şəxsi azadlığın, həm də həyatın özünün müdafiəsinə zəmanət verən Konstitusiyanın 21-ci maddəsinin icrası dayandırılmışdı; qabaqlayıcı həbslərin icrası haqqında qərarların qəbul edilməsi məhkəmənin nəzarətindən çıxarılmışdı) HMK-nın (Hindistan Milli Konqresinin) 1977-ci il seçkilərində məğlubiyyəti və "Canata Partiya"nın hakimiyyətə gəlməsi ilə nəticələndi.

1980-ci ildə Türkiyədə hakimiyyətə yenidən hərbçilər gəldilər. Bu, Türkiyə cəmiyyətində indinin özündə də kifayət qədər nüfuza malik dini yönümlü siyasi qrupların mövqeyinin güclənməsinə qarşı reaksiya idi. Atatürk ideyalarının (dünyəviliyin) qoruyucusu olan hərbçilər hakimiyyəti islamçı siyasi qüvvələrin təsirindən qoruyaraq, dəfələrlə hökuməti devirmişlər. Türkiyədə hərbi çevrilişlər pantürkizmin əsas ideoloqları olan hərbçilərin mövqelərinin zəiflədiyi hallarda da labüd olmuşdur. Doğrudur, sonra onlar hakimiyyəti mülki nümayəndələrə verirdilər, lakin Türkiyədə demokratik proseslərə nəzarət həmişə Atatürk ideyalarına sadiq olan silahlı qüvvələrin himayəsi altındadır.

1981-ci ildə hərbi rejim yeni konstitusiyanın layihəsini hazırlamaq üçün Məşvərət məclisi yaratdı və o, 1982-ci ildə yeni konstitusiyanı bəyəndi. Konstitusiya ümumxalq referen-

dumunda qəbul olunandan sonra 1982-ci ilin noyabrında qüvvəyə mindi. Konstitusiyaya "milli təhlükəsizliyin", "dövlətin birliyinin" və "ictimai mənəviyyatın" qorunmasına zərurət olduğu hallarda məhdudlaşdırıla bilən vətəndaş azadlıqlarının və siyasi azadlıqların uzun bir siyahısı daxil idi. Hökumətə isə fövqəladə və ya mühasirə (hərbi) vəziyyəti elan etmək ixtiyarı verilirdi.

1983-cü ildə Türkiyədə cərəyan edən demokratik proseslər yeni nəfəs aldı. 1983-cü ilin parlament seçkilərində yalnız üç partiya rəqabət aparırdı: hərbçilərin dəstəyini qazanmış Milli Demokrat Partiyası (MDP), mötədil-sol Xalqçı Partiya (XP) və mühafizəkar, həm də özəl sahibkarlığa arxalanan Ana Vətən Partiyası (AVP). Səsvermənin nəticələrinə görə MDP üçüncü oldu, AVP isə Böyük Millət Məclisində tam üstünlük qazandı. Partiyanın lideri, ixtisasca iqtisadçı olan, hərbçilərin hakimiyyəti dövründə ilk 21 ay ərzində baş nazirin iqtisadi məsələlər üzrə müavini vəzifəsini tutmuş Turqut Özal 1983-cü ilin dekabrında yeni hökumətə başçılıq etdi.

Filippində demokratik dəyişikliklər keçən əsrin 80-ci illərinin ortasından başladı. 1965-ci ildə prezident seçkilərində qalib gəlmiş Ferdinand Markos islahatlar apararaq iqtisadi yüksəlişə nail oldu. Lakin sonradan ölkədə sosial gərginlik artdı, kommunistlərin və radikal-müsəlmanların rəhbərliyi altında daim qiyamlar baş verirdi. 1972-ci ildə Markos Konstitusiyanın icrasını dayandıraraq, ölkədə hərbi vəziyyət elan etdi. Hərbi vəziyyət 1981-ci ilə qədər davam etdi. Markos prezident seçiləndən sonra elə həmin il ölkəni onun rejimindən narazılıq dalğası bürüdü. Bu narazılıq 1983-cü ilin avqustunda müxalifət lideri Beninyo Akinonun qətlə yetirilməsindən sonra özünün zirvəsinə çatdı. 1986-cı ildə

ABŞ-ın təzyiqi altında Markos hər halda prezident seçkiləri keçirdi və özünü yenidən qalib elan etdi.

1983-cü ildə Markos şahmat turnirində iştirak etmək üçün Filippinə gələn Anatoli Karpovdan soruşmuşdu: "Siyasət şahmata bənzəyir. Qalib gəlmək üçün mənə nə məsləhət görərdiniz?" Karpov demişdi ki, şahın xanımını qurban vermək lazımdır (o vaxt dövlət xəzinəsindən külli miqdarda vəsaitin israf edilməsinin, xidmətçilərlə qeyri-insani münasibətin və ali dövlət hakimiyyətinin məsuliyyətsizliyinin rəmzinə çevrilmiş İmelda Markos nəzərdə tutulurdu), ancaq yaşlı prezident özünü qurban verər, arvadından keçməzdi.

Kütləvi saxtakarlıqların doğurduğu vətəndaş itaətsizliyi kampaniyası, qan tökülmədən başa gələn, bellərinə gül-çiçək çələngi dolamış insanların prezidentə sadiq olan dəniz piyadalarını qiyamçılara yaxın buraxmayan "gülüşlər inqilabı", habelə Markosun rəqibi Beninyo Akinonun dul qalmış arvadı Korason Akinonun kilsə və ordu tərəfindən dəstəklənməsi Ferdinand Markosu ölkədən Havay adalarına qaçmağa vadar etdi.

Ferdinand Markos diktaturasının devrilməsindən on iki il sonra, 1998-ci ildə Markosun tərəfdarı Cozef Estrada ölkənin prezidenti oldu. Keçmiş prezidentin arvadı və dostlarının dəstəyi, həmçinin məzlumları dəstəkləmək kimi populist şüarlar hesabına iqtidara gələn yeni prezident hakimiyyəti Markosun adamlarına qaytarmağa, onun qələbəsinə kömək edənlərə vəzifə və əmlak paylamağa başladı. O vaxta qədər Cənub-Şərqi Asiyada ən demokratik ölkələrdən biri sayılan Filippində qısa müddət ərzində korrupsiya və qohumbazlıq sistemi, əsas dövlət məsələlərinin prezidentin dostları tərəfindən həll olunduğu "gecə kabineti" yarandı. İlk həyəcanı məqalələrindən birində prezidenti "ölkənin xaç

atası" adlandırmış ən populyar ingilisdilli qəzetlərdən olan "Manila tayms"ın jurnalistləri qaldırdılar. Tezliklə qəzet sahibini "Manila tayms"ı prezidentin əlaltılarından birinə satmağa vadar etdilər və ölkədə müstəqil mətbuatın susdurulması kampaniyası başlandı.

Ölkədə ümumi daxili məhsul istehsalı 35 faiz, pesonun məzənnəsi 50 faiz aşağı düşmüş, işsizlik 30 faizdən çox artmışdı. Əgər parlament azlığının lideri Teofisto Quinqonanın 2000-ci il oktyabrın 5-də prezidenti korrupsiyada və digər cinayətlərdə ittiham edən çıxışı olmasaydı, vəziyyətin necə inkişaf edəcəyini təsəvvürə gətirmək çətindir. Dörd gündən sonra prezidentin silahdaşı Luis Sinqson prezidentin ondan 10 milyon məbləğində rüşvət tələb etməsi və alması barədə ifadə verdi. Prezidentin gizli hesabları barədə məlumatlar ortaya çıxdı.

Mən həmişə seçə bilərəm, ancaq bilməliyəm ki, hətta əgər mən heç nəyi seçmirəmsə də, bu zaman hər halda seçirəm.

Jan Pol Sartr

Prezidentin korrupsiyada əli olması barədə xəbər ölkəni təlatümə gətirdi. İlk olaraq nümayişlərə nüfuzlu katolik kollec və universitetlərinin tələbə və müəllimləri çıxdılar və bu, prezidentin istefaya getməsinə qədər davam etdi. Sonra onlara dövlət institutlarının tələbələri, iş adamları, həmkarlar ittifaqlarının və ictimai təşkilatların, sol və sağ partiyaların üzvləri, minlərlə sadə filippinli qoşuldu. Kilsə prezidentə qarşı ictimai hərəkatı dəstəklədi, onun rəhbərlərindən biri – kardinal Sin müxalifətin başında durdu. Prezidentə tabe olan parlamentin ona etimadsızlıq göstərilməsi proseduruna başlamaqdan imtina etməsi paytaxtın və digər böyük şəhərlərin küçələrində etiraz nümayişlərinə çıxan adamların sayını yalnız artırdı. Müxalifət hakimiyyətə qarşı beşgünlük müqavi-

mət aksiyasının keçirilməsini elan etdi. Bu hadisənin şahidlərindən biri yazırdı ki, "mənim bütün qonşularım küçələrdə idi, maşınlardan "Prezident günahkardır!" ritmində siqnallar verir, qazan və tavaları taqqıldadırdılar…, çoxları ailəliklə gəlmişdi". Manila küçələrində əyninə eyni cür paltar geymiş prezident əleyhdarlarının sayı milyona çatmışdı, özü də onların arasında həm tələbələr və cavan peşəkarlar (bunlar çoxluq təşkil edirdi), həm də orta sinfin nümayəndələri, yaşlı adamlar və yoxsullar var idi.

Müxalifəti gözdən salmağa çalışan prezident Estrada bir neçə min məhbusu azad etdi, onlar hakimiyyəti dəstəkləyən nümayişlər təşkil etməli, müxalifətlə silahlı toqquşmalar yaratmalı idilər, o, həmçinin ordunu kütləvi nümayişləri dağıtmağa çağırdı. Lakin polis və ordu rəhbərləri prezidenti dəstəkləməyib müxalifətin tərəfini tutdular. Ölkənin ali məhkəməsi prezidentin istefasını bəyan etdi. Qloriya Makapagal-Arroyo Filippinin yeni prezidenti, Teofisto Quinqona vitse-prezident oldu.

Qeyd etmək lazımdır ki, bu ölkədə demokratiyaya sülh yolu ilə keçid cəmiyyətin ən fəal hissəsi olan tələbələrin və iş adamlarının və sonradan onlara qoşulan digər ictimai qrupların iştirakı olmadan mümkün ola bilməzdi. Prezidentin əmrlərini yerinə yetirməkdən imtina edərək, öz xalqına atəş açmayan polis və hərbçilərin mövqeyi də mühüm rol oynamışdır. Küçələrə çıxmağa cəsarət etmiş adamlara iflasa uğramış rejim üzərində özlərinin mənəvi üstünlüklərini dərk etməkdə kilsə rəhbərləri və sıravi din xadimləri də kömək göstərmişdilər. Demokratik ideyalar ölkədə ictimai tərəqqinin əsas carçısına çevrilmişdi

Pakistanda hadisələr daha mürəkkəb şəkildə cərəyan edirdi. 1977-ci ildə ölkədə hərbi çevriliş nəticəsində general

Ziya ül-Həqq hakimiyyətə gəldi. Baş nazir Zülfüqar Bhutto həbs edildi və tezliklə edam olundu. Onun arvadı və uşaqları ölkədən sürgün olundular. Lakin, məlum olduğu kimi, tarix sürprizlərlə doludur.

1986-cı ildə Zülfüqar Bhuttonun qızı Bənəzir Bhutto ölkəyə qayıdaraq, Xalq Partiyasına başçılıq etdi. Qadın oppo-nentinin gücləndiyini görən Ziya ül-Həqq, 1988-ci ildə parlamenti buraxdı, azad seçkilər təyin etdi və… islamı ölkənin ali qanunu elan etdi. Bu hal qadının seçilməsinin qarşısını almalı idi. Ancaq avqust ayında Ziya ül-Həqq gözlənilmədən təyyarə qəzasında həlak oldu, Bənəzir Bhutto isə seçkilərdə qalib gələrək ölkənin Baş naziri vəzifəsini tutdu.

Bənəzir Bhutto əvvəlcə kabinetə iki il müddətində, sonra isə yenidən – 1993-cü ildən 1996-cı ilədək başçılıq etdi. Ancaq bu müddət Bhuttonun diplomatik istedadı sayəsində Pakistanın beynəlxalq aləmdə regional siyasətin güclü və müstəqil faktoru kimi tanınması üçün kifayət etdi.

Bhuttoun ikinci istefasından üç il sonra, 1999-cu ilin oktyabrında Pakistanda baş verən "məxməri" çevriliş cə-miyyətdə elə bir həyəcan doğurmadı. Ölkə üçün bu, artıq adi hal idi, çünki son əlli ildə 17 baş nazir və 9 prezident dəyişilmişdi. Pakistanı iyirmi beş ilə yaxın hərbçilər idarə etmişdi. Ona görə də əhali əlli altı yaşlı general Pərviz Müşərrəfin hakimiyyətə gəlməsini nisbətən sakit qarşıladı. Bunun daha ciddi səbəbləri də vardı.

1997-ci ilin fevralında hakimiyyətə gəlmiş əvvəlki Baş nazir Nəvaz Şərif ölkədə bir o qədər də populyar deyildi. Hökumətin iqtisadiyyatda uğursuzluqları və bunun nəticəsi kimi qiymətlərin artması, hakimiyyətin yüksək pillələrindəki

korrupsiya və Nəvaz Şərifin diktatorluq meyilləri xalqın hökumətə rəğbətini artırmırdı.

P.Müşərrəf 1998-ci ilin oktyabrından Qərargah rəislərinin birləşmiş komitəsi sədrinin səlahiyyətlərini icra edirdi. Ancaq iki həftə keçməmiş, Nəvaz Şərif səbəbini izah etmədən Müşərrəfin istefasını elan etdi. Müşərrəf bu barədə mətbuat səhifələrindən xəbər tutdu.

Hərbi çevrilişdən sonra Pərviz Müşərrəf yüksək rütbəli hərbçilərin və bir neçə mülki məmurun daxil olduğu Müdafiə və Milli Təhlükəsizlik Şurasının başında duraraq, özünü ölkənin bir nömrəli vəzifəli şəxsi elan etdi. Prezident Rafiq Tarar da daxil olmaqla, ölkənin bütün vəzifəli şəxsləri bu rəhbər orqanın təlimatlarına tabe olmalı idilər. General ölkənin xilas olunmasına dair öz proqramını elan etdi, iqtisadi və siyasi islahatlar keçirməyi, korrupsiyaya qarşı fəal mübarizə aparmağı, mövcud olan idarəetmə təsisatlarını yaxşılaşdırmağı və yenilərini, daha səmərəlilərini yaratmağı, səhiyyə və təhsil sahəsində hökumət proqramları həyata keçirməyi və s. vəd etdi. O, təcili həllini gözləyən ciddi məsələlər sırasında dağılmaq həddinə çatmış "milli iqtisadiyyatın bərpa olunmasını" prioritet problem kimi vurğuladı.

Pakistanda demokratiyanın tarixi qısadır. Çoxsaylı etnik və dini sektalara bölünmüş bu ölkə demokratik cəmiyyət qurmaq istiqamətində yalnız indi ilk addımlarını atır. Hər halda, problemin geosiyasi baxımdan tədqiqi göstərir ki, bu regionda demokratik dövlət qurmaq əsrlərdən bəri mürəkkəb məsələ olub. Daxili münaqişələr, tayfa maraqlarının toqquşması, müxtəlif dini qavrayış, Kəşmirlə bağlı qonşu Hindistanla qarşıdurma, nəhayət, radikal islam qruplarının Pakistanı daim "kafirlərlə" müharibə yoluna çıxarmaq cəhdləri demokratik cəmiyyət ideallarını arxa plana keçirir.

Geosiyasət dünyanın müxtəlif guşələrində demokratik maraqların müəyyən edilməsində hər zaman xüsusi rol oynamışdır. Demokratiyanın yayılması XX əsrin ikinci yarısından başlayaraq "təfəkkürün müdaxiləsi" və qərb dövlətlərinin çoxgedişli geosiyasi kombinasiyalarının şərtləndirdiyi yeni strateji konsepsiya formasını almışdır. Ser Uinston Çörçillin Fultonda söylədiyi nitqində "kommunist partiyaları və onların beşinci dəstələri bütün ölkələrdə xristian sivilizasiyası üçün böyük və əfsus ki, getdikcə artan təhlükə törədir"[1] fikrini bəyan etməsindən sonra ABŞ və Britaniyanın geostrateji maraqları totalitar Sovet İttifaqının dağılmasına və Vankuverdən Urala qədər heç bir təhlükə törətməyən demokratik dövlətlər qurşağı yaradılmasına yönəlmişdi.

Vaxt keçdikcə bu ideyanın həyata keçirilməsi yolları təkmilləşdirilir, başqa metodlara transformasiya olur, lakin məqsədi hər zaman dəyişməz olaraq qaldı. Məsələn, "birincisi, hər hansı ölkənin vətəndaşlarının öz ölkələrinin hökumətini seçmək və gizli səsvermə yolu ilə azad, maneəsiz seçkilər keçirərək, yaşadıqları hakimiyyətin xarakterini və ya formasını dəyişmək hüququ vardır və bu hüquq həmin ölkənin konstitusiya normaları ilə təmin olunmalıdır; ikincisi, hər hansı ölkədə fikir və söz azadlığı hakim olmalıdır və üçüncüsü, məhkəmələr icra hakimiyyətindən asılı olmamalı, hər hansı bir partiyanın təsirindən azad olmalı, həyata keçirdikləri ədalət mühakiməsi isə bu ölkənin geniş əhali təbəqəsi tərəfindən bəyənilən, və ya zamanın imtahanından çıxmış, yaxud ölkənin ənənələrinə uyğun qəbul edilən qanunlara əsaslanmalıdır"[2].

[1] Речь Уинстона Черчилля в Вестминстерском колледже, г. Фултон, штат Миссури, США, 5 марта 1946 г.

[2] Yenə orada.

"Üçüncü demokratik dalğa" özünün "Şərqə hücumu"nu müəyyən ərazidən keçən tufan kimi başladı. Demokratiyanın belə məqsədyönlü yayılması onunla bağlıdır ki, demokratikləşmə prosesləri:

- bir-birinin ardınca həyata keçirilirdi, bu da öz növbəsində demokratiyanın donorları olan Qərb dövlətlərinin yeni sıçrayış üçün maliyyələrini və qüvvələrini uğurla səfərbər etməsinə şərait yaradırdı;
- müəyyən əraziləri başdan-başa bürüyən dalğaya bənzəyirdi;
- demokratikləşdirilən cəmiyyətin siyasi, iqtisadi və sosiomədəni təsisatlarını bütünlüklə transformasiyaya uğradan qlobal dalğa şəklində idi.

"Demokratik sıçrayış" mövcud rejimin qərb demokratiyalarına geosiyasi münasibətinin xarakteri ilə müəyyənləşirdi. "Dalğa" bunun əsasında ərazinin iqtisadi imkansızlığı üzündən Qərb dövlətlərinin maraqlarının həyata keçməsinə uyğun gəlməyən rejimin dəyişdirilməsi üçün ərazi seçirdi. Əbəs yerə deyil ki, diktator Ferdinand Markos hakimiyyətdən kənarlaşdırılandan sonra ABŞ-ın köməyi ilə Havay adalarına qaçmışdı, İran inqilabı zamanı şahı dəstəkləməkdən imtina etmək haqqında qərar isə 1978-ci ildə "Böyük yeddiliyin" görüşündən sonra qəbul olunmuşdu.

Demokratiya və geosiyasət həmişə qoşa addımlayıbdır. XX əsrin ikinci yarısında "demokratiyanın yayılması" anlayışına daha bir termin – geoiqtisadiyyat da əlavə olundu. Yeni nəqliyyat arteriyaları, qlobal maliyyə əməliyyatlarının iqtisadi üstünlükləri, yeni ərazilərin öyrənilməmiş təbii ehtiyatları, inkişaf etməkdə olan ölkələrin ucuz işçi qüvvəsi və yeni müstəqil dövlətlərin

təsərrüfat-sənaye kompleksinin geridə qalması "demokratik dalğanın" genişlənməsinə və birinin digəri üzərində ucdantutma üstünlük qazanmasına əlverişli şərait yaradırdı. Demokratik meyillər ayrıca götürülmüş ərazi və regionlar üzərində iqtisadi üstünlüyə əhəmiyyətli dərəcədə uduzan bir şəkil almağa başlayırdı.

Sosiumun həyat fəaliyyətinin siyasi, iqtisadi və sosiomədəni aspektlərini "həzm etmiş" ümumdünya inteqrasiyası aparıcı dövlətlərin xarici siyasət prioritetlərinin müəyyən edilməsində birinciliyi, əsasən, "Böyük yeddiliyin" maraqlarını əhatə edən və investisiya qoyuluşunun vahid iyerarxiyası konqlomeratından ibarət olan maliyyə məsələlərinə verdi.

Demokratik təsisatlar özləri yaxşılaşa bilməz, onların yaxşılaşması bizdən asılıdır. Demokratik təsisatların yaxşılaşdırılması problemi təsisatlar qarşısında deyil, həmişə şəxsiyyətlər qarşısında duran problemdir.

Karl Popper

§ DEMOKRATİYA GEOSİYASƏTİ

1985-ci il dünyanın siyasi strukturunda daha dərin transformasiyalar dövrü oldu. On illərlə davam edən "soyuq müharibə"dən sonra Qərb üçün daha açıq olan bir adamın – M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə beynəlxalq siyasətdə demokratik dəyişikliklərin ilk əlamətləri göründü. Sov.İKP MK Baş katibinin Böyük Britaniyanın Baş naziri M.Tetçer ilə görüşləri, sonra isə ABŞ Prezidenti Reyqan ilə üçtərəfli görüşü, Moskva və Vaşinqtona qarşılıqlı səfərlər düşmən ideologiyaların münasibətindəki buzu əritdi. Beynəlxalq münasibətlərin "Soyuq müharibə"nin bitməsi, Berlin divarının sökülməsi, Qarşılıqlı İqtisadi Yardım Şurasının dağılması, sovet respublikalarında xalq

hərəkatının vüsət alması və beynəlxalq münasibətlərin on beş müstəqil subyektinin meydana gəlməsi ilə nəticələnən yeni dövrü başlandı.

Yer kürəsinin geosiyasi və geoiqtisadi strukturlarının transformasiyaları, hər yerdə neoliberal modelin yayılması və kapitalist beynəlmiləlləşdirilməsinin qlobal xarakteri keçmiş kommunist Şərqinə münasibətdə ABŞ-ın yeni strategiyasını müəyyən etdi. Müvafiq olaraq, "üçüncü demokratik dalğa" başqa istiqamət və başqa sürət alırdı.

1980-cı illərin sonunda Şərqi Avropada və SSRİ-də baş verən çevik proseslər Bretton-Vud sazişinin (1945-ci il, Beynəlxalq Valyuta Fondunun – BVF-nin yaradılması) və Şimali Atlantika müqaviləsinin təməlini qoyanların ideologiyasına əsaslanın neoliberalizm modelinin yayılmasını sürətləndirdi. Dünya nizamının yeni modelinin sərhədləri qısa vaxt ərzində Sovet İttifaqının qərb hüdudlarına çatdı.

1991-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı süqut etdi. Dünyanın quru ərazisinin 1/6-ni tutan və qərb həyat tərzinin əsas antaqonisti olan nəhəng imperiya çökdü. Bu ölkədə sistemin özü dünyanın inkişaf meyillərinə müqavimət göstərirdi, çünki ölkə özlüyündə avtarkiya idi. Lakin bu tədqiqat işinin məqsədi Sovet İttifaqının dağılması ərəfəsində və ondan sonra cərəyan edən hadisələrin xronologiyasının təhlili və tədqiqi deyildir. Bizim məqsədimiz – demokratikləşmə dalğasının tranzit cəmiyyətlərdə, o cümlədən Azərbaycanda nə ilə nəticələndiyini izah etməkdir. Lakin əvvəlcə öz müşahidələrimizlə bölüşmək istərdik.

Fikrimizcə, "üçüncü demokratik dalğa"nın güclənməsinə və demokratik dövlətlər qurşağının yaranmasına gətirib çıxaran bir sıra səbəb mövcuddur. SSRİ-nin dağılması ilə

demokratik dalğa Şərqi Avropa ölkələrini bürüdü. Şərqi Avropa ölkələrində bu, demokratik dəyişikliklərin artıq ikinci dalğası idi. İlk demokratik transformasiyaların 1956-cı ilin faciəli Macarıstan hadisələri və "insan sifətli sosializm" qurmağa çalışan 1968-ci il "Praqa baharı"nın kədərli yekunları ilə nəticələnən rüşeymləri çoxlarının yadındadır.

Hələ 1980-ci ildə Polşada qdansklı fəhlə Lex Valensa tərəfindən yaradılmış "Solidarnost" azadlıq və yenilik tələb edən siyasətin başında durdu. 1978-ci ildə Roma katolik kilsəsinin başçısı seçilən keçmiş Krakov kardinalı Karol Voytılanın bir ildən sonra (1979-cu ildə) Polşaya pastor səfəri də buna kömək etdi. Onunla görüşlərdə milyonlarla insan nəinki dini saflaşma duyğuları keçirir, bu insanlar həm də özlərini vətəndaş kimi dərk edir, böyük ictimai qüvvə kimi hiss edirdilər. Şərqi Avropa ictimai inkişafın demokratikləşdirilməsi əhval-ruhiyyəsindən qidalanan köklü transformasiyalara hazır idi.

Macarıstanda demokratikləşmə bir qədər ağrılı başladı. 1987-ci ildə Yanoş Kadar 75 illik yubileyini qeyd etdi. Macarıstan cəmiyyətinin həm yuxarı, həm də aşağı təbəqələrində başa düşürdülər ki, ölkənin siyasi rəhbərliyini dəyişmək vaxtı çatmışdır, lakin onlar buna hazır deyildilər. Nəhayət, cəmiyyət içərisində Yanoş Kadarın vəzifədən götürülməsi və təcili olaraq sosial müqavilə barədə danışıqların başlanması fikri möhkəmləndi. Həmin andan ara verməyən böhranlar Macarıstanı lərzəyə gətirdi. Yeni elita hakimiyyətə yalnız 1990-cı illərin əvvəlində gələ bildi. Lakin onların nə cəmiyyətin aşağı hissəsinin tələblərini tez bir zamanda ödəməyə, nə də ki, yubanmadan demokratik seçkilər keçirmək üçün təşkilatlanmağa resurs və iradələri çatdı.

S.Hantinqtonun yazdığı kimi, Şərqi Avropada demokratik təcrübənin ümumi akselerasiyası – sürətlənməsi prosesi gedirdi. Məsələn, Polşanın demokratik tranziti üçün 10 il, Macarıstanda 10 ay, Şərqi Almaniya və Çexoslovakiyada 10 gün, Rumıniyada isə 10 saat lazım oldu.

İndi aydındır: keçən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində sosialist ölkələrində baş verən hadisələr qanunauyğun tarixi proses idi. Bu proseslər yeni transformasiyalarda təzahür etdi və nəticədə özünü siyasi, iqtisadi və sosial-mədəni mühitdəki dəyişikliklərdə göstərdi.

Bəs "üçüncü demokratik dalğa"nın ikinci mərhələsinin güclənməsinə, onun Şərqi Avropaya, sonra bütün postsovet məkanına ekspansiyasına, nəhayət, demokratik rejimlərin birləşməsinə səbəb nə oldu? Fikrimizcə, postsosialist məkanın demokratikləşməsinin yeni mərhələsinə aşağıdakı ardıcıllıqla düzülən amillər səbəb olmuşdur:

1. SSRİ-dəki dürğunluq və tənəzzül, Afrika, Yaxın Şərq, Şərqi Avropa və nəhayət, sovet respublikaları üzərində nəzarətin itirilməsi və bunun nəticəsində bir sıra etnomilli münaqişələrin, xalq və milli azadlıq hərəkatlarının meydana gəlməsi onların, Mərkəz tərəfindən amansızlıqla yatırılması və bu səbəbdən amortizasiya əks-reaksiyası doğurması.
2. Sovet İttifaqı tərəfindən təklif edilən inkişaf modelinin Şərqi Avropa ölkələri üçün iqtisadi cəhətdən cəlbedici olmaması, planlı təsərrüfatın tam iflası və bazar təsərrüfatının vüsət alması.
3. ABŞ-ın iqtisadi və hərbi-siyasi baxımdan güclənməsi, dünyada üstünlüyü ələ almaq cəhdləri.

4. Katolik kilsəsinin avtoritar rejimlərə və totalitar dövlətlərə qarşı mübarizədə yeni strategiyası. Onun həyata keçirilməsində Roma Papasının mühüm şəxsi rolu olmuşdur.
5. Yeni ərazilər, təbii sərvətlər və ucuz işçi qüvvəsi tələb edən qlobal maliyyə müdaxiləsinin başlanması.
6. Qərb bloku ölkələri əhalisinin iqtisadi rifahının inkişafının davamlılığını təmin etmək və keyfiyyətcə yaxşılaşdırmaq üçün "Böyük yeddilik" ölkələri tərəfindən yeni nəqliyyat yollarının axtarışı.
7. Vahid hərbi-siyasi aksiyalar və demokratik ölkələr qurşağının təhlükəsizliyini təmin etmək üçün yeni amortizasiya şəraiti yaradılmasının zəruriliyi.
8. Dünya birliyinin bütün ölkələri üçün vətəndaşların öz iradəsini bildirməsini, insan hüquqları və azadlıqlarını, dövlət idarə etməsinin və ictimai inkişafın əsasları sayılan hakimiyyət orqanlarının seçkili olmasını təmin edən vahid siyasi preferensiyaların (imtiyazların) mühümlüyü.
9. Təhlükəsizliyin təmin olunması və yeni məkanların sabitlik və təhlükəsizlik qövsünə daxil edilməsi zərurətindən irəli gələn *Pax Americana* zonasının genişlənməsi.
10. İkiqütblü dünya nizamından monosentrik dünya nizamına keçid, ABŞ-ın xeyirxah hökmranlığı, dünyanın strateji cəhətdən mühüm rayonlarında kəskin qeyri-sabitliklə bağlı alarizm (ingiliscə alarm – təhlükə sözündəndir).

Bu amillər XXI əsrin əvvəlləri üçün demokratikləşmənin yeni fenomen – geosiyasi təsirin, neoliberal siyasəti və iqtisadi modelinin zonasının genişlənməsinin determinantı xarakteri alan sürətinin xeyli dərəcədə artmasını irəlicədən müəyyən etmişdi. S.Hantinqton vurğulayır ki, bütün zəngin ölkələr demokratikdir və demək olar ki, bütün demokratiyalar zəngindir. Deməli, bu zənginliyi nəinki qorumaq, sabit inkişaf və mütəmadi artımı təmin etmək üçün imkan daxilində onu çoxaltmaq lazımdır. Ötən əsrin sonu, yeni əsrin əvvəlində baş verən demokratik transformasiyaların mahiyyəti xeyli dərəcədə yeni dünya nizamını quranların iqtisadi və siyasi iddialarının həyata keçməsi ilə bağlıdır. Qabriel Almondun yazdığı kimi, "sosial və beynəlxalq dəyişikliklər uzun dövr ərzində davam edə bilər və əyri xətdə, yaxud xətlərdə yalnız hansısa qısamüddətli ilgəyə, yaxud bir sıra ilməyə çatandan sonra siyasi sistemdə dəyişikliklərə təhrik etməyə başlaya bilər"[1].

Belə yanaşmada demokratik dövlətlərin davakar olmamaları haqqında dəlil bəzən tarixi təhlil qarşısında aciz qalır. Eləcə də bazar iqtisadiyyatının guya demokratiyanın ayrılmaz hissəsi olması fikri. Çünki Yaponiya da, Almaniya da heç vaxt Amerika tipli liberal bazar iqtisadiyyatına malik ölkələr olmamışdır.

Qlobal qarşılıqlı asılılığın xilasedici rolu barədə dəlili də tənqid etməyə dəyməz, çünki Birinci dünya müharibəsi ərəfəsində dünya ölkələri son dərəcə bir-birindən asılı idi, lakin bu hal Avropanın yenidən bölüşdürülməsinin ortaya atılmasına mane ola bilmədi.

[1] G.A.Almond. Approach to Developmental Causation // Crisis, Choice and Change: Historical Studies of Political Development / Ed. by G.A.Almond, S.C.Flanagan, R.J.Mundt. Boston: Little, Brown, 1973, p. 28.

Yaxud da ABŞ Prezidenti oğul Buş İraqda müharibənin yalançı zəmin əsasında başlanması ilə razılaşanda, müstəqil dövlətin işğalı isə demokratik rejim yaradılmasına cəhd kimi təqdim ediləndə, üstəlik, hər gün orada yüzlərlə dinc sakin həlak olanda istər-istəməz müasir demokratiyanın dəyəri barədə sual doğur.

Elə buna görə də müasir sosiologiyanın əsas problemi "yeni demokratiya nədir?" sualına verilən cavabdan ibarətdir. XXI əsrin əvvəllərinə yaxın *Pax Americana*-nın təsir dairəsini Şimali Koreya və İran hüdudlarına qədər genişləndirən "demokratikləşmənin üçüncü dalğası"nın nəticələri nədən ibarətdir? Yeni ərazilərin demokratikləşdirilməsi nə deməkdir: qərbləşmə dünyada güclülərin geosiyasi üstünlüyü, yoxsa daha əlverişli dövlət idarəetmə rejiminin real şəkildə qurulması? Aşağıda biz demokratik tranzit pərdəsi altında gizlənən demokratik reallıqlar və əsl demokratik transformasiyalar arasında sərhədi göstərməyə çalışacağıq.

§ DÜNYADA ÜSTÜNLÜK QAZANMAQ STRATEGİYASI

İqtisadi inkişaf, sənayeləşdirmə, urbanizasiya, burjuaziyanın və orta sinfin meydana gəlməsi, fəhlə sinfinin və onun ilkin təşkilatlarının yaranması, iqtisadi bərabərsizliyin tədricən aradan götürülməsi XIX əsrdə Şimali Avropa ölkələrinin demokratiyaya doğru hərəkətində öz rolunu oynamışdır. O dövrün demokratiya dalğasının hərəkətverici qüvvəsi tədricən formalaşan kapitalist cəmiyyətini bürüyən intensiv iqtisadi artımdan ibarət idi. Lokk, Monteskyö, Russo, de Tokvil kimi filosofların təsiri də yeni tip kütləvi düşüncənin

formalaşmasına mühüm təsirini göstərir, bərabərlik, insan hüquqları və azadlıqları, azad rəqabət və xüsusi mülkiyyət hüququ ideyaları ictimai inkişafın əsasını təşkil edirdi.

Bununla yanaşı, S.Hantinqtonun qeyd etdiyi kimi, XIX əsrin sonu – XX əsrin əvvəlində demokratik inkişafa protestantlıq kömək etmişdi, çünki 1900-cü il üçün demokratik təsisatların yarandığı ölkələrin üçdə ikisi dini tərkibinə görə protestant ölkələri idi. Eyni zamanda, kommunikasiyaların intensiv inkişafı, maliyyə vəsaitlərinin köçürmə sahəsinin genişlənməsi, nəqliyyat vasitələrinin sürətli inkişafı və təhsilin tədricən beynəlmiləlləşməsi bir-biri ilə möhkəm qarşılıqlı asılılıq telləri ilə bağlı olan qərb cəmiyyətlərinin labüd surətdə demokratikləşməsinə doğru aparırdı.

XIX əsrin axırı, xüsusilə də XX əsrin əvvəlində dünyanın əksər ölkələrində ictimai həyat getdikcə özünü daha aydın büruzə verən qlobal xarakter alırdı. Bu və ya digər dövlətlərin əhalisi üçün səciyyəvi olan, adət edilmiş həyat tərzinə başqa cəmiyyətlərdə yaranmış beynəlmiləl elementlər, maddi və mədəni dəyərlər labüd surətdə daxil olurdu. Milli təsərrüfatların və siyasi sistemlərin daxilində xarici təmsiçilərin və təsisatların iştirakı genişlənirdi. İntellektual elita və hakim sinif get-gedə daha kosmopolit olurdu, geniş insan kütlələri isə dünya sivilizasiyasının təsirini öz üzərində hiss edirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərindəki demokratik transformasiyaların səbəb-nəticə əlaqəsi iqtisadiyyatın və qitələr arasında kommunikasiya əlaqələrinin inkişafı ilə bağlı idi. Sabit iqtisadi inkişaf və beynəlxalq münasibətlərdəki nisbətən münaqişəsiz zaman kəsiyi bir çox hakim rejimlərdə tranzitə imkan yaratdı. Beləliklə, S.Hantinqtonun qeyd etdiyi kimi, iqtisadi zəmini qloballaşmanın birinci dalğasının əsası hesab etmək olar.

İkinci dalğa Qərb dövlətlərinin İkinci dünya müharibəsindəki qələbəsinin hərbi-siyasi aspektləri ilə bağlı idi. S.Hantinqtonun fikrincə, bunun ardınca meydana gələn demokratikləşmə təkcə tanınmış demokratiyaların müharibədə qələbəsinin və bu ölkələr tərəfindən müstəmləkələrin ləğv olunmasının deyil, həm də Qərb həyat tərzini, düşüncəsini və dövlət quruluşu formasını Şərqi Avropadakı sosializmə qarşı qoymaq cəhdlərinin nəticəsi idi. Məlumdur ki, iqtisadi geriliyinə baxmayaraq, nüvə dövləti kimi SSRİ beynəlxalq siyasətdə müəyyən üstünlüklərini saxlayırdı. Sovet rəhbərliyi ərəb ölkələrində kommunist partiyalarını dəstəkləmək üçün vəsaiti əsirgəmirdi, əmtəə idxalı hesabına Şərqi Avropa ölkələri iqtisadiyyatının artımına əhəmiyyətli dərəcədə yardım göstərirdi, iqtisadiyyatın durğunluğu sonradan həm də inflyasiya ilə müşayiət olunan səviyyəsində isə bu ölkələrə "dost rejimləri dəstəkləmək" məqsədi ilə qoşun yeridirdi.

İnsanların qanunlar tətbiq etmək bacarığı demokratiyanı mümkün edir, qanunlardan yan keçmək meyli isə demokratiyanı zəruri edir.

Reynhold Nibur

Ötən əsrin ikinci yarısında demokratiyanın yayılmasına həm də sonradan qərbləşmə, yəni düşüncə tərzi və formasının "qərbləşməsi" (termin A.Zinovyevindir) adı almış sosiomədəni fenomen kimi də baxmaq olar. Vurğulayıram ki, qərb cəmiyyətlərinə xas olan demokratik ənənələr və bu ənənələrin müxtəlif formalarının ilk əlamətləri müstəsna olaraq qərb sivilizasiyasının yetirməsidir. Lakin onların təkmilləşdirilməsi və ictimai inkişafın nəzəri əsası kimi təsəvvür edilən ayrı-ayrı fəlsəfi nəzəriyyələrə transformasiyası qeyri-qərb məkanında demokratik baxışların assimilyasiyasının başlanmasına gətirib çıxardı. Belə assimilyasiya çox vaxt de-

mokratik idarəetmənin hibrid formalarını, bəzən isə əslində avtoritar idarəetmə, lakin içində demokratik təsisatların elementlərinin nəzərə çarpdığı yalançı demokratik rejimlər yaradırdı. Demokratik ənənələrin bu və ya digər məkanda "kök salması" və məqbulluğunun səbəb əlaqələrini çox vaxt əvvəlki sosiomədəni mühitdə axtarmaq lazımdır. Yeni ənənələri qəbuledən qeyri-qərb cəmiyyətində əvvəllər mövcud olmuş protodemokratik və ya protototalitar determinantlardan asılıdır. Qərb tərəfindən gətirilən ənənələr məcrasında qeyri-qərb cəmiyyətinin gələcək inkişaf strategiyası məhz bundan asılıdır.

1974-cü ilin Portuqaliya hadisələri və Üçüncü dalğanın yürüşündən sonra geosiyasi vəziyyət kökündən dəyişdi. Demokratik tranzitlərin yeni dalğası törəmə geosiyasi dəyişikliklərə transformasiya oldu və XX əsrin 90-cı illərinin əvvəlinə yaxın tamamilə başqa strateji inkişaf yoluna çıxdı. Dünya xəritəsində istənilən məkanın tarixi inkişafını dəyişə bilən bir fövqəldövlət qaldı. Buna görə də "demokratikləşmənin üçüncü dalğasını" ikimərhələli struktur formasında təsəvvür etmək yerinə düşər. 1974-1985-ci illəri əhatə edən birinci mərhələdə – əsas tranzitlər baş vermiş və əsas etibarilə Sov.İKP MK-nın Baş katibi M.Qorbaçovun nüvə sınaqlarının qadağan edilməsi və nüvə silahına ümumi qadağa qoyulması barədə təşəbbüsləri nəticəsində beynəlxalq siyasətdə müəyyən sakitlik yaranmışdı. 1985-ci ildə Braziliyada hərbçilərin 20 il sürən idarəetmə dövrü başa çatdı. Elə həmin il Nigeriyada hərbçilər hakimiyyətə gəldilər.

1988-ci ildən indiyə qədər "demokratikləşmənin üçüncü dalğasının" ikinci mərhələsi yaşanır. Bu təkcə demokratik təsisatların təşəkkülünü yox, həm də dünyanın monosentrik nizamının da formalaşmasını şərtləndirmişdir. Aydın oldu ki,

Birləşmiş Ştatlar nəinki dünya nizamı strukturunda hakim mövqe tutmağa, hətta onun meyillərini müəyyənləşdirməyə, habelə ayrı-ayrı dövlətlərin davranış strategiyasını qurmağa qadirdir. Bu, ABŞ-ın üzərinə xarici siyasət məsələlərinə ikili yanaşmaya səbəb olan xüsusi missiya qoydu. Birinci missiya ondan ibarətdir ki, "Amerika öz evində demokratiyanı təkmilləşdirərək, özünə xas dəyərləri ən yaxşı şəkildə təsbit edir və bu səbəbdən də bəşəriyyətin qalan hissəsi üçün yol göstərən mayak rolunu oynayır; ikinci missiyanın mahiyyəti isə ondan ibarətdir ki, bu dəyərlərin özü Amerikanın üzərinə onların dünya miqyasında bərqərar olması üçün mübarizə aparmaq vəzifəsi qoyur"[1].

ABŞ-ın demokratik təsirinin coğrafiyası yeni regionları əhatə etməyə başladı. Corc Kennanın dünyanın üç regionunun: Birləşmiş Krallığın, Reyn vadisinin və Yaponiya adalarının rusların əlinə keçməsinin yolverilməzliyi haqqında düşüncələri[2] onilliklər keçəndən sonra tutarsız görünür, çünki "Qədim Roma dövründən bəri ayrıca götürülmüş bir ölkə heç vaxt beynəlxalq nizam üzərində bu qədər həlledici üstünlük əldə edə bilməmişdi"[3]. "Xeyirxah hegemonluğu" genişləndirərkən ABŞ yeni ideologiyanı "yeni demokratiya" forması ilə pərdələnən və siyasi, iqtisadi sosiomədəni məkana müdaxiləni reallaşdıran demokratiya geosiyasəti vasitəsilə bərqərar etməyə çalışırdı. İsrail və Yaxın Şərqin Tədqiqi İnstitutunun baş eksperti Andrey Fedorçenkonun yazdığı kimi, "ABŞ-ın həm hərbi qüvvə, həm də sülh yolu ilə Yaxın Şərqi "demokratikləşdirmək" cəhdləri son nəticədə dünyanın bu

[1] Г.Киссинджер. Дипломатия, стр. 10.

[2] W.Odom. Russia's several seats at the table // International Affairs, 1998, № 4, p. 809-810.

[3] Ch.W.Maynes. Principled Hegemony // World Policy Journal, 1998, p.31.

hissəsində Amerika şirkətləri üçün investisiya və xarici ticarət mühitinin yaxşılaşdırılması məqsədi daşıyır"[1].

Fransanın xarici işlər naziri Yuber Vedrin 1999-cu il noyabrın 3-də Parisdə Fransa Beynəlxalq Münasibətlər İnstitutunda (IFRI) konfransın açılışında söylədiyi nitqdə müasir dünyada ABŞ-ın rolunu belə səciyyələndirmişdi: "Hazırda Amerikanın üstünlüyü iqtisadiyyatda, maliyyə sahəsində, texnoloji və hərbi sahədə, eynilə həyat tərzində, dildə və kütləvi mədəniyyətdə, düşüncə tərzinin formalaşmasında və hətta Birləşmiş Ştatların düşmənləri üçün də cəlbedici olan obrazın yaradılmasında hiss olunur…

Amerika liderləri və mütəfəkkirlərinin çoxu son iki yüz il ərzində öz baxışlarını özlərinə və bütün dünyaya sübut edərək, Amerika Birləşmiş Ştatlarının İlahi qüvvə tərəfindən "əvəzolunmaz" millət kimi seçilməsinə və bəşəriyyətin rifahı naminə bu cür də qalmalı olduğuna bir an belə şübhə etməmişlər… Amerikalılar şübhə etmirlər və daha açıq danışaraq bizə xatırlatmağa çalışırlar ki, müasir dünya XX əsrin birinci yarısında Avropanın özünün və dünyanın problemlərinin həlli yolunda düçar olduğu tam məğlubiyyətin birbaşa nəticəsidir"[2].

Digər ölkələrdə insan hüquq və azadlıqlarının, demokratiyanın müdafiəsi sahəsində Amerikanın siyasəti ötən əsrin 70-ci illərinin ortasından, 1975-ci ildə Helsinki aktının qəbul olunmasından və ATƏM-in yaranmasından sonra dəyişməyə başladı. Ötən əsrin 60-cı illərinin sonunda baş vermiş qalmaqaldan sonra aydın olanda ki, Mərkəzi Kəşfiyyat İdarəsi

[1] http://base.ijc.ru/basesite.aspx?SECTIONID=104063&IID=104069

[2] Г.Киссинджер. Нужна ли Америке внешняя политика. М., 2002, стр. 37.

Avropa KİV-lərində və siyasi partiyalarında olan öz adamları vasitəsilə fəal surətdə "ideya döyüşləri" aparır, Lindon Conson hökuməti "casus" demokratiyası əvəzinə, onun tamamilə leqal "açıq qeyri-rəsmi mexanizmini" yaratmaq qərarına gəldi. Bu istiqamətdə Cimmi Karter hökumətinin, habelə bir sıra konqresmenlərin (Dante Farsel və Donald Frezer və b.) ciddi fəallığına baxmayaraq, insan hüquqları və azadlıqlarının qlobal müdafiəsi sahəsində ilk addımlar atıldı.

Qanunvericilik şəxsiyyət azadlığını elə bir hüduda salmağa çalışır ki, bu hüdudda o, ümumi qanunlara tabe olaraq, hər bir başqa şəxsiyyətin azadlığı ilə bir araya sığır.

İmmanuil Kant

1974-cü ilin əvvəlində Minnesota ştatından olan demokrat konqresmen, "Demokratik konfrans"ın və "Amerikalılar demokratik fəaliyyət uğrunda" cəmiyyətinin sədri, "Üçtərəfli komissiyanın" üzvü Donald M.Frezerin başçılıq etdiyi alt komissiyanın məruzəsi hazırlandı. Məruzəçi ABŞ-ın "insan hüquqlarının müdafiəsini öz xarici siyasətinin əsas vəzifəsi saymasında təkid edir" və "bu vəzifənin yerinə yetirilməsi üçün müxtəlif tədbirlərin görülməsini tövsiyə edirdi"[1].

Cimmi Karterin prezidentliyi dövründə Amerika hökumətinin insan hüquqlarına və demokratiyaya, – o cümlədən də SSRİ-də, – münasibəti əhəmiyyətli dərəcədə fəallaşdı. Onun hökuməti sovet məkanında insan hüquqları probleminə xüsusi səylə yanaşırdı və məhz 1974-cü ildə ABŞ Konqresi tərəfindən SSRİ-yə qarşı məşhur Cekson-Venik düzəlişi tətbiq olundu. Qeyd edək ki, bu düzəliş ABŞ-ın ticarət haqqında qanununa yəhudilərlə bağlı sovet mühacirət siyasətinə qarşı etiraz edən yəhudi icmalarının təşəbbüsü ilə əlavə edil-

[1] С.Хантингтон. Третья волна. Демократизация в конце XX века. М., 2003, стр. 104.

mişdi. Düzəlişə əsasən, keçmiş İttifaqın ABŞ-a ixrac etdiyi mallara vergi və tariflər baxımından ayrı-seçkilik qoyulurdu.

1977-ci ilin yanvarında məşhur sovet dissidenti Andrey Saxarov ABŞ Prezidenti C.Karterə SSRİ-də və Şərqi Avropada insan haqlarının vəziyyəti barədə məktub göndərir və bir neçə gündən sonra cavab alır.

Andrey Saxarovun memuarlarını gözdən keçirərkən, mən o məktubla bağlı epizodu tapdım və deməliyəm ki, həmin təşəbbüsün heç də dissidentin özünə məxsus olmadığını görəndə təəccübləndim. Məktub müəllifi bu epizodu belə təsvir edir: "Təxminən yanvarın 16-da, səhər yeməyinə əyləşəndə, gözləmədiyimiz halda bizə gələn oldu. O, özünü amerikalı vəkil kimi təqdim etdi (soyadı yadımda deyil) və azadlığa buraxılmaları uğrunda mübarizədə səyləri cəmləşdirmək lazım olan təxminən on nəfər siyasi məhbusun siyahısını Karter üçün yazmaq barədə xahişi təqdim etdi (xahişin kimin tərəfindən olması aydın deyildi, bəlkə də ozünün təşəbbüsü idi, ancaq o vaxt mən elə başa düşdüm ki, yeni hökumətin xahişidir). Qonağı aşağıda maşın gözləyirdi və iki saatdan sonra o, ABŞ-a uçmalı idi. Lyusya qonağa qayğanaq bişirənə qədər (qonaq ac olduğundan yemək təklifindən imtina etmədi) mən Karterə bir səhifəlik məktub yazdım və 16 nəfərin azad olunmasını xahiş etdim (10 nəfəri heç cür müəyyən edə bilmirdim), həm də yeni seçilmiş prezidentin diqqətini o məsələyə yönəltdim ki, Moskva metrosundakı partlayış ola bilsin ki, təxribat məqsədi daşıyır və yaxud bu məqsəd üçün istifadə ediləcəkdir".

Praktik olaraq, eyni vaxtda Şərqi Avropa ölkələrində və SSRİ respublikalarında Helsinki sazişlərinin həyata keçirilməsinə nəzarət etməli olan Helsinki qrupları yaradılmağa

başlandı. 1976-cı il noyabrın 9-da Ukrayna Helsinki qrupu, noyabrın 25-də Litva, 1977-ci il yanvarın 14-də Gürcüstan Helsinki qrupları və s. Bütün bu qruplar əsas etibarilə müvafiq milli hərəkatların iştirakçılarından ibarət idi. Ukrayna və Litvada Helsinki qrupları ilk açıq ictimai assosiasiyalar idi.

1976-cı ilin sentyabrında Polşada Fəhlələri Müdafiə Komitəsi yarandı, 1977-cı ildə o, İctimai Müdafiə Komitəsinə çevrildi. 1977-ci il yanvarın 1-də Çexoslovakiyada "Xartiya-77" yarandı. Bunlar özlərini "Helsinki assosiasiyaları" adlandırmırdı, lakin SSRİ-də olan Helsinki qrupları kimi, onlar da hüquq müdafiəsi mövqelərində dayanır, öz ölkələrinin konstitusiyalarına və hökumətlərinin qəbul etdiyi insan haqlarına dair beynəlxalq paktlara əsaslanırdılar. "Xartiya-77" tərəfindən qəbul olunmuş sənəddə "hakimiyyətdən asılı olmayan məhkəmə hüququ, yerdəyişmə azadlığı, əqidə və onun ifadə olunması azadlığı, öz professional maraqlarını müdafiə etmək azadlığının dövlətin maraqlarını sarsıtması yox, onu möhkəmlətməsi (əgər dövlət ayrıca şəxslər qrupu ilə eyniləşdirilmirsə) kimi elementar hüquqlardan" söhbət gedirdi".

Macarıstanda, Rumıniyada, ADR-də eyni tələblər səsləndi. ABŞ-da Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə komissiya yaradıldı (Helsinki komissiyası). Ona 6 konqresmen, 6 senator, Dövlət Departamenti, Müdafiə Departamenti və Ticarət Nazirliyinin hərəsindən məşvərətçi səs hüququ ilə bir nümayəndə daxil idi.

Dissidentlik fəaliyyətinə görə SSRİ hüdudlarından çıxarılmış Vladimir Bukovskini 1977-ci ilin martında Ağ evdə əvvəlcə vitse-prezident, sonra Prezident Karter qəbul etdi. O

vaxt bu barədə xəbər verən SİTA-nın sitatları yada düşür. Onlardan biri: "(Vaşinqton, 2 mart). Dünən ABŞ Prezidenti C.Karter dissidentlik fəaliyyətinə görə Sovet İttifaqının hüdudlarından çıxarılmış", "həm də sovet-Amerika münasibətlərinin fəal əleyhdarı kimi tanınan Bukovskini – cinayətkarı qəbul etmişdir". SİTA-nın bu qəbildən olan informasiyaları indi bir çoxlarında gülüş doğurur, lakin Sovet İttifaqı dövründə ictimai şüur bu xəbərləri reallıq kimi qavrayırdı, çünki avtarkiya sistemi heç bir digər düşüncə tərzinə yol vermirdi.

Beləliklə, ABŞ 80-ci illərin əvvəlinə yaxın Vilsonun təcridçilik siyasətindən tamamilə uzaqlaşdı və Yer kürəsinin müxtəlif guşələrində hərbi-siyasi iştirakla yanaşı, yeni ideoloji konseptlərin yeridilməsi istiqamətində fəaliyyətini genişləndirməyə başladı.

SSRİ-yə qarşı ideoloji müharibənin "bəhrələri" yalnız Ronald Reyqanın neokonservativ komandasının 1980-ci ildə Ağ evə gəlməsindən sonra özünü göstərməyə başladı. Trotskizm təsirinə yad olmayan (neokonservatizmin banisi sayılan Maks Şaxtman Lev Trotskinin silahdaşı və sosializmin Stalin variantının barışmaz düşməni idi) neokonservatorlar SSRİ-yə qarşı xüsusi, siyasi tarixdə dərin kökləri olan "məhəbbətin" varisləri idi. Reyqana məxsus məşhur "bəla imperiyası" ifadəsi də buradandır. Ola bilsin ki, 1980-ci ilin əvvəlində ABŞ-da mövcud olan məhz belə əhval-ruhiyyə staxanovçuluq sürəti ilə The National Endowment for Democracu (NED) və onun dörd müttəfiqindən ibarət olan, – respublikaçıların The International Republican Institute (IRI), demokratların The National Democratic Institute for International Affairs (NDI), habelə The Center for international Private Enterprise (CIPE) və The Free Trade

Union Institute (FTUI), – özünəməxsus pul şəklində geniş qeyri-hökumət təşkilatları şəbəkəsinin yaranmasına gətirib çıxardı. Yeni "silah" 15 il bundan qabaq Mərkəzi Avropa meydanlarında "məxməri" inqilablar zamanı uğurla sınaqdan keçdikdən sonra, onun artıq postsovet məkanında ideoloji mübarizədə tətbiq edilməsi mümkün oldu və bu da uğurla baş tutdu.

İnsan hüquqlarının qlobal şəkildə müdafiəsi işinə böyük həcmdə maliyyə vəsaiti, kütləvi informasiya vasitələri, ABŞ-ın digər ölkələrdəki səfirləri, iqtisadi təzyiq və sanksiyalar, müxalifətçi demokratik qüvvələrin həvəsləndirilməsi və dəstəklənməsi, çoxtərəfli diplomatiya və hərbi aksiyalar cəlb olunmuşdu. Ötən əsrin ikinci yarısında ABŞ-ın beynəlxalq aləmdəki təsiri və gücü insan hüquqları anlayışının və demokratik proseslərin sənədləşdirilmiş kağızlardan real siyasət alətinə transformasiyasını və neoliberal modelin bütün dünyada zəfər çalması naminə mübarizə meydanına yönəldilməsini təmin etdi.

1983-cü ilin əvvəlində ABŞ Prezidenti preambulasında Birləşmiş Ştatlar "ideallar və mənəvi dəyərlər sahəsində Sovet İttifaqı ilə daha fəal yarışmalıdır" fikri bəyan edilən "Demokratiya" layihəsini qəbul etdi. Bu layihə "bütün dünya ölkələrində demokratiyanın dəstəklənməsinə" yönəlmiş tədbirlər kompleksini inkişaf etdirir və tamamlayırdı.

"Demokratiya" layihəsi demokratiya dəyərlərinin və sosial quruluşun müvafiq modellərinin bərqərar olmasının fəal hücum məqsədlərinin qlobal miqyasda reallaşmasını nəzərdə tuturdu. Həmin dəyərlərin bərqərar olması üçün mümkün qədər geniş vasitələrdən istifadə edilməsi təklif olunurdu. Bu layihənin həyata keçirilməsi çərçivəsində ABŞ

dövlət katibi C.Şults xarici siyasət təbliğatı və təşviqatını fəallaşdırmağa, "siyasi, iqtisadi və sosial konsepsiya və hadisələrin obyektiv işıqlandırılmasını Sovet İttifaqı və Şərqi Avropa xalqları üçün əlçatan etməyə" çağırdı. Beləliklə, "Demokratiya" layihəsi həyata keçirilərkən qarşıya qoyulan məqsədlərə çatmaq üçün, adətən, böhran vəziyyətlərində tətbiq edilən hərbi-siyasi vasitələrə deyil, əsasən, siyasi-diplomatik, iqtisadi, humanitar və mədəni-ideoloji vasitələrə arxalanmaq nəzərdə tutulurdu.

Lakin hadisələri qabaqlamaq istəməsək də, hər halda, özgə mədəniyyətlə qarşılaşarkən Qərbin çox vaxt iki cür hərəkət etdiyini düşünən bəzi sosioloqların mülahizələrini xatırladaq. Məhz bu yol monosentrik dünya nizamının yaranmasına və hegemon dəyərlər sistemini rəsmiləşdirmək səylərinə gətirib çıxardı. Bir tərəfdən, keçmiş sosial qaydanın yerli liderləri, xalqın mənəvi dəyərlər sistemi, təhlükəsizlik strukturu gözdən salınır. Digər tərəfdən isə, qərbləşmə missionerlərin, sərmayəçilərin, ticarətçilərin, alimlərin fəaliyyəti vasitəsilə həyata keçirilir. Nə qədər təəccüblü olsa da, Qərb mədəniyyəti, onun humanitar aspektləri bu metodları o dərəcədə reallaşdırır ki, əhalinin savadlı təbəqəsi öz intellektual və mənəvi müstəqilliyini itirir. Dünyaya açılmış yerli iqtisadiyyat dərhal Qərb sənayesi, mədəniyyəti və elmindən asılı vəziyyətə düşür. Belə ucdantutma hücum qeyri-qərb mədəniyyətlərinin sanki geri çəkilməsinə, marginallaşmasına səbəb olur.

1990-cı illərin əvvəllərində beynəlxalq münasibətlərin əsas seqmentlərinin dəyişməsi, habelə ABŞ-ın gündəlik məsələlərini öz istəyinə uyğun müəyyənləşdirmək imkanı beynəlxalq səhnədə "proqramlaşdırıcı liderlik" adı almış yeni postbipolyar davranış formasına gətirib çıxardı.

"Proqramlaşdırıcı liderlik" strategiyasını həyata keçirmək üçün ABŞ-ın xarici siyasət məqsədlərinin müttəfiqlərin niyyətlərindən üstün olması, ideal vəziyyətdə isə eyni olması vacibdir. Məqsədlərin belə konvergensiyası postbipolyar dövrdə bəzi sahələrdə ABŞ-ın və Qərbi Avropanın maraqlarının üst-üstə düşməsinin davam etməsi sayəsində mümkündür. Buna aşağıdakı vasitələrlə nail olunur:

- ABŞ-ın qabaqlayıcı xarici siyasət planlaşdırması və həyata keçməsi Birləşmiş Ştatların məqsədlərinə cavab verən ideya və konsepsiyaların siyasi diskursa çıxarılması;
- Amerika diplomatiyasının müttəfiqlərə ənənəvi təsir metodları;
- Realpolitik ruhda olsa belə, birgə fəaliyyətin dürüst ifadə olunmasında, müttəfiqlərlə ümumi dəyərlərə (demokratiya, siyasi plüralizm, bazar iqtisadiyyatı, insan hüquqları və s.) arxalanmaq;
- müttəfiqlərə maddi resurs (silah, hərbi infrastruktur, yüksək texnologiyalar), habelə informasiya təqdim edilməsi.

Bill Klintonun prezidentliyinin birinci müddətində hazırlanmış və ikinci müddətində həyata keçirilmiş "proqramlaşdırıcı liderlik" strategiyası amerikalılara aşağıdakı imkanları verir: 1) öz xarici və daxili siyasət məqsədlərinə çatmaq üçün maddi resursları artırmağa; 2) müttəfiqlərin sərbəstləşən enerjisini beynəlxalq münasibətlərin digər subyektlərinin arzuolunmaz davranış ssenarisinə yol verməyərək özü üçün əlverişli olan istiqamətə yönəltməyə; 3) müttəfiq ölkələrin xarici, hərbi və iqtisadi siyasətlərinin formalaşmasına nəzarət etmək və ya güclü təsir göstərməyə.

"Proqramlaşdırıcı liderliyin" əsasını amerikalılar özlərinin "başqalarının oyununa" və ya başqalarının məqsədlərinə nail olunmaq prosesinə cəlb edilməsinə imkan verməyən ideya və strategiyaların irəli sürülməsi təşkil edirdi. Gündəliyə çıxarılan vəzifə ABŞ-ın aparıcı dövlət rolunu, bərabərlər arasında birinci olmasını möhkəmlətmək idi. Siyasətini müəyyənləşdirməyənlərə və potensial rəqiblərə münasibətdə isə strategiya daha sərt şəkil alır: xüsusilə də Amerika bayrağı altında koalisiya yaratmaq şübhəlidirsə, sırınan problem potensial rəqiblərin fəallığını məhdudlaşdırmalı və resurslarını neytrallaşdırmalıdır. Bu halda birgə gündəliyin formalaşması məqsədlərin daha aşkar təzyiqlə qəbul etdirilməsi və başlıca olaraq Amerika resurslarından istifadə edilməsi yolu ilə baş verir. Başqa sözlə, cəlbolunma qabağını almaqla uzlaşdırılır.

"Proqramlaşdırıcı liderliyin" strategiyası keçmiş sovet satellitlərinin qərb təsisatlar sisteminə qəbul olunmağa can atdıqları vaxtdan yaranmağa başlamışdır. Transatlantik münasibətlərin gündəliyinə "demokratiya zonasının genişləndirilməsi" ideyası və ya enlargement and engagement prinsipi əlavə olundu ki, bunun da praktik təcəssümü NATO-nun Şərqə doğru genişlənməsidir.

"Demokratiya zonasının genişləndirilməsi" konsepsiyasının ideoloji bünövrəsi Klintonun prezidentliyinin birinci dövründə qoyuldu, praktik təcəssümünü və gələcək inkişafını isə onun prezidentliyinin ikinci müddətində, Madlen Olbrayt dövlət katibi olarkən tapdı. Transatlantik gündəliyə müstəqil dövlətlərin daxilində insan hüquqları və milli azlıqların hüquqlarının qorunması problemi daxil edildi. Bütövlükdə "demokratiya zonasının genişləndirilməsi" qərbi avropalıların müstəqil hərbi-siyasi fəallıq "barıtını" Alyansın

genişlənməsinə tərəf yönəldərək, hərbi-siyasi Alyansın iştirakçılarının xarici siyasət təşəbbüslərini vahid məqsədə istiqamətləndirməyə imkan verdi. Bununla da, Alyansın mövcudluğu yeni postqarşıdurma mənası aldı: "Mən genişlənirəm, deməli, mən varam".

Demokratiya burjua dövlət formalarından biridir və əsl sosializmə xəyanət... edənlərin hamısı ona tərəfdardır...

V.İ.Lenin

Bill Klinton 1995-ci il oktyabrın 20-də Birləşmiş Qərargah Rəisləri Komitəsinin iclasında çıxışı zamanı xarici siyasət fəaliyyətinin aşağıdakı əsas istiqamətlərini bəyan etdi:

- "Rusiyanın bizim Yuqoslaviyada təşkil etdiyimiz şəkildə regionlararası müharibələr yolu ilə xırda dövlətlərə parçalanması;
- Rusiyanın hərbi-sənaye kompleksinin və ordusunun tamamilə dağılması;
- Rusiyadan qopmuş bizə lazım olan respublikalarda rejimlərin kənar edilməsi".

Ata C.Buşun respublikaçılar komandasının hakimiyyətə gəldiyi vaxt ABŞ dünyada demokratik dəyişikliklərin müjdəçisinə və inteqratoruna çevrilmişdi. Beləliklə, Karterin, Reyqanın və ata Buşun dövründə yeni Üçüncü dalğa ABŞ siyasətinin təcəssümü oldu. Birləşmiş Ştatlar öz təsir dairəsində olan demokratik hökumətlərin devrilməsinə yol vermir, eyni zamanda, özünün təsir dairəsindən kənardakı dövlətlərdə inqilab və çevrilişlər həyata keçirirdi. Nəticədə yeni demokratik cərəyanların təsiri altında gələcək dəyişikliklərin mahiyyət və istiqamətini irəlicədən müəyyən edən iqtisadi və sosiomədəni mühit formalaşırdı.

Tamamilə təbiidir ki, ABŞ qlobal demokratik tranzitlər prosesində əsas rol oynayırdı. ABŞ-ın köməyi olmadan Filippində Markosun devrilməsindən, 1975-ci ildə Portuqaliyada sosialistlərin, Polşada "Solidarnost"un qələbəsindən, Cənubi Koreyanın demokratikləşməsindən söhbət gedə bilməz. Bu siyahıya Dominikan Respublikasını, Qvatemalanı, Perunu, Ekvadoru, Çilini, Şərqi Avropa dövlətlərini və s. də əlavə etmək olar. Bu siyasət ABŞ-ın milli təhlükəsizlik strategiyasında öz əksini tapmışdır. Həmin strategiya təkcə öz qitəsində deyil, ondan kənarda da Birləşmiş Ştatların rolunu müəyyənləşdirir ki, bu da ona dünyanın ən qüdrətli dövləti statusunu qoruyub saxlamağı təmin edir.

2001-ci ilin sentyabrında Nyu-Yorkdakı Ticarət mərkəzinə və Pentaqona dəhşətli hücumlardan sonra ABŞ-ın siyasəti daha intensiv yönüm aldı. Prezident oğul C.Buş proqram bəyannaməsi ilə çıxış edərək dünyaya alternativ təklif etdi: "Kim bizimlə deyilsə, o, bizim əleyhimizədir". Amerika siyasətinin həmin formulu Monro doktrinasının qəbulundan keçən iki yüz il ərzində dəfələrlə təkrar olunmuşdur. Xatırladım ki, bu doktrina ABŞ Prezidenti C.Monronun Konqresə göndərdiyi 1823-cü il 2 dekabr tarixli məktubunda qeyd olunmuş ABŞ xarici siyasətinin prinsipləri bəyannaməsində müəyyən edilmişdir, mahiyyəti isə "Amerika amerikalılar üçündür" prinsipindən ibarətdir. Müasir dövrdə Buşun ifadəsi faktik olaraq, Amerika maraqlarının yeni zonalarını elan edirdi.

ABŞ kütləvi informasiya vasitələri "uzun əllər" yurisdiksiyasının (eonq arm jurisdiction) həyata keçirilməsindən danışmağa başlamışdır. Bunun mahiyyəti xarici dövlətlərə Amerika hüquq normaları ilə hərəkət etmək göstərişi verilərdə ABŞ milli qanunvericiliyinin beynəlxalq münasibətlər

sahəsinə yayılmasından ibarətdir. İndi yeni maliyyə subsidiyalarının əsas alıcısı hərbi idarə oldu: Pentaqonun büdcəsi 400 milyard dolları keçdi ki, bu da NATO dövlətlərinin hərbi xərclərinin cəmindən çox idi. Hərbi qüvvələrin ən yeni "ağıllı silah" (smart weapons) növləri ilə təchiz edilməsinə başlandı. Bu silahlar "nöqtə zərbələri", fəal "qabaqlayıcı addımlar", ən müasir informasiya texnologiyalarının köməyi ilə hərbi əməliyyatların idarə olunmasının təkmilləşdirilməsi hesabına ABŞ silahlı qüvvələrinin itkilərini azaltmağa yönəldilmişdir.

Pentaqon "Birgə baxış-2020" proqramını qəbul etdi. Bunun mahiyyətini dünyanın beş hərbi zonaya bölünməsi (hər birinin əlahiddə idarə və komandanlıq strukturu olan dairələr), keçmiş SSRİ-ni sıx halqaya alan 350 hərbi bazanın müasirləşdirilməsi, Dünya okeanının bütün əsas zonalarındakı 12 hərbi dəniz birləşmələrinin maddi-texniki və telekommunikasiya imkanlarının möhkəmləndirilməsi təşkil edir. Xaricdə daimi xidmət etmək üçün 500 min nəfərin hazırlanması nəzərdə tutulurdu. "Birgə baxış-2020" faktik olaraq, dünyada hərbi hökmranlıq proqramı oldu. Bu hökmranlığın aşağıdakı mühüm xüsusiyyətləri elan edilmişdir:

- sülh dövründə inandırıcılıq;
- müharibə zamanı qətiyyət;
- münaqişəni istənilən formasında qabaqlama.

Qlobal "demokratikləşmə" kontekstində "Nyu-York tayms" qəzetinin 2004-cü il 25 yanvar tarixli nömrəsindəki məqalədən gətirilən sitat maraq doğurur: "Əgər Nyu-Yorkdakı Ticarət mərkəzinə və Pentaqona hücum olmasaydı, kiçik Corc Buş onu fikirləşib tapmalı olacaqdı".

§ DEMOKRATİK TRANZİTLƏR VƏ REJİMLƏR

Müasir siyasi elm demokratik tranzitlər və demokratik rejimlərin tipologiyası sahəsində bəşəriyyətə külli miqdarda tədqiqatlar və elmi araşdırmalar təqdim etmişdir. Demokratik rejimlərin tiplərinin ilk dəfə kim tərəfindən müəyyən edilməsini söyləmək çətindir, lakin tamamilə aydındır ki, onların sayı və müxtəlifliyi bəzən yeni nəticələr və elmi tədqiqatlar üçün yer qoymur. Hər necə olsa da, yeni dövlətlərin meydana gəlməsi, hakimiyyətdaxili münasibətlərin əvəzlənməsi və sosiomədəni seqmentlərin yekcins olmaması daim demokratik rejimlərin yeni modellərini ortaya çıxarır ki, onlar da öz növbəsində araşdırılıb təhlil oluna bilər.

Elmi fənn kimi demokratiya son dərəcə geniş sahəni əhatə edir, buna görə də biz bu kitabda demokratik rejimlərin yalnız məşhur müəlliflər tərəfindən irəli sürülmüş tipologiyalarını təhlil edəcəyik. Bu təsnifatlardan çıxış edərək isə, ölkəmizdə demokratik dəyişikliklərin mahiyyətini əyani şəkildə izah etmək üçün Azərbaycanın dünya düzənində yerini göstərməyə çalışacağıq. Biz son iki əsr yarımda təklif edilən və özlüyündə geniş materialdan ibarət olan bütün modelləri nümayiş etdirməyi qarşımıza məqsəd qoymuruq. Siyasi məkanın mövcud və mümkün olan müsbət və mənfi inkişaf ssenarilərini təhlil etmək üçün yalnız tranzit cəmiyyətlərə və onlardakı siyasi idarəetmə modellərinə toxunacağıq. Aşağıda təqdim edilən modellər nüfuzlu alimlərin çoxillik araşdırmalarının məhsuludur və onları nəzərdən keçirmək son dərəcə maraqlı olardı.

Demokratiyanın müasir modellərinin tipologiyasını müəyyənləşdirməyə ilk cəhd edənlərdən biri Kanada politoloqu K.Makferson olmuş, sonradan bu tipologiya D.Held tərəfindən tamamlanmış və genişləndirilmişdir. Makferson və Held aşağıdakı demokratik modelləri fərqləndirmişlər:

- klassik demokratiya, yəni antik demokratiya;
- respublikaçılıq, yəni Qədim Romada respublika idarəetmə forması;
- protektik (qoruyucu) demokratiya;
- inkişafda olan demokratiya;
- dövlətin ölüb getməsi nəzəriyyəsi (K.Marks);
- bəhsləşən elitizm;
- plüralist demokratiya;
- nümayəndəli demokratiya nəzəriyyəsi;
- leqal demokratiya modeli.

Biz klassik demokratiya və respublikaçılığı nəzərdən keçirməyəcəyik, çünki kitabın əvvəlində buna bənzər modellərin əsas cəhətlərinə toxunmuş, habelə o dövrün mütəfəkkirlərinin problemə baxışlarını aydınlaşdırmışıq. XVII-XVIII əsrlərə aid demokratiya modelləri bizim üçün daha böyük maraq doğurur.

K.Makferson və D.Heldin tədqiqatlarında liberal demokratiyanın protektiv (protektive) və inkişafda olan (developmental) modelləri fərqləndirilir.

Birinci istiqaməti C.Lokk, Ş.L.Monteskyö, İ.Bentam, Ceyms Mill, ikincini isə A.de Tokvil, C.S.Mill, C.Dyui,

L.T.Hobkaus və başqaları təmsil edirlər. Hər iki model üçün ümumi cəhət vətəndaş cəmiyyətinin dövlət qarşısında üstünlüyü, təmsilçilik üsul-idarəsində özünü göstərən xalq suverenliyi, şəxsiyyətin hüquq və azadlıqlarının qorunmasıdır[1].

Marksizmin siyasi-hüquqi nəzəriyyəsində kommunizm cəmiyyətində dövlətin siyasi hakimiyyətinin ölüb gedəcəyi, antaqonist maraqları olan siniflərin olmayacağı ideyası irəli sürülür. Bu fikir gələcək cəmiyyətdə dövləti "cəhrə və bürünc balta ilə yanaşı qədim əşyalar muzeyinə" təhvil verməyi qarşısına məqsəd qoymuş proletariata miras qalmış dövləti bəla adlandıran Engels tərəfindən xüsusilə fəal müdafiə olunurdu.

Fəhlələrin Beynəlxalq Cəmiyyətində anarxistlərlə və Almaniya fəhlə hərəkatında lassalçılarla amansız diskussiyaların əsas mövzusu siyasi inqilab və proletar diktaturası ideyası idi. Marksizmi anarxistlərlə dövlətin ölüb getməsi ideyası yaxınlaşdırırdı, lakin anarxistlər siyasi mübarizəni və proletar dövlətini inkar edirdilər. Siyasi fəaliyyətin zəruriliyinin qəbul edilməsində, xüsusilə də seçki hüququ uğrunda mübarizə məsələsində isə lassalçılarla mövqe ümumi idi, lakin lassalçılar zorakı siyasi inqilabların və diktaturanın əleyhinə idilər.

Demokratiyanın digər forması – sosial demokratiya ideologiyası XIX əsrin birinci yarısının ideya və meyillərindən yaranmışdır. Zəhmətkeşlərə ciddi ictimai çevriliş etməyə kömək edən dövlət ideyası məhz o vaxt meydana gəlmişdir. Bu çevrilişə nail olmaq üçün həmin dövlət demokratik olmalı, ümumi seçki hüququ verməli, heç bir əmlak senzi qoymamalıdır. Nəzərdə tutulurdu ki, belə dövlət burjuaziyanı

[1] М.Н.Грачев, А.С.Мадатов. Демократия: методология исследования, анализ перспектив. М., Алкигамма, 2004.

tədricən iqtisadi fəaliyyətin bütün sahələrindən sıxışdırıb çıxaracaq istehsalat emalatxanaları, kooperasiyalar, birliklər təşkil etməkdə muzdlu işçilərə kömək edəcədir.

Sosial demokratiya ideyasının yayılmasında həmin ideya tərəfdarlarının zor gücünə, məcburi yolla sosializm quruluşu yaratmağın mümkünlüyünə inanmamaqları böyük rol oynamışdır.

Makiavelli nə deyir-desin, heç bir qala xalqın etimadı ilə müqayisə edilə bilməz.

Napoleon Bonapart

XIX əsrin ikinci yarısında sosial demokratiyanın ən parlaq nəzəriyyəçilərindən biri publisist və vəkil Ferdinand Lassal (1825-1864) olmuşdur. Yalnız Marksın deyil, həm də Hegel ideyalarının tərəfdarı olan Lassal dövləti fərdiyyətçiliyə və sosial eqoizmə qarşı duran kütləvi marağın təcəssümü hesab edirdi. O, "İşçilərin proqramı" kitabında yazırdı ki, dövlətin mənəvi təbiəti, onun əsl və yüksək amalı bəşər övladının azadlıq istiqamətində inkişafından ibarətdir. Bəşər tarixi təbiətlə, səfalətlə, nadanlıqla, yoxsulluqla, hər cür əsarətlə mübarizə tarixidir. O yazırdı: "Azadlığın inkişafı bu zəifliyin tədricən aradan qaldırılmasıdır". Lassal vurğulayırdı ki, dövlət cəmiyyətin təşkilati və birləşdirici əsasıdır. Lakin müasir cəmiyyətdə dövlət öz ideal mahiyyətinə uyğun gəlmir, çünki burjuaziya dövləti "pulun kobud materiyasına" tabe edir. Əmlak senzinin köməyi ilə burjuaziya dövləti öz xidmətçisinə, mühafizəçisinə, "gecə gözətçisi"nə çevirir.

"Dövlət gecə gözətçisidir" tərifi publisistikada uzun illər klassik liberalizm doktrinasına uyğun olaraq, heç bir sosial funksiya daşımayıb yalnız qoruyucu funksiyalar icra edən liberal dövlətə şamil edilmişdir.

Lassal burjuaziyanın eqoist hökmranlığından azad olmaq və dövlətin əsl, ideal mahiyyətini bərpa etmək üçün mövcud əmlak senzinin ləğvini və ümumi seçki hüququnun müəyyən olunmasını zəruri hesab edirdi. O, israr edirdi ki, bu, "fəhlə zümrəsinin maddi vəziyyətini yaxşılaşdırmaq üçün yeganə vasitədir".

Ümumi seçki hüququna əsaslanan dövlət, fəhlə sinfinə maddi ehtiyacdan və kapitalist istismarından qurtulmağa yardım edəcək xalq dövləti olacaqdır. O, "gecə gözətçisi" olan dövlətdən fəhlələrə məhdudiyyətsiz kredit vasitəsilə istehsalat şirkətləri yaratmağa kömək edən "sosial dövlətə" çevriləcəkdir.

XX əsrin əvvəli demokratiyanın protektiv və inkişafda olan modelləri arasında sərhəd qoyulması ilə əlamətdar olmuşdur. Bu da inkişafda olan demokratiya konsepsiyasından nəzəri qolun – sosial liberalizmin ayrılmasına gətirib çıxarmışdır. Sosial liberalizmin əsasları Lucjo Brentano, Leonardo Trelauni Hobhaus, Tomas Hill Qrin, Con Meynard Keyns, Bertil Oxlin və Con Dyuinin əsərlərində irəli sürülmüşdür. Sosial liberalizm radikal kapitalizmi və sosializm məktəbinin inqilabi elementlərini rədd edərək, müsbət azadlığa xüsusi diqqət yetirirdi.

"Bəhsləşən elitizmin" baniləri demokratiyaya sırf texniki əhəmiyyət verən Yozef Şumpeter və Maks Veber (xüsusilə Y.Şumpeter) olmuşlar. Demokratiyanın bu forması həmçinin reprezentativ və ya nümayəndəli demokratiya adlandırılır. Onun müəllifləri hesab edirdilər ki, həm qanunvericilik, həm də inzibatçılıq məsuliyyətini öz üzərinə götürə bilən ən istedadlı və səriştəli hakimiyyət elitasının seçilməsi metodu mühüm şərtdir. Bundan başqa, onların fikrincə, demokratiya

elitanın daxilində hər hansı bir qrupun bütün hakimiyyəti öz əllərinə keçirməsinə imkan vermir. Əvvəlki modeldən fərqli olaraq, bu model institusional baxımdan daha diqqətlə işlənib hazırlanmışdır. O, güclü icra hakimiyyətinin, hakim partiyanın parlament üzərində kifayət qədər sərt nəzarətinin, siyasi rəhbərlikdən asılı olmayan səriştəli bürokratiyanın mövcudluğunu nəzərdə tutur. Bu model kütlələrə ən əhəmiyyətsiz rol ayırır: "küçə adamı"nın əlindən gələn yeganə iş seçkilərdə iştirak etməkdir. Elita öz hərəkətlərində kütlələrin yalnız avtoritarizmə gətirib çıxara bilən dəyişkən əhval-ruhiyyəsi və maraqlarından tamamilə azad olmalıdır. "Bəhsləşən elitizm" real liberal demokratiyanın bir çox xüsusiyyətlərini əks etdirir. Məsələ yalnız bu xüsusiyyətlərin yaxşı və ya pis olmasındadır. Tədqiqatçıların xeyli hissəsi "bəhsləşən elitizm"in "demokratiya modeli" adlandırılmasına etiraz edir, çünki onu ruhən açıq-aşkar antidemokratik hesab edir.

Reprezentativ demokratiya nümunəsi ali hakimiyyətin qanunverici hakimiyyətə məxsus olan, hökumətə isə qanunvericilik təşəbbüsü verilən Böyük Britaniyadır.

"Bəhsləşən elitizmin" bir növü də M.Veberin plebisit demokratiyası olmuşdur. M.Veberin konsepsiyasında demokratiya özlüyündə məqsəd kimi yox, üsul və vasitə kimi çıxış edir. M.Veberə görə demokratiya həm liderlərin seçilməsi üsulu və onların hakimiyyətinin qanuni şəklə salınması, həm də əhalinin böyük hissəsinin millətin siyasi işlərinə cəlb olunması üçün vasitədir. Buna baxmayaraq, M.Veberin fikrincə, demokratiya adi siyasi məsələləri həll etmək üçün yararlı vasitə deyil, belə hallarda, çox güman ki, səsvermə ilə deyil, danışıqlar yolu ilə kompromislər lazımdır. Buna görə də alim məqsədləri bir insanın digəri üzərində hökmranlığını

istisna edən "xalq suvereniteti" nəzəriyyəsini, o cümlədən "xalqın iradəsi", "xalqın müdrikliyi" və s. kimi anlayışları utopik hesab edirdi.

Veber hesab edirdi ki, müasir şəraitdə buna nail olmaq mümkün deyil, çünki birbaşa demokratiya və qeyri-peşəkar siyasətçilərdən ibarət hökumət ərazisi və əhalisinin sayı məhdud olan xırda şəhər-dövlətlərin hüdudlarından kənarda prinsip etibarilə mümkün deyildir. Veberə görə, müasir böyük cəmiyyətlərdə və dövlətlərdə insanlar arasında qarşılıqlı münasibətlərin istənilən şəkildə səmərəliləşməsi və yaxud formallaşması hökmən avtoritarizmə gətirib çıxarır. Ona görə də təsadüfi deyil ki, əksər tədqiqatçıların daha uğurlu demokratiya kimi baxdıqları məhz ingilis parlament demokratiyasının təhlili Veberə bu hakimiyyət institutunun fəaliyyətinin demokratik xarakter daşımasına şübhələnməyə əsas vermişdir.

Veberin gəldiyi nəticələr bürokratiyanın təşkili və fəaliyyəti prinsiplərinin və istənilən təşkilat çərçivəsində fəaliyyət göstərən "oliqarxiyanın dəmir qanunu"nun təhlilinə əsaslanır.

Veber anqlsaks siyasi ənənələrinə qarşı plebisitar demokratiya nəzəriyyəsini təklif edir ki, bu da onun fikrincə, bürokratların zülmündən yaxa qurtarmağa kömək edə bilərdi. Həmin nəzəriyyə çərçivəsində xalqa və ayrı-ayrı fərdlərə siyasi proseslərin passiv iştirakçısı rolu ayrılır. Kütlələr üçün siyasi iştirakın yeganə forması seçkilər və səsvermə hüququnun reallaşdırılmasıdır.

Veberin nəzəriyyəsində əsas fiqur bütün xalq tərəfindən birbaşa seçilmiş və onun qarşısında məsuliyyət daşıyan xarizmatik liderdir. Belə lider formal olaraq, leqal şəkildə

seçilən bürokratik administrasiyadan yüksəkdə dayanır. Xarizmatik liderin legitimlik səviyyəsi onun uğurlarının miqyası ilə müəyyən olunur. Veberə görə kütlələrin siyasi prosesdə rolu yalnız xarizmatik liderin seçilməsində iştirak etməklə məhdudlaşdığı üçün, əslində, onlara bürokratiya üzərində aşağıdan nəzarət etmək hüququ verilmir. Vətəndaşlar bu funksiyaları bürokratiyanın fəaliyyətinə yuxarıdan nəzarət edən xarizmatik liderə verirlər; onun əsas vəzifələrindən biri oliqarxik idarəetmə prinsiplərini aradan qaldırmaq üçün zəruri olan bürokratiya ilə mübarizədir.

Veber bürokratiyanın "ideal tip"ini işləyib hazırlayarkən nəzərdə tuturdu ki, bürokratiya tərkib hissələrinə parçalanmış idarəetmə prosesində ədalətli texniki icraçı rolunda çıxış edəcəkdir. O hesab edirdi ki, ideal rəhbər öz aparatına quru rəsmiyyətçi kimi, qəzəbsiz və tərəfkeşliksiz rəhbərlik edir. Veberin fikrincə, idarəetmənin başqa formaları ilə müqayisədə bürokratiyanın "ideal tipi" öz səmərəliliyinə görə, qeyri-mexaniki istehsal növləri ilə müqayisədə maşına bənzəyir.

Lakin bürokratiyanın fəaliyyətinin təhlili Veberi belə bir nəticəyə gətirmişdir ki, bürokratiyanın təşkilində mövcud olan qayda və təlimatlar sistemi, eləcə də iyerarxiya strukturu öz daxilində demokratiyanın tamamilə dəyişməsinə aparıb çıxaran qorxulu toxumlar gizləyir. Məhz bu toxumlar istənilən bürokratik təşkilatın səmərəli işləməsinə əngəl ola bilər. Biliklərinin müəyyən qaydada tətbiq olunmasına, məlum ətalətə və şablona adət etmiş bürokratlar sosial həyatın real, əvvəlcədən müəyyən olunmuş məlum qayda və standartlar əsasında həll oluna bilməyən problemləri ilə üzləşəndə aciz qalırlar.

İctimai təsisatların bürokratik durğunluqdan xilas edilməsi məsələsinin həllinə çalışan Veber ömrünün son illərində

təşkilat çərçivəsində lider probleminə və lider, bürokratiya və kütlə arasındakı münasibətlərin incəlikləri ilə bağlı məsələlərə xüsusi diqqət ayırırdı.

Veberin plebisitar nəzəriyyəsi, əslində, siyasi sistemin təşkilinin hansısa onun dinamizmini təmin edən zəruri elementlərə malik ideal modelini tapmaq cəhdi idi.

Veberin fikrincə, siniflərdən, statuslardan və boşboğaz siyasətdən kənarda olan xarizmatik lider öz hakimiyyəti üçün bürokratiyadan asılı olmayan legitimlik mənbəyinə malik olduqda və bürokratik struktura çox da güclü inteqrasiya edilmədikdə, milləti öz ətrafında birləşdirə və fərdi bürokratiyanın hücumlarından və "sosialist kollektivçiliyindən" qoruya bilər. Veber üçün plebesitin əsas mənası xalqın səsvermədə birbaşa iştirakı nəticəsində xarizmatik nüfuz yaratmaqdan ibarətdir.

Müəllifləri Devid Trumen və Robert Dal olan model "plüralist demokratiya" adlanır. Bu model çoxlu hakimiyyət mərkəzlərinin və buna müvafiq olaraq qərarlar qəbul edən mərkəzlərin olmasını vacib sayır. Bu modelin müəllifləri demokratiyanın əsas məqsədini azlıqların hüquqlarının qorunmasında görürlər. Hesab edirlər ki, azadlığı yalnız bu yolla qoruyub saxlamaq mümkündür: axı, cəmiyyət nəticə etibarilə hər biri öz maraqlarını düşünən saysız-hesabsız kiçik qrupların məcmusundan ibarətdir. Ona görə də hər hansı bir kompakt elitanın bütün cəmiyyətin maraqlarını təmsil etmək iddiasında olması tamamilə əsassızdır.

Liberal demokratiyanın əsas institusional xüsusiyyətləri ilə razılaşan "plüralizm", marağı olan və hər biri qərarların qəbul edilməsi prosesinə təsir göstərməyə çalışan çoxsaylı qrupların mövcudluğuna xüsusi əhəmiyyət verir. Hökumət bu qrupların mürəkkəb qarşılıqlı əlaqələri prosesində vasitəçi qismində çı-

xış edir. Kütlələr hesab edir ki, siyasətə qarışmaq ixtiyarları vardır və bunu tez-tez edirlər, lakin bəzən şüurlu şəkildə fəallıqdan çəkinir, hökumətə və marağı olan qrupların liderlərinə problemlərin özlərinin həll etməsinə imkan yaradırlar.

Hazırda "plüralist" demokratiya modeli çox populyardır. Düzdür, onun başlıca qüsurunu onda görürlər ki, o, mütəşəkkil qruplara həddindən artıq əhəmiyyət verir və hakimiyyətin onlardan daha güclü olanın əlində cəmləşməsinin mümkünlüyünü ("korporativizm") lazımınca qiymətləndirmir.

Bizi müstəbidlikdən azadlığa pərqu döşək üstündə aparacaqlarını gözləyə bilmərik.

Tomas Cefferson

Robert Dal 1953-cü ildə çapdan çıxmış "Siyasət, iqtisadiyyat və rifah" əsərində poliarxiyanı bir "proses" kimi nəzərdən keçirərək yazır ki, bəzi cəmiyyətlərdə demokratik məqsədlər hələ də aydın deyil və qeyri-liderlərin liderlər üzərində nisbətən güclü nəzarət həyata keçirməsi baxımından olduqca təxminidir. Dal bunu mümkün edə biləcək sosial proseslər sistemini "poliarxiya" adlandırmışdır. Dal poliarxiyanın beş interpretasiyasını təklif edir:

a) müxalifətə və hökumətin fəaliyyətinə müqavimət göstərənlərə qarşı dözümlülük səviyyəsi nisbətən yüksək olan, həmçinin hökumətin hərəkətlərinə və hətta müxtəlif rəsmi şəxslərin dinc yolla kənarlaşdırılmasına geniş təsir imkanlarının olduğu rejim tipi. Aşağıda biz, R.Dalın fikrincə, "poliarxiyanın" fəaliyyəti üçün real zəmin yaradan yeddi təsisatı göstərəcəyik.

b) "tarixi və ya inkişafda olan, mühüm təkamül yolu keçmiş, – o cümlədən millətin siyasi təsisatları olan dövlətləri demokratikləşdirmək və liberallaşdırmaq cəhdlərinin

təsiri altında, – müəyyən təsisatlar sırası kimi dərk edilə bilən demokratikləşmə məhsulu[1].

c) siyasi təsisatların demokratik prosesə uyğunluğun təmin edilməsinə istiqamətləndirilmiş yönümü kimi özünü göstərən demokratik prosesin zəruriliyi;

ç) siyasi elitaların rəqabət mübarizəsinə siyasi nəzarəti şərtləndirən səlahiyyətin yoxlanılması sistemi;

d) adi hüquqlara institusional qaydada təminat verildiyi və onların qorunduğu hüquq sistemi.

Dal demokratiyanın nəzəriyyə və modellərinin hərtərəfli öyrənilməsi əsasında poliarxiyanın əvvəlcə altı, sonra isə mövcud modellərin daha adekvat təhlilinə imkan yaradan yeddi əlamətini fərqləndirmişdir:

1) hakimiyyət orqanlarının konstitusiya ilə təminat verilən seçkililiyi; seçkilərin köməyi ilə hökumətin qərarları üzərində nəzarət həyata keçirilir;

2) məcburiyyət mexanizminin olmadığı azad və ədalətli seçkilərin müntəzəm və vaxtaşırı keçirilməsi;

3) praktik olaraq bütün yaşlı əhaliyə seçkilərdə iştirak etmək hüququ verən ümumi seçki hüququ;

4) hakimiyyət orqanına seçilmək hüququ: bu hüquq praktik olaraq bütün yaşlı əhaliyə verilir, baxmayaraq ki, seçilmək hüququ verən yaş senzi seçkilərdə iştirak etmək hüququndan yuxarı ola bilər;

5) özünüifadə azadlığı: vətəndaşlar cəzaya məruz qalmaqdan çəkinməyərək, hakimiyyət orqanlarının, hökumətin,

[1] Р.Даль. Полиархия, плюрализм и пространство. http://kant.narod.ru /dahl. htm

rejimin, sosial-iqtisadi quruluşun və hakim ideologiyanın tənqidi də daxil olmaqla, siyasi problemlərin geniş dairəsi barədə öz fikirlərini söyləmək azadlığı hüququna malikdirlər;

6) alternativ informasiya: vətəndaşların alternativ informasiya mənbəyi əldə etmək hüququ vardır, üstəlik bu alternativ informasiya mənbələri real şəkildə mövcuddur və qanunlarla qorunur;

7) assosiasiyaların muxtariyyəti; yuxarıda sadalananlar da daxil olmaqla, müxtəlif hüquqlarını həyata keçirmək üçün vətəndaşlar müstəqil partiyalar və maraqlar üzrə qruplar da əhatə edilməklə, nisbətən müstəqil assosiasiya və təşkilatlar yaratmaq hüququna malikdirlər[1].

F.Şmitter və T.K.Linn bu yeddi əlamətə daha ikisinin əlavə olunmasını təklif edirlər:

8) xalq tərəfindən seçilmiş rəsmi şəxslərin seçilməmiş rəsmi şəxslər tərəfindən müqavimətə məruz qalmadan özlərinin konstitusion səlahiyyətlərini yerinə yetirmək imkanları olmalıdır. Əgər hərbçilər, yaxud dövlət müəssisələri və ya idarələrinin əməkdaşları seçkili rəhbərlərdən asılı olmayaraq fəaliyyət göstərmək, xüsusilə də xalq tərəfindən seçilənlərin qərarlarına veto qoymaq imkanına malikdirlərsə, demokratiya təhlükə qarşısında qalır;

9) dövlət suveren olmalıdır və daha yüksək siyasi sistemlərdən asılı olmadan fəaliyyət göstərməlidir. Yəni, seçkili rəhbərlər kənarda razılaşdırılmadan hamı üçün məcburi olan qərarlar qəbul etməyə qadir deyilsə, onda sistemin demokratikliyi sual altındadır.

[1] М.Н.Грачев, А.С.Мадатов. Демократия: методология исследования, анализ перспектив. М., Алкигамма, 2004./Democracy and its Critics/ – New Haven; London, 1989, p.221.

Fridrix Hayek və Robert Nozikin "leqal" demokratiyası bir çox cəhətdən "protektiv" demokratiyaya qayıdışdan ibarətdir. Ümumiyyətlə, demokratiya azadlığı müdafiə etmək üçün lazımdır və bu, çoxluğun hakimiyyəti prinsipini doğruldur. Lakin müdrik və ədalətli idarəetməni təmin etmək üçün bu prinsipin fəaliyyətinə məhdudiyyət qoymaq lazımdır. Başlıca məhdudiyyət isə qanunun xalqın iradəsindən üstün olmasıdır. "Leqal" demokratiya nəzəriyyəçiləri məhz bu cəhəti anqlsaks konstitusiya quruluşuna aid edirlər. Beləliklə, "hüquqi dövlət" anlayışı əsas məsələyə çevrilir. "Protektiv" demokratiya kimi, leqal demokratiya da dövlətin vətəndaş cəmiyyətindən ayrılmasını nəzərdə tutur. Bürokratik tənzimləmə (ələlxüsus iqtisadiyyatda) minimuma endirilməli, iqtisadiyyatda kök salmış marağı olan qrupların fəaliyyəti isə sərt şəkildə məhdudlaşdırılmalıdır. Bu, ilk növbədə, siyasətdən tamamilə kənarlaşdırılmalı olan həmkarlar ittifaqlarına aiddir. Demokratiya üçün əsas təhlükəni kollektivçi təmayüllər təşkil edir ki, məhz onların təsiri altında xalqlar "köləlik yoluna" düşürlər[1].

Hayekin "Köləliyə aparan yol" kitabı sosializmə qarşı əsl hücum oldu. Siyasət aləmindəki dəlillərdən istifadə edərək, o, kitabı bilərəkdən adi oxucuya ünvanlamışdı. Hayek israr edirdi ki, gəlirin bərabər bölüşdürülməsi kimi sosialist məqsədlərini və qiymətlər üzərində nəzarət qoyulması kimi bazar iqtisadiyyatına müdaxilənin sosialist taktikasını qəbul edən demokratik hökumətlər hökmən totalitar rejimlərə çevrilir. Eynilə totalitar dövlətlərdə rəqabətli bazar tətbiq etməyə göstərilən hər bir cəhd son nəticədə siyasi sarsıntılar törədəcək, çünki bazar münasibətlərinin əsasında duran seçim azadlığı avtokratik məqsədlərlə bir araya sığmır. "Ola bilsin ki, iyirmi beş il öncə

[1] Ф.Хайек .Дорога к рабству (The Road to Serfdom), 1944.

"planlı cəmiyyət əvəz etdiyi liberal rəqabətli cəmiyyətdən daha çox azad ola bilər" kimi sadəlövh inam üçün hansısa üzrlü səbəblər hələ mövcud idi"[1]. Lakin bu fikirlərin yoxlanılması və yenidən yoxlanılmasının iyirmi beş illik təcrübəsindən sonra bunu təkrar etmək, özü də əldə silah bu ideologiyanın yaratdığı sistemə qarşı mübarizə apardığımız bir vaxtda təkrar etmək həqiqətən faciəli yanılmaqdır[2].

"Leqal" demokratiya modeli "yeni sağlar" deyilən siyasi ideologiyaya daxil olur. İqtisadi planda o, "azad rəqabətə" və bazar qüvvələrinin hüdudsuz hökmranlığına qayıtmağı təkid edən neoliberal model tərəfdarlarının mühakimələri ilə əlaqələnir.

İngilis sözü olan "participation" iştirak etmək mənasını verir. Həm də qismən demokratiya adlanan məhz bu nəzəriyyədə müəlliflər (Nikos Pulantsas, Kerol Peytmen, Bencamin Barber) sərişẗəli, bütün cəmiyyətin problemlərini həll etməkdə maraqlı olan və fərdiyyətçilik hisslərini kollektivçiliklə birləşdirən yeni tip vətəndaş formalaşdırmaq üçün bir vasitə görürlər. Nəzəriyyə demokratiyaya dövlət həyatının və ictimai münasibətlərin bütün sahələrinin təşkil olunmasının universal prinsipi kimi baxır.

"Partisipator" demokratiyada mahiyyət etibarilə sosial inqilabdan söhbət gedir, lakin bu inqilab hakimiyyətin hansısa ictimai qrup tərəfindən qəsb edilməsi ilə yox (Marksda olduğu kimi), demokratikləşdirmə ilə bağlı olmalıdır. Bu məqsədə nail olmaq üçün yerlərdə (o cümlədən istehsalatda)

[1] The Old World and the New Society: An Interium Report of the National Executive of the British Labor Party on the Problems of Reconstruction, p. 12,16.

[2] Ф.Хайек. Дорога к рабству. http://www.Libertarium.ru/ Libertarium/ İ_Lib_roard_xıı)

özünüidarə özəkləri yaratmaq, siyasi partiyaları daxili demokratik strukturu olan kütləvi hərəkatlara çevirmək, parlamentləri xalqın üzünə daha açıq etmək lazımdır. Bu model qanunun aliliyinə elə böyük əhəmiyyət vermir. Əksinə, institusional sistem daimi dəyişikliklərə, siyasi formalar üzərində eksperimentlərə hazır olmalıdır. Bu model yalnız bürokratiyanın sərt tənqidi və onun rolunun azaldılmasına cəhd göstərilməsi baxımından əvvəlki model ilə üst-üstə düşür.

"Partisipator" demokratiya XX əsrin 60-70-ci illərində reprezentativ demokratiyanın tənqid edilməsinin təsiri altında təşəkkül tapmış, "yeni solların" əlində bayraq olmuşdu və indi də Qərbdə alternativ siyasi qüvvələrin diqqətini cəlb etməkdədir. Elə bu səbəbdən də o, liberal elita arasında çox da populyar deyildir. Eyni zamanda, o, həddindən çox vacib məsələləri cavabsız qoyur.

Elitar demokratiyadan fərqli olaraq, partisipator demokratiya bunu əsas tutur ki, insan ictimai rifahın nə olduğunu anlayan rasional məxluqdur, ona görə də ağıllı qərarlar qəbul edə bilir. Bu konsepsiyanın tərəfdarları hesab edirlər ki, siyasi sahədə insanların irrasionallığı və passivliyinin səbəbi onların savadlarının çatışmaması və siyasətdə iştirak üçün bərabər imkanların olmamasındadır. Buna görə də cəmiyyət hər bir fərdin fəal siyasi sosiallaşması üçün hər cür şərait yaratmalıdır. Bunun üçün isə, ilk növbədə, vətəndaşların siyasi prosesdə iştirakı üçün maksimum imkan təmin edilməlidir.

Demokratiyanın bu modelinin üstünlüyü qərarların qəbul edilməsində geniş kütlələrin iştirakı sayəsində, həmin qərarların intellektual baxımdan yüksək səviyyədə əsaslandırılmasındadır.

Demokratiyanın modelləri

(cədvəl-sxem)[1]

Liberal demokratiya	Qeyri-liberal demokratiya	Elit demokratiya *(Joseph Schumpeter)*	Partisipator demokratiya
▪ Xalq bir fərd kimi, müxtəlif maraqların təmsil edilməsi. ▪ Fərdlərin azadlıq və bərabərliyinin təmin olunması ▪ Seçkilər: çoxpartiyalı sistem. ▪ Siyasi fəaliyyət azadlığı. ▪ Hesabat verən hökumət. ▪ Məhdudlaşdırılmış hökumət, qanunun aliliyi. ▪ Azlığın çoxluğa tabe olması, azlığın hüquqlarının təmin olunması.	1) ***Xalq demokratiyası*** ▪ Xalq bir partiya ilə təmsil olunmuş sinif kimi. ▪ Liberal demokratiya burjua demokratiyası elan edilmişdir. 2) ***Az inkişaf etmiş demokratiya.*** ▪ Xalq – bir partiya ilə təmsil olunmuş millət kimi.	▪ Bəhsləşən seçkilərlə elita nümayəndələri. ▪ Təmsilçilər xalqdan uzaqlaşmışdır. ▪ Aşağı səviyyədə iştirak ▪ Rəqabət aparan qruplar arasında tarazlığın olması ▪ Demokratiya seçki mexanizmidir.	▪ Fərdlər qərarların qəbul olunmasında tam şəkildə iştirak edirlər. ▪ Cəmiyyətin bütün səviyyələrində iştirak. ▪ Təmsilçili demokratiyaya nail olmaq üçün bir neçə səviyyənin zəruriliyi.

Məlum olduğu kimi, bir sıra tanınmış alimlərin fikrincə, ötən əsrin 60-cı illərinin əvvəlində qərb demokratiyaları siyasətsizləşdirilmiş demokratiya yolu ilə gedirdi. İdeoloji və dini ixtilafların zəifləməsi, eyni zamanda, qərarların qəbul edilməsi prosesində əməkdaşlıq elementlərinin güclənməsi təmayülü özünü göstərirdi. Yeni Avropa üçün "böyük koalisiya" modeli get-gedə daha cəlbedici olurdu. Bu siyasi strukturun mahiyyəti kiçik Artur Şlezinger tərəfindən ifadə olunmuşdur: "Siyasi qərarların qəbul edilməsi prosesində cəmiyyətin bütün əsas maraqları diqqətlə nəzərə alınır, buna da yalnız həmin maraqların təmsilçilərinin və ya tərəfdarla-

[1] C.B.Macpherson. The Real World of Democracy, 1966 /The Life and Times of Liberal Democracy, 1977/ David Held Models of Democracy, 2-nd ed., 1966.

rının hakimiyyət sistemində hakim mövqe tutduqları halda nail olmaq mümkündür”[1].

Arenda Leyphartın fikrinə görə, çoxtərkibli cəmiyyətlərdə demokratik rejimlərin dörd tipi mövcuddur: siyasətsizləşdirilmiş, birlik, mərkəzəqaçan və mərkəzdənqaçan. Mərkəzəqaçan və birlik tipli demokratiyalar, adətən, sabit sayıldıqları halda, mərkəzdənqaçan tip daha qeyri-sabitdir[2]. Siyasətsizləşdirilmiş demokratiyanın demokratikliyinin yetərli olması isə bu rejimlərdə sabitliyinin daha da az olmasına gətirib çıxarır. Mərkəzəqaçan demokratiyalara ABŞ və Böyük Britaniya, yəni, Qabriel Almondun təklif etdiyi modeli götürsək, anqlo-amerikan siyasi strukturu aiddir. Bu cür demokratiyalar üçün “dərin birlik hissi” və “bütün fərqləri azaldan sosial və siyasi homogenlik”[3] səciyyəvidir.

Bu strukturda elitaların davranışında “hökumət müxalifətə qarşı” prinsipinin həyata keçirilməsi müşahidə olunur, lakin bu, kəskin rəqabət mübarizəsində heç vaxt özünü göstərmir. Tərəflərin kompromisə gəlmək bacarığı və konsensus əldə etmək üçün maksimum səy göstərilməsi demokratik rejimlərin bu tipinin mühüm elementidir. Bu sistemdə gliningspolitik – yəni “yumşaltma siyasəti” qərarların qarşılıqlı razılaşma axtarmaq yolu ilə qəbul edilməsinə əyani nümunədir.

Mərkəzdənqaçan demokratik rejimlər siyasi sistemlərin kontinental Avropa tipinə uyğun gəlir. Bu tipə aid nümunələri Qabriel Almondun əsərində göstərilir və buraya

[1] Bax: T.Lowi. The Public Philosophy: İnterest group Liberalism//American Political Sciene Review 61. No. 1 March, 1967, p.15.

[2] А.Лейпхарт. Демократия в многосоставных обществах. М., 1997, стр.144.

[3] H.Eckestein. Division and Cohesion in Democracy: A Study of Norway. Princeton: Princeton University Press, 1966, p.61,67,78,121.

Üçüncü və Dördüncü respublikalar zamanı Fransa, Almaniyada Veymar Respublikası və müharibədən sonrakı İtaliya daxil edilir. Mərkəzdənqaçan demokratiyalar, əslində, "ideoloji ifratçılığı" və "güclü şəkildə parçalanmış partiya sistemini" əks etdirirlər. Leyphartın fikrincə, Fransada bu tip siyasi sistem Üçüncü və Dördüncü respublikalar üçün səciyyəvi idi ki, bu da mədəni seqmentlərin müxtəlifliyindən irəli gəlirdi. Submədəni seqmentlərin daxilində həmrəyliyin səviyyəsinin yüksək olması birlik demokratiyasının uğurunun mühüm şərtidir. Cəmiyyətdə çoxtərkiblilik aşağı olduqda və ya elitanın davranışı daha az bəhsləşmə xarakteri daşıdıqda mərkəzdənqaçan demokratiyanın sabitliyi artır. Mərkəzdənqaçan demokratiya özünü institusional dəyişikliklər vasitəsilə səmərəli şəkildə möhkəmləndirilən siyasi qruplar arasında gedən kəskin rəqabətin səngiməsində göstərir.

Demokratiya yaxşı sistemdir. Mən bunu ona görə deyirəm ki, digər sistemlər pisdir.

Cəvahirlal Nehru

A.Leyphart hesab edir ki, müasir çoxtərkibli cəmiyyətlərdə sabitlik "birlik" demokratiyasının əsaslarına riayət olunması sayəsində mümkündür. Həmin demokratiyanın əsas elementləri bunlardır: elitaların əməkdaşlığı; çoxluğun həyati əhəmiyyətli təsisatları üçün əlavə təminat qismində çıxış edən "çoxluq" qaydası; ictimai təmsilçiliyin və resursların mütənasibliyi; idarəetmədə hər bir seqmentin muxtariyyətinin yüksək səviyyəsi, eləcə də çoxtərkibli cəmiyyətin qrupları arasında "seqmentar fərqlərin" qəbul olunması və ona əməl edilməsi.

Digər alimlərin mövqeləri də maraqlıdır. Məsələn, Argentina politoloqu, professor, beynəlxalq münasibətlər sahəsində Kelloq adına mükafatın laureatı, Notr-Dam Universiteti nəz-

dindəki Beynəlxalq Tədqiqatlar İnstitutunun elmi işlər üzrə direktoru Gilyermo O´Donnel hesab edir ki, mövcud demokratiyalar arasında hələ dərk olunmasını gözləyən yeni "növ" vardır. O, bu formanı deleqativ demokratiya adlandırır.

Deleqativ demokratiya təmsilçi demokratiyanın formalarından biri olsa da, daha az liberaldır və əsas etibarilə prezidentə geniş səlahiyyətlər verilməsinə yönəlmişdir. O, avtoritar rejimdən institusionallaşmış demokratik təsisatlara gedən yolda hakimiyyətin keçid forması kimi təqdim oluna bilər, hərçənd hakim siyasi qüvvələrin deleqativ demokratiyanı inkişafın ən məqbul yolu kimi rəsmiləşdirməyə çalışacağı ehtimalı böyükdür. G.O´Donnelin yazdığı kimi: "…bu ölkələrin çoxuna əvvəlki avtoritar rejimlərdən miras qalmış dərin sosial-iqtisadi böhran siyasi hakimiyyətdən düzgün istifadə etmək və istifadə praktikası haqqında müəyyən təsəvvürləri elə tərzdə möhkəmləndirir ki, bu ölkələr təmsilçi demokratiya yox, deleqativ demokratiya istiqamətində irəliləyir"[1].

Avtoritarizmdən demokratiyaya ilk keçiddən sonra demokratik seçilmiş hökumət üçün "institusionallaşmış, möhkəmlənmiş demokratik rejimə"[2] tranziti nəzərdə tutan "ikinci keçid" imkanı açılır. Lakin G.O´Donnelin qeyd etdiyi kimi, belə keçidə zəmanət yoxdur. "Yeni demokratiyalar avtoritar hakimiyyətə doğru tənəzzül edə, yaxud da zəif və qeyri-müəyyən vəziyyətdə qala bilər. Belə vəziyyət demokratiyanın institusional formalarına gedən yolu kəsərək, sabit şəkildə qala bilər"[3].

"İkinci keçidə" şərait yaratmaq üçün dövlətdə təmsilçilik üsullarını və sosial agentləri, onların nümayəndələrini və

[1] www.politnauka.org/libraru/dem/odonnell.html
[2] Yenə orada.
[3] Yenə orada.

əhalinin ümidlərini formalaşdıran əsas demokratik təsisatlar fəaliyyət göstərməlidir. Siyasi qrupların və sosial agentlərin demokratik təsisatlar yaratmağa marağının olması avtoritar rejimlərdən miras qalmış sosial-iqtisadi problemlərin həllinə kömək edir. Deleqativ demokratiya ölkələrində isə institusional tərəqqi və sosial-iqtisadi problemlərin həllində hökumətin uğurları yalnız liderlərin seçkiqabağı səsləndirdikləri bəlağətli sözlərdə qalır.

G.O´Donnel deleqativ demokratiyanı təmsilçilik demokratiyasının aşağıdakı formalarında nəzərdən keçirir.

1. Deleqativ demokratiyada prezident seçkilərində qələbə ölkəni istədiyin kimi idarə etməyə imkan yaradır. Dövlət başçısının fəaliyyəti yalnız mövcud hakimiyyət münasibətləri və konstitusiyada öz əksini tapmış hakimiyyət müddəti ilə məhdudlaşır. Avtoritar sistemdən digər sistemə keçən bir çox tranzitar dövlətlərdə yaranmış siyasi vəziyyət və güclü prezident hakimiyyətinə ehtiyac həmin effekti meydana gətirir.

2. Bu cür sistemdə prezidentə müəyyən müddətə seçicilərin iradəsinin icraçısı kimi yox, daha çox "millətin təcəssümü kimi, onun maraqlarının əsas qoruyucusu və bilicisi" kimi baxırlar. Bu da icra hakimiyyətindən daha geniş istifadə etmək imkanları yaradır.

3. Bu cür sistemdə demokratik təsisatların olması vacibdir, ancaq onların gələcək institusionallaşmasına və inkişafına zərurət yoxdur. Belə təsisatlar – "demokratik seçilmiş prezident statusunun daxili və beynəlxalq aləmdə verdiyi üstünlüklərə yalnız maneə, əlavə yükdür".

4. Nümayəndəli demokratiya həm şaquli, həm də üfüqi iyerarxiya üzrə hesabat verməlidir. Bu, müəyyən vəzifəli şəxsin öz borcunu lazımınca yerinə yetirməməsi və onun cəzalandırılması məsələsini qoymağa imkan verir. Deleqativ demokratiyada şaquli hesabat məsələsi var, üfüqi hesabat məsələsi isə çox zəifdir və ya ümumiyyətlə yoxdur. G.O'Donnelin fikrincə, demokratiyanın bu formasında icra hakimiyyəti üfüqi hesabatı "öz missiyalarının" yolunda maneə" hesab edir, ona görə də bu cür təsisatların inkişafına hər vasitə ilə əngəl törədir".

5. Deleqativ demokratiyada siyasət əvvəldən-axıradək prezidentin və onun yaxın əhatəsinin ixtiyarındadır. Demokratiyanın bu forması üçün ifrat fərdiyyətçilik səciyyəvi cəhətdir, bu isə müəyyən mənada "qalib gələn hər şeyi əldə edir" prinsipi ilə eyniləşdirilir.

6. Siyasi qərarların sürətlə qəbul edilməsi, onların həyata keçirilməsi metodlarının riskli olması və nəticəyə görə məsuliyyətin prezident üzərində cəmləşməsi üzündən səhvlərə yol verilməsi ehtimalının olması cəmiyyətdə böhranlı vəziyyət yaranmasına və prezidentin reytinqinin dəyişməsinə səbəb olur. Ona görə də bu və ya digər sosial və iqtisadi problemlərin həlli zamanı prezidentin rolu "Məsih" rolu səviyyəsinə qaldırılır, lakin böhran dərinləşdikdə bunun əksi baş verir. Deleqativ demokratiya şəraitində prezidentin qərarlar qəbul etməsi və onları həyata keçirməsi daha asan olur. Latın Amerikasında qərarlar qəbul edilməsinin bu cür imkanı "dekretizm" adlanır. Demokratik təsisatların möhkəmləndiyi şəraitdə prezidentin qərar qəbul etməsindən əvvəl müəyyən prosedurların bütöv bir

kompleksi həyata keçirilir. Qərarlar ləng qəbul edilir, lakin kifayət qədər sürətlə yerinə yetirilir.

7. İnstitusionallaşdırılmış demokratiya ictimai etimadın aldadılması imkanından qorunmuşdur, deleqativ demokratiya isə onun nəticəsidir. Prezident vəzifəsini tutmuş siyasətçi seçkilər ərəfəsində sosial-iqtisadi problemlərin həlli və siyasi şəraitin yaxşılaşacağı barədə hər cür vədlər verir. Lakin qalib gələndən sonra o, ekspansionist iqtisadi siyasət yeridir, sərt sabitləşdirmə proqramları tətbiq edir.

8. Gilyermo O'Donnel yuxarıda deyilənləri yekunlaşdıraraq yazır: "Deleqativ demokratiya ölkəsində zəif namizəd hər bir vətəndaşa çox da ciddi ziyan vurulmadan ölkəni xilas edəcəyini vəd edərək, seçkilərdə qalib gəlir, lakin az sonra əhalinin bir sıra təbəqələrinə xeyli ziyan vuran siyasət yeritməklə ölkənin taleyini qumara qoymuş olur"[1].

Gilyermo O'Donnelin modelində deleqativ demokratiyanın avtoritarizmə yuvarlanması yolunda çox incə məhdudlaşdırıcılar vardır. Əslində, bu modelin demokratik rejimlər sistemində olması yalnız prezident seçkilərinin demokratikliyini və bəzi demokratik normalara riayət olunmasını təmin edir. Lakin sonradan vətəndaş cəmiyyətinin və onun seqmentlərinin formalaşması üçün real səmtinin olmadığına görə bütün bunlar yalnız demokratiya illüziyası yaradır, əslində isə, cəmiyyəti avtoritar idarəetmə formasına sürükləyir.

Müasir aləmdə zahirən demokratiyaya aid edilə biləcək, lakin daxili siyasətin reallıqların hakimiyyətə demokratik

[1] www.politnauka.org/library/dem/odonell.html

təzyiq göstərmək üçün səmərəli mexanizmlərin olmadığını və sosial-iqtisadi uğurların məhdudluğunu göstərən bu cür rejimlər az deyildir. Demokratik dövlətlər iqtisadi sərbəstlik indeksini artırmaqla öz iqtisadi potensialını daha sürətlə inkişaf etdirir. Dövlətdə liberalizm nə qədər az olsa, demokratik təsisatlar nə qədər zəifdirsə və buna müvafiq olaraq səmərəsizdirsə, nümayəndəli demokratiya hakimiyyətinin imkanları da bir o qədər əhəmiyyətli dərəcədə azalır. Bu hakimiyyət ya 1) "ikinci keçid" etməli; 2) yaxud da "birinci keçid" dövrəsini yenidən başlamalıdır.

Stenford Universitetinin politologiya professoru, neokorporatizm nəzəriyyəsinin banilərindən biri, demokratikləşmənin və tranzitlərin öyrənilməsi sahəsində görkəmli alim Filipp K.Şmitter özünün "Vətəndaş cəmiyyəti və demokratiyanın konsolidasiyası haqqında düşüncələr" adlı əsərində vətəndaş cəmiyyətinin formalaşdırılması yolu ilə demokratiyanın konsolidasiyasını mümkün hesab edir[1].

Şmitter yazır ki, vətəndaş cəmiyyətinin mövcud olması demokratiyanın konsolidasiyasına və qorunub saxlanmasına şərait yaradır, lakin həmin cəmiyyət demokratik ənənələrin, təsisatların və normaların yaradılmasına təşəbbüs göstərmir. Bu cəmiyyət başqa təsisatlar, proseslər və motivasiyalarla sintez çərçivəsində fəaliyyət göstərir.

Eyni zamanda, Şmitter demokratiyanın konsolidasiyasını elə bir proses kimi təsəvvür edir ki, orada "avtoritarizmdən demokratiyaya keçid dövrünə xas olan epizodik sazişlər, yarımçıq normalar və təsadüfi qərarlar möhkəm mənimsənilmiş, daimi fəaliyyətdə olan və demokratik idarəetmədə iştirak edən şəxslər və kollektivlər (yəni, siyasətçilər və vətən-

[1] "Polis" jurnalı, 1996, № 5, səh. 16-27.

daşlar) tərəfindən könüllü şəkildə qəbul edilən əməkdaşlıq və rəqabət münasibətlərinə transformasiya edir"[1]. Demokratiyanın konsolidasiyası siyasi həyatın bəzi sahələrini institusionallaşdırmaqla bərabər, siyasi mübarizənin vicdanlı və proqnozlaşdırıla bilən olacağına əminlik yaradır.

Demokratik keçid vətəndaş cəmiyyətinin formalaşmasını, Şmitterin təbirincə desək, "dirçəlməsinin" başlanğıcını şərtləndirir. Vətəndaş cəmiyyəti isə "həyat qabiliyyətli, bəhsləşməyə əsaslanan partiya sisteminin fəaliyyətinə əlverişli təsir göstərir"[2].

Amerikada demokratiya çoxluğun idarə etməsini və azlığın hüquqlarına əməl olunmasını nəzərdə tutur.

Cozef Qrebovski

Şmitter qeyd edir ki, vətəndaş cəmiyyətinin mövcud olması demokratiyanın konsolidasiyasına aşağıdakı qaydada şərait yaradır:

a) sosial qrupların daxilində ümidləri sabitləşdirir, hakimiyyətə praktik tətbiq üçün idarəetmə prosesində bazis kimi istifadə edilə biləcək daha ümumi, etibarlı və yararlı informasiyanı təqdim edir;

b) vətəndaşlara sosial mənafelər və mülki davranış normaları haqqında elə təsəvvürlər aşılayır ki, bunlarda cəmiyyətin tam halda mövcud olması nəzərə alınsın və demokratik proses qəbul edilsin.

c) insanlara və firmalara daha yaxın olan və bu baxımdan dövlət hakimiyyəti orqanlarına ünvanlanmış tələblər irəli sürülərkən istifadə edilməsi daha asan olan özünüifadə və identifikasiya kanalını təmin edir;

[1] "Polis" jurnalı, 1996, № 5, səh. 16-27.
[2] Yenə orada.

ç) öz üzvlərinin kollektiv öhdəliklər sahəsinə münasibətdə davranışını tənzimləyir və bununla da həm hakimiyyət orqanları, həm də ayrı-ayrı istehsalçılar üçün idarəetmə məsələsini asanlaşdırır;

d) idarəedənlərin özbaşınalığına və müstəbidliyinə qarşı müqavimət göstərməyin yeganə olmasa da, mühüm potensial mənbəyidir.

Şmitter demokratiyaları bu və ya digər sosial qrupun təmsil olunması və ya ona xas olan münaqişələrin həll edilməsi üçün cəmiyyətin ayrı-ayrı sahələri ətrafında institusionallaşdırılmış rejimlərin məcmusu hesab edir.

Köhnə liberal demokratiyaların əsas normaları və təsisatlarını olduğu kimi tətbiq etməyə çalışan neodemokratiyalar heç də uğur qazana bilməz. İdarəetmənin ən sabit və legitim forması olan demokratiya uğurlu konsolidasiyanın təmin edilməsini şübhə altına ala biləcək real təhlükələrdən müdafiə olunmamışdır. F.Şmitterin fikrincə, bununla əlaqədar iki səbəbi öyrənmək lazımdır:

"1) köhnə avtoritar mövzuların dirçəldilməsi və ya yeni mövzuların icad edilməsinin real nəticələrindən yeni demokratik dövlətlərin məyusluğu artdıqca, demokratiyanın hazırda mövcud olan ideoloji hegemonluğu tam tükənə bilər;

2) hətta avtokratiya dirçələ bilməsə belə, demokratiyaların öz vətəndaşlarının ümidlərini doğrultmadan, siyasi bəhsləşmə və əməkdaşlıq üçün məqbul və proqnozlaşdırıla bilən qaydalar toplusu müəyyən edilmədən yavaş-yavaş irəliləməsi ehtimalı var"[1].

[1] Ф.Шмиттер. Угрозы и дилеммы демократии. "Пределы власти", приложение к журналу "Век XX и мир", 1997, № 1.

Şmitter institusional demokratik norma və ənənələri rəsmiləşdirməmiş keçid demokratiyası ölkələri üçün demokratik rejimlərin iki formasını göstərir:

- avtokratiya və demokratiya elementlərini özündə birləşdirən hibrid forma;
- davamlı, lakin konsolidasiya edilməmiş demokratiya.

İdarəetmə formalarından birincisi demokratikləşməsiz liberallaşmadır, yəni, hakim rejimin vətəndaşlar qarşısında hesabat verməyə razılaşmadan bəzi fərdi hüquqlar verməsi. Şmitter idarəetmənin bu formasını diktablanda (*dictablanda*) adlandırır. Demokradura (*democradura*) adlanan digər idarəetmə forması liberallaşmasız demokratiyadır, yəni seçki prosedurlarının hakim partiyanın qələbəsinə zəmanət verməsi, müəyyən ictimai-siyasi qrupların seçkilərdən xaric edilməsi və ya ayrı-ayrı seçilmiş vətəndaşların həqiqi idarəetmə imkanlarından məhrum edilməsi şərti ilə reallaşdırılmasıdır.

Hər iki rejimi demokratik rejimlərə aid etmək çətindir, hərçənd, onlarda bəhsləşmə və hesabat vermə şəraiti mövcuddur. Eyni zamanda, diktablandalarda vətəndaş cəmiyyətinin formalaşması bu rejimləri sabit demokratik idarəetməyə çevirə bilər. Demokraduralar isə beynəlxalq birliyi dövlətdə yaranmış real vəziyyətdən yayındıran illüziya, demokratik dəyişikliklərin fasadı ola bilər. "Sözün ən geniş mənasında başa düşülən, avtarkiyanın ölümündən sonra bərqərar olan demokratiya heç vaxt müstəqil şəkildə spesifik, etibarlı və hamılıqla qəbul edilmiş qaydalar toplusuna çevrilmir…"[1]. Daxili münaqişələrin səviyyəsi aşağı düşdükdə və kənardan təzyiq göstərildikdə bu cür

[1] Ф.Шмиттер. Угрозы и дилеммы демократии. "Пределы власти", приложение к журналу "Век XX и мир", 1997, № 1.

rejimlər az müddətdə ən pis rejimlərə çevrilə bilər və ya tranzitin başlanğıc nöqtəsinə qayıda bilər.

F.Şmitter demokratikləşmə yolunda qarşıya çıxan problemlərə və maneələrə tərif vermək üçün həyat qabiliyyətli təsisatlar toplusunu konsolidasiya etməli olan daxili və xarici "dilemmalar" təklif edir (növbəti fəsildə biz həmin dilemmalara daha konkret şəkildə toxunacağıq). Hələlik isə belə bir tezislə razılaşırıq ki, "konkret dövlət bu dilemmaları həll etmək və xoşagəlməz seçim prosedurlarının həyata keçirilməsi yolu ilə "öz" demokratiya tipini seçir"[1].

Demokratik rejimlərin daxili tərkib hissələri problemlərinə və daha çox dərəcədə demokratik konsolidasiyaya şərait yaradan idarəetmə metodlarına və formalarına müraciət edək.

Yel Universitetinin politologiya və sosiologiya üzrə həqiqi professoru, avtoritar və totalitar sistemlərin, siyasi partiyaların və elit qrupların öyrənilməsinə, demokratik sistemlərin parçalanması və demokratiyaya keçid tarixinə öz töhfələri ilə tanınmış Xuan J.Lints (Juan J.Linz) "Prezidentliyin təhlükələri" adlı əsərində[2] yazır ki, parlamentarizm sistemi tez-tez prezident sistemindən daha çox sabit demokratiyanın bərqərar olmasına gətirib çıxarır. Məsələn, əgər cəmiyyətdə dərin siyasi fikir ayrılıqları müşahidə olunursa və çoxsaylı siyasi partiyalar fəaliyyət göstərirsə, bu halda parlament demokratiyanın qorunub saxlanmasının təminatçısı kimi çıxış edir.

X.Lints yazır ki, prezident idarəetmə formasında sistem "qalib gələn hər şeyi əldə edir" prinsipi üzrə işləyir, lakin

[1] Ф.Шмиттер. Угрозы и дилеммы демократии. "Пределы власти", приложение к журналу "Век XX и мир", 1997, № 1.

[2] Хуан Дж.Линц. Опасности президентства. http://old.russ.ru/antolog/predely/2-3/dem14.htm

cəmiyyətin demokratik dayaqlarının səmərəsi azalır, münaqişə ehtimalı çoxalır, çünki cəmiyyətdə güclü qütbləşmə gedir. Bu, əsasən, onunla əlaqədardır ki, prezident qarşıdakı dörd və ya beş il üçün hakimiyyətə sahib olur və başqa siyasi qüvvələrin icra hakimiyyətindən istifadə edə bilməsi barədə söhbətlərin heç bir əsası yoxdur. Bu, prezidentin rolunu artırır, lakin labüd olaraq ictimai ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarır.

Eyni zamanda, prezidentin səhnəarxası siyasətçilər tərəfindən deyil, birbaşa xalq tərəfindən seçilməsi müsbət haldır. Lakin seçkilərdə qalib gələn şəxsin topladığı səslərin faizinin ölkə əhalisinin əksəriyyətinin iradəsini əks etdirməsi ehtimalı nə dərəcədə böyükdür? Axı, çox vaxt elə olur ki, azacıq səs üstünlüyü ilə qalib gələn prezident olur, ikinci namizəd isə ondan cüzi fərqlə geri qalır.

X.Lintsin mövqeyi belə bir inama əsaslanır ki, özlərini xalqın iradəsi ilə eyniləşdirən müxtəlif siyasi qüvvələr arasında koalisiya olmadığına görə, prezident idarəetmə forması daha az demokratikdir. X.Lints yazır: "Adətən, prezident mandatının qüvvədə olduğu bütün dövr üçün qaliblər və məğlublar dəqiq müəyyən edilir. Bağlanmış ittifaqlarda hər hansı irəliləyiş olacağına, iri milli birlik koalisiyalarının və ya fövqəladə vəziyyətlərdə koalisiyaların yaradılması yolu ilə hakimiyyətin sabitliyinin artırılmasına, vəziyyətin kəskin şəkildə dəyişməsinə cavab olaraq yeni seçkilər keçirilməsinə heç bir ümid qalmır"[1].

X.Lintsin fikrincə, ən demokratik idarəetmə formasının əsası parlament sistemində mövcud olan və prezident

[1] Хуан Дж.Линц. Опасности президентства. http://old.russ.ru/antolog/predely/2-3/dem14.htm

sistemində olmayan ictimai konsensusdan ibarətdir. Parlament sisteminin real təntənəsinə nümunə kimi Lints 1977-ci ildə Frankonun ölümündən sonra keçirilmiş və Baş nazir Adolfo Suaresin qələbəsinə şərait yaratmış parlament seçkilərini göstərir. Bu seçkilərin nəticələri əyani şəkildə göstərdi ki, əgər parlament seçkiləri əvəzinə prezident seçkiləri keçirilsəydi, heç bir partiya mütləq səs çoxluğu qazana bilməzdi, çünki seçicilərin fikirləri çox ciddi şəkildə qütbləşmişdi. Bu isə bu və ya digər siyasi qüvvənin üstün mövqe tutmasına imkan verməzdi.

X.Lintsin fikrincə, Frankodan sonra İspaniya siyasəti parlamentarizmin çəkindirici təsirini özündə hiss edirdi; bu olmasaydı, populyar rəhbərliyə keçid və demokratik idarəetmənin möhkəmlənməsi başqa, daha sərt üsullarla baş verərdi. Bu fikri əsas götürsək aydın olur ki, müəllif parlamentarizmi totalitar sistemdən demokratik sistemə keçən cəmiyyətlər üçün demokratik idarəetmənin ən yaxşı forması hesab edir.

Lints yazır ki, prezident hakimiyyətinin ikili təbiəti var, çünki bir tərəfdən, prezident dövlətin başçısı və bütün xalqın nümayəndəsidir, digər tərəfdən, o, müəyyən siyasi xəttin ifadəçisidir. Belə olan halda ümumi xəttin ifadə edilməsindən danışmaq çətindir, çünki cəmiyyət çox müxtəlifdir və siyasi qütblər müxtəlif siyasi görüşləri əks etdirir. "Seçicilərin çoxu və əsas elit qrupların nümayəndələri belə hesab edirlər ki, dövlət başçısı kimi prezident partiya mənafelərinin fövqündə dayanmalıdır ki, millətin rəmzi olsun və hakimiyyətin sabitliyini təcəssüm etdirsin".

Eyni zamanda, siyasi praktikada çox vaxt "xalq" anlayışının və bütövlükdə xalqın iradəsinin seçilmiş prezidentin tərəfdarları olan qrupların mənafe və arzuları ilə əvəz

olunmasına rast gəlmək olar. Ona görə də elə bir təhlükə yaranır ki, dövlət başçısı "öz siyasətini xalqın iradəsinin ifadəsi kimi, öz opponentlərinin siyasətini isə məhdud mənafelərin müdafiəsinə yönəlmiş pis niyyət kimi qiymətləndirəcəkdir".

Xuan Lints vurğulayır ki, prezident rejimlərində müxalifətin yeri və rolu son dərəcə qeyri-müəyyəndir, çünki müxalifət liderləri "ümumiyyətlə heç bir dövlət vəzifəsi tuta bilməzlər və onların, məsələn, İngiltərədə müxalifət liderlərinin malik olduğu yarımrəsmi statusu da yoxdur".

Demokratiya çoxluğu bu barədə heç bir təsəvvürü olmayan məsələlərə dair qərarlar qəbul etməyə həvəsləndirir.

Con Saymon

Lints prezident hakimiyyətinin sabit olmamasının və əksinə, parlament idarəetmə sisteminin demokratikliyinin səbəblərinin böyük bir siyahısını verir. O yazır ki, prezident hakimiyyəti: konsensusa nail olmaq və kompromis tapmaq üçün daha az imkan saxlayır; öz xalqının və ya partiyasının etimadını itirmiş prezidentin dəyişdirilməsi üçün daha uzunmüddətli və mürəkkəb proses yaradır (impiçmenti hökumətə etimadsızlıq votumu ilə müqayisə etsək, bu halda impiçment proseduru nəzərdə tutulur); hakimiyyəti əldə saxlamaq cəhdlərinin təhlükəsiz olması üçün o, eyni şəxsin əlində həddən artıq cəmləşmişdir; kabinet üzvləri daha az müstəqildirlər, çünki onlar bu vəzifələri yalnız dövlət başçısının istəyi ilə tuturlar (halbuki, parlament sistemində hökumət kabinetinin üzvü daha sərbəstdir və baş nazir onunla ayaqlaşır, çünki kabinetin üzvü dəyişdirildikdə o, özünün parlamentdəki kreslosuna qayıdacaqdır); prezident seçkilərinin əsasını təşkil edən "ya hər şey, yaxud da heç nə" prinsipi cəmiyyəti daha da qütbləşdirir və vəziyyəti radikallaşdırır.

Ümumiyyətlə, parlament sistemi sabitliyin qorunub saxlanmasının və demokratik inkişafın ən yaxşı üsuludur. Çünki korrupsiya ilə bağlı qalmaqal yarandıqda və ya tərəfdarlarının etimadını itirdikdə baş nazirin dəyişdirilməsi dövlətdə prezident kürsüsü uğrunda mübarizə ilə müqayisədə daha az kataklizmlərə səbəb olur. Prezidentin vaxtından əvvəl dəyişdirilməsinin yeganə konstitusion yolunun impiçment olduğunu nəzərə alsaq, icra hakimiyyəti başçısının tutduğu vəzifədən azad edilməsi üçün xeyli vaxt tələb oluna bilər. Lakin yaranmış böhranlı vəziyyətdən çıxmaq üçün prezidentin istifadə etdiyi inzibati resurs xalqın iradəsini əks etdirməyə bilər, bu isə son nəticədə məsələnin qeyri-konstitusion yollarla həllinə gətirib çıxarır.

Təbii ki, demokratik idarəetmənin ən yaxşı forması barədə Xuan Lintsin baxışları mütləq mənada qəbul edilə bilməz, hərçənd, bu baxışlar irəli sürülən konsepsiyanın şərhində məntiqə və ardıcıllığa əsaslanan mövqeyi ifadə edir. Bərqərar olmuş demokratiyalar üçün parlament sistemi həqiqətən daha münasib görünür, o da doğrudur ki, parlament sistemində münaqişənin həlli üsulu prezident idarəetmə forması ilə müqayisədə daha optimal və müddət baxımından daha məqbuldur, çünki parlament sistemində yüksək siyasi mədəniyyət səviyyəsi formalaşmışdır. Lakin hökumətlərin tez-tez dəyişməsi, hökumət böhranlarının çoxalması, eləcə də parlamentdə təmsil olunmuş bu və ya digər siyasi qrupların partiya proqramından narazılığı üzündən cəmiyyətdə baş verən münaqişələrin sayı da yüksəkdir. Bununla bərabər, parlament koalisiyasına kənardan təsir göstərilməsi ehtimalı yüksəkdir. Bunu, məsələn, Türkiyənin siyasi praktikasında müşahidə edirik. Orada hökumət dünyəvi xətdən hər hansı şəkildə, hətta cüzi də olsa kənarlaşdıqda, hərbçilər hökuməti

istefaya "göndərirlər" (1997-ci ildə N.Ərbakan hökuməti ilə olduğu kimi) və ya qanunvericilik məclisində ucdantutma təmizləmə aparılır (XX əsrin 60-cı və 80-ci illərində baş vermiş çevrilişlər zamanı olduğu kimi). Üstəlik, parlament sisteminin kazusunu 2005-ci ildə Almaniyada parlament seçkiləri dövründə də müşahidə etmişik. Orada ciddi siyasi böhran yaranmışdı. Əgər H.Şröder siyasi müdriklik nümayiş etdirməsəydi və indiki kansler A.Merkel onunla dil tapmağı bacarmasaydı, Almaniya hələ uzun müddət mürəkkəb daxili siyasi vəziyyətdə qalardı. A.Şaron "Likud" partiyasından çıxaraq "Kadima" partiyasını təşkil edəndə, İsraildə də siyasi gərginlik yaranmışdı. Beləliklə, hətta siyasi mədəniyyətin yüksək olduğu ölkələr haqqında da tənzimlənmiş və ahəngdar parlament sistemi nümunələri kimi danışmaq çətindir.

Lintsin təklif etdiyi təsnifatda tranzitar cəmiyyətlərdə (Azərbaycan da buna nümunə ola bilər) aşkar gözəçarpan mühüm bir məqam nəzərə alınmır. Mən müəyyən sosial qrupların məqsəd və mənafelərini reallaşdırmaq xatirinə deyil, yalnız liderlərin öz ambisiyalarını reallaşdırmaq məqsədi ilə siyasi mübarizə aparan müxalifətçi hərəkatlara xas olan dağıdıcı radikalizmi nəzərdə tuturam. Bu, əsasən siyasi mədəniyyətin hələ formalaşmaması, onun səviyyəsinin aşağı olması və demokratik siyasi dialoq ənənələrinin olmaması ilə şərtlənir. Bu qəbildən olan siyasi təşkilatlar demokratik təşəkkülün başlanğıc mərhələsi üçün səciyyəvidir. Axı, bu və ya digər siyasi təşkilatın formalaşmasında konkret cəmiyyətə xas olan siyasi mədəniyyət mühüm rol oynayır. Əgər siyasi mədəniyyətin aşağı olmasının təsiri altında, hakimiyyət-müxalifət münasibətlərinin formalaşmaması, iqtisadi xəttin qərarlaşmaması, sosiomədəni məkana

kənardan gətirilən yeni arxetiplər və real iqtisadi proqramları əks etdirməyən çoxpartiyalı sistem və iqtidarın təklif etdiyi xətdən fərqli siyasi hərəkətlərin təsiri nəticəsində cəmiyyətdə siyasi davranışın əsas seqmentlərində cırlaşma gedirsə, onda tamamilə aşkardır ki, tranzit dövründə siyasi məkanda dağıdıcı radikallaşma təbii haldır, parlamentarizm isə dövlətin davamlı inkişafının təmin edilməsi yolu kimi səmərəsizdir. Belə vəziyyətdə güclü prezident hakimiyyəti lazımi anda sabitliyin və milli təhlükəsizliyin təmin edilməsi üçün bütün qüvvələri cəmləşdirməyə qabildir və bizim fikrimizcə, həmin cəmiyyədə idarəetmənin ən məqbul forması budur.

Dyuk Universitetinin hüquq və politologiya professoru Donald L.Qorovitsin fikirləri X.Lintsin fikirlərindən fərqlənir. Onun fikrincə, məsələn, Asiya və Afrika ölkələri üçün səciyyəvi olan qeyri-sabitlik proseslərinin əsas günahkarı məhz parlament sistemidir. Alim qərbi Afrika dövlətlərindən miras qalmış "Vestminster parlament demokratiyası sisteminin həmin dövrdə ingilisdilli Afrikada təzahür edən avtoritarizmdə təqsirinin çox olmasını" iddia edən ser Artur Lyuisin fikirlərinə etiraz edir[1].

Qovorits yazır ki, prezident sistemindən irəli gələn problemlər parlament idarəetməsinə yabançı deyildir. Qovoritsin iradlarından biri Lintsin istifadə etdiyi "qalib gələn hər şeyi əldə edir" sisteminə aiddir. O deyir: "Prezident hakimiyyətinə qarşı etirazlardan biri ondan ibarətdir ki, bu hakimiyyət icra hakimiyyəti ilə qanunvericilik hakimiyyəti arasında, xüsusən bu iki şaxəyə müxtəlif partiyalar tərəfindən nəzarət edildiyi halda, lazımsız ziddiyyətə gətirib çıxarır.

[1] Хуан Дж.Линц. Опасности президентства. http://old.russ.ru/antolog/predely/2-3/dem 26.htm

Lakin hakimiyyətin müxtəlif şaxələrinə müxtəlif partiyalar tərəfindən nəzarət edildiyinə görə, sistem "qalib gələn hər şeyi əldə edir" tipli nəticələrə gətirib çıxarmamışdır"[1].

Qorovits Afrikada parlament sisteminin böhranına əyani misal kimi Nigeriyanı göstərir. 1978-1979-cu illərdə burada demokratiyaya qayıdış cəhdləri cəmiyyətdə fikir ayrılıqlarını yumşaltmaq məqsədi ilə prezident sisteminə keçilməsini nəzərdə tuturdu. 1978-ci ildə Şri-Lankada etnik münaqişələri sülh yolu ilə həll etmək məqsədi daşıyan anoloji tədbirlər görülmüş, bu ölkədə prezident idarəetmə formasına keçid baş vermişdir.

Qorovits göstərir ki, "prezident idarəetmə rejimində nazirlərin zəifliyi qismən hakimiyyət bölgüsündən irəli gəlir. Nazirlər seçilmiş qanunvericilər olmadığına görə, onlar öz vəzifələrini prezidentdən alırlar. Əgər prezident cəmiyyətdə barışığa çalışırsa, onlar da buna çalışacaqlar"[2].

Bundan əlavə, demək lazımdır ki, parlament sistemində nazirlər kabinetinin gücü baş nazirin özünün xarizmasından və gücündən asılıdır. Uinston Çörçill, Marqaret Tetçer və İndira Qandi kimi güclü baş nazirlər özlərinin nazirlər kabinetində rotasiyaları tamamilə ağrısız tərzdə həyata keçirirdilər.

Qorovits tamamilə haqlı olaraq göstərir ki, parlament sisteminin apriori qəbul edilməsi üçün real şərait yoxdur, çünki o da nöqsanlardan xali deyildir: "Hər hansı prezident idarəetmə sistemi kimi, bütün parlamentlərin proobrazı olan Vestminster sistemi də tez-tez bu cür nəticələrə gətirib çıxarır". Ən məqbul idarəetmə sistemi və idarəetmə forması

[1] Хуан Дж.Линц. Опасности президентства. http://old.russ.ru/antolog/predely/2-3/dem 26.htm

[2] Yenə orada.

bu və ya digər dövlətin yerləşdiyi məkandan, onun siyasi mədəniyyətindən, milli mentalitetindən və tarixi inkişafın xüsusiyyətlərindən asılı olaraq formalaşır.

§ "ELEKTRON HÖKUMƏT": demokratik transformasiyanın yeni mərhələsi

Yer kürəsinin istənilən nöqtəsində informasiyanın və "mənzərə"nin sürətlə və səmərəli şəkildə əldə edilməsi imkanı verən informasiya-kommunikasiya texnologiyaları sayəsində yeni minillikdə siyasi proses daha intensiv olmuşdur. Siyasi və ictimai xadimlər, yeni liderlər, elm və mədəniyyət nümayəndələri, praktik olaraq hər kəs siyasi prosesdə və yeni ictimai prioritetlərin formalaşmasında fəal iştirak etmək imkanı qazanmışdır. Cəmi 50 ildən bir qədər çox bundan əvvəl heç kəs təsəvvür edə bilməzdi ki, ümumdünya şəbəkəsindən istifadə etmək imkanı olan 18 yaşlı gənc dövlət siyasətinin müəyyən edilməsində, yaxud sənaye obyektlərinin planetin ekoloji tərkib hissəsinə təsiri və ya piyadalar əleyhinə minaların qadağan edilməsi barədə diskussiyalarda iştirak etmək imkanına malik olacaqdır. Üstəlik, 1969-cu il sentyabrın 2-də baş vermiş hadisənin perspektivlərini təsəvvür edənlər az idi. Məhz həmin gün Stenford və Kaliforniya universitetlərinin iki kompyuteri telefon xətti ilə birləşdirilmişdir. Kim təsəvvür edə bilərdi ki, öz ofisində kompyuter qarşısında əyləşərək, bank hesablarının vəziyyətinə, hətta evindəki soyuducunun işinə də nəzarət edə biləcəkdir?! XXI əsrdə "Elektron kənd" reallığa çevrilmişdir.

Ümumdünya hörümçək torunun ilk dövrələrindən cəmi 50 ilə yaxın vaxt keçmişdir. Bu gün cəsarətlə demək olar ki, internet insanların şüurunda, sosial gerçəkliyin, siyasi, iqtisadi və ictimai prioritetlərin dərk edilməsində, yeni tipli – daha tolerant və şəffaf təfəkkürün formalaşmasında böyük bir inqilab etmişdir. Mahiyyət etibarilə internet ən demokratik məkana çevrilmişdir. Burada yuzerlər (ingiliscə user – istifadəçi deməkdir) qlobal və lokal proseslər barədə öz mülahizələrini cəsarətlə müzakirə edə bilərlər. Bununla bərabər, Ümumdünya hörümçək toru bütün dünyanın istifadə edə biləcəyi ensiklopediya keyfiyyətləri kəsb etmişdir. Burada hər kəs onu maraqlandıran informasiyanı sərbəst tapıb istifadə edə bilər. Beləliklə, internet fikir mübadiləsi, yeni dünya baxışlarının formalaşması, stereotiplər yaranması məkanı, bütün insan birliyinin sosial-iqtisadi, siyasi və mədəni inkişaf sahəsidir.

Yadda saxlayın, demokratiya əbədi davam etmir. Tezliklə o, aşınır, tükənir və özü-özünü məhv edir. İndiyədək özü-özünə son qoymayan demokratiya olmamışdır.

Viktor Hüqo

"İnternet" termini (ingiliscə inter – arasında, net – şəbəkə) ölkələr, regionlar, təşkilatlar və fərdi istifadəçilər arasında informasiya ötürülməsi və məlumat mübadiləsi üçün müxtəlif kompyuter şəbəkələrinin inteqrasiya vasitəsi qismində çıxış edən qlobal ümumplanetar kommunikasiya sisteminin adı kimi işlədilir. Beynəlxalq Telekommunikasiyalar İttifaqının məlumatına görə, 1988-ci ildə yalnız 8 ölkədə – ABŞ, Kanada, Danimarka, Finlandiya, Fransa, İslandiya, Norveç və İsveçdə internet fəallığı müşahidə olunurdu. 2001-ci ilin yanvar ayına olan məlumata görə, internet istifadəçilərinin sayına görə Fransa beynəlxalq telekommunikasiya şəbəkəsinin ilk onluğuna daxil deyildir. 2005-ci il dekabrın 31-nə olan məlumata görə, internetdən istifadə edənlərin sayı 1.018.057.389 nəfər olmuşdur.

İnternet istifadəçilərinin statistikası və dünya əhalisi ilə nisbəti						
Regionlar	**Əhali (2007-ci il)**	**Dünya əhalisi,-%-lə**	**İnternet istifadəçiləri**	**Əhali, %-lə**	**Dünyada istifadəçilərin faiz nisbəti, %-lə**	**2000-2005-ci illərdə istifadəçilərin artımı, %-lə**
Afrika	933.448.292	14,2	32.765,700	3,5	3,0	625,8
Asiya	3.712.527.624	56,5	389.392.288	10,5	35,6	240,7
Avropa	809.624.686	12,3	312.722.892	38,5	28,6	197,6
Orta Şərq	193.452.727	2,9	19.382.400	10,0	1,8	490,1
Şimali Amerika	334.538.018	5,1	232.057.067	69,4	21,2	114,7
Latın Amerikası	556.606.627	8,5	88.778.986	16,0	8,1	391,3
Okeaniya/ Avstraliya	34.468.443	0,5	18.430.389	53,5	1,7	141,9
Cəmi	**6.574.666.417**	**100,0**	**1.093.529.692**	**16,6**	**100,0**	**202,9**
www.internetworldstats/com .© Copyright 2007, Miniwatts Marketing Group. All rights reserved.						

İnternet çox qısa bir müddətdə təkcə "çat"lar, forumlar və onlayn-oyunlar vasitəsilə əyləncə yerinə deyil, həm də interaktiv ünsiyyət, internet-konfranslar, simpoziumlar keçirilməsi, elmi və ictimai mövqe və baxışların mübadiləsi üsuluna çevrilmişdir. Eyni zamanda, Ümumdünya hörümçək toru güclü kütləvi informasiya vasitəsinə çevrilmişdir. Hər səhər yüz minlərlə istifadəçi son məlumatları öyrənmək məqsədi ilə öz brauzerlərini açır, dünyanın aparıcı xəbər agentlikləri bütün gün ərzində öz şəbəkə resurslarını dəfələrlə yeniləşdirərək, ən "qaynar" xəbərləri və bütün dünyada baş verən hadisələrin təhlilini dünya birliyinə təqdim edir. İndi ictimai fikir təkcə kağız nəşrlərin, televiziya və radio kanallarının təsiri altında formalaşmır, yeni təfəkkürün formalaşdırılması təkcə CNN üçün mümkün olan

məsələ deyildir. Yeni minillikdə iş vaxtının çox hissəsini Ümumdünya hörümçək toruna çıxışı olan kompyuter qarşısında keçirən "şəbəkə adamı" obrazı yaranır. Yeniliklərin seçimi və onların təhlili labüd olaraq daha geniş miqyas alır. Bu gün "Əl-Cəzirə" və "Əl-Ərəbiyyə" agentlikləri cəsarətlə CNN ilə rəqabət aparır. Qəzet sahiblərinin və ya bütövlükdə dövlətin mövqelərini ifadə edən redaktor sütunları müstəqil internet-bloqlarla əvəz olunur. Onlar çox vaxt keçmişdə bizə məlum olan "dissidentlər" rolunda çıxış edirlər. İnternet-forumlar maraqlar üzrə dərnəklərin təcəssümünə çevrilir. Yer kürəsinin istənilən guşəsində hərbi çevriliş, parlament və ya prezident seçkiləri, iqtisadi uğurlar və ya bazarlarda qiymət təlatümü, terror aktları və hərbi aksiyalar – bütün bu yeniliklər bir neçə dəqiqədə bütün dünyada milyardlarla insanın evinə yol tapır. Müasir dövrdə bəşəriyyətin inkişafı maye-kristallik ekran arxasındakı virtual məkanda baş verir.

Bütün bunlar dünya birliyinin şüurunu əhəmiyyətli dərəcədə demokratikləşdirmiş, dünya miqyaslı problemlərin və demokratik transformasiyaların qlobal müzakirəsi üçün şərait yaratmışdır. Demokratiya müasir informasiya kommunikasiyaları çərçivəsində yeni məna kəsb etmişdir. Hərçənd, eyni zamanda, o, yeni informasiya müdaxiləsi üçün zəmin yaratmışdır. Amerika teleyayım şəbəkəsinin translyasiya etdiyi "şəkillərə" əsaslanan təfəkkür tərzinin formalaşmasına yönəlmiş "CNN effekti" anlayışı siyasi leksikonda özünə möhkəm yer tapmışdır. Bu şirkətin fasiləsiz informasiya konsepsiyası hadisə yerindən təsvirlərin real zaman rejimində verilməsindən ibarətdir. Bu halda tamaşaçılar baş verən hadisədə sanki özləri də iştirak edirlər. İnformasiyanın ani ötürülməsi saxtalaşdırmaların istisna olunmasını nəzərdə tutur. Hərçənd, bəzən bu fikrə şübhə edənlər də tapılır.

Məsələn, jurnalist və yazıçı, "Rezo Volter" təşkilatının prezidenti Tyeri Meysan yazır: "...Sovet imperiyasının dağılması Amerika təbliğat sisteminin nəzarətsiz inkişafı ilə nəticələnmişdir. CNN kanalı bu sistemin yeni mexanizminə çevrilmişdir. CNN-in təsir qüvvəsi hadisələri bir növ tamaşaya çevirən və hər hansı analitikaya mane olan informasiyanın fasiləsiz ötürülməsi konsepsiyasından ibarətdir. CNN mənzərələrini bütün gün ərzində birbaşa efirdə retranslyasiya edən dünya informasiya kanallarının sayının artması CNN effektini gücləndirmiş və televiziya tamaşaçılarını daha da dəymədüşər etmişdir. İndi bu kanal Vaşinqtonla qırılmaz tellərlə bağlıdır, onun ehtimal edilən rəqibləri isə Amerika ordusunun hücumlarına məruz qalır. Fasiləsiz informasiya ictimai rəyə psixoloji təsirin yeni metoduna çevrilmişdir. Buna baxmayaraq, nəinki azadlığımızı itirməkdən şikayətlənmirik, əksinə, bu manipulyasiyada məmnunluq tapırıq və qismən özümüz də ona görə məsuliyyət daşıyırıq"[1].

İnformasiya-kommunikasiya texnologiyaları demokratik təşəbbüslər üçün yeni məkan formalaşdırmışdır. Siyasi təşkilatlar və liderlər mövqelərindən və baxışlarından asılı olmayaraq, öz əqidələrini retranslyasiya etmək üçün informasiya texnologiyalarından fəal istifadə edirlər. Beləliklə, İKT kütləvi şüurun demokratikləşməsinə təsir göstərir və aşağıdakılara kömək edir:

- yeni təfəkkürə. İnformasiya texnologiyaları çox geniş auditoriya ilə ünsiyyət yaratmaq və informasiyanı ani çatdırmaq imkanlarının köməyi ilə yeni təfəkkür formalaşdırır;

[1] http://www.voltairenet. org/article 129894.html

- sosiomədəni transformasiyaya. İctimai şüurda gələcəkdə milli arxetitə çevrilə biləcək yeni stereotiplər formalaşır. "25-ci kadr" adı ilə məşhur olan element milli "Mən"də sosial gerçəkliyin yeni aspektlərini canlandırır.

- daimi məlumatlılığa və sürətli transformasiyalara. Planetin istənilən guşəsində baş verən siyasi, iqtisadi və sosial proseslər barədə fasiləsiz və dərhal məlumat almaq imkanı bu proseslərin ən uğurlu olanlarını başqa məkanlarda sınaqdan keçirmək üçün şərait yaradır. Geosiyasət çox sürətli bir amilə transformasiya edir.

- təhsilin beynəlmiləlləşməsinə. İKT sayəsində təhsil almaq və yeni intellektual elitaların formalaşması əhəmiyyətli dərəcədə asanlaşmışdır. Şəbəkənin köməyi ilə məsafədən təhsil almaq yaşayış və iş yerini tərk etmədən nüfuzlu ali məktəbin diplomunu almağa imkan verir.

- demokratiyanın şəffaflaşmasına. Yeni texnologiyalar ictimai şüurda yeni istiqamətlərin formalaşmasına, o cümlədən bir məkandakı fərdlərin və informasiya kommunikasiyaları vasitəsilə bir-biri ilə əlaqələri olan başqa iştirakçıların sosial fəallığı prosesinin formalaşmasına kömək edir. Bu da öz növbəsində demokratiyanın qarşıya çıxan problemlərinin həlli üçün başqa məkanların siyasi elitalarının cəlb edilməsinə imkan yaradır.

XXI əsrdə demokratiya vətəndaşların hakimiyyətlə ünsiyyət imkanlarından açıq istifadə və hakimiyyətin qanunverici və icra şaxələrinin təşəbbüsləri səviyyəsində müzakirə əlaməti altında formalaşır. Hakimiyyət orqanlarının əhali və vətəndaş cəmiyyəti təsisatları ilə qarşılıqlı infor-

masiya əlaqələrini təmin edən internet texnologiyaları müasir ədəbiyyatda "elektron hökumət" (E-government) adlanır.

"Elektron hökumət" – E – government anlayışı sözün geniş mənasında dörd əsas tərkib hissədən ibarətdir:

- hökumətin elektron servisin müxtəlif növlərindən (internet, mobil rabitə, rəqəmli televiziya, çağırışlara xidmət mərkəzləri və s.) istifadə etməklə öz funksiyalarını yerinə yetirməsi və əhali ilə, firmalarla, ictimai təşkilatlar, dövlət müəssisələri və əcnəbilərlə qarşılıqlı əlaqə üçün nəzərdə tutulan funksional dövlət kompyuter sistemi;
- hökumətin xarici informasiya sistemi və ya hökumət şəbəkə portalı, yaxud milli internet inkişaf portalı;
- hökumətin daxili informasiya sistemi, o cümlədən elektron sənəd dövriyyəsi və uçot sistemləri (məsələn, mühasibat uçotu sistemi, kadrların uçotu sistemi və s.);
- kompleks informasiya təhlükəsizliyini təmin edən dövlət sistemi.

Məhdud mənada (sözün həqiqi mənasında) "elektron hökumət" anlayışı yuxarıda sadalanan tərkib hissələrindən yalnız ikisini əhatə edir.

"Elektron hökumətin" fəaliyyətinin bir neçə seqmentini göstərmək olar:

- dövlət orqanları ilə vətəndaşlar arasında qarşılıqlı əlaqə;
- dövlət orqanları ilə özəl biznes arasında qarşılıqlı əlaqə;
- ictimai təşkilatlar və yerli özünüidarə orqanları ilə qarşılıqlı əlaqə;

- tərəfdaşlar və zəruri xidmətlərin satıcıları ilə qarşılıqlı əlaqə;
- dövlət orqanlarının özləri arasında (qanunvercilik, icra və məhkəmə hakimiyyəti arasında; mərkəzi hökumət departamentləri və nazirliklər arasında; federal və regional hakimiyyət orqanları arasında; ayrı-ayrı dövlət qulluqçuları (siyasətçilər) arasında) qarşılıqlı əlaqə;
- müəyyən ölkənin dövlət orqanlarının əcnəbi subyektlərlə (xarici vətəndaşlar, başqa ölkələrin biznesi və hökumətləri, beynəlxalq təşkilatlar) qarşılıqlı əlaqəsi.

"Elektron hökumət" konsepsiyasını reallaşdırmağın zəruriliyini və onun əhəmiyyətini əsaslandırmaq üçün aşağıdakı meyarlar təklif olunur:

- hökumətin ölkə vətəndaşları və əcnəbilər üçün açıq olması;
- qəbul edilən idarəetmə qərarlarının operativliyi və səmərəliliyinin artırılması;
- dövlət aparatının saxlanılması üçün xərclərin azaldılması və dövlət qulluqçularının əmək məhsuldarlığının artırılması;
- hökumət strukturlarında korrupsiyaya qarşı mübarizə və s.

"Elektron hökumət" inkişaf etdikcə yeni anlayışlar aparatı, metodologiya və vasitələr – hökumətə məxsus şəbəkə portalı, şəbəkə planı, şəbəkə büdcəsi, şəbəkə məhsuldarlığı, şəbəkə inteqrasiyası, şəbəkə planlaşdırması, şəbəkə tənzimləməsi, şəbəkə idarəetməsi, şəbəkə monitorinqi, şəbəkə məşğulluğu, məsafədən təhsil və s. vasitələr yaranır və tədricən dövriyyəyə daxil olur.

"Elektron hökumət"in təşəkkülü dövlət xidmətlərinin və təşkilatlarının internet şəbəkəsinə qoşulmasından başlanmışdır. Bu halda kağız daşıyıcıda olan sənədlərin göndərilməsi tədricən onların informasiya veb-qovşaqlarında dərc olunması ilə əvəz edilir. Vətəndaşlar və başqa təşkilatların əməkdaşları həmin qovşaqlarda təşkilatın iş rejimi, məsul şəxslər haqqında kifayət qədər informasiya tapa, normativ sənədlər və onların şərhləri ilə tanış ola bilirlər.

"Elektron hökumət"in inkişafının ikinci mərhələsi elektron formaların və informasiya mübadiləsi prosedurlarının yaranmasından başlanır. Onlar informasiya veb-qovşağını vətəndaşlar və təşkilatlarla qarşılıqlı əlaqə vasitəsinə çevirirlər. Bu vasitə əvvəllər yalnız müəssisəyə şəxsən getmək yolu ilə həll edilən bir sıra prosesləri internetə köçürməyə imkan verir. Həmin mərhələdə istifadəçinin şəxsiyyətinin təsdiqlənməsi dövlət xidmətləri üçün mühüm problemə çevrilir. Hazırda bu məqsədlər üçün parollardan, rəqəmli sertifikatlardan və smart-kartlardan istifadə edilə bilər. Bir qayda olaraq, dövlət orqanlarının veb-qovşaqları istifadəçiləri şəxsləndirmək və tam uyğunlaşdırmaq axtarış və rubrikasiya, eləcə də əks-əlaqə vasitələrinə malik olur və beləliklə, sözün müasir mənasında internet-portallardır.

Üçüncü mərhələdə "informasiya iqtisadiyyatı" formalaşır, bunun da səciyyəvi cəhəti ondan ibarətdir ki, çoxsaylı dövlət idarə və müəssisələrinin, vətəndaşların cəlb edildiyi ən mürəkkəb idarəetmə əməliyyatları tamamilə elektron formada həyata keçirilir. Bank, istehsal sahələri və sosial sahələr təhsil, təbabət və başqa təyinatlı informasiya sistemlərinin bir-biri ilə "ortaq dil tapması" və insanlarla anlaşıqlı və rahat qarşılıqlı fəaliyyətdə olması üçün xüsusi standart – XML universal informasiya dili tətbiq olunur.

Hazırda qabaqcıl ölkələr "elektron hökumət"in ikinci mərhələsindən üçüncü mərhələsinə keçid dövründədir.

Eyni zamanda, hər bir konkret ölkənin və hər bir qitənin informasiya-kommunikasiya texnologiyalarının milli inkişafda yeri və rolu məsələsinə öz baxışı vardır. Məsələn, Avropa İttifaqı informasiya kommunikasiyaları sahəsində əsas diqqəti bu quruma daxil olan millətlərin və bütövlükdə Avropa cəmiyyətinin sosial vəhdətinə nail olmaq üzərində cəmləşdirir. Avropalıların nəzərində informasiya cəmiyyəti Avropanın çoxmillətli sərvətlərini, eləcə də insan üçün investisiyaları qoruyub saxlamaq vasitəsidir.

İnformasiya cəmiyyətinin Yaponiya modeli vahid korporasiya şəklində işləyən "elektron ölkə" qurmağı nəzərdə tutur. Dövlət, cəmiyyət və biznes qurumlarının mənafe tarazlığına nail olmaq, donuqlaşmış sosial və iqtisadi təsisatların islahatı, ölkə miqyasında xərclərin azaldılması və millətin birliyinin təmin edilməsi, o cümlədən Yaponiyanın qlobal rəqabət qabiliyyətinə nail olması üçün bu birliyin təmin edilməsi ortamüddətli perspektiv üçün Gündoğar ölkə hökumətinin qarşıya qoyduğu əsas məqsədlərdir.

"Qərəzsiz" demokratiya haqqında bir neçə söz

"Sərhədsiz reportyorların" Sudan jurnalisti Sami əl-Hac barədə susması Rober Menarın başçılıq etdiyi bu "mətbuat azadlığını müdafiə" təşkilatının qərəzsizliyi barədə çoxlu suallar doğurur. "Sərhədsiz reportyorlar" Vaşinqtonun hədəfinə çevrilmiş ölkələri, məsələn, Kuba, Venesuela və Çini həmişə, çox vaxt da ədalətsiz olaraq damğalamağa hazırdır və Qətərin "Əl-Cəzirə" telekanalının reportyoru əl-Hacın məruz qaldığı əzabları tamamilə inkar edir.

Salim Lamrani
Parisdəki Sorbonna universitetinin tədqiqatçısı, Kuba-ABŞ münasibətləri sahəsində mütəxəssis

http://www.voltairenet. org/ article135119. html#nh1

Amerika Birləşmiş Ştatları üçün informasiya cəmiyyəti, təbii ki, qloballaşma prosesinin başa çatması deməkdir. İnformasiya cəmiyyəti, İT-texnologiyalar, internet, elektron kommersiya – ABŞ korporasiyalarının qlobal rəqabət qabiliyyətini təmin edən iqtisadi ekspansiya vasitəsidir və Amerika həyat tərzinin, standartlarının və dəyərlərinin yayılmasına xidmət edir.

Birləşmiş Ştatlarda informasiya cəmiyyətinin inkişafına çox böyük əhəmiyyət verilir. 2001-ci ilin yayında ABŞ Prezidenti Corc Buş Konqresə xüsusi məktub göndərərək, ilk növbədə, "elektron hökumət"in inkişaf etdirilməsi hesabına federal hakimiyyət orqanlarının fəaliyyətinin keyfiyyətini və səmərəsini artırmaq vəzifəsini qarşıya qoymuşdur. Qanunvericilər Buşun bu təşəbbüsünə dərhal cavab verdilər: təkcə 2002-2003-cü illərdə Amerikada federal informasiya texnologiyaları üçün büdcə xərcləri 100 milyard dollar olmuşdur.

ABŞ-ın bu yüksək texnoloji sahədə təcrübəsi və amerikalıların burada üzləşməli olduğu problemlərin konkret həlləri hazırda qlobal informasiya cəmiyyətinə qovuşmaq üçün öz məxsusi yolunu tapmağa çalışan Azərbaycan üçün çox aktual və faydalıdır. Bu sahədə tamhüquqlu tərəfdaş olmaq üçün informasiya cəmiyyətinin bütün əsas iştirakçılarının nə etdiklərini və necə etdiklərini "əla" bilmək lazımdır.

ABŞ-da E-government inkişaf strategiyası federal hökumətin işinin səmərəsini artırmaq üçün aşağıdakı üsullardan istifadə edilməsinə yönəlmişdir:

- informasiya servisinin sadələşdirilməsi;
- bir-birini təkrarlayan və hökumət idarəetməsinin izafi səviyyələrinin istisna edilməsi;

- federal hökumətdən vətəndaşlar, sahibkarlar, hökumət qulluqçuları və federal qulluqçular üçün zəruri informasiyanın axtarışının və əldə edilməsinin asanlaşdırılması;
- hökumət strukturlarının vətəndaşların tələbatının daha tez təmin edilməsinə yönəldilməsi;
- hökumət agentliklərində biznes proseslərinin sadələşdirilməsi və izafi, yaxud bir-birini təkrarlayan sistemlərin inteqrasiyası və aradan qaldırılması hesabına əlavə xərclərin azaldılması;
- federal hökumətin fəaliyyətinin səmərəliliyini artırmaq üçün onun başqa təşəbbüslərinin həyata keçirilməsinə şərait yaradılması.

Amerika hakimiyyət orqanları E-government inkişaf strategiyasını praktik şəkildə reallaşdırmağa başlayarkən, ilk növbədə, aşağıdakı tədbirləri görmək niyyətindədirlər:

- pensiya təminatı, rekreasiya xidmətləri, vətəndaşların təhsili və təlimi üçün materiallar təqdim edilməsi kimi sahələrdə xidmətlər göstərilməsi üçün internetdən istifadə etmək;
- hökumət informasiyası ilə ictimai informasiyadan birgə istifadə sahəsinin genişləndirilməsi, mümkün və məqsədəuyğun olduqda isə, federal, regional və yerli məlumatların inteqrasiyası;
- birləşdirilmiş məlumatlar formalaşdırmağa imkan verən səmərəli proseslərin tətbiq edilməsi hesabına biznes strukturları üçün üstəlik xərclərin və əlavə məsrəflərin azaldılması;
- işin səmərəsinin artırılması üçün, ilk növbədə, maliyyə, insan resursları və təchizat kimi sahələrdə əməliyyat

xərclərinin azaldılması sahəsində kommersiya təşkilatlarının təcrübəsindən hökumət qulluqçuları arasında istifadə edilməsi;

- keyfiyyətin qiymətləndirilməsi göstəricilərinin formalaşması və hökumətin fəaliyyətinin müntəzəm monitorinqinin həyata keçirilməsi.

Bu strategiyaya uyğun olaraq, həmin təşəbbüslərin həyata keçirilməsinin əsas nəticələri aşağıdakı dörd kateqoriya üzrə belədir:

- G2C – government to citizens (hökumət – vətəndaşlar): pensiya təminatı, kreditlər verilməsi, təlim və tədris materiallarının verilməsi kimi xidmətlərin göstərilməsində internetdən istifadə; biznesin əsas istiqamətləri – sosial xidmətlər, rekreasiya və təbii ehtiyatlar, subsidiyalar və kreditlər, vergilərin yığılması.

- G2B – government to business (hökumət – biznes): biznesin təşkil edilməsi və həyata keçirilməsi üçün əlavə məsrəflərin azaldılması; əsas istiqamətlər – tənzimləmə, iqtisadi inkişaf, ticarət, icazə-lisenziya fəaliyyəti, subsidiya və kreditlər, aktivlərin idarə olunması.

- G2G – government to government (hökumət – hökumət): informasiyadan birgə istifadə və bütün səviyyələrdə hakimiyyət orqanlarının məlumatlarının inteqrasiyası; əsas istiqamətlər – iqtisadi inkişaf, rekreasiya ehtiyatları və təbii ehtiyatlar, ictimai təhlükəsizlik, qanunvericiliyin yaxşılaşdırılması, təbii fəlakətlərə qarşı hazırlıq səviyyəsinin artırılması, subsidiyalar və kreditlər.

- IEE – Internal Efficiency and Effectiveness (səmərəliliyin və məhsuldarlığın artırılması): hökumətin fəaliyyə-

tində toplanmış təcrübənin (malgöndərənlər zəncirinin idarə edilməsi və s.) adaptasiyası; əsas istiqamətlər – maliyyə, insan resursları, menecment, təchizat, uçot və inventarlaşdırma.

Son dövrlərdə dünyanın aparıcı ölkələrində informasiya cəmiyyətinə keçid üçün beynəlxalq və milli proqramlar işlənib hazırlanmışdır. Böyük Britaniyada "UK on-line", ABŞ-ın "Milli informasiya infrastrukturu", Fransanın "Government Action Proqram for Information Society", Rusiyanın "Elektronnaya Rossiya" proqramları, Ümumavropa "Europe" proqramı, "Böyük yeddilik" ölkələrinin "Dövlət on-layn" milli proqramları bu qəbildəndir.

Seçki bülleteni güllədən güclüdür

Avraam Linkoln

Hazırda Böyük Britaniyada "Hökumətin modernləşdirilməsi üzrə Ağ kitab"ın (Modernising Government White Paper) müddəaları əsasında tərtib edilmiş proqramın həyata keçirilməsi üçün fəal iş aparılır. Bu proqramın tam adı belədir: "E-vətəndaşlar, e-biznes, e-hökumət. İnformasiya dövründə cəmiyyətə xidmət etməyin strateji konsepsiyası" (E-citizen, E-business, E-government). Proqramın əsas məqsədi informasiya əsri hökumətinə keçid prosesini təhlil etməkdən və konkretləşdirməkdən ibarətdir.

Proqramda aşağıdakı məsələlər nəzərdən keçirilir:

- sıravi istehlakçılar və qeyri-hökumət təşkilatları üçün reallaşdırılması zəruri olan xidmətlərin strukturu və tərkibi;
- təqdim edilən servis xidmətlərinin çeşidinin genişləndirilməsi;

- vətəndaşların və əhalinin hökumət xidmətləri ilə tam əhatə olunmasının təmin edilməsi;
- informasiyadan istifadə edilməsinin əsaslı şəkildə yaxşılaşdırılması;
- bütün zəruri dəyişikliklərin həyata keçirilməsi üçün konkret tədbirlərin müəyyən edilməsi.

Bir sıra ölkələrdə (Avstraliya, Almaniya, Hollandiya, Kanada, Yeni Zelandiya, Portuqaliya, Sinqapur, ABŞ, İsveç, Finlandiya və s.) hökumət xidmətlərinin rəsmi saytları yaradılmışdır. Bu saytlarda hökumətin iclaslarının gündəliyi, müzakirə edilən məsələlər, məruzələrin stenoqramları, qanunvericilik aktları, müxtəlif təlimatlar və şərhlərlə tanış olmaq mümkündür.

Azərbaycanda "elektron hökumət" proqramı BMT-nin Minilliyin Sammitindən və Minilliyin Bəyannaməsinin qəbul edilməsindən sonra tam miqyasda həyata keçirilməyə başlanmışdır.

Həmin Bəyannamədə "siyasi proseslərin daha açıq olmasına kollektiv şəkildə nail olmaq, bütün ölkələrdə bütün vətəndaşların həmin proseslərdə həqiqətən iştirak etməsinə şərait yaratmaq; kütləvi informasiya vasitələrinin onlara xas olan funksiyaları sərbəst yerinə yetirmələrini, eləcə də ictimaiyyətin informasiyadan istifadə hüququnu təmin etmək" səyləri vurğulanırdı[1].

2003-cü il fevralın 17-də Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strate-

[1] Декларация Тысячелетия ООН, пункт 25.

giya”[1] Azərbaycanda “elektron demokratiya” və “elektron hökumət” yaradılması yolunda ilk addım oldu.

Milli Strategiyanın əsas məqsədi “informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir”[2]. Milli Strategiyanın əsas vəzifələrinə aşağıdakılar aiddir:

- informasiya cəmiyyətinin hüquqi əsaslarının yaradılması və inkişaf etdirilməsi;
- cəmiyyətdə insan amilinin inkişaf etdirilməsi, vətəndaşların keyfiyyətli təhsil, tibbi xidmət və sosial təminatlar alması üçün əlverişli şəraitin yaradılması;
- vətəndaşların və sosial təsisatların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarının təmin edilməsi üçün müvafiq mühitin yaradılması;
- səmərəli, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmənin həyata keçirilməsi, elektron hökumətin yaradılması, elektron ticarətin formalaşdırılması və inkişaf etdirilməsi;
- ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiyaya və biliklərə əsaslanan rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması və inkişaf etdirilməsi;
- xalqın tarixi, ədəbi və mədəni irsinin qorunub saxlanması və onun geniş təbliği;

[1] Prezidentin 2003-cü il 17 fevral tarixli 1146 №-li sərəncamı.
[2] Yenə orada.

- inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi;
- ölkənin informasiya təhlükəsizliyinin təmin olunması;
- ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiyası;
- milli proqram vasitələrinin yaradılması, informasiya və kommunikasiya texnologiyaları məhsullarının (İKT sənayesinin) inkişaf etdirilməsi;
- ölkənin "*rəqəmsal geriliyinin"* aradan qaldırılması"[1].

Gələcək "elektron hökumət"in əsas istiqamətləri ilk dəfə məhz bu sənəddə qeyd edilmişdir. Sənəddə göstərildiyi kimi, "elektron hökumət"in məqsədi aşağıdakılardan ibarədir:

- "dövlət idarəetmə orqanlarında və təşkilatlarında, yerli özünüidarəetmə orqanlarında informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi və inkişaf etdirilməsi;
- vətəndaşların, qeyri-hökumət təşkilatlarının dövlətin idarə edilməsində iştirakı üçün münasib şəraitin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə siyasi sistemin müxtəlif tərkib hissələri arasında əməkdaşlığın gücləndirilməsi
- dövlət qulluqçularının informasiya və kommunikasiya texnologiyaları sahəsində biliklərinin müntəzəm artırılması mexanizminin hazırlanması və həyata keçirilməsi;

[1] Prezidentin 2003-cü il 17 fevral tarixli 1146 №-li sərəncamı.

- dövlət idarəetmə orqanlarında və təşkilatlarında elektron sənəd dövriyyəsinin geniş tətbiqi;
- vətəndaşlara informasiya xidmətləri göstərən dövlət avtomatlaşdırılmış məlumat sistemlərinin, tematik, sahə, regional informasiya resurslarının yaradılması;
- seçkilər prosesində informasiya texnologiyaları tətbiqinin inkişaf etdirilməsi".

Qeyd etmək vacibdir ki, İlham Əliyev Azərbaycanın Prezidenti kimi ilk xarici səfərini 2003-cü ildə informasiya cəmiyyətinə həsr edilmiş ümumdünya sammitində iştirak üçün Cenevrəyə etmişdir. O, sammitdə çıxışında Azərbaycanın informasiya cəmiyyəti qurulmasına sadiqliyini vurğulayaraq demişdir: "...İnformasiya cəmiyyətinin qurulması bizim prinsiplərimizə tamamilə uyğundur və biz bu ideyaya sadiq olmağımızı bir daha təsdiqləyirik".

2004-cü ildə keçmiş Rabitə Nazirliyinin bazasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması ölkəmizin informasiya cəmiyyəti prinsiplərini tamamilə inteqrasiya etmək cəhdlərini bir daha təsdiq etdi. Bununla bərabər, "Əhali reyestri haqqında" qanunun qəbul edilməsi informasiya texnologiyalarının dövlət idarəetməsinə tətbiqinin fundamental əsasını qoymuşdur.

2005-ci il oktyabrın 21-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı"nı ("Elektron Azərbaycan") imzalamışdır. Bu proqram 2003-cü ildə qəbul edilmiş Milli Strategiyanın reallaşdırılması üçün təməl qoydu. 2005-ci ilin axırlarında Milli Məclis tərəfindən qəbul edilmiş "Elektron imza və elektron sənəd haqqında" qanun

isə dövlət strukturları arasında elektron qarşılıqlı münasibətlərin reallaşdırılmasının əsasını qoydu.

Qeyd etmək lazımdır ki, artıq bəzi dövlət strukturları informasiya texnologiyalarını idarəetmə sisteminə uğurla inteqrasiya edirlər. 2005-ci ilin yayında Vergilər Nazirliyi avtomatlaşdırılmış vergi informasiya sisteminin təqdimatını keçirmişdir. Vergi bəyannamələrinin qəbul edilməsi və kameral vergi yoxlamaları, vergi ödəyicilərinin hesabat sənədlərinin uçotu, iş qovluqlarının saxlanması və istifadə edilməsi, vergi hesabat-fakturaları ilə iş altsistemlərindən ibarət olan bu sistem vergi ödəyicisinin imzası ilə təsdiq olunmuş, Azərbaycan Vergilər Nazirliyi tərəfindən yalnız vergi sənədlərinin təsdiqi üçün istifadə edilməyə verilən vergi bəyannamələri almağa imkan verir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası vətəndaşlarla iş sahəsində bir qədər başqa tipli təcrübə toplamışdır. Mobil rabitə abunəçiləri SMS göndərməklə öz şəxsi kodunu təqdim edərək, ali məktəbə qəbul imtahanlarında toplanmış balların miqdarını öyrənə bilər. Cənubi Qafqaz ölkələri arasında ilk dəfə məhz Azərbaycan informasiya və kommunikasiya texnologiyaları sahəsində Milli Strategiya və Dövlət Proqramı hazırlamış, elektron demokratiya quruculuğunda fəal addımlar atmağa başlamışdır.

2005-ci ilin dekabr ayında Prezident İlham Əliyev "İnformasiya əldə etmək haqqında" Qanunun tətbiq edilməsi barədə Fərman imzalamışdır. Bu Fərman "elektron hökumət"in intensiv formalaşdırılması üçün yeni perspektivlər açmışdır. Bununla da hökumət bir daha təsdiq etmişdir ki, o, dövlət ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin dialoqa və zəruri informasiyanı lazımi vaxtda əldə etmək imkanına əsaslandığını başa düşür.

§. POSTMODERN DEMOKRATİYASI

Tarixi analogiyalar heç də həmişə səmərəli olmur. Tarixi hadisələrin zahiri oxşarlığı təhlükəli ola bilər.

Cəmiyyətin tarixi və iqtisadi inkişaf qanunlarının sarsılmazlığı yalnız onu göstərir ki, tarixin bütün qüvvələrinin təsirinin cəmi qanunauyğun nəticəyə gətirib çıxarır. Lakin bu qüvvələrin heç də hamısı öz tarixi vəzifəsini ardıcıl şəkildə yerinə yetirə bilmir. Bu proses böyük bir böcəyi yuvasına aparan qarışqaların işini xatırladır: qarışqalar həddən artıq vurnuxur, bəziləri böcəyi yuvaya tərəf aparır, digərləri buna mane olur, üçüncülər isə ümumiyyətlə, boş-boşuna vurnuxur. Bununla belə, nəticədə böcək qarışqa yuvasının girəcəyinə get-gedə yaxınlaşır.

Azadlıq nə qədər çox yayılır və möhkəmlənirsə, hökumətlər bəla törətməkdə bir o qədər gücsüzdür, millətlər öz aralarında razılığa gəlməyə və müharibələrə yol verməməyə bir o qədər meyillidirlər.

Antonen Debidur

Tarixdə həmişə elə insanlar olur ki, onlar öz istedadı və sosial statusu sayəsində dövlətin taleyini həll edirlər. Ən yeni dövrün siyasi xadimi dövlətin rifahı, xalqın rifahı anlayışlarını rəhbər tutur və bu rifahı şəxsən özünün nə dərəcədə anlamasına uyğun olaraq hərəkət edir. Orta əsrlərdə hökmdar heç də həmişə xalqın firavanlığından danışmazdı. Firavanlıq barədə söhbətlər sülaləyə, nəsilə, kilsəyə və başqa səviyyələrə aid idi.

Monarxlar güclənir, yeni sülalələr, nəsil ittifaqları yaradır, müharibələri başlayır və qurtarır, öz ərazilərini genişləndirir, torpaqları və kəndliləri satırdılar. Bir sözlə, onlar əsasən, öz

kefi üçün yaşayırdılar. O vaxtdan əsrlər ötmüş, yeni-yeni dövlətlər yaradılmış və məhv olmuş, tarixin gedişi isə insanların şüurunu dəyişmiş, onları inkişaf etdirmiş və nəhayət, hər bir insanın öz iradəsinə uyğun olaraq azadlıqlarından istifadə etmək hüququ vermişdir. Ən yeni dövrdə fərdlərin təfəkkürü təkmilləşmiş, köləlik, dövlətin rifahı ilə sülalənin rifahı arasındakı uyğunsuzluq onlara yabançı olmuş, ərazilərini genişləndirmək və yeni torpaqlar ələ keçirmək kimi monarxlara xas olan stimullar aradan qalxmışdır.

Müasir dünyanın inkişafı şəxsiyyətin hüquq və azadlıqlarının yeni anlamını doğurmuşdur. İndi aşkardır ki, yaxın gələcək üçün sosiumun təkmilləşdirilməsinin ən optimal yolu liberal cəmiyyət və bazar iqtisadiyyatıdır. Demokratiya planetdə dövlətin və cəmiyyətin inkişafının seytnotu vəziyyətinə düşür. Dünya müharibələri nəticəsində dəfələrlə bu işdən yayındırılmış bəşəriyyət dönə-dönə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğuna qayıtmışdır. Açıq və sivilizasiyalı cəmiyyət ideyaları dünya tarixinin gedişini dəyişdirmiş siyasətçilərin fəaliyyətinə həmişə xas olmuşdur. Dünyada inkişaf prosesləri dünyəvi və liberal inkişaf strategiyasının formalaşdırılması yolu ilə irəliləməyə çalışır. Təxminən on il bundan əvvəl Frensis Fukuyama Qərbin və qərb ideyalarının zəfər yürüşü barədə yazır və liberalizmin hər yerdə bərqərar olması və həyat qabiliyyətli alternativlərin yoxluğu bunu sübut edirdisə, indi cəsarətlə konkretləşdirmək və "üçüncü demokratik dalğa"nın zəfər yürüşündən danışmaq olar.

Bəşəriyyətin bütün tarixi boyu dövlət quruculuğunun daha yaxşı formasına doğru "yürüş" əziyyətli, mürəkkəb və eyni zamanda, ziddiyyətli proseslərlə müşahidə olumuşdur. İctimai fikrin bu cür transformasiyaya hazır olmaması, daha sonra mürəkkəb ictimai-siyasi proseslər, müharibələr, im-

periyaların yeni məkanları fəth etmək istəyi demokratiya ideyalarının reallaşdırılmasına imkan vermirdi. Demokratiya istiqamətində müəyyən irəliləyiş yarananda daha sabit qaydaların bərqərar olması yeni geosiyasi transformasiyalara səbəb olmuş neodemokratikləşmənin başlanğıcı olmuşdur. Lakin demokratiyanın uğur və zəfər qazanması təkcə geosiyasətlə bağlı deyildir. Müasir demokratik tranzitlərin əsasını demokratiyanın sosial arxetip, "təkamül zərurəti" kimi təsəvvür olunduğu inkişaf etmiş, postindustrial ölkələrin səviyyəsinə çatmaq istəyi təşkil edir.

Ötən əsrin 70-ci illərinin əvvəllərində bəzi publisistlər və alimlər insan həyatının "elmiləşdirilməsindən", əks-mədəniyyətin – mənəvi-etik və əxlaqi dəyərlər sisteminin, mərkəzində istehlakın səviyyəsinin və iqtisadi səmərəliliyin deyil, insanın dayanmalı olduğu sistemin köməyi ilə texnokratiya buxovlarından və insanı əzən "urban-sənayeçilikdən" imtina etməyə çağırırdılar. Tanınmış Amerika sosioloqu Teodor Rozak yazırdı ki, bu halda "biz həqiqi postindustrial cəmiyyətə keçməyə hazır olacağıq".

Postindustrial cəmiyyət köklü sosial, iqtisadi, texnoloji və mənəvi inqilab deməkdir. Onun özəyini insanın yeni sosial tipinin və ictimai münasibətlərin yeni xarakterinin formalaşdırılması təşkil edir. Bu sosial tipə zəngin fərd, "çoxölçülü insan" kimi tərif vermək olar. Əgər əvvəllər insan ətraf mühitdən asılı idisə və onun həyat yolu, ilk növbədə, hansı sinifə və ya sosial dairəyə mənsub olması ilə və yalnız ikinci növbədə onun şəxsi qabiliyyətləri ilə müəyyən edilirdisə, indi "çoxölçülü insanın" real şəraitdə muzdlu əməklə şəxsi biznes arasında, özünüifadənin müxtəlif üsulları ilə maddi uğurlar arasında seçim etmək imkanı vardır. Sənaye kapitalizmi dövründəkindən fərqli olaraq, yeni cəmiyyətdə şəxsiyyət üzərində ictimai təzyiq hökmranlıq etmir.

Sovet ideoloqları və cəmiyyətşünasları postindustrial nəzəriyyəsini yalançı elmi nəzəriyyə, bəlkə də əsassız nəzəriyyə hesab edirdilər. Onlar bildirirdilər ki, bu nəzəriyyənin elmi əsası yoxdur, tarixi-formasiya bazisindən və sosial-siyasi zəmindən məhrumdur. Bütün bunlara baxmayaraq, məlumdur ki, sovet müəllifləri tərəfindən qərb nəzəriyyələrinin tənqid edilməsi siyasi məqsədlər güdürdü. V.İnozemtsev kinayə ilə yazır ki, bu gün postindustrial cəmiyyət nəzəriyyəsi "qərb sosioloji ənənələrinin tam həcmdə qəbul edə biləcəyi yeganə sosial metanəzəriyyədir".

Qəribə də olsa, postindustrial cəmiyyət nəzəriyyəsi marksizmlə konstruktiv dialoq aparılmasına tərəfdar olan az sayda qərb nəzəriyyələrindən biridir. Bu nəzəriyyənin təkamül yolu ilə inkişaf etməsi müasir sosioloji fikirdə onun haqlı olaraq son dərəcə geniş yayılmasını təmin etmişdir. Postindustrial cəmiyyətin nəzəriyyəsi tarixin dövrlərə bölünməsi, müasir qərb cəmiyyətlərinin strukturunun, xarakterinin və tarixi yerinin müəyyən edilməsi məsələlərini əhatə edir. Bu nəzəriyyə lap əvvəldən cəmiyyətlərin "kommunist" və "sosialist" cəmiyyətlərinə bölünməsini kəskin tənqid edərək göstərirdi ki, bu cür bölgü kifayət qədər əsaslı deyildir. Mahiyyət etibarilə postindustrial cəmiyyət nəzəriyyəsi sosioloji təhlildə bir sıra yeni istiqamətləri özündə birləşdirmək, eləcə də öz əsas metodoloji postulatlarını zaman keçdikcə yaranan meyillərin və proseslərin qiymətləndirilməsinə tətbiq edilməsinə əsaslanan çoxsaylı yeni yanaşmalar yaratmaq qabiliyyətini nümayiş etdirmişdir. Məhz buna görə indi postindustrial cəmiyyəti nəzəriyyəsinin müxalifəti yoxdur, bu isə özlüyündə dünya sosiologiya elmində kifayət qədər nadir faktdır.

Postindustrial cəmiyyət təkcə iqtisadi prioritetlərin dəyişməsi demək deyildir. O, cəmiyyətin sosial həyatının çox geniş spektrini əhatə edir.

Bütün bu aspektlər qlobal transformasiyalar dövründə fərdin azad inkişafını nəzərdə tutan yeni ictimai və sosial prioritetlərin, siyasi və iqtisadi təriflərin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

E.Tofflerin fikrincə, dünya tarixi üç mərhələyə, üç dalğaya bölünür (aqrar, sənaye və postindustrial dalğalar). Dəyişikliklərin birinci dalğası bizim eradan təxminən 8 min il əvvəl, kənd təsərrüfatının inkişaf etməsi ilə əlaqədar yaranmış və təxminən bizim eranın 1650-1750-ci illərinə qədər davam etmişdir. İkinci dalğa sənaye inqilabı ilə bağlıdır. Sənaye sivilizasiyası planetimizdə 1955-ci ilədək, "ağ yaxalıqlı"ların və xidmət sahəsi işçilərinin sayı ilk dəfə olaraq "göy yaxalıqlı" işçilərin sayından artıq olana qədər üstünlük təşkil etmişdir[1]. Nəhayət, indiyə qədər davam edən üçüncü dalğa. Tofflerin fikrincə, yeni yaranmaqda olan sivilizasiya ənənəvi sənaye sivilizasiyası strukturuna ziddir, çünki o, həm yüksək texnoloji, həm də antisənaye sivilizasiyasıdır. Onun fikrincə, yüksək texnologiyalara malik olan dövlətlərin əksəriyyəti üçüncü dalğa ilə ikinci dalğanın köhnəlmiş təsisatları arasında kolliziyaya məruz qalır. Toffler yazır: "Bunun dərk edilməsi öz ətrafımızda müşahidə etdiyimiz çoxsaylı siyasi və sosial münaqişələrə məna verən açardır"[2].

Bəşəriyyətin bütün tarixi boyu iki dalğa arasında münaqişələr fərdin sosial və ictimai prioritetlərinin formalaşmasına təsir göstərmişdir. Birinci dalğa dövründə insanın bütün həyatı yalnız torpaqla bağlı idi, iqtisadiyyat mərkəzsizləşdirilmişdi, ailə həyatı qəbilə və qohumluq telləri ilə tənzimlənirdi.

[1] Э.Тоффлер. Третья волна. М., 1999, стр.40.
[2] Yenə orada.

İkinci dalğa siyasi, iqtisadi və sosial strukturlara əsaslı dəyişikliklər etdi. Bu dövrdə istehsalın və onun miqyasının mövcud anlayışı ailə münasibətləri strukturunu tamamilə aradan qaldırdı, cəmiyyətin üzvünün tərbiyəsinə fabrik obrazı daxil edildi, sosial gerçəkliyin qavranılmasının və mədəniyyətin yeni tipi yarandı.

Eyni zamanda, İkinci dalğa yeni siyasi təsisatların və iqtisadi prioritetlərin formalaşmasını şərtləndirdi. İkinci dalğanın lap əvvəlində başlanan burjua inqilabları bütün dünyanı sarsıtdı və fərdə keyfiyyətcə yeni münasibətin təməlini qoydu. Böyük Fransa inqilabı (1789-cu il) mahiyyət etibarilə vətəndaşın əsas hüquq və azadlıqları anlayışlarını dünya praktikasına daxil etmiş ikinci dalğanın təntənəsinin təcəssümü oldu. Onun ardınca Avropada baş vermiş inqilablar, Napoleon müharibələri, bir sıra başqa münaqişələr və ictimai kataklizmlər İkinci dalğanın təsir dairəsini genişləndirmək cəhdindən daha çox onun həyat qabiliyyəti üçün zəruri olan yeni məkanların fəth edilməsinə yönəlmiş obyektiv təzyiqin nəticəsi idi.

Üçüncü dalğa "dünya iqtisadiyyatının strukturunu dəyişməyə başladı. İqtisadçıları tənqid etməyə başladılar ki, onlar əslində nələr baş verdiyini izah edə bilmirlər. Belə təsəvvür yaranır ki, onların ən mükəmməl alətləri, o cümlədən kompyuterləşdirilmiş modellər və matrislər iqtisadiyyatın əslində necə işləməsi barədə bizə get-gedə daha az məlumat verir. Doğrudan da, iqtisadçıların çoxu bu qənaətə gəlmişdir ki, istər ənənəvi qərb iqtisadiyyatı, istərsə də marksist iqtisadiyyatı sürətlə dəyişməkdə olan gerçəkliyə tətbiq edilə bilməz"[1].

Toffler göstərir ki, parlamentlər və hökumətlər İkinci dalğanın kəşfidir. Üçüncü dalğa yeni qayda – "bizim

[1] Э.Тоффлер. Третья волна. М., 1999, стр.452.

nümayəndələrdən asılı vəziyyətdən özümüz-özümüzü təmsil etməyə keçid"[1] prosesini nəzərdə tutan dolayı demokratiya doğurur. "Elektron demokratiya" tədricən bu meyillərin həyata keçirilməsi üçün zəmin yaradır.

Postsənaye dövlətlərində hökumətlər daha açıqdır və milli problemlərin həllində bütün vətəndaşların iştirak etməsini loyal qəbul edirlər. Toffler nümunə kimi İsveçi göstərir. Bu ölkənin hökuməti milli energetika proqramının işlənib hazırlanması üçün əhalinin köməyinə müraciət etmişdir. Bununla bərabər, hökumət bilirdi ki, ölkə əhalisinin heç də hamısı enerji məsələlərindən yaxşı baş çıxara bilməz. Bununla əlaqədar, vətəndaşlar üçün 10 saatlıq kurslar təşkil olunmuşdu. Hər bir vətəndaş bu kursu bitirəndən sonra həmin proqram barədə öz təkliflərini hökumətə göndərmək imkanına malık idi. Kurslarda 10 min nəfərin təhsil alacağı gözlənildiyi halda, müdavimlərin sayı 80.000-ə yaxın idi. Bu, vətəndaşların milli inkişaf problemlərinə maraq göstərməsini sübut edirdi.

Əgər insanlar və mənəviyyat dəyişmirsə, idarəetməni dəyişməyin xeyri yoxdur.

Buast

Üçüncü dalğanın gücü demokratiyanın əhali tərəfindən başa düşülməsinə yeni çalarlar gətirir; onlar "azlığın bölünmüş hakimiyyətini bəyənirlər"; onlar "daha birbaşa demokratiya ilə eksperiment keçirməyə hazırdırlar; onlar transnasionalizmi və hakimiyyətin fundamental şəkildə verilməsini alqışlayırlar. Onlar nəhəng bürokratiyanı dağıtmağa çağırırlar. Onlar yeniləşmiş və daha az mərkəzləşdirilmiş energetika sistemi yaradılmasını tələb edirlər. Onlar nuklear ailəni seçim predmeti kimi qanuniləşdirmək istəyirlər. Onlar mək-

[1] Э.Тоффлер. Третья волна. М., 1999, стр. 672.

təblərdə standartlaşdırmanın azalması, fərdiləşdirmənin artması uğrunda mübarizə aparırlar. Onlar ekoloji problemləri prioritet hesab edirlər. Onlar dünya iqtisadiyyatının strukturunun daha çox tarazlaşdırılmış və ədalətli əsasda dəyişdirilməsinin zəruri olduğunu etiraf edirlər"[1].

Postmodern dünyasında seçicilərin əksəriyyətini təmsil edən siyasi aktorların yeni konfiqurasiyası formalaşır. Bu halda səs verən vətəndaşların faiz tərkibinin hər yerdə azalması müşahidə olunur. Yeni dövrün siyasi aktorları öz fikrini ifadə etmək azadlığını, hüquqi dövləti və alternativ seçkilərin zəruri olmasını qəbul edirlər. Bununla bərabər, onlar ictimai rəyin və seçkilərdə xalqın iştirakını proqnozlaşdırıla bilməyən təhlükə kimi təsəvvür edir və bildirirlər ki, bu təhlükənin qarşısını institusional məhdudiyyətlərin və qətiyyətli "rəhbərliyin" köməyi ilə almaq lazımdır[2].

Norveç politoloqu Steyn Ringen müasir Norveçdə demokratiyanı uzun illər boyu təhlil edərək bu qənaətə gəlmişdir: "Hökumətin seçicilərin nəzarəti altında olması ilə nəticələnmiş demokratik idarəetmə zənciri qırılmışdır. Xalqın öz iradəsini ifadə etməsinə əsaslanan dövlət gözlərimizin qarşısında məhv olur. Bu zəncirdə nəinki zəif həlqələr tapılmışdır, hətta vaxtilə möhkəm olan bu zəncir özü yox olub gedir".

S.Ringen yazır ki, postmoderndə siyasi iştirakın ənənəvi formalarından kənarlaşma baş verir, adi formalardan fərqli olan iştirak formaları yaranır. Ənənəvi siyasi iştirak – tənəzzül dövrünü yaşayan səsvermə vətəndaşların birbaşa hərəkətləri, petisiyalar, nümayişlər, xüsusən yerli səviyyədə siyasi tədbirlər və açıq diskussiyalar ilə əvəz edilir. Əla-

[1] Э.Тоффлер. Третья волна. М., 1999, стр.689.

[2] П.Г.Лощилов. Демократия постмодерна: истоки ипроявления. Журнал "Власть". www.transpress.ru

mətdar haldır ki, bu yeni formaların iştirakçılarının keyfiyyət tərkibində orta sinfin və gənclərin üstünlük təşkil etməsi müşahidə olunur. Fəhlələr, cavanlar və immiqrantlar, xüsusən qadınlar hər yerdə siyasi partiyalarla qarşılıqlı əlaqələrdən imtina edirlər. 1990-cı ildən bəri Avropada siyasi partiyaların üzvlərinin sayı iki dəfə azalmışdır[1].

Rusiyalı tədqiqatçı A.Neklessa postdemokratiya sosiumundan bəhs edərək yazır: "Postmüasir demokratiya bəsitləşdirilmiş ellik suveren şəxsiyyətin ondan ayrıldığı ellik kimi səciyyələndirilə bilər. Bu baxımdan həmin ellik idarə edilə bilən icmanı, ona xas olan traybalist instinktləri və mənasız ritualları xatırladır"[2].

Baş verən dəyişiklikləri informasiya inqilabı, texnotron inqilab, idarəçilərin inqilabı, knowledge-value revalyution kimi və başqa terminlərlə ifadə etmək olar. Ümumiyyətlə, bu adlar şərti xarakter daşıyır və insan idrakının inkişafında yeni dövrün rəmzidir. Bu dövr elmin və texnologiyaların inkişafında əks olunmaqla yanaşı, insanların davranışına, onların ictimai şüuruna, sosial gerçəkliyi dərk etmələrinə, insanın özünü onun milli mənliyi və dini ilə eyniləşdirməsinə də təsir göstərir. Bu, Qərb cəmiyyətlərində baş verən, öz təcrübəsini yeni müstəqil məkanlara get-gedə sürətlə translyasiya edən real inkişaf prosesidir. Vaxtilə K.Marks və F.Engels tərəfindən kommunizm barəsində deyilmiş sözlərdən istifadə etsək, qeyd edə bilərik ki, postindustrializm müəyyən edilməli olan model deyildir, gerçəkliyin uyğunlaşdırılmalı olduğu ideal deyildir. Postindustrializm, yaxud Üçüncü dalğa dedikdə, müasir vəziyyəti məhv edən real hərəkəti başa düşmək olar. Ona görə də inkişaf

[1] П.Г.Лощилов. Демократия постмодерна: истоки и проявления. Журнал "Власть". www.transpress.ru

[2] А.Неклесса. Глобальный Град: творение и разрушение. www. Intelros.ru

etmiş və yeni müstəqil dövlətlərə transformasiya edən cəmiyyətlərdə baş verən prosesləri nəzərdən keçirərkən, tarixin yeni dövrəsinin başlanmasından danışmağa üstünlük veririk.

§ ANLAMANI TRANSFORMASİYA EDƏRKƏN

Çox da uzaq olmayan və mənim də işlədiyim keçmiş kommunist sistemində onun qüsurları barədə mülahizə söyləməyə icazə verilmirdi. İnsanlar sanki ingilis yazıçısı və jurnalisti, Corc Oruell adı ilə daha çox tanınmış Erik Artur Bleyrin "1984" kitabında təsvir edilmiş sosiumda yaşayırdılar. Bu cəmiyyətdə Böyük Qardaş və onun hər şeyi görən iti gözləri var. Corc Oruellin təsvir etdiyi gələcək sistemdə hər şeyə Ədalət Nazirliyi və Məhəbbət Nazirliyi nəzarət edəcəkdir. Burada ictimai inkişafın əsasını üç partiya şüarı təşkil edir: "Müharibə – sülhdür, azadlıq – köləlikdir, bilməmək – güc deməkdir". Bu, öncəgörməyə baxmayaraq, 1984-cü il tamam başqa hadisələrlə əlamətdar olmuş, ondan sonrakı 1985-ci il isə yer kürəsinin quru ərazisinin 1/6 hissəsinə yenidənqurma xarakterli tektonik dəyişikliklər gətirmişdir. "Sovet mədəniyyəti, sovet elmi və sovet təfəkkür forması" kimi keyfiyyətlərə malik olan vətəndaş obrazı yeni, demokratik təşəbbüslərin təzyiqi altında devalvasiyaya məruz qalmışdır. "Yenidənqurma" və ondan sonra keçmiş İttifaq ölkələrindəki xalq hərəkatları və milli azadlıq hərəkatları totalitar kommunizm quruculuğunun tənəzzülü və dünyanın siyasi xəritəsində 15 suveren dövlətin yaranması ilə nəticələndi.

Sovet İttifaqı dağılanda çoxları bunu aksioma kimi qəbul etmişdi. Çünki sovet cəmiyyətinin siyasi, iqtisadi və sosiomədəni baxımdan təcrid olunması iyirmi il müddətində yetişməkdə olan endogen böhranın xarakterini şərtləndir-

mişdi. Bütövlükdə isə belə böyük imperiyanın parçalanması İkinci və Üçüncü dalğaların, sənaye və postindustrial cəmiyyətlərinin aşkar kolliziyasının, Kondratyev dalğaları arasındakı ziddiyyətlərin təzahürü idi. Bu ziddiyyətləri təhlil etdikdə, postmodernitiyə doğru sürətlə irəliləyən Qərb dünyasından SSRİ-nin nə qədər geri qalması məlum olur. Nəticədə "elə bir məqam yetişdi ki, dünyanı bütöv halda saxlayan hakimiyyətin vahid strukturu dezinteqrasiya etməyə başlayır. Hakimiyyətin strukturu tamam başqa forma kəsb edir. Bunlar bəşər cəmiyyətinin bütün səviyyələrində baş verir. Hakimiyyətin köhnə cizgiləri ofisdə, supermarketdə, bankda, kilsədə, xəstəxanada, məktəbdə və evdə qəribə yeni xətlər şəklində əks olunur. Berlindən başlamış Romaya, Taybeyə qədər bütün universitetlərdə partlayışa hazır olan ehtiraslar coşur. İrqi və etnik zəmində münaqişələr çoxalır. Hakimiyyət korporativ həyatın zirvəsində sadəcə olaraq yerini dəyişmir. İdarəçilər get-gedə daha tez-tez başa düşürlər ki, onların işçiləri indi əmrləri əvvəlki kimi kor-koranə yerinə yetirmirlər. İşçilər suallar verir və bunlara cavab tələb edirlər. Zabitlər də öz qoşunlarında eyni vəziyyəti görürlər. Polis şefləri ilə sıravi polis işçiləri arasında münasibətlər də belədir. Müəllimlərin tələbələrdən bu cür suallar eşitməsi və onlara cavab vermək tələbləri get-gedə artır. Biznesdə və adi həyatda hakimiyyətin və nüfuzun köhnə stilinin bu cür dəyişməsi qlobal hakimiyyət strukturlarının dezinteqrasiyaya uğramasının başlandığı andan çoxalır"[1].

Demokratiya onun seçicilərinin təşkil edildiyi insan materialının səviyyəsindən yuxarı ola bilməz.

Bernard Şou

[1] Э.Тоффлер. Эра смещения власти. http://www.dafaforce.net/metuniv/consor/title.htm

Lakin yeni transformasiyanın subyektləri təkcə siyasi determinantlar və iqtisadiyyat deyil, həm də üstünlük verilən sosiomədəni dəyərlər və kütləvi şüurdur. Aşkardır ki, müasir dünya yeniliyin insanın hüquq və azadlıqlarının insanın varlığının əsasını təşkil etdiyi postmoderniti demokratiyasının anlaşılmasına doğru inamla addımlayır.

"Amerika iqtisadi qlobalizmi" (F.Fukuyama) postmodernin və onda demokratik baxışların yerinin yeni qavrayışını formalaşdırır. Üçüncü sivilizasiya inqilabının doğurduğu postindustrial dünya öz təşəkkülünün yalnız başlanğıc mərhələsindədir. Postindustrial cəmiyyətin aparıcı əlamətləri – inkişaf etmiş demokratiya və sosialyönümlü bazar iqtisadiyyatı ilə seçilən cəmiyyətlər yalnız barmaqla sayılacaq qədər az dövlətdə bərqərar olmuşdur. Hərçənd, postindustrial cəmiyyətini dünyada inkişafın səviyyəsinə təsiri coğrafi mənada qatqat genişdir və qlobal miqyaslıdır. Gercək dünyamızda baş verən pərakəndə və ziddiyyətli hadisələrdə, əsasən, XX əsrin ikinci yarısında təzahür etmiş bir neçə ümumi xarakteristika xüsusilə fərqlənir. Bəşər tarixində ilk dəfə olaraq, həqiqətən vahid sivilizasiya yaranmaqdadır. Elmi-texniki inkişafın nəticəsi olan müasir dünya infrastrukturu və telekommunikasiyalar mahiyyət etibarilə insanın zaman və məkana sahib olmasına imkan vermişdir, onlar bütün qitələrin ölkələrini və xalqlarını fiziki mənada bir-birinə yaxınlaşdırmışdır. İnsan peyk televiziyasının köməyi ilə bir neçə min kilometr məsafədə baş verən hadisələrin gündəlik iştirakçısına çevrilmişdir. Bizim gözümüzün qabağında və bizim iştirakımızla bütün sivilizasiya üçün səciyyəvi olan sistemyaradıcı dəyərlərin və normaların yeni kompleksi meydana çıxır.

II FƏSİL

E PLURİBUS UNUM – VƏHDƏT FORMULU

“Müxtəliflikdə vəhdətdirlər” // Siseronun Vəzifələr haqqında” traktatından latın zərb-məsəli: “...Pifaqor dostluğun mahiyyətini çoxluqdan vəhdət yaranmasında görür“ // Siyasi baxışların, iqtisadi şəraitin və ideoloji görüşlərin müxtəlifliyinə baxmayaraq, millətin vəhdətini əks etdirən deviz. ABŞ-ın gerbində həkk edilmişdir.

> Dövlətdə şəxsiyyətin azadlığı cəmiyyətin bütün üzvləri üçün həmin ictimai strukturda yaradılmış qanunvericilik hakimiyyəti tərəfindən müəyyən edilən daimi həyat qaydalarının mövcud olmasından ibarətdir.
>
> **Con Lokk**
> İkinci traktat, 4-cü fəsil

2006-cı il martın əvvəllərində “Azadlıq” radiosunun proqramlarının birində 15 nəfər aparıcı amerikalı müəllif tərəfindən Vaşinqtonda tərtib edilmiş esselər antologiyası barədə xəbər eşitdim. Essedə müəlliflər bir suala cavab vermişlər: “Amerika yazıçısı olmaq nə deməkdir?” Altmış səhifəlik bu əsər ərəb, fransız, İspaniya və rus dillərinə tərcümə edilmişdi. Görünür, bu fakt ABŞ Dövlət Departamentinin antiamerika əhval-ruhiyyəsinin genişlənməsindən narahat olmasını ifadə edirdi.

Bu əsərin məqsədi tarix məkanında yeni birgəyaşayış formalarını, etnik mədəniyyətin müxtəlifliyini, ən başlıcası

isə, "Amerika arzusu"nu reallaşdırmaq üçün insana imkanlar yaradan Amerikanın, "tərəqqi edən çətinliklər" diyarının cəlbedici obrazını bütün dünyaya göstərməkdən ibarət idi. Kitabın müəllifləri Amerika ədəbiyyatının ulduzları – Pulitser mükafatı laureatı Riçard Ford və iki laureat şair – Robert Pinski və Bill Kolensdir. Digər tərəfdən, bu layihə SSRİ-nin mövcud olduğu və iki düşərgə arasında qarşıdurmanın get-gedə gücləndiyi "soyuq müharibə" dövrünü xatırladırdı. O vaxtlar Heminquey, Folkner, Steynbek, Selincer və başqaları öz kitabları ilə sovet təbliğatını sözün hərfi mənasında tərksilah edirdi. 1980-ci illərdə amerikalı nasirlər Doktorou, Apdayk, Olbi və Vonnequt bütün Şərqi Avropanı gəzib dolaşaraq, sovet blokuna daxiıl olan ölkələri əl altından taleyüklü dəyişikliklərə hazırlayırdılar. İndi isə buna oxşar taktikanın təşkilatçıları ümid edirlər ki, həmin taktika islam dünyasına ən yaxşı söz ustalarının istedadının açıb göstərdiyi Amerikanı tanımağa kömək edə bilər.

Aydındır ki, indi Qərb ilə islam dünyası arasındakı hüdudlar keçmişdəki iki ideologiyanın qarşıdurmasına oxşayır. Yəqin ki, müsəlman yazıçıları, İran və ola bilsin ki, Fələstin şairləri də buna oxşar kitablar və esselər nəşr etdirsəydilər, terrorizmin islama yabançı olmasını göstərsəydilər, işin xeyrinə olardı. Belə nəşrlərə Avropada da ehtiyac vardır. Orada saysız-hesabsız müsəlmanlar haqlı olaraq tələb edirlər ki, Məhəmməd Peyğəmbərin təhqir olunmasına yol verilməməlidir. İnsanların bir-birini qarşılıqlı tanıması üçün yol açan esse və kitablar müasir dövrün həll edilməmiş problemlərinin çoxuna tamam başqa nəzərlə baxmağa imkan verərdi. Bu cür esselər, kitablar, filmlər, ola bilsin, fotosərgilər və vernisajlar bizim dövrün sosiomədəni qarşılıqlı əlaqəyə imkan yaradan, qlobal transformasiyaların reallıqlarını şüuraltı səviyyədə

dərk etməyə, daha təhlükəsiz və sabit dünya nizamı yaradılmasında görməyə kömək edən rəmzi kapitaldır.

Müasir dövrün demokratik dəyərlərinin təşəkkülü cəmiyyətləri sivilizasiyalı inkişafla eyniləşdirən yeni rəmzlərin meydana gəlməsi üçün zəmin yaratmışdır. Əsrlər boyu sivilizasiyalı inkişafın mənası elmi diskussiyalar üçün müxtəlif, bəzən ikili, bəzən də tamamilə paralel mənalar daşımışdır. Sivilizasiyalara zaman kəsiyi, bu və ya digər cəmiyyətlərin tarixi vəziyyəti kontekstində baxılır, onların əlamətləri, məsələn, urbanizasiya ilə, əhalinin sürətlə artması ilə, təhsil sisteminin və elmi biliklərin inkişaf dərəcəsi ilə, əmək məhsuldarlığı ilə əlaqələndirilir, "insanların ən yüksək mədəni birliyi və mədəni identifikasiyanın ən geniş səviyyəsi"[1] kimi başa düşülürdü.

Sivilizasiyalar mədəni irsin elə bir təbəqəsinin təməlini qoymuşdur ki, o təbəqə müasir cəmiyyətləri antik və orta əsrlər dövrünə aid təfəkkür antologiyasına doğru aparır. Təxminən 1500 il bundan əvvəl yaranmış ilk sivilizasiyaların rüşeymləri müasir dövrdə çoxşəkilli və geniş dünya mədəniyyətinə çevrilmişdir.

L.İ.Semennikova öz əsərində[2] dünya tarixini məhz sivilizasiya mövqeyindən araşdırır. O, sivilizasiyaların hər biri tarixi inkişafın özünəməxsus bir tipi ilə səciyyələnən üç növünü fərqləndirir. Alimin fikrincə, tarixi inkişafın birinci tipinə Avstraliya aborigenləri, Amerika hinduları, Afrikanın bir sıra qəbilələri, Sibirin və Avropanın şimalının kiçik xalqları aiddir. Bu xalqlar qeyri-mütərəqqi mövcudluq forması ilə, yəni inkişafın olmaması ilə fərqlənir.

[1] С.Хантингтон. Столкновение цивилизации. М., 2003, стр. 51.

[2] Л.И.Семеникова. Феномен Востока. Россия в мировом сообществе цивилизаций. Брянск, 1995.

Sivilizasiyanın ikinci tipi Şərq ölkələridir. Bu ölkələr bir növ spiral boyunca, dövri şəkildə inkişaf edir. Dövrələr bir-birindən cüzi fərqləndiyinə görə, ictimai həyatın bütün sahələrində dəyişikliklər olduqca ləng gedir: insanların bir neçə nəsli praktik olaraq eyni sosial şəraitdə yaşayır. Sivilizasiyanın üçüncü – mütərəqqi inkişaf tipi antik (Qədim Yunanıstan və Qədim Roma) və müasir Avropa sivilizasiyası ilə təmsil olunmuşdu. ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və bir sıra başqa ölkələr də inkişafın bu tipinə aiddir. Sivilizasiyanın bu tipi həmin ərazilərə Avropadan böyük mühacir kütlələri tərəfindən gətirilmişdi.

Görkəmli şərqşünaslardan biri olan İ.M.Dyakonov[1] ümumdünya tarixi prosesinin vəhdətliyinin tərəfdarıdır. Onun fikrincə, bütün bəşəriyyət öz inkişafında bir-birini əvəz edən mərhələlərdən keçir. Özü də alim həm Şərq, həm də Qərb cəmiyyətləri üçün eyni mərhələlərin mövcud olmasını aşkar edir. İnkişafa meyil etməyən xalqlar barəsində İ.M.Dyakonovun fikri belədir ki, onlar ətraf mühitin xüsusiyyətlərinin təsiri üzündən, sadəcə olaraq, qəbilə mərhələsində ləngiyirlər, lakin sinfi cəmiyyətlər dövrü, ümumiyyətlə, insanın mövcud olduğu dövrün cəmi 1-2 faizini təşkil etdiyindən, bu geriləmə cüzidir. Müəllif qədim dünya üçün ictimai inkişafın iki mərhələsini fərqləndirir (Dyakonov həmin mərhələləri fazalar adlandırır): erkən qədim dövr (əsasən, mis və tunc dövrü) üçün səciyyəvi cəhət bir neçə xırda dövlət qurumunun (şəhər və onun ətrafı) onlardan ən güclüsünün rəhbərliyi altında birləşməsindən ibarət olan nisbətən iri, lakin möhkəm olmayan dövlətlərin mövcud olmasıdır. Məsələn, Şumer və Akkad dövlətləri, Xett çarlığı (xettlər dəmirdən istifadəni bilirdilər, lakin polad barədə

[1] И.М.Дьяконов. Пути истории. М., 1994.

məlumatları yox idi). Silahların həddən artıq bəsit olması qul əməyindən geniş istifadəyə imkan vermirdi: əlində bel tutan kişi təhlükəli ola bilərdi. Buna görə də qullar, əsasən, qadınlardan və uşaqlardan ibarət idi. Yaşlı kişilərin vəziyyəti isə azad icma üzvlərinin və ya dövlət sektorunda işləyənlərin həyat tərzindən az fərqlənirdi. Başqa sözlə desək, kölәlik patriarxal xarakter daşıyırdı: kölələr evdə ailə üzvləri ilə bərabər, dövlət sektorunda isə istehsal vasitələri üzərində mülkiyyətdən məhrum edilmiş yerli işçilərlə eyni səviyyədə çalışırdılar (hökmdarların və məbədlərin təsərrüfatlarında çalışan qadınlar və yeniyetmələr istisna təşkil edirdi, onlar həqiqətən kölə kimi istismar olunurdu). Möhkəm dövlətlər yalnız təsərrüfat ehtiyacları bunu tələb etdiyi yerlərdə, – məsələn, qədim Misirdə, – yaranırdı. İkinci mərhələ qədim imperiyalar dövrünə aiddir. Bu mərhələyə keçid poladın yaranması nəticəsində baş vermiş, genişmiqyaslı müharibələr aparmağa, imperiyaların meydana gəlməsinə, eləcə də qulların "klassik" mənada istismarına imkan yaranmışdır. Dyakonov bu tipli dövlətlər sırasına Yeni Assuriyanı, Yeni Babilistan, İran dövlətlərini və bəzi başqalarını aid edir. Lakin kölələrin sayının əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, onlar yalnız Roma imperiyasında klassik istismara məruz qalırdı.

Müasir dövrdə mövcud elmi araşdırmalara istinad etməklə, sivilizasiyalı yanaşmanın əhatə dairəsini ümumi tarixi metodologiyaya qədər genişləndirmək cəhdləri müşahidə olunur. Sivilizasiyanın daxili fəaliyyət mexanizminə malik olan sosiomədəni makro və super sistem kimi anlayışı get-gedə daha geniş yayılmaqdadır. Bu halda sivilizasiyaya cəmiyyət kateqoriyası və onun funksional tərkib hissələri vasitəsilə tərif verilir. Məsələyə bu mövqedən yanaşma panslavizmin

ideoloqu N.Y.Danilevski üçün səciyyəvidir. O, sivilizasiyanı xarakterizə edərək yazırdı: "Əsas məsələ mədəni-tarixi tipləri, necə deyərlər, müstəqil, özünəməxsus dini, sosial, məişət, sənaye, siyasət, elmi və bədii inkişaf planlarını, bir sözlə, tarixi inkişafı fərqləndirməkdən ibarət olmalıdır".

Müasir elmdə məşhur ingilis sosioloqu və tarixçisi A.Toynbinin əsərləri daha çox maraq doğurur. O, sivilizasiyanı bütöv ictimai sistem kimi təsəvvür edirdi: "Sivilizasiyalar – hissələri bir-biri ilə uzlaşan və qarşılıqlı asılı olan tamlardır... İnkişaf mərhələsində olan sivilizasiyanın sosial həyatının bütün aspektləri vahid sosial tam şəklində əlaqələndirilmiş, burada iqtisadi, siyasi və mədəni elementlər daxili harmoniyaya uyğunlaşmışdır".

Rusiyalı ictimaiyyatşünasların indiki əsərlərində ənənələr və bugünkü prioritetlər nəzərə alınmaqla ifadə edilən sintezləşdirilmiş, mürəkkəbləşdirilmiş təriflərə rast gəlmək olar. Məsələn, A.Malaşenko yazır: "Bizim təfsirimizdə sivilizasiya eyni konfessiyaya mənsub olan insanlar arasında, eləcə də fərd ilə dövlət arasında dini və ya ideoloji doktrina ilə müqəddəsləşdirilmiş münasibətlərin məcmusu olub fərdi və ictimai davranışın fundamental normativlərinin tarixi zaman kəsiyində sabitliyini və davamlılığını təmin edir".

Sivilizasiya nə isə hərəkətsiz bir şey deyildir. O, inkişaf edir, bir neçə mərhələdən keçir – yaranır, tərəqqi edir, dağılır və məhv olur. Məsələn, tarixçi K.Kuiqli yeddi mərhələni fərqləndirir: qarışıq, yetişmə, ekspansiya, münaqişə dövrü, ümumi imperiya, tənəzzül və işğal olunma. Bu halda inkişaf çoxvariantlı, plüralist xarakter daşıyır. Tarix boyu bənzərsiz siması və parlaq xüsusiyyətləri ilə fərqlənən çoxsaylı sivilizasiyalar olmuşdur və indi də vardır. Onların bir qismi

dağılmış və ya dağıdılmış, digərləri əvvəlki irsi mənimsəyərək, onun qalıqları üzərində yaranmışdır. Bəs, sivilizasiyanın varlığının müddəti nə qədərdir? Bu barədə qəti bir fikir yoxdur, ehtimallar irəli sürülmüşdür. Məsələn, A.Toynbi və O.Şpenqler bildirirdilər ki, sivilizasiyanın yaranmasından tənəzzülünə qədər inkişaf dövrü təqribən 1 min ilə bərabərdir. L.Qumilyov bu barədə başqa fikirdədir: 1,5 min il. 1848-ci ildə belçikalı Ketle xalis riyazi metodlardan istifadə edərək bu qənaətə gəlmişdir ki, qədim imperiyaların timsalında sivilizasiyanın orta ömrü 1461 ilə bərabərdir. Sonradan o, öz fikrini dəqiqləşdirərək bildirmişdir ki, onun hesablamalarında xəta ±185 il təşkil edir. Aydındır ki, sivilizasiyaların varlığının qanunauyğunluqları barədə biliklərin indiki səviyyəsi elədir ki, konkret sivilizasiyaların mövcudluq müddəti barədə danışmaq daha nəzakətli olar, çünki onların yaranması, tərəqqisi və məhvi olduqca cox, təxmini hesablanması çətin olan amillərlə şərtlənmişdir.

Bəs sivilizasiyanın mahiyyətini və onun özünəməxsusluğunu müəyyənləşdirən amillər nədən ibarətdir? Adətən, sivilizasiyaları müəyyənləşdirən aşağıdakı aspektləri daha çox fərqləndirirlər: coğrafi (və ya təbii) mühit; təsərrüfat sistemi; sosial təşkilat, din (mənəvi dəyərlər); siyasi sistem. Son vaxtlar bu siyahıda ilk yerlərdən birini mentalitet aspekti tutur. Bu anlayış psixologiya, sosiologiya və fəlsəfə kimi müxtəlif ictimai elmlərdə istifadə edilir.

Avropada bir əsrdən çoxdur ki, xalqın mentaliteti barədə söhbət gedir. Mentalitet problemi əvvəlcə Fransa elmi mühitində ifadə edilmiş və uzun müddət, əsasən, Fransada tədqiq edilmişdir. Mentalitet fenomeninin ilk tədqiqatçıları Ş.Blondel, A.Vallon, L.Levi-Brül olmuşdur. Tarixdə bu anlayışı ilk dəfə "Annallar" məktəbinə mənsub olan fransız

alimləri tətbiq etmişlər. Onlar özlərinin fikrincə, tarixi inkişafın nüvəsini təşkil edən fundamental davamlı şüur strukturlarının axtarışına istiqamətlənmişdilər.

Fənlərarası anlayış və sosial fəlsəfə, kulturologiya, tarix, sosiologiya, politologiya, filologiya, psixologiya və başqa elmlərin fundamental kateqoriyalarından biri olan mentalitetin hamılıqla qəbul edilmiş və dəqiq tərifi o vaxt da yox idi, indi də yoxdur. Bu sözə heç də bütün lüğətlərdə rast gəlmək olmaz.

Məsələn, psixologiya lüğətlərində "mentalitet" məfhumu, adətən, əsas anlayışlar sırasına daxil edilmir. Müasir psixoloji araşdırmalarda bu anlayışın məlum tərifləri təkcə şüurun bu və ya digər cəhətlərini – təfəkkürü, yaddaşı, qavramanı, təsəvvürü, məqsədləri, emosiyaları, iradəni, əhval-ruhiyyəni ifadə edən psixoloji kateqoriyalara deyil, həm də daha geniş kateqoriyalara əsaslanır. Məsələn: "Mentalitet – xalqın milli xarakterinin qədimdən gələn, çoxəsrlik invariantları, dəyərləri, arxetipik təsəvvürləri, həyat ideallarıdır"[1].

O.K.Krokinskayanın[2] fikrincə, mentalitet bizi əhatə edən bütün aləmə baxışlarımız, zehni vərdişlərin və əhval-ruhiyyənin məcmusudur, onun köməyi ilə biz öz sosial həyatımızı, sosial mədəniyyətimizin zehni məhsulunu, şüurun vərdişlərini, məhdudlaşdırıcı əqidələrimizi reallaşdırırıq.

Sistemin özünütəsviri üçün ən incə materiya olan mentalitet o dərəcədə aşkardır və autotentik praktikada o qədər qay-

[1] Н.М.Ракитянский. Семнадцать мгновений демократии. М., Стольный град, 2001, стр.173.

[2] О.К.Крокинская. Сберегая структуру: о социальной миссии менталитета; Современные проблемы Российской ментальности, СПб, Астерион, 2005, стр.52.

nayıb-qarışmışdır ki, o, refleksiyaya heç bir tələbat doğurmur. Kütlənin öz şüurunun və davranışının adətlərinə dərk olunmuş münasibətinin zirvəsi adiliyin ağlabatmaz olmasını hiss etməyə imkan verən kəskin yumordur.

Rus alimi V.Y.Semyonov mentalitet problemlərini çox maraqlı şəkildə tədqiq edir. Onun anlamında mentalitet bu və ya digər sosial qrupun (birliyin) nümayəndələrinə xas olan, tarixən qərarlaşmış uzunmüddətli əhval-ruhiyyə, dərk edilmiş və edilməmiş dəyərlərin, normaların, məqsədlərin koqnitiv (idraki), emosional və davranış təcəssümüdür.

Fəlsəfə lüğətlərində mentalitet anlayışına çox ümumiləşdirilmiş şəkildə insanın, yaxud insanlar qrupunun təfəkkür tərzi, mənəvi ovqat kimi tərif verirlər. "Kulturologiya" lüğətində mentalitetə "fərdə və ya qrupa xas olan təfəkkür, dünyanı qavrama tərzi, mənəvi ovqat" kimi tərif verilir. Qərbin intellektual həyatında "mentalitet" anlayışı XX əsrdə maarifçiliyə xas olan şüurla zəkanın eyniləşdirilməsinə düzəliş kimi bərqərar olmuşdur. Rusiyanın fəlsəfə, kulturologiya və publisistikasında bu anlayışdan adətən xalqın, mədəniyyətin milli xüsusiyyətlərini xarakterizə etmək üçün istifadə olunur.

Bir sözlə, "mentalitet" anlayışının hamılıqla qəbul edilmiş vahid tərifi yoxdur. Fransada nəşr edilmiş fəlsəfə lüğətində deyilir: "Mentalitet fərdin zehni məqsədlərinin, təfəkkür vərdişlərinin, fundamental inamlarının məcmusudur".

İnternet axtarış sistemlərində mentalitetə "insanların fərdi və ictimai şüurunun xüsusiyyətləri, onların həyat mövqeləri, mədəniyyətləri, sosial mühitlə, milli ənənələrlə şərtlənən davranış modelləri və insanın sosiallaşmasının spesifik cəhətlərinə, onun avtonomluğuna və inkişafının özgünlüyünə, ictimai həyatın

subyekti kimi suverenliyinə dəlalət edən, sosial mühitlə, milli ənənələrlə şərtlənən davranış modeli" kimi tərif verilir.

Sovet tarix elmində mentallıq anlayışını ifadə etməyə ilk dəfə A.Y.Qureviç cəhd göstərmişdir. Rusiyada "Annallar" məktəbinin ənənələrinin qızğın təbliğatçısı yazırdı: "Mentalitet bu və ya digər birliyə mənsub olan insanlarda onların dünyanı və özlərini özünəməxsus bir tərzdə qavramasına və dərk etməsinə imkan verən müəyyən zehni vasitələrin, psixoloji təchizatın mövcud olması deməkdir". Göründüyü kimi, fransız müəllifin təklif etdiyi tərifdə fərdiliyə istinad edilir. A.Y.Qureviçin təklif etdiyi tərifdə isə ictimai şüurdan söhbət gedir.

Mentalitet kateqoriyası ilk baxışda çox efemer təsir bağışlasa da, o, cəmiyyətin, qrupların, fərdlərin sosial davranışını formalaşdırır. A.Y.Qureviç yazırdı: "Xaotik, qarmaqarışıq axın şüur tərəfindən qavranıldıqda dünyanın az və ya çox dərəcədə tənzimlənmiş mənzərəsi yaranır və bu dünyagörüşü insanın bütün davranışında silinməz izlər qoyur". Daha geniş tarixi kontekstdə mentalitet anlayışı ictimai şüurun xüsusiyyətlərinə adekvatdır. Sivilizasiyanın mahiyyətini anlamaq üçün həmin sivilizasiyaya mənsub olan insanların gerçəkliyi qavrama üsullarını, yəni onların mentalitetini yenidən konstruksiya etmək lazımdır.

Beləliklə, sivilizasiya oxşar mentalitetə, ümumi əsas mənəvi dəyərlərə və ideallara, sosial-siyasi təşkilatda, iqtisadiyyatda və mədəniyyətdə sabit məxsusi cizgilərə malik olan insanlar birliyidir. Sivilizasiyalı yanaşmada tarixi prosesin mərkəzində öz mentalitetinin xüsusiyyətləri, cəmiyyətlə mürəkkəb qarşılıqlı əlaqələri ilə fərqlənən insan özü-özünü inkişaf etdirən sistem kimi nəzərdən keçirilir. Ömrünü başa

vurmuş sivilizasiyaların yox olması və yeni sivilizasiyaların yaranması təkcə məhsuldar qüvvələrin inkişafı ilə deyil, həm də xeyli dərəcədə mentalitetdə, əsas dəyərlər və ideallar sistemində baş verən dəyişikliklərlə əlaqədardır.

Dünya tarixində sivilizasiyaların sayı barədə müxtəlif alimlərin fikirləri müxtəlifdir. Onlar, əsasən, səkkizdən iyirmi üçə qədər sivilizasiya mövcud olduğunu iddia edirlər. Şpenqler əsas mədəniyyətlərin sayının səkkiz, Maknil doqquz, Toynbi iyirmi üç, Kuiqli on altı, Hantinqton səkkiz olduğunu bildirir. Bu sivilizasiyaların hər biri təkcə vahid mədəni üstünlükləri, ümumi dil və mədəniyyət seqmentləri ilə birləşən mentalitetlərin toplusu və müxtəlif cəmiyyətlərin məcmusu deyildir. Eyni bir sivilizasiyanın daxilində insanlar müxtəlif dillərdə danışa və çox ehtimal ki, müxtəlif dinlərə mənsub ola bilər, lakin onlar başqa amillərlə – bu təmasları vəhdətin şüuraltı dərkinə transformasiya edən amillərlə birləşəcəklər. Üstəlik, sivilizasiyalı yanaşma müxtəlif sivilizasiyaların nümayəndələri ilə ünsiyyətlər zamanı daha güclü hiss olunur. Lerik rayonunun sakini Azərbaycanda talış milli azlığının nümayəndəsi kimi qəbul edilir, regional səviyyədə həmin sakin – azərbaycanlı, kontinental səviyyədə asiyalı hesab edilir, qlobal aspektdə isə müsəlman kimi qəbul olunur. Üçüncü minillikdə mədəniyyətin rolu tamam başqa məna kəsb edir və münaqişə subyektinə transformasiya olunur. Başqa sözlə, Vatslav Havelin təbirincə desək, "mədəni münaqişələr get-gedə güclənməkdədir və bu gün onlar tarixin hər hansı başqa dövründə olduğundan daha təhlükəlidir".

Məkan xarakteristikalarından asılı olaraq, sivilizasiyalı yanaşmanın mahiyyəti müxtəlif qavrayış çalarları kəsb edir. Müsəlman ölkəsinin sakinləri ölkə daxilində özlərini çox vaxt etiqad bəslədikləri din ilə assosiasiya etmirlər, çünki

başqa sivilizasiyalarla təmas olmadığından, bu məqamın daim eyniləşdirilməsinə ehtiyac yoxdur. Eyni zamanda, həmin fərd başqa məkana düşdükdə, mədəni eyniləşdirmənin "daxili təzyiqini" hiss edir, öz mənliyini mənsub olduğu din, ana dili (hətta dil qrupu) və sivilizasiya seqmenti ilə eyniləşdirir. Qətər sakini Avropaya düşdükdə, o, ilk növbədə, öz mədəni eyniyyətini dil və din vasitəsilə, eləcə də özünün üstünlük verdiyi sosiomədəni dəyərləri başqa məkana transformasiya etməklə qoruyub saxlamağa çalışan ərəb və müsəlmandır. Alman Səudiyyə Ərəbistanına gəldikdə, onu avropalı kimi qəbul edirlər. Yəni, qlobal kontekstdə bu insanların heç biri ayrı-ayrı millətlərin nümayəndələri kimi nəzərdən keçirilmir. Onların eyniləşdirmə rəmzi bu insanların mənsub olduqları, onların dili, dini, yaşayış yeri və ictimai tərəqqi səviyyəsi ilə müəyyən edilən sivilizasiyadır. Buna müvafiq olaraq, sivilizasiyaların daim hərəkətdə olması, bəzi aspektlərin aradan qaldırılması və başqa sivilizasiyaların seqmentlərinin onlarda assimilyasiya etməsi bəşəriyyətin qlobal inteqrasiya istiqamətində real hərəkətini əks etdirir.

Dünya daim yeni texnologiyalarla zənginləşir, sosiomədəni məkan dəyişir, sivilizasiyaların köklərinin sintezi və onların konvergensiyası baş verir. Çinlilərin rəhbər tutduqları Ti-Yong devizinə görə, "Çin müdrikliyi fundamental prinsiplər üçün, Qərb müdrikliyi isə praktik istifadə üçündür". Yaponların Walkon-Yosei devizi isə belədir: "Yapon ruhu – qərb texnologiyaları". Şeb Xalid fransız dilində mahnılar oxuyur və öz ifasına ərəb motivləri əlavə edir, Sami Yusuf isə müsəlman naşidlərini avropalı dinləyicilərə ingilis dilində çatdırır. Avropada ərəb mətbəxi və türk dönəri, Çin çubuqları və yapon suşkası, Asiyada və ərəb ölkələrində italyan pitsası və McDonalds yeni qastronomik xüsusiyyətlər formalaşdırır,

Barbi gəlinciyi isə, sivilizasiyanın hansı mərhələsində olmasından asılı olmayaraq, məktəbli qızların onların nəzərində gözəllik idealına çevrilir.

"Yerin transmilliləşməsi" (Maarten Hayer) mədəniyyətlər, insanlar və onların yaşayış yerləri arasında yeni əlaqələr yaratmaqla sosial gerçəkliyi dəyişdirir, "özü ilə birlikdə bizim supermarketlərə o vaxta qədər, bəlkə də, bizə məlum olmayan məhsullar (məsələn daryan, çabbat və ya pide), şəhərlərimizə isə işarələr və rəmzlər gətirir (məsələn, Çin və yapon dilində yazılar, yaxud müsəlman musiqisi); şəhərlərdə peyda olan çoxsaylı yeni insan qrupları, məsələn, afrikalılar, bosniyalılar, xorvatlar, polyaklar və ruslar, habelə yaponlar və amerikalılar vətəndaşların çoxunun nəzərində bu gün meqapolisin zahiri görkəmini müəyyən edirlər. Bundan əlavə, böyük şəhərlərdə transmilliləşmənin yeni İkinci modern mədəniyyətinə necə təsir göstərməsini müşahidə etmək olar Bu, məsələn "disko" stilində müsəlman musiqisi, "cuisune sauvage" ("vəhşilərin mətbəxi") adlanan "qarışıq" xörəklərdə, bütün dünyanın musiqi mədəniyyətlərinin nümayəndələrinin iştirak etdiyi yeni konsertlər formasında, habelə Avro-asiya, afro-Avropa və ya karib-Afrika uşaqlarının doğulmasında təzahür edir"[1].

Mədəni identikləşdirmə seqmentləri arasında bu cür qarşılıqlı mübadilələrə baxmayaraq, sivilizasiyaların sosial konfiqurasiyası dəyişmir. Bu proseslər fonunda yaranan polilokallıq (U.Bek) və ya "yaşayış yeri baxımından transmilli poliqamiya" sivilizasiyaların dialoqunda mühüm rol oynayır. Əlcəzairin xurma paytaxtı, yaxud "Böyük Səhranın darvazası" adlandırılan Biskrada doğulmuş 30 yaşlı əlcəzairli daha

[1] M.Hajer.Die Gestaltung der Urbanitat, in:U.Beck (Hg), Perspektiven der Weltgesellschaft, a.a.O//Что такое глобализация. У.Бек.М.,2001, стр.137.

yaxşı həyat şəraiti axtara-axtara Fransaya gəlib çıxır. Belə bir sual doğur: onu mənsub olduğu sivilizasiya, bu sivilizasiyanın dayaqları qane etmir, yoxsa bu şəxs yalnız maddi nemətlər axtarmaqda maraqlıdır? Təbii ki, o, Paris həyatından daha çox ləzzət alır, burada onun firavanlığı intensiv əmək hesabına təmin edilir. Lakin bununla yanaşı, əlcəzairli milli "mən"liyini itirmir, öz mədəni identikliyini qoruyub saxlayır. Eynilə səudiyyəli Londonda da cümə namazlarına getməkdə davam edir və çox vaxt ənənəvi milli geyimdən imtina etmir. Buna oxşar şəkildə Azərbaycanda yaşayan pravoslav həmin konfessiyaya xas olan dini mərasimlərin həyata keçirilməsindən uzaqlaşmır. Fərdlərin qavrayışının şüuraltı səviyyəsində kök salmış sivilizasiyalı yanaşma başqa bir əyani nümunədə də özünü göstərir. Roma katolik kilsəsinin başçısı, Papa II İoann Pavelin bəzi müsəlman ölkələrinə səfərinə istər pravoslavlar, istərsə də protestantlar biganə qalmamışdılar. O, Azərbaycanda olarkən ümumi dua mərasimlərində və görüşlərdə xristian dininin bütün cərəyanlarının nümayəndələri iştirak edirdi. Bu, Qərb sivilizasiyasına xas olan daxili mütəhərrikliyin ifadəsidir.

Qlokalizasiya (Ulrix Bekə məxsus olan bu ifadə qloballaşmanın lokal kontekstini ifadə edir) tərəflərin dialoqunda yeni maneələrlə şərtlənən yeni sivilizasiya zəmini yaratmışdı. Əvvəllər inteqrasiya yolunda ən mühüm mədəni əngələ çevrilmiş dil maneəsi indi, demək olar ki, heç yerdə yoxdur. HƏMAS nümayəndələri hamı üçün anlaşıqlı olan ingilis dilində İsraili ittiham edir, İranın xarici işlər naziri isə İran İslam Respublikasının öz ərazisində uranı saflaşdırmaq cəhdləri barədə Avropa İttifaqında tərcüməçisiz danışıqlar aparır. Beynəlmiləl ünsiyyət üçün universal dil yaranmışdır. Belə bir vasitə rolu oynayan ingilis dili 190-dan çox dövlətin

nümayəndələrinə ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq imkanı verir. Gündəlik məişət məsələlərinə gəldikdə isə, Çexiyadan və ya Polşadan olan turistlər Skandinaviya ölkələrində ingilis dilində danışa bilərlər və onları başa düşmək asan olacaqdır, çünki polilokallıq bilavasitə qlobal sivilizasiya aspekti ilə əlaqədar olan özəl həyat sahəsini əhatə etmişdir. Eyni zamanda, dil sivilizasiyanın özəlliyinin nadir əsasını qoruyub saxlamaqla, kənar sivilizasiyaların təsirindən bir növ amortizasiyaedici vasitəyə, avtarkiya sisteminə çevrilmişdir. Ərəb dünyasında fəaliyyət göstərən "Əl-Cəzirə" və "Əl-Ərəbiyyə" telekanalları, eləcə də verilişləri bütün müsəlman ölkələrinə qəbul edən dövlətin dilində translyasiya edən, hədsiz baha başa gələn peyk buraxılması layihəsinin reallaşdırılması üçün sifariş təkcə özgə mövqe tutmağın nümayiş etdirilməsi deyil, həm də sivilizasiyada məxsusiləşmə, informasiya-kommunikasiya texnologiyaları vasitəsilə mədəni identikliyi qoruyub saxlamaq cəhdi deməkdir.

Tarix baxımından üçüncü minillik Yer kürəsini bəzən təbii şəkildə, bəzən də məcburi qaydada əhatə edən simvollar, identiklik əlamətləri dövrüdür. Xalqlar bu əlamətlərdə elə xüsusiyyətlər aşkar etməyə başlayırlar ki, qlobal dünyada həmin əlamətlər yeni qüvvə və ətalət kəsb edir. Ona görə də ümumdünya tarixi proseslərinə sivilizasiyalı yanaşmanın öyrənilməsində aşağıdakı məqamlar nəzərə alınmalıdır:

- "soyuq müharibə"nin başa çatması "dünyanın axırı" və liberal modelin qələbəsi barədə yanlış nəzəriyyələr yaranmasına səbəb olmuşdur. Yeni konsepsiya az bir vaxtda inkişafın neoliberal modelinin ziddiyyətlərinin axtarışına transformasiya etmişdir. Bu axtarışın mahiyyəti müsəlman və xristian dünyası arasında qarşıdurmadan ibarətdir;

- yeni sivilizasiya paradiqmasında dünya Şərq və Qərb kimi iki strukturdan ibarət deyil, Qərbin və islamın mənafelərinin toqquşmasının yekunu kimi nəzərdən keçirilir;
- mövcud dünya nizamının çoxsivilizasiya komponenti Qərb başlanğıcının üstünlük təşkil etdiyi beynəlxalq münasibətlərin monosentrik sxeminin yaradılması cəhdi ilə məhdudlaşır;
- qlobal inteqrasiyanın yeni mərhələsi regionallaşmada, yəni ayrı-ayrı regionların və onların əsas dövlətlərinin güclənməsində (S.Hantinqton), eləcə də qeyri-qərb cəmiyyətlərinin sürətlə qərbləşməsində təzahür edir;
- qərbləşmə modeli cəmiyyətin siyasi, iqtisadi və sosial inkişaf səmtlərinin dəyişdirilməsini təklif edir, bu dəyişikliyə məhəl qoyulmadıqda, mövcud ictimai-siyasi paradiqmanın "inqilabi yolla" dəyişməsi labüddür.
- dünya xəritəsinin qlobal miqyasda yenidən çəkilməsi müsəlman Şərqi və dünya iqtisadiyyatına sürətlə inteqrasiya etməkdə olan Cənub-Şərqi Asiya da daxil olmaqla, Qərb dəyərlərinə və Qərb ideallarına meyil edən dövlətlər qövsü yaradılmasını nəzərdə tutur;
- üçüncü dünya ölkələrində və yeni demokratik dövlətlərdə həyata keçirilən "məxməri" inqilablar yeni qərbləşmə siyasətinin alətidir.

Bütün bu çağırışlar Əfqanıstanda və İraqda hərbi müdaxilələrin, İran və Suriya ətrafında gərginliyin geniş miqyas almasının, Rusiya ətrafında mürəkkəb münasibətlərin, qeyri-qərb ölkələrinin kütləvi qırğın sılahına malik olmaq cəhdlərinin, Çinin regional böyük dövlət kimi güclənməsinin

və s. aktual olaraq qaldığı müasir beynəlxalq münasibətlərin təməl daşıdır. Lakin hər bir konkret halda qlobal transformasiyaların arxasında Qərb dayanır, hərçənd S.Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məşhur əsərində çox tez-tez rast gələn Qərb anlayışı altında bütövlükdə Avratlantik məkanının nəzərdə tutulması bir qədər ziddiyyətlidir.

Monosentrik dünya *Pax Americana*-nın məhsuludur. Avropa bu "konsert"də iştirak etmir. Köhnə Dünya ilə Yeni Dünya arasında ziddiyyətlər və antaqonizm vahid Qərb məkanı barədə danışmağa imkan vermir, çünki əksər geostrateji istiqamətlər üzrə Avropa ilə ABŞ-ın maraqları bir-birindən ayrılır. Bu, çox vaxt geoiqtisadi prioritetlərə də aid olur.

İki dünya müharibəsi Köhnə Dünyanın münaqişələrə və onların həlli yollarına münasibətini dəyişmişdir. Əsrlər boyu knyazlıqlara, xırda dövlətlərə və iri imperiyalara bölünmüş, uzunsürən qanlı və amansız müharibələrin ağırlığını öz ərazisində hiss etmiş Avropa müasir beynəlxalq münasibətlərdə dinc danışıqlar proseslərinin tərəfdarı rolunda çıxış edir. Təbii ki, bunun səbəbləri təkcə tarixi keçmişin ibrət dərsləri ilə deyil, həm də Avropanın inkişafının iqtisadi və sosial aspektləri ilə bağlıdır. Köhnə Dünya qeyri-qərb cəmiyyətlərinin ucuz işçi qüvvəsindən, təbii ehtiyatlarından, yeni investisiya imkanlarından və iqtisadi layihələrindən əhəmiyyətli dərəcədə istifadə edir. S.Hantinqtonun vahid sistem kimi nəzərdən keçirdiyi Qərb sivilizasiyası, əslində, Avropaya və *Pax Americana*-ya bölünmüş Qərbin iki aləmi, bir ideologiyanı və dünya miqyaslı məsələlərə iki yanaşmanı təmsil edir. Qərbin yeni paradiqması aşağıdakı versus-sistemdə (yəni ziddiyyətlər sistemində) təsəvvür olunur:

- ABŞ və Avropa total antaqonistlər deyil, lakin onların vahid Qərb sivilizasiyasına münasibəti dünya nizamının

real mahiyyətini əks etdirmir. Ayrıca götürülmüş bir oyunçu kimi ABŞ-ın təsirinin get-gedə artması nəzərə alınmaqla, Şimali Amerikaya etnoqrafik baxımdan yanaşmaq olar ki, bu da hər bir xalqın öz sivilizasiyasının ola biləcəyini (T.Juffrua) iddia etməyə imkan verər. Sivilizasiyalar onların tərifində yuxarıda qeyd etdiyimiz üçüncü mövqe – lokal-tarixi yanaşma baxımından keyfiyyətcə müxtəlif nadir etnik və ya tarixi ictimai qurumlar kimi nəzərdən keçirildikdə, bu, Qərb sivilizasiyasının dualizmi barədə nəticə çıxarmağa imkan verir.

- Müasir bəşəriyyətin lokal və qolabal problemlərinə münasibətdə ABŞ və Avropa iki müxtəlif mövqedən çıxış edir. Onlardan biri super dövlətin iradəsini, ikincisi isə müttəfiqlik münasibətləri ilə bağlı olan dövlətlər konqlomeratının mövqeyini əks etdirir. Realpolitik nəzəriyyəsinin "atası" H.Kissincerin aşağıdakı sözləri buna əyani sübutdur: "1956-cı ildə Süveyş böhranı dövründə Eyzenhauer hökuməti özünün britaniyalı və fransalı müttəfiqlərindən uzaqlaşaraq, onların məğlub olmasına fəal kömək edirdi; 60-cı illərdə Berlin böhranı dövründə Kennedi hökumətinin hərəkətləri Almaniya və Fransa tərəfindən ehtiyatlılıqla qarşılanmışdı; 70-ci illərdə Nikson hökumətinin yeni transatlantik münasibətlər formalaşdırmaq cəhdi xüsusən Fransa tərəfindən ciddi müqavimətlə üzləşmişdi; 80-ci illərdə Avropada Amerika nüvə raketlərinin yerləşdirilməsi isə bütün qitədə etiraz nümayişlərinə səbəb olmuşdu"[1].

- Amerika yarım əsrdən artıq bir müddətdə valyuta bazarında əsas inhisarçı idi. Onunla rəqabət aparmaq faydasız

[1] Г.Киссинджер. Нужна ли Америке внешняя политика. М, 2002, стр.19.

idi. Buna görə də dolların vahid Avropa valyutası şəklində real alternativi yaranan kimi, bir çox ölkə ona meyil etdi. Çin dərhal öz ehtiyatlarını avroya çevirdiyini elan etdi, Səddam Hüseyn neft satışından mədaxili dollar şəklində almaqdan imtina etməsi barədə nümayişkaranə bəyanat verdi. Bundan sonra ən iri korporasiyalar və mərkəzi banklar avro ilə maraqlanmağa başladı. Hazırda iqtisadi baxımdan Amerika dolları ilə Avropa valyutası arasında real qarşıdurma mövcuddur. Təbii ki, Avropa Konstitusiyasının qəbul edilməsinin baş tutmaması və Avropada iqtisadi konyunkturun zəifliyi bu mübarizənin daha sərt formaya keçməsinə imkan vermədi, lakin fakt faktlığında qalır: dollar ilə avronun münasibətlərində ABŞ üçün xoşagəlməz meyillər yarana bilər. Avro şəklində depozitlərin artması avronun etibarlı dünya valyutası olması barədə fikirləri gücləndirir. Mütəxəssislər belə düşünməyə meyil edirlər ki, Amerika valyutası ABŞ-da və Aİ ölkələrində faiz dərəcələri arasında kəskin fərq olmasından zərər çəkmişdir. Avropalı və amerikalı məmurların bir sıra mühüm danışıqlarından və bəyanatlarından sonra maliyyə oyunçuları başa düşdülər ki, okeanın hər iki tayında heç kəs faiz dərəcələrini dəyişməyə hazırlaşmır, deməli, dolların ucuzlaşması davam edə bilər. Moskvadakı Qloballaşma Problemləri İnsitutunun direktoru Mixail Delyaginin fikrincə, "avro zonasının zəiflədilməsi" Amerika siyasətinin əsas istiqamətlərindən birinə və hətta "Birləşmiş Ştatların dünyanın geosiyasi lideri kimi salamat qalması üçün strateji əhəmiyyətli şərtə" çevriləcəkdir[1]. Dünya bazarında avro zonasının nisbi payı Birləşmiş Ştatların nisbi payından

[1] La Vanguardia 24.01.2002. У евро болшой потенциал в российской экономике. http://www.inosmi.ru/full/140011.html

çoxdur, lakin ABŞ üçün əsas təhlükə mənbəyi Avropanın Yaxın Şərqlə möhkəm ticarət münasibətləridir.

Mən Rusiya qəzetlərinin birində Amerika dollarının perspektivləri barədə bədbin də olsa, çox maraqlı bir yazıya rast gəlmişdim: "Fəlakətin çox ehtimal edilən ssenarisi aşağıdakı kimi ola bilər. Hər tərəfdən Ştatlara yağan dollar kütləsinin hədsiz dərəcədə artması Amerika valyutasının kəskin şəkildə qiymətdən düşməsinə gətirib çıxaracaqdır. ABŞ iqtisadiyyatının qara günləri başlanacaqdır. "Yaşıl pul" zəifləyən kimi Amerikanın əvvəlki möhtəşəmliyindən əsər-əlamət belə qalmayacaqdır. Amerikalılar üçün istehlak cənnəti yerli istehsalçıların hərtərəfli dəstəklənməsinə çevriləcəkdir... Əvvəllər arxayınlıqla ixrac edilən məhsulların çox hissəsi ölkədə qalacaqdır. Buna görə də öz dollarlarını bir təhər həzm edən Amerika bu dəfə əmtəə bolluğundan boğulacaqdır. Artıq istehsal böhranı yaranacaq və yerli istehsalçılar dilənçi vəziyyətinə düşəcəklər. Bu da etirazlara, işsizliyə və sair xoşagəlməz hallara səbəb olacaqdır"[1]. Bəzi təhlilçilərin fikrincə, "perspektivdə üç valyuta və emissiya zonası – Asiya zonası (yuan valyutası), avro zonası və dollar zonası yaranacaqdır. Bütövlükdə isə, dollar dünyada vahid dəyər ölçüsü kimi öz əhəmiyyətini itirəcəkdir. Latın Amerikasında daha bir valyuta zonasının yaranması da istisna edilmir. İslam aləmində belə bir zona yəqin ki, yaranmayacaq, çünki islam dünyasının ən iri iqtisadiyyatlarının mövcud olduğu Malayziya və İndoneziya Asiya zonasına daxil olacaqlar"[2].

- Qərbi iki düşərgəyə bölən problemlərdən biri də Avropa İttifaqının (Aİ) genişlənməsidir. Tamamilə aşkardır ki,

[1] http://www./mk.ru/numbers/321/article 10732.htm

[2] http://www.km.ru/maqazin/view.asp?id=BA5DCAC61CFA47A192FE7073 79 EB23EC

bu qarşıdurma ideoloji xarakter daşımır və xeyli dərəcədə Avropanın coğrafi determinizm qanununa görə, ona xas olan beynəlxalq siyasətdə müstəqil yer tutmaq cəhdi ilə şərtlənmişdir. Vahid siyasi, iqtisadi və mədəni (Aİ-nin Konstitusiyası qəbul ediləcəyi təqdirdə) determinantlarla birləşən dövlətlər konqlomeratı vasitəsilə Avropa İttifaqı ABŞ ilə bərabər tərəfdaşlıq münasibətləri hüququ əldə edir. Prezident Kennedi hələ 1963-cü ildə bu münasibətlərdən bəhs edərək demişdir: "Bizi yalnız sıx birləşmiş Avropa müdafiə etməyə qadirdir".

Oğul C.Buşun prezidentliyinin birinci müddətində unilateralizm (birqütblü dünya) siyasəti İkinci Dünya müharibəsindən sonra ABŞ ilə Avropa dövlətləri arasında münasibətlərdə ən ciddi problemin yaranmasına gətirib çıxarmışdır. Təbii ki, Avropa bir sıra mühüm beynəlxalq məsələlərin öhdəsindən təkcə gəlmək iqtidarında deyildir, bu məsələlərdə ona Vaşinqtonun dəstəyi lazımdır. Daha vacibi isə odur ki, transatlantik alyans Avropanın təhlükəsizliyinin əsasıdır və ABŞ ilə ittifaqı qoruyub saxlamaq Avropa üçün həyati zərurətdir. Lakin bütün bunlara baxmayaraq, hazırda hətta ABŞ Avropa dövlətlərinin təhlükəsizliyinin təminatçısı sayılsa da, Avropanın birləşməsi Amerikaya meydan oxumaq hesab edilir.

Yeni, genişlənmiş Avropa bütün qitədə hərbi bazaları olan ABŞ-ın mənafelərinə cavab verməyən iddialı geostrateji layihədir. Roman Prodi də Avropa İttifaqının genişlənməsinin siyasi motivlərindən bəhs edərək deyirdi ki, ABŞ-ın və sürətlə inkişaf etməkdə olan Çinin qarşısında davam gətirməyin və dünyada öz nüfuzunu artırmağın yeganə üsulu güclü bir qitə olan Avropa yaratmaqdır. Qərb şirkətlərinin iqtisadi maraqlarını unutmadan, hər halda, Avropa qitəsinin hərbi-siyasi əhəmiyyətini də nəzərdən qaçırmaq olmaz.

Aİ üzvləri istəyirdi ki, MŞA (Mərkəzi və Şərqi Avropa) ölkələri birləşdikdən sonra iqtisadi səmərə əldə etmək məqsədindən daha çox bu prosesdə siyasi mənfəət naminə Avropa İttifaqına daxil olmaq üçün zəruri meyarlara uyğun olmağa çalışsın. Buna görə də birləşmənin qiymətini ağlabatan həddə minimuma endirmək arzusu tamamilə əsaslıdır. Hazırda Mərkəzi və Şərqi Avropanın postsosialist ölkələrinin əksəriyyətinin Qərb tərəfindən "mədəniləşdirilməsi və sivilizasiyalaşdırılması" vəzifəsi ümumən yerinə yetirilmişdir. Bu regionun ölkələri vəd ediləni almış, onlar Avropa İttifaqının tam hüquqlu üzvlərinə çevrilmişdir.

- XXI əsr texnologiyaları və insanın maddi-əşyavi həyatını dəyişməklə yanaşı, həm də bəşəriyyətin müasir inkişafının mədəni paradiqmasını müəyyən dərəcədə transformasiya etmişdir. Bununla bərabər, mədəniyyət yalnız milli olmaqdan çıxıb və beynəlmiləl fenomenə çevrilmiş, sərhədləri aşıb yeni kommunikasiya kanalları vasitəsilə asanlıqla yayılaraq, kosmopolit çalarlar kəsb etmişdir.

Qərbin "mədəni ekspansiyası"nın təməli Qərbin mədəni nümunələrinə meyil edən ölkələrin, korporasiyaların, bütövlükdə *Pax Oeconomicana*-nı təmsil edən peşəkar və digər birliklərin yaradılması məqsədi ilə maliyyə-iqtisadi və texnoloji innovasiya təzyiqindən ibarət idi.

Lakin sosiomədəni qavrayışda mövcud fərqlər ABŞ ilə Avropa arasında hədləri gizli şəkildə genişləndirir. Qərbdə yeni dünya nizamının mərkəzinə çevrilmək hüququ uğrunda daxili rəqabətdən irəli gələn franqmentləşmə qlobal maliyyə kataklizmlərinə və siyasi kataklizmlərə səbəb olur. Avropa liberal və sekulyar, ABŞ isə mühafizəkardır, lakin orada

Allaha inam hətta siyasətdə də öz əksini tapır. Böyük Britaniyadakı Uorvik universitetinin politologiya kafedrasının professoru Rocer Daklaud-Vilyams (Roger Duclaud-Williams) yazır: "Amerikalıların həyatında dinin fundamentallığı amili çox güclüdür".

Daha sonra o, əlavə edir ki, superbol matçında Canet Ceksonun təsadüfən çılpaq qalmış sinəsi ilə bağlı hay-küy onu çox heyrətləndirmişdir. Bir növ xristian puritanizmi sayılan bu hadisə bizim yüksək təhsil görmüş hakim sinifdə böyük rəğbət doğurmur[1].

Avropalılara xatırlatmışlar ki, onlar amerikalılardan özlərinin düşündüyündən qat-qat çox fərqlənirlər: "Homoseksualistlərin toylarına, ölüm cəzasına və digər sosial problemlərə münasibətdəki fərqlər liberal Avropa ilə mühafizəkar Amerika arasında dərin uçurumun olmasını göstərir"[2].

Son onilliklərdə ABŞ-da doğumun səviyyəsi artmaqda, Avropada isə durmadan azalmaqdadır. ABŞ-da doğulmuş hər bir qadının orta hesabla iki uşağı, Avropada doğulmuş qadının isə 1,4 uşağı var, halbuki, əhalinin təkrar istehsalı üçün bu göstərici ən azı 2,1-ə bərabər olmalıdır. Avropanın əhalisi sürətlə qocalmaqdadır, burada pensiyaçıların sayı işləyənlərin sayından bir neçə dəfə sürətlə artır. Avropanın demoqrafik perspektivi fəlakətli vəziyyətdədir: proqnozlara görə, 2050-ci ildə amerikalıların orta yaşı 35-ə, avropalıların orta yaşı isə 52-yə bərabər olacaqdır.

Etnik, dini və mədəni fərqlər dərin səviyyədə və gündəlik məişətdə ABŞ ilə müqayisədə Avropada daha kəskin şəkildə təzahür edir, müxtəlif sosial qruplar arasında rəqabət salamat qalmaq uğrunda mübarizə xarakteri alır.

[1] http://www.inosmi.ru/text/translation/208569.html
[2] Yenə orada.

Artıq indinin özündə milli işçi qüvvəsinin qıtlığı və əmək qabiliyyəti olmayan əhalinin (pensiyaçıların) nisbi sayının kəskin şəkildə artması ilə əlaqədar avropalılar milyonlarla immiqrant üçün sərhədləri açmağa məcburdurlar. Əksəriyyəti müsəlmanlar olan bu immiqrantların mədəniyyəti və həyat tərzi Qərb sivilizasiyasının dəyərlərindən əsaslı şəkildə fərqlənir.

İlk baxışda buna oxşar problemlər ABŞ-da da vardır. Təkcə son 20 ildə ABŞ-da 20 milyon immiqrant sığınacaq tapmışdır. Lakin Amerika milli mədəniyyətlərin absorbsiyası və inteqrasiyası mexanizmini işləyib hazırlamış, plüralizmə və şaxələndirməyə adət etmişdir. Yabançı, vərdiş edilməmiş adət-ənənələr amerikalıları qorxutmur, avropalıların çoxunun nəzərində dünyanın axırının yetişməsi əlamətləri sayılan hallarda amerikalılar bir üstünlük görürlər. Düzdür, "əritmə qazanı" ideyasının özünü doğrultmaması ABŞ-da da aşkar görünür, lakin əksəriyyət belə hesab edir ki, immiqrasiya immiqrantların ölkəsinin xeyrinədir.

Frensis Fukuyama yazır: "Postsənaye ölkələrinin ümumi trayektoriyası multimədəniyyət cəmiyyətinin yaradılması istiqamətində inkişaf edir. Lakin öz tarixi dəyərlərinə sadiq qalan inkişaf etmiş ölkələrin əhalisi belə bir cəmiyyətin yaradılması ideyasını çətinliklə qəbul edir. Bununla belə, avropalıların tənqid obyektinə çevrilməkdə olan ABŞ-ın mədəni müxtəlifliyi tezliklə postsənaye inkişaf dövrünü yaşayan bütün ölkələrdə özünü göstərəcəkdir. Əlli il bundan əvvəl Ağ evin sahibləri açıq-aşkar bildirirdilər ki, Amerika "xristian" ölkəsidir. Bu gün isə hətta öz şəxsi baxışlarını tez-tez dilə gətirən Prezident Buş da belə bir ifadəni açıq söyləməyə cəsarət etməzdi"[1].

[1] Paris-Washington: une trajectorie commune. "Le Figaro" (Fransa) 4 dekabr 2003-cü il.

- Demokratiya tarixinin müxtəlifliyi. Bir müəllif yazır ki, demokratiya barədə həm Amerikanın, həm də Avropanın idealları Maarifçilik dövründə, lakin onun müxtəlif mərhələlərində formalaşmışdır. Kontinental Avropa demokratiyası Fransa inqilabı dövründə yaranmış və inqilablarla, əks-inqilablarla dolu olan sonrakı yüzillikdə inkişaf etmişdir. 1789-cu ildə demokratiya Russonun şəfqət haqqında ideyalarından və insanın təbiətən yaxşılıq etməyə meyilli olmasına inamdan qidalanırdı. Bu ideyalar dövlətin ədalətlə və düzgün idarə edilməsinin açarını humanist və xeyirxah şəxsiyyətlər olan yüksək dərəcədə savadlı ekspertlərdə axtarmağı təklif edirdilər... Təzadlıdır, ABŞ Konstitusiyası 1787-ci ildə, XIV Lüdovik Baş Ştatları çağırandan cəmi iki il əvvəl tərtib edilmədiyinə baxmayaraq, Amerika sənədi daha əvvəlki təsəvvürlərə səmtlənmişdi, o vaxtlar insan təbiətinin xeyirxahlığı nəinki aksioma sayılmır, hətta ümumiyyətlə ciddi qəbul edilmirdi. Amerikanın baniləri yeni respublikanın idarə olunmasını bilərəkdən insanlardan təcrid etməyə çalışırdılar ki, bu idarəetmə (Aleksandr Hamiltonun tez-tez sitat gətirilən təbirincə desək) "müstəqil işləyən maşına" çevrilsin. Nəticədə amerikalılar xeyirxahlığı bu günə qədər də yüksək qiymətləndirir, lakin onun dəyərlərinin dövlət hakimiyyətinin etibarlı əsası olmasına şübhə ilə yanaşırlar.[1]

Başqa bir müəllif yazır: "İraqın təcrübəsi bir daha inandırıcı şəkildə göstərdi ki, demokratiyanın unitar, fərdiyyətçiliyə və vətəndaş "yekcinsliyi" prinsiplərinə səmtlənən Amerika modeli etnik, dini, sosial-iqtisadi və mədəni rəngarəngliyin

[1] Ли А.Кейси. Есть ли у США и Европы общие ценности? www.neweuropereview.com

yüksək dərəcəyə çatdığı cəmiyyətlər üçün yaramır. Ona görə də labüd olaraq, belə bir sual doğur: demokratikləşmənin vəzifələrinə demokratiyanın hansı modeli daha çox uyğundur – Amerika modeli, yoxsa Avropa modeli?"[1].

"Universal sivilizasiya"nın (S.Hantinqtion) formalaşması fonunda müasir qloballaşma demokratikləşmə problemini və heç də sadə olmayan tarixi şəraitdə yaranmış Amerika və ya Avropa modelinin ona təsiri problemini son dərəcə aktuallaşdırır. Beynəlxalq məsələlər barədə Köhnə və Yeni Dünyanın mövqeləri get-gedə daha çox hallarda "barrikada"ların müxtəlif tərəflərində olur. ABŞ Dövlət Departamentinin Mətbuat şöbəsinin sabiq müdiri Ceyms Rubin öz xatirələrində yazır ki, Britaniya nümayəndələri onların hüquqşünaslarının Belqrada qarşı güc tətbiq edilməsinə etiraz etdiklərini bildirəndə, xanım Olbrayt onlara belə cavab vermişdi: "Özünüzə başqa hüquqşünaslar tapın".

Qloballaşma demokratik məkanların formalaşmasının yeni aspektlərini bütün çılpaqlığı ilə açıb göstərmiş, eləcə də siyasi, iqtisadi və sosial-mədəni məkanı QƏRBDƏ (!) qəbul edilmiş vahid normalar, təsisatlar və ənənələr məcrasına transformasiya edən "universal sivilizasiya" yaratmaq ideyasını ön plana çəkmişdir. Yeni dünya nizamında "humanitar müdaxilələr", sülhyaratma aksiyaları, "xoş niyyətli dünya hökmranlığı", "şər oxu" və qeyri-qərb cəmiyyətlərində demokratik rejimlərin möhkəmləndirilməsi və sıx birləşdirilməsi məqsədi daşıyan "məxməri" inqilablar barədə danışmaq daha aktualdır. Lakin dünya nizamının bu konsepsiyasında "məqsədlər deyil, onlara

[1] Роланд Бенедиктер. Американская и европейская демократия: модель для Ирака? Internationale Politik und Geselschaft / www. politjournal.ru

nail olmaq üçün seçilmiş vasitələrin həddən artıq militarist olması şübhə doğurur"[1].

"Üçüncü demokratik dalğa" təkcə ümumdünya inteqrasiyasının yeni mərhələsinin başlanması ilə əlamətdar olmayıb, həm də dünyanın yenidən qurulması barədə qlobal layihənin bir hissəsi kimi çıxış etmişdir. Unilateralizm obrazında demokratik transformasiyalar səmərəli siyasi və maliyyə imkanları qazanmışdır. Beləliklə, üçüncü minilliyin yeni sivilizasiya paradiqması gələcək transformasiyaların əsas istiqamətini üzə çıxarmışdır. Bu, vahid sivilizasiya seqmentləri ilə əhatələnmiş demokratik dövlətlər qövsünün formalaşmasında təzahür edir.

Bu tipin yaranmasında iri dövlətlərin yeri və rolu tamam başqa məna kəsb edir. Məlum 11 sentyabr həmlələrindən sonra ABŞ yeni paradiqmaların yaradılması məsələsində özünün əsas müttəfiqlərini aşkar etdi. Təhlilçilərin çoxunun fikrincə, 2002-ci il yanvarın 29-da Prezident C.Buş ölkədə vəziyyət barədə ABŞ Konqresinə illik müraciətində faktik olaraq, dünya siyasətində yeni bir dövrün başlanmasını bəyan etmişdir. Onun nitqinə əsasən birbaşa bu qənaətə gəlmək olar ki, indən belə sülh və tərəqqi barədə qlobal qayğı göstərilməsində Amerikanın əsas tərəfdaşları Çin, Rusiya və Hindistandır. Avropadan başlamış Asiyaya qədər bütün başqa tərəfdaşlar və müttəfiqlər də əməkdaşlığa dəvət edilir. Məşhur tarixçi Cozef Nay deyir: "Bu gün Amerika yeganə fövqəldövlətdir, ona görə də beynəlxalq münaqişələrin həllində heç kəsin köməyinə bel bağlamadan müstəqil fəaliyyət göstərmək meyli çox şirnikdiricidir"[2].

[1] Ф.Фукуяма. Неоконсерватизм в его нынешнем виде я принять не могу. The Cuardian (Великобритания), 26 февраля 2006.

[2] Джозеф Най. Бремя империи; www.svoboda.org

§ "İNKİŞAF FORMULU"

On ildən çox bundan əvvəl Frensis Fukuyama "tarixin sonu"nun yetişməsini elan etmişdi. Onun fikrincə bu, kommunist ideologiyasının kollapsı və fəaliyyət qabiliyyəti olmayan sovet siyasi və iqtisadi maşınının ucdantutma dağılması ilə əlaqədar idi. Həmin dövrdə çoxları elə hesab edirdi ki, liberalizm qalib gəlmişdir və mövcud dünya nizamında onun real alternativi gözlənilmir. Lakin bəzən imkanlar arzu edilən perspektivlərlə üst-üstə düşmür və təcrübə sübut etdi ki, vahid monosentrik ideologiya dünyası qurulması ehtimalı xəyaldan başqa bir şey deyildir. Bəşəriyyət özünün yarandığı gündən dünyaya baxışlarında homogen olmamışdır. Məlumdur ki, Bibliyada təsvir edilən bircə alma nəinki insanla Allah arasında, həm də Adəm ilə Həvva arasında münasibətlərə nifaq salmışdır.

Ötən əsrin sonu – yeni yüzilliyin əvvəllərində dünya nizamının paradoksu təkcə kommunist ideologiyasının süqutu nəticəsində yaranmış boşluğu dolduran neoliberal xəttin alternativlərinin yaranmasından ibarət deyil, həm də ondadır ki, bu alternativlər müasir şəraitdə təkcə onların dislokasiya olunduğu regionlarda deyil, bu regionların hüdudlarından kənarda da mövcud nizamı dəyişdirmək iddiasındadır. Bu fikri açıqlamağa çalışacağam.

SSRİ dağılandan sonra yaranmış ideoloji boşluq postsovet məkanında yeni – milli-etnik, dini və başqa ideologiyaların yaranması ilə nəticələndi. Cəmiyyətlərdə şovinizm meyilləri güclənməyə başladı, milli azlıqların nümayəndələrindən təmizlənmək barədə çağırışlar səsləndi, sesessiyaya, dini idarəetmə formalarına keçid cəhdləri üzə çıxdı. Kilsələrin və

məscidlərin sayı birdən-birə artmağa başladı, keçmiş sovet respublikalarının təhsil müəssisələrində rus dili və ədəbiyyatı fənlərinin tədrisi ləğv edildi, süqut etmiş avtarkiyanın dilində danışmaq indi nəinki dəbdə deyildi, həm də öz milli "Mən"indən uzaqlaşmanın təcəssümünə çevrilmişdi. Rusiyanın özündə isə millətçi qruplaşmalar, o cümlədən qırxıqbaşlar və dünya siyasətində Rusiyanın yeri və rolu məsələsinə Avrasiya mövqeyindən yanaşmanın tərəfdarları peyda oldu. Ümumiyyətlə, sosial gerçəkliyin mədəni qavrayışının yeni seqmentləri intensiv təşəkkül tapırdı, müxtəlif xalqların nümayəndələri özlərini bu seqmentlərlə identikləşdirirdi. Bununla yanaşı, gənc nəslin şüuruna sürətlə hakim kəsilməkdə olan din də başqa məna kəsb etmişdir. Gənclərin get-gedə daha çox hissəsi öz soy-kökünə nəzər salmağa, müxtəlif ideologiyalarda, dini cərəyanlarda və hətta siyasi qruplaşmalarda milli identikliyə nail olmağa çalışırdı.

Qeyri-qərb cəmiyyətlərinin, o cümlədən keçmiş sovet avtarkiyasının nümayəndələri mədəni baxımdan daha tez-tez özlərini milli mədəniyyət və dinlə eyniləşdirməyə başlamış, bu isə son nəticədə əvvəlki münasibətlərin pozulmasına gətirib çıxarmışdı. Siyasi baxımdan, tərəflərin hər biri təkcə suveren dövlət mövqeyindən çıxış etməklə kifayətlənməyib, həm də etnik, dini və dil əlamətlərinə görə yaxın olan dövlətlərlə sıx əlaqə saxlamağa çalışırdı. Müəyyən sivilizasiya yaxınlığını təcəssüm etdirən yeni geostrateji ittifaqlar və forpostlar yaranmışdı ki, bu da yuxarıda deyildiyi kimi, dinin, dilin və etnik komponentin oxşarlığında ifadə olunurdu.

Lakin yeni ab-havanın gətirdiyi və həm siyasətdə, həm də iqtisadiyyatda əks olunan boşluq effekti və sosiomədəni amillər təkcə postsovet məkanında hibridləşmə doğurmaqla bitmirdi. Şərqi, elə Mərkəzi Avropa da böhran içində idi. Bu böhran avropalıların milli identikliyinin müəyyən edilməsi ilə əlaqədar

çətinliklərdə özünü göstərirdi. Şərqi Almaniyadan olan alman indi artıq özünü təkcə coğrafi baxımdan avropalı hesab etmirdi.

Hərçənd sosial gerçəkliyin qavranması və təfəkkür stereotipləri həmin almandan ötrü hələ də müəyyən mənada tormoz rolu oynayır, onun tam sosial assimilyasiyasına mane olurdu. Çexlər və slovaklar birdən-birə başa düşdülər ki, onlar da müstəqil dövlətçiliyə iddia edə bilərlər. Yuqoslaviya vətəndaşları isə gördülər ki, onları bir-birindən ayıran amillər Miloşeviçin diktaturasından və ya keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının etnik tərkibinin müxtəlifliyindən daha güclüdür. Yeni identikləşdirmə kodları transformasiyaya məruz qalmış şüurlarda get-gedə daha parlaq və daha aydın görünməyə başlamışdı.

Qoca Avropa isə müstəmləkə borclarını ödəməli olmuşdu, Afrikadakı keçmiş Fransa müstəmləkələrindən və Ərəb Şərqindən Avropaya immiqrantlar axını başlamışdı. Hələ kök salmamış siyasi ənənələr və götür-qoy edilmədən aparılan iqtisadi islahatlar bu gün də on minlərlə gənci Köhnə Dünyada iş yeri, təmin olunmuş həyat şəraiti və sosial rifah axtarmağa sövq edir. Onların çoxu nə vaxtsa Avropa İttifaqının tamdəyərli vətəndaşları olmağa ümid bəsləyir.

Lakin fransız alimi Jil Kepelin etiraf etdiyi kimi, "istər hər iki dünya müharibəsi dövründə əyinlərinə fransız mundirləri geyinmiş Şimali Afrika müsəlmanlarının axıtdığı qan, istərsə də 1945-ci ildən sonra çox acınacaqlı şəraitdə yaşayan və qəpik-quruş müqabilində Fransanı (və Avropanı) bərpa edən miqrant fəhlələrin alın təri onları ... tamdəyərli vətəndaşların övladlarına çevirmədi"[1].

[1] Журнал "Россия в глобальной политике" // Разгневанные мусульмане Европы. Роберт Лейкен. Том 3. № 6, ноябрь-декабрь 2005, стр.93.

Avropanın demoqrafiyası, tarixi, ideologiyası və siyasəti ona gətirib çıxarmışdır ki, indi bu qitə çox vaxt həyatdan narazı olan müsəlmanların indiki nəsillərinin axını üçün bir məkana çevrilir. Onlar nominal şəkildə Avropa vətəndaşları olsalar da, nə onun mədəniyyətinə, nə də sosial mühitinə uyğunlaşa bilməmişlər.

Bununla bərabər, artıq qeyd etdiyimiz kimi, Avropa qocalmaqdadır. Artıq 200 ildir ki, orada doğum göstəricisi tədricən və dönmədən azalmaqdadır, son 20 ildə isə bu region öz əhalisinin təkrar istehsalını dayandırmış, fəal "demoqrafik geriçəkilmə" mərhələsinə keçmişdir. Avropada gənc miqrantlar nəslinin təsirinin artması, bir tərəfdən, onun demoqrafik problemini həll edirsə, digər tərəfdən, buraya ucuz işçi qüvvəsi əlavə edir. Axı avropalılar özləri get-gedə az işləyirlər. Çox güman ki, bunun səbəbi 1970-ci ildən bəri durmadan artmaqda olan gəlir vergisi ilə bağlıdır. Heç şübhəsiz, gəlir vergisi insanların işləmək arzusuna təsir göstərməlidir. Ancaq "əmək haqqından vergilər ödəniləndən sonra qalan hissə uşaqlara qulluq edilməsi və ev təsərrüfatına kömək xidmətlərinin haqqını ödəməyə birtəhər çatırsa",[1] həddən çox işləmək nəyə gərəkdir? Belə olan halda, ucuz işçi qüvvəsi sosial rifaha can atan Avropada çox faydalı və zəruridir. Ərəb və türk qastarbayterləri Avropa ölkələrinin iqtisadi inkişafının mühüm amilinə çevrilmişlər.

Müsəlmanların Avropada rolu və yeri məsələsinə yenidən nəzər salan İslam üləmaları və ilahiyyatçılar müsəlmanlara müraciətlə onları vətəndaşları olduqları ölkənin ictimai, siyasi və sosial həyatında daha fəal iştirak etməyə çağırsalar da, indiyə qədər Qərbi Avropada müsəlmanlara münasibət

[1] Альберто Алезина. Европа в отпуске, июнь, 2004. www. project-syndicate.org

heç də birmənalı deyildir. Nəticədə, başqa millətlərin və konfessiyaların nümayəndələrinin hazırda məruz qaldığı mədəni hibridləşmə əks reaksiyaya, özünəməxsus amortizasiya effektlərinə səbəb olur, tolerant və liberal Avropa isə bunları qəbul edə bilmir. Başqa sözlə desək, sosial sahədə reaksiya əks-reaksiyaya səbəb olur. Avropanın söz və fikir azadlığı prinsipləri vasitəsilə islamı dünyəviləşdirmək cəhdləri kəskin müqavimətlə qarşılaşır. Nəticədə indiyə qədər yalnız iqtisadi mənafeləri təmsil edən qruplar panavropa məkanından siyasi məqsədlər üçün istifadə etməyə başlayırlar.

Tamamilə aşkardır ki, bütün bunlarla yanaşı, bir böyük dövlətin imperiya ağalığına transformasiya etməkdə olan yeni dünya nizamı hegemonluğun iki mümkün yolunu yaradır. Amerikanın tanınmış tarixçi və publisisti Cozef Nay həmin yollardan birini "sərt hakimiyyət", digərini "yumşaq hakimiyyət" adlandırır[1]. "Sərt hakimiyyət" ölkənin hərbi-siyasi gücünə arxalandığı halda, "yumşaq hakimiyyət" dövlətin cəlbedici mədəniyyətinin, ideallarının və siyasətinin nəticəsidir. C.Nay yazır: "Sərt hakimiyyət heç vaxt öz əhəmiyyətini itirməyəcək, lakin məhz yumşaq hakimiyyət çoxtərəfli əməkdaşlıq tələb edən transmilli problemlərin həlli üçün get-gedə daha artıq əhəmiyyət kəsb edəcəkdir"[2]. Beləliklə, "yumşaq hakimiyyət" vasitəsilə neoliberal ideyanın cəlbedici cəhətlərini göstərmək imkanı yaranır, bu isə son nəticədə "üçüncü demokratik dalğa"nın intensivləşməsinə gətirib çıxarır.

Şərqi Avropa, Cənub-Şərqi Asiya dövlətlərinin əksəriyyəti və keçmiş sovet respublikaları liberalizmi və demokratiyanı sosial inkişafın, iqtisadi uğurların və sosial sabitliyin rəhni

[1] Дж.Най. Почему Америка должна воссоединиться с остальным миром, www.project-syndicate.org

[2] Yenə orada.

hesab edirdi. Ötən əsrin 50-ci illərinin əvvəllərində kosmosun fəth edilməsində Sovet İttifaqının birinciliyi, beynəlxalq aləmdəki siyasi nailiyyətləri, davamlı iqtisadi siyasəti kommunizm ideyasını çox şirnikləndirici ideyaya çevirmiş, bunun nəticəsində Kubada, Vyetnamda, Ərəb Şərqi ölkələrində və başqa bölgələrdə sosialist rejimləri yaranmışdı. Hətta Şərqi Avropa da sosializmi və keçmiş avtarkiyanın "qardaşlıq köməyi"ni əvvəlcə çox cəlbedici sosial-siyasi alternativ kimi qəbul edirdi. Lakin SSRİ-nin qüdrəti tənəzzülə uğrayanda, başqa dövlətlər üzərində ideoloji hegemonluqdan irəli gələn "ona oxşamaq istəyi" kommunizmlə qarşıdurmaya çevrildi.

Şərq yarımkürəsi bütövlükdə Qərbin inkişaf tarixinə əsaslanaraq, Avratlantik məkanının dəyərləri və idealları bazasında siyasi və iqtisadi inkişaf yolu seçmişdir. 1989-cu ildə Çin iqtisadiyyatının istiqamətinin dəyişməsi buna parlaq sübutdur. Təbii ki, qeyri-qərb cəmiyyətlərinin bu cür "qərbləşməsi" siyasi və iqtisadi məkanın modernləşməsinə gətirib çıxarmışdır. Lakin eyni zamanda, qeyri-qərb cəmiyyətlərinin sosial mədəni məkanının "qərbləşməsi" mövzusunda diskussiyalara ciddi təkan vermişdir. Başqa sözlə desək, yeni yaranmış ideyanın mahiyyəti bundan ibarət idi: "Əgər uğur qazanmaq istəyirsinizsə, onda siz də bizim kimi olmalısınız; bizim yolumuz yeganə yoldur"[1].

Təklif edilən modellərin hər biri təzadlılığı ilə seçilirdi:

1) həm modernləşməni, həm də qərbləşməni qəbul etməli;

2) modernləşməni qəbul etməli, qərbləşmədən imtina etməli;

[1] С.Хантингтон. Столкновение цивилизаций. М., 2003, стр.104.

3) həm modernləşmədən, həm də qərbləşmədən imtina etməli.

Təcrübə göstərir ki, müasir qeyri-qərb cəmiyyətlərinin qərbləşməsi elmi-texniki inqilabın nailiyyətlərini, informasiya-kommunikasiya texnologiyalarını, ictimai müqavilənin mövcud olduğu və insan hüquqları prinsiplərinin üstünlük təşkil etdiyi dünyəvi demokratik cəmiyyətlərin əsas prinsiplərini fəal mənimsəməkdən ibarətdir.

Qərbləşmə ideyasının özünün yaranması qərb cəmiyyətlərinin inkişafı və qeyri-qərb cəmiyyətlərinin əksəriyyəti Qərbə aid olan inkişaf etmiş dövlətlərin nailiyyətlərindən fəal bəhrələnməsi ilə əlaqədardır. Ötən əsrin əvvəllərində inkişafın ən səmərəli yolu Qərbə xas olan həyat tərzi, iqtisadi inkişaf və siyasi quruluş formaları idi və mahiyyət etibarilə o dövrdə bunun alternativi yox idi. Ticarətin və maliyyə axınlarının intensiv inkişafı, sənayeləşmə, beynəlxalq məsələlərdə İngiltərə və Fransanın hegemonluğu sosial gerçəkliyi qavramağın qərb formasının cəlbediciliyinin sürətlə yayılmasına şərait yaradırdı. Yaponiya, Türkiyə, Hindistan və başqa cəmiyyətlər Qərbdə qazanılmış iqtisadi uğurları "öz meydanında oynamaq üçün resept" kimi qəbul edirdi.

Birinci Dünya müharibəsindən sonra qərbləşmə ideologiyası müstəmləkəçilik vasitəsilə tətbiq edilirdi. Müstəmləkəçiliyin ilkin zəmini hələ böyük coğrafi kəşflər dövründə yarandığına baxmayaraq, XVIII əsrin axırları – XIX əsrin əvvəllərində sənayeləşmə müstəmləkə xalqlarının həyat və mədəniyyət tərzinin qərbləşdirilməsi prosesinin intensivləşməsinə şərait yaradırdı. Manufakturalardan maşınlı iri fabrik-zavod sənayesinə keçid dövründə müstəmləkə siyasətində əsaslı dəyişikliklər baş verirdi. Birbaşa talançılıq metodları

və əhalidən tutulan vergilərin hədsiz artırılması ilə yanaşı, qeyri-ekvivalent mübadiləyə əsaslanan ticarət vasitəsilə müstəmləkələrin istismar edilməsi də mühüm rol oynamağa başlayırdı. Sürətlə inkişaf etməkdə olan metropoliyalara iqtisadi baxımdan get-gedə daha sıx bağlanan müstəmləkələr metropoliyaların inkişafın monokultur istiqaməti ilə səciyyələnən aqrar-xammal əlavələrinə, kapitalist sənayesi üçün xammal mənbələrinə və sənaye məhsullarının satış bazarlarına çevrilirdi. Məsələn, 1814-cü ildən 1835-ci ilə qədər İngiltərədən Hindistana pambıq parça ixracı 65 dəfə artmış, bu isə yerli toxucu sənətkarlar təbəqəsinin kütləvi şəkildə yoxsullaşmasına və məhv olmasına gətirib çıxarmışdır.

Müstəmləkələrin istismar edilməsinin forma və metodları dəyişsə də, bu proses istismarın intensivliyinin azalması ilə müşayiət olunmurdu. Metropoliyaların müstəmləkələrdən daşıyıb apardığı külli miqdarda sərvətdən metropoliyaların öz iqtisadiyyatlarına investisiyalar şəklində istifadə edilməsi Avropada və Şimali Amerikada sosial-iqtisadi inkişafın və sənayenin inkişafının sürətlənməsinə səbəb olmuşdu. Müstəmləkəçilər müstəmləkələrdə kəndli təsərrüfatının əmtəəliyinin artırılmasında maraqlı olsalar da, çox vaxt feodalizmi və ondan da əvvəlki münasibətləri dəstəkləyir və möhkəmlədir, kölə vəziyyətinə salınmış ölkələrdə feodal və qəbilə-tayfa əyanlarını özlərinin sosial dayağı hesab edirdilər. Əcnəbi kapitalistlərin ağalığı, sənaye mallarının rüsumsuz idxal edilməsi, xammalın çox ucuz qiymətə daşınıb aparılması bütün yerli əhalinin müflisləşməsinə, orada sənətkarlığın və hələ müstəmləkəçilərin gəlişindən əvvəl rüşeym halında yaranmış manufaktura sənayesinin məhv olmasına, bütövlükdə müstəmləkələrin iqtisadiyyatının tənəzzülünə gətirib çıxarırdı.

Təhlilçilərin çoxu müstəmləkəçilikdən sonrakı dövrdə inkişaf etmiş Qərb ölkələrinin mövqelərini inkişaf etməkdə olan və yeni demokratik ölkələrdə öz iqtisadi hökmranlığını, ilk növbədə, qeyri-ekvivalent ticarət mübadiləsi (yeni müstəmləkəçilik) şəklində qoruyub saxlamaq cəhdləri kimi qiymətləndirir. Əslində, bu ölkələr əvvəlki kimi, yenə də ucuz xammal və ucuz işçi qüvvəsi mənbələri rolunda çıxış edir, bu isə Qərb korporasiyalarının buradakı xərclərini minimuma endirməsinə imkan verir. Yeni müstəmləkəçilik istismarına şərait yaradan amillərdən biri də ondan ibarətdir ki, inkişaf etmiş ölkələr praktik olaraq, bütün əmtəə və maliyyə bazarlarına nəzarət edir, həmçinin valyutaların məzənnələrini özlərinə sərfəli səviyyədə saxlayır.

İctimaiyyatşünaslıq terminlərinin izahlı lüğətində qərbləşməyə belə tərif verilir:

1) qərb nümunəli bir sıra dəyərlərin (bazar iqtisadiyyatı, hüquqi dövlət və parlamentarizm, mənəvi və siyasi plüralizm və s.) müasir sivilizasiyanın ümumbəşəri dəyərlərinə çevrilməsi prosesi;

2) bəşəriyyətin inkişaf etmiş ölkələrin təsir, hakimiyyət və istismar dairəsinə cəlb edilməsinə yönəlmiş fəaliyyət;

3) Qərbi Avropaya və Şimali Amerikaya xas olan həyat tərzinin kor-koranə, düşünülməmiş şəkildə əxz edilməsi.[1]

Bəşəriyyət inkişaf etdikcə, texnologiyalar və iqtisadi nailiyyətlər qeyri-qərb cəmiyyətləri ilə müqayisədə təkmilləşdikcə qərbləşmə başqa məna kəsb edir və ayrı cür başa düşülür.

[1] Н.Е.Яценко. Толковый словарь обществоведческих терминов. СПб., 1999.

Aşkar olmuşdur ki, Avratlantik siyasi modeli qeyri-qərb məkanlarının suverenliyi üzərində üstünlük etməyə başlayır. Maliyyə baxımından tərəqqinin qərb reseptlərini əxz etməyə çalışan cəmiyyətlərin iqtisadi tərkib hissəsi Bretton-Vud sistemi ilə məhdudlaşdırıldı (Bretton-Vud ABŞ-da dağ kurortudur. BMT-nin 1944-cü ildə bu şəhərdə keçirilmiş monetarizm və maliyyə məsələlərinə dair konfransında 44 dövlətin nümayəndələri valyuta və ödəmə sistemləri barədə saziş imzalamışdılar. Bu sistemin imkanları tükəndikdən sonra, 1971-ci ildə ABŞ onu birtərəfli qaydada ləğv etmişdir. Lakin Bretton-Vud konfransının yekunu kimi hələ də fəaliyyət göstərən Beynəlxalq Valyuta Fondu (BVF) keçid iqtisadiyyatı ölkələrinin "qollarına qızıl bilərzik" taxır). BVF, Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) kimi yeni yaranmış beynəlxalq təşkilatların fəaliyyəti təkcə qlobal maliyyə münasibətləri axınına nəzarət etməkdən ibarət olmayıb, həm də öz iqtisadi vəziyyətinin təhlükəsizliyini təmin etmək məqsədi ilə məhdudlaşdırıcı tədbirlər görülməsini əhatə edir.

Bununla əlaqədar, Çikaqo Universitetinin professoru ultramonetarist Milton Fridmenin BVF-ni tənqid etməsi maraq doğurur. O, 1997-ci ildə Honkonqda BVF-DB illik yığıncağından əvvəl öz çıxışında demişdir ki, 1971-ci ildə Bretton-Vud sisteminin süqutundan sonra BVF kimi təşkilatlara ehtiyac qalmamışdır: "Onu 1971-ci ildə ləğv etmək lazım idi.

Lakin o vaxt bu iş görülməyibsə, onu indi görmək lazımdır. Əgər sizin özəl müəssisəniz öz fəaliyyətini dayandırsaydı, o, müflisləşər və varlığına xitam verərdi. Lakin hökumət təşkilatının başına bu iş gəlmir"[1].

[1] London Times, 19 sentyabr 1997-ci il.

Qeyri-qərb cəmiyyətlərində transnasionalizm elementləri onların sosial-mədəni fəaliyyət meydanına yeni davranış və həyat tərzi nümunələri gətirir. Transformasiya məkanlarında identikliyin müəyyən edilməsi məsələsində aşkar boşluq müşahidə olunurdu.

Belə məkanlar üçün bu cür hücumlar sosial-mədəni hibridləşməyə gətirib çıxarmış, bu isə 1968-1978-ci illərdə Mərkəzi və Şərqi Avropada xalq iğtişaşlarına, Çində "mədəni inqilab"a çevrilmişdi.

İnformasiya-kommunikasiya texnologiyaları inkişaf etdikcə, qeyri-qərb cəmiyyətlərinin sosiomədəni sahəsində dəyişikliklər daimi xarakter almış, bütün sosial məkana təsir amilinə çevrilmişdir. "Fast-fudlaşma" deyilən proses, yəni qeyri-qərb cəmiyyətləri üçün vahid qərb sosiomədəni brendinin yaranması prosesi başlanmışdır.

Buna görə də "modernləşmə" və "qərbləşmə" anlayışlarının fərqləndirilməsinin çox böyük əhəmiyyəti var. Axı Qərb kütləvi şüurda bu iki terminin sinonimlərə çevrilməsi üçün əlindən gələni edir. Məsələyə bu məntiqlə yanaşsaq, belə çıxır ki, bütün dəyişikliklər və hər hansı islahatlar yalnız o halda mümkündür ki, onlar qərbyönümlü olsun və qərb nümunələrini təkrar etsin. Alternativ variant kimi "durğunluq", "arxaizm", "konservatizm", səmərəsizlik, dinamikanın olmaması kimi variantlar təklif olunur. Malayziyanın baş naziri bununla əlaqədar demişdir: "Bizə izah edirdilər ki, əgər beynəlxalq maliyyə bazarının əhəmiyyətini qiymətləndirə bilməsək, sivilizasiyalı olmayacağıq. Böyük ölkələr bizə deyir ki, biz yoxsulluğa qarşı həssas olmalıyıq, çünki bu, beynəlxalq maliyyə üçün zəruridir"[1].

[1] Malayziyanın baş nazirinin Honkonqda, BVF – DB-nin illik sessiyasında çıxışı. 20 sentyabr 1997-ci il.

Beləliklə, Qərb, daha dəqiq desək, *Pax Americana* öz sivilizasiya məqsədinə nail olur – dünyanın qalan hissəsinə özünün yaxşıca mənimsədiyi hüdudları, qanunları və meyarları "təklif edir". İqtisad elminin dahi nəzəriyyəçisi Fridrix List liberalların liberalizmi "mütərəqqi alternativ" kimi zorla sırıdıqları insanlara bu cür qərəzli münasibəti çox gözəl təsvir etmişdir. O, öz əsərlərində göstərmişdir ki, bazar iqtisadiyyatı və liberalizm yoluna çoxdan qədəm qoymuş ölkələr başqa təsərrüfat modellərindən istifadə edən ölkələrə analoji modeli qəbul etdirməyə nail olsalar, birincilər hökmən qazanacaqlar. Görünür, "azad ticarət" üçün "bərabər" şərait inkişaf etmiş bazar ölkələrinin daha da varlanmasına və bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoymuş ölkələrin yoxsullaşmasına gətirib çıxarır. Buna görə də List bildirir ki, ənənəvi liberal ölkələrin (ilk növbədə, anqlsaks) ölkələrinin öz inkişaf modellərini bütün başqa ölkələrə qəbul etdirmələri onlar üçün çox sərfəlidir, çünki bu halda onlar iqtisadi və siyasi mənfəət əldə edəcəklərinə əmin ola bilər.

Belə olan halda, obyektiv şərait üzündən səmərəli və təcavüzkar liberal rəqiblərlə üzləşmiş qeyri-liberal ölkələr nə etməlidir? XIX əsrdə bu problem Almaniya üçün tam kəskinliyi ilə qarşıya çıxmışdı və məhz Fridrix List həmin problemi həll etməli idi. Həmin suala "qərbləşməsiz modernləşmə" anlayışının iqtisadi sinonimi olan "böyük ərazilərin avtarkiyaları" nəzəriyyəsi ilə cavab verildi[1].

"Böyük ərazilər avtarkiyaları" konsepsiyasına görə, bazar dövlətləri ilə sərt rəqabət şəraitinə düşmüş qeyri-bazar dövlətləri liberal sistemlərin texnoloji nailiyyətlərini qismən, lakin geniş əhatəli "gömrük ittifaqı"nın məhdud çərçivəsin-

[1] R.Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, səh.156.

dən kənara çıxmamaqla təkrarlayan muxtar inkişaf modeli yaratmalıdır. Bu halda "ticarət azadlığı" iqtisadiyyatın dinamikasını təcili artırmaq üçün özlərinin sosial-siyasi və inzibati-təsərrüfat səylərini birləşdirmiş dövlətlərin strateji bloku ilə məhdudlaşır. Daha çox inkişaf etmiş liberal ölkələrə münasibətdə isə, əksinə, ciddi proteksionizm prinsiplərinə əsaslanan möhkəm gömrük səddi qoyulur. Beləliklə, ən yeni iqtisadi texnologiyaların tətbiq sahəsi maksimal dərəcədə genişlənir və eyni zamanda, siyasi və təsərrüfat suverenliyi ardıcıl olaraq dəstəklənir.

Heç şübhəsiz, məsələyə bu cür yanaşma neoliberalları qıcıqlandırır, çünki o, liberal rəqiblərin strategiyasını və təcavüzkar niyyətlərini açıb göstərir, üstəlik, geosiyasi müdaxiləyə qarşı, son nəticədə dövlətlərin kənardan idarə edilməsinə qarşı ciddi müqavimət göstərir.

Qeyd etməliyik ki, "qərbləşməsiz modernləşmə" tezisi özlüyündə elə bir konseptual silahdır ki, onun geniş yayılması Qərb üçün əsla arzuedilən hal deyildir. Qərbdən ötrü ictimai şüurdakı ikili sxemi aşılamaq daha vacibdir: bir tərəfdə islahatçılar, dəyişikliklərin tərəfdarları, digər tərəfdə mühafizəkarlar, keçmişin inadkar tərəfdarları dayanır. Həmin "tənlik" bu qaydada həll edildikdə, qərbpərəst islahatçıların əhəmiyyətli dərəcədə dəstəklənməsi təmin olunacaqdır. Lakin həmin formula üçüncü element daxil edilən kimi, bütün mənzərə bir qədər başqa çalar alır. "Qərbpərəst modernistlərin" və "antiqərb antimodernistlərin" qarşıdurması gec ya tez "gələcəyi" təcəssüm etdirən "islahatçıların" qələbəsi ilə nəticələnir. Lakin bunlardan əlavə, Qərbin əleyhinə olan "antiqərb modernistlər" və ya "mühafizəkar inqilabçılar" da meydana çıxır. Belə bir qüvvənin müstəqil oyunçu kimi, ideoloji blok kimi, iqtisadi platforma və

mədəni cəbhə kimi mövcud olması bayağı siyasi qarşıdurma nisbətini tamamilə pozur. Qərbçiliyin əleyhdarları olan modernistlər radikal islahatları, təsərrüfat modelində inqilabi dəyişiklikləri, idarəetmənin həyati əhəmiyyətli sahələrində elitaların partlayış tipli rotasiyasını dəstəkləyirlər. Lakin geosiyasi, iqtisadi və mədəni suverenliyin tamamilə qorunub saxlanması, cəmiyyətin öz köklərinə sadiqliyi, identikliyin dəstəklənməsi onlar üçün mütləq və mübahisəsiz şərtdir. Həm "modernləşmə", həm də "suverenlik" elə mübahisəsiz imperativlərdir ki, heç bir halda onları nəzərə almamaq mümkün deyildir.

§ MONDİALİZM MƏNTİQİ

Vaxtilə Höte deyirdi: "Dünya yalnız ona görə irəliyə doğru gedir ki, buna müqavimət göstərənlər var". Bütün sivilizasiyalı bəşəriyyəti sarsıtmış məlum sentyabr hadisələrindən sonra yeni dünya nizamı, yaxud beynəlxalq münasibətlər tarixi nəzəriyyəçilərin təbiri ilə desək, mondializm öz inkişaf trayektoriyasını dəyişmişdir. Nəticədə, dünyanın real vəziyyəti ilə müqayisədə "azadlıq və demokratiya zonası"nın genişlənməsi hazırda bütün dünyada yeganə olan fövqəldövləti get-gedə daha çox narahat etməyə başlamışdır. Buna baxmayaraq, Amerika həyat tərzi psixoloji baxımdan özünə yeni düşmən obrazı yaratmışdır. Söhbət Amerika Birləşmiş Ştatlarını unilateralist, yəni nəinki başqa dövlətlərin, hətta bütövlükdə beynəlxalq birliyin reaksiyasına və mövqeyinə məhəl qoymadan yalnız birtərəfli hərəkətlər adepti hesab edən ölkələrdən gedir. ABŞ unilateralizmi həqiqətən britaniyalıların məlum formulunu əks etdirir: "İngiltərənin dostları yoxdur, onun yalnız maraqları var". Nəticədə Nyutonun İkin-

ci qanunu bir daha təsdiqlənir. Məlum olduğu kimi, həmin qanuna görə, hər bir təzyiq labüd surətdə əks-təzyiqə səbəb olur və bu halda gizli, latent potensial və itələmə enerjisi bütünlüklə üzə çıxır, çünki "sistemə kənardan təsir göstərən qüvvə həmin sistemə təcil verir".

İqtisadi determinatorlar inkişaf etdikcə, siyasi şüur artdıqca qeyri-qərb cəmiyyətlərinin qərbləşməsi onların milli mədəniyyətə, milli adətlərə, milli dilə və milli ənənələrə meylinin dirçəlməsinə təkan verir. S.Hantinqtonun təbiri ilə desək, zorla qərbləşdirmə iki renessansa – Asiya və İslam renessanslarına həyat bəxş etmişdir. Bunlardan birincisi, Asiya regionunun intensiv iqtisadi tərəqqisinin yekunu, ikincisi isə dünyanın Qərb və İslam aləmlərinə bölünməsinə gətirib çıxarmış geosiyasi oyunun nəticəsidir.

1993-cü ildə Dünya Bankı "Şərqi Asiya möcüzəsi" adlı hesabat dərc etmişdir. Bu hesabat 1965-1990-cı illərdə fasiləsiz artım reytinqinə nail olmuş səkkiz ölkəni – Yaponiyanı, "dörd pələngi" – Honkonq, Cənubi Koreya, Sinqapur və Tayvanı, habelə üç "yeni peyda olmuş pələngi" – İndoneziya, Malayziya və Tailandı əhatə edir. Həmin səkkizliyə Filippini də əlavə etmək olar.

Yaponiya, Cənubi Koreya və Tayvan "sanballı" iqtisadi model əsasında inkişaf etmişdir. Bu modelin əsasını təşkil edən prinsiplər ABŞ-ın ilk maliyyə naziri Aleksandr Hamilton və alman iqtisadçısı Fridrix List tərəfindən işlənib hazırlanmışdır. Hamiltona görə, elə bir dövlət tapmaq mümkün deyli ki, onun sabitliyi sənayenin hökumət tərəfindən qorunması və dəstəklənməsindən, – xüsusilə elmi araşdırmaların maliyyələşdirilməsi məsələsində, – fərqli yolla təmin edilsin. Yaponiya həmin ideyaları 1870-ci illərdə,

Tayvan İkinci Dünya müharibəsindən sonra, Cənubi Koreya isə Koreya müharibəsindən (1950-1953) sonra qəbul etmişdir. Bu ölkələr xarici kapitalın onları müstəmləkə vəziyyətinə salmasına imkan verməmək üçün öz hökumət kreditlərini hökumətə məxsus inkişaf bankları vasitəsilə səfərbər edərək, infrastruktur yaradılmasına yönəltmişdir. Mərkəzi banklar hər şeyi götür-qoy edərək, tamamilə yeni sənaye yaradılması üçün kommersiya banklarının fəaliyyətini həmin layihələrin və özəl şirkətlərin kreditləşdirilməsinə yönəldirdi. Yaponiya, Tayvan və Cənubi Koreya təbii ehtiyatlar baxımından çox yoxsuldur və buna görə də kənardan gətirilən yanacaqdan asılı vəziyyətdədir. Lakin buna baxmayaraq, onlar öz milli təhlükəsizliyini təmin etmək üçün sənaye müstəqilliyinin inkişaf etdirilməsi və möhkəmlənməsi yolunu seçmişlər. Burada əhalinin hər nəfərinə, ərazinin hər kvadratkilometrinə və hər ev təsərrüfatına düşən infrastruktur vahidləri, kənd təsərrüfatında işçi qüvvəsinin sənaye tərəfindən təmin edilməsi, əhalinin hər nəfərinə düşən elektrik enerjisi istehsalı göstəriciləri çox yüksəkdir. Bu regionun başqa ölkələrinin heç birində elektrik enerjisi istehsal edilən atom elektrik stansiyaları yoxdur.

Sinqapur və Honkonq əks nümunələrdir. Bu ölkələr maliyyə və narkobiznes meydanlarında Britaniya tərəfindən Çinə qarşı müharibədə plasdarm kimi istifadə edilmək üçün nəzərdə tutulmuşdur və bu günə qədər həmin ölkələr bu regionun nəhəng "qara bazarında" əldə edilən çirkli pulları təmizə çıxarmaq üçün müvafiq mərkəzlər kimi istifadə edilir. Bundan əlavə, çox yüksək gəlirlər ixtisassız ucuz işçi qüvvəsindən istifadə etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, Cənub-Şərqi Asiyanın nikbin gələcəyi barədə Qərb analitiklərinin çoxunun proqnozlaşdırdığı

nikbin təsəvvürlər, əslində, özünü doğrultmadı. Məsələn, Cənubi Asiyanın "yeni peyda olmuş pələngləri"nin sənayeləşdirilməsi cəhdləri iflasa uğramışdır. Buna kənardan "kömək edən" qüvvələr də olmuşdur. Belə ki, Tailand və Filippin 1970-ci illərdə neft böhranının və ABŞ Federal Ehtiyatlar Sisteminin rəhbəri Pol Volkerin yeritdiyi kredit siyasətinin qurbanları oldular.

BVF 1980-ci illərdən etibarən həmin ölkələrdən sənayeni inkişaf etdirmək cəhdlərindən əl çəkməyi tələb edirdi və həmin ölkələrin iqtisadiyyatında və maliyyə siyasətində bu günə qədər üstünlük təşkil edən özəlləşdirmə və liberallaşdırma vasitəsilə tənzimləmənin zəiflədilməsi proqramını "işə salmışdır".

Cənubi Asiya ölkələrinin öz inkişafını Yaponiya, Cənubi Koreya və Tayvanın keçdiyi yola yönəltmək cəhdlərinin uğursuzluqla nəticələnməsi bir çox cəhətdən ABŞ prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinskinin siyasəti ilə əlaqədar idi. Bjezinski 1978-ci ildə Tokio rəsmilərinə açıq-aşkar bəyan etmişdi ki, dünya maliyyə elitası "hər hansı yeni Yaponiya yaranmasına yol verməyəcəkdir".

1985-ci ildən etibarən bütün dünya, ilk növbədə, Amerika maliyyə oliqarxiyası Yaponiya iqtisadiyyatını çökdürməyə başladı. Bu məqsədlə yenin məzənnəsi süni şəkildə qaldırıldı, bu isə ixracın əhəmiyyətli dərəcədə azalmasına və qiymətlərin, o cümlədən daşınmaz əmlakın qiymətinin kəskin şəkildə artmasına səbəb oldu. Bu təxribatın məqsədi sərmayələri istehsal sektorundan iqtisadiyyatda yaranmış və qiymətlərin şişirdilməsi yolu ilə ayrı-ayrı qruplara hədsiz gəlir gətirən "ehtikar nöqtələrə" yönəltməkdən ibarət idi.

1997-ci ilin iyun ayında Honkonq Çinin mülkiyyətinə verilməsindən xeyli əvvəl bütün Cənubi Asiya sanki regionda maliyyə talançılığı əməliyyatlarının mərkəzində Britaniya krallığının müstəmləkəsi rolunu hamıdan yaxşı oynaya bilən ölkə adlanmaq uğrunda yarışa cəlb edilmişdi. 1994-cü ilin dekabr ayında Meksikada "borc bombası" partlayandan və Meksika pesosu devalvasiyaya məruz qalandan sonra bu məkrli yarış daha da sürətləndi.

1995-ci ildə Avropa İttifaqı və Londonun maliyyə dairələrinin nümayəndələri Honkonqun yerini tutmaq iddiasında olan dövlətin əməl etməli olduğu oyun qaydalarını və tələbləri müəyyən etdilər:

- maliyyə sektorunu liberallaşdırmaq;
- ölkəyə xarici kapitalın gəlməsi və ölkədə mülkiyyət əldə edilməsi ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırmaq;
- dövlət sektorunda, xüsusən energetika, telekommunikasiyalar və yollar kimi sahələrdə özəlləşdirmə aparmaq;
- Cənub-Şərqi Asiya firmalarını London valyuta birjasında "yekəpər oğlanlar"ın iştirak etdiyi bazar oyunlarına cəlb etmək.

Avropa İttifaqının vitse-prezidenti Leon Britten özəlləşdirmə məsələsində daha irəli gedərək, əsas infrastrukturun maliyyələşdirilməsində əvvəllər dövlətə məxsus olan hüquqların indi özəl sektora verilməsini elan etmişdi.

Honkonqda çıxan "Far İstern ekonomik revyu" jurnalı 1997-ci ilin yanvarında Cənubi Asiya ölkələrinin 10 ən iri firması barədə icmal dərc etmişdi. Həmin icmaldan məlum

olur ki, Sinqapur, Honkonq, Malayziya və İndoneziyanın iqtisadiyyatında maliyyə, daşınmaz əmlak, servis xidmətləri (hotel tipli) üzrə ixtisaslaşan firmalar üstünlük təşkil etdiyi halda, Yaponiyada, Cənubi Koreyada və Tayvanda şirkətlərin təqribən 80 faizi sənaye və kənd təsərrüfatı sahəsində ixtisaslaşmışdır.

"Yetərli" iqtisadiyyata malik olan ölkələrdə hər 30 istehsal şirkətinə orta hesabla 1 bank və 1 sığorta şirkəti düşür. Yuxarıda adları çəkilən "Asiya pələngləri"nin ərazisində isə hər 30 şirkətə 3-7 maliyyə konserni düşür və üstəlik, hər 10 şirkətdən 4-8-i daşınmaz əmlak məsələləri ilə məşğul olur.

1990-cı illərdə Cənubi Asiyada qlobal ehtikar maliyyə "nöqtələrinin" yaranması və onların ölkəyə zərər vurması riski sürətlə artmışdı. Həmin dövrdə İndoneziyanın xarici borcu 100 milyard dollara çatmışdı. İxracdan əldə olunan gəlirin 32 faizi bu borca xidmət etmək üçün sərf edilirdi. Malayziya 1990-cı ildə Labuan adasında özünün bank mərkəzini açdı və həmin mərkəz çirkli pulların təmizə çıxarılmasında Kayman adaları ilə rəqabət aparan mərkəzə çevrildi. Hazırda Labuanda 50 beynəlxalq bank işləyir. Bundan əlavə, Tailandda minimum əmək haqqından 44 faiz aşağı haqq ödənilən qeyri-leqal əmək təşviq edilməyə başlanmışdır.

Britaniyanın Asiyada maliyyə nəzarətini gücləndirmək yolu ilə müstəmləkəsizləşdirmə üzrə şirkətinin fəaliyyəti nəticəsində Cənubi Asiyada kommersiya banklarının 25 faizi, həyat sığortası şirkətlərinin 70 faizi və bütövlükdə maliyyə sistemindəki kapitalının 40 faizi əcnəbilərin əlinə keçmişdir. Britaniyanın özü Tailandda və Filippində əsas investor,

İndoneziyada isə 1967-ci ildən bəri Yaponiyadan sonra ikinci ən iri investordur. Meksika pesosu ilə bağlı böhran Filippinə qoyulan sərmayələrin məbləğini artırmışdır. 1995-ci ildə Filippində sərmayələrin 84,4 faizi əcnəbi mənşəli idi ki, bunun da 90 faizdən çoxu Britaniyanın payına düşürdü.

1996-cı ildə Tayvandakı Çulalankorn universitetinin bir qrup əməkdaşının təqdim etdiyi hesabat "Asiya pələngi" modelinin nə demək olduğunu sübut edir. Hesabatdan bəlli olur ki, Tailandda xəlvəti iqtisadiyyatın gəlirlərinin həcmi bu ölkənin 1995-ci il üçün büdcəsinə bərabərdir və ÜDM-in 30-58 faizini təşkil edir. Həmin gəlirlərin ən çox hissəsi, yəni 17-20 milyard dolları fahişəliyin, 3,9 milyard dolları narkotiklərin, 512 milyon – 2,4 milyard dolları silah alverinin, 334 milyard dolları neft qaçaqmalçılığının, 17-53 milyard dolları qumar biznesinin (totalizatorlar, kazino, gizli lotereyalar) payına düşür.

1995-ci ildə Tailandda QİÇS problemlərinə həsr edilmiş üçüncü beynəlxalq konfrans keçirilmişdir. Həmin konfransda elan edilmişdi ki, 2000-ci ilə qədər QİÇS epidemiyasının mərkəzi Afrikadan Asiyaya keçəcəkdir[1].

S.Hantinqton "Asiyanın dirçəlişi" barədə yazarkən onu Asiya ilə Qərb arasında, xüsusən Asiya ilə Birləşmiş Ştatlar arasında balansın dəyişməsinə doğru labüd hərəkət kimi səciyyələndirirdi. O, "Sivilizasiyaların toqquşması" əsərində yazırdı ki, Asiyanın transformasiya sürəti heyrət doğurur, çünki "əhalinin hər nəfərinə düşən gəlirləri ikiqat artırmaq üçün Britaniya və Birləşmiş Ştatlar, müvafiq surətdə qırx səkkiz və qırx yeddi il sərf etməli olmuşdur, halbuki Yaponiya bu işi otuz üç ildə, İndoneziya on yeddi ildə,

[1] http:// www.larouchepub.com/russian/tvm/tvmeg 9741.html

Koreya on bir ildə, Çin isə on ildə görmüşdür"[1]. Lakin qeyd etmək lazımdır ki, bu ölkələr həmin sıçrayışa yalnız Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun tövsiyələrindən imtina etmək hesabına nail olmuşdu. Üstəlik, 1998-ci ildə "Asiya pələngləri" çox böyük iqtisadi uğursuzluğa məruz qalmışdı. Bu, onların mövqelərinin güclənməsinə və müəyyən mənada yuxarıda adını çəkdiyimiz müəllifin uzaqgörənliklə söylədiklərinin gerçəkləşməsinə cavab idi: "Uğurlu iqtisadi artım özünə inam, onun mövcud olduğu və mənfəət verdiyi ölkələr tərəfindən isə aqressivlik doğurur"[2]. S.Hantinqtonun bu sözlərinə başqa bir politoloqun – Çikaqo universitetinin əməkdaşı Con Mirşaymerin "Böyük dövlətçilik siyasətinin faciəsi" adlı kitabından bir fikri də əlavə etmək olar. O yazır: "XXI əsrin əvvəllərində Birləşmiş Ştatlar üçün ən qorxulu potensial təhlükə mənbəyi sürətlə tərəqqi etməkdə olan Çindir, buna görə də ABŞ ən yaxın dövrdə Çinin iqtisadi inkişaf sürətinin əhəmiyyətli dərəcədə azaldılmasında çox maraqlıdır"[3].

Asiyanın iqtisadi inkişafı artdıqca, bu hal "Asiya pələngləri"nin daha çox absorbsiyaya məruz qalmasına, Birləşmiş Ştatların və Qərb ölkələrinin təzyiqinə müqavimət göstərməyə şərait yaradır (S.Hantinqton), Qərbin universal inkişaf modellərindən imtina etmək üçün vasitəyə çevrilirdi. "Pələnglər" Qərbin "ağ yaxalıqlı" nümayəndələrinin intellektual baqajından özlərinin inkişafı üçün istifadə etmiş, qərbləşməni qəbul etməyərək, bütün enerjilərini yalnız öz cəmiyyətlərinin modernləşdirilməsinə yönəltmişdir. Siyasi, iqtisadi və sosial-mədəni məkanın "fast-fudlaşması" Asiya cəmiyyətlərinin

[1] С.Хантингтон. Столкновение цивилизаций. М., 2003, стр.152.

[2] Yenə orada.

[3] Н.Фергюсон. Мир без гегемона. Журнал "Россия в глобальной политике". 26.01.2005, www.globaffairs.ru

müqaviməti ilə üzləşmişdi, çünki Corc Sorosun dediyi kimi, bu vəziyyət beynəlxalq yardım təqdim edilməsinin səmərəli üsulunun olmaması ilə bağlı idi[1].

Məlum oldu ki, dünya iqtisadi sistemi modifikasiya edilməli, transmilli donorlar və Qərb dövlətləri inkişaf etməkdə olan ölkələrə münasibətlərini yenidən nəzərdən keçirməlidir. BFV-nin səhv siyasəti dəfələrlə çox ciddi və kədərli nəticələrə gətirib çıxarmışdır (1994-cü ildə Meksikadakı siyasət, habelə 1997-1998-ci illərdə Cənub Şərqi Asiyanı bürümüş və Rusiyada defoltla başa çatmış böhran).

İqtisadi siyasət beynəlxalq münasibətlərə birbaşa təsir göstərmişdir. Bu gün həmin münasibətlərin mürəkkəbliyi yetişməkdə olan "sivilizasiyaların toqquşmasında" ifadə olunur. Hətta Rusiyanın rəsmi şəxsləri də bu ölkənin qlobal münaqişəyə cəlb edilməsinin əleyhinə çıxaraq, həmin təsir barədə ucadan danışmağa başlamışlar. Bununla əlaqədar Rusiyanın xarici işlər naziri S.Lavrovun fikirləri maraq doğurur. O demişdir ki, yeni, bu dəfə artıq sivilizasiyalar arasında cərəyan edən "soyuq müharibədə" Rusiya "cəbhə dövləti" rolu oynaya bilməz və bu rolu oynamayacaqdır. Çox güman ki, elə Avropada da buna hazır deyillər, orada hələ tam anlamayıblar ki, onlar da islam dünyasının bir hissəsinə çevrilmişlər... Rusiya məsələlərə münasibətdə siyasətin əsas məhsulu olan kompromisin yaradıcılıqla axtarışına yalançı, bizdə məşhur olan bədnam "prinsiplərimi qurban verə bilmərəm" və yaxud "kim bizimlə deyilsə, o, bizə qarşıdır" tipli postulatlara əsaslanan məhdud baxışların tərəfində ola bilməz"[2].

Bu baxımdan aşkar görünür ki, bəzi təhlilçilər Qərb ilə müasir aləmdə nəinki sürətlə inkişaf edən din olan, həm də

[1] Дж.Сорос. О глобализации. М., 2004, стр 77.
[2] "Moskovski komsomolets" qəzeti, 3 mart 2006-cı il.

mondializmin geosiyasi determinantı hesab edilən dünyabaxışı paradiqması olan İslam arasında münaqişənin yetişməkdə olduğunu dərk edirlər. Lakin Nayell Ferqyusonun fikrincə, "İslam dünya siyasətində fövqəldövlət resurslarına malik olmayan pərakəndə qüvvə kimi qalmaqdadır"[1].

Sirr deyildir ki, bəşəriyyətin bütün tarixi ərzində dindən çox vaxt siyasətdə kütləvi şüura və ictimai proseslərə təsir vasitəsi kimi istifadə edilmişdir. İudaizm, xristianlıq və İslam tarixində bu fikri təsdiqləyən misallar çoxdur. Zelotları və irodçuları, xaç yürüşlərini, Varfolomey gecəsini, İslamın sünni və şiə məzhəblərinə parçalanmasını xatırlamaq kifayətdir. Bütün bu hallarda mənafelərin toqquşmasının səbəbi təkcə teoloji konseptlərdən ibarət olmayıb, həm də müəyyən dərəcədə dünya dinlərindən birinin bu və ya digər şaxəsinin tərəfdarları arasındakı siyasi ziddiyyətlərlə bağlı idi. N.Ferqyuson yazır: "Əslində, nə bütün dünyanı əhatə edən xristianlıq olmuşdur, nə də eyni miqyaslı Çin imperiyası. Reallıq siyasi fraqmentasiya idi"[2]. Xristianlığa və İslama xas olan "ixrac" nəzəriyyəsinin mahiyyəti öz dəyərlərini başqa məkanlara intensiv yaymaqdan ibarətdir. Üçüncü minillikdə yeni dünya nizamı İslamın Qərbə hücumunu dirçəldərək, ona "ixrac edilən din" statusu vermişdir. Məsələn, tarixdən məlumdur ki, ötən əsrin 80-ci illərinin əvvəllərində Xomeyni İslam inqilabının, əsasən, silahlı yolla ixrac edilməsi konsepsiyasını irəli sürmüşdür. İnqilab Fars körfəzi ölkələrinə ixrac edilirdi. Xomeyninin Tehrandan körfəz ölkələrinə təyin edilmiş nümayəndələri İranın həmin dövlətlərdəki səfir-

[1] Н.Фергюсон. Мир без гегемона. Журнал "Россия в глобальной политике". 26.01.2005, www.globaffairs.ru

[2] Yenə orada.

lərinin işlərinə rəhbərlik etməyə başlamışdılar. Başqa sözlə desək, vaxt ötdükcə, İran emissarları elə hesab edirdilər ki, bu ölkələr müstəqilliklə vidalaşmalı olacaq, ona görə də keçmiş kralları, sultanları və əmirləri əvəz etmək arzusuna düşmüşdülər. İİR-in hərbi planlarında əvvəlcə Bəhreyn Dövləti, ikinci yerdə Küveyt, üçüncü yerdə Səudiyyə Ərəbistanı nəzərdə tutulmuşdu və s. Əvvəlcə körfəz ölkələri, sonra isə Qərb ölkələrinin əksəriyyəti bu xətti beynəlxalq terrorizm kimi qiymətləndirərək, Xomeyninin siyasətini pislədilər və çox kəskin tənqid etdilər. Məsələn, Səudiyyə Ərəbistanı İranla diplomatik münasibətlərini kəsdi.

Faktik olaraq, bütün İslam aləmi tərəfindən güclü müqavimətlə qarşılaşmış Xomeyni İslam inqilabının ixracının hərbi xarakterindən imtina etməyə məcbur oldu və öz əvvəlki xəttinin adını tez-tələsik dəyişdirərək, onu islam mədəni inqilabının ixracı kimi təqdim etdi, yəni İran inqilabının qeyri-hərbi, dinc yolla ixrac edilməsinə razılıq verdi.

Neoliberal siyasətə zidd olan başqa modellərin ixracı isə hər hansı hegemonluğun olmamasını Amerikanın qlobal hökmranlığına qarşı qoymaq cəhdi kimi qəbul edilməyə başlandı. Çox ehtimal ki, İraq rəhbərliyinin cəhdləri, xüsusən Baş nazir İbrahim Əl-Cəfərinin 2006-cı ilin mart ayında söylədiyi sözlər məhz bununla əlaqədar idi. Əl-Cəfəri demişdi ki, Birləşmiş Ştatların İraqdakı missiyası uğursuz olmuşdur və amerikalılar bu ölkədə sülhə nail ola bilməyəcəklər. Bəlkə də buna görədir ki, İraqda əsas sülhyaradıcı rolunu öz üzərinə götürmək Türkiyəyə təklif edilmişdi. Bu təklif Ankarada aparılan danışıqların gedişində Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana olmuşdu. Əl-Cəfəri demişdi: “ABŞ uduzmuşdur. ABŞ İraqda sülh yarada bilmir, bunu yalnız Türkiyə edə bilər”.

Lakin bəşəriyyət tarixində hegemonluğun mövcud olmadığı bir sistem mümkündürmü? Əlbəttə, tarix hiperdövlətləri qəbul etmir, lakin tamamilə haqlı olaraq etiraz edilə bilər ki, tarix boşluğa da dözmür. Deməli, hər hansı boşluq bir müddətdən sonra hökmən hegemonluq iddiasında olan məkan hesabına dolacaqdır.

Müasir dünyada öz üstünlüyünü təmin etməyə qabil olan fövqəlqüvvənin olmaması hibrid polisentrik sistem yaranmasını şərtləndirə bilər, bu isə total anarxiyaya gətirib çıxarar. Yeni dünya nizamında "əsas dövlətlər" onlarla həmhüdud regionların və dövlətlərin "problemsiz davranışına" təminat vermək iqtidarında deyildir. Deməli, hər bir problem ən qısa müddətdə transmilli problemə və bütün bəşəriyyət üçün qlobal çağırışa çevrilmək imkanı əldə edəcəkdir. Eyni zamanda, Amerikanın və Avropanın başqa ölkələrin daxili münasibətlərinə qarışması millətçilik, ekstremizm və dini fundamentalizm formasında "anticisimləri" həyata gətirir. Kolumbiya Universitetindəki Yer kürəsi İnstitutunun direktoru və iqtisadiyyat üzrə professoru Ceffri Saks demişdir: "Bunu başa düşə bilməmək "ən azı" 1979-cu ildə İran şahının devrilməsindən başlayaraq, ABŞ-ın Yaxın Şərqdə xarici siyasətindəki yeni uğursuzluqlarından irəli gəlir. ABŞ-da hələ də sadəlövhcəsinə belə hesab edirlər ki, Yaxın Şərq neftlə və ya başqa məqsədlərlə bağlı manipulyasiyaların obyektidir. Yaxın Şərqin hər yerində hesab edirlər ki, İraqdakı müharibə ABŞ-ın Fars körfəzində neftə nəzarət etməsi uğrunda müharibədir. Həmin müharibənin əsl kökləri barədə bildiklərimizi nəzərə alsaq, bu fikir kifayət qədər inandırıcıdır. ABŞ (və Böyük Britaniya) rəhbərlərini Qərb qoşunlarını İraqda işğalçılar kimi deyil, xilaskarlar kimi qarşılayacaqlarına inanmağa yalnız onların ağlasığmaz dərəcədə lovğalığı və sadəlövhlüyü məcbur edə bilərdi"[1].

[1] "Exo" qəzeti, 7 mart 2006-cı il.

Real hegemonun yoxluğu beynəlxalq səhnədə birincilik iddiasında olan aşağıdakı qüvvələrin meydana gəlməsi təsəvvürünü yaradır:

- Avropa İttifaqı;
- Asiya (Çin, Hindistan, Pakistan);
- Rusiya;
- Ərəb dünyası.

Lakin vəziyyəti daha dərindən təhlil etdikdə aşkar görünür ki, həddən artıq pərakəndə infrastruktur olan Avropa İttifaqı perspektivdə Birləşmiş Ştatlara siyasi və iqtisadi alternativ olmaq üçün yetərli iqtisadi sıçrayışı təmin etməyə qabil deyildir. Avropa İttifaqının daxilində bir sıra siyasi məsələlər barədə mövqelər əhəmiyyətli dərəcədə fərqlənir, bu isə Avropanı vahid siyasi orqanizmə çevirməyə mane olur. Konstitusion baxımdan strukturlaşdırılmış Avropanın konkret mənzərəsinin olmaması, eləcə də Türkiyə və Xorvatiyanın Avropa İttifaqında ehtimal edilən üzvlüyü məsələsinin müzakirəsi zamanı təşkilatın üzvləri arasındakı ciddi fikir ayrılıqları müasir Avropanın başqa sifətli olmasını açıb göstərdi və onu vahid siyasi-iqtisadi prosesin real tərkib hissəsinə çevrilmək imkanından məhrum etdi.

Avropa nə qədər güclü olsa da, G7 (“Böyük yeddilik”) qrupuna daxil olan dövlətlərin hərbi büdcələrinin ümumi məbləği qədər qiymətləndirilən ABŞ-ın hərbi səviyyəsinə çata bilməyəcəkdir. Hətta mövcud problemlərə baxmayaraq, – məsələn, qanunla dövlət borcunun yuxarı həddi 8,2 trilyon dollar səviyyəsində müəyyən edilmiş çevrəsində qalmaq üçün keçmiş maliyyə naziri Con Snounun təbirincə desək, ABŞ-ın “bütün qanuni və ehtiyat tədbirləri tükənmişdir”

(İTAR-TASS, 7 mart 2006-cı il), – Amerika hələ uzun müddət bütün dünyada maliyyə proseslərinin və siyasi transformasiyaların önündə qalmağa qadirdir.

Avropa beynəlxalq mübahisələrin həllində yalnız münsif roluna iddia edə bilər. Lakin Avropanın "xristian müstəsnalığı" barədə daimi qeybətlər, eləcə də etnoslararası və lokal münaqişələrin həllində Avropa dövlətlərinin passiv rolu bu hüququ yenidən ABŞ üçün saxlayır. Yuqoslaviya ətrafında münaqişə bu fikrin doğruluğunu nümayiş etdirdi.

Asiya dünya məkanının sürətlə inkişaf etməkdə olan regionudur. Bu regionda Hindistan və Pakistanın nüvə silahı var, Çin əsl "iqtisadi möcüzə" göstərmişdir. Çinin iqtisadi baxımdan yüksək sürətlə inkişaf etməsi isə belə nikbin proqnozlar üçün əsas verir ki, yaxın 30-40 ildə onun ümumi daxili məhsulunun həcmi Amerikanın müvafiq göstəricisini üstələyəcəkdir. 1978-2003-cü illərdə Çində adambaşına ÜDM orta hesabla hər il 6,1 faiz artmış, 25 il ərzində 337 faizə bərabər olmuşdur[1]. Bu, çox sanballı artım olsa da, rekord göstərici deyildir. Bununla bərabər, bazar iqtisadiyyatı yolunu seçmiş və kommunistlərin rəhbərlik etdiyi, həddən artıq əhalisi olan Çin perspektiv üçün çoxlu məsələlər qarşıya qoyur.

Çində iqtisadi yüksəlişin başlanğıcında adambaşına ÜDM ABŞ-dakı müvafiq göstəricinin 1/20-nə bərabər idi. Lakin hətta indi – 25 il davam etmiş sabit tərəqqidən sonra Çində adambaşına ÜDM ABŞ-ın göstəricisinin cəmi 15 faizini təşkil edir. Lakin "elə güman etmək lazım deyil ki, guya Çinin iqtisadi tərəqqisi nə isə fövqəltəbii və ya ötəri bir haldır.

[1] Martin Wolf. Why is China growing so slowly, Foreign Policy, January-February, 2005.

Bunların heç biri düzgün deyildir. Çinin sürətli tərəqqisi üçün sosial və siyasi maneələr çox ciddidir, lakin bu ölkənin imkanları əvvəlki kimi genişdir"[1].

Hindistan müasir dövrdə iqtisadiyatı sabit inkişaf edən və informasiya-kommunikasiya texnologiyalarının intensiv inkişaf potensialına malik olan bir regional dövlətdir. Multimilli korporasiyaların əksəriyyəti Hindistan ərazisindən istehsalat birliklərinin yerləşdirilməsi üçün münasib məkan kimi istifadə edir, çünki burada işçi qüvvəsi Avropa və ya Amerikada olduğundan xeyli ucuzdur.

1998-ci ilin dekabr ayında Rusiya hökumətinin o vaxtkı sədri Y.Primakov Moskva-Dehli-Pekin "strateji üçbucağı" yaratmaq təşəbbüsü ilə çıxış etmişdi. Rusiya tərəfinin fikrincə, bu ittifaq, sadəcə, üç ən iri qeyri-qərb dövlətinin hərbi-siyasi alyansı deyil, yeni, çoxqütblü dünyanın "təməl daşı" olmalı idi. Onun hər bir "bucağı", öz növbəsində, planetin başqa dövlətləri ilə çoxsaylı analoji "çoxüzlü" münasibətlərlə bağlı olmalı idi. Rusiyanın qəti inamına görə (Hindistan və Çin də bu fikrə şərik idi), yeni çoxqütblü dünyada əsas rolu hegemon fövqəldövlət deyil, dünya birliyinin bütün üzvlərinin mənafelərini nəzərə alan münsif – demokratik beynəlxalq təşkilat olan BMT oynamalıdır. Lakin Kremlin Moskva-Berlin-Paris oxuna bənzər bir sıra başqa təklifləri kimi, bu ittifaq da yalnız təhlilçilərin təfəkküründə və bəzi siyasətçilərin baxışlarında qaldı. Belə "oxların" əksəriyyəti Moskva ilə strateji tərəfdaşlığa xeyirxahlıqla yanaşan bu və ya digər siyasətçilərin hakimiyyəti dövründə, – məsələn, kansler G.Şröderin dövründəki kimi, – müvəqqəti mümkün olurdu.

[1] Martin Wolf. Why is China growing so slowly, Foreign Policy, January-February, 2005.

Təbii ki, həm Hindistanın, həm də Çinin Rusiya ilə sıx əlaqələri var və onları bağlayan mövcud əlaqələrin təkcə hərbi-siyasi müstəvisi deyil, həm də iqtisadi müstəvisidir. Hərçənd, bəzi rusiyalı və xarici təhlilçilərin bildirdikləri kimi, bu strateji alyansın həyata keçirilməsinin nə dərəcədə real olması barədə haqlı sual doğur. Rusiya ilə Çin arasında, Çin ilə Hindistan arasında hələ də bir sıra ciddi, o cümlədən fikir ayrılıqları, ərazi mübahisələri, nüvə silahı sınaqları məsələsi və ya qeyri-leqal immiqrasiya problemi kimi çox mühüm məsələlər qalmaqdadır. Ona görə də aydındır ki, "Hindistan, Çin və Rusiya istər mədəni-sivilizasiya baxımından, istərsə də iqtisadi baxımdan vahid konqlomerat təşkil etmir və təşkil edə bilməz"[1].

Ümumiyyətlə, Hindistan və Pakistan həm ayrı-ayrılıqda, həm də Çin ilə konqlomerat şəklində yaxın gələcəkdə Amerika Birləşmiş Ştatlarının hərbi-siyasi və iqtisadi hökmranlığına mümkün alternativin reallaşdırılmasına heç yaxınlaşa da bilməzlər. Lakin ABŞ-da ən çox həyəcan doğuran nə konfusi təlimini rəhbər tutan Çindir, nə buddist Hindistan, nə də müsəlmanların əksəriyyət təşkil etdiyi Pakistan. ABŞ-ı ən çox narahat edən İslam ilə eyniləşdirilən Ərəb dünyası və sürətlə transformasiya etməkdə olan Rusiyadır.

Müasir Rusiya öz siyasi və iqtisadi potensialı ilə dünya siyasətində dominantlıq iddiasına düşə bilməz, lakin o, uğurlu geosiyasi oxlar qurmaqla dünya nizamını polisentrik müstəviyə yönəltməyə çalışır. Təbii ki, Rusiya nüvə dövlətidir və tamamilə aydındır ki, Amerika-Rusiya strateji əlaqələrinin "bal ayı" artıq geridə qalmışdır. Harvard Universiteti nəzdindəki Rusiya və Avrasiya tətqiqatları mərkəzinin

[1] К.Ефремова. Стратегический треугольник "Россия – Индия – Китай" и концепции "нового мирового порядка", www.rami.ru

direktorlarından biri, Uels kollecinin professoru Marşall Holdman demişdir: "Bu, ABŞ-ın dövlət katibi Kondoliza Raysın bu yaxınlarda Moskvadakı çıxışından məlum olmuşdur. Rusiya bir sıra məsələlərdə, o cümlədən Suriya, İran, silah alveri məsələlərində get-gedə daha mənfi rol oynayır… Terrorizmə qarşı müharibədə maraqlı vəziyyət yaranmışdır. ABŞ terrorçuları Əfqanıstandan qovub çıxaranda Rusiya bizə mühüm kəşfiyyat məlumatları verməklə qiymətli xidmətlər göstərirdi. Lakin terrorizmə qarşı müharibə cəbhəsi Yaxın Şərqə, Rusiyanın ənənəvi təsir rayonuna keçəndə Kreml daha çox ikili rol oynamağa başlamışdır"[1].

Rusiyanın beynəlxalq münasibətlərdə özünü müstəqil oyunçu kimi get-gedə inamlı hiss etməsi, məsələn, onun Yaxın Şərqdə öz "simasını" qoruyub saxlamaq cəhdləri ABŞ-da müəyyən narahatlıq doğurur. ABŞ milli kəşfiyyatının direktoru Con Neqropontenin 2006-cı il fevral ayında Senatın silahlı qüvvələr komitəsindəki bəyanatı buna sübutdur. Neqroponte, onun fikrincə, Rusiya cəmiyyətində cərəyan edən "hakimiyyətin mərkəzləşməsi, vətəndaş cəmiyyətinə nəzarət edilməsi, iqtisadiyyatın strateji sektorlarına dövlət nəzarətinin güclənməsi" kimi proseslərə istinad edərək demişdi: "Yaxın bir neçə ildə Rusiyanın başı öz daxili məsələlərinə qarışa bilər və onda o, ABŞ-la danışıqlarda yola gətirilməsi çətin ola biləcək tərəfdaşa çevriləcəkdir"[2].

ABŞ milli kəşfiyyatı başçısının fikrincə, "geniş yayılmış korrupsiyanın saxlanması" ilə birlikdə bu meyillər "ölkənin getdiyi istiqamət barədə sual doğurur". Bununla bərabər, Neqroponte vurğulayır ki, "neft və qaz ixracından əldə olunan mənfəət, habelə ölkənin daxilində və xaricin-

[1] http://www.seagullmag.com

[2] www.strana.ru//РИА "Новости".

dəki siyasi fəaliyyətin uğur kimi qəbul edilməsi Moskvanın inamını möhkəmlətmişdir.

Rusiyanın G8 ("Böyük səkkizlik") qruplaşmasında iştirakına baxmayaraq, qalan "yeddilik" onu postsənaye dövlətləri birliyinin tamdəyərli üzvü hesab etmir, çünki onun postmodern dövrünün əsas aspektlərini inteqrasiya etmək cəhdlərinə dəlalət edən real tranzit şəraiti yoxdur. Bunun səbəbləri təkcə Rusiyanın tamamilə haqlı mövqeyində – paternalist tədbirlər vasitəsilə, eləcə də ölkənin siyasi və iqtisadi inkişafına dövlət nəzarəti vasitəsilə milli mənafeləri müdafiə etməsində deyildir. Hətta SSRİ dağılandan sonra da Qərbin Rusiyaya münasibətləri vektorunda ser Uinston Çörçillin Fulton nitqindən bəri ciddi dəyişikliklər baş verməmişdir. Həmin nitqdə yeni dünya nizamının formalaşdırılması prinsipi və bu dünya nizamında Rusiyanın (o vaxtkı SSRİ-nin) yeri dəqiq göstərilmişdi.

Amerikalı politoloq Ariel Kohen Heritage fondunun təhlilində yazır: "Sovet dövründə olduğu kimi, bu gün də Rusiya Yaxın Şərqdə siyasi "əl-qol azadlığını" maksimum genişləndirməyə, eyni zamanda, Vaşinqtonun manevr etməsi üçün məkanı məhdudlaşdırmağa çalışır. Yada salaq ki, 1980-ci illərdə, Mixail Qorbaçovun dövründə Sovet İttifaqı Xomeyni İranına ən çox silah verən ölkə olmaqla yanaşı, həmin dövrdə İranın uzun müharibə apardığı Səddam Hüseyn İraqına da silahlar satırdı... İndi Moskvanın islamçı radikalların nazı ilə oynaması Stalinin Hitlerlə "oyunlarını" xatırladır. Məlum olduğu kimi, həmin oyunlar 1941-ci ildə Almaniyanın SSRİ üzərinə hücumu ilə başa çatmışdı. Rusiya islamçı yaraqlıların vəhşiliklərindən, məsələn, Beslandakı məktəbdə və Dubrovkadakı teatrda törədilmiş terror aktları zamanı zərər çəkmişdir – həmin hadisələr zamanı yüzlərlə

girov, o cümlədən uşaqlar həlak olmuşdur. Rusiyanın HƏMAS-a legitimlik vermək cəhdləri, sadəcə olaraq, səmərəsiz cəhdlərdir. Xüsusən Çeçenistanda və Şimali Qafqazın digər respublikalarında islamçıların qiyamının get-gedə geniş miqyas almasını, ölkədə müsəlman əhalinin sayının artmasını nəzərə alsaq, "sakitləşdirmək" siyasəti Rusiyanın özünə qarşı təcavüzü yalnız təşviq edəcəkdir..."[1].

Amerikalı təhlilçilər Rusiyanın daha çox təşviş doğuran əsas hərəkətləri sırasında aşağıdakıları göstərirlər:

- Rusiya nüvə reaktorları tikir və İrana silah göndərir; Suriyaya zenit kompleksləri satır, perspektivdə isə ola bilsin ki, HƏMAS-ın idarə etdiyi Fələstin muxtariyyətinə də satacaqdır;
- Tehranın regionda hegemona çevrilməsinə şərait yaradır ki, bu da ABŞ-ın Fars körfəzinə yolunu bağlaya bilər;
- Yaxın Şərqə təsir məsələsində ABŞ-la bərabərləşməyə çalışır və eyni zamanda, radikal islamçıları "sakitləşdirir";
- regionda sabitliyi pozur, bu isə neftin qiymətinin artmasına gətirib çıxarır və bu xammalı ixrac edən ən iri ölkələrdən biri kimi, Rusiya birbaşa fayda götürür[2].

2006-cı ilin fevral ayında Council for Foreign Relations (Beynəlxalq Münasibətlər Şurası) adlı tədqiqat təşkilatı Rusiyaya aid "Səhv yolla gedən Rusiya. ABŞ nə edə bilər və etməlidir" (Russia's Wrong Direction: What The United

[1] А.Коэн. США должны предостеречь Россию от "советского стиля" в ближневосточной политике. The Heritage Foundation, 7 марта 2006 г. www.inosmi.ru

[2] Yenə orada.

States Can and Should Do) adlı məruzə dərc etmişdir. Bu sənəd ən iri partiyaların – Respublikaçılar Partiyasının (keçmiş konqresmen və ABŞ vitse-prezidenti vəzifəsinə namizəd Cek Kemp (Jack Kemp) və Demokratlar Partiyasının (keçmiş senator, 2004-cü il seçkilərində ABŞ vitse-prezidentliyinə namizəd Con Edvards (John Edwards) görkəmli nümayəndələri başda olmaqla, bir qrup məşhur ekspertlər tərəfindən hazırlanmışdı.

Məruzədə deyilirdi ki, SSRİ dağılandan 15 il sonra Sovet-Amerika münasibətləri açıq-aşkar səhv istiqamətdə cərəyan edir. Rusiya və ABŞ-ın "strateji tərəfdaşlığı" ideyası tamamilə haqlı ideya idi, lakin indi bu ideya real təsir bağışlamır. Hazırda ABŞ-ın qarşısında duran əsas məsələ bu tərəfdaşlığın həyat qabiliyyətini nə yolla təmin etmək deyil, beynəlxalq birliyin qarşısında duran aktual məsələlərin həllinə nail olmaq üçün beynəlxalq siyasətin bəzi sahələrində Rusiya ilə hansı şəkildə əməkdaşlıq etmək məsələsidir.

Məruzədə ən çox narahatlıq doğuran aşağıdakı sahələr sadalanmışdır:

1. Demokratiyadan uzaqlaşma. Rusiyada siyasi təsisatlar korrupsiyaya qurşanmış və sabitliyi itirmişlər. Nəticədə Rusiyanın təhlükəsizlik sahəsində problemlərə reaksiya vermək imkanları azalır. Bir sıra sahələrdə, məsələn nüvə materiallarının təhlükəsizliyinin təmin ediməsi və kəşfiyyat informasiyasının mübadiləsi sahələrində ABŞ ilə əməkdaşlıq çətinləşmişdir.

2. Energetika. Rusiya energetikadan xarici siyasətdə silah kimi istifadə edir. Rusiya iqtisadiyyatının energetika sektoruna dövlət nəzarətinin güclənməsi həmin silahdan dönə-dönə istifadə ediləcəyi ehtimalını artırır.

3. Terrora qarşı müharibə. Rusiya ABŞ-ın və NATO-nun Orta Asiyadakı hərbi bazalarını sıxışdırmağa çalışır. Beləliklə, Rusiya Əfqanıstanda beynəlxalq koalisiyanın uğurlarının ümumi mənafelərə xidmət etməsi mövqeyindən imtina edir.

4. Rusiya və "Böyük səkkizlik". Rusiya qonşu Ukraynada seçkilərin nəticələrinin kütləvi şəkildə saxtalaşdırılmasını dəstəkləmiş, sonra isə bu ölkənin əhalisini düzgün seçim etmədiyinə görə cəzalandırmış, qaz göndərilməsini dayandırmışdır. Dünyanın ən iri demokratiyaları, ən azı, qeyri-formal şəkildə Rusiyaya göstərməlidirlər ki, bu cür hərəkətlər yolverilməzdir.

Bununla bərabər, məruzə müəllifləri aşağıdakı tövsiyələri verirlər:

Demokratikləşmə. ABŞ Rusiyanın vicdanlı və ədalətli parlament və prezident seçkilərinin keçirilməsini təmin edən təşkilatlarının dəstəklənməsini nəinki azaltmamalı, hətta gücləndirməlidir.

"Böyük səkkizlik". "Səkkizliyin" nüfuzunu qorumaq üçün bu təşkilatda müvəqqəti prezidentliyin Rusiyaya məxsus olmasının ədalətliliyinə çoxlarının şübhə etməsinə baxmayaraq, ABŞ birmənalı şəkildə nümayiş etdirməlidir ki, Rusiyanın yeni rolu onun bu cür siyasət yeritməsinə və belə hərəkətlər etməsinə haqq vermir. "Böyük səkkizliyin" nüfuzlu beynəlxalq forum kimi qalması üçün onun tərkibində "Böyük yeddiliyin" (yəni Rusiya daxil olmamaqla, sənaye cəhətdən inkişaf etmiş yeddi dövlət) de-fakto bərpası tələb edilir. ABŞ və onun müttəfiqləri "Böyük səkkizliyi" dağıtmadan öz hərəkətlərini daha yaxşı əlaqələndirə bilər.

Energetika. ABŞ Rusiyanın energetika siyasətini öz energetika siyasətinə əvəz hesab etməməlidir. Əgər ABŞ və onun

müttəfiqləri enerji daşıyıcılarının satışının artırılmasına, təchizatçıların sayının və nəqliyyat marşrutlarının şaxələndirilməsinə, enerji daşıyıcılarından istifadənin səmərəliliyinin artırılmasına gətirib çıxaran strategiya işləyib hazırlaya bilməsə, bu Rusiyanın öz bazar mövqelərindən siyasi məqsədlər üçün istifadə etmək imkanlarını yalnız artıracaqdır. ABŞ başqa hökumətlərlə, ilk növbədə Avropa dövlətlərinin hökumətləri ilə əlbir işləməlidir ki, Rusiyanın dövlət nəzarətində olan şirkətləri də adi kommersiya qurumları kimi işləsinlər.

Ticarət və Dünya Ticarət Təşkilatı (DTT). Məruzənin müəllifləri Rusiyanın DTT-yə daxil olmasına tərəfdardırlar, lakin bir şərtlə – bu, Rusiya üçün siyasi hədiyyə olmamalıdır. Rusiyanın DTT-yə daxil olması onun iqtisadiyyatının daha da liberallaşdırılmasına müsbət təsir göstərməli və beynəlxalq ticarət sahəsindəki mövcud qaydaların Rusiya tərəfindən tamamilə qəbul olunmasını nümayiş etdirməlidir.

İran. Rusiya nüvə sahəsində İranla əməkdaşlıq dairəsini məhdudlaşdırmışdır, bu, ABŞ-ın ənənəvi şübhələrini azaltmalıdır. Rusiya başa düşməlidir ki, beynəlxalq birlik lap yaxın vaxtlarda İranı nüvə proqramlarından əl çəkməyə məcbur etmək zərurəti ilə üzləşə bilər, bu isə nüvə sahəsində, o cümlədən Buşəhrdə AES tikintisi sahəsində Rusiya-İran əməkdaşlığının kəskin şəkildə ixtisar edilməsi zərurətinə gətirib çıxaracaqdır.

Rusiyanın qonşuları. ABŞ Rusiyanın öz çevrəsindəki hərəkətlərinə qoşulmamaq siyasətindən imtina etməlidir. Rusiyanın qonşularının beynəlxalq iqtisadiyyatla əlaqələrini dərinləşdirmək müttəfiqlər və tərəfdaşlar seçimində və ya demokratik dəyişikliklər aparılmasında imkanlarının məhdudlaşdırılmasında legitimlikdən əsər-əlamət yoxdur.

2008-ci ilin prezident seçkiləri. Qərb hökumətlərinin vəzifəsi ondan ibarətdir ki, Rusiyanın hakimiyyət orqanları seçkilərin açıq, konstitusiyaya uyğun və plüralist ruhda keçirilməsini təmin etsinlər.[1]

Rusiya Avrasiya dövlətidir, burada məskunlaşmış pravoslavların, müsəlmanların və yəhudilərin, eləcə də öz muxtar qurumları olan müxtəlif etnik qrupların mənafeləri təmsil edilmişdir. İndi Rusiya postsovet məkanında və Yaxın Şərqdə özünün keçmiş üstünlüyünü bərpa etməyə çalışır. Lakin Gürcüstan və Ukraynadakı "məxməri" inqilablar, Mərkəzi Asiyada mövqelərin itirilməsi, eləcə də siyasi təsisatların funksionallığının məhdudlaşdırılması ilə əlaqədar Qərbin sərt təzyiqi və sərt qaydalarla idarə edilən demokratiya, habelə Rusiya iqtisadiyyatının Amerika iqtisadiyyatından maliyyə asılılığı yaxın perspektivdə yeni hegemon yaranması imkanına alternativ variant saxlamır. Hərçənd, bu da istisna olunmur ki, Rusiya hətta fövqəldövlət olmasa belə, bir neçə regionun siyasətində "həlledici söz" demək hüququnu özündə saxlayır.

Neoliberal modelin yayılmasına növbəti təhlükə ərəb dünyasının maliyyə imkanları və islam dini tərəfdarlarının sayı ilə bağlıdır. Bu kitabın əvvəlki hissələrində biz islamın mahiyyəti və müasir beynəlxalq münasibətlərdə onun rolu barədə söhbət açmışdıq. Lakin indi ərəb dünyası barədə ayrıca bir geosiyasi vahid kimi danışmaq olarmı? Əlbəttə, ərəb dünyası iri karbohidrogen ehtiyatlarının mənbəyi və külli məbləğdə maliyyə vasitələrinin sahibidir. Bu cür energetika arteriyalarının mövcud olması inamlı, bəzən hətta düşünülməmiş addımlar atmağa və bu zaman islam aləminin ümdə problemlərinin həllindən kənar və bu problemlərə biganə qalmağa imkan verir.

[1] http:/www.cfr.org/content/publications/attachments/Russia_TaskForce.pdf

İslam intensiv inkişaf edən dindir, islam dövlətlərinin əksəriyyəti isə sanballı neft və qaz ehtiyatlarına malikdir. Bütün bunlarla yanaşı, həmin məkanlarda elmi-texniki tərəqqinin nailiyyətlərinin və normalarının mənimsənilməsi ətalətli rejimdə baş verir, bu isə həmin cəmiyyətlərin postmodern məkanına yetərincə tranzitinə imkan vermir. Lakin əhalinin hər nəfərinə düşən illik gəlir orta hesabla 10.000 ABŞ dollarından çox olan Səudiyyə Ərəbistanının postindustrial ölkə olmadığını deyə bilərikmi, yaxud iqtisadi potensialı təqribən Səudiyyə Ərəbistanı ilə eyni olan Birləşmiş Ərəb Əmirlikləri və Qətər belə ölkə olmaya bilərmi? Bu ölkələrin təbii imkanları iqtisadi baxımdan onları ən uğurla inkişaf etmiş dövlətlər onluğuna daxil etməyə əsas verir. Lakin onlar çox iri karbohidrogen yataqları sayəsində bu səviyyəyə çatmışlar. Bu isə neft sənayesini və onunla bağlı sahələri inkişaf etdirməyə, regionu onların büdcəsini artıran milyonlarla turist üçün cəlbedici etməyə imkan vermişdir. Amma hər halda, bu məkanlar sosiomədəni baxımdan yaxın gələcəkdə çətin ki, postmodernə transformasiya etsin. Bu cəmiyyətlərin kütləvi şüuru, ictimai inkişaf ənənələri onların postindustrial mərhələsinə tranzitini nəzərdə tutmur.

Ərəb dünyası siyasi baxımdan ABŞ-ın terrorizmə qarşı müharibəsində onu dəstəkləyən, Yaxın Şərqdə "üçüncü demokratik dalğanın" genişlənməsinə, Əfqanıstanın və İraqın "qərbləşdirilməsinə" "dinməzcə" kömək edən dövlətlərə, eləcə də ABŞ-ın siyasətini hüquqazidd və ayrı-seçkilik siyasəti hesab edən avtarkiyalara bölünmüşdür. Bütün bunlara baxmayaraq, "Mərakeşdən Pakistana qədər dövlətlərdə aparılmış rəy sorğuları burada fikir birliyinin deyil, davamlı anti-amerka əhval-ruhiyyəsinin olmasını göstərir"[1].

[1] Н.Фергюсон. Мир без гегемона. Журнал «Россия в глобальной политике». 26.01.2005, www.globaffairs.ru

İslam dünyasının "qapalılığı" Qərb ideyalarının və Qərb həyat tərzinin təzyiqi altında mədəni identikliyi və öz mənəvi "Mən"ini qoruyub saxlamaq cəhdləri, habelə bir sıra məsələlərin həll edilməməsi, o cümlədən məsələn, elə həmin Fələstinə münasibətdə ədalətli rəftar tələbinin təsiri ilə bağlıdır. Bu baxımdan biz Qərbin çağırışına iki CAVABIN reallaşmasının şahidlərinə çevrilirik. Qərbin universal dəyərlərinin qəbul edilməməsi İsa peyğəmbərin mövludundan əvvəlki əsrdə və yəhudilərin iki partiyaya – "zelotlara" və "irodçulara" parçalanmasından sonrakı birinci əsrdə yəhudi tarixinin oxşar dövrünü xatırladır.

A.Toynbi bu barədə yazır: "Zelot naməlumdan xilas yolunu məlumda olanda axtaran adamdır və əgər o, taktikası onun taktikasından üstün olan, qorxulu müasir silahdan istifadə edən düşmənlə savaşda iştirak edirsə, özünün ənənəvi hərbi məharətini xüsusi səy və diqqətlə tətbiq edir". İrodçu isə "naməlumdan özünü qorumağın ən səmərəli yolu – onun sirlərini öyrənməkdir prinsipi ilə hərəkət edən" adamdır və "irodçu" özündən daha təcrübəli və daha yaxşı silahlanmış düşmən qarşısında çətin vəziyyətə düşəndə özünün ənənəvi hərbi məharətindən imtina edir və düşmənə qarşı onun öz silahı ilə və onun öz taktikasına yiyələnməklə savaşmağı öyrənir"[1].

Müsəlman dünyası, o cümlədən Türkiyə, keçmiş Sovet İttifaqının əhalisi əsasən müsəlmanlardan ibarət olan ölkələri (Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və sair), Səudiyyə Ərəbistanı, Qətər, BƏƏ və başqaları qərb aləmi ilə paralel tarixi inkişaf üçün müasir dövrün nailiyyətlərindən istifadə edir və bu zaman öz mədəni identikliyini və əsrlər

[1] А.Тойнби. Цивилизация перед судом истории. М., 2002, стр.384, 387-388.

boyu formalaşmış milli inkişaf xüsusiyyətlərini qoruyub saxlamağa çalışır. Digər ölkələr, məsələn, Səddam Hüseynin dövründə İraq və "Taliban" hərəkatının hakimiyyətdə olduğu dövrdə Əfqanıstan öz mədəni identikliyini qoruyub saxlamaq üçün "zelotların" yolunu seçmişdi. Lakin "zelot" instinktiv tərzdə, "irodçu" isə sağlam mühakimə ilə hərəkət edir.

Dünya tarixində islam və xristianlıq dəfələrlə üz-üzə gəlmişdir. Ərəb Xilafətinin sərhədləri İspaniyaya çatmışdı, bir neçə əsrdən sonra isə islam bu torpaqlardan qovuldu. Başı öz sərhədlərində müharibələrə qarışmış Ərəb Xilafəti, sonra isə Osmanlı imperiyası da yeni torpaqları fəth etməklə öz təsir dairəsini genişləndirmək imkanını itirdi. Halbuki, Ərəb Xilafəti dünyada ilk hərbi dəniz donanması yaratmış dövlət idi.

A.Toynbinin aşağıdakı sözləri yeni qarşıdurma vəziyyətini çox yaxşı əks etdirir: "Divara sıxışdırılan İslam bu dəfə səlib yürüşlərinin ən böhranlı vaxtlarındakından daha əlverişsiz şəraitdə yenidən Qərblə üz-üzə dayanmışdır. Müasir Qərb İslamdan təkcə silahın gücünə görə deyil, həm də son nəticədə hərb elminin söykəndiyi iqtisadiyyatda çox-çox üstündür. Lakin hər şeydən çox bizim sivilizasiya adlandırdığımızı yaradan və zahiri əlamətlərini qoruyub saxlayan yeganə daxili qüvvə – mənəvi mədəniyyət baxımından güclüdür"[1].

Bu "qapalılıq" ərəb ölkələrinin milli varlığının iki aspektinin nəticəsidir. Əvvələn, bu cəmiyyətdə iqtisadi inkişaf tamdəyərli və taraz deyil, burada qəflətən kəskin sosial təbəqələşmə baş verir. Belə məkanlar cəmiyyətin öz ənənələrinə və köklərinə sadiq olan yoxsul əhaliyə və ana dili ilə ingilis dilinin qarışığını, nəhəng limuzinlərə və şəhərətrafı

[1] А.Тойнби. Цивилизация перед судом истории. М., 2002, стр.383.

tikililərə inteqrasiya edən varlı təbəqələrə bölünməsi problemi ilə üzləşdikdə cəmiyyət daxilində sabitlik pozulur, necə deyərlər, boşluqda burulğanlıq yaranır. Mədəni seqmentin boşluğu dualist hibrid sistemlə doldurulur, müzikllər, komikslər, Qərb ədaları və Qərbə xas olan istehlakçılıq meyilləri yüksək mədəniyyət nümunələri kimi qəbul edilir.

İkinci aspekt avtarkiyalarda daha çox nəzərə çarpır və geosiyasi baxımdan xeyli dərəcədə ziddiyyətləri ifadə edir. ABŞ Prezidenti Corc Buş (oğul) 2002-ci ildə özünün illik müraciətində bu cür avtarkiyaları "şər oxu" adlandırmışdı. Onun fikrincə, İran və Suriya genişlənməkdə olan demokratiya dalğası üçün təhlükədir. 2006-cı il yanvarın 10-da İran uranın saflaşdırılmasına dair eksperimentlər keçirməyə başlayanda o, bircə anda ərazisində "Şok və həyəcan" aksiyasına oxşar növbəti aksiyanın həyata keçirilməsi ehtimalı yüksək olan ölkələr siyahısına düşdü. Təbii ki, bütün bunlar Amerikaya qarşı yeni etiraz dalğasına, İranın atomdan dinc məqsədlərlə istifadə etməsinə imkan yaratmaq tələblərinə gətirib çıxardı. Başda Mahmud Əhmədinejad olmaqla İranın yeni hökumətinin insanların zəkasına və qəlbinə hakim kəsilmək uğrunda müharibəsi birdən-birə Fars körfəzi sahilində "fəal zonanın" olub-olmaması uğrunda müharibəyə çevrildi. Prezident Corc Buş "Konqresə məktub" (State of the Union) adlı illik proqram ruhlu nitqində demişdir: "ABŞ-ın rəqabətqabiliyyətli olması üçün enerji tələb olunur. Burada biz ciddi problemlərlə üzləşirik: Amerika neftdən asılıdır, neft isə çox vaxt dünyanın qeyri-sabit regionlarından idxal edilir". Bu fikrin məntiqi davamı belə ola bilər: problemi həll etmək üçün dünyanın sabitlik hökm sürən regionları zolağını böyütmək lazımdır, bunun yolu isə bizə artıq məlumdur – Əfqanıstan və İraq buna nümunə ola bilər.

Müasir dünyadakı qarşıdurma sürətlə qloballaşmaqda olan planetimizdə baş verən ziddiyyətli proseslərin dialektik inikasıdır. Bu vəziyyətin səbəbləri arasında Qərb strateqlərinin səhvlərini də qeyd etməliyik. Bu səhvlərin ən böyüyü belə bir inamdan ibarətdir ki, onların mənəvi dəyərlərinin guya universal əhəmiyyəti var və həmin dəyərlər yer kürəsinin bütün xalqları üçün yararlıdır. Həqiqətdə isə, dünya müxtəlif dəyərlər sisteminə malik olan xalqlardan və sivilizasiyalardan ibarətdir. Dünya həmişə polisivilizasiya olmuşdur və indi də belədir. Şübhə yoxdur ki, əgər Qərb başqa xalqların mədəniyyətinin nadirliyinə hörmət etməyi öyrənmiş olsaydı, istər keçmişdə, istərsə də indiki dövrdə zorakılıq xeyli az olardı.

Yeni dünya nizamının prioriteti insanların ruhuna və qəlbinə hakim kəsilmək uğrunda müharibədir. Möhkəm və davamlı sülhün təmin edilməsinə ən böyük ümid cihad ideyasını bu qədər çoxsaylı müsəlmanlar üçün cəlbedici edən mədəni və mənəvi amilləri dərindən anlamaqdan ibarətdir.

Fatih Universitetinin (İstanbul) beynəlxalq münasibətlər kafedrasının professoru Bülənt Aras yazır: “2001-ci ilin 11 sentyabr hadisələrindən sonra beynəlxalq münasibətlərin yeni müstəmləkəçilik və hegemonluq istiqamətinə yönəlməsinə baxmayaraq, hər halda, dünyanı iki zonaya: sülh zonasına və müharibə zonasına bölmək meyli yaranmışdır. Beynəlxalq terrorizm müharibə zonasında postmodernist amil kimi mövcuddur və onun məqsədi sülh zonasına hücum etməkdir. Bu sülh zonası demokratik Qərb dövlətlərindən və liberal Qərbin prinsiplərini dəstəkləyən və inkişaf etdirən ölkələrdən ibarətdir. Lakin dünya siyasətinin bu dixotomik, haçalanmış anlamı özünü doğrultmur, çünki ABŞ sülh düşərgəsinə qoşulmaq arzusunda olanların qarşısında get-gedə

daha çox maneələr törədir. Bununla belə, məhz müharibə zonasından gələn təhlükə sülh zonasının sıx birləşməsinə bu zonanın özünün inkişaf dinamikasından daha güclü şəkildə kömək edir. Burada Vallenşteynin belə bir qeydi yada düşür ki, periferiyanın dispersiyası mərkəzə yenidən təşkil olunmağa və özünü canlandırmağa kömək edir"[1].

Dünya tarixində siyasi, iqtisadi və sosial-mədəni tərəqqiyə rəhbərlik edən hegemonun olmadığı hallar çox seyrək olmuşdur. Əsrlər boyu regional anlamda iri dövlətlər və qlobal mənada böyük dövlətlər bəşəriyyəti Ktesifonda, Bağdadda, Konstantinopolda, Parisdə, Londonda və nəhayət, Vaşinqtonda yazılmış ssenari üzrə irəli aparmışdır. Bəşər tarixində mahiyyəti regional və ya qlobal kontekstdə üstünlük əldə etməkdən ibarət olmuş müharibələrin və münaqişələrin sayı-hesabı yoxdur. Bu müharibələr və münaqişələr olmasa, bəşəriyyətin necə inkişaf edəcəyini, eynilə də daim çoxqütblü olsa dünyanın necə olacağını təsəvvürə gətirmək çətindir. Qloballaşmaqda olan dünyada məkanlar təkcə geosiyasi maraq deyil, həm də xeyli dərəcədə geoiqtisadi maraq doğurur, dövlətlər və qitələr arasında intensiv qarşılıqlı münasibətlər dünya nizamının homogen sistemini mümkün edir. Lakin qarşıya çıxan təhlükə və çağırışların həllində beynəlxalq birliyin mandatı qlobal xarakter daşımır. Bu baxımdan hər yerdə anarxiya, dini fundamentalizm (bəzən belə hesab edirlər ki, fundamentalizm yalnız islama aiddir, əslində isə, heç də belə deyil), terrorçuluq fəaliyyətinin güclənməsi, mütəşəkkil cinayətkarlıq və etnik-milli münaqişələr məkanının genişlənməsi təhlükəsi yaranır. Terror şəbəkələri dövlətlərin böyük bir hissəsini əhatə edir, dini fundamentalizm isə dünya məkanını yaxın vaxtlara qədər yalnız elmi fərziyyə

[1]"Pravo i bezopasnost" jurnalı, № 2 (15), may 2005-ci il.

hesab edilən sivilizasiyaların qlobal toqquşması həddinə çatdırmağa hazırdır. Qloballaşma sabahkı günü intensiv yaxınlaşdırır və bu zaman haqlı bir sual doğur: "bəs sabahkı gün gələcəkmi"?

Kütləvi qırğın silahlarına yiyələnmək arzusunda olan terror təşkilatlarına göz yuman ayrı-ayrı dövlətlərin cəhdləri bütün bəşəriyyətin varlığını şübhə altına ala bilər. Üstəlik, pafoslu ritorika yaxud, bu və ya digər millətin və ya dövlətin qəbul edilməməsi kamuflyajı altında həmin silahdan dinc əhaliyə qarşı istifadə edilməyəcəyinə də zəmanət yoxdur.

Dünyanın inkişafı avtarkiyaların, dünyanın qərb və qeyri-qərb cəmiyyətlərinə bölünməsi hallarının həmişəlik keçmişdə qalmasını tələb edir. Yalnız bu halda konsensus əldə etmək, dünyada sabitliyə və təhlükəsizliyə nail olmaq mümkündür. "Mussolini bir dəfə çox kəskin şəkildə demişdir ki, dünyada təkcə proletar sinifləri və ya proletar şəxsiyyətlər deyil, həm də tam bir sıra proletar xalqlar vardır, görünür, hətta "irodçuların" fədakar səyləri sayəsində zahirən öz ölkələrini qərb tipli suveren, müstəqil milli dövlətlərə transformasiya etməyə və ümumdünya birliyinin nominal azad və bərabər üzvləri kimi şəfqətli qərb cəmiyyətləri ilə münasibətlər qurmağa nail olsalar belə, müasir dünyada qeyri-qərb xalqları məhz bu kateqoriyaya aiddir". Tamamilə aydındır ki, yeni dünya nizamı qeyri-qərb cəmiyyətlərinə yeni münasibətin olmasını tələb edir, eyni zamanda onların ümumdünya prosesinə sıx inteqrasiyası da zəruridir. Hegemonluqdan kənarda yaşamaq arzusu Qərbin çox vaxt zor gücünə universal dəyərlər kimi yaydığı dəyərlərin qəbul edilməməsi amili ilə şərtlənmişdir, bu isə son nəticədə Əbu-Qreybə (İraqda həbsxana adıdır) gətirib çıxarır.

Bununla əlaqədar Fərid Zəkəriyyənin fikirləri ilə razılaşmamaq çətindir. O yazır: "Həqiqi demokratiyanın qurulması

sürəkli və mürəkkəb prosesdir. Bu prosesdə hərbi metodların rolu çox cüzidir və onlar çox vaxt əks səmərə verir. İnsanı hakimiyyətin özbaşınalığından qoruya bilən təsisatların tədricən qurulması hədsiz dərəcədə əhəmiyyətlidir. Bu proses əsaslı konstitusiya islahatlarından tutmuş iqtisadi dəyişikliklər aparılmasına və daimi mədəni mübadilənin təşkil edilməsinə qədər çox müxtəlif formalarda təzahür edir. Bu prosesin son məqsədi hakimiyyətin özünü məhdudlaşdırdığı legitim dövlət yaratmaqdan, eləcə də demokratiya mədəniyyətini qəbul edən və dəstəkləyən vətəndaş cəmiyyətini formalaşdırmaqdan ibarətdir"[1].

Birinci Dünya müharibəsindən sonra fransızlar yeni "səngər müharibəsinin" onları qəfildən yaxalamaması üçün Majino xəttini çəkmiş, lakin onların üzərinə tanklar yeridilmişdi. Dünənki müharibədə qələbə barədə fikirləşərkən biz çox vaxt yeni təhdidlərlə üzləşirik. Bəzən "zelotizmə" meyil etməklə çox vaxt özümüz də sonadək başa düşmürük ki, dünyanın tərəqqisi təzadlı bir şəkildə hansısa əbədi mühərrikə oxşayır.

§ MƏNAFELƏR VƏ İNQİLABLAR

Müasir qlobal beynəlxalq münasibətlərin mühüm cəhəti formalaşmaqda olan birqütblü dünya sistemi, Sovet İttifaqı parçalanandan sonra yaranmağa başlamış bəzi oyun qaydalarıdır.

Bununla əlaqədar, başlıca bir strateji dilemma qarşıya çıxır: birqutblu dünya sistemi qlobal dünyanın kifayət qədər proqnozlaşdırıla bilən təhlükəsiz və sabit olmasını təmin

[1] Ф.Закария. Будущее свободы: нелиберальная демократия в США и за их пределами. М., 2004, стр. 42.

edirmi, yoxsa, həmin sistemdə ənənəvi təhlükələr və risklərlə yanaşı, prinsip etibarilə yeni və uzunmüddətli böhran meyilləri yaranır, bəşəriyyətin gələcəyi baxımından qeyri-müəyyənlik güclənir, beynəlxalq sistemin idarə edilməsi imkanları azalır, bunlar isə küll halında sistemin qlobal böhranına gətirib çıxarır. Hər halda, qloballaşmaqda olan dünyada onu böhranlı vəziyyətə sürükləyən meyillər müşahidə olunur.

Bu böhran, ilk növbədə, onunla əlaqədardır ki, planetimizdə bərpa olunmayan ucuz təbii ehtiyatlar, ən əvvəl enerji ehtiyatları dövrü artıq başa çatmışdır. Müasir qlobal təsərrüfatçılıq sistemi məhz ucuz neft əsasında inkişaf etmişdir. Mütəxəssislərin çoxu neftin bahalaşması və ifrat bahalaşması dövrünün başlanmasından danışır. Qarşıdakı qlobal sistem böhranı şəraitində neftin qiyməti get-gedə daha çox təkcə iqtisadi amillərlə deyil, həm də siyasi və geosiyasi amillərlə müəyyən ediləcəkdir. Buna görə də dünyada enerji ehtiyatlarına nəzarət uğrunda mübarizənin yeni dövrəsi artıq başlanmışdır və bu amansız müharibə həm də güc komponentlərindən istifadə edilməklə getdikcə yalnız kəskinləşəcəkdir. Amerika Geoloji Kəşfiyyat Agentliyinin məlumatına görə, hazırda dünyada neft ehtiyatlarının həcmi təqribən 3 trilyon barrelə bərabərdir. Özü də bu rəqəm kəşf edilməmiş ehtiyatlar da daxil olmaqla, nəzəri baxımdan mümkün olan bütün ehtiyatları əhatə edir.

bp korporasiyasının hesablamalarına görə, dünyada kəşf edilmiş neft ehtiyatları təqribən 1,15 trilyon barreldir. Bundan əlavə, təbii qazın qlobal ehtiyatları 176 trilyon kubmetrdir. Bütün dünyada enerji istehlakının artmasını nəzərə alsaq, neft yataqlarının təsdiqlənmiş ehtiyatları təqribən 30 il, qaz yataqlarının təsdiqlənmiş ehtiyatları isə təqribən 40 il kifayət edəcəkdir.

Təsdiqlənmiş neft ehtiyatları regionlar üzrə aşağıdakı kimi paylanmışdır: Yaxın Şərq – təqribən 60%, MDB – təqribən 15%, Şimali Amerika (Kanadadakı bituminoz qumdaşı və şist yataqlarında mövcud ağır neft ehtiyatları hesaba alınmadan) – 8%, Latın Amerikası – 6%, Afrika – 5%, Asiya – 4,5%, Avropa (MDB daxil olmadan) – 1,5%.

Almaniyadakı "Mineraloelwirtschaftsverband" sahəvi birliyinin məlumatına görə, 2003-cü ilin əvvəli üçün dünyanın 10 aparıcı ölkəsində təsdiqlənmiş neft ehtiyatlarının həcmi aşağıdakı kimi olmuşdur: Səudiyyə Ərəbistanı – 35,4 milyard ton; Kanada (ağır və ifrat ağır ehtiyatların bu yaxınlarda yenidən qiymətləndirilməsi nəzərə alınmaqla) – 24,2 milyard ton; İraq – 15,1 milyard ton; Küveyt – 13 milyard ton; BƏƏ – 12,9 milyard ton; İran – 12,3 milyard ton; Venesuela – 10,9 milyard ton; Rusiya – 8,2 milyard ton; Liviya – 3,9 milyard ton; Nigeriya – 3,3 milyard ton. Bu on ölkədən yeddisi islam dünyasına aiddir.

Əvvəllər olduğu kimi, yenə də neft müasir iqtisadiyyatın əvəzedilməz əsasıdır: müasir dünyada nəqliyyat sistemi neftə əsaslanır, cəmiyyətin kütləvi istehlak mallarının maddi bazasını neft təşkil edir – qablaşdırma materialları, tara, ucuz, keyfiyyətli və yüngül mebel, paltar, ayaqqabı, məişət texnikası, inşaat materialları, avtomobillər, elektroenergetika məhsullarının xeyli hissəsinin yarandığı kimya sənayesi neft hesabına işləyir.

Hətta yeni karbohidrogen ehtiyatlarının kəşf edilməsi də hazırda daim artmaqda olan qlobal tələbatı kompensasiya etmir. Hazırda ABŞ-da, Kanadada, Avropada, Yaponiyada və Koreyada neft qıtlığı sutkada təqribən 25 milyon barrelə bərabərdir. OPEK-in üzvü olan bütün ölkələr birlikdə sutkada təqribən 26 milyon barrel neft ixrac edir. 2004-cü ildə

bütün dünyada neft istehlakı orta hesabla sutkada 75-77 milyon barrel olmuşdur. 2010-cu ilə qədər neft istehlakı artaraq sutkada 93-97 milyon barrelə, 2020-ci ilə qədər sutkada 115-120 milyon barrelə çatacaqdır. Məsələn, təkcə sürətlə inkişaf etməkdə olan Çin Xalq Respublikası iqtisadiyyatının neftə illik tələbatı 2020-ci ilə qədər ikiqat artaraq, hazırkı 200 milyon tondan 400 milyon tona çatacaqdır.

Ekspertlərin hesablamalarına görə, 2050-ci ilə qədər neft istehlakının illik artımı 2-2,5 faiz olacaqdır. Eyni zamanda, neft hasilatının illik artımı hətta nikbin proqnozlara görə, cəmi 1-1,5 faiz təşkil edəcəkdir. Bundan əlavə, "neft hasilatının piki" barədə fikirlər var və bildirilir ki, müxtəlif hesablamalara görə, bu, yaxın on-on beş ildə baş verə bilər.

Məlum olduğu kimi, hələ ötən əsrin 70-80-ci illərində Roma klubunun müvafiq layihələrində (məşhur "Artımın limiti" layihəsindən başlayaraq) bəşəriyyətin təkamülünün bu yeni mərhələsinin XX və XXI əsrlərin qovuşuğunda başlanmasının labüdlüyü riyazi şəkildə proqnozlaşdırılmış və hesablanmışdır.

Təbii ki, bərpa olunmayan faydalı qazıntılardan, ilk növbədə, karbohidrogen ehtiyatlarından istifadə uğrunda qlobal rəqabət hökmən güclənəcəkdir. O cümlədən, bu rəqabətin güc komponentinin əhəmiyyəti də artacaqdır. Əslində, bu proses de-fakto artıq başlanmışdır.

"Birqütblü dünyanın" lideri olan Birləşmiş Ştatlar özünün hərbi-iqtisadi qüdrətindən istifadə edərək, müvafiq siyasi-güc mexanizmləri və vasitələrinin köməyi ilə dünya ehtiyatlarından istifadədə ənənəvi və ədalətli rəqabətdən asılı olmayan, xüsusi imkan əldə edəcəkdir. Qüvvələrin indiki qlobal nisbəti çərçivəsində belə iddia təsadüfi deyildir. ABŞ Prezi-

denti Corc Buş özünün andiçmə mərasimindən az sonra bəyan etmişdir ki, son 500 ildə dünya tarixini başqaları yazmışdır, lakin indən belə bu tarixi amerikalılar yazacaqlar. Dünyadakı enerji ehtiyatlarının xeyli hissəsini istehlak edən Amerika Birləşmiş Ştatlarının (dünyada təkcə neft istehlakının təqribən 30 faizi ABŞ-ın payına düşür) güc baxımından onunla müqayisə edilə biləcək rəqibləri olarsa, onu az-çox nikbin gələcək gözləmir.

Dünya şöhrətli amerikalı mütəfəkkir və yazıçı Qor Vidal bütün bunları belə şərh edir: "Keçən il (2003-cü il) sentyabr ayında Konqres dövlət başçısından "ABŞ-ın milli təhlükəsizlik strategiyası" adlı konseptual xarakterli bir sənəd almışdır. Tarixçi Cozef Stromberqin dediyi kimi, "buna inanmaq üçün bunu oxumaq lazımdır". Yuxarıda adını çəkdiyimiz doktrinada deyilir ki, Adamsın təbirincə desək, yaxşı olardı ki, Birləşmiş Ştatlar "dünya diktatoru"na çevrilsin. Bundan əlavə, həmin sənəddə tamamilə aşkar bir faktdan söhbət gedirmiş kimi deyilir ki, Amerika Prezidentinin və onun müavinlərinin bütün planeti idarə etmək üçün mənəvi hüququ vardır. "Milli təhlükəsizlik strategiyasında" yazıldığı kimi, "ən yaxşı müdafiə vasitəsi hücumdur". Daha sonra preventiv hücum doktrinası şərh edilir: "Birləşmiş Ştatlar özünümüdafiə məqsədi ilə və sağlam düşüncəni rəhbər tutaraq, bundan sonra hər hansı təhlükə tam formalaşmazdan əvvəl ona qarşı tədbirlər görəcəkdir".

Beləliklə, ABŞ kimi ölkələrin mənafelərinin reallaşdırılması elə qlobal transformasiyalara gətirib çıxarır ki, onlar çox vaxt bu və ya digər məkanlarda inqilabi meyillərdə və siyasi strukturların dəyişmələrində ifadə olunur.

Dünya tarixində daxili və xarici siyasi sistemlərin köküdən dəyişməsinə bu və ya digər dərəcədə kömək etmiş, re-

gional və dünya miqyaslı proseslərə çox güclü təsir göstərmiş bir neçə iri inqilab olmuşdur. İngiltərə inqilabı (1640-1660-cı illər), Fransa inqilabı (1789-cu il), Rusiya inqilabı (1917-ci il) liberal ideyaların, azadlıq və bərabərlik ideyalarının inkişafına güclü təsir göstərmiş, habelə iki geosiyasi qütbün yaranmasına səbəb olmuşdur.

1640-1660-cı illərin İngiltərə inqilabı Avropa tarixində ən mühüm hadisələrdən biri olmuşdur. Tarixşünaslıq elmində bu inqilabın xarakteri barədə mübahisələr heç vaxt səngiməmişdir. Fransa inqilabı Yeni dövrün ən böyük sosial çevrilişi idi. O, liberal azadlıqların yaranmasını şərtləndirmiş, vətəndaşların bərabərliyini bəyan etmişdir. Azadlıqlar Xartiyası isə mütləqiyyətə qarşı mübarizənin bayrağına çevrilmişdir. Rusiya inqilabı dünyanın siyasi səhnəsində ən böyük totalitar dövlətin yaranması ilə nəticələnmişdir.

Hər bir inqilab transformasiyaya məruz qalan məkanda bu və ya digər halları xarakterizə edir. Məsələn, tarixçilərin çoxu İngiltərə inqilabını müxtəlif mövqelərdən nəzərdən keçirir. Vaxt ötdükcə, bu inqilabın aşağıdakı əsas interpretasiyaları yaranmışdır: liberal-viq, marksist, təftişçi və post-revizionist interpretasiyalar.

İnqilabın liberal-viq interpretasiyası XIX əsrdə Fransua Gizo və T.Makoley kimi tarixçilərin əsərlərində öz əksini tapmışdır. Bu müəlliflər inqilabı qanunauyğun bir hadisə hesab edir və onun səbəblərini İngiltərə parlamenti ilə kral hakimiyyəti arasında siyasi ziddiyyətlərlə izah edərək, həmin ziddiyyətin kəskinləşməsinə görə məsuliyyəti taxt-tacın, Stüartlar sülaləsinin üzərinə qoyurdular. Həmin sülalənin nümayəndəsi şotlandiyalı VI Yakov 1603-cü ildə I Yakov

adı ilə İngiltərə kralı olmuşdur. Bu inqilab ədalətli qisas, tapdanmış hüquqların bərpası uğrunda parlamentin və xalqın mübarizəsi, retrospektiv mənada isə ölkədə konstitusion-demokratik qaydalar yaradılması yolunda irəliyə doğru bir addım idi. Tarixçi S.Qardinerin fikrincə, bununla bərabər dini ziddiyyətlər də çox böyük əhəmiyyət kəsb edirdi. Buna görə də o, İngiltərə inqilabının "puritan" inqilabı olması konsepsiyasını irəli sürmüşdü. İnqilabın liberal-viq interpretasiyaları XX əsrin 60-70-ci illərinə qədər xarici tarixşünaslıqda üstünlük təşkil edirdi.

İngiltərə inqilabının marksist interpretasiyasının əsaslarına K.Marksın və F.Engelsin əsərlərində rast gəlmək olar. Marks taxt-tac ilə parlament arasında siyasi ziddiyyətlər olmasını inkar etməsə də, onları ikinci dərəcəli hesab edir, iqtisadi səbəblərə isə birinci dərəcəli əhəmiyyət verirdi. Marksist tarixçilərin fikrincə, inqilabi partlayış uzun müddət üst-üstə yığılmış səbəblərin nəticəsi idi: İngiltərədə kapitalizm onilliklər boyu inkişaf etmişdi, ictimai quruluşun əslində feodal xarakteri daşıyan hakim formaları isə XVII əsrin ortalarında kapitalizmin inkişafı üçün əngələ çevrilmişdi. Ona görə də məsələyə bu mövqedən yanaşanda həmin inqilab burjua inqilabı, yəni feodalizm quruluşunun kapitalizm quruluşu ilə əvəz edilməsinə yönəlmiş inqilab hesab olunurdu. Kral hakimiyyəti ilə parlament arasında qarşıdurma geridə qalmış feodal zadəganları ilə yaranmaqda olan və yeni (burjualaşmış) zadəganlarla ittifaqda çıxış edən burjuaziya arasında mübarizəni əks etdirirdi. XX əsr tarixşünaslığında bu yanaşmanın davamçıları çox olmuşdur. Tanınmış ingilis tarixçilərinin bir qismi (R.Q.Touni, K.Hill və b.) marksist və ya marksizmə yaxın mövqe tuturdu.

Marksist yanaşma sovet tarixşünaslığında da hakim mövqe tutmuş və Y.A.Kosminski, V.M.Lavrovski, M.A.Barq, Q.R.Levin, T.A.Pavlova və başqa tanınmış mütəxəssislərin əsərlərində öz ifadəsini tapmışdır.

İngiltərə inqilabı tarixinin təftişçi interpretasiyası XX əsrin 60-80-ci illərində yaranmışdır. Təftişçi tarixçilərin fikrincə, İngiltərə inqilabının ilkin şərtləri davamlı xarakter daşımırdı. Bu tarixçilər Stüartlar sülaləsindən olan ilk kralların siyasətində İngiltərədə mütləqiyyətin şüurlu şəkildə yayılması meyillərini görmür, hərçənd onların səhvlərini və qüsurlarını qeyd edirlər. Onların fikrincə, ölkədə siyasi vəziyyətin kəskinləşməsinin səbəbi dövlətin üç hissəsinin – İngiltərə, Şotlandiya və İrlandiyanın idarə olunmasında taxt-tacın müəyyən yeknəsəqlik bərqərar etmək cəhdləri olmuşdur. Hakimiyyət bu üç hissə arasındakı mövcud fərqləri praktik olaraq inkar edirdi. Bundan əlavə, həmin tarixçilər inqilabın səbəblərini 1640-cı ildə uzunsürən parlamentin çağırılması ətrafında yaranmış vəziyyətin təhlilində axtarmağı təklif edirdilər. Krala qarşı mübarizə aparmaq fikrində olmayan deputatlar nə üçün 1642-ci ildə onunla müharibə vəziyyətində idilər? Bu istiqamətə mənsub olan ən görkəmli tarixçilərdən biri K.Rassel hesab edirdi ki, həmin sualın cavabını iqtisadi, siyasi və dini fikir ayrılıqlarının uzun onilliklər boyu artması barədə mücərrəd mühakimələrdə deyil, 1640-1642-ci illərdə siyasi səhnədə əsas oyunçuların şəxsi və qrup mənafe və ehtiraslarının öyrənilməsində axtarmaq lazımdır.

Ən yeni postrevizionist tarixşünaslıqda inqilabın ötəri mövqelərdən və fikir ayrılıqlarından doğan təsadüfi xarakteri barədə təftişçilik münasibətinə xas olan ideya təkzib edilir. Tarixçilərin bir qismi bu məsələdə I Karlın və onun ətrafındakıların təqsirkar olmasını vurğulayaraq göstərirlər ki,

münaqişə yaranmasına onun siyasəti əsas vermiş, bu, Şotlandiyada vahid dua kitabı tətbiq etmək cəhdində özünü xüsusilə göstərmişdir.

Göründüyü kimi, bu istiqamətə mənsub olan tarixçilər təftişçi yanaşmanı təkzib etməklə inqilabın marksist interpretasiyasının "sarsıdılmasında" onun xidmətlərini qəbul edir, ənənəvi liberal tarixşünaslığın bəzi ideyalarını təftişçi tarixçilər tərəfindən əsaslandırılmış ayrı-ayrı müddəalarla uzlaşdırırdılar. Postrevizionist yanaşmaya misal olaraq, müasir Amerika tarixçisi S.Şamanın "Britaniya tarixi" kitabının müvafiq fəsillərini göstərmək olar.

Müasir dövrün ən görkəmli tarixçilərindən biri olan Erik Hobsbaum Fransa inqilabından bəhs edərkən yazırdı: "Fransa inqilabı, müasir anlamda desək, hər hansı formalaşmış partiya və ya hərəkat tərəfindən, hansısa ardıcıl proqramı həyata keçirməyə çalışan insanlar tərəfindən edilməmişdir. Bu inqilab ondan sonrakı dövrdə Napoleondan savayı, XX əsr inqilablarına başçılıq etmiş şəxslər kimi liderlər yetişdirə bilməmişdir. Bununla belə, bir-biri ilə kifayət qədər əlaqəli sosial qrupların əsas ideyalarının heyrətamiz oxşarlığı inqilabi hərəkata təsirli bir vəhdət bəxş etmişdir. Bu, "burjuaziya" qrupu idi: o, klassik liberalizmin filosoflar və iqtisadçılar tərəfindən ifadə edilmiş, frankmasonlar və qeyri-formal birliklər tərəfindən yayılan ideyalarını qəbul etmişdi. Bu baxımdan, "filosoflar" haqlı olaraq, həmin inqilaba görə cavabdeh hesab edilə bilər. İnqilab onlarsız da başlaya bilərdi, lakin ola bilsin ki, məhz onlar artıq öz ömrünü başa vurmuş köhnə rejimlə səmərəli, onu əvəz etməyə tələsən yeni rejim arasında ziddiyyət yaratmışdı"[1].

[1] Эрик Хобсбаум. Век революций. Европа 1789-1848 / Науч.ред. А.А.Егоров; пер. с англ. Л.Д.Якуниной. Ростов на-Дону. Феникс, 1999.

Hər bir böyük inqilabın qanunu ondan ibarətdir ki, o, öz dağıdıcı enerjisinin xarici ekspansiyaya yönəldilməsinə ehtiyac duyur. Məsələn, Fransa inqilabı beynəlxalq münasibətlərə çox mühüm bir məqam gətirmişdir: o, xarici siyasətin ən mühüm vasitəsi olan güc amilini kökündən dəyişmişdir. Fransızlar milli ideya, milli ruh ətrafında sıx birləşmiş ordu yaratdılar və Avropanın başqa orduları ilə müqayisədə onun döyüş qabiliyyəti çox yüksək idi. 1792-ci il inqilabi müharibələrin və ilk qələbələrin başlanması ilə əlamətdar oldu və artıq 1793-cü ildə könüllüləri və əsgərliyə çağırılanları birləşdirən yeni inqilabi ordu yaranmışdı.

Müasir Avropanın transformasiyasını irəlicədən hazırlamış və Köhnə Dünyanın intensiv inkişafına şərait yaratmış bir hadisə olan Böyük Fransa inqilabından daha ətraflı bəhs etmək istərdik. Axı, rus filosofu Nikolay Berdyayevin təbirincə desək, Fransa inqilabı "ən böyük humanist eksperimentlərdən biridir". Bu inqilab təkcə ayrı-ayrı ölkələrdə baş vermiş ayrı-ayrı hadisələrə deyil, tarixçilərin yekdil etirafına görə, həm də bütün XIX əsrə çox böyük təsir göstərmişdir. O, geniş kütlələrin zəka, azadlıq və bərabərlik ideyalarının təntənəsi vasitəsilə xeyirxahlığa və ədalətə can atmasını reallaşdırdı. Eyni zamanda, məhz Fransa inqilabı Rusiyada dekabristlər hərəkatına və sosializmin yayılmasına təsir göstərmişdir. 70 ildən artıq bir müddətdə Oktyabr inqilabı adlandırılmış Rusiya inqilabı da buna oxşar ideyalar bəyan etmişdi. Əlbəttə, keçmişdəki inqilablarla müasir transformasiyalar arasında bənzətmələr aparmaq çətindir. Lakin bir fakt şübhəsizdir ki, keçmiş inqilabların elmi təhlili indiki və gələcək dövr barədə düşünmək üçün imkan verir.

Fransa inqilabı sonrakı dövrün böyük ideyalarının əksəriyyətini qabaqlamış olan Maarifçilik fəlsəfəsinin, əslində,

kulminasiya nöqtəsi oldu. Elə həmin N.Berdyayevin obrazlı təbirincə desək, tarixin hakimi və qərar verəni olmağa çalışan, özünütəsdiq zəkası olan maarifçilik zəkası o dövrdə özünün klassik qələbələrini bayram edirdi".

İnqilab cəmiyyətin hakim rejimə qarşı onu devirmək cəhdlərini qoymağa hazır olan ən müxtəlif təbəqələrinin etiraz narazılığı əsasında birləşməsini nəzərdə tutur. Mahiyyət etibarilə inqilab əhalinin əksəriyyətinin uzun müddət öz həyatından, hakimiyyətdən və qanunlardan narazı olmasının nəticəsidir. Nəzərə almaq lazımdır ki, inqilab həmişə dağıntı deməkdir. Cəmiyyətdə dərin sosial təbəqələşmə yarananda, qanunlar hakim təbəqənin təhlükəsizliyini təmin etmək məqsədi daşıyanda, hakimiyyət isə vətəndaşların nəzərində tənəzzülə uğrayanda inqilabi meyillərin rüşeymləri yaranır və bunlar da son nəticədə rejimin devrilməsinə gətirib çıxarır. Lakin inqilab üçün əhəmiyyətli olan başqa bir məqam da var: elə insanlar olmalıdır ki, onlar vaxtı keçmiş mövcud rejimi nəinki sadəcə devirmək istəyir, həm də bu rejimi nə ilə və necə əvəz etmək lazım olduğunu bilirlər. Praktik olaraq hər bir inqilabda demokratikləşmə, daha yaxşı həyat, azadlıq və bərabərlik idealları olur, lakin inqilabların heç də hamısı son nəticədə bu idealları həyata keçirmir.

Fransa inqilabını transformasiyanın siyasi cəhətdən əsaslandırılmasına çevirən iki sosial cərəyanın mövcud olması doğurmuşdur: 1) Maarifçiliyin böyük ideyalarını mənimsəmiş və dövlətin siyasi baxımdan yenidən qurulması barədə öz təsəvvürləri olan burjuaziya və ya üçüncü silk və 2) həyat şəraitini var qüvvəsi ilə yaxşılaşdırmağa çalışan kəndlilər (habelə şəhər proletarları). Bu iki axın üst-üstə düşəndə, onlar birləşəndə və bir-birini dəstəkləyəndə inqilab baş verdi. Hərçənd, burjuaziya bu inqilabı öz istəklərinə, mənafelərinə və siyasi vərdişlərinə uyğun olaraq reallaşdırır və öz

hərəkətlərində şüurlu və ardıcıl idi. Bu baxımdan, burjuaziya aydın ictimai və iqtisadi idealı olmayan kəndlilərdən və şəhər proletarlarından xeyli üstün idi. Onların zehnində hiddət və qiyam alovunun baş qaldırmasına, tezliklə dəyişikliklər baş verəcəyi barədə ümidlər isə hətta ən binəsiblərin də qəlbini riqqətə gətirməsinə baxmayaraq, azadlıq və ədalətli iqtisadi dəyişikliklər barədə ideyalar xalqda yalnız hər şeyi etirazla inkar edən və aydın olmayan ümidlər formasında təzahür edirdi. Liderlərin çoxu məhz belə hesab edirdi: "Gələcəyin necə olacağını xalqa deməyin nə mənası var? Bu, onların inqilabi ruhunu yalnız zəiflədə bilər. Qoy xalq kütlələrinin təkcə köhnə təsisatları dağıtmağa enerjisi çatsın, sonra hər şeyin necə yaranacağı məlum olar". Bu, Azərbaycanın yaxın keçmişi ilə birbaşa bənzəyişi olan tanış vəziyyət deyilmi?

İngilis tarixçi və filosofu Tomas Karleyl 1793-cü ilin qanlı hadisələrindən sonra Fransa inqilabını bu şəkildə təsvir edir: "İnqilab insanların qəlbində kök salmış ağılsızlıqdır. O, həm bu, həm də digər adamdadır; qəzəb və ya dəhşət kimi bütün adamların qəlbindədir... İnqilab öz imkanlarını tükətmiş, azadlığa çıxmış anarxiyanın əxlaqı pozulmuş hakimiyyətə qarşı açıq üsyanı və zorakı qələbəsidir; həbsxanaların qapılarını qıran, dibi görünməyən dərinliklərdən üzə çıxan və nəzarətsiz, qarşısıalınmaz şəkildə tüğyan edən, dünyanı bürüyən anarxiyadır və o, öz-özünü yandırmayana qədər, daxilindəki yeni qayda-qanun elementləri formalaşmayınca (çünki hər bir qüvvənin tərkibində bu cür elementlər var), anarxiya yox olmayınca, yenidən həbsxanada gizlədilməyib cilovlananadək, onun sərsəm qüvvələri isə sağlam və nəzarət edilə bilən qüvvələr kimi öz təyinatı üzrə yönəldilməyənədək əsəbi quduzluq məqamlarında kəskinləşərək artacaqdır"[1].

[1] Т.Карлейль. Французская революция. История.

Fransa inqilabı liderlərinin faciəli aqibəti ilə nəticələnmiş sonrakı dramatik hadisələrin şərhini asanlaşdırmaq üçün Böyük Fransa inqilabının qəhrəmanları və şəhidləri barədə sənədli povestdə bu hadisələrin təsvirinə müraciət edək.

"Beləliklə, kral devrilmişdir. Konstitusionalistlər məğlub olmuşdur. Konventdə iclas edən inqilabçıların hər biri Fransaya səadət arzulayır. Hə, deyəsən, indi qələbənin bəhrəsini dadmaq vaxtıdır.

Lakin inqilabın başının üstünü alan şər qüvvə nədən ibarətdir? Nə üçün despotizmi devirmək üçün qüvvələrini birləşdirən partiyalar cəmi iki aydan sonra ölüm-dirim savaşına çıxmışdır?

Bəlkə bütün bunlar şəxsi-qərəzliklə bağlıdır? Jirondistlər Marata nifrət edirdilər, montanyarlar isə kinayəli ifadələri ilə onların heysiyyətinə toxunan Qade, Brisso, Vernio və onların kompaniyasını sevmirdilər. Jirondistlər öz partiyalarının "dühası və bayrağı" sayılan xanım Rolan barədə hörmətsiz ifadələrə görə inciyir və əsl centlmenlər kimi onu müdafiə edir, cazibədar madam Rolan isə Dantonun quldur sifətinə sakit baxa və Eberin tikanlı eyhamlarını eşidə bilmirdi. Amma hər halda, belə güman etmək qəribə təsir bağışlayır ki, Dağ və Jironda arasında gedən və bütün ölkəni sarsıtmış mübarizə bəzi deputatların başqalarına rəğbət və etimad bəsləyə bilməməsi ilə bağlı olmuşdur"[1].

Yəqin ki, oxucu ötən dövrün inqilabları ilə bağlı siyasi məqamlarda müasir dövr və üçüncü minilliyin başlanğıcında postsovet məkanını da əhatə etmiş "üçüncü demokratik dalğa" inqilabları arasında xeyli oxşarlıq aşkar edəcəkdir. Nümunələr göz qabağındadır: Ukraynada "narıncılar" müxtə-

[1] А.Гладилин. Евангелие от Робеспьера. М.1970, стр 134-138.

lif siyasi düşərgələrə parçalanmış, Gürcüstanda Z.Jvaniya öldürülmüş və S.Zurabeşvili hakimiyyətdən getmişdir, Saakaşviliyə qarşı güclü müxalifət var. Qırğızıstanda prezident hakimiyyətdən kənarlaşdırılmışdır. 1990-1992-ci illərdə Azərbaycan Xalq Cəbhəsinin hakimiyyət uğrunda mübarizəsinin peripetiyalarında 1917-ci ildə Rusiyada baş vermiş oktyabr çevrilişi ilə oxşar cəhətlərin çox olmasını müşahidə etmək olardı. Azərbaycan Xalq Cəbhəsinin sıralarındakı parçalanma, sabiq "silahdaşların" bir-birinə nifrəti, "azadlıq və müstəqillik uğrunda mübarizlərin" müəssisələrə, vətəndaşların mənzillərinə, bazarlara qarətçi basqınları, silahlı "cəbhəçi" qrupların reketçiliyi və s. bu hərəkatı xalqın dəstəyindən və qurucu başlanğıcdan məhrum etmiş oldu. Cəmiyyətin üz döndərdiyi Xalq Cəbhəsi tərəfdarlarının sonralar əvvəlki nüfuzlarını bərpa etmək üçün göstərdikləri cəhdlər onun liderlərinə qarşı yalnız nifrət oyadırdı.

Emmanuil Mendeleviç üç böyük inqilabı – İngiltərə, Fransa və Rusiya inqilablarını müqayisə edərkən aşağıdakı ümumi qanunauyğunluqları vurğulayır:

- inqilab hakimiyyəti ələ keçirmək aktı deyil, sosial prosesdir;
- inqilabın əhatə etdiyi dövrlər inqilabın özündən çox-çox uzun olur;
- hər bir inqilabi dövr beş mərhələdən keçir:

1) "konstitusion" mərhələ – bu, inqilab üçün bir növ müqəddimədir, köhnə dünyanın birinci sarsıntısıdır, onu bir ovuc insan idarə edir;

2) bütün ictimai həyatı dəyişmək məqsədi ilə bütün xalqın zorakı hərəkətləri;

3) inqilabi diktatura dövrü: sosial mübarizə ifrat formalar alır, inqilabi təşəbbüs xalq kütlələrinin əlindədir, tələm-tələsik yeni ictimai təsisatlar yaradılır, qəzəblilik mühiti fərqli düşünənlərə münasibətdə hədsiz hövsələsizliyə və terrora gətirib çıxarır;

4) inqilabın "çəkilməsi", mövqelərin bir qədər geriləməsi, siyasi irtica, əvvəllər inqilabın rədd etdiyi prinsiplərin bərpası. Üçüncü dövr nə qədər radikal olsa, ondan sonrakı geriləmə bir o qədər böyük olur. İnqilabi təşəbbüsün sönməsi dövlət aparatının bürokratikləşməsinə təkan verir.

5) şəxsi diktatura dövrü (Kromvel, Napoleon, Stalin). İfrat avtoritarlıq, sosial demaqogiya, xarici təcavüzkarlıq. Cəmiyyət apatiya vəziyyətinə düşür. Bərpa mərhələsi başlanır. Cəmiyyət əvvəllər inkar edilən ümumbəşəri dəyərləri xatırlayır. Bərpa dövrü inqilabdan keçmiş ölkəni adi tarixi dövrəyə qaytarır. Bərpa dövrünü bütün xalqın nifrət etdiyi, bir araya sığmayan siyasi və sosial ideyaları birləşdirməyə cəhd göstərən komik rejim əvəz edir. Yalnız bu yöndəmsiz, xəstə vəziyyət ötüb keçəndən sonra cəmiyyət sağalmağa və normal həyat sürməyə başlayır.

Əslində, Mendeleviç vaxtilə məşhur E.Dürkheymin söylədiklərini təkrarlayır. Dürkheym sosial dəyişikliklər prosesini fərdlərin və onların ictimai funksiyalarının inkişaf etməməsinə və oxşarlığına əsaslanan mexaniki həmrəylikdən insanların vahid sosium halında inteqrasiyasına doğru aparan və cəmiyyətin ali mənəvi prinsipi olan əmək bölgüsü və sosial təbəqələşmə əsasında yaranan üzvi həmrəyliyə keçid hesab edirdi.

K.Marks cəmiyyətin məhsuldar qüvvələrini sosial dəyişikliklərin həlledici amili hesab edirdi. Bu qüvvələrin artması

istehsal üsulunun dəyişməsinə gətirib çıxarır, bu isə öz növbəsində bütün cəmiyyətin inkişafının əsası olub ictimai-iqtisadi formasiyanın dəyişməsini də təmin edir. K.Marksın "tarixin materialistcəsinə izahına" görə, bir tərəfdən məhsuldar qüvvələr obyektiv şəkildə və təkamül yolu ilə inkişaf edərək, insanın təbiət üzərində hökmranlığını gücləndirir. Digər tərəfdən, məhsuldar qüvvələrin inkişafının gedişində yeni siniflər yaranır. Onların mənafeyi mövcud istehsal münasibətlərinin xarakterini müəyyən edən hakim siniflərin mənafeləri ilə ziddiyyət təşkil edir. Beləliklə, istehsal üsulunun daxilində məhsuldar qüvvələrin və istehsal münasibətlərinin vəhdətindən törəyən münaqişə yaranır. Cəmiyyət yalnız istehsal üsulunun kökündən yeniləşdirilməsi əsasında tərəqqi edə bilər, yeni iqtisadi və siyasi strukturlar isə ancaq yeni siniflər tərəfindən əvvəlki, hakim siniflərə qarşı həyata keçirilmiş sosial inqilab nəticəsində yarana bilər. Bu baxımdan da K.Marksa görə, sosial inqilablar tarixin lokomotivləri olub, cəmiyyətin yeniləşməsini və onun inkişafının sürətlənməsini təmin edir. Beləliklə, Marks sosial dəyişiklikləri həm təkamül, həm də inqilabi yanaşmalar baxımından təhlil etmişdir.

M.Veber təbiət elmləri kimi, sosial elmlərin də cəmiyyətin inkişaf qanunlarını kəşf edə bilməsi ideyasının əleyhinə olsa da, güman edirdi ki, ümumiləşdirmələr etmək və sosial dəyişiklikləri səciyyələndirən meyilləri ifadə etmək mümkündür. Veber bu meyillərin hərəkətverici qüvvəsini onda görürdü ki, insan müxtəlif dini, siyasi, mənəvi dəyərlərə əsaslanmaqla, Qərbdə həmişə olduğu kimi, ictimai inkişafı asanlaşdıran və yaxud bu inkişafı çətinləşdirən (Veber bunu Şərq ölkələri üçün səciyyəvi hesab edirdi) müəyyən sosial qurumlar yaradır.

Bundan əlavə, inqilabın başa düşülməsində ayrı məqamları vurğulayan, inqilabların təhlilinə təkamül mövqeyindən yanaşmanı yeni baxış bucağından şərh etməyə cəhd göstərən konsepsiyalar da mövcuddur. Həmin konsepsiyalarda əsas diqqət ölkədə tarixən yaranmış təsisatların varisliyinin öyrənilməsinə və bərpa olunmasına yönəldilir. Bu məntiqə görə inqilabların məzmunu da həmin təsisatların bərpasından ibarətdir. Məsələn, Asiya ölkələrində baş vermiş ən məşhur burjua inqilablarından biri – 1868-ci il Yaponiya inqilabı Meydzinin bərpası adlanır və mütəxəssislərin qeyd etdiyi kimi, onun əsas məzmunu və dünyagörüşü "geriyə atılmış utopiyadır". A.de Tokvil Fransa inqilabına münasibətdə buna oxşar nəticə çıxararaq yazırdı: "İnqilab bəzilərinin hesab etdiyindən fərqli olaraq, bizim sivilizasiyanın xarakterini dəyişməli deyil, Qərbdə bəşər cəmiyyətlərinin əsasını təşkil edən fundamental qanunların mahiyyətini dəyişməli deyildi".

"Sosial təkamül məqamı" hesab edilən inqilabi sosial dəyişikliklərin bu cür başa düşülməsi "inqilab" ("revolyusiya") termininin təbiət elmlərində və sosial elmlərdə ilkin mənasını bərpa edir. Doğrudan da, "revolvo" sözünün latın dilindən tərcümədə mənası "qayıdış, diyirlətmə, dövretmə" deməkdir. Bu sözdən törənmiş "revolyusiya" termini XIV əsrdə təbiət elmlərində yaranmışdı və onun mənası "fırlanma hərəkəti, dairə boyunca gediş" demək idi. Məsələn, Nikolay Kopernikin "Göy sferalarının dolanması haqqında" adlı məşhur əsərinin (1543-cü il) adı originalda belə idi: "De Revolutionibus Orbium Celestium". XVII əsrdə "revolyusiya" termini siyasi fəlsəfə elmi tərəfindən əxz edildi və yeni yaranmış dövlətlərdə hökmdarların və ya bütün siyasi elitanın dövri olaraq dəyişməsini ifadə etməyə başladı. O dövrdə "revolyusiya" anlayışı "son nəticədə geriyə, identik

və ya oxşar vəziyyətə gətirib çıxaran dövrənin mərhələlərindən keçmə" prosesinə aid edilirdi. Lakin K.Marksın tədqiqatları ilə əlaqədar inqilabların bu cür anlayışı unuduldu və modernist paradiqma çərçivəsində "tam əksinə" başa düşülməyə başladı.

Fransa inqilabı silklərlə bağlı bütün maneələri aradan qaldırdı və bütün vətəndaşlar üçün bərabər sosial imkanlar tətbiq etməklə sosial mobilliyə şərait yaratdı və təhsildən, yüksək peşəkarlıq tələb edən fəaliyyətdən, sahibkarlıqdan istifadə etmək üçün daha geniş imkanlar açdı. O, parlament respublikasını doğurdu və seçkili orqanların işini reallaşdıraraq, parlament demokratiyasının möhkəmlənməsinə xidmət etdi.

Fransada yeni qüvvələr nə istədiklərini və nə üçün gəldiklərini dəqiq bilirdilər. İqtisadçı-fiziokrat Türqo torpaqdan səmərəli istifadə edilməsinin, azad sahibkarlığın və azad ticarətin, vahid və yekcins milli ərazinin standartlaşdırılmış səmərəli idarə edilməsinin, bütün qadağaların ləğvinin, milli resursların inkişafına əngəl törədən sosial bərabərsizliklərin ləğv olunmasına tərəfdar idi. O, həm də səmərəli və ədalətli idarəetmənin və vergiqoymanın tərəfdarı kimi çıxış edirdi. 1774-1776-cı illərdə XVI Lüdovikin baş naziri olmuş Türqo bu proqramı həyata keçirə bilmədi, lakin onun uğursuzluğu qanunauyğun idi. Cüzi miqyaslı bu cür islahatlar monarxiya rejimi ilə tam uzlaşırdı və rejim onu pis qarşılamırdı. Əksinə, monarxiya öz hakimiyyətini gücləndirəndən bəri bu cür proqramlar "savadlı monarxlar" arasında geniş yayılmışdı. Lakin "savadlı monarxların" başçılıq etdikləri bir sıra ölkələrdə bu islahatları ya tətbiq etmək mümkün deyildi və buna görə də onlar yalnız qızğın nəzəri diskussiyaların mövzusuna çevrilirdi, yaxud da həmin ölkələrin siyasi və sosial strukturunun ümumi xarakterini dəyişə bilmirdi; yaxud

həmin islahatlar qanuni yolla təsbit edilmiş əmlak hüquqlarına malik olan yerli aristokratiyanın müqavimətinə davam gətirmir və ölkə elə əvvəlki vəziyyətində qalırdı. Monarxiya idarə üsulu olan Fransada islahatların hər hansı başqa ölkədən daha sarsıdıcı uğursuzluğa məruz qalmasının bir səbəbi də qanuni əmlak hüquqlarına malik olanların müqavimət göstərməsi idi. Lakin bu cür məğlubiyyətin nəticələri monarxiya üçün fəlakətli oldu, burjua dəyişikliklərinin tərəfdarları isə o qədər çox və güclü idilər ki, onları dayandırmaq mümkün deyildi. Onlar, sadəcə olaraq, öz ümidlərini savadlı monarxlardan xalqa və ya "millətə" yönəltdilər. Lakin bu cür ümumiləşdirmə bir məsələni anlamağa imkan vermir: bəs inqilab nə üçün başlanmışdı və nəyə görə o, məhz bu yolla gedirdi? Bundan ötrü, ilk növbədə, "feodal irticası" deyilən amili nəzərdən keçirmək lazımdır və əslində, o, Fransada barıt çəlləyi üçün qığılcım olmuşdu.

Amma hər halda, bizim məqsədimiz keçmişdəki inqilabları təhlil etmək deyil, müasir dövrün meyillərini tədqiq etməkdir. Rusiyalı tanınmış tədqiqatçı S.Kara-Murzanın dediyi kimi, "XX əsrin 30-cu illərində keçmişin böyük inqilablarının, eləcə də Rusiya inqilabının və Almaniyada nasional-sosialist inqilabının (faşizm) təcrübəsini öyrənəndən sonra prinsip etibarilə yeni bir nəzəriyyə yaranmışdı. Bu nəzəriyyəyə görə, inqilabi dağıntının birinci obyekti cəmiyyətin üstqurumu, özü də onun ən "yumşaq" və üzüyola hissəsi – ideologiya və ictimai şüurun istiqamətləri olurdu"[1].

Tanınmış italyan sosialisti, İtaliya Kommunist Partiyasının banisi və nəzəriyyəçisi Antonio Qramşi vətəndaşların və hakimiyyətin həmrəyliyinin yetərli səviyyəyə çatdığı vəziyyəti

[1] С.Г. Кара-Мурза. Новая теория революций, www.contr-tv.ru

mədəni hegemonluq adlandırırdı. Qramşinin təbirincə desək, "dövlət məcburetmə zirehinə bürünmüş hegemonluqdur".

Prinsip etibarilə, Qramşi Qərb ideologiyaları aləmində mədəni hegemonluğu məhv etməyə yönəlmiş əsərlərin müəllifi kimi tanınmışdır. "Narıncılar" arasında çox məşhur olan, Gürcüstandakı "Kmara", Ukraynadakı "Pora", Belarusdakı "Zubr" təşkilatları üçün masaüstü kitaba çevrilmiş "Diktaturadan demokratiyaya" əsərinin müəllifi Cin Şarp onu məhz Qramşinin nəzəriyyələrinə əsaslanmaqla yazmışdır. Sirr deyil ki, Azərbaycanda, Qazaxıstanda və Rusiyada müxalifət hərəkatları bu kitabdan fəal istifadə edirdilər. Lakin biz bu əsərin təhlilinə bir qədər sonra başlayacağıq, çünki mahiyyət etibarilə bu kitab postsovet respublikalarında hakim elitaların devrilməsinə dair qlobal planın texniki hissəsinin reallaşdırılmasına yönəlmişdir.

Beləliklə, S.Hantinqton yeni dünya nizamında xüsusi rol oynayan identifikasiya kodları və simvollar barədə yazanda, mahiyyət etibarilə vaxtilə A.Qramşinin söylədiyi belə bir ideyanı təkrarlayırdı ki, məhz simvollar bizim həyatımızı legitimləşdirir, ona məna və nizam bəxş edir. Bu və ya digər cəmiyyətləri təcəssüm etdirən mədəni simvollar, siyasi nüfuzlar, iqtisadi identifikasiyalar müasir dünyanın əsas meyarlarına çevrilir. Simvollar aləmi xalqı, cəmiyyətin tarixini tənzimləyir, onun keçmişini, bu gününü və gələcəyini kollektiv həyatla bağlayır.

A.Qramşi hegemonluğun bərqərar olmasının və onun pozulmasının (inqilabın) əsasını sinfi qüvvələrin toqquşması deyil, fikirlərin və əhvalların insanların şüurunda gözəgörünməz dəyişməsi kimi cərəyan edən "molekulyar" proses hesab edirdi. Hegemonluq cəmiyyətin "mədəni nüvəsinə"əsaslanır.

Bu nüvə insan və dünya haqqında, xeyir və şər haqqında təsəvvürlərin məcmusunu, simvollar və obrazları, ənənələr və xurafatı, bilik və təcrübəni əhatə edir. Nə qədər ki, bu nüvə sabitdir, cəmiyyətdə mövcud qaydanı qoruyub saxlamağa yönəlmiş "davamlı kollektiv iradə" mövcuddur. "Mədəni nüvəni" dağıtmaq və kollektiv iradəni pozmaq inqilab üçün şərtdir.

Qramşi yazır: "Ekonomizmin müxtəlif iradi təzahürlərə, fəal hərəkətlərə, siyasi və mənəvi təşəbbüsə münasibəti ən azı qəribədir, elə bil ki, onlar iqtisadi zəruriliyinin üzvi nəticəsi və üstəlik, iqtisadiyyatın yeganə təsirli təzahürü deyildir"[1]. Lakin Qramşi elə oradaca Engelsə istinadla dəqiqləşdirir ki, iqtisadiyyat yalnız "son nəticədə" tarixin hərəkətverici qüvvəsidir və həmin müddəanı Marksın "Siyasi iqtisadın tənqidinə dair" əsərinin müqəddiməsinin iqtisadiyyatda baş verən münaqişələrin insanlar tərəfindən ideoloji formalarda dərk edilməsindən bəhs olunan hissəsi ilə əlaqələndirir. Qramşi xüsusi vurğulayır ki, bu sonuncu tezis "psixoloji və ya mənəvi deyil, üzvi, qnoseoloji xarakter daşıyır"[2].

Qramşi elə oradaca inqilabçıların "silahın tənzimləyici gücünə"[3] (söhbət silahlı üsyandan gedir, həbsxana senzurası şəraitində Qramşi bu barədə açıq danışa bilməzdi) kor-koranə və qeyd-şərtsiz ümid bəslənilməsini tənqid edir. Bununla bərabər, o bildirir ki, bu məqsədin əsasında guya yalnız köhnə quruluşun dağıdılması üçün zəruri olan iradə amilinin düzgün başa düşülməməsi dayanır. Halbuki Qramşiyə görə, inqilab bir-biri ilə vəhdət təşkil edən ikili prosesdir: dağıntı-

[1] А.Грамши. Избранные произведения. М., 1959, т.3, стр. 149.
[2] Yenə orada, səh. 153.
[3] Yenə orada, səh. 157.

quruculuq (inqilabın qiyamdan əsas fərqi də bundan ibarətdir). Bu prosesdə çox şey kütlələrin ideoloji təsəvvürlərinin onların iqtisadi vəziyyətindən geri qalması ilə bağlı olması barədə illüziyaların aradan qaldırılmasından asılıdır. İnqilabi qüvvələrin kütləvi müttəfiqi öz tərəfinə cəlb etmək bacarığından çox şey asılıdır, bunu isə yalnız "xoş məram", razılıq və kompromis əsasında etmək mümkündür.

Güc və həmrəylik – siyasətin bir-biri ilə bağlı olan iki amili bunlardır. Buna hələ Makiavelli də diqqət yetirmişdi. Qramşi Makiavellinin bəzi ideyalarından istifadə edərək, razılıq amilinin vacibliyini vurğulayır. Burjuaziyaya qarşı gücə əsaslanan mübarizəyə diqqəti cəlb edən marksistlərin çoxu bu məqamı nəzərdən qaçırırdı. Mübarizə üzrə müttəfiqləri birləşdirən mənəvi amil kimi, həmrəylik həyatın maddi şəraitindən avtomatik şəkildə yaranmır. Həmrəyliyə nail olmaq üçün ideologiya sahəsində məxsusi iş aparılmalıdır. Qramşi bu müddəaları əsas götürərək, hegemonluq barədə öz konsepsiyasını işləyib hazırlamışdır ki, bu da onun ən mühüm nəzəri nailiyyətlərindən biridir.

Qramşi hegemonluq anlayışının özünü hələ 1905-ci ildə Rusiyada burjua demokratik inqilabında proletariatın hegemonluğundan danışan Lenindən əxz etmişdir. Deməli, hegemonluq dedikdə, yeni ictimai quruluşa keçid uğrunda mübarizədə hər hansı bir sinfin başqa sinfə və ya siniflərə münasibətdə rəhbər rolu nəzərdə tutulur. Məsələ bundadır ki, heç bir inqilab bir sinif tərəfindən həyata keçirilmir. İnqilab həmişə siniflərin ittifaqı tərəfindən həyata keçirilir, bu ittifaqın iştirakçılarının məqsədləri isə heç də həmişə eyni olmur.

Hegemonluğa nail olmaq prosesi mənafelərin genişlənməsi və ucalması, nəcibləşməsi prosesidir. Buna görə də Qramşi

hegemonluğu "etik-siyasi" kateqoriya adlandırır. Qramşi deyir ki, yüksəlişə doğru hərəkət – bazisdən üstquruma və eyni zamanda, eninə istiqamətdə, yəni müəyyən sinifdən onun potensial müttəfiqlərinə doğru hərəkət "yeni tarixi blok", başqa sözlə, iqtisadiyyatın və siyasətin yeni sinfi müttəfiqlə bağlı olan yeni vəhdətini yaradır. Hegemonluqla yanaşı, bu da marksizm nəzəriyyəsinin daha bir mühüm anlayışıdır. Bu anlayış ona dəlalət edir ki, bazis ilə üstqurumun əlaqəsi hətta eyni bir ictimai-iqtisadi formasiya ərzində də müxtəlif ola bilər (bir-birini əvəz edən bir neçə tarixi blok ola bilər), bu anlayış həmin əlaqənin insanların şüurundan necə keçməsini, onun möhkəmlənməsi və ya zəifləməsinin nədən asılı olmasını göstərir və s.

Hegemonluğa nail olmağa zəmanət verilmir və deməli, hegemonluq baş tutmaya bilər. Məsələn, İtaliya tarixi ilə bağlı, onun feodalizmdən kapitalizmə keçməsi ilə bağlı faktlar bu fikri təsdiqləyir. Qramşi göstərir ki, başqa ölkələrə nisbətən İtaliyada daha əvvəl yaranmış burjuaziya birinci, "iqtisadi-korporativ" mərhələdən keçə bilmədiyi üçün ölkənin inkişafı ləngimiş, o, qabaqcıl ölkədən geridə qalmış ölkəyə çevrilmişdir. Bunun təqsiri isə, ilk növbədə, İtaliya ziyalılarındadır. Onlar öz kosmopolit xarakterləri ucbatından sinfi və milli mənafeləri başa düşmürdülər. Sonralar, XIX əsrdə burjuaziyanın hegemonluğu həyata keçdi, lakin onun bazası çox məhdud olub cənub feodalları ilə ittifaqa əsaslanırdı. Sosial bazanın məhdudluğu burjua dövlətini zəiflətdi, bu zəiflik isə sonralar faşizm diktaturasının yaranması ilə "kompensasiya edildi".

Tarixin bəzi dönüş anlarının, o cümlədən faşizmin yaranmasının izahına kömək edən hegemonluq konsepsiyası gələcək üçün də mühüm nəticələr çıxarmağa imkan verir. Fəhlə

sinfi hakimiyyətə gəlmək üçün, ilk növbədə, ziyalıları və kəndliləri öz tərəfinə cəlb etməklə hegemonluq uğrunda, geniş sinfi ittifaq uğrunda mübarizə aparmalıdır. Qramşi yazır ki, vətəndaş cəmiyyətinin inkişaf etdiyi ölkələrdə ona "mövqe müharibəsi" yolu ilə nail olmaq lazımdır, çünki hegemonluq məhz vətəndaş cəmiyyəti vasitəsilə həyata keçirilir. Vətəndaş cəmiyyəti dedikdə isə, ictimai, yəni həmrəyliyə əsaslanan könüllü təşkilatların məcmusu başa düşülür.

Qramşinin hegemonluq konsepsiyasında inkişaf etdirilmiş ideyaları onun nəzəri irsinin ən məşhur hissəsidir. Bu ideyalar məşhur olmaqla bərabər, həm də sonralar tədqiq edilmiş, bəzi yerlərdə isə praktikada tətbiq olunmuşdur. Bununla əlaqədar, italyan marksistləri N.Badaloni, L.Qruppi və P.Tolyattinin, yunan filosofu N.Pulantzasın, alman marksisti, "struktur hegemoniya" deyilən yeni anlayışı irəli sürmüş V.F.Hauqun tədqiqatlarını, hegemonluq və plüralizmin nisbəti barədə İtaliyada geniş miqyas almış diskussiyaları xatırlatmaq kifayətdir.

Qramşinin gəldiyi nəticələrlə ən azı ona görə razılaşmaq lazımdır ki, hegemonluğun bərqərar olmasında və ləğvində əsas fəal sima yalnız savadlı təbəqə ola bilər. Bəzən ətalətliliyi ilə fərqlənən ziyalılar xüsusi tarixi anlarda inqilabi transformasiyaların çox fəal iştirakçısına çevrilirlər. Təbii ki, bu cür fəallaşmanın hazırlanması üçün müvafiq meydan lazımdır. Polşa alimlərinin bir qisminin fikrincə, həmin meydan taleyüklü rol oynayır. S.Q.Kara-Murza yazır: "Solidarnost" proqramının müəllifi və icraçısı savadlılar sinfidir. Bu sinif polyak romantizminin milli, siyasi və mədəni qanunlarının, faciəli qəhrəman kultunun, siyasi fəallığın mənəvi tələblərə tabe olmasının və emosiyaların rasionalist tipli davranış üzərində prioritetinin təsiri altında

formalaşmışdır. Siyasətin mifləşdirilməsi, onun etika sahəsinə aid edilməsi, siyasi konkretliyin mücərrədliklərlə əvəz edilməsi XIX əsrdə siyasi ənənələrin formalaşmasına bədii ədəbiyyatın çox güclü təsirinin nəticəsidir. Bu təsir XX əsrdə müharibələr və ictimai böhranlar dövründə də qalmış və hətta güclənmişdir. O, 1948-1949-cu illər üçün də səciyyəvidir. Həmin illərdə ədəbiyyat "gözəgörünməz hökumət" rolu oynayırdı, "polyakların qəhrəmanı" isə İ.Kurçevskayanın təbirincə desək, mənəvi baxımdan ideal birliyin mələksima üzvü, milli mədəni irslərin müdafiəçisi olan katolik idi, lakin bu, Qərb demokratiyasının təsəvvüründəki vətəndaş deyildi"[1].

Tarixə müraciət etsək, sosializm dünyasının mədəni hegemonluğunun necə sarsıdılmasını və cəmiyyətlərin bir sistemdən digərinə zorakılığa əl atmadan, şüurlu şəkildə transformasiya etməsi üçün necə meydan yaradıldığını izləmək olar. Qərbdə məxsusi olaraq Şərqə translyasiya edilmək üçün yaradılmış radiostansiyalar, lətifələrin kütləvi şəkildə istehsalı, totalitar rejimin mahiyyətinin ifşa edilməsinə yönəlmiş külli miqdarda ədəbiyyat "cəmiyyətin mədəni özəyini" altdan-altdan oyur, bununla bərabər, gələcək transformasiyaların gizli şəkildə legitimləşdirilməsi üçün zəmin yaradırdı.

S.Kara-Murza yazır: "İrrasional məqsədlər Şərqi Avropa ölkələrində "məxməri" inqilablar dövründə ziyalıların və fəhlələrin şüuruna hakim kəsilmişdi. Onlar etibarlı şəkildə inkişaf etməkdə olan cəmiyyətin strukturlarını dağıdır, heç özləri də istəmədən kapitalizmə yol açırdılar. Polşalı sosioloqlar bu hadisə barədə yazırlar: "Qarşıdurma qeyri-ənənəvi, simvolik dəyərlər ("biz və onlar") xarakteri kəsb

[1] С.Г. Кара-Мурза. Новая теория революций, www.contr-tv.ru

edirdi, o, qəhrəman-romantik – dini və vətənpərvərlik libasına bürünmüşdü. Qəflətən yarandığı kimi, qəflətən də yoxa çıxmış "Solidarnost" fenomeninin özü "qeyri-materialist" fenomen idi... O, kütlələri fəallaşdırır, "adi" insan üçün anlaşıqlı və ona yaxın olan "şər ilə xeyirin mübarizəsi" kimi xalis mənəvi kateqoriyalara siyasi məna verirdi... A.Mixnikin məşhur bir kəlamı var: "Biz nəyi istəmədiyimizi əla bilirik, lakin nə istədiyimizi bizlərdən heç kim dəqiq bilmir"[1].

Məhz bu cür vasitələrin mövcud olması Şərqi Avropa cəmiyyətlərinin kütləvi şüurunda "məxməri" inqilab prinsiplərinin formalaşmağa başlamasına şərait yaradırdı. Qloballaşma meyilləri intensivləşdikcə, bu prinsiplər güclənməyə başladı. Müasir iqtisadiyyatlar inkişaf etdikcə, "qızıl milyard" imkanları genişləndikcə, sosializm cəmiyyətlərində həyatın fundamental prinsiplərinin dəyişməsi meyilləri daha intensiv xarakter almağa başladı. Mənafelərin münaqişəsi təkcə inqilabi ritorikaya deyil, həm də Varşava Müqaviləsinin iştirakçısı olan bu və ya digər ölkədə hakimiyyətin dinc yolla devrilməsi istiqamətində real fəaliyyətə səbəb oldu.

Lakin bu cür "məxmərilər" təkcə sosializm düşərgəsi üçün səciyyəvi deyildi. Belə ki, 1968-ci ilin may ayında hətta Fransa da real "məxməri" inqilab elementləri ilə üzləşmişdi. Gənclərin "qırmızı may" adı ilə məşhur olan iğtişaşları 2006-cı ilin mart-aprel aylarında Fransanı yenidən bürümüşdü. 1980-ci illərin axırları – 1990-cı illərin əvvəllərində Şərqi Avropada geniş miqyas almış proseslər isə alimlərin, geniş ictimaiyyətin böyük marağına səbəb olmaqla bərabər, həm də sonrakı "demokratikləşmə dalğası"nın əsas hərəkətverici qüvvəsinə çevrilmişdi.

[1] С.Г. Кара-Мурза. Новая теория революций, www.contr-tv.ru

Bunların səbəbləri nədir? Mahiyyəti nədən ibarətdir? Bu hadisələr hansı istiqamətdə inkişaf edə bilərdi?

Bəzi təhlilçilər 1989-cu il hadisələrinin obyektiv daxili səbəbləri sırasında istehsal münasibətlərinin xarakterinin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun olmamasını göstərirlər. Avtoritar-bürokratik və ya totalitar rejimlər öz ölkələrində iqtisadi və elmi-texniki tərəqqi yolunda maneəyə, hətta Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) çərçivəsində inteqrasiya prosesləri üçün tormoza çevrilmişdi. Mərkəzi və Şərqi Avropa ölkələrinin 45 illik təcrübəsi onların qabaqcıl kapitalist ölkələrindən, hətta vaxtilə eyni səviyyədə olduqları ölkələrdən nə qədər geri qaldıqlarını açıq-aşkar göstərirdi. Bu baxımdan ADR özünü AFR ilə, Çexoslovakiya və Macarıstan Avstriya ilə, Bolqarıstan Yunanıstanla müqayisə edirdi. BMT-nin məlumatına görə, 1987-ci ildə adambaşına ÜDM üzrə QİYŞ miqyasında liderlik edən ADR dünyada yalnız 17-ci, ÇSSR 25-ci, SSRİ isə 30-cu yeri tuturdu. Yaşayış səviyyəsində, sosial təminat, tibbi xidmətin keyfiyyəti, təhsil və mədəniyyət göstəriciləri üzrə fərq əhəmiyyətli dərəcədə artmışdı. Şərqi Avropa ölkələrinin bu geriliyi mərhələli xarakter almağa başlamışdı. İnzibati amirliyə əsaslanan idarəetmə sistemi, onun sərt mərkəzləşdirilmiş planlaşdırma qaydaları, ifrat inhisarçılıq istehsalın çürüməsinə, səmərəsizliyinə gətirib çıxarırdı. 1950-1980-ci illərdə, həmin ölkələr ABŞ və Qərbi Avropanı "postsənaye" inkişaf səviyyəsinə yönəltmiş elmi-texniki inqilabın yeni mərhələsini "görəndə" bu vəziyyət daha aşkar nəzərə çarpırdı.

1970-ci illərin axırlarında "sosializm dünyasının" ikinci dərəcəli iqtisadi və sosial-siyasi məkana çevrilməsi meyilləri müşahidə olunurdu. Yalnız hərbi-strateji sahədə güclü mövqelər qorunub saxlanmışdı, bu da əsasən SSRİ-nin hərbi

potensialı sayəsində mümkün idi. Şərqi Avropada dəyişikliklərin daha bir güclü amili milli amil idi. Həmin ölkələrin avtoritar-bürokratik rejimlərinin sovet nümunəsini xatırlatması, bir qayda olaraq, bu xalqların milli qüruruna toxunurdu. Sovet rəhbərliyinin və ya həmin ölkələrdəki sovet nümayəndələrinin siyasi səhvləri və nəzakətsiz hərəkətləri də eyni cür təsir göstərirdi. 1948-ci ildə sovet-Yuqoslaviya münasibətləri pozulduqdan sonra, müharibədən əvvəlki dövrdə Moskvadakına oxşar məlum nümunəvi məhkəmə proseslərinin gedişində belə olmuşdu və sair. Hakim partiyaların rəhbərliyi də SSRİ-nin təcrübəsini ehkam kimi tətbiq edərək, yerli rejimlərin sovetləşdirilməsinə mühüm təkan verirdi. Bu isə haqlı olaraq belə bir hiss doğururdu ki, həmin ölkələrdəki quruluş onlara kənardan qəbul etdirilmişdir. SSRİ rəhbərliyinin 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada baş vermiş hadisələrə müdaxilə etməsi insanların şüurunda narazılığı artırır və "Brejnev doktrinası" deyilən məhdud suverenlik doktrinasını təsdiqləyirdi. İctimaiyyətin xeyli hissəsi öz iqtisadi vəziyyətini Qərbdəki qonşularının vəziyyəti ilə müqayisə edərək, istər-istəməz iqtisadi və siyasi problemləri bir-biri ilə əlaqələndirirdi. Sosial-siyasi baxımdan narazılıq və milli heysiyyətin tapdalanması eyni bir istiqamətdə təsir göstərərək, etiraz ovqatı yaradırdı. Bunların nəticəsi kimi, 1953-cü il iyunun 17-də ADR-də, 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada, 1956, 1968, 1970, 1976, 1980-1981-ci illərdə Polşada böhranlar baş verdi. Lakin bu böhranlar tam müsbət həllini tapmadı. Onların hər biri mövcud rejimlərin nüfuzdan düşməsinə kömək edir, adətən, siyasi dəyişikliklər ərəfəsində yaranan ideya irəliləyişlərini gücləndirir, hakim partiyaların mənfi obrazını yaradırdı. Eyni zamanda, böhranlar avtoritar-bürokratik rejimlərin sabitliyinin səbəblərindən birini –

onların "sosialist birliyinə" mənsub olmasını göstərirdi. Varşava Müqaviləsi Təşkilatı zəruri hallarda həmin ölkələrə Sovet İttifaqının rəhbərliyi vasitəsilə təzyiq göstərməyə imkan verirdi. Mövcud gerçəkliyə hər hansı tənqidi münasibət, hətta marksizm nəzəriyyəsini yaradıcılıq mövqeyindən anlamaqdan ötrü ictimai reallıqlar nəzərə alınmaqla ona hər hansı düzəlişlər etmək üçün göstərilən ən zəif cəhdlər də "ideoloji təxribatlar", "təftişçilik" və s. adlandırılırdı. Buna müvafiq olaraq, "fərqli düşünənlərə" qarşı ən incə üsullar tətbiq edilirdi.

İdeologiyada və mədəniyyətdə oxşarlıq, mənəviyyat sahəsində plüralizmin olmaması insanların siyasi passivliyinə, ikili düşüncəyə, konformizmə gətirib çıxarır, bu isə şəxsiyyəti mənəvi cəhətdən pozur və mütərəqqi intellektual qüvvələr belə vəziyyətlə barışa bilmirdi. Şərqi Avropa dövlətlərində inqilabi şərait yetişməyə başlamışdı. Şərqi Avropa ölkələrinin ictimaiyyəti SSRİ-dəki "yenidənqurma" prosesini müşahidə edərək, özlərində islahatlar aparılmasını gözləyirdi. Lakin həlledici məqamda subyektiv amilin amorfluğu özünü göstərdi: Məlum oldu ki, dərin dəyişikliklər təşəbbüsü ilə çıxış etməyə və buna rəhbərlik etməyə hazır olan yetkin partiyalar yoxdur. Hakim partiyalar onilliklər boyu nəzarətsiz hökmranlıq etdiyindən, yeniləşmə qabiliyyətini itirmişdi. Onlar siyasi xarakterini itirərək, dövlət maşınının bir növ davamına çevrilmiş, bürokratik cılızlaşmaya məruz qalaraq, xalqdan get-gedə uzaqlaşmışdı. Fəhlə sinfini özünün sosial bazası hesab edən bu partiyalar ziyalılara etimad göstərmir, gənclərlə dil tapa bilmir, onların tələblərini inkar etmək siyasəti yeridirdi. Tədricən bu partiyaların hərəkətləri xalq kütlələrinin etimadını itirirdi, xüsusən ictimaiyyətin gözü qarşısında rəhbər təbəqələr get-

gedə korrupsiya girdabına yuvarlandıqda, şəxsi varlanma hər şeydən üstün tutulanda mənəvi oriyentirlər tənəzzülə uğrayırdı. Bunu yəqin etmək üçün Çauşesku klanını xatırlamaq kifayətdir. "Fərqli düşünənlərə" qarşı repressiyalar (Rumıniyada, Bolqarıstanda, ADR-də və digər ölkələrdə) sabitliyin "qorunub saxlanmasında" az rol oynamırdı.

Siyasətdə inhisarçılığı ələ keçirmiş qüvvələr təsiri bağışlayan hakim partiyalar dövlət aparatı ilə, bürokratiya ilə qovuşaraq, tədricən cılızlaşmağa və dağılmağa başlamışdı. Keçmiş dövr barədə mübahisələr, "mühafizəkarlarla" "islahatçılar" arasında partiyadaxili mübarizə bu partiyaların fəaliyyətini müəyyən dərəcədə iflic vəziyyətinə salırdı. Onlar sosial və siyasi oriyentasiyanı, mübarizliyini itirirdi. Hətta siyasi mübarizənin kəskinləşməsi şəraitində də ümid edirdilər ki, hakimiyyət inhisarı onlar üçün təmin edilmişdir. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, onlar çox yanılırmış.

Hadisələrin dramatik inkişafına yol verməmək mümkün idimi? Çətin. Şərqi Avropada baş verən bütün hadisələr xeyli dərəcədə müstəqilliyin və sərbəst inkişafın olmamasının nəticəsi, onlara zorla qəbul etdirilmiş sosializm modelinin nəticəsi idi. SSRİ-dəki "yenidənqurma" sanki sosialist yeniləşməsinə təkan vermişdi. Lakin bu, faciəli yanılma idi. Şərqi Avropa ölkələrinin, elə SSRİ-nin də rəhbərləri cəmiyyətin əsaslı şəkildə yenidən qurulması vəzifəsinin vaxtı çatdığını anlamaq səviyyəsində deyildilər, zamanın siqnallarını qəbul etmək qabiliyyətini itirmişdilər. Yuxarıdan göstərişlər almağa adət etmiş partiya kütlələri istiqaməti itirmişdi.

Belə bir sual doğur: əgər sovet rəhbərliyi Şərqi Avropada yaxınlaşmaqda olan dəyişiklikləri əvvəlcədən hiss edirdisə, nə üçün bu məsələyə müdaxilə etmədi və özlərinin avtoritar

siyasətləri ilə xalq kütlələrinin narazılığını daha da gücləndirən əvvəlki rəhbərləri kənarlaşdırmadı?

Əvvələn, 1985-ci ilin aprel ayından (M.Qorbaçovun hakimiyyətə gəlişindən) və sovet qoşunlarının Əfqanıstandan çıxarılmasından sonra SSRİ rəhbərliyinin sərbəst seçim barədə bəyanatları nəzərə alınmaqla, zorakı təzyiq haqqında söhbət belə ola bilməzdi. Bu, Şərqi Avropa ölkələrinin rəhbərlərinə və müxalifətinə gün kimi aydın məsələ idi. Belə vəziyyət bəzilərini məyus edir, başqalarını "ruhlandırırdı".

İkincisi, 1986-1989-cu illərdə sovet rəhbərliyi ikitərəfli və çoxtərəfli görüşlərdə və danışıqlarda durğunluğun məhvedici nəticələrini açıq şəkildə etiraf edir və yaranmış vəziyyətdən çıxış yolunu birgə tapmağı təklif edirdi. Lakin sosializm düşərgəsinə aid ölkələrin rəhbərlərinin əksəriyyətinin hərəkətlərində mövcud hakimiyyət sisteminin mahiyyətini dəyişməmək cəhdləri nəzərə çarpırdı. Bolqarıstan Kommunist Partiyasının rəhbərliyi (T.Jivkov) "yenidənqurmanı" yalnız sözdə alqışlayır, əslində isə, ölkədə çoxsaylı "silkələmələr" yolu ilə şəxsi hakimiyyət rejimini qoruyub saxlamağa çalışırdı. Almaniya Vahid Sosialist Partiyasının və Çexoslovakiya Kommunist Partiyasının liderləri E.Honekker və M.Yakeş real dəyişikliklərə təkidlə müqavimət göstərir, SSRİ-də "yenidənqurma"nın iflasa uğrayacağına ümid bəsləyərək, sovet nümunəsinin təsirini məhdudlaşdırmağa çalışırdılar.

Sonradan təpik altında qərarlar qəbul etməyə məcbur olmamaq üçün təşəbbüsü ələ almağın zəruriliyi barədə M.S.Qorbaçovun dəlillərinə cavabında ADR-in rəhbəri 1989-cu il oktyabrın 7-də əvvəlcə məhdud tərkibdə, sonra isə AVSP Siyasi Bürosunun bütün üzvlərinin iştirakı ilə demişdi: "Sizin mağazalarda hətta duz da olmadığı bir

vaxtda bizə necə yaşamağı öyrətməyin". Elə həmin axşam xalq kütlələri küçəyə çıxdı və ADR-in dağılmasına start verildi. Rumıniyada N.Çauşesku repressiyalara güvənirdi və öz siyasi karyerasını çox faciəli şəkildə başa vurdu. Əvvəlki strukturlar dəyişmədən islahatlar keçirilən və real demokratiya ilə nəticələnməyən yerlərdə isə bu islahatlar plüralizmə və bazar iqtisadiyyatına deyil, yalnız daxili parçalanmaya və nəzarət edilə bilməyən proseslərə gətirib çıxardı. Qərb təhlilçilərinin proqnozu təsdiqləndi: sovet sığortalayıcı şəbəkəsi olmadan, SSRİ-nin hakim rejimləri dəstəkləyən hərbi müdaxiləsi olmadan həmin rejimlərin sabitliyinin etibarlılığı sıfıra bərabərdir.

Qərb ölkələri SSRİ-də və digər sosialist ölkələrində müxalifətçi qüvvələrin hakimiyyətə gəlməsində maraqlı idilər. Onlar həmin qüvvələri hər vasitə ilə, o cümlədən maddi baxımdan dəstəkləyirdi.

Politoloq Y.K.Knyazev Şərqi Avropada baş vermiş transformasiyaların üç səbəbini göstərir.

Birincisi. 1989-cu ilin axırlarında dörd ölkədə (Bolqarıstan, ADR, Rumıniya, Çexoslovakiya) xalq demokratik inqilabları baş verdi, nəticədə yeni xətt həyata keçirilməyə başladı. Uzun müddət davam etmiş təkamül prosesləri az bir vaxtda başa çatdı və 1989-90-cı illərdə Macarıstanda, Polşada və Yuqoslaviyada inqilabi xarakterli dəyişikliklər baş verdi. 1990-cı ilin axırlarından etibarən Albaniyada da buna oxşar irəliləyişlər başlandı.

İkincisi. Çevrilişlərin yuxarıdan baş verməsi, cəmiyyətin yenidən qurulmasına dair dəqiq proqramı olmayan və buna görə də uğursuzluğa, tezliklə siyasi səhnəni şərəfsiz şəkildə tərk etməyə məhkum olan alternativ qüvvələrin hakimiyyətə gəlməsi.

Üçüncüsü. Baş vermiş hadisələr inqilab deyil, əks-inqilab idi, çünki onlar antikommunist xarakter daşıyırdı, iqtidardakı kommunist və fəhlə partiyalarının hakimiyyətdən kənarlaşdırılması və əksər ölkələrin sosializmdən üz döndərməsi ilə nəticələndi. Müxalifət hərəkatlarının özünəməxsusluğuna və müxtəlifliyinə baxmayaraq, bu hərəkatların ümumi istiqamətinin bir vektoru vardı – bunlar avtoritar və ya totalitar rejimlərə qarşı, vətəndaşların hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına qarşı, cəmiyyətdə sosial ədalətsizliyə, qanunsuz imtiyazlara və dövlət strukturlarının korrupsiyaya qurşanmasına, xalqın həyat səviyyəsinin aşağı olmasına və ya daim aşağı düşməsinə qarşı çıxışlar idi. Bu, bütün Şərqi Avropa ölkələrini dərin böhran vəziyyətinə salmış və bu böhranlardan layiqli çıxış yolu tapa bilməyən inzibati amirlik, birpartiyalı bürokratik dövlət sisteminin kütləvi şəkildə rədd edilməsi demək idi. Bunu təkcə çoxsaylı nümayişlər və mitinqlər deyil, həm də sonradan hər bir ölkədə keçirilmiş ümumi seçkilərin nəticələri təsdiq edirdi. Bunlar təkcə "əleyhinə" deyil, həm də "lehinə" olan inqilablar, o cümlədən real demokratiya və azadlığın formalaşması, siyasi plüralizm, sosial ədalət, xalqın maddi və mənəvi həyat şəraitinin təkmilləşdirilməsi, ümumbəşəri dəyərlərin prioritetinin tanınması və yüksək dərəcədə inkişaf etmiş sivilizasiyalı cəmiyyətlərdə mövcud qanunlar əsasında inkişaf edən səmərəli iqtisadiyyat uğrunda inqilablar idi. Dəyişikliklərin ilk mərhələlərində bir sıra ölkələrdə sosial-iqtisadi bazisin dərin qatlarına demək olar ki, toxunulmamışdı və buna görə də həmin inqilablar yarımçıq təsir bağışlaya bilərdi. Bu isə dəyişikliklərin həqiqətən inqilabiliyinə şübhələrin olmasına əsas verirdi. Lakin bununla bərabər, Şərqi Avropa ölkələrində baş verən dəyişikliklər artıq dönməz hesab edilə biləcək fundamental bir prosesin başlanğıcı

demək idi. "Dünya sosializm sistemi" və "dünya sosializm birliyi" deyilən anlayışlar bircə anda puç olmuşdu.

Y.K.Knyazev yazır ki, Şərqi Avropada yaradılmış ictimai quruluşun "sosialist quruluşu" adlandırılması üçün çox az əsas vardı[1].

Hazırda hətta keçmiş və yaxud yenidən təşkil edilərək, adlarını dəyişmiş hakim partiyaların nümayəndələri də etiraf edirlər ki, birpartiyalı bürokratik dövlət diktaturası cəmiyyəti həqiqi sosializmin meyarlarına uyğun gəlmir. Xalqın hakimiyyətdən kənarlaşdırıldığı, iqtisadiyyatın idarə edilməsinin amirlik, bürokratik metodlarının hökm sürdüyü cəmiyyət bəd ayaqda kvazisosialist cəmiyyəti adlandırıla bilər. Buna görə də vaxtı keçmiş ictimai quruluşun inkar edilməsini antisosialist əksinqilab hesab etmək çətin ki, mümkün olsun.

Dəyişiklikləri tənzimləmək mümkün idimi? Prinsip etibarilə mümkün idi, lakin vaxt itirilmişdi. V.L.Musatovun yazdığı kimi, islahatları hələ 1968-ci ildə "Praqa baharı" dövründə – kommunist partiyasının siyasəti əhalinin əksəriyyəti tərəfindən dəstəkləndiyi vaxtda aparmaq lazım idi. Sosializm modelinin yeniləşdirilməsi bayrağı altında başlanmış 1989-1990-cı illər hadisələri bu çərçivədən kənara çıxmışdı. Hər yerdə burjua demokratiyası və azad sahibkarlıq, sosial bazar təsərrüfatı prinsiplərinə əsaslanan yeni ictimai quruluş yaradılmasına istiqamət götürülmüşdü.

Kommunist partiyalarının cəmiyyətdə hakim roluna dair postulatlar, sosializm barədə müddəalar dövlətlərin konstitusiyalarından çıxarılmışdı. Beləliklə, bir fakt aşkar oldu ki, "hər bir ölkədə cəmiyyətin, onun istehsal münasibətlərinin transforma-

[1] http://www.ecsocman.edu.ru/images/pubs/2005/04/09/0000208214/6_Knyazev. pdf

siyası hakimiyyət orqanlarının ssenarisindən daha çox obyektiv maddi və mənəvi amillərin təsiri altında baş verəcəkdir"[1].

Avropanın sosial-demokrat dairələrinin yenidən dirçəlmiş sosial-demokrat partiyalarının ictimai rolunun artacağına, onların sosialist boşluğunu dolduracağına ümidləri hələlik özünü doğrultmur. Siyasi inkişaf istiqamətini kəskin şəkildə sağa doğru dəyişir. Hakimiyyətə, əsasən, sağ mərkəzçi bloklar gəlmişlər. Çoxsaylı iri və xırda partiyalar yaranmışdır. Lakin politoloq L.Şevtsovanın yazdığı kimi, həqiqi çoxpartiyalılıq baş tutmamışdır. 1989-1991-ci illərdə partiyalar özləri üçün konkret strateji məqsədlər müəyyən etməmişdir. Onların sosial əsası da kristallaşmamışdı.

O.Q.Myasnikov yazır: "Əgər Şərqi Avropanı dünya sivilizasiyasından "çıxarmasaq", belə fərz etmək olar ki, bu rejimlərin təkamülü və xüsusən onların iflasa uğraması sənaye sivilizasiyasının böhranı deyilən vəziyyətlə bağlıdır. Adətən, bu böhranı qlobal problemlərin yaranması, sənaye tipli inkişafın potensialının tükənməsi ilə izah edirlər. Lakin görünür, məsələ bununla bitmir. Bu yüzilliyə xas olan avtoritarizm və totalitarizm dalğaları, həm solçu, həm də sağçı qüvvələrin heyrətamiz dərəcədə onlara meyil etməsi ölməkdə olan sənaye sivilizasiyasının qıc olması və eyni zamanda, yeni sivilizasiyanın "doğuş ağrıları" hesab edilməlidir. Bu, güclü dövlət maşınının köməyi ilə kortəbii ictimai (ən əvvəl iqtisadi) prosesləri kəməndə salmaq, kobud və vəhşi üsullarla, lakin ən yeni vasitələrdən istifadə etməklə sosial proseslərin ictimai qaydada tənzimlənməsinə zəruri ehtiyacı təmin etmək cəhdləridir. Diktatura dövlətlə vətəndaş cəmiyyəti arasında yeni balans tapmaq, idarəetməni və özünüidarəni

[1] http://www.ecsocman.edu.ru/images/pubs/2005/04/09/0000208214/6_Knyazev. pdf

birləşdirmək, müasir cəmiyyətdə dövlətin artıq "gecə gözətçisi" rolu ilə kifayətlənə bilməyəcəyinə göstərilən münasibətdir. Həm dövlət hakimiyyətinin, həm də vətəndaş cəmiyyətinin təşkilinin demokratik mexanizmləri şəklində sanballı "bünövrə" olmayan yerdə avtoritarizm, əslində, labüd varianta çevrilir. Dünya sivilizasiyası baxımından XX əsrin avtoritarizmi sinfi hökmranlığa əsaslanan ənənəvi siyasi hakimiyyət sisteminin məhv edilməsi üsuludur"[1].

Tamamilə aydındır ki, ən yaxın vaxtlarda Şərqi Avropada və təbii ki, keçmiş SSRİ ölkələrində Qərbi Avropadakı anlamda mühafizəkarların, mərkəzçilərin və sosial-demokratların yaranacağına güman yoxdur. Nə qədər ki, güclü orta sinif yoxdur, nüfuzlu mərkəzçi hərəkat yaranacağını gözləməyə dəyməz. Deməli, qarşıdurmaya əsaslanan siyasət modeli hələ uzun müddət mövcud olacaqdır. Elə buna görə də hakimiyyətə gəlmiş siyasi qüvvələr onu uzun müddət əldə saxlamaq məqsədi ilə demokratik idarəetmə formalarından daha çox avtoritar formalara meyl edirlər. Lakin bununla bərabər, "soyuq müharibə" illərində Qərblə pozulmuş ənənəvi əlaqələri bərpa etmək cəhdləri artır, tədricən "Avropaya qayıdış" baş verir. Bu qa-yıdışdan əvvəl demokratiyaya doğru uzun bir yol keçmək lazım gəlmişdir. Bu yol Şərqi Avropa dövlətlərini və sabiq SSRİ-ni enişli-yoxuşlu mərhələlərdən keçirərək, yeni "məxməri" transformasiyalara gətirib çıxarmışdır.

[1] http://www.auditorium.ru/books/4523/ch11.pdf

§ "ZƏRİF" TRANSFORMASİYALAR: Qərbdən Şərqə

"Məxməri" və ya bəzən deyildiyi kimi, "zərif" inqilablar dərin siyasi böhran zamanı və mövcud hakimiyyətin fəaliyyətinin iqtisadi baxımdan ətraf aləmin reallıqlarına uyğun olmadığı şəraitdə cəmiyyətin məruz qaldığı daxili transformasiyaların xüsusi bir sinfidir. Bütövlükdə inqilab bəzən qanlı savaşlara girişən xalq ilə, daha doğrusu, cəmiyyətin ən çox zərər çəkmiş hissəsi olan kəndlilərin hiddəti və narazılığının nəticəsidirsə, "məxməri" inqilab əsasən şəhər əhalisinin, daha dəqiq desək, ziyalıların kooperasiyasının yekunudur. Bu cür inqilab əks-elitanın və cəmiyyətin elit hissəsinin mühüm seqmentinin mövqeləri üst-üstə düşəndə, yaxud Serbiyada, Gürcüstanda, Ukraynada və Qırğızıstanda olduğu kimi, hakim dairələrin üzvləri tərəfindən dəstəklənəndə həyata keçirilə bilər. Bu simbioz öz siyasi və iqtisadi addımlarının uğur qazanacağına təminat kimi kənardan birmənalı dəstəklənəcəyinə arxayın olan yeni siyasi personajların əlinə hakimiyyətin qan tökülmədən və bir qayda olaraq, etibarlı şəkildə keçməsini şərtləndirir.

Ötən əsrin 80-ci illərinin axırlarında biz Şərqi Avropa ölkələrində onlarca, bəlkə daha çox (bəzən bunları saymaq da çətin olur) "məxməri" inqilabın şahidi olmuşuq. Kuba, Şimali Koreya, Vyetnam kimi ölkələrin kənar təsirlərdən xeyli az asılı olması, habelə Çinin iqtisadi mövqeyinin uğurlu tranziti bu ölkələrin ABŞ-ın nəzarəti altına keçməsinə imkan vermədi. Lakin Şərqi Avropa təsir bağışlayan şəkildə reallaşdırılmış bir eksperimentin səhnəsinə çevrildi.

1989-cu ilə qədər Şərqi Avropa ölkələrində siyasi və iqtisadi baxımdan vəziyyət Şərqdəki kommunist qonşunun prinsiplərinin "kənarlaşdırılmasına" doğru aparırdı. Şərqi Avropa sakinləri get-gedə daha çox Qərbi Avropaya meyil edir və özlərini tez-tez onun sivilizasiyalı paradiqması ilə eyniləşdirirdilər. Amerika sosioloqlarının fikrincə, inqilabi dəyişikliklər dövründə Şərqi avropalılar bir ictimai sistem kimi kapitalizmə Qərb ölkələrindəki respondentlərdən daha rəğbətlə yanaşırdılar.

Üstəlik, Macarıstan hadisələri və "Praqa baharı", Polşada mövcud rejimə qarşı vaxtaşırı təkrarlanan çıxışlar, habelə Çauşesku diktaturası Şərqi Avropa əhalisinin sosial gerçəkliyi kütləvi şəkildə qavramasına onları antiqərb "sovet bloku"nun tərkibində "saxlayan" dövlət hakimiyyətinə qarşı ümumi nifrət formasında təsir edirdi.

Şərqi Avropa ölkələrindəki "məxməri" inqilablar qlobal transformasiyaların təcəssümünə çevrilən ciddi tranzitlərin proloqu oldu. O vaxta qədər xeyli sürət toplamış qloballaşmanın yeni məkanlara ehtiyacı vardı. Buna görə də maliyyə və iqtisadi əməliyyatların uğurla irəliləməsi üçün yeni məkanların siyasi dəstəyinə əmin olmaq lazım idi. Axı, rusiyalı ekspertin yazdığı kimi, "qloballaşma hərəkətin birtərəfli olduğu küçə, xüsusən də hər şeyi basıb əzən və miskin bir yeknəsəqlik yaradan vərdənə deyildir. Real aləmin müxtəlifliyini əhatə edən qlobal şəbəkələr çox qəribə kombinasiyalar yaradır. Üstəlik, qloballaşma prosesində çox vaxt birinci dərəcəli rolu transmilli nəhənglər deyil, ərazi birlikləri oynayır. Qloballaşma və lokallaşma – bunlar bir medalın iki üzüdür... Bu, qlobal iqtisadi inkişafın tələbatı ilə yerli siyasi və sosiomədəni mühitin birləşməsidir..."[1].

[1] Горбачев-Фонд. Грани Глобализации; Виктор Кувальдин, Глобальность: новое измерение человеческого бытия. М., 2003, стр.71.

Qloballaşma "qızıl milyard" ölkələrinin uzunmüddətli birinciliyi üçün şərait yaratmış sanballı maliyyə imkanları ilə yanaşı, həm də bütöv bir problemlər kompleksini aşkar etmişdir və inkişaf etmiş ölkələr bu problemlərə qarşı mübarizə aparmalıdır. Axı, aşkar faktdır ki, "qızıl milyard" ətrafında iqtisadi artımın ləng getdiyi, bütöv regionlarda sabitliyi poza biləcək demoqrafik gərginlik hökm sürən çox geniş bir məkan yaranır. Eyni zamanda, bu da hamıya məlumdur ki, hazırda dünyada gündəlik gəliri bir dollardan az olan insanların sayı təqribən 1,2 milyarda bərabərdir. Beləliklə, "qızıl" və "ac" milyardlar arasında yaşayışın səviyyəsi, keyfiyyəti və tərzi baxımından böyük bir uçurum mövcuddur. Bu insanlar praktik olaraq müxtəlif, bir növ paralel dünyalarda yaşayırlar: planetin sakinlərinin ən çox təmin edilmiş 20 faizi əmtəə və xidmətlərin 86 faizini, enerji resurslarının yarısından çoxunu, ət və balıq ehtiyatlarının təqribən yarısını istehlak edir[1].

Buradan belə bir mühüm nəticə çıxır: "Qloballaşma, milli iqtisadiyyatların qarşılıqlı asılılığının artması, transmilli kommunikasiyaların coşğun inkişafı yoxsullar və varlılar arasındakı fərq problemini dünya miqyaslı problemlər səviyyəsinə keçirir"[2].

Lakin bununla yanaşı, unutmaq olmaz ki, bəşəriyyətin əsas hissəsi "qızıl" milyardla "ac" milyard arasındadır. Təqribən 2,8 milyard insan müasir qloballaşmanın "orta təbəqəsini" təmsil edir[3]. Buraya əsasən Şərqi Avropa ölkələri, SSRİ dağılandan sonra azadlıq əldə etmiş və sanballı təbii resurslara, köhnəlmiş olsa da, modernləşdirilməsi tamamilə mümkün olan sənaye infrastrukturuna malik yeni müstəqil dövlətlər daxildir.

[1] The Economist. September 12th, 1998, p.49.
[2] Viktor Kuvaldin, göstərilən əsəri, səh. 60.
[3] Globalization and the evolving World Society, p.22.

Qloballaşma həm zaman, həm də məkan baxımından inkişaf edir və genişlənir. Qloballaşma get-gedə daha çox dövləti və daha çox qitəni əhatə edir və hətta hazırda xeyli dərəcədə neoliberal demokratik ekspansiya modeli kimi özünü göstərirsə, 1980-ci illərin əvvəllərində onu yalnız dünya məkanının intensiv inkişafına və sərvətlərin müntəzəm paylanmasına şərait yaradan iqtisadi konsept kimi qəbul edirdilər. Ötən dövr Rusiyada və yeni müstəqil dövlətlərdə iqtisadi və maliyyə islahatları üçün, onların qapalı cəmiyyətlərdən açıq cəmiyyətlərə çevrilməsi üçün bütün ilkin şəraiti yaratmışdır. Məşhur maliyyəçi Corc Soros bir neçə il bundan əvvəl demokratiyanın təntənəsindən deyil, kapitalizmin zəfər qazanmasından bəhs edirdi[1], çünki "müasir dünyada siyasi və iqtisadi şərait arasında prinsipial uyğunsuzluq müşahidə olunur". Lakin bu sözlərin deyildiyi vaxtdan keçən beş il ərzində yeni mühafizəkar administrasiya bu səhvin aradan qaldırılması üçün çalışmışdır. Qlobal kapitalizm sistemi eyni dərəcədə qlobal siyasi iyerarxiyaya ehtiyac duyur, buna görə də "demokratiyanın yayılması məsələsi ilə beynəlxalq təsisatlar məşğul olmalıdır". Eyni zamanda, "qlobal açıq cəmiyyətin yaradılması hökmən suveren dövlətlərin daxili işlərinə kənardan müdaxilə olunmasını tələb edir"[2].

Daha bir məşhur iqtisadçı – Cozef Stiqlits yazır: "Qloballaşmanın səmərəsi çox vaxt onun müdafiəçilərinin bəyan etdiklərindən qat-qat az, qiyməti isə qat-qat yüksək olmuşdur, çünki yaşayış mühiti dağılır, siyasi proseslərə korrupsiya nüfuz edir, bundan əlavə, tez-tez baş verən dəyişikliklər ölkələrin mədəni adaptasiyasına macal vermirdi. Böhranlar, onların ardınca yaranan kütləvi işsizlik sosial strukturların dağılma-

[1] Дж.Сорос. Открытое общество. Реформируя глобальный капитализм, стр.11.

[2] Yenə orada, səh. 18, 397.

sına Latın Amerikasındakı zorakılıq aktlarından tutmuş, dünyanın digər hissələrindəki, məsələn İndoneziyadakı etnik münaqişələrə qədər daha uzunsürən problem doğururdu"[1].

Bu sistemdə fəaliyyət göstərən sxem şəraitə daha yaxşı uyğunlaşanların salamat qalmasını təbiətin qanunu elan edir. Daha çox inkişaf etmiş məkanlar kardinal Rişelyenin məlum prinsipi üzrə hərəkət edərək, inkişaf etməkdə olan məkanları "udurlar". Rişelye deyirdi: "Dövlətlərin prinsipləri yoxdur, onların yalnız maraqları var". Mahiyyət etibarilə makiavellizmin müasir qlobal siyasətdə təcəssümünü xatırladan bu geosiyasi realizm "məxməri" tranformasiyaların səbəblərinin təzahürüdür. "Bazar fundamentalizminin, geosiyasi realizmin və vulqar darvinizmin ümumi qüsuru ondan ibarətdir ki, onlar hamısı məhdud xudbin maraqlardan başqa heç bir motivasiyanı qəbul etmir"[2].

Qlobal iqtisadiyyat açıq cəmiyyəti fəaliyyət göstərməsinə və yeni meqacəmiyyət yaradılmasına imkan vermişdir. Vaxtilə bu təşəbbüsü də irəli sürən məhz Corc Soros olmuşdur. O, sonradan Gürcüstanda "qızılgül" inqilabını və Ukraynada "narıncı" inqilabı maliyyələşdirənlərdən biri idi. Sorosun niyyətinin canı qlobal açıq cəmiyyət yaratmaq məqsədi ilə demokratik dövlətlərin alyansını təşkil etmək idi. "Alyans qarşılıqlı surətdə bağlı olan iki məsələni həll etməlidir: bütün dünyada açıq cəmiyyətlərin inkişafına kömək etmək və dövlətlərin öz vətəndaşlarına və bir-birinə münasibətdə davranışını tənzimləyən müəyyən qaydalar və təsisatlar yaratmaq"[3].

[1] Дж.Стиглиц. Глобализация: тревожные тенденции. М., 2003, стр. 27.

[2] Дж. Сорос. Открытое общество. Реформируя глобальный капитализм, стр.392.

[3] Yenə orada, səh.396.

Bununla bərabər, nəzərə almaq lazımdır ki, Şərqi Avropadakı "zərif" inqilablar müəyyən mənada bir növ iki Toffler dalğasının toqquşması oldu. Bunlardan biri Qərbdən irəliləyən Üçüncü dalğa, digəri isə hələ də Şərqdə mövcud olan ikinci dalğa idi. Sənaye və postindustrial eraları arasında özünəməxsus bir çat baş verdi: sonuncu öz inkişafı yolunda müvafiq olmayan maneə ilə üzləşdi. Başqa sözlə desək, postindustrializm tədricən Avropada özünün əhatə məkanını və təsir dairəsini genişləndirməyə başladı. Lakin sosializm düşərgəsinin qapalı olması postindustrializm dövrünün siyasi və iqtisadi üstünlüklərini yaxın buraxmır, buradakı insanlar sovet cəmiyyətinə xas olan sənayeləşdirmə ənənələrinə sadiqliyi qoruyub saxlayırdı. Amma hər halda, informasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı nəzərə alınmaqla, sosiomədəni inkişaf burada da inqilabi zəmin üçün şəraitin təməlini qoyan əsaslı transformasiyalara səbəb oldu. Yuxarıda deyildiyi kimi, bu prosesdə demokratik layihələri maliyyələşdirən müxtəlif fondların, postsosialist məkanına verilişlər yayımlayan və ictimai şüurun vektorunu dəyişmək məqsədini daşıyan radiostansiyaların xüsusi rolu vardı. Məsələn, Azərbaycanda çoxlarının yadındadır: müxtəlif "səsboğanlara" məhəl qoymadan, minlərlə insan hər gün "Amerikanın səsi" radiosunu dinləyirdi, çox gözəl başa düşürdülər ki, bu "səs" sovet rejiminin totalitar mahiyyətini ifşa edir. Qeyd etmək lazımdır ki, bu radiostansiyanın dinləyiciləri sovet dövlətinin məhz yaradıcı və mədəni elitasının nümayəndələri və ziyalılar idi. Müttəfiq respublikalarda xalq hərəkatlarının başlanğıcında ziyalıların nümayəndələri azadlıq uğrunda mübarizəyə biganə qalsalar da, Şərqi Avropa ölkələrində onlar "məxməri" inqilabların lap kökündə dayanmaqla başlıca rol oynayırdılar.

Yuxarıda bəhs etdiyimiz polilokallıq və transmillilik mədəniyyətlər və insanlar arasında yeni münasibətlər yaratmış, bununla da bizim gündəlik əhatəmizi dəyişmişlər. Bu baxımdan N.V.Korovitsnanın kitabından götürdüyümüz aşağıdakı nümunə çox əlamətdardır: "1987-ci ildə Polşa gənclərinin 69,9 faizi belə hesab edirdi ki, sosializmin gətirdiyi fayda itkilərdən çoxdur, onların 23,3 faizi isə başqa cür fikirləşirdi; 1989-cu ildə isə onların nisbəti artıq 39,7 faiz və 55 faiz olmuşdur"[1]. Mövcud mühit və o vaxta qədər beynəlxalq siyasətdə baş vermiş dəyişikliklər Şərqi avropalıların ictimai şüurunun formalaşmasına ciddi təsir göstərirdi.

Ulrix Bek özünün "Qloballaşma nədir?" adlı kitabında "soyuq müharibə" dövrü başa çatandan və kommunist bloku dünya bazarına inteqrasiya edəndən sonra kapitalist dinamikasının əsas aspektləri kimi çox kəskin formada özünü göstərmiş və Qərb kapitalizmində ümumi rifah altında "maskalanmış" yeddi bəndin adını çəkir[2]. Mahiyyət etibarilə bu yeddi bəndin xarakteri "üçüncü demokratik dalğa"nın ikinci mərhələsini intensivləşdirmiş "məxməri" inqilabların mənasını anlamağa kömək edə bilər. Bu inqilablar İkinci Modern cəmiyyətini əhəmiyyətli dərəcədə səciyyələndirir və bununla yanaşı, yeni dünya nizamına xas olan xəstəlik əlamətlərini aşkar edərək, müasir qlobal transformasiyaların əsaslandırılmasını təklif edir.

U.Bek birinci bənd kimi transmilli inteqrasiya ilə milli dezinteqrasiyanın eyni vaxta düşməsini vurğulayır, yəni bütün dünyada sərvətlər, suverenlik, hakimiyyət və hərəkət azadlığı yenidən bölünür.

[1] Н.В. Коровицына. С Россией и без нее: Восточноевропейский путь развития. М., Эксмо-Алгоритм, 2003, стр. 288.

[2] У.Бек. Что такое глобализация?. М., 2001, стр. 168-172.

İkinci bənd transmilli konsernlərin "zəif dövlətlərin" olmasını istəməsidir.Yəni, Ziqmunt Baumanın təbirincə desək, onlar zəif olsalar da, hər halda, dövlət kimi qalsınlar. "Zəif məhz o dövlətlərdir ki, Yeni dünya nizamının (bunu çox tez-tez səhvən dünya nizamsızlığı kimi başa düşürlər) özünü qoruyub saxlaması və davam etdirməsi üçün onlara ehtiyacı var"[1].

Üçüncüsü, Avropanın kontinental ümumi rifah ölkələri və iqtisadiyyatları sosialyönümlü olan ölkələr əks spirala düşürlər. Başqa sözlə desək, əgər iqtisadi aktorlar transmilli tərzdə düşünür, bu tərzdə hərəkət edir və bu yolla milli dövlət nəzarətindən və siyasətindən yaxa qurtarırlarsa, onda transmilli iqtisadiyyatın nəticələrini, get-gedə artmaqda olan işsizliyi və yoxsulluğu bir növ qəbul etmək, buna dözmək zərurəti yaranır.

Dördüncü bənd əməyin bilik və kapital ilə əvəz edilməsində üzə çıxır. Qlobal kapitalizm işçi qüvvəsindən get-gedə daha az istifadə edir və bu halda əmək bazarından bayıra atılmış peşəkarların sayı artır. Buna müvafiq olaraq, yeni məkanlar həmin qrupları qəbul edərək, onlara maddi və sosial təhlükəsizlik yaratmağa, yeni məkanların "iqtisadi fəal" subyektlərə inteqrasiyasını təmin etməyə qadirdir.

Beşincisi, yoxsulluğun ikiqat nisbiliyi. Dünya məkanının iqtisadi inkişafında mövcud fərqlər bu və ya digər cəmiyyətlərdə sosial gerçəkliyin çox vaxt səhv qəbul olunmasına gətirib çıxarır. Ziqmunt Bauman yazır: "Qloballaşan varlılarla lokallaşan yoxsullar arasında ictimai tellər az qala qırılmaq həddinə çatmışdır, çünki yuxarıda, ən üst təbəqədə qloballaşma nəticəsində qazananlarla aşağıda, ən alt təbəqədə qloballaşma nəticəsində uduzanlar arasında daha

[1] Z.Baumann/ Schwache Staaten, a.a.

heç bir nüfuzlu instansiya qalmamışdır ki, oraya müraciət edib kompensasiya və ədalətə nail olmaq mümkün olsun”[1].

Altıncısı, qlobal həyatın sərbəstləşdirdiyi, özünün yaratdığı ziddiyyətlər istisna meyarları kimi təsir göstərir. U.Bekin bəhs etdiyi İkinci Modern cəmiyyət daxilində yeni rəqabətin sərt tələblərini yaradır. Nəticədə təzə mühitdə yeni reallıqlara transformasiya edilə bilməyənlər sistem tərəfindən aktorlar kimi kənar olunur. Bir dövrdən digərinə transformasiyanın fəal iştirakçısına çevrilməyə qabil olmayan fərq bu prosesin obyektinə, yəni lal şahidinə çevrilir.

Nəhayət, U.Bek yeddinci bənd kimi göstərir ki, əməksiz kapitalizm utopiyasız marksizmə oxşayır. Vaxtilə Fridrix Nitsşe yazırdı ki, “kiçik siyasətin dövrü artıq geridə qalmışdır, qarşıdakı yüzillik özü ilə birlikdə bütün yer kürəsi üzərində ağalıq uğrunda mübarizə – böyük siyasətə məcburi qoşulma gətirəcəkdir”[2]. Vaxt ötdükcə aydın oldu ki, “böyük siyasət” məhz fəal əməktutumlu potensialı və yeni məkanları qlobal inteqrasiya şəbəkəsinə cəlb etmək imkanı olan kapitalizmə əsaslanır.

İmmanuil Kant ”Əbədi sülhə doğru” adlı traktatında Avropanın gələcəkdə maarifli xalqlar ailəsi şəklində birləşməsinin mədəni və fəlsəfi əsaslarını ilk dəfə təsvir edərək yazırdı ki, maariflənmə insanın öz zəkasından istifadə etmək hünəridir”. O, həm də deyirdi ki, demokratiyalar heç vaxt ayrı-ayrı cəmiyyətlər, milli dövlətlər formasında mövcud ola bilməyəcək; onlar yalnız dünya vətəndaşları cəmiyyəti çərçivəsində mümkün olacaqdır (İ.Kant da səhv edə bilər). Siyasi və mədəni həyatın unifikasiyaya və standart-

[1] Z.Baumann/ Schwache Staaten, a.a
[2] Ф.Ницше. Сочинения в 2 т. М., 1990, т.1, стр. 332.

laşdırmaya məruz qala bilməyəcəyi güman edilən bir dövrdə aşkar olur ki, Qərb hegemonluğu hazırda hələ gənc olmasına – cəmi iki əsrdən bir qədər artıq mövcudluğuna baxmayaraq, dünya məkanının ictimai-siyasi, iqtisadi və hətta sosiomədəni inkişafına da ciddi düzəlişlər edir. Müasir dünya nizamı iqtisadiyyatın, siyasətin və sosiomədəni məkanın qarşısıalınmaz qloballığı deməkdir. "Məxməri" inqilablar isə bu və ya digər məkanın hərəkətini inkişafın zəruri dinamika və vektor məcrasına yönəltmək üçün yalnız bir vasitədir.

Əsas motivlərindən biri Şərqi Avropa cəmiyyətlərini azad etməkdən, onların milli-mədəni identikliyinin bərpasından ibarət olan "məxməri" inqilablar labüd olaraq bu cəmiyyətlərin sivilizasiya trayektoriyasının kəsilməsi və onların mədəni identikliyinin daşıyıcıları olan sosial qrupların itirilməsi təhlükəsinə doğru aparırdı. N.V.Korovitsına bunu Polşa nümunəsində belə təsvir edirdi:

"Əgər liberallaşma nəticəsində, xüsusən onun başlanğıc mərhələlərində kəndlilərin və ya fəhlə sinfinin sosial vəziyyəti və əhvalı həqiqətən ciddi şəkildə pisləşmişdisə, ənənəvi ziyalılar təkcə sosializm dövrü üçün deyil, sosializmdən əvvəlki dövr üçün də səciyyəvi olan mövcudluğunu, əslində, dayandırmışdı... 1989-cu ildə ictimai sistemin dəyişilməsi [nəticəsində] Polşanın müstəqillik uğrunda mübarizəsinin romantik psixoloji tarixinin dramatik və gözəl bir fəsli başa çatmışdır"[1].

S.Telegin "Narıncı" inqilabın astanasında" kitabında N.V.Korovitsınanın həmin əsərindən daha bir maraqlı iqtibas gətirir: "Avropa qitəsinin Şərq hissəsi XX əsrin ortalarında

[1] Н.В. Коровицына. С Россией и без нее: Восточноевропейский путь развития.

da onun Qərb hissəsinin iqtisadi əyaləti olaraq qalmaqda idi... Bu fonda "müasir dövrə keçidin əsası" kimi sosialist sənayeləşdirmə proqramının həyata keçirilməsi... region ölkələri üçün tarixi əhəmiyyət kəsb edirdi. Sənaye istehsalının artması kənddə aqrar əhalinin çoxluğunun, şəhərdə isə işsizliyin ləğvinə gətirib çıxarmışdır... "Sosializmin əsaslarının" qurulması dövrü tarixə, ilk növbədə, sosial mobilliyin kütləvi şəkildə genişlənməsi dövrü kimi düşmüşdür. Ona "müstəsna", "misilsiz" dövr kimi tərif verirlər... Ümumiyyətlə, Şərqi Avropa cəmiyyəti deyilən cəmiyyətin formalaşmasının başa çatdığı vaxtda bu məkanda rəyi soruşulanların təqribən 70 faizi öz həyatından razı olduğunu bildirmişdi. Sosioloqların fikrincə, polyakların dəyərlər sistemi əsrin dörddə biri ərzində, 1978-ci ilədək, hətta 1980-ci ilin əvvəllərinə qədər nisbətən sabit qalmışdır".

Belə bir sual qarşıya çıxır: bəs "məxməri" inqilablara səbəb nə idi? Bəzi müəlliflər belə hesab edirlər ki, problemin mahiyyəti dünyagörüşü böhranındadır. Sürətli modernləşmə və şəhər həyat tərzinə keçid prosesində ənənəvi aqrar cəmiyyət məhz belə bir böhrana məruz qalır. Urbanizasiya, qitələr arasında qarşılıqlı maliyyə münasibətlərinin intensivləşməsi, dünya siyasətində dərin transformasiyalar, eləcə də Qərbə çatmaq cəhdləri yuxarıda bəhs etdiyimiz iki Toffler dalğasının toqquşmasının başlanmasına kömək etmişdir. Əslində, gizli deyil ki, bu sistemi dağıdanlar sistemdə baş verən hər hansı dəyişikliyin yaxşılığa doğru olacağına inanırdılar. Qərbə çatmaq barədə iddialı istehlak planları Şərqi Avropanın gənc sakinlərində belə bir inam oyadırdı ki, həyat get-gedə yaxşılaşır, yaxud yaxşılaşmalıdır və tezliklə keyfiyyətcə yeni vəziyyətə doğru dönüş olacaqdır. Bu generasiya təcrübəsində sənayeləşdirmədən əvvəlki dövrün

cizgiləri də, postmüasir gələcəyin əlamətləri də təcəssüm etmiş, bəşəriyyətin spesifik tarixi-mədəni fenomeni olan "sosialist postmoderni" şəklində gözqamaşdırıcı, lakin çox davam etməyən mənəvi ruh yüksəkliyi yaratmışdır[1].

Dünya baxışında bu cür böhran yaranacağını E.Toffler də sezmişdi. O yazırdı: "İkinci və Üçüncü dalğa qüvvələri arasında ifrat mübarizə sınıq xətt şəklində, sinif və partiya, yaş qrupları və etnik qruplar, seksual meyillər və sub-mədəniyyətlər vasitəsilə gedir. Bu mübarizə bizim siyasi həyatımızı yenidən təşkil edir, ona yeni çalarlar verir. O, harmonik, sinifsiz, münaqişəsiz, ideologiyadan uzaq gələcək cəmiyyət əvəzinə, bizi get-gedə genişlənən böhranlara və yaxın gələcəkdə dərin sosial təlatümlər aləminə səmtləndirir. Məhəlli siyasi savaşlar dövlətlərin çoxunda təkcə sənaye cəmiyyətindən qalan dəyərlərdən kimin istifadə etməsi uğrunda deyil, həm də bu cəmiyyətin varisinin formalaş-masında və nəticə etibarilə ona nəzarətdə kimin iştirak etməsi uğrunda aparılacaqdır"[2].

Buna oxşar böhran başqa inqilablara da xasdır. Dünyanın bir hissəsi sənayeləşmə yolu ilə sürətlə irəliləyir, o biri hissəsi geridə qalırdı. Nəticədə vəziyyətin özü inqilab üçün zəmin yaradırdı.

Tarix bütünlüklə, xüsusən proseslərin idarə edilməsi siste-mində təkrarlardan ibarətdir. Beynəlxalq siyasət əsrlər boyu dəyişməmişdir, onun məqsədləri əvvəlki kimi qalır və qalacaqdır. Dəyişən yalnız daha qlobal xarakter kəsb etmiş məqsədlərin reallaşdırılması yollarıdır. Beləliklə, 1989-cu il "qlobal məxməri transformasiyalar" ili oldu. 1989-cu ilin

[1] Н.В. Коровицына. С Россией и без нее: Восточноевропейский путь развития.

[2] Э.Тоффлер. Третья волна. М., 1999, стр. 691.

fevralından dekabrına qədər 11 ay ərzində baş vermiş hadisələrin xronologiyası Avropanın siyasi xəritəsində bir neçə yeni dövlətin yaranması və çoxsaylı idarəetmə rejimlərinin adının və formasının dəyişməsi ilə əlamətdar olmuşdur. XXI əsrin əvvəllərində dönməz xarakter almış qlobal transformasiyaların mahiyyətini daha yaxşı anlamaq üçün o dövrün hadisələrinə bir daha qayıtmağa dəyər.

1989-cu il fevralın 6-da Polşada hökumət nümayəndələri, həmkarlar ittifaqlarının rəsmi birlikləri, "Solidarnost" həmkarlar ittifaqı və digər ictimai qruplar ara-sında danışıqlar başlandı.

1989-cu il iyunun 4-də Polşada müxalifətçi partiyaların da iştirak etdiyi parlament seçkiləri keçirildi. Hakim partiya 460 deputat yerindən 299-nu qazandı. Senata keçirilən azad seçkilər nəticəsində 100 yerdən 99-nu müxalifət nümayəndələri, 1 yeri isə müstəqil namizəd tutdu.

1989-cu il avqustun 24-də müxalifətin nümayəndəsi Tadeuş Mazovetski Polşa hökumətinə başçılıq etdi.

1989-cu il sentyabrın 9-da Macarıstan hökuməti Avstriya ilə sərhədi açdı.

1989-cu il sentyabrın 18-də Macarıstan Sosialist Fəhlə Partiyası ilə müxalifət arasında "dəyirmi masa" çərçivəsində danışıqların gedişində Macarıstanda çoxpartiyalı sistemin tətbiq olunması barədə qərar qəbul edildi.

1989-cu il oktyabrın 18-də Macarıstan parlamenti konstitusiyaya ölkədə parlament demokratiyasına keçidi tənzimləyən təqribən 100 konstitusion düzəlişi qəbul etdi.

1989-cu il oktyabrın 23-də Budapeştdə Macarıstan Xalq Respublikasının əvəzinə özünü azad, demokratik, müstəqil, hüquqi dövlət elan edən Macarıstan Respublikası yaradıldı.

1989-cu il oktyabrın 18-də Almaniya Demokratik Respublikasının və Almaniya Vahid Sosialist Partiyasının rəhbəri E.Honekker istefa verdi. Eqon Krents AVSP-nin yeni baş katibi, ADR Xalq palatasının sədri və ölkənin Milli Müdafiə Şurasının sədri oldu.

1989-cu il noyabrın 9-da ADR Nazirlər Şurası AFR və Qərbi Berlinlə sərhədin açılması barədə qərar qəbul etdi.

1989-cu il noyabrın 10-da Bolqarıstan Xalq Respublikasının və Bolqarıstan Kommunist Partiyasının başçısı Todor Jivkov partiyanın baş katibi və Siyasi büronun üzvü vəzifələrindən istefa verdi. BKP-nin yeni baş katibi vəzifəsinə Petr Mladenov seçildi.

1989-cu il noyabrın 17-də Bolqarıstan parlamenti Mladenovu ölkənin Dövlət Şurasının başçısı seçdi.

1989-cu il noyabrın 24-də müxalifətin və kütləvi nümayişlərin təzyiqi altında Çexoslovakiya Kommunist Partiyasının rəhbərliyi istefa verdi. Partiyanın yeni baş katibi vəzifəsinə Karel Urbanek seçildi.

1989-cu il noyabrın 28-də Çexoslovakiyada hökumət nümayəndə heyətinin və hakim Xalq Cəbhəsinin müxalifətçi "Vətəndaş forumu"nun nümayəndələri ilə görüşünün yekunlarına əsasən, yeni hökumət yaradılması, kommunist partiyasının rəhbər rolu barədə Konstitusiyada təsbit olunmuş müddəanın ləğv edilməsi haqqında qərar qəbul edildi.

1989-cu il dekabrın 10-da Çexoslovakiya prezidenti Q.Qusak istefa verdi. Qeyri-kommunistlərin əksəriyyət təşkil etdiyi yeni hökumət yaradıldı.

1989-cu il dekabrın 29-da Vatslav Havel Çexoslovakiyanın prezidenti seçildi.

1989-cu il dekabrın 15-də Rumıniyanın Timişoara şəhərində kütləvi etiraz çıxışları başlandı.

1989-cu il dekabrın 22-də Rumıniyada dövlət başçısı və Rumıniya Kommunist Partiyasının rəhbəri N.Çauşesku devrildi, dekabrın 25-də onu arvadı ilə birlikdə güllələdilər. Milli Qurtuluş Cəbhəsinin lideri İ.İliyesku Rumıniyanın prezidenti oldu.

Bu proseslərin sürətlə baş verməsi "məxməri" inqilabların siyasi sistemlərdə nə qədər güclü və əsaslı dəyişikliklər törətməyə qadir olduğunu göstərdi. "Zərif" transformasiyalar ərəfəsində kommunist və kapitalist dünyaları arasında nəzərəçarpacaq mülayimləşmə, xüsusən M.Qorbaçovun AFR-ə səfəri zamanı hər bir dövlətin öz siyasi və sosial sistemini sərbəst seçmək hüququnu elan etməsi QİYŞ-in keçmiş üzvləri olan dövlətlərdə qan tökülmədən rejimin dəyişməsi və bu dövlətlərin "yeni" Avratlantik məkana yetərincə inteqrasiyası üçün əlverişli şərait yaratmış oldu.

Bəzi müəlliflərin fikrincə, "inqilablar elə ölkələrdə baş verir ki, onlar prinsipial baxımdan yeni, həm özləri üçün səciyyəvi olmayan daxili inkişaf proseslərinin, həm də dünya miqyaslı qlobal meyillərin doğurduğu problemlərlə üzləşirlər.

Bununla yanaşı, həmin dövlətlərin institusional strukturu və onların əhalisinin psixoloji stereotipləri yeni tələblərə çevik uyğunlaşmağa imkan vermir; və adaptasiyaya mane olan bu daxili məhdudlaşdırıcıları təkamül yolu ilə inkişaf prosesində aradan qaldırmaq mümkün olmur"[1].

[1] И.В.Стародубровская, В.А.Мау. Великие революции: от Кромвеля до Путина. М., 2004, стр. 29.

Ötən əsrin axırlarındakı "məxməri" inqilablarla yeni minilliyin əvvəlindəki transformasiyalar arasındakı mühüm fərqi vurğulamaq lazımdır. Axı, dünyabaxışı paradiqmalarının böhranı ilə yanaşı, bu transformasiyaları, – hətta onlar vahid qlobal "üçüncü demokratik dalğa"ya aid olsalar belə, – əhəmiyyətli dərəcədə fərqləndirən bir neçə seqmentin mövcudluğu göz qabağındadır.

Əvvələn, 1989-cu ildəki transformasiyalar tarixi zərurət idi, onlar SSRİ-nin siyasi və iqtisadi qüdrətinin tükənməsinin nəticəsi idi. Əvvəlcə Qərb hadisələrin bu qədər intensiv inkişafını qəbul etməyə hazır deyildi. Bunu, ən azı, kansler H.Kolun ehtiyatlı mövqeyi təsdiq edir. O, 1989-cu il oktyabrın 11-də M.Qorbaçovla telefon söhbətində demişdi: "Bizim yeganə istəyimiz budur ki, ADR sizin xəttinizə, mütərəqqi islahatlar və dəyişikliklər xəttinə qoşulsun... Biz istəyirik ki, ADR sakinləri öz evlərində qalsınlar. Biz onları tələtümə gətirməyə, hansısa hərəkətlərə sövq etməyə hazırlaşmırıq ki, buna görə sonradan bizi qınasınlar". Böyük Britaniyanın SSRİ-dəki səfiri R.Breytueyt də buna oxşar fikirlər söyləmişdi: "Hamı – mənim hökumətim də, müttəfiqlərimiz də çox yaxşı başa düşürlər ki, ADR-in işlərinə müdaxilə etmək olmaz, hətta müdaxilə kimi qiymətləndirilə biləcək bəhanələrə də yol vermək olmaz". Lakin 9 noyabr hadisələri – Siyasi Büronun üzvü Q.Şvabovski ADR-in bütün vətəndaşlarının AFR-ə gedə bilməsini bəyan edəndən sonra sevinən kütlə Berlin divarını dağıtmağa başlayanda Şərq almanlarının yenidən birləşmək cəhdindən əl çəkməsinin mümkünlüyünü tamamilə təkzib etdi.

İkincisi, sosializm ölkələrindəki idarəetmə sistemi qlobal kontekstdə öz dövrünü başa vurmuşdur. Onun qalıqları bu gün Kubada, Şimali Koreyada və qismən Çində hiss edilir.

Avtoritar dövlət idarəetmə sisteminin kütləvi şüuru daim "qapalı" saxlaya bilmədiyini göstərdi.

Bərpayönümlü çevrilişlər "real sosializm" cəmiyyətlərində ciddi obyektiv daxili zəminə malik idi. Bizim dövrdə baş vermiş məxməri qiyamlar bu və ya digər konkret ölkənin ziddiyyətlərindən və problemlərindən qidalanmış olsa da, kənardan təhrik olmasa baş verə bilməz.

Üçüncüsü, "məxməri" inqilablar hadisələr hər hansı ssenari üzrə, o cümlədən inqilabi yolla inkişaf edəcəyi halda SSRİ bu hadisələrə müdaxilə etmək fikrindən dönəndən dərhal sonra baş vermişdir. Hakimiyyətə gələnlər kifayət qədər qabiliyyətli siyasətçilər idi, onlar öz ölkələrində əhəmiyyətli modernləşmə aparmış, bəzi ölkələr hətta Avropa İttifaqına üzv olmuşdur. İndiki şəraitdə isə hakimiyyətə "idarə edilən demokratiya" hökumətləri "gətirilir", onlar inqilabın donoru olmuş ölkələr üçün sərfəli olan xətti həyata keçirirlər.

Dördüncüsü, bu inqilabların həyata keçirilməsində transmilli korporasiyaların rolu minimum olmuş, bəzi hallarda isə, bəlkə də, heç bir rolu olmamışdır. İndiki şəraitdə isə "məxməri" inqilablar transmilli korporasiyaların maraqlarının həyata keçirilməsi üçün pərdə rolu oynayır.

Tarixçi A.Toynbi yazırdı ki, bütöv sivilazasiyaların ağır böhran girdabına düşməsinin səbəbi o idi ki, hakim azlıq kütlələrin şüuru ilə manipulyasiya etmək üçün onların şüuruna özünün yeritdiyi miflərə birdən-birə inanmağa başlamışdı. Postsovet dövlətlərində də belə olmuşdur. Hakim elita əvvəlcə sovet dövlətçiliyinin məhv edilməsinə passiv razılıq ala bilmək üçün Qərb demokratiyası, orada seçkilərin ədalətli və bərabərhüquqlu keçirilməsi barədə son dərəcə bəsit mifi kütləvi şüura yeridirdi. Sonra isə elə həmin hakim yuxarı

təbəqə seçkilərdə manipulyasiya edir, çox vaxt bunu hətta gizlətmirdi. Belə ki, vətəndaşların əksəriyyəti bu "demokratik təsisatı" sadəcə olaraq, öz şüurunda yox edirdi. Amma seçkilərdən yalnız hakimiyyətin sabitliyini pozmaq vasitəsi kimi istifadə etməklə həmin hakim elitanı devirməyə başlayanda, bu hakim təbəqə nədənsə qət etdi ki, seçkilər ciddi məsələdir.

Nəhayət, beşincisi, 1989-cu ilin "məxməri" inqilabları sonrakı qlobal transformasiyaların ssenarilərini rəsmiləşdirmiş yeni dünya nizamının çıxış nöqtəsi oldu. Elə həmin E.Toffler 1990-cı ildə "Hakimiyyət metamorfozları" kitabında yazırdı: "Zəlzələdən əvvəl tektonik layların hərəkətə başlaması kimi, dünya tarixində ən nadir hadisələrdən biri – hakimiyyətin mahiyyətinin inqilabı yaxınlaşır". Bu sitat isə Amerikada çıxan "The New York Sun" qəzetindən (24 mart 2005-ci il) götürülmüşdür. Qəzet "İnqilab tonqalına odun atın" sərlövhəli redaksiya şərhində demokratiyanın heç cür kök sala bilmədiyi ölkələrdən bəhs edərək yazırdı: "Bu yerdə köməyə Amerika gəlməlidir. Axı, "narıncı inqilab" öz-özünə baş verməmişdir, Amerikanın hüquq müdafiə qrupları onu körpə kimi öz bətnində böyütmüş və yedirtmişlər. Onların sayəsində xalq çıxışlarının təşkilatçıları indi avtomatlardan atəş açmadan xalq kütlələrinin idarə edilməsi elmini öyrənə bilərlər". Beləliklə, "dünya tarixində nadir hadisələrdən" birinin həyata keçirilməsinin başında kimin durması barədə tamamilə qanunauyğun qənaət yaranır.

§ QLOBAL TRANSFORMASİYALARIN RƏNGLƏR QAMMASI

Serbiya – 2000

2000-ci il sentyabrın axırları: Serbiya Demokratik Müxalifəti (DOS) alyansının namizədi Voislav Koştunitsa Yuqoslaviyada prezident seçkilərində gözlənilmədən qalib gəlir. Dövlət başçısı Slobodan Miloşeviç öz məğlubiyyətini etiraf etməkdən hələ də imtina edir. Zoran Cinciçin başçılıq etdiyi müxalifət və tələbələrin "Otpor" hərəkatı bütün ölkədə tətillər təşkil edirlər.

Lakin bu hadisələrin belə yekunlaşmasından əvvəl Yuqoslaviyanın özündə uzun illər boyu davam etmiş geosiyasi mənafelərin toqquşması və mürəkkəb daxili siyasi çəkişmələr baş vermişdir. 1997-ci ildən etibarən Slobodan Miloşeviçi devirmək üçün dəfələrlə müxtəlif siyasi və iqtisadi layihələr həyata keçirilmişdir. Bir məsələ aydın idi: Yuqoslaviya Rusiyanın Balkan yarımadasında axırıncı forpostu kimi qalır, ona görə də bu ərazi uğrunda müharibə son nəfəsə qədər davam edəcəkdir. Rusiya S.Miloşeviçin tərəfdar olduğu "Böyük Serbiya" ideyasının müdafiəçisi kimi çıxış edə bilərdi. Eyni zamanda, qlobal miqyasda genişlənməkdə olan "üçüncü demokratik dalğa"da YSFSR Avropanın Avratlantik məkana siyasi və iqtisadi baxımdan inteqrasiya etməmiş yeganə avtarkiya sahəsi idi.

1996-2000-ci illərdə Rusiyanın Balkan siyasətində birinci dərəcəli əhəmiyyət verdiyi məqamlar bunlar idi:

- Yuqoslaviya İttifaq Respublikasının və Balkan yarımadasındakı digər dövlətlərin ərazi bütövlüyünün qorunub saxlanması;

- regionun hüdudlarından kənarda yerləşən ölkələrin Balkan məsələlərində həddən artıq fəal iştirakına mane olmaq;
- Balkan yarımadasındakı vəziyyət məsələsində Avratlantik strukturlarında xüsusi mövqe tutan dövlətlərlə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi;
- regionda beynəlxalq birliyin ən nüfuzlu üzvləri arasında tarazlıq yaradılmasına və Balkan yarımadasında vəziyyətin tənzimlənməsinə Rusiyanın fəal cəlb edilməsinə tərəfdar olan ictimai-siyasi qüvvələrin dəstəklənməsi.

Rusiya ənənəvi olaraq Yuqoslaviyanı dəstəkləmişdir və Miloşeviçin təkcə avropalı qonşuları və ABŞ-ı deyil, hətta ərəb dövlətlərini də qıcıqlandıran addımlarına həmişə tərəfdar çıxırdı. Buna görə də Miloşeviç rejiminin əvəz edilməsi əksər dövlətlərin mənafeyinə uyğun idi.

"Skay" teleşirkətinin reportyoru, 1998-2000-ci illərdə Serbiyada baş vermiş, yəni Kosovo müharibəsini və Miloşeviçin devrilməsini əhatə edən hadisələr haqqında kitabın müəllifi Tim Marşall bildirirdi ki, 1998-ci ildə ABŞ Dövlət Departamenti və ABŞ-ın xüsusi xidmət orqanları S.Miloşeviçi devirmək üçün Kosovonun Azadlığı Təşkilatından (OAK) istifadə etmək qərarına gəlmişdir. O, bu məlumatı aldığı mənbədən aşağıdakı fikri sitat gətirir: "ABŞ-ın gündəliyi aydındır. Vaxt yetişəndə, ABŞ siyasi problemin həllini təmin etmək üçün OAK-dan istifadə edəcəkdir". "Problem" isə Marşallın daha əvvəl izah etdiyi kimi, Vaşinqtonda və Londondakı "kabusların" fikrincə, Miloşeviçin hakimiyyətdə olmasından ibarət idi. Bu, o demək idi ki, terrorçu OAK dəstəklənəcək, sonra isə ondan Yuqoslaviyaya qarşı müharibə üçün istifadə ediləcəkdir.

Yuqoslaviya tarixində və S.Miloşeviçin hakimiyyəti dövründə ən qanlı hadisələrdən biri Raçakda baş vermişdir. Lakin bu barədə də çoxsaylı sübutlar vardır ki, Raçak hadisələri süni şəkildə uydurulmuşdur və orada tapılan cəsədlər, bəyan edildiyi kimi, mülki sakinlərə deyil, OAK döyüşçülərinə məxsusdur. Raçak Miloşeviçə və Yuqoslaviyaya "əsaslı zərbə"nin mühüm geosiyasi aspekti, Balkan yarımadası uğrunda yaxınlaşmaqda olan qlobal savaşda "sonuncu damla" oldu. Yuqoslaviya hadisələrinə o qədər çox dövlət cəlb edilmişdi və özü də bu və ya digər qüvvələrin dəstəyi bir-birindən o qədər kəskin şəkildə fərqlənirdi ki, bu münaqişənin sivilizasiyalı, yoxsa xalis geosiyasi münaqişə olmasını anlamaq çətin idi. ABŞ Bosniya müsəlmanlarını, Almaniya xorvatları, Rusiya ənənə üzrə serbləri dəstəkləyir, Səudiyyə Ərəbistanı isə Bosniya müsəlmanlarına maliyyə köməyi edirdi. Assoşieyted Press agentliyinin bir qrup operatorunun bu bölgəyə gəlişini təşkil etmiş amerikalı diplomat U.Okerin rolu o qədər əhəmiyyətli idi ki, Kosovoya, Raçaka tərəf gedən kəndarası yol onun şərəfinə Uoker yolu adlandırılmışdır. T.Marşallın yazdığına görə, müharibənin 1999-cu ilin baharında başlanması nəinki 1998-ci il dekabrın axırlarında müəyyən edilmiş, hətta həmin müddət OAK-a da bildirilmişdi. Hər halda, T.Marşallın fikrincə, NATO bu ərazini bombalayan ərəfədə yoxlama missiyası oradan çıxarılanda Mərkəzi Kəşfiyyat İdarəsinin zabitləri OAK-çıların harada olduqlarını müəyyən etmək üçün öz peyk telefonlarını və ərazini təyin edən cihazları onlara verib getmişdilər.

Yeri gəlmişkən, Raçak barədə başqa tədqiqatçılar da yazırlar. Məsələn fransız müxbiri Reno Jirar deyir: "Ən təəccüblüsü budur ki, AP operatorları tərəfindən çəkilmiş material Uokerin ittihamlarına tamamilə ziddir"[1]. Raçakda

[1] С.Г.Кара-Мурза. Новая теория революций, www.contr-tv.ru

baş vermiş hadisələr Miloşeviçə qarşı müharibədə dönüş nöqtəsi oldu və Balkan diktatoru ilə müharibənin legitim forma almasına imkan verdi.

Yuqoslaviya hadisələri indiyə qədər çoxsaylı suallar doğurur. Tarix hələ bu suallara cavab verməli olacaq. Məsələn, necə olmuşdur ki, 1990-cı ilin sentyabr ayında radikal alban liderləri bu diyarı respublika elan etmiş, orada paralel hökumət yaratmış və Belqradın hakim dairələrini boykot etmişdilər? Bu işdə onlara kim kömək edirdi?

Məlum olduğu kimi, hələ 1992-ci ildə Kosovo Demokratik İttifaq partiyasının lideri, Avropada çox populyar olan alban yazıçısı İbrahim Ruqova Kosovonun prezidenti seçilmişdi. Sirr deyil ki, Kosovo albanları diasporun köməyi ilə amerikalı siyasətçilərin dəstəyinə zəmanət almışdılar. Alban gəncləri hər şənbə günü Priştinada "Kosovoya müstəqillik" şüarı altında nümayiş keçirirdilər. Bu nümayişlərin iştirakçıları televiziyaya verdikləri müsahibələrdə özlərinin demokratiya işinə, milli müqəddərat və başqa ideallara sadiq olduqlarını bildirirdilər. Əvvəlcə bu proses tamamilə dinc şəkildə gedirdi, lakin sonradan gözlənilmədən diyar təlatümə gəldi.

1996-1998-ci illərdə o vaxtlar çoxlarının tanımadığı Kosovo Azadlıq Ordusu (KAO) adlı radikal təşkilatın üzvlərinin sayı sürətlə artaraq, 400 nəfərdən 35.000 nəfərə çatmışdı. Bu təşkilatın üzvlərinin əllərində ağac dəyənəklər və qoşalülə ov tüfəngləri əvəzinə, müasir atıcı silahlar, minomyotlar və raket qurğuları var isi. 1998-ci ilin yeddi ayı ərzində KAO Kosovoda 1126 terror aktı törətmişdir. O, elə bir qüvvəyə çevrilmişdi ki, onunla prezident Ruqova da, bütün Kosovo albanları da hesablaşırdı. Bu dəstələri az qala

darmadağın etmiş serb OMON-unun cavab əməliyyatları NATO-nun bu məsələyə müdaxilə etməsinə səbəb oldu.

Serblər də bu proseslərə biganə qalmırdılar. Serb cəmiyyətini get-gedə daha geniş miqyasda bürüyən millətçilik münaqişənin bütün tərəfləri üçün fəlakətli amil idi. Məsələn, buraya gələn jurnalist informasiya nazirliyinin Serbiyadakı yerli bölməsində rəsmi akkreditə sənədləri ilə birlikdə "Kosovo və Metoxiya" (bu diyarın serb dilində adı) kitabçasını da alırdı. Parlaq kağızda illüstrasiyalarla 5000 nüsxə tirajla çap edilən kitabçanın mündəricatı belə idi: "Kosovo və Metoxiya serb dövlətçiliyinin və serb mənəviyyatının beşiyidir"; "Albanların serb torpaqlarına soxulması"; "XIX əsrdə serblərə qarşı terror"; "Böyük Albaniya faşist protektoratının yaradılması. Müasir tarixdən: "Kosovoda və Metoxiyada alban terrorizminin yayılması"; "Terrorizm alban separatçılarının siyasi mübarizə vasitəsi kimi"[1]. Göründüyü kimi, iddialar qarşılıqlı idi və buna oxşar etnik-milli münaqişələrdə, adətən, olduğu kimi, kənar tərəflər yeni geostrateji müharibə meydanı yaratmaq üçün belə imkandan bacarıqla istifadə edirlər.

Yuqoslaviyada müharibənin başlanması ABŞ-ın və bütövlükdə NATO blokunun həqiqi məqsədlərini bütün çılpaqlığı ilə açıb göstərdi. 1999-cu il martın 24-dən 25-nə keçən gecə ABŞ-a və NATO-ya məxsus yüzə yaxın döyüş təyyarəsi Yuqoslaviyadakı 40 hədəfə bomba zərbələri endirmək üçün havaya qalxdı. Birinci mərhələdə NATO bloku 400 təyyarədən istifadə etmişdir. Onlardan 250-si Amerikaya məxsus idi. O cümlədən, B-52 bombardmançı təyyarələri və radiolokasiya qurğuları tərəfindən aşkar edilə bilməyən F-17

[1] http://euro.svoboda.org// Косово: десять убитых в неделю. Современная война малой напряженности.

təyyarələrindən istifadə olunurdu. Adriatik dənizindəki NATO donanmasında beş raket kreyseri, raket silahları olan iki sualtı qayıq, iki təyyarədaşıyan gəmi, iki nəqliyyat gəmisi, vertolyotlar da daxil olmaqla, göyərtə aviasiyası vardı. Əməliyyatın əvvəlində cəmi 30 mindən çox əsgər və zabit iştirak edirdi.

NATO-nun Avropadakı qüvvələrinin komandanı, amerikalı general Klak döyüşçülər qarşısında aşağıdakı kompleks vəzifələri qoymuşdu: serblər beynəlxalq birliyin şərtlərini qəbul etməyincə, Belqradın hərbi qüvvələrini dağıtmalı, məhv etməli, qırmalı, bu qüvvələri hər vasitə ilə azaltmalı. Artıq müharibənin ilk həftələrində NATO qüvvələri tərəfindən Yuqoslaviyaya endirilən raket-bomba zərbələrinin gücü Xirosimaya atılmış iki atom bombasının gücünə bərabər idi.

Bütün dünyada Amerika təcavüzünə qarşı çıxışlar geniş miqyas alırdı. Rusiya hökumətinin başçısı, ABŞ-a rəsmi səfərə gedən Y.M.Primakovun təyyarəsi müharibə başlayan anda havada idi. Artıq ABŞ sahillərində olan bu təyyarə oradan geri dönərək, Moskvaya uçmuşdu. Lakin Qərb öz təzyiqini nə qədər artırırdısa, Miloşeviçin milli mənafeləri və prioritetləri qorumaq məqsədi ilə serb cəmiyyətini birləşdirmək imkanları bir o qədər çoxalırdı.

2000-ci ildə Qərbin Yuqoslaviyaya münasibətdə siyasəti yeni mərhələyə daxil oldu. Vəziyyəti ucdantutma dəyişmək və S.Miloşeviçi devirmək məqsədi ilə kənardan zorakılığa əsaslanmayan təzyiqə üstünlük verildi. Miloşeviç artıq bir neçə siyasi səhvlərə yol vermişdi və istər ölkə daxilində demokratik serb müxalifəti, istərsə də onun hüdudlarından kənarda "Yuqoslaviyanın Avropaya yenidən inteqrasiyası" üçün donorluq edən ölkələr bu səhvlərdən bacarıqla istifadə

edirdi. Elə həmin vaxt "Humanitar müdaxilə" deyilən geniş kampaniya 2000-ci ilin əvvəlində tamamilə "V.Koştunitsanın prezidentliyinin" təşkil edilməsi kampaniyasına çevrilmişdi.

Bu proseslərdə 1998-ci ilin oktyabr ayında yaranmış "Otpor" gənclər təşkilatına da mühüm rol ayrılırdı. T.Çillinin təbirincə desək, həmin təşkilatın yaranmasını 1996-1997-ci illərin etiraz aksiyalarının gedişində təşəkkül tapmış iki tərkib hissənin – tələbə gənclər kateqoriyasının və sosial şəbəkələrin kəsişməsinin baş verməsi kimi təsvir edə bilərik.

"Otpor"un ilk komandası Tələbə İttifaqı, Tələbə Federasiyası, Serb Tələbə Hərəkatı kimi müxtəlif tələbə təşkilatlarının fəallarından ibarət idi[1]. Bu hərəkatın ilk iyirmi üzvünün hamısı 1996-1997-ci illərin etiraz aksiyaları başa çatdıqdan sonra təşkil edilmiş Tələbə Siyasi Klubuna daxil oldu. Beləliklə, cəmiyyətin təşkilati baxımdan zənginləşməsi (tələbə təşkilatlarının olması) "Otpor" ictimai hərəkatının formalaşmasının mühüm resurslarından biri idi.

İqtisadçıların G-17+ qeyri-hökumət təşkilatı, xaricdəki serb diasporu, serb ziyalıları, Serbiya pravoslav kilsəsi, Dram Artistləri Assosiasiyası, Serbiya Elm və Sənət Akademiyası, Fəlsəfə Cəmiyyəti bu hərəkatı fəal dəstəkləyirdi[2].

Əvvəlcə hərəkatın bölmələri universitetlər olan Novi Sad, Kraquyevats, Niş şəhərlərində yaradıldı. V.İliçin apardığı sorğunun nəticələrinə görə, "Otpor" fəallarının çoxu (51 faizi) tələbələr idi. Məktəblilər 30 faiz, fəhlələr, işsizlər, idarəetmə işçiləri və ali təhsilli mütəxəssislər isə daha az idi (3-5 faiz həddində). 2000-ci ilin fevral ayında keçirilmiş birinci iclasda Serbiyanın 136 icmasını (ölkədə cəmi 160 icma

[1] Dusan Kosanovic. The End of Otpor? Free Serbia, 2001, 23 January.
[2] V.Ilic. Otpor: in or Beyond Politics. Helsinki, 2001.

vardı) təmsil edən fəallar toplaşmışdı. Bu iclasda "Otpor"un ümumxalq hərəkatına çevrilməsi barədə qərar qəbul edildi[1].

"Otpor"un açıq siyasi səhnəyə çıxması əvvəllər tələbələrin etiraz hərəkatlarında iştirak etmədiyinə görə siyasətlə məşğul olmayan gənclərin kəndlərdə və kiçik əyalət şəhərlərində birləşməsində çox mühüm rol oynamışdı[2]. "Otpor" fəallarından biri öz müsahibəsində bildirmişdi ki, "biz əyalətdə həmişə mərkəzləşdirmədən uzaq olmağa çalışmışıq, biz heç vaxt kənardan bizə zorla qəbul etdirilən şeylərə qarşı həssas olmamışıq"[3]. Serbiyanın cənubundakı Vladiçin Xan (Vladicin Han) şəhərciyində olmuş və orada "Otpor"un yerli fəallarından müsahibə götürmüş Rocer Koenin (Roger Cohen) dediyinə görə, bu hərəkat on üç il ərzində səyahət etmək, ləyaqətlə pul qazanmaq, xarici rok qrupunu görmək, ölkənin idarə olunmasında iştirak etmək imkanı olmamış serbiya gənclərinə bir fürsət, ümid verirdi[4].

Kollektiv hərəkətlərin repertuarına gəldikdə, deməliyik ki, "Otpor" fəalları əvvəlki etiraz aksiyalarının təcrübəsini nəzərə alaraq, qeyri-zorakı müqavimətin yeni konsepsiyasından istifadə edirdilər. C.Şarpın kitabında[5] ətraflı təhlil edilmiş bu konsepsiya əsasında hərəkatın fəalları öz aksiyalarını həyata keçirmək üçün əməli rəhbərlik yaratmışdılar. "Otpor" fəalları qeyri-zorakı müqavimət konsepsiyasının nəzəri postulatlarını Robert Xelveyin başçılığı ilə mənimsəmişdilər. Qeyri-zorakı mübarizə nəzəriyyəsinin əsas mə-

[1] Синиша Шикман. Идеальная революция – без насилия к переменам, Неприкосновенный запас. Дебаты о политике и культуре.

[2] Yenə orada..

[3] http://www.pbs.org/weta/dictator/otpor/ownwords/milivoievic.html

[4] R.Cohen. Who Really Brought Down Milisevic? The New York Times, 2000, 26 November.

[5] G.Sharp. From Dictatorship to Democracy: A Conceptual Framework for Liberation. Boston, 1993.

qamlarını və bu hərəkatın ideologiyasını irəlidə ətraflı nəzərdən keçirəcəyik. İndi isə sonralar Gürcüstanda və Ukraynada analoji hərəkatları təşkil etmiş "Otpor"çuların həyata keçirdikləri konkret aksiyaların üzərində dayanmaq istərdik.

1998-ci il avqustun 8-də Nişdə "Miloşeviçin ad günü bayramı" adlı etiraz aksiyası keçirilmişdi. Fəallardan biri Haaqaya qədər birbaşa bilet, məhbus paltarı, M.Markoviçin (Miloşeviçin həyat yoldaşının) kitablarını, qandal və qırmızı ulduz şəklində piroq hədiyyə gətirmişdi.

1999-cu il noyabrın 9-da polis vaxtından əvvəl seçkilər keçirilməsini tələb edən 2500 tələbənin iştirak etdiyi nümayişi dağıtmışdı. "Otpor" fəalları tərəfindən təşkil edilmiş bu nümayiş Serbiya parlamentinin iclası ilə bir vaxta salınmışdı. Bu siyasi aksiyanın keçirilməsi əvvəlcədən razılaşdırılmasına baxmayaraq, marşrutla əlaqədar fikir ayrılıqları yaranmışdı. Polis nümayişin ucqar kiçik küçələrdən keçən marşrutunu bəyənmişdi. Burada nümayiş keçirilməsini heç kəs hiss etməzdi. Lakin etiraz nümayişinin iştirakçıları marşrutu özbaşına dəyişmişdilər.

2000-ci ilin may ayında "Otpor" fəalları S.Miloşevçin şəklini asaraq, arzu edənlərin hamısına bu şəkli döyməyi təklif edir, əvəzində onların hərəsinə bir dollar verirdilər. Onlar küçədə qırmızı ayaq izləri şəkli çəkərək bildirirdilər ki, bunlar öz vəzifəsini tərk edən Miloşeviçin qanlı izləridir[1].

Rejimin repressiyaları kənar səfərbərliyin mühüm amilinə çevrilmişdi. Bu repressiyalar hərəkatın əleyhinə yönəlmiş geniş təbliğat kampaniyasından və həbslərdən ibarət idi. Lakin repressiyalar əks təsir doğurur, daxili səfərbərlik mexanizminə, daha dəqiq desək, həmrəylik və ümumi işə sadiq-

[1] BBC News, 15 may, 2000-ci il.

lik hissinə stimul yaradırdı. Hər dəfə "Otpor"un fəallarından biri tutulub saxlanandan sonra hərəkata on nəfər yeni üzv daxil olurdu. Hərəkat üzvlərinin ətrafında nə isə romantik bir halə formalaşır, həbslər və repressiyalar istər-istəməz bunu dəstəkləyirdi. Hərəkatın rəmzi olan yumruq işarəsi elə düşünülmüşdü ki, onu təsvir etmək üçün minimum miqdarda rəng və adicə şəkil çəkmək bacarığı kifayət idi. Bu yumruq yaxşı görünməli və tanınmalı, eləcə də təşkilatın əsas şüarını təcəssüm etdirməli idi: "Qotov je" – "Onun işi bitibdir".

Hakimiyyət orqanları dövlətə məxsus KİV-də "Otpor"a qarşı əks-təbliğat işini çox düşünülməmiş tərzdə qurmuşdu. Onun haqqında "terrorçular", "faşistlər", "qərbin casusları" kimi çeynənmiş terminlərdən istifadə edilirdi. Bu isə yeni təfəkkür formalarına can atan gəncləri hakimiyyət tərəfindən nəzarət edilən kommunikasiya kanallarının hər vasitə ilə təhqir etdiyi obrazın ətrafında daha sıx birləşdirirdi.

Rejimi prinsip etibarilə fəal hərəkətlər vasitəsilə devirməyin mümkün olması ideyası xeyli dərəcədə müstəqil şəkildə yaranmışdı. "Otpor" fəalları hələ 1996-cı ildə keçirilən etiraz aksiyalarında demişdilər: "İlk növbədə, noyabrın 18-də Serbiya vətəndaşları başa düşdülər ki, Miloşeviçi devirmək olar, onu seçkilərin gedişində devirmək mümkündür; insanlar səs verdilər və onların səsinin sanbalı var. Biz çoxluq təşkil etdiyimizi başa düşdük. İkincisi, millətin təsdiq edilmiş lideri olan Miloşeviç həmişə olduğu səviyyəyə, ağlını itirmiş rəzil diktator səviyyəsinə enmişdir. Üçüncüsü, bu seçkilərdən başlayaraq, Miloşeviç bir də heç vaxt Serbiyada seçkilərdə yenidən qalib gəlməyəcəkdir"[1]. Tibb fakültəsinin müəllimləri bildirdilər ki, onlar tələbələrin mövqelərini və

[1] http://www.yurope.com/mirrirs/protest96/ni/e10_12.html

öz əqidələri uğrunda mübarizəsini dəstəkləyirlər. Tədricən başqa ali məktəblərin nümayəndələri və ziyalılar da "Otpor"un sıralarına qoşuldular.

Yuxarıda dediyimiz kimi, "Otpor" öz fəaliyyətini C.Şarpın kitabı əsasında işləyib hazırlayırdı. Şarp demokratik müxalifətin diktator rejimini devirmək və diktaturanın təkrarlanmasına yol vermədən demokratik tranzitə nail olmaq üçün hansı ssenari üzrə hərəkət etməli olduğunu, əslində, tam təsvir etmişdir[1]. Şarpın reseptləri sayəsində "Otpor" 42 qeyri-hökumət təşkilatı ilə birlikdə bütün Serbiyada "Pora!" kampaniyasını keçirmək təşəbbüsü ilə çıxış etmiş və bu kampaniyanı keçirmiş, onun gedişində bir sıra məşhur insanlar əhalini seçkilərdə iştirak etməyə çağırmışdı.

Bu hərəkatın təşkilati forması kifayət qədər qarışıq hərəkat kimi səciyyələndirilə bilər. O, hər birinə müəyyən fəaliyyət sahəsi təhkim edilmiş ayrı-ayrı kiçik qruplardan ibarət idi. Qruplar daim yenidən formalaşdırılırdı. Lakin baza əlaqələndirmə mərkəzi də vardı. Belqradda yerləşən bu mərkəz maddi ehtiyatlara, texniki təminat və hərəkatın fəallarının hazırlanması məsələlərinə cavabdeh idi. Təşkilatda aşkar görünən liderlik yox idi, lakin fəalların ciddi intizamına xüsusi diqqət yetirilməsi aydın nəzərə çarpırdı.

Bütün ehtiyatların daxilən səfərbər edilməsi üçün kollektiv identiklik amili mühüm rol oynayırdı. Bu identiklik Serbiyanın demokratikləşdirilməsi, bütün problemlərin günahkarı olan Miloşeviçin ümumi düşmən olması və qeyri-zorakı mübarizə metodlarına sadiqlik ideyalarına əsaslanırdı.

[1] G.Sharp. From Dictatorship to Democracy: A Conceptual Framework for Liberation. Boston, 1993.

"Otpor" hərəkatı mədəni və ideoloji baxımdan Serbiya cəmiyyətinə yabançı olan yeni davranış nümunələrini ifadə edirdi: fəal həyat mövqeyi, qeyri-zorakı müqavimət yolu ilə siyasi dəyişikliklərin mümkün olmasına inam. Hərəkat belə bir ideya yayırdı ki, dəyişikliklər mümkündür və onlar insanların, bu ölkə vətəndaşlarının istədiyi variantda həyata keçirilə bilər. Siyasi sistemə meydan oxunması özlüyündə mühüm səfərbəredici təsir doğururdu. Bu isə lazımi məqamda zorakılıq tətbiq etmədən siyasi vəziyyəti dəyişmək üçün kifayət qədər insanı küçələrə çıxarmağa imkan verirdi.

Amerika Milli Demokratiyanı Dəstəkləmə Fondu (NED) tərəfindən maliyyələşdirilən iki təşkilat – Milli Demokratiya İnstitutu və Beynəlxalq Respublikaçılar İnstitutu "Otpor" hərəkatının "Qapıdan qapıya" və "Səs qazan" layihələrinin həyata keçirilməsi üçün 4 milyon dollar vəsait ayırmışdı. Seçkilərdən sonra ABŞ Konqresi Yuqoslaviyanın sağçı partiyalarının və KİV-in maliyyələşdirilməsi üçün 105 milyon ABŞ dolları məbləğində vəsait ayrılması təklifini açıq səsvermə yolu ilə təsdiq etdi.

Ümumiyyətlə, tamamilə aydındır ki, "Otpor" Qərbdə hazırlanmış strategiya üzrə hərəkət edirdi və onun fəalları bu faktı gizlətmirdilər. Onlar Amerika mütəxəssislərinin rəhbərliyi ilə Avropa dövlətlərindəki müxtəlif treninq mərkəzlərində təlim keçirdilər.

1999-cu il mayın 27-də Haaqa Beynəlxalq Hərbi Tribunalı Miloşeviçin barəsində onun Kosovoda bəşəriyyətə qarşı cinayətlər törətməsi haqqında ittihamlar irəli sürəndən sonra hakimiyyət ondan ötrü təkcə şəxsi azadlığa deyil, hətta həyata təminat verən amilə çevrildi. Miloşeviç hakimiyyət uğrunda mübarizə apararkən özünün əhali arasında populyarlığına

əmin idi, dövlət KİV-ləri onun şəxsiyyətini fəal təbliğ edirdi. Hakimiyyətdə heç kəs müxalifəti ciddi qəbul etmirdi.

2000-ci ilin yayında Miloşeviç Konstitusiyaya dəyişikliklər etmək və prezident vəzifəsinə parlamentdə deyil, ümumxalq səsverməsi yolu ilə seçilmək qərarına gəldi. Bu qərar seçkilərin Miloşeviçin hakimiyyət müddətinin rəsmən başa çatmasından 10 ay əvvələ təyin edilməsinə səbəb oldu. SPS-in namizədi əmin idi ki, o, 70 faiz səs toplayaraq qalib gələcəkdir, lakin hadisələr başqa ssenari üzrə inkişaf edirdi.

Müxalifət cəbhəsində 18 partiya bir blokda birləşərək, prezident vəzifəsinə vahid namizəd seçdi. Bu, Serbiya Demokratik Partiyasının lideri Voislav Koştunitsa oldu. Əvvəlki seçkilərdə onun partiyası 6 faizdən çox səs toplamamışdı və ictimai sorğularda əhalinin yalnız 4 faizi onu prezident vəzifəsində görmək istədiyini bildirmişdi (!).

Koştunitsa əqidəli royalist (vahid Yuqoslaviya tərəfdarı), antikommunist, dindar, demokrat, qanunçu və özünün dediyi kimi, "müdafiə olunan millətçi" idi.

V.Koştunitsa seçkilərin elə ilk dövrəsində səslərin əksəriyyətini (54,66 faiz) toplayaraq, Miloşeviçi (35,01 faiz) xeyli geridə qoymuşdu. Hərçənd, rəsmi məlumatlara görə, səsvermənin ikinci dövrəsinin keçirilməsi zərurəti göz qabağında idi, çünki Yuqoslaviya Mərkəzi Seçki Komissiyasının hesablamalarına görə, Koştunitsa 48,96 faiz, Miloşeviç isə 38,62 faiz səs toplamışdı. Belə olan halda Koştunitsa əlavə seçkilər keçirilməsindən imtina edərək, hamını "küçələrə çıxmağa" və ümumi tətilə başlamağa çağırdı.

Koştunitsanın hakimiyyətə qanuni yolla gəlmək istəməməsinin səbəbləri aydın idi. Federal seçkilərdə solçu koalisiya Vətəndaşlar Palatasındakı 137 yerdən 74-nü və Respub-

likaçılar Palatasında 40 yerdən 26-nı tutmuşdu. Solçu koalisiya Serbiya parlamentində də əksəriyyət təşkil edirdi. Bu isə DPS-in öz proqramını həyata keçirməsini qeyri-mümkün edirdi, çünki Yuqoslaviyada prezidentin səlahiyyətləri çox məhdud idi. Yalnız dövlət çevrilişi DPS-in qanundan yan keçərək, hakimiyyəti devirməsinə imkan verə bilərdi.

Bu hadisələrdən sonra müxalifət praktik olaraq bircə gecədə kütlələri səfərbər edə bildi. Etiraz çıxışlarına Kolubar şaxtaçıları başladı. Onlar yolları kəsmiş, mağazaları və məktəbləri bağlamışdılar. Dövlət müəssisələrinin 80 faizində fəhlələr tətil edirdilər.

Demək olar, bircə həftə ərzində bütün kiçik şəhərlər və kəndlər "Bütöv Serbiya uğrunda" mitinqə çağıran müxalifət qüvvələri tərəfindən tutulmuşdu. Mitinqlər və aksiyalar diqqətlə planlaşdırılmışdı. Niş sakinləri parlamentin binasına tərəf, Çaçaq sakinləri dövlət televiziyasına, Novi Saddan olan nümayişçilər federal binalara, Pançevo sakinləri polis idarəsinə tərəf irəliləməli idilər.

Səhər saat 5:30-da Çaçaqdan olan nümayişçilərin iyirmi kilometrlik dəstəsi Belqrada tərəf irəliləməyə başladı. Dəstədə avtobuslar, maşınlar, daşla doldurulmuş arabalar, torpaqqazan maşınlar və buldozer də vardı (sonralar buldozer çevrilişin rəmzlərindən biri olmuşdu). Nümayişçilər dəstəsinin başında polis nəfərlərinin, karateçi və cüdoçu döyüşçülərin, Kosovo və Bosniyada hərbi kampaniyanın veteranlarının əhatəsində şəhər meri gedirdi.

Polis Nazirliyinin təlimatına uyğun olaraq, yollarda barrikadalı postlar qoyulmuşdu. Lakin polis barrikadalardan keçərək irəliləyən nümayişçilər dəstəsini saxlamaq üçün heç bir tədbir görmürdü. Beləliklə, mitinq iştirakçıları parlament bi-

nasının qarşısındakı mərkəzi meydana çatdılar. Saat 13.00-a qədər Belqradın bütün mərkəzi küçələri insanla dolmuşdu. Onların başı üzərində uçan vertolyot hərbi komandanlığa vəziyyət və mitinq iştirakçılarının sayı barədə məlumat verirdi.

Miloşeviç elit qoşun bölmələrinə, 1500 legionerdən ibarət olan "qırmızı beretlər" korpusuna çox böyük ümid bəsləyirdi. O vaxt V.Koştunitsanın seçki qərargahına rəhbərlik edən Zoran Cinciçin "qırmızı beretlər"lə əlaqəsi vardı və onlarla razılığa gəlmişdi ki, əgər etiraz mitinqinin iştirakçıları özləri bəhanə verməsələr, hərbçilər işə qarışmayacaqlar. Üstəlik, "qırmızı beretlər"in komandiri nümayişçiləri polisin zorakılıq hərəkətlərindən müdafiə edəcəyinə söz vermişdi.

NATO-nun təcavüzündən sonra ölkədə ordunun şöhrəti və nüfuzu artmışdı və Miloşeviç əmin idi ki, ordu onu dəstəkləyəcəkdir. Miloşeviçə bunu artıq Belqradın şəhərətrafı bölgələrində villalar bağışladığı generallar deyirdilər. Lakin Miloşeviç nümayişlərin yatırılması üçün silahlı qüvvələrdən istifadə etmək barədə xahişlə müdafiə naziri Neboşa Pavkoviçə zəng edəndə, general bu cür riskli addım atmağa razılaşmadı. Günün axırında (oktyabrın 5-də) bütün dövlət təsisatları müxalifətçilər tərəfindən tutulmuşdu.

Oktyabrın 6-da saat 10.40-da Miloşeviç əhali qarşısında çıxış edərək, seçkilərin ilkin nəticələrini tanıdığını bildirdi. V.Koştunitsa ölkənin prezidenti oldu.

Bu hadisələrdən bir il keçəndən sonra baş nazir Zurab Cinciç ilə Prezident Koştunitsa arasında münaqişə kəskinləşəndə, Cinciç Miloşeviçi həbs etmək və onu Haaqa Tribunalına vermək istəyirdi. Koştunitsa müqavimət göstərirdi, lakin Cinciç öz qərarında israrlı idi.

Az sonra islahatçı Cinciç parlamentdə Koştunitsanın tərəfdarlarının dəstəyindən məhrum oldu. Cinciç onları Miloşeviç dövrünün başa çatdığını etiraf etməyə lazımınca hazır olmamaqda təqsirləndirirdi. Cinciç bütün hakimləri, pols işçilərini və dövlət televiziyasının jurnalistlərini işdən azad etmək istəyirdi. O deyirdi: "Heç kəsə sirr deyil ki, əksəriyyət məni dəstəkləmədi. Ümumiyyətlə, bu ölkədə əksəriyyət məni çox nadir hallarda dəstəkləmişdi".

Hakimiyyət uğrunda mübarizə islahatlara mane olurdu. Serbiya-Çernoqoriya dövlətlər ittifaqı yaranandan sonra Koştunitsa vəzifəsiz qaldı. 2003-cü ilin mart ayında Cinciç canilər tərəfindən qətlə yetirildi. Bir neçə ayda demokratik DPS koalisiyası parçalandı. Bir ildən sonra Koştunitsa parlament seçkilərində qalib gəldi və Serbiyanın yeni baş naziri oldu.

Koştunitsanın opponentləri, o cümlədən onun keçmiş məsləkdaşlarından olan opponentlər ölkədə korrupsiyanın baş alıb getməsinə görə, yaxın keçmişdəki hadisələrə aşkar yekun vurulmadığına görə, siyasi əleyhdarların təqib olunmasına görə məsuliyyəti onun üzərinə qoyurlar.

Gürcüstan – 2003

Gürcüstanda baş vermiş inqilab bütün postsovet məkanını təlatümə gətirmişdi, çünki SSRİ dağılandan sonra ilk dəfə idi ki, keçmiş müttəfiq respublikalardan birinin rəhbərliyi adi siyasi normalara və prinsiplərə uyğun olmayan şəkildə dəyişdirilmişdi. Üstəlik, Tbilisidə hakimiyyətin dəyişməsi Miloşeviçin istefasından sonra, əslində, eyni siyasi texnoloji resurslardan və maliyyələşdirmə yollarından istifadə edilən

ilk aksiya idi. E.Şevardnadzenin keçmiş məsləkdaşları çox qısa bir müddətdə onun opponentlərinə və əleyhdarlarına çevrildilər, ölkədə müxalifətçilərin yeni nəsli formalaşdı, onlar ideologiyadan uzaq kütlədən fərqli olaraq, kifayət qədər sıx birləşmiş bir qrup idi. Onlar cəmiyyətin siyasi təşkilatının bütün vəsilələrini mitinqlərə, kütləvi yürüşlərə, sonradan parlamentin qeyri-zorakı yolla tutulmasına və hakimiyyətin devrilməsinə səfərbər etməyə müvəffəq oldular.

Lakin ədalət naminə deməliyik ki, Gürcüstanda iqtidar həmişə zəif olmuşdur. E.Şevardnadzenin hakimiyyəti illərində ölkə praktik olaraq idarə edilmirdi. Hökumət üzvlərinin vəzifədən getmələri və istefa verələri ilə bağlı qalmaqallar (hətta intihar halları da az olmamışdı), daxili inteqrasiyanın tamamilə pozulması Şevardnadze dövründə Gürcüstanı səciyyələndirən əsas cəhətlər idi. Abxaziya ilə çoxdankı münaqişə onunla səmərəli danışıqlar aparılması imkanlarını tamamilə kəsir, Cənubi Osetiya isə rəsmi Tbilisi ilə münasibətlərini müvəqqəti barışıqla məhdudlaşdırmışdı ki, bu da ona münaqişəni genişləndirmədən nisbətən dinc mövcud olmağa imkan verirdi. Gürcüstandan tamamilə ayrılmaq ovqatında olan Acarıstan Şevardnadzenin dövründə nümayişkaranə şəkildə muxtariyyət siyasəti yeridirdi. Məlumdur ki, Acarıstanın beynəlxalq hüququn tamhüquqlu subyekti statusu 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri ilə müəyyən edilmişdi. 1999-cu ildən etibarən Acarıstan Tbilisiyə vergi ödənişlərini həyata keçirmir və bunu onunla izah edirdi ki, Gürcüstanın Maliyyə Nazirliyi Acarıstana 22 milyon lari borcludur. Türkiyə ilə sərhəddə yerləşən Sarli gömrükxanası da Tbilisiyə tabe olmurdu, acar sərhədçiləri isə xarici sərhədlərlə yanaşı, Gürcüstanla sərhədə də nəzarət edirdilər. Tbilisidən gələn hüquq mühafizə orqanlarının maşınlarının

Acarıstan ərazisinə daxil olması qadağan edilmişdi. Gürcüstanın iki hissəsində – Batumidə və Tbilisidə iqtisadi vəziyyət də əhəmiyyətli dərəcədə fərqlənirdi. Batumi sürətlə inkişaf etdiyi bir vaxtda, Tbilisi əvvəllər Qafqazın paytaxtı kimi ona xas olan gözəl simasını günbəgün itirməkdə idi. Yoxsul vəziyyətə düşmüş Gürcüstan əhalisi qazanc dalınca, praktik olaraq, kütləvi şəkildə özlərinin daimi yaşayış yerlərindən Rusiyaya, Azərbaycana və digər qonşu dövlətlərə üz tuturdu.

Rusiya ilə münasibətlərin mürəkkəbləşməsi, onun ünvanına daim kəskin çıxışlar edilməsi, eləcə də Pankisi dərəsi ilə bağlı həll edilməmiş məsələlər, burada çeçen terrorçularının sərhəddən keçməsinə qarşı Gürcüstan hakimiyyətinin səmərəli müdafiə sisteminin olmaması Rusiya ilə iqtisadi əməkdaşlıqdan, Rusiyadan elektrik enerjisi və qaz alınmasından asılı olan ölkənin xarici siyasətində vəziyyəti daha da kəskinləşdirirdi. Terrorçular Gürcüstan ərazisindən Çeçenistana kiçicik bir həmlə edəndə Rusiya Gürcüstan iqtidarını terrorçulara köməkdə təqsirləndirir, bu isə ölkədə sosial-iqtisadi şəraitə əhəmiyyətli dərəcədə təsir göstərirdi.

Gürcüstan müxalifəti belə bir mürəkkəb şəraitdə formalaşmışdı və 2003-cü ilin noyabr ayında keçirilmiş parlament seçkiləri ərəfəsində o, əsasən, E.Şevardnadzenin irəli çəkdiyi, vaxtilə prezidentpərəst "Gürcüstan Vətəndaşları İttifaqı" Partiyasının rəhbərliyini təmsil edən şəxslərdən ibarət idi.

2003-cü il noyabrın 2-də Gürcüstanda parlament seçkiləri keçirildi və MSK-nın rəsmi məlumatına görə, prezidentpərəst "Yeni Gürcüstan uğrunda" blokunun qələbəsi ilə başa çatdı. Onlar yenidən formalaşmış Gürcüstan parlamentindəki 150 yerdən 38-ni tutdular. Gürcüstan parlamentindəki yerlər belə bölünmüşdü:

- Prezident Şevardnadzenin "Yeni Gürcüstan uğrunda" bloku – 21,32 faiz (38 yer).
- Aslan Abaşidzenin "Demokratik dirçəliş uğrunda" ittifaqı – 18,84 faiz (33 yer).
- Mixail Saakaşvilinin "Milli hərəkat" bloku – 18,8 faiz (32 yer).
- Leyboristlər – 12,04 faiz (20 yer).
- Burcanadze – demokratlar – 8,79 faiz (15 yer).
- Yeni sağlar – 7,35 faiz (12 yer).

Seçkilər ərəfəsində Gürcüstanda aparılmış rəy sorğuları göstərirdi ki, Şevardnadzenin partiyasının seçkilərdə uğur qazanacağına güman azdır. Doğrudan da, seçicilər səsvermə məntəqələrindən çıxarkən aparılmış rəy sorğuları müxalifətçi blokların uğur qazanmasını təsdiq edirdi. Seçki məntəqələri bağlanandan sonra müxalifət səsvermə zamanı yol verilmiş kütləvi pozuntulardan və ucdantutma saxtalaşdırmalardan narazılığını bildirdi. Bütün bu fikirlər exit-poll məlumatları ilə də təsdiqlənirdi. Həmin məlumatlara görə, M.Saakaşvilinin "Milli hərəkat" bloku qalib gəlmişdi. Parlament seçkilərində müşahidə olunan saxtalaşdırmaların aradan qaldırılması məqsədi ilə elə həmin gecə Tbilisidə müxalifətin ilk mitinqləri təşkil edildi.

Gürcüstan Mərkəzi Seçki Komissiyası seçkilərin yekunlarını qəbul etməyən müxalifət tərəfindən çağırılmış kütləvi etiraz nümayişləri fonunda nəticələrə yenidən yekun vurmaq üçün iki həftə yarım vaxt sərf etməli oldu. Bununla bərabər, seçkiləri izləyən Qərb müşahidəçiləri də çoxsaylı pozuntulara yol verildiyini, Gürcüstanda seçki prosesinin beynəlxalq standartlara müvafiq olmadığını bildirirdilər.

Hökumətin seçkilərin yekunlarından imtina etməsi məqsədi ilə ona ölkə daxilində sərt təzyiq göstərilməsinə baxmayaraq, E.Şevardnadze yeni seçilmiş parlamentin çağırılmasına razılıq verdi. Lakin Gürcüstanın əsas müxalifətçi bloklarından birinin lideri olan M.Saakaşvili öz məsləkdaşlarının yeni parlamentin işində iştirak etməyəcəklərini bəyan etdi və Prezident Eduard Şevardnadzeni qan tökülmədən inqilab baş verəcəyi ilə hədələdi. Prezident isə ona xəbərdarlıq etdi ki, ölkə vətəndaş müharibəsinə yuvarlanır. Gürcüstan 1990-cı illərin əvvəllərində, Prezident Z.Qamsaxurdia devriləndə Tbilisinin mərkəzində hərbi əməliyyatların dəhşətlərini yaşamışdı.

Noyabrın 21-də ABŞ Dövlət Departamenti xüsusi bəyanatla çıxış etdi. Bəyanatda deyilirdi ki, seçkilərin nəticələri gürcü xalqının iradəsini əks etdirmir, bunun əvəzində (Gürcüstanın bir neçə bölgəsində), kütləvi fırıldaqlara yol verilməsini göstərir. Praktik olaraq, elə həmin vaxtda hökumətdə ilk istefalar, bunun ardınca isə müxalifət düşərgəsinə transferlər başlandı. Gürcüstan Milli Təhlükəsizlik Şurasının katibi Tedo Caparidze seçkilərdə kütləvi və kobud pozuntulara yol verildiyini etiraf etdi.

Parlament seçkilərinin lap əvvəlində bu seçkilər 2005-ci ildə keçiriləcək prezident seçkilərinin proloqu hesab edilirdi. Lakin cəmi bir neçə gün ərzində gərginlik son həddə çatdı və məlum oldu ki, bu parlament seçkiləri vaxtilə ən uzunömürlü sovet siyasətçilərindən biri sayılan, Almaniyanın yenidən birləşməsi sayəsində dünya siyasətində populyarlaşmış və sonradan "Hiyləgər tülkü" ləqəbi verilmiş Eduard Şevardnadze rejiminin süqutunun başlanğıcıdır. Lakin bu dəfə "Hiyləgər tülkü"nün siyasi sövq-təbiisi onu aldatmışdı. Gürcüstan iqtidarının səhvi onda idi ki, o, seçkilərə, əslində,

heç bir yeni sima olmadan getmişdi. İqtidarı dəstəkləyən ən yaxın qrupa dövlət məmurları, polis işçiləri, sabiq nazirlər, qubernatorlar və Gürcüstanda "qırmızı ziyalılar" deyilən insanların ayrıca bir kateqoriyası – öz istedadı ilə deyil, daha çox sovet dövründə hökumətə sədaqətlə xidmət etmələri ilə tanınan şairlər, yazıçılar və rəssamlar daxil idi.

Tərəflərdən hər biri özünün qalib gələcəyinə əmin idi. İqtidar blokunun liderlərindən biri olan Vaxtanq Rçeulişvili seçkilər ərəfəsində bəyan etmişdi ki, müxalifətin pərakəndəliyi iqtidarın parlamentdə çoxluq qazanmasına kömək edəcəkdir: "Tbilisidə seçkilərdə biz birmənalı olaraq uduzacağıq, lakin bölgələrdə, xüsusən milli azlıqların yaşadığı yerlərdə bizim tərəfdarlarımız çoxdur. Müxalifət isə seçkilərdə ən azı ona görə uduzacaq ki, onlar bir-birinin səsini alır və bu partiyalardan heç biri parlamentə çoxluq kimi gələ bilməyəcəkdir". Ondan fərqli olaraq, Mixail Saakaşvili əmin idi ki, müxalifətçi partiyalar parlamentdə çoxluq qazanacaqdır. Bu, artıq zamanın tələbidir. Şevardnadzenin dövrü başa çatmaqdadır və zamanı geri döndərmək mümkün deyildir. Müxalifətin birliyi məsələsinə gəldikdə isə, biz əhalini ilk növbədə narahat edən məsələlərin əksəriyyəti barədə razılığa gələ biləcəyik".

Nəticədə bu seçkilər Gürcüstanın ən yeni tarixində tamamilə yeni bir mərhələ oldu. Dairə seçki komissiyalarının tərkibi barədə iqtidarla müxalifət arasında mübahisələrdən başlanmış və ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beykerin fəal iştirakı sayəsində öz həllini tapmış daxili siyasi problemlər gürcü xalqı üçün yeni siyasi paradiqmanın təşəkkülü ilə nəticələndi.

Noyabrın 22-də Tbilisidə müxalifətin təşkil etdiyi mitinqə təqribən 50.000 nəfər çıxmışdı. M.Saakaşvilinin rəhbərlik et-

diyi mitinq iştirakçıları E.Şevardnadze yeni parlamentin birinci iclasında çıxış etdiyi vaxt əllərində qızıl güllərlə iclas salonuna daxil oldular. Müxalifət "istefa ver!" çağırışları ilə prezidenti parlamentin binasını tərk etməyə və öz iqamətgahında gizlənməyə məcbur etdi. Nino Burcanadze özünü ölkə prezidenti vəzifəsinin icraçısı elan etdi, çünki yeni parlamentin səlahiyyətləri hələ tanınmamışdı və Burcanadze hələ də əvvəlki çağırış parlamentin sədri vəzifələrini yerinə yetirirdi.

Qeyd etmək lazımdır ki, Rusiya çox güman ki, özünün laxlamış mövqelərini möhkəmlətmək məqsədi ilə hər iki tərəfdən qan tökülməsinə yol vermədən Gürcüstan münaqişəsinin həllində fəal iştirak etdi. Rusiyanın xarici işlər naziri İ.İvanovun Tbilisiyə səfəri və siyasi tərəflər arasında danışıqlarda vasitəçi rolunu öz üzərinə götürməsi hakimiyyətin dəyişməsi prosesinin dinc yolla başa çatmasını təmin etdi. Son illərdə Birləşmiş Ştatlar da Qafqazda öz mövqelərini bacarıqla möhkəmləndirirdi. Maraqlı bir məqam: "qızılgül" inqilabı dövründə ABŞ-ın Gürcüstandakı səfiri Riçard Maylz bundan əvvəl – 1992-ci ildə Xalq Cəbhəsi tərəfindən törədilmiş dövlət çevrilişi zamanı Azərbaycanda və 2002-ci ildə Miloşeviçin devrildiyi vaxt Yuqoslaviyada səfir olmuşdu.

Noyabrın 23-də axşam Eduard Şevardnadze öz iqamətgahında jurnalistlərə Prezident kimi axırıncı bəyanatını verdi: "Görürəm ki, bu hadisələr qansız ötüşməyəcək və mən öz səlahiyyətlərimdən istifadə etməli olardım. Lakin hesab edirəm ki, bunu etmək olmaz, ona görə də mən öz istefam barədə aktı imzalamışam, – mən getdim".

Seçkiqabağı dövrdə və seçkilər zamanı gənclərin müxalifətçi "Kmara" təşkilatı xüsusi rol oynamışdı. Bu təşkilat

Qərb dövlətlərindən və ABŞ Konqresi tərəfindən maliyyələşdirilən beynəlxalq fondlardan sanballı maliyyə dəstəyi almışdı. Adı bəlli "Otpor" hərəkatı liderlərinin rəhbərliyi altında "Kmara" özünün sıravi üzvlərinə küçə nümayişləri və yürüşlərinin təşkilini, habelə zorakılığa əl atmadan hakimiyyəti devirmək texnologiyalarını öyrədirdi. Soros Fondu da "Kmara"nın yaranmasını maliyyələşdirmiş və hakimiyyət dəyişikliyi ilə nəticələnmiş "kortəbii" küçə nümayişlərinin təşkilində mühüm rol oynamışdı. Bununla əlaqədar 2004-cü il martın 24-də Rusiyanın "Moskovski komsomolets" qəzetində dərc olunmuş bir sənəd diqqəti cəlb edir. Bu, "Kmara" təşkilatının qrant almaq üçün müraciətinin qaralamasıdır. Qərbdəki müxtəlif fondların pulu hesabına yaşayan beynəlxalq qeyri-hökumət təşkilatları ilə əlaqəsi olanlar bunun nə demək olduğunu yaxşı bilirlər. Bu və ya digər məbləğdə qrantlar konkret xeyriyyəçilik, tədqiqat və ya hüquq müdafiəsi layihələri üçün ayrılır. Adətən, beynəlxalq təşkilatlar öz nizamnamələrində xüsusi vurğulayırlar ki, onlar ərazisində işlədikləri ölkənin daxili siyasi həyatına qarışmırlar. Lakin bu sənədin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, orada xalq kütlələrinin Şevardnadze rejimini iflasa uğratmış "kortəbii" küçə nümayişlərinə səfərbər edilməsində çox böyük rol oynamış qurumun maliyyələşdirilməsindən söhbət gedir.

"Kmara-03, azad və ədalətli seçkilər uğrunda kampaniya" sərlövhəli bu sənəddə deyilir ki, OSGF (Open Society-Georgia Foundation – Gürcüstan fondu – Açıq cəmiyyət), yəni Sorosun Gürcüstan fondu noyabrda keçiriləcək parlament seçkiləri ərəfəsində "Kmara"nı və Beynəlxalq Ədalətli Seçkilər Cəmiyyətini (İSFED) dəstəkləməyi planlaşdırır. "Kmara"nın vəzifələrinə seçiciləri müxalifətə fəal səs

verməyə səfərbər etmək məsələsi daxil idi ("Seçkiyə get" proqramı). İkinci təşkilatın vəzifəsi seçkilərin monitorinqini keçirmək idi. Layihəyə görə seçicilərin kompyuter siyahılarının yaradılması da nəzərdə tutulurdu. Bütün bu işlər üçün layihə üzrə 300 min ABŞ dolları ayrılmışdı.

Sənəd son variantda deyildir, ona görə də bəzi proqramların büdcəsi açıqlanmamışdır. Büdcəsi açıqlanan proqramlar üçün təqribən 700 min dollar vəsait xahiş edilmişdi. Layihənin son variantının dəyəri nə qədər olmuşdur və həmin təşkilatlar sonda nə qədər pul almışdır – bunlar məlum deyildir. Məsələn, küçə aksiyalarının təşkil edilməsi layihəsinin dəyəri 31.310 dollara bərabər olmuşdur. Bu layihə "hay-küylü aksiyalar keçirmək, fəalları və əhalini bu qalmaqallarda iştirak etmək üçün səfərbər etmək məqsədi daşıyırdı". Vətəndaş itaətsizliyi metodları da ətraflı sadalanmışdı. Xüsusi vurğulanır ki, bütün bunlar qeyri-zorakı metodlardır. Bununla bərabər, məsələn, "barrikadalar qurulması"nı, yaxud "xüsusi mülkiyyətin məhv edilməsi"ni hansı qeyri-zorakı metodlara aid etmək olar? Layihədə torpaqların "qeyri-zorakı metodlarla zəbt edilməsi", "seçkiləri lağa qoymaq", "etiraz əlaməti olaraq lüt soyunmaq", "kobud jestlər", "vəzifəli şəxsləri ələ salmaq", "nümayişkaranə dəfnlər", "siyasi matəm", "məxfi agentlərin ifşa edilməsi" və hətta "qeyri-zorakı təqib" kimi metodlar da nəzərdə tutulmuşdu. Mahiyyət etibarilə bunların hamısı yuxarıda adını çəkdiyimiz, bütün qüvvələrini S.Miloşeviçin devrilməsinə yönəltmiş "Otpor" təşkilatının strategiyasına çox oxşayır.

Təkcə şəhər bağçalarının cürbəcür rənglənməsi 3.300 dollara, "Kmara"nın şüarlarından ibarət kitabçaların, posterlərin çap edilməsi və yayılması, "Kmara"nın rəmzlərinin, bayraqlarının, maykalarının, kepkalarının hazırlanıb yayılması, əha-

lini aksiyalarda iştirak etməyə çağıran televiziya və radio reklamı 173 min dollara başa gəlmişdir.

İstifadə edilən metodların siyahısından görünür ki, söhbət mövcud hakimiyyətə itaətsizlik və bütün səviyyələrdə ona təzyiq göstərmək kampaniyasının təşkilindən gedir. Burada müxtəlif tətillər, aclıq elan edilməsi, "qeyri-zorakı metodlarla zəbtetmə", "saxta sənədlər təqdim edilməsi", "informasiya xətlərinin bağlanması", "göstəricilərin çıxarılması", "seçkilərin boykot edilməsi", "vergi ödəməkdən imtina edilməsi", "vəzifədən və hökumətlə işləməkdən imtina etmək" nəzərdə tutulmuşdu. Siyahıda "üsyan" kimi "metod" da vardı.

Həmin metodlar bu və ya digər dərəcədə tətbiq edildi. Nəticədə Gürcüstan yeni daxili və xarici siyasət məkanına transformasiya etdi. Lakin xüsusi vurğulamaq lazımdır ki, Gürcüstanda inqilab keçmiş müttəfiq respublikanın siyasi və iqtisadi məkanında bir neçə amilin yaranması nəticəsində mümkün olmuşdur.

Siyasi amil. İnqilabdan hələ bir neçə il əvvəl Gürcüstanda dövlət məmurları tez-tez dəyişirdi. Onların öz vəzifələrini tərk etməsi xeyli dərəcədə Prezident E.Şevardnadzenin komandasındakı daxili çəkişmələrdən narazı olmaları ilə bağlı idi. Hakimiyyət amorf bir quruma çevrilmişdi, ölkə rəhbərləri elə bir xüsusi siyasi iradələri ilə seçilmirdilər. Siyasətçilərin və məmurların korrupsiyaya qurşanmasının yüksək həddə çatması, eləcə də hakimiyyət iyerarxiyası prinsiplərinə riayət edilməməsi prezidentin mövqelərini əhəmiyyətli dərəcədə zəiflətmişdi. Əvvəllər Gürcüstan KP MK-nın birinci katibi, SSRİ xarici işlər naziri olmuş E.Şevardnadze yeni Gürcüstanın prezidenti vəzifəsinin öhdəsindən gələ bilmədi. Bütün bunların nəticəsində prezidentin komanda-

sındakı ən iddialı adamlar ondan uzaqlaşaraq, gələcək müxalifətin özəyini təşkil etdilər və nəticədə yeni siyasi mühit formalaşdı. Siyasi elita, o cümlədən prezident ən azı, büdcə işçilərinin qeydinə qaldıqlarını və "sola doğru dönüş" niyyətində olduqlarını nümayiş etdirsəydilər, cəmiyyətdə tarazlığı qoruyub saxlaya bilərdilər. Aydındır ki, hakim elita daxilində parçalanma aşağıların kütləvi narazılığı, rejim daxilində tənqidçilik, gənclər arasında narazılıq və "müstəqil" televiziyanın mövcud olması nəticəsində yaranır. Üstəlik, dövlətin iqtisadiyyata müdaxiləsi öz kapitalını əldə saxlamağa qadir olan güclü rejim yaranmasını real şəkildə təcəssüm etdirmirdi. "Vaşinqton post" qəzeti 2003-cü ilin noyabr ayında Şevardnadze dövründən bəhs edərək yazırdı: "O, Amerikanın bu partlayış təhlükəli regionda əsas müttəfiqi idi, Rusiyanın Qafqazda nüfuzunun tarazlayıcı qüvvəsi və Xəzər neftinin Qərbə çatdırılmasının təminatçısı idi. Lakin 1992-ci ildən – Şevardnadze hakimiyyətə gələndən bəri Vaşinqton Gürcüstana 1 milyard dollardan çox pul göndərmiş, ancaq bu, ölkənin böhrandan çıxmasına kömək etməmişdir. Əhalinin əksəriyyəti ifrat yoxsulluq vəziyyətində yaşayır. Hər il qışda Gürcüstanda enerji böhranı yaranır. Ölkə ərazisinin çox böyük hissələri rusiyapərəst meyilli separatçılar tərəfindən idarə edilir. Korrupsiya praktik olaraq Gürcüstan cəmiyyətinin hər bir seqmentini bürümüşdür. Təəccüblü deyil ki, ABŞ-ın hakim dairələri Şevardnadzenin öz doğma dövlətində islahatlar keçirməyə qabil olmasına inamlarını itirmişlər".

İqtisadi amil. Məlum olduğu kimi, Gürcüstanı təbii ehtiyatlar baxımından zəngin ölkə kimi səciyyələndirmək mümkün deyildir. Üstəlik, SSRİ-nin dağılması uzun müddət Mərkəzin dotasiyalarından asılı olan Gürcüstanın iqtisadiyyatına da məhvedici təsir göstərmişdi. Gürcüstanın kasıblaşmış əha-

lisi "qızılgül" inqilabından əvvəlki iqtidarın hakimiyyətdə olduğu illər ərzində yığılıb qalmış sosial-iqtisadi problemlərin həllini gözləyirdi. Bununla əlaqədar Economist.com saytı yazırdı: "Rusiya və ABŞ Cənubi Qafqazın neft və qaz ehtiyatları üzərində nəzarəti ələ keçirmək istəyir. ABŞ Yaxın Şərqdən neft satışından çox asılı vəziyyətdədir, Qərbi Avropa isə özünün təbii qaza olan tələbatını, əsasən, Rusiyanın hesabına təmin edir. Həm ABŞ, həm də Qərb özlərinin Yaxın Şərq neftindən və Rusiya qazından asılılığını azaltmağa çalışır. Məhz buna görə də onlar Xəzərdəki neft və qaz yataqlarının işlənilməsinə böyük əhəmiyyət verirlər. Yaxın iki onillikdə Azərbaycan, gözlənildiyinə görə, təkcə öz neftinin ixracı hesabına 29 milyard dollar qazanc əldə edəcəkdir"[1]. "The New York Times" qəzeti isə bu fikri davam etdirərək yazırdı: "Vaşinqtonu narahat edən başlıca məsələ tikintisi 2005-ci ildə başa çatdırılmalı olan boru kəməridir. Azərbaycanın Xəzərdən çıxardığı neft bu kəmər vasitəsilə Gürcüstan ərazisindən keçməklə Türkiyəyə nəql ediləcəkdir. Bu neftin nəqli Yaxın Şərqdə çıxarılan neftin çox mühüm alternativinə çevrilə bilər. Həm Rusiya, həm də ABŞ Gürcüstan ərazisində öz qoşunlarını yerləşdirmişlər və ötən günlər göstərdi ki, hər iki ölkə Gürcüstandakı daxili siyasi böhrana ciddi cəlb olunmuşdur. İstər Rusiya, istərsə də ABŞ Gürcüstanda hərc-mərclik vəziyyəti yaranmasını istəmir. Buna görə də ötən həftə Moskva və ABŞ Şevardnadzenin hakimiyyətdən dinc yolla kənarlaşdırılmasını təmin etmək və bu ölkədə vətəndaş müharibəsinin qarşısını almaq üçün öz səylərini birləşdirdi"[2].

Geosiyasi amil. Gürcüstan müstəqillik əldə etdikdən sonra onun Rusiya ilə münasibətləri qeyri-sabit, kəskin xarakter

[1] http://www.economist.com/world/na/displayStory.cfm?story_id=2245948
[2] www.nytimes.com/2003/11/28/international/europe/28GEOR.html

daşıyırdı. Eyni zamanda o, Qafqazda öz nüfuzunu itirməməyə çalışan Rusiya ilə yeni məkanda qüvvə toplayan ABŞ arasında tərəddüd etməli olurdu. Gürcüstan Avratlantik tərəfdaşlığı variantını seçməklə Rusiya diplomatiyasının və Rusiya yanacaq-energetika kompleksinin çox güclü təzyiqinə məruz qalırdı. Onun Rusiya ilə yaxınlaşmaq cəhdləri isə özünə qarşı çevrildi və "qızılgül" inqilabı baş verdi. Britaniyada çıxan "İndependent" qəzeti 2003-cü ilin noyabr ayında yazırdı: "Tbilisi ABŞ-ın bu ölkədəki uzunmüddətli maraqlarının təminatçısı kimi Vaşinqtonun etimadını itirdi. Şevardnadze son illərdə Vaşinqtona qulluq göstərərək, dəfələrlə üz döndərdiyi Moskvaya müraciət etməyə məcbur oldu". Sirr deyil ki, vaxtilə ABŞ-ın Azərbaycandakı səfiri, sonra isə S.Miloşeviçin devrildiyi vaxtda Serbiyada ABŞ-ın səfiri işləmiş Riçard Maylz, eləcə də etiraz nümayişləri ərəfəsində Gürcüstanda olmuş Ceyms Beyker və general Con Şalikaşvili "məxməri" inqilabın baş tutmasında az rol oynamamışlar.

Lakin Gürcüstandakı uğurlu "qızılgül" inqilabı da sonradan bu ölkədə siyasi sabitlik və iqtisadi tərəqqi üçün real şərait yaratmadı. Çox qəribə də olsa, Miloşeviçin devrilməsindən sonra Serbiyanın başına gələnlər 2005-ci ilin fevral ayında Gürcüstanda da təkrarlandı. Gürcüstanın baş naziri Zurab Jvaniya faciəli və eyni zamanda, müəmmalı bir şəraitdə həlak oldu.

E.Şevardnadzenin hakimiyyətinin son illərində çoxları belə hesab edirdi ki, onun varisi parlamentin keçmiş sədri Zurab Jvaniya olacaqdır. Z.Jvaniya həlak olandan sonra Şevardnadze "özünün ən ağıllı şagirdini itirdiyini" demişdi. 2003-cü ildə Z.Jvaniya müxalifətin tərəfinə keçmiş, "qızılgül" inqilabının ən nəzərəçarpan simalarından birinə çevrilmiş, sonralar isə baş nazir vəzifəsini tutmuşdu. Prezident

Saakaşvilidən fərqli olaraq, baş nazir Z.Jvaniya əhali tərəfindən çox dəstəklənmirdi. Lakin Cənubi Osetiya və Abxaziya məsələləri kimi Gürcüstan üçün ağrılı problemlərin həllində o, "sülh partiyası" deyilən qüvvələri təmsil edirdi. Jvaniya Rusiya ilə münasibətlərdə də təmkinli mövqe tuturdu.

Gürcüstanda "qızılgül" inqilabı postsovet məkanında qlobal transformasiyaların preambulası oldu. Bu inqilab iqtidarla müxalifət arasında münasibətlərdə müəyyən problemlərin mövcud olduğu keçmiş müttəfiq respublikaların, demək olar ki, hamısında daxili siyasi diskussiyalar üçün şərait yaratdı. Bu mənafelər savaşında tərəflərdən hər biri özünü qalib rolunda görürdü, lakin onların yalnız bəziləri bu savaşa davam gətirə bildi.

Ukrayna – 2004

2004-cü il oktyabrın 31-də Ukraynada prezident seçkilərinin birinci turunun başa çatması təkcə Ukraynanın özü üçün deyil, Rusiya üçün də, bütövlükdə Avrasiya məkanı üçün də epoxal əhəmiyyətli hadisəyə çevrildi. Prezident seçkiləri ölkəni iki hissəyə – qərbi və şərqi Ukraynaya parçalamış oldu.

"Qərb Qərbdir, Şərq də Şərq, onlarınkı tutmaz". Qəribədir ki, ukraynalıların varlığını bəlkə heç ağlına da gətirməyən Kiplinqin bu sözləri Ukraynada seçkilərlə bağlı vəziyyəti hər şeydən yaxşı təsvir edir. Ölkə bir-birinə, az qala, düşmən kəsilmiş iki düşərgəyə parçalanmışdı. Həmişə Rusiyaya tərəf meyil edən Şərqi Ukrayna və Krım V.Yanukoviçdən daha çox onun vədlərinə – rus dilinin ikinci dövlət dili olacağı və ikili vətəndaşlıq barədə vədlərinə səs vermişdi. Axı, təkcə

rəsmi məlumatlara görə, Rusiyada 4-6 milyon nəfər ukraynalı işləyir. Özü də onların əksəriyyəti Şərqi Ukrayna sakinləridir. Ukraynanın qərb vilayətləri və Kiyev isə əksinə, Ukrayna prezidenti kürsüsündə bu ölkəni Fransa kimi çiçəklənən diyara çevirməyi vəd edən Viktor Yuşşenkonu görmək arzusunda idi. Hərçənd, bundan ötrü NATO-ya daxil olmaq və özünün ən yaxın qonşusu olan Rusiyadan üz döndərmək lazımdır. Bu perspektivlər, ilk növbədə, Lvov, Ujqorod və İvano-Frankovsk vilayətlərinin sakinlərini cəlb edirdi. Məhz bu vilayətlərdə Yuşşenko seçicilərin 80-90 faizə qədərinin səsini toplamışdı. Bundan əlavə, Viktor Yuşşenkonun seçicilərinin sosial portretindən danışsaq, bunlar, əsasən, Ukraynanın elitası və tələbələr idi. Seçkilər dövründə və seçkilərdən sonra məhz tələbələrin "Pora" təşkilatı misli görünməmiş fəallıq nümayiş etdirmişdir. Təbii ki, Harvard Universitetinin məzunu, nümunəvi ailə başçısı, beş uşaq atası olan V.Yuşşenkonun, uşağın doğulması ilə əlaqədar ödənilən birdəfəlik müavinətin məbləğini artıraraq 8.460 qrivnaya çatdırmağı (2004-cü ildə bu məbləğ cəmi 725 qrivna idi) vəd etməsi faktı çoxlarını cəlb edirdi.

Lakin gəlin tələsməyək, sonradan Azərbaycanda və bəzi postsovet dövlətlərində müxalifət hərəkatları üçün nümunəyə çevrilmiş "narıncı" inqilabdan sonrakı hadisələrin xronologiyasını və mahiyyətini nəzərdən keçirək. Nüfuzlu "The Wall Street Journal" hələ 2004-cü il fevralın 11-də yazırdı: "Kuçma istəmir ki, onun da aqibəti istefaya getməyə məcbur olmuş Şevardnadzenin və ya Slobodan Miloşeviçin aqibəti kimi olsun. Ukrayna müxalifəti, ABŞ və Avropa İttifaqı ona lazımi təzyiq göstərməlidir ki, azad seçkilər keçirməyin zəruri olmasına inandırsınlar, habelə qanunları istədiyi kimi dəyişdirməyə son qoymasını tələb etsinlər. Müxalifət isə

xalqı küçələrə çıxarmağa qadir olduğunu ona göstərməlidir. Bu halda Yuşşenko Kuçma ilə razılığa gələ bilərdi.

Keçmişin təcrübəsinə əsasən, ən ağlabatan ssenari bundan ibarətdir ki, Kuçmanın tərəfdarları öz əleyhdarlarını qorxutmağa, lazım gələrsə səsvermənin nəticələrini saxtalaşdırmağa çalışacaqlar. Müxalifət etiraz aksiyaları təşkil etməklə Ukraynada daha çox uğur qazanmalıdır. Bununla belə, Qərb Kiyevə daha qətiyyətlə təzyiq göstərə bilərdi. Avropa Şurası Kuçmanın Konstitusiyaya etdiyi düzəlişi pisləməklə onu çox çətin vəziyyətə salmış oldu. İndi parlamentdə səsvermənin gərgin keçəcəyi gözlənilir". Qərbin bəzi dairələri Ukraynadakı siyasi dəyişiklikləri belə təsəvvür edirdi.

Ukraynada seçkilər ərəfəsində və seçkilərdən sonrakı hadisələr isə bu şəkildə inkişaf etmişdir:

31 oktyabr

Prezident seçkilərinin birinci dövrəsi nəticəsində iki əsas iddiaçı – iqtidarın namizədi Baş nazir Viktor Yanukoviç və müxalifətin lideri Viktor Yuşşenko digər namizədlərdən çox səs toplayırlar.

Qərb müşahidəçiləri seçkilərdə "xeyli pozuntular" olduğunu bildirir və ümid edirlər ki, ikinci dövrədə vəziyyət yaxşılaşacaqdır.

10 noyabr

Mərkəzi Seçki Komissiyası uzun fasilədən sonra səsvermənin rəsmi yekunlarını elan etmişdir. Komissiyanın məlumatına görə, 39,87 faiz səs toplamış Yuşşenko qalib gəlmişdir.

Həmin günə qədər MSK-nın ilkin məlumatları Yanukoviçin cüzi üstünlüyə malik olduğunu göstərirdi.

Bununla bərabər, müxalifətin güclü dəstəyə malik olduğu bəzi regionlardan olan məlumatlar nəzərə alınmamışdı.

21 noyabr

Prezident seçkilərinin ikinci dövrəsi keçirilir.

İlkin məlumata görə, seçicilərin səsvermədə iştirakı oktyabrın 31-dəki ilə müqayisədə bir qədər aşağıdır, lakin axşama yaxın göstəricilər sürətlə artır. Ölkənin bəzi şərq regionlarında seçicilərin səsverməyə gəlməsi barədə rəsmi məlumatlar 95 faizdən çoxdur.

Exit-polların əksəriyyətinin məlumatına görə, Viktor Yuşşenko qalib gəlmişdir, müxalifət tərəfdarları Kiyevin mərkəzində toplaşmağa başlayırlar.

22 noyabr

Mərkəzi Seçki Komissiyasının ilkin məlumatına görə, Viktor Yanukoviç seçkilərdə azacıq, lakin inamlı üstünlüklə qalib gəlir.

Qərb müşahidəçiləri bildirirlər ki, səsvermə və seçkiqabağı kampaniya demokratik standartlara müvafiq olmamışdır. Avropa ölkələrinin xarici işlər nazirləri bildirirlər ki, əgər MSK-nın nəticələri təsdiq edilərsə, bu, diplomatik münasibətlər üçün xoşagəlməz nəticələrə gətirib çıxara bilər.

Viktor Yuşşenko bildirir ki, əslində, seçkilərdə o, qalib gəlmişdir. Kiyevdə onun tərəfdarlarının sayı artmaqdadır.

Rusiya Prezidenti Vladimir Putin Yanukoviçi inamlı qələbə münasibətilə təbrik edir.

23 noyabr

Kiyevin mərkəzində Yuşşenkonun 100 min nəfərə yaxın tərəfdarı toplaşır. Ukrayna paytaxtının əsas küçəsində çadır düşərgəsi genişlənir.

Müxalifət liderinin qalib gəldiyi Ukraynanın qərb və mərkəz vilayətlərinin çoxunda kütləvi etiraz aksiyaları keçirilir.

Parlamentin təcili sessiyasında heç bir qərar qəbul edilmir, lakin iclas bağlanandan sonra Viktor Yuşşenko əlini qədim Bibliyaya basaraq, ölkəsinin xalqına sadiq qalacağına rəmzi and içir. Ali Radanın sədri bildirir ki, bunun heç bir hüquqi nəticəsi yoxdur.

Ukraynanın qərbindəki bir neçə şəhər və vilayətin şuraları Yanukoviçin qələbəsini tanımaqdan imtina edir və Yuşşenkonu dəstəklədiyini bildirir.

24 noyabr

Ukrayna Mərkəzi Seçki Komissiyası Viktor Yanukoviçi prezident seçkilərinin qalibi elan edir.

Komissiyanın məlumatına görə, Baş nazir Viktor Yuşşenkonu təqribən 3 faiz qabaqlamışdır.

Avropa İttifaqı və ABŞ seçkilərin nəticələrini qanuni hesab etmədiyini bildirir.

Yuşşenko kütləvi tətilə çağırır.

25 noyabr

Ali Məhkəmə seçkilərin nəticələrinin ləğv edilməsi barədə Yuşşenkonun iddiasını aldıqdan sonra, araşdırma başa çatana qədər, Mərkəzi Seçki Komissiyasının öz məlumatlarını rəsmən açıqlamasını qadağan edir.

Yeni prezidentin andiçmə mərasimi qeyri-müəyyən müddətə təxirə salınır.

Vladimir Putin Rusiya-Avropa İttifaqı sammiti zamanı bəyan edir ki, Qərbin Ukraynanı "xaos"a atmağa haqqı yoxdur və Yanukoviçi qələbə münasibətilə yenidən, bu dəfə yazılı şəkildə təbrik edir.

26 noyabr

Viktor Yanukoviç öz tərəfdarlarına bəyan edir ki, o, "Konstitusiyaya zidd çevrilişə" yol verməyəcək və onları təmkinli olmağa çağırır.

Müxalifət tərəfdarları ilə yanaşı, Viktor Yanukoviçin əsasən ölkənin şərq vilayətlərindən olan tərəfdarları da Kiyevə toplaşırlar.

Ukrayna paytaxtında siyasi böhranın həllinə dair ilk "dəyirmi masa" iclası keçirilir. Tədbirdə Yuşşenko və Yanukoviçdən əlavə, prezident Leonid Kuçma, Ali Radanın sədri Vladimir Litvin, Aİ-nin xarici siyasət üzrə komissarı Xavyer Solana, Polşa Prezidenti Aleksandr Kvasnevski, Litva Prezidenti Valdas Adamkus, Rusiya Dövlət Dumasının sədri Boris Qrızlov da iştirak edirdilər.

27 noyabr

Ali Rada prezident seçkilərinin keçirilməsində pozuntulara yol verildiyi və seçkilərin nəticələrinin xalqın iradəsini əks etdirmədiyi barədə siyasi qətnamə qəbul edir.

Donetskdə Viktor Yanukoviçin tərəfdarlarının yüz min nəfərlik mitinqi keçirilir.

Ukraynanın şərq regionlarından bir neçəsinin hakimiyyət orqanları regional müxtariyyət yaradılmasının və hətta dövlətin tərkibindən çıxmağın mümkünlüyü barədə xəbərdarlıq edir.

28 noyabr

Rusiya sərhədinin yaxınlığında, Luqansk vilayətinin Severodonetsk şəhərində Ukraynanın şərq bölgəsinin Viktor Yanukoviçi dəstəkləyən elitasının qurultayı keçirilir.

Bu tədbir zamanı ölkənin regional strukturunun dəyişdirilməsi barədə referendumlar təşkil etmək niyyəti bildirilir.

Qurultayda ukraynalı siyasətçilərdən və Baş nazirin özündən əlavə, Moskvanın meri Yuri Lujkov da iştirak edir.

30 noyabr

Yanukoviç bəyan edir ki, o, prezident vəzifəsinə başlayacağı təqdirdə, Yuşşenkoya baş nazir vəzifəsini təklif etməyə hazırdır.

O, müxalifətin lideri də ondan nümunə götürərsə, prezident vəzifəsinə iddiadan imtina etməyə hazır olduğunu da bildirir.

Yuşşenko bu təkliflərin hər ikisini rədd edir.

1 dekabr

Ukrayna Ali Radası Yanukoviç hökumətinin istefası barədə qərar qəbul edir.

Lakin Baş nazir bunu qanunsuz qərar adlandırır, çünki parlament bir ildən də az bundan əvvəl kabinetin proqramını bəyəndiyi halda, indi ona etimadsızlıq məsələsinə baxmağa ixtiyarı yoxdur.

Prezident Kuçma ikinci dövrənin təkrar səsverməsini deyil, tamamilə yeni seçkilər keçirməyi təklif edir.

Baş nazir Ali Məhkəmədən seçkilərin ikinci dövrəsinin nəticələrinin ləğv olunmasını xahiş edir. Bu halda o, ölkənin qərbində kütləvi pozuntulara yol verilməsinə istinad edir.

3 dekabr

Ukrayna Ali Məhkəməsi Ukrayna prezidenti seçkilərində səsvermə zamanı kütləvi pozuntulara yol verildiyinə və namizədlərin kütləvi informasiya vasitələrindən bərabər istifadəsinə şərait yaradılmadığına görə seçkilərin nəticələrini etibarsız hesab edir.

Məhkəmə, müxalifətin tələb etdiyi kimi, dekabrın 26-da səsvermənin ikinci dövrəsinin yenidən keçirilməsini qərara alır.

Ali Rada Ukrayna qoşunlarının İraqdan çıxarılmasının zəruruliyi barədə qərar qəbul edir.

6 dekabr

Leonid Kuçma Amerikanın "Nyu-York Tayms" qəzetinə müsahibəsində bildirir ki, o, Yanukoviçə seçkilərdə iştirak etməməyi məsləhət görərdi.

Prezident Putin bəyan edir ki, Ukraynanın seçkilərdə qalib gələcək istənilən prezidenti ilə işləməyə hazırdır.

Beynəlxalq vasitəçilər Kiyevə gəlir, parlamentdə isə siyasi islahat haqqında və seçkilərdə saxtalaşdırmaların mümkünlüyünü istisna edən yeni qanunlar barədə danışıqlar davam edir.

8 dekabr

Ukrayna Ali Radası ölkəni parlament respublikasına çevirən siyasi islahat barədə tarixi qərarlar qəbul edir. Konstitusiyaya edilmiş dəyişikliklər gələn ilin payızından qüvvəyə minəcəkdir.

Eyni zamanda, parlament səsvermə və səslərin hesablanması zamanı sui-istifadə imkanlarının qarşısını almaq üçün seçkilər haqqında qanunu sərtləşdirir.

Deputatlar Mərkəzi Seçki Komissiyasının tərkibində də dəyişikliklər edir, müxalifətin fikrincə, özünü hörmətdən salmış Sergey Kivalovu MSK-nın sədrliyindən çıxarırlar.

Viktor Yuşşenko öz tərəfdarlarını hökumət müəssisələrinin blokadasını götürməyə və yeni səsverməyə hazırlaşmağa çağırır. Kreşşatikdəki çadır şəhərciyinin sakinlərinin çoxu öz evlərinə qayıtmağa başlayır[1].

V.Yanukoviçi mövcud iqtidarın varisi kimi prezident vəzifəsinə seçkilərdən xeyli əvvəl hazırlamağa başlamışdılar. L.Kuçmanın hakimiyyətinin zəifliyi onunla nəticələndi ki, hakim elita ümumən sənaye klanları ilə manipulyasiya edir və o vaxta qədər Ukrayna zavodlarının əsas hissəsini almış Rusiya oliqarxlarından ciddi şəkildə asılı idi. Seçkilərə yaxın iqtidar V.Yanukoviçin fəaliyyətini guya Ukraynada nə isə ağlabatmaz bir tərzdə baş vermiş "iqtisadi möcüzə" ilə əlaqələndirməyə başlamışdır. İqtidarın səhvi onun dayağı olan elektoratı düzgün seçməməsində idi. Əsasən pensiyaçılara ümid bəsləyən və seçkilər ərəfəsində onların hərəsinə təqribən 40 avro məbləğində aylıq müavinət ödəmiş iqtidar hakim elitanın namizədinə səs verməkdə gəncləri maraqlandırmağı "unutmuşdu". Eyni zamanda, ölkədə demək olar ki, bütün ərzaq məhsullarının qiymətinin artması hiss edilməyə başlanmışdı. Nəticədə birinci dövrədə səsvermənin yekunları belə oldu:

Yuşşenko – 39,87 faiz;

Yanukoviç – 39,32 faiz;

Moroz (Sosialist Partiyasının lideri) – 5,81 faiz;

Simonenko (Kommunist Partiyasının lideri) – 4,97 faiz;

[1] BBC və www.bbc.co.uk materialları əsasında.

Vitrenko (Mütərəqqi Sosialist Partiyasının lideri) – 1,53 faiz;

Kinax (Sənayeçilər və Sahibkarlar Partiyasının lideri, sabiq baş nazir) – 0,93 faiz;

Yakovenko (Fəhlə və Kəndlilərin Kommunist Partiyasının lideri) – 0,78 faiz;

Omelçenko (Kiyevin meri) – 0,48 faiz;

Çernovetski (deputat) – 0,45 faiz;

Hamısının əleyinə – 2 faiz.

Yuşşenkoya səs verənlər:

a) Qərbi Ukraynanın millətçi ovqatlı əhalisi;

b) qərbpərəst meylin tərəfdarları (həm iqtisadiyyatda, həm də siyasətdə);

c) V.Yuşşenkonun iqtisadi strategiyasının tərəfdarları;

ç) iqtidar namizədi Yanukoviçin əleyhdarlarının çoxu (etiraz səsverməsi).

Yanukoviçə səs verənlər:

a) öz həmyerliləri kimi Ukraynanın ucqar şərqi (Donetsk və Luqansk);

b) Yanukoviçi Ukraynada "iqtisadi möcüzə"nin müəllifi hesab edənlər;

c) sentyabr və oktyabr ayları üçün pensiyaya "real" əlavə almış pensiyaçıların çoxu;

ç) güclü inzibati təzyiq nəticəsində büdcə təşkilatlarının əməkdaşları;

d) Yerli hakimiyyətin iri eşelonunun rəhbərləri və biznesmenlər – L.Kuçmanın əlaltıları;

e) “banderofoblar”, yəni Yuşşenkonu ifrat millətçiliyin təcəssümü hesab edənlər və “onun hakimiyyətə gəlişindən sonra şərqdə adamların barmaqlarını qıracaqlarını” düşünənlər.

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, namizədlərdən heç birinin ciddi demokratik motivasiyalı elektoratı yox idi. Seçicilərin əksəriyyəti “ən az bəla” prinsipi əsasında səs verirdi.

Səsvermənin birinci və ikinci dövrələri arasındakı növbəti üç həftədə vəziyyət əsaslı şəkildə dəyişdi. Məhz bu həftələrdə belə bir fenomen yarandı: Ukrayna sivilizasiyalı dünyanın demokratik dəyərlərinə doğru aparan yolda müəyyən mərhələ keçdi. Cəmiyyətdə mövcud rejimlə barışmaq istəməyən insanların sayı kritik həddə çatmışdı. “Biz ukraynalılarıq”! şüarları get-gedə daha fəal və ucadan səslənirdi. Ukraynanı Avropanın sivilizasiyalı dövlətləri arasında görmək arzusu yaranmışdı (və ya ən azı bu, birdən-birə reallığa bənzəyirdi). Maydan Nezalejnosti (Müstəqillik meydanı) deyilən ərazidə toplaşan insanların sayı artdıqca, “biz birlikdəyik” deyən milli elm və mədəniyyət liderləri, sadəcə, düşünən insanlar bir o qədər çoxalır, passiv, şübhələnən və ya sadəcə, qorxan insanların sayı isə bir o qədər azalırdı. Lokal prezident seçkiləri tarixi miqyaslı dəyərlər meydanına səmtlənmişdi.

Mahiyyət etibarilə Serbiyada və Gürcüstanda sınaqdan çıxarılmış “məxməri” inqilab ssenarisi Ukraynada da həyata keçirilidi: burada da muxalifət namizədinin seçkiqabağı reytinqinə eyni mövqedən yanaşır, kütləvi şüura güclü təzyiq göstərirdilər ki, bu namizəd Qərbin qəbul etdiyi obrazla assosiasiya edilsin, inqilabi sərməstlik ovqatının hazırlanması və həyata keçirilməsində gənclər hərəkatı fəal iştirak etsin.

Gürcüstanda olduğu kimi, burada da ABŞ seçkilərin yekunlarını tanımadığını bildirəndən sonra xalqın narazılığı ən yüksək həddə çatmışdı. 2004-cü il noyabrın 24-də ABŞ dövlət katibi Kolin Pauell bəyan etdi ki, əgər Ukrayna hökuməti dərhal ciddi tədbirlər görməsə, bu, bizim münasibətlərə təsir göstərəcəkdir. Açıq-aşkar görünürdü ki, Ukraynada prezident seçkiləri təkcə Rusiyanın qərbində demokratik məkan yaratmaq cəhdlərinin təcəssümü deyil, həm də ümumən, Rusiyanın ən yaxın qonşusunun və strateji tərəfdaşının ərazisində dominantlıq hüququ uğrunda Rusiya ilə ABŞ arasında yeni geosiyasi "şahmat oyunu"nun məğzidir. Məhz Qərbin bu niyyətinə cavab olaraq, V.Putin V.Yanukoviçin namizədliyini fəal dəstəkləyirdi. Kreml başa düşürdü ki, L.Kuçmanın varisi onun başladığı ABŞ ilə yaxınlaşma xəttini, Ukraynanın İraqda müharibədə iştirakını və NATO ilə sıx tərəfdaşlığını davam etdirəcəkdir. Bununla bərabər, Kreml ümid edirdi ki, bütün bunlar Ukrayna iqtisadiyyatına fəal daxil olmuş rusiyalı sahibkarların və sənayeçilərin hüquqlarını tapdalamağa imkan verməyəcəkdir. Lakin Ukraynada siyasi proseslər özünün "yazılmamış qaydaları" üzrə cərəyan edirdi. Moskvada bir məqamı nəzərə almamışdılar ki, qloballaşan dünyanın inkişafının indiki mərhələsində insani münasibətlər sistemi iqtisadiyyatın məqsədlərini birbaşa təyin edir. Ciddi dəyişikliklər yoluna qədəm qoymuş ölkədə cəmiyyətin hərəkət vektorunu və dinamikasını iqtisadiyyat deyil, məhz hakimiyyət və idarəetmə sistemi müəyyənləşdirir.

ABŞ Rusiya ilə sərhəddə bir növ "Barbarossa planı"na oxşayan bu ciddi sıçrayış fürsətini əldən verə bilməzdi. Amerikanın nüfuzlu "Newsweek" jurnalı 2004-cü il noyabrın 29-da yazırdı: "Bu, sadəcə olaraq, xalqın onu qane etməyən

hakim qüvvələrə qarşı qiyamı deyildir. Bu, təkcə vətəndaş münaqişəsi deyil, həm də geosiyasi münaqişədir. Ukrayna keçmiş sovet respublikalarında öz təsirini qoruyub saxlamağa çalışan Rusiya ilə demokratiyanın və qanunun hökmranlığının geniş yayılmasında maraqlı olan Avropa və Birləşmiş Ştatlar arasında döyüş meydanına çevrilmişdir". ABŞ dövlət katibi Kolin Pauell bəyan etdi ki, "biz bu nəticəni qəbul edə bilmərik". Avropa liderlərinin məsələyə münasibəti kəskinliyinə görə bundan geri qalmırdı. Məsələn, ATƏT-in baş müşahidəçisi Ukraynada keçirilən seçkiləri Şimali Koreyadakı seçkilərlə müqayisə etmişdi. Rusiya Prezidenti Vladimir Putin isə səsvermənin "vicdanlı və açıq" keçdiyini vurğulayaraq, Yanukoviçi "inamlı qələbə" münasibətilə təbrik etmişdi. Hər iki tərəfi təmsil edən diplomatlar Avropanı bir-birinə qarşı mübarizə aparan iki düşərgəyə parçalamaq təhlükəsi doğuran yeni "soyuq müharibə"nin başlanması barədə eyham vururdular.

Serbiyadakı "Otpor" və Gürcüstandakı "Kmara" təşkilatlarının bir növ əkiztayı olan "Pora" gənclər təşkilatı Ukraynadakı seçkilər vaxtı öz fəaliyyətini genişləndirmişdi. Onun liderləri Viktor Yuşşenkonun on minlərlə tərəfdarının hərəkətlərini təşkil edir və əlaqələndirir, bununla bərabər, bəyan edirdilər ki, onlar müxalifət liderinin qələbəsi uğrunda deyil, Ukraynada demokratiyanın təntənəsi uğrunda mübarizə aparırlar. "Pora" təşkilatının yaradılması ideyası "Otpor" gənclər hərəkatının analoji mübarizə metodlarından istifadə edilməsi təcrübəsinə əsaslanırdı.

Nyu-Yorkda çıxan "Sun" qəzeti seçkilər ərəfəsində öz oxucularını bir nəfər "sakit amerikalı"nın işi ilə tanış edərək yazmışdı ki, Kiyevdə keçirilən mitinqlər bilavasitə həmin şəxsin səylərinin nəticəsidir. Ukraynalı mühacirlərin oğlu

Adrian Karatnitski uzun illər boyu "narıncı" inqilabın əlaqələndiricisi və onun təşkilatçılarından biri olan Freedom House təşkilatında işləmişdir.

Freedom House Ukraynada seçki marafonuna nəzarət edən 1023 nəfər seçki təlimatçısı hazırlamışdı. A.Karatnitski özü isə ukraynalı fəallar üçün düşərgələr təşkil olunmasında iştirak etmiş, bu düşərgələr hələ avqust ayında işə başlamışdı. Karatnitski bununla əlaqədar demişdir: "Miloşeviçə qarşı mülki müxalifətə rəhbərlik edən qrupların liderləri olan xorvatlar və serblər etiraz edən kütlənin "hərarətinə necə nəzarət etmək" lazım olduğunu ukraynalı cavanlara öyrədirdilər. İqtidarın təzyiqinə qarşı necə müqavimət göstərmək və mülki müqavimət qruplarının heç də Qərb layihəsinin bir hissəsi olmadığını necə nümayiş etdirmək lazım gəldiyini onlara izah edirdilər. Onlara küçə mitinqlərini idarə etmək texnikasını və öz siyasi əleyhdarlarını masqaraya qoymaq üsullarını öyrədirdilər. Karatnitskinin dediyinə görə, bu işin nəticələrini Kiyev küçələrində görmək olardı. Daha sonra o əlavə edir: "Yuşşenko mənim xoşuma gəlir. O, qərbpərəst siyasətçidir, arvadı isə amerikalıdır".

Kolin Pauell öz bəyanatında ABŞ-ın Ukraynadakı seçkilərə 15.000.000 dollar xərcləməsini gizlətmirdi. Bu bəyanat Ukraynadakı seçkilərdə ABŞ-ın iştirakı məsələsinə nöqtə qoymuş oldu. Konqresdən sızmış başqa məlumatlara görə, ABŞ Ukraynadakı prezident seçkilərinə müxtəlif fondlar vasitəsilə 65 milyon dollar köçürmüşdü. Xatırladaq ki, ABŞ-ın özündə prezident vəzifəsinə namizədlərə xarici mənbələrdən maliyyə dəstəyi göstərilməsi qadağan olunmuşdur. Ona görə də indiki halda "ikili standartlar oyunu" növbəti dəfə nümayiş etdirilmişdi. Ukraynada kütləvi kampaniyalara maliyyə dəstəyi göstərilməsində iştirak edən əsas Amerika

qurumları Demokratlar Partiyası nəzdindəki Milli Demokratiya İnstitutu, Respublikaçılar Partiyası nəzdindəki Beynəlxalq Respublikaçılar İnstitutu, ABŞ Dövlət Departamenti, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), eləcə də Freedom House qeyri-hökumət təşkilatı və Corc Sorosun Açıq Cəmiyyət İnstitutu.

Konrad Şullerin Almaniyada çıxan "Frankfurter Allgemeine Zeitung" qəzetində yazdığı kimi, Qərbin Yuşşenkonu dəstəkləməməsi və seçki prosesinə müdaxilə etməməsi barədə dəlilləri aşağıdakı səbəblərə görə inandırıcı deyildir: "Məsələn, Amerikanın Kiyevdəki səfirliyinin nümayəndəsinin yardımın "partiyalı olmaması" barədə bir cümlə ilə ifadə edilmiş "biz bir namizədi deyil, demokratiyanı dəstəkləmişik" tezisi. Belə dəlil hamının qaydalara riayət etdiyi sabit demokratiyanın mövcud olduğu ölkələr üçün yerinə düşərdi. Lakin Yuşşenkonun hakimiyyətə gəlişinə qədər Ukraynada olduğu kimi şəraitdə, bir klan qətllər də daxil olmaqla, istənilən vasitələrdən istifadə edərək öz hakimiyyətini qoruyub saxlamağa cəhd göstərəndə demokratik qüvvələrin dəstəklənməsi avtomatik şəkildə müxalifətin dəstəklənməsi demək olacaqdır. Hətta mövcud rejimə sadiq partiyalar qərb proqramlarının vəsaitlərindən istifadə etmiş olsalar belə, dövlətin bütün vasitələrindən istifadə etmək imkanına malik olan bu partiyalar üçün əlavə yardım müxalifətlə müqayisədə az hiss edilərdi.

İkinci dəlil ondan ibarətdir ki, Qərbin vəsaitləri qiyamın dəstəklənməsinə deyil, yalnız "demokratikləşmənin leqal dəstəklənməsinə" sərf edilmişdir. Lakin bu dəlil ticarət siyasətində alqı-satqısına icazə verilmiş "mülki" malları qadağan edilmiş "hərbi təyinatlı" mallardan fərqləndirmək üçün göstərilən ümidsiz cəhdə bənzəyir. Demokratikləşmənin dəs-

təklənməsi kimi bəyan edilmiş, lakin bircə gecədə inqilab vasitələrinə çevrilmiş ikili təyinatlı xidmətlərə istədiyiniz qədər misal göstərmək olar. İqor Popovun başçılıq etdiyi "Seçicilər komitəsi" əvvəlcə səsvermənin gedişini müşahidə etməklə məşğul olurdu, lakin məhz seçki məntəqələri bağlanan anda bu komitə inqilabın mənzil-qərargahına çevrildi. Bu, çoxsaylı misallardan yalnız biridir. Həmin "Seçicilər komitəsi" Milli Demokratiya İnstitutunun və digər oxşar təşkilatların dəstəyi ilə yaradılmışdı. Soros Fondunun köməyi ilə seçkiləri müşahidə etmək üçün yaradılmış "Novıy vıbor-2004" hərəkatına bütün ölkədən yüzlərlə müxtəlif təşkilat daxil idi. 2004-cü ilin fevral ayında bu hərəkatın işçi müşavirəsində xanım Olbrayt şəxsən iştirak etmişdi.

Lakin kütləvi etiraz günlərində bütün bu təşkilatlar və hərəkatlar öz xarakterini kəskin şəkildə dəyişdi. Onlar məxsusi təşkil edilmiş telefon rabitəsi vasitəsilə təkcə səsvermənin nəticələri barədə məlumat verməklə kifayətlənmirdi. Qiyamın lap əvvəlindən başlayaraq, bu telefon rabitəsi yüz minlərlə ukraynalının Kiyevdəki Müstəqillik meydanında iştirakının təmin olunmasına kömək edirdi. Məsələ təkcə bununla bitmirdi. Axı bütün bu xalq kütləsinin qidalanması, informasiya alması və təhlükəsizliyi də təmin edilirdi. Soros Fondunun hesabatları guya yalnız seçkilərin gedişini müşahidə etmək üçün yaradılmış strukturların səsvermədən dərhal sonra qiyama başlamaq üzrə iş aparan mərkəzlərə çevrilməsi ilə bağlı misallarla doludur. Ona görə də həlledici məqamda bu qruplar tam hazırlıq vəziyyətində olurdu. Soros həm də seçki məntəqələrində "gecə növbətçiliyi"ni maliyyələşdirirdi. "Pora" gənclər təşkilatının həbs edilmiş fəallarının həbsxanalardan buraxılmasına kömək edən vəkillərin haqqı da Soros tərəfindən ödənilirdi. Bunun sayəsində təşkilat öz sıralarını qoruyub saxlaya bilmişdi.

Qərbin dəstəklədiyi kütləvi informasiya vasitələri də seçkilərin ikinci dövrəsindən sonra qiyamın dayağına çevrilmişdi. Soros dövlət telekanallarından qat-qat operativ və aktual informasiya resursu olan "Maydan" internet saytını və inqilab günlərində 131 dəfə çapdan çıxmış və Kiyevin mərkəzində yayılan mətbu informasiya bülleteninin buraxılmasını maliyyələşdirirdi. Digər mətbu nəşrlər, məsələn, Sorosun Amerika səfirliyi ilə birlikdə maliyyələşdirdiyi "Tvoy vıbor" qəzet əlavəsi milyonlarla nüsxədə çap olunur və qismən nümayişçilərin özləri tərəfindən yayılırdı.

Nisbətən kiçik kütləvi informasiya vasitələri, məsələn, "Qala Radio" radiostansiyası inqilabın ən qızğın vaxtında öz xarakterini dəyişmişdi. Özlüyündə ziyansız bir musiqi radiostansiyası olan "Qala Radio" mərkəzdəki Kreşşatik bulvarındakı çadır şəhərciyində studiyasını qurmuşdu. Bu studiya dərhal etiraz ruporuna çevrildi. "Qala" radiostansiyası vaxtaşırı jurnalistlərə mətbuat vəsiqəsi verir, onlar da bu vəsiqələrin köməyi ilə inqilabi mühafizə cərgələrindən keçə bilirdilər[1].

Şübhə yoxdur ki, Ukrayna Qərb ilə Rusiyanın siyasi mübarizə meydanına çevrilmişdi, burada mübarizə aparan tərəflərin hər biri bircə addım da geri çəkilməməyə hazır idi və müxtəlif sosial qruplardan, eləcə də müxtəlif siyasi və başqa vasitələrdən istifadə edirdi. Qərbin siyasi cəbbəxanasının elementlərindən biri öz siyasi məqsədlərinə nail olmaq üçün gənclərdən istifadə edilməsi idi. Bundan ötrü maliyyə vasitələrindən istifadə olunmaqla gənclər səfərbər edilir, neyrolinqvistik proqramlaşdırma metodlarının köməyi ilə gənclərin şüurunda inqilabi ruh məqsədyönlü şəkildə dəstəklənir, onların mənlik

[1] www.inosmi.ru; http://www.inosmi.ru/stories/01/06/22/3006/222633/ html

hissi və milli qürur duyğuları qızışdırılırdı. 2003-cü ildə Gürcüstan vətəndaşları da bu ovqatı yaşamışdılar.

"Pora"nın adının çəkilməsini istəməyən liderlərindən birinin dediklərinə inansaq, gənclərin bu cür çıxışlarının "əlaqələndirici" özəyi, həqiqətən, Serbiyadakı "Otpor" hərəkatının üzvləri tərəfindən təlimatlandırılmış, mitinqlər keçirilməsi, hüquqşünasların haqqının ödənilməsi və s. xərclər üçün pulu isə hansısa anonim xeyriyyəçilər vermişdir: "Kanadadan gəlmiş bir nəfər pul verir ki, Ukraynada belə bir hakimiyyət olmasın" və "adamlar açıq-aşkar bildirirlər ki, Medvedçukun tabeliyində olan indiki vergi müfəttişliyi onları təngə gətirib". "Onlar pul xərcləyirlər ki, sonra yeni iqtidardan bonuslar alsınlar".

Gənclər hərəkatının strukturu məsələsinə gəldikdə isə o, Neçayevin "beşliklərini" (inqilabdan əvvəlki Rusiyadakı terrorçu qrupları) xatırladan qruplar və vəsilələrdən ibarət idi. Görünür, mitinqlərdə müşahidəçilərin çoxunu heyrətə salan asayiş bununla izah edilir. Hərçənd, ötən əsrin 60-cı illərində Çində terrorçuluq edən xunveybinlərin "həddən artıq mütəşəkkil" çıxışları da müşahidəçilərə bu cür təsir bağışlayırdı.

2005-ci il fevralın 28-də Kiyevdə "Pora" təşkilatının bazasında yeni siyasi partiya yaradılması elan edildi. Onun təsis qurultayını 2005-ci il martın ortalarında keçirmək planlaşdırılırdı. "Pora" ictimai hərəkatı strukturlaşdırılmış təşkilat kimi 2005-ci il yanvarın 29-da rəsmiləşdirilmişdi. Bu qərar hərəkatın vilayət əlaqələndiricilərinin şurasında qəbul edilmişdi və artıq o vaxt "sarı" və "qara" "Pora" arasında bu cür transformasiyaya münasibətdə fikir müxtəlifliyi üzə çıxırdı. Nəticədə bunlardan sonuncusu hərəkatın ictimai təşkilata çevrilməsini "ideallara xəyanət" adlandıraraq, onun əleyhinə çıxdı.

Serbiyada və Gürcüstanda olduğu kimi, bir il sonra Ukraynada da hakimiyyəti parçalanma gözləyirdi. Baş nazir Y.Timoşenkonun böyük hay-küyə səbəb olmuş istefası, 2006-cı ilin parlament seçkilərində V.Yuşşenko tərəfdarlarının məğlubiyyəti, V.Yanukoviçin Ukraynanın Baş naziri vəzifəsinə təyin edilməsi onu göstərir ki, "narıncılar" düşərgəsi çox böyük siyasi iflasa məruz qalmışdır.

Qırğızıstan – 2005

Qırğızıstanda hakimiyyət böhranı, bəlkə də bütün informasiya agentlikləri üçün ən gözlənilməz hadisə oldu. Əsgər Akayevin hakimiyyətinin devrilməsi ilə nəticələnmiş "zanbaq" inqilabı parlament seçkilərinin saxtalaşdırılması nəticəsində, prezident seçkilərindən xeyli əvvəl baş vermişdi. Serbiyada, Gürcüstanda və Ukraynada inqilablardan sonra təhlilçilər və politoloqlar "məxməri" inqlabın ehtimal olunan varisini Moldovada, Azərbaycanda və Qazaxıstanda axtarırdılar. Ənənəyə görə, Qırğızıstan qlobal "rəngli" transformasiyanın aid ola biləcəyi ən az ehtimal edilən sahə hesab olunurdu. Üstəlik, Qırğızıstan cəmiyyətinin siyasi şüuru vaxtilə Rusiyanın geoiqtisadi forpostu sayılan Ukrayna ilə müqayisədə həmişə xeyli aşağı qiymətləndirilirdi. Ona görə də burada Ukraynadakına oxşar hər hansı "üçüncü demokratik dalğa", əlbəttə, Kremlin iştirakı ilə qətiyyətlə dəf edilərdi. Rusiya özünün cənub sərhədlərində, şimal qonşusuna loyallığın rus dilinin ikinci dövlət dili olmasının hətta Konstitusiyada təsbitində ifadəsini tapdığı bu dövlətdə birdən-birə "rəngli" transformasiyalar şəklində tranzitlərə imkan verməzdi. İkincisi, Qırğızıstan Qərb üçün qlobal əhəmiyyət kəsb etmirdi. Tamamilə loyal, Əfqanıstanla sərhəd-

də Amerika aviabazasının yerləşdirilməsi üçün öz ərazisini lütfkarlıqla təqdim edən bir müttəfiq qazanmış Qərb bu regionda özünün geosiyasi mənafeyini "təmin etmişdi". Üçüncüsü, Orta Asiya regionu heç vaxt demokratik transformasiyalar iddiasına düşməmişdir, hər halda, Tacikistan, Özbəkistan və Türkmənistan kimi ölkələr yaxın gələcəkdə qlobal tranzitlər iddiasında ola bilməz. Təhlilçilərin əksəriyyəti belə hesab edirdi ki, Qırğızıstanda transformasiya, əgər ümumiyyətlə, bu, mümkündürsə, 2005-ci ilin oktyabr ayında, Prezident seçkilərinin keçirilməli olduğu vaxtda kritik fazaya daxil ola bilər.

Əsgər Akayev 1990-cı ildə Qırğızıstanın Prezidenti olmuş, sonra isə iki dəfə – 1995-ci il və 2000-ci illərdə yenidən bu vəzifəyə seçilmişdi. Əsgər Akayevin ən çox ehtimal edilən varislərindən biri kimi onun xanımı Məyrəm Akayevanın adını çəkirdilər. Müxalifət hətta Qırğızıstanın birinci xanımının hakimiyyətə gəlişinin mümkün ssenarisini də bildirmişdi: əvvəlcə o, deputatlığa namizədliyini irəli sürər, sonra parlamentin sədri olar, beləliklə, prezidentliyə yolu təmin edilərdi. Müxalifət isə seçkilərə bir neçə namizəd hazırlayırdı. Onlardan biri Feliks Kulov idi. O, 1990-cı illərin əvvəllərində Akayevin məsləkdaşı olmuş, sonra isə onun barışmaz əleyhdarına çevrilmişdi. 2001-ci ildə Kulov xidməti mövqeyindən sui-istifadəyə görə 7 il həbs cəzasına məhkum edildi, sonra isə "xüsusilə böyük məbləğdə oğurluqlara görə" həbs müddətinə daha 10 il əlavə etdilər. N.Burcanadze və Y.Timoşenkonun Qırğızıstan variantı sayılan Roza Otunbayeva üç dəfə Xarici İşlər Nazirliyinin rəhbəri vəzifəsini tutmuş, bu ölkənin ABŞ-da, Kanadada və Böyük Britaniyada ilk səfiri olmuşdu. Sovet dövründə SSRİ XİN-in Kollegiya üzvü olmuş, YUNESKO-da Sovet İttifaqını təmsil etmişdi.

2004-cü ilin sentyabr ayına qədər R.Otunbayeva gürcü-abxaz münaqişəsinin tənzimlənməsi üzrə BMT baş katibi nümayəndəsinin müavini vəzifəsində çalışmışdı. Əsgər Akayevin vəzifədən getməsi tələblərinin səsləndiyi ilk iri etiraz mitinqləri də, əslində, məhz Otunbayevanın 2005-ci ilin qışında keçirilən parlament seçkilərində iştirak etməkdən kənarlaşdırılmasından sonra başlanmışdı. İnqilabi transformasiyaların sükanı arxasında dayanan digər tanınmış müxalifət lideri əvvəllər Baş nazir vəzifəsində çalışmış Kurmanbek Bakiyev idi. Əsgər Akayev qaçandan sonra məhz o, ölkənin Baş naziri və dövlət başçısı vəzifəsini icra etmək səlahiyyətlərini öz üzərinə götürmüşdü.

Qırğızıstan hadisələri aşağıdakı qaydada inkişaf edirdi. 2005-ci il fevralın 27-də orada parlament seçkilərinin birinci dövrəsi keçirildi. Ertəsi gün Qırğızıstan Mərkəzi Seçki Komissiyası 75 seçki dairəsindən 32-də namizədlərin qalib gəldiyini elan etdi. 42 seçki dairəsində səsvermənin ikinci dövrəsi təyin olundu. Bir dairədə seçki etibarsız hesab edilmişdi, çünki "hamının əleyhinə" səs verənlərin sayı namizədlərin lehinə verilmiş səslərin sayından çox idi. Bununla bərabər, Akayevin oğlu Aydar və qızı Bermet "inamlı" qələbə qazandılar. Kurmanbek Bakiyev də ikinci dövrəyə çıxdı.

Fevralın 28-də ATƏT-dən və Avropa Parlamentindən olan müşahidəçilər bu seçkilərin beynəlxalq normalara müvafiq olmadığını bildirdilər. Onlar seçicilərə həm Prezident, həm də müxalifət tərəfindən təzyiq göstərmək cəhdləri olduğunu vurğuladılar. Qırğızıstanın beş müxalifət hərəkatını birləşdirən Siyasi Qüvvələr Forumu səsvermənin gedişində seçki məntəqələrində kütləvi pozuntulara yol verildiyini bəyan etdi.

Bundan sonra müxalifətçilər Bişkekin mərkəzində icazəsiz mitinq təşkil etdilər, martın 4-9-da isə ölkədə müxalifətin kütləvi mitinqləri başlandı.

Bu mitinqlər nəticəsində müxalifətçilər Cəlalabadda vilayət rəhbərliyinin binasını zəbt etdilər. Oradan insanlar dəstə-dəstə Qırğızıstanın "cənub" paytaxtı Oş şəhərinə üz tutdular. Narın vilayətinin sakinləri isə Çin sərhədinə gedən strateji avtomobil yolunu bağladılar.

Martın 10-da Qırğızıstan parlamenti növbədənkənar sessiya keçirdi. Sessiyada ilk dəfə olaraq, Akayevin və onun tərəfdarlarının hərəkətləri tənqid edildi. Aşkar görünürdü ki, ölkə rəhbərliyi vəziyyətə nəzarət etmir. Eyni zamanda, bəzi başqa şəhərlərdə, məsələn, Narında və Talasda müxalifətçilər Cəlalabad ssenarisini təkrar etməklə vilayət rəhbərliklərinin binalarını zəbt etməyə cəhd göstərirdilər. Həmin vaxt müxalifət birləşmə prosesini tamamilə başa çatdırdı və nəticədə Kurmanbek Bakiyev müxalifətin lideri oldu.

Martın 13-də Qırğızıstanda parlament seçkilərinin ikinci dövrəsi keçirildi. Ertəsi gün MSK elan etdi ki, ilkin məlumata görə, parlamentdəki yerlərin mütləq əksəriyyətini prezidentin tərəfdarları tutmuşlar. Ən böyük sensasiya isə müxalifətin lideri Kurmanbek Bakiyevin məğlubiyyəti oldu. Yeni parlamentdə müxalifət deputatları cəmi 10 faiz təşkil edirdi. Bundan sonra cəmi bir neçə saat ərzində bütün respublikanı kütləvi çıxışlar və küçə etirazları dalğası bürüdü. Martın 16-da Qırğızıstan iqtidarı bəzi güzəştlərə getdi. Prezident Akayev milli televiziya ilə çıxışında demişdi: "Kəskin mübarizə gedirdi və heç də hamı qanunun tələblərinə riayət etmirdi". Bu sözlər mövcud rejimin zəifliyini, onun dövlətdə yaranmış ciddi problemlərin öhdəsindən gəlməyə hazır olmadığını göstərən siqnal oldu.

Sonrakı günlərdə ölkədə vəziyyət xeyli gərginləşdi. Hakimiyyət orqanları hətta xüsusi təyinatlı dəstələrin iştirakı ilə bəzi vilayət rəhbərliklərinin binalarını azad etməyə cəhd göstərdi və bu zaman bəyan etdilər ki, hüquq mühafizə orqanlarının əməkdaşlarının üstündə odlu silah olmamışdır.

Praktik olaraq elə həmin vaxtda Qırğızıstanın prezidentpərəst "Xalq ilə və xalq üçün" ictimai fondu parlamentin deputatlarını "ölkədə fövqəladə vəziyyət" elan etməyə çağırdı. Fond iqtidara da müraciət edərək, "ictimai ideoloji terrorla" məşğul olan KİV-i pisləməyə və bağlamağa, Konstitusiyanın təminatçısı olan Prezident Akayevi müdafiə etməyə çağırdı. Bunun cavabında müxalifət bəyanatlarla çıxış etdi. Bəyanatda deyilirdi: "Akayevin və əlaltılarının qanlı əməlləri onların öz xalqına qarşı müharibədən başqa bir şey deyildir. Onlar özlərinin cinayətkar hakimiyyətini qoruyub saxlamaq üçün əhalini millətlərarası münaqişəyə və qan tökülməsinə təhrik etməyə hazırdırlar. Biz bu həlledici anda Vətənin taleyini əziz tutan bütün soydaşlarımızı korrupsiyaya qurşanmış mafioz ailə-tayfa rejiminə qarşı çıxış etməyə çağırırıq".

Qırğızıstan iki hissəyə parçalanmışdı: cənuba müxalifət, şimala iqtidar nəzarət edirdi. "Qırğızıstan xalq hərəkatı"nın lideri Kurmanbek Bakiyev Bişkekdə bəyan etdi ki, iqtidar vaxtı əldən verib, halbuki, bu müddətdə xalqı, sadəcə, sakitləşdirmək olardı. "Nezavisimaya qazeta" 2005-ci ilin mart ayında yazırdı: "Akayev artıq çoxdan 1990-cı illərin əvvəllərindəki təmənnasız demokrat deyil. Hakimiyyət onun mənəviyyatını pozmuşdur və az bir vaxtda siyasi rejimi Şərq müstəbidliyi üçün səciyyəvi olan çoxsaylı yara-xora basmışdır"[1].

[1] www.ng.ru

Martın 22-də Akayev yeni parlamentin iclasını çağırdı və deputatlar qarşısında çıxışında bəyan etdi ki, Qırğızıstanda baş verən hadisələri MDB ölkələrindəki digər "rəngli" inqilablardan təcrid olunmuş şəkildə nəzərdən keçirmək olmaz. Məlum oldu ki, iqtidarla müxalifət arasında yaranmış münasibətləri beynəlxalq vasitəçilik edilmədən tənzimləmək mümkün deyildir. Həmin vaxt M.Saakaşvili Ə.Akayevə məktub göndərərək, özünün vasitəçilik xidmətlərini təklif etdi: "Azadlığın və hüquq bərabərliyinin tərəfdarı olduğum üçün, eləcə də güclü Qırğızıstan ideyasını dəstəkləyərək, xalqınızın tarixinin bu böhranlı dövründə sizə dostluq və dəstək əlimi uzatmaq istəyirəm. Əgər siz lazım bilsəniz, mən istənilən şəkildə sizə faydalı olmağa hazıram, o cümlədən danışıqlarda vasitəçi kimi və ya müxalifətlə konstruktiv diskussiyada iştirak etməyə hazır olan adi bir dost kimi qardaş Qırğızıstana gələ bilərdim".

2005-ci il martın 23-də iqtidar mitinqləri dağıtmağa cəhd göstərdi və müxalifət tərəfdarlarını tutmağa başladı. Martın 24-də isə müxalifət Bişkekin üç tərəfindən şəhərin mərkəzinə, hökumət binalarının yerləşdiyi hissəyə doğru kütləvi "zəfər yürüşü" təşkil etdi. Həmin gün Bişkek mühasirəyə alınmış qalanı xatırladırdı, çünki müxalifət tərəfdarları cənubdan paytaxta gəlməkdə davam edirdilər. Cəlalabadda isə hökumət əleyhinə şüarlarla mitinq-konsert təşkil olunmuşdu. Üsyançıların tərəfinə keçmiş milis işçiləri sıraya düzülərək, mitinqə toplaşanların qarşısından keçmişdilər.

Səhər saat 10-da Bişkekdə əsl dram baş verdi. Müxalifətin təşkil etdiyi mitinqin iştirakçıları arasında başlarına çəhrayı sarıq bağlamış, əllərində "Akayev istefa versin!" sözləri yazılmış transparantlar tutan 6-7 yaşlı uşaqlar gözə

dəyirdi. Daxili işlər naziri K.Duşebayev mitinqi açıq elan edərək, bu aksiyanı dinc keçirməyə çağırdı. Sonra K.Bakiyev çıxış etdi. Davakar ovqatlı izdiham Hökumət evinə doğru hərəkətə başlayandan bir neçə saat sonra Əsgər Akayev manifestantlara qarşı qüvvə tətbiq etməmək barədə əmr verərək, öz ailə üzvləri və ən yaxın məsləkdaşları ilə birlikdə Hökumət evini tərk etdi. Elə həmin gün Feliks Kulov həbsxanadan azad olundu və güc idarələrinə ümumi rəhbərlik ona tapşırıldı. Qırğızıstanda bütün qarşıdurma dövründə bu inqilaba heç bir münasibət də bildirməyən ABŞ, ilk dəfə olaraq, dövlət katibi K.Raysın şəxsində "zanbaq" inqilabının nəticələri barədə bəyanat verdi: "Biz Qırğızıstandakı hadisələri izləyirik və hazırda baş verən hadisələri demokratik prosesə transformasiya edən prosesin irəliləməsinə kömək etməyə çalışırıq. Bu proses öz növbəsində qırğız xalqına sabit hökumət verəcək, onun daha yaxşı demokratik gələcəyə doğru irəliləməsini təmin edəcəkdir". Beləliklə, Qırğızıstandakı "zanbaq" inqilabı bir vaxtlar Əsgər Akayevin rejimində mühüm rol oynamış, sonra isə bu rejimin devrilməsinin katalizatorlarına çevrilmiş siyasətçiləri hakimiyyətə gətirdi.

Qırğızıstandakı "məxməri" inqilabın özünəməxsusluğu ondan ibarətdir ki, əvvəlki rejimin devrilməsində "iştirak etmiş" "Birgə" və "Gəl-gəl" gənclik təşkilatları özlərinin Serbiyada, Gürcüstanda və Ukraynadakı "qardaşlarından" fərqli olaraq, inqilabi proseslərin hazırlanması və təşkilindəki ümumi roldan savayı, elə bir əhəmiyyətli rol oynamırdı. Kütləvi iğtişaşlar dövründə Qırğızıstandakı gənclər təşkilatları Qərb ssenarisinin reallaşdırılmasını əyani şəkildə nümayiş etdirmək üçün kortəbii şəkildə formalaş-

mışdı. Hərçənd, təhlilçilərin çoxunun fikrincə, Qırğızıstan inqilabı ölkədə 2008-ci ilin axırlarına təyin edilmiş prezident seçkiləri dövründə hadisələrin qərbləşdirmə ssenarisi üzrə inkişaf edəcəyi barədə təşvişə düşmüş Rusiyaya xəbərdarlıq zərbəsi idi. Qırğızıstan hadisələrindən çıxan nəticələrə gəldikdə isə, əvvələn qeosiyasi maraqları itirmək qorxusu olmadan qonşu strateji tərəfdaş dövlətdə hakimiyyət uğurla dəyişdirildi. İkincisi, MDB məkanında kortəbii inqilabi transformasiyalar prosesinə Rusiyanın uğurla müdaxilə etməsinin mümkünlüyü sınaqdan keçirildi. Gürcüstanda və Ukraynadakı uğursuz cəhdlərdən sonra Qırğızıstan təcrübəsinin Rusiya diplomatiyası üçün böyük əhəmiyyəti vardı. Hətta Qırğızıstanda inqilabi sərməstlik dövründə S.Lavrovun Avropa İttifaqının xüsusi nümayəndəsi Xavyer Solanaya xəbərdarlıq etməsi diplomatiya dilində "xahiş edirəm, özünüzə aid olmayan işlərə burnunuzu soxmayın" demək idi. Üçüncüsü, Rusiya postsovet məkanında kimin, həqiqətən, sahib olmasını göstərməyə çalışırdı. Buna görə də 2005-ci ilin yanvar ayında Moskvaya gəlmiş, sonra isə artıq dövlətin rəsmi başçısı qismində şimal qonşusunun paytaxtına özünün ilk səfərini etmiş K.Bakiyevin və bəzi başqa qırğız müxalifətçilərinin taktikası qarşıdakı siyasi perspektiv baxımından tamamilə düzgün idi.

2005-ci il avqustun 14-də Kurmanbek Bakiyev Qırğızıstan Respublikasının Prezidenti vəzifəsində işə başladı.

Qırğızıstan, sonralar isə Özbəkistan da "rəngli" sindromun postsovet məkanında daha da yayılması üçün bir növ "əyləc rıçağı" oldu. Serbiya, Gürcüstan və Ukraynadakı inqilabların yekunları göstərdi ki, hakimiyyətin dəyişməsi və

"demokratik elitanın" hakimiyyətə gəlməsi heç də həmişə siyasi sabitliyə və iqtisadi dirçəlişə şərait yaratmır. Qırğızıstanın timsalında bu, daha əyani görünür. "İnqilabi hökumət, adətən, özünü "ən populyar hökumət" hesab edir, bu isə ikibaşlı nəticələrə gətirib çıxarır. Bir tərəfdən, bu hökumət təxirəsalınmazlığı aşkar göründüyü halda belə, qeyri-populyar tədbirləri həyata keçirməyə qadir olmur. Digər tərəfdən, o, hələ inqilabdan əvvəlki dövrdə formalaşmış və geniş ictimai dəstəyi olan dəyişikliklər proqramına möhkəm bağlanmışdır və buna görə də hətta həyat bunu təkidlə tələb etdikdə belə, köhnə proqramın məhdudluğunu dəf etməyə qadir deyildir"[1].

Beləliklə, postsovet respublikalarında demokratikləşmənin sürətləndirilməsi layihəsinin "məxməri" inqilablar yolu ilə reallaşdırılması bu layihənin müəlliflərinin ümidlərini doğrultmadı. Çox güman ki, bu, Qərbdə yalnız hər şeyi axıra qədər ölçüb-biçə bilməmiş və bu istiqamətdə özlərini cilovlamağa məcbur olmuş müəyyən siyasi dairələr üçün gözlənilməz idi. Layihənin iflasa uğraması, eləcə də bu layihə ilə əlaqədar dünyada baş verən bəzi başqa proseslər (2006-cı ilin sentyabrında BMT Baş Məclisinin sessiyası, həmin sessiyada bir sıra dövlət başçılarının çıxışları buna əyani sübutdur) ABŞ-ın xarici siyasətinin ən mühüm istiqaməti kimi, "bütün dünyada demokratiyanı inkişaf etdirmək" barədə qlobal siyasətinə düzəliş etməsinə də çox ciddi təsir göstərdi. Növbəti fəsildə biz bu məsələyə bir daha qayıdacağıq.

Lakin fakt faktlığında qalır. XXI əsrin əvvəli dünyada ciddi transformasiyalarla səciyyələnir. Özü də bu transformasi-

[1] И.В.Стародубровская, В.А.Мау. Великие революции: от Кромвеля до Путина. М., 2004, стр. 182.

yalar gizli şəkildə və hər bir dövlətdə onun tarixi inkişafının xüsusiyyətləri nəzərə alınmaqla baş verir. Lakin dövlətlərin daxilində baş verən prosesləri süni şəkildə sürətləndirmək məqsədi ilə kənardan həmin proseslərə müdaxilə edildikdə, transformasiyalar aşkar görünən siyasi çalarlar kəsb edir, bu isə cəmiyyətin çox hissəsində ciddi qarşıdurmaya səbəb olur.

III FƏSİL

İNQİLABLARDAN TƏKAMÜLƏ DOĞRU: SİYASİ REALLIĞI TRANSFORMASİYA EDƏRKƏN

> Şəxsiyyəti mühit və hadisələr yaradır, ancaq hadisələr də şəxsiyyətlər tərəfindən həyata keçirilir və bu hadisələrdə onların izi qalır – burada qarşılıqlı əlaqə var… Bizim üçün bir səs və bir hakimiyyət – zəka və dərketmənin hakimiyyəti mövcuddur. Onları inkar etməklə biz elmin rütbədən salınmış ruhanilərinə və sivilizasiyanın dönüklərinə çevrilirik.
>
> **A.İ.Gertsen**

Biz üçüncü fəsilə bu adı təsadüfən seçməmişik. Əvvəlki fəsildə Yuqoslaviyada, Gürcüstanda, Ukraynada və Qırğızıstanda hakimiyyətin inqilablar vasitəsilə dəyişdirilməsi mexanizmini təhlil edərkən biz "məxməri" transformasiyaların reallaşdırılması ssenarilərinin, əslində, hər yerdə eyni olduğunu göstərməyə çalışmışıq. İstənilən başqa ölkədə həyata keçirilsəydi belə, onun metodları, məqsəd və vəzifələri eyni olacaqdı. Hakimiyyət çevrilişinin artıq sınaqdan çıxarılmış ssenarisindən 2005-ci ilin parlament seçkiləri ərəfəsində Azərbaycanda da istifadə etmək planlaşdırılırdı. Lakin Azərbaycan cəmiyyəti demokratik keçidin mahiyyətini bütün siyasi sistemin radikal şəkildə dağıdılmasında görmür. Belə ki, ötən yüzilliyin 90-cı illərinin əvvəlindəki təcrübəmiz mövcud rejimin "inqilabi yolla" dağıdılmasının və ölkənin

idarəolunmaz vəziyyətə düşməsinin mənfi nəticələrini aydın şəkildə göstərmişdir. Qərbin demokratik dövlətlərinin tarixi göstərir ki, demokratik transformasiyaların alternativ, o cümlədən təkamül yoluna əsaslanan forma və metodları var və onlar dünyada uğurla tətbiq olunur. Biz irəlidə bunu daha konkret şəkildə göstərməyə çalışacağıq.

§ TRANSFORMASİYALAR HAQQINDA DÜŞÜNƏRKƏN…

İmmanuel Vallerstayn özünün "Bizim tanıdığımız dünyanın sonu. XXI əsrin sosiologiyası" əsərində yeni minilliyin sosiumunun əsas xarakteristikalarını göstərərkən bir neçə nəticəyə gəlmişdir və onlardan biri bizim kitabımızın üçüncü fəslinin əvvəlini tamamilə təcəssüm etdirə bilərdi. Tanınmış Amerika mütəfəkkiri, dünyanın sistemli təhlilinin banisi, müasir sol radikal ictimaiyyatşünaslığın liderlərindən biri yazmışdır: "Sosial sistemlərdə, Kainatda ən mürəkkəb, ona görə də çətin təhlil edilə bilən sistemlərdə daim yaxşı cəmiyyət qurmaq uğrunda mübarizə gedir. Üstəlik, məhz bir tarixi sistemdən digərinə keçid (biz onun təbiətini qabaqcadan bilə bilmərik) dövrlərində bu mübarizənin əhəmiyyəti daha çox olur. Yaxud da, başqa sözlə desək, bizim azad iradə adlandırdığımız şey yalnız belə keçid dövrlərində bərabərliyin bərpasına çalışan mövcud sistemin təzyiqinə üstün gəlir. Beləliklə, sanballı dəyişikliklər mümkündür, – baxmayaraq ki, bunlar heç vaxt irəlicədən müəyyən edilməyib, – və bu mənəvi məsuliyyətə çağırır, bizi rasional şəkildə hərəkət etməyə, təmiz niyyətlərlə və qətiyyətlə daha mükəmməl tarixi sistemi tapmağa sövq edir"[1].

[1] И.Валлерстайн. Конец знакомого мира. Социология XXI века. М., 2004, стр. 8.

Yaxşı indinin və optimal gələcəyin axtarışında daxili və zahiri ictimai qarşıdurma tarixən sosiumun inkişafının əsas səmti olmuşdur və kollektiv həyatın, əslində, istisnasız olaraq, bütün üzvləri bu inkişafda fəal iştirak etmişlər və edirlər. Lakin sosial gercəkliyin mühüm vəsiləsi olan bu mübarizə həyatın formasına və tərzinə daim öz düzəlişlərini edir, çünki o, yeni davranış stereotiplərinin formalaşmasını, cəmiyyətin transformasiyasını, sosial strukturdakı dəyişiklikləri, siyasi tranzitləri və iqtisadi "tərpənişləri" şərtləndirir. Ayrılıqda hər bir halda sistem sosiumun sosiomədəni, siyasi və iqtisadi fonunun təcəssümü olan daxili və zahiri əhval-ruhiyyəni əks etdirir. Belə auranın dəyişməsi isə, hökmən cəmiyyətdə və dövlətdə mühüm diffuziyalara səbəb olur. Serbiyada, Gürcüstanda, Ukraynada və Qırğızıstanda baş vermiş inqilablardan sonra məhz bu halı müşahidə etmək olardı. Oxşar siyasi transformasiyaları Qazaxıstanda, Azərbaycanda və Rusiyada da həyata keçirməyə cəhd göstərdilər. Tam bir sıra digər dövlətlər, o cümlədən Əfqanıstan, İraq tamamilə başqa bir formada digər transformasiyalara məruz qaldı, indi növbədə İran, ola bilsin, Suriyadır.

Lakin transformasiyalar heç də təkcə "üçüncü demokratik dalğanın" inqilabi təsirini hiss edən ölkələrə toxunmamışdır. "Demokratik eyforiyanın" hücumunu şərtləndirən yeni geosiyası reallıqlar Şərqi Avropanın bir sıra dövlətlərini demokratikləşməyə gətirib çıxarmışdır. Hərçənd, demək lazımdır ki, bəzi keçmiş sovet respublikalarında Qərbdən gələn "demokratik hücuma" cavab olaraq avtarkiyanın əsasları güclənmiş, digər əksəriyyətində isə Le Nouvel Ordre Mondial-ın[1] prioritetlərini qəbul etmişlər. "Qərb demokratikləşməsi", dəqiq desək, "demokratik qərbləşmə" üçün açıq olan cəmiyyətlərdə

[1] Yeni Dünya Nizamı (fran.).

zamanın çağırışını lazımınca "qiymətləndirərək", dəyərləri siyasi və iqtisadi strategiyanın təkmilləşdirilməsi xətti baxımından yenidən qiymətləndirdilər. Bu, ictimai şüurun gizli şəkildə demokratikləşməsini və siyasi məkanın təməlinin "sosial müqavilənin" və "ictimai müqavilənin" dərk edilməsinə və həyata keçirilməsinə əsaslandığı yeni siyasi qaydanın qurulmasını şərtləndirmişdir.

Gürcüstan keçmiş sovet avtarkiyalarından birincisi idi ki, kommunist dövrünün dəyərlər sistemindən ictimai inkişafa və ümumən dövlətə münasibətdə hakimiyyətin tamamilə başqa cür mövqeyinə əsaslanan yeni demokratik cəmiyyət quruculuğu məkanına keçid etmişdir. Onun ardınca Ukrayna gəldi. Moldovada parlament seçkiləri mürəkkəb ictimai-siyasi şəraitdə keçdi, baxmayaraq ki, orada hakimiyyət dəyişikliyi baş vermədi, lakin dövlət idarəçiliyinin demokratikləşməsi göz qabağındadır. Qazaxıstandakı prezident seçkilərini də dünya ictimaiyyəti çox diqqətlə izləyirdi. Baxmayaraq ki, N.Nazarbayev siyasi müxalifəti "bitərəfləşdirə" və seçkilərdə qələbəni təmin edə bilmişdi, ancaq Qazaxıstan uzun müddət Gürcüstan və Ukraynadakına bənzər siyasi transformasiyaların mümkün "varislərindən" biri hesab olunurdu. Lakin postsovet və Avropa məkanının siyasi ictimaiyyətinin, habelə ABŞ-dakı beyin mərkəzlərinin (think-tank) diqqəti daha çox 2005-ci ilin əvvəlində siyasi mübarizə alovunun yeni siyasi strukturun formalaşmağa başlamasından xəbər verdiyi Odlar yurduna yönəlmişdi.

Bu fəsildə biz Azərbaycanda "rəngli" inqilab həyata keçirmək cəhdlərinin anatomiyasını göstərməyə çalışacağıq. Zənnimcə, bunu həmin mürəkkəb hadisələrin mərkəzində olan şəxs kimi, bu kitabın müəllifinin dilindən eşitmək oxucu üçün maraqlı olacaqdır. Bəri başdan deyək ki, nəzərdə tutulan

"inqilab" üçün 2005-ci il təsadüfi seçilməmişdi. Hesab edilirdi ki, 2005-ci ilin noyabrındakı parlament seçkiləri "məxməri" çevrilişi həyata keçirmək üçün ən münasib məqamdır.

Yəqin, postsovet məkanının problemləri sahəsində ixtisaslaşan elə bir təhlilçi, nəşr, beyin mərkəzi tapılmaz ki, Azərbaycanın "rəngli" transformasiyası probleminə toxunmasın. Doğrudur, belə anarxist keçid cəhdləri milli müxalifətə xas üslubda dəfələrlə göstərilmiş, lakin 2003-cü ilin oktyabrında, prezident seçkilərindən sonra paytaxtın mərkəzində daha təcavüzkar şəkildə, dağıntılar törədilməklə olmuşdur. Ancaq İlham Əliyevin seçkilərdə inamlı qələbəsi əvvəlcədən uğursuzluğa məhkum olan ssenarinin həyata keçirilməsini puça çıxardı.

Gürcüstanda, Ukraynada və Qırğızıstanda əks-elitaların uğurlarından "məst" olan milli müxalifət 2005-ci ildə həmin ssenarini parlament seçkiləri zamanı və seçkilərdən sonra konstitusiyaya zidd transformasiya həyata keçirmək üçün istifadə etmək qərarına gəldi. Lakin müxalifət başlıca siyasi amili nəzərə almırdı: belə ssenarinin həyata keçirilməsi yalnız o zaman mümkündür ki, bolşeviklərin rəhbərinin sözləri ilə desək, köhnə qayda ilə yaşamağı "aşağılar istəməsinlər, bu cür yaşamağa yuxarılar da qadir olmasınlar". Siyasi baxımdan daha dəqiq desək, inqilabi şərait dərin iqtisadi böhranın və ümidsiz siyasi təbəqələşmənin məhsuludur. Azərbaycanda belə şərait var idimi? Biz məhz bunu təhlil etməyə çalışacağıq.

2005-ci ildə Qərbin kütləvi informasiya vasitələri Azərbaycanda "rəngli" transformasiya imkanına görünməmiş dərəcədə maraq göstərirdi. Milli müxalifət hətta Azərbaycan inqilabı üçün daha münasib saydığı narıncı rəngi də müəyyən

etmişdi. Ukrayna inqilabının rəngi gələcəkdə bütün siyasi strukturda islahat aparmaq və yeni ictimai-siyasi və iqtisadi qayda qurmağa çalışmaq ümidi ilə Azərbaycanın siyasi məkanına uğurla inteqrasiya edilmişdi.

Britaniyanın "The Guardian" qəzeti 2005-ci ilin iyununda yazırdı: "Azadlıq mayakları" haqqında Ağ evin mülahizələri arzuları oyatmış və hətta neft nəhənglərində – Azərbaycanda və Qazaxıstanda inqilab planları doğurmuşdur. İlin axırında hər iki ölkədə seçkilər keçirilməlidir və yəqin ki, hökumətlər nəticələri saxtalaşdırmağa çalışacaqlar"[1]. İnqilabın arxitektorları da məhz seçkilərin saxtalaşdırılmasına ümid bəsləyirdilər. "İxrac olunan transformasiyalar" modeli artıq Gürcüstan, Ukrayna və Qırğızıstanda uğurla həyata keçirilmişdi.

"The Guardian"dakı həmin məqalənin müəlliflərinin fikrincə, Gürcüstan, Ukrayna və Qırgızıstandakı hadisələr "Azərbaycan və Qazaxıstanda qorxu doğurmuşdu və hətta ikincinin prezidenti Nursultan Nazarbayev seçkilər vaxtı etiraz mitinqləri keçirilməsini qadağan etmiş, müxalifət qəzetlərini bağlamış və Ukrayna inqilabının rəngi olan narıncı köynəklər geymiş cavan nümayişçiləri polisin döyməsinə imkan vermişdi"[2].

Amerikanın "Newsweek" jurnalı 2005-ci il oktyabrın 24-də yazırdı: "Qarşıdakı seçkilərin azad və vicdanlı keçirilib-keçirilməyəcəyindən asılı olmayaraq, yaxın vaxtlarda Azərbaycanda başlaya biləcək yeganə "rəngli" inqilab qan tökülməsi olacaqdır"[3].

Rusiyanın analitik mərkəzləri və jurnalları da Azərbaycanda "zərif" transformasiyanın mümkünlüyünə az diqqət yetir-

[1] www. inosmi.ru
[2] Yenə orada.
[3] Yenə orada.

mirdi. "Novaya politika" jurnalı yazırdı: "Vaxt bir yerdə durmur, Ukrayna və Qırğızıstandakı hadisələr Azərbaycan "inqilabçılarının" qəlbində yeni ümidlər doğurmuşdur. Onlar rəngli inqilablar qatarının Rusiyanın sərhədləri boyunca kuryer sürəti ilə mümkün qədər tez şütüməsinin Birləşmiş Ştatlara açıq-aşkar sərfəli olduğunu ağılla mühakimə edərək ruhlanmışlar. Axı, noyabrda Azərbaycanda parlament seçkiləri keçiriləcək – bu, inqilabi sıçrayış üçün aşkar bəhanədir…

Növbəti rəngli inqilabın baş verməsi üçün Azərbaycanın müəyyən şansları var, hərçənd, bu, sadəcə, parlamentdə müxalifətin təmsilçiliyinin genişləndirilməsi ilə də məhdudlaşa bilər. Hələlik isə müxalifət bütün seçki dairələrində ölkə parlamentinə razılaşdırılmış namizədlərin irəli sürülməsi barədə saziş əldə olunduğunu bəyan edir"[1].

Digər bir internet nəşri yazırdı ki, "MDB məkanında baş verən "rəngli inqilablardan" ruhlanan müxalifət siyasi iradə nümayiş etdirdi, onun indiki qətiyyəti isə belə deməyə əsas verir ki, artıq yaxın gələcəkdə Azərbaycanı mürəkkəb dövr gözləyir"[2].

Azərbaycanda "məxməri" inqilabın perspektivləri barədə müxtəlif informasiyalara Fransa, Almaniya, Böyük Britaniya, ABŞ və digər ölkələrin nəşrlərinin səhifələrində rast gəlmək olardı. Halbuki, sayca onlardan heç də az olmayan təhlilçi və politoloqlar Azərbaycanda hər hansı "rəngli" transformasiyanın mümkünlüyünü qəti şəkildə rədd edirdilər. Tam bir sıra analitik mərkəzlər bildirirdi ki, Cənubi Qafqazın siyasi reallıqları və Azərbaycanın inkişafının daxili komponenti hakimiyyətin konstitusiyaya uyğun şəkildə təhvil ve-

[1] http://www.novopol.ru/article 2575.html
[2] www. pravaya.ru

rildiyi, yəni vətəndaşların əsas hüquq və azadlıqlarının təmin olunduğu, açıq və ədalətli seçkilərin keçirilməsi vasitəsilə iradənin ifadə edilməsinin şəffaflıq və demokratikliyin göstəricilərinin olduğu səmərəli dövlətçilik xəttinin təmin edilməsi üçün real zəmin yaratmışdır.

2005-ci ilin noyabrındakı parlament seçkilərindən əvvəl dünya internet şəbəkəsini və kütləvi informasiya vasitələrini dolduran analitik yazılardan bəzilərində əsas fikir Azərbaycanda müxalifətin gücləndiyini, siyasi təsisatların zəifliyini, iqtisadiyyatın geridə qaldığını, hakimiyyətin ölkədə gedən prosesləri idarə edə bilmədiyini və bunun nəticəsi olaraq, Gürcüstandakı və Ukraynadakı inqilabi ssenarilərə doğru getməyin zəruriliyi və labüdlüyünü nümayiş etdirməkdən ibarət idi. Azərbaycan müxalifəti "zərif" transformasiyaların real geosiyasi ilkin şərtlərini, habelə "qan tökülmədən" çevrilişləri həyata keçirmiş ölkələrdə mövcud olan və güclənən siyasi və iqtisadi ziddiyyətləri götür-qoy etməyərək, qarşıdakı transformasiya haqqında baş tutmuş fakt kimi ucadan bəyanatlar verirdi. Müsavatın başçısı İsa Qəmbər deyirdi: "Ölkədə dinc, demokratik dəyişikliklər üçün başlıcası aşağıdakı amillərdir: ictimaiyyətin əksəriyyətinin bu dəyişiklikləri istəməməsi. Zənnimcə, Azərbaycanda bu fakt göz qabağındadır, ölkə vətəndaşlarının əkrsəriyyəti ölkədə demokratik dəyişikliklərin olmasını istəyir. İkinci amil real müxalifətin olmasıdır. Kim deyir desin, biz dəqiq bilirik ki, Azərbaycan müxalifəti postsovet məkanında ən güclülərindən biridir. Üçüncü amil isə beynəlxalq ictimaiyyətin diqqətidir..."[1].

Bu transformasiyaların digər dövlətlərdəki "siyasi rentabelliyini" dərk etməyən milli müxalifət Azərbaycanda inqila-

[1] http://www.day.az/news/politioc/30623.html

bi çevrilişi həyata keçirmək üçün daxili və xarici "potensial" deyilən potensialdan istənilən yolla istifadə etməyə cəhd göstərirdi. Gürcüstanda, Ukraynada və Qırğızıstandakı proseslərdən sonra baş vermiş bu transformasiyaların "daxili siyasi legitimliyini" şübhə altına almış dəyişikliklərin siyasi və iqtisadi dəyərinin nədən ibarət olduğu barədə düşünməyən Azərbaycanın radikal müxalifəti konstitusiya quruluşunu dəyişdirmək məqsədi ilə küçələrə çıxmağa hazır idi. "Daxili siyasi legitimliyin" ictimai konsensusun, daxili siyasi sabitliyin və vətəndaş cəmiyyətinin müəyyən seqmentlərinin olmasının üstünlük təşkil etdiyi dövlət hakimiyyəti sisteminin formalaşması və qurulması kimi başa düşülməsi keçmiş sovet respublikalarında inqilabdan sonrakı prosesləri daha geniş şəkildə araşdırmağa imkan verir. Lakin "məxməri" transformasiyanı yaşamış bəzi dövlətlərdə baş verən hadisələr vəziyyəti əsaslı şəkildə dəyişmədi və məkanı sabit şəkildə saxlaya biləcək iqtisadi mühiti təkmilləşdirmədi.

Məsələn, Beynəlxalq Sülh Uğrunda Karnegi Fondunun baş elmi işçisi Anders Oslundun yazdığı kimi, "Qırğızıstanda çox az dəyişiklik oldu. Demək olar ki, hakimiyyətdə bir qrup digərini əvəz etdi. Hansısa dəyişikliklərdən danışmaq çox çətindir. Gürcüstanda bir sıra ciddi iqtisadi islahat aparıldı, qısa müddət ərzində korrupsiyanın səviyyəsini kəskin şəkildə aşağı salmaq mümkün olmuşdur. Bununla belə, Gürcüstan rəhbərliyi indiyədək ölkənin konkret inkişaf planını işləyib hazırlaya bilməmişdir"[1].

CATO İqtisadi Tədqiqat İnstitutunun elmi işçisi Castin Loqan yazır ki, köhnə rejim yox oldu, hakimiyyətə təzə və olduqca rəngarəng siyasi elita gəldi. Belə şəraitdə hamının

[1] http://nousa.in.ua/russian/articles/world/print/373.html

rəyini və istəyini nəzərə almaq çox çətindir. Ona görə də, hesab edirəm, inqilabın baş verdiyi ölkələrdə hansısa ciddi dəyişikliklərdən danışmaq hələ tezdir. Digər problem də ondan ibarətdir ki, – məsələn, bunu Qırğızıstanda müşahidə etmək olar, – köhnə rəhbərliyin dəyişməsi ilə hakimiyyət strukturlarında məmurların dəyişdirilməsi baş verdi. Beləliklə, bu respublikada hakimiyyətin yalnız yuxarı pilləsi dəyişdi"[1].

Kolumbiya Universiteti tarix fakültəsinin Rusiya və Şərqi Avropa araşdırmaları şöbəsinin professoru Mark fon Hagen Ukraynadakı siyasi prosesləri belə qiymətləndirir: "Ukraynada yeni hökumətdən məyusluq artır. Lakin, əvvəlki kimi, yenə də ümid qalır ki, yaxşılığa doğru dəyişiklik baş verəcəkdir. Mən hesab edirəm ki, son hadisələr bu dəyişikliklərin başlanğıcıdır. "Narıncı" inqilabdan sonra Yuşşenko hakimiyyətə gələndə seçkilər zamanı ona kömək etmiş adamlardan ibarət kompromis hökumət yaratdı. Problem bundadır ki, həmin adamlar bir-biri ilə yola getmək məsələsində çox iddialıdırlar".

K.Brinton belə vəziyyəti ikihakimiyyətlilik kimi səciyyələndirir: "...inqilabın birinci mərhələsi başa çatanda mötədillərlə radikallar arasında mübarizə bir-biri ilə rəqabət aparan iki dövlət maşını arasında mübarizəyə çevrilir"[2].

İnqilablardan üç, iki və bir il keçəndən sonra Gürcüstanda, Ukraynada və Qırğızıstanda əhəmiyyətli dəyişikliklərdən danışmaq son dərəcə çətindir, çünki keçmiş avtarkiyaların siyasi və iqtisadi kökləri bu dövlətlərin ictimai şüurunda və siyasi strukturunda dərin iz buraxmışdır. Hətta hakim elitalar

[1] http://nousa.in.ua/russian/articles/world/print/373.html
[2] K.Brinton.1965, p.135.

dəyişdikdən sonra da bu ölkələrdə, bir çoxlarının, sanki, postkommunist siyasi elitalarının süqutunun əsas səbəbi saydığı daxili fikir ayrılıqları təzə hakim rejimlər üçün gündəlikdə qalmışdır. Üstəlik, "zərif" transformasiyaların geosiyasi və coğrafi-iqtisadi mahiyyəti şübhə doğurmur. Bütün bunlar yeni transformasiyalara etimadın azalmasını şərtləndirmişdir. Halbuki, çoxları hesab edirdi ki, bu transformasiyalar siyasi prosesin iştirakçıları arasında daha açıq və şəffaf qarşılıqlı münasibətlərin əsası olmalı, iqtisadi sıçrayışı təmin etməli və beləliklə də həmin ölkələrdə həyat səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltməli idi. Postsovet məkanı ölkələrində "məxməri" transformasiyaların perspektivlərinin qeyri-müəyyənliyinin qorxu doğurması, habelə bu transformasiyaların merkantilliyi şübhəsizdir.

Bu baxımdan İ.Starodubrovskayanın və V.Maunun fikirləri çox maraqlıdır. Onlar yazırlar: "Köhnə rejim zamanı işlənib hazırlanmış və həmin şəraitdə dərhal əməli şəkildə həyata keçirilmək üçün nəzərdə tutulan proqramın bir sıra özünəməxsus xüsusiyyətləri vardır ki, bunlar onun xüsusilə inqilabi cəmiyyət çərçivəsində reallaşdırılmasını prinsipcə mümkünsüz edir. Əvvəla, bu proqram açıq-aşkar normativ xarakter daşıyır, yəni, arzu olunanı cəmiyyətin vəziyyətinin qabaqcıl ideyaları baxımından təsvir edir, lakin qarşıya qoyulmuş məqsədlərə nail olmağın konkret mexanizmləri məsələsinə gəlib çıxanda məlum olur ki, o, çox dumanlıdır. İkincisi, əvvəlki rejim üçün səciyyəvi olan məhdudiyyətlər və xurafatlar kompleksini tam şəkildə özündə əks etdirən bu proqram keçmiş sistemdə olan yaxşı nə varsa, hamısını dövrün yeni dəyişiklikləri ilə bu və digər şəkildə uzlaşdırmağa çalışır. Nəhayət, üçüncüsü, proqram konkret sosial qüvvələrin mənafelərinə istiqamətlənməmişdir, lakin ədalətli,

düzgün və ideal ictimai quruluş haqqında təsəvvürləri əks etdirən hansısa mücərrəd məqsədləri özündə təcəssüm etdirməyə, buna görə də hamının və ya demək olar, hamının dəstəyini almağa çalışır"[1].

Demək lazımdır ki, bu yaxın vaxtlarda "transformasiya olmuş" dövlətlərin iqtisadi siyasəti və ictimai inkişafı barədə müxtəlif "beyin" mərkəzlərinin təhlili yazılarını öyrənərkən, tez-tez bu və ya digər "inqilabın" nəzəri və praktik təqdimatında "ikili standartlar" siyasətinin olması ilə qarşılaşmışıq. Belə olan halda, "üçüncü demokratik dalğa"nın getdikcə daha çox *Pax Americana*-nın təcəssümünə çevrilən yeni dünya nizamının forma və mahiyyətinin dəyişdirilməsinə dair təkcə qlobal layihə deyil, həm də sivilizasiyalı qərbləşmənin hücumu olmasına şübhə qalmır. Qərb həyat tərzini, kodlarında Modernity mənası gizlənən təfəkkür formasını və yeni davranış stereotiplərini "üçüncü demokratik dalğa" vasitəsilə yaymaq asan və münasibdir.

Rusiya tədqiqatçısı A.İ.Neklessa yazır: "Modern dünyanın parlaq xüsusiyyəti onun məkanında iki tarixi meylin yanaşı mövcud olmasıdır... Xristian dünyasının, universal və prozelit sivilizasiyanın bərqərar olması ilə yanaşı, ikinci minillikdə tarixi hərəkətin əsas subyekti kimi tarix ağacına hansısa məqamda başqa, dünyəvi avropamərkəzçilik və qnostik bidətlərin toxumlarından cücərmiş zoğ calaq edilir. Böyüyüb möhkəmlənən bu zoğ vaxt keçdikcə qüdrətli Avropa mutasiyasına səbəb olmuş, bizə müasir olan iqtisadi universiumu, Şimali Atlantik dünyasını, indiki statusunda Qərbi və hazırda planeti bürüyən nəhəng qloballaşma dalğasını doğurmuşdur... Yeni dövr epoxasının əsas tapmacası

[1] И.Стародубровская, В.May. Великие революции., М., 2004, стр.140.

tarixi səmtləri dolaşdıran və bu zaman sosial mühiti nəzərəçarpacaq dərəcədə dəyişdirən kapitalizmin genezisi və inkişafıdır... Kapitalizm, sadəcə, bazar iqtisadiyyatı (yeri gəlmişkən, bazardan onu fəaliyyət obyektindən daha çox miqyası və məqsədləri fərqləndirir) şəraitində təbii şəkildə meydana gələn səmərəli təsərrüfat fəaliyyəti forması deyildir. Bu, *per se* bazarı deyil, lakin onun xüsusi təşkilidir. Başqa sözlə desək, kapitalizmin substansiyası fəal sosial strategiya, bütöv ideologiya və eyni zamanda, dünya quruculuğunun, pul quruluşunun uzaq məqsədlərə hesablanmış elə bir sxemidir ki, burada mahiyyət istehsalın özü və ticarət əməliyyatı deyil, fasiləsiz şəkildə sistemli mənfəət götürməkdir"[1]. Bu yolla Qərb sivilizasiyası sistemli mənfəət götürmək məqsədi ilə demokratikləşmənin tərifləri̇ndən universal xarakterli dəyərlərə və ideallara əsaslanan dünya nizamının formalaşmasına təsir göstərməyin ən real vasitəsi kimi istifadə edir.

Bununla bərabər, bu kontekstdə onu da unutmaq lazım deyil ki, "Qərb demokratiyası homogen cəmiyyətlər şəraitində inkişaf etmişdir; azlığın çoxluğa tabeliyi prinsipi ilə azlıq ona görə razılaşırdı ki, özünün çoxluq olmaq perspektivi var idi, çoxluq isə özünün statusunun müvəqqətiliyini unutmayaraq, öz hakimiyyətini tətbiq etməkdə təmkinlilik göstərirdi, bu hakimiyyəti hüquqi baxımdan həm də azlıq üçün nəzərdə tutulan məcburi təminatlar məhdudlaşdırırdı. Lakin dini mənsubiyyət nəticəsində çoxluğun statusu fasiləsiz olanda və etnik fərqlər və on illərlə davam edən amansız diktatura sayəsində gücləndikdə, belə bərabərlik qüvvədə olmur. Belə

[1] А.И.Неклесса. Ordo quadro: Приществие постсовременного мира. http://postinductrial. net/content 2/show-text.php? razdeli-id=297 & table=books &sql=razdeli-show & books-id=36 &land=russian

vəziyyətlərdə majoritar idarəetmə güclülərin zəifləri əzməsinin alternativ versiyası kimi qavranılır. Monoetnik cəmiyyətlərdə azlıqların hüquqları struktur və konstitusiya təminatları ilə müdafiə edilməlidir"[1].

Demokratiyanın yayılması problemlərini, "qlobal dalğa"nın hər gün qarşılaşdığı çətinlikləri təhlil edərkən vurğulamaq lazımdır ki, demokratiyanın qərbləşmə paradiqmasından kənarda da uğurlu olmaq imkanı var. Lakin modernləşməni nəzərə almaq şərti ilə. Qərbləşdirilən məkan çox vaxt xarici qaydanı və universal hakimiyyəti qəbul etmədiyinə görə, "demokratik dalğa"nın uğur qazanması üçün yaxşı vasitə onun konkret sosiomədəni mühitlə yanaşı yaşaması olmalıdır. "Demokratik axınları" hansısa geosiyasi və coğrafi-iqtisadi maraqlar dünyasına çevirməyə ehtiyac yoxdur. Əks halda, tamamilə haqlı bir hiss yaranır ki, *Pax Oeconomicana*-nın coğrafi-iqtisadi dünyaları yalnız beynəlxalq siyasi sistemin yeni bölüşdürülməsi deməkdir. Burada olduqca müxtəlif subyektlər bir yerə qarışmışdır və hökm edirlər: nüfuzlu beynəlxalq təşkilatlar, dövlətlərin konstellyasiyası, bunların da konturları onların sosial-iqtisadi maraqları ilə müəyyən edilir; milli dövlətçiliyin birölçülü modelindən uzaqlaşan ölkələr sistemi; nəhayət, müxtəlif, bəzən son dərəcə ekzotik olanlar"[2].

Bu, Tofflerin İkinci və Üçüncü dalğalarının toqquşduğu dövrdə xüsusilə aktualdır, bu toqquşma "sosial gərginlik, təhlükəli münaqişələr və adi sinfi bölgüyə, irqi, yaxud cinsi əlamətə, müxtəlif partiyalara mənsubluğuna görə bölgüyə uyğun gəlməyən qəribə yeni siyasi dalğalar yaradır". Üstəlik,

[1] Г.Киссинджер. В Ираке важны результаты, а не временное графики. The Washington Post, ABŞ, 25 yanvar 2005-ci il.

[2] А.И.Неклесса. Ordo quadro: Пришествие постсовременного мира.

Var-dövlət və demokratiya arasında korrelyasiya aparılması onu nəzərdə tutur ki, demokratiyaya keçidlər, ilk növbədə, iqtisadi inkişafı orta səviyyədə olan ölkələrdə baş verməlidir. Yoxsul ölkələrdə demokratiya mümkün deyildir; varlı ölkələrdə o, artıq baş vermişdir. Onların arasında siyasi tranzitin hansısa bir zonası var; bu xüsusi iqtisadi təbəqəyə mənsub olan ölkələr çox güman ki, demokratiyaya keçəcək, demokratiyaya keçən ölkələrin çoxu isə məhz həmin təbəqədə olacaqdır. Ölkə iqtisadi baxımdan inkişaf etməyə başlayan və həmin zonaya düşən kimi, onda demokratikləşmə perspektivləri meydana gəlir.

S.Hantinqton
Üçüncü dalğa. XX əsrin sonunda demokratikləşmə

müasir dünya sırf iqtisadi maraqlar məkanından dəyərlərin dərketmə sxeminin ümumdünya universal birliyini yaradan sosiomədəni təriflər məkanına transformasiya olunur.

Ona görə də bizim kitabımızdan məqsəd demokratik proseslərin, daha dəqiq desək, bir ölkədə qlobal icrasının Hantinqtonun "qar topası" kimi digərlərinə necə təsir etdiyini, beləliklə də başqalarında oxşar prosesləri necə doğurduğunu göstərməkdir. Bununla yanaşı, biz milli siyasi məkanın gələcək inkişafını müəyyənləşdirmək üçün Azərbaycanda əks-elitaların yeri və rolunu da təhlil etməyə çalışacağıq. Yuxarıda dediyimiz kimi, yeni siyasi məkan və isteblişment perspektivi yaradan parlament seçkiləri milli əks-elitaların mahiyyətini öyrənməyin parlaq nümunəsi olacaqdır.

§ "**SƏMƏRƏSİZ SİSTEM**"

Milli müxalifət o vaxtlar hələ Azərbaycan SSR adlanan respublikanın 137 günahsız vətəndaşının sovet dövlətinin totalitar sisteminin qurbanı olduğu 1990-cı ilin faciəli qanlı

yanvar hadisələri ərəfəsində formalaşmağa başlamışdır. İctimaiyyətin ərazi bütövlüyünün saxlanılması uğrunda başlanmış və sonradan hökumət əleyhinə çağırışlara çevrilmiş çıxışları amansızlıqla yatırıldı, bu proseslərin iştirakçıları isə sistemin qəzəbinə tuş gəldilər. Həmin vaxt xalq hərəkatı içərisində sovet hakimiyyətinə qarşı müxalifət yaranmağa başladı, tədricən strukturlaşdı ki, bu da Sovet İttifaqı dağıldıqdan sonra həmin hərəkatın bəzi iştirakçılarına hakimiyyətə gəlmək imkanı verdi.

1991-1993-cü illərdə gedən və Azərbaycanı geosiyasi oyunlara və daxili pozulmaya sürükləyən proseslər müstəqil dövlət üçün yeni dixotomiyanın – müxalifətin meydana gəlməsinə səbəb oldu. Özü də bu zaman müxalifət rolunda bir il (1992-ci il) ərzində ölkəni anarxiyaya, xaosa və iqtisadi tənəzzülə məruz qoymuş qüvvələr çıxış edirdi. Azərbaycan Xalq Cəbhəsi (AXC)–Müsavat cütlüyünün hakimiyyətdə olduğu bir il ərzində milli iqtisadiyyatda cox ciddi geriləmə baş verdi, daxili və xarici siyasət isə "böyük qardaş" axtarışına yönəldilməyə başladı, bu baxımdan istiqamət kimi A.Mütəllibovun (Azərbaycanın birinci prezidenti) dövründə Rusiya, Ə.Elçibəyin (Ə.Əliyevin) prezidentliyi dövründə isə Türkiyə seçildi. Hətta sonralar A.Mütəllibovun və Ə.Elçibəyin başçılığı ilə yaradılmış partiyalar da öz bəyanatlarında və fəaliyyətində Rusiya və Türkiyənin xarici siyasət prioritetlərini dəstəkləyirdi.

Ölkədə müxalif fikir cəmiyyətin mənəvi-əxlaqi tənəzzülünün, dövlətin nüfuzunun itirilməsinin və ucdantutma qeyri-sabitliyin təzyiqi altında formalaşmağa başlamışdı. Ona görə də Azərbaycanda müxalifətin formalaşmasından danışarkən bu "təşəbbüsün" həyata keçirilməsinin bir neçə tarixi fazasını və aspektini göstərmək lazımdır.

Birincisi, demək lazımdır ki, milli müxalifət AXC–Müsavat iqtidarı dövründə ölkəni didib-dağıdan anarxist meyillərin ziddinə olaraq müəyyənləşməyə başlamışdır. 1992-ci ilin dekabrında yaradılan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanda ölkə rəhbərliyinin qanunsuz hərəkətlərinə qarşı çıxan ilk müxalifət partiyası oldu. Siyasi baxımdan səriştəsiz və naşı adamların hakimiyyətdə olması dövlət maşınının ucdantutma tənəzzülünü və xeyli dərəcədə iqtisadi geriləməni şərtləndirirdi. A.Mütəllibova qarşı müxalifətdə olan AXC və Müsavat ölkənin birinci prezidentinə qarşı güc tətbiq edərək, onun hakimiyyətdən əl çəkməsinə nail oldular. Buna baxmayaraq, AXC-ni ilk milli müxalifət hesab etmək olmaz, cünki o, həm də Moskvanın əlaltılarının siyasətinə qarşı ictimai etirazın təcəssümü idi, Müsavat isə hələ partiya kimi formalaşmamışdı.

İkincisi, 1993-cü ilin ortalarında Heydər Əliyevin hakimiyyətə gəlməsindən və Elçibəyin öz komandası ilə getməsindən sonra Azərbaycanda radikal müxalifət formalaşmağa başladı və o, özünün siyasi baxışlarını siyasi mübarizədə qisasçılıq prinsiplərini rəhbər tutan bir sıra siyasi xadimlərin (İ.Qəmbər, E.Məmmədov, Ə.Kərimli, M.Fəttayev və b.) ambisiyalı şəxsi keyfiyyətlərinin xeyli dərəcədə təsiri altında müəyyənləşdirirdi. Ümummilli maraqların əslində olmaması və bunların şəxsi maraqlarla əvəzlənməsi müxalif əhval-ruhiyyəli siyasətçilərə hakimiyyət uğrunda mübarizənin proqramını və yollarını dəqiq formalaşdırmağa imkan vermirdi. Siyasi mübarizənin son məqsədini yalnız və yalnız hakimiyyətə gəlməkdə görən müxalifət düşərgəsi mövcud iqtidarın şimasında siyasi rəqib deyil, "düşmən" obrazı yaratmaq yolu tutdu ki, bu da siyasi meydanı sərt ziddiyyətlər və qarşıdurmalar məkanına çevirdi.

Üçüncüsü, Azərbaycan müxalifətinin institusional zəifliyi ona Üçüncü dalğa cəmiyyətinin standartlarına uyğun gələn siyasi struktura transformasiya etməyə imkan vermədi. Xeyli dərəcədə sovet təfəkkür tərzinə və keçmiş zamanların davranış stereotiplərinə yoluxmuş müxalifət liderləri ölkənin ictimai-siyasi həyatının bir çox məsələlərinə dair dünyagörüşü konsensusu yarada bilmədilər. Müxalifət qruplarının 1995-ci ildən etibarən yaratdıqları cürbəcür bloklar və alyanslar dəfələrlə müxalif siyasi qüvvələrin birliyi kimi təqdim edilmiş, lakin son nəticədə onların hamısı çəkişmələrin və fikir ayrılıqlarının mərkəzində olmuşdur ki, bunun da əsas səbəbi siyasi ideallar deyil, birincilik uğrunda mübarizə idi. Beləliklə, sosial kontekstdə müxalifət müstəqil Azərbaycanın muxtar siyasi subyekti ola bilmədi.

Dördüncüsü, hakim elitanın timsalında cidd-cəhdlə düşmən obrazı yaradan müxalifət siyasi proseslərin amortizatoru rolundan "əl çəkdi". Əks-elita hökumətin iqtisadi proqramlarının konkret cəhətlərinin yaradıcı şəkildə tənqid olunmasını, əslində, özünün fəaliyyətindən kənarlaşdıraraq, iqtidarın siyasətinin daxili və xarici siyasi determinantlarını səmərəli şəkildə dərk etmək üçün özünü əziyyətə salmayaraq, mövqeyini heç bir konkret fikirlə əsaslandırmadan fəaliyyətini ağına-bozuna baxmadan iqtidarı ittiham etmək üzərində qurdu. Milli müxalifət ötən illər ərzində ictimai müzakirəyə heç bir əsaslandırılmış, ağıllı iqtisadi ideya, yaxud siyasi təklif çıxara bilməmişdir.

Beşincisi, müxalifət düşərgəsində xarizmatik şəxsiyyətin və aydın proqramın olmaması, milli siyasi səhnədə bu və ya digər siyasi qüvvələrin olmasına "ictimai sifarişin" inkar edilməsi müxalifətin istər lokal, istərsə də milli miqyasda seçkilərdə məğlubiyyətinə səbəb olmuşdur. Vaxtilə Azər-

baycan Milli İstiqlal Partiyası (AMİP) sədrinin müavini olan İlqar Məmmədov bildirir ki, "mövcud olduğu 15 il ərzində müxalifət indiyədək səmərəli liderlik təklif etməmişdir... onlar öz üzərlərində işləməyərək, geridə qalmışlar və ötən əsrin 80-ci illərinin axırı – 90-cı illərinin əvvəli səviyyəsindədirlər. Üstəlik, növbəti amil müxalifətin korrupsiyaya qurşanmasıdır"[1]. Diqqəti çəkən haldır ki, hətta Müsavat başqanı İsa Qəmbər də müxalifət partiyalarının liderlərinə qiymət verəndə mənfi fikir söyləyir: "Onlar özlərini böyük siyasətçilər hesab edirlər, ancaq bu böyük siyasətçilərin özləri başdan-ayağadək kompromat içindədirlər"[2].

Altıncısı, milli müxalifət siyasi qüvvənin ölkənin milli siyasət səhnəsində yetərincə təmsil edilmək üçün vacib olan başlıca atributunu formalaşdıra – özünün ictimai-siyasi zəruriliyini sübut edə bilmədi. Başqa sözlə desək, müstəqilliyin və siyasi strukturun dəyişməsinin 15 ili ərzində müxalifət düşərgəsinin elə bir baxışlar sistemi formalaşmadı ki, ölkədə vahid müxalif fikrin mövcudluğundan danışmaq mümkün olsun. Üstəlik, cəmiyyət dövlətin siyasi və iqtisadi inkişafının müəyyənləşdirilməsində müxalifətin fəallığının olmamasından boşluq hiss etmir. Bütövlükdə isə, müxalifət öz rolunu ölkənin ərazi bütövlüyünün bərpasında, sosial-iqtisadi problemlərin həllində, əhalinin rifahının yaxşılaşdırılmasında deyil, yalnız "vəzifə kürsüsü" uğrunda mübarizədə görür. Bunun da nəticəsində iqtidara konstruktiv alternativ haqqında aydın təsəvvürün formalaşması üçün seçicilərin imkanı yoxdur. Bunu müxalifət nümayəndələrinin özləri də etiraf edirlər: Müxalifət liderləri özlərinin "yalançı birliyini" sə-

[1] "Exo" qəzeti, 27 aprel 2006-cı il.
[2] http://www.day.az/news/politics/43606.html

ciyyələndirərək deyirlər ki, "onlar bir blokda[1] birləşsələr də, qarşılarına müxtəlif məqsədlər qoymaqda davam edirlər"[2].

Nəhayət, yeddincisi, müxalifətin kompleksliliyi və dialoqa getmək qabiliyyətinin olmamasıdır. Siyasi fəhm, zamanın şüarını bilmək bacarığı uğurlu siyasi rəqabətin başlıca tərkib hissələridir. Bunsuz siyasi orqanizm "öz təri içərisində boğulur". Milli müxalifət belə qabiliyyətlərdən məhrumdur və bu, onun bədbəxtliyidir. Siyasi mübarizəni yalnız və yalnız kütləvi aksiyalar keçirmək və cəmiyyətin sabit inkişafını pozmaq cəhdləri kimi təsəvvür etmək iqtidarla müxalifət arasında qarşılıqlı münasibətlərdə sivilizasiyalı dualizmə ehtiyacı olan dövlətin səadətinə xidmət edə bilməz. Uğursuzluğa uğrayanların kompleksləri və AXC-Müsavat cütlüyünün birillik hakimiyyətinin siyasi qüsurluluğu, ucdantutma iflası, radikal müxalifətin köhnə qvardiyası sıralarındakı baxışların eklektikliyi Azərbaycanın siyasi səhnəsində iqtidara və xalqa siyasi strategiyanın və iqtisadi xəttin sivilizasiyalı alternativini təklif etməyi bacaran yeni müxalifət qüvvələrinin meydana çıxması üçün zəmin yaradır.

Axı, hakimiyyətə qarşı müxalifətdə olmaq dövlətçiliyin əsaslarına qarşı çıxmaq demək deyildir, hərçənd, milli əks-elitanın fəaliyyətində onun öz vəzifəsini məhz bu cür başa düşməsini tez-tez müşahidə edirik. Bütün müsbət cəhətləri və dövlətin mərhələli inkişafını inkar edən müxalifət 1995-ci ildən 2003-cü ilədək sabit dövlət idarəetməsi mexanizminin və ölkənin sosial-iqtisadi inkişafının gözdən salınmasına yönəldilmiş siyasi mübarizə aparırdı. Müxalifət liderlərinin məhz müasir dövrün reallıqlarını başa düşməməsi və daim

[1] "Azadlıq" bloku.

[2] http://www.day.az/news/politics/43606.html

keçmiş əyyamların "siyasi məstliyini" uzatmağa cəhd göstərməsi nəticəsində Azərbaycanın siyasi məkanı iqtidar və müxalifətin sivilizasiyalı rəqabəti sisteminə uğurla transformasiya edə bilmədi. Təbii ki, Azərbaycanın müasir siyasi məkanında olan bütün problemlərin günahını yalnız müxalifətdə görmək düzgün olmazdı. Sirr deyil ki, bəzən yerlərdə iqtidarın nümayəndələrinin təqsiri üzündən də hakimiyyət və müxalifətin münasibətləri kəskinləşirdi. Əsasən isə, münaqişəli vəziyyət hakimiyyətin opponentlərinin cəmiyyətin həyatında müxalifətin rolunu təhrif olunmuş şəkildə dərk etməsi səbəbindən yaranırdı. Halbuki, demokratik dövlətdə müxalifətin rolu boş və radikal "siyasi ibarəbazlıqla" məşğul olmaq yox, məhz hakimiyyətin səhvləri və nöqsanlarını tənqid etməklə, çatışmazlıqları və qüsurları göstərməklə özünün varlığını iqtidara daim hiss etdirməkdən ibarətdir.

Bizim hələ 2004-cü ildə söylədiyimiz və milli müxalifətin qeyri-konstruktivliyinə aid olan fikrə qayıdaraq bir daha demək istəyirəm: "Hər şeyi dağıdaraq, siyasi refleksiyanın hər bir formasını və dialoq imkanlarını rədd edərək, "təmiz vərəqdən" başlamaq istəyənlərlə rəqabətə girmək son dərəcə çətindir. Bu arxaika tərəfdarlarının heç ağlına da gəlmir ki, sistemli fəaliyyətin tamamilə başqa mühit və formulunu, habelə yeni siyasi perspektivi formalaşdıran idarəetmə texnologiyalarının artıq yeni nəsli (matrisalı, şəbəkəli, qlobal) yaradılmışdır"[1].

Həmin kitabın nəşrindən sonra ötən illər göstərdi ki, 2003-cü ilin prezident seçkilərindən sonrakı dövr ərzində yaranan yeni siyasi perspektiv, – siyasi məkanın formulunu

[1] R.Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, səh.338.

məhz bu cür səciyyələndirmək olar, – səmərəli dövlətçiliyin təşəkkülünün müəyyən dərəcədə yeni əsas seqmentlərinin formalaşdırılmasına istiqamətlənmişdir:

1. Demokratik dəyişikliklərin möhkəm institusional bazasının yaradılması. 2003-cü ilin prezident seçkilərindən və İlham Əliyevin inamlı qələbəsindən sonra Azərbaycanın siyasi, iqtisadi və sosiomədəni inkişafı strategiyasının yeni mərhələsinin həyata keçirilməsi üçün möhkəm baza yaradıldı. Tanınmış tarixçi V.O.Klyuçevskinin sözləri ilə desək, siyasi sabitlik dövlətçiliyin başlıca nailiyyətindən "digər bir məqsədə çatmaq" vasitəsinə ("fikrin tərəqqisi ondadır ki, o, nail olunmuş məqsədi sonrakı məqsədlərə çatmaq vasitəsinə çevirir"), daha dəqiq desək, iqtisadi yüksəliş və demokratik təsisatların yeni mexanizmlərinin təkmilləşdirilməsi vasitəsinə çevrilmişdir. Ayrı-ayrı qrupların milli maraqlarla tarazlaşdırılmış siyasi maraqları və şəxsi baxışları ictimai şüurun yeni formaları və digər davranış stereotipləri ilə əvəzlənməyə başladı. Yəni, dövlətdə sabitliyin itirilməsi təhlükəsinin doğurduğu qorxudan irəli gələn fəal ictimai-siyasi mövqeyə maraq öz aktuallığını itirdi, belə ki, dövlətin inkişafının yeni mərhələsi daha səmərəli iqtisadi sistem qurulmasında vətəndaşların rasional iştirakını, demokratik təsisatların təkmilləşdirilməsini və insan hüquqları və azadlıqlarının möhkəm şəkildə təmin olunmasını tələb edir. Kortəbii mitinq ehtirasları dövrü arxada qalmışdır. 2003-cü ilin prezident seçkilərindən dərhal sonra müxalifətin baş tutmayan "məxməri" inqilab cəhdi buna parlaq sübut oldu. Son üç il ərzində formalaşmaqda olan yeni paradiqma güclü dövlətçiliyin, sabit siyasi sistemin, davamlı iqtisadi artımın, dəyişməz

"iqtidar – müxalifət" dualizminin olmasını tələb edir. Bütövlükdə, yeni paradiqma təkcə Azərbaycanın mərhələli inkişafı, siyasi və iqtisadi yüksəlişin müəyyən səviyyəsinə nail olması sayəsində deyil, həm də xeyli dərəcədə industrial cəmiyyəti postindustrial davranış stereotiplərinə yaxınlaşdıran "üçüncü demokratik dalğa" prosesləri nəticəsində mümkün olmuşdur. Frensis Fukuyama yazır: "Siyasi təsisatların müasir liberal demokratiyaya doğru təkamülünün arxasında iqtisadi inkişaf və sabit demokratiya arasında korrelyasiyaya əsaslanan sərt məntiq dayanır"[1].

2. Siyasi rəhbərliyin nəsillərin formatının dəyişməsinə səbəb olan yenidən qurulması. 2003-cü ilin oktyabr seçkilərindən sonra Prezident İlham Əliyev yeni siyasi isteblişmentin formalaşmasına yönəldilmiş bir sıra mühüm tədbirlər gördü. Bunun nəticəsində baş verən transformasiyanın mahiyyəti dövlət hakimiyyəti iyerarxiyasında texnokratların rolunun artmasında idi ki, bu da, əslində, dövlət idarəçiliyi sisteminin tam sabitləşməsini və idarəetmənin texnokratiya formalarına keçidi göstərirdi. Məlum olduğu kimi, 1993-2003-cü illərin siyasi isteblişmenti, əsasən, Azərbaycan ziyalılarının müstəqil dövlətçiliyin və sabitliyin təşəkkülündə fəal rol oynamış nümayəndələrindən formalaşdırılmışdı. Təbii ki, bu insanların əksəriyyətinin milli tariximiz qarşısında şəksiz xidmətləri vardır. Lakin zaman dinamik şəkildə irəliyə doğru gedir. O, qəti şəkildə kadr siyasətinə yeni yanaşma tələb edir. Heydər Əliyevin yaratdığı, müstəqil inkişaf səviyyəsinə qədər gücləndirdiyi və təkmilləşdirdiyi, yeni şəraitin meydana gəlməsindən asılı olmaya-

[1] Ф.Фукуяма. Великий разрыв. М., 2003, стр.21.

raq, idarəetmə sisteminin bu və ya digər vəziyyətlərə reaksiya verməsinin sahmanlanmış mexanizminin olduğu dövlət belə transformasiyanın əsasını qoymuşdu. Biz əvvəllər məhz belə transformasiya haqqında yazmışdıq: "İdarəetmə və hakimiyyət strukturlarında elmin və elmi-texniki ziyalıların (texnokratların) rolu artır. Yaxşı məlumdur ki, indi sənayecə inkişaf etmiş cəmiyyətlər, demək olar, tamamilə elmi-texniki səmərəlilik prinsipləri ilə tənzimlənir. Ona görə də humanitar siyasətçilərin menecerlərlə və texnokratlarla ahəngdar birliyi ölkəmizin modernləşməsi şəraitində onun inkişaf maraqlarına daha çox uyğundur"[1].

3. Dövlətin inkişafının uzunmüddətli strategiyasının iqtisadi cəhətinin genişləndirilməsi. Azərbaycan modernləşdikcə və iqtisadi baxımdan xeyli inkişaf etdikcə, – ÜDM-in və dövlət büdcəsinin hər il əhəmiyyətli dərəcədə artması bunu sübut edir, – ictimai şüur tədricən təzə sosial stereotiplərə uyğunlarşır və yeni təfəkkür formasını qəbul edir. Hər bir ailənin maliyyə rifahı, dövlətin sabitliyinə və uğurlu iqtisadi yüksəlişinə olan şəxsi maraq getdikcə mühüm atributa, sıravi azərbaycanlının həyat tərzinin bir hissəsinə çevrilir. Keçmiş fövqəldövlətin dağılması zamanı təbliğ olunan hibrid siyasi şüur tədricən öz yerini hakimiyyətin həyata keçirdiyi və iqtisadiyyatın sağlamlaşdırılmasına və möhkəm iqtisadi sistemin yaradılmasına yönəldilmiş tədbirlərin başa düşülməsinə verir. Azərbaycanda 2005-ci ildə 26 faizə, 2006-cı ildə isə 34 faizə çatan iqtisadi artım, yoxsulluğun səviyyəsinin 49 faizdən 29 faizə düşməsi, mi-

[1] R.Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, səh.432.

nimum əmək haqqının 50 manata çatdırılması, sahibkarlara 100 milyon dollar həcmində kredit verilməsi, üç il ərzində təxminən 500 min iş yerinin açılması və regionların inkişafına yönəldilmiş dövlət proqramları buna sübutdur.

4. Hökumətin həyata keçirdiyi sosial-iqtisadi proqramla rəqabət apara bilən yeni siyasi opponentlərin və ideyaların katalizatoru olan siyasi mühitin formalaşması. Son 18 ildə Azərbaycanın siyasi səhnəsində olan müxalifət, əslində, öz dövrünü yaşamışdır. Tarixin verdiyi hakimiyyət sükanı arxasında dayanmaq fürsəti iqtidarda olduqları vaxt ölkəni xaos və hərc-mərclik, iqtisadi tənəzzül və siyasi ekstremizm girdabına, mənəvi-əxlaqi və intellektual böhrana sürükləyənlərin dardüşüncəliliyini və səthiliyini nümayiş etdirdi. Bu illər ərzində müxalifət cavanlaşa, konstruktiv mübarizə təcrübəsinə yiyələnə, möhkəm siyasi infrastruktur yaradılmasına yönəldilmiş tədbirlər görə bilmədi. Əksinə, o, siyasi "kökənin" konstitusiyaya zidd yolla bölüşdürülməsi üçün hər cür imkan axtarır, səmərəli inkişafa və dünya bazarına çıxmağa yönəldilmiş iqtisadi strategiyaya qarşı çıxır, intellektual böhran keçirirdi. Nəticədə 1993-cü ildən bəri son parlament seçkilərinədək (2005-ci il noyabr) müxalifət üst-üstə seçicilərin 20 faizindən artıq səsini toplaya, cəmiyyətə sosiumun və dövlətin inkişafının layiqli strategiyasını təklif edə, radikal, dağıdıcı qruplaşmadan yaradıcı ictimai-siyasi struktura transformasiya oluna bilməmişdir. Bütün bunlar 2003-cü il seçkilərindən sonra, milli və xarici təhlilçilərin "ölmək ölməkdir, xırıldamaq nə deməkdir" vəziyyəti haqqında milli müxalifətin ünvanına "peyğəmbərlik" etdikləri bir

vaxtda onun Azərbaycanda siyasi proseslərin hərəkətverici mexanizmi olmaq qabiliyyətinin büsbütün yoxluğunu nümayiş etdirəndə daha aktual olmuşdur. Aşağıda haqqında söhbət gedəcək 2005-ci ilin hadisələri isə müxalifət liderlərinin hikkələri ilə cəmiyyətin sivilizasiyalı siyasi məkan görmək arzusu arasında olan uçurumu daha da dərinləşdirdi. Bütün bunlar elita ilə əks-elita arasında tərəfdaşlıq münasibətlərinin nizamlanmış mexanizmini yarada biləcək müxalifətin meydana gəlməsinin aktual olması qənaətini doğurur.

5. Azərbaycanın tam mənada regional liderə transformasiyası və komplimentar (tamamlayıcı) xarici siyasət xəttinin saxlanılması. Azərbaycanın bir sıra qlobal energetika layihələrinin təşəbbüsçüsü olması, – bunun əsası 1994-cü ilin sentyabrında qoyulmuşdu, – beynəlxalq etimadı möhkəmləndirməyə və ölkənin iqtisadi baxımdan modernləşməsi imkanını sürətləndirməyə şərait yaratdı. Cəmi bir neçə il ərzində Azərbaycan adambaşına düşən ÜDM-in həcminə və dövlət büdcəsinin miqdarına görə Cənubi Qafqazın digər ölkələrini xeyli qabaqlayaraq, iqtisadi inkişaf səviyyəsi baxımından regionun liderinə çevrildi. Bununla yanaşı, Azərbaycan, bir tərəfdən, beynəlxalq təhlükəsizliyin vahid arxitekturasının qurulmasında Avratlantik əməkdaşlığının vacibliyini başa düşərək, digər tərəfdən, strateji tərəfdaş və etibarlı tarixi qonşu kimi Rusiya ilə əməkdaşlığı möhkəmləndirərək, milli xarici siyasətin çoxvektorluluğunu saxlaya bildi. Azərbaycanın coğrafi mövqeyi ona Şərq və Qərb arasında bir növ sivilizasiyalı körpü statusu qazandıraraq, Şərq fərdiliyini və Qərb zirəkliyini saxlamaq imkanı verdi. Belə arxetipin xarici siyasətə

...İndi, XX əsr başa çatanda, müasir cəmiyyətin təşkilinin fundamental prinsipləri kimi liberal demokratiyaya və bazar kapitalizminə alternativlər haqqında çətin ki, danışmaq mümkün olsun. Fərdin şəxsi maraqları az xeyirxahdır, lakin cəmiyyət üçün fəzilətlilərdən daha sabit əsasdır. Qanunun hakimiyyətinin bərqərar olması Qərb sivilizasiyasının ən böyük nailiyyətlərindən biridir; biz bundan məhrum olmuş Rusiya və Çin kimi ölkələrə nəzər salanda, bu nailiyyətlərin üstünlüyü xüsusilə aşkar görünür.

Frensis Fukuyama
Böyük parçalanma

transformasiyası dövlətin regional rolunu gücləndirməyə imkan yaratdı və Azərbaycanın xarici siyasətinin fəallaşmasına səbəb oldu. Ümumən, Azərbaycanın milli mənafelərin təmin olunması üçün beynəlxalq əməkdaşlığın bütün imkanlarından istifadə edilməsinə yönəldilmiş fəal çoxvektorlu siyasət yürütmək xətti getdikcə daha çox səmərə verməyə başlayır. Bununla belə, tamamilə aydındır ki, Azərbaycan dövlətinin əsas vəzifəsi dünya birliyinə daha da inteqrasiya etməkdir. Bütün məsələ milli maraqlar baxımından buna maksimum əlverişli şərtlərlə nail olmaqdan ibarətdir. Azərbaycan ilə Ermənistan arasında Dağlıq Qarabağ üstündə gedən münaqişənin ədalətli həlli məqsədi ilə iqtidarın göstərdiyi səylər son nəticədə məhz buna, regionda strateji sabitliyin təmin edilməsinə, yeni təhlükələr və hədələrlə mübarizəyə, terrorizmlə mübarizədə köməyə, Azərbaycanın dünya iqtisadi sisteminə yetərincə inteqrasiyasına yönəldilmişdir.

Beləliklə, 2003-cü ilin prezident seçkilərindən ötən dövr ərzində milli müxalifət (əlbəttə ki, onun radikal qanadından sohbət gedir) yuxarıda göstərilən seqmentlərin heç birində

yeni siyasi məkanda öz yerini və rolunu müəyyən edə bilməmiş, sağlam müxalif fikrin yaranmasına mane olmuşdur. İqtidarın həyata keçirdiyi proqramlar isə elektorat üçün daha cəlbedici, rentabelli və gözlənilən olmuşdur. Aşkar görünür ki, vətəndaş cəmiyyətinin və şəxsiyyətin siyasi hüquqlarının, iradəsi və hərəkətlərinin dövlətin sabit inkişafını AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründəkinə oxşar vəziyyətə salmaq məqsədi daşıyan müxtəlif siyasi qruplaşmaların özbaşınalığı və hikkələrindən qorunduğu ictimai struktur yaranır.

Təbii ki, bəşər tarixində hakim dairələrə münasibətdə tənqidin, bəzən isə həm də düşmən hərəkətlərin mövcud olmadığı cəmiyyətlərə rast gələ bilmərik. Siyasi rejimlərin əksəriyyəti əks-elitaların olmasını tələb etdiyi kimi, bu və ya digər baxışlara müxaliflik də insan şüurunun xarakterik cəhətidir. Əslində, müxalifət dedikdə, statuslu hakimiyyətin siyasətində reallaşdırılan məqsədlərə nail olmaq yollarından fərqlənən maraqların ifadə edilməsi və müdafiəsi üçün yaradılmış siyasi təsisat başa düşülür.

Hərçənd, demək lazımdır ki, müxalifət heç də həmişə sosial və siyasi təsisat kimi fəaliyyət göstərmir, lakin o, hər yerdə hakim qruplaşmanın apardığı siyasətə tənqidi münasibətlə bağlı olan müəyyən ideya və əhval-ruhiyyələrin məcmusu kimi mövcuddur. Müxalifətin leqallaşmadığı cəmiyyətlərdə müxalifət qüvvələri ilə rejim arasındakı münaqişə pozucu təsir göstərə bilər. Müxalifəti qovan cəmiyyət özünütənzimləmə və özünüinkişaf mexanizmlərini tədricən itirir. Siyasi rejim dinamizmdən məhrum olur, onun əlaqələri, strukturları getdikcə daha çox sərtləşir və durğunlaşır. Belə rejimlər xarici təsirlərə pis uyğunlaşır, uyğunlaşmanın son nəticəsi isə, bir qayda olaraq, mövcud sistemin köklü şəkildə

dəyişməsindən ibarət olur. Deməli, müxalifətin olması təkamül yolu ilə inkişafın, dəyişməz qaydanın və ictimai həyatın müxtəlif tərəfləri arasında dialoqun vacib və ayrılmaz atributudur.

Siyasətdə müxaifət öz siyasətini digər siyasətə qarşı qoymaq, yaxud qanunverici strukturlarda, partiya strukturlarında və ya başqa strukturlarda əksəriyyətin rəyinin, yaxud hakim rəyin əksinə çıxmaqdır. Demokratik dövlətlərdə müxalifət siyasi həyatın normasıdır. Müxalifət partiyası alternativ irəli sürür, hakim partiyaya qarşıdır, onun nöqsanlarını və səhvlərini tənqid edir. Siyasi prosesi tarazlaşdırır, özünün proqramını daim təshih edir. Alternativ baxışların ifadəçisi olan demokratik müxalifət, eyni zamanda, dövlətin tənəzzülü təhlükəsinin qarşısını alır, onun dinamik inkişafına kömək göstərir. Məhz buna görə də, ilk növbədə, dövlətin özü müxalifətin varlığında maraqlı olmalıdır. Başqa sözlə, demokratik cəmiyyətdə müxalifət hakim elitanın işinin səviyyəsini qaldırmağa kömək edən ayrılmaz atributdur. Bu baxımdan məlum bir rus məsəli yada düşür: "Durnabalığı olan çayda dabanbalığı sərvaxt olmalıdır". Milli siyasi məkanda müxalifətin rolu və yerinin tamamilə əks sxemi yaranmışdır. Milli müxalifət (onu yalnız şərti olaraq belə adlandırmaq olar) mövcud olduğu illər ərzində öz baxışlarını və ideyalarını ictimai şüurda legitimləşdirə bilməmişdir. "Liberal" baxışların səhv, əslində, 1992-1993-cü ilin anarxik meyillərini xatırladan təfsiri milli müxalifətə Azərbaycan cəmiyyətində özünün yeri və rolunun sosial-siyasi əhəmiyyətinin müəyyənləşdirilməsinə səmərəli şəkildə yanaşmağa imkan verməmişdir.

Tanınmış politoloqların müxalifətin təsnifatına həsr olunmuş əsərlərinə toxunaraq demək lazımdır ki, bu məsələ bir

çox tədqiqatçıların əsərlərində təfsilatı ilə araşdırılmışdır. Məsələn, A.P.Sıqankovun təklif etdiyi təsnifatı daha ümumi səpkili saymaq olar. O, hökumətin hərəkətlərinə münasibətdə siyasi müxalifətin dözümlülüyünün səviyyəsi meyarı əsasında loyal, mötədil və barışmaz (qeyri-loyal) müxalifətləri fərqləndirir. Onun fikrincə, əgər müxalifət partiyaları və hərəkatlarının əksəriyyəti hökumətin hərəkətlərinə loyal münasibət bəsləyirsə, barışmazlar isə azlıq təşkil edirsə və geniş sosial təbəqələrin dəstəyini qazanmağa qadir deyilsə, həmin rejim kifayət qədər sabit sayıla bilər. Yaxud da, əksinə, əgər mərkəzi hakimiyyət legitimliyini itirirsə, tədricən müxalifətə müqavimət göstərə bilmirsə, bu halda rejim sabit deyil və devrilmək riskinə məruz qalır.

Barışmaz, başqa sözlə desək, radikal müxalifət böhranlar vaxtı, mötədillərin xeyli hissəsinin radikallara qoşulduğu zaman güclüdür. Belə müxalifət iki istiqamətdə inkişaf edə bilər. O, ya sistemə inteqrasiya edə, yaxud obyektiv ilkin şərtlər olduqda ümummilli lider statusu ala və Şərqi Almaniyada olduğu kimi, mövcud rejimin devrilməsinə kömək edə bilər.

Elmi ədəbiyyatda müxalifət hərəkatlarının hökumətə münasibətdə loyallığının səviyyəsini müəyyən edən bir neçə meyar göstərilir.

İlk növbədə, hər hansı müxalifət hərəkatı hakimiyyətə nail olmağın leqal vasitələrinə münasibətini həmin vasitələri açıq şəkildə qəbul etməklə və ya qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün onları yetərli saymamaqla büruzə verir. İkincisi, barışmaz müxalifət qanunvericiliklə müəyyən olunmuş qaydalara əməl etməyi zəruri saymır, loyallar isə problemləri siyasi yolla həll etməyə çalışırlar. Üçüncüsü, radikal müxa-

lifət hakimiyyətə seçki yolu ilə gəlmiş partiyaların nüfuzunu qəbul etmir. Dördüncüsü, barışmazlar tez-tez hökumətə təzyiq göstərir, bu məqsədlə həmkarlar ittifaqlarından və digər ictimai təşkilatlardan istifadə edirlər. Beşincisi, qeyri-loyal müxalifət üçün özlərinin siyasi opponentlərini gözdən salmaq xarakterikdir. Belə hallarda hakimiyyətdə olan şəxsləri olduqca pis şəkildə təqdim etmək üçün onları korrupsiyada, fırıldaqlarda, vəzifədən sui-istifadə etməkdə günahlandırmaq səciyyəvidir. Barışmaz müxalifət üçün xarakterik olan əsas spesifik xüsusiyyətlər bunlardır.

Mötədil müxalifətə gəldikdə isə, onun dəqiq xarakteristikasını vermək bir qədər çətin məsələdir, çünki mötədillər daha az müəyyən olan mövqe tuturlar. Bir tərəfdən, onlar barışmaz müxalifətə qoşulurlar, çünki çox vaxt mövcud hakimiyyəti qəbul etmir və onun dəyişdirilməsini arzulayırlar. Belə hallarda mötədillər radikal müxalifətlə əməkdaşlığa gedir, birgə aksiyalar keçirir, eyni tələblər irəli sürürlər. Mötədil müxalifətin radikal müxalifətə yaxınlaşması hakim rejim üçün çox təhlükəlidir, bu halda mötədillər daha özlərinin tutduqları aralıq mövqe ilə kifayətlənmir və hakim qruplaşma ilə açıq qarşıdurmaya keçirlər. Diğər tərəfdən, mötədillər loyal müxalifətə qoşula bilərlər, bu halda rejim kifayət qədər sabit olaraq qalır.

Çox vaxt loyal müxalifəti mötədil müxalifətdən fərqləndirmək çətin olur, böhranlar zamanı isə müxalifətin müxtəlif növləri arasında sərhəd əslində silinir. Belə hallarda loyal və mötədil müxalifətlər barışmaz müxalifətə çevrilə bilir və mövcud rejimi devirməyə qadir qüvvə olur.

Tədqiqatçılar hakim rejimin və müxalifətin qarşılıqlı əlaqələrinin də müxtəlif modellərini göstərirlər. Məsələn, Ro-

bert Dal özünün "Poliarxiya" adlı klassik əsərində rejimlərin üç tipini göstərmişdir: hegemonluq, poliarxiya və qarışıq rejim. Bu tiplərə rejimin və müxalifətin qarşılıqlı əlaqəsinin üç modeli uyğun gəlir. Hegemonluq şəraitində hökumətin və müxalifətin qarşılıqı münasibətləri kəskin xarakter alır.

Rejim hər cür müxalifəti qadağan edir və onun ləğvindən ötrü bütün tədbirləri görür. Təkcə kənarda deyil, hakim partiyanın daxilində də müxalif fikirləri ifadə etməyə göstərilən bütün cəhdlərin qarşısı alınır. Keçmiş sosialist düşərgəsi ölkələrinin kommunist partiyalarında aparılan çoxsaylı partiya təmizləmələri buna misal ola bilər. Bü cür cəmiyyətlərdə vətəndaşlar siyasətdən tamamilə uzaqlaşdırılmışlar, onların sosial, siyasi və iqtisadi strukturlara nəzarət etmək imkanı olmur. Belə şəraitdə müxalifət qeyri-leqal şəraitdə fəaliyyət göstərir və barışmaz xarakter alır.

Poliarxiya şəraitində rejimin və müxalifətin münasibətləri başqa şəkildə qurulur. Poliarxiyalar çevik, mütəhərrik sistemlər olduğuna görə, loyal və mötədil müxalifətin tərəfdarlarının sayı çox olur. Ancaq hər halda, qeyri-demokratik cəmiyyətlərdə rejimə potensial təhlükə doğuran kilsə, sosial hərəkatlar və assosiasiyalar, hətta istirahət strukturları kimi təsisatlar qalır.

Siyasi müxalifətin öyrənilməsini müasir siyasi elmin populyar mövzularından biri hesab etmək çətindir. Bu problemə dair dərc olunan yazıların əksəriyyəti, əsasən, təsvirçi xarakter daşıyır[1], nəzəri monoqrafiyaların sayı isə

[1] L.Helms.2004.Five Ways of Institutionalizing Political Opposition: Lessons from the Advanced Government and Opposition, vol. 39, No 1, p.23-54.

çox deyildir[1]. 1980-ci illərin[2] və 1990-cı illərin[3] icmal məqalələri, habelə son illər bu mövzunun dərk edilməsində elə bir irəliləyişin olmadığını göstərir.

Lakin azsaylı nəzəri araşdırmalar heç də həmişə eksperimental təhlil üçün yararlı vasitələr deyildir. Müxalifətin mövcud tipologiyaları ya ayrılıqda götürülmüş misalın təhlili üçün yaradılan ad hoç konstruksiyalardır[4], yaxud müxtəlif kateqoriyalar və təriflərlə o qədər yüklənmişdir ki, onların izahedici gücü müxalifətin mahiyyətinin başa düşülməsi üçün yetərli olmur[5], müqayisəli tədqiqatlar üçün isə istifadə potensialı azdır.

Ona görə də ümumən həm hibrid siyasi rejimlər şəraitində[6], həm də milli siyasi məkanda siyasi müxalifətin təhlili üçün, sadəcə, yeni tipologiya deyil, bir növ konseptual xəritə yaratmaq lazımdır. Belə xəritə nəinki siyasi müxalifətin müxtəlif növlərini göstərməyə, həm də posttransformasiya dövründə onların dinamikasını izləməyə imkan verəcəkdir.

---

[1] R.Dahl (ed.). 1973. Regimes and Oppositions. New Haven and London: Yale University Press; E.Kolinsky (ed.). 1987a. Opposition in Western Europe. London and Sydney: Croom Helm.

[2] P.Pulzer.1987.Is There Life After Dahl? In: E.Kolinsky (ed.) Opposition İn Western Europe. London and Sydney: Croom Helm, p.11-29.

[3] J.Blondel. 1997. Political Opposition in the Contemporary World. Government and Opposition, vol. 32, No 4, p.462-486.

[4] Məsələn: O.Krichheimer. 1966. Germnay: The Vanishing of Opposition, in: R.Dahl (ed.). Political Oppositions in Western Democracies. New Haven and London: Yale University Press, p. 237-259.

[5] R.Dahl. 1966b. Patterns of Opposition, in: R.Dahl (ed.). Political Oppositions in Western Democracies. New Haven and London: Yale University Press, p. 332-347. R.Dahl 1966c. Some Explanations, in: R.Dahl (ed.). Poltical Oppositions in Western Democracies. New Haven and London: Yale University Press, p. 348-386.

[6] L.Diamond. 2002. Thinking about Hybrid Regimes, Journal of Democracy, vol, 13, No 2, p. 21-36.

R.Dalın[1] və Q.Smitin[2] ardınca, bu xəritə əsasında iki başlıca problem kateqoriyasını – müxalifətlərin məqsəd və vasitələrini göstərmək olar. Müxalifətlərin məqsədlərini bir növ kontinuum şəklində təsəvvür etmək olar. Onun "minimalist" sonu o siyasətçilər, dəstələr və partiyalarla göstərilmişdir ki, onlar hökumətdə təmsil edilməmişlər, lakin fürsət düşdükdə, nəinki siyasi rejimdə, bəzən hətta onun siyasi xəttində də əhəmiyyətli dəyişikliklər edilmədən hökumətə daxil olmağa hazırdırlar. X.Lintsin terminindən isifadə edərək, onları "yarımmüxalifət"[3] adlandırmaq olar; bəzi hallarda o, həm də yalançı müxalifətdir[4]. Oxşar terminlər, – məsələn, "fraksiya" müxalifəti termini başqa tədqiqatçılar tərəfindən də işlədilmişdir. Bu cədvəlin əks tərəfində öz məqsədlərinə çatmaq üçün şərt kimi bütün hakimiyyətin onların əlində cəmləşməsini (hərçənd, bir qayda olaraq, heç də həmişə siyasi rejimin radikal şəkildə dəyişməsi üçün yox) nəzərdə tutan siyasi qüvvələri yerləşdirmək olar. O.Kirxhaymerin[5] sözləri ilə desək, bu qüvvələr "prinsipial" müxalifətdir. Bu kontinuum çərçivəsində həm siyasi xəttin ayrı-ayrı cəhətlərinin dəyişdirilməsinə istiqamətlənmiş "qeyri-struktur"[6] müxalifəti, həm də siyasi rejimin dəyişdirilməsi uğrunda

[1] R.Dahl. 1966b. Patterns of Opposition, in: R.Dahl (ed.). Political Oppositions in Western Democracies. New Haven and London: Yale Univesity Press, p. 341-347.

[2] G.Smith. 1987. Party and Protest: The Two Faces of Opposition in Western Europe, in: E.Kolinsky (ed.). Opposition in Western Europe. London and Sydney: Groom Helm, p. 59-63.

[3] J.Linz. 1973. Opposition to and under an Authoritarian Regine: The Case of Spain, in: R.Dahl (ed.). Regimes and Oppositions. New Haven and London: Yale University Press, p. 191.

[4] Yenə orada.

[5] O.Kirchheimer. 1957. The Waning of Opposition in Parliamentary Regimes, Social Research, vol. 24, No 2. p. 127-156.

[6] R.Dahl. 1966b. Patterns of Opposition, in: R.Dahl (ed.). Political Oppositions İin Western Democracies. New Haven and London: Yale University Press, p. 342.

çıxış edən "struktur" müxalifəti (məsələn, 1989-1991-ci illərdə kommunist rejimlərinin süqutu dövründə Şərqi Avropada və SSRİ-də demokratik hərəkatlar da daxil olmaqla) yerləşdirmək olar.

Lakin siyasi müxalifətə təsnifat vermək çətindir. Bu məsələdə Lintsin fərqləndirdiyi loyal, yarımloyal və qeyri-loyal müxalifətlər[1] ifadələri daha çox yerinə düşür. Hərçənd, müəllif özü bu tipologiyanın da, xüsusilə kifayət qədər yayğın xarakter daşıyan yarımloyallıq kateqoriyasının ambivalentliyini vurğulayır[2].

Lintsə görə, ən ümumi şəkildə loyallığın meyarları siyasi mübarizənin leqal çərçivələrini qəbul etmək və zorakılığın tətbiqindən imtinadır[3], zorakılıq, yaxud qanunsuz metodlara söykənmək və ya onların tətbiqi ilə hədələmək isə qeyri-loyal müxalifətin əlamətləridir.

Təbii ki, qarşıya sual çıxır: siyasi müxalifətlərin xarakteristikasına və onların transformasiyasının trayektoriyasına hansı amillər təsir göstərir? Rusiya alimi V.Gelman yazır ki, bu məsələnin müəyyənləşdirilməsində siyasi rejimlərin xarakteristikasının, yəni onların münaqişəliliyinin və hakim siyasi təsisatların toplusunun böyük rolu var. Bir sıra alimlərin (Burton, Günter, Higley) fikrincə, siyasi rejimlərin münaqişəliliyi siyasi elitanın, yəni siyasi əhəmiyyətli qərarların qəbul olunmasına təsir göstərən aktorların strukturu ilə sıx bağlıdır. Bu strukturun elementləri həmin elitaların inteqrasiyası, qərarların qəbulu prosesində əməkdaşlıq etmək baca-

[1] J.Linz. 1978. The Breakdown of Democratic Regimes: Crisis, Breakdown, and Reequilibration, Baltimore and London: Johns Hopkins University Press, p. 27-38.

[2] Yenə orada, səh. 28.

[3] Yenə orada, səh. 29.

rığı və elitaların diferensiasiyası, yəni müxtəlif qrupların təşkilati və funksional bölgüsü və onların bir-birinə və dövlətə münasibətdə nisbi müstəqilliyidir.

Vurğulamaq lazımdır ki, bu halda elitalar dedikdə, iri nüfuzlu təşkilatlarda və hərəkatlarda strateji mövqeləri əldə saxlayan, siyasi qərarlar prosesinə istiqamətlənmiş və müntəzəm təsir göstərənlər nəzərdə tutulur. Beləliklə, elitanın tərkibinə liderlərin iki əsas kateqoriyası daxil edilir:

- rəqabət vasitəsilə siyasi seçkilərə təsir etmək imkanı olanlar;
- seçkilərdə iştirak etmədən, qeyri-siyasi, yəni iqtisadi, inzibati, hərbi, dini, mədəni və sosial resurslara nəzarət sayəsində təsir göstərməyə qadir olanlar. Lakin siyasi qərarlar qəbul edilməsinə təsir prosesində istifadə olunduğuna görə, bu resurslar da siyasi məna kəsb edir.

Müxalifətin tipologiyası məsələsinə qayıdaraq, əvvəlki fəsildə yazdığımız fikirlərə toxunmaq istərdik. Çəmiyyətdə müxalifətin roluna və yerinə dövlət idarəçiliyinin forması, yəni dövlətlərin idarəetmənin prinsiplərinə görə fərqləndirilməsi – onların parlament və ya prezident idarə üsulunun olması mühüm təsir göstərir. X.Lintsin əsərində deyildiyi kimi, çox vaxt prezident və prezident-parlament sistemlərini onlar "qalib hər şeyi əldə edir" prinsipi üzrə qurulduğuna görə tənqid edirlər. Bu prinsipə uyğun olaraq, belə sistemlərdə prinsipial müxalifətin inkişafı təşviq olunur. Parlament sistemlərində isə siyasi müxalifətlər koalisiya və korporativçi strategiyalar yaradılmasına meyilli olurlar ki, bu da, necə deyərlər, siyasi məkanda "hərracları" şərtləndirir və kəskin qarşıdurma imkanını xeyli dərəcədə aşağı salır.

Müxalifətin modelləri və onların ictimai-siyasi struktura qovuşması imkanları barədə müxtəlif alimlərin və filosofların əsərlərini təhlil edərək, milli müxalifətin daimi məğlubiyyətlərinin səbəbləri haqqında bəzi nəticələr çıxarmaq olar. Zənnimizcə, 2003-cü ilin oktyabrından sonra milli müxalifətin ucdantutma dağılmasına dörd başlıca problem səbəb olmuşdur:

1. Ciddi sosial bazanın, müxalifətin dəstək üçün müraciət edə biləcəyi güclü məqsədli qrupun olmaması. Köhnə dağıdıcı müxalifətin liderlərinin qisasçılığı, bu müxalifətin ictimai prosesləri döndərmək cəhdləri. Dağıdıcı müxalifət bir tarixi sistemdən başqasına keçid nəticəsində cəmiyyətin sosial strukturundakı ciddi keyfiyyət dəyişikliklərini dərk edə bilməmişdir. Müxalifət hakimiyyət uğrunda mübarizədə yenə də siyasi sistemin seyrəlmiş, ümumən, artıq mövcud olmayan təbəqələrinə arxalanırdı. Azərbaycan cəmiyyətində güclü sosial təbəqələşmə baş vermiş, yeni sosial-siyasi, iqtisadi və mənəvi tələbatları və maraqları olan təzə təbəqələr yaranmışdır. Bu da təbiidir, cünki mühüm sosial boşluqları doldurmaq üçün fərdlərin səfərbər olunmasına tələbat yarandığına görə, təbəqələşmə funksional baxımdan zəruri olur. Deməli, 2003-cü ildə müxalifətin dəstək üçün müraciət edəcəyi zəruri sosial bazası yox idi.

2. Kiçik müxalifət qruplarını özlərini ölkənin başlıca müxalif qüvvəsi elan etmiş radikalların ətrafında birləşdirə biləcək ideoloji bazanın olmaması.

3. Etirazçı elektoratın radikalların şüarları və çağırışlarına etimadının itirilməsi, praktik səviyyədə isə yeni açılmış

iş yerlərinin həmin sosial bazanın xeyli hissəsini əhatə etməsi nəticəsində işsizliyin kəskin şəkildə azalması.

4. Nüfuzlu liderin olmaması.

Gördüyümüz kimi, bu səbəblərin bütün kompleksi milli müxalifətin yeni reallıqlara və təkamül transformasiyalarına uyğunlaşmaq qabiliyyətinin olmamasından irəli gəlmişdir. Siyasi fəaliyyətin məzmununu inqilabiliklə doldurmaq cəhdi ölkədə yaranmış reallıqlara, habelə müxalifətin bacarığına və potensialına uyğun gəlməyən davranış modeli doğurmuşdu. Mahiyyət etibarilə müxalifət ideoloji və funksional baxımdan keyfiyyətcə başqa, yalnız mövcud konstitusiya və qanunvericilik məkanı çərçivələrində inkişaf edən siyasi şəraitə uyğun gələn hərəkat olmalı idi.

Belə konstruksiyanın, ümumiyyətlə, yeni siyasi keyfiyyət və uzunmüddətli sosial dayanıqlılıq kəsb edə bilməsi üçün o, əvvəldən piramida prinsipi ilə qurulmalı, onun bünövrəsini vətəndaşların demokratik ideologiyaların bütün spektrinə səmtlənmiş və hakim rejimə müxtəlif dərəcədə müxalifətdə olan formal və qeyri-formal birliklərindən ibarət kifayət qədər geniş ictimai platforma təşkil etməlidir. Bu cür platformanın qurulması üçün baza vətəndaş cəmiyyətinin Azərbaycanda formalaşmağa başlayan, dövlət hakimiyyətindən maksimum müstəqil olan vətəndaş cəmiyyəti strukturları – korporativ təşkilatlar, peşə təşkilatları, sosial və digər təşkilatlar, maarifçilik, elmi tədqiqat təşkilatları, siyasi və diskussiya klubları, habelə, sadəcə, fərdi maraqlar əsasında birləşmiş vətəndaş qrupları ola bilərdi. Azərbaycanda bu, baş verdimi? Müxalifət bu strukturlarda dəstək tapa bilmədiyinə görə, cavab məlumdur.

Siyasi həyatın aşkar pərakəndəliyi şəxsiyyətin dezinteqrasiyasında özünü göstərir. Psixoterapevtlərin və quruların gəlhagəlidir; insanlar şok terapiyasından tutmuş elektroşok terapiyasınadək bir-biri ilə rəqabət aparan müalicə üsusluları arasında məqsədsiz şəkildə vurnuxurlar. Onlar müxtəlif ayinlərə və eyş-işrətə cəlb olunur, yaxud, əksinə, patoloji şəkildə özlərinə qapılaraq inanırlar ki, reallıq cəfəng və mənasızdır. Yəqin ki, həyat ən ümumi, kosmik mənada həqiqətən cəfəngdir. Ancaq çətin ki, budan belə nəticə çıxsın ki, hazırkı günün hadisələrində müəyyən struktur yoxdur. Biz Üçüncü dalğanın dəyişikliklərini öz tənəzzülünə doğru gedən İkinci dalğa ilə əlaqədar dəyişikliklərdən fərqləndirməyi öyrənən kimi, gizli qayda görünən, aşkar olacaqdır.

E.Toffler
Üçüncü dalğa

Aydındır ki, mövcud konstitusiya və qanunvericilik məkanı çərçivəsində hakim rejimə opponentlik edən ictimai-siyasi konstruksiyanın uğur qazanması üçün, habelə bütün seçki kampaniyaları daxil olmaqla, siyasi prosesdə tammiqyaslı iştirakı üçün onun piramidasının zirvəsində birləşmiş siyasi partiya, yaxud siyasi partiyaların bloku – hüquqi baxımdan seçki prosesinin tamhüquqlu subyekti dayanmalıdır. Lakin təcrübə göstərir ki, nə qədər çalışsa da, milli müxalifət qarşıya qoyduğu məqsədə nail olmaq naminə birləşə bilməmişdir. Hakim rejimə bu və ya başqa dərəcədə opponentliyə səmtlənmiş koalisiya, yaxud partiyaların ittifaqını yaratmaq variantı yalnız təkcə bir səbəbə görə mümkün sayılmırdı. Həmin səbəb də o idi ki, müxalifət lap cüzi də olsa, özünün resurs potensialını heç vaxt birləşdirə bilməmişdi. Buna onun məqsəd və maraqlarının tamamilə qarışdırılması mane olurdu. Müxalifət özü öz daxilində rüsvayçı saxta oyun oynadığı 2003-cü ilin prezident seçkilərindən sonra tərəfdarlarının hətta ən radikal əhval-ruhiyyəli hissəsinin də olan-qalan etimadını tamamilə itirdi. Bununla yanaşı, müxa-

lifət nümayiş etdirdi ki, iqtidara opponentlik edən partiyalar üzvi şəkildə nəinki bir-biri ilə hansısa qarşılıqlı fəaliyyətə, həm də istənilən birləşdirici prosesdə bəyanatlarla yox, real şəkildə iştirak etməyə qadir deyildir.

Nə Müsavat, nə AXCP, nə də AMİP və ADP hakim rejimə müxalif fikri cəmləşdirən bir növ mərkəzə çevrilməyə qadir olduğunu göstərə və geniş ictimai dəstəyi təmin edə bildi. Çünki bu partiyalardan hər biri istənilən birliyi yalnız özünün qoyduğu şərtlərlə ona birləşmə kimi təfsir edirdi. Bundan əlavə, həmin partiyaların liderləri uzun illərdir ki, bir-birinə tərəfdaş yox, barışmaz rəqiblər kimi baxırlar. Lakin vurğulayım ki, müxalifətin formalaşması prosesi istər az əhəmiyyətli siyasi partiyalarla və ayrı-ayrı liderlərlə, istərsə də ictimai birliklərin və qrupların geniş spektri ilə qarşılıqlı əlaqədə öyüd-nəsihətçilik və mənfəətpərəstlik münasibətləri deyil, hörmətcil, tərəfdaşlıq münasibətləri və müəyyən kompromislər tələb edir.

2003-cü ilin prezident seçkiləri göstərdi ki, bizim müxalifət partiyaları yalnız öz rəhbərlərinin məhdud siyasi maraqlarını ifadə edə bilir. Onlar hakimiyyətə qarşı opponentlik etmək üçün nəinki sosial təbəqələri səfərbər edə, həm də kiçik partiya resurslarını da cəmləşdirə bilmir.

Yaxın keçmişin hadisələri sivilizasiyalı siyasi rəqabətə yox, yalnız hikkələrin yeridilməsinə yönəldilmiş şəxsi maraqları rəhbər tutan partiya və qrupların liderlərinin siyasi fərasətsizliyinin açıq-aşkar sübutudur.

Azərbaycanda müxalifətin yaranması, inkişafı və tənəzzülünün məntiqi universal səciyyə daşıyır, lakin bununla belə, müxalifət qüvvələrinin ayrı-ayrı seqmentləri onların mənşəyinin, ideoloji və təşkilati xarakteristikalarının xüsusiyyətini

nümayiş etdirir. Bu xüsusiyyətin dərk olunması milli müxalifət partiyalarının siyasi təkamülünün dərindən təhlilini tələb edir. Hərçənd, milli siyasi məkanla bağlı araşdırmalarda partiyaların əlamətlərə görə sollara və sağlara bölünməsi olmasa da, biz milli siyasi spektrdə onlardan hər birinin yerini göstərməyə çalışacağıq.

Milli müxalifət təkcə istənilən yolla hakimiyyətə gəlmək, siyasi bazarda mövqeyini saxlamaq deyil, həm də mütəşəkkil birlik görüntüsü yaratmaq məqsədi ilə daim öz fəallarını və tərəfdarlarını maksimum şəkildə səfərbər etməyə çalışmışdır. Lakin daimi təzyiq, təbii ki, enerjinin tez sərfinə səbəb olur ki, (bu, fizikanın məlum prinsipidir) bu da milli siyasi məkanda əks-elitaların mövqeyinə əhəmiyyətli şəkildə təsir etmiş, onların imkanlarını azaltmış və elektoral cəlbediciliyini məhdudlaşdırmışdır.

Bu kitabın müəllifi 2003-cü ildə xarici qəzetlərdən birində Azərbaycanda seçkilərə hazırlıq prosesinə həsr olunmuş məqaləni nəzərdən keçirərkən milli müxalifətin xüsusiyyətlərinin olduqca maraqlı təhlilinə rast gəlmişdir.

Məsələn, orada deyilirdi: "Orta statistik azərbaycanlı Azərbaycan müxalifətinin aşağıdakı kimi mənfi keyfiyyətlərini hər gün müşahidə edir:

- daxili səbəblərdən törəyən təbiəti və yaxud siyasi-ideoloji müxtəlifliyi;
- özünün siyasi məqsədlərini müəyyənləşdirməyi və axıra qədər şərh etməyi bacarmamaq;
- ideoloji naşılıq;
- milli mənafelər qarşısında məsuliyyət hissinin olmaması;

- öz məqsədlərini bilməmək, xalqdan və onun problemlərindən sürətlə uzaqlaşmaq;
- hakimiyyət naminə bütün müqəddəs dəyərləri tapdalamaq, hətta milli düşmənlərlə birləşmək;
- bu düşərgədə daxili çəkişmələrin və kampaniyaların gündəlik həyat tərzinə çevrilməsi;
- monolitlik nümayiş etdirməyi bacarmamaq;
- özünün siyasi maraqlarını milli maraqlardan üstün tutmaq;
- ucuz populizmə və bəsit metodlara üstünlük vermək;
- qeyri-sabitlik və səbatsızlıq nümayiş etdirmək;
- iddialar və imkanlar arasında uçurumun daim dərinləşməsi;
- şəxsi və qrup maraqlarının əsirinə çevrilmək;
- müxalifət partiyaları daxilindəki ziddiyyətlərin xroniki bir şeyə çevrilməsi və onların aradan qaldırılmasının mümkünsüzlüyü;
- düşərgənin daxilində qarşılıqlı münasibətlərdə əxlaqa zidd davranış;
- ekstremal vəziyyətlərdə optimal çıxış yolunu tapmaq bacarığının olmaması;
- intellektual imkanların və kadr potensialının yetərli olmaması;
- siyasi mənəviyyat anlayışının inkar edilməsi və zəruri siyasi mədəniyyətin olmaması;

- dəqiq şərh edilmiş konsepsiyanın və fəaliyyət proqramının olmaması;
- rasional, realist və praqmatik ideyaların irəli sürülməsi sahəsində sıfır göstəricisinin olması;
- ictimai-siyasi hadisələrin qiymətləndirilməsində ifratçılığa yol verilməsi;
- hakimiyyətin bütün müsbət işlərinin açıq şəkildə qərəzliklə qarşılanması və sair"[1].

Mənfi xarakteristikaların və keyfiyyətlərin bu uzun siyahısından sonra belə "müxalifət liderlərinin" ölkənin siyasi səhnəsinin önündə olmasının nə dərəcədə məqsədəuyğunluğu barədə sual verməmək mümkündürmü? Azərbaycan ictimaiyyəti dərk edir ki, müxalifətin, xüsusilə onun radikal hissəsinin "mübarizəsi" özünün iddialı, mahiyyətcə pozuculuğu ilə ictimai-siyasi fonu və sabit inkişafı çətinləşdirən planlarını həyata keçirmək cəhdindən başqa bir şey deyildir. Bu baxımdan Müsavat funksioneri, Milli Məclisin üzvü Nəsib Nəsiblinin fikri tamamilə düzgündür: "Mən 2003-cü ilin prezident seçkilərindən sonra deyirdim ki, müxalifətin daxilən dəyişməsi zəruridir. Azərbaycanda siyasi stupor yaranmışdır. İnkişaf haqqında sözdə danışılır, ancaq heç bir tərəqqi baş vermir. Paytaxtın yollarındakı vəziyyət Azərbaycanın siyasi həyatındakı vəziyyəti göstərir. Mənə elə gəlir ki, bu siyasi stupor gələcəkdə genişlənəcəkdir.

Hazırda ölkəmizdə avtomobilləşmə prosesi gedir. ABŞ bunu 1960-cı illərdə yaşamışdır. Bir müddət sonra bu proses Avropada da müşahidə olunmuşdur. Bizdə isə bu proses hələ yenicə başlanmışdır. Biz qabaqlayıcı tədbirlər görməliyik.

[1] "İzvestiya" qəzeti (Rusiya), 28.10.2003.

Həmin tədbirləri siyasətdə də görmək lazımdır. Əgər tədbirlər görülməsə, stupor daimi olacaqdır"[1].

Prezident seçkilərini uduzan milli müxalifət dərin böhrana düşdü və bu, "ölmək ölməkdir, xırıldamaq nə deməkdir" vəziyyətində birincini xatırladırdı. Lakin rəhbərliyin təzələnməsinin və siyasi səhnəyə cavan, hakimiyyətə qarşı konstruktiv müxalifətçiliyə səmtlənən siyasətçilərin çıxmasının zəruriliyini tələb edən reallıqlarla hesablaşmayan müxalifətin radikal qanadının başçıları yeni məqsəd kimi 2005-ci ilin parlament seçkilərini nəzərdə tutdular. Real alternativ olmayan, yalnız virtual şəkildə əzələlərini oynadan bu qüvvələr sonrakı iki ili öz aralarında münasibətləri yaxşılaşdırmaq görüntüsünə və itirilmiş obrazın bir hissəsini bərpa etmək cəhdlərinə sərf etdilər.

Milli müxalifəti üç əsas cəhət səciyyələndirir: ifrat radikalizm, neobolşevik ideyalarına sadiqlik və qisasçılıq səyləri. Müxalifət ötən əsrin 80-ci illərinin axırı – 90-cı illərinin əvvəlində xalq hərəkatının yarandığı dövrdə V.İ.Lenin adına meydanda[2] uğurla istifadə olunan mitinq xəstəliyindən, populist vədlərdən (İsa Qəmbər 2003-cü ilin prezident və 2005-ci ilin parlament) seçkiləri ərəfəsində mitinqlərdə özünün platformasından danışarkən vəd etmişdi ki, hakimiyyətə gələrsə, elə birinci ay ərzində əmək haqqını üç dəfə (!) artırmaq, vaxtilə Əmanət bankına qoyulmuş pulları əmanətçilərə qaytarmaq, pensiyaları artırmaq, "xalqdan oğurlanmış pulları qaytarmaq" niyyətindədir[3]), habelə "ictimai sifarişin", yəni siyasi texnologiyalar bazarında "təklif" və "tələb" siyasətinin yanlış təfsirindən xilas olmamışdı. Məsələ bunda-

[1] http://www.maidan-news.com/index.php?id=25229
[2] İndiki Azadlıq meydanı.
[3] http://www.day.az/news/politics/360.html

dır ki, məhz siyasi aktorların hərəkətləri, onların yaratdıqları oyun qaydaları və siyasi təsisatlar kütləvi rəğbətin təşəkkülü vektorunu və siyasi rejimin inkişaf dinamikasını şərtləndirir.

Müxalifət sonrakı iki ili, yəni 2003-cü ilin prezident seçkilərindən ötən vaxtı, əslində, boş yerə sərf etdi. Təkrar edirəm, birincisi, öz ətrafında iqtidara opponentliyə meyilli geniş sosial təbəqə cəmləşdirə bilmədi, çünki ölkədə həyata keçirilən fəaliyyət proqramına alternativ proqramlar irəli sürmədi. Müxalifət strateji proqrama da təshihlər etməyi – hakimiyyətə müxalif olan vahid cəbhə yaratmağı da bacarmadı. Məhz buna görə də belə bir fikir doğrudur ki, "əgər müxalifət özünü mövcud rejimə qarşı qoymursa – alternativ təklif etmirsə və onları həyata keçirməyi vəd etmirsə,.. onda siyasi təsisatlar zəif olaraq qalır. Əgər müxalifət həddən artıq qətiyyətlə hərəkət edirsə, onda demokratiyanın özü təhlükə qarşısında qala bilər"[1].

İkincisi, müxalifət yeni, geniş ictimaiyyət üçün cəlbedici əks-elita obrazı yarada bilmədi. Onun sıralarında yeni qəbildən olan, milli səviyyədə nüfuz baxımından cəlbedici olan və tanınan, yaxud şəxsi peşəkarlıq keyfiyyətlərinə görə kifayət qədər tez bir zamanda bunları əldə etmək üçün yaxşı perspektivləri olan ümumi siyasi məqsədlərə malik peşəkar siyasətçilər komandasının yoxluğu ictimai dəstək ehtimalını daha da azaldırdı. Digər tərəfdən, müxalifət əvvəlki siyasi fəaliyyəti dövründəki (1992-1993-cü illər nəzərdə tutulur) sərişтəsiz qərarlarına və qanunsuz hərəkətlərinə görə cəmiyyətin geniş təbəqələrinin təsəvvüründə xeyli məsuliyyət yükü daşıyırdı.

[1] А.Пшеворский. Демократия и рынок. Политические и экономические реформы в Восточной Европе и Латинской Америке. М., 1999, РОССПЭН, стр. 132-133.

Üçüncüsü, müxalifət onun üçün səciyyəvi olan münaqişə və parçalanmaların meydana çıxması ehtimalını minimuma endirə bilmədi.

Dördüncüsü, müxalifətin ictimai platformasının siyasi baxımdan yaradılması və birləşdirilməsi onun ən mühüm problemi olaraq qalır. Daxili siyasi məkanın bu seqmenti ta 2005-ci ilin noyabrına qədər boş qaldı və seçkilərdən sonrakı dövrdə qəti şəkildə tənəzzülə uğradı. Müxalifət müstəqillik illərində, məsələn, Rusiyada Kommunist Partiyasının timsalında olduğu kimi, – onun nümayəndələri hökumətdə və regional hakimiyyətlərdə mövqe tuta bildilər, – hakimiyyətdə təmsil oluna bilmədi.

Beşincisi, təkcə hakimiyyətlə deyil, həm də bütünlükdə cəmiyyətlə dialoqa hazır olmamaq. Hakim elitanın siyasi prosesin iştirakçıları arasında dialoqun keçirilməsi barədə daimi çağırışlarına baxmayaraq, müxalifət sivilizasiyalı dialoqa real maraq göstərmir. O, cəmiyyətə heç bir yeni ideya təklif etmir. Sosial bazasını itirmiş müxalifətin radikal qanadı çəkişmələr girdabına yuvarlandı, onun liderləri qalmaqalçı bəsit meşşan səviyyəsinə endilər. Naşılıq, yalan, qarayaxma, fitnəkarlıq, iqtidarın ünvanına uydurma ittihamlar, dövlət strukturunun nümayəndələrini bir-birinə qarşı qoymaq onların əsas mübarizə silahı oldu. Bu yalançı partiyaların məqsədi heç də insanların yaşayısının keyfiyyətini yüksəltmək, sosial problemlərin həlli, ölkənin ərazi bütövlüyünün bərpası deyildir. Onların vəzifəsi xaricdən daxil olan maliyyə vəsaiti hesabına kiçik bir qrup şəxsin maddi firavanlığını təmin etmək və hakimiyyət iddialarını həyata keçirməkdir. Bu partiyaların liderləri açıq siyasətə iradənin demokratik şəkildə ifadə olunması kimi yox, məhz hakimiyyətə ləkə yaxmaq, yalan və iftira ilə onu cəmiyyətin gözündən salmaq

vasitəsi kimi baxırlar. Əslində isə, demokratiya maskası altında neobolşevizm, peşə karyerası və şəxsi həyatı uğursuz olanların, sosial vəziyyətindən narazı qalanların, cəmiyyətdə öz yerini tapmayanların qisasçılığı gizlənir. Buna əmin olmaq üçün radikal müxalifətin istənilən liderinin mətbuatdakı çıxışına nəzər salmaq kifayətdir. Əgər Azərbaycanın beynəlxalq nüfuzu xoşuna gəlməyən, ölkənin həyatındakı dəyişiklikləri şüurlu surətdə görmək istəməyən radikalların liderlərindən biri lovğa-lovğa və özünə "ağıllı" görkəmi verərək iddia edirsə ki, "Azərbaycanda xarici siyasət yoxdur", "ölkədə yeni iş yerləri yaradılmır" (halbuki, 2003-2006-cı illərdə 500 mindən çox iş yeri yaradılmışdır), "iri müəssisələr tikilmir", lakin bununla yanaşı, cinayətkar qrupun başçısı, insanların oğurlanması və qətlə yetirilməsinin təşkilatçısı, "poqonlu qulyabanı" Hacı Məmmədovu tərifləyirsə, Çin və hind fəlsəfəsinin bilicisi kimi ona heyran olursa[1], hansı demokrat müxalifətçilərdən, əks-elitanın iqtidarın nailiyyətlərinə hansı rasional yanaşmadan, sivilizasiyalı siyasi məkan yaratmaq üçün göstərilən hansı səylərdən danışmaq olar? Biz burada aşkar demaqoqluq, mənəvi prinsipsizlik və "Roma Papasından daha çox katolik" olmaq arzusu görürük.

Azərbaycan cəmiyyəti radikal çalxalanmalar, dağıdıcı və populist siyasət əvəzinə, rasional-praqmatik siyasi xətt seçmişdir. Axı, məlumdur ki, "radikalların hakimiyyətə gəlməsi iqtisadi vəziyyəti yaxşılaşdırmır. Siyasətdəki özbaşınalıq iqtisadiyyatda da özbaşınalıq doğurur. Güclü və legitim hakimiyyətin olmaması, xüsusən də hakimiyyətin polisentrizmi inqilabın baş verdiyi bütün ölkələrdə iqtisadi böhranı dərinləşdirmişdir"[2].

[1] "Azadlıq" qəzeti, 6 oktyabr 2006-cı il.

[2] Стародубровская, В.Мау. Великие революции, стр. 263.

Ötən yüzilliyin 80-ci illərinin axırı – 90-cı illərinin əvvəlində siyasətin əsas cəhəti olan müxalifət ehtiraslarının gərginliyi öz yerini dövlətin və cəmiyyətin sabit və dayanıqlı, dinamik inkişafını təmin etməyə qadir olan yeni intellektual qüvvələrə vermişdi. Tarixi zərurət, "ictimai sifariş" Heydər Əliyevin siyasətinin varisliyinin saxlanılmasına, siyasi və iqtisadi islahatlar xəttinin davam etdirilməsinə, ölkənin sosiomədəni simasının dirçəldilməsinə, mürəkkəb və ziddiyyətli transformasiya dövrü yaşayan Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi komponentinin canlandırılmasına yönəldilmişdi. Məhz belə ictimai mövqe ölkədə idarəolunmaz rejim qurmağa cəhd göstərən, dövlətin konstitusiya quruluşunu dəyişməyi planlaşdıran intriqaçı siyasətçiləri kənarlaşdırmağa imkan verdi. Daxili və xarici siyasətin reallıqlarını nəzərə almayan, mürəkkəb və böhranlı anlarda, – ölkəmizin yaxın keçmişində belə hallar az olmamışdır, – qərarların qəbul edlməsi mexanizminə idarəetmə formasının təsir dərəcəsini dərk etməyən müxalifət liderləri yalnız özlərinin şəxsi, ötəri məqsədlərinə nail olmağa can atırdılar. Milli mənafelərə və milli təhlükəsizliyə məhəl qoymamağa qadir olan radikal müxalifətçilər 1992-ci ildə Azərbaycanı parçalamağa, XVIII əsrin xanlıqları prinsipi ilə kiçik hissələrə bölməyə və ölkəni beynəlxalq aləmdən təcridə sürükləməyə hazır idilər.

Radikal müxalifətin dərin böhranı, əslində, iflası təkcə Prezident Heydər Əliyevin şəxsi nüfuzu ilə deyil, həm də ölkədə iqtisadi vəziyyətin yaxşılaşması ilə izah olunur. Müxalifət belə şəraitdə "təcavuz" və "etiraz" arasında seçim etməyə məcbur idi. Hərçənd, bizim müxalifətçilər mübarizənin bütün bu formalarını sınaqdan çıxarmışlar, ancaq bunların heç biri onlara qarşılarına qoyduqları məqsədlərə

çatmağa imkan verməmişdir. Onların hərəkətləri nəinki az səmərəli olmuşdur, həm də əvvəlcədən uğursuzluğa məhkum idi, cünki elita strukturunun sıx inteqrasiyası onun tam və qeyd-şərtsiz üstünlüyünü təmin edirdi. Müxalifət ya özünün müti rolu ilə razılaşmalı, yaxud da siyasi məkanda ümumiyyətlə yerini itirməli idi. Marginallaşmış, öz təsirini büsbütün itirmiş, resurs bazası məhdud olan və parçalanmaq təhlükəsi ilə üzbəüz qalan müxalifət identikliyini itirərək, siyasi prosesin bir küncünə sıxışdırıldı, ümumən, aktor statusundan da məhrum oldu. 2003-cü ilin oktyabrından sonra yaranmış vəziyyət bütün bu meyilləri əyani şəkildə təsdiq etdi.

2005-ci ilin noyabrında milli müxalifət sonradan "zərif" transformasiya ssenarisini reallaşdırmaq üçün parlament seçkilərində iştirak etmək yolu ilə siyasi məkana strukturlaşdırılmış "hücumlara" yeni cəhd göstərdi. Müxalifətin bütün sosial-siyasi konteksti "Seçkilər-2005" adlı planın həyata keçirilməsinə istiqamətlənmişdi.

§ AZƏRBAYCAN – 2005

KİV

Azərbaycanda seçki qarşıdurması 2005-ci ilin əvvəlində, bəzi, xüsusilə müxalifət kütləvi informasiya vasitələri "arzu olunanı gerçəklik kimi" qələmə verərək, radikalcasına ölkəni sayca növbəti "məxməri" inqilaba əsas namizəd kimi təqdim edəndə başlamışdı. Hər bir müxalifət qəzeti iqtidarı Gürcüstanda və Ukraynada baş vermiş hadisələrin təkrarlanmasının mümkünlüyü ilə şantaj etməyi bir qaydaya çevirmişdi. Qırğızıstandakı hadisələrdən sonra müxalifət liderləri və KİV-ləri daha da ruhlandılar: siyasi baxımdan belə bir passiv

ölkədə müxalifətin qələbəsi onlarda Azərbaycanda da tezliklə çevrilişin mümkünlüyünə ümid doğururdu. Qərbin tezliklə "özünü göstərəcək" dəstəyindən məstolma isə müxalifətdə öz imkanları haqqında səhv təsəvvürlərə zəmin yaratmışdı. Müxalifətçilərin fikrincə, qarşıdakı "məxməri" inqilabın uğuru məhz Qərbin dəstəyindən asılı idi. AXCP-nin sədri Əli Kərimli 2003-cü ilin dekabrında "Azadlıq" qəzetində dərc olunmuş məqaləsində[1] Qərbin dəstəyinin vacibliyini vurğulayaraq, əvvəlki seçkilərdə müxalifətin məğlubiyyətinə səbəb olan iki əsas amili göstərirdi:

- birləşmək qabiliyyətinin olmaması;
- Qərbin dəstəyinin olmaması (!)

Müxalifət məhz elə bu iki məsələdə də büdrədi. Siyasi təşkilatlardan hər biri hesab edirdi ki, müxalifəti birləşdirən məhz o olacaq və beynəlxalq təşkilatların və demokratiyanın donoru olan ölkələrin "xeyir-duası" ilə inqilabi transformasiyaya başlayacaqdır. Əli Kərimli parlament seçkiləri ərəfəsində Avropanın bir neçə ölkəsinə səfərə çıxdı. O, hesab edirdi ki, bu, onun rəhbərliyi ilə milli müxalifətin Azərbaycanda Gürcüstan və Ukraynadakı kimi inqilabı həyata keçirməyə qadir olması barədə beynəlxalq strukturların rəyini möhkəmləndirməli idi. İsa Qəmbər isə həmin vaxt ABŞ-a və Böyük Britaniyaya səfərlər etdi, xüsusilə ADR-in sədri Rəsul Quliyevin vasitəsilə bir sıra qeyri-hökumət təşkilatlarında onun görüşləri təşkil olundu.

Müxalifət dəstəyi öz ölkəsində, öz vətəndaşlarında axtarmır, mümkün "məxməri" inqilabın uğuruna Azərbaycanın hüdudlarından kənarda təminat almağa çalışırdı. "Mərkəzə"

[1] "Mübarizəmizin yeni mərhələsi. Nələri etməliyik? Nələri etməməliyik?". "Azadlıq" qəzeti, dekabr 2003-cü il.

Əgər biz 1848-ci ildən 1968-ci ilədək coğrafi mədəniyyəti liberal konsensusa əsaslanan, liberallara "demokratiya" anlayışından öz mülahizələrinə görə istifadə etmək və onun tərəfdarlarının qüvvələrini əldən salmaq imkanı açan dünyada yaşayırdıqsa, indi biz Yitsin "mərkəz üçün yer olmayan" dünyasında yaşayırıq. Biz sərt seçki qarşısındayıq: ya "bərabər azadlıq", ya da nə azadlıq, nə də bərabərlik; ya cəmiyyətdə hamının və hər kəsin birləşdirilməsinə yönəldilmiş real səylər, yaxud da son dərəcə böyümüş dünya, bir növ ümumdünya aparteidi sistemi. Liberalizmin 1848-ci ildən 1968-ci ilədək olan təsiri demokratları ya liberal çalarlı göstərişləri qəbul etməyə, ya da özlərini unudulmağa məhkum etməyə vadar edirdi... Lakin tab gətirmiş liberallar indi seçim qarşısındadırlar: onlar ya müəyyən dərəcədə demokratik göstərişləri qəbul edə, yaxud da özünün siyasi təsirini itirə bilərlər.

İ.Vallerstayn
Bizim tanıdığımız dünyanın sonu.
XXI əsrin sosiologiyası

göndərilən anonim xəbərlərin güçünə keçmiş vaxtlarda olan inam milli müxalifətdə dəyişilmiş şəkildə qalmışdı. O, əvvəlki kimi, yenə də daxili problemlərin və ziddiyyətlərin Azərbaycandan kənarda həllinə bel bağlayır. Sanki kommunist dövrünün anonim çuğulluqlar praktikasını təkrarlayaraq, radikalların nümayəndələri beynəlxalq təşkilatlara Azərbaycanda gedən proseslər haqqında uydurma, yalan məlumat göndərməyi özlərinə borc bilirlər. Onlar yalnız şəxsi məqsədlər güdərək, Azərbaycanı totalitar dövlət, hakim rejimi isə avtoritar rejim kimi göstərməyə çalışırlar. Bununla bərabər, müxalifət liderlərinin müxtəlif təşkilatların, o cümlədən də gənclər təşkilatlarının liderləri ilə görüşlərinin sovet təbliğatı ruhunda necə coşğunluqla təsvir edilməsi təəccüb doğurur.

Bununla əlaqədar müxalifət partiyalarından birinin lideri, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlının radikal müxalifət KİV-lərinin yaratdığı ajiotaja dəqiq qiymət verən sözlərini xatırladacağam: "Son vaxtlar Azər-

baycan müxalifətində xəstə bir ovqat yaranıb. Kim hansı ölkəyə gedirsə, səfər edirsə, qəzetləri vasitəsilə belə bir xəbər yayırlar ki, həmin ölkə həmin şəxsi dəstəkləyir və yaxud filan ölkə filankəsi prezident görmək istəyir. Müxalifət gözləyir ki, kimsə kənardan gəlib Azərbaycan üçün dövlət başçısı təyin edəcək. Bu psixologiyadan birdəfəlik xilas olmaq lazımdır"[1].

Praktik olaraq, bütün müxalifət KİV-ləri qarşıdakı parlament seçkilərində özlərinin uğurunun rəhnini Qərbin dəstəyində görürdü və beynəlxalq təşkilatların nümayəndələrinin də bu qəbildən olan sözləri bunu təsdiq edirdi: "Hakimiyyət Ukraynada və Gürcüstanda baş verənlərdən ibrət dərsi götürməlidir"[2]. Müxalifət bu cür bəyanatlardan fəal sui-istifadə edirdi. İş o yerə çatırdı ki, müxalifətin keçirdiyi kütləvi aksiyalar zamanı belə fikirlər transparantlarda və plakatlarda da yazılırdı.

Müxalifət nəşrləri bütün seçkiqabağı dövrdə müxalifətin ümumi proqramını deyil, yalnız öz sahiblərini, yəni siyasi liderlərini təbliğ edirdi, bu proqram qəzet yazılarında ancaq ritorik haşiyə olaraq qalırdı. Əks-elita daxilində ideoloji və struktur dağınıqlığının bundan da əyani nümayişi ola bilərmi? Belə vəziyyətin səbəbləri, bir tərəfdən, siyasi cəhətlərin məhdudluğunda, digər tərəfdən, elitanın strukturunda idi. 2000-ci ildən sonra elitanın "ideokratiya" istiqamətində birləşməsi milli müxalifəti onun ayrı-ayrı qruplarının uğur qazanmağa elə bir şansı olmayan davakar "çıxışlara" doğru fəal surətdə sürükləməyə başladı.

[1] "Müxalifət daxilində etimad problemi var". "Yeni Azərbaycan" qəzeti, 5 iyul 2003-cü il.

[2] Andreas Qross – Avropa Şurasının deputatı. "Azadlıq" qəzeti, 28 aprel 2005-ci il.

2003-cü ildə müxalifət qəzetlərinin təhlili partiyaların aşkar dağınıqlığını göstərirdi. Məsələn, AXCP-nin rəsmi orqanı olan "Azadlıq" qəzeti diqqəti yalnız Əli Kərimliyə verərək, müttəfiqləri inkar edir, çox vaxt isə üstüörtülü şəkildə "onları unutmağa" çalışırdı. Müsavat Partiyasının rəsmi orqanı olan "Yeni Müsavat" qəzeti isə İsa Qəmbərin məziyyətlərini və siyasi gələcəyini şişirdirdi. ADP-nin orqanı olan "Bakı xəbər" qəzeti də həmin nəşrlərdən geri qalmır, Rəsul Quliyevi taleyi tamamilə onun ölkəyə qayıtmasından asılı olan bütün müxalifətin lideri kimi təqdim etməyə çalışırdı. Butün bunlar Müsavat, AXCP və ADP-nin iştirakı ilə yaradılmış, sonralar "Azadlıq" bloku adlandırılmış müxalifətçi təşkilatlar "üçlüyünün" koalisiyasının" bəyan etdiyi yalançı birlik fonunda baş verirdi.

Məsələn, "Azadlıq" qəzeti yazırdı: "Azərbaycanda demokratik inqilabın lideri kimi adı həm müxalifət, həm iqtidar, həm də beynəlxalq səviyyədə tez-tez çəkilən Əli Kərimlinin digər müxalif qüvvələrin rəhbərliyi tərəfindən hər hansı siyasi qısqanclıq problemi ilə qarşılaşmayacağına ümid etmək olar. Çünki Əli Kərimlidən başqa heç bir partiyanın lideri xalqı meydana səsləyib, qələbə vəd edəcəyi ilə bağlı söz vermək iqtidarında deyil"[1]. Həmin qəzet daha sonra yazırdı: "ADP-AXCP-Müsavat bloku məhz Əli Kərimlinin irəli sürdüyü vahid namizədlər siyahısı barədə modelə söykənir. Məhz AXCP 2004-cü ilin payızında təkbaşına 7 dəfə icazəsiz piket keçirdi... Beləliklə, AXCP bir təşkilat olaraq və onun sədri siyasi lider kimi bu ilyarım müddətin böyük bir hissəsini təkbaşına mübarizə apararaq,

[1] "Azərbaycanda demokratik inqilab gözləmək olarmı", "Azadlıq" qəzeti, 1 aprel 2005-ci il.

mühasirəni yarmışdır”[1]. Gördüyümüz kimi, rasional və konstruktiv təkliflər, yaxud da müxalifətin birliyi haqqında bir kəlmə də yoxdur.

Həmin vaxt “Yeni Müsavat” qəzeti isə yazırdı: “15 oktyabr hadisələri İsa Qəmbərin komandasının gücünü göstərdi. Biz ümidsizlik şəraitində Azərbaycan xalqını qələbəyə inandırdıq... Müsavat varsa, deməli, Azərbaycanın gələcəyinə ümid var”[2]. Yenə də koalisiya üzrə tərəfdaşlar haqqında, partiyanın hansı problemləri həll etmək niyyəti və s. barədə bir kəlmə də deyilmir.

2005-ci ilin əvvəlindən müxalifət KİV-ləri “Parlament seçkiləri iqtidarın sonuncu cəhdidir”, “Demokratik seçkilər keçirilməsini istəyənlər qoy inqilaba hazırlaşsınlar”, “İqtidar panikadadır” və s. sərlövhəli yazılarla dolu idi. Məsələn, “Yeni Müsavat” qəzetinin redaktoru Rauf Arifoğlu yazırdı: “Azərbaycan bir qurtuluşa möhtacdır. Bunu hər zaman yazdıq, dedik. Son vaxtlar gözlənilən bu qurtuluşun adına əski vaxtlarda olduğu kimi, inqilab deyirlər. Olsun. Biz yenə bu yoldayıq, bizim xəttimiz budur”[3]. Müxalifət yalnız və yalnız “məxməri” inqilaba hazırlaşır, hətta seçimin Azərbaycan xalqının sivilizasiyalı və açıq səsverməsi vasitəsilə ediləcəyi fikrini yaxına da buraxmırdı. Öz qüvvələrinə əmin olan müxalifət liderləri cəmiyyəti inandırmağa çalışırdılar ki, inqilab ssenarisi reallaşdırılmağa hazırdır.

Eyni zamanda, müxalifət qəzetləri isə bu arada cidd-cəhdlə belə şayiələr yayırdı ki, guya müxalifətə parlamentdə

[1] “Böyük dönüş”. “Azadlıq” qəzeti, 7 aprel 2005-ci il.

[2] “Azərbaycana bir qələbə borcumuz var”. “Yeni Müsavat” qəzeti, 10 aprel 2005-ci il.

[3] “Yeni Müsavat” qəzeti, 14 aprel 2005-ci il.

bəri başdan yerlər ayrılmamışdır. Müxalifət təhlilçiləri deyilənlərin fikrincə, "məxməri" transformasiyanın qarşısını almaq üçün iqtidar parlamentdə yerlərin bir hissəsini (müxtəlif rəqəmlər səslənirdi: 20-dən 35-dək) müxalifətə güzəştə getmək niyyətindədir. Cəmiyyətə belə bir fikir sırıyırdılar ki, bu, iqtidarın bir növ reveransı olub, seçki prosesinin dinc şəraitdə başa çatması üçün zəruridir. Müxalifətin iqtidara bu mesajı bir növ siyasi alver idi: "Bizə müəyyən sayda yerləri təmin edin və biz inqilab haqqında danışmayacağıq".

Həmin dövrdə dərc edilən bəzi məqalələrdə Azərbaycanda hadisələrin Moldovadakı kimi inkişafının mümkünlüyü barədə də fikirlər səslənirdi. Məlum olduğu kimi, 2005-ci il martın 6-da Moldova parlamentinə keçirilmiş seçkilər nəticəsində kommunistlər hakimiyyətdə qalmaq və "inqilabın" qarşısını almaq üçün kompromis variantına razılaşmışdılar. Nəticədə ölkədə "inqilabi" gərginlik azaldı, müxalifətçilər isə ölkə parlamentində mövqelərini kifayət qədər möhkəmləndirdilər. Beləliklə, Moldovada "inqilab" meydan xarakteri deyil, xeyli dərəcədə kabinet, danışıq xarakteri daşıyırdı. Nəticədə Moldovada siyasi dekorasiyaların dəyişməsi dövlət və cəmiyyət üçün dinc şəkildə və ağrısız keçdi. Azərbaycanda müxalifət ən pis halda proseslərin bu cür nəticələnəcəyinə ümid bəsləyirdi, ona görə də belə nümunələrə müraciət edərək, iqtidarı müəyyən güzəştlərə getməyə məcbur etməyə çalışırdı. Təbii ki, iqtidar belə saxtakarlığa gedə bilməzdi, xüsusən də ona görə ki, bu, seçkilər təsisatının prinsiplərinə kökündən ziddir. "Şəraitə görə demokrat olanlar" belə bir danılmaz faktı inkar edirdilər ki, demokratiyanın mahiyyəti məhz xalqın öz iradəsini seçkilər vasitəsilə sərbəst ifadə etməsindədir, seçkilərin nəticəsini nə iqtidar, nə də müxalifət deyil, yalnız vətəndaşlar müəyyən edirlər.

Azərbaycandakı müxalifət nəşrləri real ictimai-siyasi və sosial-iqtisadi şəraiti inkar edərək, belə bir fikirdə idi ki, radikal müxalifət liderlərinin şəxsi baxışları ictimai şüura transformasiya etməlidir. Lakin müxalifət nəşrləri özünə elektoratın dəstəyini səfərbər edə bilmədi. Onlar əvvəlki kimi, yenə də sosial-iqtisadi və milli-dövlət mövzusundan hər vəchlə qaçırdı. Liderlərin şəxsi baxışlarını fəal təbliğ edən və elektoratın müəyyən hissəsinin ovqatı ilə oynayan müxalifət KİV-ləri Azərbaycanın çoxmillətli əhalisinin müxtəlif sosial qruplarının kütləvi şüurunu "yarmaq" üçün təşviqat-təbliğat "taranı" yarada bilmədi. Bütün bunlar, üstəgəl iqtidarın aydın ifadə olunan siyasi iradəsi hökumətə meyilli və müstəqil namizədlər üçün cazibə mərkəzi yaradır, habelə etirazçı elektoratın müxtəlif qruplarını mövcud hakimiyyətin xeyrinə səfərbər edirdi.

Demək lazımdır ki, müxalifət nəşrləri öz namizədlərinin reklamını intriqaları və partiya dedi-qoduları ilə özlərini gözdən salmış bəzilərinin mənfi imici fonunda başlamışdı. Səslərin bir hissəsinin itirilməsi qorxusunu hiss etdikdə isə, bu nəşrlər sınanmış üsuldan istifadə etməyə, yəni, ictimai rəylə manipulyasiya edərək, insanlarda müxalifətin qələbəsinə inam doğurmağa cəhd göstərməyə başladı. Məsələn, qəzetlər bütün seçkiqabağı dövrdə cəmiyyəti aşağıdakıların reallıq olduğuna inandırmağa çalışırdı:

- Azərbaycan cəmiyyəti inqilabın həyata keçirilməsinə hazırdır;
- ölkədə "zərif" transformasiyalara xeyli xarici dəstək var;
- 2003-cü ilin prezident seçkilərindəki uğursuzluqdan sonra müxalifət güclənmiş və keçmiş müvəffəqiyyətsizliklərin səhvlərini dərk etmişdir;

- milli inkişafa müsbət təsir göstərə biləcək vahid müxalifət bloku var;
- hakimiyyət elitası daxilində siyasi boşluq var və bu, ölkədə proseslərin idarə olunmamasını doğurmuşdur;
- hakim elita daxilində guya ciddi ziddiyyətlər və fikir ayrılıqları var;
- hakimiyyətin ölkənin inkişafına dair həyata keçirdiyi proqramlar iqtisadi baxımdan əsassızdır;
- hakim elitada inqilabi dövrdə müxalifətin tərəfində çıxış etməyə hazır olan hansısa "islahatçılar" vardır və sair.

Müxalif kütləvi informasiya vasitələri inadla sübut etməyə çalışırdı ki, Serbiya, Gürcüstan, Ukrayna və Qırğızıstanın ardınca, "məxməri inqilablar dalğası" hökmən Azərbaycana da toxunmalıdır. Müxalifət liderlərinin çıxışlarında Qırğızıstandakı inqilabdan sonra açıq-aşkar sərməstlik yaranmasını hiss etmək olardı. Qırğızıstanın Qərbin diqqətini Azərbaycandakı proseslərə çevirəcək bir növ körpü olacağına ümid bəsləyən radikal müxalifət, nəhayət, birləşməyə və koalisiya yaratmağa ruhlandı. Hərçənd demək lazımdır ki, müxalifət partiyaları sədrlərinin xəyalında olduqları birləşmə, əslində, saxta birləşmə çox vaxt məhz elə müxalif kütləvi informasiya vasitələrinin sayəsində dağılırdı. Məsələn, bu qəzetlərdə dərc olunmuş materiallara nəzər salarkən və təhlil edərkən müxalifət liderlərinin bir-birnə münasibətdə açıq-aşkar ifrat xudbinliyinin təzahürünü müşahidə etmək olardı. Üstəlik, radikal qanada mənsub olan müxalifət partiyaları öz mövqelərindən geri çəkilmirdi ki, bu da ümumi siyasi müxalifət məkanı yaratmaq üçün göstərilən bütün cəhdləri prinsip etibarilə heçə endirirdi.

Müxalifət kütləvi informasiya vasitələri ictimai rəyin bir növ inteqratoru rolu oynamalı olduğu halda, onlar xeyli dərəcədə saxta ideyalar təklif edirdi. Bunlar isə nəinki geniş ictimai dəstək tapmır, əksinə, ölkədə görülən, demək olar, bütün işlərə qara yaxmaq cəhdlərinə görə əhalini özünə qarşı qaldırırdı. Partiya qəzetlərinin səhifələrində özünü göstərən belə mövqeyin səhvliyi həm də adət halını almış "kompromat müharibəsində" idi. Müxalifət KİV-ləri diqqəti hakimiyyətlə mübarizəyə cəmləşdirərək, konstruktivizmi, sivilizasiyalı və rasional dialoqun mümkünlüyünü tamamilə inkar edirdi. Bu nəşrlərin səhifələri təkcə ayrı-ayrı məmurların deyil, həm də dövlət başçısının şərəf və ləyaqətinə toxunan məqalələrlə doldurulurdu. Ölkənin milli təhlükəsizliyi və milli maraqları məsələlərinə dair büsbütün cəfəng materiallar dərc olunurdu. Müxalifət kütləvi informasiya vasitələrinin siması ölkənin müstəqilliyinin bütün illəri ərzində ümumən radikal müxalifətə xas olan dağınıqlığı, ideoloji bazanın, siyasi səriştəliliyin və mənəviyyatın yoxluğunu bütövlükdə əks etdirirdi.

2005-ci il martın 2-də "Monitor" jurnalının redaktoru Elmar Hüseynovun qətlə yetirilməsi parlament seçkilərinə hazırlıq fonunda son dərəcə kədərli hadisə oldu. Onun ölümü bütün Azərbaycan cəmiyyəti üçün gözlənilməz idi. Hakimiyyət və müxalifət nümayəndələrinin ünvanına kəskin tənqidi məqalələri ilə tanınan E.Hüseynov çox vaxt mülahizələrində ifrat subyektivizmə və qondarma mövzulara yol verməsinə baxmayaraq, ölkənin ictimai, siyasi və iqtisadi həyatının kəskin məsələlərini ictimaiyyətin mühakiməsinə çıxarırdı. Onun ölümü siyasi prosesin bütün iştirakçılarının və kütləvi informasiya vasitələrinin müzakirələrinin başlıca mövzusuna çevrildi və seçkiləri bir müddət ikinci plana keçirdi.

E.Hüseynovun qətli barədə məlumat alandan sonra Azərbaycan Prezidenti dərhal Təhlükəsizlik Şurasının iclasını keçirdi, cinayətkarların tutulması üçün ən ciddi tədbirlər görülməsinə dair göstərişlər verdi. Dövlət başçısı tamamilə haqlı olaraq hesab edirdi ki, jurnalistin öldürülməsi dövlətə və hakimiyyətə qarşı ciddi fitnəkarlıq, ölkənin demokratik inkişafını gözdən salmaq cəhdidir. Prezident İlham Əliyev öz bəyanatında vurğulayırdı: "2005-ci il Azərbaycanın gələcək inkişafı üçün həlledici il olacaqdır. Ona görə belə təxribatların, vəhşi hərəkətlərin baş verməsi, əlbəttə, bizi çox narahat edir. İlk növbədə, ona görə ki, gənc insan qətlə yetirildi, onun ailəsi başsız qaldı. Digər tərəfdən, ümumiyyətlə, bəzi qüvvələr bu vəziyyətdən öz maraqlarını təmin etmək üçün istifadə edə bilərlər. Həm daxili, həm də xarici dairələr bundan istifadə edə bilərlər".

Bu cinayətin icraçılarının və əsl sifarişçilərinin tutulması üçün hakimiyyət orqanlarının göstərdikləri səylərə baxmayaraq, müxalifət jurnalist E.Hüseynovun qətlində məhz hakimiyyəti günahlandırır, Ukrayna jurnalisti Q.Qonqadzenin öldürülməsi və L.Kuçmanın hakimiyyətinin devrilməsi arasında analogiya aparmağa cəhd edirdi. Təəssüf ki, E.Hüseynovun ölümü radikal müxalifət üçün əvlverişli vasitəyə çevrildi. Daxili ideoloji və təşkilati boşluq və müxalifətin komponentlərinin ucdantutma dağılması şəraitində radikal müxalifət bu hadisədən hakimiyyətə qarşı piar kampaniyası və təzyiq vasitəsi kimi istifadə etməyi qərara aldı. Müxalifət kütləvi informasiya vasitələri jurnalistin ölümünü iqtidarı söz azadlığı hüququnu məhdudlaşdırmaqda və mətbuata qarşı təzyiq göstərməkdə günahlandırmaq üçün bəhanəyə çevirdi. Müxalifət E.Hüseynovun ölümü ilə əlaqədar matəm tədbirlərindən istifadə etməklə hakimiyyətə

qarşı kütləvi çıxışlar törətməyə cəhd göstərirdi. O, əslində, başqasının müsibətindən özü üçün siyasi kapital qazanmağa çalışırdı. Axı, radikal müxalifət liderlərinin ikiüzlülüyü göz qabağında idi, belə ki, onlar heç vaxt E.Hüseynova xüsusi hisslər bəsləməmişlər, çünki tez-tez özləri onun nəşrində ciddi tənqid və istehza obyektinə çevrilirdilər. Buna görə də onun faciəli ölümündən sonrakı bu qəfil "sevgi" hakimiyyəti ləkələmək naminə hər cür əməllərə hazır olan müxalifətin nə qədər mənəviyyatsız olduğunu göstərirdi.

E.Hüseynovun ölümü ətrafında qaldırılmış isteriya dövründə milli informasiya saytlarından birində maraqlı material yerləşdirilmişdi. Müəllif müxalifətin kütləvi aksiyalarından birini səciyyələndirərkən öz fikrini belə ifadə etmişdi: "Müxalifətin bazar günü keçirilmiş mitinqində şüarlardan biri "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qatillərini tapmaq tələbi idi. Üstəlik, mitinqə E.Hüseynovun həyat yoldaşı Rüşanə xanım da dəvət olunmuşdu. Bu qətlin üstü hələ açılmamışdır. Təqsirsizlik prezumpsiyasını isə hələ heç kim ləğv etməmişdir. Ancaq buna baxmayaraq, müxalifət E.Hüseynovun öldürülməsində dalbadal iqtidarı günahlandırır. Rüşanə Hüseynovaya gəldikdə isə, o, özü də başa düşmədən, Elmarın qətlindən maksimum faydalanmağa çalışan müxalifətçilərin əlində oyuncağa çevrilmişdir. Əgər müxalifət liderlərini həqiqətən E.Hüseynovun ölümü maraqlandırsaydı, onda elə həmin Əli Kərimlinin E.Hüseynovun öldürülməsindən çox böyük dividend götürməyə real şansı vardı. Bundan ötrü ona jurnalistin öldürülməsindən dərhal sonra Milli Məclisə qayıtmaq və bu səs-küylü qətlin araşdırılmasına dair parlament komissiyasının yaradılmasını tələb etmək lazım idi. Lakin Əli Kərimli bunu etmədi. O, jurnalistin öldürülməsindən müxalifətin mitinqlərində hiddətlənməyə üstünlük verdi.

Bu yaxınlarda Müdafiə Nazirliyinin iddiası əsasında "Monitor"un keçmiş jurnalistlərinin məhkəməsi başa çatmışdır. Ancaq Elmarın tabutu qarşısında göz yaşları axıdan müxalifət liderlərindən, eləcə də onların partiyalarından məhkəmə iclaslarında heç kim yox idi. Bu, "Monitor" jurnalına müxalifətin əsl münasibətinin növbəti sübutu idi. Bununla yanaşı, həm də müxalifətə dərhal siyasi dividend vəd etməyən hər şeyə münasibətin sübutu idi. Bizim müxalifətin Gürcüstan və Ukrayna müxalifətindən başlıca fərqi məhz bundadır"[1].

Bloklar

"Zərif" transformasiya ərəfəsində təşəbbüs göstərilən bütün postsovet "məxməri" inqilablarının başlıca xüsusiyyətlərini aşağıdakı kimi ifadə etmək olardı:

- sovet və kommunist irsindən radikal şəkildə xilas olmaq cəhdi;
- Avropa və Şimali Atlantik inteqrasiyası;
- bazar dəyişikliklərinin sürətləndirilməsi və tammiqyaslı sosial-iqtisadi modernləşmə;
- postmünaqişə tənzimlənməsinin beynəlmiləlləşdirilməsi, etnik qarşıdurmalar zonalarında məxsusi sülhməramlılar sırasından Rusiyanın çıxarılması;
- tranzit (kvazisovet və postsovet) identikliyin aradan qaldırılması uğrunda mübarizə – identikliyin qəti şəkildə bərqərar olması.

[1] Постмитинговые размышления или в чем главное отличие азербайджанской оппозиции от грузинской и украинской? 11 июля 2005, www.day.az

Bununla bərabər, kommunizmdən xilas olmaq dedikdə, ideyasızlaşdırmaq yox, kadr inqilabı nəzərdə tutulur ki, bunun da nəticəsində həm köhnə partiya nomenklaturası, həm də onun örtülü siyasi mübarizə metodları keçmişdə qalır.

Halbuki, Azərbaycanın siyasi palitrası daha rəngarəngdir, Gürcüstandan və Ukraynadan fərqli olaraq, hakimiyyət strukturlarında çoxsaylı keçmiş partiya işçiləri yoxdur. Ölkə rəhbərliyinin son illər həyata keçirdiyi islahatlar respublikanın təkcə sosial-iqtisadi modernləşməsinə deyil, həm də kadr potensialının məzmununun dəyişdirilməsinə yönəldilmişdir ki, bunun da nəticəsində cavan, intellektuallı və fəal şəxslər rəhbərlikdə məsul vəzifələrə cəlb edilir. Ölkənin siyasi rəhbərliyindəki modifikasiya transformasiyanın dinamikasını sürətləndirməyə və dövlətin sosial-siyasi xəttini daha dəqiq müəyyənləşdirməyə imkan vermişdir.

İqtidardan fərqli olaraq, müxalifət keyfiyyətli transformasiyanı həyata keçirməyi və öz fəaliyyətini yeni dövrün tələblərinə uyğun şəkildə dəyişdirməyi bacarmadı. Keçmişdə özünü doğrultmayan təcrübə və ənənələrə hələ də arxalanan müxalifət seçkiqabağı dövrdə yenidən bloklar və koalisiyalar yaradırdı. Nəzərdə tutulurdu ki, bunlar proporsional qaydada namizədlər irəli sürülməsi ideyası ilə çıxış etməli və 2005-ci ilin parlament seçkilərində qələbəni təmin etməli idi. Nəticədə seçki siyasətində iqtidara münasibətdə siyasi rəqibləri göstərməklə şərtlənən bir neçə elektoral strategiya həyata keçirildi.

Əvvəla, Müsavat, AXCP, ADP, Lalə Şövkət başda olmaqla "Milli birlik" bloku və Eldar Namazov başda olmaqla "Yeni siyasət" bloku. Bu siyasi birliklər iki müxtəlif, lakin ümumən müxalif elektoral strategiyalar təklif

Sistem assimmetrik təhlükələrin öhdəsindən gəlmək üçün kifayət qədər möhkəm ola bilər, narazılığın səbəblərini aradan qaldırmaq əvəzinə, onu boğmaq tez-gec sistemin xarakterinin dəyişməsinə gətirib çıxaracaq: sistem daha əməkdaşlığa deyil, məcburiyyətə əsaslanacaqdır. Bu, dünyaya hegemonçu baxışın yekunu, onun məntiqi nəticəsi olacaqdır. Tarix göstərir ki, cəza rejimlərindən hətta bəziləri uzun müddət mövcud olsa da, belə rejimlərdən heç biri əbədi yaşaya bilməz.

C.Soros
Qloballaşma haqqında

etdilər. Təbii ki, baxışlar kompleksi iqtidara opponentlik etmək üzərində qurulurdu.

İkincisi, "hakimiyyət partiyası". Bu tərifi iqtidara loyallıq göstərən partiyalardan olan namizədlərə aid etmək lazımdır. Əslində, onların rolu müxalifət namizədlərini bitərəfləşdirməkdən ibarət idi.

Üçüncüsü, seçkilər ərəfəsində yaradılmış yeni siyasi birliklər. Onlara A.Mollazadənin AXCP sıralarından çıxması nəticəsində yaranmış Demokratik İslahatlar Partiyasını aid etmək olar.

Dördüncüsü, fəaliyyət göstərən və ya elektoral tsikldə meydana çıxan elektoral bloklar. İctimai-siyasi birliklərin bu qrupuna elektoral sprintin İctimai liderlər bloku, Media-blok, "Yeni adlar – gənc Azərbaycan", Qadınlar bloku və s. aiddir.

Seçki yürüşünün bu seqmentlərindən hər biri aşağıdakılarda ifadəsini tapan müxtəlif elektoral strategiyalar təklif edirdi:

- iqtidara radikal müxaliflik;
- hakimiyyətin mövqeyinin loyal həlim tənqidi;

- iqtidara münasibətdə loyallıq və hakim elitanın dəstəklənməsi;
- iqtidarın mövqeyi.

2005-ci ilin siyasi mübarizələrinin bu cəhətləri bir sıra siyasi koalisiyalar, bloklar və partiyalar tərəfindən reallaşdırılırdı. Mövqelərinin, təşkilati cəhətlərinin, tərəfdarlarının sayının və seçkiqabağı yürüşün finalçısı olmaq imkanlarının müxtəlifliyinə baxmayaraq, onlar bu seçkiləri siyasi baxımdan daha geniş və ideoloji baxımdan çoxcəhətli etmişdilər.

"Azadlıq". Müxalifətin ilk birliklərindən biri Müsavat, AXCP və ADP-nin koalisiyası oldu. Bir-biri ilə münaqişəli münasibətlərdə olan üç müxalifət partiyasının 2005-ci ilin fevralında yaratdığı blok 2005-ci ilin parlament seçkiləri ərəfəsində müxalifətin ilk birləşməsi oldu.

Həm də 2003-cü ilin prezident seçkiləri zamanı araları dəymiş üç partiyanın koalisiyası olan "Azadlıq" bloku dərhal kütləvi aksiyalar, mitinqlər hazırlamağa və müxalifətdən namizədlərin vahid siyahısını müəyyənləşdirməyə başladı.

"Azadliq" blokunun elektoral strategiyası iqtidarın radikal tənqidi və "demokratik inqilabı", – blokun təsisçiləri "narıncı" transformasiyanı bu ad altında başa düşürdülər, – daim xatırlatmaq üzərində qurulurdu. Seçkilərdə qələbəni ölkədə hakimiyyətin dəyişdirilməsi yolu hesab edən bu müxalifət liderləri iqtidarın ünvanına böhtan yağdırmaq xətti götürərək iddia edirdilər ki, guya iqtidar azad, şəffaf və demokratik seçkilər keçirilməsini istəmir, çünki nəticələr bəri başdan müəyyən olunmuşdur və qarşıdakı parlament seçkilərində kütləvi saxtakarlıq gözlənilir. İqtidarı daim tənqid etməyə və ictimaiyyəti ələ salmağa yönəldilmiş strategiya blokun təsisçilərinə öz seçki proqramını təbliğ etməyə və seçicilərin

konkret problemləri barədə fikir söyləməyə vaxt qoymurdu. Əsas diqqəti kütləvi aksiyalara ayıran müxalifət öz tərəfinə mümkün qədər çox seçici cəlb etməyə çalışır, ancaq başa düşmürdü ki, sırf majoritar qaydada parlament seçkiləri şəraitində belə taktikanın səmərəsi az olur. Konkret seçki dairələrində işləməyi inkar edən müxalifət liderləri səyləri mitinqlərə və küçə nümayişlərinə yönəltməyə üstünlük verdilər. Bu mitinq və nümayişlər isə son nəticədə çadır şəhərcikləri və s. yaradılması ilə başa çatmalı idi.

Müxalifət dövlət idarəçiliyinin hansısa bir sahəsini seçki strategiyasının əsas kartına çevirməyi bacarmadı. Sosial-iqtisadi problemlərə diqqət milli iqtisadiyyatın modernləşdirilməsi sahəsində iqtidarın geniş fəaliyyəti ilə aradan qaldırılır, Azərbaycanın iqtisadi inkişafı barədə hər hansı ritorika isə daim hökumətin keyfiyyətli və real məzmunla dolğunlaşdırılmış proqramı ilə qarşılaşırdı.

Radikal müxalifətin piar kampaniyasının mərkəzi kimi bir neçə məsələ seçilmişdi: korrupsiya, E.Hüseynovun qətli, demokratikləşmə və insan hüquqları. Bununla bərabər, bütün kampaniya özlərinin Milli Məclisə namizədlərinin təbliğatı və təşviqatı üzərində deyil, yalnız və yalnız iqtidarın ünvanına daimi ittihamlar üzərində qurulurdu. Deputatlığa namizədlərin razılaşdırılmış vahid siyahısına gəldikdə isə, "Azadlıq" blokunun liderləri bu məsələdə dil tapa bilmədilər. Nəticədə yüksək ixtisaslı mütəxəssislər siyahılara düşmədi, onlarda real, praktik təcrübəsi olan hüquqşünas, iqtisadçı, pedaqoq, təsərrüfatçı və başqaları yox idi. Əvəzində siyahılarda elə şəxslərin adlarını görmək olardı ki, onların bu və ya digər seçki dairəsində heç bir nüfuzu yox idi, bəzən isə müttəfiq partiyalar tərəfindən qəbul olunmurdular. Lakin hət-

ta bu adamlar da paytaxtda mitinqlərdə iştirak etməyi seçki dairələrində işləməkdən üstün tuturdular.

Bu cür seçki kampaniyası belə bir fikri daha da çox təsdiqləyirdi ki, radikal müxalifət seçki prosesinin lap başlanğıcından seçkilərə yox, hadisələrin inkişafının konstitusiyaya zidd ssenarisinə hazırlaşmışdır. Adamlarla işləmək əvəzinə, "Azadlıq" blokunun paytaxtdakı kütləvi etiraz aksiyalarında və ya mitinqlərində vaxt keçirən namizədə seçici necə səs verə bilər – bunu izah etmək çətindir.

Nəticədə "Azadlıq" blokunun namizədləri daxili və xarici siyasi problemləri, iqtisadi poblemləri necə həll etməyə hazırlaşdıqları barədə öz baxışlarını seçicilərə izah edə bilmədilər. Blokun nümayəndələrinin ölkə həyatının aktual məsələlərinə dair, ictimai şüuru öz tərəflərinə çəkməyə yönəldilmiş təsirli proqramları yox idi. Əgər bu blokun nümayəndələri respublikanın qanunverici orqanında çoxluq qazansalar, onların hansı yolu tutacaqları barədə məsələ açıq qalırdı.

Bu baxımdan Moldovada parlament seçkilərinin təcrübəsini misal çəkmək olar. Orada "Birlik" bloku əsas diqqəti rusiyapərəst meyilə verərək, "İşıq şərqdən gəlir" şüarından istifadə etmiş və bununla da öz təşviqatını rusiyapərəst xarici siyasətin tərəfdarlarına yönəltmişdi. Məsələ heç də bu blokun tutduğu yolla getməkdə deyil, lakin düşünmək üçün bu təcrübə faydalı ola bilərdi. Azərbaycan müxalifətinin dərin Şimali Atlantik əməkdaşlığının zəruriliyi haqqında ümumi sözlərdən savayı, konkret nə təklif edə biləcəyi seçicilər üçün tapmaca olaraq qalırdı, halbuki, məhz iqtidar belə inteqrasiyanın fəal tərəfdarı kimi çıxış edirdi.

Müxalifət liderlərinin fikirncə, İ.Qəmbərin "bu və ya digər problemlərə dair məsələhətləşmələr məqsədi ilə" tez-

tez Türkiyəyə getməsi, habelə Ə.Kərimlinin "Qərbin Azərbaycanda demokratik dəyişiklikləri dəstəkləməsinə" müntəzəm istinad etməsi blokun Qərbə meyilliliyi barədə görüntü yaratmalı, bununla da elektoral marağı və inqilabqabağı şərait imitasiyasını təmin etməli idi. Lakin işə əngəl törədən təkcə radikal müxalifətin xarici dəstəkdən asılı olması deyildi, həm də o idi ki, həmin müxalifət bu və ya digər dövlətlərə münasibətdə öz baxışlarını və fikirlərini çox tez-tez dəyişirdi. Müxalifətin liderləri əmin idilər ki, Qərbdəki bəzi mərkəzlər tərəfindən "inqilabın" serbiyalı, gürcüstanlı və ukraynalı iştirakçılarına kömək göstərilməsi fonunda Azərbaycanda ictimai şüur inqilabi ritorikanı müsbət qarşılamalı və ölkədə antikonstitusiya dəyişikliyini dəstəkləməlidir.

Radikal müxalifət daxili siyasət məsələlərində də dövlətin və cəmiyyətin inkişafının modelləri barədə real təkliflərlə çıxış edə bilmədi. "Azadlıq" blokunun bütün ritorikası yalnız qisas almaqdan ibarət idi. Televiziya və radioda efir vaxtı məhz buna sərf olunurdu və radikal müxalifətin keçirdiyi etiraz aksiyalarının leytmotivi məhz bu idi. Radikal müxalifət yeni elektoral seqment tapmağa cəhd göstərmirdi, əksinə, adət etdiyi elektoral qrupla işləməkdə davam edirdi. Bununla bərabər, keçmişin qalıqları, radikal müxalifətin aksiyalarını kütləvi şüurun getdikcə daha mənfi şəkildə qarşılaması müxalifətin elektoratının bir hissəsini ondan durmadan uzaqlaşdırırdı.

Müxalifətin digər problemi "real" liderin olmaması idi ki, bu da hələ dünən bir-birinə müharibə elan etməyə hazır olan "üçlük" üzvlərini ciddi qəbul etməyə imkan vermirdi. Daim dostları düşmənlərə dəyişməyin nəticəsi kimi, elektoratın etimad səviyyəsinin aşağı olması, cəmiyyətdə nüfuzun yoxluğu və şəxsi keyfiyyətlər – bütün bunlar radikal əks-elitanın

vəziyyətini daha da çətinləşdirirdi. Bunun fonunda "Rəy" sosioloji agentliyinin məlumatları maraqlı görünürdü. "Rəy"in keçirdiyi sorğunun nəticələrinə görə, 2005-ci il oktyabrında Prezident İlham Əliyevin reytinqi 81,2 faiz, AXCP-nin sədri Əli Kərimlinin reytinqi 1,9 faiz, Müsavatın başqanı İsa Qəmbərin reytinqi 5,4 faiz, ADP-nin sədri Rəsul Quliyevin reytinqi 3 faiz idi. Bütövlükdə müxalifət ictimai dəstəyin 15 faizinə nail ola bilməmişdi.

"Azadlıq" blokunun iqtisadi məsələlərə dair təşviqat-təbliğat fəaliyyəti də konstruktivliyi ilə seçilmirdi, belə ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinin mümkünsüzlüyü və onun İran ərazisi ilə çəkilməsinin zəruriliyi barədə əsassız fikirlər məhz onun liderlərinə məxsus idi. (Halbuki, sonralar elə həmin siyasətçilər deyirdilər ki, "bu dövlət artıq əvvəllər bizim hava və dəniz sərhədlərimizi pozmuşdur. Təsəvvür edin ki, əgər bu ölkə nüvə silahına malik olsa, Azərbaycanın qarşısına hansı problemlər çıxacaqdır"[1]).

Prezident seçkiləri ərəfəsində İlham Əliyevin 600 min yeni iş yerinin açılacağı barədə verdiyi vəd tənqid olunurdu. Lakin bu məsələdə də müxalifətin tənqidi yenə əsassız oldu, belə ki, artıq 2006-cı ilin sonuna təxminən 500 min iş yeri yaradılmışdı.

Təbii ki, yeni ictimai-siyasi sistemə keçid şəraitində kəskin milli problemlərin həlli çox vaxt bu və ya digər siyasi qrupların təsir dairəsini məhdudlaşdırır. Belə hallarda əks-elita mübarizənin predmetini dəyişməyə cəhd göstərərək, tez-tez hüquq və azadlıqların qatı müdafiəçisi kimi çıxış etməyə çalışır. Franklin Delano Ruzveltin 1934-cü ildə dediyi sözlər

[1] http://www.day.az/news/politics/49788.html

bu gün də aktual səslənir: "Geniş kütlələrə çox böyük rifah gətirəcək iri ümummilli proqram üzərində işləyərkən biz, həqiqətən, kiminsə "ağrıyan yerinə" toxunmuşuq və bundan sonra da toxunacağıq. Lakin bunlar qısa yolla – ümumi rifahın hesabına yüksək mövqeyə və ya sərvətə, bəlkə də, birlikdə hər ikisinə çatmaq istəyənlərin "ağrıyan yerləridir". Yalnız güclü dövlətçilik, tənzimlənən iqtisadiyyat, qanunlara hörmət, bərabərhüquqlu yanaşı yaşamaq prinsipləri Azərbaycanın sabit inkişafını təmin edə bilər. 1993-cü ilin ortalarından başlayaraq, dövlət idarəetməsinin bütün təcrübəsi göstərir ki, iqtidar məhz bu qaydaları rəhbər tutur.

Ölkənin dinamik inkişaf etdiyi şəraitdə "Azadlıq" bloku kütləvi şüurda, elektoratın əsas hissəsi, o cümlədən müxalifət meyilli hissəsi tərəfindən getdikcə daha çox "uğursuzlar klubu", yəni, yeni parlamentə seçilmək şansı olmayan rəqabət qabiliyyətsiz siyasi fiqurların birliyi kimi qəbul edilməyə başlanmışdı. Artıq 2000-ci ilin əvvəlində kütləvi şüurda ciddi dəyişikliklər müşahidə etmək olardı. Ölkənin həyatında kəskin problemlərin olmasına baxmayaraq, insanlar siyasi baxımdan daha fəhmli olmağa başlamış, yalanı həqiqətdən fərqləndirməyi öyrənmişdilər. Ona görə də seçki kampaniyası zamanı öz səslərini itirmək istəmirdilər. İnsanların ovqatı və həyat fəaliyyətinin ritmi göstərirdi ki, onlar iqtidara inanırlar və artıq ölkənin inamla daxil olduğu tamamilə başqa epoxada dövlət quruculuğuna şüurlu surətdə öz töhfələrini verməyə çalışırlar. Belə elektoral fenomeni 2003-cü ilin prezident seçkilərində, müxalif əhval-ruhiyyəli və etirazçı elektoratın çox hissəsi İlham Əliyevə səs verəndə müşahidə etmək olardı. Onlar öz səslərini başqalarına, qabaqcadan uğursuzluğa məhkum olan namizədlərə vermək istəmirdilər. 2005-ci ilin parlament seçkilərində də eyni vəziyyət baş verdi.

Açıq-aşkar idi ki, Müsavat-AXCP-ADP seçki birliyinin parlamentdə siyasi-partiya konfiqurasiyasını dəyişməyə, rəqiblərini sıxışdırmağa və geniş diapazonda səslərini əlindən almağa real şansı yoxdur. Əli Kərimlinin "meydanlara çıxıb açıq şəkildə deməliyik ki, öz ölkəmizin sahibi olmaq istəyirik"[1] kimi çıxışları özünün yaxın ətrafına ünvanlanmış ritorikadan başqa bir şey deyildi. Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində Mərkəzin əlaltılarının siyasətinə müqavimət dövrünü getdikcə daha çox xatırladan mitinq ehtirasları və inqilabi boşboğazlıq iqtisadi dirçəliş və siyasi sabitlik prosesi yaşayan Azərbaycan cəmiyyətinə artıq yad idi.

"Yeni siyasət" – "YeS". Lalə Şövkət Hacıyeva (Milli Birlik Uğrunda Hərəkat), Eldar Namazov (İctimai Forum), Əli Məsimov (Demokratik Ziyalılar Birliyi), Etibar Məmmədov (AMİP-in fəxri sədri) və Eldəniz Quliyevdən (Ziyalılar Birliyi) ibarət mötədil müxalifətçi siyasətçilər qrupu 2005-ci il aprelin 12-də "Yeni siyasət" blokunu təsis etdilər. Onun yaradıcıları bəyan etmişdilər ki, blokun məqsədi vicdanlı, ədalətli və ATƏT-in tələblərinə uyğun olan seçkilər keçirilməsi uğrunda mübarizə olacaqdır.

"Azadlıq" blokundan fərqli olaraq, bu blok radikallığı və pozucu mövqeyi ilə seçilmirdi. "Azadlıq" ümumən hakim rejimin dəyişməsi uğrunda çıxış edirdisə, "Yeni siyasət" təkamül yolu ilə transformasiyaların tərəfdarı idi və parlamentdə təmsilçiliyə çalışmaqla kifayətlənirdi. Lalə Şövkət Hacıyevadan savayı, blokun rəhbərliyində təmsil olunan şəxslər heç vaxt hakimiyyətə qarşı ifrat qərəzliliyi ilə fərqlənməmişlər və dövlətin, cəmiyyətin siyasi və iqtisadi inkişafındakı müsbət dəyişiklikləri əsasən bəyənmişlər.

[1] "Azadlıq" qəzeti, 19 may 2005-ci il.

Beləliklə, "Yeni siyasət" bloku müəyyən dərəcədə loyal müxalifət yerini tuta və daha sivilizasiyalı və daha az radikal mövqelərdən çıxış edə bildi. Lakin bu mövqe parlament seçkilərinə Azərbaycanda hakimiyyəti dəyişmək imkanı kimi baxan siyasi qrupları təmin etmirdi. Müxalifət liderlərindən biri deyirdi ki, "bu blokda təmsil olunan şəxslərin loyal mövqeyi məlumdur. "YeS" blokunu Qərb maliyyələşdirir. "Üçlük" hakimiyyətə münasibətdə daha radikal mövqedədir, onlar isə loyal amerikapərəstdirlər"[1]. Radikal müxalifətin "Yeni siyasət" blokuna belə münasibəti səciyyəvi idi. Bəziləri onu rusiyapərəst, başqaları qərbpərəst meyilli adlandırırdı. Hərçənd, etiraf etmək lazımdır ki, bu ittihamların "günahkarı" xeyli dərəcədə blokun təsisçiləri idi, onlar özlərinin siyasi birliyinin ideoloji yönümünü aydın şəkildə müəyyən edə bilməmişdilər.

"Yeni siyasət" blokunda dörd siyasi partiyanın və yaradıcılarının iddia etdikləri kimi, 72 qeyri-hökumət təşkilatının təmsil olunmasına baxmayaraq, onun sosial bazası kütləviliyi ilə seçilmirdi. Görünür, bu səbəbdən onun təsisçiləri iqtidar əleyhinə mitinq və küçə qarşıdurmaları taktikasını rədd edirdilər. Təhlilçilərin fikirncə, "YeS" bloku Azərbaycanda "üçüncü qüvvə" rolunu oynaya və boş qalmış konstruktiv müxalifət yerini tutaraq, orada möhkəmlənə bilərdi. Lakin blokun tərkibi siyasi və şəxsiyyət baxımından o qədər müxtəlif idi ki, onun uzun müddət fəaliyyət göstərə bilməyəcəyi məlum oldu. Bu, müxtəlif maraqları və məqsədləri təmsil edən şəxslərin müvəqqəti birliyi idi.

Yaradıldıqdan az sonra blok "Avtoritarizmdən demokratiyaya keçid haqqında" adlanan ictimai müqavilənin imzalan-

[1] http://www.transparentelections.org

masının təşəbbüsçüsü oldu. Bir səhifəlik sənəddə təsisçilər həlli zəruri olan yeddi məsələ qarşıya qoymuşdular. Birincisi, blok əhalinin ictimai və siyasi fəallığının güclənməsi, zor tətbiq edilməyən müqavimətin təşkili və bunun da sayəsində noyabr seçkiləri zamanı mümkün ola biləcək saxtakarlığın qarşısının alınması uğrunda mübarizə aparırdı. İkincisi, blok yeni parlamentdə "demokratik, islahatçı və vətənpərvər qüvvələrin" nümayəndələrinin çoxluq qazanmasına, bunun da əsasında konstitusiya yolu ilə avtoritarizmdən demokratiyaya keçidə nail olmaq istəyirdi. Üçüncüsü, prezidentin səlahiyyətlərini məhdudlaşdırmaq məqsədi ilə konstitusiya və qanunvericilik islahatları aparmaq, hökumət üzərində parlamentin nəzarətini gücləndirmək, hakimlərin müstəqilliyini təmin etmək vəzifəsi qarşıya qoyulmuşdu. Dördüncüsü, parlament qarşısında hesabat verən hökumətin formalaşdırılması üçün blok azad və demokratik prezident seçkiləri keçirilməsinin zəruriliyini bildirirdi. Beşincisi, yerli özünüidarə orqanlarının səlahiyyətini genişləndirməyin zəruriliyi vurğulanırdı. Altıncısı, Azərbaycanın Avratlantik məkana inteqrasiyası xəttinin davam etdirilməsinin vacibliyi bildirilirdi. Yeddincisi, blokun təsisçilərinin fikrincə, yuxarıda göstərilən məsələlərin həlli hökmən Qarabağ probleminin ədalətli həllinə gətirib çıxarmalı idi.

İctimai müqaviləni imzalayanlar arasında ASDP-nin həmsədrləri Araz Əlizadə və Ayaz Mütəllibov, AMİP-in sədri Əli Əliyev, ALP-nin icraiyyə komitəsinin sədri Əvəz Teymurxan, parlamentin keçmiş sədri Yaqub Məmmədov, keçmiş baş nazir Rəhim Hüseynov və başqaları var idi. Bunlar, əsasən, Ə.Vəzirovun, A.Mütəllibovun rəhbərliyi dövründə və Heydər Əliyevin prezidentliyinin ilk illərində müəyyən rəhbər vəzifə tutmuş və özlərini ciddi idarəedici və ya

siyasətçi kimi göstərə bilməmiş şəxslər idi. İctimai müqavilə deyilən bu sənədin bəndlərinin adicə siyahısı onun məzmununun demaqoji xarakterini göstərirdi, belə ki, bütün bu problemlər iqtidarın özü tərəfindən artıq həll olunmuşdu və ya həll edilirdi.

Blokun təsisçilərinin çoxu paytaxtda real faydası olmayan mitinqlərin və düşünülməmiş kütləvi tədbirlərin keçirilməsinin əleyhinə çıxdığı bir vaxtda, Lalə Şövkət Hacıyeva ABŞ-dan qayıtdıqdan sonra siyasi davranış taktikasını dəyişərək, küçə aksiyalarının və inqilabın həyata keçirilməsinin zəruriliyindən danışmağa başladı (belə bəyanatdan sonra L.Ş.Hacıyeva "Azadlıq" blokuna, yəni, hələ yaxın keçmişdə haqqında hörmətsizliklə bəhs etdiyi siyasi qüvvələrə qoşuldu). Bununla da o, hiss etdirdi ki, özünün siyasi baxışlarını tələm-tələsik yenidən nəzərdən keçirərək, seçki mübarizəsinin qızğın çağında bir siyasi birlikdən digərinə keçməklə əldən buraxdıqlarının əvəzini çıxmaq üçün seçki-qabağı dövrdə başqa təşkilatların siyasi fəaliyyətinin kölgəsində qalmağa üstünlük verir. "Yeni siyasət" blokunun təsisçilərindən birinin belə davranışı vəziyyətin kəskinləşməsinə və həmin siyasi birliyin tədricən dağılmasına səbəb oldu. Təşkilatların bu siyasi birlikdən çıxması prosesi onların digər, həm radikal, həm də nisbətən loyal birliklərə daxil olması ilə müşayiət edilirdi.

Seçki ərəfəsində blok öz seçicilərini birləşdirməyi və ictimaiyyətin diqqətini yeni siyasi birliyə cəlb edə biləcək kütləvi aksiyalar keçirməyi bacarmadı. "Azadlıq"dan fərqli olaraq, bu blokdan özünün kütləviliyini, təşkilatçılıq bacarığını sübut etmək, liderlərini göstərmək və bir sıra konkret bəyanatlar vermək tələb olunurdu. "Azadlıq" radikal müxalifətin yeni formaya transformasiya olunmuş siyasi

birliyindən başqa bir şey deyildi və cəmiyyət 12 ildən çox idi ki, onu siyasi səhnədə görürdü, halbuki, "Yeni siyasət" mötədil müxalifət kimi uğur qazanmağa imkanı olan təzə birlik idi. Lakin seçkilərdə yalnız şəxsi baxımdan iştirak etməyə məcbur olan blokun təsisçilərinin təşkilati qərarlarının zəifliyi üzündən belə imkandan istifadə edilmədi.

Blokun yaradılmasının məqsədi və onun sonrakı fəaliyyəti arasında mühüm fərq olduğuna görə, təsisçilərin ümidləri özünü doğrultmadı. Seçkilər ərəfəsində seçicilərə vəd edilən qəzet, televiziya və radio elə vəd olaraq qaldı.

"Milli birlik". Liberal Partiyanın bazasında yaradılmış bu blok parlament seçkilərində 70-dək namizəd irəli sürə bildi ki, bu da digər bloklardan, məsələn, qadın və gənclər bloklarından fərqli olaraq, ona "Azadlıq" və "Yeni siyasət"lə yanaşı, televiziya və radioda pulsuz efir vaxtı almağa imkan verdi. Demək lazımdır ki, seçki kampaniyası zamanı bu blok nəzərəçarpan fəallığı ilə fərqlənmədi. Siyasi birliyin lideri L.Ş.Hacıyeva "mitinq eyforiyasının" fəal iştirakçısı idi və başçılıq etdiyi bloka diqqət ayırmaqdansa, "Azadlıq" blokunun kütləvi aksiyalarında iştirak etməyə daha çox çalışırdı. Blokun ümumən elektoral strategiyası yox idi və pulsuz efir vaxtından iqtidarı nüfuzdan salmaq məqsədi ilə istifadə edən radikal müxalifət üçün yalnız əlavə idi.

Öncül məqsədlərin olmaması seçkilərdə blokun büsbütün iflası ilə nəticələndi. Onun ciddi seçki proqramı olmayan rəhbərləri – "şəraitə görə demokratlar" parlament seçkilərindən hakimiyyət piramidasında yuxarıya qalxmaq üçün sosial "lift" kimi istifadə etməyə çalışırdılar. Ancaq bunun əvəzində onlar hakimiyyətə nə qədər çox qara yaxsan, bir o qədər ağıllı görünəcəyini hesab edən meşşanın səviyyəsinə

endilər. Seçki kampaniyasında uğur qazanacağına ümid bəsləməyən blok özünün əsas vəzifəsini L.Ş.Hacıyevanın iddialı maraqlarının önə çəkilməsində görürdü.

Yeni Azərbaycan Partiyası. Əslində, bütün seçki dairələrində namizədlərini irəli sürən iqtidar partiyası 2005-ci ilin parlament seçkilərində təmsil edilən dörd əsas siyasi birlikdən biri oldu.

Gənclər təşkilatları

Gürcüstanlı və ukraynalı həmkarlarının təcrübəsini təkrar edən milli müxalifət gənclər təşkilatları yaratmağa başladı və düşünürdü ki, bunlar Serbiyadakı "Otpor", Gürcüstandakı "Kmara" və Ukraynadakı "Pora" təşkilatlarının analoqu olmalıdır. Bu məqsədlər üçün siyasi cəhətdən naşı, çox vaxt ali təhsili, bəzən isə hətta tam orta təhsili olmayan oğlan və qızlardan istifadə edilirdi. Həmin gənc insanlar çox vaxt müxalifətin siyasi konyunktura alətinə çevrilirdilər.

Parlament seçkiləri ərəfəsində Azərbaycanda bir neçə gənclər təşkilatı yaradılmışdı və onlar bu və ya digər siyasi təşkilata qoşulmuşdu və bilavasitə həmin partiyalar tərəfindən maliyyələşdirilirdi. Lakin intellektual potensialı aşağı olduğuna, üzvlərinin sayının azlığına və təşkilati baxımdan formalaşa bilmədiyinə görə onlar ölkədə ictimai-siyasi proseslərin inteqratoruna çevrilə və gənclərin böyük qruplarını müxalif ictimai-siyasi təşəbbüslərin ətrafında birləşdirə bilmədi. Həmin gənclər təşkilatları üçün sosial sifariş tələbələri radikal müxalifətin aksiyaları və mitinqlərinə cəlb etmək idi. Lakin Azərbaycan tələbələrinin "ümumdünya internet şəbəkəsinə səyahəti" siyasi oyunlardan

üstün tutması tələbə gənclərin iştirakı ilə əhəmiyyətli siyasi qarşıdurma təşkil etməyə imkan vermədi. Üstəlik, son bir neçə il ərzində hökumətin gördüyü tədbirlər tələbə gənclərdə gələcəyə inam üçün zəmin yaratmış və bir növ "sabit inkişaf" sindromu doğurmuşdu. Ona görə də belə bir şəraitdə məsuliyyətsiz siyasi ritorika adamların yalnız məhdud dairəsi, hələ də yalançı sosial-siyasi meyillərin təsiri altında olan və yeni dövrün ruhunu dərk etməyən şəxslər üçün maraqlı idi.

Ancaq hər halda, seçkilər ərəfəsində yaradılmış gənclər təşkilatlarının bəziləri ilə tanış olaq.

"Dalğa" demokratik gənclər koalisiyası dörd müxalif gənclər təşkilatı tərəfindən yaradılmışdı. Təsisçilərinin dediyi kimi, koalisiyanın əsas məqsədi vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna kömək etməklə yanaşı, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması, gənclər təşkilatlarının azərbaycançılıq və dövlətçilik ideyaları ətrafında birləşdirilməsi və sair idi. Təşkilatın ideologiyasının hər hansı konkret məzmunu yox idi və ümumən, inqilabi ssenarilərin həyata keçirilməsinə yönəldilməmişdi. Bu gənclər koalisiyası "Yeni siyasət" blokuna yaxın idi və fəxri sədri seçilən E.Namazov koalisiyanı Qərbin müxtəlif fondlarının ayırdığı qrantlar hesabına maliyyələşdirməyə çalışırdı. Koalisiya öz ətrafında gənc intellektualları birləşdirməyə cəhd göstərirdi, lakin "Yeni siyasət" blokundan ciddi maliyyə dəstəyi ala bilməməsi onun taleyini irəlicədən müəyyən etdi.

2005-ci ilin martında İqtisad Universitetinin bir qrup tələbəsi adı yuxarıda çəkilən təşkilatla eyni olan gənclər təşkilatı – "Dalğa" yaratdı. Lakin yeni "Dalğa"nın əvvəlki ilə ümumi siyasi baxışları yox idi. Demokratikləşmə, azad və ədalətli seçkilər, vətəndaş cəmiyyəti və "xalq şüurunun"

formalaşdırılması uğrunda mübarizə kimi məqsədlər bəyan etməsinə baxmayaraq, təşkilat diqqəti xeyli dərəcədə tələbələrin hüquqlarının qorunmasına yönəldirdi. Bu məqsədlə Tələbələrin Hüquqlarını Müdafiə Komitəsi yaradılmışdı. Nəzərdə tutulduğuna görə, təşkilatda hakimiyyətə nifrət təbliğ olunmalı, etirazçı elektorata ideoloji qida verilməli idi. "Layihənin" müəllifləri V.Yuşşenkonun etirazçı elektoratı öz tərəfinə cəlb etməsinə imkan vermiş Ukrayna təcrübəsindən Azərbaycanda istifadə etməyə ümid bəsləyirdilər. Məlumdur ki, "narıncı" inqilabın başlanğıcında Yuşşenkonun elə bir əhəmiyyətli ictimai dəstəyi yox idi. Üstəlik, seçkilərə lap az qalanda etiraz elektoratının ona münasibəti qeyri-müəyyən olaraq qalmaqda idi. "Pora" gənclər təşkilatının fəaliyyəti də məhz etirazçı elektoratın və gənclərin "narıncıların" tərəfinə cəlb edilməsinə yönəldilmişdi. Bu gənclər təşkilatlarından gənclərin, o cümlədən tələbə və məktəblilərin formalaşmamış şüuruna təsir göstərmək üçün istifadə olunurdu və onların müxalifətin kütləvi aksiyalarına cəlb edilməsi etirazlara kütləvilik xarakteri verirdi. Azərbaycandakı bəzi müxalifət partiyaları buna bənzər gənclər təşkilatları yaratmaqla oxşar siyasi effektə nail olmağa ümid bəsləyirdi.

"Çağrı" Müsavat Partiyasının nəzarəti altında olan gənclər təşkilatı idi. Bu təşkilatın başçısı, Müsavat Partiyasının başqanı İsa Qəmbərin oğlu onu bir növ partiyanın gənclər qanadına çevirmişdi. Təşkilat Müsavat Partiyasının cavan üzvləri və tərəfdarlarından ibarət idi və yalnız radikal müxalifətin kütləvi aksiyalarında fəal iştirakı ilə fərqlənirdi. Bütünlükdə isə, bu gənclər təşkilatı aşkar siyasi çalarına görə uğur qazanmadı. Təşkilat və onun prinsipləri istər etirazçı elektoratı, istərsə də gənclər elektoratını cəlb etmirdi. "Çağrı" ölkənin siyasi məkanında öz yerini tapmağı bacar-

madı. Hətta Müsavat Partiyasının maliyyə dəstəyi də onu dağılmaqdan xilas etmədi.

"Yeni fikir" gənclər təşkilatına AXCP-nin sədri Əli Kərimlinin həyat yoldaşının yaxın qohumu rəhbərlik edirdi. Müsavatın "Çağrı" təşkilatı kimi, bu təşkilat da gəncləri müxalifətin aksiyalarına fəal surətdə cəlb etmək üçün istifadə olunurdu. Lakin digər gənclər təşkilatlarından fərqli olaraq, "Yeni fikir"in AXCP-nin mətbu orqanlarından, – onların arasında "Bizim yol" qəzeti özünün radikalizmi ilə daha çox seçilirdi, – istifadə etməklə ictimai şüura təsir göstərmək vasitələri vardı.

Lakin bu təşkilat onun rəhbəri Ruslan Bəşirlinin həbsindən sonra yaranmış qalmaqalla məşhurlaşdı. Ruslan Bəşirli 2005-ci il iyulun 29-da Tbilisidə şəxsi mənzildə Ermənistan xüsusi xidmət orqanlarının nümayəndəsi Georgi İspryan ilə görüşdə bildirmişdi ki, onun təmsil etdiyi qüvvələr ABŞ Milli Demokratiya İnstitutunun göstərişi ilə hərəkət edir və bu qurumun rəhbərlərindən Azərbaycanda inqilaba hazırlıq barədə konkret tapşırıqlar alırlar. Bu söhbət Ermənistanın xüsusi xidmət orqanları tərəfindən videokasetə yazılmış və Bəşirlini onlarla əməkdaşlığa cəlb etmək üçün görüş iştirakçılarından birinə verilmişdi. Razı olmayacağı təqdirdə, onu həmin kaseti nümayiş etdirməklə hədələmişdilər.

"Yeni fikir" gənclər təşkilatının simasında milli müxalifətin saxta vətənpərvərliyinə jurnalistlər belə münasibət bildirmişdilər: "Bu savadsız əyalət adamının ölkədə vəziyyətin sabitliyini pozmaq üçün pul alması barədə qəbzi necə imzaladığını görəndə bir çoxlarını müxalifətin hərəkətlərindən məyusluq hissi bürüdü. Bu gəncin həmin planları

Demokratikləşmədə ABŞ-ın rolu təkcə şüurlu surətdə və birbaşa güc tətbiq etməkdən ibarət deyildir. 1980-ci illərdə bütün dünyada demokratiya uğrunda hərəkat Amerikanın nümunəsindən ruhlanırdı və onu dəstəkləyirdilər. Ranqunda demokratiya tərəfdarları Amerika bayrağı aparırdılar; Yohannesburqda "Federalist"i çap edirdilər; Praqada We Shall Overcome"ni ifa edirdilər; Varşavada Linkolnu oxuyur və Ceffersondan sitatlar gətirirdilər; Moskvada Con Sununu Mixali Qorbaçova prezident hakimiyyətini necə təşkil etmək barədə məsləhətlər verirdi. Amerikanın demokratik modeli qismən də ona görə cəlbedici idi ki, azadlığı təmsil edirdi, lakin qismən də nəzərə almaq lazımdır ki, həm də güc və uğurun obrazı ilə assosiasiya olunurdu. İkinci Dünya müharibəsindən sonra İkinci dalğa ilə bağlı olduğu kimi, insanlar qalib gəlmiş modeli dəstəkləməyə calışırdılar.

S.Hantinqton
Üçüncü dalğa

ölkəmizin müxalifəti üçün qəpik-quruşa bərabər olan məbləğin, cəmi-cümlətanı 2 min dolların müqabilində həyata keçirməyə razılaşdığını biləndə də məyusluq yarandı. Özü də, elə müxalifətin də etiraf etdiyi kimi, rus dilində heç oxumağı da bacarmayan bu adamın üzərinə "Pora" və "Kmara"dan olan uşaqlara tapşırılana bənzər vəzifə qoyulmuşdu?! Məyusluq. Ruslan Bəşirlinin Xalq Cəbhəsi Partiyası sədrinin müavini Fuad Mustafayevi və özünün müavini Səid Nuriyevi necə güdaza verdiyinin şahidi olduğumuz zaman qəlbimizi məhz bu hiss bürüdü.

Bu müxalifətdən də biz demokratik dəyişikliklər uğrunda mübarizədə qətiyyət gözləyirik? Cavab əvəzinə, dərin məyusluq doğur. Nədənsə, məhz AXCP-nin sıralarında həddən çox problemlər ortaya çıxdığını xatırlayanda bu hiss daha da güclənir. Məhz bu partiyanı nə qədər tanınmış insanların tərk etdiyini xatırlamaq kifayətdir. Xatırladaq ki, həmin siyahıda Cəmil Həsənli, Əliməmməd Nuriyev, Asim Mollazadə var. Yaxud "Azadlıq" qəzetinin baş redaktoru

Qənimət Zahidovla bağlı hadisəni xatırlayaq, müxalifət bunda iqtidarı günahlandırırdı. Ancaq R.Bəşirlini ermənilərlə bir süfrədə yeyib-içməyə, qəbz imzalamağa iqtidar məcbur etmişdi? Yox. O, bunu özü müstəqil şəkildə etmişdi"[1].

AMİP-in lideri Etibar Məmmədov haqlıdır: "Bu hadisə istənilən siyasi təşkilat üçün silinməz ləkədir. Məncə, belə hərəkətə bəraət yoxdur. Bu məsələyə konkret siyasi təşkilat baxımından deyil, dövlətin mənafeləri və milli mənafelər baxımından yanaşmaq lazımdır. İqtidarı və ya müxalifəti təmsil edib-etməməsindən asılı olmayaraq, Ruslan Bəşirlinin hərəkətlərinə münasibətdə hamının mövqeyi bir olmalıdır. Ona görə də xəcalət doğuran bu hərəkət pislənilməlidir. Bu, bizim millətimiz, dövlətimiz üçün də silinməz ləkədir, çünki həmin gənc azərbaycanlıdır, Azərbaycan vətəndaşıdır, Azərbaycan gənclərini təmsil etmək iddiasında olan şəxsdir"[2].

Hər şeydən göründüyü kimi, radikal müxalifət "milli mənafelər" anlayışına çox özünəməxsus şəkildə yanaşırdı. Əks halda, 2005-ci il avqustun 5-də Əli Kərimlinin Ermənistanın daşnakpərəst meyli ilə tanınan "Yerkir" teleşirkətinə müsahibə verməsini necə başa düşmək olar. AXCP liderinin müsahibə verməkdən ötrü nə üçün məhz Ermənistanın, üstəlik də millətçi erməni kütləvi informasiya vasitələrini seçməsini izah etmək çətindir.

Digər müxalifət partiyasının – ADP-nin funksioneri Qurban Məmmədov Ruslan Bəşirli ilə bağlı hadisələrdən sonra keçirilmiş mətbuat konfransında özünün Ruslan Bəşirli məsələsinə münasibəti ilə milli müxalifətin satqınlığı haqqında fikri təsdiqlədi. O, istehza ilə deyirdi ki, "ölkə özünün

[1] http://www.day.az/news/politics/29092.html
[2] http://www.day.az/news/politics/29384.html

belə səviyyədə çıxış edən, dünyada gedən proseslərdən və konfliktologiyadan bu cür baş çıxaran nümayəndəsinin olması ilə fəxr etməlidir". Bəşirlinin iki min dollar məbləğində pul alması məsələsinə toxunan Q.Məmmədov mətbuat konfransında demişdir ki, əgər yerli biznesmenlər ölkənin demokratikləşməsinə vəsait ayırmırlarsa, onda siyasi mübarizəni maliyyələşdirmək üçün alternativ mənbələr axtarmaq lazımdır. "Bəşirli pulu qaytarmaqda səhv etmişdir. Əgər almısansa, onu gənclərin problemlərinə xərcləmək lazım idi"[1].

"Yox" hərəkatının yaradıcıları bəyan edirdilər ki, "bizim məqsədimiz antidemokratik təfəkkürə və şüura qanun çərçivəsində və demokratik metodların köməyi ilə "yox" demək, Azərbaycanda demokratiyanın qurulmasına kömək etmək, xalqa tam və həqiqi azadlıq vermək və bu qələbəni möhkəmləndirmək üçün sürətli addımlarla demokratik dünyaya inteqrasiya olunmaqdır".

Elə həmin dövrdə daha bir gənclər təşkilatı yaranmışdı, lakin o, hökumətpərəst mövqelərdən çıxış edirdi. "İrəli" Ümumrespublika Hərəkatı Prezident İlham Əliyevin siyasi xəttinin – Azərbaycanın ərazi bütövlüyünün bərpasının dəstəklənməsini, habelə respublikanın modernləşməsi və dinamik inkişafında gənclərin iştirakını, gənc nəslin vətənpərvərlik ruhunun yüksəldilməsini fəaliyyətinin əsas prioriteti elan edən gənclər təşkilatı oldu. Mürəkkəb ictimai problemlərə obyektiv mövqedən öz münasibətini ifadə edən hərəkat tələbələrin hüquqları uğrunda mübariz, 2008-ci ilin seçkilərində Azərbaycan gəncliyini dövlətçiliyin, modernləşdirmə xəttinin və islahatların davam etdirilməsinin xeyrinə həlledici söz deməyə inandırmağa qadir olan ictimai-siyasi struktur imici qazana bildi.

[1] www.day.az

"Seçkiqabağı "artilleriya atəşi"

2003-cü ildə qəbul edilmiş Seçki Məcəlləsinin təkmilləşdirilməsi parlament seçkiləri qabağı seçki kampaniyasının əsas diskussiya aspektlərindən biri oldu. Gündəliyə əks-elitanın həllinə nail olmağa çalışdığı üç məsələ qoyulmuşdu: 1) dairə və məntəqə seçki komissiyalarının formalaşdırılması; 2) seçici siyahılarının tərtibi; 3) seçicilərin barmaqlarının mürəkkəblə rənglənməsi.

Müxalifət dairə və məntəqə seçki komissiyalarının bərabər əsasda formalaşdırılmasını tələb edirdi. Lakin mövcud Seçki Məcəlləsi Avropa Şurasının ekspertləri tərəfindən bəyənilmişdi və dairə və məntəqə seçki komissiyalarının formatının dəyişdirilməsinin zəruriliyi məsələsi ortadan çıxdı. Müxalifət funksionerləri deyirdilər ki, "biz tələb edirik ki, seçki komissiyaları siyasi inhisardan çıxarılsın, heç bir siyasi qüvvə burada üstünlüyə malik olmasın"[1]. Müxalifətin iqtidara qarşı irəli sürdüyü digər ittiham bu idi ki, o, Seçki Məcəlləsinin təkmilləşdirilməsinə dair Venesiya Komissiyasının tövsiyələrini yerinə yetirmir.

2005-ci ilin iyununda ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun və Avropa Şurasının Venesiya Komissiyasının tövsiyələri əsasında Seçki Məcəlləsinin 43 maddəsinə əlavə və dəyişikliklər edildi. O cümlədən Seçki Məcəlləsinin "Seçki kampaniyasının fəaliyyətində aşkarlıq" adlanan 40-cı maddəsi də dəyişdirildi. Həmin dəyişikliyə əsasən, müşahidəçilərə seçkilər başa çatandan dərhal sonra yekun protokolları ilə digər sənədlərlə tanış olmaq hüququ verilirdi.

[1] Fuad Mustafayev. "Azadlıq" qəzeti, 7 iyun 2005-ci il.

Seçkilərin şəffaflığını təmin etmək üçün "seçici vəsiqəsindən" istifadə olunması təklif edilirdi ki, bu da seçicinin təkrar səsvermədə iştirakı nəticəsində səslərin saxtalaşdırılmasının mümkünlüyünü istisna edirdi. Bu, "bir seçici, bir səs" formulunun maneəsiz işləməsini təmin etmək cəhdindən xəbər verirdi. Digər bir yenilik seçkiqabağı mübarizəyə başlamaq üçün tələb edilən imzaların sayının 2000-dən 450-yə endirilməsi oldu. Bundan əlavə, namizədin depozitlə qeydiyyata alınması üçün tələb olunan maliyyə vəsaiti 2500 ABŞ dollarına endirildi.

Seçkiqabağı prosesi keyfiyyətcə yaxşılaşdırmaq, yerli özünüidarə və icra hakimiyyəti orqanlarının işinin səmərəliliyini yüksəltmək məqsədi ilə Prezident İlham Əliyev 2005-ci il mayın 11-də "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" Sərəncam imzaladı. 2005-ci il oktyabrın 25-də isə Prezident "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" Sərəncam imzaladı.

Prezidentin birinci Sərəncamı milli müxalifətə əhəmiyyətli təsir göstərdi və ümumən, Azərbaycanda seçkiləri ifratçılıqla izləyən beynəlxalq təşkilatlar üçün xoş sürpriz oldu.

Prezidentin ikinci, 2005-ci il oktyabr tarixli Sərəncamı ilə Milli Məclisə təklif olunmuşdu ki, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və yaxud başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin. Bu, bir çox qeyri-hökumət təşkilatlarına Azərbaycan Respublikasında keçirilən prezi-

dent, parlament və bələdiyyə seçkilərini izləməyə imkan verirdi. Bütövlükdə isə, bu qərar respublikada vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə oldu. Seçkilərin şəffaflığı üçün daha mükəmməl şərait yaratmaq məqsədi ilə elə həmin Sərəncamla seçicilərin barmaqlarını rəngləməkdən ötrü gözə görünməyən mürəkkəbdən istifadə olunması və bu məsələnin qanunvericilik qaydasında nəzərdən keçirilməsi təklif edilirdi.

Hər iki Sərəncam ədalətli və açıq seçkilər keçirməyə hazır olan ölkə kimi Azərbaycanın imicinə xeyli müsbət töhfə verdi. Yüksək səviyyəli xarici qonaqlarla və səfirlərlə bilavasitə və tez-tez görüşərkən vaxtında atılan və siyasi gərginliyin azaldılmasına kömək göstərən, eyni zamanda, təmiz və demokratik seçkilərin keçirilməsini təmin edən belə bir addım haqqında xoş rəylər eşitmişik.

Azərbaycanın seçki praktikası tarixində ilk dəfə olaraq, bütün seçicilərin siyahıları internetdə yerləşdirildi və onun vasitəsilə ümumdünya şəbəkəsinin istifadəçiləri özləri haqqında məlumatları tapa və səs verəcəkləri seçki dairəsini dəqiq öyrənə bilirdilər. Üstəlik, namizədlərə ayrılan efir vaxtı Azərbaycanda əvvəlki seçkilərdə verilən efir vaxtından ümumən çox idi. Bu yeniliklər parlament seçkilərini daha açıq şəraitdə keçirməyə kömək edirdi.

Exit-poll

Seçki məntəqələrindən çıxarkən sosioloji sorğuların – exit-pollun təşkili və keçirilməsi 2005-ci ilin parlament seçkilərində mühüm yeni element oldu. Bu sorğu respondentin anonimliyi saxlanılmaqla, səsvermənin yekun-

larını və seçicilərin kimə rəğbət bəslədiyini izləməyə imkan verirdi. Azərbaycanın tarixində exit-pollun keçirilməsi ilk dəfə hökumətlə razılaşdırılaraq və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin – USAID-in texniki və maliyyə dəstəyi ilə dövlət səviyyəsində təşkil olunmuşdu. Bu tədbirin əhəmiyyəti iqtidarın şəffaf seçkilər keçirilməsinə marağının səviyyəsi ilə müəyyən edilirdi. Oxşar sorğular Azərbaycanda parlament seçkilərini müşahidə etmək istədiklərini bildirən bir sıra digər təşkilatlar tərəfindən də keçirilmişdi. Onların arasında Amerikanın Mitrofsky İntenational, Edisson İnternational və Estoniyanın SAAR-poll təşkilatları da vardı.

Təbii ki, seçki məntəqələrindən çıxarkən keçirilən sosioloji sorğu cavabın qərəzsizliyinə və dəqiqliyinə təminat verə bilməz. Səslərin hesablanması və iştirakçıların seçilməsi sistemi də nöqsansız deyildir. Lakin bu, seçicilərin səslərinin namizədlər arasında təxmini bölüşdürülməsinin mənzərəsini aşkar etməyə imkan verir.

Exit-pollun müasir beynəlxalq praktikası sorğular keçirilməsinin müxtəlif metodlarından istifadəyə, o cümlədən respondentlərin norma hesabı ilə, yaxud təsadüfən seçilməsi metoduna əsaslanır. Lakin istənilən halda, exit-poll məlumatların işlənilməsində mükəmməl və kifayət qədər baha başa gələn telekommunikasiya texnologiyaları və metodlarından istifadə edən, seçicilərin elektoral davranışının qanunauyğunluqları və tiplərini bilməkdən ibarət olan ekspress sorğulardır. Ən başlıcası isə, araşdırmaların bütün mərhələlərində tədqiqatçıların sərəncamında elektoratın sosial-demoqrafik profili haqqında informasiya-məlumat bankı olur, bu isə seçmə məlumatlarının reallaşdırılmasına

nəzarət etməyə və alınmış məlumatların təshih olunmasına imkan verir. Ancaq hər halda, bütün bunlar tədqiqatçılara heç də həmişə mötəbər məlumatlar əldə etməyə və deməli, kifayət qədər dəqiq proqnozlar verməyə imkan yaratmır.

Azərbaycanda seçki məntəqələrindən çıxarkən aparılan sosioloji sorğuların təşkili metodikası müxtəlif yanaşmalara əsaslanırdı. Məsələn, Mitrofsky İnternational, Edisson İnternational və CESSİ Ltd tərəfindən keçirilən exit-poll hər bir seçki məntəqəsində 100-150 respondentin sorğu obyekti kimi seçilməsini nəzərdə tuturdu. Özü də bu zaman seçim elə edilmişdi ki, hər bir seçicinin sorğuya cəlb edilmək ehtimalı var idi. Sorğu anketinə səkkiz sual daxil edilmişdi, bütün respublika üzrə həmin suallara cavab verməli olan respondentlərin sayı isə təxminən 150 min nəfər idi.

Üç milli təşkilat – Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA), Sosioloji Sorğular və Sosial-İqtisadi Proqnozlaşdırma Mərkəzi (QAFQAZ) və Sosial və Marketinq Araşdırmaları Mərkəzi (SİAR) Mitrofsky İnternational və Edisson İnternationalın apardıqları exit-pollun həyata keçirilməsini lokal səviyyədə dəstəkləyirdi.

USAID və PA Consulting tərəfindən təşkil olunan exit-poll sistemi seçim nəticəsində 65 dairəni əhatə edirdi və hər dairədə 15 məntəqədə sorğu aparmaq planlaşdırılırdı.

2006-cı ilin noyabrında keçirilmiş exit-poll açıq və demokratik seçkilərin təmin edilməsinin həlledici məqamlarından biri oldu və Azərbaycan hökumətinin beynəlxalq normalara və standartlara uyğun seçkilər keçirmək iradəsini sübut etdi.

Siyahılar

Müxalifətdən namizədlərin siyahısının tərtibi radikal qüvvələrin fəaliyyətində ən çox müzakirə edilən məsələ oldu. Bir neçə ay ərzində müxalifətin səyləri üç partiyadan – Müsavat, AXCP və ADP-dən namizədlərin vahid siyahısının yaradılmasına yönəldilmişdi. Üstəlik, majoritar sistem milli müxalifətin pozucu pərakəndəliyini tamamilə açıb göstərdi. Müxalifət partiyaları dəfələrlə öz siyahılarını birləşdirməyə, namizədlərin vahid, ümumi siyahısını yaratmağa, iqtidara qarşı resursları cəmləşdirməyə cəhd göstərdilər. Lakin şəxsi iddialar hər dəfə partiya məqsədlərini, habelə ümumi siyasi məqsədləri üstələyirdi. Hakimiyyətlə mübarizədə vahid cəbhə yaratmaq üçün dəfələrlə göstərilən cəhdlər müxalifətin özünə qarşı çevrilib, mümkün əməkdaşlığı sərt daxili qarşıdurmaya yönəldirdi.

Bütün bunların nəticəsində "Azadlıq" blokunun siyahılarına indiyə qədər tanınmayan partiya funksionerləri daxil edildi. Partiya qərargahından konkret dəstək almadan bu namizədlər müstəqil və ya iqtidara yaxın opponentlərə qarşı real siyasi rəqabət təşkil edə bilmirdilər. Bununla yanaşı, müxalifət öz siyahılarına müstəqil hüquq müdafiəçilərini, jurnalistləri və qeyri-hökumət təşkilatlarının nümayəndələrini daxil etməyi qərara almışdı. Beləliklə, o, elektoral sahəni genişləndirməyə və seçkilərdə qələbəni təmin etməyə ümid bəsləyirdi. Siyasiləşdirilməmiş şəxslərin seçkiqabağı mübarizəyə cəlb edilməsi strategiyası bütün müxalif qüvvələrin konkret şəxsləri birlikdə dəstəklədiyi halda uğurlu ola bilərdi. Lakin seçki dairələrinin əksəriyyətində müxalifətin elektoratı "Azadlıq" blokunun, "Milli birlik" blokunun və "Yeni siyasət" blokunun tərəfdarları arasında bölünmüşdü.

Milli müxalifətin bəlası olan dağınıqlıq ona bütöv və səmərəli siyasi orqanizm kimi çıxış etməyə imkan vermədi.

Müxalif elektoral məkan parçalandığına görə, etirazçı elektorat olduqca çətin vəziyyətdə qalmışdı: kimə səs verməli? Müxalifət pat vəziyyətində idi, xüsusən də ona görə ki, seçicilərin tam əksəriyyəti daha aydın fəaliyyət strategiyası ilə çıxış edən müstəqil və iqtidara yaxın namizədlərin tərəfində idi. Namizədlərinin çoxluğuna baxmayaraq, hakim partiya seçkiqabağı mübarizənin qızğın çağında hər bir dairədə iqtidara yaxın namizədlərin sayını əhəmiyyətli dərəcədə azalda bildi və müxalifətin bir neçə namizədinə qarşı iqtidardan bir namizəd saxladı. Nəticədə, hakim partiyanın bütün təşkilati və siyasi fəaliyyəti yalnız həmin namizədin təşviqatına yönəldilmişdi.

Müxalifət isə siyahıların hazırlanmasında bir neçə ciddi səhvə yol vermişdi ki, bu da siyasi mübarizənin nəticəsini əvvəlcədən həll etdi.

Əvvəla, dairələrin əksəriyyətində irəli sürülmüş namizədlər o qədər də tanınmırdılar və elektoratın nəzərində nüfuzları yox idi.

İkincisi, müxalifət hər dairədə bir neçə namizəd irəli sürmüşdü, onların hər biri adəti üzrə iqtidarı tənqid edir, müxalifətdən yalnız özünün həqiqi namizəd olduğunu bildirirdi.

Üçüncüsü, müxalifət bloklarından olan namizədlər seçicilərlə seçkiqabağı işi qura bilmədilər. Onların başları "rəngli" inqilaba hazırlığa qarışmışdı. Ona görə də, yuxarıda deyildiyi kimi, həmin namizədlərin əsas fəaliyyəti paytaxtda keçirilən kütləvi aksiyalarda iştiraka yönəldilmişdi. Halbuki, müstəqil və iqtidara yaxın namizədlər regionlarda geniş fəal təbliğat aparırdılar.

Dördüncüsü, radikal müxalifətin nümayəndələri seçicilərin problemlərinin həllinə dair konkret proqramlar təklif etmir, hakimiyyəti tənqid etməklə və hakim rejimin dəyişdirilməsinin zəruriliyi barədə ritorika ilə kifayətlənirdilər.

Beşincisi, uzun illər partiyada aparıcı mövqelərdə olan tanınmış partiya fəalları "Azadlıq" blokunun hazırladığı namizədlərin vahid siyahısından kənarda qalmışdılar. Onların arasında müxalifət partiyalarının mərkəzi orqanlarının üzvləri, yerli partiya təşkilatlarının rəhbərləri var idi.

Altıncısı, məhz bu və ya digər seçki dairəsində daha güclü mövqeyi olan partiyanın nümayəndələri siyahıdan kənarda qalmışdılar, yəni, müxalifət bloku namizədlərinin qələbəsini təmin etmək imkanı olan yerli təşkilatların rəqabət qabiliyyəti məsələləri nəzərə alınmamışdı. Əksinə, seçicilərə seçki dairəsində son dərəcə zəif mövqeyə malik partiyanın nümayəndəsi olan namizəd təklif edilirdi. S.Cəlaloğlu təəssüflə etiraf edirdi: "Müsavata edilən böyük güzəştlər blokda təmsil olunan digər partiyaları rəqabətqabiliyyətsiz etdirdi... Müsavat Partiyası parlament seçkilərində 47 namizəd irəli sürmüşdü, biz isə 35 namizəd irəli sürmüşdük. Müsavat Partiyasının təkid etdiyi bir sıra bölgələrdə biz güzəştə getdik və seçkilərdə həmin partiyadan olan namizədlərin iştirakına şərait yaratdıq"[1].

Yeddincisi, səriştəsiz təşkilatçılıq işi və maliyyə imkanlarının məhdudluğu müxalifət namizədlərinin əksəriyyətinə keyfiyyətli PR kampaniyası qurmağa imkan vermirdi. Müxalifətin mesajlarının konkret ünvanı və dəqiq ifadə edilmiş sosial yönümü yox idi.

[1] http://day.az/news/politics/49968.html

Bütün bunlar müxtəlif müxalifət qruplaşmalarının seçki-qabağı kampaniya aparmasına kədərli təsir göstərmişdi. Aşkar görünürdü – radikal müxalifət ümid edirdi ki, paytaxtda bir neçə hay-küylü kütləvi aksiya keçirməklə regionlarda öz namizədlərinin qələbəsini təmin edə biləcəkdir. İnformasiya cəmiyyətinin imkanlarının səhv təfsirinə və başa düşülməsinə əsaslanan məntiqi də anlamaq çətin idi. İnformasiyanın nə qədər əlyetən və açıq olmasına, onun sürətlə verilməsi, habelə bir neçə dəqiqə ərzində qəbul edilməsi imkanlarına baxmayaraq, hər halda, seçki kampaniyasının mahiyyəti seçicilərin və namizədlərin canlı ünsiyyətindən ibarətdir. Seçki dairəsindən yüz kilometrlərlə uzaqdakı saxta siyasi ritorika bu və ya başqa seçki dairəsində siyasi fonu əhəmiyyətli dərəcədə dəyişə bilməz.

Dialoq

Müasir ensiklopedik lüğət "dialoq" (yunanca dialogos sözündəndir) anlayışına "şifahi nitq forması, iki və bir neçə şəxsin söhbəti; replikalar mübadiləsi vasitəsilə danışıq əlaqəsi" kimi tərif verir. Siyasi leksikonda dialoq dedikdə, adətən, siyasi prosesin iştirakçılarının danışıqlar masası arxasında bu və ya digər məsələləri müzakirə etmək və mümkün kompromisə gəlmək bacarığı başa düşülür. Dialoq siyasi prosesin iştirakçılarının sivilizasiyalı münasibətlərin qurulmasına və konstruktiv yanaşmaya və sosial gerçəkliyin rasional qavranılmasına əsaslanan siyasi rəqabətə hazır olmalarını şərtləndirir. Siyasi opponentlər yalnız dialoq qurmaq bacarığı və mümkünlüyü sayəsində öz aralarında qarşılıqlı razılaşmaya gəlirlər. Ona görə də vurğulamaq lazımdır ki, iştirakçılar arasında sivilizasiyalı qarşılıqlı müna-

sibətlərin üstünlük təşkil etdiyi siyasi məkanın göstəricisi davakar mövqe tutmaq və hər şeyi inkar etmək deyil, diskussiya aparmaq bacarığıdır. Çox vaxt məhz dialoq ən mürəkkəb siyasi və sosial məsələləri həll etməyə imkan vermişdir ki, bunun da nəticəsində ictimai inkişaf daha sabit olmuşdur.

Milli siyasi məkanda dialoq mövzusu, yəqin ki, iqtidar və müxalifət arasında münasibətlərdə daha tez-tez müzakirə olunan mövzulardan biridir. Son onillik ərzində bu mövzu dəfələrlə ortaya çıxmış və siyasi mübarizələr ətalətində yenidən səngimişdir. Ədalət naminə demək lazımdır ki, hakimiyyətdən əlavə, müxalifət də dialoq tərəfdarı kimi çıxış etmişdir. Lakin sivilizasiyalı siyasi münasibətlər körpüsü yaratmağa göstərilən hər bir belə cəhd bu və ya digər tərəfin günahı üzündən uğursuz olmuşdur. Çox vaxt siyasi prosesin iştirakçıları arasında "barışıq" kütləvi informasiya vasitələrinin ehtiyatsız çıxışları, bəzən də qarşılıqlı irad və ittihamlar nəticəsində pozulurdu.

İqtidar 1998-ci ildən, prezident seçkiləri dövründən başlayaraq, dəfələrlə siyasi prosesin iştirakçıları arasında dialoqun təşəbbüsçüsü kimi çıxış etmişdir. İstər Prezident Heydər Əliyev, istərsə də sonradan Prezident İlham Əliyev dəfələrlə müxalifəti dövlətin inkişafının qarşıya çıxan problemlərini müzakirə etmək və onların həlli yollarını tapmaq üçün danışıqlar masası arxasında əyləşməyə çağırmışdır. Üstəlik, opponentlərindən fərqli olaraq, İlham Əliyev birinci, hələ prezident seçiləndən əvvəl iqtidar və müxalifət arasında dialoq təşəbbüsü ilə çıxış etmişdi. Bu, ölkədə iqtidarın və müxalifətin konstruktiv şəraitdə yanaşı mövcud olduğu sivilizasiyalı, sabit, bütöv siyasi məkan qurulmasına doğru atılmış addım idi. Lakin bütün siyasi tərəflərin səylərinin ümumi birləşdirilməsi

tələb olunan xarici siyasət məsələlərində də müxalifət təkəbbürlə təklikdə qalmağa üstünlük verdi.

2005-ci ilin ortalarında, Azərbaycanda parlament seçkiləri ərəfəsində bu mövzu yenidən aktuallaşdı. Müxalifət partiyalarının və hakim partiyanın qərargahlarında bir tərəfdən AXCP, Müsavat və ADP-nin, digər tərəfdən də Yeni Azərbaycan Partiyasının və Ana Vətən Partiyasının funksionerləri arasında təşkil edilən görüşlər siyasi prosesin iştirakçıları arasındakı qarşıdurmaya son qoymasa da, hər halda, bunu yumşaltmaq və 2005-ci ilin noyabrında parlament seçkilərinin keçirilməsi ərəfəsində və seçkilər vaxtı sabitliyin saxlanılması yollarını müəyyənləşdirmək cəhdi olmalı idi.

Seçkilər ərəfəsində, "inqilab" üçün obyektiv şəraitin yoxluğu aydın olduqda, xaricdən də iqtidarla müxalifət arasında münasibətlərə müsbət ovqat gətirmək cəhdləri müşahidə edilirdi. Təhlilçilərin bir çoxu bildirirdi ki, Azərbaycana çoxmilyardlıq sərmayələr qoymuş Avropa və ABŞ respublikada vəziyyətin ciddi şəkildə pozulmasında maraqlı deyildir. Ona görə də asayişin gözlənilmədən pozulmasına yol verməmək üçün Qərb beynəlxalq təşkilatların və öz diplomatlarının səyləri ilə müxalifət və iqtidarı barışdırmağa çalışır, onların sivilizasiyalı dualizmini yaratmağa ümid bəsləyirdi. Prezident İlham Əliyev seçki ərəfəsində ABŞ səfirinin arzularını sözbəsöz təkrarladı və qarşıdakı parlament seçkilərinin demokratik keçiriləcəyinə açıq şəkildə vəd verdi. Azərbaycan Prezidenti mayın 28-də Respublika günü münasibətilə təntənələrdə bəyan etdi: "Mən şübhə etmirəm ki, parlament seçkiləri şəffaf, ədalətli şəkildə keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapacaqdır".

Lakin milli müxalifət dialoqa konstruktiv münasibətlər yaratmaq yox, siyasi mübarizəni davam etdirmək imkanı kimi baxırdı. Opponentlik edən tərəflərin hər bir görüşü çəkişmələr və söz güləşdirməklə müşayiət olunurdu. Azərbaycan cəmiyyətinin aktual problemlərinə dair bu və ya digər məsələlərin müzakirəsinə cavab olaraq, müxalifət siyasi dividendlər və ya fayda gözlədiyi şərtlər və tələblər irəli sürürdü.

2005-ci ilin ortalarında hakim partiyanın təşəbbüsü ilə iqtidarla müxalifət arasında məsləhətləşmələrin üç mərhələsi keçirildi. Lakin əks-elitanın tutduğu mövqe bu məsləhətləşmələrin demokratiyanın inkişafı naminə real müzakirələrə çevrilməsinə imkan vermədi. "Rəngli" inqilab kabusundan məst olan müxalifət siyasi prosesin iştirakçıları arasında münasibətlərdə "status-kvonu" saxlamağa üstünlük verərək, dialoqdan imtina etdi.

Müxalifətin üzdə görünən birliyi həqiqətdə süni idi, bu, Qərbdəki müəyyən siyasi dairələri Azərbaycanda "rəngli" transformasiyanın mümkünlüyünə inandırmağa yönəldilmişdi. Lakin müxalifətin birliyi üfürülmüş şara bənzəyirdisə, bu şar gec-tez partlamalı idi və belə də oldu. Müxtəlif baxışlara və siyasi niyyətlərə malik, bir müddət "qatı dostlar" olan bu siyasi təşkilatlar qarı düşmənlərə çevrildilər. ADP sədrinin birinci müavini S.Cəlaloğlunun seçkilərdən sonra keçmiş müttəfiqinin ünvanına söylədiyi ittiham buna misaldır: "Müsavatın bütün addımları iqtidarın müdafiəsinə yönəlmişdir... Partiyanın 26 noyabrdakı mitinqindəki siyasəti, yekun protokolunu imzalaması bunu təsdiq edir... Onlar istər parlamentin iclaslarında, istərsə də təkrar seçkilərdə iqtidarla əlbir hərəkət edirdilər... Mən onlara özlərində güc tapmağı və öz simalarını saxlamağı məsləhət görürəm. Əks halda, bu taktika

onları məhv edəcəkdir”[1]. Halbuki, belə bəyanatlardan cəmi bir neçə ay əvvəl Müsavatın başqanı İsa Qəmbər şəstlə deyirdi: “Blokun liderləri arasında heç bir ixtilaf yoxdur... Bizim vahid məqsədlərimiz var və bundan sonra da bu blok çərçivəsində əməkdaşlığımızı davam etdirmək niyyətindəyik”[2].

Müzakirələr zamanı tərəflər öz tezislərini irəli sürürlər və hər kəs öz fikrini müdafiə edir. Ancaq həqiqətdə isə, siyasi qüvvələrin dialoqunun subyektləri dəqiqləşdirilməli və tərəflər müzakirə olunan məsələləri müəyyən etməlidirlər”[3].

Radikal müxalifət partiyaları dialoqdan boyun qaçırmaqla təsdiq etdilər ki, onlar rəqabətqabiliyyətli siyasi məkan qurmağa hazır deyillər və bunu istəmirlər, əksinə, özlərinin iddialı planlarını reallaşdırmaq naminə yalnız idarəetmə formasının konstitusiyaya zidd şəkildə dəyişdirilməsinə çalışırlar. AXCP idarə heyətinin üzvü Fuad Qəhrəmanlının sözləri bunu təsdiq edirdi: “İqtidarla hər hansı təmas müxalifətə yalnız ziyan gətirə bilər”. ADP sədrinin müavini Taliyət Əliyev isə deyirdi ki, “hakimiyyətlə bir masa arxasında oturub, hər hansı problemin müzakirəsindən söhbət gedə bilməz”[4].

Ziddiyyətlər

Radikal müxalifət iqtidarla qarşıdurma, dövlət idarəçiliyi formasını və milli inkişaf xəttini dəyişməyə daim cəhd göstərdiyi illər ərzində dəfələrlə birləşməyə çalışmış, lakin heç cür ümumi məxrəcə gələ bilməmişdir. 2003-cü ildə

[1] http://www.day.az/news/politics/49051.html//19 may 2006-cı il.
[2] http://www.day.az/news/politics/35986.html//30 noyabr 2005-ci il.
[3] http://www.day.az/news/politics/45374.html//1 aprel 2006-cı il.
[4] “Hakimiyyətlə dialoq vaxt itkisidir”. “Azadlıq” qəzeti, 29 iyun 2005-ci il.

müxalifət hər halda birləşdi, ancaq yuxarıda dediyimiz kimi, bu birlik "müttəfiqlərin" daxili çəkişmələrinin və siyasi hiylələrinin "qurbanı" oldu. 2005-ci ildə müxalifət yenidən birləşməyə cəhd göstərdi, lakin "niyyətli kəbinin" saxta xarakteri seçkilərdən dərhal sonra üzə çıxdı.

Tədqiqatçıların fikrincə, bütün inqilablar və inqilabqabağı vəziyyətlər üçün qüvvələrin yenidən qruplaşmasının mürəkkəb prosesləri, güclənməkdə olan ayrılma və qütbləşmə səciyyəvidir. Onlar bunun səbəbini üç məsələdə görürlər:

"Birincisi, istənilən koalisiyanın iştirakçılarının maraqları tez-gec hökmən ayrılır. Bu, müsbət yox, mənfi proqram üzərində qurulmuş birliyin əsasının süniliyi ilə şərtlənir...

İkincisi, inqilabın gedişində iqtisadi problemlər kəskinləşir...

Üçüncüsü, siyasi qüvvələrin yenidən qruplaşması və ayrılması fonunda kütlələrin ümumi radikallaşması baş verir"[1].

Bizim müxalifətin seçkilər ərəfəsində birləşə və qarşıya qoyulmuş məqsədə çatmaq üçün mütəşəkkil cəbhə ilə çıxış edə bilməməsinin səbəblərini nəzərdən keçirək. Bəzilərinin düşündüyü kimi, Azərbaycanda "məxməri" inqilab həyata keçirməli olan müxalifətin uğursuzluğunun mahiyyəti nədədir? Axı, hələ seçkilərdən xeyli əvvəl indiki iqtidarın tezliklə süqut edəcəyini bildirənlər lap çox idi. Özü də bu zaman bir-birinə tamamilə əks olan səbəb və dəlillər gətirirdilər.

Bizim fikrimizcə, müxalifətin birləşməsinin baş tutmamasının səbəblərindən biri müxalifət siyasi partiyalarının üstünlük verdiyi ideoloji məsələlərdəki fərqlərin olması idi.

[1] И.Стародубровская, В.Мау. Великие революции. М., 2004, стр.140.

"Azadlıq" blokuna ideoloji cəhətdən müxtəlif qütblərdə dayanan, dövlət və cəmiyyətin ümumi inkişafına eyni və ya oxşar baxışları olmayan partiyalar daxil idi. Lakin təkcə ideoloji yönüm deyil, həm də partiyalardakı liderlik təsisatı, daha dəqiq desək, hamının qəbul etdiyi liderin olmaması Azərbaycanda baş tutmayan "narıncı, qızılgül, bənövşə və sair" inqilabların uğursuzluğunu şərtləndirdi. Siyasi fitnə-fəsadlar və çəkişmələr mühitində yetişmiş bu siyasətçilər sivilizasiyalı siyasi rəqabətin yetərli iştirakçıları ola bilmədilər. Milli siyasi məkanda "birincilik" uğrunda mübarizə müxalifət liderlərinin bir növ öz aralarında oynadıqları oyuna çevrildi. İqtidara isə bircə onu izləmək qalırdı ki, "seçkilər üzrə dünənki müttəfiqlərin" bir-birinə nifrəti güc tətbiq edilən açıq daxili münaqişəyə çevrilməsin. Mövcud praktikadan fərqli olaraq, – yəni, siyasi məkanda birliklər və bloklar yalnız seçkiqabağı dövrdə yaranır və seçkilərdən sonra dincliklə dağılır, – Azərbaycan müxalifətindəki radikal cərəyan müttəfiqlərdən ayrılmağın təkcə ona xas olan prinsipini seçdi.

Artıq neçənci dəfədir ki, müxalifət partiyaları seçkilər ərəfəsində bir növ mini-QHT-lər yaradaraq, guya ətrafında vətəndaş cəmiyyəti nümayəndələrinin də toplaşdıqları iri siyasi birliklər imici qazanmağa cəhd göstərir. Təəssüf ki, bu cür institusionallaşma imitasiya, zahiri görüntüdür və üçüncü sektoru inkişaf etdirmək və ya yetərli vətəndaş cəmiyyəti formalaşdırmaq məqsədi daşımayaraq, yalnız bu partiyaların ayrı-ayrı liderlərinin şəxsi maraqlarına xidmət edir.

Şəxsi iddialı yanaşma və innovasiya başlanğıcının olmaması milli müxalifətin məğlubiyyətini labüd surətdə irəlicədən sezdirir və proqramlaşdırırdı. Məlumdur ki, siyasi xəyanətkarlıq cəmiyyətin maraqları barədə qətiyyən düşün-

məyərək, öz şəxsi iddiaları naminə partiya xəttini dəyişən siyasətçinin zahiri və daxili simasının formalaşmasına təsirini göstərir, nəticədə isə patiyanın prioritetlərini ümummilli problemlərə şəxsi baxışlarla əvəz edir. Təəssüflə demək lazımdır ki, bizdə hər hansı başqa ictimai struktura nisbətən, müxalifət mühiti daha tez-tez mürəkkəb transformasiya dəyişiklikləri nəticəsində üzə çıxan mənfi hallar nümayiş etdirir.

Milli müxalifət rəhbərlərinin 2000-ci ildə, yəni, müstəqil Azərbaycanın tarixində ikinci parlament seçkilərindən əvvəl və 2005-ci ilin noyabr seçkiləri ərəfəsində bir-biri barədə verdikləri bəyanatları müqayisə etsək, iqtidara alternativliyə iddia edənlərin bir-birinə necə nifrət bəslədiklərinə əyani şəkildə əmin ola bilərik. ADP-nin başlıca mətbuat ruporu 2000-ci ildə Ə.Kərimlini "siyasi makler" adlandırmışdı, 2005-ci ildə isə Ə.Kərimli və ADP-nin həmsədri S.Cəlaloğlu artıq vahid blokda təmsil olunmuşdular. Üstəlik, 2000-ci ildə Müsavat və ADP Əli Kərimlini və AXCP-ni iqtidarla əməkdaşlıqda günahlandırırdı, 2005-ci ildə isə artıq AXCP və ADP eyni ittihamı Müsavata qarşı sürürdü.

Səciyyəvi cəhət odur ki, bu ittihamlar müxalifət partiyalarından biri seçkilərdə iştirak barədə az-çox rasional təklif verəndə, yaxud parlamentin işində iştirak edəndə səslənirdi. Radikal müxalifət nümayəndələrinin fikrincə, konstruktiv dialoq və fikir mübadiləsi təklif edən hakimiyyətlə hər hansı sivilizasiyalı qarşılıqlı münasibət, iqtidarın apardığı siyasətin müsbət cəhətlərinin etiraf olunması yarınmaq və müxalifətin maraqlarına xəyanətdir. Parlamentin iclaslarında iştirak etmək məsələsinə də bu baxımdan yanaşılırdı. Bu səbəbdən də haqlı sual doğur: əgər müxalifətin bu və ya digər lideri seçkilərdə qalib gəldikdə parlamentin işində iştirakdan imtina

edirsə, bu iştiraka razılıq verən isə müxalifətin sıralarından "getməlidirsə", onda seçkilərdə iştirak etmək və elektoratı həmin liderlərə səs verməyə çağırmaq nəyə lazımdır?

Siyasi riyakarlıq müxalifətin cəmiyyətdə öz yerini tutmaq üçün göstərdiyi bütün cəhdlərin iflasa uğramasının əsas səbəblərindən biri olmuşdur. Təkcə konstruktiv yanaşmalara və prinsiplərin rasionallığına qadir olmaması deyil, həm də düzgün strateji konsepsiya qurmaq bacarığının yoxluğu müxalifətin seçkilərdə uğursuzluğunu şərtləndirir. Müxalifət liderləri özlərinin vacib şəxsiyyət olmaları barədə xəyallardan heç cür uzaqlaşa bilmirlər və buna görə də partiyaların daxilindəki dəyişikliklərin başında durmağa, mühüm partiyadaxili transformasiyalar dövrəsinə başlamağa qadir deyillər. Onlar milli məkanda siyasi fəaliyyətin forması və məzmununun qiymətləndirilməsində rasional, konstruktiv diskursu dərk etmirlər.

Liderlik ağır və olduqca məsuliyyətli yükdür və onun altına yalnız səbirli və müdrik siyasətçilər girə bilər. Sadəcə, siyasi həyatın gözlənilməz dəyişikliyi üstündən keçməyə, onlara göz yummağa çalışan hər bir siyasətçi özünün fəaliyyətinin mənəvi məzmunu barədə birmənalı şəkildə düşünməlidir. "Siyasətin əsası mənəviyyatdır" tezisinə politoloji tədqiqatlarda tez-tez rast gəlmək olur. Əlbəttə, mənəviyyat siyasəti ədalətli edir. Lakin bizim yaşadığımız ziddiyyətli dünyada siyasət insan fəaliyyətinin elə bir mürəkkəb sahəsidir ki, bəzən taleyüklü məsələləri həll etmək üçün bu prinsipi nədəsə pozmaq lazım gəlir. Hərçənd deyim ki, bu, qəbul edilmiş qərara haqq qazandırılması demək deyildir. Geniş səpkidə yanaşdıqda, mənəviyyatsız siyasət köksüz ağaca bənzəyir. Belə ağac imitasiyadır, görüntüdür, yaşaya bilməz və deməli, mənəvi tərəfi olmayan siyasət

mənasız, qısamüddətli, ötəridir. Azərbaycan cəmiyyətində "öz nəfəsini" daim iqtidara hiss etdirməyi, onu yaradıcılıq ritmində saxlamağı bacaran layiqli opponent qüvvə görməyi nə qədər istəsək də, deməliyik ki, bizim radikal müxalifət bu prinsipi öz fəaliyyətindən çıxarmış, ötəri maraqlarını rəhbər tutaraq, "müttəfiqlərdən" düşmən, düşmənlərdən isə "müttəfiqlər" yaratmışdır. Belə müxalifət siyasi məkandan dövlətin rifahı üçün deyil, özünün korporativ məqsədlərini və şəxsi iddialarını reallaşdırmaqdan ötrü istifadə edir.

Ümumən, radikal müxalifət düşərgəsi seçkilər qabağı bir sıra mühüm səhvlər etmişdir ki, bunlar da müxalifət məkanının ucdantutma tənəzzülünü, elektoratın etibarının itirilməsini və blok üzrə "müttəfiqlər" arasında mühüm fikir ayrılıqları yaranmasını şərtləndirmişdir.

Radikal müxalifətin bütün taktikası ictimai şüurda ölkədə hakimiyyəti "inqilabi" yolla dəyişməyə qadir olan partiyalar obrazının formalaşdırılması üzərində qurulmuşdu. Lakin hətta etiraz elektoratı olmasa da, elektoratın bir hissəsi mühüm iqtisadi nailiyyətlər fonunda dağıdıcı siyasi dəyişiklikləri arzulamırdı və iqtisadi sabitliyə və təkamül yolu ilə ictimai inkişafa səs verdi.

Müxalifətin fəallığının zirvəsi parlamentin keçmiş sədri R.Quliyevin qayıdışının KİV-lərdə cidd-cəhdlə şişirdilməsi oldu, radikal müxalifət bundan istifadə edərək, öz tərəfdarlarının sayını artırmağa ümid bəsləyirdi. Ancaq hadisələrin sonrakı gedişi göstərdi ki, vəd olunmuş qayıdış baş tutmadı. R.Quliyevin təyyarəni döndərib Simferopolda yerə enməsi iqtidarın günahı deyildi. İri məbləğdə maliyyə fırıldaqlarına görə dəmir barmaqlıqlar arxasına düşmək qorxusu bu "siyasətçiyə" doğma torpağa qədəm qoymağa və "siyasi əzabkeş"

obrazında görünməyə imkan vermədi. Oktyabrın 17-də, R.Quliyevin Bakıya qayıtmaqdan imtina etmək xəbəri gələndə radikal müxalifət qəti şəkildə sındı. ADP öz sədrinin qayıdacağına böyük ümidlər bəsləyirdi, eləcə də digər müxalifət partiyaları. Radikal müxalifətə elə gəlirdi ki, R.Quliyevin qayıtması müxalifətə parlament seçkilərində qələbəni təmin edəcəkdir. Lakin R.Quliyev 2000-ci il, 2003-cü il və 2005-ci il seçkiləri ərəfəsində qayıtmağı vəd etmiş və hər dəfə də özünün siyasi tərəfdaşlarının ümidlərini boşa çıxarmışdı.

Radikal müxalifət isə özünün bütün "inqilabi taktikasını" Rəsul Quliyevin gəlməsinə bağlayırdı. AXCP-nin və Müsavatın liderləri ümid edirdilər ki, bu fiqur "rəngli" inqilabda onların qələbə şansını xeyli artıracaqdır. Lakin bu planlar həyata keçmədi, dəfələrlə bəyan etməsinə baxmayaraq, müxalifət Rəsul Quliyevi qarşılamaq üçün hava limanına özünün 50 min nəfər tərəfdarını çıxara bilmədi, "məxməri" transformasiyanın legitimləşdirilməsi baş tutmadı.

Müsavatın liderinə nifrətlə qarışıq qısqanclıq Rəsul Quliyevin, Sərdar Cəlaloğlunun və Əli Kərimlinin ürəyində daş kimi asılıb qalmışdı və onlara dinclik vermirdi. Onlar Müsavata "Seçkilər-2005" deyilən siyasi oyunun "zəif bəndi" kimi baxırdılar. Buna Müsavatın başqanı İsa Qəmbərin 2003-cü ilin prezident seçkiləri vaxtındakı davranışı bəhanə verirdi. Müxalifətçilərin fikrincə, o, 2003-cü il oktyabrın 15-16-da talançıların başında durmaqdan imtina etməklə, siyasi zəiflik və qorxaqlıq göstərmişdi. İsa Qəmbərin müttəfiqləri Müsavat Partiyasının həbs olunmuş funksionerlərinin və Ümid Partiyası sədrinin müdafiəsi üçün səsini qaldırmamasını ona bağışlamırdılar. Siyasətçinin belə davranışı çox vaxt ondan ötrü fəlakətli olur. Əli Kərimli hətta blok

üzrə müttəfiqi ola-ola, Müsavata zərbə endirmək üçün bu faktdan istifadə etdi.

Beləliklə, İsa Qəmbərin etimad limiti nəinki ictimai şüurda, həm də onun "qatı müttəfiqləri" arasında da tükənmişdi.

Xəyanətkarlar bütün dövrlərdə olmuşdur. Milli müxalifətin liderləri bunu siyasi mübarizə tarixindən yaxşı əxz etmişlər. Ona görə də imkan düşən kimi, onlar öz fürsətlərini əldən buraxmamış, hakimiyyəti zorla ələ keçirmək planlarının reallaşdırılması üçün satqınların resurslarından istifadə etməyi qərara almışlar. İqtisadi inkişaf naziri F.Əliyev, səhiyyə naziri Ə.İnsanov, Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsinin müdiri A.Muradverdiyev, "Azərikimya" Dövlət Şirkətinin başçısı F.Sadıqov, keçmiş maliyyə naziri F.Yusifov və bir sıra başqa şəxslər yaxınlaşmaqda olan parlament seçkilərindən istifadə edərək, dövlət çevrilişinin həyata keçirilməsində radikal müxalifəti dəstəkləyir və maliyyə vəsaiti ilə kömək edirdilər. Lakin qəsdin üstünün açılması və onların həbsi radikal müxalifətin bütün planlarını puça çıxardı. Yüksək vəzifəli məmurlar ifşa və həbs olunduqdan sonra müxalifətin köpü kəskin şəkildə yatdı, onun düşərgəsində ziddiyyətlər gücləndi, daimi maliyyə yardımının axını azaldı. Kütləvi aksiyaların və onların iştirakçılarının sayı əhəmiyyətli dərəcədə aşağı düşdü.

Parlament seçkiləri ərəfəsindəki hadisələr və hakimiyyət nümayəndələrinin bunlarda iştirakı bizdə belə bir qənaəti möhkəmləndirdi ki, "məxməri" və ya "rəngli" inqilablar xarici qüvvələrin tapşırığı və nəzarəti altında həyata keçirilir. Bax, buna görə də ölkə iqtidarı müdriklik və iradə nümayiş etdirərək, pozucu qüvvələrə dövlət çevrilişi planlarını həyata keçirməyə imkan vermədi. Azərbaycan iqtidarı seçkilərdən hələ

xeyli əvvəl bütün "inqilab oyunu" prosesini öz nəzarəti altına aldı, ideoloji xarakterli qabaqlayıcı preventiv tədbirlər gördü.

İqtisadi inkişaf naziri Fərhad Əliyevin Qərbin, habelə beynəlxalq fondların nümayəndələri ilə tez-tez baş verən və şübhə doğuran əlaqələri, onların ona aşkar vurğulanan münasibətləri, onun iqtidar komandasının diğər üzvlərinə qarşı qoyulması və ifşa olunmaq ərəfəsində verdiyi həddən artıq "cəsarətli" siyasi bəyanatlar da diqqətdən kənarda qalmadı. Bütün bunlar açıq-aşkar göstərirdi ki, o, öz "ağalarından" kart-blanş – tam fəaliyyət sərbəstliyi alırdı. Bəlkə də başqa cür idi, ondan maskalanmaq üçün istifadə olunurdu. Bu halda, oyuncaq prezidentilyə namizəd kadr arxasında qalırdı.

Hər halda, Fərhad Əliyevin "inqilab üzrə tərəfdaşı" Akif Muradverdiyevə "narahat olma, bizim arxamızda Amerika dayanır" deməsi çox mətləbdən xəbər verir. Hərçənd, etiraf etmək lazımdır ki, ABŞ-ın yüksək vəzifəli nümayəndələri Azərbaycan rəhbərliyi ilə görüşlərində Prezident İlham Əliyevin hakimiyyətinin legitimliyini və onu dəstəklədiklərini daim bəyan edirdilər. Eyni zamanda, onlar hər dəfə vurğulayırdılar ki, dərin siyasi və iqtisadi islahatların aparılmasının və ölkənin demokratikləşməsinin sürətini artırmaq lazımdır. İqtidarın nümayəndələri ilə hər bir görüşdə Qərb müxalifətin fəaliyyəti üçün əlverişli şərait yaradılmasının zəruriliyi məsələsini qoyurdu. Bunun cavabında onlara bildirilirdi ki, biz müxalifətin statusunun sivilizasiyalı, demokratik anlamına tərəfdarıq: müxalifətin fəaliyyəti qanun daxilində olmalıdır və dağıdıcı yox, yaradıcı xarakter daşımalıdır. Azərbaycan hakimiyyətində gözəl başa düşürdülər ki, müxalifət dairələri seçkilərə hazırlaşır. Seçki onlar üçün yalnız bir bəhanədir. Onlar özləri

üçün hazırlanmış layihəni – seçki adı altında hakimiyyəti ələ almaq layihəsini həyata keçirməyə can atırdılar.

"Məxməri" transformasiyanın əsas oyunçularını bir yerə toplamaq barədə "inqilabın siyasət texnoloqlarının" sifarişini həyata keçirən ADP, AMİP, Müsavat və Liberal partiyalarının liderləri nəzərdə tutduqları dəyişikliklər zamanı özlərini əsas oyunçu kimi görmək fürsətini əldən buraxmaq istəmirdilər. "Azadlıq" bloku üzvlərinin hər biri yalnız özünü Azərbaycanda baş verəcək "narıncı" inqilabın lideri kimi görürdü. Partiyalarda yeniləşmənin olmaması, funksionerlərin ideya-siyasi baxımdan durğunluq keçirməsi həmin partiyaların idarə olunmasının avtoritar sisteminin yaranmasına gətirib çıxardı. Seçiciləri dedi-qodu və intriqaları özlərinə gündəlik peşə edənlərə səs verməyə çağırırdılar. Siyasi fəallıq görüntüsü yaradan radikal müxalifət liderləri özlərinə "görkəmli" siyasi xadim imici formalaşdırmaq istəyirdilər. "Hakimiyyəti ifşa etməyə" başları qarışan partiya "kahinləri" elektorat üçün maraqlı ola biləcək real siyasi-iqtisadi təşəbbüsləri "unutmuşdular". Radikal müxalifətin mitinqləri, nümayişləri və etiraz aksiyalarında iştirak edənlərin sayının durmadan azalmasının səbəblərindən biri də elə bu idi.

Seçkilərdən sonrakı dövrdə müxalifət düşərgəsində baş verən və getdikcə açıq münaqişəyə çevrilən ziddiyyətlər müxalifət fəaliyyətinin ucdantutma durğunluğuna gətirib çıxardı. Radikal müxalifət siyasi addımlarının əsassız olduğunu anladı. Lakin o, siyasi mübarizənin yeni yollarını görə bilmirdi. Nəticədə cəmiyyətdə "yeni müxalifətə" ehtiyac yarandı, lakin müxalifət partiyalarında avtoritarizmin hökm sürdüyü şəraitdə bu baş verə bilərmi? Seçkilərdə qalib gələn, öz mandatlarından imtina etməyən, lakin partiyalarında üzvlükdən kənarda qalan müxalifət nümayəndələri

buna əyani sübutdur. "Yeni müxalifət" mövcud radikal müxalifət daxilində yetişməlidir, yoxsa o, tamamilə başqa siyasi qüvvələr tərəfindən formalaşdırılacaqdır? Aşağıda bu suala cavab verməyə çalışacağıq.

Tövsiyə və tələblər

2005-ci ilin parlament seçkiləri Azərbaycanın regional geosiyasətində dönüş məqamı kimi yadda qaldı. Aydındır ki, Azərbaycan müstəqil şəkildə, dövlət suverenliyini qoruyub saxlayaraq və ayrı-ayrı dövlətlərin və beynəlxalq təsisatların siyasətinin əlavəsinə çevrilmədən inkişaf etməyə qadirdir. Demokratiya dünyanın istənilən yerində uyğunlaşmağa qadir olan canlı orqanizmdir. Amma bütün canlı orqanizmlər kimi, o da həyatın bütün arxaik forma və düşüncələrindən doğan bir sıra adaptasiya çətinlikləri ilə üzləşir. Demokratiya birdən-birə, öz-özünə və tez-tələsik həyata keçirilə bilməz. Demokratikləşmə prosesi iqtisadiyyatda islahatlar aparılmasından daha sərt və çətin prosesdir. Ona görə də demokratik düşüncənin cəmiyyətin kollektiv şüurunda üstün yer tutması üçün bəzən illər, bəlkə də, onilliklər lazımdır. Bəzən cəmiyyət tətbiq edilən yeni dəyərlərə qarşı müqavimət göstərdiyi üçün demokratik dövlət qurmaq cəhdi hətta on illər ərzində də real bəhrəsini vermir.

İraq və Əfqanıstanın timsalında görünür ki, demokratiya ənənələrinin heç vaxt olmadığı ölkələrdə bu işi həyata keçirmək nə qədər çətindir. Eyni vəziyyət siyasi, iqtisadi, sosiomədəni sahələrdə transformasiya dövrünü yaşayan bəzi başqa yerlərdə də yaranır. Belə hallarda davranışın və sosial həyatın yeni modellərinin birdən-birə tətbiqindən, yaxud universal demokratik dəyərlərin hər yerdə bərqərar ol-

masından danışmaq çətindir. Demokratiyanın sürətlə tətbiqinə yönəlmiş strategiya hökmən qavrayışda frustrasiyaya, çətinliklərə, nəticədə isə demokratiyadan ucdantutma üz döndərmək kimi zəiflədici effektlərə səbəb olur. Demokratik ideallar yalnız ictimai şüurda özünə tədricən, mərhələlərlə yer tapanda, onu ictimai-siyasi həyatın bütün sahələri ilə korrelyasiya olunan yeni məcraya yönəldəndə öz bəhrəsini verir.

Postsovet ölkələrinin əksəriyyətində rast gəldiyimiz siyasətin qərbləşməsi intensiv şəkildə bütün dünyanı bürümüş "üçüncü demokratik dalğa"nın əsas seqmentinə çevrilmişdir. Modernləşdirmə vasitəsilə milli məkana transformasiya olunan qərbləşmə özü ilə yeni dünyagörüşü çalarları və siyasi davranış formaları gətirir. Çox vaxt belə yeniliklər xüsusilə Şərq aləmində təzə mühitə çətinliklə uyğunlaşır. Amma bununla bərabər, demokratik dəyərlər və liberal ideyalar tədricən cəmiyyətə nüfuz edir və hər yerdə dövlətin yetərincə inkişafını və ictimai tərəqqini şərtləndirən elementə çevrilir. Lakin unutmaq olmaz ki, qərbləşmə ziddiyyətlə dolu hadisədir, çünki o, ölkələri müstəqil daxili və xarici siyasətin həyata keçirilməsinə əngəl törədən şərtlər qarşısında qoyur.

2005-ci ilin noyabrında keçirilən parlament seçkiləri sübut etdi ki, birincisi, Azərbaycan qərbləşmə yolunu tutarkən daxili və xarici siyasətində öz müstəqilliyini, suverenliyini saxlaya bildi; ikincisi, Azərbaycan cəmiyyəti daxilən bütünlüklə yaradıcı, təkamül yolu ilə inkişafa istiqamətlənmişdir; üçüncüsü, hakimiyyətin həyata keçirdiyi siyasət Azərbaycan xalqının arzu və istəklərinə cavab verir.

Aparıcı Qərb ölkələrinin paytaxtlarının hakimiyyət mərkəzlərinin əli ilə əcnəbi kütləvi informasiya vasitələri, müxtəlif qeyri-hökumət təşkilatları, habelə özlərini "Azərbaycan tarixi-

nin yaradıcıları" adlandıran bəzi emissarlar tərəfindən olan güclü təzyiqə baxmayaraq, Azərbaycanda keçirilən parlament seçkiləri seçicilərin iradəsinin təcəssümünə çevrildi. Bu seçkilər ölkənin tarixində "məxməri" transformasiyanın baş verəcəyi bildirilən və bununla bağlı hətta konkret ssenarilər yazılan yeni dövrün başlandığını göstərdi.

1. Moldova ssenarisi. Bu ssenariyə görə, müxalifət parlamentdə kifayət qədər yerə sahib olaraq, hakim partiyanı konstitusiya çoxluğundan məhrum edərdi. Bu halda parlament ölkədə gərgin ictimai-siyasi proseslərin əsas vasitəsinə çevrilir, müxalifət geniş tribuna əldə edir ki, bu da 2008-ci il seçkilərində prezident kürsüsünə sahib olmaq üçün geniş yol açardı.

2. Gürcüstan və Ukrayna ssenariləri. Xarici sponsorların dəstəyi, eləcə də yüksək mənsəbli məmurların maliyyə yardımı sayəsində müxalifət kütlələri küçələrə çıxarmalı, iqtidar elitası nümayəndələrinin əks-elita tərəfə keçməsini təşkil etməli, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin tam pozulmasını təmin etməli idi. Gürcüstan ssenarisinin oxşarı 2008-ci il prezident seçkilərini gözləmədən ölkə başçısının devrilməsini və hakimiyyətə müxalifət liderlərinin gəlməsini nəzərdə tuturdu.

3. Nadir hallarda müzakirə edilən, lakin müxtəlif təhlilçilərin diskussiyalarının gündəliyində olan üçüncü ssenari hakim elitanı istənilən yolla devirmək üçün seçkilərdən sonrakı dövrdə ölkədə sabitliyin total şəkildə pozulmasını nəzərdə tuturdu. Bu variant kütləvi etiraz aksiyalarından və bunlara qarşı güc tətbiq edildikdən sonra iqtidar istefaya getməkdən imtina etdikdə işə salınmalı idi. Bəzi məqamlarına görə bu, Serbiya

variantını xatırladırdı. Bu ssenari hətta müxalifət KİV-lərində də işıqlandırılmışdı. Onlar yazırdılar ki, "Azərbaycanın irtica qüvvələrinin arzuladığı əks-inqilab artıq baş verdi. Beləliklə, seçkilərin finalına 20 gün qalmış irtica ön səhnəyə çıxdı və rejim "irticanın sabitliyini, korrupsiyanı və polis özbaşınalığını" qoruyub saxlamaq üçün qoşundan istifadə etməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirir. Belə vəziyyətdə keçirilən seçkilər öz mənasını itirir"[1].

Lakin iqtidarın siyasi quruculuğun əsas xətti kimi seçdiyi davranış taktikası demokratik seçki ənənələrinin varisliyinə və ölkənin təkamül yolu ilə inkişafının təmin olunmasına söykənirdi. İqtidarın gördüyü tədbirlər nəticəsində demokratik, açıq və həqiqi seçkilərin keçirilməsinə zəmin yaratdı, beləliklə, Azərbaycan seçicisinə səs verdiyi adamları parlamentdə görmək imkanı qazandı.

Müstəqil Azərbaycan dövlətçiliyinə aparan yol çox çətin idi. Ölkə "demokratiya" adı altında özlərinin geosiyasi maraqlarına xidmət edən konkret məqsəd və vəzifələrlə pərdələnməyə çalışan xarici qüvvələrin dəfələrlə təzyiqi ilə üzləşməli olurdu. Lakin bir sıra beynəlxalq qurumların müsbət qarşılanan təklif və tövsiyələri də var idi və bunlar sonradan təcrübədə mövcud qanunvericilikdə və normativ sənədlərdə dəyişikliklər olunması, yaxud onların təkmilləşdirilməsi şəklində öz əksini tapdı.

Məsələn, əvvəldə deyildiyi kimi, Seçki Məcəlləsində dəyişikliklər edilməsi, seçki günü mümkün saxtakarlıqların qarşısını almaq üçün seçicilərin barmaqlarının görünməyən mürəkkəblə rənglənməsi və Amerika şirkəti tərəfindən və

[1] "Turan", 19.10.2005.

ABŞ hökumətinin köməyi ilə exit-poll keçirilməsi barədə beynəlxalq demokratik təsisatların tövsiyələri nəzərə alınmışdı. Azərbaycanın seçki praktikasında öz əksini tapmış bütün bu və ya başqa tədbirlər demokratik dəyərlərin möhkəmlənməsinə, ictimai şüura nüfuz etməsinə şərait yaratmışdı və dövlət idarəetmə mexanizminin təkmilləşməsinə kömək edirdi. Azadlıq və liberalizmin universal dəyərləri ölkənin gələcəyinə yol açırdı. Azərbaycan demokratik və şəffaf seçkilərin təmin olunması sahəsində inkişaf etmiş ölkələrin müsbət təcrübəsindən bəhrələnirdi.

Ədalətli seçkilərin təmin olunması məqsədi ilə Azərbaycan hakimiyyətinin beynəlxalq təsisatlarla əməkdaşlıq etməsi radikal müxalifət liderlərinin iftiraları ilə qarılaşırdı: guya Qərb öz mövqeyini artıq müəyyən etmişdir, onun hazırkı hökumətlə əlaqələri isə diplomatik gedişdən başqa bir şey deyildir. Seçkilər ərəfəsində belə uydurmalar az olmamışdı.

Məsələn, 2005-ci ildə ABŞ-ın keçmiş dövlət katibi Madlen Olbrayt Bakıya gəldi. O, radikal müxalifətin bəzi liderləri ilə də görüşdü. Müxalifət qəzetləri və hətta xarici (Rusiya) KİV-lər "inqilab ssenarisinin" həyata keçirilməsi üçün ABŞ-ın guya 38 milyon dollar vəsait ayırması barədə şayiələri təkidlə yayırdılar. Radikal müxalifətin liderləri isə deyirdilər ki, M.Olbrayt "məxməri" transformasiyanı dəstəkləmək üçün Bakıya gəlmişdir.

Xidməti vəzifəsi ilə əlaqədar bu sətirlərin müəllifi də noyabrın 13-də M.Olbraytla – ağıllı siyasətçi və dəyərli diplomatla görüşmüşdür. Prezident sarayında iki saatdan artıq söhbət etdik. Xanım Olbraytın söhbətə başlayanda dediyi sözləri məmnunluqla xatırlayıram: "Mən Bakıya inqilab

etmək üçün yox, bir dost kimi gəlmişəm". Bu ifadə dövlət və cəmiyyətin demokratik inkişaf yolları haqqında danışıqlarımızın əsas konturlarını müəyyən etdi. Biz belə bir ortaq fikirdə idik ki, siyasi sabitlik iqtisadiyyatın yüksəlişi və demokratikləşmə üçün zəruri amildir, parlament seçkiləri də bu prosesin mühüm mərhələsi olmalıdır.

Seçkilər ərəfəsində xarici beynəlxalq təsisatlardan gələn təklif və tövsiyələr zahirən demokratik normalar çərçivələrindən kənara çıxmırdı:

- KİV-lərə tam sərbəstlik vermək;
- yeni regional TV kanalları açmaq;
- toplaşmaq azadlığını təmin etmək;
- seçki komissiyalarını bərabərlik əsasında formalaşdırmaq və sair.

Toplaşmaq azadlığı məsələsi Qərbi təmsil edən diplomatik korpusla və beynəlxalq təşkilatların nümayəndələri ilə aparılan çoxsaylı söhbətlərin əsas mövzularından biri idi. Toplaşmaq azadlığı deyəndə, beynəlxalq təsisatlar müxalifətin mitinqləri yalnız şəhərin mərkəzində, insanların sıx olduğu yerlərdə, parklarda və istirahət zonalarında keçirməsi kimi başa düşürdülər. Qəribəsi o idi ki, həmsöhbətlərimizin öz ölkələrində bu cür etiraz aksiyaları keçirilməsinin qarşısı sərt şəkildə alınır. Azərbaycanda isə belə eksperimentlər demokratik prosesin tərkib hissəsi kimi başa düşülürdü. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün demokratiyanın müəyyən edilməsində belə "ikili standartların" olmasını biz demokratik inkişaf reseptini milli reallıqlar və tarixi inkişafın xüsusiyyətləri nəzərə alınmadan yalnız zorla qəbul etdirmək cəhdi kimi başa düşürdük.

Qeydlərimi nəzərdən keçirərkən, 2005-ci il oktyabrın 5-də bir Qərb diplomatı ilə söhbətimizin stenoqramına rast gəldim. Bu qeydlərin stenoqramını təqdim etmək istərdim, əminəm ki, toplaşmaq "azadlığını" təmin etmək məqsədi ilə iqtidara edilən təklif oxucu üçün də maraqlı olacaqdır:

Diplomat: – Mən öz fikrimi Sizin nəzərinizə çatdırmaq istəyirəm. "Azadlıq" bloku hər həftə aksiya keçirir. Onların sonuncu tədbirində 15.000-ə qədər adam vardı. Belə bir ekspertiza aparaq, 15.000 adam C.Cabbarlı meydanında mitinq keçirərsə, nə ola bilər. Düşünürəm ki, bunda qorxulu bir şey yoxdur, heç nə baş verməz.

R.Mehdiyev: – Müxalifətə mitinq, yoxsa ictimai asayişin, insanların rahatlığının pozulması, yaxud qarşıdurma lazımdır? Əgər onlar tamamilə qanuni dinc aksiya keçirmək istəyirlərsə, ənənəvi olaraq bu məqsədlər üçün "Qələbə" kinoteatrı qarşısındakı meydandan istifadə edilir. Sizin dediyiniz yer isə bir tərəfdən, metroya giriş-çıxışın, digər tərəfdən isə, dəmiryol vağzalına giriş-çıxışın, üçüncüsü, avtonəqliyyatın, o cümlədən ictimai nəqliyyatın intensiv hərəkət etdiyi zona, nəhayət, dördüncüsü, bir neçə ali məktəbin yerləşdiyi zonadır. Təsəvvür edirsinizmi, müxalifətin "dinc aksiya" adlandırılan mitinq keçirməsi üçün orada nə kimi təhlükəsizlik tədbirləri görmək lazımdır? Bütün perimetr boyu təhlükəsizliyi təmin etmək lazımdır. O meydan "Qələbə" meydanından kiçikdir. Başqa yerlər də var, məsələn, "Ukrayna" meydanı".

Mənim dəlillərimi dinləyən diplomat fikirlərimlə razılaşmalı oldu. Amma axı, məsələ heç də həmişə belə ətraflı izahata gəlib çıxmırdı və bəzi emissarlar bilavasitə müxalifət liderləri ilə görüşdən sonra tələm-tələsik bəyanatlar verirdilər.

Beləliklə, beynəlxalq təsisatların təklif və tövsiyələrindən məqsəd, əslində, başqa idi. Həmin tövsiyələri məhz onların istədiyi şəkildə qəbul etməklə biz ölkəni xaosa, idarəolunmaz vəziyyətə məruz qoymuş olardıq. Qərb emissarlarının bədbəxtçiliyi bundadır ki, onların hər biri öz ölkəsinin tarixini və təcrübəsini əsas götürür. Unudurlar ki, istənilən başqa ölkə kimi, Azərbaycanın da özünün tarixi və siyasi inkişaf xüsusiyyətləri var; Ermənistanın hərbi təcavüzü nəticəsində biz ərazimizin 20 faizini itirmişik və bizim milyondan artıq qaçqın və məcburi köçkünümüz var; unudurlar ki, ölkəmiz keçid dövrünü yaşayır və xalqın köhnəlmiş ənənə və qaydalardan uzaqlaşması, demokratik dəyərlərə yiyələnməsi üçün vaxt lazımdır və s. Bundan əlavə, postsovet dövlətlərinin təcrübəsi kimlərinsə iradəsinə əsaslanaraq, ictimai-siyasi hadisələrin süni şəkildə sürətləndirilməsinin nə ilə nəticələndiyini göstərdi. Bizim fikrimizcə, demokratik inkişafın təkamül yolu Azərbaycan üçün daha optimaldır və ölkə əhalisinin özünəxas xüsusiyyətlərinə və psixologiyasına uyğundur.

Seçkilər: faktların təsdiqi

2005-ci il noyabrın 6-da səhər saat 8-də 125 seçki dairəsində və 5137 seçki məntəqəsində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə başlandı. 125 yer uğrunda 1500-dən çox namizəd mübarizə aparırdı, baxmayaraq ki, namizədlərin sayı əvvəlcə 2500 nəfərdən artıq idi.

Beynəlxalq ictimaiyyətin və dünyanın aparıcı xəbər agentliklərinin diqqəti Azərbaycana yönəlmişdi, belə ki, çoxları müxalifətin "inqilabi eyforiyasının" son nəticəsi kimi

"məxməri" transformasiyanın baş verəcəyini gözləyirdi. 17000-dən artıq yerli, 45 ölkədən gəlmiş 1586 beynəlxalq müşahidəçi, 80 ölkədən 310 jurnalist Azərbaycanda gedən seçkiləri izləyirdi. Bir neçə iri beynəlxalq agentliklər – PA Consulting Group (USAID), Mitofsky İnternational (ABŞ) və SAAR-poll (Estoniya) seçki məntəqələrinin çıxışında exit-poll keçirirdi. İlk dəfə olaraq, seçicilərin barmaqları rəngsiz mürəkkəblə boyanırdı ki, bu da "karusel" sxemindən istifadə edilməklə saxtalaşdırma imkanını əhəmiyyətli dərəcədə azaldırdı.

Qeyri-hökumət təşkilatları seçkilərin gedişini və səslərin hesablanmasını izləməyə buraxılmışdı. Dairə seçki komissiyalarının fəaliyyəti, əslində, minimuma endirilmiş, olduqca şəffaf şəraitdə yalnız səslərin texniki hesablanması ilə məhdudlaşmışdı.

Seçki gedişinin və MSK-ya daxil olan məlumatların bütün telekanallarda daim işıqlandırılması, eyni zamanda, həmin məlumatların MSK-nın İnformasiya mərkəzinin saytına dərhal yerləşdirilməsi parlament seçkilərini daha da şəffaflaşdırır, məlumatların dərhal əldə edilməsinə imkan yaradırdı. Qarşıya çıxan problemlərin həll edilməsi üçün MSK-da sutka boyu işləyən "qaynar xətt" fəaliyyət göstərirdi.

Prezident İlham Əliyevin seçki praktikasının təkmilləşdirilməsinə dair iki Sərəncamı seçkilərin təşkili və keçirilməsinə müsbət təsir göstərərək, rayon və şəhərlərin icra hakimiyyəti başçıları tərəfindən seçki prosesinə müdaxilələrin mümkünlüyünü əhəmiyyətli dərəcədə azaltdı, toplaşmaq azadlığını və yeni regional telekanalların açılmasını təmin etdi. Bu sərəncamlar sayəsində demokratik seçkilərin keçirilməsi praktikası yeni təcrübə ilə zənginləşdi. Onlar Azər-

baycanın hər bir vətəndaşının həyatında seçki prosesini yeni səpkidə dərk etmək üçün zəmin yaratdı.

Günün sonunda məlum oldu ki, Amerikanın PA Consulting Group (USAID) agentliyinin keçirdiyi exit-pollun yekunları seçki məntəqələrinin böyük əksəriyyətində Mərkəzi Seçki Komissiyasının elan etdiyi nəticələrlə 85 faiz, bəzi məntəqələrdə isə 95 faiz uyğun gəlirdi. Analoji sorğuların digər agentliklər tərəfindən keçirildiyi məntəqələrdə faiz nisbəti 85-87 təşkil edirdi ki, bu da ümumən demokratik, şəffaf və ədalətli seçkilərin baş tutmasını sübut edirdi.

Seçkilərin yekunlarına əsasən, 10 seçki dairəsində nəticələr etibarsız hesab olundu, onlardan dördünün nəticələri MSK, altısı isə Azərbaycanın Konstitusiya Məhkəməsi tərəfindən ləğv edildi. MSK–nın qərarına əsasən, 460 seçki məntəqəsində də nəticələr etibarsız hesab olunaraq ləğv edildi. İşdə yol verilmiş səhvlərə görə 6 dairə və 108 məntəqə seçki komissiyaları buraxıldı. Üç rayonun icra hakimiyyəti başçıları isə vəzifələrindən azad olundular.

Beynəlxalq təsisatların 2005-ci ilin parlament seçkiləri barədə rəyləri seçkiqabağı verilən ziddiyyətli, bəzən də subyektiv qiymətlərdən əhəmiyyətli dərəcədə fərqlənirdi. Onların fikrincə, demokratik və şəffaf seçkilərin təmin edilməsi üçün görülmüş tədbirlər müsbət rol oynamışdır.

Azərbaycanda keçirilən hər bir seçki – istər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda irəliyə doğru atılan addımdır. Təbiidir ki, problemlər var və olub, lakin mən yüksək vəzifəli bir xarici məmurla söhbətim zamanı vurğuladığım kimi, "ictimai şüuru dərhal dəyişmək və kommunist epoxasında böyümüş insanları əqidəli

demokratlara çevirmək çətindir. Bunun üçün vaxt lazımdır. Özünüz fikirləşin, biz müstəqilliyi 1991-ci ildə qazanmışıq. Müstəqil Azərbaycanda doğulmuş və avtoritar sistemdən kənar mühitdə formalaşan şəxsin bu gün orta hesabla 15 yaşı var. İndiki gənclik bambaşqadır, o, Azərbaycanı universal demokratik dəyərlər və ənənələr, azadlıq və liberalizm ideyaları istiqamətində inkişaf etdirməyə qadirdir. Təzə nəsil böyüyür. Nə qədər ki, "böyümə" prosesi gedir, ictimai şüur yeni davranış stereotiplərini və təfəkkür formalarını mərhələ-mərhələ mənimsəyəcəkdir. Yalnız bundan sonra biz qüsursuz, ideal və düzgün seçkilərdən söhbət aça bilərik. Yalnız bundan sonra biz inamla deyəcəyik ki, artıq ümumi transformasiya başa çatmışdır və Azərbaycan demokratik dövlətdir. İndi isə biz demokratiyanın özülünü qoyuruq, onun tam qələbə çalmasına hələ çox vaxt lazım olacaqdır".

Seçkilər günü və onun ardınca qərb dövlətlərinin, MDB ölkələri missiyalarının, demokratik təsisatlarının reaksiyası mühüm bir qənaətə gəlməyə imkan verdi: Azərbaycanda seçkilər ümumən normal və beynəlxalq standartlara uyğun keçirildi. 2005-ci il 6 noyabr parlament seçkilərinin ATƏT-in, onun Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, ATƏT Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin və NATO Parlament Assambleyasının rəylərində müəyyən nöqsanların olduğu göstərilsə də, parlament seçkilərində şəffaflığın və demokratikliyin təmin edilməsi baxımından mühüm uğurların olması vurğulanırdı. Azərbaycanda keçirilən parlament seçkilərinin yekunları barədə ATƏT-in bəyanatında (1 fevral, 2006-cı il) deyilirdi: "Beynəlxalq müşahidəçilərin olduqları seçki məntəqələrinin 87 faizində seçkilər müsbət keçirilmişdir". Bu, həm də Seçki Məcəlləsinin təkmilləşdirilməsinə,

çəkilən zəhmətə, bütün namizədlərə bərabər şərait yaradılmasını təmin etmək üçün icra hakimiyyəti orqanlarının təkmilləşdirilməsi sahəsində görülən gərgin işə, ən başlıcası isə, ölkə Prezidentinə verilən qiymət idi. Prezidentin Azərbaycanda hüquqi dövlətin və demokratik cəmiyyətin yaradılması istiqamətində göstərdiyi səylər bu sahədə irəliyə doğru daha bir mühüm addım atmağa imkan verdi.

2005-ci il noyabrın 6-da 4.662.610 seçicidən 2.183.617 nəfəri səs vermişdi ki, bu da seçicilərin ümumi sayının 46,83 faizini təşkil edirdi. Seçim, vətəndaşların fikrincə, ölkəyə və cəmiyyətə daha çox fayda verə biləcək namizədlərin xeyrinə edilmişdi.

§ DEMOKRATİK POSTİNDUSTRİALİZM

Müasir Azərbaycan sənaye və postindustrial təsisatları arasında qarşılıqlı əlaqələrin formalaşdığı yeni siyasi paradiqma məkanıdır. Yeni minillik ərəfəsində haqqında çox tez-tez söhbət gedən "üçüncü demokratik dalğanın" zəfər yürüşü yeni sosial siyasət transformasiyanın başlanmasından xəbər verirdi. Məhz sosial siyasət, çünki Azərbaycan adambaşına düşən ÜDM-in səviyyəsinin on min dollara çatdırılması üçün, – bu cəmiyyətin iqtisadi postmodernə keçidini göstərəcəkdir, – hələ çox iş görməlidir. Sosial siyasət baxımından bizim postindustrializmə transformasiyamız zəruridir. XXI əsrin başlanması və iqtisadi dinamizm onu deməyə əsas verir ki, Azərbaycan sənayeləşdirmənin müasir formasının intensivləşdirilməsi yoluna çıxmışdır, sonra isə postindustrializmə keçəcəkdir.

Belə fikirlər tamamilə anlaşılan etirazla qarşılaşa bilər. Çünki "soyuq müharibə" dövrünün "demokratiyada uğur qazanmağın sirri dövlətin hərtərəfli iqtisadi inkişafındadır"

kimi məşhur tezisi indinin özündə də əhəmiyyətini itirməmişdir. Lakin iqtisadiyyat yeni formaları yalnız o zaman səmərəli şəkildə inteqrasiya edə və azad ola bilər ki, cəmiyyətdə yeni davranış stereotipləri və təfəkkür tərzi formalaşmış olsun. Biz öz fikrimizi aşağıda bir sıra mühüm dəlillərlə əsaslandırmağa çalışacağıq.

Azərbaycanda yeni siyasi transformasiyanın əsası "sosial ünsiyyətin" və siyasi proses iştirakçıları arasında konstruktiv dialoqun olduğu azad, rəqabətqabiliyyətli məkandır. Ötən yüzilliyin doxsanıncı illərinin əvvəlində yaradılmış siyasi partiyalar ən yeni siyasi tarixin sadəcə iştirakçıları yox, bu tarixin əsasını qoyanlar oldu. On il ərzində bu siyasi təşkilatlar müstəqil Azərbaycanda keçid dövrünə xas bütün müsbət və mənfi cəhətləri olan tamdəyərli ictimai-siyasi fon yaratdılar. Bununla bərabər, mövcud partiyaların heç biri konkret ideoloji proqram irəli sürə, istər sağ, istər sol, istərsə də mərkəzçi və s. mövqedən çıxış edə bilmədi. Bu, təkcə milli müxalifətə yox, həm də hakim partiyaya və onun müttəfiqlərinə də aiddir. Bu partiyaların əksəriyyətinin proqramları oxşar xarakter daşıyırdı və əsasən bu və ya digər siyasi, iqtisadi və sosiomədəni məsələlərdə ümumi mövqelərin ifadə olunmasına yönəldilmişdi.

Siyasi kontekstdə partiya məkanının formalaşdırılmasında müəyyən çətinliklərlə üzləşsək də, digər sahələrdə xeyli tərəqqi hiss olunur. Milyonlarla dollar sərmayə axınını təmin edən iqtisadi layihələr dövlətin dinamik inkişafı üçün zəmin yaradır. Bu isə cəmiyyət üzvlərinin təfəkkür tərzini gizli şəkildə, lakin əsaslı surətdə dəyişir və davranış stereotiplərini təkmilləşdirir. Siyasi irsin yenidən nəzərdən keçirilməsinə və siyasi məkanın strukturunda təshihlər aparılması zərurəti yaranır. Beləliklə, partiyaların yeni rol oynadığı və ictimai iradənin real ifadəçilərinə çevrildiyi yeni siyasi paradiqmanın formalaşdırılmasına

ehtiyac doğur. Müasir dövrün siyasi prosesi yalançı partiya fəallığını qəbul etmir, siyasi fəallığın konkret məzmununun olmasını tələb edir. Tədricən inkişaf edərək, hakimiyyət və müxalifətin səmərəli dualizminin yanaşı mövcud olduğu möhkəm siyasi infrastruktur yaradılmasının vacibliyini dərk edərək, əsassız siyasi hücumları və qarşılıqlı iradları, yersiz ittihamları və ziddiyyətli tənələri aradan qaldıran müasir Azərbaycan cəmiyyətinin məhz buna ehtiyacı var. Belə bir sistemin olması Azərbaycana sosial siyasət baxımından sabit inkişafı davam etdirməyə imkan verəcəkdir. Bu isə ölkənin partiya sisteminin güclü hakim partiya, heç də zəif olmayan müxalifət partiyası və cəmiyyətdə orta mövqe tutan mərkəzçi partiya arasında rəqabətin getdiyi iki və ya üçpartiyalı struktura transformasiyasını təmin edəcəkdir. Belə bir strukturun yaradılmasına zərurət majoritar qaydada keçirilən və səmərəli dövlətçilik şəraitində milli radikal müxalifətin bacarıqsızlığını nümayiş etdirən 2005-ci il parlament seçkilərindən sonra yaranmışdır. Zənnimizcə, təklif edilən iki, üçpartiyalı struktur rəqabətqabiliyyətli siyasi məkanın formalaşması prosesində müsbət irəliləyiş olub, aşağıdakılara qadirdir:

- hakimiyyət və müxalifətin seçicilərin düşüncə və iradələri uğrunda konstruktiv, rasional, açıq siyasi rəqabətin bərabər iştirakçıları olduğu sabit partiya sisteminin təmin edilməsi;
- siyasi mədəniyyətin səviyyəsini yüksəldərək, bununla bərabər kütləvi informasiya vasitələrinin siyasi çəkişmələrə cəlb edilməsinin səviyyəsini xeyli azaldaraq, milli məkanda təhlükəsizliyin təmin olunması;
- siyasi prosesdə yeni iştirakçıların meydana çıxması üçün zəmin yaratmaq, o cümlədən demokratik müxalifətin formalaşması problemini həll etmək;

- siyasi davranışın yeni qaydalarını formalaşdırmaq, yəni siyasi təşkilatların fəaliyyətində yeni ideoloji konseptləri üzə çıxarmaq;
- siyasi təşkilatları liderlərə "bağlı" strukturlardan qarşılarına konkret vəzifələr qoyan real siyasi orqanizmə çevirməklə, onların Azərbaycanın ictimai həyatında oynadığı rolu dəyişmək.

Bütün bunlar birlikdə Azərbaycanın inqilaba – milli siyasi məkanı dəyişdirəcək və ona yeni davranış formaları, stereotiplər və iştirakçılar gətirəcək "texnokratik transformasiyaya" hazırlığını təmin edəcəkdir. Yəqin ki, buna illər lazım olacaqdır, lakin 2005-ci ilin parlament seçkiləri belə dəyişikliklərin əsasını qoydu. Uinston Çörçillin sözləri ilə desək, bu seçkilər "nə bütün işlərin sonu, nə də sonun başlanğıcıdır. Bu, başlanğıcın sonudur".

IV FƏSİL

MİLLİ DEMOKRATİK TRANZİTİN DİLEMMALARI

> Gələcək demokratiyalardan hər hansının özündən əvvəlkilərdən birinin yolunu eynilə təkrar etməsi az ağlabatandır... Demokratiyaya nail olmaq üçün artıq mövcud olan demokratiyalardan birinin konstitusiya qanunlarını və ya parlament praktikasını olduğu kimi təkrarlamaq deyil, öz spesifik ixtilaflarına vicdanla nəzər sala bilmək və onların həllinin səmərəli mexanizmlərini icad və ya əxz etmək bacarığı tələb olunur.
>
> **D.Rastou**

Əvvəlki fəsli tamamlayarkən biz müstəqil Azərbaycanın formalaşmaqda olan yeni siyasi məkanının konturlarını qısa şəkildə təsvir etmişdik. Bu məkanda başqa davranış formaları və stereotipləri təşəkkül edir, vətəndaş cəmiyyəti yetişir və demokratik cəmiyyətə xas olan dəyərlərin yeni anlayış aparatı formalaşır. Müstəqillik illəri ərzində dövlətin siyasi strategiyası dəfələrlə modifikasiyaya məruz qalaraq, siyasi prosesin iştirakçılarının sosial gerçəklik haqqında müxtəlif və rəngarəng təsəvvürlərini üzə çıxarmış ictimai diskussiyalar və siyasi savaşlar üçün bir zəmin hazırlamışdır. Bəzən vətəndaş cəmiyyətləri və demokratik inkişafın səviyyəsi bu daxili və xarici tənqidi müzakirələrin prioritet istiqamətləri olurdu. Lakin nəticə etibarilə ictimai proseslərin təka-

mülü və kütləvi süurda demokratiya barədə təsəvvürlərin güclənməsi cəmiyyətin yeni siyasi determinantlar məcrasına transformasiyasının başlanmasına səbəb olmuşdur.

Ümumdünya miqyaslı inteqrasiyanın intensivləşməsi və "həddən artıq" qərbləşmiş sosial strukturlara malik yeni dünya nizamının formalaşması postindustrial cəmiyyətə xas olan dəyərlərin və idealların sənaye cəmiyyətlərinə labüd tranzitini şərtləndirmişdir. Bu cür transformasiyaların qlobal xarakteri sənaye cəmiyyətlərinin hətta inkişaf etməmiş iqtisadiyyatlarında da demokratik inkişafın uğurları ilə nəticələnir. Beləliklə, aydın oldu ki, demokratiyanın özü, adətən, qəbul edildiyi kimi, iqtisadi proseslərin arxasınca deyil, qlobal inteqrasiyanın təsiri altında irəliləyir. *Pax Americana*-nın dominantlıq etdiyi yeni minilliyin mahiyyəti ondan ibarətdir ki, "15 il bundan əvvəl Berlin divarı uçurulan vaxtdan bəri demokratik yolla seçilmiş hakimiyyətin olduğu ölkələrin sayı artaraq 69-dan 119-a çatmışdır. "Azad ölkələr" kateqoriyasına aid edilən ölkələrin əhalisinin ümumi sayı hazırda 2,8 milyard nəfərdir. Daha 1,2 milyard nəfər insan isə "Freedom House" təşkilatının "qismən azad" hesab etdiyi ölkələrdə yaşayır. "Azad olmayan" ölkələrə gəldikdə isə, onların bütün əhalisinin demək olar ki, 60 faizi, yaxud 2,4 milyard nəfəri bir dövlətin – Çinin payına düşür"[1].

Monosentrik dünyanın bu xüsusiyyəti müasir beynəlxalq münasibətlərin yeni xarakterini yaratmışdır, bununla bərabər, cəmiyyətin strukturunu, fərdin özünü də dəyişdirir, onun sosial gerçəkliyə münasibətini modifikasiyaya məruz qoyur. Yeni tranzitar gerçəklik ictimai münasibətlərin başqa fonunu göstərir. Bütün bunlar fərdin psixologiyasına və şüuruna cid-

[1] Democracy and its discontents. Toronto Star, Canada, 24 June 2005.

di təsir göstərir, onun daxili və zahiri sosial simasını dəyişir. Başqa sözlə desək, "fərdiyyətçiliyin artması və maksimum şəxsi sərbəstliyə meyil edilməsi onunla nəticələnir ki, bütün sahələrdə hakimiyyətin haqlı olması, xüsusən ciddi hakimiyyət səlahiyyətlərinə malik olan böyük ictimai təsisatların nüfuzu şübhə altına alınır"[1].

Yeni dünya nizamı təkcə demokratiyaya münasibəti deyil, bütövlükdə qlobal proseslərə münasibəti dəyişmişdir. Haqqında ilk dəfə ötən yüzilliyin 70-ci illərində, "effektivlik çempionlarının" sabit inkişafını təmin etmək üçün qitələrin iqtisadi və maliyyə baxımından qarşılıqlı asılılığının "təsis edilməsi" dövründə söhbət gedən fenomen XXI əsrin əvvəllərində qeyri-qərb cəmiyyətlərinin siyasi, iqtisadi, sosial və mədəni həyat sahələrinin qərbləşməsinin qlobal layihəsi şəklində qarşıya çıxmışdır. Qərb dəyərləri və idealları ictimai və dövlət ənənələrinin ən yaxşı formaları ilə assosiasiya olunmağa başlamışdır. Ənənəvi cəmiyyətlərə "mühafizəkarlıq" və "liberalizm" kimi anlayışlar nüfuz etməyə başlamışdır. Vətəndaş mədəniyyətinin forması isə tədricən yeni konfiqurasiyalar kəsb etmişdir – seçki hüququ və ümumi rifah dövlətinin elementləri bütün Avropa-Amerika dünyasında uğurla bərqərar olmuş və kapitalizm sistemini səmərəli şəkildə inkişafa qadir etmişdir. Yeni dünya nizamı bu dəyərləri oxşar siyasi və ictimai səmtlərindən bir qədər uzaq düşmüş cəmiyyətlərə translyasiya etməyə başlamışdır. Le Nouvel Ordre Mondial (Yeni Dünya Nizamı) vahid əhval-ruhiyyələrin və dəyərlərin qlobal məkanını yaratmaqla, davranış norma və qaydalarının vahid sivilizasiyalı sistemini təşkil etməyə başlamışdır. Məşhur sosioloq İ.Vallerstayn yazır: "1848-ci ildən 1968-ci ilə qə-

[1] Ф.Фукуяма. Великий разрыв, стр.130.

dər bizim yaşadığımız dünyanın geomədəniyyəti liberal konsensusa əsaslanırdı və bu, liberalların "demokratiya" anlayışını istədikləri kimi işlətməsinə və onun tərəfdarlarının qüvvəsini tükətməsinə imkan yaradırdısa, indi biz "mərkəz üçün yer olmayan" Yits dünyasındayıq. Biz sərt seçim qarşısındayıq: ya "bərabər azadlıq", yaxud da nə azadlıq, nə də bərabərlik"[1]. Demokratiya indi təkcə qlobal inkişafın leytmotivinə çevrilməmişdir, bunu "üçüncü demokratik dalğa"nın intensivliyi və nəticələri də sübut edir. Demokratiya həm də dünyada geosiyasətin, geoiqtisadiyyatın və hətta geomədəniyyətin də mahiyyətini müəyyənləşdirir.

İkinci minilliyin axırları – üçüncü minilliyin əvvəllərində demokratik dövlətlər zolağının genişləndirilməsinin zəruri olması barədə çağırışlar get-gedə ucadan səslənirdi. Üçüncü qlobal demokratikləşmənin SSRİ dağılandan on il sonra başlanmış ikinci mərhələsi postindustrial dəyərlərin avtarkiya məkanlarına çatması ilə əlamətdar olmuşdur. Nəticədə daxili və xarici səbəblər üzündən inkişaf etmiş iqtisadiyyatlar məkanına transformasiya edə bilməyən cəmiyyətlər postindustrial dəyərlərin aryerqardının təzyiqinə məruz qalmışdır. Başqa sözlə desək, iqtisadiyyatdan kənar siyasət, maddi gəlir səviyyəsindən kənar ictimai şüur inkişafdakı geriliyi sanki aradan qaldıraraq, postindustrial cəmiyyətlər üçün səciyyəvi olan yeni davranış stereotiplərini qəbul etməyə başlamışdır. Bunun əsas səbəbi həmin dəyər və normaların qlobal zorakılığı, təhsilin beynəlmiləlləşməsi və ictimai inkişaf vektorlarının bir-birini əvəz etməsi nəticəsində qeyri-qərb cəmiyyətlərinin qərbləşməsidir. Bununla bərabər, sivilizasiyalı fenomen haqqında işlənən "yeni müstəbidlik" sözləri həmişəkindən daha müasir səslənir.

[1] И.Валлерстайн. Конец знакомого мира, стр. 136-137.

Qeyd etmək lazımdır ki, "yeni müstəbidlik" klassik mənada zorakılıq demək deyildir. O, insanların arzu və istəklərini boğmur, məhdudlaşdırmır. O, özü yeni arzu və istəklər formalaşdırır, onları istiqamətləndirir və təmin edir. O, "nədənsə azad olmaq" və "nə üçünsə azadlıq" kimi klassik kateqoriyaları aradan qaldırır: əvvələn, bir halda ki, hakimiyyət məhdudiyyətə deyil, həvəsləndirməyə çevrilirsə, onda nədən azad olacaqsan; ikincisi, əgər hər şey verilmişdirsə və istəyin özü hakimiyyətdən irəli gəlirsə, deməli, nəyəsə can atmağın və nədənsə ötrü fəaliyyətdə qabiliyyətsiz olmağın mənası yoxdur. "Yumşaq imperativ" "yeni müstəbidliyin" formuluna çevrilir: "insanların iradəsini sarsıtmaq yox, onu yumşaltmaq, əymək və istiqamətləndirmək lazımdır". Yeri gəlmişkən, bu halda bütün yeni dövrdən keçən "dövlət – cəmiyyət" dixotomiyası da öz mənasını itirir. "Cəmiyyət cəza tədbirləri görən dövlətə qarşı çıxır" və ya "ağıllı dövlət kükrəyən və ya iğtişaşın bağlandığı cəmiyyətdə asayişi saxlayır" kimi sentensiyalar "yeni müstəbidlik" fenomeninin təhlili zamanı təsir göstərmir, çünki hər iki tərəfdə eyni qüvvə dayanır. Axı, "azadlığı və müstəqilliyi" dəstəkləmək cəhdi bunların həm birincisinə, həm də ikincisinə qarşı qoyula bilər.

Bununla bərabər, demokratiyanın uğurlu olub-olmaması "ictimai mənafe" və ya "ictimai rifah" barədə təsəvvürlərdən irəli gələn hansısa meyarların – milli istehsalın inkişafı, həyat səviyyəsinin yüksəlməsi, mədəni dirçəliş, dövlətin qüdrəti kimi meyarların köməyi ilə qiymətləndirilmir. Tanınmış filosof Y.Şumpeter iki başqa meyar təklif edir.

- "demokratik prosesin qeyri-demokratik metodlara əl atmağa məcbur edən vəziyyətlər yaranmadan özünü uğurla göstərməyə qabil olması;

- cari problemlərin öhdəsindən son nəticədə bütün mühüm siyasi maraqları təmin edən üsullarla gəlmək qabiliyyəti.

Sonuncu meyar heç də o demək deyil ki, "demokratik prosesin" gedişində əldə edilmiş nəticələr hamı tərəfindən bəyənilməlidir. Demokratik prosesin özü "xalq hakimiyyəti" kimi deyil, xalq üzərində "siyasətçilərin hakimiyyəti", lakin seçici səsləri uğrunda "azad rəqabət" şəraitində seçilən siyasətçilərin hakimiyyəti kimi müəyyən edilir. Buna görə də demokratik və qeyri-demokratik idarəetmə metodlarını birbirindən fərqləndirməyə imkan verən, məntiqi cəhətdən məqbul olan yeganə meyar müvafiq vəzifəyə ən azı iki namizəd olması şərti ilə seçkilərin vaxtaşırı keçirilməsidir.

Dövlətlərin, xüsusən postavtoritar, o cümlədən postkommunist dövlətlərin inkişafının müasir şəraiti demokratiyanı "nümayəndəli demokratiya", "avtoritar demokratiya", "imitasiyalı demokratiya", "elektoral demokratiya", "qeyri-liberal demokratiya" kimi ifadələrlə[1] təsvir edən bir sıra modelləri üzə çıxarır. Son dövrlərdə "suveren demokratiya" modeli və sair də təklif edilir. Bu cür təsvirləri birləşdirən ümumi cəhət ondan ibarətdir ki, demokratik fasad hakimiyyətin bölgüsünü və yenidən təşkilini sabitləşdirməyə meyil edən elit-oliqarxiya tipini göstərir.

Bütün bu proseslər intellektual birliyin böyük marağına səbəb olur ki, bu da, şübhəsiz, transformasiya cəmiyyətlərinin inkişaf yolları və perspektivlərinin daha geniş təhlili üçün əlverişli zəmin yaradır. Bu baxımdan nəzərdə tutulan transformasiyaların əsası kimi, tranzitar cəmiyyətlərin daxili tərkib hissəsi daha çox diqqət yetirilməyə layiqdir. Maraq

[1] А.Ю.Мельвиль. Демократии с прилагательными.

doğuran təkcə inkişafın yolları və metodları deyil, həm də bu və ya digər məkanın səmərəli inkişafının təmin olunması üçün istifadə edilən mümkün ssenarilərdir. Bununla bərabər, əgər eyni fenomenlərə bir çox ölkələrdə rast gəliriksə, bir ölkə üçün səciyyəvi olan izahatları kənara qoymaq olar. Lakin sənayeləşmiş ölkələrin böyük bir qrupunda sosial göstəricilərin çoxunun təxminən eyni vaxtda dəyişməyə başlaması faktı təhlil məsələsini bir qədər sadələşdirir, daha yüksək səviyyəli ümumiləşdirmələrə və analogiyalara müraciətə gətirib çıxarır.

Dünya məkanında müşahidə etdiyimiz qlobal dəyişikliklər yeni siyasi dəyərlərin və davranış qaydalarının assimilyasiyası fonunda milli siyasi məkanın inkişaf perspektivlərinin öyrənilməsi üçün hər cür əsas verir. Yeni dünya nizamı, qərbləşmə, qloballaşma, postmodern, postindustrializm leksikonumuzda adi hala çevrilmişdir, hərçənd, bu təriflərin milli inkişaf strategiyasının ictimai-siyasi tərkib cəhətinə təsirinin real mahiyyəti barədə nadir hallarda fikirləşirik.

§ MİLLİ İNKİŞAF FƏLSƏFƏSİ

Müasir milli siyasi struktur ötən əsrin 80-ci illərinin axırları – 90-cı illərin əvvəllərində bütün postkommunist məkanını bürümüş protestlərin nəticəsidir. SSRİ dağılandan bəri ötən iyirmi ildə postsovet respublikalarının keçdiyi yol "Üçüncü demokratik dalğa"nın başlanması ilə Cənubi Avropa və Latın Amerikası demokratiyalarının inkişafına bənzəyir. Belə ki, Cənubi Avropa və Latın Amerikasında avtoritar rejimlərin demokratikləşməsinin uğurlu olduğu əksər hallarda təşəbbüs yuxarıdan – dəyişikliklərin tərəfdarları olan islahatçılara və transformasiyaların əleyhinə

çıxan mühafizəkarlara parçalanmış hakim elitadan gəlirdi. Ciddi desək, islahatlar rejimin birbaşa demokratikləşməsindən deyil, onun liberallaşdırılmasından, özünəməxsus bir şəkildə "dekompressiyası" və ya "zəifləməsi" mərhələsindən başlanırdı. Həqiqi və institusional zəminə malik demokratikləşmədən fərqli olaraq, bu liberallaşma, demək olar ki, bütünlüklə yuxarıların nəzarətində idi və onlar istənilən anda bu prosesi dayandıra bilərdilər.

Qeyd etməliyik ki, ümumi demokratikləşmə prosesinin adları çəkilən iki fazasının fərqləndirilməsi prinsipial xarakter daşıyır. Tanınmış sosioloq A.Stepan həmin fazaları belə səciyyələndirir. Avtoritar şəraitdə "liberallaşma" KİV-də senzuranın zəifləməsi, müstəqil fəhlə təşkilatlarına nisbətən çox "fəaliyyət sərbəstliyinin" verilməsi, bir sıra fərdi hüquqi təminatların bərpa edilməsi (habeas corpus), siyasi məhbusların əksəriyyətinin həbsdən buraxılması, siyasi mühacirlərin vətənə qayıtması kimi siyasi və sosial dəyişiklikləri əhatə edə bilər. Gəlirlərin daha ədalətli şəkildə bölünməsi və bəlkə də, ən əhəmiyyətlisi – siyasi müxalifətə münasibətdə dözümlülük tədbirləri də istisna edilmir. "Demokratikləşmə" liberallaşmanı ehtiva edir, lakin bunlardan birincisi, daha geniş və spesifik siyasi anlayışdır, çünki o, hökumətə nəzarət etmək hüququ uğrunda açıq rəqabəti nəzərdə tutur, bu isə öz növbəsində hökumət kabinetinin tərkibini müəyyənləşdirən azad seçkilər keçirilməsinə əsaslanır. Liberallaşma nəticəsində dövlət ilə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələr əsasən modifikasiyaya məruz qalır. Demokratikləşmə isə dövlət ilə siyasi cəmiyyət arasında qarşılıqlı münasibətləri dəyişir. Aydındır ki, liberallaşmanın demokratikləşmə formalarına çevrilməsi vacib deyildir[1].

[1] Alfred Stepan (ed.). 1989. Demokratizing Brazil. Problems of Transition and Consolidation. N.-Y., Oxford, Oxford University Press.

Demokratikləşməkdə olan cəmiyyətlərdə sistemin daxilində olan və bir qayda olaraq, əvvəlcə mərkəzçi və ya ona yaxın mövqe tutan islahatçılar rejimin mühafizəkar qüvvələrinə daha səmərəli müqavimət göstərməyə çalışaraq, öz hərəkətlərinə kənardan dəstək axtarır, vətəndaş cəmiyyətinin qüvvələrinə, müxalifətçi hərəkatlara və başqalarına müraciət edirlər. Mərkəzçi islahatçılar rejimin keşikçiləri ilə onun radikal əleyhdarları arasında tarazlıq yaratmaq üçün müəyyən müddət ərzində tədricən islahatlar aparmaq siyasəti yeridirlər. Lakin onların sanksiyası ilə radikal müxalifətin siyasi prosesin yeni subyekti kimi leqallaşması və buna cavab olaraq mühafizəkarların birləşməsi labüd surətdə ictimai gərginliyin artmasına və münaqişələrin kəskinləşməsinə doğru aparır.

Demokratik keçidlərin uğurlu olduğu əksər hallarda yuxarıda adını çəkdiyimiz siyasi ziddiyyətin aradan qaldırılması bir-biri ilə mübarizə aparan qüvvələrdən birinin başqası və ya başqaları üzərində qələbəsindən yox, rəqabət aparan tərəflər arasında demokratikləşmənin sonrakı mərhələlərində oyun qaydaları və uduzanlar üçün müəyyən təminatlar yaradan məxsusi bir pakt bağlanmasından ibarət olurdu. Bunun arxasınca ilk sərbəst və ya təsis seçkiləri keçirilərək, əsasən, həmin islahatları başlamış siyasətçilərin mərkəzçi qrupunu deyil, radikal müxalifətin liderlərini və onların nümayəndələrini hakimiyyətə gətirirdi. Bir qayda olaraq, bu sonuncuların zəfər sevinci çox çəkmirdi. Gənc müstəqil Azərbaycan dövlətçiliyi də təşəkkülünün başlanğıcında eyni yolu keçmiş, demokratiyanın bərqərar olmasını anarxiya və xaos yaradılması kimi başa düşən qondarma "demokratik qruplar" hakimiyyət başına gəlmişdi.

Çox tez-tez, xüsusilə demokratik yolla seçilmiş yeni hakimiyyət çətin iqtisadi islahatları həyata keçirməyə məcbur

olanda (özü də bu, heç də təkcə postkommunist ölkələrində baş vermirdi), ictimaiyyətin islahatlara mənfi münasibəti sonrakı demokratik seçkilərin – "məyusluq seçkilərinin" gedişində artıq radikalları deyil, əksəriyyəti əvvəlki hakim qrupların sıralarından olanları hakimiyyətə gətirirdi. Lakin onlar heç də sırf mürtəce restavrasiyaya cəhd göstərmirdilər. Əksinə, əsl termidorçular kimi onlar yalnız bir qədər geri çəkilməklə, əslində, yeni siyasi sistemi tarazlayırdılar. Demokratik prosedurların və ilk növbədə, siyasi hakimiyyətin dəyişməsinin (növbələşməsinin) institusionallaşdırılması sonradan demokratiyanın konsolidasiya olunması üçün (artıq qeyd edildiyi kimi, bu, hökmən demokratik dəyişikliklər prosesinin nəticəsi deyil, üstəlik, bu nəticəyə çox nadir hallarda nail olmaq mümkündür) zəruri zəmin yaradırdı. Başqa sözlə desək, yeni demokratik siyasi reallıq hər dəfə məxsusi, fərdi, lakin əvvəlki qeyri-demokratik ənənə və stereotiplərlə labüd qaynayıb-qarışmaqla möhkəmlənirdi.

Postkommunizm yeni siyasi strukturun formalaşması üçün şərait yaratmışdır, burada demokratik tranzit dövlətin və cəmiyyətin inkişafının prioritet istiqaməti kimi təsəvvür edilir. Bu halda postsovet məkanındakı transformasiya dövlətlərinin qarşısına bir neçə paralel vəzifə qoyulmuşdur: siyasi demokratikləşmə və bazar iqtisadiyyatına keçid, modernləşmə və restrukturizasiya, cəmiyyətdə mövcud olan islahatçı və mühafizəkar cinahlar arasında pakt bağlanması, vətəndaş cəmiyyətinin bir-birindən təcrid olunmuş proteelementləri ilə dövlət arasında əlaqələrin amorfluğuna baxmayaraq, bu cəmiyyətin rüşeym halında olan seqmentlərinin formalaşması və sair.

Dövlətçiliyin tədricən inkişaf etməsi sayəsində Azərbaycanda bir neçə il ərzində iqtisadi tərəqqi və siyasi sabitliyin

əldə edilməsi mümkün olmuşdur. Müstəqillik əldə olunduqdan sonrakı ilk on il siyasi sabitliyin, iqtisadi inkişafın və vətəndaş mədəniyyətinin yeni seqmentlərinin formalaşmasının təmin edilməsi üçün möhkəm institusional baza yaratmağa istiqamətlənmişdi. Azərbaycanda demokratiyanın bərqərar olması cəmiyyətin bir ictimai-siyasi vəziyyətdən digərinə keçməsi üçün sərt siyasi radikallaşma və polimorf proseslər şəraitində cərəyan edirdi. Bununla bərabər, demokratiyaya normativ münasibət və demokratik idealların kütləvi cazibəsi ilə, hakimiyyətsizlik dövrünün iqtisadi cəhətdən səmərəsizliyi və delegitimləşməsi ilə, demokratik təsisatlar və prosedurlarla praktikada eksperimentlər aparılması ilə, səmərəli dövlətçiliyin və güclü hakim elitanın yaranması ilə şərtlənən universal amillər formalaşmışdır.

Lakin milli siyasi strukturu kompleks halda təhlil etməyə başlamazdan əvvəl bəzi qərb alimlərinin bu məsələyə dair mövqe və baxışlarını qeyd etmək istərdik. Onlar demokratik tranzitlərə iki yanaşmanın – struktur və prosedur yanaşmalarının olduğu milli siyasi məkana proyeksiya baxımından maraqlı ola bilər. Biz bu yanaşmalardan hər birini təhlil edərkən onları transformasiya mərhələsində olan postsovet məkanı dövlətlərinin, o cümlədən Azərbaycanın reallıqları ilə müqayisə etməyə çalışacağıq.

Seymur Martin Lipset, Denkvart Rastou, Q.Almond, S.Verba və demokratiyanın struktur təməlinin məddahları olan bir sıra başqa alimlərin konsepsiyalarında ümumi şəkildə üç əsas aspekt fərqləndirilir[1].

Birincisi, milli birliyin və müvafiq identikliyin əldə edilməsi.

[1] А.Ю.Мельвиль. Опыт теоретико-методологического синтеза структурного и процедурного подходов к демократическим транзитам. htpp://www.politnauka.org/library/dem/melvil.php

İkincisi, iqtisadi inkişafın kifayət qədər yüksək səviyyəsinə nail olunması.

Üçüncüsü, demokratik prinsiplərin tanınmasını, əsas siyasi təsisatlara etimadı, şəxsiyyətlərarası etimadı, vətəndaşlıq hissini və s. nəzərdə tutan mədəni norma və dəyərlərin kütləvi şəkildə yayılması.

Demokratiyanın yuxarıda sadalanan şərtlərindən yalnız biri müasir tədqiqatçılarda şübhə oyatmır. Bu, demokratikləşmədən əvvəl milli birliyə və identikliyə nail olmaq şərtidir. Buna görə də D.Rastou milli birliyi "demokratiyanın yeganə ilkin şərti" adlandırır. Qərbin tanınmış filosoflarından Yurgen Habermas yazır: "Demokratik vətəndaşlıq hansısa xalqın milli indentikliyində kök salmağa möhtac deyildir; lakin müxtəlif mədəni həyat formalarının rəngarəngliyinə laqeyd olan demokratik vətəndaşlıq ümumi siyasi mədəniyyət çərçivəsində bütün vətəndaşların sosiallaşmasını tələb edir"[1].

Bununla bərabər, alimlərin bir qrupu siyasi mədəniyyəti siyasətin bütün subyektiv məzmunu ilə eyniləşdirir, siyasi mədəniyyət dedikdə, mənəvi hadisələrin bütün məcmusunu nəzərdə tutur[2]. Alimlərin digər qrupu siyasi mədəniyyətdə insanın siyasətdə davranışının normativ tələblərinin təzahürünü[3] və ya tipik davranış nümunələrinin məcmusunu görür[4]. Bu halda siyasi mədəniyyət insanı cəmiyyətdə daha geniş yayılmış normalara və oyun qaydalarına istiqamətləndirən, onun hərəkətlərini sanki artıq bərqərar olmuş hakimiyyətlə qarşılıqlı əlaqələrin standartlarına və formalarına doğru yö-

[1] Ю.Хабермас. Демократия, Разум, Нравственность. М.,1995,стр.223.
[2] Q.Almond, S.Verba, D.Divayn, Y.Krasnov və başqaları.
[3] S.Bayt.
[4] C.Pleyno.

nəldən müəyyən davranış qəlibi[1] kimi qarşıya çıxır. Üçüncü qrup alimlər siyasi mədəniyyət dedikdə, insanın siyasi fəaliyyətinin elə bir üsulunu, üslubunu başa düşürlər ki, bu, insanın praktik davranışında dəyər oriyentasiyalarının təcəssüm etməsini nəzərdə tutur[2]. Belə anlayış insanın dövlətlə qarşılıqlı əlaqələrinin praktik formalarını hakimiyyət haqqında, siyasi məqsədlər və prioritetlər, praktik fəaliyyətin üstünlük verilən və fərdi qaydada mənimsənilmiş normaları və qaydaları haqqında ən dərin təsəvvürlərin ifadəsi kimi açıqlayır. İnsanın hakimiyyət sferasındakı praktik hərəkətləri ilə onun siyasi idealları və dəyərlərinin axtarışı arasında qırılmaz əlaqəni səciyyələndirən siyasi mədəniyyət praktikada daim bərpa olunan bir mənəvi proqram, insanların konyunkturanın və ya emosional duyğuların təsiri altında ani dəyişikliklərə məruz qalmayan ən davamlı fərdi davranış və təfəkkür cizgilərini əks etdirən davranış modeli kimi təfsir edilir.

Etnik-milli və konfessiyalararası ziddiyyətlərin təzahür etdiyi cəmiyyətlərdə daxili problemlər məsələsi dolğun və səmərəli demokratik inkişafın mühüm aspekti olaraq qalmaqdadır. Təbii ki, belə şəraitdə demokratik tranzit barədə danışmaq çox çətindir. Hərçənd, belə problemlər Avropanın bir sıra dövlətlərində, məsələn, İspaniya (Baskoniya), Fransa (Korsika) və Böyük Britaniyada (Şimali İrlandiya) da var. Lakin belə dövlətlərin əksəriyyətində həmin münaqişələr ya ümumi siyasi-iqtisadi təməl ilə qarışdırılmışdır, yaxud da ölkənin ərazi bütövlüyünə və milli identikliyinə təhlükə yaratmır.

Bu cür ziddiyyətlərin daha dərin xarakter daşıdığı ölkələrdə isə demokratiya qərbli müəllif A.Leypxartın təklif etdiyi

[1] M.Daqlas.
[2] İ.Şapiro, P.Şaran, V.Rozenbaum.

"birgəyaşayış demokratiyası" modeli çərçivəsində mövcud ola bilər. Bu konsepsiya demokratik həmrəyliyə nail olmaq və demokratiya təsisatlarının təsbit olunması məqsədi ilə ziddiyyətləri təmsil edən və münaqişə iştirakçısı olan tərəflərin mənafelərini aqreqasiya edən müxtəlif elitalar üçün münaqişə deyil, əməkdaşlıq təklif edir. Beləliklə, ölkənin bütövlüyünün və ümumi indentikliyinin qorunub saxlanması elitaların şüurunda gündəlikdə qalır.

Başqa şərtlər barədə tənqidi iradlar bildirilir. Cəmiyyətin sosial-iqtisadi inkişafının səviyyəsi ilə demokratiya arasında ciddi asılılıq olması fikri indi geniş faktik material əsasında təkzib edilir. Hazırda iqtisadi inkişaf səviyyəsi yüksək olduğuna baxmayaraq, qeyri-demokratik rejimli dövlətlər mövcuddur. Bundan əlavə, siyasi təsisatlarla aktorlar arasında tam formalaşmış demokratik münasibətlər tipinin olduğu elə dövlətlər də vardır ki, orada yoxsulluğun səviyyəsi yüksəkdir, sosial strukturlar və ənənəvi praktikalar da mövcuddur. Birinci varianta nümunə kimi Sinqapurun, ikinci varianta misal kimi Hindistanın adını çəkmək olar. Eyni zamanda, Fars körfəzi dövlətləri dayanıqlı iqtisadi tərəqqiyə nail olmuşdur və çox sanballı maliyyə potensialına malikdir. Lakin həmin dövlətlərin milli inkişaf strategiyasında demokratiya heç də prioritet sayılmır.

İqtisadi inkişaf səviyyəsi ilə siyasi proseslər arasındakı nisbət göstərir ki, demokratiyaya keçid çox vaxt iqtisadi inkişaf səviyyəsi orta olan və ya orta səviyyəyə yaxınlaşan ölkələrdə baş verir. S.Hantinqton göstərir ki, İkinci Dünya müharibəsindən ötən əsrin 70-ci illərinin ortalarına qədər coşğun iqtisadi tərəqqi bir sıra dövlətlərin ortagəlirli ölkələr qrupuna daxil olmasına imkan vermiş, bu isə dolayısı ilə demokratiyaya keçid üçün

əlverişli iqtisadi şərait yaratmış və demokratikləşmənin potensial sosial bazasını genişləndirmişdir.

Lakin tarixi təcrübə göstərir ki, iqtisadi inkişaf səviyyəsi ilə demokratikləşmə arasında birmənalı və birbaşa səbəb-nəticə əlaqələri yoxdur. İqtisadi dəyişikliklərin siyasi proseslərə təsiri sosial dəyişikliklər vasitəsilə olur. S.Hantinqton yazırdı: "İqtisadi inkişaf dövlətin hüdudlarından kənarda yeni sərvət və hakimiyyət mənbələri, eləcə də qərarlar qəbul etmək səlahiyyətlərinin həvalə olunmasına funksional tələbat yaratmışdır"[1].

İqtisadi inkişafın sosial strukturda və dəyərlərdə baş verən dəyişikliklərə bilavasitə təsiri daha çoxdur ki, bu da demokratikləşmənin ilkin şərtlərindən biridir.

Əvvələn, cəmiyyətin iqtisadi rifah səviyyəsi vətəndaşlar üçün elə dəyərlər və məqsədlər yaradır ki, onlar şəxsiyyətlərarası etimad, məmnunluq və səriştəlilik hisslərinin inkişafını stimullaşdırır, bu da öz növbəsində məhz demokratik təsisatlarla korrelyasiya olunur.

İkincisi, iqtisadi inkişaf cəmiyyətdə savadlılığın səviyyəsinin artmasına səbəb olur. Bu isə mövcud siyasi sistemə getdikcə daha tənqidi münasibət bəslənməsi ilə, fərdi azadlıqlara tələbatla və deməli, demokratikləşməyə tələbatla müşayiət olunur.

Üçüncüsü, iqtisadi inkişaf müxtəlif sosial qruplar arasında bölüşdürülmək üçün daha çox maddi resurslar yaradır, bu isə münaqişələrin tənzimlənməsini və kompromis əldə edilməsini asanlaşdırır.

[1] S.Hantington. The Third Wave. Democratization in the Late Twentieth Century. Norman and London, 1991, p.52.

Dördüncüsü, iqtisadi inkişafın beynəlmiləlləşməsi bütün dövlətlərin dünya ticarət, investisiyalar, texnologiyalar, turizm və kommunikasiyalar bazarına inteqrasiyasına şərait yaradır. Ölkənin beynəlxalq iqtisadi əlaqələr sisteminə qoşulması çox vaxt sənaye aləmində üstünlük təşkil edən demokratik ideyaların cəmiyyətə təsirinin mühüm mənbəyinə çevrilən əlaqələrlə müşayiət olunur.

Beşincisi, iqtisadi inkişaf bütün ölkələrdə demokratikləşmə prosesinin əsas dayağı və hərəkətverici qüvvəsi olan orta sinifin sayca artmasına gətirib çıxarır.

Müəyyən mədəni dəyərlərin olmasını demokratiyanın yaranması üçün zəruri şərt kimi xarakterizə etməklə yanaşı, onu da demək lazımdır ki, həmin dəyərlər sabit və davamlı demokratiyanın formalaşması üçün tezliklə əlverişli ab-hava yaradır. Lakin A.Y.Melvilin haqlı olaraq qeyd etdiyi kimi, ilkin şərait və korrelyasiyaların mövcudluğu heç də eyni şey demək deyildir. İlkin struktur şərtləri təmin edilmədən demokratiyaya keçid mümkün deyildir. Korrelyasiyalar isə məcburi ilkin şərtlər yox, demokratikləşməni sürətləndirən və ya ləngidən amillərdir.

"Üçüncü demokratik dalğa"dan əvvəlki proseslər göstərdi ki, mədəniyyət, daha doğrusu, sosiomədəni fon heç də həmişə demokratik tranzitin başlanğıcında bu proseslərin tərkib hissəsi deyildir. SSRİ dağılarkən, yaxud 1974-cü ildə Portuqaliyada diktatura süqut edərkən müvafiq fonun olmasını söyləmək çətindir. Çox güman ki, siyasi proses iştirakçılarının davranış taktikası və strategiyası ilə bağlı olan endogen səbəblər demokratik transformasiyanın başlanmasını şərtləndirmişdir. Hərçənd, sonrakı dövrdə sosiomədəni fon təbii ki, demokratik tranzitin səmərəliliyinin təmin

edilməsində ən mühüm atributa çevrilir. Aşağıda bu fikri açıqlamağa çalışacağıq.

SSRİ dağılandan sonra müstəqillik ideyası ictimai rəydə xeyli dərəcədə üstünlük təşkil edir, müstəqil dövlətin inkişaf strategiyası kimi mühüm məsələlər isə aparıcı siyasi qüvvələrin diskussiya dairəsindən kənarda qalırdı. 1990-cı ilin yanvar hadisələrindən sonra Azərbaycanda ictimai şüur müstəqilliyi "bütün dərdlərin əlacı" kimi başa düşürdü, hesab edirdi ki, müstəqillik sayəsində cəmiyyət bir anda bütün xəstəliklərdən xilas olacaqdır. İctimai-siyasi vəziyyət ölkədə və onun hüdudlarından kənarda baş verən proseslərin real mahiyyətini qiymətləndirməyə imkan vermirdi. Ə.Vəzirovun, A.Mütəllibovun, sonra isə Ə.Əliyevin (Elçibəyin) də "idarəetmə vərdişləri", daha doğrusu, bu cür vərdişlərin olmaması ölkədə siyasi tənəzzülə və iqtisadi durğunluğa səbəb olurdu. Onların davranışının qısamüddətli strategiya və taktikası idealdan çox uzaq idi. Beləliklə, müstəqillik əldə edilən dövrdə "broun hərəkəti", yəni xaos Azərbaycan cəmiyyətinin dinamikasının əsas ifadəsi idi. Lakin 1993-cü ilin ortalarından başlayaraq, müstəqil dövlətçiliyin mərhələlər üzrə inkişafı yeni davranış stereotiplərinin və təfəkkür formalarının təşəkkülünü müəyyən etdi. Sonrakı illərdə hiss olunmadan ayrı bir vətəndaş mədəniyyəti və siyasi mədəniyyət formalaşmağa başladı. Daha 10 ildən sonra isə bu sosiomədəni fon siyasi strukturun yeni konfiqurasiyalarının təsiri ilə transformasiya etməyə başladı. Beləliklə, Azərbaycan dövlətçiliyinin tədricən inkişaf etməsi labüd surətdə daxili transformasiyalara gətirib çıxarır, onlar da öz növbəsində cəmiyyətin və dövlətin inkişafının ümumi xarakterini ifadə edirdi.

Buna oxşar prosesləri 1974-cü ildə Portuqaliyada, 1917-ci ildə Rusiyada da... müşahidə etmək olardı. Portu-

qaliyada "broun hərəkəti" dövrünə aid bir tarixi misal, 1975-ci ildə general Spinolanı devirmək üçün göstərilən uğursuz cəhd buna əyani sübutdur. 1973-cü ildə Braziliyada istefaya çıxan general Emiliu Mediçi hökumətinin liderləri siyasi "dekompressiya" planları qurmuş" və 1974-cü ildə general Ernestu Geyzel özünün yeni hökumətinə siyasi aşkarlıq yaradılması prosesinə başlamaq barədə tapşırıq vermişdi. İspaniyada baş nazir Karlos Arias Franko diktaturasını ehtiyatla liberallaşma məcrasına yönəldirdi[1].

Demokratiyanın möhkəmlənməsini, dövlətin və cəmiyyətin inkişafının səmərəliliyini təmin edən vətəndaş mədəniyyətinin və siyasi mədəniyyətin müvafiq səviyyəsinin formalaşması çox uzun və mürəkkəb bir prosesdir. Hərçənd, bu problemlərin tanınmış tədqiqatçılarından olan S.M.Lipset yazır: "Əvvəlki tarixi inkişafın xüsusiyyətləri ilə əlaqədar olan mədəni amillərlə manipulyasiya etmək son dərəcə çətindir. Siyasi təsisatlar, o cümlədən seçki sistemləri və konstitusion quruluş çox asanlıqla dəyişir. Buna görə də sabit demokratik idarəetməyə keçid imkanlarını möhkəmlətməyin qeydinə qalanlar öz diqqətlərini bu imkanlar üzərində cəmləşdirirlər"[2].

Qərb tədqiqatçısı Mayron Viner mədəni amillərin əhəmiyyətini aşağıdakı şəkildə təsdiqləyir: namizədlər arasında rəqabətə əsaslanan seçki təsisatlarının qısa bir müddətdə mövcud olduğu bəzi başqa ölkələr (Nigeriya, Pakistan) kimi, müharibədən sonra yaranmış və sabit demokratik rejimlərin səciyyəvi olduğu "yeni dövlətlərin", demək olar ki, hamısı keçmiş Britaniya müstəmləkələridir.

[1] С.Хантингтон. Третья волна, стр.15.

[2] С.Липсет. Роль политической культуры. http://politnauka.org

F.Şmitter isə yazır ki, "demokratik rejim xüsusi siyasi mədəniyyətin bəhrəsi, yaxud "sivilizasiyalılığın", savadın və təhsilin əldə edilmiş səviyyəsinin labüd nəticəsi deyildir"[1].

Beləliklə, demokratik ənənələrə malik olan məkanlarda demokratik tranzit və ondan sonrakı konsolidasiya səmərəli nəticə verir. Eyni zamanda, əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, protestant icmalarında demokratiya daha uğurlu şəkildə kök salmışdır. S.Lipset hələ 1960-cı ildə "Siyasətçi" əsərində yazırdı ki, sabit demokratiyaların əksəriyyəti daha zəngin olan və əsasən protestantlığa etiqad edən ölkələrdədir. Nisbətən qeyri-sabit rejimlər katolik ölkələri və yoxsul dövlətlər üçün səciyyəlidir. Lakin "üçüncü demokratik dalğa" gücləndikcə, onun bürüdüyü məkan Orta Asiyaya və Yaxın Şərqə qədər genişlənmişdir. Ümumdünya miqyaslı inteqrasiya və onu müşayiət edən sosiumun ictimai-siyasi həyatının modernləşməsi cəmiyyətlərə yeni dəyər oriyentirləri və təriflər gətirməklə yanaşı, həm də bu cür assimiliyasiyanın son dərəcə çətin təsəvvür edildiyi yerlərdə qərb tipli siyasi demokratiya qurulmasına kömək edir.

Demokratiyanın konkret sosiomədəni şərtləri baxımından bu və ya digər modelin universal və əsaslandırılmış olması barədə fikir ayrılıqları bu məsələyə prosedur yanaşma yaranmasına təsir göstərmişdir. Həmin yanaşmanın nümayəndələri (G.O'Donnell, F.Şmitter, C.Di Palma, X.Lints, T.Karl) demokratiya və demokratikləşmənin endogen amillərinə istinad edirlər. Prosedur yanaşma tərəfdarlarının fikrincə, demokratiyanı yaratmağa cəhd göstərən aktorların hərəkətləri, onların müəyyən strategiya və taktika seçməsi bu prosesin nəticəsi üçün daha vacibdir, nəinki proses başlayarkən demokratiya üçün mövcud olan ilkin

[1] http://old.polit.ru/printable/113534.html

şərait. Problemə prosedur yanaşma demokratikləşmə prosesini bir-biri ilə rəqabət aparan elitaların qarşılıqlı təsiri ilə izah edir. Həmin elitalar yeni siyasi quruluşun təşkilati formalarını və təsisatlarını siyasi alver prosesində seçirlər.

Deməli, əgər struktur yanaşma demokratik dəyişikliklərin nəticəsinin əlverişli olub-olmamasına təsir göstərən "obyektiv" sosial, iqtisadi, mədəni və başqa amillərin mövcudluğuna səmtlənirsə, demokratikləşmənin və demokratiyanın zəruri əsası olan prosedur yanaşma bu dəyişikliklər prosesini həyata keçirən siyasi aktorların hərəkətlərini zəruri təməl hesab edir. Bu yanaşmaya nümunə olaraq X.Lints və A.Stepan tərəfindən qeyd edilən şərtləri göstərmək olar. Həmin şərtlərin olması demokratiyanın mövcudluğu üçün zəruri şərtdir. Onlar müəyyən dəyişikliklərin nəticəsi olan aşağıdakı amillərə diqqəti cəlb edirlər:

- dövlətlə müstəqil ictimai qrupların və birliklərin qarşılıqlı əlaqəsinin təmin edilməsi yolu ilə vətəndaş cəmiyyətinin formalaşması;
- demokratik prosedurların və təsisatların inkişafı;
- hüquqi dövlətin inkişafı;
- yeni demokratik hakimiyyətin öz məqsədləri üçün istifadə edə biləcəyi səmərəli dövlət aparatının, bürokratiyanın təşəkkülü;
- dövlət ilə bazar arasında vasitəçilər qismində çıxış edən sosial təsisatlar və normalar sistemi yaradılması yolu ilə inkişaf etmiş iqtisadi cəmiyyətin formalaşması.

Tədqiqatçıların üçüncü qrupunun fikrincə, struktur və prosedur yanaşmalar arasında aradan qaldırıla bilməyən

ziddiyyət yoxdur. Əksinə, bu yanaşmalar bir-birini qarşılıqlı surətdə tamamlayır, çünki onlar eyni bir hadisənin müxtəlif aspektlərini təhlil edir. A.Y.Melvilin fikrincə, bu iki metodologiyanı sintez etmək mümkündür. Lakin bu iki metodoloji yanaşmanın konseptual baxımdan birləşməsi müxtəlif politoloqlar tərəfindən heç də birmənalı qəbul edilmir və bütövlükdə, elm üçün hələlik həll edilməmiş problemdir.

Beləliklə, müxtəlif yanaşmaların təhlili göstərir ki, mürəkkəb və çoxcəhətli anlayış olan "demokratikləşmə" indiyə qədər elmi mübahisələrin mövzusudur və gələcəkdə onun tamamlanması tələb olunur.

Eyni zamanda, "üçüncü demokratik dalğa"nın təcrübəsi inandırıcı şəkildə göstərdi ki, demokratik təsisatların və prosedurların formal şəkildə bərqərar olması keçid prosesinin özünün demokratik nəticə ilə başa çatacağına əsla təminat vermir. Bunun nəticəsində tranzitologiyada demokratik transformasiya dövründə iki əsas fazanın analitik baxımdan fərqləndirilməsi təsbit olunmuşdur: demokratiyanın yaranması fazası və onun konsolidasiyası fazası.

Demokratiyanın yaranması prosesindən fərqli olaraq, "demokratik konsolidasiya" ən az tədqiq edilmiş məsələdir. Bir sıra alimlərin fikrincə, demokratiya bütöv şərtlər kompleksinin reallaşması nəticəsində möhkəmlənir. A.Pşevorski yazır: "Demokratiya o halda möhkəmlənir ki, mövcud siyasi və iqtisadi şəraitdə müəyyən təsisatlar sistemi təbii şəkildə mümkün olsun"[1].

Təcrübə göstərir ki, demokratiyanın konsolidasiyası üçün dövlət və cəmiyyət endogen və ekzogen tədbirlər komplek-

[1] Adam Przeworski. 1991. Democracy and the Market Political Reforms in Eastern Europe and Latin America. Cambridge. Cambridge University Press.

sini reallaşdırmalıdır. F.Şmitter yazır: "Əhəmiyyətli dərəcədə qeyri-müəyyənlik və davametmə müddətinin naməlumluğu ilə səciyyələnən dövr ərzində əvvəlki avtoritar rejim siyasi dominantlığın başqa bir formasına "transformasiya edir". Bu dövr başa çatandan sonra yeni mərhələ başlanır, keçid dövrünün siyasi improvizasiyalarını idarəetmənin sabit formalarına və siyasi alyanslara çevirmək zərurəti yaranır. Bu şəraitdə müxtəlif siyasi subyektlər arasında rəqabət və əməkdaşlıq daha çox proqnozlaşdırıla bilən xarakter daşıyacaqdır. Demokratik rəqabət miqyası barədə çoxlarının böyük ümidlər bəslədiyi (bəzilərinin isə çox ehtiyat etdiyi) gələcək dəyişikliklərin "taktiki döyüş əməliyyatlarından" əvvəlcədən müəyyən edilmiş "cəbhə xəttində" "mövqelər müharibəsi" mərhələsinə keçməlidir. Bu "müharibənin" məqsədi ilkin saziş çərçivəsində müəyyən üstünlüklər qazanmaqdan ibarət olmalıdır.

Bu baxımdan demokratiyanın konsolidasiyasına düşünülmüş normaların diktə etdiyi və müntəzəm xarakter daşıyan, dəqiq məlum olan qaydalar üzrə həyata keçirilən, demokratik idarəetmədə iştirak edən müxtəlif təşkilatlar və fərdlər (yəni siyasətçilər və ya adi vətəndaşlar) tərəfindən könüllü surətdə qəbul olunan əməkdaşlıq və rəqabət münasibətlərinə keçid prosesində qəbul edilmiş qərarların vəziyyətində irəli gələn təsadüfi razılaşmaların transformasiyası prosesi kimi tərif verilə bilər"[1]. Beləliklə, konsolidasiya yeni siyasi mədəniyyət və vətəndaş mədəniyyəti yaradılması vasitəsilə cəmiyyətdə demokratik ənənələrin təkmilləşdirilməsinə kömək edir.

Təbii olaraq, belə bir sual doğur: "demokratiyanın konsolidasiyası" dedikdə nəyi başa düşməlyik, axı, demokratik prosedurların praktik baxımdan bərqərar olması ictimai şüurda demokratik dəyərlərin yaranmasına, möhkəmlənməsinə və

[1] http://old.polit.ru/printable/113534. html

"sıxlaşmasına" şərait yaradan bir sıra tədbirlər görülməsini tələb edir. Bununla bərabər, bəzi rusiyalı tədqiqatçıların fikrincə, möhkəmlənmə fazası məlum siyasi və iqtisadi şəraitdə müəyyən təsisatlar sisteminin yeganə mümkün sistem olmasını nəzərdə tutur, yəni, bu, istər müxalifətçi elitada, istərsə də cəmiyyətdə mübahisə doğurmur. Buna belə bir şərait də xidmət edir ki, bütün əsas siyasi qüvvələr siyasi oyunun başlıca qaydasını mənimsəmiş olur: siyasi mübarizənin (elektoral proses də daxil olmaqla) nəticəsi əvvəlcədən müəyyən edilməmişdir, dəyişməyən yalnız bu mübarizənin aparılması qaydalarıdır. "Demokratiyanın konsolidasiyasına parlament seçkilərinin nəticələrinə müvafiq olaraq, hökumətin ən azı iki dəfə dəyişməsi, əsas siyasi qüvvələrin hakimiyyətdə növbələşməsi prinsipinin deklarativ şəkildə yox, həqiqətən gerçəkləşməsi kömək edir"[1].

X.Lints və A.Stepan[2] isə belə hesab edirlər ki, konsolidasiya olunmuş demokratiya aşağıdakı sahələrdə dəstəklənir:

1) vətəndaş cəmiyyəti;

2) siyasi cəmiyyət;

3) hüquqi dövlət;

4) səmərəli dövlət aparatı;

5) iqtisadi cəmiyyət.

Beləliklə, demokratiyanın konsolidasiyası mürəkkəb, demokratik təsisatların və prosedurların formal olaraq yaradılmasından daha sonra baş verən prosesdir. Lakin demokratik

[1] А.Глухов. Новый этап российской трансформации. http://www.lib.vsu.ru/elib/texts/179.pdf

[2] J.Juan Linz and Alfred Stepan. 1996. Problems of Democratic Transition and Consolidation. Southern Europe, South America and Post-Communist Europe. Baltimore and London: The John Hopkins University Press, p.3.

rejim yalnız o halda "bərqərar edilmiş" sayıla bilər ki, cəmiyyətin "siyasi əhəmiyyət kəsb edən" bütün qrupları onun əsas siyasi təsisatlarının "siyasi rəqabətin yeganə legitim hədlərini" təmin etsin və "demokratik oyun qaydalarına" sadiq olduqlarını bildirsinlər[1].

Bununla bərabər, bəzi müəlliflər, məsələn, R.Günter "yetərincə bərqərar olmuş" və "tam bərqərar olmuş" demokratiya arasında fərq qoyurlar. Belə hesab edilir ki, "yetərincə bərqərar olmuş" demokratiya şəraitində cəmiyyətin və dövlətin demokratik inkişafı onların həyatda qalmasına və ciddi çətinliklərlə üzləşdikdə, öz sabitliyini qoruyub saxlamağa imkan verən "dəstək və çevikliyə" malik olur[2].

Bəzi alimlərin fikrincə, demokratiyanın bərqərar olması prosesi bir neçə nəsli cəlb etməklə illərlə uzana bilər. Demokratiyanın konsolidasiyasına keçidin başlanğıc mərhələsinə münasibətdə həmin tədqiqatçıların irəli sürdüyü sərt tələblər bərqərarolma prosesini uzadır, bəzən də onu əlçatmaz edir. Y.Günter və onun həmmüəllifləri isə bu fikirdədirlər ki, demokratik rejim, – İspaniyada və ya Yunanıstanda olduğu kimi, – ilk demokratik seçkilərdən sonra nisbətən qısa zaman kəsiyində "yetərincə bərqərar" ola bilər.

Demokratikləşmə prosesinin təkamül dövrünü yaşayan Azərbaycanın real mövqelərinin tədqiq olunması və aşkar edilməsi üçün məsələyə bu mövqedən yanaşma çox vacibdir. Ölkədə demokratik seçkilər keçirildiyi şəraitdə, hətta institusionallaşmanın zəif olduğu və partiya sisteminin fraqmentlərə bölündüyü şəraitdə belə, demokratiyanın bərqərar olması nəzəri və praktik baxımdan başa çatmış proses hesab edilə

[1] R.Günter, P.N.Diamandorus, H.-J.Puble, O'Donnel's. İllusions. A.Rejoinder, Journal of Democracy, vol.7.№ 4, october, 1996, p.152.

[2] Yenə orada, səh.153.

bilməz. Məlumdur ki, demokratiyanın tam və davamlı konsolidasiyası üçün cəmiyyətdə sosial-psixoloji transformasiyalar zəruridir. Bu halda demokratikləşmə bərqərarolma mərhələsindən konsolidasiya mərhələsinə heç də birdən-birə keçmir. Bizim fikrimizcə, bərqərarolma və möhkəmlənmə fazaları arasında demokratikləşmə kristallaşma mərhələsində, yəni siyasi sistemin, kütləvi şüurun və demokratiya praktikasının postindustrial dəyərlər və normalar məcrasına transformasiyası mərhələsində olur.

Bu mövqe postavtoritar dəyişikliklərin birinci mərhələsinin mahiyyətini səciyyələndirən ümumi "demokratik keçid" kimi ümumi anlayışla yanaşı, "başa çatmış demokratik keçid" anlayışından da istifadə edilməsinin zəruriliyini vurğulayan X.Lintsin və A.Stepanın mövqeyinə oxşayır. Onların fikrincə, "demokratiyaya keçid o halda başa çatır ki, seçilmiş hökuməti iqtidara gətirən siyasi prosedurlar barəsində kifayət qədər möhkəm razılıq əldə edilmiş olsun; hökumətin hakimiyyətə gəlməsi azad və ümumi seçkilərin nəticəsi olmuş bu hökumət de fakto yeni siyasət yaratmaq hakimiyyətinə malik olsun; yeni demokratiyanın yaratmış olduğu hakimiyyətin icra, qanunverici və məhkəmə hakimiyyəti qolları öz hakimiyyətini de yure başqa orqanlarla bölüşdürməli olmasın"[1].

"Bərqərar olmuş demokratiyaya" keçid prosesində çətinliklər olur və bunlar özünü postavtoritar cəmiyyətlərin demokratikləşmə yolunda üzləşdikləri iqtisadi dəyişikliklərə sosial-psixoloji baxımdan hazır olmamasında göstərir. Demokratikləşmənin başlanğıc mərhələsi həmişə cəmiyyətdə daxili münaqişələrə təhrik edən sərt iqtisadi reqlamentləşdirmə ilə əlaqədar olur. Katarina Vişert Latın Amerikası ölkələri timsalında yazır: "Transformasiya prosesində iki mərhələni ayı-

[1] X.Lints və Alfred Stepan. Göstərilən əsəri, səh.3.

ra bilərik: birinci mərhələ – demokratik hökumət qurulmasına istiqamətlənmiş tranzit mərhələsidir. Kubadan savayı, Latın Amerikasının bütün ölkələrində bu mərhələni artıq keçilmiş hesab etmək olar. Konsolidasiya nəticə etibarilə dəyərlərlə əlaqədar olan prosesdir. Əgər əhali demokratiyanın mövcud olmasını qəbul edirsə və siyasi aktorlar birinci mərhələdə yaradılmış təsisatları qəbul edirlərsə, demokratiya konsolidasiya olunmuş kimi qiymətləndirilə bilər... Bu tərif çərçivəsində Latın Amerikası demokratiyalarının heç biri konsolidasiya olunmuş demokratiya kimi qiymətləndirilə bilməz. Rəy sorğuları göstərmişdir ki, insanların əksəriyyəti bütövlükdə demokratiyaya hörmətlə yanaşırlar. Lakin mövcud demokratiyaya münasibətdə adamların əksəriyyəti mümkün alternativ kimi sosialyönümlü avtoritar rejimə üstünlük verirlər, çünki avtoritar rejimlərin iqtisadi səmərəliliyi daha yüksəkdir"[1].

Postavtoritar dövlətlərin əksəriyyətində demokratik transformasiyaların başlanğıc mərhələsində tolerantlıq və demokratik təsisatların mövcud olmadığı şəraitdə iqtisadi firavanlığın olduğu "köhnə zəmanə" barədə nostalji duyğular yaşanırdı. Postsovet dövlətlərinin əksəriyyəti üçün buna oxşar sosial-psixoloji fenomen ötən əsrin 90-cı illərinin əvvəlində ictimai diskussiyaların adi mövzusuna çevrilmişdi. Lakin keçmiş sovet respublikalarının iqtisadi şəraiti dəyişdikcə, əhalinin maddi rifahı yaxşılaşdıqca kütləvi şüurda və sosial gercəkliyin qavranılmasında ciddi dəyişikliklər baş verirdi ki, bu da cəmiyyətdə yeni dəyərlərin və oriyentirlərin təşəkkülündə özünü göstərirdi. Buna baxmayaraq, sabiq sovet respublikalarının bəziləri kütləvi şüurda yeni dəyər oriyentirlərinin assimilyasiyası və demokratiyanın bərqərar olması

[1] Katarina Wichert. Social Development and Consolidation of Democracy. http://tiss.azdv.uni-tuebingen.de

mərhələsindən yan ötərək, demokratiyanın konsolidasiyasına keçməmişdir. Braziliyada təxminən 20 il, İspaniyada 5-7 il, Yunanıstanda 3-5 il müddətində müşahidə olunan vəziyyət postsovet dövlətlərində, çox güman ki, daha uzun sürəcəkdir.

Azərbaycanda demokratiyanın bərqərar olması bir neçə amillə şərtlənmişdi. Əvvəla, demokratiyanın yaranması müstəqil dövlətçiliyin təşəkkül etdiyi şəraitdə baş verirdi. Bu isə demokratik norma və dəyərlərin mənimsənilməsini daha da mürəkkəbləşdirirdi. Demokratikləşmənin "aşağıdan yuxarıya doğru" həyata keçirilməli olması göz qabağında idi, lakin hakim rejimlərin tez-tez dəyişməsi, eləcə də siyasi və iqtisadi şəraitin sabit olmaması nəticəsində demokratiyanın bərqərar olmasına dair diskussiyalar siyasi sabitliyin qorunub saxlanması müstəvisinə keçirdi. Beləliklə, demokratik seçkilər "kifayət qədər bərqərar olmuş" demokratiyanın təmin edilməsi üçün əsas oriyentir hesab edilə bilməzdi. XX əsrin 90-cı illərinin axırlarında həyata keçirilmiş institusional dəyişikliklər ictimai təkamülün demokratiyanın yaranmasından sonrakı transformasiyalar məcrasına tranziti üçün zəmin hazırlamışdır.

İkincisi, müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyətindəki sosial-psixoloji vəziyyət demokratiya haqqında diskussiyaları ictimai inkişafın prioritetlərindən birinə çevirmədi. Cəmiyyətin şüuru inkişafın dəyər seqmentlərinə səmtlənməkdən daha çox, sosial-iqtisadi problemlərlə və siyasi sabitlik məsələləri ilə məşğul idi. Bir neçə il müddətində demokratiya yalnız ideolojiləşmiş siyasi müxalifətin ritorikasının bir hissəsi olaraq qalmaqda idi.

Üçüncüsü, Azərbaycan cəmiyyəti: 1) tam siyasi sabitlik əldə edildikdən; 2) iqtisadi sahədə ilk uğurlardan və əhalinin maddi rifahı yaxşılaşmağa başlayandan sonra, – başqa sözlə desək, "qarın tox olanda demokratiya haqqında düşünmək

daha asan olur", – demokratik dəyərləri və normaları ictimai inkişafın ayrılmaz atributu kimi qavramağa başlamışdı. Lakin demokratiya təkcə siyasi sabitlik və iqtisadi tərəqqi şəraitində deyil, həm də keyfiyyətli təhsil sistemi mövcud olduqda uğurlu olur. Azərbaycan cəmiyyətində demokratik dəyərlərin və normaların mənimsənilməsinin çətinliyi təhsil sahəsində transformasiyaların olmaması ilə əlaqədar idi. SSRİ dağılandan sonra postsovet dövlətlərinin əksəriyyətinin təhsil sistemi, yeni, əsasən, Qərb standartlarına keçidlə əlaqədar, təəssüf ki, hələ də mürəkkəb bir dövr yaşayır. Təhsil sahəsində qloballaşma ilə bağlı çətinliklər yeni davranış və mentalitet stereotiplərinin formalaşmasına da mənfi təsir göstərmişdir. İki əsrdən artıq bir müddətdə Rusiya imperiyasının tərkibinə daxil olmuş, ondan əvvəl isə nəinki qonşu dövlətlərin, hətta çox-çox uzaqda yerləşən dövlətlərin də geosiyasi maraqlarının toqquşduğu meydan olmuş məkanda milli dövlət qurulması Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatının bir sıra seqmentlərinin transformasiyası kimi çox mürəkkəb bir vəzifəni yeni məcraya keçirmişdi.

Dördüncüsü, postkommunist ölkələrində fəal surətdə yeni iqtisadi sistem qurulurdu. Bazar iqtisadiyyatının özünəməxsus oyun qaydaları yeni təfəkkür formalarının yaranmasına ciddi təsir göstərirdi. Beləliklə, Azərbaycanda demokratiyanın yaranması praktik olaraq, on il davam etdi və onun ilk mərhələsi 2003-cü ildə prezident seçkiləri ilə başa çatdı. V.Bansın təbirincə desək, "postkommunizm demokratiyaya keçiddən daha geniş anlayışdır; bu, siyasəti, iqtisadiyyatı və ictimai həyatı əhatə edən inqilabdır"[1].

[1] V.Bunce. Comparing East and South. Journal of Democracy, vol.6, №3, 1995, p.92.

Müasir siyasi elmdə göstərilir ki, bir sıra postkommunist ölkələrinin üzləşdiyi dəyişikliklərin nadirliyi onların bir yox, eyni vaxtda bir neçə çox çətin "keçid" etməsi ilə bağlıdır. X.Lints yazırdı: "Keçmiş kommunist ölkələrində bütün keçidlər Qərb ölkələrində baş vermiş keçidlərdən əsaslı şəkildə fərqlənir. Bu, həmin ölkələrdə yaranmış səmərəsiz, mərkəzləşdirilmiş sosialist iqtisadiyyatından irəli gəlir. Bu ölkələr iqtisadi islahatları və bazar iqtisadiyyatının müəyyən formasına keçidləri siyasi dəyişikliklər nəticəsində siyasi islahatla eyni vaxtda həyata keçirməlidir. Lakin iqtisadi sistemin dəyişikliklərinin siyasi dəyişikliklərdən daha artıq çətinliklərlə bağlı olmasını təsdiqləyən faktlar var. Bu, qismən onunla bağlıdır ki, komanda iqtisadiyyatından bazar iqtisadiyyatına və kapitalizmin müəyyən formasına keçidin modelləri hələlik yoxdur"[1].

Eyni zamanda, demək lazımdır ki, demokratiyanın yayılması probleminə yalnız "kulturoloji konsepsiya" mövqeyindən yanaşmaq barədə 1963-cü ildə Q.Almond və S.Verba tərəfindən təklif edilmiş yanaşma (The Civic Culture: Political Attitudes and Democracy in Five Nations) "üçüncü demokratik dalğa" meydanının intensiv genişlənməsi dövründə "milli demokratikləşmə"nin səbəb və mənbələrinin başa düşülmə dairəsini əhəmiyyətli dərəcədə daraldır. Yuxarıda deyildiyi kimi, "üçüncü demokratik dalğa"nın təsirinə düşmüş dövlətlərin əksəriyyətində demokratik sistemin sabitliyi ilə kütləvi şüurun və cəmiyyətdə siyasi mədəniyyətinin xarakteri arasında bütövlükdə qarşılıqlı əlaqə yox idi. Bu məkanlarda demokratikləşmə, əsasən, endogen və ekzogen siyasi amillərin təsiri altında həyata keçirilirdi. Postkommunist ölkələrində

[1] J.Linz. Transitions to Democracy. Washington Quarterly, Summer, 1990, p.156.

yeni siyasi konfiqurasiyanın formalaşmasına şərait yaradan daxili və xarici amillər olduğuna görə, həyata keçirilən radikal dəyişikliklər sonradan siyasi strukturun dəyişməsini və demokratiya istiqamətində inkişafı şərtləndirmişdir.

Tədqiqatçılar müasir transformasiyaları təhlil etdikcə, demokratikləşmə prosesində kütlələrin ikinci dərəcəli rol oynaması qənaətinə gəlir, bu məsələdə birinciliyi elitaların nümayəndələrinə verirlər. Beləliklə, "demokratik oyun qaydalarının implantasiya edildiyi" cəmiyyətlərdə "mədəni mühit" heç də prioritet rol oynamır, demokratiyanın perspektivləri, yeni demokratik təsisatların özünə yol açması və yeni təfəkkür formalarının bərqərar olması perspektivlərini müəyyənləşdirir. Bəzi müəlliflərin fikrincə, "vətəndaş mədəniyyəti demokratikləşmənin səbəbindən daha çox onun nəticəsi ola bilər"[1].

Təbii ki, milli inkişafın cari vəziyyəti barədə sual doğur. İndi Azərbaycanda demokratiya konsolidasiya yolundadırmı? Bizə belə gəlir ki, Azərbaycanda konsolidasiya olunmuş demokratiya qurulması barədə tələsik nəticə çıxarmaq lazım deyildir. Bizim fikrimizcə, indi Azərbaycan demokratiyanın yaranmasından sonrakı dövrü, demokratik ideyaların və davranış normalarının nə isə bir kristallaşma dövrünü yaşayır. Bunu deyərkən nəyi başa düşməliyik? Bəzi tədqiqatçıların fikrincə, İspaniyada Franko rejimindən sonra uğurla sınaqdan çıxarılmış model – demokratiyanın müəyyən qədər "bərkiməsindən" sonra islahatlar keçirmək modeli keçmiş kommunist dövlətlərinin əksəriyyəti üçün optimal seçim olardı. İspaniya demokratiyasının təhlil edilməsi Üçüncü dalğa demokratikləşməsinin də tərkib hissəsi olan milli demokratikləşmənin mahiyyətini aydınlaşdırmağa imkan

[1] B.Zhang. Corporation. Totalitarism and Transitions to Democracy. Comparative Political Studies, vol.27, aprel 1994, p.110.

verərdi. Üstəlik, siyasi proseslərin aktorlarının konsensusuna zərurət hiss edilən milli siyasi məkanda İspaniya demokratiyasının bəzi cəhətlərindən istifadə edilə bilərdi. Aşağıda haqqında söhbət açacağımız "Monkloa paktı" İspaniyanın siyasi qüvvələrinin yüksək səviyyədə məsuliyyətinin, onların öz ölkəsinin gələcəyi naminə ağıllı kompromisə getməyə əməli cəhətdən hazır olmalarının əyani sübutudur. "Milli konsensus"un əldə edilməsi də islahatlar aparılması sahəsində İspaniya təcrübəsinin əsas elementi olmuşdur.

"Üçüncü demokratik dalğa" dövründə demokratikləşmənin İspaniya təcrübəsi uğur qazanmağın gözəl nümunəsidir. Bu ölkə tranzitin yeni modelinin sınaqdan çıxarılması üçün bir növ poliqon olmuşdur: müxalifətin təzyiqi altında demokratik qüvvələrlə danışıqlara gedəcək sazişə gələn elitanın islahatçı hissəsi qeyri-demokratik rejimi yuxarıdan-aşağıya doğru yenidən qurmuşdur. Tranzitin bu variantından sonralar Şərqi Avropanın və Latın Amerikasının demokratikləşməkdə olan dövlətləri istifadə etmişdir.

Bəzi tədqiqatçıların fikrincə, İspaniyada demokratiyaya keçid 1975-ci il noyabrın 22-də Xuan Karlos İspaniyanın kralı elan edildiyi vaxtdan başlanmışdır. Bu baxımdan əlamətdar haldır ki, başqa dövlətlərdə monarxiya, adətən, demokratik proseslər yolunda əngəl kimi təsəvvür edilirdi. Məsələn, sovet tarixşünaslığında buna oxşar fikir fəal təbliğ olunurdu. Lakin məhz həmin dövrdən etibarən İspaniyada siyasi proseslərin keyfiyyətcə yeni dinamikası başlanmışdır.

Qeyd etmək lazımdır ki, İspaniyada diktatura heç də birmənalı deyildi. Dövlət inkişaf etdikcə senzura zəifləyir, üçüncü sektor güclənir, tələbələr arasında demokratikləşmənin əlamətləri yaranırdı. Ötən əsrin 60-cı illərində və 70-ci

illərinin əvvəllərində baş vermiş "iqtisadi möcüzə" dövlət idarəetməsində müəyyən aşkarlığa şərait yaratmışdı. Əlbəttə, iqtisadiyyat demokratikləşmənin prioritet istiqaməti deyildir, lakin sosial-iqtisadi inkişafın yüksək səviyyəsi və təsərrüfat konyunkturu demokratiyanın təşəkkülü və konsolidasiyası üçün şərait yaradılmasına kömək edir.

İspaniyada demokratiyaya keçidin maraqlı cəhəti bir də odur ki, kaudilyonun ölümündən sonra elita özü islahatlar keçirilməsini istəyirdi, yəni İspaniya inkişaf etdikcə, "sistem-daxili" islahatçılar yaranırdı. Lakin bundan əvvəl bir sıra proseslər baş vermişdi.

İlk növbədə, vurğulamaq lazımdır ki, X.Lintsin yazdığı kimi, İspaniyada yaradılmış rejim frankizm dövrü ispaniyalılarının "özünəməxsus mentalitetinə" əsaslanırdı. Bu mentallığın fərqləndirici cəhəti isə siyasi apatiya və "mücərrəd" ideyaların, ideoloji konsepsiyaların qəbul edilməməsi idi. Sovet kommunizmindən fərqli olaraq, frankizm əhalinin siyasi səfərbərliyindən imtina etmişdi və passiv itaəti, loyallığı daha üstün tutur, özünə münasibətdə fəal sədaqət nümayiş etdirilməsini tələb etmirdi.

Digər tərəfdən, 1960-70-ci illər İspaniyanın intensiv iqtisadi inkişafı dövrü, onun aqrar ölkədən sənaye-aqrar ölkəyə çevrilməsi dövrü oldu. İnvestisiya imkanlarının genişlənməsi, turizmin inkişafı, xarici sərmayə qoyuluşları və qazanc dalınca bu ölkədən Qərbi Avropaya gedənlərin pul köçürmələri urbanizasiyaya və sıravi vətəndaşın simasının dəyişməsinə şərait yaradırdı. Bütün bunlar ölkənin ictimai-siyasi həyatının transformasiyasına və daha fəal olmasına kömək edirdi. Frankizm siyasi islahatlar və cəmiyyətdə şəffaflığın artırılması yolu ilə öz mövqelərini möhkəmlətmək ümidində

idi, lakin əslində, onun siyasi intiharı baş verirdi. 1950-ci illərin ikinci yarısından etibarən universitet mühiti anti-frankoçu fəaliyyət ocaqlarından birinə çevrilmişdi. İspaniya gənclərinin siyasi sosiallaşması əhəmiyyətli dərəcədə artmışdı. Sonralar məhz bu sosial qrup "demokratik cəmiyyətin siyasi sinfini təmsil edirdi"[1].

Buna baxmayaraq, kaudilyonun ölümündən sonra İspaniyada milyonlarla "etirazçı" kütləni öz arxasınca apara biləcək Valensa və ya Havel kimi xarizmatik liderlər yox idi. Müxalifət isə özünün pərakəndəliyi, xüsusən kommunistlərlə sosialistlər arasında rəqabət aparılması ilə fərqlənirdi. Franko diktaturasının son mərhələsində onu hərbi diktatura adlandırmaq yalnız şərti mənada mümkündür, çünki Ç.Pauellin "İspaniya demokratiya illərində: 1975-2000" adlı əsərində qeyd etdiyi kimi, bu rejim "hərbi diktaturadan daha çox hərbçinin diktaturası idi[2]. Ona görə də sonrakı dövrdə demokratikləşmə hərbçilərlə və ya frankizmin məmur aparatı ilə qarşıdurmaya gətirib çıxarmadı. Frankizmin "Konstitusiya fasadı" sürətlə demokratik cəmiyyət strukturlarına transformasiya etməyə başladı ki, bu da "yuxarıdan" həyata keçirilirdi.

Xuan Karlos hələ 1969-cu ildə Frankonun varisi elan olunanda çoxları onu kaudilyonun sədaqətli davamçısı, əlaltısı hesab edirdi. Lakin Xuan Karlos kral elan ediləndən və siyasi sahədə bir sıra fəal tədbirlər həyata keçiriləndən sonra, o cümlədən A.Soaresin hökumətin sədri vəzifəsinə namizədliyi, T.Ferdinand-Mirandanın korteslərin və Krallıq Şurasının sədri vəzifəsinə namizədliyi təsdiq ediləndən sonra aydın oldu ki, kral demokratiyaya məharətlə yol açır. İspaniya demokratiyasının mahiyyətini təfərrüatı ilə açıqlamayacağıq,

[1] Ч.Пауэлл. Испания в годы демократии: 1975-2000, стр.50.
[2] Yenə orada, səh.92.

çünki İspaniya tranziti fenomenini öyrənən tədqiqatçıların sayı hələ də azalmır. Biz Avropanın geridə qalmış Avropa ölkəsinin demokratik dövlətlər birliyinə uğurlu tranziti üçün əsas olmuş bəzi aspektlərə toxunmaqla kifayətlənəcəyik.

Hökumətlə müxalifətçi partiyalar arasında sazişlər – "Pakt Monkloa" eləcə də hökumət, sahibkarlar və həmkarlar ittifaqları arasında sazişlər silsiləsində əksini tapan milli barışıq İspaniyada demokratiyanın bərqərar olmasını və dayanıqlığında mühüm rol oynamış, demokratiyanın konsolidasiyasını asanlaşdırmışdır.

1976-cı ilin sentyabrında A.Soares hökuməti siyasi islahat haqqında qanun layihəsi hazırlamışdı. Bu layihə referenduma çıxarılmış və ümumən, ispaniyalılar tərəfindən rəğbətlə qarşılanmışdı. İslahatların başlanğıc mərhələsində ümummilli referendum keçirilməsi İspaniya tranzitinin ən mühüm nailiyyətlərindən biri olmuşdur. Hökumət islahat proqramını işləyib hazırlamaqla və onu bütün ölkə vətəndaşlarının müzakirəsinə çıxarmaqla İspaniyanın siyasi sisteminin yenidən qurulması prosesinin tam legitimliyini təmin etdi.

1977-ci il iyunun 15-də İspaniyada ilk demokratik seçkilər keçiriləndən və A.Soares başda olmaqla Demokratik Mərkəz İttifaqı cüzi üstünlüklə də olsa qalib gələndən sonra siyasi prosesin iştirakçıları arasında "tranzitar" dövr ərzində davranış qaydaları haqqında danışıqlar başlandı. Bu danışıqlarda baxışları bir-birinə zidd olan siyasi partiyaların və qruplaşmaların öz əqidələrini dəyişməsindən söhbət getmirdi. Razılaşmaların mahiyyəti islahatlar prosesinin xarakterini və məqsədlərini eyni şəkildə başa düşməyə nail olmaqdan ibarət idi.

Hökumət ilə Baş Korteslərdə təmsil olunmuş bütün siyasi qüvvələr arasında gərgin məsləhətləşmələr nəticəsində 1977-ci

ilin oktyabr ayında yuxarıda adı çəkilən "Pakt Monkloa" – "Hökumət ilə parlament müxalifəti arasında iqtisadi və siyasi sazişin əsas müddəası" imzalandı. Bu sənəddə demokratiyaya dinc "tranzitar" keçidin təmin edilməsi üçün zəruri olan bir sıra siyasi və iqtisadi tədbirlər görülməsi nəzərdə tutulurdu. Belə tədbirlərə misal olaraq, kütləvi informasiya vasitələri üzərində parlament nəzarətinin qoyulmasını, asayişin qorunması qüvvələrinin yenidən təşkilini, yığıncaqlar və nümayişlər keçirilməsi üçün sadələşdirilmiş prosedur tətbiq edilməsini, vergi islahatı aparılmasını, dövlət müəssisələrinin nizamnaməsinin işlənib hazırlanmasını, sosial təminat sisteminin və təhsil sahəsinin demokratikləşməsini və s. göstərmək olar. Cəmi bir il qüvvədə olmuş bu sənəd frankizmdən demokratiyaya dinc yolla keçid üçün amortizasiya körpücüyü kimi xidmət etdi.

İspaniyada demokratiyaya keçid yuxarıdan başlanmışdı. Pauell bu qənaətə gəlir ki, "yuxarıdan", əvvəlki hakim sinfin sıralarından çıxmış islahatçılar tərəfindən başlanmış keçidlərin uğur qazanmaq şansı "aşağıdan" başlanmış keçidlərlə müqayisədə daha artıqdır. "Aşağıdan başlayan" demokratiyaların "çox vaxt öz inqilabi legitimliyindən onların aradan qaldırmağa cəhd göstərdikləri vəziyyətlərdən heç də az qeyri-demokratik olmayan şəraitin institusionallaşdırılması üçün istifadə etməyə şirniklənən müvəqqəti hökumətlər yaradılmasına gətirib çıxara bilməsi riski çox böyükdür (F.Kastronun dövründə Kubada, Xomeyninin dövründə İranda belə olmuşdu, Portuqaliyada daha radikal mövqeli Silahlı Qüvvələr Hərəkatı cinahı üstünlük təşkil etməsəydi, orada da belə ola bilərdi)"[1].

Əsas mövzudan bir qədər yayınaraq qeyd edək ki, ən yeni milli tariximiz də qondarma aşağıdan demokratiyanın cəmiy-

[1] Ч.Пауэлл. Испания в годы демократии: 1975-2000, стр.137.

yətdə dramatik kolliziyalara və daxili parçalanmaya gətirib çıxarmasına əyani nümunədir. 1991-1993-cü illərdə AXC demokratikləşmə prosesini "inhisarlaşdırdığı" dövrdə Azərbaycanın beynəlxalq münasibətlərin subyekti kimi mövcudluğunun özünə təhlükə yaranmışdı.

İspaniyada demokratiyanın bərqərar olması bu ölkədə cərəyan edən daxili proseslərin və hakim sinfin islahatlara can atmasının yekunu idi. Demokratiyanın konsolidasiyası isə postfrankist İspaniyanın bütün siyasi təşkilatları arasında əldə edilmiş konsensus sayəsində mümkün oldu. Transformasiyanın çətinliklərinə baxmayaraq, İspaniyanın NATO-ya və Avropa Birliyinə daxil olması, eləcə də 80-ci illərin ortalarında (1985-1991-ci illər) iqtisadi inkişafın yeni dövrəsinin başlanması və "ümumi rifah dövləti"nin güclənməsi İspaniya demokratiyasının konsolidasiyasını təmin etdi. İspaniyanın Avropa Birliyinə qoşulması bu ölkənin bir əsr müddətində Avropanın qalan hissəsindən sosial və siyasi baxımdan təcrid olunmasına son qoyan, iqtisadiyyatı modernləşdirməyə imkan verən və demokratik dəyişikliklərin dönməzliyinə təminat verən bir addım hesab edilirdi.

1996-cı ilin parlament seçkilərində İspaniya Sosialist Fəhlə Partiyasını (İSFP, 1982-1996-cı illər) əvəz etmiş mühafizəkar Xalq Partiyasının qələbəsindən sonra İspaniyada əhəmiyyətli siyasi irəliləyişin baş verməsi göz qabağında idi. Axı, müxtəlif ideoloji yönümlü partiyaların iqtidarda bir-birini əvəz etməsi möhkəmlənmiş demokratiyanın əlamətlərindən biridir, xüsusən ona görə ki, ictimaiyyətin geniş təbəqələrinin nəzərində Xalq Partiyası həmişə ölkənin frankist keçmişi ilə assosiasiya doğururdu.

Lakin milli siyasi məkanın inkişaf perspektivlərinin müzakirəsinə və ölkəmizdə baş verən siyasi proseslərin təhlil

edilməsi üçün Azərbaycan demokratiyasının cari vəziyyətini araşdırmağa başlamazdan əvvəl demokratik tranzitlərin iki məşhur nəzəriyyəçisinin – D.Rastou və A.Pşevorskinin əsərlərinə qısaca nəzər salaq. D.Rastou yazır: "Keçidin modeli və ya ideal tipi iki və ya üç empirik nümunənin diqqətlə öyrənilməsi əsasında alına bilər, sonra isə başqa nümunələrə tətbiq edilmək yolu ilə yoxlanıla bilər"[1].

D.Rastounun mövqeyi qərbləşməkdə olan Azərbaycan məkanında demokratiya yükünün ağırlığını daha yaxşı qiymətləndirməkdə bizə kömək edər. Axı, inkar etmək olmaz ki, qloballaşma pərdəsi altında həyata keçirilən qərbləşmə cəmiyyətin demokratikləşməsinə, onun sosial simasının transformasiyasına çox ciddi təsir göstərir. Qərbləşdirilməkdə olan qeyri-Qərb cəmiyyətlərinə kənardan gətirilən liberalizm və azadlıq, tolerantlıq, dözümlülük və siyasi plüralizm kimi Qərb dəyərləri yeni davranış normaları və ənənələrinə münasibətdə tradisionalist sosiumları daha çevik (flexible) və daha ehtiyatlı mövqe tutmağa sövq edir. Beləliklə, D.Rastounun vurğuladığı kimi, həmişə kənardan təsir göstərilməsi vasitəsilə ("kənardan gələn əsas təkan" və ya "əsasən sistem çərçivəsində") həyata keçirilən demokratikləşmə milli identikliyin gizli transformasiyası layihəsinə cəlb edilmiş olur.

D.Rastou özünün "Demokratiyaya keçidlər: dinamik model yaratmaq cəhdi"[2] adlı əsərində iki ölkəni – İsveçi və Türkiyəni nümunə kimi nəzərdən keçirir. Tədqiqatçının fikrincə, həmin ölkələrdən birincisi, demokratiyaya 1890-1920-ci illər arasındakı dövrdə keçmişdir, Türkiyə isə qərbləşməkdə olan dövlətdir, orada 1945-ci ildən başlanmış demokratikləşmə prosesi bu gün də davam edir.

[1] Д.Растоу. Переходы к демократии: попытка динамической модели. Полис, 1996, № 5.

[2] Yenə orada, səh.5-15.

"Milli birliyin mövcudluğunun yeganə ilkin şərt olması" Rastounun demokratik tranzit modelinin çıxış nöqtəsidir. Bu modelin müəllifi milli birlik dedikdə, elə vəziyyəti nəzərdə tutur ki, "potensial demokratiya vətəndaşlarının böyük əksəriyyəti onların hansı siyasi birliyə mənsub olmasına şübhə etməməli və yaxud bunu heç fikrinə də gətirməməlidir. Özü də milli birliyə hansı yolla – alternativin yoxluğu ilə, yaxud sosial ünsiyyətin qəflətən intensivləşməsi nəticəsində nail olmağın fərqi yoxdur.

Eyni zamanda, bir sıra başqa alimlər kimi, D.Rastou da iqtisadi inkişafın və sosial diferensiasiyanın hər hansı minimum səviyyəsi barədə tezisin əsaslı olmasına şübhə edir. O yazır: "Həmişə elə qeyri-demokratik ölkələr tapmaq olar ki, indikator kimi təklif edilən göstəricilər üzrə onların inkişaf səviyyəsi şübhə doğuracaq dərəcədə yüksəkdir – məsələn, Küveyt, nasist Almaniyası, Kuba və ya Konqo-Kinşasa. Əksinə, 1820-ci ildə Birləşmiş Ştatlar, 1870-ci ildə Fransa və 1890-cı ildə İsveç, heç şübhəsiz, müvafiq göstəricilərin hansısa birinə dair testdən keçməzdi".

D.Rastou qeyd edir ki, milli birlik olan yerdə demokratikləşmə yolunun başlanması mümkündür. Bu yolun hazırlıq fazası ayrıca götürülmüş hər bir məkanda özünəməxsus səbəb-nəticə əlaqələri ilə fərqlənir. Bəzi cəmiyyətlərdə demokratikləşmə sosial və siyasi tranformasiyaların nəticəsidir, digər cəmiyyətlərdə isə daxili ziddiyyətlər ictimai inkişafın demokratikləşməsinə səbəb olur. Eyni zamanda, hazırlıq fazası "çox vaxt əvvəllər zülmə və məhrumiyyətlərə məruz qalmış sosial qrupların rəhbərlərini uzlaşdırılmış hərəkət etməyə yönəldən yeni elitanın yaranması nəticəsində başlanan"[1] mübarizə ilə şərtlənmiş olur.

[1] Д.Растоу. Переходы к демократии: попытка динамической модели, стр.5-15.

Hazırlıq fazasında baş verən bu mübarizənin xüsusiyyəti cəmiyyətdə parçalanmaya gətirib çıxaran qütbləşmədən ibarətdir. Ölkənin siyasi liderlərinin bir qismi milli birlikdə müxtəlifliyin olmasını mümkün saymaq və bu məqsədlə demokratiyanın bəzi əsas mexanizmlərini institusionallaşdırmaq barədə şüurlu surətdə qəbul etdikdə, onda bu faza başa çatır. Demokratiyanın bundan sonrakı növbəti fazası qərar qəbul etmək mərhələsini nəzərdə tutur. Hərçənd, demək lazımdır ki, hazırlıq fazası ləngiyə də bilər. Bəzən bu faza bir nəslin ömrü qədər, bəzən isə bir neçə əsr davam edir. Artıq qeyd etdiyimiz kimi, Türkiyədə demokratikləşmə prosesi 1945-ci ildən başlanmışdır və bu gün də davam edir, İngiltərədə isə demokratikləşmə 1640-cı ildən 1918-ci ilə qədər olan dövrü əhatə etmişdir. Ona görə də ikinci fazaya keçid üçün narazılıqlara əsas verən ciddi səbəblərin aradan qaldırılması, eləcə də qütbləşməni azaldan institusional qərarlar qəbul edilməsi üçün zəmin hazırlanması zəruridir. Rastou yazır ki, 1907-ci ildə İsveçdə buna oxşar bir qərar qəbul edilmişdi. Həmin qərar ümumi seçki hüququnun və "Böyük kompromis" deyilən proporsional nümayəndəliyin tətbiq edilməsinə yönəlmişdi. Bir yox, dalbadal bir neçə bu cür qərar qəbul edilə bilər, onlar ictimai şüurda demokratiya dəyərlərini anlamağa kömək edər, siyasi qütbləşməni azaldar, siyasi prosesin yeni aktorlarını yaradar. Rastou vurğulayır ki, bu, "siyasi rəhbərliyin yuxarı təbəqəsi tərəfindən şüurlu şəkildə qəbul edilən qərar" nəticəsində baş verir. 1945-ci ildə Türkiyədə belə bir sistemin tətbiq edilməsi prezident İ.İnönü tərəfindən elan edilmiş çoxpartiyalı sistemə keçid zamanı mümkün oldu. Əksər hallarda qərarlar qəbul edilməsi fazası yaranmış vəziyyətdən heç də bütün tərəflərin razı qalması ilə fərqlənmir. Lakin sollar, sağlar, mühafizəkarlar, radikallar və liberallar güzəştlər və kompromis yolu ilə transferə razılaşırlar,

bu isə yeni davranış normalarının və stereotiplərin kütləvi şüura tranzitini təmin edir, dövlətin gələcək sabit və səmərəli inkişafına imkan yaradır. Hərçənd, burada əks-səmərə də istisna olunmur – əhatəli və ciddi qütbləşmə baş verir. Lakin demokratik inkişafın bu mərhələsi uğurlu olduqda, sonuncu mərhələ – demokratiyaya alışmaq fazası başlanır.

Demokratik sistem inkişaf etdikcə, alışmaq fazası yeni cəmiyyətin davranış modelini rasionallaşdırır. Başqa sözlə desək, "demokratik rəqabətin gedişində yeni sistemə sədaqətini rasionallaşdıra bilənlər və onlardan daha çox isə bu sistemə ürəkdən inananlar üstünlük əldə edirlər"[1]. Yeni norma və dəyərlər mərhələ-mərhələ dövlətin ictimai və siyasi inkişafının prioritetinə çevrilir ki, bu da labüd olaraq demokratiyanın konsolidasiyasına gətirib çıxarır. Amma hər halda, bu hələ konsolidasiyanın özü deyil, yalnız ona doğru istiqamətlənmiş yoldur. Konsolidasiya olunmuş demokratiya yoluna qədəm qoymuş və ya bu istiqamətdə uğurlu cəhdlər göstərən bütün ölkələr buna oxşar yolu keçmişdir. Həmin dövlətlərin siyasi sistemi mürəkkəb daxili fikir ayrılıqları və ziddiyyətlər mərhələsindən keçmişdir, ictimai-siyasi prosesin heç də bütün aktorlarının razı qalmadığına baxmayaraq, qərarlar qəbul edilməsi fazasında bu mərhələ artıq keçmişdə qalmışdır.

Yuxarıda bəhs etdiyimiz "Pakt Monkloa" demokratiyanın bərqərar olmasına, sonradan dövlətin səmərəli və sabit inkişafına şərait yaradan qərarlar qəbul edilməsi fazasına parlaq nümunədir. Türkiyədə alışmaq fazası İ.İnönünün və A.Menderesin prezidentliyi dövründən sonra başlamış, İsveçdə isə bu, 1918-ci ildə – "Böyük kompromis"dən bir neçə il sonra mümkün olmuşdur. Demokratiya o vaxta qədər barış-

[1] Д.Растоу. Переходы к демократии: попытка динамической модели, стр.5-15.

maz mövqelər tutan siyasi qruplaşmaların sosial və iqtisadi zəminli ziddiyyətləri aradan qaldırması üçün gözəl imkan olmuşdur. Ona görə də Rastounun qeyd etdiyi kimi, "cəmiyyətin problemlərinin həllində demokratiyanın üzləşdiyi çətinliklər demokratikləşmənin ilkin şərti kimi milli birliyin əhəmiyyətini bir daha sübut edir. Demokratiya şəraitində ən şiddətli döyüşlər siyasi birliyin əzəli qüsurlarına qarşı yönəldilmişdir... Demokratiyaya keçid zamanı siyasətçilərin mövqelərinin sıravi vətəndaşların mövqeləri ilə müəyyən məqamlarda üst-üstə düşməsi, lakin bəzi məqamlarda onlardan fərqlənməsi tələb oluna bilər. Siyasətçilərlə sıravi vətəndaşlar arasındakı fərq qərarlar qəbul edilməsi mərhələsində, liderlərin kompromis axtarmaqla məşğul olduğu onların tərəfdarlarının isə yorğun vəziyyətdə əvvəlki mübarizə bayraqlarını daşımaqda davam etdikləri vaxt nəzərə çarpır".

Demokratiyaya etimad artdıqca kütləvi şüurun forması dəyişir, o, demokratik vərdişlərə və əqidələrə getdikcə daha çox istiqamətlənir. Elə həmin vaxtda siyasi dəyərlərin dəyişməsi, daha doğrusu, bu cür dəyərlər meydanında yenidən səmtləşmə baş verir, nəticədə yeni siyasi təşkilatlar formalaşır ki, bunlar da mahiyyət etibarilə hazırlıq dövründə – münaqişə fazasında mövcud olmuş ənənələrin davamı ola bilər. Alışma mərhələsində sosial injinirinq də dəyişikliklərə məruz qalır. İndi onun mahiyyəti fərdin cəmiyyətdə yerini yenidən qiymətləndirməkdən, dini dirçəlişdən və milli identiklik məsələlərinin müzakirəsindən ibarət olur.

Hər bir demokratik model siyasətçilərin və elektoratın yeni "oyun qaydaları"nı başa düşməsi əsasında yaradılır. Münaqişə və onun ardınca gələn qərarlar qəbul edilməsi fazası davamlı siyasi məkan yaradılmasına kömək edir. Bu məkanda demokratiyanın konsolidasiya olunmaq şansı vardır. Bun-

dan əlavə, demokratik seçimin uğurlu olması üçün ona şüurlu şəkildə yanaşma və milli birlik hissi zəruridir.

Demokratikləşmə bu və ya başqa şəkildə sosial-siyasi vəziyyətin inkişafına və buna müvafiq olaraq məkanın bir cəmiyyətdən digərinə tranzitinə imkan yaradır. Bu isə bütün parametrlər üzrə – əmək vərdişlərində, pul sistemində, istehlakın strukturunda dəyişikliklər olunmasını tələb edir. Ona görə də Rastounun dinamik modelində nəzərdə tutulur ki, demokratiləşmə prosesləri aşağıdakı ardıcıllıqla baş verməlidir: demokratikləşmənin əsası olan milli birlik demokratiya uğrunda mübarizə, kompromis və demokratiyaya alışma[1].

Demokratiya mürəkkəb və çətin yoldur. Bu yolu yalnız o cəmiyyətlər keçə bilər ki, onlar cəmiyyətin daxili nüvəsinin və zahiri sosial pərdəsinin dəyişdirilməsini ciddi məqsəd kimi qarşıya qoymuş olsun. Açıq və şəffaf cəmiyyət qurmaq üçün fəal səy göstərmədən demokratik rejim yaradılması mümkün deyildir. Lakin demokratiyanın möhkəmliyi təkcə siyasi əzmkarlıqdan deyil, həm də demokratik təsisatların qarşılıqlı əlaqəsindən və onların demokratik prosesin nəticələrinə tabe edilməsindən ibarətdir.

Demokratik rejimin bərqərar olmasının əsas elementi siyasi prosesin aktorlarının, ümumiyyətlə, əhalinin mənafelərinə cavab verən demokratik idarəetmə üsulu yaratmaq istəyindən ibarətdir. Məsələyə bu cür yanaşma tranziti daha sabit, onun yekunlarını isə daha səmərəli edir. Bu halda demokratiyanın bərqərar olması kifayət qədər davamlı demokratik sistemi təcəssüm etdirən konsolidasiya ilə başa çatır.

A.Pşevorski demokratik tranzitin beş mümkün nəticəsini fərqləndirir. Bu və ya digər dövlətdə diktatura süqut edəndən

[1] Д.Растоу. Переходы к демократии: попытка динамической модели, стр. 5-15.

sonra yaradılan strukturlar gələcək demokratik tranzitin uğurlu və səmərəli olmasını şərtləndirir. Sistemin dəyişməsi nəticəsində cəmiyyətdə yetişən münaqişə və bundan sonra cəmiyyətin və siyasi elitanın atdığı addımlar ya demokratiyanın tərəqqisini, yaxud tənəzzülünü şərtləndirir. A.Pşevorskinin modellərindən hər biri dünya praktikasında bu və ya digər şəkildə öz əksini tapmışdır. Ona görə də bizə belə gəlir ki, həmin modellərlə tanışlıq oxucu üçün maraqlı olar. Bu alimin əsərinin nəşrindən on ildən çox keçməsinə və "üçüncü demokratik dalğanın" İkinci mərhələsinin başlanmasını bildirən son hadisələrin bu əsərdə öz əksini tapmasına baxmayaraq, tədqiqatçının bəzi nəzəri baxışları ilə günümüzün reallıqları arasında analogiya aparmağa çalışacağıq.

Beləliklə, A.Pşevorskinin keçid modelləri bunlardır[1]:

1. Münaqişələrin strukturu elədir ki, heç bir demokratik təsisat bərqərar ola bilmir və siyasi qüvvələr yeni diktatura uğrunda mübarizə aparmağa başlayırlar. Müəllif bu modelə İranı aid edir.

2. Münaqişələrin strukturu elədir ki, heç bir demokratik təsisat bərqərar ola bilmir, lakin siyasi qüvvələr müvəqqəti qərar kimi demokratiyanı qəbul etməyə razılaşırlar. Bu modeli fərqləndirən cəhət fəaliyyət göstərən əsas qüvvənin şəhər burjuaziyası olmasıdır. Müəllif qeyd edir ki, diktatura devriləndən sonra şəhər burjuaziyası üç yoldan birini seçə bilər: a) dərhal diktatura qurmaq; b) demokratiyaya razılaşmaq, sonra isə – ödəmə balansında böhran yarananda öz müttəfiqlərini dəyişmək; c) demokratiyanın xeyrinə seçim etmək və gələcəkdə onu dəstəkləmək. Gördüyümüz kimi, bu

[1] А.Пшеворский. Переходы к демократии//Путь. 1993, № 3.

modeldə şəhər burjuaziyasının iqtisadi maraqları cəmiyyətdə demokratiyanın inkişafına şərait yaradır. Lakin elə həmin maraqlar demokratiyanın tənəzzülünə də gətirib çıxara bilər. A.Pşevorskinin baxışlarından asılı olmayaraq, Ukraynada baş vermiş hadisələri təhlil etməyə çalışsaq görərik ki, Y.Timoşenko ilə V.Yanukoviçin maraqlarının toqquşmasına gətirib çıxarmış "narıncı" inqilabın yekunu Ukraynada ikinci variantı reallaşdırmaq cəhdidir. "Narıncı" inqilabdan sonra Ukraynanın demokratik inkişafı ödəmə böhranı səviyyəsinə çatmışdır. Bu şəraitdə müttəfiqlərin dəyişdirilməsi, şəhər burjuaziyası ilə torpaq burjuaziyası arasında "müqavilə" bağlanması, kompromis əldə edilməsi zəruri idi. Belə bir "müqavilə" Ukraynanın gələcək demokratik inkişafını təmin edə bilər.

3. Münaqişələrin strukturu elədir ki, əgər ayrı-ayrı demokratik təsisatlar tətbiq edilsəydi, onlar qala bilərdi, lakin bir-biri ilə rəqabət aparan siyasi qüvvələr diktatura qurulması uğrunda mübarizə aparırlar. Belə bir sistem, məsələn, əhalinin dövlət idarəetmə formasına baxışları müxtəlif olduqda, onların bir qismi unitar sistemin, digər qismi federativ sistemin tərəfdarı olduqda mümkündür.

4. Münaqişələrin strukturu elədir ki, bəzi demokratik təsisatlar yaradıldığı təqdirdə onlar fəaliyyət göstərə bilərdi, lakin bir-biri ilə rəqabət aparan siyasi qüvvələr həyat qabiliyyətli olmayan institusional strukturla razılaşırlar. Bu cür modelə hərbi diktaturadan demokratik sistemə keçən ölkələrdə rast gəlmək olar. Hazırda belə bir modelin ən əyani nümunəsi Pakistanda həyata keçirilir: ölkə demokratik dəyişikliklər məcrasına tranzit edəndən sonra hərbçilər öz "zəmanətlərini" saxlamış-

lar ki, bu da əslində, onların hakimiyyətini dəstəkləyir. Siyasi prosesin iştirakçıları başa düşürlər ki, bu cür strukturla razılaşmamaq şəraitin yenidən kəskinləşməsinə və cəmiyyətdə münaqişəyə gətirib çıxara bilər. Buna görə də ən düzgün yol – "zəmanətli" demokratiyaya razılaşmaqdır. Ötən əsrin 60-cı və 80-ci illərində Türkiyədə buna oxşar siyasət yeridildi. O vaxt kamalçıların tərəfdarlarının hakimiyyətinin məhdudlaşdırılması təhlükəsi yaranan kimi, hərbçilər onları qane etməyən hökumətləri asanlıqla devirirdilər.

5. Münaqişələrin strukturu elədir ki, bəzi demokratik təsisatlar saxlana və əgər onlar tətbiq edilsə, həqiqətən, möhkəm olurlar. Pşevorskinin fikrincə, bu, yetərli demokratik tranzitin tətbiq edilməsi üçün ən səmərəli strukturdur. Müəllif avtoritar rejimlərin liberallaşdırılmasını bu struktur üçün proloq hesab edir, sonra isə təsisatların seçimi ilə əlaqədar münaqişələrin inkişafının gedişini nəzərdən keçirir.

A.Pşevorskinin bu modeli üzərində bir qədər ətraflı dayanaq.

Rastou demokratikləşmənin başlanğıcını cəmiyyətin kəskin şəkildə qütbləşməsi ilə şərtlənən hazırlıq fazasından götürürsə, Pşevorskinin modelində demokratikləşmə liberallaşmadan, yəni müstəqil təşkilatlar yaradılmasından başlanır. Pşevorski göstərir ki, "kollektiv alternativlər olmadıqda, ayrı-ayrı şəxslərin mövcud rejimə münasibəti onun sabitliyinə az təsir göstərir. Hələ Veber deyirdi ki, məqbul alternativ olmadıqda, insanlar özlərinin status-kvoları ilə barışırlar, bu halda ayrıca götürülmüş şəxsiyyət özünü zəif və köməksiz hiss edir". Buna görə də tədqiqatçı belə hesab edir ki, demokratik tranzitin başlanğıcını müxtəlif formalar ala biləcək liberallaşmada görür. Bəzi dövlətlərdə bütün siyasi məhbuslar əfv edilmişdir,

digər dövlətlərdə çoxpartiyalı sistem yaradılmasına, yaxud söz və fikir azadlığı ruporuna çevrilən qeyri-hökumət təşkilatları sektorunun formalaşmasına "razılıq" verilmişdir.

Liberallaşma avtoritar rejimin hakimiyyət monolitində müəyyən çat yaranmasının əlamətidir. Lakin bununla bərabər, liberallaşma haqqında inqilabi xarakter daşımayan qərar həm aşağıdan, həm də yuxarıdan qəbul edilir. Bu qərar birtərəfli ola bilməz, çünki siyasi prosesin iştirakçıları həmin qərarı gözləyirlər və o, zərurətə çevrilir. Beləliklə, liberallaşma avtoritar rejim daxilində və vətəndaş cəmiyyətinin müstəqil təşkilatları arasında fikir ayrılıqlarının nəticəsidir[1].

Pşevorski yazır ki, avtoritar isteblişmentə mənsub olan qüvvələrin irəli sürdüyü liberallaşma layihələri hökmən siyasi məkanın nəzarət edilən "açıqlığının" olmasını nəzərdə tutur. Bu baxımdan Sövet İttifaqının dağılması bir sıra başqa dövlətlərdə də eyni qəbildən olan dövlət idarəetmə formaları yaranmasına gətirib çıxarmışdır. Demokratiyanın mahiyyəti barədə tez-tez qarşya çıxan suala onun "tənzimlənən" olması kimi cavab vermək qəbul olunmuşdur. 70 ildən artıq bir dövrdə totalitar sistemin mövcud olduğu keçmiş SSRİ respublikalarında liberallaşma beləcə təzahür edirdi. Lakin "tənzimlənən" demokratiya praktik olaraq, cəmiyyətdə mövcud olan və avtoritar sistemi təcəssüm etdirən eyni təsisatların toplusudur. Beləliklə, SSRİ-nin dağılması özlüyündə demokratik sistemə qəfil tranzit olmadı. O, yalnız vətəndaş cəmiyyəti aysberqinin əriməsindən ibarət olan "mülayimləşməyə"[2] əsaslanan hibrid formasını doğurdu və bu da, nəhayət, avtoritar rejimin divarlarını uçurdu.

[1] А.Пшеворский. Переходы к демократии//Путь. 1993, № 3.
[2] Илья Эренбург, 1945.

Qeyd etmək lazımdır ki, qeyri-sabitlik liberallaşmaya xas olan cəhətdir. Bu dövrdə vətəndaş cəmiyyəti sürətlə "səfərbər" edilir. Nəticədə öz maraq və məqsədlərini açıq bəyan edən təşkilatlar yaranmağa başlayır ki, bu da avtoritar rejim üçün son dərəcə qeyri-adi hadisədir. Beləliklə, bir tərəfdən, sosiumda vətəndaş cəmiyyəti əlamətləri formalaşır, avtoritar sistem zəifləyir və liberallaşmanın rüşeymləri yaranır, digər tərəfdən, vətəndaş cəmiyyəti təsisatlarının dolğun fəaliyyəti üçün zəruri siyasi təsisatlar yoxdur.

Liberallaşma dövründə demokratikləşmə prosesi fərdə daha çox azadlıqlar və hüquqlar verilməsindən başlayır, assosiasiyalar yaradılması və yığıncaqlar keçirilməsi üçün imkanlar açılır. Lakin bunlar demokratikləşmənin yalnız rüşeymləridir, son məqsəd isə idarəemə formasını dəyişməkdən ibarətdir. Sovet İttifaqında 1985-ci ildən müşahidə edilən, qeyri-formal təşkilatların, kütləvi çıxışların genişlənməsi, sesessiya, etnik və milli zəmində münaqişələr yaranması ilə əlamətdar olan "yenidənqurma" belə bir liberallaşmanın nəticəsi idi. Lakin Sovet İttifaqı demokratik birliyə transformasiya edə bilmədi, liberallaşma isə böhran meyillərini daha da kəskinləşdirdi və nəticədə ölkənin tamam dağılmasına gətirib çıxardı.

Fərdlərin təcrid olunmasının aradan qalxması uğurlu liberallaşmanın həlledici amilinə çevrilir. Bu isə insan kütləsi bir yerə toplaşanda yaranan təhlükəsizlik hissi mövcud olduqda mümkündür. Uğurlu olduqda, yəni avtoritarizmə qayıtmaq və dövlətin repressiya maşınının güclənməsi istisna edildikdə, – liberallaşma siyasəti iflasa uğradıqda, bu halların baş verməsi tamamilə mümkündür, – liberallaşma demokratik rejimin bərqərar edilməsini şərtləndirir. Cəmiyyət tədricən hazırlıq fazasına, yəni münaqişələr fazasına qədəm qoyur.

Pşevorski yazır ki, "demokratiyaya keçidlər dövründə baş verən münaqişələr çox vaxt iki cəbhədə cərəyan edir: (1) avtoritar rejimin tərəfdarları ilə əleyhdarları arasında və (2) gələcək demokratiya şəraitində daha yaxşı şansa malik olmaq uğrunda protodemokratik xadimlərin öz arasında"[1]. Beləliklə, cəmiyyətin daxilində təkcə demokratiyanın tezliklə qurulması uğrunda mübarizə getmir, həm də demokratiya şəraitində avtoritar qələbəyə nail olmaq məqsədi ilə antiavtoritar qüvvələrin birləşməsi baş verir. Bu iki cəhət – avtoritar rejimdən xilas olmaq və demokratik idarəetmə yaratmaq bəzən birləşsə də, bütövlükdə ictimai inkişafın iki ayrı seqmentini təşkil edir.

O'Donnelin və Şmitterin modelinə əməl edərək, Pşevorski dörd siyasi qüvvəni fərqləndirir: avtoritar blokunun daxilində olan qətiyyətli xətt tərəfdarları və islahatçılar; müxalifəti təmsil edən mötədillər və radikallar. Pşevorski yazır: "Qətiyyətli xəttin tərəfdarlarına, adətən, avtoritar idarəetmənin repressiv strukturlarında – polisdə, hüquq bürokratiyasında, senzorlar, jurnalistlər arasında və başqa yerlərdə rast gəlmək olar. İslahatçılar rejim çərçivəsində fəaliyyət göstərən siyasətçilərdən və dövlət aparatına daxil olmayan bəzi qruplardan, kapitalizm dövründə burjuaziyanın nümayəndələrindən və sosializm dövründə təsərrüfat rəhbərlərindən toplanır"[2].

Avtoritar rejimin hakimiyyətindən xilasolma islahatçıların və mötədillərin sintezi nəticəsində baş verir. Proseslər başqa cür nəticələndikdə avtoritarizm ya daha da güclənə, yaxud da radikal qüvvələr tərəfindən devrilə bilər. Bu halda islahatçılar və mötədillər siyasi prosesdən kənarda qalacaqlar. İslahatçılar ilə mötədillər arasında qarşılıqlı anlaşma aşağıdakı hallarda mümkündür:

[1] А.Пшеворский. Переходы к демократии // Путь. 1993, № 3.
[2] Yenə orada.

1) islahatçılar və mötədillər elə təsisatlar yaradılması barədə sazişə gəlirlər ki, bu halda onların təmsil etdiyi sosial qüvvələr demokratik sistemdə nəzərəçarpacaq təsiri olsun;

2) islahatçılar qətiyyətli xəttin tərəfdarlarının razılığına nail olmağa və ya onları bitərəfləşdirməyə qabildirlər;

3) mötədillər radikallara nəzarət etməyə qadirdirlər.

Sistemin uğuru islahatçılar ilə mötədillərin əməkdaşlığından asılıdır. Bu halda qətiyyətli xəttin tərəfdarları islahatçılar tərəfə keçir, radikallar isə yeni yaradılan sistemlə razılaşırlar. Nəticədə zəmanətli demokratiya bərqərar olur. Mötədillər radikallarla birləşdikdə isə, müxalifət məğlub edilir və avtoritar blok toxunulmaz vəziyyətdə qalır. Bu isə islahatçılar üçün zəmanətsiz demokratiyadan daha münasibdir. Lakin əgər mötədillər radikallarla, islahatçılar isə mötədillərlə alyans yaradarsa, onda islahatçılar "radikallar-mötədillər" koalisiyasından irəli gələn zəmanətsiz demokratiyanı qəbul edirlər. İslahatçılar qətiyyətli xəttin tərəfdarları ilə, mötədillər isə islahatçılarla birləşəndə isə mötədillər liberallaşmanı qəbul edirlər. Bu deyilənləri Pşevorskinin təklif etdiyi cədvəl əsasında nəzərdən keçirək.

	Mötədillər birləşirlər		
		Radikallarla	İslahatçılarla
İslahatçılar birləşirlər	Qətiyyətli xətt tərəfdarları ilə	Avtoritar rejim əvvəlki formasında qalır	Avtoritar rejim güzəştlər etməklə qalır
	Mötədillərlə	Zəmanətsiz demokratiya	Zəmanətli demokratiya

Bir qayda olaraq, islahatçıların məxsusi siyasi qüvvələri olmur və buna görə də onlar gələcək demokratiya şəraitində

siyasi uğur qazanmağa ümid bəsləyə bilmirlər. Buna görə də onlara öz potensialını reallaşdırmaq üçün qətiyyətli xəttin tərəfdarları ilə birgə qalmaq sərfəlidir. Avtoritarizmdən xilas olmaq mövzusunu yekunlaşdıraraq deyək ki, bu strategiya ziddiyyətlidir, çünki "demokratiya tərəfdarı olan qüvvələr əvvəlcə dərrakəli olmalıdır, lakin sonra onlar qətiyyətli olmaq istəyirlər"[1].

Avtoritarizmdən xilasolma qurulma doğurur. Bir-biri ilə mübarizə aparan siyasi subyektlər açıq rəqabət aparmağa imkan verən və tərəflərin demokratik sistem formalaşdırmağa razılığını təmin edən institusional struktur barədə razılğa gəldikdə, demokratiya mümkün olur.

Bütün demokratik tranzitlər həm demokratik qüvvələrlə rejimin nümayəndələri arasında, həm də protodemokratik qüvvələr daxilində danışıqların nəticəsidir. Avtoritarizmdən xilasolma dövründə danışıqlar aparılması vacib deyil, lakin qurulma dövründə danışıqlar aparılması zəruridir. Bu, sabit demokratik sistem qurulması baxımından tranziti səmərəli və məhsuldar etməyə imkan verir. Pşevorski yazır: "Demokratiya göstərişlə mümkün deyil: o, sövdələşmələr nəticəsində yaranır… Bu cür sövdələşmələrin modelini qurmaq asandır. Hər bir siyasi qüvvə özünün dəyərləri, layihələri və ya maraqlarının irəlilədilməsinə imkan yaradan institusional strukturu seçir. Bəzi xadimlərin qeyri-demokratik qərarları zorla qəbul etdirmək bacarığı da daxil olmaqla, qüvvələr nisbətindən asılı olaraq, ya müəyyən demokratik struktur qurulur, yaxud da diktatura uğrunda mübarizə başlanır"[2]. Lakin bu və ya digər demokratik təsisatların seçimi ilə əlaqədar münaqişəyə girişən qruplar üç ümumi problemlə

[1] А.Пшеворский. Переходы к демократии // Путь. 1993, № 3.
[2] Yenə orada.

üzləşirlər: prosedura qarşı məzmun, rəqabətə qarşı müqavilə və konstitusionalizmə qarşı majoritar sistem. Münaqişə tərəflərinin təsisatlar ətrafında diskussiyalarında bu problemlərin hər biri prioritetə çevrilir. Nəticə etibarilə institusional strukturların səmərəliliyi bu məsələlərin həllindən asılıdır. Eyni zamanda, institusional strukturun qəbul edilməsi prosesində çox şey qüvvələr nisbətindən asılı olur və Pşevorskinin yazdığı kimi, həmin nisbət tarazlı və ya tarazsız ola bilər. Bu və ya digər şəraitdən asılı olaraq, proseslərin sonrakı gedişi həmin qüvvələr nisbətindən asılıdır.

Demokratik tranzit çox mürəkkəb proses olub, cəmiyyətdən təmkinlilik və yeni davranış normalarının və dəyərlərin kollektiv şüura transformasiyasına hazır olmağı tələb edir. Lakin bu da unudulmamalıdır ki, "demokratiya qeyri-müəyyənlik səltənətidir; o, gələcəyi əvvəlcədən müəyyən etməklə məşğul olmur. Dəyərlər və maraqlar arasında münaqişələr bütün cəmiyyətlərə xasdır. Demokratiya məhz ona görə lazımdır ki, biz bir-birimizlə dil tapa bilmirik. Demokratiya münaqişələrin qan tökülmədən aradan qaldırılması sistemidir; bu sistemdə fikir ayrılıqları, münaqişələr, qaliblər və məğlublar vardır"[2].

§ MİLLİ MODEL

Genezis

Demokratik tranzit dövlət idarəetməsinin səmərəli formasının qurulması yollarının öyrənilməsində ən mürəkkəb problemlərdən biridir. Siyasi və sosial-iqtisadi şəraitdən, coğrafi determinantlardan asılı olaraq, demokratik tranzitlər gerçəkləşmə formasına və son nəticəsinə görə fərqlənir. Tarix boyu

demokratik tranzitin dəfələrlə avtoritar nəticə ilə yekunlaşmasının şahidi olmuşuq. Eyni zamanda, avtoritar rejimlərin demokratik rejimlərə çevrilməsi prosesləri də az olmamışdır.

XX əsr demokratik birliyin sərhədlərini genişləndirməyə, "demokratik dalğa"nın geosiyasi qüvvəsini yeni mövqedən qiymətləndirməyə imkanlar açmışdır. Məlum olmuşdur ki, XX əsrin axırları – XXI əsrin əvvəli üçün səciyyəvi olan demokratiya ictimai şüurun və dövlət idarəetməsinin transformasiyasının xalis daxili layihəsi deyil, yeni dəyərlərin qlobal geosiyasi və geomədəni assimilyasiyasıdır.

Sovet İttifaqının dağılması və yeni müstəqil dövlətlərin təşəkkülü keçmiş avtarkiyaların avtoritarizmdən demokratik sistemə tranziti məsələsini gündəliyə gətirmişdir. Yeni məkanlar özlərinin siyasi və iqtisadi sistemlərini bazar kapitalizmi sisteminə oxşatmağa çalışaraq, liberal Qərbə xas olan dəyərləri və idealları qəbul etməyə başlamışdır. Demokratiya, söz və yığıncaqlar azadlığı ötən əsrin axırları – bu əsrin əvvəlində ictimai-siyasi diskussiyaların əsas istiqamətinə çevrilmişdir.

Postsovet dövlətlərinin əksəriyyətində demokratiyaya aparan yol çox mürəkkəb olmuşdur və hazırda transformasiyanın forma və məzmununu tədqiq etmək üçün çox geniş meydandır. Keçmiş SSRİ məkanında yaranmış dövlətlərin bir qismi qısa müddətdə demokratik idarəetmə sisteminə tranzitə nail olmuşdur, ancaq başqaları keçmişin – sovet avtoritarizminin təcrübəsindən imtina etmədən bu sistemə yollar axtarır. Ona görə də keçmiş avtarkiyanın bəzi dövlətləri indi də demokratik idarəetmə sistemindən kənarda qalır.

Demokratiya təkcə seçkili orqanların strukturunun yenidən qurulması, vətəndaşların öz iradələrini sərbəst ifadə etməsi və fərdlərin öz fikirlərini bildirməsi üçün şərait yaradıl-

ması demək deyildir. Demokratik tranzit xeyli dərəcədə ictimai şüurun dərin transformasiyası deməkdir. Bu və ya digər keçid cəmiyyəti üçün indiyə qədər yabançı olan yeni dəyərlər və davranış normaları bu transformasiyada öz əksini tapır. Təcrübə göstərir ki, demokratikləşmə birdən-birə mümkün deyildir, İraqın və ya Əfqanıstanın nümunəsi sübut edir ki, keçmiş avtoritar rejimlərin tezliklə demokratikləşəcəyini düşünmək cəfəngiyatdan başqa bir şey deyildir. Demokratik ənənələri olmayan və "siyasi mədəniyyət qıtlığı" hiss edən cəmiyyətlər Şərq yarımkürəsini "geomokratikləşdirməyə" (ilk dəfə istifadə edilən bu termin dünyada demokratikləşmənin geosiyasi mahiyyətini açıqlayır) çalışan Qərb ölkələrinin təcrübəsini öz-özünə qəbul etməyə qadir deyildir.

Lakin bu tezis siyasi prosesin aktorları olan, postavtoritar dəyərlərin və təfəkkür formalarının təşəkkülünə təsir göstərən siyasi qrupları məsuliyyətdən azad etmir. Bu, təkcə hakim elitaya deyil, həm də sabit və səmərəli demokratik sistem qurmaq məqsədi ilə öz səylərini birləşdirməli olan əks-elitaya aiddir. Sabit demokratik sistemin qurulması dövründə, yaxud Rastounun təbirincə desək, qərarlar qəbul edilməsi fazasında radikalizm və antaqonist ovqat "mötərizə xaricində" qalır, yəni siyasi tərəflərin barışmazlığı daha çevik forma alır. Bu cür qısamüddətli "atəşkəs" və kompromis rejimi sabit demokratik tranziti və demokratiyanın möhkəmlənməsi istiqamətində inkişafını təmin edir.

Əsərin bu hissəsi Sovet İttifaqı dağılandan sonra demokratik tranzitin milli modelini müəyyən etmək üçün və D.A.Rastounun, A.Pşevorskinin yuxarıda nəzərdən keçirdiyimiz baxışları, habelə O'Donnelin və F.Şmittrenin modelləri əsasında Azərbaycanın müasir demokratik inkişafını səciyyələndirmək üçün göstərilən ilk cəhddir.

Bizim tədqiqatımızın metodoloji müddəaları aşağıdakı tezislərə əsaslanacaqdır:

1. Demokratik tranzitin milli birlikdə ifadə olunmuş ilkin şərti ötən əsrin 90-cı illərinin əvvəlində cərəyan edən ictimai-siyasi proseslərlə və 1993-cü ilin iyun ayında siyasi rəhbərlik seçimi məsələsində milli konsensus ilə şərtlənmişdir.

2. Milli demokratik tranzitin səbəbiyyət vektoru sosial və iqtisadi amillərdən siyasi amillərə tərəf yönəlməmiş (D.Rastou), xeyli dərəcədə səmərəli dövlətçiliyin yaradılmasına kömək etməli olan sabit və güclü hakimiyyətin olmamasından irəli gəlmişdir.

3. Demokratiya XX əsrin 90-cı illərinin birinci yarısında, çox mürəkkəb iqtisadi kollaps və siyasi qeyri-sabitlik şəraitində ictimai-siyasi diskussiyaların prioritet aspekti deyildi. Sosial maraqlar xeyli dərəcədə maliyyə-iqtisadi böhranların aradan qaldırılmasına və siyasi sabitlik yaradılmasına yönəlmişdi.

4. Milli demokratik tranzitin hazırlıq fazası Dördüncü respublikanın[1] ilk onilliyini əhatə edir. Siyasi sistemin institusional baxımdan yenidən qurulması nəticəsində bu fazanın başa çatması mümkün olmuşdur.

5. Siyasi transformasiya və iqtisadi inkişaf nəticəsində demokratiya bərqərar olmuşdur. İqtisadi rifah səviyyəsinin demokratikləşmə proseslərinə birbaşa təsirinin olmaması barədə yuxarıda qeyd etdiyimiz tezisə baxmayaraq,

[1] Azərbaycan 1991-ci ilin oktyabrında müstəqillik əldə etməklə Dördüncü respublikaya qədəm qoymuşdur. Birinci respublika 1918-1920-ci, İkinci respublika 1920-1922-ci illəri, Üçüncü respublika 1922-1991-ci illəri, Dördüncü respublika 1991-ci ilin oktyabrından sonrakı illəri əhatə edir.

bazar kapitalizminə keçid siyasi sahədə və ictimai şüurda əks olunan yeni davranış stereotiplərinin təşəkkülünə imkan yaratmışdır.

6. Demokratiyanın bərqərar olması onun konsolidasiyasının təməlini qoymağa kömək edir. Dövlətin inkişafının sabitləşməsi prosesi hazırlıq fazasını başa çatdırmağa və qərarlar qəbul edilməsi fazasından keçməklə demokratiyaya alışma fazasına keçidə başlamağa imkan vermişdir.

7. Milli identiklik milli mənlik şüurunun mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkədə demokratikləşmə tammiqyaslı şəkil aldıqca və milli vətənpərvər qüvvələrin sıraları genişləndikcə, kollektiv şüurun ayrıca bir seqmenti olan milli identikliyin qavranılma səviyyəsi yüksələcəkdir.

8. Demokratiyanın inkişafı ilə yanaşı, milli demokratiya üçün yeni təhlükələr də yaranır. Dünya məkanının qloballaşması və beynəlxalq münasibətlərdə *Pax Americana*-nın güclənməsi demokratik norma və standartların başa düşülməsinə təshih edir, onları asanlıqla ixrac oluna bilən bir məhsula çevirməyə çalışır.

9. Demokratik tranzit ölkənin sənayeləşmə dövründən postindustrial dövrünə keçməsini şərtləndirir, adət etdiyimiz həyat tərzini, təfəkkür və davranış formalarını dəyişdirir, habelə ənənəvi sosial mexanizmlərin və təsisatların fəaliyyətinə təshih edir.

İnkişaf naminə birləşmə

Sovet dövrünün avtoritar sistemindən müstəqil dövlətçiliyin demokratik strukturuna milli tranzit ötən əsrin 90-cı illərinin əvvəlində bir növ milli birləşmə istiqamətində atıl-

mış addım oldu. SSRİ-nin dağılması ərəfəsində Azadlıq meydanında baş verən hadisələr və Qarabağ problemi ətrafında ümummilli birləşmənin sonradan genişlənərək, "ittifaq qardaşlığından" xilas olmaq cəhdinə çevrilməsi cəmiyyətdə azadlıq və demokratiya kimi dəyərlərin dərk edilməsinin təməlini qoydu. Hələ SSRİ-nin mövcud olduğu dövrdə Naxçıvan Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasının rəyasət heyətində Azərbaycan SSR-in ikirəngli bayrağı əvəzinə, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qoyulması faktını demokratikləşmənin başlanğıcı hesab etmək olar. Demokratikləşmə yolunun başlandığı rəmzlər konkret tarixi dövrdə cəmiyyətin müraciət etdiyi milli identiklik elementlərini əks etdirirdi. Sonradan, hələ Sovet İttifaqı mövcud olduğu dövrdə Azadlıq meydanında dalğalanan üçrəngli Cümhuriyyət bayrağı milli birliyin və sovet dövlətinin ideoloji dayaqlarının və keçmiş "qardaşlıq" münasibətlərinin qalaqları altından dirçələrək üzə çıxan milli birliyin və milli identiklik hissinin təcəssümü idi.

1990-cı illərin əvvəlində Sovet İttifaqı bir vaxtlar ona xas olan daxili birliyi tamamilə itirmişdi. Sovet respublikaları müstəqilliyə get-gedə daha güclü şəkildə can atırdı, bu isə gələcək inkişafın perspektivlərinin müəyyən edilməsi məsələsində milli birlik doğururdu. Qorbaçovun "yenidənqurması" sovet ictimai şüurunda müəyyən demokratikləşmə yaratmağa istiqamətlənmişdi, lakin əslində bu, yaxınlaşmaqda olan qlobal "demokratikləşmə dalğasının" seqmentlərini assimilyasiya etmək yolu ilə kommunist rejimini xilas etmək cəhdindən başqa bir şey deyildi. Sovet cəmiyyəti "yenidənqurma"ya hazır deyildi, və yəqin ki, onu "hissə-hissə" təqdim etmək lazım idi, – ona görə də bu siyasət dərhal ucdantutma demokratikləşmə barədə komanda kimi qarşı-

landı. Siyasi plüralizm təcrübəsini malik olmayan totalitar cəmiyyət üçün fikir və söz azadlığı, şəffaflıq yalnız "üçüncü demokratik dalğa"nın yeni dəyər oriyentirləri qarşısında rejimin "danışıqsız təslim olmasına" gətirib çıxara bilərdi. Təxminən yarım əsr müddətində Avropanı narahat edən kommunizmin "Qərbə hücumunu" əvəz etmiş demokratik baxışların "Şərqə hücumu" Baltikyanı respublikaların paytaxtlarında antisovet hərəkatları dalğasına çevrildi (Azərbaycanda kütləvi xalq çıxışlarının spesifik motivləri vardı: bu çıxışlar Moskvanın və Yerevanın Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdlərinə qarşı idi). Totalitar rejimin son akkordları 1991-ci ilin avqust ayında QKÇP qiyamı zamanı, SSRİ-nin ali rəhbərliyini təmsil edən bir qrup şəxs dünyada baş verən qlobal transformasiyalara baxmayaraq, SSRİ-nin yaxınlaşmaqda olan dağılmasını dayandırmağa və tarixin təkərini geri döndərməyə çalışanda səsləndi. Lakin xaotik şəkildə dağılma prosesi M.S.Qorbaçov kommunist partiyasının buraxılmasını bəyan edəndən və 1991-ci ildə Belovejsk müqaviləsi imzalanandan daha əvvəl SSRİ-ni bürümüşdü. Sovet respublikaları artıq Mərkəzə tabe olmaq istəmirdi və onların hər biri daxili sosial-iqtisadi və siyasi problemləri özünün bildiyi kimi həll edirdi. Müxtəlif xalqların və dövlətlərin vahid bayraq altında və vahid ideoloji məqsədlər naminə birləşməsinə tarixi zərurət yox idi. Dünya yenidən qurulurdu. Xalqlar və dövlətlər qarşılıqlı əlaqələrin əvvəlki stereotiplərini aradan qaldıraraq, müstəqillik əldə edilməsi yolunda əməkdaşlığın yeni formalarını axtarırdılar. SSRİ-nin dağılması keçmiş sovet respublikalarında müstəqilliyə can atmağı və demokratik demarşı yalnız leqallaşdırmış oldu.

Milli məkanın demokratikləşməsi yəqin ki, məhz xalq hərəkatından başlanmışdır, çünki hər bir sovet vətəndaşının

azadlığın dadını hiss etdiyi tarixi dəqiq təyin etmək son dərəcə çətindir. Ermənistandan yüz minlərlə azərbaycanlının tarixi torpaqlarından zorla qovulmasına münasibətdə ədalətin bərpa olunmasını tələb edən xalq kütlələrinin çıxışları, eləcə də Dağlıq Qarabağın Azərbaycandan qoparılması məsələsində Moskvanın ermənipərəst siyasəti respublika əhalisini hiddətləndirir, bu isə labüd olaraq hökumət əleyhinə ritorikanın güclənməsinə doğru aparırdı. Bu məsələdə milli birlik kütləvi şüurun tədricən liberallaşmasının əsas seqmenti idi. Heç şübhəsiz ki, postsovet Azərbaycanında liberallaşma hansısa təsisatlar və strukturlar tərəfindən nəzərdə tutulmamışdı. Lakin cəmiyyətin siyasi plürallaşmasının ilk rüşeymləri yaranırdı ki, bu da kommunist rejiminə müxalif olan Xalq Cəbhəsinin yaradılmasında özünü göstərmişdi. Azərbaycanda məlum yanvar hadisələrindən – ölkəyə qoşun yeridilməsi və dinc sakinlərin güllələbaran edilməsindən sonra cəmiyyətdə Moskvanın siyasi və iqtisadi asılılığından xilas olmaq barədə çağırışlar getdikcə daha ucadan səslənirdi. Bu məsələdəki ümummilli konsensus Azərbaycan cəmiyyətini bəzi başqa sovet respublikaları ilə müqayisədə daha uğurlu şəkildə liberallaşdırmağa, hazırlıq fazasını sanballı və səmərəli etməyə imkan verdi.

Milli konsensus 1993-cü ilin iyun ayında yaranmış siyasi böhranın həllinin mühüm tərkib hissəsi oldu və hakimiyyətin yeni siyasi strukturuna keçməyi şərtləndirdi. Gənc müstəqil Azərbaycan dövlətçiliyinin hələ yetkinləşməməsindən və siyasi rəhbərliyin fəaliyyət qabiliyyətli olmamasından irəli gələn institusional böhran respublikanı ümumi böhran təhlükəsi qarşısında qoydu. Bu böhran cəmiyyətin həyatının bütün sahələrini əhatə edə bilərdi. Məlum oldu ki, SSRİ dağılandan və "milli qüvvələr" hakimiyyətə gələndən sonra AXC-nin si-

yasi fəaliyyət istiqamətlərindən biri kimi görünən liberallaşma, əslində, hakimiyyətə can atan siyasi qruplaşmaların söz ritorikasından başqa bir şey deyilmiş. Nəticədə ölkəni bürümüş anarxiya və xaos, bu şəraitdə qaçılmaz olan idarəetmə böhranı yeni siyasi rəhbər – milli lider seçimində, cəmiyyətin və dövlətin strateji inkişaf yolunun dəyişdirilməsində milli konsensusu şərtləndirdi.

Bu baxımdan Rastounun fikirləri maraq doğurur: "Milli birlik demokratikləşmənin ilkin şərti adlanır, yəni o, prosesin bütün digər mərhələlərindən əvvəl yaranmalıdır, başqa vaxtda onun yaranmasının əhəmiyyəti yoxdur". Bununla bərabər, milli konsensus şüuraltı səviyyədə mövcud olan, "guya belə də olmalı imiş kimi qəbul edilən" bir anlayış hesab edilir. Rastounun hipotezinə görə, əgər milli birlik dövlətin inkişafının sosial-iqtisadi və siyasi cəhətlərindən asılı olmayaraq, demokratiyaya keçidin yeganə ilkin şərtidirsə, onda Azərbaycanın sovet dövründəki totalitar sistemdən posttotalitar keçid dövrünə tranziti bu modelin parlaq nümunəsidir.

Siyasi strukturun tamamilə dəyişdirilməsi Azərbaycanda demokratikləşmə proseslərinə ciddi təsir göstərmişdir, çünki sabitliyin və təhlükəsizliyin təmin edilməsi problemi səmərəli dövlətçilik qurulması üçün prioritet vəzifə idi. AXC-Müsavat rejiminin süqutundan sonra dövlət çevrilişləri etmək cəhdləri və Azərbaycanın müxtəlif bölgələrində separatçılıq əhval-ruhiyyəsi də demokratiyanın inkişafına əngəl törədirdi, hərçənd, məhz bu dövr gələcək tranzitin bazis meyillərini formalaşdırmış ilkin şərtlər dövrünə aid edilə bilər.

Azərbaycanda milli demokratik tranzit sosial və iqtisadi amillərdən törəməmişdir. O, xeyli dərəcədə cəmiyyətin sabit və səmərəli dövlətçilik qurmaq istəyinin təcəssümü idi. Müs-

təqilliyin ilk illəri sovet dövrünün institusional strukturlarının tamamilə dağılmasına gətirib çıxardı, davranış stereotiplərinin və həyat normalarının kəskin dəyişməsi ilə nəticələnmiş iqtisadi və sosial-mədəni tənəzzülü şərtləndirdi. Bazar kapitalizmini guya "hər şeydən azad" olmaq kimi başa düşən siyasi qruplaşmalar ötən əsrin 90-cı illərinin əvvəlində hakimiyyətdə olanda ölkəni anarxiya və siyasi xaos girdabına sürüklədilər. Böhran Azərbaycan cəmiyyətinin bütün həyatını – siyasi, iqtisadi və sosial sahələri bürümüşdü. Fəaliyyət qabiliyyətli iqtidarın və rəhbərliyin olmaması separatçı əhval-ruhiyyənin yayıldığı ölkəni tam iflasa doğru aparırdı.

Hələ Hobbs yazırdı ki, ayrı-ayrı şəxslərin cəmiyyətdə birgə yaşamasını mümkün edən formal qaydanı güclü dövlət hakimiyyəti yaradır. Bu cür hakimiyyətin olmaması anarxist meyillərin və dövlətin tənəzzülünün səbəbi olur. İlkin şərtlər dövründə, yəni prioritetin demokratiya deyil, sabitliyin təmin edilməsi və milli dövlətçiliyin bərqərar edilməsi olduğu vaxtda cəmiyyətin mənafeləri məhz hadisələrin bu cür dönüşünə – güclü hakimiyyət yaradılmasına yönəlmişdi.

Bununla yanaşı, insanların həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə səbəb olan çox mürəkkəb iqtisadi və maliyyə böhranı, eləcə də əhalinin alıcılıq qabiliyyətinin getdikcə azalması demokratiya haqqında diskussiyaları tranzitar Azərbaycan cəmiyyətinin maraq dairəsindən kənarlaşdıraraq, ictimaiyyətin nəzərlərini iqtisadi və sosial problemlərin həlli yollarının axtarışına yönəltmişdi. İqtisadi problemlərə və maliyyə çətinliklərinə başları qarışmış vətəndaşlar açıq və demokratik cəmiyyət qurulması barədə deyil, əmək haqqının artırılması, inflyasiyanın səviyyəsinin aşağı düşməsi, investisiya imkanları və yeni iş yerlərinin açılması barədə düşünməyi üstün tuturdular. Üstəlik, AXC-Müsavat rejimini əvəz etmiş

idarəetmə forması cəmiyyətə daha aşkar və daha demokratik rejim təsiri bağışlayırdı, çünki indən belə reketlə məşğul olan XTMD döyüşçülərini və ya əlində tapança dövlət televiziyasının studiyasına soxulan, sonra da jurnalisti öz avtomobilinin yük yerinə basan daxili işlər nazirini təsəvvür etmək mümkün deyildi. A.Mütəllibovun, sonra isə Ə.Elçibəyin hakimiyyətini əvəz etmiş Dördüncü respublikanın ilk illəri, həqiqətən, ölkədə asayişin və dövlət intizamının tənzimlənməsi dövrünə çevrildi ki, bunu da demokratiyaya keçidin ilkin şərti kimi qiymətləndirmək olar.

İctimai şüur dövlət hakimiyyətində institusional islahatlar aparılmasını tələb edirdi və sonradan bu, 1993-cü ilin iyun ayında ölkənin siyasi rəhbərliyinin seçilməsi məsələsində milli konsensusda ifadə olunmuşdu. Lakin ölkədəki daxili vəziyyət və siyasi qruplaşmaların anarxist meyilləri institusional islahatların və milli siyasi məkanın yenidən qurulması imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Buna görə də 1993-cü ildən 1996-cı ilədək olan dövrdə Azərbaycan dövlətçiliyinin əsas vəzifəsi ölkədə sabitlik yaradılması və onun təmin edilməsi məsələlərindən ibarət olaraq qalırdı. Bu, demokratik rejim formalaşdırılmasına başlamağa, demokratiyanın bərqərar olmasına, eləcə də totalitar və posttotalitar sistemlərdən qərarların qəbul edilməsi fazasına və demokratiyaya alışmaq fazasına keçidin konturlarının yaradılmasına başlamağa imkan verirdi.

Hazırlıq fazası

Ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi, çox böyük geoiqtisadi əhəmiyyəti olan neft müqavilələrinin imzalanması ilə əlaqədar iqtisadi yüksəlişin başlanması milli demokrati-

yanın tranzit fazasına daxil olmağa imkan vermişdi. Bu fazada siyasi prosesin iştirakçıları artıq "cəmiyyətdə möhkəm kök salmış qüvvələri" təmsil edirdi. Milli siyasi məkanın aktorları arasında qarşıdurma iqtisadi və ya sosial deyil, daha çox siyasi məna kəsb edirdi. Demokratik ritorika isə, Rastounun təbirincə desək, "mübarizənin əzəli və əsas məqsədindən" savayı bir şey deyildi, "ona hansısa başqa məqsədə nail olmağın vasitəsi kimi müraciət edirdilər, yaxud da o, mübarizənin əlavə məhsulu kimi əldə olunurdu". Milli məkanda demokratik tranzitin hazırlıq fazasının xüsusiyyəti aşağıdakı aspektlərdə təzahür edirdi[1]:

- Hazırlıq fazası ilkin şərtin – milli birliyin yaranması nəticəsində mümkün olmuşdu.
- Cəmiyyətdə qarşıdakı siyasi mübarizənin əsas iştirakçıları görünməyə başlamışdı və onlar Azərbaycan cəmiyyətinin müxtəlif sosial təbəqələrini təmsil edirdilər.
- Azərbaycan cəmiyyətinin siyasi qütbləşməsi sərt mübarizə, qarşıdurma prinsipi üzrə cərəyan edirdi, burada hər bir qrup "nəticə etibarilə öz opponentini sarsıtmaq üsulu" tapmağa çalışırdı.
- Senzuranın ləğv edilməsi və dövlətdən asılı olmayan mətbuatın təşəkkülü, habelə müxalifət KİV-lərinin sayının xeyli dərəcədə artması ictimai şüurda demokratik dəyərlərin qavranılmasına və yeni davranış normalarının yaranmasına kömək edirdi.
- Demokratik transformasiyanın hazırlıq fazası 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbul

[1] Biz D.Rastounun modeli əsasında hazırlıq fazasının sosial-siyasi meyillərini izləməyə çalışacağıq.

edilməsi ilə müşayiət olunurdu. Bu Konstitusiya demokratiyanı cəmiyyətin və dövlətin inkişaf strategiyası kimi müəyyən etmiş, demokratik cəmiyyətdə birgəyaşayışın prinsiplərini təsbit etmişdir.

- 1995-ci ildə keçirilən parlament seçkiləri hazırlıq fazası üçün möhkəm təməlin təşəkkülü yolunda ilk addım oldu, yeni siyasi konfiqurasiya üçün məkan yaratdı.

- Siyasi məkanın strukturunda radikal və mötədil istiqamətli siyasi təşkilatlar formalaşmağa başlamışdı. Nəticədə siyasi mübarizə yeni çalar alır, rəqibləri "bir-birinə zidd olan iki bayraq ətrafında birləşməyə" sövq edirdi. Buna görə də hazırlıq fazasında ölkənin fərqləndirici cəhəti plüralizmin deyil, qütbləşmənin olması idi.

- Hazırlıq fazasının səbəb-nəticə əlaqələri Azərbaycan cəmiyyətinin tam mənada qəfildən qarşılaşdığı demokratikləşmədən ibarət idi. Bunun konkret təzahürlərindən biri qanuniləşdirilmiş partiya müxalifətinin yaranması, hakim elita ilə onun opponenti olan əks-elita arasında sərt qarşıdurma idi.

- İctimai şüur tədricən demokratikləşməni açıq cəmiyyətə təbii keçid kimi qəbul etməyə başlamışdı və başqa coğrafi məkanların demokratik ənənələrini milli məkana intensiv şəkildə assimilyasiya etməyə çalışırdı. Demokratiya get-gedə daha çox dövlətin inkişafının və ictimai həyatın ayrılmaz aspekti kimi qəbul edilməyə başlamışdı.

Azərbaycanda demokratik transformasiyanın hazırlıq fazası dövlətçilik əsaslarının təşəkkülü və yeni siyasi konfiqurasiyanın və partiya konfiqurasiyasının formalaşması şəraitində

cərəyan edirdi. Cəmiyyətdə gələcək demokratik transformasiyalar barədə tam anlaşılmazlıq hökm sürürdü, bu və ya digər siyasi qruplaşmalar yaranmış vəziyyəti özlərinin anarxist niyyətlərini həyata keçirmək üçün bir fürsət hesab edirdilər. Bu faza iqtidar ilə müxalifət arasında sərt siyasi qarşıdurma şəraitində cərəyan edir, nəticədə bütövlükdə siyasi sistemin "yetərsizliyi kompleksi" yaranırdı. "Üçüncü demokratik dalğa"nın qlobal hücumu, habelə ictimai şüurun sənaye dövrünə xas olan formasının gizli qərbləşmə vasitəsilə milli məkana nüfuz edən postindustrial forması ilə tədricən əvəzlənməsi islahatçı və radikal siyasi qruplar arasında toqquşmaya səbəb olurdu. Bununla bərabər, Azərbaycanda gələcək demokratik tranzitin hazırlıq fazasının səciyyəvi xüsusiyyətlərindən biri qarşıdurma vəziyyətində olan tərəflərin sivilizasiyalı siyasi davranışın yeni modellərini transformasiya etməyə və beləliklə də qərar qəbul edilməsi fazasına yubanmadan keçməyə, demokratiyanın möhkəmlənməsi prosesinin başlanmasına kömək etməyə açıq-aşkar hazır olmaması idi.

Demokratik tranzitin mürəkkəbliyi çox vaxt siyasi liderlərin bu cür keçidi reallaşdıra, siyasi rəqabətin köhnə metodları və üsullarından imtina edə bilməməsindən irəli gəlir. Xeyli dərəcədə müxtəlif sosial qrupların lümpenləşmiş, deqradasiyaya məruz qalmış nümayəndələrindən, habelə cəmiyyətin radikal seqmentlərindən ibarət olan, sovet sisteminin dağılması şəraitində yetişmiş və kommunist sənayeçiliyinin "ən yaxşı" ənənələrini qəbul etmiş milli müxalifət 1990-cı illərin ikinci yarısında, yəni müstəqil dövlətçilik qurulması dövründə İspaniya müxalifətinin "Monkloa paktı"nın bağlandığı vaxt keçdiyi yoldan imtina edərək, özlərini "vəzifə kürsüsü uğrunda müharibəyə" həsr etmişdi. Lakin buna baxmayaraq, milli demokratik transformasiyanın ha-

zırlıq fazası Azərbaycanda demokratik sistemin hərtərəfli formalaşmasının başlanmasını şərtləndirən mühüm dövr oldu. Tarixin həmin zaman kəsiyinin çətinliklərinə və gözlənilməz hadisələrinə baxmayaraq, bu faza elə bir təməl qoydu ki, sonradan o, milli siyasi strukturun demokratiyanın bərqərar olduğu məkana transformasiya etməsinə imkan yaratdı.

Bərqərar olma

Yuxarıda qeyd etmişdik ki, Azərbaycanda demokratiyanın bərqərar olması prosesinin başlanması qismən bazar kapitalizminə keçidin intensivləşməsi sayəsində mümkün olmuşdur. Bazar kapitalizmi siyasi və ictimai mühitə yeni davranış normaları və ənənələri gətirmişdir. Milli iqtisadiyyatın xarakterinin təkmilləşməsi, dövlət büdcəsinin və adambaşına ÜDM-in ilbəil artması siyasi rəqabətin xarakterinin dəyişməsinə kömək edirdi. Nəticədə 1990-cı illərin ikinci yarısında Azərbaycanın siyasi strukturu Rastounun irəli sürdüyü qərarlar qəbul edilməsi fazasını əks etdirməyə başlamışdı.

Rastounun sözləri ilə desək, "hazırlıq fazası yalnız o vaxt başa çatır ki, ölkənin siyasi liderlərinin bir qismi milli birlikdə müxtəliflik olmasını şüurlu şəkildə qəbul edir və bu məqsədlə demokratiyanın bəzi əsas mexanizmlərini institusionallaşdırmaq qərarına gəlir". Bu baxımdan, demokratiyanın fəaliyyətinin əsas mexanizmlərinin əks etdirildiyi Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması nəzəri cəhətdən hazırlıq fazasının başa çatması demək ola bilərdi (1907-ci ildə İsveçdə proporsional təmsilçiliklə yanaşı, ümumi seçki hüququnun tətbiq edildiyi "Böyük kompromis" kimi), lakin praktik müstəvidə demokratiya hələ də

ictimai prioritet hesab edilmirdi. Əsas hüquq və azadlıqların, eləcə də demokratiyanın fəaliyyət göstərməsi yollarının təsbit edildiyi əsas sənəd olan Konstitusiya bir növ milli məkanda demokratiyanın bərqərar edilməsi yolunda atılmış ilk addım oldu. Lakin İsveçin təcrübəsinə müraciət etsək görərik ki, orada "Böyük kompromis"dən sonra, 1918-ci ildə seçki sistemində islahat aparılmış, kabinet idarəetməsi prinsipi təsbit olunmuşdur.

Beləliklə, 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi siyasi plüralizmi, söz, yığıncaqlar və assosiasiyalar azadlığını, dövlət idarəetmə orqanlarının seçkili olması qaydasını legitimləşdirən, habelə vətəndaşların əsas hüquq və azadlıqlarına zəmanət verən möhkəm demokratik baza yaradılması yolunda əsaslı addım oldu. Bununla bərabər, Rastounun yazdığı kimi, demokratiyanın "birdənbirə" və ya "möhlətlə" əldə edilməsi siyasi rəhbərliyin yuxarı təbəqəsi tərəfindən şüurlu şəkildə qərar qəbul olunmasının nəticəsidir. Əgər bir ölkədə demokratiya institusional islahatları təsbit edən bir sənədin qəbul olunması nəticəsində "əldə edilirsə", başqa ölkədə bu, bir neçə belə sənəd vasitəsilə gerçəkləşdirilə bilər. Hər iki halda demokratiya yaratmaq cəhdi "onun ehtimal edilən gələcək nəticələri barədə riski öz üzərinə götürməyə" hazır olan bir neçə qüvvənin qarşılıqlı əlaqəsi kimi qiymətləndirilməlidir.

Milli məkanda demokratiyanın bərqərar olması müxalifət qurumunun, müstəqil mass-medianın təşəkkülünü və "üçüncü sektor"un, yəni qeyri-hökumət təşkilatlarının formalaşması dövrəsinin uğurla başa çatmasını əhatə edən uzun və mürəkkəb bir proses olmuşdur. Azərbaycanda 1998-ci ildə prezident seçkiləri, 1999-cu ildə bələdiyyə seçkiləri və 2000-ci ildə parlament seçkiləri demokratiyanın bərqərar olması

prosesinin seqmentləri hesab edilməyə başlandı. Hər növbəti seçki zamanı milli siyasi məkanda demokratik baxışlara yeni səpkidə yanaşılır, beləliklə də demokratik təsisatların və ənənələrin təkmilləşməsi üçün meydan yaranırdı.

Bununla bərabər, iqtidar-müxalifət münasibətlərində də dəyişmə meyilləri olur, seçkilər ərəfəsində bu münasibətlər güzəştsiz sərt mübarizə, seçkilərdən sonrakı dövrdə isə sazişçilik xarakteri alırdı. Müəyyən mənada bu vəziyyət bərqərar olma prosesinin uğurlarını təmin edir, onun qanunauyğun gedişinə və təkamül xarakterli olmasına imkan yaradırdı. Azərbaycanda demokratik tranzit təkcə sovet dövründən tamamilə yeni ictimai prioritetlər dövrünə keçid deyildi, həm də postindustrial siyasi dəyərlərə keçid idi. Bu dəyərlər nəinki demokratik rejimin bərqərar olmasını, eyni zamanda, gələcəkdə onun konsolidasiyasını təmin etməli idi.

Dövlətin idarə olunmasının səmərəli modelinin yaradılması sabit demokratik tranzitin təmin edilməsinin əsası oldu. Bununla bərabər, hakimiyyət orqanlarının əsas vəzifəsi dövlətin davamlı inkişafını təmin edəcək aktual siyasi və ümdə iqtisadi problemləri həll etmək idi.

S.Hantinqton qeyd edir ki, yeni demokratik siyasi sistemlər üç tip problemlə üzləşir: tranzit, kontekstual və sistem problemləri. Tranzit problemləri dedikdə, S.Hantinqton bilavasitə rejimin dəyişməsi fenomenindən irəli gələn məsələləri, yəni yeni konstitusion və elektoral sistemlərin tətbiq edilməsini və s. nəzərdə tutur. Kontekstual aspektdə cəmiyyətin özünün təbiətinə, onun iqtisadiyyatına, mədəniyyətinə və tarixinə xas olan problemlər nəzərdən keçirilir. Eyni zamanda, əvvəlki rejimdən miras qalmış etnik-milli münaqişələr, inflyasiyanın yüksək səviyyəsi, əhalinin həyat səviyyəsinin aşağı olması və başqa prob-

lemlər də transformasiyanın bu aspektinə aid edilir. Sistem problemləri isə artıq baş vermiş və qərarlaşmış tranzitlər üçün səciyyəvidir.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra dövlətin potensialı və imkanları cəmləşdirilərək, qismən tranzit problemləri nəzərdə saxlanılmaqla, kontekstual problemlərin həllinə yönəldilmişdi. Dövlətin qarşısında iqtisadiyyatı təkmilləşdirmək vəzifəsi dururdu. Çünki iqtisadi maraqlar nəticə etibarilə siyasi hərəkətlərin sosial səbəbi olur. İqtisadiyyat ilə siyasət arasında qarşılıqlı münasibətlərin xarakteri Leninin aşağıdakı klassik formulası ilə çox qabarıq şəkildə ifadə edilmişdir: "Siyasət iqtisadiyyatın cəmləşdirilmiş ifadəsidir". Milli tranzitin xüsusiyyəti, ilk növbədə, daxili problemləri həll etməkdən, bundan sonra isə diqqəti demokratik tranzit məsələləri üzərində cəmləşdirməkdən ibarətdir.

1990-cı illərin ikinci yarısında dövlət siyasətinin mahiyyəti sabitliyin və təhlükəsizliyin təmin edilməsində, daxili və xarici təhlükələrin minimuma endirilməsində, iqtisadi inkişaf sürətinin artırılması və sosial-iqtisadi qeyri-bərabərliyin ləğv edilməsi üçün şərait yaradılmasında ifadə olunurdu. Bu problemlərin həll edilməməsi demokratiyanın ictimai prioritet kimi bərqərar olmasına ciddi təhlükə yaradır, demokratik transformasiyanı ləngidirdi. Həmin problemlərin həlli qarşıdakı tranzitin səmərəliliyinə imkan yaratmalı idi, ona görə də formalaşmaqda olan Azərbaycan demokratiyası yeni minilliyin əvvəlinə qədər daxili qaydaların dəyişməsi, milli dövlətçiliyin sabit və davamlı formasının yaradılması şəraitində həyatda qalmaq sınağına çəkilmişdi.

Dövlət və cəmiyyət inkişaf etdikcə, cəmiyyətin söykəndiyi normativ dəyərlər sistemi, yəni müxtəlif siyasi dəyər-

lərin, müxtəlif dövlətlərin ən müxtəlif siyasi hərəkatlarından bir növ köçürülmüş məqsəd və standartların sintezindən ibarət olan siyasi mədəniyyət də dəyişir. Təbii ki, kommunist dəyərlərinin və təbəəlik siyasi mədəniyyəti ideallarının yararsız olmasının sadəcə elan edilməsinin bircə andaca fəal vətəndaşlığın, siyasi mədəniyyətin yaranacağına gətirib çıxaracağını düşünmək səhv olardı. Siyasi mədəniyyətin formalaşmasının özünün sürəti və dinamikası var, bunlar iqtisadi və sosial xarakterli dəyişikliklərin təsirinə məruz qalsa da, həmin dəyişikliklərə uyğun gəlmir.

Siyasi mədəniyyət anlayışı siyasi hakimiyyət barədə insana tərbiyə vasitəsilə aşılanmış başlıca təsəvvürlərə əsaslanır. Cəmiyyətin üzvü məhz bu təsəvvürləri əsas tutaraq, dövlətlə qarşılıqlı əlaqə saxlayır. Bu təsəvvürlər insanın siyasət sahəsində davranış tərzini, onun xarakterinin ən sabit, fundamental xüsusiyyətlərini müəyyən edir.

Lakin bəzən ictimai şüurun yeni siyasi mədəniyyəti qəbul etməyə "hazır olub-olmaması" bu mədəniyyətə daxili ziddiyyət gətirir. Buna baxmayaraq, bu cür ziddiyyət, eyni zamanda, cəmiyyətin hər bir üzvünün dövlət işlərində siyasi iştirakının həm fəal, həm də passiv formalarının qalmasına kömək edir.

Dövlətdə isə siyasi mədəniyyət heç də həmişə saxlanmır. Onun normaları və qaydalarına cəmiyyətin heç də bütün qrupları tərəfindən riayət edilmir və onlar tərəfindən qəbul olunmur. Zorakılıq, insanın əsas hüquqlarına riayət edilməməsi qarşılıqlı əlaqələrin əsas formalarına çevrilən yerdə isə siyasi mədəniyyət, ümumiyyətlə, məhv olub gedir, yerini vətəndaşların hakimiyyətlə qarşılıqlı münasibətlərinin başqa formalarına verir. Məsələn, keçən yüzillikdə faşist, irqçi, şovinist hərəkatlar terrorizm üçün zəngin zəmin yaratmışdır.

Siyasi mədəniyyət insanın mənəvi istəklərində, onun fəaliyyətinin müəyyən formalarında, eləcə də institusionallaşdırılmış şəkildə təzahür edə bilər və etməlidir. Bütün dəyərlər praktikada eyni vaxtda təcəssüm etmədiyinə görə, siyasi mədəniyyətin yuxarıda göstərilən təzahür formaları arasında həmişə müəyyən ziddiyyətlər olur.

Ümumiyyətlə, siyasi mədəniyyət siyasi proseslərə və təsisatlara çox müxtəlif şəkildə təsir göstərə bilər. Hətta xarici vəziyyət və hakim rejimin xarakteri dəyişdiyi halda da belə bir imkan qalır.

Eyni zamanda, siyasi mədəniyyət sosial və siyasi həyatın yeni, cəmiyyət üçün ənənəvi olmayan formalarını doğurmağa, habelə köhnə və yeni siyasi quruluşun elementlərini özündə birləşdirməyə qadirdir.

Siyasi mədəniyyətə müəyyən funksiyalar xasdır:

- İdentikləşmə – insan hansısa bir sosial qrupa mənsub olmağa çalışır.
- Adaptasiya – dəyişkən siyasi mühitə uyğunlaşmaq tələbatı.
- Sosiallaşma – insanın öz vətəndaş hüquqlarının, siyasi funksiyalarının və maraqlarının reallaşdırılmasında müəyyən vərdişlər və xüsusiyyətlər qazanması.
- İnteqrasiya – müxtəlif qrupların müəyyən siyasi sistem çərçivəsində yanaşı mövcud olmasını, eləcə də dövlətin bütövlüyünün qorunub saxlanmasını təmin edir.

İdentikləşmə və adaptasiya prosesində ölkə vətəndaşları davranış stereotiplərini sosiallaşma və inteqrasiya istiqamətində transformasiya etmişlər. Yəni demokratik dəyərlərin

və normaların Azərbaycan cəmiyyətinin şüuruna uğurla aşılanması baş vermişdir.

Siyasi mədəniyyətin səviyyəsi demokratik tranzitə ciddi təsir göstərir, çünki siyasi mədəniyyət müxtəlif siyasi və sosial proseslərlə cürbəcür əlaqələrlə müəyyən edilir. Siyasi mədəniyyətin müxtəlif daxili transformasiyaları siyasət subyektlərinin davranışının formalaşmasını və bütöv mədəniyyətin təşəkkül mərhələlərini əks etdirir.

Sosiumun ictimai-siyasi strukturunda insanın rolu barədə dəyər təsəvvürlərinin aşağıda sadalanan hər bir səviyyəsində kifayət qədər ziddiyyətli konfiqurasiyalar yarana bilər.

- Dünyagörüşü səviyyəsi – siyasət haqqında təsəvvürlər gerçəkliyin qavranılmasının fərdi mənzərəsi ilə uyğunlaşır.
- Vətəndaş səviyyəsi – insan özünün siyasi statusunu keyfiyyətcə yeni səviyyədə başa düşür.
- Siyasi səviyyəsi – rejimin fəaliyyətinin konkret formalarına, öz müttəfiqlərinə və əleyhdarlarına münasibət yaranır.

Bu səviyyələrin hər birində siyasi mədəniyyətin məxsusi xarakteri olur və bu, cəmiyyətdə demokratik dəyərlərin və ənənələrin bərqərar olmasına birmənalı şəkildə təsir edir. Məlum olduğu kimi, konkret siyasi hadisələrə münasibət dünyagörüşü prinsipləri ilə müqayisədə xeyli sürətlə dəyişir. Buna görə də yeni məqsədlərin və dəyərlərin qavranılması, tarixin yenidən dərk edilməsi son dərəcə qeyri-bərabər şəkildə baş verir. Bütün bunlar siyasi mədəniyyətin formalaşmasına və deməli, cəmiyyətin daxili transformasiyasına əlavə çətinlik və ziddiyyət gətirir.

Milli məkanda demokratiyanın bərqərar olması fazası siyasi həyatda yeni dəyər sistemlərinin formalaşmağa başlamasına imkan yaratmışdır. Bu sistemlər, bir tərəfdən, sovet dövrünə xas olan sənayeləşməni təcəssüm etdirir, digər tərəfdən, qarşıdakı postindustrial tranzitin mürəkkəb konturlarını gətirirdi. Bu isə demokratik tranzit modelini mürəkkəbləşdirir və hibridləşdirirdi. Elə buna görə də postsovet məkanında islahatlar həyata keçirilməzdən çox-çox əvvəl Rusiyanın ən yaxşı zəka sahibləri liberal demokratiyanın sürətlə tətbiqinin labüd mənfi nəticələri barədə xəbərdarlıq edirdilər. Tanınmış rus filosofu İvan Aleksandroviç İlyin ötən əsrin 40-50-ci illərində yazdığı məqalələrdə postsovet cəmiyyətinin vəziyyəti və perspektivləri barədə heyrətamiz dərəcədə dəqiq proqnozlar vermişdi: "Əgər kommunizmdən sonra Rusiyaya yeni, çox ağır zərbə vura biləcək bir amil varsa, o da məhz bu ölkədə totalitar müstəbidlikdən sonra demokratik quruluş yaratmağa göstərilən israrlı cəhdlərdir. Çünki bu müstəbidlik Rusiyada demokratiyanın bütün zəruri zəminini dağıtmağa nail olmuşdur. Bunlarsız yalnız qaragüruhun azğınlığı, ümumi xəyanət, satqınlıq və yeni-yeni antikommunist müstəbidlərin üzə çıxması mümkündür". Buradan belə bir nəticə çıxır: "Sağlam yaradıcı demokratiya üçün zəruri zəmindən məhrum olunmuş ölkə bu əsas zəminlər yaradılmayınca, özündə həmin rejimi tətbiq etməməlidir. O vaxta qədər demokratik quruluşun tətbiq edilməsi bu ölkə üçün yalnız məhvedici ola bilər". Uzaqgörən alim demokratikləşmənin yetərincə qərarlaşmasına hazır olmayan cəmiyyətlərdə tələsik demokratikləşmənin təhlükəli olması barədə tezisi hər vasitə ilə vurğulayırdı.

İ.İlyin ölkənin parçalanmasının mümkünlüyünü də istisna etmir və bildirirdi ki, bunun nəticəsində ölkə ərazisini "bitib-

tükənməyən çəkişmələr, toqquşmalar və vətəndaş müharibələri bürüyəcəkdir". İ.İlyin keçmiş sovet respublikaları müstəqillik əldə etdikdən sonra mürəkkəb daxili peripetiyalar şəraitində keçid dövrünün idarəetmə formasını belə səciyyələndirirdi: "Milli vətənpərvərlik ruhlu möhkəm və ideya etibarilə liberal olan, xalqa özünün həqiqətən ən yaxşı qüvvələrini irəli çəkməyə kömək edən, xalqda ayıqlıq, azad loyallıq, özünüidarə və dövlət quruculuğunda təbii şəkildə iştirak etmək keyfiyyətləri tərbiyə edən diktatura"[1].

Məşhur sovet dissidenti A.Soljenitsın da demokratiyaya doğru rəvan, ehtiyatlı və düşünülmüş yolla getməyə çağırırdı: əgər "demokratiya qəfildən elan edilsə, bizdə millətlərarası müharibə başlanacaq, bu müharibə həmin demokratiyanı, ümumiyyətlə, bircə anda silib aparacaq və milyonlarla insan demokratiya uğrunda deyil, sadəcə, millətlərarası müharibədə məhv olacaqdır".

Soljenitsın 1973-cü ildə yazdığı "Sovet İttifaqının rəhbərlərinə məktub"da rejimi tədricən, rəvan şəkildə yumşaq avtoritarizmə doğru döndərməyə, hakim ideologiyadan imtina etməyə, ideoloji və dini sərbəstliyə icazə verməyə, qanunverici, icra və məhkəmə hakimiyyətlərini bir-birindən ayırmaqla, qanunçuluğu inkişaf etdirməyə, mülkiyyət hissi tərbiyə etməyə çağırırdı.

Həmin vaxtdan təqribən iyirmi il keçəndən sonra o, Qorbaçovun islahatlarını təhlil edərək yazırdı: "Xalqımız mürəkkəb demokratik həyata əsla hazır olmadığına görə, bu həyat yuxarıdan uca səslə dərhal eninə və uzununa elan edilməli deyil, tədricən, səbirlə və möhkəm şəkildə aşağıdan qurulmalıdır".

[1] Демократический транзит в России. http://inforent.ru

Gördüyümüz kimi, Soljenitsın yenə də demokratik rejimə keçidin "tədricən və rəvan olması" prinsipini dəstəkləyir, yəni, o, cəmiyyətin demokratikləşməsinin təkamül yolunun tərəfdarıdır.

Postsovet dövrünün demokratikləşməsi tələm-tələsik islahatlar üçün imkan açmaqla yanaşı, bazat təsərrüfatının yaradılmasını qabaqlayaraq, dövlətçiliyin və idarəetmə mexanizmlərinin əhəmiyyətli dərəcədə zəifləməsinə doğru aparırdı. Nəticədə islahatlar kortəbii, zəif idarəedilən proses xarakteri alırdı. Vətəndaşlara sosial zəmanətlərin və dövlət dəstəyinin təmin edilməsi mümkün olmadı.

Buna görə də milli tranzit əvvəlcə kontekstual problemlərin, yalnız bundan sonra tranzit problemlərinin həll edilməsini nəzərdə tuturdu. Yeni ictimai sistemə keçidin çətinlikləri institusional hakimiyyət böhranında, iqtisadiyyatın sistemli tənəzzülündə və Azərbaycan cəmiyyətinin marginallaşmasında özünü göstərirdi və bunlar sosiumu dərin durğunluq vəziyyətinə salmışdı. Bu çətinliklər aradan qaldırılmadan demokratik transformasiyanın hazırlanması və bərqərar edilməsi mümkün deyildi. Bu böhran postsovet məkanlarının çoxunda məhz "nomenklatura demokratiyasının" formalaşmasına səbəb oldu.

Nemətlərindən cəmiyyətin bütün üzvlərinin bəhrələnə biləcəyi həqiqi demokratiyadan fərqli olaraq, nomenklatura demokratiyası yalnız imtiyazlı qrupların – köhnə və yeni bürokratiyanın, iri biznesin, generalitetin, siyasi partiyaların elitasının mənafelərinə xidmət edir. Demokratiyaya doğru müəyyən irəliləyişin, – hakimiyyət bölgüsü, siyasi hüquq və azadlıqların olması, oyun qaydalarının tamamilə qane etdiyi sistem müxalifətinin fəaliyyət göstərməsi, – olmasına baxmayaraq, nomenklatura demokratiyası sırf demokratik rejim

hesab edilə bilməz. Çox güman ki, bu yalnız güclü dövlət hakimiyyətini – qloballaşma dövründə dövlətin və cəmiyyətin dünya inkişafından kənarda qalmasına imkan verməyən, habelə dövlətin maliyyə strukturunu təkmilləşdirmək məqsədi ilə iqtisadiyyat sahəsi üzərində gizli dövlət nəzarətini stimullaşdıran hakimiyyəti dəstəkləmək məqsədi ilə olan keçiddir. Bu baxımdan güclü hakimiyyət avtoritarizmin təzahür formasından daha çox anarxiya təzahürlərini amortizasiya edən bir vasitədir. Hərçənd, bu və ya digər sosial və siyasi qrupun imtiyazlı olması bir müddətdən sonra öz yerini "hamı və hər kəs üçün demokratiyaya" verməlidir.

Əgər hamı üçün demokratiya müasir dövrdə ümumbəşəri normaya çevrilirsə, nomenklatura demokratiyası anaxronizmə çevrilir. Bununla bərabər, demokratiya nə qədər məhdud, strateji baxımdan nə qədər qeyri-məqbul olsa da, görünür, o, müəyyən şəraitdə tədricən universal demokratiyaya doğru irəliləməyə imkan verən yeganə ictimai quruluş formasıdır.

Demokratiyanın bərqərar olması cəmiyyətdə təkcə yeni davranış normalarının və dəyərlərin təşəkkül tapmasını deyil, həm də liderlərin və elitaların submədəniyyət səviyyəsini tələb edir. Bu submədəniyyət onun daşıyıcılarının siyasi sistemin idarə edilməsi funksiyalarını necə yerinə yetirəcəyini müəyyən edir. Bu mənada həmin submədəniyyətin ən mühüm elementləri elita liderlərinin və nümayəndələrinin sıravi vətəndaşların mənafelərini ifadə etmək bacarığı, onların peşəkar idarəçilik keyfiyyətləri, eləcə də onların nüfuz qazanmasına və bunu qoruyub saxlamasına imkan verən cəhətləri və xüsusiyyətləridir.

Bütün bunlar dövlətçiliyin demokratik yolla inkişafına məqsədyönlü şəkildə nail olmağı bacaran mütəşəkkil siyasi

qüvvə yaratmağa kömək edir. Bununla bərabər, yeni şəraitə uyğunlaşma "yuxarıdan" zorla qəbul etdirilimir, "aşağıdan" yetişir, qarşılıqlı etimad və sosial inteqrasiya potensialına malik olan dəyərləri və normaları yoxlayaraq, gündəlik prosesləri rəsmiləşdirir.

Milli şəraitdə demokratiyanın bərqərar olması Azərbaycan cəmiyyətində hamılıqla qəbul edilmiş fundamental siyasi dəyərlərin, onları yenidən yaradan və əhalinin geniş təbəqələrinə çatdıran, eyni zamanda, demokratik dəyişikliklər yolunda məlum çətinliklərə səbəb olan dolğun siyasi sosiallaşma sisteminin mövcud olmadığı şəraitdə baş verirdi.

Yuxarıda qeyd edildiyi kimi, bu, milli tranziti səciyyələndirən iki amillə bağlıdır. Birincisi, siyasi mədəniyyətin formalaşması prosesi konkret fərdin maddi rifahından asılı olduqda siyasi prosesi proqnozlaşdırmaq mümkün deyil və bu, iqtidar ilə müxalifətin dialoqu üçün zəmin yaratmırdı. İkincisi, demokratik transformasiyanın başlanğıc mərhələsində siyasi oriyentasiyaların formalaşmasının kortəbiiliyi və onun idarə edilə bilməməsi nəticəsində müxtəlif siyasətçilər çox vaxt siyasi davranışın bir-birini inkar edən nümunələrini təklif edirdilər, bu isə cəmiyyətdə baza dəyərləri barədə razılığa gəlməyi çətinləşdirirdi. Beləliklə, Azərbaycanda demokratiya "möhlətlə" bərqərar olur, tədricən yeni davranış stereotipləri qəbul edir, habelə demokratiya prioritetini ictimai şüurda yayırdı.

Demokratiya məşhur qaytana oxşar bir prosesdir. Toyota Takaokinin avtomobilyığma zavodlarında bütün iş yerlərində mövcud olan bu qaytan işçiyə imkan verir ki, istehsal prosesində hansısa bir nasazlıq olmasını hiss edərsə, bütün konveyerin işini dayandırsın[1]: "Qaytan oyun nəzəriyyəçilərinin

[1] Ф.Фукуяма. Великий разрыв. М., 2003, стр.283.

"təkbaşına veto" adlandıra biləcəkləri bir imkanı təcəssüm etdirir, hər bir iştirakçı bu imkandan istifadə etməklə bütün qrupun səylərini dayandıra bilər". Buna oxşar sistem demokratiya üçün də səciyyəvidir. Burada siyasi prosesin aktorlarının dövlətin inkişaf strategiyasına nəzarət etmək imkanı və səlahiyyətləri, azacıq da olsa avtoritarizmə və ya totalitarizmə yuvarlanmaq əlaməti hiss etdikdə, dərhal "qaytanı" dartmaq üçün zəruri vasitələri olmalıdır.

Mövzudan bir qədər kənara çıxaraq demək lazımdır ki, ötən əsrin ortalarında hər hansı iyerarxik təşkilatların ciddi problemləri – qərarların ləng qəbul edilməsi, iş yerində qaydaların çevik olmaması və yeni şəraitə uyğunlaşa bilməmək kimi ciddi problemlərlə üzləşmiş teylorizm də (XIX-XX əsrlərin qovuşuğunda ABŞ-da yaranmış əməyin təşkili və istehsalın idarə edilməsi sistemi idi, fəhlə sinfinin istismarını gücləndirməklə maksimum izafi dəyər əldə etmək məqsədi ilə elm və texnologiyanın nailiyyətlərindən istifadə olunması ilə səciyyələnirdi) siyasi formaya yabançı olmuşdur. Demokratik cəmiyyətlərdə postindustrial dəyərlər dövründə siyasətdə teylorizm "ayaq altına" atılmış, onun yerini qeyri-hökumət təşkilatlarının təşəbbüskarlığı və vətəndaş fəallığı tutmuşdur.

Bununla əlaqədar Şərqi Asiyanın təcrübəsi çox uğurlu hesab edilə bilər. Burada bəzi dövlətlər Avropa tipli siyasi demokratiya sistemini qəbul və özlərində tətbiq edə bilmişdir. Bu heyrətamiz fakt çoxsaylı araşdırmaların mövzusuna çevrilmişdir. Tədqiqatçılar buna imkan verən sosial amilləri aşkar etməyə çalışırlar. Yaponiyada və Tailandda demokratiyanı bərqərar etməklə innovasiyaları və ənənələri uyğunlaşdırmaq və tarazlaşdırmaq mümkün olmuşdur. Bu ölkələrin milli mədəni ənənələrə möhkəm bağlılığı ilə yanaşı, innovasiyaların əxz edilməsinə həssaslığı sosial təsisatların

makrostrukturunda ciddi dəyişikliklər olmasına baxmayaraq, siyasi hakimiyyət formasını və qrupdaxili münasibətlərin səciyyəvi formalarını qoruyub saxlamağa imkan vermişdir. Meydzi inqilabı dövründə hazırlanan islahatlar Yaponiyanın sosial və texnoloji tərəqqi səviyyəsinə görə qısa müddətdə Qərbə çatmasına kömək etmişdir. Xeyan dövründə isə Yaponiya cəmiyyəti Avropa Moderninin təşəkkülü ilə bəzi paralellər aparmağa imkan verən heyrətamiz qabiliyyətlər nümayiş etdirmişdir. Eyni zamanda, Yaponiyanın yeni siyasi və iqtisadi makrostrukturunun uğurlu olmasının bir səbəbi də odur ki, hələ orta əsrlərdə Yaponiya cəmiyyəti çoxsektorlu və mahiyyət etibarilə plüralist cəmiyyət idi. XVI-XVII əsrlərdə Yaponiyada xristianlığın çox asanlıqla yayılması buna əyani misaldır. Bu ölkələrdə siyasi və iqtisadi xəttin modernləşməsi bəzi Şərqi Asiya dövlətlərinin elitalarının sadiq qaldığı uğurlu strateji xəttin nəticəsi olmaqdan əlavə, həm də iyerarxiyalı Yaponiya cəmiyyətinin şaquli mobilliyinin aşağı səviyyədə olmasının və ölkə daxilində daim milli ənənələrə və tarixə istinad edilməsinin təcəssümü olmuşdur.

Hazırlıq fazası, sonra isə demokratiyanın bərqərar olması fazası Azərbaycanda on ildən bir qədər çox davam etmişdir, hərçənd, bu gün bərqərar olma fazasının başa çatdığını söyləmək hələ tezdir. Bu, təkcə onunla əlaqədar deyildir ki, Azərbaycan cəmiyyəti sovet sənayeləşməsinə xas olan tarixi ənənələrin üzərindən "adlamalı" və indiyə qədər görünməmiş şəkildə yeni dəyər oriyentirləri yaratmağa başlamışdır. Bu, xeyli dərəcədə həm də onunla əlaqədardır ki, ola bilsin, lazımınca götür-qoy edilməsə də, Azərbaycan demokratik tranzitin məxsusi modelini reallaşdırmağa çalışırdı. Biz illər boyu deyirdik ki, "keçid dövründə" yaşayırıq, amma çox nadir hallarda düşünürdük ki, bizi gözləyən əsl "keçid dövrü"

hələ irəlidədir. İndi yaşadığımız dövr isə həmin transformasiyaya başlamaq üçün hazırlıqdır. İctimai rəyin, siyasi məkanın hazırlanması, yeni iqtisadi modelin, maliyyə strukturunun və s. yaradılması – bütün bunlar ölkənin həmin keçidi gerçəkləşdirməsinə kömək etməyə yönəldilmişdir. Bu, bizim siyasətin və iqtisadiyyatın formalaşdığı sənayeləşmə dövründən postindustrial dəyərlər və ənənələr aləminə keçiddir.

Demokratiyanın bərqərar olması fazası Azərbaycan cəmiyyətinin sosiomədəni fonunda dəyişikliklərə şərait yaratmışdır. Burada tədricən milli identlikliyin yeni aspektləri yaranmağa, fərdin hərəkətlərinin, yaşayış tərzi və həyat formasının ən mühüm oriyentiri kimi cəmiyyətin mənəvi-əxlaqi komponenti intensiv şəkildə dirçəlməyə başlamışdır. İndən belə Azərbaycan vətəndaşı özünü təkcə azərbaycanlı kimi deyil, həm də dünya nizamının qlobal miqyasda dəyişməsi şəraitində xeyli dərəcədə müsəlman kimi identikləşdirməyə başlamışdır. İcma şüurunun, kollektiv, fərdiləşdirilməmiş şüurun aşkar ifadə olunmuş arxetipi tədricən kütləvi şüurun başqa demokratik tranzit üçün daha açıq formasına transformasiya edir.

Dini dirçəliş

Təxminən yüz əlli il bundan əvvəl, ABŞ tarixində yeganə vətəndaş müharibəsinin sonunda Prezident Avraam Linkoln bu qənaətə gəlmişdi ki, din müharibənin parçaladığı milləti yenidən birləşdirməyə qadir olan çox mühüm amildir. Linkoln 1865-ci il martın 4-də, ikinci dəfə andiçmə mərasimindəki nitqində demişdir ki, bütün amerikalılar bir Tanriya dua edir və hətta başa düşülməsində fikir ayrılıqları olsa belə, bir Bibliyanı oxuyurlar. Bu etiqad birliyi Amerika xalqına mü-

haribənin vurduğu yaraları zaman keçdikcə sağaltmaqda və əvvəlki birliyi bərpa etməkdə kömək göstərəcəkdir.

Kommunist fövqəldövlətinin süqut etməsi təkcə siyasi və iqtisadi xarakterli problemlər deyil, həm də xeyli dərəcədə sosiomədəni xarakterli problemlər doğurdu. Avrasiya kontinentinin ucsuz-bucaqsız məkanında qeyri-sabit, təhlükəli və tam formalaşmamış siyasi orqanizmlər qövsü yarandı. Bu cəmiyyətlərə qəflətən kənardan gətirilmiş plüralizm bir tərəfdən, əldə edilmiş azadlığın, digər tərəfdən, cəmiyyətin inkişafının yeni, o qədər də ənənəvi olmayan dəyərlər oriyentirini müəyyənləşdirmək cəhdinin doğurduğu ideoloji narazılığa səbəb oldu. Postsovet məkanındakı dövlətlərin çoxunda mənəvi irsin qaynaqlarına qayıtmaq meyli təzahür edirdi, bu isə dini ibadət yerlərinin sayının artmasına gətirib çıxarır, dini orta və ali məktəblər açılırdı. Ateist kommunist sisteminin süqutu ilə əlaqədar yaranmış boşluq sürətlə Tanrıya, Yaradana, Allaha və s. etiqadla dolmağa başladı.

"Dini dircəliş" (religion revival) konsepti hələ XX əsrin axırlarında çox geniş yayılmışdı və indi artıq elmi dövriyyəyə möhkəm daxil olmuşdur. Aparıcı sosioloqlar[1] tərəfindən bu terminin dırnaqsız işlədilməsi və onun sosioloji lüğətlərə[2] daxil edilməsi də bunu göstərir. Bununla belə, L.N.Mitroxinin qeyd etdiyi kimi, bu anlayış elə istilahlar sırasına daxildir ki, müasir dini vəziyyətin təhlilində çox böyük əhəmiyyəti olmasına baxmayaraq, onlar hələ də iradi şəkildə şərh edilir[3]. Buna görə də bizə belə gəlir ki, müasir dinşünas-

[1] Г.П.Осипов. Православная церковь в жизни российского общества // Россия. Духовное возрождение. М., 1999, стр. 9-10.

[2] С.А.Кравченко. Социологический энциклопедический англо-русский словарь. М., РУССО, 2002, стр.407.

[3] Л.Н.Митрохин. О религии, атеизме и православии. http://religare.ru /article1062.htm

lığın ən mühüm vəzifələrindən biri müvafiq konseptual konstruksiyaları elmi cəhətdən əsaslandırmaq və dəqiqləşdirmək məqsədi ilə onları təhlil etməkdən ibarət olmalıdır.

"Dini dirçəliş" anlayışının tərifinə görə o, "dünyəviləşmə prosesinin əksi" olan proses deməkdir. Ona görə də bu hadisənin nəzəri təhlilini dünyəviləşmə fenomeninin mahiyyətinə və məzmununa müraciət etməkdən başlamaq məqsədəuyğundur.

Dünyəviləşmə prosesinin iki əsas ölçüsü var: 1) mədəniyyətdə və ictimai həyatda dünyəviliyin artması; 2) bunların hər ikisində dini cəhətin azalması. Dünyəviləşmənin bu aspektləri heç də həmişə düz mütənasib asılılıq münasibətləri ilə əlaqədar olmur və bu, XX əsr Qərb sosiologiyasında dünyəviləşmənin ziddiyyətli izahlarında öz əksini tapmışdır. Belə ki, aparıcı din tədqiqatçılarının bir qismi dünyəviləşmənin inkişafını, ilk növbədə, dinin cəmiyyətə və insana bəxş etdiyi müsbət, konstruktiv dəyərlərin itirilməsi ilə əlaqələndirir (P.Berger), digərləri isə (O'Di) əksinə, onun konstruktiv cəhətini – rasional təfəkkürün, elmin, texnikanın, təhsilin, siyasi demokratiyanın inkişafı və s. vurğulayırdılar. Buna müvafiq olaraq, birinci halda mədəniyyətdə dini başlanğıcın deqradasiyaya uğraması, ikinci halda isə mədəniyyətdə dünyəvi başlanğıcın inkişafı qabardılırdı.

Deməli, dini dirçəliş prosesi də iki cəhətin olmasını – mədəniyyətdə və cəmiyyətdə dini aspektin "xüsusi çəkisinin" artmasını və dünyəvi cəhətin "xüsusi çəkisinin" azalmasını nəzərdə tutur. Bununla bərabər, hazırda mövcud olan dini dirçəliş layihələrinin tərəfdarları da, əleyhdarları da tez-tez deyirlər ki, bu proseslər yalnız biri digərinin hesabına baş verə bilər. Lakin müasir cəmiyyət dünyəvi mədəniyyətin

yüksək dərəcədə inkişaf etmiş versiyasının reprezentasiyasına əsaslandığı üçün dinin inkişafını çox vaxt vahiməli "yeni orta əsrlər" və hətta müasir mədəniyyətin və sivilizasiyanın tam tənəzzülü və məhv olması perspektivləri kimi qiymətləndirirlər. Buna baxmayaraq, bizə belə gəlir ki, dünyəviləşmədə olduğu kimi, dini dirçəlişin əsas aspektləri arasında da əlaqə daha mürəkkəbdir.

Bizim fikrimizcə, problemin mahiyyəti din hadisəsinin ikili, ikiqatlı xarakterindədir. Obyektiv olaraq, bu anlayışın semantikası ən azı iki mühüm, lakin müxtəlif və biri digərinə müncər edilə bilməyən məna qatını əhatə edir. Bu qatları "mənəvi" və "mədəni" qatlar adlandırmaq olar. Onlardan birincisi, "diniliyi" hansısa bir ilkin mövcudluq, həyati tələbat kimi, sosial subyektin (insanın və insan birliyinin) daxili həyatının mühüm, bəlkə də, ən mühüm sahəsi kimi, yəni A.C.Toynbinin təbirincə desək, bir növ obyektiv "çağırış" kimi təsəvvür edır. İkincisi isə, "çağırışa" sosial "cavab" verilməsini, yəni insan həyatının həmin tələbatının və həmin cəhətinin subyektin şüurunda və fəaliyyətində əks olunmasını, onun dərk edilməsini və müəyyən rəmzi, dəyər və tənzimləyici davranış formalarında təşkilini nəzərdə tutur. Dinin bu moduslarının fərqlərinin dünyəvi sekulyar diskursda (elmi diskurs da daxil olmaqla) kifayət qədər dərk edilməməsi onun məna aspektlərinin qarışdırılmasına və xaotikləşdirilməsinə gətirib çıxarır, bu isə törəmə anlayışların, o cümlədən "dünyəviləşmə" və "dini dirçəliş" anlayışlarının dolaşıq olmasının və müxtəlif cür başa düşülməsinin əsas səbəbidir.

Bu vəziyyət nəzərə alınmaqla, mədəni sistemlərin dünyəvi və dini tipləri bir-birindən prinsipial şəkildə fərqlənir və mədəniyyətin zahiri səviyyəsində bir-birindən "aralanır",

lakin onların mənəvi mahiyyətinin gizli, daxili, məna modusu mədəniyyətin qanunauyğunluqlarına tabe olmur. Hər bir mədəniyyətin real həyatında dini intensiyalar bu və ya digər şəkildə mövcuddur. Lakin bizim fikrimizcə, prinsipial məqam ondan ibarətdir ki, bu intensiyalar onlara uyğun olan konseptual-rəmzi formada dərk edilə bilər, yaxud bu cür formalar çatışmadığına görə, mədəniyyətin reprezentativ ölçüsündə onun "həyat aləminin" kənarına "sıxışdırıla bilər". Onlar ictimai şüurda özünün müvafiq ekvivalentini tapdıqda, bunun nəticəsi kimi, müəyyən həddə qədər insan tərəfindən tənzimlənə bilər. İctimai şüurun periferiyasında fakt kimi mövcud olduqda isə, onlar ictimai şüurun nəzarət sahəsindən çıxan kortəbii qeyri-şüuri mental qurumlara çevrilir və əksinə, özləri ictimai şüura hakim kəsilir.

Nəticədə insanın daxili mənəvi həyatının mövcud dini impulsları ictimai şüur tərəfindən hansı dərəcədə qavranılsa, dərk olunsa, ifadə edilsə və onlara müvafiq mədəni-rəmzi formalarda legitimləşdirilsə, dini dirçəliş də həmin dərəcədə mümkündür. Əgər bu problem həll edilməmiş qalarsa, mənəvi qaynaqlara qayıtmağın bütün mövcud yolları və üsulları ən yaxşı halda dini həyatın cəmiyyətdə imitasiyasına gətirib çıxaracaq, o da, gec-tez özünün mənasızlığını göstərəcəkdir.

Dini dəyişikliklər "üçüncü demokratik dalğa"nın tərkib hissəsi, bəzən də əsas aspekti olmuşdur. Buna görə də SSRİ-nin dağıldığı dövrdə və xalq azadlıq hərəkatları proseslərində din bilavasitə iştirak etməsə də, postkommunizm dövründə din əhalinin çox hissəsinin şüurunu sürətlə cəlb edir.

"Üçüncü demokratik dalğa" dövrünü yaşamış dövlətlərin çoxunda avtoritar və totalitar rejimlərin devrilməsində və demokratik idarəetmə üsulunun bərqərar olmasında din mühüm rol oynamışdır. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, İkinci

Vatikan məclisindən sonra kilsənin mövqeyinin dəyişməsi bu prosesə ciddi təsir göstərmişdir. Məsələn, "kilsənin aşağıdan siyasiləşdirilməsi"nin baş verdiyi Polşada və Çilidə dini qrupların fəal rolunu müşahidə etmək olardı[1]. Ötən əsrin 60-70-ci illərində Braziliyanın hər yerində xalq "aşağı kilsə icmaları" geniş yayılmışdı. 1974-cü ildə bu icmalar təxminən 40.000 nəfəri əhatə edirdi və Braziliya kilsəsinin xarakterini tamamilə dəyişmişdi. Həmin vaxtda Filippində keşişlərin və yerli fəalların daxil olduğu "sol xristianlar" hərəkatı genişlənmişdi. 1971-ci ildə İspaniyanın Madrid şəhərində yepiskopların və din xadimlərinin nadir assambleyası çağırılmışdı. Bu assambleya "söz azadlığı, ittifaqlar və təşkilatlar yaratmaq azadlığı, yığıncaqlar keçirmək azadlığı hüquqlarının – Franko rejimi dövründə həyata keçirilməsi həmişə çox məhdudlaşdırılmış bütün hüquqların" müdafiəsi barədə qətnamə qəbul etməklə, İspaniya xalqına "demokratiya dərsi" verdi. Roma Papası II İoann Pavel Çilidə olarkən Pinoçetə qarşı çıxış etmiş və demokratiyaya özünün münasibətini belə ifadə etmişdi: "Mən demokratiya təbliğ etmirəm; Mən İncili təbliğ edirəm. Əlbəttə, İncildə yazılanlar insan hüquqları ilə əlaqədar bütün problemlərə toxunur; və əgər demokratiya insan hüquqları deməkdirsə, onda kilsənin müraciəti demokratiyaya da aiddir"[2]. Açıq-aşkar siyasi addım atmış və konstitusiyaya yenidən baxılmasının zəruriliyini birbaşa təsdiq etmiş kardinal Kimin cəsarəti isə Cənubi Koreyanın demokratik dövlətlər sırasına qoşulmasına imkan vermişdir.

Bəşəriyyət xatırlayır ki, tarix boyu dindən dəfələrlə siyasi təzyiq və hərbi müdaxilə vasitəsi kimi istifadə edilmişdir. Bəşəriyyət Ərəb Xilafətinin sərhədlərinin Əndəlisə qədər ge-

[1] С.Хантингтон. Третья волна, стр.92.

[2] Yenə orada.

nişlənməsini də, Qüdsün "azad edilməsi" məqsədi ilə keçirilən səlib yürüşlərini də xatırlayır. Dünya tarixinin səhifələrini vərəqləsək, məsələn, əfsanəvi Səlahəddinin ingilis kralı Aslanürəkli Riçarda qətiyyətlə müqavimət göstərməsini görərik. Müasir dünyada isə biz çox vaxt dinin yanlış yozulmasının və düzgün başa düşülməməsinin, bəzən ondan terrorizmə və zorakılığa haqq qazandırmaq məqsədi ilə istifadə edilməsinin şahidi oluruq. Lakin din insanları bir-birinə yaxınlaşdırmağa, tolerantlığa, ümumbəşəri və ümumsivilizasiya inkişafı üçün əlverişli zəmin yaratmağa yönəldilməlidir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev deyirdi: "Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada terrorizmin formalaşmasına xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən məhv etməyə can atmalıyıq.

Bu gün terrorizm bir çox hallarda din pərdəsi altında, dini libasda özünü büruzə verir. Bu, bizi onun əsl mahiyyətindən yayındırmamalıdır"[1].

Din demokratik cəmiyyətin həyati əhəmiyyəti olan təsisatıdır. Buna görə də cəmiyyətdə demokratik dəyərlər və ənənələr inkişaf etdikcə, fərdin həyatında dinin yeri və rolu əhəmiyyətli dərəcədə dəyişir. İndən belə böyük "buraxıcılıq" qabiliyyətinə malik olan, sərt dövlət tənzimlənməsinin və ya qadağaların total və ya avtoritar mexanizmləri ilə məhdudlaşdırılmayan din öz qaydalarını və ideallarını təbliğ etmək üçün geniş imkanlara malikdir. Uzun illər boyu mənəvi

[1] "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransın açılışında nitqdən. "Azərbaycan" qəzeti, 11 oktyabr 2002-ci il.

boşluq yaranmış posttotalitar cəmiyyətdən ötrü bu cür azadlıq – təkcə insanın daxili aləmi ilə bağlı olan mənəvi problemlərin deyil, qarşıya çıxan çoxlu problemlərin əlacı kimi təsəvvür edilirdi. Tranzitar cəmiyyətlərə xas olan sosial-iqtisadi çətinliklər daxili ilham yolları axtarışına çevrilir, fərd onun qarşılaşdığı problemlərə cavab tapmağa çalışır. O, öz milli "Mən"inin formasını sosial baxımdan institusionallaşdırılmamış və tam formalaşmamış, lakin radikal siyasi formalar ala bilən etiqadda, dində və başqa dəyərlərdə tapmağa çalışır. Buna görə də tranzitar cəmiyyətin hansı inkişaf modelini seçməsindən asılı olaraq, milli identiklik və modernləşdirmə layihəsi formalaşır.

Sovet dövründə öyrənilməsi və təbliğ edilməsi marksist-leninçi təlim və elmi ateizm ilə əvəz edilmiş din Azərbaycan müstəqillik əldə etdikdən sonra insanların şüuruna yol tapmağa başladı. Bu, tamamilə təbii haldır, çünki əvvələn, mənəvi dəyərlərə tarixi qayıdış baş verirdi, ikincisi, ictimai şüurun mənəvi-əxlaqi tərəfinin yeni davranış normalarına və ənənələrə ehtiyacı var idi. Sovet dövründə din ictimai şüurun mühüm seqmentlərindən birinə çevrilə bilməzdi. Rusiya Xalq Komissarları Sovetinin 1918-ci il 23 yanvar tarixli məlum dekretinə əsasən müəyyən edilmişdi ki, "kilsə dövlətdən ayrılır. Məktəb kilsədən ayrılır". Bu sənəd sovet hakimiyyətinin dinə münasibətini müəyyən edən əsas akt oldu. "Könüllü surətdə" müttəfiqlər olmuş bütün başqa respublikalarda da buna oxşar dekretlər qəbul edildi. 1920-ci il mayın 15-də Azərbaycan İnqilab Komitəsinin "Vicdan azadlığı haqqında" dekreti qəbul edildi. Həmin dekretdə deyilir ki, "bütün dövlət məktəblərində və özəl məktəblərdə dini maarifləndirmə işinin aparılması və hər cür dini ayinlərin icrası qadağan edilir... Dini işlərə görə cavabdeh olan nazirlik tamamilə ləğv olunur. Din dövlətdən ayrılır".

Sovet İttifaqı Kommunist Partiyasının proqramına sovet adamlarının ateizm tərbiyəsi haqqında müddəa daxil edilmişdi. Ateist dövlət kilsəyə qarşı planlı şəkildə mübarizə aparırdı.

Sovet İttifaqının rəhbərliyi özünün dinə münasibətini yalnız ölkənin varlığı təhlükə altında olanda dəyişdi. Böyük Vətən müharibəsi dövründə dini fəaliyyətlə bağlı bəzi məhdudiyyətlər aradan qaldırıldı, birbaşa təqiblər səngidi. 1943-cü ildə Orta Asiya Müsəlmanları İdarəsi təsis olundu, elə həmin ildə Rus kilsəsinə yenidən patriarx təyin edildi. 1946-cı ildə isə mərkəz Bakıda olmaqla Zaqafqaziya Müsəlmanları İdarəsi yaradıldı.

Ateizm materialist fəlsəfi biliklərin spesifik bir sahəsi, dinin yaranması, təkamülü, fəaliyyəti və ölüb getməsi haqqında materialist fəlsəfi biliklər sistemi idi. Elmi ateizm fənninin əsas tərkib hissələrindən biri dinin ardıcıl və hərtərəfli tənqidi idi. Bu fənn dinin zəif cəhətlərini fəlsəfi, təbii-elmi, psixoloji və tarixi baxımdan araşdırırdı. Vətəndaşlara dini əxlaq əvəzinə, kommunist əxlaqını təlqin etməyə başlamışdılar[1].

Hakim ideologiya dini şüurla labüddən ziddiyyətə girirdi. Ötən əsrin 50-60-cı illərinin qovuşuğundakı kampaniyanın səbəbi də məhz bu ziddiyyətlə bağlı idi. Qəzetlər, radio və televiziya, digər kütləvi informasiya vasitələri ateizm təbliğatının gücləndirilməsinə istiqamətləndirilmişdi. Vilayət və rayon mərkəzlərinin çoxunda ateizm muzeyləri yaradılır, ali məktəblərdə elmi ateizm kafedraları açılırdı. Elmi ateizm üzrə mühazirələr kursu təkcə ali məktəblərdə deyil, ümumtəhsil məktəbinin yuxarı siniflərində də tətbiq edilirdi.

1962-ci ilin əvvəllərində qanunvericiliyə də xüsusi dəyişikliklər edilmişdi. İbadət evlərinin açılması məhdudlaşdırı-

[1] Kommunizm qurucusunun əxlaq kodeksi.

lırdı. İbadət obyektlərini asanlıqla bağlamaq olardı. Din xadimləri dini icmaların maliyyəsinə nəzarət etmək hüququndan məhrum edilmişdi, onlar icmaların praktik fəaliyyətinə rəhbərlik edə bilmirdilər. Dini icmalardan tutulan dövlət vergiləri 80 faizə çatırdı.

Lakin SSRİ-nin dağılması ərəfəsində dinə münasibət yeni xarakter almağa başlamışdı. Aşkarlıq və "yenidənqurma" dini etiqad məsələlərinə demokratik yanaşma gətirirdi, bu isə dini dirçəlişin başlanğıc mərhələsinə gətirib çıxardı. Cəmiyyətin həyatında ruhani idarəsinin rolu, ruhani liderin yeri və əhəmiyyəti dəyişir, yeni bayramlar və dinlə bağlı əlamətdar hadisələr get-gedə daha fəal və daha təntənəli şəkildə qeyd edilirdi. Dini yönümlü ictimai təşkilatlarla yanaşı, Azərbaycan İslam Partiyası kimi siyasi təşkilatlar da yaranmağa başlamışdı. Din tədricən kütləvi şüurda müəyyən davranış oriyentiri rolunda çıxış etməyə başlayırdı. Üstəlik, bu və ya digər dinə bağlılıqla və ya dini mərasimləri fəal icra etməklə vətəndaşların ümumi kütləsindən fərqlənmək dəbə çevrilirdi. İdentikliyin bir forması olan bu vəziyyət postkommunist fərdlərini yer üzündə öz missiyasını dərk edən dindar adam kimi səciyyələndirirdi.

Azərbaycanda ictimai şüurun demokratikləşməsi müxtəlif missioner və təriqətçi qruplarının ölkə ərazisinə geniş miqyasda gəlməsinə şərait yaratmışdı. Əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan dövlətdə "Həyat verən nemət" Ümumdünya Kilsəsi, "7-ci gününün presviterianları", "pyatidesyatniklər sektası", "İyeqova şahidləri" cəmiyyəti, "Gideon qardaşlığı", "İxtus" kilsəsi geniş fəaliyyətə başlamışdı.

Təbii ki, hər bir dini təlimin əsasını təşkil edən humanizm, xeyirxahlıq və şəfqət ideyalarının yayılması müsbət amildir, lakin dini baxışlar ölkənin strateji inkişaf xəttinin dəyişdiril-

məsi, dini baxışların kütləvi şəkildə başqa istiqamətə yönəldilməsi, əhalinin geniş təbəqələrinə dini qaydalar vasitəsilə psixoloji təsir göstərmək məqsədi ilə istifadə edilə bilməz və edilməməlidir. 1990-cı illərin ortalarında bir belə halları müşahidə etmişik. O vaxt Azərbaycanda təriqətçilərin moizələrində minlərlə soydaşımızın dini etiqadlarını "vəhşi", "totalitar" və "şeytan" əqidələri adlandıraraq, onların heysiyyətinin təhqir edilməsi, təriqətçiliyə yenicə üz tutan gəncləri öz soydaşları olan müsəlmanlardan üstün tutmaq, "xristian olmayanlarla" ünsiyyətdən çəkinmək, ölkənin ictimai-siyasi həyatına biganə münasibət tərbiyə edilməsi və s. kimi hallar yayılmışdı.

Təəssüflə deməliyik ki, SSRİ-nin dağılması siyasi və iqtisadi problemlər doğurmaqla yanaşı, Azərbaycanın intellektual və elmi ziyalılarının marginallaşmasına da səbəb olmuş, nəticədə dini konseptlər bu mühitdə yaranmış boşluqdan istifadə edərək, milli mənlik şüuruna uğurla və ən başlıcası, dərk olunmadan transformasiya etməyə başlamışdı. Postsovet məkanının ucdantutma ideologiyasızlaşmasına baxmayaraq, Azərbaycan cəmiyyəti milli identiklik formaları axtarışında idi. Dövlətçiliyin yenicə yaranmaqda olduğu şəraitdə bu formanı tapmaq çox mürəkkəb proses idi. Cəmiyyətin elmi və intellektual həyatının avanqardı kimi çıxış etməli olan ziyalılara məhəl qoyulmaması cəmiyyətin həyatında dinin rolunun artmasına təhrik edirdi. Din təhtəlşüur səviyyəsində ilkin kapital yığımı və sosial ədalətsizlik dövründə amortizasiyaedici amil kimi çıxış etməyə çalışırdı. İdentikliyin, mahiyyətin, qanunçuluğun, inkişafın, qüdrətin və ümidin mənbəyi kimi dinə müraciət edilməsi "Yaradana inam bütün müşküllərin açarıdır" şüarı ilə ifadə olunurdu. Bir fakt təəccüb doğururdu ki, o vaxta qədər dinə meyillərin güclü olması ilə fərqlənməyən bir cəmiyyətdə din üstün mövqe tutmağa başlamışdı. Azərbaycan cəmiyyətinin bir hissəsi isla-

mın mahiyyətini və əsas konseptlərini tam anlamadığı halda, özünü ənənəvi müsəlman mədəniyyəti ilə eyniləşdirməyə çalışırdı. Oxşar vəziyyəti pravoslavlığın ictimai-siyasi həyatın mühüm aspektinə çevrildiyi Rusiyada da müşahidə etmək olardı. Bu halda, patriarx ictimai inkişafın mühüm tənzimləyici qüvvəsi kimi çıxış edir. Təbii ki, İslamda ruhani liderin rolu xristianlıqdakından tamamilə fərqlidir. Lakin Azərbaycandakı vəziyyət – fərdin din vasitəsilə eyniləşdirilməsinin üsul və yollarının seçiminin özü milli məkanda islam intibahı problemini aktuallaşdırmışdı. İslamın qlobal dirçəliş prosesi Azərbaycana birbaşa təsir göstərmişdir. S.Hantinqton haqlı olaraq yazır: "İslamın dirçəlişi hər bir ölkədəki müsəlmanlara və müsəlman ölkələrinin çoxunda ictimai və siyasi həyatın əksər cəhətlərinə təsir göstərmişdir"[1].

Təbii ki, 1990-cı illərin birinci yarısında transformasiya dövrü yaşayan Azərbaycanda mənəvi qaynaqlara qayıdış xeyli dərəcədə birdən-birə əldə edilmiş azadlığın və ideologiyasızlaşmış məkanın boşluğunun təsiri altında baş verirdi. Müxtəlif dini qavrama modellərinin müəllifləri bu boşluqdan istifadə etməyə səmərəsiz cəhdlər göstərirdilər. 1992-ci ildən etibarən Azərbaycanda milli model roluna iddia edən bir neçə konfessional modelin bərqərar olmasına cəhd edilmişdi. Bunlar İran, Səudiyyə Ərəbistanı, Türkiyə və nisbətən az dərəcədə Rusiya modelləri idi. Bu modellərin hər biri əhalinin dini hisslərinə təsir göstərməklə müvafiq modelin müəllifi olan dövlətin geosiyasi təsirini gücləndirməyə çalışırdı. Belə ki, İran və Səudiyyə Ərəbistanı modelləri Azərbaycan cəmiyyətini İslamın şiəlik və vəhhabilik cərəyanları üzrə parçalamaq iddiasında idi və onların bu cəhdləri indi də davam edir. Bu teokratik dövlətlərin hər ikisi Azərbaycanın geostrateji

[1] С.Хантингтон. Третья волна, стр.163.

əhəmiyyətini başa düşərək, din vasitəsilə siyasətə təsir etməyə çalışır. Liberal və ya "maarifçi" islam adlanan Türkiyə modeli dini siyasi məqsədlərə nail olmaq vasitəsinə çevirmədən yalnız cəmiyyətin mənəvi-əxlaqi komponentini yüksəltməyə yönəlmişdir. İslamın Rusiya modeli son illərdə, regional miqyasda və dünya səhnəsində Rusiyanın geosiyasi təsirinin gücləndiyi şəraitdə yaranır. Bu və ya digər variasiyada təqdim olunan həmin modellərin hər biri milli sosiomədəni məkanda möhkəm qərar tutmağa çalışır.

S.Hantinqton böyük hay-küyə səbəb olmuş "Sivilizasiyaların toqquşması" kitabında səudiyyəli bir məmurun aşağıdakı sözlərini sitat gətirir: "Xarici ölkələrdən idxal gözqamaşdırıcı yüksək texnologiyalara əsaslanan "şeylər" kimi çox yaxşıdır. Lakin ölkəyə haradan gətirilməsindən asılı olmayaraq, hissedilməz ictimai və siyasi təsisatlar ölüm saça bilər – inanmırsınızsa, İran şahından soruşun ... İslam təkcə din deyil, həm də həyat tərzidir. Biz səudiyyəlilər modernləşmək istəyirik, lakin hökmən qərbləşmək istəmirik"[1]. Daha sonra müəllif yazır: "İslamın dirçəlişi müsəlmanların öz məqsədlərinə çatmaq cəhdidir. Bu, bütün islam dünyasını əhatə edən geniş intellektual, mədəni, sosial və siyasi hərəkatdır... İslamın dirçəlməsi ekstremizm deyil, əsas istiqamətdir, təcrid olunmuş yox, hər şeyi əhatə edən prosesdir". Beləliklə, transformasiya cəmiyyətlərində, o cümlədən Azərbaycanda dini dirçəlişə təkcə fərdlərə geniş azadlıq gətirmiş "üçüncü demokratik dalğa" kontekstindən deyil, həm də Şərqdə islam ideyalarının, islam adətlərinin, ritorikanın dirçəlməsinin qlobal və hərtərəfli prosesi, Qərbdə plüralist dünyagörüşünün genişlənməsi baxımından yanaşılmalıdır.

[1] С.Хантингтон. Столкновение цивилизаций, стр.163.

Sirr deyildir ki, *La revanche de Dieu*[1] ötən əsrin axırlarından başlayaraq, dünyada qlobal fenomendir. Geosiyasi konseptlər kimi dinlər müxtəlif yollarla öz təsir dairəsini genişləndirməyə çalışır. Xristianlıq getdikcə daha çox Şərqə, islam isə Qərbə səmtlənir. Bütövlükdə, hər bir din bu cəmiyyətlərdə yeni dini dirçəlişə kömək edir. Özü də bu, təkcə mənəvi dirçəliş deyil, o, çox vaxt kənardan gətirilən mənəvi-əxlaqi və mədəni modellərin qəbul edilməməsinin amortizasiya effekti nəticəsində baş verir. Şərq qərbləşməyə müqavimət göstərməyə çalışır, Qərb isə, daha doğrusu, Avropa Aİ ölkələrində islamın genişlənməsinə mane olmaq üçün yollar axtarır. Bu halda biz Avropa plüralizmi və tolerantlığı haqqında nə qədər danışsaq da, şübhə yoxdur ki, müsəlmanların sayının artması Avropanı əməlli-başlı narahat edir. Eynilə müsəlman dövlətləri də bu cəmiyyətlərə gizli şəkildə və mərhələlərlə nüfuz edən Avropa kütləvi mədəniyyətindən və demokratiyasından müdafiə olunmağa çalışır. Türkiyənin Aİ-yə qəbul edilməsi məsələsi indiyədək bir sıra təhlilçilər üçün aqrar baxımdan çox inkişaf etmiş bu ölkənin siyasi cəhətdən hazır olmaması və ya iqtisadi cəhətdən geridə qalması kimi başa düşülmür. Türkiyənin Aİ-yə üzvlüyünün düyünə düşməsinin əsas səbəbi ondan ibarətdir ki, dini təlimlər üzrə Konqreqasiyanın keçmiş rəhbəri Kardinal Yozef Ratsinger, indiki papa XVI Benediktin "Fiqaro" qəzetinə müsahibəsində qeyd etdiyi kimi, "Avropa coğrafi qitə deyil, mədəni qitədir. Bu qitənin kökləri xristianlığın mənşəyindən başlanır. Bu mənada Türkiyə həmişə Avropaya düşmən region olmuşdur". Daha sonra: "Tarixi və mədəni baxımdan Avropa ilə Türkiyə arasında ortaq cəhətlər çox azdır. Buna görə də onu Aİ-yə qəbul etmək böyük səhv olardı".

[1] Dini dirçəliş (fransızca).

Ümumdünya inteqrasiyasının mühüm tərkib hissəsinə çevrilmiş qərbləşmə dini dirçəlişin yeni forma və cizgilərini təqdim etmişdir. Mahiyyət etibarilə qərbləşmə prosesi qeyri-qərb cəmiyyətlərini seçim problemi qarşısında qoymuşdur. A.Toynbi yazır: "Qəti və birdəfəlik qərbləşmə, ya da tam məhv olmaq arasında labüd seçim etmək kimi kəskin problem yaranmışdır"[1]. Bu proses xeyli dərəcədə bir neçə amillə bağlı idi. Həmin amilləri nəzərdən keçirməyə çalışaq.

Əvvələn, ənənəvi cəmiyyətlərdə din ictimai-siyasi həyatın mühüm komponentidir. Bununla bərabər, tədricən qərbləşmə və modernləşmə dini baxışların rolunu dəyişir, bu isə ənənəvi sosial qrupların birləşməsini gücləndirir və ənənəvi qruplarla modernizator qruplar arasında dəyərlərin münaqişəsinə səbəb olur. Beləliklə, sənayeləşdirmə dövrünün əvəzedilən dəyərləri ənənəvi dəyərlərin sürətlə dirçəlməsinə və qərbləşmə layihəsinin amortizasiyasına səbəb olur.

İkincisi, sənayeləşdirmə dəyərlərini əvəz edən postindustrial dəyərlər dinin yerini modifikasiya edir. Din hər şeydən əlavə, texnoloji irəliləyişə, nano-texnologiyaların inkişafına və klonlaşdırmaya özünəməxsus bir cavab kimi mənəviyyatın bərpa olunması tezisini irəli sürür; din "mərasimlərdən məhrum olmuş cəmiyyətdə ritual mənbəyinə və beləliklə, bütün insanlara anadangəlmə xas olan sosial birliyə təbii meylin məntiqi inkişafına çevrilir"[2].

Üçüncüsü, qərbləşmə və ümumiyyətlə, qlobal dünya nizamı dini birgəyaşayışın tərkib hissəsinə çevirir. F.Fukuyama haqlı olaraq yazır: "Çox ehtimal ki, dindarlığa qayıdış daha incə, mərkəzsizləşdirilmiş forma alacaq, bu halda dini etiqad

[1] А.Дж.Тойнби. Цивилизация перед судом истории. М., СПб., Прогресс, Традиция, Ювеста, 1995, стр.164.

[2] Ф.Фукуяма. Великий разрыв, стр.379.

ehkamlara sadiqlikdən daha çox, cəmiyyətdəki mövcud norma və istəklərin köməyi ilə qayda yaratmağa çalışmaq demək olacaqdır. Bəzi məsələlərdə bu meyillər ABŞ-ın bir sıra bölgələrində artıq özünü göstərməkdədir. Ciddi etiqadın əlavə məhsulu kimi yaranan birlik əvəzinə, birliyin bir hissəsinə çevrilmək istəyən insanlar buna üz tutacaqlar. Başqa sözlə desək, insanlar dini ənənələrə hökmən vəhy həqiqəti ilə razılaşdıqları üçün deyil, məhz ona görə qayıdacaqlar ki, birliyin olmaması və bu dünyada sosial əlaqələrin ötəriliyi onları dini və mədəni ənənələrə nail olmaq istəyinə məcbur edir"[1].

Dördüncüsü, XXI əsrin əvvəlində din qlobal siyasətin tərkib hissəsinə çevrilmiş, "sivilizasiyaların toqquşması" nəzəriyyəsi ətrafında diskussiyalara geniş meydan açmışdır. Daha konkret desək, yeni minilliyin əvvəlində "üçüncü demokratik dalğa" istibdad və ekstremizm üzərinə qlobal yürüşə çevrilmişdir. ABŞ Prezidenti C.Buş (oğul) bununla əlaqədar demişdir: "Bu müharibə çox çətin olacaq, bu müharibə uzun sürəcək, lakin o, terrorçuların və totalitarların məğlubiyyəti və azadlığın tam qələbəsi ilə başa çatacaqdır". "Terrorçular" və "totalitarlar" dedikdə, "Əl-Qaidə" təşkilatı ilə əlaqəsi olan radikal sünnilər və "Hizbullah" kimi silahlı şiə təşkilatları nəzərdə tutulurdu. Bununla bərabər, ABŞ Prezidenti Amerikanın islamçılara qarşı apardığı müharibəni XX əsrdə onun nasistlərə və kommunistlərə qarşı apardığı müharibə ilə müqayisə etmişdir[2]. Təəssüflə deməliyik ki, islama bu cür münasibət, ümumiyyətlə, xristian dünyasının müsəlman aləminə tarixi münasibətindən irəli gəlir. Qərbin tolerantlıq və dini dözümlülük barədə bəyanatlarına baxmayaraq, "İlahi komediya"nın müəllifi Dante Aligeri müsəl-

[1] Ф.Фукуяма. Великий разрыв, стр.378.

[2] www.vz.ru //01.09.2006: Buş islamçıları və nasistləri müqayisə etmişdir.

manların Peyğəmbərini cəhənnəmin səkkizinci dövrəsində doqquzuncu xəndəkdə təsvir edir[1]. O vaxtdan dörd əsr keçəndən sonra isə fransız maarifçisi Volter "Fanatizm və ya Məhəmməd peyğəmbər" adlı mənzum pyes yazır, islam dininin banisini masqaraya qoyur, onu müxtəlif günahlarda təqsirləndirir. Nəhayət, bu yaxınlarda Danimarkada Məhəmməd Peyğəmbərə karikaturaların dərc edilməsi müsəlman aləmində son dərəcə hiddət doğurmuşdu. Diqqəti çəkən odur ki, "Jyllands-Posten" jurnalında dərc edilmiş karikaturalar sonradan Avropa dövlətlərinin əksəriyyətində – Norveç, İsveç, Polşa, Almaniya, Böyük Britaniya, Bolqarıstan, Fransa, İsveçrə, İspaniya, Avstriya, Çexiya, Sloveniya, Macarıstan və digərlərində təkrar nəşr olunmuşdur. Bununla əlaqədar isə Suriyada, Türkiyədə, İranda, Əfqanıstanda, Pakistanda, Hindistanda, Banqladeşdə və hətta Somalidə iğtişaşlar, talanlar baş vermişdi. Etnik və dini zəmində qarşıdurmaya gətirib çıxaran bu cür hadisələri "söz azadlığı" adlandırmaq çətindir, xüsusən də əgər sən daha təhlükəsiz dünya nizamı yaratmaqdan dəm vurursansa. Axı, burada onlarca, yüzlərcə deyil, bəzən minlərlə insanın taleyindən söhbət gedir…

Məlumdur ki, 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra islama münasibət yalnız dünya dinlərindən birinə münasibət çərçivəsindən kənara çıxmışdır. Yeni dünya nizamında müsəlmanlar və islam barədə geosiyasi və geoiqtisadi amillər kimi bəhs edilir.

"Üçüncü demokratik dalğa" Şərqə doğru "hücum aksiyalarını" legitimləşdirmiş, neodemokratiyalar qurulmasında onlara hüquqi əsaslandırma vermişdir. Lap çox tezliklə məlum olmuşdur ki, məsələn, Russonun və Monteskyönün ideal döv-

[1] "Ад" XXVIII, стр. 28-31, перевод М.Лозинского.

lət və demokratiya barədə baxışları bu kontekstdə yalnız yeni transformasiyaları ört-basdır edən pərdədən başqa bir şey deyildir. Geoiqtisadiyyat, daha dəqiq desək, neft ehtiyatları yeni "demokratik dalğanın" ən əhəmiyyətli komponentidir.

Beşincisi, informasiya-kommunikasiya texnologiyalarının rolunun artması və "CNN effekti" fenomeninin yaranması sayəsində dini dirçəliş yer kürəsinin bütün guşələrində daha çox hiss olunmağa başlamışdır. Dünya məkanının qloballaşması nəticəsində indi praktik olaraq hər bir informasiyadan istifadə etmək mümkündür. İnformasiya sahəsinin demokratikləşməsi ilə informasiyanın yayılması üsulları və metodları məhdudlaşdırılmadan bütün tərəflər üçün bərabər şərait yaranmışdır. "Dünyaların münaqişəsi" və ya S.Hantinqtonun təbirincə desək, "sivilizasiyaların toqquşması" xristianlıq ilə islam arasında açıq informasiya qarşıdurması fonunda get-gedə şiddətlənir və bu, 11 sentyabr hadisələrindən sonra yeni çalarlar almışdır. Ben Ladenin və əl-Zərkavinin xristian dünyasına islam dinini qəbul etmək çağırışları və Qərbin Şərqdə apardığı ekspansionist siyasət dini qarşıdurma forması alır. Bu cür geosiyasət sosial baxımdan geniş əhatəli müddəaları olan islamın cəlbediciliyinin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmışdır. Üstəlik, Qərbin kütləvi informasiya vasitələrinin islama daim təzyiq göstərməsi müəyyən mənada əks-təsir doğurmuş, Avropa cəmiyyətində müsəlmanlığa maraq oyatmışdır. İslamın cəlbedici cəhəti ondan ibarətdir ki, o, ailənin, icmanın və bütün dünyada müsəlman qardaşlığının önəmliliyini bəyan edir, real sosial birliyi nümayiş etdirir. Qeyri-rəsmi statistik məlumatlara görə, ABŞ-da hər il 20 min nəfər islam dinini qəbul edir. 2002-ci ildə Fransada 100 min nəfər, Böyük Britaniyada isə 50 min nəfər islamı qəbul etmişdir. 1950-2000-ci illərdə Avropa əhalisinin tərkibində müsəlmanlar 1 faizdən 3 faizə

çatmışdır, onların mütləq sayı isə 14 milyondan 20 milyona qədərdir. Bəzi ekspertlərin fərziyyəsinə görə, 2050-ci ilə qədər Avropa sakinlərinin hər üç nəfərindən biri, hətta ola bilsin ki, hər iki nəfərindən biri müsəlman olacaqdır.

Altıncısı, dini dirçəlişin genişlənməsinə dünya əhalisinin əksəriyyətinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsi, "effektivlik çempionları"nın ümdə sosial-iqtisadi problemləri həll edə bilməməsi, totalitar siyasi rejim, özgə cür düşünməyə görə təqib, müxalifətin sıxışdırılması və başqa amillər də kömək edir. Bütün bunlar isə son nəticədə dini ekstremizmə gətirib çıxarır.

Əhalinin "qızıl milyard" deyilən təxminən 20 faizi planetimizin sərvətlərinin, demək olar ki, 90 faizinə nəzarət etdiyi halda, yer kürəsi əhalisinin böyük əksəriyyəti güc-bəla ilə dolanır. Ekstremist ideologiyalara və əhval-ruhiyyəyə meyil doğuran sosial-iqtisadi və siyasi qeyri-bərabərliyin köklərini aşkar etmək lazımdır. Əgər əsrlər boyu yaranmış və indi artıq adi hal almış "zəngin Şimal – yoxsul Cənub" ukladında islahatlar aparılmasa, marginallar ekstremizmin və terrorizmin daimi sosial bazası olacaqdır.

Din amilindən istifadə etməklə öz siyasi məqsədlərinə çatmağa çalışan ekstremizm daha mürəkkəb və daha təhlükəlidir. Onun tərəfdaşları potensial həmfikirlərinə özlərinin ideologiyasının aşılanması prosesində təlqin edirlər ki, bu ideya "Allahdan gəlir" və deməli, həqiqi və ədalətlidir. Bu cür yanaşma ekstremizmin davamçılarında belə bir əminlik hissi yaradır ki, onlar dinin buyurduğunu həyata keçirirlər və buna görə müvafiq şəkildə mükafatlandırılacaqlar.

Yeddincisi, 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra dünya siyasətində dini qruplara münasibət kökündən dəyiş-

mişdir. İslam və onun davamçıları çox vaxt terror və terrorçularla eyniləşdirilməyə başlanmışdır. Bu isə monosentrist *Pax Americana* siyasətini qəbul etməyə və deməli, dəyərlər və ideoloji baxımdan yeni dünya nizamından və onun təklif etdiyi "azadlıq və inkişaf dəyərlərindən" kənarlaşan Şərq dövlətlərində haqlı olaraq narazılıq dalğasına səbəb olur. Belə dövlətlərin əksəriyyəti bu qarşıdurmanı "XXI əsrin ideoloji mübarizəsi" (C.Buş) deyil, geosiyasi təsir dairəsini genişləndirmək cəhdi kimi qiymətləndirir. Əks halda, hansı ideoloji mübarizədən söhbət gedə bilər ki, cəmi on il bundan əvvəl məhz Amerika hökuməti Əfqanıstanda SSRİ-yə qarşı müharibədə Üsəma ben Ladeni maliyyələşdirirdi. ABŞ-ın üç ən yaxın müttəfiqinin – Pakistan, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin molla Ömər və Üsəma ben Laden başda olmaqla taliblər rejimini tanıması faktını da başa düşmək çətindir. Bütövlükdə islama münasibətə çevrilən bu və ya digər geostrateji maraqlara yanaşmada bu cür "ikili standartlar" siyasəti, şübhəsiz ki, fundamentalist əhval-ruhiyyəli qrupların xeyrinə olmuşdur. Təsadüfi deyil ki, Harris İnteractive təşkilatı tərəfindən beş Avropa ölkəsində – Fransa, Almaniya, Böyük Britaniya, İtaliya və İspaniyada keçirilmiş rəy sorğusu çox gözlənilməz nəticələr vermişdir. Rəyi soruşulanların 30 faizi, yəni Avropa sakinlərinin təqribən hər üç nəfərindən biri ABŞ-ı dünyada sabitlik üçün təhlükə adlandırmışdır[1].

Qlobal xarakterli bütün bu amillər keçmiş İttifaqın transformasiya cəmiyyətlərindən yan keçə bilməz və təbii ki, Azərbaycanda dini dirçəlişə həm demokratik tranzitin hazırlıq fazasına, həm də sonrakı, qərarların qəbul edilməsi və demokratiyanın möhkəmlənməsi fazasına mühüm təsir göstərir.

[1] www.vz.ru

Azərbaycan əhalisinin əksəriyyəti müsəlmanlardır və ənənəvi olaraq, cəfərilər məzhəbinin (şiəliyin bir qolu) tərəfdarları sayılır. Konstitusiyanın 18-ci maddəsində deyilir:

"I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır".

Bu bəndlərdə müstəqil Azərbaycanda dünyəvi və dini başlanğıclar arasında qarşılıqlı münasibətlərin əsas xarakteri müəyyən edilmişdir. Lakin buna baxmayaraq, fərdin mənəvi-əxlaqi tərbiyəsinin mühüm aspekti olan din dövlətin dəstəyi və nəzarəti olmadan dövlətdə mövcud ola bilməz. Cəmiyyətdə din mənəvi-əxlaqi dəyərlərin rolunun artırılmasına yönəlməlidir. Din narkomaniyaya, QİÇS-ə və s. qarşı mübarizə kimi mürəkkəb sosial problemlərin həllinə müsbət təsir göstərə bilər. Üstəlik, din cəmiyyətdə mərhəmət və həmrəylik hisslərinin tərbiyə edilməsi elementi olmalıdır ki, bu da, şübhəsiz, sosial ədalətsizliyin qarşısının alınmasına kömək edir. Din eyni bir sosiumun üzvlərinin sosial birliyini yaratmaq üçün zəmin formalaşdırır, yəni, bu üzvləri birləşdirən, gələcəkdə milli "Mən"in müəyyən olunmasına kömək edən əsaslar yaranır.

Azərbaycanın müstəqillik illərində cəmiyyətdə dinin qavranılması səviyyəsi ayrı-ayrı dini ayinlərin bəsit icrasından onun mahiyyətinə və hər bir fərdin həyatında əhəmiyyətinə az və ya çox dərəcədə şüurlu yanaşma səviyyəsinə çatmışdır. Ulu Tanrıya inamın sosial əhəmiyyəti milli identikliyin müəyyən edilməsi prosesində əsas amillərdən birinə çevrilmişdir. Lakin bununla bərabər, cəmiyyətdə dinin rolunun dəyişməsi cəmiyyət üzvlərinin Azərbaycanda demokratiyaya

münasibətinin modifikasiyası ilə əlaqədar idi. Təbii ki, müsəlman dövlətlərinin əksəriyyətində müəyyən demokratikləşmə prosesi gedir və rusiyalı tədqiqatçı Aleksey Malaşenkonun "İslam alternativi və islamçı layihə" adlı əsərində yazdığı kimi, "müsəlman aləmində demokratiya haqqında get-gedə tez-tez və xüsusi kəskinliklə mübahisələr gedir. Bir tərəfdən, cəmiyyətdə başa düşürlər ki, cəmiyyətin inkişafı məhz demokratiyanın olmasından (və ya olmamasından) asılıdır. Müsəlman dünyası çoxpartiyalılıq, parlamentarizm, söz azadlığı kimi dəyərləri "mənimsəmişdir", hərçənd istər rejimlərin avtoritar xarakteri, istərsə də islam ənənələri (bu halda islamın əsasları və ortodoksal dini normativlər müzakirə edilmir) söz azadlığı üzərinə məhdudiyyətlər qoyur"[1]. Lakin bizim milli demokratikləşmənin dinlə, daha dəqiq desək, cəmiyyətin demokratikləşməsinə dinin təsiri ilə heç bir əlaqəsi yox idi, əksinə, tam vicdan azadlığının bəyan edilməsi demokratik inkişafın inikası olmuşdur. Əlbəttə, bu baxımdan amerikalı tədqiqatçılar Ronald İnqlhart və Pippa Norris ilə razılaşmamaq çətindir. Onlar bildirirlər ki, "son onillikdə, siyasi mədəniyyətdən asılı olmayaraq, demokratiya hamıya tövsiyə edilən yeganə siyasi modelə çevrilmişdir". Lakin demokratiyaya çağırış heç də həmişə demokratik dövlətlər birliyinə real tranzitin təcəssümü deyildir. Çox vaxt demokratik inkişaf haqqında bəyanatlar daxili şəffaflığın bir növ obrazını imitasiya etmək üçün yalnız şüar olaraq qalır. Məsələn, 2005-ci ildə Səudiyyə Ərəbistanında keçirilən bələdiyyə seçkiləri monarxiyanın demokratikliyini artırmadı, lakin eyni zamanda, müsəlman cəmiyyətində demokratik inkişafın zəruriliyi barədə mübahisələrin aktual olduğunu göstərdi. Qeyri-rəsmi sosial statistikaya

[1] А.Малашенко. Исламская альтернатива и исламистский проект. М., 2006, стр.143.

görə, hazırda Albaniya, Misir, Azərbaycan, İndoneziya, Mərakeş və Türkiyədə əhalinin 92-99 faizi demokratiyanı dəstəkləyir[1]. Bu, dövlətin siyasi və iqtisadi modusunu demokratik inkişaf müstəvisinə transformasiya etmək istəyinin real göstəricisidir.

Yuxarıda deyildiyi kimi, müsbət cəhətlərlə yanaşı, demokratik tranzit milli məkanda müxtəlif dini konseptləri və modelləri sınaqdan keçirmək imkanı yaratmışdır. Bu modellər arasındakı fərqlər təkcə islamın cəmiyyətdə yeri və rolu probleminə müxtəlif münasibətləri deyil, həm də ümumiyyətlə, bu modellərin müəllifləri olan dövlətlərin Azərbaycanda geostrateji maraqlarını əks etdirirdi. Dinin həm İran, həm də ərəb modelləri cəmiyyətin ictimai-siyasi həyatında islamın əhəmiyyətinin artırılmasını təklif edir. Türkiyə modeli isə yalnız sosiomədəni aspektə – fərdin davranış və həyat formasına üstünlük verir.

Biz bundan əvvəlki əsərdə[2] "liberal islamın", – onu "maarifçi islam" da adlandırırlar, – Azərbaycan üçün imkanları və məqsədəuyğun olması barədə yazmışdıq. Orada qeyd etmişdik ki, dini konsepsiyalar arasında Azərbaycan cəmiyyətinə daha yaxın olan model "maarifçi islam" modelidir. Fundamentalizmdən uzaq olan və Qərbin liberal iqtisadi nəzəriyyəsi əsasında modernləşmə təklif edən bu konsepsiya siyasi baxımdan müasir Azərbaycan üçün də uyğundur və real inkişaf perspektivinə malikdir"[3].

Qeyd etmək lazımdır ki, "liberal islam" problemi xeyli vaxtdır ki, müsəlman ilahiyyatçıları arasında ən çox müza-

[1] А.Малашенко. Исламская альтернатива и исламистский проект. М., 2006, стр.143.

[2] Р.Мехтиев. Азербайджан: вызовы глобализации. Баку, 2004, с.196.

[3] Yenə orada, səh.529.

kirə edilən məsələlərdən biridir. Bəzi alimlərin fikrincə, "islamda fərdiyyətçilik icmaçılıqdan, kollektivçilikdən zəifdir və şəxsiyyətin mənafeləri icmanın mənafelərinə tamamilə tabe edilmişdir. Liberal sapmaların əsassız olduğunu görmək üçün təkcə bu aksiom kifayətdir"[1]. Bəzi başqa alimlər, məsələn, indoneziyalı imam Əl-Dar Kunti göstərir ki, "şəriət qanunlarının əksəriyyəti demokratik cəmiyyət quruculuğuna kömək edir". Bu məsələ hələ açıq qalır və dövlət ilə din arasında qarşılıqlı münasibətlərdə teoloji və politoloji başlanğıcların ətraflı müqayisə edilməsi bu kitabın məqsədi deyildir. Təkcə onu vurğulamaq vacibdir ki, müsəlman cəmiyyətlərində yetərli ictimai inkişafın mənəvi-əxlaqi oriyentiri olan din və demokratiyanın necə yanaşı mövcud olduğunu Azərbaycan və Türkiyənin nümunəsində görə bilərik. Toronto universitetindən olan tədqiqatçı Nadir Haşimi haqlı olaraq yazır ki, cəmiyyətdə demokratiyanın olub-olmaması bilavasitə bu cəmiyyətin ənənələrindən, onun keçdiyi tarixi yoldan asılıdır. Alimin fikrincə, müsəlman aləmində isə, nə demokratik ənənələr var, nə də ənənələrin nəsildən-nəslə ötürülməsi üçün zəncir, yəni, demokratik ənənələrin daşıyıcıları olan davamlı demokratlar təbəqəsi və ya qrupu var[2].

Məhəmməd M.Şəbüstəri yazır: "Bu gün müsəlmanların öz qanunvericilik sistemində islahat aparmaq və qanunun dünyəviliyinə və humanizminə, islam ənənələrinə əsaslanmaqla demokratik dövlət yaratmaq üçün nəzəri imkanı vardır"[3]. Mərakeş parlamentinin üzvü Somayya bin Xəldun da göstərir

[1] А.Малашенко. Исламская альтернатива и исламистский проект. М., 2006, стр.141.

[2] N.Hashemi. Alexis de Tocquevilli and Democracy in Muslim Societies // İSİM Newletter, 2002, Nov., p.24.

[3] M.M.Shabestari. The Secular Nature of Law in İslam: A Basis for Democracy // Global dialogie. İslam and Democracy, 2004, vol.6, №1-2, Winter/Spring, p.54.

ki, "şəriət qanunları ədalət, bərabərlik və dini etiqad azadlığı kimi bütün ümumbəşəri dəyərləri əhatə edir".

İslam mövcud olduğu cəmiyyətləri modernləşdirməyə tamamilə qadirdir və o, liberalizm və demokratiya ilə konvergensiya şəraitində onlarla yanaşı mövcud ola bilərdi. Malayziya nümunəsi buna əyani sübutdur. Mahathir Məhəmmədin bu ölkəyə rəhbərlik etdiyi 22 ildə (1981-2003) Malayziya yüksək texnoloji məhsullar istehsalı sahəsində dünya liderləri sırasına çıxmışdır. Mahathir Məhəmmədin hakimiyyətinin əsas nailiyyətlərindən biri yəqin ki, nisbi liberalizmlə islamın uğurlu əlaqələndirilməsi hesab edilə bilər. O yazır: "İslam müasir inkişaf yolunda əngəl kimi görünürdüsə, bu onunla əlaqədardır ki, biz onu olduğu şəkildə təfsir etmirik". Onun fikrincə, Malayziya demokratiya elementlərini əxz etməklə özü üçün dəqiq aydınlaşdırmışdır ki, demokratiyanın həddi olmalıdır. İnkişaf etməkdə olan bəzi ölkələrin məhz "demokratiya limitlərinə" riayət etməyin zəruriliyini başa düşməməsi, potensial şəkildə demokratiyanın xaos doğura biləcəyini başa düşməməsi həmin ölkələrdə demokratiyanın özünün məğlubiyyətinə səbəb olur.

"Üçüncü demokratik dalğa"nı müşayiət edən və yeni-yeni məkanları əhatə edən postmodernist liberalizm islam ilə demokratiyanın yanaşı mövcud olmasını qəbul edir. Bu, mövcud liberal model nəzərə alınmaqla, islam dünyasının təfəkkürünü müəyyən dərəcədə təshih etməyə imkan yaradır. Eyni zamanda, müasir dünya müəyyən kulturoloji şok və yaxud da, başqa cür deyildiyi kimi, "dayanmış saat sindromu" prinsipi üzrə bölünür. Bu prinsip: 1) müasir cəmiyyətdə yaşayan rasional düşüncəli Qərb vətəndaşlarının və 2) Şərqin tradisionalist cəmiyyətlərinin vətəndaşlarının yaranmasına gətirib çıxarmışdır. Bu sonuncuların əksəriyyəti həyat tər-

zinin kəskin şəkildə dəyişməsi ilə əlaqədar tam azadlığa və lazımi rasional təfəkkürə nail ola bilməmiş müsəlmanlardır.

Triniti Universitetinin (Texas) professoru, siyasi elmlər doktoru Peter O'Braynın fikrincə, liberalizm ideologiyasının ciddi çatışmazlığı ondan ibarətdir ki, liberal model cəmiyyətin üzləşdiyi bütün problemlərin həlli üçün universal və yeganə vasitə kimi təqdim olunur[1]. O'Brayn yazır ki, bu cür yanaşmalar və ideyalar qeyri-qərb cəmiyyətlərində liberal standartların qəbul edilməməsi hissini yalnız kəskinləşdirir. Peter O'Brayn bu kontekstdə Avropada bir tərəfdən, liberal sekulyarizm və digər tərəfdən, islam arasında fikir ayrılıqlarının tənzimlənməsinin dörd mümkün yolunu təklif edir:

1. Texnokratik liberalizm. Avropa müsəlmanların tam assimilyasiyasına nail olmaq cəhdlərini təkidlə davam etdirir, lakin son otuz ildə sınaqdan keçirilmiş bu cəhdlər heç bir nəticə verməmişdir.

2. Klassik liberalizm. Avropa hökumətləri müsəlmanlara tam mülki hüquq qabiliyyəti verməyə tələsir. Hesab edilir ki, bu hüquqlardan liberalizmin özünə qarşı çıxışlar üçün də istifadə oluna bilər.

3. Sərt liberalizm. Müsəlmanların səsvermə hüququndan məhrum edilməsini və faktik olaraq onların statusunu ikinci növ vətəndaşlar səviyyəsinə endirməyi nəzərdə tutur. (Bu yanaşmanın tərəfdarlarının əksəriyyəti avropalı sağları da səsvermə hüququndan məhrum etməyə çağırırlar). O'Braynın fikrincə, bu, bir tərəfdən, cəmiyyətin onlara verdiyi rol ilə razılaşan liberal müsəlmanların dəstəklənməsinə, digər tərəfdən, liberallaşmanı tək-

[1] www.islam.ru// Постмодернитский либерализм -панацея от исламофобии.

zib etmiş islam tərəfdarlarına münasibətdə repressiyalara gətirib çıxaracaqdır.

4. Postmodernist liberalizm. O'Braynın fikrincə, bu, ən yaxşı variantdır. Onun mahiyyəti iki metafizik baxışın mövcud olmasından ibarətdir. Bunlar yanaşı mövcud olan və heç biri liderlik roluna iddia etməyən, biri digərini dəyişdirməyə cəhd göstərməyən islamçı və liberal-sekulyarist baxışlardır. Bununla əlaqədar belə bir sual doğur: bu yol praktikada gerçəkləşdirilə bilərmi, avropalı siyasətçilər postmodernist liberalizmi qəbul etməyə hazırdırmı, islama heç bir dəyişiklik və düzəliş edilmədən onun tanınması nə deməkdir?[1]

Son onillik, dünya məkanında cərəyan edən və bizim də şahidi olduğumuz proseslər Azərbaycanın dini konsepsiyasının müzakirə edilməsi problemini daha da aktuallaşdırır. Demokratiyanın möhkəmlənməsi şəraitində bu konsepsiya dövlətin dini təşkilatlara real münasibətini əks etdirməlidir. Lakin unutmamalıyıq ki, dinşünaslıqda dinin 200-dən çox tərifi olduğuna baxmayaraq, bu anlayışın hüquqi tərifi yoxdur.

Dini konsepsiya dövlətlə konfessiyalar arasında münasibətlər sahəsində dövlətin hərəkətləri və cəmiyyətdə dinin mövcudluğunun müxtəlif formaları nəzərə alınmaqla, vicdan azadlığının və dini etiqad azadlığının reallaşdırılması sistemi kimi müəyyən edilməlidir. Bununla bərabər, həmin konsepsiyanın məqsədi ölkədə dini həyatın münaqişəsiz və müsbət inkişafı üçün əlverişli şərait yaratmaqdan və Азərbaycan cəmiyyətində sabitliyi möhkəmlətməkdən ibarət olmalıdır.

Heç şübhəsiz ki, "dini konsepsiyanın" reallaşdırılması yolu ilə hər kəsin, yəni həm dindarların, həm də digər insan-

[1] www.islam.ru// Постмодернитский либерализм – панацея от исламофобии.

ların vicdan azadlığı hüququnu təmin etmək prinsipcə mümkün deyildir. Buna görə də dini konsepsiyanın mondializm şəraitində vətəndaşların vicdan azadlığı və dini etiqad azadlığı kimi beynəlxalq miqyasda qəbul olunmuş fundamental hüquqlarının ucdantutma təmin edilməsinə yönələcəyini gözləmək açıq-aşkar populizm olardı.

Dini konsepsiya demokratik prinsiplərə, vətəndaşların hüquq və azadlıqlarına riayət edilməsinə, eləcə də milli mənafelərin qorunmasına və ictimai sabitliyin möhkəmlənməsinə istiqamətlənməsi ilə təmin edilməlidir. Azərbaycanda islam təkcə din deyil, həm də təfəkkür tərzi, həyat forması və cəmiyyətin xeyli hissəsi üçün milli identikliyin müəyyən seqmentini formalaşdıran sosiomədəni aspektdir. Buna görə də milli "Mən" 1400 il ərzində formalaşmış islam ənənələrinin böyük bir hissəsini əks etdirir. Buna baxmayaraq, xüsusi vurğulanmalıdır ki, bütövlükdə Azərbaycan cəmiyyəti xeyli dərəcədə sekulyar cəmiyyətdir. Məsələn, praktikada müsəlmanlığın tələblərinə riayət edənlərin faiz göstəricisinin kifayət qədər yüksək olduğu Türkiyədə isə bunu müşahidə etmirik. Dinə milli münasibət əsasən inamın mövcud olması ilə və daha az hallarda ona praktik şəkildə əməl edilməsi ilə məhdudlaşır. Bundan əlavə, sovet dövründə Azərbaycanda islam milli ənənələrlə sərt konvergensiya mərhələsindən keçmiş, nəticədə islamaqədərki bəzi ənənələr cəmiyyətdə dini konseptlər kimi qəbul edilməyə başlanmışdır.

Azərbaycanda kommunist rejimi yaradılana qədər bu ölkədə islam mühüm rol oynayır, lakin bu, siyasi xarakter daşımırdı. Müstəqillik əldə edildikdən sonra Heydər Əliyevin səyləri və siyasi əzmi sayəsində islam milli sərhədlər daxilində din kimi qaldı, fəal ictimai-siyasi hərəkata çevrilmədi. Azərbaycanda islam cəmiyyət üzvləri arasında bir növ əlaqə-

ləndirici həlqəyə çevrilərək, onların təfəkkür tərzini təcəssüm etdirməyə və millətin mentalitetini formalaşdırmağa başlamışdır. İdeologiya kimi azərbaycançılıq mahiyyət etibarilə islam fəlsəfəsini, onun davranış kodlarını və arxetiplərini ehtiva edir. Eyni zamanda, Şərq ilə Qərbin qovuşduğu məkanda yerləşən Azərbaycan Avropa mədəniyyətinin xeyli cəhətlərini mənimsəmişdir və dünyada inteqrasiya prosesləri gücləndikcə, bu mədəniyyət milli məkanı daha çox qərbləşdirir. Bununla əlaqədar sual doğur: biz qərbləşmə dalğasının təzyiqi altında öz milli identikliyimizi itiririkmi və yaxud milli identikliyin arxetipləri kənardan gətirilən dəyərləri üstələməyə imkan verəcəkmi?

§ BİZ KİMİK?

Yaponlar öz vətənlərini bambuk ağacından düzəldilmiş, poladdan naxış vurulmuş və plastiklə örtülmüş əsa ilə müqayisə edirlər. Bununla onlar demək istəyirlər ki, əcnəbilər, ilk növbədə, Yaponiyanın milli koloritini imitasiya edən parlaq bəzəyə fikir verəcəklər. Yaponiyaya daxildən bələd olmayanların çoxu onu çox uğurla qərbləşməkdə olan Asiya ölkəsi hesab edir, hərçənd, onun daxilində bambuk özəyi hökmən və daim qalır. "Yapon ruhu"nu ifadə edən bambuk özək ilə analogiya Yaponiyanın Kabuki teatrının zəruri rekviziti olan kuromakuda, yəni qara pərdədə də nəzərə çarpır. Qara pərdə arxasında Yaponiya həyatının dərinliklərində fəaliyyət göstərən, onu anlaşılmaz edən, qeyri-yapon cəmiyyətinin həyatından fərqləndirən çoxlu gizli məqamlar vardır.

Yaponlara xas olan zirəklik sənayeləşdirmə dövründə sürətlə istiqamətlənməyə və postindustrial qaydalarını səmərəli

şəkildə qəbul etməyə imkan vermişdir. Qərb üçün 1854-cü ildə komandor M.Peri tərəfindən "kəşf edilmiş" Yaponiya İkinci Dünya müharibəsindən hələ yaxın vaxtlarda feodal siyasi quruluşuna malik olan ölkədən sonra qısa müddətdə demokratik nümunəvi cəmiyyətə transformasiya etməyə müvəffəq oldu. Bu ölkədə son 100 ildə baş vermiş dəyişikliklər o qədər heyrətamizdir ki, çoxları səhvən Yaponiyanın həqiqətən qərbləşdiyini güman edir. Zahirən bu cür mühakimə yürütməyə tam əsas var.

Yaponiya yüksək dərəcədə inkişaf etmiş postindustrial cəmiyyətdir. Postmodern cəmiyyətinə xas olan bütün davranış normalarına və həyat tərzinə burada rast gələ bilərsiniz. Qərbdə səciyyəvi olan institusionallaşmış demokratik norma və ənənələr Yaponiya cəmiyyətində kök salaraq, açıq cəmiyyətin fəaliyyətinin möhkəm bazisini yaratmışdır. Belə təsəvvür yaranır ki, Yaponiyanı Qərbdən fərqləndirən yalnız coğrafi təsadüfdür. Lakin bu fikir yanlışdır, çünki Yaponiya daxildə, dərinlikdə elə bir sosiumdur ki, onun üzvlərinin həyatı yapon mədəniyyətinin və tarixinin qaynaqlarından gələn idealların, etik normaların, adətlərin və təsisatların təsiri altında formalaşır.

Yaponiya Qərb sivilizasiyasından istifadə etmiş və bununla belə, özünün əsrlər boyu formalaşan dəyərlər sistemini qoruyub saxlaya bilmiş bir ölkədir. Bəzən Yaponiyanın qərbləşməsi Qərb üçün və Yaponiyada adi sayılan obrazları və ənənələri etnosentrizm prizmasından nəzərdən keçirən obıvatellər üçün yaradılmış mifdən başqa bir şeyə oxşamır.

"Qərbin nailiyyətləri – yapon ruhu" prinsipindən istifadə edən Yaponiya cəmiyyəti texnoloji cəhətdən yüksək inkişaf etmiş, lakin milli mədəniyyətin xüsusiyyətlərini, öz dinini və

tarixini qoruyub saxlamış bir cəmiyyətə çevrilmişdir. Yaponiyada xristianların sayca heç də az olmadığına baxmayaraq, sintoizm və buddizm cəmiyyətdə öz üstün rollarını saxlayır. Əsrlər boyu öz cazibəsini itirməyən çay mərasimi yapon ənənələrinin əsrarəngiz cəhətlərini özündə saxlayır, döyüşkən ruh, vətənpərvərlik və ənənələrə sadiqlik keyfiyyətlərini tərbiyə edən "busido" ruhu isə şəxsiyyətin formalaşmasının mühüm elementi kimi çıxış edir. Bütün bunlar qərb modernləşməsinin və milli tarixin konvergensiyası mərhələsindən uğurla çıxmış cəmiyyətdə vəhdət təşkil edir. Təbii olaraq belə bir sual yaranır: yaponlar kimdir – qərbləşmiş asiyalılar, yoxsa tradisionalizmi saxlamış modernistlər? Yaponiya nümunəsi milli bənzərsizlik, identiklik, cəmiyyətin bəzən başqa mədəniyyətin nümayəndəsi üçün anlaşılmaz olan daxili sosial strukturunu qoruyub saxlamağı çox gözəl nümayiş etdirir. Qlobal kosmopolitləşmə və qərbləşmə şəraitində Yaponiyanın və Cənub-Şərqi Asiya ölkələrinin təcrübəsi həm öz xalqının keçmiş irsinin elmi cəhətdən dərk olunması üçün, həm də dövlətin gələcək perspektivinin konstruksiya edilməsi üçün zəngin material verir.

Yaponiya nümunəsinə müraciət edərək, biz kimik? – sualına cavab verməyə çalışacağıq.

"Zəncirini qırmış" qərbləşmənin adət edilmiş icmalararası mütənasibliyi saymazyana və bəzən kobud şəkildə pozduğu qloballaşmaqda olan məkanda milli identiklik məsələsi və ənənəvi mədəniyyətin perspektivləri daha da aktuallaşır. Bizim zəmanəmizdə dünyada qarşılıqlı asılılıqlar günbəgün dəyişir, adət edilmiş sərhədlər sürətlə dəyişərək, regional təşkilatların ümumi sərhədlərinə çevrilir. Dünya məkanında vahid dil kimi ingilis dili qəbul edilmişdir, "həyat qaydalarını və təfəkkür formalarını" bir mədəniyyət və bir fövqəldövlət

diktə edir. Bütün bunlar milli və submilli mədəniyyətlərin formalaşmasına ciddi təsir göstərir, onlar da qərbləşmənin təsiri altında öz trayektoriyasını dəyişir.

Cəmiyyətlər "biz kimik?" sualına bir neçə halda müraciət edirlər. Belə hallardan biri də təhlükə ilə üzləşmədir. Məhz mürəkkəb tarixi məqamlarda millət özünün məxsusi identikliyi barədə sual üzərində düşünməyə başlayır, dünya tarixində özünün rolunu və yerini başa düşməyə, ona həvalə edilmiş missiyanı tam dərk etməyə çalışır, zamanı və tarixi öz iradəsinə necə tabe etmək haqqında düşünməyə başlayır. Bunu dərk edə bilən, düzgün addım atan millətlər, xalqlar, cəmiyyətlər, birliklər dünya tarixinin bir hissəsinə çevrilir. Qalanları isə tarix səhnəsini tərk edir və özləri haqqında tarixin arxivlərində yalnız xatirə qoyurlar.

Biz milli inkişafın mühüm tarixi dövründə, dövlətçiliyin möhkəmləndiyi, cəmiyyətin demokratikləşdiyi və fərdin milli dövlətin inkişafında öz rolunu tədricən başa düşdüyü dövrdə "biz kimik?" sualına cavab verməyə çalışacağıq. Lakin bizim nəslə zamanın həvalə etdiyi məsuliyyəti başa düşməsək, milli tarixin və mədəniyyətin bütün potensialını dərk etməsək və sürətlə dəyişməkdə və transformasiya etməkdə olan dünya quruluşunda milli identikliyin mahiyyətini aşkar etməsək, bütün bu cəhdlər hədər olacaqdır.

Milli identiklik məsələsinə dair

Milli dövlətin yaranması prosesində milli identiklik heç də axırıncı dərəcəli məsələ deyildir. Rəmzi hadisə olan identiklik ictimai şüurun əsas ideoloji və mənəvi təməli kimi çıxış edir.

Hər bir milli birlikdə onu başqalarından fərqləndirən, yalnız ona xas olan keyfiyyətlər, xarakteristika və xüsusiyyətlərlə

seçilən müəyyən sosiomədəni nüvə vardır. Dinin və dilin mədəniyyətdə və təfəkkür tərzində ifadə olunmuş xüsusiyyətləri, adətlər, mentallıq və bir sıra başqa amillər bizim "milli identiklik" dediyimiz ümumi terminlə ifadə olunan hadisəni şərtləndirir. "Milli identiklik" dedikdə, həm də bu və ya digər millətin ona xas olan dəyərləri və ənənələri, yaşayışının forma və tərzi, bir sözlə, milli "Mən"i nəzərə alınır.

Bir sıra tədqiqatçıların qeyd etdiyi kimi, psixoloji təbiətə malık olan identiklik mürəkkəb fenomendir, mentalitet xarakterli, səciyyəvi strukturlar cərgəsinə aiddir. Subyektiv xarakter daşıyan bu hadisə şəxsiyyətin bu və ya digər sosial qrupa (millətə, dövlətə və ya etnik qrupa) mənsub olması barədə psixi iztirablarının və təsəvvürlərinin kompleksini əks etdirən, "özününkü-özgəninki" prinsipi əsasında özünü həmin qrupun nümayəndələri ilə eyniləşdirmək prosesindən ibarətdir.

Ötən əsrin son rübündə sosial elmlərdə baş vermiş konstruktiv dönüş milli identikliyin öyrənilməsinə identikliyin hər hansı başqa formasının öyrənilməsi ilə müqayisədə heç də az təsir göstərməmişdir. Bu, əsasən, onunla bağlıdır ki, iki dünya müharibəsindən sonra milli sərhədlərin daim dəyişməsi, 1989-1991-ci illərdə SSRİ-nin və Şərq blokunun dağılması, ötən əsrin 90-cı illərində Qərbi Avropada submilli vahidlərin tanınması milli identikliyin tərifinin ötəri və əsassız olmasını başa düşməyə kömək etmişdir.

Milli identikləşdirmə mexanizmi vasitəsilə dünya rəngarəng və multimədəniyyətli olur. Eyni zamanda, bu meyillər onlardan heç də az güclü olmayan başqa bir meyillə – mövcud fərqlərin uyğunlaşdırılması prosesi ilə rəqabət aparır. Vətəndaşların milliyyəti öz identikliyini etnik baxımdan mədəni oxşarlıqlarda deyil, kommunikasiyalarda iştirak etmək

üçün öz demokratik hüquqlarından fəal istifadə edən vətəndaşların praktikasında tapır[1].

Milli identiklik, ilk növbədə, bu və ya digər xalqın yaşadığı dövlətin sərhədləri ilə müəyyən olunur. Lakin milli birliyin mahiyyətini təcəssüm etdirən milli layihənin mahiyyəti təkcə coğrafi xüsusiyyətlərdən ibarət deyildir. Milli identiklik problemi xeyli dərəcədə böhranlı məqamlarda, 2001-ci il sentyabrın 11-də olduğu kimi üzə çıxır. Con Cozef özünün "Dil və milli identiklik" adlı əsərində tamamilə haqlı olaraq yazır: "2001-ci il sentyabrın 11-də Ümumdünya Ticarət Mərkəzinə və Pentaqona həmlələrdən sonra ABŞ-ın hər yerində bayraqlar asılması əyani şəkildə göstərdi ki, biz millətə hücum edilməsinə, – bu hadisələrin təşkilatçılarının planına görə, həmin binaların dağıdılması məhz bu cür qəbul edilməli idi, – cavab olaraq, milli identiklik rəmzlərinə instinktiv tərzdə müraciət edirik. Hücumadək və ondan sonrakı bütün hadisələrə qədər Ümumdünya Ticarət Mərkəzinin simvolik əhəmiyyəti, əgər onun adını əsas götürsək, çox güman ki, beynəlxalq kapitalizm ilə əlaqədar idi. Lakin görünür, Nyu-Yorkun siluetində onun dominant vəziyyəti bu hücumu həyata keçirənlər tərəfindən ABŞ ilə "beynəlxalq" kapitalizm arasında qırılmaz əlaqə olmasının təsdiqi kimi mənalandırılmışdır. Daha heyrətlisi odur ki, həmin qüllələr hətta Nyu-Yorkdan bir neçə min mil uzaqda yaşayan, heç vaxt bu şəhərdə olmamış və onu, adətən, özlərinin əsas tutduqları dəyərlərə tamamilə zidd olan dəyərlərin təcəssümü hesab edən amerikalılar üçün də milli rəmzə çevrilmişdir. Bəlkə də, Ümumdünya Ticarət Mərkəzinin "milli" dəyəri elə bu hücum sayəsində yaranmışdır. Hər halda, cəmi bir neçə həftə ərzində ABŞ

[1] Р.Г.Абдулатипов. Национальный вопрос и государственное обустройство России. М., Славянский диалог, 2000, глава 3.

Əfqanıstana müdaxilə etmək və 11 sentyabr hücumlarının ilhamvericisi Üsəma ben Ladenə sığınacaq vermiş taliblər hökumətini devirmək üçün beynəlxalq koalisiya yaratmağa, 18 aydan sonra isə İraqa soxulmaq və bu hücumlara bilavasitə aidiyyəti olmamış, lakin ben Ladenlə yanaşı, ciddi milli düşmən kimi qəbul edilən Səddam Hüseyni devirmək üçün nisbətən kiçik koalisiyaya başçılıq etməyə müvəffəq olmuşdur"[1].

Beləliklə, qloballaşma dövründə milli identiklik problemləri getdikcə daha çox hallarda yaxınlaşmaqda olan qərbləşməyə cavab kimi qəbul edilməyə başlanmışdır. Bunun nəticəsində milli identiklik XX əsrin axırları – XXI əsrin əvvəllərində intensivləşmiş antropoloji axınlar üçün bir növ amortizator rolunda çıxış edirdi. "Dövlət. Antropoloji axın" məruzəsinin müəllifləri qeyd edirlər ki, "antropoloji axın" dedikdə, "identiklərin yerdəyişməsi və translyasiyası, bərpa olunması və əvəzlənməsi, təkrar istehsalı və inkişafından ibarət sosiomədəni proseslərin məcmusu" başa düşülməlidir. Eyni zamanda, hər bir millətin identikliyi həmin millət öz mədəniyyətini başqa mədəniyyətlə qarşı-qarşıya qoyduqda, yəni geniş kontekstə uyğun gəlməyən müəyyən spesifik cizgilərin daxili modelləşməsi baş verəndə dərk edilir.

Milli identiklik vətəndaşın öz ölkəsi, onun xalqı haqqında təsəvvürünün və özünün onlara mənsub olması hissinin ümumiləşməsi deməkdir. Dövlət üçün identiklik onun mühafizə olunan sərhədlərindən, konstitusiyasından, ordusından və başqa təsisatlarından heç də az əhəmiyyət kəsb etmir və hətta onlardan da vacibdir. Dövlətlər insanlar tərəfindən yaradılır və ona görə mövcud olurlar ki, dövlətin sakinlərinin hər bir yeni nəsli dövlət haqqında ümumi təsəvvürə şərik olur və onu tanıyır. Lakin qlo-

[1] http//www.ruthenia.ru/loqos/number/49/01/pdf

bal transformasiyalar dövründə identiklik təftişə məruz qalır, çünki yeni arxetiplərin daimi axını identikliklərin yerdəyişməsini, translyasiyasını, təkrar istehsalını və bərpasını şərtləndirir.

Bəzi alimlərin fikrincə, "identikliklərin yerdəyişmə prosesi, məsələn, miqrasiya axınları şəklində əyani təzahür edir, insanlar və cəmiyyətlər bu axınları yaratmaqla özlərinin mədəni və dini xarakteristikalarını, adət və vərdişlərini bir coğrafi və sosial (sosiomədəni) məkandan digərinə nəql edirlər. İdentikliklərin zaman etibarilə yerdəyişməsinə ənənə təsisatı cavabdehdir. Təhsil prosesləri identiklərin translyasiyasına əyani misaldır. Onların təkrar istehsalına nümunə kimi mərasim və kanon təsisatlarını göstərmək olar. Əks-islahatlar və müasir islam fundamentalizmi baza identikliyinin bərpa edilməsi üçün göstərilən gərgin cəhdlərə nümunədir. Beləliklə, antropoloji axın çox vaxt nəinki aparıcı antropoloji strukturların dəyişməsi meyillərinə zidd deyildir, hətta onların həyat qabiliyyətini saxlamaq üçün əsas vasitədir"[1].

Eyni zamanda, sənayeləşdirmədən postindustrializmə transformasiya da identikliklərin formalaşmasına ciddi təsir göstərir, nəticədə sosial sistemin müxtəlif dəyişiklikləri – iqtisadi ukladların transformasiyası, yeni dini təlimlərin yayılması, assimil – yasiya prosesləri, inqilabi sarsıntılarla şərtlənən dəyişikliklər baş verir. Bu cür genişmiqyaslı hadisələr nəticəsində bu və ya digər ölkədə və yaxud regionda identikliyin kütləvi şəkildə – əsasən, könüllü qaydada, lakin çox vaxt həm də zorakı üsullarla dəyişməsi baş verə bilər. Bu halda, əlbəttə, təkcə dini, etnik və ya irqi xarakteristikaların deyil, həm də ixtisasların xarakteristikalarının dəyiməsindən söhbət gedir. İqtisadiyyatın strukturunun yenidən qurulması ilə əlaqədar olaraq mütəxəssislərin artıq nüfuzdan düşmüş peşələrdən "yeni dalğa" peşələrinə kütləvi

[1] С.Градировский, Б.Межуев, П.Щедровицкий. Доклад "Государство. Антропоток".

şəkildə üz tutması bu cür proseslərə nümunədir. İdentikliklərin inkişafı dəyişməkdə olan dünyada rəqabətə davamlılığın təmin edilməsi zəruri olduqda, şəxsiyyətin özünü eyniləşdirmək qabiliyyətini qoruyub saxlamasından ibarət dramatik prosesdir[1].

Formasiyaların dəyişməsi də milli identikliyin təyin edilməsinə ciddi təsir göstərir. XIX əsrin axırları – XX əsrin əvvəllərində Azərbaycan əsasən müsəlman cəmiyyəti kimi, daha az isə xalis Azərbaycan cəmiyyəti kimi identifikasiya edilirdi. O, Şərqin bir hissəsi kimi qəbul edilir və Şərq mədəniyyəti əsasında tərbiyə edilmiş, eyni zamanda, özünün milli mədəniyyətdən uzaqlaşmasının qeyri-təbiiliyini dərk edən insanların nəslini eyniləşdirirdi. Sovet İttifaqı dövründə Azərbaycan cəmiyyəti daha az müsəlman cəmiyyəti kimi, daha çox isə "vahid mədəniyyət, vahid dil, vahid din (daha doğrusu, dinsizlik) tərzinin "formalaşdırdığı vahid tamın (sovet xalqı və s.) bir hissəsi kimi identikləşdirilirdi. Müasir dövrdə "milli" identikliklər sivilizasiya identikliklərinə transformasiya edir və bununla əlaqədar identikliyin yeni tiplərinin yaranması labüd olur. Modernin son dövrünü və ya postmodern dövrünü əks etdirən və konstruktivist konseptual zəminə malik olan bu meyillər həm proseslərin özlərinə, həm də beynəlxalq siyasi diskursda istifadə edilən terminologiyaya ciddi təsir göstərir.

İdentiklik kateqoriyasına müraciət etmək sayəsində biz regionları (həm daxili, həm də beynəlxalq regionları) ərazi və ya inzibati-idarəetmə vahidlərindən daha çox, sosial və intellektual baxımdan konstruksiya edilən məkanlar kimi qavrayırıq. Regionların sərhədləri, ilk növbədə, coğrafi kateqoriyalarla deyil, ümumi identikliklə ("mənsubolma hissi" ilə,

[1] С.Градировский, Б.Межуев, П.Щедровицкий. Доклад "Государство. Антропоток".

könüllü şəkildə qəbul edilən norma və dəyərlər toplusu ilə, müəyyən prosedurlara tərəfdar olmaqla) müəyyən edilir.

Lakin qlobal dəyişikliklər dövründə qarşılıqlı asılılığın artmasını nəzərə alsaq, bütövlükdə milli dövlətin və xüsusən milli identikliyin perspektivi məsələsi qarşıya çıxır. Poliidentiklik getdikcə daha çox sənayeləşdirmə dövrünə xas olan amilə çevrilir. Bununla əlaqədar V.Q.Fedotova yazır: "Alman özü haqqında təkcə Qərbin nümayəndəsi kimi düşünmür. O, özünü avropalı, Almaniyanın vətəndaşı kimi hiss edir, təpədən-dırnağa qədər öz milli identikliyini dərk edir, yəni o, poliidentikdir. Qərb identikliyi fərdin özünü eyniləşdirməsinin başqa formalarını, o cümlədən ailəvi, qrup imkanlarını və digər imkanları da istisna etmir. Lakin bir ideal tip kimi Qərb identikliyi alman (fransız, ingilis) normalarının qeyri-qərb xalqları nümayəndələrinin (çinli, indus, vyetnamlı) normalarından fərqinin mənbəyini xarakterizə edən, son həddi hesab edilən forma yaradır". Daha sonra: "Modernləşmə nəzəriyyələrində identikliyin dəyişməsi məsələsinin qoyuluşu özünü eyniləşdirməyin yeni, fərdin hüquqlarına, vətəndaş cəmiyyətinin başqa dəyərlərinə və təsisatlarına, kökləri qərb xristianlığına, əmək etikasına və s. gedib çıxan əxlaqi dəyərlərə müvafiq olan və ya ən azı, onlara zidd olmayan çərçivələrinin tələbidir. Bu halda ənənəvi cəmiyyətə xas olan rasional və ya stadial cəhətlər, məsələn, ailədə qadınla müqayisədə onun ərinin və qaynanasının daha artıq hüquqlara malik olması Qərb normaları baxımından yolverilməzdir. Lakin məsələn, Çində bu hal Asiya identikliyinə tam uyğun gələn real mədəni ənənələrin bir hissəsidir"[1].

[1] В.Г.Федотова. Модернизация другой Европы. http //www. Spbstu ru/el-book/www/philosophy/ru/phras/library/fedot_mod/html

İdentikliklər, o cümlədən milli identiklik bu və ya digər cəmiyyətin mövcudluğunun mühüm aspektidir. Buna görə də həyat tərzinin və həyat formasının qlobal qərbləşməsi dövründə bu məsələ çox fəal müzakirə edilir. Qeyri-qərb cəmiyyətləri öz daxili simasını qoruyub saxlamağa çalışaraq keçmişlə, ənənələr və tarixlə əlaqəni saxlayan bir element kimi çıxış edən milli identiklik məsələlərinə xüsusi diqqət yetirir. Qərbləşmə getdikcə daha çox qeyri-qərb cəmiyyətlərində milli mədəniyyətin və ənənələrin xüsusiyyətlərini özündə saxlayan keçmişlə bağlılığı itirmək qorxusu doğurur. Porşnevin çox sərrast ifadə etdiyi kimi, "hər bir qarşıqoyma birləşdirir, hər bir birləşdirmə qarşıqoymaya səbəb olur, qarşıqoymanın ölçüsü birləşmənin ölçüsüdür". K.Hacıyev yazır: "Qloballaşma və unversallaşma prosesləri və onlarla əlaqədar olan kosmopolitləşmə və həyat tərzinin, davranış formalarının, modanın və s. bütöv xalqlar, ölkələr və regionlar miqyasında müəyyən dərəcədə uyğunlaşdırılması çox böyük ehtimalla əks-reaksiyaya – milli mədəni dəyərlərə və ənənələrə sədaqətin dirçəlməsinə və intensivləşməsinə, özünün nadirliyini, fərqini qabartmaq cəhdlərinə səbəb olur. Üstəlik, həyatın zahiri tərəflərinin universallaşdırılması və uyğunlaşdırılması meyilləri nə qədər güclü olsa, insanlar öz xalqının ənənələri, dini, dili, mədəniyyəti kimi daxili səciyyəvi komponentlərini bir o qədər yüksək qiymətləndirməyə meyil edirlər. Bu cür transformasiyalar dövründə xalqların milli identiklik problemləri, eləcə də onların bənzərsizliyə və özünütəsdiqə can atmaları ilə bağlı problemlər daha kəskin şəkildə qarşıya çıxır"[1].

Sosioloji məktəblər etnik identikliyin güclənməsini aşağıdakı amillərlə izah edir:

[1] К.С.Гаджиев. Введение в геополитику. М., 2000.

a) inkişafdan geri qalmış xalqların daha çox inkişaf etmiş xalqların iqtisadi və texnoloji ekspansiyasına səbəb olan etnik-mədəni əmək bölgüsünə münasibəti;

b) maddi və mənəvi mədəniyyətin uyğunlaşdırılmasına baxmayaraq, etnoslardaxili qarşılıqlı təsirin intensivləşməsi ilə nəticələnən dünya miqyaslı sosial rəqabət;

c) iqtisadiyyatda və siyasətdə böyük sosial qrupların təsirinin artması və kütləvi kommunikasiya vasitələri sayəsində onların sıx birləşməsi proseslərinin asanlaşması.

Milli identiklik sosial psixoloqu, ilk növbədə, hər bir insan üçün mühüm funksiyaları uğurla yerinə yetirməyi bacaran psixoloji ümumilik kimi maraqlandırır. Bu, aşağıdakılarda ifadə olunur:

1) nisbətən tənzimlənmiş informasiya təqdim etməklə ətraf aləmdə oriyentasiya etməkdə;

2) həyati dəyərlərin aşkar olunmasında;

3) sosial əhval-ruhiyyənin qorunmasında.

Ötən əsrin axırları – bu əsrin əvvəllərində milli identiklik məsələsinin aktuallığının artmasının psixoloji səbəblərindən biri informasiya ilə həddən artıq zəngin olan qeyri-sabit dünyada oriyentirlər və sabitlik axtarışıdır. İkinci psixoloji səbəb lap üzdədir və onu təsdiqləyən xüsusi sübutlara ehtiyac yoxdur. Bu, etnoslararası əlaqələrin (əmək miqrasiyası, milyonlarla mühacirlərin və qaçqınların yerdəyişməsi, turizm) həm bilavasitə, həm də dolayı yolla – kütləvi kommunikasiya vasitələrinin köməyi ilə intensivləşməsidir.

Müasir beynəlxalq münasibətlər, əsasən, Amerikanın hökmranlığının üstün olduğu yeni dünya nizamının qurul-

ması ilə səciyyəvidir, hərçənd, "əgər hegemon cəmiyyətin başqa üzvlərinin mənafelərinə kifayət qədər diqqət yetirmirsə, hegemonluq mövcud ola bilməz, çünki bu başqa üzvlər birləşərək, hegemonu devirə bilərlər"[1]. Buna görə də aşkardır ki, Qərbin qlobal hücumu ilə əlamətdar olan XXI əsrin birinci yarısı dünya məkanının qlobal miqyasda qərbləşməsinə cavab olaraq, milli identikliklərin dirçəlməsi dövrü olacaqdır.

İdentikliyi aktuallaşdırarkən

2002-ci ildə futbol üzrə dünya çempionatında Türkiyə yığma komadasının qələbəsi azərbaycanlı azarkeşləri hədsiz sevindirmişdi. Bu sevincə səbəb hər iki dövlətin rəhbərlərinin tez-tez vurğuladığı nə strateji tərəfdaşlıq və nə də "qardaşlıq münasibətləri" idi. Minlərlə azərbaycanlının bir anda Türkiyənin Bakıdakı səfirliyi qarşısında toplaşmasına və "Tür-ki-yə, Tür-ki-yə!" deyərək öz sevincini ifadə etməsinə səbəb bu iki xalqın birliyini, onların ümumi etnik-mədəni identikliyini, tarixi, mədəni və dini birlikdən irəli gələn qardaşlıq hisslərini səmimi qəbul etmələri idi. Bu halda ümumi identiklik birləşdirici amilə çevrilmişdi.

Dörd ildən sonra, 2006-cı ildə futbol üzrə növbəti dünya çempionatının finalında Fransa və İtaliya komandaları qarşılaşdı. Bu dəfə azərbaycanlıların əksəriyyətinin azarkeşlik etdiyi İtaliya komandasının qələbəsi də sevinclə qarşılandı. Bəs buna səbəb nə idi? Axı, italyanlarla azərbaycanlılar arasında qan qohumluğu əlaqələri yoxdur, xalqlarımızın tarixi taleləri də çox nadir hallarda əlaqəli olmuşdur. Bu sualın bayağı bir cavabı var: azərbaycanlıların çoxu təkcə İtaliyanın

[1] Дж.Сорос. О глобализации. М., 2004, стр.201.

qalib gəlməsini deyil, həm də guya Türkiyə tərəfindən törədilmiş qondarma "erməni soyqırımını" tanımış Fransanın məğlub olmasını istəyirdi. Düzdür, bu dəfə azarkeşlərin sevinci 2002-ci ilin yayındakı kimi aşkar ifadə olunmadı, lakin bunun səmimiliyinə əsla şübhə ola bilməzdi. Bu halda identiklik üçün ortaq seqmentlər əlamətinə görə birləşməkdə siyasət mühüm amil olmuşdur.

2001-ci il sentyabrın 11-də o vaxta qədər tolerant hesab edilən Qərb, daha dəqiq desək, Amerika vətəndaşlarının ictimai şüuru "Şərqdən hücum" təhlükəsi ilə üzləşən öz milli identikliyinin məzmununa yenidən nəzər salmalı oldu. Lakin bu, artıq kommunizm təhlükəsi deyildi. "Əkiz qüllələr"ə və Pentaqona zərbələr nəticəsində milli identiklik üçün yaranmış təhlükə hərbi-siyasi müstəviyə keçdi. Bu zərbələrin cavabında ABŞ əvvəlcə Əfqanıstanda, sonra isə İraqda da fəal hərbi kampaniyalar keçirməyə başladı. Amerika cəmiyyətində çox vaxt dəstəklənən islam bu dəfə Amerika vətəndaşının sosial-mədəni simasının mahiyyətini dəyişmək məqsədi ilə adət edilmiş həyat tərzini və təfəkkür formalarını yarıb keçmək cəhdi kimi qələmə verilirdi. Minlərlə amerikalı dərhal öz evlərinin pəncərələrində, qapılarda və hasarların üstündə, işıq direklərində və başqa yerlərdə zolaqlı-ulduzlu bayraqlar asdı. Ölkənin hər bir vətəndaşı terrorizm deyilən şər qüvvəyə qarşı mübarizədə həmrəyliyə, birliyə, dəstəyə, köməyə öz münasibətini bu cür nümayişkaranə hərəkətlə ifadə edirdi. Amerikalıları daha çox qorxudan nə idi – Amerika dövlətinin dayaqlarını laxlatmağa qadir olan Üsəma ben Laden, yoxsa radikalların meydan oxuması, terror və zorakılıq şantajı sayəsində milli identiklik üçün yaranan təhlükə? 11 sentyabr hadisələrinə qədər milli identiklik məsələsi Amerika cəmiyyətində müzakirə edilən əhəmiyyətli və aktual məsələlər sırasında olmamışdı.

Lakin terrorizmə qarşı müharibə bunu bir müddət ən aktual problemə çevirdi. S.Hantinqton yazır: "11 sentyabr hadisələri elitanın öz ölkəsinə münasibətini əsaslı şəkildə dəyişdi və ulduzlu-zolaqlı bayraq yenidən qürurla səmada dalğalandı"[1].

1990-cı ildə əvvəlcə Dağlıq Qarabağ məsələsində Moskvanın ədalətsiz siyasətinə görə başlanmış milli azadlıq hərəkatı mitinqlərinin fəallaşdığı dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) bayrağının qaldırılması demokratik qaynaqlara, Azərbaycan xalqının dininə və mədəniyyətinə əsaslanan milli identikliyi göstərmək cəhdlərinin əlaməti idi. Ondan əvvəl Naxçıvan MSSR Ali Sovetinin iclasında AXC bayrağının qaldırılması da muxtar respublika rəhbərliyinin bundan sonra Mərkəzdən asılı olmayan siyasət yeritmək əzmini təcəssüm etdirirdi. Xalq kütlələri bu yolla sovet birliyinə öz etirazını ifadə edir, gələcək talelərini həll etmək hüququnu ön plana çəkirdi. İttifaqın milli identikliyini müəyyən etmək mümkün olmadıqda, vahid sovet dövlətində dinc yanaşı yaşamağın əsası olan siyasi, iqtisadi və mədəni birlik də puç oldu. "Yenidənqurma" uzun illər boyu totalitar maşının dövlət idarəetmə mexanizminin məngənəsində qalmış prosesin "üzə çıxmasına" yalnız imkan yaratdı.

Bu sadaladığımız halların hər biri müəyyən dövrlərdə bu və ya digər identikliyin əhəmiyyətini əks etdirir. Bir qayda olaraq, cəmiyyətin milli identiklik ətrafında cəmləşməsi xüsusi şəraitdə baş verir. Başqa sözlə desək, cəmiyyətin sosial strukturlaşması və birləşməsi dövlət üçün böhranlı dövrdə əhəmiyyətli dərəcədə güclənir, tranzit baş tutduqda və dövlət davamlı inkişaf fazasına qədəm qoyduqda nəzərəçarpacaq dərəcədə zəifləyir. Bu, həm daxili təhlükə anlarında yaranan təhdidlərə, həm də yeni dövlətçiliyin və ictimai şüurun

[1] С.Хантингтон. Кто мы? М., 2004, стр.28.

formalaşmağa başladığı dövrdə transformasiya məkanlarında yaranan daxili ziddiyyətlərə aiddir.

"Elektron kəndlərin" yaradılmasının, ictimai həyatın "makdonaldlaşmasının" intensivləşdiyi, siyasi ünsiyyətin vahid stereotiplərinin, ümumdünya qarşılıqlı iqtisadi asılılıq təfəkkürünün formalaşdığı dövrdə milli identiklik problemləri xüsusilə aktuallaşır. Bütün bunlar üçüncü minilliyin əvvəlində monosentrikliyin iki cəhətinin – qloballaşama və qərbləşmənin səciyyəvi olduğu yeni dünya nizamının simasına ciddi təsir göstərir. Məhz bu amillər dünyanın müxtəlif regionlarında maliyyə vəsaitlərini intensiv şəkildə inteqrasiya edir və mədəniyyətləri fəal surətdə konvergensiyalaşdırır. V.İnozemtsevin yazdığı kimi, "qloballaşma nəzəriyyəçiləri bunu etiraf etməyə çətinlik çəkirlər ki, qloballaşma qondarma "ümumbəşəri" dəyərlərə əsaslanan vahid sivilizasiyanın təşəkkülü prosesi deyil, tamam başqa şeydir – cəmiyyətin "Qərb" modelinin ekspansiyası və dünyanın bu modelin tələbatına uyğunlaşdırılması prosesidir"[1].

S.Latuş yazırdı: "Qərbləşmə zaman xarakterinə və coğrafi əhatə dairəsinə görə universal hadisədir... Texnoloji cəmiyyətin kütləvi istehlakdan tutmuş liberal demokratiyaya qədər bütün atributları da daxil olmaqla, onun modeli prinsip etibarilə və bu ümumilik sayəsində asanlıqla bərpa edilə bilər"[2]. Qərbləşmənin öz subyekti var, buna görə də tamamilə aydındır ki, bu proses vahid prinsiplər əsasında eyni bir mərkəzdən idarə edilən və eyni davranış stereotiplərinə məruz qalmış qaydanın formalaşmasına gətirib çıxarır. Yəni qərbləşmə Qərb təfəkkür formasının, həyat və davranış tərzinin qlobal

[1] В.Л.Иноземцев. Вестернизация как глобализация и «глобализация» как американизация. Вопросы философии, 2001, № 4.

[2] S.Latouche. The westernization of the World/ Cambridge: Polity Press, 1996, pp. 50-51.

hücumu deməkdir. Rusiya alimlərinin fikrincə, "qərbləşmə Qərb mədəniyyətinin, çox vaxt Amerika mədəniyyətinin və bu mədəniyyətə kor-koranə tələbatın (modanın) məqsədyönlü şəkildə zorla qəbul etdirilməsi deməkdir. Bu isə qərbləşməkdə olan tərəfin öz mədəni bənzərsizliyini itirməsinə gətirib çıxarır ki, bu da Qərb mədəniyyətinə münasibətdə sosial etiraz, ona düşmən münasibət doğura bilər"[1].

A.Toynbi özünün "Tarixin dərk edilməsi" adlı əsərində (altıncı hissə) yazır: "İlk baxışda, "üçüncü dünya" ölkələrinin qərbləşməsində əldə edilən tərəqqi bizim belə bir tezisimizi təsdiq edə bilər ki, mədəni əlaqələrdə biri digərinə səbəb olur". Zəif inkişaf etmiş ölkələrin qərbləşməsi ilk vaxtlar onların sənayeləşməsi, yəni iqtisadi inkişaf məqsədi ilə Qərb texnologiyalarını mənimsəməsi demək idi. Lakin elə o vaxt bildirilirdi ki, "sənaye inqilabını bir ölkədən başqa ölkəyə hissə-hissə ixrac etmək, sonra isə onu maşın kimi yığmaq və işə salmaq olmaz". Qeyd edilirdi ki, "sənayeləşdirmə prosesi kompleks prosesdir... Sənayeləşdirmə prosesini uğurla başlamaq üçün əvvəlcə müəyyən qaydada ümumi vəziyyəti dəyişmək zəruridir". Cənubi Amerika, Afrika və Asiya ölkələri özlərində Qərb sənaye sistemi yaratmağa cəhd göstərərək, ictimai həyatın və hətta şəxsi həyatın demək olar ki, bütün sahələrində qərbləşməni təşviq etmək zərurəti ilə üzləşirlər. Məsələn, səhiyyə, təhsil və şəhərsalma məsələlərində Qərb standartlarını tətbiq etmək lazım gəlir, bunlarsız etibarlı işçi qüvvəsi bazarı yaratmaq mümkün deyildir. Siyasi idarəetmə və ictimai həyat strukturları Qərb meyarlarına əsasən qiymətləndirilməyə başlayır, bununla bərabər, hər bir millət dünya iqtisadi və siyasi münasibətlər sistemində öz məxsusi yerini tapmalıdır.

[1] Культурология: Учебное пособие для студентов высших учебных заведений / Под научн. Ред. проф. Г.В.Драча, изд. 8-е. Ростов на Дону: Феникс, 2005, стр. 576 (высшее образование).

İnkişaf etməmiş ölkələrin qərbləşmə yoluna qədəm qoyması xeyli dərəcədə iqtisadi istehsal sahəsində Qərb standartlarının qəbul edilməsi zərurəti ilə bağlıdır. Lakin onların Qərb aləmi ilə münasibətləri təkcə bununla məhdudlaşmır".

Eyni zamanda, ən yeni tarix F.Listin aşağıdakı fikrinin düzgün olmasını təsdiq edir: zəngin ölkələr (Qərb ölkələri) daha da varlanır, onların "üçüncü dünya" ölkələrindən fərqi artır. Bazar iqtisadiyyatını zorla qəbul etdirmək Qərb üçün, sadəcə, sərfəlidir, çünki bu halda o, təminatlı şəkildə çox böyük iqtisadi və siyasi üstünlüklər əldə edir.

Lakin bu heç də o demək deyil ki, F.List qabaqcıl təsərrüfatçılıq təcrübəsindən istifadəni inkar edir, iqtisadi mexanizmin konservləşdirilməsində, təcridçilikdə israr edir. O, nisbətən az inkişaf etmiş ölkələrə modernləşmə və güclü rəqiblərlə mübarizə üçün "böyük məkanların avtarkiyası (müstəqilliyi)" konsepsiyasını, "qərbləşməsiz modernləşmə" iqtisadi mexanizmini təsvir edən konsepsiya təklif etmişdi.

Rus filosofu N.S.Trubetskoy vaxtilə demişdir ki, qərbləşmə prosesi iki yolla baş verə bilər – birtərəfli və düşünülməmiş şəkildə və yaxud əksinə, ölçülüb-biçilmiş, düşünülmüş şəkildə. Qərbin mütərəqqi nailiyyətlərindən ölçülüb-biçilmiş və düşünülmüş şəkildə istifadə olunması zəif və orta dərəcədə inkişaf etmiş ölkələr üçün ümumən müsbət inkişaf variantlarından biri hesab edilirdi. Düşünülməmiş və birtərəfli qərbləşmə isə, N.S.Trubetskoyun fikrincə, bir sıra mənfi nəticələr doğurur.

Birincisi, bu cür qərbləşmə əvvəl qeyri-qərb millətinin siniflərə parçalanmasına, sonra isə sinfi mübarizəyə səbəb olur.

İkincisi, qərbləşmə bir ictimai təbəqədən digərinə keçidi çətinləşdirir, bu isə cəmiyyətdə və dövlətdə gərginliyin art-

masına kömək edir. İctimai təbəqələrin ümumi pərakəndəliyi isə dövlətin inkişafını ləngidir, sənayenin, kənd təsərrüfatının, elmin və mədəniyyətin inkişafını çətinləşdirir.

Üçüncüsü, Qərb normalarına və standartlarına zidd olan hər şeyin bəla və ətalət gətirdiyi təsəvvür edilir. Qərbdən götürülən hər şey isə əksinə, ağına-bozuna baxmadan tərəqqi, bundan hər hansı şəkildə yayınmaq irtica və tənəzzül hesab edilir.

Beləliklə, düşünülməmiş qərbləşməkdə olan dövlətin rəhbərliyi tədricən öz xalqını onun özününkü olan hər şeyə, qədim və milli dəyərlərə, adət və ənənələrə, bənzərsiz və təkrarsız sərvətlərinə ikrahla, nifrətlə yanaşmağa, Qərb dəyərlərini üstün tutmağa vərdiş etdirir.

Öz milli və dövlət xüsusiyyətlərinin bu cür qərbləşdirilməsi yoluna qədəm qoymuş xalqlar vətənpərvərlik və milli qürur hisslərini tədricən itirirlər. Bu hisslər həmin xalqların yalnız ayrı-ayrı nümayəndələrində qalır. Milli özünütəsdiq isə, əsasən, onların bir çox cəhətdən əhalinin geniş təbəqələrinin ehtiyaclarından və tələbatından uzaq düşmüş hakim yuxarı təbəqələrinin ambisiyalarından ibarət olur. N.S.Trubetskoy bu fikirdədir.

Dünya inkişafının meqatrendləri, yəni əsas meyilləri sivilizasiyaları getdikcə "müharibə cığırına" itələyir, hərçənd, ABŞ Prezidenti bu prosesi "sivilizasiyaların toqquşması deyil, sivilizasiyanın özü uğrunda müharibə" adlandırmağı üstün tutur. C.Buş 2006-cı il sentyabrın 11-də 2001-ci ilin faciəli sentyabr hadisələri ilə əlaqədar illik müraciətində demişdir: "Bu mübarizəni sivilizasiyaların toqquşması adlandırırlar. Əslində bu, sivilizasiyanın özü uğrunda mübarizədir. Biz azad dövlətlərin həyat tərzinin qorunub saxlanması uğrunda mübarizə aparırıq... Bizim apardığımız müharibə bu

yüzilliyin xəttini müəyyən edəcək və bütün dünyada milyonlarla insanın taleyini həll edəcəkdir". Planetin əhalisinin ən varlı 20 faizi ilə bu əhalinin ən kasıb hissəsi arasında fərqin dinamikasının dəhşətli sürətlə artdığı bir vaxtda bu fikrin mənasını başa düşmək çətindir; İkinci Dünya müharibəsi başa çatandan sonra 7-9 dəfəyə bərabər olan bu fərq müasir dövrdə 50-75 dəfəyə çatmışdır.

Son 30 ildə dünyanın "Cənub ölkələri" sözün tam mənasında xaos ərazisinə çevrilmişdir. Bu illərdə həmin ölkələr arasında gedən müharibələrdə və ya dövlətlərarası etnik münaqişələrdə 16 milyondan çox adam həlak olmuşdur. Lakin bu dəhşətli təcrübəyə baxmayaraq, inkişaf etməkdə olan ölkələr hərbi xərcləri artırır. Bəzi Afrika dövlətlərində hərbi xərclərin həcmi büdcənin bütün xərclərinin 15,7-27,4 faizinə çatır. Humanitar fəlakətə doğru hərəkət göz qabağındadır: təkcə 1990-cı illərdə və yalnız Cənubi Asiya və Afrikada gündəlik gəliri 1 dollardan az olan əhalinin sayı 747 milyondan 803 milyon nəfərə çatmışdır. Cənubi Asiya sakinlərinin 84,8 faizi və afrikalıların 74,7 faizi isə gündə 2 dollardan az vəsait hesabına dolanmağa məcburdur. "Periferiya" ölkələrinin sakinlərinin 32 faizdən 70 faizə qədəri keyfiyyətli içməli su mənbələrindən istifadə etmək imkanından məhrumdur, onların 30-45 faizi daim yarıac-yarıtox yaşayır. Planetimizin ən yoxsul 40 dövlətində uşaqlar arasında ölüm halları 10,4 faizə çatır, orta ömür müddəti 45 yaşdan çox deyildir və daim azalmaqdadır. Afrikada bu proses daha sürətlə gedir. Eyni zamanda, yaşayış mühitinin dağılması misli görünməmiş sürətlə davam edir və bunun təqsirkarları təbii ehtiyatları amansızcasına istismar edən Qərb şirkətlərindən daha çox, torpağın becərilməsi və xammaldan istifadə edilməsi üçün bəsit texnologiyalardan istifadə edən yerli sakinlərdir. Son 30

ildə Afrika, Asiya və Latın Amerikasında kənd təsərrüfatına yararlı torpaqların 120 milyon hektarı itirilmişdir. Cənub-Şərqi Asiyada meşələrin qırılması nəticəsində isə hər il dünyanın bu hissəsindəki meşə massivlərinin ümumi sahəsinin 1,4 faizə qədəri məhv olur. Bununla belə, bütün bu cür meyillər dövlət aparatının saxlanması üçün ayrılan vəsaitin təhsilin bütün növlərinin maliyyələşdirilməsinə ayrılan vəsaitdən 4-8 dəfə çox, ictimai sərvətlərin qeyri-bərabər bölünməsi göstəricilərinin inkişaf etmiş ölkələrdəkindən 3-6 dəfə çox olduğu, Qərbin ayırdığı humanitar yardımın yalnız 29 faizinin yerli kasıblara çatdığı "üçüncü dünya" ölkələrinin "elitalarını" deyil, "daha çox" avropalıları narahat edir.

Dünyanın inkişafı getdikcə daha artıq dərəcədə qlobal xaosu, qarmaqarışıqlığı xatırladır, bəziləri təbii sərvətlərdən daha çox qazanmağa, başqaları isə maliyyə hökmranlığı və siyasi hökmranlıq uğrunda savaşda öz müstəqilliyini və identikliyini qoruyub saxlamağa çalışır. Dünya getdikcə daha çox sivilizasiyalı həyat tərzinin tərəfdarlarına və düşmənlərinə bölünməyə başlamışdır. Hərçənd, tamamilə haqlı sual doğur: "sivilizasiyalılıq" dedikdə, hamı Qərb həyat tərzinimi başa düşür? Əfqanıstanda "Taliban" hərəkatı hesab edirdi ki, islam dövləti inkişafın ən məqbul yoludur, halbuki, Səddam Hüseyn öz dövlətinin bütövlüyünü qoruyub saxlamağa çalışaraq, kürdlərin qiyamlarını yatırırdı. İraqın nə dərəcədə partlayış təhlükəli region olmasını dünya birliyi Səddam devrilməndən sonra başa düşdü. Qlobal xaos bəzi anlayışlara da təsir etmiş, "ərəb", "Yaxın Şərq" və "İslam" sözləri yanaşı işlənməyə başlamışdır, halbuki, dünyadakı 1,2 milyard müsəlmanın yalnız 260 milyonu ərəb ölkələrində yaşayır. Aşkar olmuşdur ki, qlobal xaos dövründə "sivilizasiyaların toqquşması" tədricən identikliklərin və dinlərin müharibəsinə çevrilir.

Bu vəziyyətdə milli identiklik tamamilə ayrı cür səslənir və başqa keyfiyyət kəsb edir. A.Utkin yazır: "Qloballaşma suveren dövlətlərin tabe olmasını nəzərdə tutan qaydalar və öhdəliklərin mövcudluğunu fərz edir. Bazarlar və mədəniyyət qloballaşdıqca, qloballaşmanı izah edən neoliberal nəzəriyyə ayrı-ayrı dövlətlərin suverenliyinin zəifləməsini, loyallığı artıq ayrı-ayrı hökumətlərə deyil, dövlətdənkənar strukturlara yönəlmiş yeni tipli "dünya vətəndaşı" formalaşmasını nəzərdə tutur"[1].

Monosentrist dünya nizamı sahəsinə getdikcə daha çox cəlb olunan qeyri-qərb cəmiyyətləri dövlətin mənafelərinin qorunması kimi başa düşülən millətçilik yaradırlar. Bununla əlaqədar F.Fukuyama yazır: "Əvvəllər iqtisadi qüvvələr millətçilik doğurarkən milli maneələri siniflərlə əvəz edir, mərkəzləşmiş, dil baxımından homogenləşmiş birlik yaradırdı. İndi isə elə həmin iqtisadi qüvvələr inteqrasiya edilmiş dünya bazarı yaratmaq yolu ilə milli maneələrin aradan qaldırılmasına doğru aparırlar. Millətçiliyin tamam məhv olması zaman məsələsidir"[2]. Amerikalı politoloq S.Streync də bu fikrə şərik çıxaraq göstərir ki, "imkanlarının getdikcə zəifləməsi dövlət təsisatlarının və assosiasiyaların diffuziyasının gücləndiyini, hakimiyyətin lokal regional orqanlara keçdiyini göstərən dövlətlə müqayisədə, fərdiyyətçilikdən azad edilmiş dünya bazarı qüvvələri daha nüfuzlu olmağa başlayır". Beləliklə, transmilli korporasiyaların və birqütblü beynəlxalq münasibətlər sistemi çərçivəsində təmsil olunan yeni dünya nizamının iqtisadi seqmentlərinin təsirinin get-gedə artması qlobal inteqrasiya proseslərinin qeyri-qərb cəmiyyətləri ilə daxili qarşıdurmasına səbəb olur, bu isə milli identiklik məsələsini ön plana çəkir, onu dünya siyasətinin təməl daşına çevirir.

[1] А.И.Уткин. Глобализация: процесс и осмысление. М., 2001, стр.10.
[2] F.Fukuyama. The End of History and the Last Man. N.-Y., 1997, p.275.

2006-cı ildə Şərqi Avropada baş vermiş hadisələr bu fikri təsdiqləyir. Orada millətçilərin və antiliberal mühafizəkarların hücumları millətçiliyə doğru qlobal dönüşün əsası olmuşdur. 2006-cı il iyunun 17-də keçirilmiş seçkilər nəticəsində Slovakiyada əksər "qərb dəyərləri"ni təkzib edən, ABŞ-a və Aİ-yə qarşı çıxan "ifrat sağ təmayüllü ekstremist millətçi ksenofob təşkilat" hakimiyyətə gəlmişdir. Bununla əlaqədar Slovakiyada siyasi məkanın dəyişməsi, yaxud 2006-cı il mayın 5-də əvvəllər yalnız bir sosial-mühafizəkar partiya hesabına formalaşan Polşa hökumətinə ifrat sol mövqeli "Özünümüdafiə" təşkilatının və millətçi-klerikal "Polşa ailələri liqası"nın daxil olması Şərqi Avropada millətçiliyə doğru dönüş haqqında yuxarıda göstərilən tezislərin doğruluğunu təsdiq edir. Demək lazımdır ki, millətçi-klerikal "Polşa ailələri liqası"nın proqramında yazılmışdır ki, Polşa yalnız Aİ-dən kənarda inkişaf etməyə başlaya bilər". Macarıstanda, Çexiyada və Rumıniyada da buna oxşar vəziyyət müşahidə olunur.

Qərbi Avropa da ifrat sağçı mövqelərə doğru ciddi meyil nümayiş etdirir. Bu, xüsusən "üçüncü dünya" ölkələrindən immiqrantlar axını ilə bağlıdır.

Beləliklə, şübhəsizdir ki, hətta özünün tolerantlığı və dözümlülüyü ilə tanınan Avropada da milli identikliyin zəruriliyinin dərk edilməsinə yönəlmiş tektonik dəyişikliklər baş verməkdədir. Bəzi təhlilçilər bildirirlər ki, Mərkəzi Avropa ölkələrinin ictimai-siyasi həyatının fokus nöqtəsi açıq-aşkar sosial-iqtisadi problemlərdən öz müqəddəratını təyin etmək və etniklik problemləri üzərinə keçir. Eyni zamanda, avroskeptisizm güclənir. Siyasi isteblişmentdə millətçiliyin və avroskeptisizmin legitimləşməsi baş verir. Mərkəzi Avropada millətçilik, ilk növbədə, hər bir ölkənin Avropada

öz məxsusi mövqeyinə malik olması hüququ barədə tezisin müdafiə olunmasında təzahür edir. Belə partiyaların hamısının fəaliyyəti "Atlantik küləkləri"nə qarşı yönəlmişdir.

Millətçilik mövqelərinin müəyyən dərəcədə Qərbə nifrətlə üst-üstə düşməsi Avropa səviyyəsində millətçi partiyaların sistemdənkənar xarakterini, onların ekstremist partiyalar kimi qəbul edilməsini şərtləndirir. Onlara xas olan və o qədər də gizlədilməyən antisemitizm problemi də müzakirə edilir. "Yəhudilik", ilk növbədə, Mərkəzi Avropa xalqlarını iri fövqəlmilli qurumlara cəlb edən beynəlxalq qüvvə kimi qəbul olunur. Nəticədə ifrat sağçı partiyaların proqramlarının ən mühüm bəndləri ailənin və xristian dininin ənənəvi dəyərlərinin qorunması barədə tələbləri əks etdirir. Səbəb isə ondan ibarətdir ki, Qərblə müqayisədə, xristian əxlaqı və mühafizəkar dəyərlər Mərkəzi və Şərqi Avropa cəmiyyətlərində daha çox qorunub saxlanmışdır. Bu, qismən kommunist hakimiyyətinin, onun, əsasən, katolisizmdən miras kimi qəbul etdiyi mənəvi tərbiyə prinsipləri ilə bağlıdır. Buna görə də ifrat sağçılıq dalğasının mühafizəkar qüvvələr tərəfindən sadəcə olaraq "üyüdüləcəyini" deyən bəzi müasir Avropa təhlilçilərinin iddialarını tamamilə əsaslı hesab etmək çətindir. Əksinə, səbəblərin çox sanballı və çoxamilli olması, eləcə də bu dalğanın gücü və onun panavropa xarakterli olması başqa cür düşünməyə sövq edir.

Yuxarıda deyilənləri yekunlaşdırsaq, qarşıya belə bir haqlı sual çıxır: hər halda, biz kimik? Səkkizguşəli ulduzlu və ayparalı üçrəngli bayraq rəmzi bu bayraq olan ölkənin milli identikliyi barədə hansısa bir məzmunlu təsəvvür yaradır.

XX yüzilliyin sonu dünyanın ondan çox ölkəsinin avtoritarizmdən demokratiyaya keçməsi ilə əlamətdar olmuş, bir

sıra ölkələrdə demokratiya nəzərəçarpacaq dərəcədə möhkəmlənmişdir. Demokratiya ictimai inkişafın prioritetinə çevrilmişdir. Əvvəllər avtoritar hökumətlər idarə edilənlərin xəbəri olmadan onları idarə edirdisə, müasir demokratiya o deməkdir ki, insanlar onları idarə edənləri özləri seçir və dövlətin idarə olunmasında fəal iştirak edirlər, bunun da nəticəsində milli identiklik məsələsi tamamilə yeni və prioritet xarakter alır.

S.Hantinqtonun fikrincə, "milli identikliyin tərkib elementlərinin əhəmiyyəti dəyişkəndir"[1]. Bu dəyişkənlik çox vaxt hər yerdə müşahidə olunan və qlobal xarakter daşıyan identikliyin böhranı ilə bağlı olur. Lakin ayrı-ayrı ölkələrdə o, müxtəlif formalar kəsb edir, fərqli şəkildə cərəyan edir və müxtəlif nəticələrə gətirib çıxarır. Buna görə də təəccüblü deyil ki, ölkələr öz tarixləri boyu milli identiklik elementləri arasında müxtəlif prioritetlər müəyyən etmiş və zaman keçdikcə bu elementlərin əhəmiyyəti dəyişmişdir. Məsələn, XX əsrin axırlarında almanların və fransızların əksəriyyəti identikliyin avtoritar elementlərini inkar etmiş və demokratik dəyərlərə qoşulmuşdur. Fransada inqilabı mədh edir, Almaniyada faşizmi lənətləyirlər.

Müasir dövrün reallıqları və onlarla yanaşı gedən proseslər Azərbaycan identikliyini dəyişir. Lakin vurğulamaq lazımdır ki, məsələn, süni dövlət qurumu olan ABŞ-dan fərqli olaraq, Azərbaycan dövlətinin identikləşdirilməsi tarixi mahiyyətə malikdir və bu identikləşdirmə etnik özək sayılan elementin, eləcə də coğrafi-ərazi, mədəni və dini elementlərin mövcud olması nəticəsində formalaşmışdır. Özü də Azərbaycanın əhalisi tarixən bu ərazidə yaşamışdır.

[1] С.Хантингтон. Кто мы? М., 2004, стр.67.

Azərbaycanlılar öz müasir identikliyini həyatda qalmaq və dövlət müstəqilliyi əldə etmək uğrunda mübarizə alovunda formalaşdırmışlar. Hazırda onlar "Azərbaycan əqidəsi" adlandırıla biləcək "siyasi əqidə" hesabına da zənginləşmişlər. Bu əqidənin tərkib hissələri milli həmrəylik, insanların bərabərliyi, şəxsiyyətin azadlığı, ədalət, yüksək təhsil və mədəni potensial, demokratiya, liberal iqtisadiyyat, modernizm, Qərbə inteqrasiya kimi elementlərdir. "Azərbaycan əqidəsi" bizim bu günümüzü və gələcəyimizi, sosial gerçəklik barədə təsəvvürlərimizi müəyyənləşdirir və ölkə vətəndaşlarının özlərinin arasında qarşılıqlı münasibətlərə, sosial təşkilatlanmanın qayda və prinsiplərinə töhfə verir.

Bununla bərabər, başqa cəmiyyətlər kimi, Azərbaycan cəmiyyəti də öz inkişafının gedişində vaxtaşırı müxtəlif çağırışlarla üzləşir. Müasir dünya nizamı hər gün hərbi-siyasi, sosiomədəni və mənəvi-əxlaqi xarakterli yeni təhlükələr və təhdidlər yaradır. Buna baxmayaraq, biz hər dəfə bu təhlükələri aradan qaldırmağa, özümüzü zamanın hədələrindən qorumağa və milli identikliyimizi qoruyub saxlamağa çalışırıq. Tarix göstərmişdir ki, Azərbaycan onu bugünkü səviyyəyə gətirmiş, onun qürur və inkişaf mənbəyi olmuş, Azərbaycanı müxtəlif millətlərə və etnik qruplara mənsub insanların ümumi evinə çevirmiş ənənələri və dəyərləri qoruyub saxlamağı bacarır.

Azərbaycanın ən böyük nailiyyətlərindən biri burada etnoslararası münaqişələrin olmaması və onun tolerant cəmiyyətə çevrilməsidir. Bu cəmiyyətdə insanlara etnik mənsubiyyətinə və ya dini etiqadına görə deyil, onların xidmətlərinə görə qiymət verirlər. Bu nadir keyfiyyət bizə körpəlikdən aşılanır və onu qoruyub saxlamalıyıq.

§ BİZ HARADAYIQ?

Hazırda dünyada müşahidə etdiyimiz proseslər belə bir tezisi bir daha təsdiqləyir ki, "tarix təkrarlanmağı xoşlayır". Amma bu təkrarlanma birinci dəfə faciə şəklində, ikinci dəfə isə oyun şəklində baş verir. Əfqanıstanda və İraqda aparılan müharibələr antiamerika ovqatının get-gedə güclənməsinə cavab idi. Ata C.Buşun hakimiyyətdə olduğu dövrdə yeridilən çevik siyasət, Körfəz müharibəsinin başlanması üçün geniş beynəlxalq koalisiya formalaşdırılmışdısa, yaxud B.Klintonun hakimiyyəti dövründə Yuqoslaviyada aparılan əməliyyatlar ABŞ-ın dövlət katibi M.Olbraytın fəal səfərləri ilə örtbasdır edilir və rəmzi olaraq "humanitar müdaxilə" adlandırılırdısa, indi daha sərt demarşlar dəbdədir. Lakin keçmişdə Amerikanın xarici siyasəti məhz çevik olması sayəsində indiki ilə müqayisədə daha legitim hesab edilirdi.

Son onillikdə dünya nizamı birdən-birə çoxlarının nəzərində bir neçə sivilizasiyanın tezliklə toqquşması reallığı kimi təsir bağışlamağa başlamışdır. Münaqişənin bir tərəfi ABŞ, digər tərəfi islam dünyası, Çin, Rusiya, İran və Avropadır. Moskva-Berlin-Paris üçbucağı qəbilindən olan yeni geosiyasi mərkəzlərin yaranması barədə proqnozlar Moskva-Dehli-Pekin formasında Asiya qolunun güclənməsi müstəvisinə keçmişdir. Hazırda hər bir dövlət müstəqil trayektoriya məcrasında inkişaf strategiyasını irəli sürür, halbuki *Pax Americana* yaratmaq cəhdləri bu cür təşəbbüsləri nəzərəçarpacaq dərəcədə məhdudlaşdırır. Nəticədə tamamilə aydındır ki, 2001-ci ilin sentyabr hadisələri yalnız Amerika hegemonluğunun cəlbediciliyinin sona çatmasının ifadəsi idi. C.Nay haqlı olaraq yazırdı ki, əgər "biz özümüzü təkəbbürlü aparır

və əhəmiyyətli dəyərlərimizdən irəli gələn səmimi münasibətləri pozuruqsa, "cəlbedicilik" "ayrılmaya" çevrilə bilər"[1]. Məşhur yazıçı və rejissor Tariq Əli yazır: "Terrora qarşı müharibənin balans hesabatı necədir? Axı, Taliban rejimi məhz onun pakistanlı yaradıcılarının köməyi ilə, ciddi mübarizə aparılmadan devrilmişdir, hərçənd, heç bir günahı olmayan üç minə yaxın əfqan kişi, qadın və uşaq bombalar altında həlak olmuşdur. Qərb ölkələri üçün bu insanların həyatı Nyu-Yorkda və Vaşinqtonda həlak olmuş Amerika vətəndaşlarının həyatları ilə müqayisədə heç nədir. Kabildə günahsız qurbanların xatirəsinə heç bir memorial tikilməyəcək. Bu "anti-terror" müharibəsi qurbanlarının içgəncələrə və kütləvi edamlara məruz qalması "humanist müharibələrin" liberal tərəfdarlarının heç halına da təfavüt etmir"[2].

Bütün bunlar sosial gerçəkliyi dərk etməyə və dünya məkanında baş verən proseslərə qiymət verməyə çalışan insanların şüurunda ciddi izlər qoyur. İslamın prinsiplərinə zidd olmasına baxmayaraq, özlərini qurban verən intiharçı terrorçuları, eləcə də Livanda və Fələstində dinc sakinləri bombalayan israilliləri başa düşmək çətindir. Həm də tərəflərdən hər biri israrla özünün haqlı olduğunu bildirir. İnsan dünyaya kinokamera obyektivindən baxır və gördüyü mənzərə – od tutub yanan Əfqanıstan, Fələstin, İraq, Livan, keçmiş Yuqoslaviya, hər gün yüzlərlə uşağın acından öldüyü Afrika ölkələri (planetimizdə hər gün 24.000 adam xroniki aclıqdan ölür), bu yaxınlara qədər İttifaqda "qardaş" sayılan, indi isə ərazi iddialarının viran qoyduğu keçmiş sovet respublikaları, qlobal iqtisadi qeyri-bərabərlik, Şimal ilə Cənub arasında, Şərq

[1] Дж.Най. Гибкая власть. М., 2006, стр.19.

[2] Т.Али. Столкновение цивилизаций: Крестовые походы, джихад и современность. М., 2006, стр.19-20.

ilə Qərb arasında faciəvi fərqlər, təbii ehtiyatların qəddarcasına istismar edilməsi, ekoloji kataklizmlər və təbii fəlakətlər insanı dəhşətə gətirir. Afrikada aclığın qarşısını almaq üçün BMT-nin Ümumdünya Ərzaq Proqramını həyata keçirməyə bir milyard dollar çatışmadığı bir vaxtda, ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin etiraf etdiyi kimi, İraqda hərbi kontingentin saxlanmasına hər ay dörd milyard dollar (!) xərclənir. Pentaqonun bütün bu hərbi kampaniyasına isə indiyədək 98 milyard dollar sərf edilmişdir. Bu məbləğ inkişaf etməkdə olan bütün ölkələrin xarici borclarının üçdə birinə bərabərdir. Nəticədə Məhəmməd Peyğəmbərin hələ VII əsrdə dediyi sözlər bir daha təsdiqlənir: "Yoxsulluq inamsızlığa, o isə biganəliyə və zorakılığa doğru aparan birbaşa yoldur".

Dünya məkanında vahid davranış formalarının müəyyən edilməsinə yönəlmiş, bəzən bu ideyaların cazibəsi və yeni dünya nizamında təklif edilən birgəyaşayış reseptlərinin çevikliyi nəzərə alınmadan həyata keçirilən qlobal siyasət ABŞ-ın Amerika dəyərlər sisteminin spesifik xarakteri ilə, Amerika tarixinin nadirliyi və müasir aləmdə Birləşmiş Ştatların məxsusi mövqeyi ilə şərtlənən müstəsnalığı barədə fikirlər yayır. Eyni zamanda, H.Kissincerin təbirincə desək, "ABŞ-ın dünyaya təklif etdiyi reseptlərdə çox vaxt ya ABŞ-ın daxili problemləri, yaxud da "soyuq müharibə" dövrünün sentensiyaları nəzərə çarpır... Nəticədə "Birləşmiş Ştatlar ikimənalı vəziyyətdə qalmışdır. İndiyədək dünyanın bəlkə də heç vaxt üzləşmədiyi ən dərin və geniş əhatəli sarsıntılar qarşısında ABŞ yaranmaqda olan gerçəkliyə adekvat ideyalar təklif etmək iqtidarında deyildir"[1].

Beləliklə, "soyuq müharibə" dövründə dünya siyasətinin əsası nüvə silahına malik olan iki fövqəldövlətin qarşıdur-

[1] Г.Киссинджер. Нужна ли Америке внешняя политика, стр.2.

masından ibarət idisə, XXI əsrin əvvəlində beynəlxalq səhnədə qarşılıqlı münasibətlərin bazisi təhlükəsizlik üçün yeni təhdidlərə qarşı dayanmağa və sivilizasiyaların münaqişəsi ehtimalını azaltmağın zəruriliyini dərk etməyə doğru transformasiya etmişdir. Monosentrik dünya nizamının çoxsivilizasiyalı olması nəticəsində elə bir kazus yaranmışdır ki, ən güclü dövlət "qarşılıqlı münasibətlər böhranı" vəziyyətinə düşmüşdür. Çinin güclənməsi, İran ilə münasibətlərin mürəkkəbləşməsi, Əfqanıstanda və İraqda dövlətçilik əlamətlərinin olmaması, Balkan yarımadasında narahat vəziyyət dünya siyasətinin gündəliyində olan ən mühüm məsələlər kimi qalmaqdadır və hazırda ABŞ bunları təkbaşına həll etmək iqtidarında deyildir. Lakin ABŞ müasir beynəlxalq münasibətlərin qlobal məsələlərinin həllində başqa dövlətlərin tərəfdaşlığına imkan verirmi? Ceyms Medisonun dövründən başlayaraq, bütün dünyanın mənafelərini ifadə etmək iddiasında olan və ədalətli qayda yaratmağı özünün missiyası hesab edən ABŞ dünya tarixinin gedişinə düzəlişlər etmişdir. C.Medison yazırdı: "Birləşmiş Ştatlar həm özü üçün, həm də bütün dünya üçün ümumi korrupsiyaya etiraz edən ən azı bir hökumətin mövcud olduğunu göstərən nümunədir"[1].

Hazırda isə ABŞ Aleksandr Hamiltonun təklif etdiyi, amerikalıların özlərini heç bir öhdəliklə məhdudlaşdırmadan öz siyasətlərinə düzəlişlər etməsinə istiqamətlənmiş "ən soyuqqanlı ehtiyatlılıq" direktivini həyata keçirir. ABŞ-ın xarici siyasəti bütün Yer kürəsində özünün davamlı təsirini qoruyub saxlamağa yönəlmişdir və bu, getdikcə tez-tez Rusiyanın ənənəvi təsir zonalarına aiddir. Bu isə dialoq və əməkdaşlığın mümkün perspektivlərini daha da uzaqlaşdırır.

[1] Г.Киссинджер. Нужна ли Америке внешняя политика, стр. 266.

Bəzən belə bir yanlış fikir yaranır ki, monosentrik dünya nizamı ABŞ-ın hərbi-siyasi qüdrətinin və qlobal iqtisadi gücünün nəticəsidir. Əslində isə, problem başqadır: "Real alternativlərin olmaması Amerika modelinə meyli gücləndirir"[1]. Əsasən, qərbləşməkdə olan dünyanın iqtisadi modelləri barədə deyilmiş bu fikir hazırda Amerikanın qüdrəti ilə rəqabət aparmaq iddiasında olan hərbi-siyasi doktrinalara da cəsarətlə aid edilə bilər. Əslində, biz Amerikanın qüdrəti və hegemonluğu ilə razılaşmaya, onları təkzib və tənqid edə bilərik, lakin dünya nizamı bipolyar, bəlkə də, polisentrik dünya sistemi təklif edə biləcək bir alternativ yaratmağı bacarmamışdır.

Eyni zamanda, SSRİ-nin dağılması və həmin dövrdə sürətlənmiş qloballaşma ABŞ-ın yeganə fövqəldövlət kimi təşəkkülünə səbəb olmuşdur. Z.Bjezinski bu barədə yazır: "Qloballaşma dünyada yeganə fövqəldövlət kimi Amerikanın yeni statusundakı əsas boşluğu doldurmuşdur. Siyasi və iqtisadi baxımdan beynəlxalq qüdrətin, – hətta bu qüdrət hər hansı bir milli dövlətdə cəmləşdikdə belə, – sosial legitimliyə ehtiyacı var. Bu legitimlik həm rəhbər tərəf, həm də tabe tərəf üçün zəruridir. Bu tərəflərdən birincisi özünün tanınmasına çalışır, çünki tanınma ona inam hissi verir, öz məqsədlərinə nail olmaq və öz mənafelərini müdafiə etmək üçün mənəvi qüvvə verir. Tabe olan tərəfə isə bu, özünün tabe vəziyyətdə olmasına haqq qazandırmaq üçün, bu statusa uyğunlaşmağı və həmin statusda qalmağı asanlaşdırmaq üçün lazımdır. Doktrinal legitimlik hakimiyyətin həyata keçirilməsi ilə əlaqədar məsrəfləri azaldır, bu hakimiyyətin obyektləri tərəfindən olan etirazı boğur. Bu mənada qloballaşma təbii qlobal hegemonluq doktrinasıdır"[2].

[1] Г.Киссинджер. Нужна ли Америке внешняя политика, стр. 266.

[2] З.Бжезинский. Выбор: мировое господство или глобальное лидерство. М., 2004, стр.189.

Avropa İttifaqının genişlənməsi və öz valyutasının tətbiq edilməsi perspektivdə Avropanın simasında yeni dünya gücünün meydana çıxması üçün imkan yaratmışdır. Lakin antiterror əməliyyatlarının başlanması və Böyük Britaniyanın ABŞ ilə strateji tərəfdaşlığı Köhnə dünyanın ayrıca bir aktor kimi müstəqil şəkildə və uzun müddətə geosiyasi səhnənin önünə çıxmaq potensialını əhəmiyyətli dərəcədə zəiflətmişdir. Məlum olduğu kimi, 1992-ci il fevralın 7-də Maastrixtdə imzalanmış Avropa İttifaqı haqqında müqaviləyə əsasən, beynəlxalq səhnədə, o cümlədən ümumi xarici siyasət və təhlükəsizlik siyasəti yeridilməsi yolu ilə Avropa identikliyi bərqərar olmuşdur. Bu siyasət diplomatik aspektlə yanaşı, təhlükəsizlik və müdafiə sahəsində ümumi Avropa siyasətinin həyata keçirilməsini, eləcə də daxili işlər və ədliyyə sahəsində sıx əməkdaşlığı əhatə edir. Lakin Avropa Konstitusiyası qəbul edilərkən yaranmış ciddi ziddiyyətlər göstərdi ki, yeni Avropa tam konsensusa nail olmaq üçün hələ çox yol keçməlidir. Üstəlik, Avropa İttifaqının xristian dövlətləri klubuna çevrilməsi məsələləri getdikcə daha çox hallarda qeyri-adekvat hərəkətlərlə təsdiqlənir. Məsələn, Bolqarıstan və Rumıniya üzv qəbul ediləndən sonra Aİ-nin genişləndirilməsini dayandırmaq barədə 2006-cı ilin oktyabr ayında Barrozunun verdiyi bəyanatı Türkiyənin Aİ üzvlüyünə qəbuluna qarşı çıxmaq cəhdi hesab edilməlidir. Beləliklə, Avropa sanki Türkiyəni güclü və səmərəli Avrasiya birliyi yaradılmasına sövq edir. Bu birlikdə Rusiya-Türkiyə strateji tərəfdaşlığının mühüm rolu olacaqdır.

Belə siyasət labüd olaraq, yeni geosiyasi qütblər yaranmasına doğru aparır və çox güman ki, bu da yeni ziddiyyətlərə və toqquşmalara səbəb olacaqdır. Təbii ki, indiki qlobal informasiya texnologiyaları dünyasında hər bir

münaqişə bizim keçmişdə üzləşdiyimiz münaqişələrdən əhəmiyyətli dərəcədə fərqlənir. Birmənalı şəkildə deyə bilərik ki, bu münaqişə İkinci Dünya mübaribəsinin təkrarı olmayacaq, xüsusilə də vəziyyətin Karib böhranına bənzər şəkil alacağını da gözləməyə dəyməz. Son onilliklərdə qlobal inteqrasiyanın mühüm atributu olan miqrasiya dövlətlərin daxilində bir növ "beşinci dəstələr" yaratmışdır və yeni sivilizasiya toqquşmasının əsas vasitəsi də həmin onlar olacaqdır. Qərb ölkələrində "beşinci dəstələrin" narazılığının ilk dalğasını Məhəmməd Peyğəmbərə karikaturaların dərc olunması ilə əlaqədar etiraz aksiyaları dövründə gördük. Hazırda milyonlarla ərəb, indus, pakistanlı və afrikalı Avropada təkcə öz mənafelərini deyil, həm də bir şəxsiyyət kimi böyüyüb formalaşdıqları sivilizasiya mühitinin bir hissəsini təmsil edirlər. Buna görə də qərbləşmə, yəni qeyri-qərb cəmiyyətlərinin qərbləşməsi barədə danışarkən biz çox ehtimal ki, güclü miqrasiya dalğasının təsiri altında Qərb cəmiyyətlərində baş verən transformasiyaların səviyyəsini qiymətləndirməliyik. Bu transformasiyalar nəticəsində tezliklə Avropada avropalı olmayanların Avropa birliyinə infiltrasiyası nəticəsində kənardan gətirilən qeyri-qərb dəyərlərinin inkar edilməsi sindromu yaranacaqdır. Bu, sivilizasiyaların ehtimal edilən münaqişəsinin daha bir zəminidir, çünki avropalı olmayanların əksəriyyəti Avropada inkişaf etməmiş iqtisadiyyatları təmsil edir və deməli, onların təmsil etdikləri cəmiyyətlərdə sosial-siyasi sistemin səviyyəsi Avropadakından əhəmiyyətli dərəcədə fərqlənir. Bununla bərabər, elə bir vəziyyət yaranır ki, qeyri-avropalı ya Avropa cəmiyyətinin bir hissəsinə çevrilməli və həmin cəmiyyətdə assimilyasiyaya uğramalıdır, yaxud da Avropada hər yerdə gettolar yaradılması prosesi başlanacaqdır. Geosiyasi baxımdan bu, təqribən 20-30 ildən sonra Avropanı nəinki sivilizasiya münaqişələri təhlükəsi ilə,

həm də etnik ərazi münaqişələri ilə üzləşdirəcək, Kosovo münaqişəsi kimi münaqişələr hər yerdə yaranacaqdır. 2006-cı ilin mart ayında Parisin, əsasən, Şimali Afrikadan və ərəb ölkələrindən gəlmiş mühacirlərin yaşadığı şəhərətrafı qəsəbələrində baş vermiş hadisələr zamanı belə toqquşmalar olmuşdu. "Sivilizasiyaların toqquşmasını" yeni müstəviyə transformasiya edən "identikləşmələrin böhranına" səbəb də məhz bundan ibarətdir. Axı, "avropalıları və Avropa mənşəli şimali amerikalıları üstün mövqeyə onların mədəniyyətinin üstün olması deyil, üstün silahlara malik olması çatdırmışdır və bu gün də onlar həmin üstünlükləri qüc hesabına əldə saxlamaqda davam edirlər, hərçənd indi təkcə qüvvə vasitəsilə yox"[1].

"İdentikləşmələr böhranı", öz növbəsində, yeni qarşıdurmanın əsasına çevrilir. Bu qarşıdurmanın təməli yeni minilliyin əvvəlində qoyulur və aşağıdakı amillərlə əlaqədar tərəflərin narahatlığını ifadə edir: (1) Qərbdə müsəlmanların təsirinin artması; (2) qlobal müdaxilə siyasətinin genişlənməsi; (3) Çin, İran, Pakistan, Hindistan kimi iri regional dövlətlərin güclənməsi və sonradan onların iri dünya dövlətlərinə transformasiyası; (4) Rusiyanın və keçmiş sovet respublikalarının yenidən transformasiyası; (5) 1998-ci il böhranına baxmayaraq, özlərinə gələ bilmiş Asiya dövlətlərinin maliyyə qüdrətinin artması. Beləliklə, monosentrik dünyada çoxsivilizasiyalılıq dünya nizamını daha çoxtərəfli və müxtəlif şəkildə təqdim edir.

Sivilizasiyalı çoxqütblülük şəraitində regional dövlətlərin rolu və əhəmiyyəti xeyli artır, onlar aparıcı dövlətləri iqtisadi və maliyyə baxımından təmin etmək üçün öz məkanından xammal bazası kimi istifadə edirlər. Lakin bu, müəyyən

[1] Майкл Паренти. Истинные цели американского империализма. М., 2006, стр.20.

mənada nəinki inkişaf etməkdə olan, hətta daha çox inkişaf etmiş iqtisadiyyatları da asılı vəziyyətə salır, iqtisadiyyatların qarşılıqlı asılılığını və sıx inteqrasiyasını təmin edir. Bu baxımdan xüsusi vurğulamaq lazımdır ki, 2040-cı ildən gec olmayaraq, Çin ÜDM-in həcminə görə ABŞ-ı geridə qoyacaq, deməli, artıq yaxın 10 ildə ABŞ üçün potensial dünya lideri statusunu itirmək təhlükəsi yaranır. Hazırda dünyada iqtisadi artımın 16 faizi ÇXR-in payına düşür, bu isə o deməkdir ki, 15 ildən sonra Çin iqtisadiyyatı dünyada ikinci yeri tutacaqdır. 2005-ci ildə Çinin Amerika ilə ticarətdə müsbət saldosu 100 milyard dollara, Aİ ilə isə 30 milyard dollara bərabər olmuşdur.[1]

Biz həm də Asiya ölkələrinin nümayiş etdirdiyi yeni diplomatiyanın şahidləriyik. Çin təkcə Rusiya ilə deyil, keçmiş sovet respublikalarının və Avropa dövlətlərinin çoxu ilə ikitərəfli əlaqələrini təkmilləşdirir, özünün iqtisadi təsir dairəsini genişləndirməyə çalışır. Eyni zamanda, son illərdə Çin BMT Təhlükəsizlik Şurasının fəaliyyətində daha səmərəli iştirak etməyə başlamış, Sudanda aparılan əməliyyatlara Çin sülhməramlıları göndərilmişdir.

Məlum 11 sentyabr hadisələrindən sonra Pakistan antiterror əməliyyatının mərkəzinə çevrildi, çünki dövlətlərin əksəriyyətinin diqqəti məhz "Taliban" hərəkatının yarandığı və əvvəlcə ona rəhbərlik edildiyi ölkəyə yönəlmişdi. Pakistanın nüvə silahına malik olması onu VİP-dövlətlər sırasına keçirmiş, Pərviz Müşərrəfin yaratdığı səmərəli idarəetmə sistemi isə islam dünyası ilə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və dərinləşdirilməsini xarici siyasətin əsas prioriteti kimi müəyyən etmişdir. Pakistan İslam

[1] А.Уткин. Месть за победу – новая война. М., 2005, стр.373.

Konfransı Təşkilatının işində çox fəal mövqe tutur, Prezident Müşərrəf isə enlightened moderation – islam dünyasında elmin, təhsilin, mənəviyyatın və mədəniyyətin rolunun artırılmasına yönəlmiş maarifçi modernləşmə təşəbbüsü ilə çıxış etmişdir. Bu, Pakistanda terror şəbəkələri və təşkilatları olması ilə əlaqədar Qərbin təzyiqinə cavab idi. Beləliklə, Müşərrəf islam dünyasının möhkəmlənmiş birliyini və onun istəklərinin ülviliyini nümayiş etdirməyə çalışırdı. Hazırda Pakistan dünya səhnəsinə Qərbin coğrafi hüdudlarından kənarda yerləşən, çox geniş əraziyə, güclü iqtisadiyyata, tərəqqi etməkdə olan mədəniyyətə, əhəmiyyətli etnik və dini müxtəlifliyi ilə fərqlənən əhaliyə malik olan demokratik ölkə kimi çıxır. Yüksəlməkdə olan Pakistanın Asiyada aparıcı aktora çevrilmək və qarşıdakı onilliklərdə böyük siyasi savaşlarda mühüm rol oynamaq üçün potensial imkanı vardır.

Digər Asiya dövləti – Hindistan son illərdə özünün regional çəkisini əhəmiyyətli dərəcədə artırmağa və iqtisadi artımı təkmilləşdirməyə nail olmuşdur. Təhlilçilərin bir çoxunun fikrincə, gələcəkdə Hindistan XXI əsrin ən mühüm məsələlərinin həllinə – Asiyada sabitliyin təmin edilməsinə, genişlənmiş Yaxın Şərqin siyasi baxımdan modernləşməsinə və qloballaşma prosesinin idarə olunmasına təsir göstərmək imkanı əldə edəcəkdir. Son illərdə Dehli özünün bilavasitə qonşuları ilə münasibətlərini dəyişmək, Çin və Pakistanla (regionda özünün əsas rəqibləri ilə) dinc yanaşı yaşamaq üsullarını tapmaq və "yaxın xaricdə" – Afrikanın, Mərkəzi və Cənub-Şərqi Asiyanın bəzi hissələrində, Fars körfəzi və Hind okeanı regionlarında öz mövqelərini bərpa etmək üçün gərgin fəaliyyət göstərmişdir. Eyni zamanda, Hindistan böyük dövlətlərlə, xüsusən Birləşmiş Ştatlarla münasibətlərini dərinləşdirmişdir.

Böyük dövlətlər arasındakı köhnə rəqabət, eləcə də Hindistanın özünün Pakistan və Çinlə münasibətlərində gərginlik yaranması Hindistanın regionda asayişi qorumaq səylərinə mane olurdu. Hazırda Birləşmiş Ştatlar və ÇXR də daxil olmaqla, bütün böyük dövlətlər Hindistanın regional iqtisadi inteqrasiyanı inkişaf etdirmək səylərini dəstəkləyir. Bununla belə, Kəşmirlə bağlı Hindistan-Pakistan münaqişəsinin həlli üçün xarici şərait heç vaxt indiki qədər əlverişli olmamışdır.

Beləliklə, tamamilə aydındır ki, Çinin, Hindistanın və Pakistanın güclənməsi, eləcə də Rusiyanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində bu regionda nəzərəçarpacaq dərəcədə fəallaşması əvvəlcə Rusiya-Çin-Hindistan formasında yeni Asiya oxunun yaranmasına gətirib çıxaracaq, gələcəkdə isə, Rusiyanın Yaxın Şərq tənzimlənməsi prosesində iştirakı fəallaşacağı təqdirdə, İslam dünyası, xüsusən Pakistan da buraya əlavə oluna bilər. Məhz bu cür geosiyasi dəyişikliklər "identikləşmələr böhranı"nın amillərindən biridir.

Bu baxımdan demək lazımdır ki, "identikləşmələr böhranı" XXI əsr dünya siyasətinin daha bir aspektdən – Ümumavropa xarici siyasətinin avtarkiya xarakterli olmasından irəli gəlir. Xeyli dərəcədə daxili siyasi və iqtisadi problemlərin həllinə istiqamətlənən Avropa getdikcə qapalı məkana çevrilməkdədir və praktik olaraq, Afrikada və Yaxın Şərqdə öz təsirini tamamilə itirmişdir. Hətta 2006-cı ilin sentyabr ayında İsrailin Livanda "Hizbullah" təşkilatına qarşı apardığı əməliyyatın lap qızğın vaxtında Böyük Britaniyanın Baş naziri T.Bleyerin Livana səfəri də yaranmış münaqişənin həll edilməsi imkanı kimi qiymətləndirilmirdi. Aİ postsovet məkanında "yeni qonşuluq" proqramı vasitəsilə xarici siyasətin fəallaşmasını imitasiya etməyə çalışır, hərçənd, reallıqda bu proqram yeni müstəqil dövlətlərin perspektivdə Aİ üzvləri

olacağını vəd etmir. Üstəlik, bəzən bu cür proqramlar yalnız Köhnə dünyanın SSRİ dağılandan sonra yaranmış təsir dairələrinin yenidən bölüşdürülməsində ABŞ-la rəqabət aparmaq cəhdi hesab edilir.

Onu da qeyd etmək lazımdır ki, qərarlaşmış dünya nizamı Rusiyanın öz sərhədlərinin bilavasitə yaxınlığında baş verən proseslərə təsir göstərmək imkanlarını da bir qədər məhdudlaşdırmışdır. Britaniyada çıxan "The Guardian" qəzeti yazır: "Latin Amerikasının Birləşmiş Ştatların arxa həyəti olması ilə sükutla razılaşma vaxtları çoxdan keçmişdə qalmışdır. Bu, Rusiyaya və onun keçmiş respublikalarına da aiddir..."[1]. Ona görə də şübhə yoxdur ki, Avropanın "siyasi avtarkizmi" və ABŞ-ın *Pax-Americana* yaratmaq cəhdləri perspektivdə monosentrik dünya nizamının ŞƏT formatının təkmilləşdirilməsi yolu ilə pravoslav-müsəlman-Asiya ittifaqı formasında alternativ yaradılması müstəvisinə keçməsinə səbəb olacaqdır.

"İdentikləşmələr böhranı" gələcəkdə məhz bunda ifadə olunacaq ki, münaqişə yaranması perspektivi təkcə çoğrafi və dini əlamətlərə görə deyil, daha çox geostrateji marağa görə təzahür edəcəkdir. Bunun nəticəsində Rusiya-İslam dünyası-Çin və Hindistan İttifaqının yaradılması yaxın gələcəkdə gerçəkləşə bilər. Lakin biz realistlərik və başa düşürük ki, müasir dövrdə hərbi-siyasi bloklar yaranmır. Yəqin ki, bu cür birləşmə geoiqtisadi maraqları geostrateji tərəfdaşlığın təməli hesab etməklə, birlik üzvlərinin iqtisadi və sənaye baxımından tərəqqisinə imkan yaradacaqdır. ŞƏT çərçivəsində birləşmə dünyanın gələcək alternativinin mümkün perspektivi hesab edilə bilər. (Şanxay Əməkdaşlıq Təşkilatı daimi fəaliyyətdə olan hökumətlərarası beynəlxalq

[1] http://news.bbc.co.uk/hi/russian/uk/newsid_5401000/5401322.htm.Guardian

təşkilatdır. Bu təşkilatın yaradılması 2001-ci il iyunun 15-də Şanxayda (ÇXR) Qazaxıstan Respublikası, Çin Xalq Respublikası, Qırğızıstan Respublikası, Rusiya Federasiyası, Tacikistan Respublikası və Özbəkistan Respublikası tərəfindən elan edilmişdir. Bundan əvvəl "Şanxay beşliyi" mexanizmi vardı. Şanxay Əməkdaşlıq Təşkilatının əsas məqsədlərinə aşağıdakılar aiddir: üzv ölkələr arasında qarşılıqlı etimadın və mehriban qonşuluğun möhkəmlənməsi; siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni sahələrdə, eləcə də təhsil, energetika, nəqliyyat, turizm, ətraf mühitin qorunması və başqa sahələrdə onların səmərəli əməkdaşlığına kömək; regionda sülhün, təhlükəsizliyin və sabitliyin birlikdə təmin edilməsi və qorunub saxlanması; yeni demokratik, ədalətli və rasional beynəlxalq siyasi və iqtisadi qayda yaradılmasına doğru irəliləmək. ŞƏT ölkələrinin ümumi ərazisi Avrasiya materikinin bütün ərazisinin beşdə üç hissəsindən çoxunu əhatə edir və təqribən 30 milyon 189 min kvadratkilometrə, bu ölkələrin əhalisinin sayı isə təqribən 1,5 milyard nəfərə, yəni Yer kürəsinin bütün əhalisinin təxminən dörddə birinə bərabərdir). Bizim fikrimizcə, Özbəkistanın GUAM-dan çıxması və sonradan ŞƏT çərçivəsində onun fəalliyyətinin güclənməsi məhz Avrasiya modeli formatında monosentrik dünya nizamının alternativinin yaradılması haqqında yuxarıda göstərdiyimiz tezisin ifadəsidir. Üstəlik, ŞƏT-in iclaslarında İran Prezidenti Əhmədinejadın iştirak etməsini, eləcə də Monqolustan, Hindistan və Pakistanın bu təşkilata daxil olmaq istəyini bildirməsini nəzərə alaraq, ehtiyatla da olsa, belə güman etmək olar ki, pravoslav-müsəlman-Asiya İttifaqı gələcək geosiyasətin real təsdiqidir. İkiqütblü dünya nizamı yaradılmasının başlanğıc mərhələsində bu planın rəsmi mətni belə səslənirdi: "ŞƏT-in üzvü olan bəzi ölkələr koalisiya iştirakçısı olan

dövlətlərin hərbi kontingentlərinin müvəqqəti yerləşdirilməsi üçün özlərinin yerüstü infrastrukturunu təqdim etmişdir. ŞƏT-in üzvü olan dövlətlər Əfqanıstanda antiterror əməliyyatının fəal hərbi fazasının başa çatmasını nəzərə alaraq, bunu zəruri hesab edirlər ki, antiterror koalisiyasının müvafiq iştirakçıları adları çəkilən infrastruktur obyektlərindən müvəqqəti istifadənin və ŞƏT-in üzvü olan ölkələrin ərazisində hərbi kontingentlər olmasının son müddətlərini müəyyən etsinlər". (Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin liderlərinin sammitinin Bəyannaməsi, iyul 2005-ci il).

Türkiyənin Aİ-yə daxil olması üçün "qapıların bağlana" biləcəyini nəzərə alaraq, onun ŞƏT-in üzvü olması perspektivi və bunun nəticəsi kimi Aİ-yə müqabil olaraq Avrasiya konsepsiyasının güclənməsi aktuallaşacaqdır. Bu baxımdan, görkəmli Amerika politoloqu Z.Bjezinskinin aşağıdakı sözləri çox əhəmiyyətlidir: "Avropa və Asiya libasları geyinən antiamerika reaksiyası yaranması ehtimalını tam şəkildə istisna etmək olmaz. Əgər panavropa və panasiya hərəkatları Amerikanı ümumi təhlükə hesab edənlərin hamısını öz bayraqları altına toplasalar, bu ehtimal gerçəkləşə bilər. Bu halda antiamerikanizm şüurlu surətdə regional millətçilik formasında özünü göstərəcək, bu qüvvələri birləşdirən platforma isə Avrasiyanın Qərb və Şərq ucqarlarında Amerikanın iştirakını azaltmaq və ya Amerikanı oradan tamamilə sıxışdırıb çıxarmaq cəhdləri olacaqdır"[1].

Bu cür geosiyasi ayrılma labüd olaraq ona gətirib çıxaracaq ki, sivilizasiyanın istiqamətindən asılı olmayaraq, yeni geostrateji ittifaqlar yaranacaqdır, bu ittifaqların məqsədi qərarlaşmış mondializmə, daha dəqiq desək, imperializmə

[1] З.Бжезинский. Выбор: мировое господство или глобальное лидерство. М., 2004, стр.168.

alternativ yaradılmasında özünü göstərəcəkdir. Çünki imperializm dedikdə, "elə bir proses başa düşülməlidir ki, onun köməyi ilə bir millət özünün varlanması naminə, dominantlıq edən siyasi-iqtisadi mənafelər naminə başqa xalqın torpağını, əməyini, xammalını, bazarlarını qəsb edir"[1].

Artıq qeyd etdiyimiz kimi, qloballaşma "qızıl milyard" ilə Yer kürəsi əhalisinin qalan hissəsi arasında davamlı qeyri-bərabərlik yaratmışdır. Buna əyani misal: "Şimali Amerika və Avropa korporasiyaları Asiya, Afrika və Latın Amerikasının məlum faydalı qazıntılarının dörddə üçündən çoxuna nəzarət edir. Lakin təbii ehtiyatlar hərisliyi kapitalizmin xarici ekspansiyasının yeganə səbəbi deyildir. Bundan əlavə, istehsal xərclərinin azaldılması və ucuz işçi qüvvəsi təklifinin çox olduğu ölkələrə investisiya qoyulması yolu ilə mənfəəti maksimum artırmaq lazımdır. ABŞ-ın hüdudlarından kənarda korporasiyaların sərmayələri 1985-1990-cı illərdə 84 faizə çatmışdır, özü də sərmayənin ən çox artımı ucuz işçi qüvvəsinə malik olan Cənubi Koreya, Tayvan, İspaniya və Sinqapur kimi ölkələrdə müşahidə edilmişdir... Əmək haqqı səviyyəsinin aşağı, vergilərin az olması, həmkarlar ittifaqlarının zəifliyi ucbatından, eləcə də əməyin mühafizəsi və ekologiyanın qorunması sistemləri olmadığına görə, işçilərə güzəştlər tətbiq edilməməsi nəticəsində "üçüncü dünya" ölkələrində Amerika korporasiyalarının mənfəəti inkişaf etmiş ölkələrdəkindən 50 faiz yüksəkdir"[2]. Buna görə də aydındır ki, maliyyə nemətlərinin qeyri-bərabər bölgü prosesləri labüd olaraq yeni geosiyasi ittifaqların yaranmasına doğru aparır. Bu ittifaqların strateji məqsədi "üçüncü dünya" ölkələrinin təbii

[1] Майкл Паренти. Истинные цели американского империализма. М., 2006, стр.12.

[2] Yenə orada, səh.15.

ehtiyatları üzərində nəzarəti ələ keçirmək və enerji ehtiyatlarının yeni mənbələrini axtarmaqdır.

Ümumdünya inteqrasiyası dövlətlər arasında qarşılıqlı münasibətlərin yeni formalarını yaratmışdır, lakin qloballaşma proseslərinin dərinləşməsi və bəzi ölkələrə zorla qəbul etdirilən sərt fiskal qənaət proqramları daxili siyasətin həyata keçirilməsinə təzyiq göstərməyə başlamışdır. Bu cür qlobal dəyişikliklərə hazır olmayan inkişaf etməkdə olan iqtisadiyyatlar öz siyasi və iqtisadi sistemlərini qərbli sərmayədarların istədiyi kimi transformasiya etməyə başlamış, bu isə "üçüncü dünya" ölkələrində ciddi dəyişikliklərə səbəb olmuşdur. C.Stiqlitsin təbirincə desək, "inkişaf etməkdə olan kiçik ölkələr balaca gəmilərə oxşayır. Beynəlxalq Valyuta Fondunun tətbiq etdiyi nümunə əsasında kapital bazarının sürətlə liberallaşdırılması ona oxşayırdı ki, bu balaca gəmilərin dəlmə-deşik gövdələrini yamamamış; kapitanlar hazırlıq keçməmiş; xilasetmə jiletləri ilə təchiz edilməmiş onları fırtınalı dənizdə səyahətə göndərsinlər. Hətta ən əlverişli şəraitdə belə, bu cür gəmilərin güclü dalğanın zərbəsi nəticəsində çevrilməsi ehtimalı yüksəkdir"[1].

Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd edək ki, qlobal transformasiyaların mürəkkəb şəraiti transformasiya etməkdə olan iqtisadiyyatların dövlət inkişafının siyasi, iqtisadi və sosiomədəni mühitinə təsir göstərir. Eyni zamanda, tranzitar cəmiyyətlərin səmərəli inkişafdan kənarda qalmaq riski çox böyükdür, onlar hər bir reseptləri bütün bəlaların çarəsi kimi qəbul edir və öz sistemlərini yenidən qurmağa başlayır. Qeyri-qərb məkanları qərbləşmə problemi ilə üzləşdikləri bir vaxtda qərb cəmiyyətləri qarşısında onların öz

[1] Дж.Стиглиц. Глобализация: тревожные тенденции, стр.36.

sosiomədəni məkanında yabançı cəhətin güclənməsi məsələsi qarşıya çıxır. Lakin belə bir sual doğur: biz bu cür sentensiyaları müsbət cəhət hesab etməliyikmi, axı, qlobal inteqrasiya dövründə mədəniyyətlərin hər hansı şəkildə birləşməsi və sonradan onların bir-birini qarşılıqlı surətdə zənginləşdirməsi sülhün və sabitliyin bərqərar olmasına imkan yaradan müsbət amil hesab edilə bilər, yoxsa, hər halda, bu cür meyilləri təhdid kimi qəbul etməli və onlara hər vasitə ilə müqavimət göstərməliyik? Tarix, demək olar, həmişə sübut etmişdir ki, mədəniyyətlərin birləşməsi labüd surətdə onlardan birinin dominantlıq etməyə çalışmasına və digərinin tabe olmaqdan imtina etməsinə gətirib çıxarır. Nəticədə mədəniyyətlərin toqquşması işğalçılıq müharibələrinə səbəb olmuşdur. İslam dünyasına qarşı səlib yürüşləri buna əyani misaldır.

Hegel yazırdı ki, "islam artıq çoxdan ümumdünya tarix səhnəsindən çıxmış və Şərqin sakit və hərəkətsiz mühitinə qayıtmışdır"[1]. Lakin son onilliyin siyasi və sosial hadisələri göstərir ki, islam aləmi yeni dünya nizamının formalaşmasının mühüm aspekti olaraq qalır. Müasir dünyada ən sərt qarşıdurma məhz əhalisinin əksəriyyəti müsəlmanlar olan ölkələrdə baş verir. Qərbdə yetişdirilmiş demokratik modelin tətbiq edilməsindən, başqa sözlə desək, Qərbə xas olan həyat formasının və tərzinin ixrac edilməsindən ibarət olan müharibənin mahiyyəti isə XXI əsrdə qarşıdurmaya Qərb ilə Şərq arasında müharibə xarakteri verir. Tariq Əlinin sözləri ilə desək, "tarixi yenidən yazmaqdan daha çox, onun mövcud olmasını inkar edirlər"[2]. Nəticədə "cəzasızlıq təkəbbürə; təkəbbür nifrətə, nifrət isə bu müstəbid dövləti devirmək üçün

[1] Лекции по истории философии. СПб, 1993, стр.377.
[2] T.Əli, səh.27.

şiddətli arzuya səbəb olur”[1]. 2001-ci ilin sentyabr hadisələri ilə başlanan, sonradan genişlənərək, İraqda və Əfqanıstanda “demokratiya qurmaq cəhdlərinə çevrilmiş Qərb ilə Şərqin toqquşması böyük mütəfəkkirin təqribən 400 il bundan əvvəl dediyi sözlərin əyani illüstrasiyasıdır.

Hazırda islam dünyası zəngin maliyyə mənbələrinə və təbii ehtiyatlara malik olan bir məkandır və bu, onu regional siyasətin nüfuzlu aktoruna çevirir. Lakin dünya miqyasında islam aləmi geosiyasi mənafelər üzrə birləşmiş bir məkan kimi çıxış etmir. Eyni zamanda, malik olduğu sanballı maliyyə imkanlarına və resurslara baxmayaraq, islam dünyası hələ də iqtisadi çətinliklər çəkir və Qərbin nəzərində “üçüncü dünya” dərəcəsində qalır. Hərçənd, zəngin təbii və insan ehtiyatlarına, faydalı qazıntılara malik olan BƏƏ-ni və Səudiyyə Ərəbistanını, Malayziyanı və Hindistanı “inkişaf etməkdə olan” ölkələr sırasına aid etmək çətindir. Məşhur politoloq, professor Maykl Parentinin fikrincə, “iqtisadi inkişaf səviyyəsinin aşağı olması həmin ölkələrə zorla qəbul etdirilmiş məxsusi bir inkişaf tərzidir”[2]. Müəllif daha sonra yazır: “Geniş pul dövriyyəsi nəzəriyyəsinə görə, Cənubun “geridə qalmış” ölkələrinin inkişafı onlara texnologiyalar və müvafiq iş ənənələri gətirən varlı şimal ölkələrindən asılıdır. “Ağ adamın yükü” haqqında bu təkmilləşdirilmiş versiya imperialistlərin sevimli uydurmasıdır... Bu “inkişaf nəzəriyyəsi”, yaxud bəzən deyildiyi kimi, “modernləşdirmə nəzəriyyəsi” gerçəkliklə bağlı deyildir. “Üçüncü dünya” ölkələrində “asılı” kapitalizmin intensiv istismarçı növü yaranmışdır. Transmilli korporasiyaların sərmayələri artdıqca, iqtisadi şərait nəzərəçarpacaq dərəcədə pisləşməyə

[1] T.Hobbs. Leviafan, 1651.
[2] M.Parenti, səh.24.

başlamışdır. Problem ərazilərin yoxsulluğunda və ya əhalinin qeyri-məhsuldar işləməsində deyil, xarici istismarın və sinfi bərabərsizliyin olmasındadır. Sərmayədarlar ölkəyə onun inkişafına kömək etmək üçün deyil, özləri varlanmaq üçün gəlirlər"[1].

Bu cür baxışlarla yanaşı, digərləri də var və onlar belə hesab edir ki, qlobal inteqrasiya yoxsulluq səviyyəsinin azaldılmasına şərait yaradır və inkişaf etməkdə olan dövlətlərin əhalisinin yoxsul təbəqələrinin sosial müdafiəsini artırır. Lakin bizim məqsədimiz qloballaşmanın iqtisadi ilkin şərtlərini təhlil etmək deyil, monosentrik dünya nizamına münasibəti ifadə edən baxışları göstərməkdir.

Beləliklə, formalaşmaqda olan dünya nizamı yaxın gələcəkdə beynəlxalq münasibətlərdə çoxmərkəzliyin yaranmasına kömək edəcək, çünki mövcud qeyri-mütənasiblik əkstəsir doğurur. Dünya tarixində qüvvələrin tarazlığının çox nadir hadisə olmasına baxmayaraq, tarazlıq yarananda da o, tarixən qısa bir dövrü əhatə edir. Görünür, yeni çoxmərkəzlik qüvvələrin bərabər paylanmasını nəzərdə tutmur. Yeni geoiqtisadi ittifaqlar inkişaf etməkdə olan dövlətlər və dünya səviyyəsinə çıxmaqda olan regional dövlətlər üçün davamlı və əlverişli iqtisadi fon yaradılmasına istiqamətlənəcəkdir. Rusiya və Avropanın "rədd etdiyi" dövlətlərlə birlikdə belə bir ittifaq yaradılması fikri həyat qabiliyyətli ola bilər.

Radikal müsəlmanların fikrincə, islam dünyası qərbpərəst komprador rejimlərə və islam ənənələrinə sadiq qalmış dövlətlərə bölünmüşdür. Çoxmərkəzlik şəraitində müsəlman dövlətlərinin perspektivi aşağıdakı səbəblərə görə olduqca maraqlıdır: (1) dünyada ən zəngin enerji ehtiyatları mənbəyi-

[1] M.Parenti, səh.27-28..

nin olması; (2) qərbdə Mərakeşdən tutmuş şərqdə İndoneziyaya, şimalda keçmiş sovet respublikalarından başlamış cənubda Uqanda sərhədlərinə qədər geniş bir məkanı əhatə edən mühüm strateji ərazilərə malik olması; (3) əhalinin sayının get-gedə artması, yəni geodemoqrafiya amili (hələ 1970-ci illərdə Avropa ölkələrində doğum səviyyəsi təbii təkrar istehsal səviyyəsindən aşağı idi, islam dünyasında isə əhalinin artım sürəti qat-qat ləng azalırdı. 1990-cı illərin axırlarında Aİ-dən cənubda və şərqdə yerləşən səkkiz müsəlman ölkəsində doğum səviyyəsi Avropa göstəricilərindən 2-3 dəfə yüksək idi). Qeyd etmək lazımdır ki, XX əsrdə digər dünya dinləri ilə müqayisədə islamda dindarların sayının artım sürəti ən yüksək idi. XX yüzillikdə dünya əhalisi arasında müsəlmanların sayı 13 faizdən 19,5 faizə çatmışdı. Bu artımın təqribən 6 faizi müsəlman xalqlarda doğum göstəricisinin yüksək olması, 0,5 faizi isə qeyri-müsəlmanların islam dinini qəbul etməsi ilə əlaqədar idi (söhbət ABŞ-da 1,65 milyon "qara müsəlman" yaranmasından, eləcə də XX əsrin son onilliklərində 1 milyona qədər avropalının islamı qəbul etməsindən gedir). İslamı yeni qəbul edənlərin yaşı 30 ilə 50 arasında dəyişir, onların əksəriyyəti qadınlardır. Mövcud proqnozlara görə, 2006-cı ildə xristianların sayı 27 faiz, müsəlmanların sayı isə 33 faiz artacaqdır. Əgər bu meyillər gələcəkdə də davam edərsə, 2025-ci ilə qədər müsəlmanlar dünya əhalisinin təqribən 30 faizini təşkil edə bilər, beləliklə, onların sayı xristianların sayından çox olacaq və islam ən kütləvi dünya dininə çevriləcəkdir. Üstəlik, 1950-ci ildə Böyük Britaniya əhalisinin sayı İran əhalisinin sayından üç dəfə çox idi. Lakin 1995-ci ildən İran öz vətəndaşlarının sayına görə Böyük Britaniya ilə bərabərləşmişdir və proqnozlara görə, 2050-ci ilə qədər İran onu 50 faiz üstələyəcəkdir. Bununla belə, Qərbdə bu irəliləyişin

nəticələrini minimuma endirməyə cəhd göstərilir. Burada şüuraltı tərzdə Yaxın Şərqi XX əsrin ortalarına qədər həqiqətən olduğu kimi, yenə də Qərbə tabe olan bir region kimi qəbul edirdilər. Müsəlman ölkələrindən olan insanlara Qərbdə belə münasibətin olması cəmiyyətdə mahiyyəti mədəni sahə ilə bağlı olan münaqişəyə gətirib çıxarır.

Dini transformasiyaların əsas sosial nəticələrindən biri dünyanın dini landşaftının məkan nisbətlərinin dəyişməsi ola bilər. Qərbi Avropanın aparıcı ölkələrində daimi yaşayan müsəlmanlar artıq indi orada əhalinin 24 faizini təşkil edir. Əgər bu proses gələcəkdə də davam edərsə, Avropanın xristian əhalisi dini azlığa çevriləcəkdir. Bütövlükdə isə, islam mədəniyyəti planetin çox hissəsində dominantlıq etməyə başlaya bilər.

Bu cür proqnozlar vaxtilə Əndəlisdən başlayaraq, 1653-cü ildə sərhədləri Vyanaya qədər çatan Ərəb Xilafətini yaratmış müsəlman dünyasının geosiyasi cəhətinin güclənməsinə birmənalı şəkildə kömək edir. Məlumdur ki, məhz Ərəb Xilafəti, sonra isə Osmanlı imperiyası dünya tarixində dərin izlər qoymuş, Avropa mədəniyyətinə təkcə elm və təhsil deyil, həm də yeni mədəniyyət, öz təfəkkür tərzini gətirmişdir. Gizli deyildir ki, məhz müsəlman dünyası Avropanı bir sıra kənd təsərrüfatı məhsulları ilə tanış etmişdir. VIII əsrdə müsəlmanlar İspaniyada çəltik yetişdirir, nar, xurma ağacları əkir, ipəkçiliyi tətbiq etmiş, pambıq becərməyə başlamışdılar. Avropada suvarma əkinçiliyi ərəblərin sayəsində tətbiq edilmişdir, onlar avropalılara suyun hündür yerlərə qaldırılması, torpağın suvarılması və qurudulması texnikasını öyrətmişlər. Ərəblər həm də Avropada suvarma kanalları sistemini, suyun paylanmasına ictimai nəzarəti yaymışlar. VIII əsrdə Səmərqənddə və Buxarada kağız emalatxanaları işləyirdi.

Avropada isə yalnız dörd əsr sonra ərəblərin İspaniyaya gətirdikləri kağız sayəsində yerli kağız emalatxanaları işə salınmışdı. İpək və yun parçalar, güləbətin işləməli bahalı dəri növləri, üzərinə emal və şəkil çəkilmiş şüşə və tunc qab-qacaq, gözəl keramika məhsulları, fil sümüyündən hazırlanmış məmulatlar və yaraqlar – çox incə oyma üsulu ilə bəzək vurulmuş qılınclar və qınlar hazırlanmasında müsəlman İspaniyasının şəhərlərindəki emalatxanaların tayı-bərabəri yox idi. Əndəlis müsəlmanlarının sayəsində Avropada dulusçuluq və çini məmulatlar istehsalının təməli qoyulmuşdur. Xəlifə və eyni zamanda alim olmuş Məmun Yer kürəsinin dövrəsini ölçməyə cəhd göstərmişdir. Bu ölçmələrdə iştirak etmiş riyaziyyatçı Xarəzmi (787 – təqribən 850-ci illər) Məmunun sarayında işləyirdi. Sıfır rəqəmi Avropada məhz Xarəzmin əsərləri sayəsində yayılmışdır. Latın dilindəki "cifra" ("rəqəm") sözü ərəbcə "sıfr" ("heç", "boş") sözündən əmələ gəlmişdir. İlk vaxtlar latıncada "həm də "heç" mənasında işlənən bu sözdən fransız dilindəki "chifre", ondan da rus dilindəki "şifr" sözü yaranmışdır. Xarəzmi "Cəbr və müqabilinin hesablanması haqqında qısa kitab ("Əl-kitab əl-müxtəsər fi hisab əl-cəbr va-l-müqabilə") adlı elmi traktatın müəllifidir. Bu əsərdə tənliklərin həlli qaydaları verilmiş, hədləri tənliyin bir tərəfindən digərinə əks işarə ilə köçürmə əməli olan "əl-cəbr" termini işlədilmişdir. Avropada qəbul edilmiş "Algebra" termini bu sözdən əmələ gəlmişdir. Latın dilindəki "algorithmi" ("alqoritm") termini əl-Xarəzminin latınlaşdırılmış adındandır. Hazırda alqoritm riyaziyyatın və kibernetikanın əsas anlayışlarından biridir.

Orta əsrlər tarixinə bu qısa ekskurs müsəlman aləminin Qərbə təsirinin yalnız cüzi bir hissəsini əks etdirir. Bəs bu gün nə baş verir? Qərb Şərqin demoqrafik hücumunun təsiri

altındadır, Şərq özü isə Qərbdən geosiyasi və geoiqtisadi "hücuma" məruz qalmışdır. Beləliklə, qlobal inteqrasiya təkcə dövlətlərin və milli suverenliyin sərhədlərini gizli şəkildə transformasiya etməklə, dövlətləri get-gedə daha artıq dərəcədə siyasi və iqtisadi proseslərə məruz qoymaqla, transmilli korporasiyaların hakimiyyəti altına salmaqla kifayətlənməyib, həm də mədəni münaqişə və ya identifikasiyaların toqquşması üçün real zəmin yaradır, çünki ayrılıqda götürülmüş hər bir identikliyin dəyişməyə və ya başqa identikliklə yanaşı, mövcud olmağa meyil etməyən öz kodlarının alqoritmi vardır. Bu mühitə "yad cisimlər" düşdükdə isə, "identifikasiyaların böhranı" dövrü başlanır.

Biz hansı istiqamətdə hərəkət etməliyik

Bizə belə gəlir ki, yuxarıda qeyd etdiyimiz qlobal transformasiyalar fonunda Azərbaycanın milli siyasəti zamanın sınağından çıxmış, dünya ölkələri birliyində onun nüfuzunun artmasına xidmət edən prinsiplər əsasında qurulmalıdır.

Yuxarıda deyildiyi kimi, qloballaşmanın öz yerini xeyli dərəcədə regionallaşmaya verməyə başlaması müasir dövrün səciyyəvi cəhətinə çevrilir, regionallaşma yeni geostrateji ittifaqların və blokların formalaşması üçün zəmin yaradır. Burada söhbət ondan gedir ki, dünya siyasətində "atlantizm"dən geri çəkilməyə şərait yaradacaq iqtisadi və siyasi birliklərin yaranması meyli getdikcə daha aşkar görünür. Bu baxımdan, zəngin təbii ehtiyatlara malik olan və Cənubi Qafqazda ən əlverişli geosiyasi mövqedə yerləşən bir ölkə kimi Azərbaycan həm Avropa, həm də Asiya üçün maraq doğurur. Buna görə də hər hansı böyük dövlətin regionda dominantlıq etməyə cəhd göstərməsi regional təhlükəsizliyə, sabitliyə, milli

tərəqqiyə nail olmaq və Cənubi Qafqazda münaqişələri yumşaltmaq mövqeyindən qiymətləndirilməlidir.

Avropaya inteqrasiyanı genişləndirmək siyasəti yürüdən Azərbaycanın Avratlantik məkanı ilə sıx əməkdaşlığı milli xarici siyasətin özəyi olaraq qalır. Bununla bərabər, Avropa İttifaqının "yeni qonşuluq siyasəti" Aİ çərçivəsində strateji qarşılıqlı münasibətlər yaradılmasının mühüm perspektiv elementi kimi çıxış edir. Eyni zamanda, unutmaq olmaz ki, Azərbaycan mühüm nəqliyyat kanalı və energetika resursları deməkdir, enerji daşıyıcılarından istifadə etmək imkanı isə yeni yaradılan geostrateji üçbucaqların və ittifaqların əsas qayğısına, bəlkə də, onların rəqabət elementinə çevrilə bilər. Azərbaycan Prezidenti İlham Əliyev bununla əlaqədar demişdir: "İndi Avropa İttifaqının sərhədləri bizim regionumuza daha da yaxınlaşır. Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilibdir. Ona görə də bizim regionumuzda əsas götürüləcək meyarlar Avropa İttifaqında mövcud olan meyarlara çox bənzər olacaqdır. Azərbaycan ilə Avropa İttifaqı arasında çox güclü enerji dialoqu aparılmaqdadır. Bizim nəqliyyat imkanlarımız, istismara verilmiş boru kəmərləri regionda tamamilə yeni bir vəziyyət yaradır. Xəzər regionunun dünya üçün enerji təchizatı məsələsində oynadığı rol get-gedə daha da artacaqdır"[1].

Avropa mühüm istiqamətdir, lakin unutmamalıyıq ki, qlobal proseslərdə Avropa istehlakçı kimi çıxış edəcəkdir. Deməli, regional məsələlərlə əlaqədar Avropa ilə daim intensiv dialoqlar aparılmalıdır. Üstəlik, "sovet təhlükəsi" keçmişdə qalması ilə ABŞ-la Avropa arasında dünyaya münasibətin səviyyəsində siyasi-fəlsəfi fikir ayrılıqları və fərqlər bir sıra

[1] Azərbaycan Prezidenti İlham Əliyevin Bled şəhərində "CASPIAN OUTLOOK-2008" strateji forumunda nitqindən. 30.08.2006. AzərTAc.

məsələlərdə – (Nüvə sınaqlarının tamamilə qadağan edilməsi haqqında müqavilə, Bioloji konvensiyanın verifikasiya mexanizminin yaradılması, Kioto protokolu, Beynəlxalq cinayət məhkəməsi, ölüm cəzası və s. öz ifadəsini tapır), – iqtisadi inkişafın sərt anqlsaks modeli ilə kontinental Avropanın sosialyönümlü siyasəti arasında fərqlər üzə çıxmışdır. Bu fakt "soyuq müharibə" başa çatandan sonra beynəlxalq münasibətlərin "buzunun əriməsinin" çoxsaylı nəticələrindən birini təsdiq edir.

Müasir dünyada iqtisadi plüralizmlə yanaşı, siyasi və mədəni plüralizm də genişlənməkdədir. Beynəlxalq sistemdə yaranmaqda olan çoxqütblülüyün, daha dəqiq desək, çoxölçülülüyün nəticələri birmənalı olmur. O cümlədən, müxtəlif dəyərlər sistemi və siyasi mədəniyyətlər heç də həmişə, necə deyərlər, dinc yanaşı mövcud olmur. Bu baxımdan, xüsusən, İslam Konfransı Təşkilatının güclənməsi ilə əlaqədar, islam dünyası ilə intensiv dialoq aparılması zəruridir. Azərbaycan həm ölkənin müsəlman əhalisinin çoxluq təşkil etməsini, həm də bütövlükdə islam dünyasının əhəmiyyətinin artmasını nəzərə alaraq, bu təşkilatın fəaliyyəti çərçivəsində öz əlaqələrini genişləndirməlidir. Başa düşməliyik ki, islam aləmi ilə qarşılıqlı əlaqələr təkcə mədəni və tarixi ümumiliyi deyil, həm də ərazi hüdudlarından kənarda qüvvədə olan qanunları pozmadan, müasir dövrdə elmi-texniki sahədə baş verən dərin dəyişikliklərin maddi sivilizasiyasının xüsusiyyətlərinə özünəməxsus bir tərzdə uyğunlaşma cəhdlərini boğmadan və onlara təzyiq göstərmədən modernləşmənin mümkünlüyünü ifadə edir.

İslam Konfransı Təşkilatı çərçivəsində fəaliyyətin genişləndirilməsi baxımından, Azərbaycan Qərb və Şərq mədəniyyətlərini birləşdirən körpü kimi çıxış edə, beləliklə, sivilizasi-

yaların dialoqunu yarada bilər. Geosiyasi mövqeyi, tarixi xüsusiyyətləri və ənənələri nəzərə alınmaqla, məhz Azərbaycan belə bir sosial-mədəni layihənin bazisi kimi çıxış etməyə qadirdir. Bu qəbildən olan təşəbbüslər Azərbaycan Prezidenti İlham Əliyevin islamofobiya meyillərinə qarşı birlikdə mübarizə aparmaq təklifi ilə səsləşir. "Biz indi sivilizasiyalar arasında dialoq haqqında çox danışırıq, amma əslində, real həyatda bunun əksini görürük. Onu görürük ki, müxtəlif ölkələrdə dini zəmində ayrı-seçkilik halları artır, islam dininə mənsub olan insanlara münasibət bəzi hallarda lazımi səviyyədə deyil və bu dini ayrı-seçkiliyə heç cür yol verə bilmərik. İndi biz qloballaşmadan söhbət açırıq, sivilizasiyalar arasında dialoqdan söhbət açırıq, demokratik dəyərlərə daha da sürətlə yiyələnirik. Belə olan halda, biz hər hansı zəmində – dini, yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmərik. Mən əminəm ki, İslam Konfransı Təşkilatı ölkələrinin birgə səyləri nəticəsində biz bütün bu məsələlərə dair öz mövqeyimizi bildirəcək, öz sözümüzü deyəcəyik. Ümid edirəm ki, birgə fəaliyyətimiz, müştərək işimiz bizi narahat edən bütün məsələlərə aydınlıq gətirəcək və onların qarşısı alınacaqdır"[1].

Azərbaycan mühüm geoiqtisadi məkandır və bunun aktuallığı təkcə külli miqdarda neft və qaz ehtiyatlarının olmasında, respublikamızdan keçən nəqliyyat arteriyalarında deyil, həm də Şərqi Avropa ölkələri ilə sıx iqtisadi əlaqələr qurulmasına imkan yaradacaq mühüm boru kəmərlərinin (Odessa-Brodı, Konstansa-Triyest) mövcudluğu və perspektivdə yeni boru kəmərlərinin çəkilməsi ilə şərtlənmişdir. Bu,

[1] İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyası. Bakı, 20.06.2006, AzərTAc.

XXI əsrin əvvəlində dünyada təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın iştirakı üçün təməl yaradır, çünki sirr deyil ki, enerji ehtiyatlarına malik olmaq dövlətimizin öz xarici siyasətinin həyata keçirilməsi üçün ona əlavə dividendlər verir. XXI əsr geoiqtisadiyyatında Azərbaycanın iştirakının əsas seqmenti tədricən qloballaşma proseslərinə qoşulmaq və bu yolla milli iqtisadiyyatı təkmilləşdirməkdir. Eyni zamanda, bu cür layihələr Qazaxıstanın, perspektivdə isə, ola bilsin ki, Türkmənistanın da nefti və qazının Avropa bazarına çıxarılması üçün aktualdır. Bu isə qiymətlərin və qıtlığın yüksək olduğu bir dövrdə Xəzər regionunu karbohidrogenlərin mühüm ixracçısına çevirəcəkdir.

Regional baxımdan Azərbaycan özünün siyasi və iqtisadi lider mövqeyini təmin etmişdir. Qarşıdakı illər üçün əsas məqsəd bu mövqeləri daha da təkmilləşdirməklə, Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaqdır. Azərbaycan siyasi sabitlik yaranmış ölkədir, iqtisadi göstəricilərə görə isə respublika dünyada lider mövqeyi tutur. Ekspertlərin hesablamalarına görə, "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə nəql edilməsinin başlanması 2009-cu ildə dövlət büdcəsinə əlavə 5,6 milyard ABŞ dolları (neftin bir barrelinin qiyməti 50 ABŞ dolları götürüldükdə), 2010-cu ildə isə 11,8 milyard dollar gəlir gətirəcəkdir. Rəqabət Qabiliyyətinin Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin məlumatlarına görə, Azərbaycan 120 ölkə arasında 64-cü yerdədir. Həmin siyahıda Rusiya 62-ci, Gürcüstan 84-cü, Ermənistan isə 86-cı yerdədir. ABŞ senatoru R.Luqarın təbirincə desək, Azərbaycan siyasi baxımdan "məsul demokratiya" yaratmağa müvəffəq olmuşdur, bu isə ölkəmizdə dövlətçiliyin sabit və səmərəli inkişafına kömək edir.

Şübhə yoxdur ki, ABŞ ilə qarşılıqlı münasibətlər Azərbaycanın milli xarici siyasətinin prioritet istiqamətidir və bu münasibətlər milli mənafelər nəzərə alınmaqla yeni məzmunla dolğunlaşmalıdır. Ölkələrimiz arasında yaranmış müttəfiqlik münasibətləri və strateji tərəfdaşlıq bundan sonra da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, regional siyasətin mühüm subyekti kimi dünya səhnəsinə çıxmasına kömək etməlidir. Bu qarşılıqlı münasibətlər XXI əsrin yeni təhdidlərinə qarşı birgə mübarizə aparmaq səylərimizi və cari yüzilliyin təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın fəal iştirak etmək arzusunu əks etdirir. Bununla yanaşı, Azərbaycan demokratik inkişaf, seçki prosesləri, vətəndaş cəmiyyətinin, müstəqil mass-medianın formalaşması, silahlı qüvvələrin təkmilləşdirilməsi məsələlərində ABŞ-la sıx əməkdaşlıq edir. Həmin məsələlərin bütün kompleksi xarici siyasətin çoxvektorluluğunu qoruyub saxlamaqla ölkəmizin Avratlantik məkana inteqrasiya xəttinin ifadəsidir. Bu o deməkdir ki, hər bir vektor özlüyündə bizdən ötrü qiymətlidir. Bəzi tərəfdaşlarla əməkdaşlığın başqalarına qarşı fəallaşdırılması "müasir aləmdə beynəlxalq münasibətlərin təbiətinə artıq uyğun gəlməyən "Böyük oyun" geosiyasət məcrasında həyata keçirilən cılız davranış xətti olardı"[1].

Azərbaycan beynəlxalq və regional təşkilatlarda fəal siyasəti bundan sonra da davam etdirməlidir. Prezident İlham Əliyev bu sahədə strateji istiqaməti mahiyyət etibarilə belə ifadə etmişdir: "Azərbaycan regional əməkdaşlıq məsələlərində iştirakına özünün xarici siyasətinin çox mühüm elementi kimi baxır". Hərbi-siyasi sahədə Azərbaycan həm NATO çərçivəsində, həm də İraqda koalisiya qüvvələrinin

[1] С.Лавров. Подъем Азии и восточный вектор внешней политики России, журнал "Россия в глобальной политике", 2006, №2, март-апрель.

tərkibində sülhyaratma əməliyyatlarında fəal iştirak edir. Eyni zamanda, Azərbaycan GUAM-ın (Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın) üzvü olan ölkələrdə siyasi və enerji təhlükəsizliyinin təmin edilməsinin mühüm elementi kimi, bu təşkilatın formalaşmasına xüsusi diqqət yetirir. Bəzi dövlətlərin GUAM-a münasibətinin mənfi demirik, kifayət qədər ziddiyyətli olmasına baxmayaraq, bu təşkilat MDB-də praqmatizmin olmamasının və Cənubi Qafqaz ərazisində etnik-siyasi münaqişələrin həllində Rusiyanın qeyri-adekvat mövqe tutmasının təbii nəticəsidir. Ona görə də GUAM çərçivəsində əməkdaşlığın genişləndirilməsi, bu təşkilatın və onun fəaliyyət formatının təkmilləşdirilməsi Azərbaycanın perspektiv vəzifəsidir. Prezident İlham Əliyev GUAM üzvü olan ölkələrin dövlət başçılarının zirvə toplantısında demişdir: "İndiki mərhələ GUAM-ın bütün atributları, fəaliyyət mexanizmi olan səmərəli beynəlxalq təşkilata çevrilməsi mərhələsidir"[1]. Regionallaşma məsələsində GUAM-ın beynəlxalq münasibətlər və siyasət, yeni perspektivli nəqliyyat arteriyalarının inkişaf strategiyasının işlənib hazırlanması, təşkilatın üzvü olan ölkələrin kollektiv təhlükəsizliyinin təmin edilməsi, münaqişələrin həlli, eləcə də XXI əsr üçün yeni təhlükəsizlik arxitekturasının formalaşmasına kömək məsələlərində ümumi yanaşmaların təmin edilməsi məqsədi daşıyan yetərli hərbi-siyasi və iqtisadi struktura çevrilməsi üçün çox geniş imkanlar vardır.

Milli xarici siyasətin prioritetlərini reallaşdırarkən Rusiyanın xüsusi rolunu görmək və bundan sonra da onu fərqləndirmək zəruridir. Rusiya dünya siyasətinin mühüm aktoru olmaqla bərabər, həm də Azərbaycanın çox mühüm geosiyasi və geoiqtisadi qonşusudur, Azərbaycanla onu möhkəm tarixi və mədəni tellər bağlayır.

[1] AzərTAc, 23.05.2006.

Prezident İlham Əliyevin Rusiya ilə əməkdaşlığı və qarşılıqlı münasibətləri möhkəmlətmək siyasəti, iki ölkə prezidentlərinin dostluğu və sıx əlaqələri zamanın sınağından çıxmışdır və tarazlaşdırılmış, çoxvektorlu siyasətin əsaslılığının əyani təsdiqidir. Rusiya ilə bərabərhüquqlu və bərabər, sabit münasibətlərin olmasını tarixin özü irəlicədən müəyyən etmişdir. Bunu başa düşmək çox vacibdir.

Bir neçə geoiqtisadi və geostrateji üçbucaq və blokdan ibarət olan çoxmərkəzli dünya nizamı qurulması imkanları inkişaf etdikcə, Sakit Okean-Asiya regionunda da Rusiyanın təsirinin əhəmiyyəti artacaqdır. Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyətə və Etimad Tədbirlərinə dair Müşavirənin (AQFETM) II sammitində qeyd etmişdir ki, "gələcəkdə Asiya regionunda əməkdaşlıq genişlənəcək, inkişaf edəcək, ölkələrimizin həm iqtisadi potensialı, həm də qarşılıqlı siyasi fəaliyyəti buna təkan verəcəkdir. Biz öz tərəfimizdən, bütün regional layihələrə fəal qoşulmağa hazırıq və bunlarda iştirak etmək niyyətindəyik"[1].

Asiya müxtəlif böhran hallarına qarşı yüksək davamlılıq nümayiş etdirir. İqtisadi artım təkcə satış bazarlarına çıxmağa, həm də get-gedə daha geniş miqyasda müasir texnologiyalara və enerji resurslarına nail olmağa tələbatın artmasına səbəb olur. Asiyada çoxtərəfli və ikitərəfli qarşılıqlı əlaqələrdə enerji təhlükəsizliyi probleminin get-gedə aktuallaşacağını gözləmək olar. İnteqrasiya proseslərinin sürətlə inkişaf etməsi müasir Asiyanın fərqləndirici cəhətidir. Regionda fəaliyyət göstərən çoxtərəfli birliklərin sayının və fəallığının artması çoxtərəflilik və kollektiv qərarlar qəbul edilməsi meylinin parlaq ifadəsidir. ASİŞ, ASEAN, ŞƏT ki-

[1] AzərTAc, 19.06.2006.

mi nüfuzlu qurumların fəaliyyəti buna misal ola bilər. Ümumiyyətlə, Asiyada ondan artıq bu cür birlik vardır.

Eyni zamanda, dünya siyasətində Avrasiyanın yerinə münasibətin heç də birmənalı olmaması göz qabağındadır. Bu baxımdan, Rusiyanın xarici işlər naziri S.Lavrovun sözləri diqqəti cəlb edir: "Asiyanın dirçəlişi qloballaşmanın məhsuludur, o, artım və nüfuz resurslarının dünyada daha bərabər şəkildə bölünməsinə imkan yaradır. Qərb dəyərləri və Qərb həyat tərzi üçün heç bir təhdid yoxdur. Sadəcə olaraq, indi rəqabət mühiti yaranır və cəmiyyətin inkişafında dəyər oriyentirləri məsələsinə gəldikdə... amerikalılar öz qüvvələrinə inanırlar, buna görə də onların qorxmalı olduğu bir şey yoxdur, heç kim onları başqa allahlara səcdəyə məcbur etməyəcəkdir. Lakin ABŞ özü də öz oyun qaydalarını və hamı üçün ümumi olan dəyərlər barədə öz interpretasiyasını başqalarına zorla qəbul etdirməməlidir. Con Kennedi etiraf edirdi ki, Amerika "hər şeyə qadir deyil və hər şeyi bilmir", buna görə də "dünyanın bütün problemlərinin Amerika həlli ola bilməz"[1].

Zəngin istehsal-texnoloji, elmi və təhsil potensialına malik olan Rusiya həm qlobal, həm də regional iqtisadi proseslərdən kənarda qala bilməz. Buna görə də MDB çərçivəsində qarşılıqlı münasibətləri ayıq iqtisadi təfəkkürlə qurmaq lazımdır ki, bu münasibətlər yaşarı və səmərəli olsun. MDB çərçivəsində qarşılıqlı əməkdaşlıq keçmişin irsindən tamamilə uzaqlaşmaqla, "soyuq müharibə" dövrü başa çatandan sonra qloballaşmaqda olan dünya üçün ümumi birləşdirici başlanğıc olmuş həmrəyliyin, daha dəqiq desək, ictimai inkişafın fundamental əsasları olan demokratiyanın və bazarın

[1] Rusiya xarici işlər nazirinin Beynəlxalq münasibətlər üzrə şurada "Rusiya və ABŞ: keçmişlə gələcək arasında" mövzusunda çıxışı. Los-Anceles, 25 sentyabr 2006-cı il.

alternativinin olmaması barədə həmrəyliyin məntiqinə uyğun şəkildə həyata keçirilməlidir. Əlbəttə, bu şərtlə ki, müvafiq dəyişikliklərin həyata keçirilməsinin sürəti və formaları ayrılıqda götürülmüş hər bir ölkənin konkret şəraitinin funksiyası olmalıdır. Azərbaycanın azadlıq və hadisələrə, o cümlədən beynəlxalq məsələlərə geniş nəzərlə baxmaq hüququ əldə etdiyi vaxtdan 15 ildən çox keçir. Ona görə də əsla təəccüblü deyil ki, dostlar və müttəfiqlər seçərkən təkcə köhnə dostluğa və ya tarixi qarşılıqlı əlaqələrə deyil, yalnız milli mənafelərə əsaslanmaq lazımdır.

Azərbaycan cəmiyyətinin davamlı milli inkişafının təmin edilməsi üçün milli siyasi məkanın postindustrial dövrü dəyərləri məcrasına transformasiya edilməsinə ehtiyac var. Məhz yeni davranış stereotiplərinin mövcud olması sivilizasiyalı siyasi rəqabəti və ikipartiyalı sistem modelinə (Amerika sistemi) keçidi formalaşdıra bilər. Bununla bərabər, müasir dövr "suveren demokratiyanın" bərqərar olmasını tələb edir. Aİ liderləri də bəyan etmişlər ki, Avropa "suveren demokratiyalar" ittifaqına çevrilməlidir. ABŞ-ın vitse-prezidenti D.Çeyni də özünün "Vilnüs nitqi"ndə Qara dəniz-Baltik regionunda "suveren demokratiyalar" birliyi yaradılmasının vacibliyini bildirmişdir. Azərbaycan dövlət və cəmiyyətin quruluş forması kimi demokratiyanı qəti şəkildə seçmişdir. Buna görə də daşıyıcısı Azərbaycan xalqı olan suverenlik bizim daxili və xarici siyasətimizi müstəqil şəkildə, kənardan müdaxilə olmadan həyata keçirmək imkanını təmin etməlidir. Azərbaycan üçün bu cür müstəqillik başlıca məsələdir və bunu əsas götürərək həm ölkə daxilində, həm də beynəlxalq aləmdə fəaliyyəti davam etdirmək zəruridir.

Sərt beynəlxalq rəqabət şəraitində respublikanın iqtisadi inkişafı, əsasən, onun elmi-texnoloji üstünlükləri ilə müəy-

yən edilməlidir. Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları sahəsində regional lider mövqelərinin möhkəmlənməsi üçün perspektiv imkanlar açılmışdır. Prezident İlham Əliyev demişdir: "Bu, iqtisadi potensialın möhkəmlənməsi üçün çox önəmli amildir. Bu, insanların maarifləndirilməsi, bilik səviyyəsinin qaldırılması üçün, təhsil sisteminin təkmilləşməsi üçün çox önəmli məsələdir. Yəni, informasiya-kommunikasiya texnologiyaları sahəsinin ölkəyə təsiri çox genişdir. Əgər biz bunun hamısını nəzərdən keçirsək görərik ki, Azərbaycan bu sahədə uğur qazana bilsə, bu, ölkəmizin inkişafına çox müsbət təsir göstərəcəkdir"[1].

Bizim sənaye və iqtisadiyyatımız sovet hakimiyyəti illərində qurulmuşdur. Müəssisələr köhnəlmişdir, onların buraxdığı məhsullar özünün texniki və estetik göstəricilərinə görə Qərbdən idxal edilən məhsullardan geri qalır. Əvvəlki zavod və fabriklər, demək olar ki, bütünlüklə yeni avadanlıq və mütərəqqi texnologiyalarla təchiz edilməlidir. Etiraf etmək lazmıdır ki, son illərdə bu sahədə vəziyyəti dəyişmək üçün çoxsaylı sənaye layihələri həyata keçirilmişdir. Maliyyə sabitliyini pozmadan istehsal strukturuna və innovasiyaların inkişafına sərmayə qoyuluşunun artırılmasının təşviq edilməsinə dair radikal tədbirlər görülmüşdür. Lakin dünyada gedən iqtisadi rəqabət sənaye istehsalı sahəsinin daim təkmilləşdirilməsini tələb edir. Azərbaycanın qarşısında elm sahəsinin modernləşdirilməsi, elmi müəssisələrin strukturunda islahat aparılması, elmi araşdırmalarda öncül istiqamətlərin müəyyən edilməsi, eləcə də ölkənin iqtisadi və texnoloji baxımdan sürətli inkişafını təmin etməyə qadir olan intellektual elita üçün əlverişli şərait yaratmaq kimi ciddi məsələ durur.

[1] "Bakutel–2006" XII beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransının açılışı. Bakı, 04.10.2006, AzərTAc.

Biz beynəlxalq əmək bölgüsündə fəal və səmərəli iştirak etməliyik. Bu, dünya iqtisadiyyatına inteqrasiyadan hərtərəfli faydalanmağa imkan verəcəkdir. Bu məqsədlə Azərbaycan, əlbəttə, ölkənin iqtisadi maraqlarını əsas tutmaqla, Dünya Ticarət Təşkilatına daxil olmaq məsələsinə dair danışıqları davam etdirməlidir.

Azərbaycanın gələcəyi rəqabətə davamlı təhsil sistemindən asılıdır. Əks halda, biz təhsilin keyfiyyətinin müasir tələblərdən qalması kimi real təhlükə ilə üzləşə bilərik. Təhsilin səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltmək üçün biz çoxsaylı innovasiya proqramlarını həyata keçirməliyik.

1999-cu il iyunun 15-də Azərbaycan Prezidenti Heydər Əliyevin Sərəncamı ilə Təhsil sistemində islahat proqramı təsdiq edilmişdir. Mahiyyət etibarilə bu proqram təhsilin inkişafının konsepsiyası və strategiyasıdır. Prezident İlham Əliyev böyük sürətlə inkişaf etməkdə olan ölkə üçün yüksək ixtisaslı müasir mütəxəssislər hazırlanması məsələsini milli siyasətin ən mühüm istiqaməti kimi müəyyən etmişdir. Bu baxımdan da o, 2006-cı il oktyabrın 19-da müvafiq Sərəncam imzalamışdır. Həmin Sərəncama əsasən, Təhsil Nazirliyinə və digər müvafiq qurumlara Azərbaycan gənclərinin Qərbin ən yaxşı ali məktəblərində təhsil almalarına dair Dövlət proqramını hazırlayıb Prezidentə təqdim etmək tapşırılmışdır. Sərəncamda nəzərdə tutulur ki, həmin gənclər gələcəkdə Azərbaycanın hərtərəfli inkişafı üçün güclü potensiala çevrilməlidir. Ötən əsrin 70-80-ci illərinin oxşar təcrübəsi Azərbaycanın sosial-iqtisadi, təsərrüfat və mədəniyyət sahələrində kəskin sıçrayışını və respublikanın SSRİ-də qabaqcıl mövqelərə çıxmasını təmin edən əsas mənbələrdən biri idi. Həm keçmişdən miras qalmış baza, həm də indinin özündə xaricdə oxuyan mütəxəssislər nəzərə

alınmaqla, regional kontekstdə təhsilin keyfiyyətinə və səviyyəsinə görə Azərbaycanın liderə çevrilmək imkanı vardır.

Azərbaycanın ictimai inkişafı milli tarixə, milli ənənələrə, mədəniyyətə və dinə əsaslanır. Bu xüsusiyyətlərin hər biri Azərbaycan cəmiyyətinin milli identikliyini formalaşdırır. Transformasiya cəmiyyətlərində Üçüncü dalğanın təşəkkül etdiyi və "intellektual müharibə"nin aktuallaşdığı dövrdə, yəni perspektivin layihələşdirilməsinin uzunmüddətli analitik tədqiqatlar vasitəsilə həyata keçirildiyi, qərbləşmənin indən belə sosiomədəni məkan üzərinə qlobal hücumun yalnız cüzi bir hissəsi olduğu, regionallaşmanın isə XXI əsrin yeni xarakteristikası kimi qarşıya çıxdığı bir şəraitdə siyasi-iqtisadi inteqrasiya şərtilə milli bənzərsizliyin və identikliyin qorunub saxlanması qeyri-adi dərəcədə vacibdir. Lakin sosiomədəni məkanın kənar təsirlərdən müəyyən mənada təcrid olunması şəraitini saxlamaqla, siyasəti və iqtisadiyyatı inteqrasiya etmək mümkün olacaqmı? Təbii ki, informasiya texnologiyaları əsrində, internetin və televiziyanın təsirinin ən qədim dövrlərdən bəri mümkün olan bütün təsirlərdən üstün olduğu bir vaxtda milli mədəniyyətin xüsusiyyətlərini və ənənələri bütünlüklə qoruyub saxlamaqdan danışmaq mümkün deyildir. İnformasiya mübadiləsi üçün vahid məkan yaradılması baxımından bəşəriyyət heç vaxt indiki dərəcədə inteqrasiya etməmişdir. Bu, informasiya axınını cəmi bir neçə saniyədə planetin bir nöqtəsindən başqa nöqtəsinə çatdırmağa imkan verir. Bəşəriyyət bu sahədə daha irəli getmişdir – informasiya Qalaktikada yeni kəşflər axtarışında səyahət edən peyklərə də bir dəqiqə ərzində çatır. Belə olan halda, qlobal informatika dövründə bənzərsizliyi necə və nə dərəcədə qoruyub saxlamaq mümkündür? Yaponiya modeli nadirdir və yapon cəmiyyətinin dərin daxili əsaslarına söykə-

nərək, inteqrasiya olunmanın yalnız üst qatını nümayiş etdirir. Bəs başqa cəmiyyətlər nə etməlidir? Azərbaycan cəmiyyəti elə daxili dəyərlər kompleksi yaratmalıdır ki, onlar sabit və inteqrasiyaya, yerdəyişməyə, diffuziyaya və transformasiyaya məruz qalmayan dəyərlər hesab edilsin. Türkiyədə Osmanlı mədəniyyətinə, Osmanlı ənənələrinə və tarixinə inam sabit olduğu kimi, bizim milli identikliyimiz də məhz Azərbaycanın milli tarixindən, mədəniyyətindən və dinindən qaynaqlanmalıdır. Bu üç tərkib hissə azərbaycançılığın mahiyyətini təşkil edir. Azərbaycançılıq ideyası Azərbaycan cəmiyyətinin daxili və zahiri simasının yaradılmasından, onun nadirliyinin "qoruyucu təbəqə"sinin və cəmiyyət üzvlərinin fərdiliyinin təmin edilməsindən ibarətdir.

SÖZARDI ƏVƏZİ

§ ÖZ YOLUMUZU MÜƏYYƏNLƏŞDİRƏRKƏN

> Dövrü və ya milləti anlamaq üçün biz onun fəlsəfəsini anlamalıyıq, onun fəlsəfəsini anlamaq üçün isə biz özümüz müəyyən qədər filosof olmalıyıq. Burada qarşılıqlı asılılıq özünü aydın göstərir: insanların həyat şəraiti xeyli dərəcədə onların fəlsəfəsini müəyyən edir, lakin həm də əksinə, onların fəlsəfəsi xeyli dərəcədə həmin şəraiti müəyyənləşdirir[1].
>
> **Bertran Rassel**

Üçüncü minilliyin əvvəli göstərdi ki, qeyri-qərb cəmiyyətləri hazırda formalaşan yeni dünya nizamının xeyrinə olaraq, mövcud və ənənəvi institusional strukturlardan üz döndərirlər. Əfqanıstan və İraq "hegemonçuluq demokratiyası" prinsipi ilə formalaşan mondializmin nəinki təkcə proloqu oldu, həm də öz təsir qüvvəsini möhkəmləndirmək naminə geosiyasi qurşağın yaradılmasında təzahür edən yeganə fövqəldövlətin gələcək strategiyasının əsas prioritetini üzə çıxardı. Aydındır ki, perspektivdə "üçüncü demokratik dalğanın" genişlənməsi "arzu edilməyən", "yanlış", "qeyri-qərb", "qeyri-

[1] Бертран Рассел. История западной философии. Новосибирск, 2001, стр. 20.

loyal" və "şər" liderlərin[1] aşkara çıxarılması və bəzən də yeni müstəqil dövlətlərin süni şəkildə, "məcburi" yenidən transformasiyası vasitəsilə həyata keçiriləcəkdir.

Formalaşmaqda olan və BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin çoxu tərəfindən fəal tənqid edilən dünya nizamı dünya siyasətinin çoxmərkəzliyi və çoxvektorluğunu getgedə daha az təcəssüm etdirir. Bu və ya digər birtərəfli aksiyaların və başqa dövlətlərin işlərinə qarışmaq üçün daim istifadə olunan demokratiya, dünya birliyi üçün nə isə bir "qlobal müdaxilənin" girovuna çevrilmişdir. Son dərəcə dəbdə olan, qərb və Rusiya müəlliflərinin ötən əsrin sonlarına aid tədqiqatlarında tez-tez adı çəkilən qloballaşma, qərbləşmə, sivilizasiyalararası dialoq, modernləşmə və bir sıra belə terminlər demokratik rejim qurulması ilə tədricən öz yerini hərbi-siyasi üstünlüyün nisbəti probleminə verir. Demokratiya getgedə daha çox kənardan və digər cəmiyyətin iradəsi ilə qurulan rejimlə təcəssüm olunur və bəzən elə təsəvvür yaranır ki, o, idxal olunduğu cəmiyyətin arzu və istəklərini getdikcə daha az ifadə edir. Belə yanaşma hazırda bir çox çətinliklərlə üzləşir, çünki demokratiyanın yayılması siyasətini yürüdən ölkənin özü onun həyata keçirilməsində çətinliklərlə qarşılaşır.

Məsələn, tanınmış Amerika tədqiqatçıları arasında ABŞ-ın özündə demokratiyanın nəzəri və praktik cəhətləri barədə böyük fikir ayrılığı vardır. Onların əsərləri Amerikada demokratiyanın indiki vəziyyətinin alçaldıcı tənqidindən və mənfi şəkildə qiymətləndirilməsindən xali deyildir. Həmin tədqiqatlarda yüksəlişinə görə vətəndaşlarının qüvvə və bacarıqlarını buxovlardan azad etmiş ictimai quruluşa borclu olan bu ölkədə demokratiyanın taleyindən ciddi narahatlıq hiss edilir.

[1] Oğul Buşun dediyi "şər oxu" prinsipi ilə.

V.L.İnozemtsevin yazdığı kimi, bu narahatlıq əsassız deyil, çünki hazırda ABŞ "özünü məramı bütün dünyada sülh və demokratiya ideallarını yaymaq olan seçilmiş millət hesab edir. Bir çoxları beynəlxalq münasibətlərdə demokratiya prinsiplərinə hörmət etməyən və insan hüquqlarına dair baza konvensiyalarını imzalamayan dövlətin demokratiya və azadlıq uğrunda başladığı bu "səlib yürüşlərinə" şübhə ilə yanaşırlar. Lakin bu şübhə daha çox belə bir inamdan irəli gəlir ki, tam bir sıra xalqlara yabançı ideyanı sırımaq olmaz, nə ilə əvəzlənəcəyi barədə ümumi təsəvvür belə olmadan, təşəkkül tapmış dünya nizamını dağıtmaq ağılsızlıqdır"[1].

Luis Xarts yazır: "Qərbdə Lokkun doktrinası rasionalizmin rəmzi sayılır, lakin ABŞ-da ona bağlılıq o dərəcədə irrasionaldır ki, hətta bu doktrinanın məğzi olan liberalizmi belə duya bilməmişlər". Buradan müəllif belə bir nəticəyə gəlir: "Amerikada heç vaxt liberal hərəkat və ya əsl liberal partiya olmamışdır. Yalnız "Amerika həyat tərzi" – Lokk ideyalarının spesifik milli yozumu olmuşdur… Nə qədər qəribə olsa da, "liberalizm" onun maksimum dərəcədə həyata keçirildiyi ölkəyə yaddır. Məsələ bununla da bitmir. Söhbət bütün Qərb dünyasında şəxsiyyətin azadlığının rəmzi kimi göylərə qaldırılan doktrinadan gedir, lakin Amerikada onun təsiri o qədər güclü olmuşdur ki, azadlığın özü üçün təhlükə yaratmağa başlamışdır"[2].

ABŞ-da siyasi mədəniyyət haqqında söylənmiş bir çox məşhur fikirlər real vəziyyətlə heç də həmişə üst-üstə düşmür. Rocers M.Smit hesab edir ki, ABŞ heç zaman eqalitar[3] dövlət olmayıbdır. Eyni zamanda, Amerikanın "intellektual

[1] "Теория и практика демократии". Избранные тексты. М., 2006, стр. IX.

[2] Yenə orada, səh. 106.

[3] E q a l i t a r i z m – insanlar arasında sosial fərqlərin legitimliyini inkar edən ümumi rifah dövləti nəzəriyyəsinin əsas müddəası.

və siyasi elitası tərəfindən askriptiv (statusu doğumla müəyyənləşdirən) sosial sistemin mövcudluğuna haqq qazandırılması dəqiq və dürüst ifadə olunmuşdur… Askriptiv amerikanizmin tərəfdarlarının bir çoxu iddia edirdi ki, dövlətin iqtisadi və siyasi strukturları hətta ümumi hüquq prinsiplərinə riayət olunmamaq hesabına belə, formal olaraq təbii və mədəni qeyri-bərabərliyi əks etdirməlidir[1].

Beləliklə, Amerika demokratiyası barədə Tokvilin heyranlığı özünü bir o qədər də doğrultmur, Amerika cəmiyyətini isə əsaslı olaraq eqalitar yox, multiənənəvi cəmiyyət sırasına aid etmək olar. Müəllifin fikrincə, "Amerika heç vaxt tamamilə liberal ölkə olmayıb, dəyişikliklər gərgin səylər nəticəsində başa gəlmişdir və tez-tez dayanıqsız olur". Tamamilə mümkündür ki, "gələcəkdə Amerikada yenidən bir daha irqi, etnik və gender qeyri-bərabərliyini möhkəmləndirən təzə intellektual, siyasi və hüquqi sistemlər yarana bilər"[2].

ABŞ-ın özündə nəzəriyyə və praktikanın uyğunluğu haqqında tənqidi fikir Qərbin və bütövlükdə ABŞ-ın xüsusi olaraq işlənib hazırlanmış və ayrı-ayrı ölkələrdə hakimiyyətin dəyişilməsinə yönəldilmiş inqilabi texnologiyalardan istifadə etməklə, dünyanın qalan hissəsində demokratiyanı yaymağa göstərdikləri səylərin nə dərəcədə doğru olub-olmaması məsələsini (yenə də Amerika tədqiqatçılarının yanaşmaları prizmasından) nəzərdən keçirməyə imkan verir. Postsovet məkanındakı hadisələrə nəzər salaq.

Sual etməyə dəyər: totalitarizmdən demokratiyaya keçid həmişə ciddi ictimai sarsıntılarsız və toqquşmalarsızmı olub? Son dərəcə mürəkkəb və əsla ritorik olmayan sualdır. De-

[1] "Теория и практика демократии". Избранные тексты. М., 2006, стр. 415.

[2] Yenə orada, səh. 416.

mokratiyaya keçidin xarakterini müəyyənləşdirən amillər çoxdur. Ölkənin taleyini avantürist eksperimentlərlə imtahana çəkməmək üçün cəmiyyətin demokratik dəyərlərə doğru davamlı, sabit və rəvan hərəkətini təmin edən yol seçmək lazımdır. Bu, xüsusilə demokratik baxışların ənənəvi institusional normalar və stereotiplərlə bir qədər münaqişəli münasibətdə olduğu ölkələrə aiddir.

83 yaşlı Q.Kissincer (ABŞ-ın keçmiş dövlət katibi) postsovet respublikalarında gedən demokratikləşmə proseslərinə kifayət qədər real baxır. O, bu ölkələrdəki demokratiyaya qarşı səslənən bütün iradları rədd edərək yazır: "İstənilən ölkədə baş verən təkamül prosesi haqqında düşünmək lazımdır"[1]. Mövzunu davam etdirən siyasətçi vurğulayır ki, o, "bu ölkələrdə gedən təkamül prosesləri haqqında tamamilə müsbət fikirdədir".

Bir tərəfdən, dövlətçiliyi qoruyub saxlamağa, digər tərəfdən isə, demokratik transformasiyanı həyata keçirməyə imkan verən optimal şərait ilkin mərhələdə milli tranzitin dayanıqlığını və səmərəli dövlətçiliyin qurulmasını təmin edə bilən güclü hakim elitanın olmasından ibarətdir.

Azərbaycan milli tarixinin xüsusiyyətləri nəzərə alınmaqla, müasir cəmiyyətin universal dəyərlərinə əsaslanan demokratik inkişafın təkamül yolunu seçmişdir. Bizim prioritetimiz çoxpartiyalılığın olmasını nəzərdə tutan insan hüquqları və vətəndaş azadlıqlarına riayət edilməsidir. Müstəqillik illərində demokratik tranzitin institusional əsaslarını yaratmaq və demokratiyanın bərqərar olması mərhələsini təmin etmək üçün ölkə bir çox ciddi çətinlikləri (dövlət çevrilişi cəhdləri, dövlət başçısına sui-qəsdlər, Ermənistanla Dağlıq Qarabağ üstündə müharibə, erməni separatçılarının terror

[1] "İzvestiya" qəzeti (Rusiya), 07.06.2006.

aktları, ölkəni parçalamaq cəhdləri və s.) aradan qaldırmalı oldu. Ancaq hər halda, xüsusi vurğulamaq lazımdır ki, cəmiyyətimizdə heç də hamı ölkənin inkişafının təkamül yolunu real və məqbul hesab etmir. Bu səbəbdən də müəyyən daxili və xarici qüvvələr "demokratiyaya keçidin" inqilabi texnologiyasına üstünlük verirlər.

Adətən, bu cür texnologiyaların ideoloqları və onları yayanlar "zərif" transformasiyaların uğurlarını seçkidən istifadədə görürlər. Milli təcrübə həm də onu göstərir ki, müxalifətin ən çox fəallığı əksər hallarda mövcud qayda-qanunun dəyişməsinə xəlvəti kömək etmək imkanına marağın açıq-aşkar sezildiyi seçki kampaniyası dövrünə düşür. Respublikada vəziyyətin tənqidi qeyri-dəqiq, dayanıqlı demokratiyanın mövcud olduğu ölkələrlə müqayisə etməklə aparılır. Nəticədə, demokratiyanın nəzəriyyə və praktikası Avropada, ABŞ-da, Kanadada və Yaponiyada nə qədər fərqli olsa da, "postsovet məkanı ölkələri üçün meyar rolunu oynayır. Onlar bu ölkələrdən hər birinin mədəni-tarixi xüsusiyyətlərini və tarixi dövrün reallıqlarını nəzərə almadan qarşıya qoyulur. Ciddi senzorlar və müşahidəçilər …demokratiyanın vəziyyətinin qeyri-qənaətbəxş olduğunu göstərirlər. Sadə dillə desək, demokratiyanın olmadığını bildirirlər"[1].

Qloballaşma şəraitində bu cür ssenari demokratik inkişafın təmin edilməsi ilə pərdələnən müəyyən xarici siyasət qərarlarını həyata keçirmək məqsədi ilə ölkə hökumətinə təzyiq göstərmək siyasətinin ən düzgün yolu hesab olunur.

Xüsusilə vurğulanmalıdır ki, bu halda inqilabi texnologiyaların gerçəkləşdirilməsində "məxməri" inqilabın milli variantına yol açmaq üçün hakimiyyətin yüksək eşelonları,

[1] Сергей Мирзоев. Гибель права, легитимность в "оранжевых" революциях. М., 2006, стр.68.

siyasi və biznes elitaları daxilində gizli yenidənqruplaşmaya nail olmaq cəhdlərinə başlıca ümid bəslənilir. Belə ssenarini gerçəkləşdirərkən seçkilərin nəticələrini tanımamaq yolu ilə ölkə rəhbərliyinə göstərilən daxili siyasi təzyiqin gücləndirilməsinə xüsusi əhəmiyyət verilir. Belə ssenarilərdə, adətən, aşağıdakı ardıcıllıq özünü göstərir:

- Qərb müşahidəçilərinin seçkiləri azad və demokratik saymaqdan imtina etməsi, ATƏT və Avropa Şurası müşahidəçilərinin "seçkilərin gedişindəki kütləvi pozuntular" barədə rəsmi məruzələrinin dərc olunması. Seçkilərin legitimliyi və onun beynəlxalq seçki standartlarına uyğunluğu məsələsi xarici qüvvələrin köməyi və müxalifətin əlaqələndirilən səyləri ilə hakimiyyətin qeyri-legitimləşdirilməsi üçün bəhanəyə, onun zəiflədilməsi, bəlkə də, "rejimin dəyişdirilməsi" üçün siyasi-hüquqi alətə çevrilir;

- hakimiyyətin namizədi seçki marafonundan çıxarmasına yönəlmiş fitnəkarlıq kimi; müxalifətin bəzi nümayəndələrinin qüvvədə olan seçki qanunvericiliyini qəsdən pozması;

- AŞ-də və ya ABŞ Konqresində seçkilərin yekunları haqqında dinləmələrin təşkili, müvafiq qətnamələrin çıxarılması;

- obyektiv surətdə mövcud olan sosial etirazdan istifadə olunması, məsələn, müxalifət partiyaları və onların seçicilər tərəfindən namizədliyi dəstəklənməyən ayrı-ayrı nümayəndələrinin müxtəlif beynəlxalq qurumlara müraciətlərinin təşviq və təşkil edilməsi. Həmin təzyiq kanallarını qanuniləşdirmək məqsədi ilə bu qurumlara sonuncu instansiya kimi müraciət edilir;

- demokratik hüquq və azadlıqların guya pozulması, ölkə məhkəmələri tərəfindən ədalətsiz qərarların çıxarılması, ölkədə siyasi məhbusların mövcudluğu barədə ayrı-ayrı şəxslər tərəfindən Avropa Məhkəməsinə müraciətlərin təşkil edilməsi;
- Qərb nümayəndələrinin və Qərb ölkələrinin diplomatik korpus işçilərinin müxalifət liderləri ilə müntəzəm ünsiyyətləri və görüşləri, rəsmi orqanların nümayəndələri ilə görüşlərin keçirilməsi və müxtəlif institutlarda ölkədəki siyasi vəziyyət haqqında məruzələr etmək üçün onların müxtəlif ölkələrə səfərlərinin təşkili;
- müxalifət partiyalarının birləşməsinə və onlar tərəfindən vahid liderin irəli sürülməsinə ümid edilməsi və s.

Ölkədə iqtisadi layihələrin həyata keçirilməsində öz şərtlərini diktə edən Dünya Bankı və Beynəlxalq Valyuta Fondu mühüm təzyiq amilləridir. "Qızıl kəmərin" perspektivsiz olduğunu başa düşən bu maliyyə təsisatları çox vaxt siyasi oyunların iştirakçısına çevrilir. Çox vaxt bu "oyunlara" transmilli korporasiyalar da qoşulur.

Artıq deyildiyi kimi, Şərqi Avropa, Gürcüstan, Ukrayna və Qırğızıstandakı inqilab adlandırılan hadisələr yeni siyasi texnologiyaların hər şeyə qadir olması barədə eyforiya yaratdı. Lakin 2005-ci ilin sonunda "məxməri" transformasiyaların qlobal yürüşü" səngidi. Əvvəlcə Azərbaycanda parlament seçkiləri keçirildi və nəticədə mövcud hakimiyyət nəinki öz mövqelərini qoruya bildi, hətta onu möhkəmlətdi. Qazaxıstanda prezident seçkilərində Nursultan Nazarbayev qalib gəldi.

Nəticədə "zərif" transformasiyalar texnologiyası XXl əsrin əvvəlində aşağıda göstərilən səbəblər üzündən müəyyən qədər uğursuz oldu:

birincisi, inqilabların texnoloqları və təşkilatçılarının özləri onlardan məyus olmuşdular. Bişkekdəki talanlar və Qırğızıstanın real olaraq hərc-mərcliyə yuvarlanmaq təhlükəsi demokratiyanın yayılması ilə məşğul olan "beynəlxalq" təşkilatlar üçün ilk həyəcan siqnalı oldu. Bundan başqa, inqilabların təşkilatçıları bu cür hakimiyyət dəyişikliyinin nəticələrini də gördülər: yeni rejimlər dedikcə qeyri-sabit, çətin idarə edilən və baha başa gələn oldular;

ikincisi, məlum oldu ki, inqilabi texnologiyaların hər şeyə qadir olması barədə deyilənlər şişirtmədir. Əhalinin hakimiyyətə qarşı loyal mövqedə olduğu radikal dəyişikliklərə kökləndiyi yerlərdə inqilabi texnologiyalar işləmədi. Nəticədə, "demokratiyanın ixracı" siyasəti sanki "havadan asılı qaldı".

Bir neçə ildən sonra, demokratiyanın yayılması ilə məşğul olan qeyri-hökumət təşkilatlarının bütöv bir şəbəkəsi bütün dünyada öz fəaliyyətini durmadan genişləndirdiyi müddətdə "məxməri" inqilabların özünün mahiyyətinin dərk edilməsində əhəmiyyətli dəyişikliklər baş verdi, insanlar gördülər ki, onlar xalqa yox, sponsorlara, özü də ən çox xarici sponsorlara xidmət ediblər. Sözdə başqa dövlətin işlərinə qarışmamaq prinsipini qəbul edən "sponsorlar" məharətlə daxili çaxnaşmalar təşkil edir, arzu edilməyən rejimi aradan götürmək üçün "ümumxalq" görüntüsü yaradırdılar. Əksər hallarda da "sponsor" adı altında ABŞ-ın bəzi qeyri-hökumət təşkilatları gizlənirdi.

Amerika politoloqu Tomas Karuzersin qeyd etdiyi kimi[1], Gürcüstan, Ukrayna və Qırğızıstanda baş vermiş "rəngli" inqilablar, "habelə bu hadisələrdə Milli Demokratiya İnstitutu (National Democratic Institute), Beynəlxalq Respublikaçılar İnstitutu (International Republican Institute), Freedom House

[1] Foreign Affairs. ABŞ, 25 aprel 2006.

və Açıq Cəmiyyət İnstitutu (Open Society Institute) kimi Amerika təşkilatlarının mühüm pərdəarxası rolu olması haqqında geniş yayılmış şübhələr, əlbəttə ki, bu meylin yaranmasına kömək etmişdi…

Lakin burada məsələ yalnız narıncı rəngin "allergiya" doğurmasında deyildir (Ukraynadakı inqilabı "narıncı" adlandırırlar). Prezident Corc U.Buşun demokratiyanın dəstəklənməsini ABŞ-ın əsas xarici siyasət istiqamətlərindən birinə çevirməsi faktı da, heç şübhəsiz, dünyanın bir çox ölkələrində bu səylərin (eləcə də demokratiyanın yayılması ideyasının) yaratdığı qorxu hissinin meydana gəlməsinə səbəb olmuşdur. Bəzi avtoritar rejimlər Qərbin "demokratiyanı təşviq etməsinə" müqavimət göstərilməsini azadlığın özünə qarşı yox, ABŞ-ın müdaxiləçi siyasətinə qarşı mübarizə olduğunu bildirir, beləliklə də vətəndaşlar tərəfindən öz hərəkətlərinə əhəmiyyətli dərəcədə dəstək qazanırlar. Bundan əlavə, Buş administrasiyası ölkə daxilində və ondan kənarda qanunun aliliyi prinsiplərini dəfələrlə pozaraq, azadlıq və insan haqlarının təcəssümü kimi Amerika Birləşmiş Ştatlarının imicinə zərbə vurmuş, bununla da, demokratiyanın yayılması ideyasının özünün legitimliyini daha da sarsıtmışdır".

T.Karuzersin fikrinə görə, "cavab dalğası" tam bir sıra səbəblərdən doğduğu kimi, ona cavab da çoxvariantlı olmalıdır. Demokratiyanın yayılması ilə məşğul olanlar gələcəkdə də səmərəli fəaliyyət göstərmək üçün dərk etməlidirlər ki, onların işlədikləri şərait dəyişmişdir. İndiki Amerika administrasiyası da bəzi xoşagəlməz reallıqları, ələlxüsus dünyada onun "demokratiyanın yayılması proqramının" necə qavranılması ilə bağlı reallıqarı qəbul etməli və "qlobal demokratikləşmə" siyasətinə inamın möhkəmlənməsi üçün ciddi tədbirlər görməlidir.

Qərbin demokratiyanın yayılması proqramlarına ən ardıcıl müqavimət Rusiyada göstərilir. Qeyri-hökumət təşkilatları haqqında qanun demokratiyanın yayılması ilə məşğul olan təşkilatların fəaliyyətlərini məhdudlaşdırmaqdan ötrü Moskvanın atdığı addımlardan yalnız biridir. Məsələn, Kreml Rusiyada və digər MDB ölkələrindəki seçkilərin monitorinqi ilə bağlı ATƏT-in fəaliyyətini kəskin tənqid etmişdir. Rusiyada hesab edirlər ki, QHT-yə qarşı kampaniya təhlükəsizlik mülahizələri ilə bağlıdır; bildirilir ki, ABŞ Rusiyanı qərbyönlü rejimlərlə mühasirə etmək xətti götürmüşdür və ölkədə mövcud olan siyasi quruluşu sarsıtmağa çalışır.

Rusiya Qərbin demokratiyanın yayılması proqramlarına müqavimət göstərən yeganə dövlət deyildir. Özbəkistan, Belarus, Ermənistan, habelə postsovet məkanından kənarda olan bəzi dövlətlər də oxşar mövqe tutmuşdur.

Demokratiyanın yayılmasına qarşı "əks-hücumun" səbəbləri nədir? Heç şübhəsiz, burada əsas rolu Serbiya, Gürcüstan, Ukrayna və Qırğızıstandakı "rəngli" inqilablar oynamışdır. Lakin amerikalı müəllif yazır ki, ABŞ-ın bu ölkələrdəki aparıcı ictimai və siyasi təşkilatlara kömək etməsi barədə xəbərlər nə qədər çox yayılırdısa, "rəngli" inqilablar buna bənzər hadisələrdə ABŞ-ın pərdəarxası rəhbər rolu ilə bir o qədər çox assosiasiya olunmağa başlayırdı.

"Rəngli" inqilablar nəticəsində demokratiya hərəkatına dəstəyin Amerika siyasətinin aləti olması ilə bağlı qorxuların, şübhəsiz, artmasına baxmayaraq, indiki vəziyyəti daha köhnə ənənənin kulminasiya mərhələsi kimi anlamaq lazımdır.

1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində demokratikləşmənin birinci dalğası zamanı inqilabi hərəkatların dəstəklənməsi sahəsində ixtisaslaşan təşkilatlar ya belə fəaliyyət

üçün qapını tam bağlayan avtoritar quruluşda, yaxud da bu cür rejimlərdən təzəcə qurtulmuş və bu qapının, adətən, bir qayda olaraq, taybatay açıq olduğu ölkələrdə fəaliyyət göstərməli olurdular.

Lakin T.Karuzers hesab edir ki, müəyyən müddətdən sonra bir çox "gənc demokratiyalarda" dövlət quruluşunun başqa, aralıq forması – yarımavtoritar quruluş yarandı; bu forma Balkan yarımadasında, Yaxın Şərqdə və Böyük Səhradan cənubda Afrikada yayıldı. Belə rejimlər, adətən, ustalıqla tarazlıq yaradılmasına əl atırlar. Onların liderləri islahatçı kimi ad çıxarmağa imkan verən və bunun hesabına öz rejimlərinə legitimlik gətirən həddə qədər siyasi azadlıqların olmasına yol verirlər. Bu o deməkdir ki, belə ölkələrdə demokratik seçkilər müntəzəm keçirilir, yeni müxalif partiyaların yaranmasına imkan verilir, orada müəyyən sayda vətəndaş cəmiyyətinin müstəqil təşkilatları və KİV fəaliyyət göstərir. Lakin eyni zamanda, belə rejimlər öz statuslarına qarşı hər hansı ciddi təhlükənin olmaması üçün hakimiyyət vasitələrinə kifayət qədər sərt nəzarət edirlər.

Yarımavtoritar rejimlərin taktikası demokratiyanın yayılmasında ixtisaslaşan bir çox təşkilatları çıxılmaz vəziyyətlərə salmışdır. Lakin zaman keçdikcə MDİ, BRİ, BDSF və Freedom House kimi qurumlar belə şəraitdə də səmərəli işləməyə alışdılar. İndi onlar bu və ya digər ölkənin seçkilərdə hakimiyyətə qarşı birləşən ictimai və siyasi təşkilatlarının geniş dairəsinə maliyyə və texniki yardım göstərməyi əsas sayırdılar.

Belə yardımın başlıca məqsədi eyni vaxtda bir neçə istiqamətdə müxalifətin potensialını möhkəmlətmək idi. Birincisi, Qərb təşkilatları bununla həmin hərəkatlara seçkiləri müstə-

qil müşahidə etməsi, o cümlədən səslərin paralel hesablanmasını aparmağı təmin etməkdə kömək göstərirdilər. İkincisi, onlar vətəndaş cəmiyyətinin müstəqil təşkilatlarını, o cümlədən geniş xalq kütlələrini seçki prosesinə cəlb edə biləcək dinamik tələbə hərəkatlarını dəstəkləyirdilər. Üçüncüsü, onlar müxalifət partiyalarına məsləhətlər verir, bəzən isə seçki kampaniyasını səmərəli keçirmək üçün texniki kömək göstərir, o cümlədən avadanlıq verirdilər. Üstəlik, onlar bu partiyaları əməkdaşlıq etməyə, geniş seçkiqabağı koalisiyalar yaratmağa təşviq edirdilər.

1990-cı illərin sonunda bu konsepsiya əvvəlcə, hələ tamamlanmamış şəkildə, Slovakiyanın baş naziri Vladimir Meçyara və Xorvatiya Prezidenti Franyo Tucmana qarşı, sonra isə, artıq tamamlanmış variantda Serbiya prezidenti Slobodan Miloşeviçə qarşı praktikada həyata keçirildi. Amerika və Avropa təşkilatları Serbiyanın ictimai və siyasi hərəkatlarının dəstəklənməsi istiqamətində əlaqələndirilmiş və səxavətlə maliyyələşdirilən (xərclər 60 milyondan 100 milyon dollara qədər təşkil edirdi) kampaniyaya başladı. Bu, həmin hərəkatlara həm də Qərbin iqtisadi və diplomatik sanksiyaları üzündən çətin vəziyyətə düşmüş Miloşeviçlə seçkilərin gedişində real rəqabət aparmaq imkanı yaratdı. 2000-ci ilin seçki kampaniyası çox yaxşı, düşünüldüyü kimi keçdi: Qərbin köməyi ilə Serbiya müxalifəti sadə vətəndaşların bir çoxunu dəyişiklikləri dəstəkləməyə və seçki prosesində fəal iştirak etməyə inandıra bildi; müxalifət partiyaları keçmişdəkindən yaxşı çıxış etdilər, müstəqil müşahidəçilərin olması isə S.Miloşeviçə seçicilərin nəticələrini ləğv etməyə imkan vermədi. Nəticə bəllidir.

Sonralar Qərb təşkilatları başqa ölkələrin işlərinə qarışmaq barədə ittihamlarla tez-tez qarşılaşaraq, həmin strategi-

yanı, – doğrudur, bir qədər məhdud maliyyə imkanları və çox da güclü olmayan diplomatik dəstəklə, – Azərbaycan, Gürcüstan, Qırğızıstan və Ukraynada tətbiq etdilər. İttihamların cavabında isə onlar, adətən, gizlində yox, tamamilə açıq fəaliyyət göstərdiklərini vurğulayır və iddia edirdilər ki, məqsədləri seçkilərdə hansısa konkret nəticənin əldə olunması deyil, azad və vicdanlı seçkilərin təmin edilməsidir. Bildirirdilər ki, xarici yardım bütün iştirakçılar üçün bərabər şəraitin yaradılması və hakim rejimin seçki prosesləri ilə manipulyasiya etməsinə imkan verməmək üçün zəruridir. Ancaq həqiqət isə bir qədər başqa cürdür: ola bilsin ki, xarici fəalların əksəriyyəti seçkilərin azad və düzgün keçirilməsində həqiqətən maraqlıdır, lakin eyni zamanda, onlar çox vaxt öz səyləri nəticəsində mövcud hökumətin hakimiyyətdən məhrum olması şanslarının artmasına ümid edirlər.

Demokratiyanın yayılması sahəsində ixtisaslaşan bir çox təşkilatı maliyyələşdirən (lakin mütləq deyil ki, onların hərəkətlərinə rəhbərlik edən) Amerika dövlət orqanlarının motivasiyası da xeyli mürəkkəbdir: onlar konkret ölkədən və bu cür maliyyələşdirməyə cavabdeh olan məmurların şəxsiyyətindən asılı olaraq, prinsipial mülahizələrdən utilitar mülahizələrə qədər ən müxtəlif mülahizələri əldə rəhbər tuturlar. Təəccüblü deyil ki, demokratiyanın yayılmasına dair səylərin yönəldiyi obyektə çevrilmiş şəxslər, adətən, bu məqamları hiss etmirlər, bu fəaliyyətə özlərinin hakimiyyətdən devrilməsi üçün nüfuzlu Qərb dövlətləri, ilk növbədə, Birləşmiş Ştatlar tərəfindən təhrik olunan və ya dəstəklənən əlaqələndirilmiş kampaniya kimi baxırlar.

Demokratiyanın yayılması proqramına müqavimət göstərilməsinə hökumətlərin bu fəaliyyətin daha da ciddi xarakter almasına qarşı reaksiyası kimi baxmaq olar. Lakin bu

müqavimət başqa bir meyillə – son illərdə keçmiş SSRİ ölkələrində, Qərbi Avropada, Latın Amerikasında, Yaxın Şərqdə və digər regionlarda demokratiyanın yayılması ideyasının özünə qarşı ehtiyatlı münasibətlə də bağlıdır. T.Karuzers hesab edir ki, belə münasibətin yaranmasında demokratiyanın yayılmasında istifadə etdiyi üsullara görə Prezident C.Buş da az məsuliyyət daşımır. Başqa ölkələrdə Vaşinqtonun dilində səslənən "demokratiyanın yayılması" ifadəsi ABŞ-ın prinsipial mövqeyi kimi deyil, "rejimlərin dəyişməsi" sözlərinin evfemizmi, arzuolunmaz hökumətlərin hərbi və ya digər vasitələrlə devrilməsi kimi başa düşülür.

"Hətta demokratiyanın yayılmasını İraqa soxulmaq üçün başlıca dəlil kimi qələmə verən Buş administrasiyasının hərəkətləri üzündən, həmin formul indi bilavasitə ABŞ-ın hərbi müdaxiləsi və başqa ölkələrin işğalı ilə assosiasiya olunur. Administrasiyanın ABŞ-ın təhlükəsizlik maraqlarına zidd gedən digər hökumətlərin – məsələn, İran və ya Suriya hökumətlərinin devrilməsində marağı olması barədə təəssürat yaratması nəticəsində prezidentin "azadlığın yayılması proqramı" daha da qorxulu və düşmənçilik proqramı kimi səslənir. Buş və onun yaxın məsləhətçiləri "istibdad forpostları" haqqında danışmağa başladıqdan sonra, bu, özünü xüsusilə büruzə verdi: həmin siyahıya yalnız ABŞ-a düşmən münasibət bəsləyən rejimlər düşür. Bununla yanaşı, eyni dərəcədə repressiv, lakin dost dövlətlərin, məsələn, Səudiyyə Ərəbistanının adı bu kontekstdə çəkilmir".

Belə davranış bir çox dövlətləri Amerikanın "demokratiyanın təşviqi" ilə bağlı bütün, hətta ən mühafizəkar və ya ziyansız proqramlarına da şübhə ilə yanaşmağa məcbur edir. Bundan əlavə, davranış öz mülahizələrinə görə bu cür proqramlardan yaxa qurtarmağa çalışan hökumətlərə öz hərəkət-

lərini ABŞ-ın təcavüzkar müdaxiləçi siyasətinə qarşı alicənab akt kimi göstərməyə əlverişli bəhanə yaradır. Prezident Buş demokratiyanın yayılmasını nə qədər tez-tez öz "şəxsi işi" adlandırırsa, dövlətlərin liderlərinə xaricdə onun son dərəcə qeyri-populyar olmasından istifadə etməklə, ideyanın özünü gözdən salmağı asanlaşdırır.

Təhlilçilərin çoxunun vurğuladığı kimi, Buş administrasiyası demokratiyanın yayılmasının Amerika tərəfdarlarının nüfuzuna həm də azadlığın və insan hüquqlarına əməl edilməsinin simvolu kimi ABŞ-a olan inamı bütövlükdə qırmaqla ziyan vurdu. "Azadlığın yayılması proqramına" sadiq olduğunu daim söyləyən prezident, eyni zamanda, İraqdakı və Əfqanıstandakı Amerika obyektlərində məhbusların və saxlanılan şəxslərin işgəncəyə məruz qalmalarına yol verməklə, Quantanamo həbsxanasında yüzlərlə adamı məhkəməsiz və istintaqsız saxlamaqla, saxlanılmış əcnəbiləri işgəncə tətbiq olunan dövlətlərə "dindirmə üçün ötürməklə", başqa dövlətlərdə Amerikanın gizli həbsxana şəbəkəsini yaratmaqla və ABŞ-ın özündə məhkəmənin sanksiyası olmadan telefon danışıqlarının dinlənilməsinə icazə verməklə Amerikanın demokratik prinsip və normalarına zərbəni zərbə dalınca endirir. Elə bu baxımdan dünyanın istənilən ölkəsində Amerika hökumət orqanları tərəfindən saxlanılmış şəxslərlə qəddarcasına, insan ləyaqətini alçaldan rəftara hüquqi qadağanın tətbiq edilməsinə qarşı Ağ evin müqavimət göstərməsini də xatırlatmaq olar.

T.Karuzers hesab edir ki, ümumilikdə bu addımlar demokratiyanın dünyada yayılmasının mahiyyətinə ölçüyəgəlməz ziyan vurmuşdur. "Lakin Prezident Buşun və onun komandasının, ola bilsin ki, dövlət katibi Kondoliza Rays istisna olmaqla, deyəsən, bu barədə məlumatları yoxdur, yaxud

yaranmış vəziyyət, sadəcə, onları narahat etmir. Bununla belə, ABŞ-ın səylərinə müqavimət göstərən avtoritar liderlər məhz həmin vurulan ziyan səbəbindən bütün iradları dəf edə bilirlər: "Xaricdə məhbuslara işgəncə verən və öz vətəndaşlarının hüquqlarını tapdayan bir ölkənin başqalarına necə davranmaq lazım olduğunu öyrətməyə nə ixtiyarı var?".

Demokratiyanın yayılmasının əleyhdarlarına qarşı çıxış etmək xeyli diplomatik səylər tələb edəcəkdir. Müqavimət göstərməyin mahiyyəti ondan ibarətdir ki, demokratiya yeni geosiyasi sxemin girovuna çevrilməsin. Tamamilə aydındır ki, bəzi hallarda açıq və sərt hərəkətlər lazımi nəticəni verir; başqa hallarda isə onlar səmərəsizdir və millətçi əhval-ruhiyyəni yalnız gücləndirə bilər. Birləşmiş Ştatlar digər dövlətlər tərəfindən atıla biləcək addımlar barədə ağıllı münasibət işləyib hazırlamalı və demokratiyanın "ixracının" məntiqə sığan meyarlarını müəyyən etməlidir.

Siyasi idarəetmənin demokratik metodlarını müəyyən edən ardıcıl beynəlxalq normalar sistemi mövcuddur. Lakin öz sərhədlərindən kənarda demokratik proseslərdə iştirak etmək barədə dəqiq, sabit meyarlar yoxdur. Bundan əlavə, siyasi sahədə xarici köməyin əsaslandırılmış və əsaslandırılmamış şəkildə məhdudlaşdırılması arasında sərhəd o qədər də aydın deyildir. Əgər Vaşinqton, sadəcə olaraq, başqa dövlətlərin Amerika və ya Qərb standartlarına riayət etməsini tələb etsə, çox güman ki, bunun bir nəticəsi olmayacaqdır. Əgər bu sahədə hər hansı beynəlxalq meyarlar varsa da, ümumən onlar xaricdən təsir göstərmək üçün Qərb təşkilatlarının istədiyindən daha az imkan yaradır. Məgər elə Vaşinqtonun özü seçkilər keçirilən zaman öz ölkəsində xarici təşkilatların, – xüsusilə də güclü, ola bilsin ki, düşmən mövqedə dayanan xarici dövlətin maliyyələşdirdiyi, seçicilərin

maarifləndirilməsi kampaniyalarına pul ayıran və onların keçirilməsinə kömək edən, siyasi partiyalara texniki yardım göstərən, səsvermənin paralel hesablanmasını və vətəndaşların siyasi səfərbərliyini həyata keçirən təşkilatların nümayəndələrinin olmasına dözərdimi?

T.Karuzers hesab edir ki, "ikili standart"larda ittihamlandırılmamaq üçün demokratiyanın yayılması ilə məşğul olan Amerika təşkilatları iki prinsipi əsas götürməli və onlara təcrübədə səmimiyyətlə riayət etməlidirlər. "Birincisi, onlar göstərməlidir ki, Prezident Buşun daim bəyan etdiklərinin əksinə olaraq, demokratiyanın yayılması sırf Amerika təşəbbüsü deyildir. Bu işlə bir çox demokratik ölkələr və beynəlxalq təşkilatlar məşğul olur. Amerika təşkilatları, adətən, Avropalı həmkarları ilə və beynəlxalq qurumlarla, məsələn, ATƏT və ya BMT-nin İnkişaf Proqramı ilə paralel işləyirlər. İkincisi, onlar vurğulamalıdır ki, demokratiyanın dəstəklənməsi istiqamətində görülən fəal işin məqsədi ölkənin siyasətini hər hansı bir xarici dövlətin nəzarəti altına salmaq deyil, hökumətlərə kömək etmək və yaxud demokratik normaları pozan hökumətləri bu normalara riayət etməyə məcbur etməkdir".

Buna baxmayaraq, demokratiyanın yayılması ilə məşğul olan fəallar nə qədər inandırıcı dəlillər gətirsələr də, onların fəaliyyət obyektinə çevrilmiş ölkələrdə yaşayan insanların çoxunu bu hərəkətlərin qanuniliyinə inandırmaq son dərəcədə çətindir. Ola bilsin, Qərb fəalları əmindirlər ki, ölkədə demokratiyanın olmaması bu ölkələrin xarici müdaxiləyə qarşı mübarizədə suveren hüquqlarını məhdudlaşdırır. Belə fikir demokratiya ənənələri qədim olan ölkələrdə, həqiqətən, geniş yayılmışdır. Lakin bu ideya siyasi çalarından asılı olmayaraq, hakimiyyətin sayıqlıqla milli müstəqilliyin keşiyində dur-

duğu inkişaf etməkdə olan və postkommunist ölkələrində çətin ki, özünə geniş dəstək qazansın.

Bir sözlə, "rəngli" inqilabların qərb təşkilatçıları çətin qərar qəbul etməlidirlər: Onlar başqa ölkələrdə rejimlərə meydan oxuyan hərəkatların dəstəklənməsi istiqamətində geniş, məqsədyönlü kampaniyaları davam etdirməli, yoxsa bir çox ölkələrin qapılarını onların üzünə tamamilə bağlaya biləcək əkstədbirlərdən çəkinərək, fəallıqlarını bir qədər azaltmalıdırlar? Hələ ki, bu qərar dürüst ifadə olunmayıb və ictimai müzakirəyə çıxarılmamışdır. Əslində, bu sualın cavabı belədir ki, demokratiyanın yayılması proqramlarının həyata keçirilməsində maksimum mümkün olan miqyası və səmərəliliyi təmin etməyə hansı üsul imkan verir.

Bu gün çətin ki, demokratiyanın yayılması ideyasına olan ümumi ehtiyatlı münasibəti dəyişmək mümkün olsun, çünki söhbət məhz "hegemonçu demokratiyadan" gedir. Hətta yaxın illərdə İraqda nisbi sabitliyə, sülhə və demokratiyaya nail olunsa belə, bir çoxları yenə də demokratiyanın yayılmasından ötrü hərbi gücün tətbiqini qeyri-qanuni və arzuolunmaz hesab edəcəklər və yeni dünya nizamını formalaşdırarkən bu məsələni nəzərə almamaq olmaz. ABŞ-ın bu məsələ ilə bağlı mövqeyi dünya ictimaiyyətinin tam əksəriyyətinin fikri ilə üst-üstə düşmür və çox güman ki, bu fikir ayrılığı demokratiyanın yayılması proqramını bundan sonra da bir çox insanların gözündə ciddi şəkildə nüfuzdan salacaqdır.

Tomas Karuzers yazır: "Əlbəttə, demokratiyanı prinsipcə dəstəkləmək o demək deyil ki, söhbət yalnız yüksək ideyalardan gedir və praqmatik maraqlardan sözgəlişi danışılmalıdır. Lakin o tələb edir ki, Vaşinqtonun hərəkətləri heç olmasa, minimum ardıcıllığı ilə seçilsin".

Daha "əhəmiyyətli" ölkələrdən – Rusiya, Çin, Pakistan və Səudiyyə Ərəbistanından söhbət gedəndə Buş administrasiyası, ən yaxşı halda, siyasi islahatların vacibliyini nəzakətli şəkildə xatırlatmaqla kifayətlənir. Bununla bərabər, həmin ölkələrlə münasibətlər tam normal şəkildə inkişaf edir. Bu, həmçinin ABŞ-ın Misir, Qazaxıstan və Ermənistana münasibətdə siyasətinə də aiddir. Lakin çox vaxt biz digər ölkələrə münasibətdə "ikili standartların" şahidi oluruq.

Öz vətəndaşlarını müdafiə edə bilməmək. Onun üçün qayda-qanunun olmadığına əminik. Demokratiyanın olması. "Fəaliyyət qabiliyyəti olmayan dövlətin" xarakteristikasını müəyyən edən üç şərt bunlardır. Noama Çomskinin fikrinə görə, Birləşmiş Ştatlar məhz belə bir dövlətə çevrilir. Amerikanın aparıcı mütəfəkkiri onun ölkəsinin "yolunu azmasının" səbəbini belə izah edir. O hesab edir ki, ABŞ-da ictimai rəylə dövlət siyasəti arasında kəskin fərq baş vermişdir. "Bu vəziyyət, sadəcə, laqeyd qalmaq mümkün olmayan qorxuların səbəblərindən biridir. O qorxuların ki, Qar Alkerovitsin "Kapitalizmdən sonrakı Amerika" kitabında yazdığı kimi, ümumən "Amerika sistemində" açıq-aşkar nəsə qaydasında deyil, bu ölkənin inkişaf meyli onun ənənəvi dəyərlərinin – bərabərliyin, azadlığın və real demokratiyanın iflasa uğrayacağından xəbər verir.

Tarixdən xəbəri olan hər bir kəs Birləşmiş Ştatlarda "demokratiya qıtlığının" artmasının əzab çəkən dünyanı demokratiya ilə "xoşbəxt etmək" vəzifəsini yerinə yetirən ölkəmizin xilaskarlıq rolu haqqında bəyanatlarla müşayiət edildiyinə təəccüblənməz. Hakimiyyət strukturlarının nəcib niyyətlər barədə bəyanatları nadir hallarda son nöqtəsinə qədər saxta olur; bizim dediyimiz məsələdə də belədir. Demokratik idarəetmə üsulu müəyyən şəraitdə hakimiyyət üçün məqbul

görünür. Xarici ölkələrə gəldikdə isə, "demokratiyanın yayılmasının" əsas tərəfdarları olan alimlərdən biri sayılan Tomas Karuzesin qeyd etdiyi kimi, burada "dəqiq ardıcıllıq" vardır: demokratiya yalnız və yalnız bizim dövlətin strateji və iqtisadi maraqları ilə üst-üstə düşən hallarda məqbul sayıla bilər. Bizim hakimiyyət, bir qədər dəyişilmiş şəkildə olsa da, daxili siyasətdə də həmin doktrinadan istifadə edir"[1].

Terrorizmlə qarşılaşan hər hansı bir ölkə üçün təhlükəsizlik tədbirləri və vətəndaş azadlıqlarının müdafiəsi arasında tarazlığı qorumaq asan deyildir. Lakin nə qədər ki, terrorizmlə mübarizə şüarları altında insan haqlarının həyasızcasına pozulması və terrorizmlə mübarizənin ən yaxşı üsulunun azadlıq olması barədə başqalarına məsləhətlər verilməsi arasında yolverilməz ziddiyyətə son qoyulmayıb, azadlığın yayılması proqramı bundan sonra da çox davamsız bünövrə üzərində qalmaqda davam edəcəkdir.

Azərbaycanın siyasi elitası, habelə ziyalıları üçün Qərb heç vaxt sırf coğrafi anlayış olmamışdır. Əksinə, hələ XX əsrin ilk onilliklərində demokratik əhval-ruhiyyəli milli ziyalılarımız Qərbə siyasi simvol, milli dövlətçiliyi yaratmaq və öz vətəndaşlarına layiqli həyat təmin etmək üçün inteqrasiya etməli olduğumuz məkanın təcəssümü kimi baxırdılar.

Vətəndaşlarımızın indiki nəsli də Qərbi ümumilikdə milli strategiyanın inkişafının mühüm konteksti kimi anlayır. Lakin bizim məqsədimiz inkişaf etmiş Qərb ölkələrinin ənənələrini və həyat tərzini mənimsəməklə çox qısa bir müddətdə onlara çatmaq deyil, milli məkanı liberal ideyaların və ənənəvi təsisatların, Qərb novatorluğunun və Şərq müdrikliyinin

[1] Noam Çomski. Amerika üçün niyə hər şey qurtarmışdır. The Independent. Böyük Britaniya, 4 iyun 2006-cı il.

uyğunlaşmasının yanaşı getdiyi yerə çevirməkdir. Biz irəliyə doğru sıçrayışla deyil, milli reallıqları, adət və ənənələri, tariximizi və azərbaycançılıq ideologiyasını nəzərə almaqla, suveren demokratiyanı möhkəmlətməyə imkan yaradan qətiyyətli və dəqiq addımlarla getmək istəyirik. Bu təriflərsiz və onlardan kənarda demokratiyanın inkişafı uğursuzluğa məhkumdur. Biz siyasi və iqtisadi quruluşu təkmilləşdirməkdən ötrü Qərbə inteqrasiya etmək istəyirik. Biz sağlam düşüncəyə əsaslanaraq dərk edirik ki, "ümumavropa evi" ideyası ölkənin Avropa tarixinə və Qərb sivilizasiyasına qovuşması deməkdir, bu, bizim ümumi taleyimizin perspektivlərini açır. Bununla belə, demokratiya, qanunların və insan hüquqlarının aliliyi, təkcə Qərb dəyərləri deyil, ümumbəşəri dəyərlərdir.

Demokratiya və Qərbə inteqrasiya bizim düşünülmüş seçimimizdir. Biz baş verənləri tarixi baxımdan anlayırıq və ölkənin taleyi üçün tarixi məsuliyyət hissindən məhrum deyilik. Yalnız öz tarixinə hörmətlə yanaşan, bu gününü dərk edə bilən və gələcək inkişaf yollarını görən cəmiyyətin sabahı vardır. Hər bir nəslin mövcud olanlara əsaslanaraq, sarsıntılarsız, keçmişin üstündən xətt çəkmədən öz gələcəyini müstəqil seçməyə ixtiyarı vardır. Biz bu gün belə imkanı əldən verməməliyik. Yadda saxlamaq lazımdır ki, hər bir ölkə, hər bir xalq sivilizasiyanın ümumi yolu ilə addımlayarkən, bu yolu özünə xas şəkildə keçir. Demokratik dövlət quruluşu ilə bunun üçün geniş meydan açır. Xaricdə kiminsə bunu istəməsi yox, məhz bütün bunların dərk edilməsi bizə daxili əminlik verir və demokratiya uğrunda mübarizədə səylərimizin əsaslı olduğunu göstərir.

§ GƏLƏCƏYİN STRATEGİYASINI FORMALAŞDIRARKƏN

> "Ölkəmizin gələcək inkişafını mən çox açıq və parlaq görürəm. Azərbaycan hansı ölkəyə çevriləcək, beş ildən, on ildən, iyirmi ildən sonra Azərbaycanın mövqeləri necə olacaq, Azərbaycanın iqtisadi potenisialı necə olacaq, insanların həyat səviyyəsi necə olacaq – bütün bunlar bizi düşündürür. Çünki biz ölkəmizin gələcəyi üçün, Azərbaycanın hərtərəfli inkişafı üçün işləyirik"[1].
>
> **İlham Əliyev**
> Azərbaycan Respublikasının Prezidenti

Bu kitabı yazmağa məni ruhlandıran son onillikdə Azərbaycanda baş verən böyük dəyişikliklər olmuşdur. Kitabı başa çatdırarkən hazırda dünya məkanında baş verən proseslərin təhlilini davam etdirirəm və aydın şəkildə başa düşürəm ki, demokratiya ona xas olan bütün spesifik əlamətləri ilə birlikdə insan beyninin çox qiymətli bir ixtirası olub, insanların harmonik cəmiyyətdə yaşamasını reallığa çevirmək, onların öz hüquq və azadlıqlarını təmin etmək, eləcə də ən əlverişli yaşayış mühiti yaratmaq məqsədi daşıyır. Əgər biz Adəm peyğəmbərin öz həyat tərzini demokratikləşdirməyə çalışdığını desək, səhv etmərik. Çünki o, özünə seçim azadlığı vermişdi. Musa, İsa, Məhəmməd peyğəmbərlər də bəşəriyyətə

[1] Üçüncü çağırış Milli Məclisin payız sessiyasının açılışında Prezident İlham Əliyevin nitqindən. "Azərbaycan" qəzeti, 3 oktyabr 2006-cı il.

vicdan azadlığına və dini etiqad azadlığına inam bəxş etmişlər. Fransa inqilabı gələcək liberal cəmiyyətin konturlarını bir qədər açıb göstərməklə insanın hüquq və azadlıqlarının yeni tərzdə anlaşılmasını vermişdir. ABŞ-da vətəndaş müharibəsi dərisinin rəngindən və irqindən asılı olmayaraq, hamının azad olmasını bəyan etmişdir. Rusiyada təhkimçilik hüququnun ləğvi mahiyyət etibarilə quldarlığa son qoymuş, SSRİ-nin dağılması isə "yeni demokratiyaların" sərhədlərini genişləndirməyə imkan vermiş və bununla da insanın hüquq və azadlıqlarının müdafiəsinin prioritet məsələ olduğu məkanı genişləndirmişdir.

Adətən, biz demokratiyadan danışanda insan azadlıqları və hüquqlarını nəzərdə tuturuq. Eyni zamanda, biz çox tez-tez "demokratiya" sözünü işlədir, lakin bu anlayışın real mahiyyəti barədə düşünmürük. "Xalq hakimiyyəti" və ya "demokratiya" ifadələri o qədər adiləşmişdir ki, onlardan istər mətbəx söhbətlərində, yemək məclislərində, istərsə də siyasi debatlarda tez-tez istifadə edilir. Bəşəriyyət açıq birgəyaşayış forması olan demokratiyaya çox böyük ümid bəsləyir. Deməli, demokratiyanın mahiyyətini və cəmiyyətin inkişafı üçün açdığı perspektivləri daha dərindən dərk etmək üçün ona öz mülahizələrimizdə daha artıq diqqət yetirməliyik. Sərbəst polemika, diskussiyalar demokratik birgəyaşayış ənənələrinin və müvafiq normaların lap əvvəldən şübhəli səviyyədə olduğu transformasiya cəmiyyətlərində mühüm rol oynayır.

Mən kitabın əvvəlində qeyd etmişdim ki, bu əsər qlobal transformasiya proseslərinin mürəkkəb dövründə hazırlanmışdır. Lakin xüsusi vurğulamalıyam ki, bəşəriyyət daim tranzit vəziyyətindədir. Daha mükəmməl cəmiyyət qurmaq istəyi bizi dünya tarixinin lap əvvəlindən izləyir, buna görə də tranzit labüd olaraq bizim əbədi yol yoldaşımızdır.

Mən bu kitab üzərində işi Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş səmərəli dövlətçilik xəttinin təkmilləşdirildiyi bir vaxtda tamamlayıram. Lakin heç bir kitab dövlətdə həyata keçirilən layihələrin və görülən işlərin bütün həcmini əhatə edə bilməz. Son onillikdə Azərbaycanda dövlətin demokratik inkişafına kömək edən sabit siyasi sistem bərqərar olmaqla yanaşı, həm də vətəndaş cəmiyyətinin əsas postulatları formalaşmışdır. Milli iqtisadiyyat əhəmiyyətli dərəcədə inkişaf etmiş və möhkəmlənmişdir. Ölkədə möhkəm səhiyyə sistemi, keyfiyyətli təhsil və əhalinin sosial müdafiəsi sistemləri yaradılır. SSRİ dağılandan sonra ölkənin bərpa edilməsinə və onun real müstəqil subyekt kimi inkişafına yönəlmiş strateji xətt uğurla həyata keçirilir.

Lakin dövlətin inkişaf səviyyəsinin göstəricisi təkcə iqtisadi, siyasi və sosial nailiyyətlərdən ibarət deyildir. Əhalinin ictimai şüuru və siyasi mədəniyyəti demokratik dövlətin və vətəndaş cəmiyyətinin təşəkkülünün əsas seqmentidir. Bu kitabda mən tranzitar cəmiyyətlərin demokratik inkişafının həm tarixi, həm də müasir meyillərini araşdırmağa çalışmışam. Yeni və ən yeni dövr mütəfəkkirlərinin dünyada məşhur olan əsərlərini təhlil etməklə, tarixin müxtəlif mərhələlərində dünya məkanında demokratik ideyaların inkişaf dinamikasını göstərmək istəmişəm. Mən "Amerikanı kəşf etmək" fikrindən uzaq olmuşam, lakin bu və ya digər mütəfəkkirlərin sosial gerçəkliyi demokratik anlayışlarını bəşəriyyətin inkişafının müasir dövrünün reallıqlarına tətbiq etməyə və ən başlıcası, bu ideyaları inkişafın milli modeli nümunəsində təkrarlamağa çalışmışam.

Kitab üzərində işləyərkən və bununla yanaşı Qərb müəlliflərinin demokratiya məsələlərinə dair əsərləri ilə tanış olarkən yəqin etdim ki, demokratiyanın cəmiyyətdə heç də bütün

problemləri həll etmədiyini düşünən tədqiqatçılar haqlıdırlar. Bu demokratiyanın seçkili demokratiya[1], yoxsa liberal demokratiya[2] olmasının fərqi yoxdur. Düzdür, demokratiya, idarəetmənin ən yaxşı formasıdır, lakin bəzən hesab edildiyinin əksinə olaraq, o, mütləq nemət deyildir. Hələ demokratik siyasi təfəkkürün əsas generatorları olan Aristotel və Platon hesab edirdilər ki, "idarəetmənin həyata keçirilə biləcək ən real forması qarışıq və ya konstitusiyalı idarəetmə formasıdır. İdarəetmənin bu prinsiplərinə əsaslanan azadlıq qanunun çərçivələri ilə, xalqın suverenliyi isə asayiş və sabitlik yaradan dövlət təsisatları ilə məhdudlaşır"[3].

Hazırda elmi və siyasi dildə "demokratiya" termini sırf siyasi məna daşıyır. Demokratiyanın praktik təyinatına gəldikdə isə, tanınmış tədqiqatçılar arasında belə bir fikir var ki, hətta liberal demokratik dövlətlər də çox vaxt demokratik ideallardan geri qalır. İtaliya, Yaponiya, Belçika, Fransa, ABŞ və bəzi başqa demokratik sənaye dövlətlərində baş verən siyasi proseslər göstərir ki, siyasi təsisatları tamamilə möhkəmlənmiş, konsolidasiya olunmuş demokratik rejimlər də seçicilərin ətaləti, sinizm, siyasi prosesdən uzaqlaşma faktları bir yana, korrupsiyadan, siyasi hakimiyyətdən bərabər istifadə etmək imkanının olmamasından əziyyət çə-

[1] S e ç k i l i d e m o k r a t i y a elə konstitusiyalı sistemdir ki, burada qanunverici və ali icra hakimiyyəti orqanları müntəzəm, bəhsləşmə şəraitində keçən, çoxpartiyalı ümumi seçkilər yolu ilə formalaşır.

[2] L i b e r a l d e m o k r a t i y a seçkili demokratiyanın elementləri ilə yanaşı, tələb edir ki, birincisi, hakimiyyət seçicilər qarşısında birbaşa və ya dolayısı ilə hesabat verməyən hərbçilərin və digər qrupların təsiri altında olmasın. İkincisi, idarə edənlərin idarə edilənlər qarşısında şaquli istiqamətdə hesabat verməsi ilə yanaşı, vəzifəli şəxslərin üfüqi istiqamətdə bir-birinə hesabat verməsi tələb olunur. Üçüncüsü, liberal demokratiya bir-biri ilə rəqabətdə olan maraqların və dəyərlərin daşıyıcılarının müntəzəm seçklərdən asılı olmadan öz aralarında açıq rəqabət aparmaq imkanının olması üçün şəxsi və ümumi azadlıqlar kimi, siyasi və vətəndaş plüralizmi üçün də şərait olmasını nəzərdə tutur.

[3] Теория и практика демократии. Избранные тексты. М., 2006, стр. 25.

kir. Həmin ölkələrdə demokratiyadan bezmək müşahidə olunur. Bu hal gənclər arasında daha çox hiss olunur və hakimiyyət orqanlarını ciddi narahat edir.

Dünyada bütün vətəndaşların bərabər siyasi resurslara malik olduğu, hakimiyyətin özünün bütün vətəndaşlar qarşısında tamamilə və ya demək olar ki, tamamilə cavabdeh olduğu mükəmməl demokratiya yoxdur və heç vaxt da olmamışdır. Məhz buna görə də sosioloq Robert Dal demokratiyanın bu gün üçün mümkün olan daha məhdud formasını səciyyələndirən "poliarxiya" terminindən istifadə edir. Poliarxiya konsepsiyası iki aşkar şərti nəzərdə tutur: müxalifət və siyasi iştirak. Bu iki şərtlə sıx bağlı olan üçüncü şərt vətəndaş azadlığıdır, bunsuz həmin şərtlər öz əhəmiyyətini itirir.

Mövcud konsepsiyalara görə, dünyadakı nemətlərin heç də hamısı demokratiyadan asılı deyildir. Sosioloq Xuan Lintsin fikrincə, siyasi demokratiya bizim demokratik cəmiyyət adlandırdığımız anlayışa hətta təxmini də olsa uyğun gəlməyə təminat vermir. Filipp S.Şmitter və Karl de Şveynts (kiçik) isə belə hesab edirlər ki, avtokratik rejimlərlə müqayisədə, demokratiya iqtisadi və inzibati baxımdan heç də daha səmərəli olmalı deyildir. Lakin demokratik dövlətlər azadlığın geniş yayılmasına, alternativ hökumət və siyasət seçməyin real şəkildə mümkünlüyünə, habelə mənafelərinə toxunulan qrupların təşkilatlanmasına və səfərbər edilməsinə imkan verməklə sosial ədalətsizliyin azaldılması, yanlış siyasi qərarların və hakimiyyətdən sui-istifadənin aradan qaldırılması üçün zəmin yaradır.

Demokratiyanı inkişaf etməkdə olan fenomen kimi başa düşmək lazımdır. Hətta ölkə seçkili və ya liberal demokratiyanın standartlarından uzaq olduqda belə, demokratik təsisatların

yaxşılaşması və dərinləşməsi mümkündür. Demokratiyanın inkişaf etməsi və möhkəmlənməsi cəmiyyətin üzləşdiyi bütün sosial və iqtisadi problemləri həll etməyəcəkdir. Lakin ictimai müzakirə sahəsinin genişlənməsi, demokratiyaları dərinləşdirən və genişləndirən islahatlar əhalinin şüur səviyyəsini və seçkili hakimiyyət orqanlarının legitimliyini artıra bilər. Vətəndaşların sərişẗəlilik səviyyəsinin artması və onların siyasi prosesdə fəal iştirakı ictimai həyatın başqa sahələrinə də yayılacaqdır. Xeyriyyə təşkilatlarında və ictimai tədbirlərdə iştirak etmək kimi vətəndaş aksiyaları qarşılıqlı etimada, qarşılıqlı əlaqəyə və əməkdaşlığa gətirib çıxarır, bu isə cəmiyyətin siyasi fəallığının artmasına, iqtisadi inkişafa, demokratik sabitliyə və sosial problemlərin həllinə kömək edir.

Bəşəriyyətin inkişaf perspektivləri baxımından demokratiyanın taleyi birmənalı şəkildə müəyyən edilməmişdir. Liberal demokratiya elementləri ayrı-ayrı ölkələrdə müxtəlif ardıcıllıqla, müxtəlif dərəcədə və müxtəlif sürətlə yaranır. Bununla belə, demokratik dəyişikliklər müxtəlif istiqamətlərdə həyata keçirilə bilər. Seçkili demokratiyalar daha demokratik – liberal, konstitusiyalı, bəhsləşən, məsuliyyətli, hesabat verən və bütün vətəndaşların siyasi prosesdə iştirak etməsinə imkan yaradan rejim ola bilər. Lakin onlar eyni dərəcədə daha az demokratik, yəni daha mərkəzləşmiş, sərt, korrupsiyaya qurşanmış, özünə qapanmış, məsuliyyətsiz və heç kəsə hesabat verməyən rejimlərə çevrilə bilər. Liberal demokratiyalar da siyasi məsuliyyətin, hesabat verməyin, əlverişlilik və bəhsləşmə səviyyəsini yaxşılaşdıra və ya pisləşdirə bilərlər. Demokratiyanın inkişafının yalnız bir istiqamətdə getməsinə heç bir zəmanət yoxdur. Lakin belə güman etməyə kifayət qədər əsas vardır ki, əgər vaxtaşırı islahatlar keçirilməsə və yeniləşdirilməsə, bütün siyasi sistemlər daha sərt olur, kor-

rupsiyaya qurşanır və qeyri-həssas olur. Demokratiya nəinki keyfiyyətcə pisləşə bilər, hətta formal hakimiyyət təsisatlarının iflasa uğraması və daha gizli şəkildə gedən daxili parçalanma prosesləri nəticəsində tamamilə yox ola bilər[1].

Fikrimizcə, tranzitar cəmiyyətlərdə demokratiya mühüm və aktual problemdir. Əvvələn, demokratiya yeni siyasi və sosiomədəni təriflər sistemi kimi təzahür edir. İkincisi, o, tranzitar cəmiyyətlərdə daxili transformasiyalar üçün zəmin yaradır. Üçüncüsü, o, dövlətin iqtisadi və siyasi xəttinin mərhələlərlə dəyişməsində özünü göstərir. Bütün bu cəhətlər dünyada və regionda yeni qayda yaranmasına ciddi təsir edir. Aydındır ki, demokratiya təkcə politoloji ideya kimi deyil, həm də həyat və təfəkkür tərzi, birgəyaşayış və dünyada baş verən proseslərə fəal cəlbolunma tərzi kimi xalqın öz iradəsini sadəcə ifadə etməsindən daha geniş məfhumdur.

Mənim bu əsərdə təhlil etməyə çalışdığım Azərbaycanın demokratik inkişafı hazırda konsolidasiyaya doğru hərəkət mərhələsindədir. Biz hazırlıq fazasının çətinliklərini uğurla dəf edərək, E Pluribus Unum[2] formulu ilə ifadə edilə biləcək qlobal dünya nizamının tərkib hissəsinə çevrilməyə, qərarlar qəbul edilməsi, demokratiyanın bərqərar olması fazasını gerçəkləşdirməyə nail olmuşuq. Bu formul insan hüquqları və azadlıqlarının ümumi və universal dəyərləri, liberal ideyalar, ədalətin təntənəsi və öz həyat tərzini yaxşılaşdırmağa qabil olan yeganə instansiya kimi insanın gücünə inam əsasında formalaşan qlobal qaydanın vəhdətini əhatə edir.

Unutmamalıyıq ki, keçmişimiz gələcəkdə bizi nələr gözləyəcəyinin parlaq sübutu, habelə dövlətin inkişafının düzgün

[1] Теория и практика демократии. Избранные тексты. М., 2006, стр.32-33.
[2] "Çoxludan əmələ gələn vəhdət", yaxud "Müxtəliflikdə vəhdət" (*lat*).

strategiyasının müəyyən edilməsində bizə köməkçidir. Tarixi reallıqları nəzərə almadan möhkəm dövlətçilik, sabit sistem və inkişaf etmiş cəmiyyət qurmaq çətindir. Bir qədər geriyə, keçmişə qayıdaraq yada salaq ki, 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Sovetinin sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə, elə həmin il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul edilmişdi. 1991-ci il dekabrın 29-da Azərbaycan Respublikasında ümumxalq referendumu keçirilmiş və əhalinin 95 faizi referendumda iştirak edərək, ölkənin müstəqilliyinə və suverenliyinə səs vermişdi. Beləliklə, XXI əsrin astanasında, SSRİ-nin dağılması ilə başlanmış yeni dünya nizamının formalaşması dövründə qüvvəyə minmiş müstəqillik haqqında Konstitusiya aktı Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) hüquqi varisi kimi Azərbaycanın müstəqilliyini şərtləndirmiş oldu.

Müstəqillik yoluna qədəm qoymaq Azərbaycanın tarixində yeni səhifə açmaqla bərabər, taleyüklü məsələlərin həlli zərurətini də irəli sürdü. Bu böyük məsələlərin həlli məqsədyönlü daxili və xarici siyasət xəttinin işlənib hazırlanması və həyata keçirilməsini, ölkənin mədəni-intellektual, sosial-iqtisadi və ictimai-siyasi potensialından səmərəli istifadə olunmasını tələb edirdi. Lakin Azərbaycanın müstəqilliyinin ilk illərində dövlət quruculuğunun bütün mövcud imkanlarını reallaşdırmaq mümkün olmadı. Ona görə də ölkənin problemlərinin çoxu həll edilməmiş qaldı. SSRİ dağılandan sonra ölkəmizin dünya sisteminə inteqrasiyasının guya avtomatik olaraq təmin ediləcəyi, tranzitin isə təbii şəkildə baş verəcəyi barədə əsassız ümidlər də doğrulmadı.

Respublikada cərəyan edən və heç də birmənalı olmayan proseslər, xüsusən Azərbaycanın bir hissəsinin Ermənistan tərəfindən işğalı milli identiklik problemlərinin yenidən dərk olunmasına kömək etdi. Cəmiyyətdə millətçilik əhvalı güclənir, ictimai-siyasi məkanda anarxiya və hərc-mərclik get-gedə artırdı. Müstəqilliyin ilk illərində tətbiq edilən idarəetmə metodları, o vaxt qəbul olunmuş bir sıra qanunlar bomba partlayışı effekti doğurur, cəmiyyəti monolit qüvvə kimi birləşdirmək əvəzinə, separatçılıq meyillərinin güclənməsinə zəmin yaradırdı.

Azərbaycanın siyasi müstəqilliyi davamlı və sabit inkişaf üçün perspektiv açırdı. Lakin dinamik tərəqqi və səmərəli inkişaf yalnız bərqərar olmuş və ya ən azı, formalaşmaqda olan demokratik dəyərlərə malik açıq cəmiyyətlərdə mümkündür. Beləliklə, demokratiya xalqın iradəsinin ifadəsinə çevrilmişdi. 1991-ci ilin oktyabr ayından, yəni müstəqillik əldə ediləndən bəri Azərbaycan iqtisadiyyatı tamamilə bərbad, siyasi sistemi son dərəcə qeyri-sabit olduğu, totalitar sovet cəmiyyətinin qalıqlarının hökm sürdüyü bir vəziyyətdən davamlı siyasi xətti, sabit və dinamik inkişaf edən iqtisadi sistemi, formalaşmaqda olan vətəndaş cəmiyyəti, get-gedə möhkəmlənən demokratik təsisatları mövcud olan, ictimai şüurun tədricən yeni davranış stereotipləri məcrasına transformasiya etdiyi bir dövlətə çevrilmək üçün böyük bir yol keçmişdir. 1988-1993-cü illərdə Azərbaycanda hakimiyyətsizliyin hökm sürdüyü vaxtda formalaşmış anarxiya sindromu ölkənin siyasi, iqtisadi və ictimai həyatının bütün sahələrini bürümüşdü. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıdandan sonra Azərbaycan səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəldilməsi strategiyasına uyğun olaraq və Azərbaycan

xalqının sosiomədəni irsinə əsaslanaraq, demokratik tranzit yoluna qədəm qoydu. Məhz sonrakı illərdə Azərbaycan cəmiyyəti müstəqil siyasi və iqtisadi xəttin reallaşdırılmasına səfərbər edildi: hakimiyyət boşluğu aradan qaldırıldı, separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qəsd edən cinayətkar qruplar cəmiyyətdən təcrid olundu, nizami silahlı qüvvələr yaradılması ilə əlaqədar tədbirlər görüldü. Nəticədə demokratik təsisatların və ənənələrin formalaşması prosesi başlandı, vətəndaşların və dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan dövlətçiliyin və sosial sabitliyin təməli qoyuldu. Dövlət cəmiyyətin bütövlüyünün etibarlı təminatçısına çevrildi.

Azərbaycanın gələcəyi üçün məsuliyyəti öz üzərinə götürmüş Heydər Əliyev son onillikdə hədsiz gərgin zəhmət bahasına yeni milli inkişaf strategiyası formalaşdırmağa müvəffəq olmuşdur. Bu strategiya suveren demokratiya ideyasına, dövlətin bütövlüyünə, hər bir vətəndaşın maddi rifahın, bütün vətəndaşlar üçün, Azərbaycanı təşkil edən bütün sosial qruplar və xalqlar üçün azadlığın və ədalətin təmin olunmasına əsaslanırdı.

Bu illər ərzində ictimai, iqtisadi və sosial sahələrdə demokratik islahatlar keçirilmiş, maliyyə sahəsində yüksək nəticələr əldə edilmişdir. Hüquq mühafizə orqanlarında, məhkəmə sistemində və penitensiar sistemdə dünya standartlarına uyğun islahatlar aparılmışdır. Dövlət idarəçiliyi strukturuna ciddi dəyişikliklər edilmiş, milli ordunun formalaşması və möhkəmlənməsi sahəsində mühüm tədbirlər görülmüşdür. Torpaq islahatı aparılmış, torpaq xüsusi mülkiyyətə verilmişdir. Dövlət özəlləşdirmə proqramları genişmiqyaslı islahatların aparılmasında böyük rol oynamışdır. Sosial yönümlü

islahatlar və əhalinin sosial müdafiəsinə dair tədbirlər iqtisadi siyasətdə mühüm yer tutmuşdur. Ölkənin bank-kredit, vergi və büdcə sistemlərinə ciddi dəyişikliklər edilmişdir, vətəndaşların real gəlirlərinin artırılması sahəsində nəzərəçarpacaq uğurlar vardır. Söz və vicdan azadlığı, şəxsiyyətin toxunulmazlığı, insan hüquqları təmin edilmişdir; ölkədə tolerantlıq mühitinin bərqərar olması sayəsində vətəndaş cəmiyyətinin formalaşdırılması yolunda əhəmiyyətli tərəqqi vardır. Bütün bunlar 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Bu Konstitusiya demokratiyaya keçid şəraitində "qərarlar qəbul edilməsi fazasına" tranzitin bazisinə çevrilmişdir.

XX əsrin son onilliyində ölkəmiz dövlət təsisatlarının və ictimai təsisatların tənəzzülünün qarşısını almaq üçün çox çətin məsələləri həll etməyə məcbur olmuşdur. Eyni zamanda, irəlicədən bir neçə illər, onilliklər üçün ölkənin inkişafının təməlini yaratmaq lazım idi. Başqa sözlə desək, biz uçqunları təmizləyir və tədricən irəliləyirdik. Bu baxımdan sabitləşmə siyasəti, əslində, yığılıb qalmış problemlərə münasibət bildirmək siyasəti idi. Bu siyasət bütövlükdə özünü doğrultdu.

1990-cı illərin əvvəllərindən etibarən Azərbaycan öz inkişafında şərti olaraq bir neçə mərhələdən keçmişdir. Bu mərhələlərin birincisi əvvəlki iqtisadi sistemin sökülməsi ilə bağlıdır. O, vərdiş etdiyimiz həyat tərzinin kökündən dəyişdirilməsi, kəskin siyasi və sosial münaqişələrlə müşayiət olunurdu və Azərbaycan cəmiyyəti bu mərhələni çox çətinliklə keçdi. İkinci mərhələ "köhnə binanın dağıdılması" nəticəsində yaranmış uçqunları təmizləmə dövrü idi. Bununla bərabər, iqtisadiyyatda və siyasi sahədə ən təhlükəli meyilləri dayandırmaq mümkün oldu. Həmin illərdə qəbul edilən qərarların heç də hamısı uzunmüddətli xarakter daşımırdı. Əslində, ölkə

müasir dövlət quruculuğunun üçüncü mərhələsinə, yüksək sürətlə inkişaf etmək, genişəhatəli ümummilli məsələləri həll etmək imkanını yenicə qazanmışdı. İndi, kifayət qədər təcrübə topladığımız, zəruri imkanlar yaratdığımız bir vaxtda biz öz qarşımıza, həqiqətən, uzunmüddətli məqsədlər qoya bilərik.

Nəhayət, ölkəmiz həm hüquqi, həm də faktik baxımdan öz birliyini bərpa etmişdir: dövlət hakimiyyəti möhkəmlənmişdir; müstəqil məhkəmələr yaradılması üçün qanunvericilik qaydasında ciddi işlər görülür, seçki sistemi təkmilləşdirilmişdir; tam mənada vətəndaş cəmiyyətinin inkişafı üçün, o cümlədən yeni və sivilizasiyalı siyasi strukturun inkişafı üçün şərait yaradılmışdır; Azərbaycan vergi islahatı yolunda xeyli irəliləmişdir; pensiya sistemində, infrastruktur inhisarlarında islahatlar aparılması üçün tədbirlər görülmüşdür və sair.

Son on ildə Azərbaycanda qurulmuş siyasi məkan demokratik, sivilizasiyalı, dünyəvi və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş ideyaların məcmusudur. Demokratiyaya zərər vurmadan suverenliyi saxlamaq və identikliyi itirmədən demokratik olmaq – milli inkişaf strategiyasının əsasını bunlar təşkil edir. Bununla bərabər, başa düşmək lazımdır ki, ayrılıqda götürülmüş hər bir məkanda demokratiyanın məxsusi qravitasiya itkiləri vardır və mahiyyət etibarilə demokratiya bütün cəmiyyətlərdə eyni ola bilməz. Mədəniyyət, mentalitet, siyasi mədəniyyətin səviyyəsi, tarix və ənənələr, dövlətin iqtisadi inkişaf səviyyəsi dövlətin və cəmiyyətin demokratik inkişaf imkanlarını müəyyənləşdirən təriflərin kompleksini ifadə edir.

Lakin çox vaxt demokratiya qondarma "qərbləşmə" layihəsinin tərkib hissəsinə çevrilir ki, bu da ictimai şüurun cəmiyyətə tamamilə yabançı olan, kənardan "reseptlə" təqdim edilmiş norma və stereotiplər məcrasına qismən və ya tama-

milə transformasiyası deməkdir. Belə vəziyyətdə demokratik tranzit uğursuzluğa məhkumdur, çünki tranzitar cəmiyyətin xüsusiyyətləri nəzərə alınmadan, bu və ya digər məkanda demokratiya bərqərar olduqca onun üzləşəcəyi çətinlikləri başa düşmədən sabit demokratik rejim qurmaq mümkün deyildir.

Azərbaycanda demokratikləşmə prosesi dövlətdə həyata keçirilən ümumi islahatlarla ahəngdar şəkildə gedirdi. Buna görə də ölkəmiz uzun bir yol – hazırlıq fazasını, qərarların qəbul edilməsi, demokratiyanın bərqərar olması fazasını keçərək, konsolidasiya olunmuş demokratiya yoluna qədəm qoymalı olmuşdur. Demokratik tranzit Azərbaycan cəmiyyətinin yeniləşdirilməsinin məqsədi və vasitəsinə, siyasi sistemin və sosial münasibətlərin humanistləşdirilməsi proqramına çevrilmişdir. Demokratiya ölkədə hökm sürən anarxiya və hərc-mərcliyin, Azərbaycan cəmiyyətinn bir hissəsinə aid olan ictimai ümidsizlik və marginallaşma hallarının öhdəsindən gəlmiş, ordunun və dövlət aparatının parçalanması prosesini dayandırmış, dövlətin oliqarxiya kapitalizminə doğru yuvarlanmasının qarşısını almış və səmərəli dövlətçilik mexanizmləri yaradılması üçün qəti hücuma keçmişdir. Lakin müşahidələr aparmaq üçün vaxt çox azdır və cəsarətli nəticələr çıxarmaq, bəlkə də, hələ tezdir. Bununla belə, yolun bir hissəsi artıq keçilmişdir və cəmiyyətimiz həqiqətən azaddır.

Lakin qeyd etmək lazımdır ki, demokratiya mühiti həmişə radikallarla dolu olur. Əgər onlardan milli immuniteti zəiflətmək üçün istifadə etməyə cəhd göstərməsəydilər, bəlkə də, onları heç yada salmağa dəyməzdi. Demokratik təsisatların qərarlaşmaması, sabitləşməməsi və möhkəmlənməməsi bəzilərində kvazivassal sistemi yaratmaq, ayrı-ayrı kliyentalist qruplar tərəfindən hakimiyyətin ələ keçirilməsi kimi iştahalar oyadır. Azərbaycanın cəlbediciliyi onun müstəqilliyindədir.

Buna görə də müəyyən qüvvələrin hadisələrin radikal inqilabi ssenari əsasında inkişafına meyil etməsini aktuallaşdırır. Lakin Azərbaycanda demokratiya yeni davranış stereotipləri formalarına uyğunlaşır. Bu formalar isə anarxist meyilləri, artıq keçmişdə qalmış sosial israfçılığı rədd edir.

Yeni Azərbaycan sabit siyasi rəqabət, sivilizasiyalı, şəffaf və rəqabətədavamlı məkan yaradılmasına yönəlmiş yeni siyasi texnologiyalar deməkdir, çünki siyasi müxtəliflik davamlı inkişafın şərtidir. E.Toffler yazır: "Üçüncü dalğa şəraitində demokratiyanı yenidən yaratmaq üçün biz adamları qorxudan, lakin saxta xarakterli belə bir fərziyyəni kənara atmalıyıq ki, müxtəlifliyin çoxluğu avtomatik olaraq cəmiyyətdə gərginliyin və münaqişələrin də çox olmasına gətirib çıxarır. Əslində, bunun əksi düz ola bilər. Cəmiyyətdə münaqişə nəinki zəruridir, hətta müyyən həddə qədər onun olması arzuediləndir. Əgər yüz nəfər mis üzüyə sahib olmağı çox istəyirsə, onları həmin üzük uğrunda savaşmağa məcbur etmək olar, yox əgər bu yüz nəfərin hər birinin məqsədi varsa, onların öz arasında sövdələşməsi, əməkdaşlıq etməsi və simvolik münasibətlər yaratması qat-qat sərfəlidir. Müvafiq sosial şəraitdə müxtəliflik təhlükəsiz və sabit sivilizasiyaya gətirib çıxara bilər"[1].

Biz Azərbaycanda yeni müxalifət formalaşmasının zəruriliyi barədə tez-tez danışırıq. Bu cür mühakimələr üçün tamamilə haqlı və real əsaslar var. Əvvəlki stereotiplərə və xurafata sadiq qalan milli radikal müxalifət bir siyasi opponent kimi gərəksiz olmuşdur. İndiki dövrün reallıqları siyasi səhnədə "vəzifə naminə" düşmənçilik etməyə yox, rəqabət aparmağa hazır olan yeni texnokratların yaranmasını şərtləndirir.

[1] Э.Тоффлер. Третья волна. М., 1999, стр. 663-664.

Müasir siyasi məkan milli müxalifətə xas olan avtoritarizmi və tənəzzülü qəbul etmir. Müsavat Partiyası Divanı üzvlərindən birinin aşağıdakı sözləri milli müxalifət hərəkatında daxili siyasi tənəzzülün və durğunluğun əyani nümunəsidir: "Müxalifət avtoritar idarəetməni ən ideal metod hesab edir".[1] Məhz avtoritarizm radikal müxalifət daxilində disfunksiyaya səbəb olmuş və son on ildə onun yetərli siyasi struktura çevrilməsinə imkan verməmişdir.

Azərbaycan demokratiya yolu ilə inkişaf etdikcə, siyasi məkan yeni aktorların və zamanın tələblərinə cavab verən, postindustrial cəmiyyətin tranzit imkanlarını üzə çıxaran siyasi mədəniyyətinin olmasını tələb edir. Ümumiyyətlə, son illərdə Azərbaycan siyasi təsisatları və ənənələri əhəmiyyətli dərəcədə təkmilləşdirmişdir.

Qərbin tanınmış mass-media bosslarından biri ilə söhbətim yada düşür. O deyirdi ki, Qərbdə Azərbaycanı "demokratiya məktəbinin birinci sinif şagirdi deyil, yuxarı sinif şagirdi hesab edirlər". Kifayət qədər tez-tez eşitdiyimiz bu sözlər Azərbaycan demokratiyasının keçdiyi yolu düzgün əks etdirir. Finlandiyanın xarici işlər naziri Erkki Tuomioyayanın söylədiyi çox mənalı fikir buna əyani sübutdur: "Son altı il ərzində Azərbaycanda iyirmi ildəki qədər dəyişikliklər baş vermişdir. Mən dünyanın heç bir başqa ölkəsində belə qısa müddətdə bu cür inkişaf görməmişəm".

Milli demokratik tranzit təkcə daxili dəyişikliklər nəticəsində deyil, həm də dünyada yenidən demokratikləşməyə doğru qlobal dönüş sayəsində mümkün olmuşdur. Sovet İttifaqı dağılandan sonra keçmiş sovet respublikalarında fəal surətdə "demokratikləşmə" prosesi başlandı. Lakin demokra-

[1] http://www/day.az/news/politics/65824.html

tikləşmə təkcə daxili sosiallaşmanın yoxluğu problemləri ilə deyil, həm də siyasi mədəniyyət səviyyəsinin aşağı olması, siyasi ənənələrin və təsisatların formalaşmaması, iqtisadi xarakterli çətinliklər kimi problemlərlə də üzləşirdi. Ona görə də bir sıra dövlətlərdə bütövlükdə cəmiyyətin deyil, əslində, ayrı-ayrı sosial qrupların maraqlarını ifadə edən kvazidemokratik sistemlər yaranırdı. Sovet İttifaqı dağılandan sonra Azərbaycan demokratik cəmiyyət formalaşdırmaq və sabitlik yaratmaq dilemması qarşısında qalmışdı. Dövlətin universal rolu onun sabitliyində və qüvvəsindədir, davamlı inkişafı yalnız sabitlik və güc təmin edə bilər. F.Fukuyama da bu fikirdədir. O yazır: "Biz böyük güclərin bir-biri ilə münaqişə apardığı dünyaya qayıtmağı arzulamasaq da, həqiqətən, gücə tələbatın qeydinə qalmağa ehtiyac duyuruq. "Dövlətçiliyin görüntüsünün" tərəfdarı olanlar azad bazarın müdafiəçiləri olmasından, yaxud çoxtərəfli müqavilələr ideyasına sadiqliyindən asılı olmayaraq izah etməlidirlər ki, müasir dünyada milli dövlətlərin gücünü məhz nə əvəz edəcəkdir"[1].

Beləliklə, dövlət daxilində sabitlik onun gücünü təmin edir, bu isə son nəticədə davamlı demokratik inkişaf üçün imkan yaradır. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra məhz bu prioritet yeni dövlətçilik qurulmasının əsası kimi qəbul edilmişdir. Bütün bu illər ərzində məhz sabitlik milli inkişaf strategiyasının prioriteti olmuş və Azərbaycanın dərin islahatlar və dəyişikliklər yoluna qədəm qoymasına imkan vermişdir.

Struktur dəyişiklikləri nəticəsində 2003-cü ildə milli siyasi məkan yeni dövrə – Etimad, Fəallıq və Dinamika dövrünə daxil oldu. Məhz bu üç komponent Prezident İlham Əliyevin varislik siyasətini şərtləndirmişdir və XXI əsrin əvvəlində

[1] Ф.Фукуяма. Сильное государство. М., 2006, стр. 199.

səmərəli dövlətçiliyin mahiyyətini təşkil edir. 2003-cü ilin oktyabr ayında İlham Əliyevə göstərilən etimad sivilizasiyalı siyasi strukturun təşəkkülünə və dinamik iqtisadi layihələrin reallaşdırılmasına yönəlmiş yeni, daha fəal addımların təməli oldu. Ümumən, son üç ildə ölkədə partiyalararası dialoqun möhkəm təməli formalaşmışdır, üçüncü sektor yeni yaranmaqda olan vətəndaş cəmiyyətinin mühüm tərkib hissəsinə çevrilməkdədir, demokratik təsisatlar və ənənələr mərhələlər üzrə, xaotik sıçrayışlara yol verilmədən və sosial gerçəkliyin reallıqları nəzərə alınmaqla təkmilləşdirilir.

"Üçüncü demokratik dalğa" bəşəriyyətin postindustrial dövrünün dəyərlərinə qlobal dönüşünün yekunu olmuşdur. Eyni zamanda, "Üçüncü demokratik dalğa" avtoritar rejimdən demokratik rejimə tranzit nəticəsində vətəndaş simasının formalaşdığı bir sıra dövlətlərdə yeni davranış formalarının və təfəkkür tərzinin bərqərar olmasına kömək etmişdir. Dünya məkanının tədricən demokratiləşməsi labüd olaraq, siyasi prosesin iştirakçılarına münasibətdə idarəetmə formasının şəffaflığı və tolerantlığı ilə fərqləndiyi dövlətlər zolağının yaranmasına gətirib çıxarmışdır. 1974-cü ildə Portuqaliyada başlanmış Şərqə "Demokratiyanın yürüşü" təkcə 1991-ci ildə sovet rejiminin süqutu ilə deyil, həm də demokratik tranzitin yeni dalğasının təsiri altında keçmiş sovet dövlətlərinin daha da transformasiya etməsi ilə əlamətdar oldu.

Yeni dalğa siyasi və iqtisadi sistemə postindustrial təzyiqin təsiri altında baş verən "məxməri" inqilablarda özünü göstərirdi. E.Toffler haqlı olaraq yazırdı ki, "bu, yeni sivilizasiyadır, çünki o, köhnə sivilizasiyaya qarşı çıxır, bürokratiyanı rədd edəcək, milli dövlətin rolunu azaldacaq, postimperialist dünyanın yarımmuxtar iqtisadiyyatlarının tərəqqisinə kömək edəcəkdir. O, yeni, daha sadə, səmərəli və de-

mokratik hökumətlərin olmasını tələb edir. Bu sivilizasiyanın dünya haqqında özünəməxsus təsəvvürü, zaman, məkan, məntiq və səbəbiyyət amillərindən istifadə barədə özünəməxsus üsulları vardır"[1].

Məlum oldu ki, keçmiş sovet avtarkiyası dövlətlərinin yenidən transformasiyası və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi labüddür. Qloballaşma təkcə iqtisadi səmtlərin dəyişməsi üçün deyil, həm də bir sıra dövlətlərin siyasi xəttinin dəyişməsi üçün zəmin yaratmış və bu, daha transparent rejimlər yaranmasında özünü göstərmişdir. Beləliklə də biz Serbiya, Gürcüstan, Ukrayna və Qırğızıstanda "inqilabların" şahidi olduq. İnqilabi eyforiya keçmiş postsovet məkanının, demək olar, bütün dövlətlərini əhatə etdi, Yaxın Şərqə də gəlib çatdı. Hətta Livanda fəaliyyət göstərən "Hizbullah" təşkilatından olan radikal islamçılar da çadır şəhərciklərinin yaradılması, hökumətlərin istefası barədə tələblərlə dinc nümayişlər keçirilməsi, siyasi rəqabətin yalnız sivilizasiyalı vasitələrindən istifadə olunması kimi üsullar tətbiq edirdi. "Məxməri" inqilablar metodikası yeni minilliyin əvvəlində Qərbi qane etməyən hakimiyyətin qan tökulmədən dəyişdirilməsi üçün uğurlu ssenari oldu. "Zərif" transformasiyalar zamanı istifadə edilən üsullar bir neçə dövlətdə tətbiq edilmişdi və demək olar ki, onlar hər yerdə "arzu edilən nəticəni" verirdi: silah işlədilmədən, qan tökulmədən rejim devrilir, iqtidar özü "kreslosunu" tərk edərək qeyb olur, nəinki ölkənin daxili siyasi ukladını, həm də xarici siyasət xəttini də dəyişən yeni siyasi elita meydana çıxırdı. Beləliklə, XXI əsrin əvvəlində baş vermiş "məxməri" tranzitlər dünya nizamının yenidən formalaşdırılmasına və qlobal homogen sistem yaradılmasına dair qlobal geosiyasi layihənin nəticəsi olmuşdur.

[1] Э. Тоффлер. Третья волна. М., 1999, стр. 34.

2005-ci ilin noyabr ayında keçirilmiş parlament seçkiləri ərəfəsində Azərbaycan da bu cür "məxməri" inqilab həddinə çatmışdı. Milli müxalifət də "inqilab" eyforiyasına uyaraq, milli reallıqlara məhəl qoymadan dövlətin inkişaf vektorunu dəyişməyə çalışırdı. Milli müxalifət hərəkatının sıralarında olanların çoxunun heç ağlına da gəlmirdi ki, "inqilabın gedişini qabaqcadan söyləmək hətta ən çox məlumatı olan müşahidəçilər üçün də mənasız işdir" (M.Veber). Radikal müxalifətin nümayəndələri milli təhlükəsizliyi, sabitliyi, iqtisadi inkişafı taleyin ümidinə buraxaraq, öz iddiaları naminə ölkəni 1991-1993-cü illərdə gördüyümüz özbaşınalıq və hərc-mərclik girdabına sürükləməyə çalışırdılar. Azərbaycanın hələ formalaşmamış müxalifət elitası siyasi rəqabət aparmaq metodikasının vaxtı keçmiş anlaşılmasının hüdudlarından kənara çıxa bilmədi və üstəlik, yeni ideyalar və ideologiya multiplikasiya edə biləcək yeni siyasi qüvvə obrazını yaratmağı bacarmadı. Müxalifət liderlərinin sosial gerçəkliyi mənimsəməsi onların öz siyasi təşkilatlarının daxilində partikulyarizmlə məhdudlaşırdı. Nəticədə bu cür vəziyyət radikal müxalifətin marginallaşmasına səbəb oldu və refleksləşdirilməmiş struktur kimi o, cəmiyyətin "ağırlıq mərkəzi"ni gizli şəkildə yeni qurumlar tərəfə dəyişəcəkdir. Bununla bərabər, yeni siyasi strukturların daxilindəki cəmləşmə siyasi rəqabət şəraiti sənaye dövrünün siyasi rəqabət formulundan əhəmiyyətli dərəcədə fərqlənən postindustrial dövrün çağırışlarına cavabı nümayiş etdirəcəkdir. Təəssüf ki, müxalifətin keçmiş uğursuzluqları iqtidara qarşı siyasi opponentliyin müasir reallıqlarına çevrilmişdir.

"İnqilab" Qərbin müyyən qüvvələrinin cəbbəxanasında onu qane etməyən hökumətlərin və onların yeritdiyi siyasi xəttin istiqamətinin dəyişdirilməsi üçün mühüm vasitələrdən

biri olaraq qalmaqdadır. Səciyyəvi haldır ki, Qərb mətbuatı bu "inqilabları" cəmiyyəti demokratikləşdirmək cəhdləri kimi qələmə verir. Postsovet respublikalarında "rəngli" inqilabın ideoloqlarının əsas leytmotivlərindən biri budur ki, bu respublikalar "Qərb sivilizasiyasına" uyğun gəlmir, öz təbiətinə görə Qərb demokratiyalarının tərəfdaşları olmağa yaramır. Bu məsələdə ideoloqlara haqq qazandırmalıyıq, onların geosiyasi layihəsi onun reallaşdırılması üçün şərait yaradılmış ölkələrdə çox vaxt "uğur qazanır".

"Britaniya Ensiklopediyası"nda siyasətdə inqilaba dövlətin idarəedilməsinin bütün qaydasını sürətli və fundamental şəkildə, adətən, zorakılıqla müşayiət olunmaqla dəyişdirən hadisə kimi tərif verilir. Bir qayda olaraq, bu inqilabın nəticəsində iqtisadi sistemdə, sosial strukturlarda və mədəni dəyərlərdə qarşısıalınmaz dəyişikliklər baş verir.

Professor P.Qureviç E.Tofflerin "Üçüncü dalğa" kitabı çıxandan əvvəl yazdığı məqalədə göstərir ki, "inqilab kütlələrin həyatının maddi və mənəvi şəraitini yaxşılaşdırmağın ən pis üsuludur. Sözdə ən böyük dəyərlərin reallaşdırılacağı vəd edilir, nəticə isə, bir qayda olaraq, tamamilə başqa olur.

Pitirim Sorokinin fikrincə, inqilablar insanları sosiallaşdırmır, əksinə, onları biolojiləşdirir. Fəhlə sinfinin iqtisadi vəziyyətini yaxşılaşdırmaq əvəzinə, daha da pisləşdirir. Bütün əsas azadlıqları artırmır, əksinə azaldır... Bütün fundamental və həqiqətən mütərəqqi proseslər inqilabı labüd şəkildə müşaiyət edən nifrətin, vəhşiliyin, sərsəm mübarizənin nəticəsi deyil, əksinə, biliyin, həmrəyliyin, kooperasiyanın və sevginin nəticəsidir.

İnqilabları kompleks səbəblər yetişdirir. Necə yaşamaq lazım olduğunu bilməyən, inkişaf etmək iqtidarında olmayan

cəmiyyət tədricən islahatlara məruz qalır, gözlənilmədən partlayış mərhələsindən keçir. Hər bir sabit cəmiyyət "naşı" radikalizm baxımından nə dərəcədə qeyri-mükəmməl görünsə də, çox böyük milli təcrübənin toplanmasının nəticəsi, ən məqbul sosial formalar axtarmaq yolunda göstərilən saysız-hesabsız cəhdlərin, səylərin, aparılan eksperimentlərin, əldə edilənlərin yekunudur"[1].

İnqilabı müşayiət edən zorakılığa gəldikdə isə, bu tərif bir qədər köhnəlmişdir. Məsələn, Şərqi Avropa dövlətlərində kommunizmin məğlub olması inqilabi prosesdir, lakin həmin ölkələrin əksəriyyətində bu prosesdə kütləvi şəkildə zorakılıqdan istifadə edilməmişdir. Göründüyü kimi, müasir inqilablarda qan tökülməməsi mümkündür, lakin bütün siyasi və sosial quruluşda sistemli dəyişikliklər aparılmadan inqilab ola bilməz. Çexoslovakiya, Almaniya Demokratik Respublikası, Macarıstan və Polşada "məxməri" inqilablardan sonra baş vermiş hadisələrdə qan tökülmədi, lakin onlar inqilabi hadisələr idi, çünki cəmiyyətin siyasi, sosial, iqtisadi və mədəni həyatının bütün sistemini əsaslı şəkildə sarsıtmışdı.

Lakin postsovet dövlətlərində, xüsusən Gürcüstanda, Ukraynada, Qırğızıstanda isə biz tamam başqa mənzərənin şahidi olduq. Bu dövlətlərdə baş verən hadisələr onların hakimiyyət sistemlərinin hakim qrupun öz hakimiyyətinin varisliyinə təminat yaratmaq cəhdi və cəmiyyətin inkişafını ləngidən problemləri aradan qaldırmağı bacarmaması arasında olan daxili ixtilafı həll edə bilməməsindən irəli gələn siyasi böhranın nəticəsi idi. Bunlarla yanaşı, unutmamalıyıq ki, geosiyasi amil də mühüm rol oynamışdır. Lakin bu dövlətlərdə "rəngli" inqilabların təşkilatçıları təkamül yolu ilə

[1] Э. Тоффлер. Третья волна. М., 1999, стр. 10-11.

keçidin tərəfdarları deyildilər və sistemli dəyişiklikləri heç də istəmirdilər, amma inqilab etmək iddiasında idilər. Onların əsas məqsədi siyasi elitanı dəyişmək idi. "İnqilaba" başçılıq edənlər arasında əvvəllər hakimiyyətin yüksək eşelonlarına daxil olan şəxslər az deyildi. Buna görə də "rəngli" inqilabın təşkilatçılarının sözdə bəyan etdikləri məqsəd yox, onların real məqsədi qisas sayıla bilər.

Azərbaycanda "rəngli" inqilab təşkil etməyə cəhd göstərənlərin də əsas məqsədi, əsasən, belə idi. Burada da Bakıdakı "Qələbə" meydanında "inqilab" tribunasına çıxanlar arasında A.Mütəllibovun dövründə hakimiyyətin yüksək eşelonlarında olmuş şəxslərin sayı sonradan Ə.Elçibəyin əhatəsində təmsil edilənlərdən heç də az deyildi. Təəccüblü deyil ki, "inqilabın" təşkilatçıları olan müxtəlif tərkibli bu qrupun dürüst ifadə ideologiyası yox idi. Gürcüstan, Ukrayna və Qırğızıstandan fərqli olaraq, Azərbaycanda 2003-cü ilin prezident seçkiləri və 2005-ci ilin parlament seçkiləri ərəfəsində siyasi və iqtisadi böhran şəraiti yox idi, üstəlik, hətta qondarma "Azərbaycan inqilabı"nın rəngi də ukraynalı "narıncılardan" götürülmüşdü.

Azərbaycan cəmiyyəti çox vaxt mürəkkəb tarixi seçimlər dilemması ilə üzləşmişdir. Yadımdadır, 2003-cü ilin aprel ayında Prezident Heydər Əliyevin xəstələnməsi cəmiyyətdə çoxlu həyəcanlı suallar doğururdu. Cəmiyyət narahat idi: görəsən, yaxın keçmişdə baş vermiş hadisələr – ölkənin oyuncaq ev kimi dağıla biləcəyi, bütün cəmiyyətdə hərc-mərclik və gələcəyə inamsızlıq ovqatı yarandığı şərait yenidən təkrarlanmayacaq ki; yeni prezident seçmək lazım gələrsə, o, kənardan göstərilən təzyiqə və radikal müxalifətin təcavüzkar çıxışlarına davam gətirə biləcəkmi? Bu və digər suallar heç də bayağı xarakter daşımırdı. Yeni prezidentin kimliyindən

asılı olmayaraq, onun vəzifəyə gəlməsi ilə əlaqədar ölkənin siyasi həyatında yeni dövr başlanırdı. Təkcə dövlətin gələcəyi məsələsi deyil, həm də siyasi rejimin xarakteri, respublikanın gələcək inkişaf yolları məsələsi həll edilirdi. Heydər Əliyevin hakimiyyəti dövründə inam hissi qazanmış əhalinin böyük əksəriyyəti əsası onun tərəfindən qoyulmuş siyasi xəttin davam etdirilməsini zəruri sayırdı. Başqa ideyalar da mövcud idi, bəzi yerlərdə qisasçı xarakterli planlar hazırlanırdı. Bəziləri ölkənin xarici siyasət vektorunu dəyişmək, onu şimala, yaxud cənuba tərəf döndərmək istəyirdi. Lakin 2003-cü ilin prezident seçkilərində İlham Əliyevin seçicilərin 76 faizinin səsini toplaması cəmiyyət üçün ciddi siqnal oldu. Bu o demək idi ki, siyasətdə varislik qorunub saxlanır. Ölkə demokratiya və liberal iqtisadiyyat yolu ilə inkişaf edir.

Kənardan idarə edilən müxalifətin və iqtidarın bəzi nümayəndələrinin "inqilab" etməyə cəhd göstərdikləri dövrün əsas xüsusiyyətlərindən biri bundan ibarətdir. O dövrün başqa fərqləndirici cəhətləri də vardı: vətəndaşların əksəriyyətinin həyat səviyyəsi yüksəlir, ÜDM-in ilbəil artması müşahidə olunur, əhalinin məşğulluğu artır, pensiyaçıların, qaçqınların sosial problemləri həll edilirdi və s. Başqa sözlə desək, mövcud hakimiyyətin "inqilab" yolu ilə dəyişdirilməsi üçün real bazis yox idi. 2005-ci ildə Azərbaycanda "nəzərdə tutulan" inqilabın əsas paradoksu üzə çıxdı: inqilabın təşkilatçıları qisas almaq, siyasi elitanı dəyişmək istəyirdi, əhalinin əsas kütləsi isə iqtidarın xəttini və həyata keçirilən islahatları dəstəkləyirdi. Cəmiyyət tərəfindən iqtidara etimad göstərilməsi və hakimiyyəti ələ keçirmək istəyənlərin kütləvi dəstəyinin olmaması 2003-cü və 2005-ci illərdə Azərbaycan cəmiyyətindəki siyasi proseslərin inkişafını müəyyənləşdirən əsas amillər oldu.

Heç şübhəsiz, inqilablar birdən-birə, boş yerdə "yaranmır". Onların öz obyektiv ilkin şərtləri və subyektiv amilləri var. 2005-ci ilin noyabr ayındakı parlament seçkiləri ərəfəsində Azərbaycanda "inqilabı" lap əvvəlcədən uğursuzluğa məhkum etmiş bir amil vardı – Prezident İlham Əliyevin siyasəti. Bu siyasət səmərəli dövlətçilik xəttinin varisliyi siyasəti olmaqla dövləti daha da inkişaf etdirməyə, cəmiyyətin uğurla transformasiyasına və istənilən şəraitdə dövlət idarəetmə sisteminin fasiləsiz işini təmin etməyə imkan verir.

Səmərəli hüquq sistemi və siyasi sistem olmayan yerdə demokratiya da yoxdur. Demokratik prosedurlar inkişaf etdirilmədən nə hüquqi qayda, nə bu qədər çətinliklər bahasına əldə edilmiş sabitlik, nə də seçilmiş iqtisadi fəaliyyət xəttinin inadla həyata keçirilməsi ola bilər. Azərbaycanın seçdiyi demokratik yolun müstəqil xarakteri bu amillərə əsaslanır. Ona görə də biz öz daxili şəraitimizi nəzərə alaraq, lakin hökmən qanuna və Konstitusiyanın verdiyi təminatlara arxalanmaqla irəliləməliyik.

Rus filosofu İvan İlyin yazırdı: "Dövlət hakimiyyətinin öz hüdudları var, bu hüdudlar onun insana məhz kənardan münasib olan hakimiyyət olması ilə müəyyən edilir... Qəlbin və ruhun sevgi, azadlıq və xoş məram nəzərdə tutan bütün yaradıcı vəziyyətləri dövlət hakimiyyəti tərəfindən idarə edilməli deyildir və bu hakimiyyət tərəfindən müəyyən edilə bilməz... Dövlət vətəndaşlardan dini etiqad bəsləməsini, dua etməsini, sevgi, xeyirxahlıq və müəyyən əqidə tələb edə bilməz. O elmi, dini və bədii yaradıcılığı tənzimləyə bilməz... O əxlaqı, ailə məsələlərinə və gündəlik məişətə müdaxilə etməməli və son zərurət olmadıqda insanların təsərrüfat təşəbbüsünü və təsərrüfat yaradıcılığını məhdudlaşdırmamalıdır".

Azərbaycan demokratiya yolunu öz xalqının iradəsi ilə seçmiş ölkədir. O, demokratiya yoluna özü qədəm qoymuşdur və hamılıqla qəbul olunmuş bütün demokratik normalara riayət edərək, – özünün tarixi, geosiyasi və başqa spesifik xüsusiyyətlərini nəzərə almaqla, – azadlıq və demokratiya prinsiplərinin reallaşdırılmasını necə təmin etməyin mümkünlüyünü özü həll edəcəkdir. Suveren ölkə kimi Azərbaycan bu yolla hərəkətinin müddətini və şərtlərini də özü müstəqil şəkildə müəyyən etməyə qadirdir. Vitte vaxtilə yazırdı: "Dövlət yaratmaqdan daha çox təkmilləşdirir, əsl yaradıcılar isə bütün vətəndaşlardır... Müstəqilliyi pəncəsinə keçirmək yox, onu inkişaf etdirmək və ona hər vasitə ilə kömək etmək lazımdır". Bu məsləhət indi də öz aktuallığını itirməmişdir.

Bu baxımdan milli müxalifət hərəkatının nümayəndələrindən biri olan Azərbaycan Liberal Partiyasının lideri, "Azadlıq" blokunun həmtəsisçisi, "maraqlar", "dəyərlər" və "demokratiya" barədə çox qəribə fikirlər yürüdən L.Ş.Hacıyevanın demokratiya barədə mülahizələri maraqlı götürür[1]. Məsələn, o deyir: "Tarixdə maraqlar ilə dəyərlər arasında həmişə fasiləsiz mübarizə getmişdir. İlk mərhələdə bunlardan birincisi qalib gələ bilər, lakin bu, çox davam etmir. İkincilər – dəyərlər isə, bir qayda olaraq, uzunmüddətli perspektivdə qalib gəlir. Deyəndə ki, biz demokratiyaya hazır deyilik və bizim hansısa xüsusi Azərbaycan yolumuz var, bu, mənə qəribə gəlir. Demokratiya oyun qaydaları deməkdir. Fransa, Amerika, İngiltərə demokratiyası olmur. Demokratiya azad seçkilər, məhkəmələrin müstəqilliyi, hakimiyyətin bölünməsi, insan hüquqları deməkdir. Demokratiyanın fundamental əsasları bunlardır. Demokratiyanın hansısa etnik çalarları – Azərbaycan və ya Gürcüstan demokratiyası çalarları ola bilə-

[1] "İndi XXI əsrin ritmi ilə yaşamaq lazımdır", "Exo" qəzeti, 16.12.2006.

cəyini söyləmək lazım deyildir. Bizim xalqın mentalitetinin demokratik dəyərləri qəbul etməyə imkan vermədiyi barədə deyilənləri eşidəndə mənə həmişə ağır gəlir. Axı, fransızlarda və amerikalılarda olduğu kimi, azərbaycanlılarda da abırlı və abırsız adamlar var".

Gördüyümüz kimi, bu deyilənlərdə mürəkkəb bir sosial proses olan demokratiyaya keçid insanların abırlı və abırsız olmasından asılı edilir. Bütövlükdə isə, L.Hacıyeva ölkənin ictimai həyatının mühüm sosial-fəlsəfi problemlərinə toxunarkən tam bir sıra elmi xətalara yol verir. Əgər "Azadlıq" blokunun həmtəsisçiləri müxalifət mühitində "moda qanunvericiləri" roluna iddia etməsəydilər, zənnimcə, onun "elmi baxışlarını" nəzərdən keçirməyə vaxt sərf etməyə dəyməzdi.

Müxalifət xadimlərinin bu cür fikirlərini araşdırdıqda "maraqlar", "dəyərlər" və "demokratiya" kimi anlayışların təfsirindəki səhvləri və istəsəniz, yalanları görmək çətin deyildir. Radikallar bu elmi kateqoriyaları öz bildikləri kimi başa düşməklə oxucuya nəyi nümayiş etdirmək istəyirlər: fəlsəfə, sosiologiya və politologiya sahəsində öz biliklərini göstərmək istəyirlər, yoxsa, həmişə olduğu kimi, meşşanların "savadsızlığına" ümid bəsləyirlər?! Bu suala birmənalı cavab vermək çətindir.

Böyük Sovet ensiklopediyasında[1] "maraq (sosial maraq)" anlayışı "sosial fəaliyyətin, hadisələrin, əməllərin bilavasitə bu hərəkətlərdə iştirak edən fərdlərin, sosial qrupların, siniflərin motivləri, niyyətləri, ideyaları arxasında dayanan real səbəbi" kimi izah edilir. Konkret qərarlar qəbul edilməsinə yönəlmiş iqtisadi, siyasi, şəxsi, ictimai və başqa maraqlar vardır.

[1] Большая советская энциклопедия. М., 1972, стр. 945.

"Dəyər – gerçəkliyin müəyyən hadisələrinin insani, sosial və mədəni əhəmiyyətini göstərmək üçün fəlsəfi və sosioloji ədəbiyyatda geniş istifadə edilən termin. Mahiyyət etibarilə insanın fəaliyyətinin ictimai münasibətlərin və onların əhatə dairəsinə daxil olan təbii hadisələrin bütün müxtəlif predmetləri dəyər münasibəti kimi çıxış edə, yəni xeyir və şər, həqiqət və yalan, gözəllik və eybəcərlik, yolverilən və qadağan edilən, ədalətli və ədalətsizlik baxımından qiymətləndirilə bilər; bu cür qiymətlər bəzən şkalalı (müvafiq keyfiyyətli müxtəlif səviyyələri göstərən…) ola bilər.

İnsan fəaliyyətinin strukturunda dəyər aspektləri idrak və iradə aspektləri ilə qarşılıqlı şəkildə bağlıdır; dəyər kateqoriyalarının özlərində müxtəlif ictimai qrupların və şəxsiyyətlərin biliklərinin, maraqlarının və üstünlük verdikləri amillərin istiqamətinin "həddi" ifadə olunmuşdur[1].

Deməli, xüsusən demokratiyadan söhbət gedəndə "maraqlar" və "dəyərlər" anlayışlarını bir-birinə qarşı qoymaq səhv olardı. Əgər cəmiyyətin maraqları demokratiyanın bərqərar olmasının zəruriliyindən ibarətdirsə, artıq bunun özü dəyərdir və özünün dəyəri ilə əlaqəlidir. Ümumi mənada deyə bilərik ki, "maraqlar" və "dəyərlər" arasında qarşılıqlı əlaqə, qarşılıqlı şərtləndirmə və qarşılıqlı asılılıq var. Əgər maraqlar varsa, onlar hökmən konkret dəyərlərə istiqamətlənmiş olur. Dəyərlər olmadan maraqlar yoxdur. Demokratiyanın dəyəri "şübhə doğurmur, çünki demokratiyanın varlığı o deməkdir ki, müvafiq cəmiyyətdə insanlar – ayrılıqda hər biri və hamısı birlikdə özlərinin müqəddəs seçim hüququnu reallaşdıra bilmişlər"[2].

[1] Большая советская энциклопедия. М., 1972, стр. 941.

[2] Теория и практика демократии. Избранные тексты. М., 2006, стр. XXIII.

Eyni zamanda, demokratiyaya "oyun qaydaları" kimi tərif vermək də səhvdir. "Demokratiya" anlayışının bu cür səthi izah edilməsi hələ formalaşmamış və refleksiyaya yabançı olan radikal müxalifətin apardığı mübarizənin xarakterini, məqsədini və məzmununu tamamilə açıb göstərir. Aydındır ki, müxalifətin bu hissəsi üçün demokratiya heç də ictimai quruluş forması deyil, iddiaların reallaşdırılması, hakimiyyətə gəlmək üsuludur. Halbuki, amerikalı tədqiqadçı Yozef Şümpeterin fikrincə, demokratiya "siyasi qərarlar qəbul edilməsi üçün elə bir institusional mexanizmdir ki, burada fərdlər seçicilərin səsləri uğrunda rəqabət mübarizəsi yolu ilə qərarlar qəbul etmək səlahiyyəti əldə edir"[1].

Demokratiyanın formalarına gəldikdə isə, yuxarıda sitat gətirdiyimiz müsahibənin müəllifi çox yanılır. İdrak nəzəriyyəsi baxımından demokratiya çoxsaylı təkcələrdən ibarət olan gerçəkliyin ən ümumi formasıdır. Təkcə ümumisiz mövcud ola bilmədiyi kimi, ümumi də təkcəsiz mövcud ola bilməz. Deməli, ayrılıqda götürülmüş hər bir sosiumda xalqın inkişaf tarixinin, onun mədəniyyətinin, mentalitetinin və başqa amillərin xüsusiyyətlərindən asılı olaraq, demokratiyanın özünəməxsus təzahür formaları vardır.

ABŞ dövlət katibinin Yaxın Şərq üzrə köməkçisinin müavini Skott Karpenterin fikrincə, demokratiyanın inkişafı üçün vahid formul yoxdur. "Hər bir regiounun öz xüsusiyyəti var və biz nəinki bunu nəzərə almalı, həm də hər bir konkret halda yanaşmaları radikal şəkildə dəyişməliyik"[2].

Misir Prezidenti Hüsni Mübarək "Rossiyskaya qazeta"nın jurnalisti ilə söhbətində (1 noyabr 2006-cı il) demişdir: "Yer-

[1] Теория и практика демократии. Избранные тексты. М., 2006, стр. 7.
[2] "Amerikanın səsi", 21.09.2006.

li şəraitə və xüsusiyyətlərə məhəl qoymadan, dünyanın bütün qitələrində tətbiq edilə biləcək demokratiya nümunəsi yoxdur... Bir də təkrar edirəm: demokratiyanın bir universal modeli haqqında danışmaq olmaz, çünki hər bir xalq demokratiyanı elə həyata keçirməlidir ki, o, həmin xalqın təbiətinə, mədəniyyətinə, özgünlüyünə və adətlərinə müvafiq olsun.

2005-ci il fevralın 24-də Bratislavada V.Putin ilə C.Buşun birgə mətbuat konfransında C.Buş demokratiyanın formaları barədə fikrini kifayət qədər aydın ifadə etmişdir: "Demokratiya həmişə ölkənin adətlərini və mədəniyyətini əks etdirir və mən bunu bilirəm. Bütün demokratiyaların hansısa bir ümumi cəhəti var – qanunun aliliyi, azlıqların müdafiəsi, mətbuat azadlığı və həyat qabiliyyətli siyasi müxalifət"[1].

Heç şübhəsiz ki, gənc Azərbaycan demokratiyası öz təşəkkülündə ciddi uğurlar qazanmışdır. Bu gün həmin uğurları israrla görməyən və ya görmək istəməyənlər səmimiyyətdən çox uzaqdırlar. Lakin hər halda, bizim ictimai quruluşumuz mükəmməllikdən uzaqdır, etiraf etməliyik ki, biz hələ bu yolun lap başlanğıcındayıq. Bu tezis İkinci Dünya müharibəsinin axırında Uinston Çörçillin dediyi aşağıdakı sözlərlə səsləşir: "Bu, bütün işlərin sonu və sonun başlanğıcı deyildir. Bu, yalnız başlanğıcın sonudur". Kamillik imtahanından uğurla çıxmış Azərbaycan demokratiyasının keçdiyi yol sonun başlanğıcıdır və sirr deyil ki, qarşıda bizi daha çətin yol gözləyir.

Azərbaycanda demokratiya dövlətin və cəmiyyətin dinamik inkişafının prioritetinə çevrilmişdir və ən qısa müddətdə milli siyasi və iqtisadi məkanda genişmiqyaslı modernləşmə həyata keçirilməsinin mümkünlüyünü fərz edir. Milli modernləşmə isə üç məsələnin həllini nəzərdə tutur:

[1] http://www.kremlin.ru

- vətəndaş həmrəylinin təmin edilməsi, demokratik təsisatların və ənənələrin təkmilləşdirilməsi, habelə sosial sistemin formalaşması;
- səmərəli və möhkəm iqtisadi sistem yaradılması, onun ümumavropa strukturuna qoşulması, habelə milli iqtisadiyyatın rəqabətə davamlılığının artırılması;
- azərbaycançılığın və milli "Mən"in mahiyyətinin dərk olunmasının üstünlük təşkil etdiyi möhkəm sosiomədəni mühit yaradılması.

Milli inkişaf strategiyasında birinci növbəli bu üç vəzifə yaxın gələcəkdə Azərbaycanın intensiv inkişafına, innovasiya mədəniyyətinin bazisinin formalaşmasına imkan yaratmalıdır. Biz xammal iqtisadiyyatını intellektual iqtisadiyyata çevirməliyik ki, kreativ millətlər birliyinə yol açа bilək. Perspektivdə milli vəzifə məhz azadlığın intellektual, əxlaqi, siyasi və iqtisadi resurslarının təkrar istehsalının səmərəli praktikasının yaradılmasıdır.

Sosial sistemlərin formalaşmasında millətin intellektual bazisi mühüm rol oynayır. Azərbaycan öz intellektual ehtiyatlarının səviyyəsini təkmilləşdirmək və innovasiya texnologiyaları sahəsində regionda tam mənada liderə çevrilmək üçün hələ çox yol keçməlidir. Bu cür transformasiyanın təməli artıq qoyulmuşdur. İndi yaradıcı və elmi iddialardan xali olmayan realist və sayıq addımlar atılmalıdır.

Eyni zamanda, yetkin vətəndaş cəmiyyəti olmadan insanların ümdə problemlərini səmərəli şəkildə həll etmək mümkün deyildir. Onların gündəlik həyatının keyfiyyəti ictimai-siyasi sistemin keyfiyyətindən birbaşa asılıdır. Əlbəttə, burada da problemlər hələ az deyildir.

Hər bir hakimiyyət, ilk növbədə, böyük məsuliyyət deməkdir. Sivilizasiyalı siyasi rəqabətin status rentası uğrunda qərəzli mübarizə ilə əvəz edilməsi, siyasi birliklərin fəaliyyətinin maliyyə tərəfinin əvvəlki kimi ictimaiyyətdən yenə də gizlədilməsi yolverilməzdir və bütün bunlar partiya proqramlarının əksəriyyətinin yeknəsəq olması fonunda baş verir.

Azərbaycanda minlərlə qeyri-hökumət təşkilatları və birlikləri var və onlar konstruktiv şəkildə işləyirlər. Lakin onların heç də hamısı insanların real maraqlarını müdafiə etmir. Bu təşkilatların bir hissəsi üçün nüfuzlu xarici fondlardan maliyyələşdirilməyə nail olmaq, digərləri üçün şübhəli qrup və kommersiya maraqlarına xidmət etmək prioritet məsələyə çevrilmişdir, ölkənin və onun vətəndaşlarının ən kəskin problemləri isə kənarda qalır.

İnsanın fundamental və əsas hüquqlarının pozulmasından, insanların real mənafelərinin tapdalanmasından söhbət gedəndə bəzən bu cür təşkilatların səsi heç eşidilmir. Bu da təəccüblü deyil, axı onlar özlərini yedizdirən "əli dişləyə bilməzlər". Təbii ki, bu cür nümunələr bütün qeyri-hökumət təşkilatlarını günahlandırmaq üçün əsas deyildir. Tamamilə aydındır ki, belə hallar tranzitar cəmiyyətlərdə hökmən olur və müvəqqəti xarakter daşıyır.

Lakin bu çatışmazlıqları azaltmaq və vətəndaş cəmiyyəti təsisatlarının gələcək inkişafını stimullaşdırmaq üçün heç nə icad etməyə ehtiyac yoxdur. Bizim özümüzün və dünyanın təcrübəsi bu məsələyə olan bir sıra yanaşmaların səmərəliliyini sübut etmişdir. Dövlətin yerinə yetirməli olmadığı və yaxud səmərəli şəkildə yerinə yetirə bilmədiyi funksiyaları tədricən qeyri-dövlət sektoruna həvalə etmək lazımdır, çünki "ciddi ictimai nəzarət olmasa, bizim nəzərdə tutduğumuz

proqramların həyata keçirilməsi çətinliklərlə üzləşə bilər"[1]. Buna görə də ictimai palatalara bənzər qurumların və cari vəziyyəti işgüzarlıqla, real və düşünülmüş şəkildə qiymətləndirən və təhlil edən, dövləti və cəmiyyəti hər hansı saxta sapmalardan və labüd olaraq sosial narazılığın artmasına doğru aparan iğtişaşlardan çəkindirərək, vəziyyətin inkişaf perspektivini tədqiq edən digər ictimai ittifaqların və birliklərin bu disputda çox mühüm rolu var.

Əgər müəyyən qüvvələr bizim cəmiyyəti xırda qruplara parçalamağa cəhd göstərirsə, əgər biz yalnız özümüzün mənsub olduğumuz məhdud qrupların maraqları ilə yaşasaq, Azərbaycan daxili və xarici təhlükələrə qarşı ciddi müqavimət göstərə bilərmi? Tamamilə aydındır ki, ən azı, baza xarakterli ümummilli dəyərlər və vəzifələr ətrafında sıx birləşmədən bu təhlükələrə davam gətirmək mümkün olmayacaqdır. Ümumi siyasi nəzakətlilik olmasa, bütün siyasi və ictimai qrupların qarşısında duran vəzifələr başa düşülməsə, real demokratik məkan qurmaq çox çətin olacaqdır. Bizim cəmiyyət öz inkişafının elə bir pilləsinə yaxınlaşmışdır ki, indi partiyalar siyasi mədəniyyətin səviyyəsini yüksəltməli, partiyalararası dialoq və koalisiya şəklində fəaliyyət vərdişlərinə yiyələnməli, xalqın iradəsi ilə hakimiyyətə gəlməyi və hakimiyyətdən getməyi öyrənməlidir.

Son illərdə biz milli iqtisadiyyatın davamlı inkişafı və enerji resurslarının dünya bazarlarına çatdırılması üçün SSRİ-dən miras qalmış rəqabət üstünlüklərindən istifadə edə bilmişik. Lakin təkcə karbohidrogenlər ixracı hesabına güclü iqtisadiyyat yaratmaq mümkün deyildir. Əgər biz rabitə və informasiya, enerjiyə qənaət, kənd təsərrüfatı məhsulları istehsalı sahəsində yüksək texnologiyalara yiyələnməsək,

[1] Üçüncü çağırış Milli Məclisin sessiyasının açılışında Prezident İlham Əliyevin nitqindən. Bakı, 2 oktyabr 2006-cı il.

təhsil və elm sistemlərini rəqabətədavamlılıq mənbəyinə çevirməsək səmərəli inkişaf barədə danışmaq çətin olacaqdır. Buna görə də çox düzgün olaraq son illərdə "qara qızıl" ixracından asılılığı azaltmaq və milli iqtisadiyyatın digər tərkib hissələrini gücləndirmək yolu seçilmişdir. Görülmüş təsirli tədbirlər nəticəsində 2006-cı ildə Azərbaycanda ÜDM-in həcmi 17,7 milyard manata bərabər olmuşdur. Bu, 2005-ci ilin müvafiq göstərici ilə müqayisədə 34,5 faiz çoxdur. ÜDM-in 58,3 faizi sənayedə, 7,1 faizi kənd, ovçuluq və meşəçilik təsərrüfatlarında, 5,6 faizi topdansatış və pərakəndə satış, avtomobillərin, məişət cihazlarının və şəxsi istifadə əşyalarının təmiri sahələrində, 1,8 faizi rabitədə, 7,9 faizi sosial və digər sahələrdə istehsal edilmişdir. Qeyri-neft sektorunda ÜDM 2005-ci ilin müvafiq göstərici ilə müqayisədə 12,1 faiz artmışdır.

2006-cı ildə adambaşına ÜDM 2120 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 33 faiz çoxdur.

Sənayedə istehsalın həcmi 36,6 faiz artaraq 14,4 milyard manata çatmışdır.

Etiraf etmək lazımdır ki, Azərbaycanda iqtisadi artım, ilk növbədə, son illərdə dünya bazarında konyunkturun əlverişli vəziyyəti sayəsində mümkün olmuşdur. Xarici ticarət üçün şəraitin görünməmiş dərəcədə yaxşılaşması hesabına iqtisadiyyatımız ciddi üstünlüklər və böyük əlavə gəlirlər əldə etmişdir. Azərbaycan xarici ticarəti inkişaf etdirməklə həqiqi və etibarlı tərəfdaşa çevrilir. Məsələn, 2006-cı ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 11,7 milyard ABŞ dolları və ya 2005-ci ilin müvafiq göstəricisindən 36 faiz yüksək olmuşdur. İdxalın həcmi 5,3 milyard dollar və ya 2005-ci ildəkindən 25 faiz çox olmuşdur. İxracın həcmi

2005-ci ilin göstəricisi ilə müqayisədə 46,6 faiz azalaraq 6,4 milyard dollar təşkil etmişdir. 2006-cı il üçün Azərbaycanın xarici ticarət dövriyyəsində 1007,6 milyon dollar profisit qeydə alınmışdır.

Ölkə büdcəsinin həcmi 2004-cü ildə 1,5 milyard ABŞ dollarına bərabər olduğu halda, 2007-ci il üçün 6,5 milyard dollar həcmində müəyyən edilmişdir. Ölkəmizdə yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür və 20 faizə bərabərdir.

2006-cı ildə dövlət büdcəsinin gəlirləri 2005-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 88, 8 faiz, xərclər isə 76,6 faiz artmışdır. Azərbaycanın ümumi daxili məhsulunda dövlət büdcəsinin gəlirlərinin xüsusi çəkisi 4 faiz artaraq 21,9 faizə, büdcə məxarici isə 3,5 faiz artaraq ÜDM-in 21,3 faizinə bərabər olmuşdur. Adambaşına büdcə xərcləri artaraq 250 manatdan 450 manata çatmışdır.

2007-ci il yanvarın 1-nə olan məlumata görə, Azərbaycan əhalisinin sayı 8533 min nəfər, o cümlədən iqtisadi baxımdan fəal əhalinin sayı 3973 min nəfər olmuşdur.

2006-cı ildə əhalinin banklardakı əmanətlərinin məbləği 2005-ci ildəkinə nisbətən 55,4 faiz artaraq 726,2 milyon manata çatmışdır. Kreditlər verilməsi göstəricisi 65 faiz artaraq 2,2 milyard dollar olmuşdur. Neft Fondunun aktivləri 1518 milyon ABŞ dollarına bərabər idi.

2006-cı ildə Azərbaycanın valyuta ehtiyatlarının həcmi 4 milyard dollardan çox olmuşdur. Azərbaycan Milli Bankının ehtiyatları ikiqat artmışdır. Bütövlükdə, son üç ildə bank sektorunun bütün göstəriciləri üzrə üçqat artım müşahidə edilmişdir.

2006-cı ildə Azərbaycanın valyuta bazarının həcmi 8 milyard dollara çatmış və bununla əlaqədar Azərbaycan Milli Bankı artıq pul kütləsini sterilizə etmək məqsədi ilə valyuta bazarının mühüm oyunçusuna çevrilmişdir. Keçən il valyuta bazarında Milli Bankın əməliyyatlarının xüsusi çəkisi valyuta bazarının ümumi həcminin 10-11 faizinə çatmışdır, halbuki əvvəlki illərdə müvafiq göstərici 2-3 faizdən çox deyildi. Beləliklə, bazarda artıq təzyiq aradan qaldırılır və 2006-cı ilin yekunlarına görə, bir milyard dollar sterilizə edilmiş, bu isə manatın həddən artıq möhkəmlənməsinin qarşısını xeyli almışdır. Milli valyutanın mövcud olan 5 faiz möhkəmlənməsini isə təhlükəli hədd hesab etməyə əsas yoxdur.

2007-ci il yanvarın 1-nə Azərbaycanın xarici borcunun məbləği 1972 milyon ABŞ dollarına bərabər olmuşdur ki, bu da ümumi daxili məhsulun 9,9 faizi deməkdir. Əhalinin hər nəfərinə düşən xarici borc 232,5 dollardır. İqtisadi dəyişikliklərin həyata keçirilməsi üçün ölkəyə cəlb edilmiş kreditlər 394,1 milyon dollar və ya xarici borcun 20 faizi qədər olmuşdur. Bu məbləğin 6,8 faizini Beynəlxalq Valyuta Fondu, 13,2 faizini isə Dünya Bankı ayırmışdır. İnvestisiya layihələrinə cəlb edilmiş kreditlərin məbləği 1578 milyon dollar (bütün xarici borcun 80 faizi) olmuşdur.

2006-cı ildə qiymətli kağızlar bazarının inkişaf sürəti 1,5-2 dəfə artmışdır. 2007-ci ildə ikiqat artım proqnozlaşdırılır.

2006-cı ildə Azərbaycan iqtisadiyyatına 5963,6 milyon manat sərmayə qoyulmuşdur. Bu, 2005-ci ildəkindən 14,8 faiz çoxdur. 2005-ci ildə Azərbaycan iqtisadiyyatına 5424,3 milyon AZN məbləğində sərmayə qoyulmuşdu.

Fitch Ratings beynəlxalq reytinq agentliyi fevral ayının əvvəlində Azərbaycanın reytinqinin “BB”-dən “BB+”-yə

qaldırıldığını elan etmişdir. Reytinqin dəyişməsi Azərbaycanın iqtisadi inkişafının güclənməsi, dövlət borclarının və xarici borcun idarə edilməsinin səmərələşdirilməsi, neft və qaz hasilatının sürətlənməsi ilə əlaqədardır.

İqtisadiyyatın bütün sektorlarında sahibkarlıq təşəbbüsünün güclənməsi ölkəmiz üçün ənənəvi güclü sahələrdə ciddi irəliləyişə şərait yaratmışdır. Bu, həmin sahələrdən inkişafın lokomotivi kimi istifadə etməyə imkan verir. Bütün bunlar ölkə iqtisadiyyatının strukturunu dəyişmək, regional və dünya əmək bölgüsündə layiqli yer tutmaq üçün real imkandır. Belə ki, 2006-cı ildə 173,8 min yeni iş yeri, o cümlədən 103 min daimi iş yeri açılmışdır. 2003-cü ilin oktyabr ayından 2006-cı ilin sonuna qədər ölkədə 520 minə yaxın iş yeri açılmışdır.

Bazar münasibətlərinə keçidin əsas şərti özəl sektorun yaradılmasının sürətlənməsidir. Sivilizasiyalı dünya iki baza prinsipinə – xüsusi mülkiyyətə və rəqabətə əsaslanan münasibətlər sistemində yaşayır. Cəmiyyət dövlətin güclü müdaxiləsi olmadan inkişaf etməlidir. Yeni şəraitdə şəxsiyyətin firavanlığı üçün başlıcası onun təşəbbüskarlığı, iqtisadi qərarların münasib variantlarını müstəqil seçməyə hazır olmasıdır. Son illərdə həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Respublikasında sahibkarlığın inkişafına şərait yaratmış, əhalinin sosial-iqtisadi səviyyəsinin yaxşılaşmasında və iqtisadiyyatın inkişafında sahibkarlığın rolunu artırmışdır. Özəl sektor Azərbaycanda bazar dəyişikliklərinin əsas generatoruna çevrilmişdir. Hazırda ÜDM-də özəl sektorun payı 81 faiz təşkil edir. 1995-ci ildə bu göstərici 38 faizə bərabər idi.

Bütövlükdə, milli iqtisadiyyat ona innovasiya xarakteri verilməsi meylinə əsaslanır. Bu məqsədlə makroiqtisadi göstəricilər yaxşılaşdırılmaqla yanaşı, iqtisadi sərbəstliyin lazımi səviyyədə olmasını, rəqabət üçün bərabər şərait yaradılma-

sını və mülkiyyət hüququnun möhkəmlənməsini təmin etmək üçün də iş görülür. Bu cəhətlər nəzərə alınmasa, milli iqtisadiyyatı modernləşdirmək və ölkəni tərəqqi edən diyara çevirmək çətin olacaqdır.

Müasir dövrdə respublikanın iqtisadiyyatı yüksək sürətlə inkişaf etməkdədir. Son illərdə yeni iş yerlərinin açılması, sahibkarlıq fəaliyyətinin güclənməsi, regionların sosial-iqtisadi inkişafı proqramının ardıcıl surətdə həyata keçirilməsi, ümumi daxili məhsulun həcminin artması – bütün bunlar Azərbaycanın davamlı inkişafının nəticəsidir. Milli iqtisadiyyat dünya iqtisadi sisteminə fəal inteqrasiya etməyə başlamışdır və bu, ölkənin iqtisadi siyasətinin ən mühüm istiqamətidir.

Azərbaycanın neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi də ölkəmizin qazandığı uğurların təməlini qoymuşdur. Strateji əhəmiyyəti olan, Xəzər neftinin beynəlxalq bazarlara fasiləsiz və təhlükəsiz nəql olunmasını təmin edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə salınması ölkənin uzunmüddətli inkişaf imkanlarını genişləndirir. Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi və digər mühüm layihələrin həyata keçirilməsi Azərbaycanın iqtisadi və siyasi potensialını möhkəmləndirir, milli inkişaf strategiyası üçün yeni perspektivlər yaradır.

Bununla yanaşı, unutmamalıyıq ki, ölkəmiz yeni mərhələyə qədəm qoyur. Ona görə də qarşıdakı işlərin uğurlu olması məhz hakimiyyətin fəallığından və bürokratik aparatın keyfiyyətli işindən asılıdır. Nə gizlədək, bizdə dövlət xidmətini biznesin bir növü kimi başa düşən qapalı və bəzən də təkəbbürlü məmurlar təbəqəsi hələ də qalmaqdadır. Buna görə də dövlət idarəetməsinin səmərəliliyinin artırılması, məmurlar tərəfindən qanunlara ciddi riayət edilməsi milli məkanın demokratikləşməsinin mühüm tərkib hissəsidir.

Transformasiya cəmiyyətlərinə xas olan "böyümə xəstəliyi" hökumət səviyyəsində konkret münasibətlərlə yumşaldılmalı, amortizasiya edilməlidir. Ciddi və genişmiqyaslı iş üçün zəmin yaradıldığı bir şəraitdə dövlət sadə qərarlar qəbul etməyə şirniklənməməlidir. Belə olarsa, bürokratik yanaşma üstün gələcəkdir. Bu halda inkişaf əvəzinə, durğunluq yarana bilər, vətəndaş cəmiyyətinin potensialına tələbat olmaz, korrupsiya, məsuliyyətsizlik və qeyri-peşəkarlıq sürətlə artaraq, bizi millətin iqtisadi və intellektual potensialının tənəzzülü yoluna, hakimiyyətin cəmiyyətin maraqlarından getdikcə daha çox uzaqlaşması, dövlət aparatının insanların tələbatını nəzərə almaq istəməməsi yoluna qaytarar.

Nəzərə almaq lazımdır ki, ölkədə inkişaf etmiş demokratk prosedurların olması sadəcə zəruri deyil, həm də iqtisadi cəhətdən sərfəlidir, cəmiyyətlə məsul dialoqda olmaq isə siyasi baxımdan məqsədəuyğundur. Buna görə də müasir məmur cəmiyyət ilə komanda jarqonunda deyil, müasir əməkdaşlıq dilində, ictimai maraq, dialoq və real demokratiya dilində danışmağı öyrənməyə borcludur. Bu, iqtidarın əsas mövqeyidir. Ona ciddi riayət edilməsi birinci dərəcəli vəzifədir.

Azərbaycan cəmiyyətinin mərhələli demokratikləşməsi baxımından bu kitabda insan hüquqları və azadlıqları problemlərinə xeyli yer ayrılmışdır. Bu sahə yetkin vətəndaş cəmiyyəti və demokratik dövlət yaratmaq səyləri praktik təcəssümü kimi nəzərdən keçirilir. Siyasi baxımdan fərqli düşüncənin, xüsusi mülkiyyət hüququnun yanaşı mövcud olduğu, vətəndaşın şəxsi həyatının toxunulmazlığına təminat verildiyi sivilizasiyalı və plüralist məkanın əsasını məhz fərdin hüquq və azadlıqlarının səmərəli şəkildə təmin olunması təşkil edir. Bu baxımdan Prezidentin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə milli fəaliyyət planının təs-

diq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli Sərəncamına xüsusi diqqət yetirilməlidir. Sərəncamda deyilir: "Hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Qarşıdakı gələn illər üçün Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir".

Demokratik cəmiyyətin inkişafı labüd olaraq vicdan və dini etiqad azadlığının təmin edilməsini şərtləndirir. Lakin bir sıra postsovet dövlətlərinin nümunəsində görürük ki, mədəni münasibətlərin texnoloji münasibətlərlə əvəz edilməsi, insan fəaliyyətinin dini və əxlaqi tənzimləyicilərinin boğulması, əyləncə sənayesi məhsullarının nəzarətsiz yayılması lokal reaksiyalara səbəb olmuş, cəmiyyəti mədəni inkişafın alternativ modellərinin tərəfdarlarına və milli özünəməxsusluğun müdafiəçilərinə bölmüşdür. Qərbə xas olan liberal dəyərlər arealının genişlənməsi yaradıcılıq münaqişəsinə, obrazların və dünya baxışlarının münaqişəsinə gətirib çıxarır, məişət səviyyəsində isə çox vaxt eyni bir cəmiyyətin üzvləri arasında keçilməz uçurum yaranması ilə müşayiət olunur. Bu şəraitdə dinin rolu heç də birmənalı deyildi. Bir tərəfdən, ənənəvi etiqadlar milli mədəniyyətin sərt qalasına çevrilmiş, bu isə xalqın kütləvi şəkildə "Allaha üz tutmasını" şərtləndirmişdir. Digər tərəfdən, qeyri-ənənəvi dini cərəyanlardan

və təriqətlərdən cəmiyyətlərin mədəni birliyini əridən və qlobal kosmopolitizmin geniş yayılmasına kömək edən bir vasitə kimi istifadə olunur.

Bu baxımdan, Azərbaycan da istisna olmamışdır. Ölkəmiz müstəqillik əldə etdiyi vaxtdan bəri Azərbaycan cəmiyyətində baş verən sosiomədəni, siyasi və iqtisadi dəyişikliklər sosial həyatın müxtəlif sahələrinə təsir etmişdir. Vətəndaşların dindarlığı da transformasiyaya məruz qalmış və bu prosesdə həm daxili, həm də xarici amillər rol oynamışdır.

Lakin deməliyik ki, dünya məkanında müxtəlif dini konfessiyaların nümayəndələrinə münasibətdə tolerantlığın dövlət siyasəti olduğu ölkələrin sayı çox deyildir. Azərbaycan elə nadir məkanlardan biridir ki, burada islam, iudaizm və xristianlıq yanaşı mövcuddur, krişnaitlər, bəhailər və munistlər fəaliyyət göstərirlər. Lakin məsələnin bu şəkildə qoyuluşu əsla elə bir illüziya yaratmamalıdır ki, guya müxtəlif qruplar özlərinin qərəzli məqsədlərinə nail olmaq üçün dindən asanlıqla istifadə edə bilərlər.

Azərbaycan əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan dövlətdir, buna görə də onun müxtəlif dini qrupların mənafeləri arasında tarazlıq yaratmağı bacarması çox vacibdir. Dini dirçəlişin indiki mərhələsinə xas olan problemlərdən biri ayrı-ayrı dini liderlərin xüsusən seçkiqabağı dövrdə islamdan siyasi məqsədlər üçün istifadə etməyə fəal cəhd göstərməsidir. Məscid minbərlərindən və kilsə kafedralarından siyasi təşviqat üçün istifadə edilməməlidir. Lakin təəssüf ki, bəzi din xadimləri özlərinin adi iddialarını gerçəkləşdirmək xatirinə dinin saflığından və onun məqsədlərinin ülviliyindən əl çəkməyə hazırdırlar. Onların moizələri bəzən dindar ictimaiyyətlə iqtidarı bir-birinə qarşı qoymaq üzərində qurulur. Heç şübhəsiz, bu, dindən siyasi alət kimi istifadə et-

mək üçün göstərilən ilk cəhd deyildir. İslamın və başqa dinlərin tarixində buna oxşar misallar az deyil, lakin onlar heç vaxt həqiqətən humanist prinsiplərin bəyan edilməsinə gətirib çıxarmamışdır. Amma əvəzində, ictimaiyyət dini-siyasi təqiblərin, söz azadlığının və fərqli düşünməyin boğulmasının, keçmiş həmfikirlər və dindaşlar arasında daxili çəkişmələrin şahidi olmuşdur.

Son onilliklərdə ictimai həyatın plüralizmi və davranış tərzlərinin müxtəlifliyi ənənəvi inteqrasiya metodlarının imkanları hüdudundan kənara çıxmışdır. Hazırda dini tarixdən, mədəniyyətdən, sosiologiyadan təcrid edilmiş şəkildə nəzərdən keçirmək, demək olar ki, mümkün deyildir. Dini mühafizəkarlıq dini təfəkkürü oyadan və zamanın qarşıya qoyduğu suallara cavab verən yenilikçi və islahatçı ideyalarla rəqabət apara bilmir.

Din sahəsinin bəşəriyyətin inkişafının ilkin şərti və ya resursu kimi dəyişməz qalmasını etiraf etməklə yanaşı, biz başa düşməliyik ki, müasir Azərbaycanın da aid olduğu qeyri-ənənəvi, transformasiya cəmiyyətlərində dindarlıq ona könüllü surətdə maraq göstərənlərin daxili fəallığı vasitəsilə sərbəst şəkildə və məcburiyyətsiz inkişaf edir. Müasir reallıqlar sürətlə dəyişərək, sosium qarşısında yeni vəzifələr qoyur, buna görə də iqtisadiyyatda, siyasətdə və ictimai münasibətlərdə irəliləyişə nail olmaq üçün transformasiya proseslərinin lazımi axınını yalnız yeni ideyalar üçün açıq olan cəmiyyətlər tuta biləcəkdir.

Dövlət və cəmiyyətin həyatında baş verən demokratik dəyişikliklər dini həyatın da demokratikləşməsinə stimul yaratmalıdır. İnsan hüquqları ideyasının müxtəlif konfessiyaların təbliğ etdiyi dini doktrinalarla eyniləşdirilməsi müəyyən dərəcədə bununla bağlıdır. Din vətəndaş azadlıqlarının mənəvi qoruyucusuna və ictimai-siyasi dəyişikliklərin təkcə dini

deyil, həm də demokratiya kontekstində başa düşülən əxlaqa və ədalətə uyğunluğu baxımından onların qərərsiz tənqidçisinə çevrilmək imkanına malikdir.

Demokratikləşmə prosesləri təkcə bu və ya digər ölkələri deyil, həm də onların arasındakı münasibətləri əhatə edir. Nəticədə təkbaşına liderlik keçmişdə qalır. Dəyişikliklər dövrünün tələblərinə iri ittifaqlar deyil, müvəqqəti məqsədli münasibətlər və ya alyanslar uyğun gəlir. İkitərəfli münasibətlərin strukturunu yaratmağa və müxtəlif çoxtərəfli formatlarda iştirak etməyə imkan verən siyasət aktuallaşır ki, bu da müstəqilliyin qorunub saxlanmasına təminat verir.

Hazırda dünya daha həssas olmuşdur. Bunun əsas səbəbi qloballaşmanın mürəkkəbliklərindir: inkişafın qeyri-bərabərliyinin güclənməsi sosial-iqtisadi, millətlərarası və dini zəmində münaqişələrə səbəb olur; onların bir qismi terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotik maddələr alveri mənbələrinə çevrilir. Dövlətlər üçün təhlükəsizliyin olmaması birtərəfli güc tətbiq edilməsi, ərazi bütövlüyünün pozulması kimi fəsadlar yaradır.

2007-ci il fevralın 10-da Münxendə dünyanın 40-dan çox ölkəsini təmsil edən yüksək vəzifəli şəxslərin iştirakı ilə təhlükəsizlik məsələlərinə dair konfransda Rusiya prezidenti V.Putin öz çıxışında müasir beynəlxalq münasibətlərin və proseslərin bir sıra problemlərinə toxunmuşdur.

Məsələn, o demişdir ki, cəmi iyirmi il bundan əvvəl dünya ideoloji və iqtisadi baxımdan parçalanmışdı, onun təhlükəsizliyi isə iki fövqəldövlətin çox böyük strateji potensialı hesabına təmin edilirdi.

“Qlobal qarşıdurmalar ən kəskin iqtisadi və sosial məsələləri də beynəlxalq münasibətlərin gündəliyində sonuncu

yerlərə keçirmişdir. Hər bir başqa müharibə kimi, "soyuq müharibə" də bizə "partlamamış mərmilər" miras qoymuşdur... Mən ideoloji stereotipləri, ikili standartları, blok təfəkkürünə xas olan başqa şablonları nəzərdə tuturam.

"Soyuq müharibə"dən sonra təklif edilən birqütblü dünya da baş tutmadı...

Lakin birqütblü dünya nə deməkdir? Bu terminə nə qədər bəzək-düzək versələr də, nəticə etibarilə praktikada onun yalnız bir mənası var: bir hakimiyyət mərkəzi, bir güc mərkəzi, qərarların qəbul edildiyi bir mərkəz.

Bu, bir ağanın dünyası, bir suverenin dünyasıdır...

Əlbəttə, bunun demokratiya ilə heç bir əlaqəsi yoxdur. Çünki məlum olduğu kimi, demokratiya azlığın maraqları və fikirləri nəzərə alınmaqla, çoxluğun hakimiyyəti deməkdir.

Yeri gəlmişkən, Rusiyaya, bizə daim demokratiya dərsi keçirlər. Lakin bizi öyrədənlər özləri, nədənsə, o qədər də öyrənmək istəmirlər.

Beynəlxalq hüququn əsas prinsiplərinə etinasızlığın getgedə artmasının şahidi oluruq. Üstəlik, ayrı-ayrı normalar və mahiyyət etibarilə, bir dövlətin, ilk növbədə, əlbəttə, Birləşmiş Ştatların az qala bütün hüquq sistemi hər sahədə – həm iqtisadiyyatda, həm siyasətdə, həm də humanitar sahədə öz milli sərhədlərindən kənara çıxmışdır və başqa dövlətlərə zorla qəbul etdirilir. Amma bu kimin xoşuna gələ bilər…

Əminəm, biz elə bir həddə yaxınlaşmışıq ki, qlobal təhlükəzisliyin bütün arxitekturası barədə ciddi şəkildə fikirləşməliyik...

ATƏT-i başqa ölkələrə münasibətdə bir ölkənin və ya ölkələr qrupunun daxili siyasi maraqlarının təmin edilməsi

üçün vulqar alətə çevirməyə çalışırlar. ATƏT-in təsisçi dövlətlərlə heç bir əlaqəsi olmayan bürokratik aparatını da bu vəzifəyə uyğun hazırlamışlar. Qərarların qəbul edilməsi və "qeyri-hökumət təşkilatları"ndan istifadə qaydaları da bu vəzifəyə uyğun hazırlanmışdır. Bu təşkilatlar formal baxımdan müstəqil olsalar da, məqsədyönlü şəkildə maliyyələşdirilir və deməli, onların fəaliyyətinə nəzarət edilir"[1].

Putinin ABŞ-ı sürətlə silahlanmanı şiddətləndirməkdə, BMT-nin nüfuzuna xələl gətirməkdə, birtərəfli hərəkətlərdə və demokratiyanı "ixrac etməkdə" günahlandırdığı, NATO-nun Şərqə doğru genişlənməsini kəskin tənqid etdiyi çıxışı Qərbdə "təəccüb və məyusluqla" qarşılanmışdı. Qərb özünün məşhur siyasətçilərinin dili ilə Putinin sözlərini kəskin şəkildə təkzib etmiş və bəyan etmişdi ki, "o, ifrata varır", "onun ittihamları düzgün deyildir", ABŞ senatoru Cosef Liberman isə Putinin çıxışını "təhrikçi çıxış" adlandırmışdı.

Mən isə cənab Putinin çıxışına başqa rakursdan yanaşmağı özümə rəva biləcəyəm. O, nədənsə unudur ki, Rusiya özü Birləşmiş Ştatlara və beynəlxalq təşkilatlara irad tutduğu məsələlərə əsla riayət etmir. Tarixdən məlumdur ki, yer üzündə bipolyar və ya polisentrik dünya nizamı yaradılmasının zəruriliyi mövqeyindən çıxış edənlər çox vaxt nüfuz dairələrinin bölgüsündə pay əldə etmək iddiasına düşür. U.Çörçill özünün məşhur Fulton nitqində məhz bu məqsədi güdürdü, N.Xruşşov BMT-nin Baş Məclisində çıxış edərkən ayaqqabısını çıxarıb tribunaya döyəcləyəndə məsələyə məhz bu mövqedən yanaşırdı. Tamamilə aydındır ki, müasir Rusiya dünyamızı daha təhlükəsiz və daha sabit edə bilərdi. Lakin bunu nə ilə izah edək ki, Ermənistana bir milyard dollar dəyərində silahları təmənnasız vermiş Rusiya rəh-

[1] "Rossiyskaya qazeta", 12 fevral 2007-ci il.

bərliyi münaqişə iştirakçılarından birinin (Ermənistanın) ərazisində öz hərbi bazasını saxlamaqda davam edir. Buna görə də Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti barədə düşünəndə, istər-istəməz hiss edirsən ki, Vladimir Putinin Münxen konfransındakı sözlərinin səmimiyyətinə inanmırsan.

Azərbaycan sivilizasiyaların qovuşduğu məkanda yerləşir, əsrlər boyu çoxmillətli və çoxkonfessiyalı dövlət kimi inkişaf etmişdir. Qafqazda sivilizasiyalararası həmrəyliyin saxlanmasında onun nadir rolu da buradan irəli gəlir. Bu həmrəylik təkcə Ermənistandakı müəyyən təcavüzkar dairələrin deyil, həm də onun bu cəhdlərini dəstəkləyən qüvvələrin, yaxud da 1918-1921-ci illərdə olduğu kimi, yenə də Azərbaycan ərazisi hesabına ikinci erməni dövlətinin yaradılması ilə barışmağa çağıranların təzyiqinə məruz qalır.

Azərbaycan sivilizasiyalar arasında körpüdür və o, təkcə dinlərin və mədəniyyətlərin dialoqu məkanı kimi deyil, həm də Şərq ilə Qərb arasında mühüm nəqliyyat arteriyası kimi çıxış edə bilər. Buna görə də təbiidir ki, dünyanın fəal şəkildə yenidən qurulması fonunda ölkəmizin real surətdə üzləşdiyi çoxsaylı yeni problemlər yaranmışdır.

Bu təhlükələr əvvəlkilərdən daha az proqnozlaşdırılandır və onların nə dərəcədə qorxulu olması tam şəkildə axıradək dərk edilməmişdir. Bütövlükdə, dünyada münaqişələr məkanının genişlənməsi meyli aşkar görünür. Dünyada maraqların toqquşması ehtimalının olması baxımından unutmamalıyıq ki, Azərbaycan bir sıra dövlətlərin maraqlarının kəsişdiyi mühüm məkandır. Bu şəraitdə yolu azmamaq, regionda sabitliyin pozulmasına doğru aparan planlardan və hərəkətlərdən mümkün qədər uzaq olmaq çox vacibdir. XXI əsrin ən təhlükəli təhdidlərinə – beynəlxalq terrorizmə, kütləvi qır-

ğın sılahlarının yayılmasına, regional münaqişələrə və digər təcavüzkar hərəkətlərə yalnız dünya birliyinin birgə səyləri ilə, BMT-nin vasitələrinə və beynəlxalq hüquqa istinadla müvafiq cavab vermək olar.

Azərbaycanın xarici siyasəti beynəlxalq münasibətlərin subyektləri ilə çoxşaxəli əlaqələr sistemi olub tarazlıq, çoxvektorluq və komplimentarlıq prinsiplərinə əsaslanır. Eyni zamanda, müstəqil xarici siyasətin əsas istiqaməti milli ləyaqət hissinə və milli maraqların başa düşülməsinə əsaslanmaqla, dünya birliyinin bütün üzvləri ilə möhkəm və bərabərhüquqlu münasibətlər yaradılmasına yönəlmişdir.

1988-ci ildə süni şəkildə törədilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyünə qəsd oldu. Bu münaqişə açıq hərbi təcavüzə və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinə çevrildi. Bir milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşdü. Bütün bu illərdə Azərbaycanın mövqeyi dəyişməz qalır: ölkəmizin ərazi bütövlüyü beynəlxalq hüquq normaları çərçivəsində bərpa edilməli, torpaqlarımız işğalçı qüvvələrdən azad olunmalı, qaçqınlar və məcburi köçkünlər doğma yurdlarına qayıtmalıdırlar.

Son illərdə Azərbaycan cəmiyyətinin sosiomədəni siması dəyişmiş, yeni davranış normaları və stereotipləri formalaşmağa başlamışdır. Yeni yaranmaqda olan vətəndaş cəmiyyətinin rüşeymləri fikir və söz azadlığı meydanını genişləndirmişdir. Fərdin yeni siması ölkənin sərbəst demokratik inkişafı ilə eyniləşdirilməyə başlanmışdır. Ümumi demokratikləşməyə doğru qlobal dönüş şəraitində ictimai şüur milli identikləşmənin yeni formalarını kəsb etməyə başlamışdır ki, bunlar da qərbləşmə layihəsinin təsiri ilə bəzən milli şəraitdə birdən-birə dəyişir. Lakin demokratik transformasiyanın mürəkkəbliklərinə baxmayaraq,

Azərbaycanda yeni bir paradiqma formalaşır – cəmiyyət daha açıq, fərdin imkanları isə daha geniş olur.

Azərbaycan cəmiyyətinin mərhələli demokratikləşməsində kütləvi informasiya vasitələri mühüm yer tutur. Hazırda Azərbaycanda həm iqtidarın və müxalifətin mövqelərini, həm də bu və ya digər sosial qrupların müstəqil mövqelərini əks etdirən 2600-dək informasiya orqanı vardır. Təbii ki, azad kütləvi informasiya vasitələri demokratik inkişafın prioritet amilidir, müstəqil "dördüncü hakimiyyət" isə ictimai tərəqqinin güzgüsü rolunda çıxış edir. Buna görə də Azərbaycanda onların maneəsiz fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır: Prezident Heydər Əliyevin, daha sonra Prezident İlham Əliyevin müvafiq qərarları ilə qəzetlər dəfələrlə dövlət borclarından azad edilmiş; vergilərin ödənilməsindən tamamilə azad olunmuş; KİV-lərin yaradılmasına və sərbəst fəaliyyətinə mane olan hər cür bürokratik əngəllər ləğv edilmişdir. Azərbaycanda qəzet təsis etmək üçün yalnız onun fəaliyyətə başlamasının bəyan olunması lazımdır, bu da inkişaf etmiş demokratiyalarda qəbul olunmuş standartlara uyğundur. Prezident İlham Əliyev demişdir: "Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir. Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur... Biz Avropa İttifaqı ilə yeni qonşuluq siyasətinə qoşulduq. Fəaliyyət proqramında siyasi islahatların davam etdirilməsi də öz əksini tapmışdır, yəni bu, bizim seçimimizdir. Əgər biz bu fikirdə olmasaydıq, heç kim bizi məcbur edə bilməzdi ki, bu razılaşmalara gedək. Bu, bizim seçimimiz, bizim istəyimizdir, bizim iradəmizdir"[1].

Lakin transformasiya mərhələsi müstəqil mətbuatın və müxalifət mətbuatının təşəkkülü və fəaliyyəti məsələsinə öz

[1] Prezident İlham Əliyevin AzTV-yə müsahibəsindən, 28 noyabr 2006-cı il.

düzəlişlərini edir. Qəzet və jurnalların əksəriyyətində peşəkarlıq problemi hələ də aktual olaraq qalır. Müxalifət KİV-lərində dərc edilən materiallar heç bir informasiya yükü daşımır, amma əvəzində, bulvar məqalələri gen-bol çap olunur. Müvafiq partiyaların mətbu orqanları olan bu qəzetlər həmin partiyaların ruporudur və yalan, çirkin şayiələr yaymaq, siyasi əleyhdarlardan, bir sıra hallarda isə siyasət məkanında özlərinin keçmiş müttəfiqlərindən heyfini çıxmaq funksiyasını yerinə yetirir. Müxalifətçi KİV səhifələrində cəmiyyətin həyatı ilə bağlı aktual siyasi problemlərə və ya mənəviyyat problemlərinə dair yüksək peşəkar səviyyədə hazırlanmış heç bir analitik məqaləyə rast gələ bilməzsiniz.

Təbii ki, keçid dövrünün çətinlikləri sosial gerçəkliyin başa düşülməsi ilə əlaqədar müəyyən problemlər yaradır, lakin vaxt daim irəli gedir. Buna görə də demokratik təsisatlar inkişaf etdikcə, cəmiyyət aparıcı siyasi təşkilatların informasiya orqanları roluna iddia edən "bulvar mətbuatı"na münasibətdə barışmaz və tənqidi mövqe tutmalıdır. Cəmiyyət onun maraqları ilə oynamağa, yalançı manipulyasiyalara, özlərinin cılız məqsədlərinə çatmaq naminə kliyentalist qruplarından istifadə etmək cəhdlərinə dözmür. Cəmiyyət düzgün və etibarlı informasiya əvəzinə, oxucuya bu nəşrin tirajını hər vəchlə artırmaq məqsədi ilə yazılmış materiallar "sırıyan" mətbu orqanlara etimadın dərəcəsini qiymətləndirməlidir.

Mass-media aləmində "bulvar mətbuatı"nın tirajı, həqiqətən daha böyük olur və çox vaxt elmi strukturların mətbu orqanları və ya dövlət orqanları tərəfindən dəstəklənən kütləvi informasiya vasitələri ilə müqayisədə öz xərcini daha çox çıxara bilir. Bu cür nəşrlərə maraq fərdlərə ta qədimdən xas olan "çörək və tamaşa" əldə etmək istəyindən irəli gəlir. Bu, tamamilə anlaşılandır. Lakin partiyalara məxsus olan və yaxud "müstəqil" mətbuat və şəbəkə resursları bulvar mət-

buatının analoquna çevriləndə, bu qəzetlərin məxsus olduğu siyasi liderlərin səmimiliyinə və onların siyasi fəaliyyət qabiliyyətinə ciddi şübhə yaranır. Bəzi radikallar müxalifətin durğunluq dövründə olduğunu başa düşərək yalan, saxtakarlıq, diffamasiya və dezinformasiya vasitəsilə öz nəşrlərinə və partiyalarına marağı artırmağa çalışırlar.

Son on ildən artıq dövrdə milli müxalifət, xüsusən onun radikal qanadı ictimaiyyəti hər vasitə ilə inandırmağa çalışır ki, Azərbaycan demokratikləşmə yolu ilə irəliləmir, əksinə, ölkədə avtoritarizmin bərqərar olması prosesi gedir. Heç şübhəsiz ki, bu cür bəyanatların reallıqla heç bir əlaqəsi yoxdur.

Həqiqət başqa müstəvidədir və müxalifət bunu ya şüurlu surətdə qəbul etmək istəmir, yaxud da özü "yeniyetmə" vəziyyətində olduğuna görə onu dərk etməyə qadir deyildir. Ümumiyyətlə, müasir Azərbaycan cəmiyyəti, onun barışmaz müxalifət hissəsi istisna olmaqla, demokratik dəyərlərə kifayət qədər uğurla yiyələnir. Deməli, əgər ölkənin demokratikləşməsi prosesində müəyyən çatışmazlıqlar varsa, müxalifət bunun səbəbini ilk növbədə özündə axtarmalıdır, çünki siyasi məkanda münaqişənin mənbələri iqtidarda deyil, müxalifətin öz daxilindədir.

Ölkənin demokratikləşdirilməsi təkcə iqtidarın deyil, bütün cəmiyyətin vəzifəsidir. Deməli, bu problemin həllində müxalifətin də çiyninə müəyyən yük düşür. Lakin məsələnin mahiyyəti ondan ibarətdir ki, milli müxalifətin əl-qolu daxili avtoritarizmlə bağlanmışdır. Müxalifət bu sosial "azardan" yaxa qurtarmayınca demokratik prosesdə özünün iştirakının rolunu, yerini və əhəmiyyətini müəyyən edə bilməyəcəkdir.

Təsisçiləri indiki iqtidarı o qədər də sevməyən "Novoye vremya" qəzeti (Azərbaycan) 2006-cı il dekabrın 20-də ABŞ dövlət katibinin köməkçisi Barri Lovenkronun Azərbaycana səfərinə geniş bir məqalə həsr etmişdi. Vaşinqtondan gəlmiş yük-

sək vəzifəli diplomatın Azərbaycanda demokratiyanın inkişafı, insanların hüquq və azadlıqlarının təmin edilməsi, KİV azadlığı sahəsində ciddi irəliləyişlər olduğunu görməsi, eləcə də Bakı ilə Vaşinqton arasında əməkdaşlığın strateji tərəfdaşlıq və dostluq səviyyəsinə çatmasının etiraf edilməsi bu qəzetin xoşuna gəlmir. Qəzet belə hesab edir ki, Azərbaycanda demokrartiya yoxdur, yalnız onun imitasiyası var, ABŞ isə Azərbaycanın indiki iqtidarını yalnız ona görə dəstəkləyir ki, "bu tərəfdaşlığın köməyi ilə regionda öz maraqlarını yayır". Əlbəttə, qəzet istənilən meyildə və mövqedə ola bilər, çünki Konstitusiya söz azadlığına zəmanət verir. Fərqli düşünənlərin ciddi senzura nəzarətinə məruz qaldığı dövrlər keçmişdə qalmışdır. Lakin məsələ ondan ibarətdir ki, yuxarıda deyilənlərə kimlərin mənafeyi prizmasından yanaşırıq. Demokratiya olmasaydı, bu qəzet yəqin ki, nəşr edilə bilməzdi və üstəlik, demokratiyanın imitasiyasının müzakirə olunması özü çox mürəkkəb fəlsəfi nəticələr çıxarmağa sövq edir. Demokratiya yoluna qədəm qoymuş ölkə bunu imitasiya edə bilməz – demokratiya ya var, yaxud da, sadəcə olaraq, yoxdur. Əgər demokratik ənənələr və demokratik təsisatlar yaranırsa, deməli, ölkədə demokratikləşmə prosesi gedir. Məsələ yalnız bu prosesin sürətində və nəticələrindədir, bunlar isə çox amillərdən, o cümlədən siyasi, iqtisadi və sosiomədəni mühitin transformasiyasından asılıdır. Lakin bu, başqa bir söhbətin mövzusudur.

Qəzet 1992-ci ilin mart hadisələri ilə əlaqədar köhnə ədavəti olan müxalifəti sancmaq imkanını da əldən verməmişdir. Belə hesab edir ki, "ABŞ müxalifətin nəyə qadir olmasını çox yaxşı bilir və buna görə də onun barəsində ciddi illüziyalara uymur. Nəticə aydındır: Azərbaycan kütləvi informasiya vasitələrinə olan dəstək müxalifətə heç vaxt nəsib olmayacaqdır. Azərbaycanda demokratik imitasiyaların mövcud olduğu bütün müddətdə amerikalılar iqtidarın opponentləri düşərgəsində lazımi məqamda təşəbbüsü öz əlinə ala biləcək

normal lider görməmişdir. Əksinə, onlar yalnız buna əmindirlər ki, bu siyasətçilər satqındır, özlərinin merkantil maraqları naminə hakim klanla əməkdaşlıq etməyə hazırdırlar".

Məqalənin məzmunundan göründüyü kimi, milli maraqlara dair problemlər barədə iqtidarla müxalifətin dialoqu, konstruktiv əməkdaşlığı bu qəzeti çiyrəndirir. Görünür, siyasi meydanda rəqabətin qan rənginə boyanmış münaqişəyə çevrilməsi qəzetin ürəyindəndir.

Belə kütləvi informasiya vasitələrinin məntiqini anlamaq çətindir. Onlar çox vaxt demokratik cəmiyyətin əsas atributu kimi qanunun aliliyindən dəm vurur, əslində isə, özləri hüquqi xarakterli problemlərlə üzləşdikdə iqtidarı KİV-ə təzyiq göstərməkdə günahlandırır və okeanın o tayında özlərinə himayədarlar axtarırlar. Müəyyən siyasi qruplar bu və ya digər mass-media orqanlarının üzləşdiyi texniki xarakterli məsələlərdən gələcəkdə öz məqsədləri naminə istifadə etmək üçün onları siyasiləşdirməyə çalışırlar. Bələləri unudurlar ki, qanun hamı üçün eynidir və qanunu pozan bu və ya digər KİV barəsində qəbul edilmiş qərarlar hüquqi, konstitusion xarakter daşıyır. Demokratiyanın mahiyyəti heç kəsə güzəşt etməməkdən ibarətdir, çünki qanunun aliliyi xalq hakimiyyətinin əsasıdır, bu, hüquqi dövlətin bazisidir.

Sabit demokratik inkişafın əsası nailiyyətlər və uğursuzluqlar, qələbələr və məğlubiyyətlər barədə cəmiyyətə məlumat verə bilən müstəqil və azad kütləvi informasiya vasitələri yaratmağa çalışmaqdır. Belə məlumatı alan hər bir fərd seçkilərdə öz mövqeyinin düzgünlüyünü qiymətləndirə və bununla da mövcud xəttin varisliyini və ya onun dəyişdirilməsini təmin edə biləcəkdir. Demokratik qavrayışın bazisi məhz bundan ibarətdir, mövcud reallıqların, nailiyyətlərin və gələcək perspektivlərin başa düşülməsinə əsaslanan bu yanaşma səmərəli dövlətin formalaşmasına şərait yaradacaqdır. Çünki "indi yeni dövr başlayır. Bu dövr Azərbaycanın gələ-

cək inkişaf perspektivlərini müəyyən edəcək, uzunmüddətli inkişafımız bu dövrün uğurlu olmasından asılıdır”[1].

Heç şübhəsiz, bizim bütün qərarlarımız, bütün fəaliyyətimiz ona istiqamətlənmişdir ki, Azərbaycan artıq yaxın gələcəkdə dünyanın həqiqətən güclü, iqtisadi cəhətdən qabaqcıl dövlətləri sırasında möhkəm yer tutsun. Bu, keyfiyyətcə yeni məsələ, mahiyyət etibarilə ölkəmiz üçün yeni pillədir. Çoxsaylı başqa təxirəsalınmaz problemlər üzündən biz əvvəllər bu mövqeyə yüksələ bilməzdik. İndi isə belə bir imkanımız yaranır və biz ondan istifadə etməliyik. Prezident İlham Əliyev demişdir: “Hamımız istəyirik ki, ölkəmiz müasir, zəngin, qüdrətli dövlətə çevrilsin. Azərbaycanda insanlar yaxşı yaşasınlar, zəngin olsunlar, iqtisadiyyatımız güclü olsun, siyasi imicimiz güclü olsun, bölgədə gedən proseslərə təsir imkanlarımız daha da artsın. Biz bunu istəyirik. Yəqin ki, hər bir ölkə bunu istəyər. Amma istəmək və bunu etmək başqa-başqa məsələlərdir. Bunu etmək üçün, arzularımızı həyata keçirmək üçün bizim imkanlarımız var.

Deyə bilərəm ki, indi bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq – bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi – bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir. Bütün istiqamətlər üzrə bizim proqramımız var. Hər bir istiqamət üzrə

[1] Üçüncü çağırış Milli Məclisin sessiyasının açılışında Prezident İlham Əliyevin nitqindən. Bakı, 2 oktyabr 2006-cı il.

bizim baxışlarımız var, bilirik ki, nə istəyirik, haraya gedirik və təxminən bilirik ki, bunun nəticəsi nə olacaqdır. Nəticədə isə güclü ölkə olacaq, güclü Azərbaycan olacaq və Azərbaycan xalqı bundan sonra daha da yaxşı yaşayacaqdır. Bütün bu məqsədlərimizə çatmaq üçün biz gərək səmərəli işləyək"[1].

Azərbaycan inkişaf etmiş vətəndaş cəmiyyətinin və möhkəm demokratiyanın olduğu dövlət qurmaq istiqamətində durmadan irəliləyir. Bu dövlətdə insan hüquqları, vətəndaş azadlıqları və siyasi azadlıqlar tam şəkildə təmin ediləcəkdir. Azərbaycan rəqabətədavamlı bazar iqtisadiyyatı ölkəsinə çevrilməyə çalışır. Elə bir ölkəyə ki, burada mülkiyyət hüquqları etibarlı şəkildə qorunub, iqtisadi azadlıqlar isə insanların vicdanla işləyib qazanc əldə etməsinə, heç bir qorxu və məhdudiyyət olmadan qazanc əldə etməsinə imkan verir. Tamamilə aydındır ki, Azərbaycan müasir, yaxşı təchiz olunmuş və mobil silahlı qüvvələrə malik olan güclü ölkəyə çevriləcəkdir. Onun ordusu ölkənin və vətəndaşların milli mənafelərini müdafiə etməyə hazır olacaqdır. Özünün iqtisadi, siyasi və hərbi potensialından istifadə edərək, tezliklə qarşıya qoyulmuş məqsədə nail olacaq – işğal olunmuş əraziləri azad edəcək ölkəyə çevrilmək üçün bizim kifayət qədər ehtiyatımız vardır.

Bütün bunlar insanların həyatı üçün layiqli şəraiti təmin edəcək və Azərbaycanın istisnasız olaraq bütün dövlətlərlə bərabər tərəf kimi əlaqə saxlamasına imkan verəcəkdir. İnsanlar bu cür ölkə ilə sadəcə fəxr etməyəcək, onlar bu ölkənin sərvətlərini artıracaq, milli tarixi öyrənəcək, yadda saxlayacaq və ona hörmət edəcəklər. Bu, bizim strateji məqsədimizdir. Lakin bu məqsədə nail olmaq üçün intellektual qüvvələri cəmləşdirmək, səfərbər etmək, hakimiy-

[1] Üçüncü çağırış Milli Məclisin sessiyasının açılışında Prezident İlham Əliyevin nitqindən. Bakı, 2 oktyabr 2006-cı il.

yət orqanlarının, vətəndaş cəmiyyətinin, ölkənin bütün vətəndaşlarının birgə səyləri tələb olunur. Biz yalnız aydın və dəqiq məqsədlər əsasında başlıca ümummilli problemlərin həllinə nail olmaq üçün birləşə bilərik.

Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin genişlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud da bir niyyət deyil, bu, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir. Ona görə siyasi və iqtisadi islahatların davam etdirilməsi zəmanənin tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə dövlətin üzərinə böyük vəzifələr düşür... Biz birlikdə buna nail olmalıyıq"[1].

Bu kitabda mən bir sıra məsələlərə, xüsusən Azərbaycana aid məsələlərə toxundum. İndiki iqtidar bu suallara cavab verə biləcəkmi? Düşünürəm ki, bəli, biləcək. Biz xalqda yüksək vətənpərvərlik hissləri tərbiyə etməli, demokratik dəyərləri ona ardıcıl surətdə aşılamalı, onu dövlət müstəqilliyi və Azərbaycan cəmiyyətinin dünyəvi xarakteri uğrunda mübarizəyə sövq etməliyik. Yalnız ölkə üçün böhranlı anlarda xalq özünün yetkin sosium olmasını göstərəndə biz arxayınlaşaraq deyə bilərik: bəli, Azərbaycan xalqı zamanın sınağından uğurla çıxmış, müasir, tərəqqi edən, güclü demokratik dövlət yaratmışdır.

[1] Üçüncü çağırış Milli Məclisin sessiyasının açılışında Prezident İlham Əliyevin nitqindən. Bakı, 2 oktyabr 2006-cı il.

Terminlər lüğəti

- **Absorbsiya** (lat. *absorptio* – udma, *absorbeo* – uduram sözündən) – udma, udulma.
- **Absorbsiya etmək** – udmaq, canına çəkmək.
- **Aqregirləşdirmə** – bu və ya diğər qrupun vahid siyasi tələblərinin işənib hazırlanması çərçivəsində müxtəlif mikroqrupların mövqelərini razılaşdırmağın texnologiyası.
- **Acornamento** – müasir neotomizmin ekzisentializmin, fəlsəfi antropologiyanın, gemenevtikanın, fenomenologiyanın, habelə linqvistika fəlsəfəsinin, neopozitivizmin və qismən kantçılığın və koqnitiv psixologiyanın fəlsəfi ideyalarının katolik teologiyası tərəfindən assimilyasiyasına istiqamətlənmiş inkişaf meyli.
- **Aksiologiya** – dəyərlər haqqında təlim.
- **Aktor** – praktik olaraq fəaliyyət göstərən subyekt.
- **Ambivalentlik** – əks-yönlü hiss və hərəkətlərdə təzahür edən ikililik.
- **Annihilyasiya** (lat. *annihilatio*, *an* – doğru, tərəf və *nihil* – heç nə sözlərindən) – yoxolma, məhvolma. Zərrəciklə antizərrəcik toqquşduqda onların elektromaqnit şüalanmasına – fotonlara, yaxud digər zərrəciklərə – başqa xassəli fiziki sahənin kvantlarına çevrilməsi prosesini adlandırmaq üçün işlədilir.

- **Antropologiya** – insan haqqında elm. İnsanın həyat fəaliyyətinin formalarının müxtəlifliyini öyrənir. Fiziki antropologiya, sosial antropologiya, mədəni antropologiya, tarixəqədərki antorpologiya kimi bir sıra fənləri əhatə edir. Fəlsəfədə isə fəlsəfi antropologiya adlanan ayrıca bölmə var.
- **Arxetip** – qrup təfəkküründün insan tərəfindən qeyri-tənqidi qavranılan standart və stereotipləri.
- **Assimilyasiya** (sosiologiyada) – sosiumun bir hissəsinin özünəməxsus xüsusiyyətləri itirməsi və bunların digər hissədən əxz olunmuş xüsusiyyətlərlə əvəzlənməsi.
- **Autentikləşdirmə** – istifadəçini səciyyələndirən parametrlərin, prosesin və ya məlumatların uyğunluğunun müəyyən edilməsi proseduru. Bir qayda olaraq, autentifikasiya istifadəçinin bu və ya diğər resurslardan, proqramlardan, məlumatlardan istifadə hüququnu yoxlamaq üçün tətbiq edilir.
- **Bürokratiya** – M.Veberə görə, səmərəli təşkil etmənin ideal tipi olub, aşağıdakılarla səciyyələnir:

- idarəetmə aparatının ixtisaslaşdırılması və vəzifələrin formal bölgüsü hesabına inzibati hərəkətlərin səmərəliliyi;
- iyerarxik nəzarət və vəzifəli şəxslərin tabelik sistemi;
- qərarların qəbulunu müəyyən edən qanunlarda və qaydalarda təsbit olunmuş şəxssiz münasibətlər;
- inzibati funksiyaların idarəetmə vasitələrinin özündən ayrılması.

- **Demokratiya** – dövlətin idarə edilməsi forması. Birbaşa xalq hakimiyyəti (birbaşa demokratiya) və ya xalq tərəfindən, yaxud xalqın müəyyən hissəsi tərəfindən seçilən nümayəndələr vasitəsilə (nümayəndəli demokratiya) həyata keçirilir.

Praktik baxımdan demokratiya dövlətin və cəmiyyətin inkişafı yolları barədə müxtəlif baxışları təmsil edən və cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarını ifadə edən müxtəlif ictimai təşkilatların və hərəkatların, siyasi partiyaların və elitaların sərbəst qanuni rəqabətini, bu cür təşkilatların, qrupların və partiyaların sərbəst formalaşmasını, fərdlərin aşağı təbəqələrdən siyasi elitalara düşməsinə, eləcə də hakimiyyət və idarəetmə orqanlarının tərkibinin və siyasətinin seçicilərin həqiqi iradəsinə az və ya çox dərəcədə dəqiq uyğunluğunu təmin etməyə çalışan qaydalar, prosedurlar və şərtlər toplusudur. Demokratiyanın ilkin forması kiçik şəhər-dövlətlərdə birbaşa demokratiya olmuşdur. Birbaşa demokratiyanın antik formaları Platonun dövlət nəzəriyyəsində tənqid edilir. Rusiyada birbaşa demokratiya nümunəsi təqribən 400 il mövcud olmuş Novqorod veçe respublikası sayıla bilər. Sonralar, dövlətin həll etdiyi məsələlərin mürəkkəbləşməsi ilə əlaqədar, birbaşa demokratiya, demək olar ki, hər yerdə monarxiya idarəetmə formaları tərəfindən sıxışdırılıb çıxarılmışdır.

- **Determinizm** – dünyada baş verən bütün hadisələrin, o cümlədən insan həyatanın bütün gedişinin Allah tərəfindən müəyyən edilməsi haqqında və ya təbiət hadisələrinin, yaxud tarixi hadisələrin, xüsusən insanın iradəsinin təzahürünün Allah tərəfindən müəyyən edilməsi barədə təlim. Bu halda insan iradəsinin azadlığı və onun məsuliyyəti üçün yer qalmazdı.

- **Definisiya** (latınca *definitio* – hüdud, sərhəd) – tərif. Definisiya hər hansı anlayışın və ya dil ifadəsinin məzmununu təşkil edən əsas əlamətləri təsbit edir.

- **Diffuziya** – maddənin hüceyrə membranı vasitəsilə keçməsi. Bu proses elektrokimyəvi qradiyent üzrə, yəni enerji sərf edilmədən baş verir. **Mədəni diffuziya** (*cultural diffusion*) – bir cəmiyyətin başqa cəmiyyətlə təma-

sı (mədəni kontaktı) zamanı onlardan birinə xam olan mədəni əlamətlərin və komplekslərin digərinə qarşılıqlı nüfuzu (əxz edilməsi). Diffuziya mədəniyyətlərin kortəbii şəkildə qarşılıqlı nüfuz etməsi və zənginləşməsi deməkdir.

- **Disfunksiya** – hər hansı funksiyanın pozulması.
- **Diskurs** – ideyaların (ideologiyaların) qarşılıqlı təsiri və müzakirəsi prosesi.
- **Diversifikasiya** – daxili bölgü prosesi, hadisənin müxtəlifliyinin güclənməsi.
- **Dizyunksiya** (latınca *disjunctio*) – məntiqi "və ya" bağlayıcısının köməyi ilə iki fikrin birləşdirilməsindən mürəkkəb fikir yaradan məntiqi əməliyyat; alternativ.
- **Ekstremum** (latınca *extremum*) – kəsilməz *f* funksiyasının ya maksimuma, yaxud da minimuma bərabər olan sərhəd qiyməti.
- **Ekzistensializm** (fransızca *existensialisme*, latınca *exsistentia* – mövcudluq sözündən) – mövcudluq fəlsəfəsi – XX əsr fəlsəfəsində insanı özü taleyini seçməyə qadir olan nadir mənəvi varlıq hesab edən istiqamət. Ekzistensiya essensiyanın (mahiyyətin) əksi kimi təfsir olunur. Şeylərin və heyvanların taleyi əvvəlcədən müəyyən edilmişsə, yəni onlar mövcudluqdan əvvəl mahiyyətə malikdirsə, insan öz mahiyyətini özünün mövcudluğu prosesində kəsb edir. Ekzistensiyanın əsas atributu öz seçiminin nəticəsinə görə təşviş hissi keçirməyi nəzərdə tutan azadlıqdır.
- **Ekzogen** – xarici mənşəli, kənar səbəblərdən irəli gələn.
- **Elitizm** – XX əsrin əvvəlində İtaliyada yaranmış və dövlətin idarə edilməsi haqqında Makiavellinin ideyala-

rını inkişaf etdirən ideologiya. Elitizmə görə cəmiyyət onun fəaliyyətini idarə edən elitadan və bioloji kütlə olan xalqdan ibarətdir.

- **Endogen** – daxili mənşəli, daxili səbəblərdən irəli gələn.
- **Etatizm** (fransızca *etat* – dövlət sözündən) – cəmiyyətdə dövlətin rolunu mütləqləşdirən və onu ictimai inkişafın əsas məqsədi hesab edən baxış; cəmiyyətin həyatına və şəxsi həyatın bütün sahələrinə dövlətin fəal müdaxiləsi siyasəti.
- **Evristika** – insan təfəkküründün təbiətini, müxtəlif məsələlərin həlli üçün onun istifadə etdiyi metodları açıqlayan elm bölməsi. Evristika hipotezlərin məntiqi yolla çıxarılması metodikasına əsaslanır və oxşar məsələlərin həlli təcrübəsi olan hallarda uğurlu nəticələr verir. Belə hallarda bu və ya digər strategiyaların ən yaxşı variantları haqqında informasiya nəzərə alınır.
- **Əmtəə dempinqi** – əmtəələrin qəsdən aşağı salınmış qiymətlərlə, yəni daxili bazardakından aşağı qiymətlərlə ixrac edilməsi. Satış bazarları uğrunda mübarizə vasitələrindən biridir. QATT qaydalarına görə, əmtəə dempinqi bir ölkənin mallarının başqa ölkənin bazarında normal qiymətdən aşağı qiymətə satıldığı, yəni malların bu cür satılması analoji məhsulun milli istehsalına əhəmiyyətli dərəcədə zərər vuran və ya zərər vurmaq təhlükəsi doğuran hallarda yaranır.
- **Ənənəvi cəmiyyət** – sənayeləşmədən əvvəlki dövrə aid, əsasən, aqrar xarakterli kənd cəmiyyəti. "Ənənə-müasirlik" baza sosioloji tipologiyada müasir sənaye cəmiyyətinə qarşı qoyulur.
- **Fenomenologiya** – XX əsr fəlsəfəsində istiqamət. O, öz vəzifəsini şüura əsaslanan təcrübənin ilkin şərt qoyul-

madan təsvir edilməsi və onun mühüm, ideal cəhətlərinin fərqləndirilməsi kimi müəyyən edir.

- **Frustrasiya** – məyusluq, peşmanlıq.
- **Fundasiya edilmiş borc** – qısamüddətli və ortamüddətli borclar üzrə ödənişlər təxirə salınmaqla onların cəmləşdirilməsi yolu ilə yaranan uzunmüddətli borc. Fundasiya edilmiş gəlir – sabit mənbələrdən, yəni torpaq, daşınmaz əmlak sahibliyindən əldə olunan gəlir.
- **Fundasiya etmək** (latınca *fundare* sözündən) – əsaslandırmaq, təməlini qoymaq.
- **Hermenevtika** – şərh məharəti – XX əsr fəlsəfəsində ədəbi mətnlərin təfsiri nəzəriyyəsi əsasında yaranmış istiqamət. Hermenevtika baxımından fəlsəfənin vəzifəsi mədəniyyətin ən yüksək mənalarını şərh etməkdən ibarətdir, çünki biz reallığı əsas mətnlərin toplusu olan mədəniyyət prizmasından görürük.
- **Homogen** – vahid.
- **İdentikləşdirmə** (latınca *identifico*) – eyniləşdirmə. Fəlsəfədə müəyyən əlamətlərin üst-üstə düşməsi əsasında naməlum obyektin məlum obyektlə eyniliyinin müəyyən edilməsi, tanıma.
- **İmpisit** – məzmunlu, məzmun.
- **İmplisit şəxsiyyət nəzəriyyəsi** – insanların zahiri simaları, davranışı və şəxsiyyətinin cizgilərinin qarşılıqlı əlaqəsi haqqında insanın sağlığında formalaşmış davamlı təsəvvür. İnsanlar haqqında kifayət qədər informasiya olmadığı şəraitdə insan onların barəsində bu təsəvvür əsasında mühakimə yürüdür.
- **İndoktrinasiya** – bu və ya digər ideyaların və dəyərlərin ictimai şüura zorla tətbiq edilməsi texnologiyası.

- **İnformasiya cəmiyyəti** – informasiya-kompyuter inqilabının başlanması ilə əlaqədar olaraq inkişaf etmiş ölkələrin qədəm qoyduğu ictimai inkişafın keyfiyyətcə yeni modelinin təsvir edilməsi üçün istifadə olunan nəzəri modellərdən biri.
- **İnnovasiya** – sosial baxımdan bəyənilmiş məqsədlərə nail olmaq üçün sosial baxımdan pisləniləndən istifadə edilməsi.
- **İnstallyasiya** – a) daxiletmə, müəyyənləşdirmə; b) vəzifəyə təyinetmə; c) göstəriş.
- **İntensionallıq** (latınca *intentio* – cəhdetmə, niyyət, yönəlmə; almanca *intentionalitat*). E.Qusserlin fenomenologiyasında şüuru "sözün dəqiq mənasında" səciyyələndirən mahiyyət strukturu. Fenomenologiya şüuru məzmunlu və ya məzmunsuz şəkildə müəyyən edilmiş, özünə qapanmış "substansiya" şəklində anlamaqdan imtina edir.
- **İntensiya** – şüurun, təfəkkürün müəyyən predmetə yönəlməsi; bu cür yönəlmə arzuya, niyyətə əsaslanır.
- **İnteraktiv rejim** – kompyuterlə insanın dialoqunda istifadəçinin sorgusuna sistemin dərhal cavab verdiyi rejim.
- **İstehlak cəmiyyəti** – get-gedə daha artıq dərəcədə istehlak prinsipi əsasında təşkil olunan modern cəmyyətinin (müasir cəmiyyətin) xarakteristikalarından biri. Adətən, aşağıdakı sosial dəyişikliklərlə bağlı olur: istehlakın strukturunu əhəmiyyətli dərəcədə dəyişən gəlirlərin artması (uzunmüddətli istifadə əşyalarına, asudə vaxtın keçirilməsinə və başqa məqsədlərə deyil, ilkin zərurət mallarına daha artıq vəsait xərclənməsi); iş gününün azalması və asudə vaxtın artması; sinfi strukturun aradan qalxması və sosial təbəqələşmənin çoxamilli xarakteri ilə əlaqədar indentikliyin formalaşması-

nın əmək sahəsindən asudə vaxt və istehlak sahəsinə tərəf dəyişməsi; fərdi üslubu və imic formalaşdıran istehlakın fərdiləşməsi.

- **Kliyentalist qruplar** – lobbiləşdirilmiş və ya haqqı ödənilmiş qruplar.
- **Koital çoxalma vasitələri** – cinsi əlaqə yolu ilə çoxalma.
- **Koqnitiv** – idraka müvafiq olan, dərk edilən.
- **Kommunitarizm** – icma baxışları sistemi.
- **Kommutasiya etmək** – a) dəyişiklik; b) əlaqəni qaydaya salmaq, əlaqələndirmə. Yeni latın dilində *commutator,* qədim latın dilində *commute* mənası verən kommutator (dəyişirəm) sözündən – dəyişdirici, paylayıcı, əlaqələndirici vəsilə.
- **Konformizm** – 1562-ci ildə Yepiskopal kilsənin 39 maddəsinə tabe olan İngiltərə protestantlarının hərəkatı. Bu maddələri qəbul etməyənlərə *nonkorformistlər*, daha sonra *dissenterlər* adı verilmişdi. **Konformizm** dedikdə, hər bir şəraitdə uyğunlaşma mövcud sosial qaydanın, hakim fikirlərin passiv şəkildə qəbul edilməsi nəzərdə tutulur. Sosiallaşma prosesində formalaşan baxışlarda, fikirlərdə, mühakimələrdə eyniliyin digər təzahürlərini, eləcə də inandırıcı dəlillərin təsiri altında baxışların dəyişməsini konformizmdən fərqləndirmək lazımdır. Konformizm cəmiyyətin və ya qrupun təzyiqi altında fərdin müəyyən fikri qəbul etməsi deməkdir. Bu, əsasən, sanksiyalardan qorxmaqdan və ya təcrid olunmuş vəziyyətdə qalmaq istəməməkdən irəli gəlir.
- **Konnotasiya** – hər hansı anlayışın və ya dil ifadəsinin əsas mənası ilə müyyən qaydada bağlı olan və ona təsir göstərən əlavə məna.
- **Korrelyasiya** – qarşılıqlı münasibət.

- **Kreativlik** – fərdin yaradıcılıq qabiliyyəti, qeyri-adi ideyalar irəli sürmək, ənənəvi təfəkkür sxemlərindən kənara çıxmaq, problemli vəziyyətləri qısa müddətdə tənzimləmək qabiliyyəti.
- **Kumulyativlik** – subyektin öz təsirini və ya səlahiyyətlərini genişləndirməyə daxilən meyl etmək xüsusiyyəti.
- **Qərbləşmə** – Qərbin həyat tərzinin mexaniki şəkildə köçürülməsi.
- **Qloballaşma** – maliyyə bazarlarının və istehsal sahələrinin ümumi planetar miqyasda dəyişməsi prosesləri. Bu proseslər nəticəsində coğrafi sərhədlər, milli hökumətlər və sosial dövlət əslində kütləvi istehsala və əmtəə istehlakına nəzarət etmir. Dünyanın ən iri banklarının bilavasitə iştirakı ilə prinsipcə yeni siyasi əlaqələr yaranır və bunlar dövlətüstü təsisatlarının köməyi ilə reallaşdırılır. Son dövrlərdə antiqloballaşma hərəkatının kütləvi xarakter alması ilə əlaqədar olaraq transmilli şirkətlər "qlokallaşma" terminindən istifadə edirlər.
- **Qravitasiya** – materiyanın bir xassəsi. Mahiyyəti bundan ibarətdir ki, hər hansı iki hissəcik arasında cazibə qüvvələri mövcuddur.
- **Lakuna** (latınca *lacuna*) – dərinlik, çökəklik. Linqvistikada və ədəbiyyatşünaslıqda – mətndə boşluq, buraxılmış, çatışmayan yer.
- **Latent** – gizli, aşkar görünməyən.
- **Lekalo** – nümunə.
- **Marginallıq** – müəyyən sosial qrupun tərkibinə yarımçıq, qismən daxil olmaq. Əvvəllər bu termin ilk növbədə miqrantların öyrənilməsində iki müxtəlif qrupun həyat tərzini və ənənələrini bir-birindən ayırmaq üçün "mədəni hibrid" mənasında istifadə edilirdi.

- **Meritokratiya** – ən yaxşı insanların hakimiyyət forması.
- **Modern** – Yeni dövrün əvvəllində Avropada başlanmış iqtisadi, siyasi, fəlsəfi, elmi, dini və mədəni təkamülün gedişində yaradılmış həyat şəraitinin tam toplusu.
- **Modernizm** – Yeni dövrün "ruhu". Bu dövrün başlanğıcı müasir elmin yaranması, rasional biliyə və texniki dəyişikliklərə pərəstiş, cəmiyyətin irəliyə doğru inkişafına, bəşəriyyətin sonsuz tərəqqisinə inam hissi ilə bağlıdır.
- **Modernləşmə** – ənənəvi, aqrar cəmiyyətindən müasir, sənaye cəmiyyətlərinə keçid prosesi. Bu, sənayeləşdirmə və ya kapitalizmə keçid ilə müqayisədə daha geniş sosial prosesdir.
- **Mondializm** (fransızca *Le Nouvel Ordre Mondial*) – Yeni Dünya Nizamı.
- **Monetarizm** – dövriyyədə olan və qiymətlərə, gəlirlərə, məşğulluğa və başqa amilllərə bilavasitə təsir edən pulun miqdarının iqtisadiyyata həlledici təsir göstərməsi ideyasına əsaslanan iqtisadi nəzəriyyə.
- **Monosentriklik** – birtərəfli/vahid hakimiyyət mərkəzinin mövcud olması.
- **Multiplikasiya etmək** – çoxaltmaq, müəyyən ardıcıllıqla hərəkətlər etmək.
- **Mutasiya** – DNT-də dəyişiklik. Mutasiyanın yaranması prosesi mutagenez adlanır.
- **Neotomizm** – XX əsr Qərbi Avropa fəlsəfəsində nüfuzlu istiqamətlərdən biri. Bu fəlsəfə başlanğıcını XIII əsr sxolastı müqəddəs Foma (Tomazzo) Akvinalının təlimindən götürür (bu istiqamətin adı da həmin şəxsin adından yaranmışdır), habelə xeyli dərəcədə IV-VI əsrlərin kilsə rəhbərlərinin təlimlərinə əsaslanır.

- **Neotrefleksləşmiş** (latınca *reflexus* – geriyə çevrilmiş, əks olunmuş) – tənzimlənməmiş, cavab reaksiyası olmayan. Qıcıqlanmaya cavab olaraq, xarici və ya daxili mühitin dəyişməsinə orqanizmin sinir sistemi vasitəsilə cavab reaksiyası.
- **Orta sinif** – sosial stratifikasiya sistemində ən yüksək və ən aşağı (və ya fəhlə) sinfi arasında mövqe tutuan təbəqə. Bu anlayışdan iyerarxik fərqlər sistemində vəziyyəti göstərmək üçün təsviri anlayış kimi istifadə edilir.
- **Pax Americana** – latınca Amerika dünyası. ABŞ-ın üstün rolunun təsiri altında yaranan beynəlxalq münasibətlərin yeni xarakteri bu terminlə eyniləşdirilir.
- **Pax Oeconomicana** – dünya nizamının geoiqtisadi sistemini əks etdirir.
- **Partikulyarizm** – politologiyada: siyasi, inzibati və ya mədəni muxtariyyət qazanmaq və onu əldə saxlamaq istəyi. Partikulyarizmin ifrat formaları separatizm – müstəqilliyə nail olmaq hərəkatı və desentarilizm – dövlət orqanlarının rəhbər rolunun inkar edilməsi şəklində təzahür edir.
- **Perversiv sistem** – prioritetlərdən asılı olaraq dəyişən sistem.
- **Polisentrik** – çoxmərkəzli, çoxtərəfli; hakimiyyətin bir neçə mərkəzinin olması.
- **Polisivilizasiyaslı** – **Poli**... (yunanca *polys* – çox, çoxsaylı, geniş) mürəkkəb sözlərin tərkib hissəsi olub çoxluğu, müəyyən bir şeyin geniş əhatəli və ya müxtəlif tərkibli olmasını göstərir. Çoxsivilizasiyalı.
- **Postindustrial cəmiyyət** – bu anlayışı ilk dəfə 1962-ci ildə D.Böll təklif etmişdir. XX əsrin 50-ci illərinin axırı – 60-cı illərinin əvvəlində sənaye cəmiyyətinin po-

tensial imkanları tükənən inkişaf etmiş Qərb ölkələrinin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasını bildirirdi. Bu anlayış xidmətlər sahəsinin və informasiyanın genişlənməsi hesabına sənaye istehsalının payının və əhəmiyyətinin azalması ilə səciyyəvidir.

- **Postmodern** – postmüasir dövr. Onu modernə – müasir dövrə qarşı qoyurlar. Bu termindən cəmiyyətin inkişafının postmodern nəzəriyyəçilərinin fikrincə, tarixi potensialı tükənmiş moderndən sonra gələn keyfiyyətcə yeni mərhələni təsvir etmək üçün ən geniş anlayış kimi istifadə edilir. Postmodernin xarakteristikaları adətən modernin başlıca xarakteristikalarına qarşı qoyulması əsasında (onların inkarı kimi) qurulur.
- **Postmodernizm** – postmodern dövrünün insanı üçün səciyyəvi olan məxsusi dünya duyumu.
- **Pozitivizm** – XIX əsr sosiologiyasında aparıcı istiqamət. Onun əsas müddəaları O.Kont tərəfindən ifadə edilmişdir. Kont cəmiyyət haqqında spekulyativ, mücərrəd mühakimlərdən imtina etməyin və cəmiyyət haqqında təbiət elmləri nümunəsində, onlar kimi isbat oluna bilən və ümumi əhəmiyyət kəsb edən dəqiq "pozitiv" elm yaratmağın zəruriliyini elan etmişdir.
- **Realpolitik** – Otto Fon Bismarkın təklif etdiyi termin. İdeoloji amillərdən və ya başqa "sentimental xülyalardan" daha çox konkret və ciddi praktik aspektlərə əsaslanan siyasəti əks etdirir.
- **Refleksiya** – düşüncə.
- **Relevantlıq –** əldə edilən nəticənin arzu olunan nəticəyə uyğunluğunun ölçüsü.
- **Resepsiya** (latınca *receptio* – qəbuletmə) – qavrama və dəyişmə (transformasiya).

- **Retritizm** – həm bəyənilən məqsədlərdən, həm də onlara nail olmaq üçün bəyənilən vasitələrdən imtina edilməsi.
- **Ritualizm** – uğur gözləmədən bəyənilmiş vasitələrdən istifadəni davam etdirmək cəhdi (məqsədin dəyərini itirməsi).
- **Rubrikasiya** – sənədlərin tematik rubrikalar üzrə bölünməsi.
- **Sakral** (latınca *sacralis* – müqəddəs) – ilahi, dini sahəyə aid olan hadisələr, əşyalar, insanlar sahəsini dünyəvi, naşı sahədən fərqləndirməyi bildirir. Tarixin gedişində müqəddəsləşdirmə, sakrallaşdırma prosesinin əksi bəşəriyyətin mövcudluğunun müxtəlif cəhətlərinin desakarallaşdırması, dünyəviləşdirilməsi prosesidir.
- **Sentensiya** (latınca *sententia* – fikir, kəlam, hökm) – nəsihət xarakterli kəlam.
- **Sənaye cəmiyyəti** – cəmiyyətin inkişafının yeni texnoloji əsaslarını yaratmış sənayeləşmənin baş verdiyi cəmiyyət.
- **Sənayeləşdirmə** – XVIII əsrin axırı – XIX əsrin əvvəlində Böyük Britaniyada sənaye inqilabının gedişində başlanmış və digər ölkələrə yayılmış proses Kənd təsərrüfatının və sənətkarlığın üstünlük təşkil etdiyi iqtisadiyyatların və cəmiyyətlərin maşınlı (mexanikləşdirilmiş) istehsalata əsaslanan iqtisadiyyatlara və cəmiyyətlərə çevrilməsi.
- **Sosial birlik** – həyat fəaliyyətinin və şüurun bəzi eyni cəhətlərinin səciyyəvi olduğu insanların müxtəlif topluluğunu əhatə edən geniş anlayış. Müxtəlif tipli birliklər insanların birgə həyat fəaliyyətinin formaları, insanların birgəyaşayış formalarıdır.
- **Sosial elita** – sosial iyerarxiya sistemində başqa qruplar üzərində hakimiyyətə və cəmiyyətdə nüfuza malik olan ali təbəqələr.

- **Sosial qrup** – qeyri-formal və ya formal üzvlüklə məhdudlaşan fərdlərin toplusu.
- **Staqflyasiya** – iqtisadiyyatın bu vəziyyətində durğunluq və ya istehsalın azalması (staqnasiya) ilə eyni vaxtda işsizliyin artması və qiymətlərin fasiləsiz artması – inflayasiya baş verir. Staqflyasiyanın səbəbləri böhranlar dövründə qiymətləri yüksək səviyyədə saxlayan inhisarların siyasəti, eləcə də dövlət tərəfindən keçirilən "tələbatın idarə edilməsi" (məsələn, dövlət satınalmaları) və qiymətlərin "tənzimlənən" artması kimi antiböhran tədbirləridir.
- **Staqnasiya** – iqtisadiyyatın bu vəziyyətində durğunluq, yaxud istehsalın azalması inflyasiyanın və işsizliyin artması ilə eyni vaxtda baş verir.
- **Substansiya** (latınca *substantia* – substansiya, əsasını təşkil edən bir şey) – varlığın ilkin əsası.
- **TMK (transmilli korporasiya) –** xaricdə aktivləri (kapital qoyuluşları) olan və iqtisadiyatın hər hansı sahəsinə (bir neçə sahəsinə) beynəlxalq miqyasda güclü təsir göstərən korporasiya, yaxud iri firma (və ya müxtəlif ölkələrin firmalarının birliyi). Beynəlxalq iqtisadiyyata aid ingilisdilli ədəbiyyatda beynəlxalq biznes təşkilatlarını göstərmək üçün tez-tez "çoxmilli firmalar" (*multinational firms – MNF*) və "çoxmilli korporasiyalar (*multinational corporations – MNC)* terminlərindən sinonimlər kimi istifadə edilir.
- **Transfer** – bir subyektin rolunun başqa subyektə keçməsi mexanizmi.
- **Transformasiya cəmiyyəti** (ingiliscə *transformation* – dəyişiklik sözündən) – dəyişikliklər prosesində olan cəmiyyət.

- **Tranzit** (ingiliscə *transition* sözündən) – keçid.
- **Unilateralizm** (latınca *unilateral* sözündən) – birtərəfli; yeni dünya nizamına xas olan birtərəlilik siyasətini əks etdirir.
- **Urbanizasiya** (latınca *urbanus* – şəhər sözündən) – cəmiyyətin inkişafında şəhərlərin rolunun artması prosesi. Urbanizasiyanın ilkin şərtləri şəhərlərdə sənayenin artması, onların mədəni və siyasi funksiyalarının genişlənməsi, əməyin ərazi üzrə bölgüsünün dərinləşməsidir. Kənd əhalisinin şəhərlərə axını və iri şəhərlərin ətrafındakı kəndlərdən və kiçik şəhərlərdən əhalinin iri şəhərlərə müntəzəm gediş-gəlişinin (işləməyə, məişət-mədəni ehtiyaclarla əlaqədar) artmasıdır.
- **Ümumi rifah dövləti** (ingiliscə *welfare state*) – vətəndaşların maddi rifahına görə dövlətin məsuliyyət daşıdığı cəmiyyət. Bu məsuliyyət nə fərdin özünə, nə də özəl korporasiyaya, yaxud yerli hakimiyyətə həvalə edilə bilər.
- **Verballaşma** – mövcud təcrübənin sözlərlə rəsmiləşdirilməsi. Hissiyyatın nitq formasına keçirilməsi.

Summary

During many centuries, mankind has tried to develop fair model of management. Plato, Aristotle, Machiavelli, Montesquieu, Russo, De Tocqueville and many other prominent thinkers, philosophers and scholars have numerously addressed the issues of co-existence of humans in conflict-free and mutually beneficial environment in the framework of guaranteed rights and liberties of all the people of society. Democracy fighters of the 18th century persisted that their monarchs and ministers were immoral, unreasonable and reprehensible. Nevertheless, human attempts to balance the determination of private life style and activity forms became the essence of the democratic understanding of the social life. Benedict Spinoza once emphasized that, democracy is the best form of political organization of the society – – the only provider of common welfare, supremacy of wisdom and freedom, which are considered gifts of nature. Meanwhile, philosopher-materialist outlined that notwithstanding the form of management, supreme power in the society belongs to the assembly of the citizens, because, it is wisdom that determines the will of the assembly, not passion. Only collective discussion of state affairs may advance adoption of the decisions, securing common welfare.

Mankind entered into democracy epoch with great expectations. However, it is not surprising that, soon enough illusions were to collapse. It became clear that, democracies do not make any fewer mistakes than monarchies and aristocracies do. Analogy that can be made between those whom democracy put forward as the leaders of the government and those whom imperators and kings for the sake of exercising of their absolute power advanced to this position, didn't always benefit demos, that is, representatives of the people.

Throughout the development of the mankind and augmenting necessity to exploring new sources for the support of the life activities of the humans, new places and energy resources to determining the role of the democracy, geopolitical and geoeconomic interests prevailed. Ideas of equal co-existence are interpreted as an opportunity to establish "new hegemony" and expand so called "stripes of the democratic states". As a result, democracy turned into basic ideological weapon of the 21st century – capable not only to change existing systems and causing transit and transformation, but also to "legitimize" military intervention at any place in the earth. Requirements of the "cold war" separating world into two spheres – communist and capitalist – were transforming into the principles of the new division of the place of world as "free, partially independent and non-independent". In this regard, it would be appropriate to quote French philosopher Jan Jack Russo (1712-1778): "freedom is not comprised of any form of management; it is settled in the heart of every independent person".

Democracy, as an abstract definition, may not be regarded as a specific exit point in order to achieve ultimate goals. Therefore, democracy can not be accomplished at the places where ideas of power of people are either foreign or new. As every other theory, it also requires some time to completely wipe out all the previous stereotypes, as well as, to form other behavior norms and standards. In addition, ambivalence of the establishment of democratic regime is based on the approach of the essence of democratic transformation. If the "third democratic wave" was the outcome of global democratic achievement started in 1974 in Portugal, "expansion of the freedom zone and democracy" in the beginning of new millennium is acknowledged by majority as an intention to establish new world order dictated by Pax Americana demands. Meanwhile, if the demise of the Soviet Union was the outcome of apparent economic and political stagnation caused by lack of adequate response to the challenges of time, processes of the 21st century in some states, where "soft transformations" occurred, were the results of indoctrination of "new views" on post-soviet locations – many times through clientele groups.

Surely, democratization successfully is carried out in places where experience of democratic establishment exists, however, this judgment, under no circumstances jeopardizes the possibility of achieving democracy in societies undergoing transition. Nevertheless, democratic transition requires more prudent, balanced as well as deeply thought-out approach. Export of ideas and views may not be effective, unless they comply with the traditional structure of communism, that is, to the system of social views. Imported models are not always ready to adhere to the conditions in transformative societies, because success of the future transformation, to certain extent is predetermined by political, economic and socio-cultural willingness of society. Therefore, regardless of the established location, democracy is to be evolutionary and sovereign, that will promote complex and stable development of civil society, promotion of effective political structures, and formation of compatible economy and application of functional mechanism impact on regional processes. This is exactly the main direction of national strategic development of Azerbaijan in the 21st century.

It must be underlined that, problem concerning the expansion of "stripes of democratic states" remains actual even from the "clash of civilizations" standpoint, whereupon two worlds – West and non-west – offer their own perception on trajectory of the development of universe: some assert that, foundation of stability is the homogenous order based on certain hierarchy of the values, and the others prefer to exist according to their own models, thus, rejecting Western interference to internal affairs. Problem becomes severe with the confrontation of democratic Christian world with less democratic, in other words, authoritarian and non-western one. Without doubt, all these demagogic definitions changed perception of democracy from the stance of the theory of peoples' power into geopolitical theory of establishment of new world order.

Apparently, democracy in transitional societies requires step-by-step acknowledgement of foreign stereotypes and behavior norms. Every similar step conditions the shift from public awareness into the course of new psychological and social determinants. As a result, different sociopolitical

environment is formed. In other words, English writer Gilbert Keith Chesterton (1874-1936) quoted: “It is not necessary to have a revolution to reach democracy. It is necessary to have democracy to cause revolution”.

It is necessary to take into account that, 21st century was marked not only with the new geopolitical division of sphere of influence, but also substantially changed the relation of leading powers towards global transformation and democratic processes. When previous years of neoconservative wing in the USA (first presidential term of Bush Jr.) were marked with new geostrategic “march to east”, second presidential term of George Bush Jr. was the period of more active advancement of democracy in Eastern Europe, central Asia and other regions of the world. The United States of America, as expressed by H.Kissinger – “torch of freedom and democracy” stand on top of the new democratic changes, which shocked the whole post-soviet space and changed the perception about “guaranteed safety” of the existing regimes.

New “democratic wave” became basis for revolutionary changes in Serbia, Georgia, Ukraine, and to some extent in Moldova and Kyrgyzstan. It shook the unsteady systems that even stronger, and outlined contours of new world order targeting establishment of democratic administration in all its’ subjects. Besides, it became fundamental theme of discussion of prominent politicians and economists, journalists, as well as analysts.

Thesis, advocating the idea of “democracies do not fight against each other”, turned out to be solid ground for the establishment of safety stripes and expansion of “democratic zones” up to Afghanistan, Iraq and number of post-soviet countries. There are countries that can be seen on the horizon of fledgling transformation which belong to the non-democratic category by the USA.

Meantime, the wider the expansion of democratic zone and larger the space of new westernization, the faster the preference of globalized projects changes, which subsequently affects the vectors of advancement in the latest world history; including military-political and economic impact and sociocultural

disposition. It is very clear that, in the new world order, military might, internal consensus and foreign political factors don't play the key role in determining the new priorities in the Eastern hemisphere countries. Contemporary politics is mostly oriented on sociocultural aspects of impact on mass cognition – fundamental element of making political decisions in the postindustrial and information technology world. New epoch affected considerably not only economy and social development of the society, but also political acknowledgement on significant level. Max Weber once asserted that rational bureaucracy within industrial society is the essence of its' life, we know that, today, in informational society neither governments nor corporations rely exceptionally on formal and bureaucratic regulations in order to organize people, whom they have power over.

Revolution of young officers, which started more than 30 years ago in Portugal with the overthrow of dictator Salazar, marked the "third democratic wave" which engulfed new states and continents with intermittent success. Impact of this wave, almost like "butterfly effect", affected Central and Eastern Europe, Southern America and South – Eastern Asia, and approximately twenty years later it reached Soviet Union which was based on autocratic system.

After the events in Serbia and overthrow of Slobodan Milosevic from the power, "orange" revolution in Georgia in 2004 that sent to the resignation long-lived politician, Eduard Shevardnadze, laid the foundation of expansion of the "reconstruction" tendencies throughout the CIS. A less than a year elapsed and wave of changes reached Ukraine–the most important geopolitical country on the border of Russia. Throughout the entire history of the CIS, it was the last time where election in one of the ally countries was expected to be held according to the established traditions. However, following development of the events evinced the erroneousness of such approach. Leonid Kuchma, assuming stable and moreover–inheriting transit of power into the hands of Prime Minister V.Yanukovich, was not ready for the completely unexpected turnover of events. As a consequence of massive rallies that lasted more than a month on Liberty Square, political era of Leonid Kuchma was left in the past.

In the following years, world mass media dedicated number of articles and analytical materials to the sociopolitical processes in the CIS countries, forecasting candidate countries to becoming successor of revolutionary waves. Encouraged by the changes in Georgia and Ukraine, opposition parties virtually in all of the former soviet countries started evidently to initiate solid ground for the development of new era for revolutionary processes in their own countries. Analytics and politicians started to explore the symptoms and segments of society, suitable for the next "orange revolution". Some publications even named some specific countries. In particular, we came across the following statements in some analytical materials: "experts consider that, Azerbaijan–could be a potential country, where "orange revolution" may occur. After the "orange revolution" in Ukraine, during the meeting of the authorities of Ukrainian movement "Pora" with the George Bush, Azerbaijan was allegedly mentioned as one of the countries "in need of the democratization". Azerbaijan's radical opposition party leaders along with the Ukrainian "orange" leaders also declared that: "Azerbaijan doesn't rule out the possibility of repetition of Ukrainian and Georgian scenarios". However, as Max Weber quoted once: "predictting course of revolution-is the waste of time even for the most informed observers".

Political processes in Azerbaijan evince that, after gaining independence, democratic transformation became the priority of the national development strategy. When analogical transition was transforming into "colored" clientele scenarios in some of the post-soviet countries, democratic transition in Azerbaijan is based on the principles of evolutionary development, sovereignty and self-containment.

Müəllif haqqında

Ramiz Ənvər oğlu Mehdiyev

1938-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə Bakı Dənizçilik Məktəbini bitirdikdən sonra "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Xəzərneftdonanma" İdarəsinin gəmilərində maşinist işləmişdir. 1961-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. 1965-ci ildə, V kurs tələbəsi olarkən Azərbaycan LKGİ MK-nın tələbə gənclər şöbəsinin təlimatçısı vəzifəsinə irəli çəkilmiş, 1967-68-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi işləmişdir. 1968-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur. 1972-ci ilin mayında MDU-nun Elmi Şurasının iclasında fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1972-ci ildən Azərbaycan Dövlət Universitetinin elmi kommunizm kafedrasında müəllim, sonra baş müəllim işləmişdir. 1974-cü ilin mayında Azərbaycan KP MK-nın aparatında Təbliğat və təşviqat şöbəsinin mühazirəçisi vəzifəsinə irəli çəkilmişdir. 1976-cı ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq edilmişdir. 1978-ci ilin oktyabrında Azərbaycan KP 26 Bakı komissarı adına Rayon Komitəsinin birinci katibi seçilmişdir. 1980-ci ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdiri, 1981-ci ilin yanvarında isə Təşkilat-partiya işi şöbəsinin müdiri vəzifəsinə təsdiq olunmuşdur. 1983-cü ilin dekabrında Azərbaycan KP MK-nın katibi

seçilmişdir. 1988-ci ilin mayında MK plenumunda, Mixail Qorbaçovun yenicə Azərbaycan KP MK-nın birinci katibi təyin etdiyi Ə.Vəzirovun təkidi ilə Azərbaycan KP MK-nın katibi vəzifəsindən azad edilmişdir. 1988-ci ilin iyunundan Azərbaycan Elmlər Akademiyasının İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri işləmişdir.

1993-cü ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1994-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən Prezident Aparatının şöbə müdiri, 1995-ci ilin fevralında isə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri təyin olunmuşdur.

Həqiqi Dövlət müşaviridir.

1980-1990-cı illərdə iki çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, 1995-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilmişdir. İki dəfə Qırmızı Əmək Bayrağı ordeni, Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Fəxri fərmanları ilə təltif edilmişdir.

2001-ci ilin aprelində Nyu-York Elmlər Akademiyasının üzvü, 2007-ci ilin aprelində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Milli və sosial-siyasi münasibətlər, müasir Azərbaycan dövlətinin və cəmiyyətinin inkişaf problemlərinə dair çoxsaylı elmi məqalələri (100-dən artıq) və əsərləri var. “Millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri” (rus dilində, Bakı, 1993-cü il), “XX əsrin sonunda millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri” (rus dilində, Bakı, 1995-ci il), “Azərbaycanlıların soyqırımının reallıqları” (ingilis, rus və Azərbaycan dillərində, Bakı, 2000-ci il), “Azərbaycanın inkişaf dialektikası” (Bakı, 2000-ci il), “Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi” (Bakı, 2001-ci il), “Fəlsəfə” (dərs vəsaiti, Bakı, 2003-cü il), “Azərbaycan: qloballaşma dövrünün tələbləri” (rus və Azərbaycan dillərində – 2004, 2005-ci illər), “Azerbaycan: Küreselleşmenin Talepleri” (türk dilində, İstanbul,

2005-ci il), “2005-ci ilin parlament seçkiləri: ilkin təhlil” (Azərbaycan və rus dillərində, Bakı, 2006-cı il), “Vətəndaş cəmiyyətinə yol açan ideyalar” (Azərbaycan dilində, Bakı, 2006-cı il), “Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə” (Azərbaycan dilində, 2 cilddə, Bakı, 2006-cı il), “Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti” (Bakı, 2008-ci il) kitablarının müəllifidir.

Evlidir, iki övladı – oğlu və qızı var.

1988-2005-ci illərdə Azərbaycanda siyasi müxalifətin dinamikası

Dövr	Siyasi struktur	Siyasi proseslər	Müxalifətin rolu
1988-1991	İdeolojiləşdirilmiş vahid strukturun parçalanması, cəmiyyətin diferensiasiyasının artması, parçalanmış elita	SSRİ-nin dağılması, ilk prezident seçkilərinin keçirilməsi (1991)	Dağlıq Qarabağda gedən proseslər ətrafında ictimai etiraz kommunist rejiminə qarşı xalq hərəkatına çevrilir. Müxalifət geniş ictimai-siyasi təbəqə ilə təmsil olunmuşdur
1992-1993	Siyasi və iqtisadi strukturun total miqyasda dağılması, cəmiyyətdə sosiomədəni diferensiasiyanın başlanması	AXCP-"Müsavat" blokunun hakimiyyətə gəlişi (may 1992), ikinci prezident seçkilərinin keçirilməsi (1992)	Müxalifət əslində yoxdur. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyası yaradılır, o, əvvəlcə "gözləmə" mövqeyi tutur, fəal hərəkətlər etmir.
1993-1995	Siyasi məkanın bərpa olunması və sabitləşməsi prosesi, siyasi meydanın təşəkkülü, iqtisadi strategiyanın formalaşması	AXCP-"Musavat" blokunun hakimiyyətdən getməsi, Heydər Əliyevin hakimiyyətə gəlməsi (iyun 1993), vaxtından əvvəl prezident seçkilərinin keçirilməsi (oktyabr 1993)	Müxalifət partiyaları təşəkkül edir (AXCP qeydiyyata alınır, 1995), siyasi səhnədə yeni siyasi birliklər (SİDSUH) yaranır
1995-1998	Müxalifət fikrin təşəkkülü, müxalifət liderlərinin üzə çıxması	Milli Məclisə seçkilər (1995). Prezident seçkiləri (1998)	Prezident seçkilərində fəal iştirak, parlament tribunasının olması, populyar KİV -lərin yaranması
1998-2003	Müxalifətin radikalizminin güclənməsi, yaşamaq uğrunda mübarizə	Milli Məclisə seçkilər (2000). Prezident seçkiləri (2003)	Müxalifətin parçalanmasının başlanması, vahid namizəd axtarışı ilə əlaqədar münaqişə, daxili çəkişmələr
2003-2005	Müxalifətin tənəzzülü	Milli Məclisə seçkilər (2005)	Müxalifət "lideri"nin varlığı stereotipinin puç olması

MÜNDƏRİCAT

Müəllifdən 9

1-ci FƏSİL. ƏZABLI YOLLARLA ULDUZLARA DOĞRU

§ Yeni dövrün demokratiyasının fəlsəfəsi 48
§ Ş.Monteskyö qanunlarının ruhu və J.J.Russonun ictimai müqaviləsi 62
§ "Demokratiya dalğaları" 86
§ Üçüncü dalğa 109
§ Demokratiya geosiyasəti 127
§ Dünyada üstünlük qazanmaq strategiyası 133
§ Demokratik tranzit və rejimlər 150
§ "Elektron hökumət": demokratik transformasiyanın yeni mərhələsi 184
§ Postmodern demokratiyasi 203
§ Anlamanı transformasiya edərkən 212

2-ci FƏSİL. E PLURİBUS UNUM – VƏHDƏT FORMULU

§ "İnkişaf formulu" 244
§ Mondializm məntiqi 257
§ Mənafelər və inqilablar 287
§ "Zərif" transformasiyalar: Qərbdən Şərqə 323
§ Qlobal transformasiyalarin rənglər qamması 341
Serbiya-2000 341
Gürcüstan-2003 356
Ukrayna-2004 369
Qırğızıstan-2005 385

3-cü FƏSİL. İNQİLABLARDAN TƏKAMÜLƏ DOĞRU: SİYASİ REALLIĞI TRANSFORMASİYA EDƏRKƏN

§ Transformasiyalar haqqında düşünərkən 400
§ "Səmərəsiz sistem" 413
§ Azərbaycan – 2005 447
KİV 447

Bloklar 459
Gənclər təşkilatları 473
"Seçkiqabağı "artilleriya atəşi" 480
Exit-poll 482
Siyahılar 485
Dialoq 488
Ziddiyyətlər 492
Tövsiyə və tələblər 502
Seçkilər: faktların təsdiqi 509
§ Demokratik postindustrializm 513

4-cü FƏSİL. MİLLİ DEMOKRATİK TRANZİTİN DİLEMMALARI

§ **Milli inkişaf fəlsəfəsi** 525
§ **Milli model** 569
Genezis 569
İnkişaf naminə birləşmə 573
Hazırlıq fazası 579
Bərqərar olma 583
Dini dirçəliş 597
§ Biz kimik? 625
Milli identiklik məsələsinə dair 628
İdentikliyi aktuallaşdırarkən 637
§ Biz haradayıq? 651
Biz hansı istiqamətdə hərəkət etməliyik 673

SÖZARDI ƏVƏZİ

§ Öz yolumuzu müəyyənləşdirərkən 689
§ Gələcəyin strategiyasını formalaşdırarkən 711

Terminlər lüğəti 765
Summary 780
Müəllif haqqında 786

1988-2005-ci illərdə
Azərbaycanda siyasi müxalifətin dinamikası 789

"Şərq-Qərb"